MƏCİD ƏFƏNDİYEV

# SİYASİ ELMİN ƏSASLARI

Bakı – Siyasət – 2008

*Elmi redaktoru:* *Fəlsəfə elmləri doktoru, professor Əlikram ABDULLAYEV*

*Rəyçilər:* *Azərbaycan Respublikası Milli Elmlər Akademiyasının müxbir üzvü Məqsəd SƏTTAROV,*

*Fəlsəfə elmləri doktoru, professor Cəmil ƏHMƏDLİ,*

*Fəlsəfə elmləri doktoru, professor Fərrux RAMAZANOV.*

1
Ə 34
47658

Oxuculara təqdim etdiyimiz "Siyasi elmin əsasları" adlanan kitabda siyasi elmin təşəkkülü və inkişafı prosesi, bu elmin ən köklü problemləri sayılan siyasətin, siyasi hakimiyyətin və dövlətin mahiyyəti açıqlanır, eləcə də siyasi elmin əsasını təşkil edən digər spesifik məsələlərin – siyasət və şəxsiyyətin, siyasətlə əxlaqın siyasət və dinin qarşılıqlı əlaqəsinin səciyyəvi xüsusiyyətləri təhlil olunur, cəmiyyətin siyasi sistemi, demokratiya, siyasi elita, siyasi rejimlər, siyasi ideologiya, siyasi mədəniyyət kimi xüsusi əhəmiyyətə malik problemlər əhatəli və siyasi fəlsəfə ruhunda araşdırılır. Kitabda xeyli tədqiqatçının çoxsaylı elmi mövqeyinin müqayisəli təhlili nəzərə çatdırılır, elmi-əməli əhəmiyyət daşıyan tövsiyyə xarakterli mülahizə və mühakimələr yürüdülür. Müəllifin geniş həcmli bu elmi tədqiqat işi respublikamızda siyasi elmin öyrənilməsinə həsr edilən ilk monoqrafiyadır.

Kitab tələbələr, magistrlər, aspirantlar, müəllimlər, siyasətlə, siyasətin fəlsəfəsi ilə maraqlananlar, sosioloqlar və filosoflar, ümumiyyətlə geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

Bakı Dövlət Universiteti
ELMİ KİTABXANA

**Kod 023**

**ISBN 5-7225-0073-9**

**© "Siyasət" nəşriyyatı, 2004.**
**© M. Əfəndiyev, 2008.**

# MÜNDƏRİCAT

GİRİŞ ........ 7

I FƏSİL. Siyasi elm spesifik elmi biliklər sferasıdır ........ 10

1. Siyasi elmin təşəkkülü və inkişafı ........ 10
2. Siyasi elmin predmeti ........ 15
3. Siyasi elmin kateqoriyaları, funksiyaları və sosial elmlər sistemində yeri ........ 23
4. Siyasi elmin tədqiqat metodları ........ 31

II FƏSİL. Siyasi fikrin təşəkkülü və təkamülü ........ 46

1. Antik siyasi təsəvvürlər ........ 46
2. Orta əsrlərdə siyasi fikrin təzahür xüsusiyyətləri ........ 59
3. Maarifçi siyasi görüşlərin təşəkkülü və inkişafı ........ 73
4. XIX-XX əsrlərin hüdudlarında spesifik siyasi təlimlər

a) Sosialist siyasi təlimi. b) "Solidarizm" siyasi doktrinası. v) Neokantçılıq konsepsiyası ........ 85

III FƏSİL. Siyasət sosial fenomendir ........ 99

1. Siyasətin mahiyyəti, məzmunu və spesifikliyi ........ 99
2. Siyasi münasibətlər və siyasi mənafelər ........ 114
3. Siyasətin məqsədi və vasitələri ........ 122
4. Siyasi həyat, siyasi fəaliyyət və siyasi proses ........ 128

IV FƏSİL. Şəxsiyyət siyasətin sosial komponentidir ........ 146

1. Şəxsiyyətin sosial mahiyyəti ........ 146
2. Şəxsiyyətin hüquqi-siyasi statusu ........ 154
3. Şəxsiyyət siyasətin subyektidir ........ 163

V FƏSİL. Əxlaq şüurun siyasətə nüfuz sferasıdır ........ 174

1. Əxlaqla siyasətin funksional ümumiliyi ........ 174
2. Əxlaq və siyasətin qarşılıqlı münasibəti ........ 180

**VI FƏSİL. Siyasət kütləvi informasiya vasitələri sistemində ........ 190**

1. Kütləvi informasiya vasitələrinin siyasi funksiyaları və siyasətdə yeri ........ 190
2. Kütləvi informasiya vasitələrilə hakimiyyət strukturlarının qarşılıqlı əlaqəsi ........ 201

**VII FƏSİL. Din və siyasət ........ 213**

1. Dinin təşəkkülü, mahiyyəti, əsasları ........ 213
2. Siyasi münasibətlərin və proseslərin dində ifadəsi ........ 219
3. Dinin siyasətə təsiri ........ 224

**VIII FƏSİL. Hakimiyyət və onun daşıyıcıları ........ 235**

1. Hakimiyyətin mahiyyəti, məzmunu, strukturu. Ağalıq və tabelik münasibətlərinin təbiəti ........ 235
2. Hakimiyyətin resursları, funksiyaları və növləri ........ 247
3. Hakimiyyətin bölünməsi ........ 258
4. Siyasi lider və siyasi liderlik ........ 267

**IX FƏSİL. Siyasi elita ........ 283**

1. "Elita" anlayışı: məzmunu və funksiyaları ........ 283
2. Elita və neoelita nəzəriyyələri ........ 290

**X FƏSİL. Cəmiyyətin siyasi sistemi ........ 296**

1. "Siyasi sistem" anlayışı: strukturu, tipləri, funksiyaları və inkişaf qanunauyğunluqları ........ 296
2. Totalitar siyasi sistemin mənbəyi və səciyyəvi cəhətləri ........ 305
3. Avtoritar siyasi sistemin fərqləndirici xüsusiyyətləri ........ 312
4. Diktaturadan demokratiyaya keçid ........ 315

**XI FƏSİL. Demokratiya siyasi-hüquqi dəyərlər sistemidir ........ 322**

1. Demokratiyanın təşəkkülü, təkamülü və siyasi-hüquqi mahiyyəti ........ 322
2. Referendum birbaşa demokratiyanın xüsusi formasıdır ........ 329
3. Plyuralist demokratiya konsepsiyaları ........ 335

**XII FƏSİL. Dövlət başlıca siyasi təsisatdır ........ 342**

1. Dövlətin mənşəyi, mahiyyəti və təkamül mərhələləri ........ 342
2. Dövlətin xüsusiyyətləri və funksiyaları ........ 354
3. Dövlət idarəçiliyinin formaları ........ 364
4. hüquqi dövlət və vətəndaş cəmiyyəti ........ 373

**XIII FƏSİL. Siyasi rejimlər ........ 385**

1. Siyasi rejimin mahiyyəti və təsnifatının meyarları ........ 385
2. Demokratik siyasi rejim ........ 390
3. Totalitar rejimin siyasi praktikası ........ 395
4. Avtoritar siyasi rejimin fərqləndirici xüsusiyyətləri ........ 401

**XIV FƏSİL. Siyasi partiyalar və partiya sistemləri ........ 408**

1. Siyasi partiya siyasi təsisatların spesifik növüdür ........ 408
2. Siyasi partiyaların təsnifatı və funksiyaları ........ 416
3. Partiya sistemlərinin mahiyyəti və onların inkişaf meylləri ........ 424

**XV FƏSİL. Siyasi ideologiyalar ........ 435**

1. "İdeologiya" anlayışı ........ 435
2. Siyasi ideologiya: mahiyyəti, səviyyələri və funksiyaları ........ 440
3. Müasir dünyada başlıca ideoloji cərəyanlar ........ 448

**XVI FƏSİL. Parlament ali qanunvericilik təsisatıdır..... 460**

1. Parlamentin səlahiyyətləri və funksiyaları........................460
2. Parlamentin strukturu.................................................... 468
3. Parlament partiyaları...................................................... 478

**XVII FƏSİL. Siyasi şüur və siyasi mədəniyyət.............. 486**

1. Siyasi şüurun mahiyyəti................................................. 493
2. Siyasi mədəniyyətin məzmunu və strukturu.................... 486
3. Siyasi mədəniyyətin funksiyaları.................................... 506
4. Siyasi mədəniyyətin tipləri............................................. 511
5. Şəxsiyyətin siyasi sosiallaşması..................................... 522

**XVIII FƏSİL. Beynəlxalq münasibətlərin politologiyası.............................................................. 535**

1. Beynəlxalq münasibətlər: anlayışı və predmeti.............. 535
2. Xarici siyasət və beynəlxalq əməkdaşlıq........................ 548
3. Milli mənafe və qlobal siyasi problemlər........................ 561
4. Siyasi münaqişələr: mahiyyəti, mənbəyi və tənzimlənməsi.................................................................. 582

**XIX FƏSİL. Geosiyasət və müasir dünya .......................593**

1. Geosiyasi təhlilin başlıca müddəaları və prinsipləri...........................................................................593
2. Müasir geosiyasi inkişafın xüsusiyyətləri ..............598
3. Geosiyasi nəzəriyyənin və praktikanın mahiyyəti.602

**XX FƏSİL. Siyasət və uzaqgörənlik..............................610**

1. Uzaqgörənliyin ümumi səciyyəsi..........................610
2. Siyasi uzaqgörənlik.................................................615
3. Uzaqgörənlikdə siyasətin rolu ...........................621

**ƏDƏBİYYAT...........................................................626**

# GİRİŞ

*Elmi xoşbəxtliyə elə şəxslər layiqdirlər ki, onun uğrunda hər cür döyüşə gedirlər.*

*Müəllifdən*

Siyasət həmişə adamların həyatı ilə bağlı olmuş və onların fəaliyyətinə özünəməxsus tə'sir göstərmişdir. **Aristotel** qeyd edirdi ki, siyasət sosial varlıq olmaq e'tibarilə insanın təbiətinə əsaslanır. O, bəşər sivilizasiyasının ən dərin əsasları ilə sıx əlaqədardır. Gündəlik həyatda elə bir adam tapmaq çətindir ki, bu və ya digər dərəcədə siyasətlə bağlı olmasın. Dövlət müəssisələrində, ictimai təşkilatlarda, siyasi partiyalarda, məktəblərdə və digər bu kimi yerlərdə çalışan hər hansı bir şəxsi siyasət aləmindən təcrid olunmuş halda təsəvvür etmək mümkün deyildir. Məsələn, bankın valyuta siyasəti, tə'tillərlə bağlı həmkarlar təşkilatının siyasəti, şəhər hakimiyyətinin siyasəti, məktəb siyasəti, müəssisə rəhbərliyinin siyasəti və sair kimi gündəlik həyatda eşitdiklərimiz siyasət aləmini səciyyələndirir.

Çoxcəhətli, mürəkkəb və geniş anlayış olmaq e'tibarilə siyasət adamlar arasındakı qarşılıqlı münasibətləri tənzimləyir. O, həm də adamların həyat fəaliyyətinin spesifik sferasıdır. Sözün əsl mənasında, siyasət elmdir. Elm isə hamı tərəfindən deyil, xüsusi təfəkkür tərzinə malik olan adamların fəaliyyətilə yaradılır. Hələ eramızdan əvvəl, 430-cu ildə qədim Yunanıstanın siyasi xadimi Perikl qətiyyətlə deyirdi: Siyasət haqqında hamı mühakimə yürüdə bilər, lakin onu bə'zi adamlar yaradır.

Vətəndaşların siyasi biliklər kompleksinə yiyələnməsi, siyasi savadlığı nəinki onların özünə, həmçinin, cəmiyyətə lazımdır. Vətəndaşların siyasi yetkinliyi cəmiyyətin demokratikləşməsinə, humanizm əleyhinə çevrilmiş qaydalardan uzaqlaşmağa, dövlət tə'sisatlarının və ictimai təşkilatların fəaliyyətində səmərəli formalardan istifadə olunmasına ciddi tə'sir köstərir. Məhz, bu mə'nada cəmiyyət üzvlərində siyasi mədəniyyətin şüurlu şəkildə

formalaşdırılması müasir inkişafın qanunauyğun tələbidir. Vətəndaşların siyasi mədəniyyəti yetkin səviyyədə olmazsa, demokratik cəmiyyət quruculuğu həyata keçirilə bilməz. Demokratiya insanın hakimiyyət mənbəyinə çevrilməsini, onun öz ölkəsinin və beynalxalq siyasətin müqəddaratını həll edən amil kimi çıxış etməsini nəzərdə tutur.

Vətəndaşların siyasi həyatda iştirakı kortəbii prosses deyil. Siyasi fəaliyyət sferasına şüurlu cəlb olunmaq ən əvvəl, müvafiq siyasi biliklərə və təcrübəyə yiyələnməklə şərtlənir. İnkişaf etmiş demokratik qərb ölkələrində elə bir böyük universtitet və ya humanitar institut tapmaq çətindir ki, orada siyasi elmə aid kafedra və ya mərkəz fəaliyyət göstərməsin. Təkcə belə bir faktı qeyd etmək kifayətdir ki, ABŞ-da politologiya üzrə 26 ixtisaslaşdırılmış müstəqil sahə fəaliyyət göstərir.

Siyasi maarif işinin əməli cəhətdən həyata keçirilməsi milli qapalılıq çərçivəsindən çıxıb ümumi regional mahiyət daşıyır. Təsadüfü deyil ki, Avropa İttifaqı ölkələri siyasi maarif məsələləri ilə bağlı ümumavropa əhəmiyyətli tədbirlər həyata keçirilməsində öz sə'ylərini birləşdirirlər. Məsələn, həmin ölkələr öz vətəndaşlarında ümumi vətənə - Avropaya mənsubiyyət hissi formalaşdırmaq məqsədilə siyasi fəaliyyətlərini əlaqələndirməyə ciddi sə'y göstərirlər. Öz xalqlarının milli mənafeyini bəşəri mənafe ilə əlaqələndirmək istiqamətində ayrı-ayrı dövlətlərin siyasi addımları məhz, təqdirə layiqdir.

Demokratik siyasi maariflənmə humanist bəşəri sərvətlərin, sivilizasiyanın naliyyətlərinin hamı tərəfindən qəbul olunmasına və təsdiqlənməsinə əsaslanır. Bu baxımdan vətəndaşların hüquq və azadlıqlarının, ləyaqətinin e'tiraf olunması və gözlənilməsi xüsusi əhəmiyyətə malikdir, eləcə də hər bir şəxsin siyasi həyatda yerini və rolunu düzgün dərk edib qiymətləndirməsinə, vətəndaşların öz hüquq və vəzifələrini şüurlu anlamalarına imkan yaradır.

Vətəndaşların siyasətin əsaslarına, siyasi elmə dərindən yiyələnmələri müstəqillik yolunda inamla addımlayan Azərbaycan üçün xüsusi əhəmiyyət kəsb edir. Siyasi elmə, onun aktual problemlərindən biri olan siyasi mədəniyyətə sahib olmaq respublikamızda həyata keçirilən siyasi və iqtisadi islahatların uğurla nəticələnməsi üçün ən mühüm şərtdir. Unutmaq olmaz ki, cəmiyyətin bütün sferalarında baş verən dəyişikliklər hər şeydən əvvəl, adamların şüuru ilə bağlıdır. Totalitar iqtisadi rejimdən

bazar iqtisadiyyatına keçid və aftoritar siyasi sistemin hüquqi demokratik dövlətlə əvəz olunması adamların siyasi şüurunda köklü dəyişiklərin baş verməsini tələb edir. Demokratik siyasi şüurun formalaşdırılması vətandaşlıq ləyaqətinin, dövlət və xalq qarşısında mə'suliyyət hissinin daha da möhkəmləndirilməsinə imkan yaradır. Siyasi mədəniyyətin gənclərdə təşəkkülü və inkişafı xüsusilə böyük əhəmiyyət kəsb edir. Bu gün Azərbaycanın mə'ruz qaldığı iqtisadi çətinliklərin və müharibə şəraitinin uğurla aradan qaldırılması xeyli dərəcədə gənclərimizin vətənpərvərlik şüurundan, xalqımızın taleyi ilə bağlı qeyrətli düşüncə tərzindən və davranışından asılıdır. Təəssüf ki, hələ kənclərimiz arasında iqtisadi və hərbi baxımdan vətən qeyrəti hissindən məhrum olanlar az deyil (fərarilik və s. hallar).

Hazırda ölkəmizdə iqtisadi və siyasi islahatlar prosesinin fəallaşdırılması, aktual sosial problemlərin həlli siyasi elm sahəsində tədqiqatlara başlamağı həyati tələbata və elmi zərurətə çevirir.

Əminik ki, bu kitab müasir siyasi elmin ən aktual problemlərinə dair oxucularda konkrekt təsəvvürün formalaşmasına faydalı tə'sir göstərəcək, siyasət, siyasi hakimiyyət, siyasi elita, hüquqi dövlət və vətəndaş cəmiyyəti, parlament, siyasi mədəniyyətin strukturu və tipləri, beynəlxalq münasibətlərin politologiyası və digər mühüm məsələlər barədə siyasi elmlə maraqlananların körüş dairəsini zənginləşdirəcək. Əsər həmçinin, peşəkar siyasətçilərə nəzəri cəhətdən və praktiki siyasi fəaliyyətdə yardım göstərmiş olar, müasir siyasi reallıqların təhlilinə sə'y göstərən alimlər tərəfindən istifadə edilə bilər.

# I FƏSİL

## SİYASİ ELM SPESİFİK ELMİ BİLİKLƏR SFERASIDIR

### 1. SİYASİ ELMİN TƏŞƏKKÜLÜ VƏ İNKİŞAFI

Predmeti siyasi həyatın praktikasından, siyasi münasibətlərdən, siyasi subyektlərdən və bunların tarixi-sosial inkişafından ibarət olan siyasi elm XX əsrin 40-cı illərinin ortalarından etibarən beynəlxalq aləmdə qəbul olundu, öz statusunu əldə etdi. Bu elm hələ XIX əsrin ikinci yarısında sosiologiyanın, dövlətşünaslığın, hüquqşünaslığın, psixologiyanın, antropologiyanın və digər elmlərin qovuşuğunda təşəkkül tapmışdı. Əlbəttə, siyasi tədqiqatlara dair qərb ənənələrinin kökləri antik dövrə təsadüf edir.

Müasir politoloqlar sözün geniş mənasında siyasi elmin ilk növbədə Aristotel tərəfindən yaradıldığını iddia edirlər. Bunu belə bir cəhətlə əsaslandırırlar ki, siyasət probleminin şərhinə dair müasir problemlərə **Platonun** deyil, hər şeydən əvvəl, **Aristotelin** əsərləri uyğun gəlir. Siyasi elmin XIX əsrin ikinci yarısında təşəkkülü bir sıra amillərlə bağlıdır. Fransız sosioloqu **P.Favr** siyasi elmin yaranmasını həm sosial elmlərin (iqtisadi nəzəriyyə, psixologiya, antropologiya və s.) təzahürünün ümumi şəraiti ilə əlaqələndirir və eləcə də sosial elmlərdən biri olmaq etibarilə siyasi elmin təşəkkülünün xüsusi şəraiti ilə şərtləndiyini iddia edir. Birinci - ümumi şəraitə o, sənaye inqilabının sürətlə inkişafını və fərdiyyətçiliyi, cəmiyyət haqqında elmə böyük əhəmiyyət verilməsini, eləcə də "humanitar elm istehsalçılarının və istehlakçılarının" xüsusi sinfinin formalaşmasını aid edir.

Favr ikinci - xüsusi şəraitin siyasi elmin ixtisaslaşmasına imkan yaratması ilə səciyyələndiyini nəzərə çatdırır.

Bir sıra qərb ölkələrində politologiyanın təşəkkülü demək olar ki, eyni zamanda baş vermişdir. XX əsrin ortalarınadək politologiyanın inkişafında milli xüsusiyyətlər üstünlük təşkil etmişdir.

Digər ölkələrdən fərqli olaraq ABŞ-da siyasi elm ilk əvvəllər universitet fənni kimi formalaşır. 1880-cı ildə tarix və siyasi iqtisad professoru **Con Berdcess** Kolumbiya universitetində siyasi elm Məktəbi yaradır. 1886-cı ildən etibarən bu məktəb "Siyasi elmlər hər rübdə" adlı jurnal nəşr edir. Belə məktəblər ABŞ-ın digər böyük universitetlərində də (Kornel, İyel və s.) yaradılır. Bir qədər sonra (1903-cü ildə) Amerika siyasi elmlər assosiasiyası təşkil olundu. həmin assosiasiya 1906-cı ildən etibarən Amerika siyasi elmlər jurnalını çap etməyə başlayır. 1900-cü ilədək bu ölkədə siyasi elmə dair nəşr edilən klassik tədqiqat işləri bunlardır: **D.Vulsun** "Siyasi elm və ya nəzəri və praktiki nöqteyi-nəzərdən araşdırılan dövlət" (1878-ci il); V.Vilsonun "Dövlət" (1889-cu il); V.Uilloqbinin "Siyasi fəlsəfənin öyrənilməsi" (1896-cı il) əsərləri.

Amerika politoloqları sırasında siyasi elmi tətbiqi aspektdə öyrənməyə səy göstərənlər də olmuşdur. Bu baxımdan Amerikada siyasi elmin əsasını qoyanlardan biri olan **Çarlz Merriamın** xidmətləri böyükdür. ABŞ politologiyasında sosioloji anlayışlardan istifadə olunmasına, kəmiyyət metodu təhlilinə mühüm diqqət yetirilmişdir. Eləcə də psixologiyanın nailiyyətləri hesabına politologiyanın zənginləşməsi meyli və bu mənada siyasi elmin yeni sferası təzahür edir. **A.Bentlinin** təsir qrupuna həsr etdiyi "İdarəetmə prosesi, sosial təsirin öyrənilməsi" (1908-ci il) kitabı xüsusi maraq doğurur. ABŞ-da ictimai rəyin öyrənilməsinə böyük diqqət yetirilir. Fransız Tədqiqatçısı **P.Favr** bu problemə marağın artmasını ABŞ politologiyasında sosial sinif və ya kütlə anlayışından zəif istifadə olunması ilə əlaqələndirir. Həmin problem **U.Lippmanın** "İctimai rəy" kitabında (1922-ci il) açıqlnır.

ABŞ-da və eləcə də qərbdə politologiyanı siyasi fəlsəfənin və siyasi fikir tarixinin tədqiqindən kənarda təsəvvür etmək çətindir. ABŞ-da bu istiqamətin əsasını qoyanlardan biri üç cildlik: "Siyasi nəzəriyyələr trixi, qədim dövr və orta əsrlər" (1902-ci il), "Siyasi nəzəriyyələr tarixi: Lüterdən Monteskeyədək" (1905-ci il), "Siyasi nəzəriyyələr tarixi: Russodan Spenserə qədər" (1920-ci il) əsərlərinin müəllifi **U.Danninq** hesab olunur.

Fransada siyasi elmin təşəkkülünün başlanğıcı 1871-ci ildə Parisdə Siyasi elmlərin xüsusi Azad Məktəbinin yaradılması ilə

əlaqələndirilir. 1886-cı ildə bu məktəb "Siyasi elmlərin Azad Məktəbi Salnaməsi" adlı jurnal çap etdirir. Tədqiqatların elmi cəhətdən zənginləşməsində jurnalın 1890-cı ildən etibarən siyasi elmə dair keçirdiyi konqreslər əlverişli imkan yaratdı. həmin konqreslərdə bir çox görkəmli alimlər o cümlədən seçicilərin davranışının öyrənilməsinin əsasını qoyan **A.Ziqfrid** ("Fransanın qərb hissələrinin siyasi cədvəli" əsərində - 1913-cü il) fəal iştirak etmişdir.

Fransada siyasi elmin inkişafında universitetlərin hüquq fakültələri əhəmiyyətli rol oynamışdır. Xeyli fransız hüquqşünası belə hesab edir ki, siyasi elm konstitusiya hüququ ilə eynilik kəsb edir. heç də təsadüfi deyildir ki, Fransada siyasi hadisələrin təhlilinə hüquqi baxımdan yanaşmaq geniş vüsət aldı. Belə yanaşmanın əsası **L.Dyuqi** və **M.Oriu** tərəfindən qoyulmuşdur.

Bu məşhur alimlər öz siyasi-hüquqi görüşlərini "Ümumi hüququn prinsipləri" (1910-cu il) və "Konstitusiyaya dair elementar dərslik" (1925-ci il) əsərlərində şərh etmişlər.

İngiltərədə siyasi elm XIX əsrin sonu - XX əsrin birinci yarısında təşəkkül tapmağa başlayır. 1895-ci ildə London universiteti nəzdində iqtisadi və siyasi elmlər Məktəbi yaradıldı. İngiltərə politologiyasının inkişafı bir sıra ixtisaslaşdırılmış jurnalların təzahürünə səbəb oldu: "Ümumi idarə" (1923-cü il), "Siyasi rüblük" (1930-cu ildən), "Siyasət" (1934-cü ildən çap olunur).

İngiltərədə siyasi elmin inkişafına Q.Laski böyük töhfə bəxş etmişdir. O, öz əsərlərində siyasi fəlsəfəyə (siyasi hakimiyyət və tabeçilik, suverenlik və s. məsələlərə) böyük yer vermişdir. Q.Laski "Suverenliyin əsasları" (1921-ci il), "Müasir dövrdə hakimiyyət" (1927-ci il), "Dövlət nəzəriyyədə və praktikada" (1936-cı il) və s. əsərlərin müəllifidir.

İngilis siyasi elmi politologiyanın mühüm istiqamətlərindən biri olan siyasi ideyalar tarixinin tədqiqinə də əhəmiyyətli dərəcədə diqqət yetirir. Bu mühüm problemin öyrənilməsinin başlanğıcı öz əksini **R.Karlaylın** və **A.Karlaylın** "Qərbdə orta əsrlər siyasi nəzəriyyəsinin tarixi" (1903-cü il) və E.Barketin "Platon və Aristotelin siyasi fikirləri" (1906-cı il) adlı əsərlərində tapmışdır. İngilis konstitusiya hüququnun mütəxəssisləri öz tədqiqat predmetinə siyasi problemləri də daxil etmişlər. Bu baxımdan **A.Daysinin** "Konstitusiya hüququ" (1885-ci il) kitabı diqqəti cəlb edir.

XIX əsrdə Almaniyada sosial problemlərə dair elmi tədqiqatlar sürətlə artdı. Bu mənada həmin ölkədə siyasi elmin təşəkkülü və inkişafı qanunauyğun haldır. Lakin 1933-cü ildə **Hitlerin** hakimiyyətə gəlməsilə ölkədən kütləvi şəkildə mühacirətlə bağlı bu intellektual proses süni şəkildə dayandı. Almaniyada siyasi elm **Hegel** tərəfindən əsası qoyulan siyasi fəlsəfə ilə əlaqədar təşəkkül tapdı. Hegelin təsiri altında alman alimləri dövlətin öyrənilməsi probleminə xüsusi diqqət yetirdilər. Dövlət haqqında muxtar elmin yaranmasında alman hüquqşunası **Lorens fon Şteyn** böyük rol oynadı. Şteyn səkkiz cildlik "İdarəetmə haqqında təlim" (1865-1884-cı illər) adlı fundamental əsərin müəllifidir. 1871-ci ildə Almaniyanın birləşməsindən sonra xeyli hüquqşünas, ilk növbədə isə konstitusiya hüququ üzrə mütəxəssis dövlətşünalığa dair əsərlər yazdılar. Bu mənada **P.Lobandin** "Alman dövlətlərinin hüquqi dövləti" (1876-1882-ci illər), **Q.Ellinekin** "Dövlət haqqında ümumi təlim" (1905-ci il) və digər tədqiqat işləri xüsusi maraq doğurur.

Almaniyada siyasi elmin əsasının əsasını həm də sosioloqlar qoydular. Bununla bağlı **M.Veberin** "Siyasət nüfuz və peşədir" (1918-1919-cu illər), **K.Şmittin** "Diktatura" (1921-ci il), "Siyasət anlayışı" (1927-ci il), "Leqallıq və legitimlilik" (1932-ci il) əsərləri mühüm əhəmiyyət kəsb edir.

XIX əsrin sonu XX əsrin əvvəlində Almaniyada qərarlaşan yeni siyasi şərait alman alimlərini siyasi coğrafiya və siyasi partiyalar problemi ilə maraqlanmağa istiqamətləndirirdi. Bu baxımdan **F.Ratselin** "Siyasi coğrafiya" (1897-ci il) və **R.Mixelsin** "Müasir demokratiya şəraitində siyasi partiyaların sosiologiyası" (1911-ci il) əsərləri səciyyəvidir.

XIX əsrin son rübündə siyasi elmin təşəkkülü İspaniyada da nəzərə çarpır. Franko diktaturasının yarandığı vaxta qədər siyasi elmin inkişafının səciyyəvi cəhəti bundan ibarətdir ki, tədqiqatlar başlıca olaraq iki istiqamətdə (Siyasi fəlsəfə və dövlət nəzəriyyəsi) aparılırdı.

İspan siyasi elminin əsasını **F.Los Riosun** və onun şagirdlərinin tətqiqatları təşkil edir. Lakin, F.Los Riosun "hüquqi və siyasi təlim" (1875-ci il) əsəri ilə müqayisədə **A.Posadin** iki cildlik "Siyasi huquqa dair traktatı" (1893-1894-cü illər) yeni şöhrət qazandı.

İspan siyasi elminin səciyyəvi cəhətlərindən biri bundan ibarətdir ki, siyasi partiyalar və seçkilər kimi siyasi hadisələrə diqqət yetirilmir. Əksinə, cəmiyyət həyatında siyasətin rolunun fəlsəfi tədqiqi C.Orteqa-i-Qassetanın bir sıra əsərlərində öz təcəssümünü tapdı. O, hesab edir ki, "Nəsil anlayışı tarixdə ən mühüm yer tutur". Nəsil konsepsiyası müəllif tərəfindən bir sıra əsərlərdə istifadə olunmuşdur.

Haqqında danışdığımız qərb ölkələri ilə müqayisədə XIX əsrin sonu - XX əsrin əvvəllərində İtaliyada siyasi elm geniş yayılmamışdı. Siyasi-hüquqi problemlərə dair başlıca disskusiyalar fəlsəfi xarakter daşıyırdı və hegelçiliyin, eləcə də makrksizmin yayılması ilə bağlı idi.

Lakin siyasi elmin inkişafı istiqamətində **Q.Moska** və **V.Pareto** bəzi addımlar atdı. Moska "Siyasi siniflər" konsepsiyasını, Poreto isə "İdarə edən elita" konsepsiyasını işləyib hazırladılar. Onlar vaxtilə **Makiavelli** tərəfindən əsası qoyulan siyasi tədqiqatlar ənənəsini davam etdirirlər. Siyasi elmə dair görüşlərini Q.Moska "İdarəetmə forması nəzəriyyəsi və parlament idarəçiliyi" (1884-cü il), "Siyasi elmin ünsürləri" (1896-cı il) və V.Pareto "Ümumi sosiologiyaya dair traktat" (1916-cı il) əsərlərində şərh etdilər.

Siyasi elmin inkişafında 1874-cü ildə Florensiyada yaradılan sosial elmlər Məktəbi müəyyən rol oynadı. həmin məktəb 1883-cü ildən "Sosial və siyasi elmlər xülasəsi" adlı jurnal nəşr etməyə başlayır.

XX əsrin 20-ci illərində İtaliyada faşizm qərarlaşır. **D.Centili** "Faşizmin kökləri və doktrinası" (1929-cu il), "Faşizmin siyasi forması" (1937-ci il) və digər əsərlərində faşizmin rəsmi nəzəriyyəçisi kimi çıxış edir.

1945-ci ildən sonra siyasi elm beynəlxalq aləmdə qəbul olunur. Bu, ilk növbədə 1949-cu ildə YUNESKO nəzdində siyasi elmin Beynəlxalq Assosiasiyasının yaranması ilə bağlıdır. Onun kollektiv üzvü kimi milli assiasiyalar çıxış edir (fərdi üzvülük də mövcuddur).

1945-ci ildən etibarən xeyli ölkələrdə siyasi elmin assiasiyaları təzahür edir. 1949-cu ildə Fransa siyasi elmlər Assosiasiyası yaradıldı. İxtisaslaşdırılmış politoloji jurnalların sayı artırdı. 1941-ci ildən İspaniyada "Siyasi tədqiqatlar jurnalı", 1951-ci ildən isə "Fransız siyasi elm jurnalı" nəşr edilir.

## 2. SİYASİ ELMİN PREDMETİ

Siyasi elmin[1] əhatə etdiyi problemlərin öyrənilməsinə, onun digər ictimai elmlərlə həddinin müəyənləşdirilməsinə maraq daim artır. Təsadüfi deyil ki, onun tədqiqat obyekti barədə fikir ayrılığı və mübahisələr bu gün də davam edir. Siyasi elmin predmetinin dəqiqləşdirilməsi istiqamətində sə'ylər bir sıra obyektiv və subyektiv xarakterli amillərlə şərtlənir. Siyasi elm mədəni, iqdisadi və sosial fenomenlərlə müəyyən əlaqə kəsb etdiyinə görə onun predmetinin müəyyənləşdirilməsində çətinliklər meydana çıxır. «Siyasi elmin» öyrəndiyi bə'zi məsələlər bir sıra ictimai elmlərin, hətta təbiət elmlərinin tədqiqat obyektini təşkil edir. Siyasi elmin predmetinin dəqiqləşdirilməsi sahəsində təzahür edən çətinlik həm də bundan irəli gəlir ki, indiyə qədər dünya siyasi ədəbiyyatında politoloji tədqiqatlarda siyasi elmin (politologiyanın) hamı tərəfindən qəbul olunmuş vahid tə'rifinə təsadüf olunmur. Tədqiqatçılar bu elmin həddini və məzmununu qiymətləndirərkən onun əhatə etdiyi problemləri başlıca me'yar kimi götürürlər. Lakin siyasi elmin əhatə dairəsinə daxil olan problemlərin müəyyənləşdirilməsinə alimlər birmə'nalı münasibət bəsləmirlər. Əlbəttə, unutmaq olmaz ki, siyasi elm hər şeydən əvvəl, siyasi anlayışlar və kateqoriyalar, siyasi qanunauyğunluqlar və me'yllər, siyasi prinsiplər, normalar, ən'ənələr, siyasi inkişaf və proseslərlə bağlı olan problemlərə xüsusi diqqət yetirir. Siyasi elmin müxtəlif problemlər və hətta müəyyən elmlərin məcmuu əsasında yarandığını iddia edən müəlliflərə də rast gəlirik. Məsələn, alman alimi **P.Noak** hesab edir ki, siyasi elm dörd ən mühüm elmin əsasında formalaşır: siyasi fəlsəfə və ya siyasi nəzəriyyə; siyasi tə'sisatlar haqqında tə'lim; siyasi sosiologiya; beynəlxalq siyasət nəzəriyyəsi.[2] Siyasi elmin yaranmasında digər siyasi elmlərin yeri və rolunu da qeyd etmək vacibdir. Bu baxımdan siyasi tə'limlər tarixi, siyasi antropologiya, siyasi psixologiya, siyasi coğrafiya, siyasi ekologiya və sair səciyyəvidir.

[1] Tədqiqat işimizdə onun məzmunu və məqsədi baxımdan "siyasi elm terminini bütövlükdə "politologiya, "siyasətşünaslıq, "siyasət haqqında elm məvhumlarının sinonimi kimi işlədəcəyik. Mövcud siyasi və politoloji ədəbiyyatda bu dörd anlayış eyni mə'nada işlədilir.

[2] В.П. Пугачев, А.И. Соловьев. Введение в политологию. М аспект пресс, 1995. Səh.26.

Qeyd etmək vacibdir ki, siyasətin öyrənilməsi prosesinə politoloqlar və filosoflarla yanaşı tarixçilər və hüquqşünaslar da cəlb olunur. Cəmiyyət inkişaf etdikcə və təkmilləşdikcə onun siyasi həyatı da mürəkkəbləşir və zənginləşir. Bununla əlaqədar siyasi hadisə və prosseslərin tədqiqinə təbii maraq daha da artır. Sistem olmaq e'tibarilə müasir cəmiyyət bir-biri ilə qarşılıqlı əlaqədə və qarşılıqlı asılılıqda olan bir neçə yarımsistemdən ibarətdir: istehsal və ya iqdisadi təsərüfat, sosial, mədəni, mə'nəvi və siyasi. Bu yarımsistemlərdən hər biri özünəməxsus struktura, funksiyalara, sərvətlərə, normalara və sairəyə malikdir.

İstehsal və ya iqtisadi-təsərrüfat yarımsistemi cəmiyyət həyatının maddi əsasını tə'min edir. Sosial mədəni və mə'nəvi sferaların məcmuu vətəndaş cəmiyyətini təşkil etməklə spesifik yarımsistem əmələ gətirir. Vətəndaş cəmiyyəti insanın cəmiyyətin tam hüquqlu üzvü kimi istehsalını və təkrar istehsalını tə'min edir, müxtəlif sosial tə'sisatların normal fəaliyyətinə imkan yaradır. Siyasi yarımsistem cəmiyyətin bütün üzvlərinin mənafeyinin reallaşdırılması naminə qeyd etdiyimiz yarımsistemlərin səmərəli fəaliyyəti üçün əlverişli şərait yaradılması prosesini tənzimləyir. İqtisadi yarımsistemi vətəndaş cəmiyyətindən kənar təsəvvür etmək ağılasığmazdır və eləcə də vətəndaş cəmiyyəti onun maddi əsasını təşkil edən iqdisadi sistemsiz mümkün deyildir. Bunların hər biri isə dövlət olmadan fəaliyyət göstərə bilməz. Dövlətin başlıca vəzifəsi məhz, həmin yarımsistemlərin fəaliyyətinə nəzarət etmək və bu fəaliyyəti tənzimləməkdən ibarətdir.

Real həyatda bütün yarımsistemlər qarşılıqlı əlaqə kəsb edir. Elmi təhlil çərçivəsində onların məhdudlaşdırılması xeyli dərəcədə şərti xarakter daşıyır və sosial fenomen olmaq e'tibarilə bunların hər birinin son dərəcə dəqiq öyrənilməsini yüngülləşdirmək zərurətindən irəli gəlir.

Siyasət ictimai həyatın daha aydın nəzərə çarpan tərəfidir. Lakin bu zahiri cəhət aldadıcıdır. Çünki o, digər yarımsistemlərə aid olan və siyasi sferaya tə'sir göstərən xeyli aydın görünən faktları və prosesləri üstüörtülü saxlayır. Bunlardan sosial-iqdisadi, mədəni, elmi, təhsil, milli, etnik, dini və digər amilləri və hadisələri qeyd etmək olar. Yadda saxlamaq vacibdir ki, cəmiyyətdə baş verən siyasi proseslərin mə'nasını anlamaq üçün həmin amillərin haqqında dəqiq təsəvvürə malik olmaq lazımdır.

Siyasi elm ən'ənəvi olaraq dövlət, siyasi hakimiyyət, siyasət, partiyalar və digər tə'sisatları, bir sıra siyasi hadisələri tədqiq edir. O, ilk başlanğıcda dövlət haqqında, dövlətin əhəmiyyəti və funksiyaları barədə, siyasi fenomenləri və tə'sisatları öyrənən elm kimi təşəkkül tapmışdır. İndi isə onun tədqiqat obyekti xeyli genişlənmişdir. Hazırda siyasi elm siyasi aləmi bütövlükdə və çoxcəhətli istiqamətdə öyrənir, bir sözlə, "siyasi anlayışının əhatə etdiyi bütün məsələlər onun tədqiqat obyektinə daxildir. Bu cəhət ingilis-amerikan "siyasi təhlil lüğətində daha aydın şəkildə əks olunmuşdur. Həmin lüğətdə deyilir ki, "müasir inkişaf mərhələsində politologiyanın başqa sözlə, siyasi elmin predmetinin məzmunu əhəmiyyətli dərəcədə genişlənmişdir və bir qayda olaraq aşağıdakıları özündə ehtiva edir: Milli və yerli səviyyələrdə idarəetmə; müqayisəli və ya ölkələrarası təhlil; siyasət və siyasi davranış; ümumi hüquq və məhkəmə hüquq davranışı; siyasi nəzəriyyə; ümumi inzibati fəaliyyət və təşkilat davranışı; beynəlxalq münasibətlər.[1] Siyasi elm siyasət haqqında elm olsa da siyasətlə bağlı bütün bilikləri deyil, sırf elmi və bütövlükdə empirik metoda əsaslanan bilikləri özündə ifadə edir. Məhz, bu mə'nada siyasi elm siyasət haqqında biliklərin məcmuu olub siyasi reallıqları, siyasi. hadisə və prosesləri, siyasi tə'sisatları öyrənən elmdir.

Siyasi elm həm də siyasi biliklərin ümumi sisteminin tərkib hissəsidir. Bu biliklər əsasında siyasi fəlsəfə, siyasi elmlər və siyasi idrakın empirik səviyyəsi təşəkkül tapmışdır. Siyasi elm ümumi, inteqral xarakter daşıyır. Belə ki, o, siyasət haqqında bütün elmlər kompleksini özündə birləşdirir. Siyasi fəlsəfə, siyasi sosiologiya, siyasi psixologiya və sair siyasi elmin tərkib hissəsini təşkil edir. Siyasi elmin inteqral mahiyyət daşıdığını, daha doğrusu, siyasət haqqında müəyyən elmlərin onun predmetinə daxil olmadığını əsaslandırmaqa çalışan tədqiqatçılara və müxtəlif konsepsiyalara da təsadüf olunur. Məsələn, biheviorçular iddia edir ki, siyasi fəlsəfə, siyasi etika, siyasi ideyalar tarixi və digər bu kimi fənlər siyasi elmin məzmununa daxil deyildir. Biheviorçuluq tə'liminin tərəfdarları keçmiş siyasi nəzəriyyələrin elmi mahiyyət

Bakı Dövlət Universiteti
ELMİ KİTABXANA

[1] 26 основных понятий политического анализа. Полис.1993,N:1. Səh.81.

daşımadığını əsaslandırmağa çalışır və hətta bu nəzəriyyələri təbiət elmləri ilə eyniləşdirirlər. Biheviorçu politoloqlar XX əsrin 60-cı illərində daha radikal mövqedən çıxış edərək siyasi elmi siyasi nəzəriyyələrə qarşı qoyurlar. Ümumiyətlə, onlar siyasi bilikləri iki hissəyə ayırırlar: 1.Sərvətlərlə, tələblərlə və təkliflərlə bağlı olan normativ biliklər. 2.Faktlara əsaslanan ciddi elmi biliklər. Əlbəttə, təcrübə göstərir ki, normativ və empirik bilikləri bir-birindən ayırmaq düzgün deyildir. Düzdür, bu biliklər böyük spesifiklik kəsb edir. Lakin onları bir-birinə qarşı qoymaq bütövlükdə ictimai elmlər, ayrılıqda isə siyasi elm üçün zərərlidir. Siyasi elmin predmetinin əsl elmi mövqedən qiymətləndirilməsində 1948-ci ildə Parisdə çağırılan beynəlxalq kollokvium mühüm rol oynadı. YUNESKO-nun təşəbbüsü ilə çağırılan bu mö'təbər elmi-siyasi toplantı öz işini siyasi elmin məzmunu və strukturunun müəyyənləşdirilməsinə həsr etmişdir. Müxtəlif ölkələrin politoloqları siyasi elmin obyekti, predmeti və həddinin müəyyənləşdirilməsi məsələsində yekdillik nümayiş etdirdilər və onun tədqiqat obyektinə aşağıdakıların daxil olmasını bildirdilər: 1) siyasi nəzəriyyə (siyasət nəzəriyyəsi və siyasi ideyalar tarixi); 2) ümumi (dövlət) tə'sisatlar (mərkəzi, regional və yerli; qanunverici, icraedici və məhkəmə); 3) vətəndaşların siyasi iştirakı və təzyiqi (partiyalar, birləşmiş qruplar, ictimai rə'y); 4)beynəlxalq münasibətlər (beynəlxalq təşkilatlar və dünya siyasəti).[1]

Siyasi elm cəmiyyətin siyasi sferasını yeganə və başlıca obyekt kimi tədqiq edir. Həm də siyasi həyatın ayrı-ayrı aspektlərini (psixologiya, hüquqşünaslıq, demoqrafiya və.s.) deyil, onu məhz, bütöv halda, çoxcəhətli sistem kimi öyrənir. Siyasi elm siyasi həyatın özünə xas olan cəhətlərini, hakimiyyət münasibətlərinin qanunauyğunluqlarını, hakimiyyətdə olanlarla hakimiyyətə tabe olanlar arasındakı qarşılıqlı fəaliyyəti və idarə edənlərin hakimiyyətinin idarə olunanlara tə'sir mexanizmini nəzərdən keçirir.

Siyasi elmin tədqiqat obyekti ilə bağlı yuxarıdakı mülahizələri ümumiləşdirərək belə qənaətə gəlmək olar ki, onun

---

[1] Грацианский П.С. Политическая наука во Франции: Критические очерки. М, 1975. Səh.12.

əhatə etdiyi problemlər dörd böyük qrupa ayrılır: 1)siyasətin fəlsəfi və ideya nəzəri əsasları, siyasi yarımsistemin sistem əmələ gətirən əlamətləri və ən mühüm səciyyəvi cəhətləri, siyasi proseslərin, tarixin bu və ya digər konkret dövrlərinə aid olan siyasi fenomenlər; 2) siyasi sistemlər və siyasi mədəniyyət, müxtəlif siyasi sistemlərin müqayisəli təhlili (üstünlükləri, çatışmazlığı, fərqli cəhətləri və oxşarlığı), siyasi rejimlər, bunların dəyişilməsi şəraiti; 3) siyasi tə'sisatlar, siyasi proses, siyasi davranış, siyasi inkişaf; 4) beynəlxalq münasibətlərin politologiyası, siyasət və uzaqgörənlik. Əlbəttə, bu bölgünü şərti hesab edirik və o, şübhəsiz, tədqiqatçılar tərəfindən müxtəlif problemlərlə tamamlana bilər. Siyasi elmin öyrəndiyi yuxarıdakı dörd qrupdan ibarət problemlər bir-birindən asılı deyil və öz aralarında eyni mə'nalı mahiyyət daşıyırlar. Bu onunla şərtlənir ki, siyasətin ideya-nəzəri əsasını konkret siyasi sistemdən, siyasi sistemin özünü isə konkret siyasi tə'sisatlardan təcrid olunmuş halda dərk etmək mümkün deyildir.

Siyasi elmin problemləri siyasətşünası mövcud şəraitdəki vəziyyət baxımdan maraqlandırır. Politoloq alim həmin problemlərin strukturunu, tərkib ünsürlərini, funksiyalarını, fəaliyyət şəraitini, onların nisbətini və qarşılıqlı fəaliyyətini aydınlaşdırır. Belə təhlil siyasi problemlərin mövcud olduğu ümumi tarixi zəmindən kənarda və onların əsaslandığı ideya nəzəri və sosial fəlsəfi səbəblərdən təcrid olunmuş şəkildə qeyri-mümkündür. Bu baxımdan siyasi elmə dair tədqiqatlar üç ən mühüm aspektdə aparılır (tarixi, nəzəri və empirik). Buna müvafiq olaraq siyasi elm siyasi tə'limlər və ən'ənələr tarixini, siyasi sistemi, ideya siyasi görüşləri və cərəyanları, siyasət nəzəriyyəsini, qərarların qəbul olunmasının konkret mexanizmini, hakimiyyət funksiyalarının reallaşmasını və digər məsələləri nəzərdən keçirir.

Siyasi elmin **başlıca tədqiqat obyektini** dövlət, hakimiyyət və hakimiyyət münasibətləri təşkil edir. Bunlar çoxcəhətli aspektə, ilk növbədə isə iqdisadi, cosial və mədəni aspektlərə malikdirlər. Dövlət siyasi elmin mərkəzi problemlərindən olsa da onu həm də dövlətşünaslıq, hüququ isə hüquqi fənlər tədqiq edir. Hüquqşünaslıq dövlətin hüquqi fəaliyyətini öyrənir. Siyasi elm isə dövləti və hakimiyyət münasibətlərini cəmiyyətin siyasi təşkili

tə'sisatları kimi təhlil edir. Siyasi aləmin fenomenləri olmaq e'tibarilə dövlət və hakimiyyət sosial hadisələrin daha geniş sahələri ilə sıx əlaqədardır. Həmin tə'sisatlar ilk növbədə sosial-iqtisadi, mədəni, milli, etnik, dini və digər amillərlə daim əlaqəlidir. Cəmiyyət həyatının bu amilləri isə bütövlükdə siyasətin sosial əsasını təşkil edir. Heç də təsadüfü deyil ki, siyasətin sosial əsası siyasi elmin tədqiq etdiyi problemlərdəndir.

Siyasi elm dövləti yalnız siyasətin subyekti, hakimiyyətin və hakimiyyət münasibətlərinin daşıyıcısı kimi yox (bir ölkə çərçivəsində), həmçinin beynəlxalq aləmdə dövlətin suverenliyinin daşıyıcısı kimi öyrənir. Beynəlxalq münasibətlər, dünya birliyinin problemləri bir neçə elm sahəsinin - tarixin, hüququn, diplomatiya tarixinin, sosiologiyanın və qismən fəlsəfənin tədqiqat obyektidir. həmin problemlərə siyasi elm də əhəmiyyətli dərəcədə diqqət yetirir. Müasir şəraitdə dövlətlərin qarşılıqlı fəaliyyətinin qanunauyğunluqları, başlıca normaları və xüsusiyyətləri, beynəlxalq münaqişələrin həlli məqsədilə ən mühüm beynəlxalq siyasi və hüquqi tə'sisatların fəaliyyətinin əhəmiyyəti, onların funksiyaları, dünya birliyinin həyat fəaliyyəti sisteminin vacib ünsürü kimi regional və ümumdünya təşkilatlarının fəaliyyəti və s. siyasi elmin predmetini təşkil edən problemlərdəndir.

Dövlət və hakimiyyətlə yanaşı siyasi elmin öyrəndiyi problemlər sırasında partiyalar və partiya sistemləri, parlament mexanizmi, seçki sistemi, siyasi təşkilatlar və kütləvi informasiya vasitələri əhəmiyyətli yer tutur.

Başqa ictimai elmlər kimi, siyasi elm də bu və ya digər formada dünyagörüşü məsələsinə toxunur və eləcə də ideologiya[1] sferası ilə əlaqəlidir. O, dünya görüşü aspektində insanın cəmiyyətdə və təbiətdə yeri və rolunu, fərdi və kollektiv, maddi və mə'nəvi fəaliyyətinin mə'nası və əhəmiyyətini izah edir. Bir sözlə, siyasi elm ümumfəlsəfi (dünyagörüşü) problemlə müəyyən bağlılıq kəsb edir, daha dəqiq desək, siyasətin fəlsəfi dünyagörüşü aspektinə toxunur. Lakin siyasi elmi müəyyən dünyagörüşlərini

---

[1] İdeologiya siyasi, hüquqi, fəlsəfi, əxlaqi, dini, estetik ideya və görüşlər sistemi olub müxtəlif sosial qrupların köklü mənafeyini ifadə edir. İdeologiya sferasına həm də müvafiq ideoloji tə'sisatlarla əlaqədar adamlar arasındakı münasibətlər daxildir.

əks etdirən siyasi ideologiya və doktrinalarla eyniləşdirmək olmaz. Siyasi elm və ya siyasətşünaslıq siyasi gerçəklik haqqında elmdir.

Siyasi elm (siyasətşünaslıq) siyasi fəaliyyət proqramı hazırlamır. Lakin belə proqramlar hazırlanarkən siyasi sistemlər haqqında obyektiv dəyərə malik bilikləri təqdim etməklə siyasi fəaliyyət proqramının tərtib olunmasına xidmət edir. Siyasətşünaslığa dair biliklər tədqiqatçıların dünyagörüşünün tə'sirinə mə'ruz qala bilər. Buna görə Sanistebanın qeyd etdiyi kimi, siyasətşünaslıq sahəsində çalışan şəxslər elmi fəaliyyətlə məşğul olarkən konkret mənafeyə əsaslanan qeyri-obyektiv mövqe tutsalar, bu hal elmi nəticələrin dəyərinə ciddi xələl gətirə bilər. Siyasi elmin dünyagörüşü aspektindən çıxış edərək təsdiqləmək olar ki, siyasi fəlsəfə siyasi gərçəkliyin tərkib hissəsidir. İstər-istəməz hər hansı siyasi rejim öz mövcudluğu üçün fəlsəfi cəhətdən əsaslandırılmasına ehtiyac duyur. Bunu klassik tarixi misal əsasında qeyd edək: ABŞ prezidenti A. Linkoln öz ölkəsinin mə'ruz qaldığı vətəndaş müharibəsi dövründə belə müraciətlə çıxış etmişdir: "Xalqı idarə etmək, xalq üçün idarə etmək və xalqın həyata keçirdiyi idarəetmə. Alimlərin və siyasətçilərin xeyli hissəsi bu fikri demokratiyanı müəyyənləşdirmək mə'nasında qiymətləndirirlər. Lakin filosof buna başqa mövqedən yanaşır. O, həmin fikrin mahiyyətini dərk edib belə bir suala cavab verməlidir: Xalqın həyata keçirdiyi hakimiyyət nə üçün lazımdır? O, nə ilə idarə etməlidir? adamlar öz-özünü necə idarə edə bilər? və sair və ilaxır. Sosial gərçəklik siyasi fəlsəfə üçün ictimai qaydaların prinsipləri, sosial ədalət, azadlıq, bərabərlik və s. haqqında mülahizələr yürütmək mənbəyini təşkil edir. Siyasi fəlsəfənin məqsədlərindən biri obyektiv həqiqəti, hamı tərəfindən qəbul olunmuş siyasi sərvətləri izah etməkdən ibarətdir.

Siyasi elmin öyrəndiyi məsələlərdən biri də siyasi psixologiyadır. Siyasi psixologiyanın tədqiqat obyektini adamların siyasi davranışında təzahür edən orientasiya, inam, məqsəd, dəlil (sübut) və s. təşkil edir. Siyasətin və siyasi münasibətlərin aspektindən (siyasi psixologiyadan) ictimai rə'yin öyrənilməsində, siyasi sosiallaşmanın, siyasi münaqişələrin və əməkdaşlığın, siyasi məqsədlərin və siyasi davranışın tədqiqində geniş istifadə olunur. Sosial psixologiyanın banisi **Q. Lassuell** hesab olunur. Onun siyasi

psixologiyaya dair sanballı fikirləri 1930-cu ildə yazdığı "Psixologiya və siyasət kitabında irəli sürülmüşdür. Siyasi psixologiyanın inkişafına ikinci dünya müharibəsindən sonra "biheviorçu inqilab[1] güclü təkan vermişdir.

Siyasi elmin tədqiq etdiyi digər problemlərdən biri isə siyasi antropologiyadır. Siyasi antropologiya idarəetmə tə'sisatlarını, onların müxtəlif etnik birliklərdə praktiki funksiyalarını öyrənir. Belə tipli tədqiqat inkişaf etmiş qərb ölkələri və primitiv səviyyədə olan cəmiyyət üçün səciyyəvidir. Siyasi antropologiyaya dair tədqiqatlar müxtəlif siyasi sistemlərin müqayisəli təhlilinə və adamların siyasi fəaliyyətində etnik amillərin üzə çıxarılmasına imkan yaradır.

Göründüyü kimi, siyasi elm müxtəlif xarakterli siyasi tə'sisatlar, fenomenlər, proseslər, siyasi davranış və siyasi məqsədlərə, bunların bir-biri ilə qarşılıqlı əlaqəsinə, bir-birini şərtləndirməsinə dair biliklər məcmuudur. Bir sözlə, siyasi elm siyasi həyatın praktikası, obyektiv siyasi reallıq, subyektiv siyasi fəaliyyət və siyasi təfəkkür tərzi haqqında elmdir. Siyasi elm gündəlik həyata yaxın olan, lakin rasional dərk etmədən asanlıqla yayınan reallığın qavranılmasını şərtləndirən nəzəri ehtimalları formalaşdırır. Bununla əlaqədar qeyd edək ki, gündəlik həyatımızda siyasi gerçəklik bizə tam aydın görünən və asan dərk edilən reallıq kimi tə'sir bağışlayır. Ona görə adamlar zahirən gördüklərini siyasi gerçəkliklə qarışdırır və bunları bir-birindən ayıra bilmirlər. Nəticə e'tibarilə onlar siyasi illüziyaların qurbanı olurlar.

Siyasi elmin predmetinin məzmunu və həddini politoloq alimlər müxtəlif mövqedən araşdırır, onun müstəqil elm kimi təsdiqlənməsinə dair müəyyən me'yarları əsas götürürlər. Siyasi elmin əhatə etdiyi problemlər dairəsinə belə münasibət həm də sosial-fəlsəfi, ideya-siyasi və ideoloji mövqelərlə tamamlanır. Siyasi elmin predmeti ilə bağlı mövcud ədəbiyyatda vahid rə'y olmasa da iki başlıca cəhəti yadda saxlamaq lazımdır. Əvvələ, siyasi elm həqiqətən müstəqil elm kimi qalmaq və təsdiqlənmək istəyirsə şərhçilik əlamətlərindən, şəraitə uyğunlaşmaq meylindən və düşünülməmiş məddahlıqdan azad olmalıdır. Məhz, bu halda o,

---

[1] Bixeviorizm cərəyanının siyasi psixoloqiya sahəsində geniş və radikal fəaliyyəti

dərin nüfuza və inama malik olar və cəmiyyət həyatının bütün sferalarında fəal pozitiv rol oynayar. İkincisi, " tədqiqatçı alim kimi şöhrətlənmək istəyən şəxslərin qeyri-yaradıcı kitablarını, daha dəqiq desək, cızmaqaralarını kənara tullamaq, dəfələrlə çap olunan eyni məzmunlu əsərlərdən, "cana doymuş dərsliklərdən imtina etmək vaxtıdır. Yeri gəlmişkən qeyd etmək vacibdir ki, xarici ölkə alimlərinin səmərəli, müsbət təcrübəsindən istifadə olunmalıdır. İlk növbədə isə qərb ölkələrində siyasi elmin başlıca inkişaf istiqamətləri barədə ümumi təsəvvür yaradan dərslikləri, fundamental əsərləri ana dilimizə tərcümə edib çap etdirmək lazımdır. Bu baxımdan aşağıdakı kitabların tərcümə olunması daha məqsədəuyğundur: S.T.Vasbi "Siyasi elm fənn kimi. Giriş. A. Finifterin redaktəsi altında:-Siyasi elm. Fənnin vəziyyəti; Politologiyaya və İsveçrənin siyasi sisteminə dair ikicildlik məlumat; K.Liis. "Böyük Britaniyada siyasi həyat; R. Ripli və E. Slotnikin siyasi həyat problemlərinə və ABŞ-ın siyasi sisteminə dair mühazirə kursu; "Politologiya: Ensiklopedik lüğət; M. 1993; V. P. Puqaçev. F. İ. Solovyev. "Politologiyaya giriş M. 2003 və s. Düzdür, belə əsərlərin tərcümə olunub oxuculara çatdırılması respublikamızın iqtisadi çətinliklərlə üzləşdiyi indiki şəraitdə asan iş deyil. Alimlərimizin çalışdıqları müvafiq elm ocaqlarının və ali məktəblərin, eləcə də nəşriyyatların büdcə imkanlarının məhdudluğu tərcümə vasitəsilə və müstəqil formada kitab çap etdirməyi çətinləşdirir. Həmin çətinlik yalnız dövlət səviyyəsində həll oluna bilər. Bu isə Azərbaycanda siyasi elmin inkişafına ciddi tə'sir göstərmiş olar.

## 3. SİYASİ ELMİN KATEQORİYALARI, FUNKSİYALARI VƏ SOSİAL ELMLƏR SİSTEMİNDƏ YERİ

Digər elmlər kimi siyasi elmin də özünəməxsus kateqoriyaları vardır. Kateqoriyalar elmi idrakın inkişafı prosesində və ictimai praktika zəminində formalaşır. Onlar təfəkkürün ictimai reallığın, sosial gerçəkliyin mahiyyətinə nufuz etməsini səciyyələndirir.

Sosial gerçəkliyin inkişafı gedişində siyasi biliklərin dərinləşməsi və əhatə dairəsinin genişlənməsi ilə bağlı bir tərəfdən yeni kateqoriyalar, anlayışlar yaranır, digər tərəfdən isə ayrı-ayrı kateqoriyaların yeri və rolu müəyyən dəyişikliklərə mə'ruz qalır. Sosial kateqoriyaların hər biri ümumi kateqoriyalar sisteminin tərkib hissəsi kimi çıxış edir. Siyasi elmin məzmununun açıqlanması, mahiyyətinin müəyyənləşdirilməsi onun kateqoriyalar sisteminin mövcudluğu sayəsində mümkündür. Siyasi elmin kateqoriyaları onun başlıca anlayışlarıdır. Bu kateqoriyalardan hər biri müstəqil tədqiqat obyektidir və eyni zamanda siyasət haqqında elmin öyrənilməsinə xidmət edir. Siyasi elmin elə kateqoriyaları var ki, daha ümumi xarakter daşıyır. Bu elmin daha xüsusi xarakter daşıyan kateqoriyaları da mövcuddur.

Siyasi elmin ümumi kateqoriyaları sırasında struktur, sistem, hakimiyyət, proses, mədəniyyət, mühüm yer tutur. Bu fundamental ümumi kateqoriyalar özündə aşağıdakı xususi kateqoriyaları əks etdirir: siniflər, millətlər, peşə qrupları, dövlət, siyasi partiyalar, ictimai təşkilatlar, siyasi hərəkatlar, dövlət hakimiyyəti, qəbilə başçısının hakimiyyəti, partiyaların və ictimai təşkilatların rəhbərlərinin hakimiyyəti.

Həmin kateqoriyalar digər ictimai elmlər tərəfindən də geniş istifadə olunur. Məsələn, cəmiyyətin sosial strukturunu həm də sosiologiya, siyasi sistemin ünsürləri olmaq e'tibarilə dövləti fəlsəfə, siyasi partiyaları siyasi tarix tədqiq edir. Lakin bu elmlərdən hər biri qeyd etdiyimiz kateqoriyalardan öz tədqiqat obyektinə uyğun şəkildə istifadə edir.

Politologiyaya aid ədəbiyyatda siyasi elmin kateqoriyaları bə'zi hallarda qruplaşdırılır və bunların iki, üç, hətta beş qrupa ayrıldığı göstərilir. Siyasi elmin elə kateqoriyaları vardır ki, onlar bir sıra ictimai elmlərin, məsələn, fəlsəfə, sosiologiya və digər fənnlərin siyasi həyat sferasına tətbiqi sayəsində formalaşır. Məsələn, fəlsəfənin "şüur, "varlıq, "ziddiyyətlər, "təfəkkür kateqoriyalarına siyasi elmin "siyasi şüur, "siyasi varlıq, "siyasi ziddiyyətlər, "siyasi təfəkkür kateqoriyaları uyğun gəlir.

Siyasi elmin genezisi ilə bağlı olan kateqoriyalar da mövcuddur. Bu qəbildən olan kateqoriyalara "hakimiyyət, "siyasət, "dövlət, "siyasi partiya və sair daxildir. Kateqoriyaların

bir qrupu isə törəmə xarakterlidir. Məsələn, "siyasi hakimiyyət hakimiyyətdən, "siyasi münasibətlər sosial münasibətlərdən, "siyasi sistem sosial sistemdən törəyən kateqoriyalardır.

Siyasətin mahiyyəti ilə şərtlənən və siyasi fəaliyyət sferası ilə bağlı olan digər qrup kateqoriyalar da siyasi elmin kateqoriyalar sistemini zənginləşdirir. Bu baxımdan "şəxsiyyət siyasətin subyektidir, "sosial qruplar siyasətin subyektidir, "siyasi tə'sisatlar siyasətin subyektidir kateqoriyaları səciyyəvidir. Siyasi elmin bütün kateqoriyaları bütövlükdə onun məzmununun əhatəli dərk olunmasına xidmət edir. Siyasi elm hər şeydən əvvəl, düzgün biliklər əldə etməyə, siyasi proseslər haqqında obyektiv mə'lumat verməyə istiqamətlənməli və bunlardan ictimai tərəqqinin mənafeyinə istifadə etməlidir. Mütərəqqi, humanist siyasi biliklərin inkişafını tə'min etmək siyasi elmin mühüm məqsədlərindədir. Bu elm siyasətdə səhvə yol verilməsinin qarşısını almağa sə'y göstərməlidir. Siyasi elmin belə mühüm rolu onun funksiyaları vasitəsilə həyata keçirilir. Siyasi elmin başlıca funksiyaları bunlardır: praqmatik, izahedici, proqnozlaşdırma, qiymətləndirmə, siyasi həyatın rasionallaşdırılması, təsviri və ideoloji.

**Praqmatik funksiyanın** mahiyyəti bundan ibarətdir ki, o, dövlət tərəfindən seçilmiş siyasi kursun (siyasi xəttin) qabaqcadan yoxlanılması yolu ilə zəruri siyasi məqsədlərin əldə olunmasına istiqamətlənir. Əlbəttə, praqmatik funksiya digər tə'sisatların, o cümlədən siyasi partiyaların və ictimai təşkilatların da seçdiyi siyasi xəttin uğurla nəticələnməsində əhəmiyyətli rol oynayır. Bu funksiya nəzərdə tutulan siyasi kursun səhvlərdən azad olmasına ciddi tə'sir göstərir.

**İzahedici funksiya** cəmiyyətdə baş verən siyasi hadisə və prosesləri şərh edir və bununla yanaşı siyasi qərarların qəbul olunması və həyata keçirilməsi səbəblərini aydınlaşdırır.

**Proqnozlaşdırma funksiyası** hadisələrin inkişafında daha çox ehtimal olunan cəhətləri görməyə, gələcəkdə siyasi proseslərin necə davam edəcəyini başa düşməyə imkan yaradır. Bununla əlaqədar qeyd edək ki, sabit siyasi fəaliyyət düşünülmüş, ölçülüb-biçilmiş proqram olmadan mümkün deyildir. Belə fəaliyyət xeyli dərəcədə hakimiyyətin daşıyıcılarının (xalqın, onu təmsil edən nümayəndələrin, partiyaların və onların liderlərinin,

dövlət başçılarının) subyektiv keyfiyyətlərindən, öz imkanlarını qiymətləndirmək bacarığından, digər tərəfdən isə mövcud hakimiyyətə qarşı çıxan siyasi müxalifətin gücündən və mövqeyindən, tarixən qərarlaşan şəraitdən və digər amillərdən asılıdır. Həmin subyektiv keyfiyyətlərin əhəmiyyəti o qədər böyükdür ki, siyasətə dair mübahisələrin (o, elmdir, yoxsa sənət?) sonunu görmək qeyri-mümkündür. Zənnimizcə, siyasəti elmə əsaslanan sənət kimi qiymətləndirmək praktik, siyasi fəaliyyət üçün daha yararlıdır. Belə halda siyasi hadisələrin yaxın nəticələrini qabaqcadan dərk etmək mümkün olur.

**Qiymətləndirmə funksiyasının** köməyi ilə siyasi quruluş, onun tə'sisatları, siyasi hadisələr, siyasi davranış və sair hallar qiymətləndirilir. **Siyasi həyatın rasionallaşdırılması funksiyası** siyasi tə'sisatların və münasibətlərin, siyasət-idarəetmə qərarlarının, siyasi davranışın və sairənin rasionallaşdırılmasına (səmərəliliyinə) xidmət edir. Siyasi elmin bu mühüm funksiyası cəmiyyətin və şəxsiyyətin siyasi sosiallaşmasını tə'min etməyə, vətəndaşlığın formalaşmasına, adamlarda siyasi mədəniyyətin təşəkkülünə istiqamətlənir. **Təsviri funksiya** siyasi reallığın mahiyyətini, siyasi hadisə və proseslərin mövcud vəziyyətini, siyasi gerçəkliyin nədən ibarət olduğunu əks etdirir.

**İdeoloji funksiya** isə siyasətin, siyasi praktikanın, siyasi fəaliyyət və davranışın ideoloji tərəfini aydınlaşdırır. Siyasi elmin bu funksiyası bütövlükdə siyasəti və siyasi münasibətləri ideoloji baxımdan səciyyələndirir.

Siyasi elm ictimai elmlər sistemində xüsusi yer tutur və həmin elmlərlə sıx əlaqədə inkişaf edir. İctimai elmlərin əlaqəli inkişafını şərtləndirən başlıca cəhət onların tədqiqat obyektinin ümumiliyidir. Başqa sözlə, siyasi elm və digər humanitar elmlər cəmiyyət həyatının bütün sferalarını bütöv halda, çoxcəhətliliyi ilə və konkret təzahür formalarında öyrənir.

İctimai elmlərin ümumi xarakter daşıyan kateqoriyaları və problemləri çoxdur. Lakin bu elmlərin tədqiqat obyekti bir-birindən xeyli fərqlənir.

Siyasi elmin ictimai (humanitar) elmlər sistemində xüsusi və spesifik yer tutması bir sıra amillərlə bağlıdır. Birincisi, o, cəmiyyətin siyasi həyatı, siyasi hadisə və prosesləri barədə elmdir. İkincisi, siyasi

elm özündə ümumi siyasi problemləri və siyasət nəzəriyyəsini əks etdirir. Bu isə öz növbəsində digər ictimai elmlərin sistem halında inkişafını nəinki tamamlayır, həm də bu prosesə özünəməxsus pozitiv tə'sir göstərir. Üçüncüsü, ictimai həyatın müxtəlif tərəflərini tədqiq edən humanitar elmlərin hamısı siyasi aspekt kəsb edir. Dördüncüsü, insanların siyasi fəaliyyətinin öyrənilməsi metodikası həyat fəaliyyətinin digər sferalarının düzgün tədqiq olunmasında istifadə edilir. Nəhayət, siyasi elm də daxil olmaqla bütün ictimai elmlərin bütöv tədqiqat aparmaq sistemi mövcuddur.

Tədqiqat obyektinə və metoduna görə siyasi elmə ən yaxın olan **hüquq elmidir.** Dövlət-hüquq elmi siyasi qərarların işlənib hazırlanması və həyata keçirilməsi mexanizmini öyrədir. Hüquqla siyasi elmin sıx əlaqəsi sosial normaların reallaşmasında siyasi hakimiyyətin mühüm rolu ilə şərtlənir. Eləcə də siyasi hakimiyyət hüquqi cəhətdən tənzimlənməsə normal fəaliyyət göstərə bilməz. "Hüquq elmi xüsusi sosial normalardan ibarət olan hüququ, bütövlükdə dövlətin və cəmiyyətin siyasi sisteminin təşkilini və fəaliyyətinin hüquqi formalarını öyrənən ictimai elmdir.[1] Hüquq eyni zamanda nəzəri-dünyəvi elmdir, dövlətin və hüququn inkişafının əsas qanunauyğunluqlarını öyrənir, onların sosial rolunu, əhəmiyyətini və başlıca funksiyalarını açıb göstərir.

Politologiya isə hakimiyyətin yaranması, fəaliyyəti və inkişafı, millətin, sosial qrupun və şəxsiyyətin hakimiyyətə və dövlətə münasibəti qanunauyğunluqlarını, həmçinin, siyasi hakimiyyətin idarə olunmasının metod, forma və vasitələrini öyrənir. Politoloqu hüquqşünasdan fərqləndirən cəhət budur ki, onu sənədlərin mətnindən çox, konkret praktika və bunu yaradan sosial qüvvələr maraqlandırır.

Siyasi elm tədqiqat obyekti baxımdan ən çox hüquqla yaxın olsa da **tarix elmi ilə** sıx qarşılıqlı əlaqədə inkişaf etmişdir. Təsadüfi deyil ki, tarix elmində müstəqil sahə-siyasi tarix bölməsi mövcuddur. Siyasi tarix məhz, keçmiş dövrlərə aid olan siyasi aləmi, başqa sözlə desək, keçmişin politologiyasını öyrənir. Elə buna görə ingilis tarixçisi **K.Fridmen** yazır: "Tarix keçmişin siyasətidirsə, siyasət indinin tarixidir. Əlbəttə, aydındır ki,

---

[1] Hüquq ensiklopedik lüğəti, Bakı, 1991. Səh 502.

politoloqu (siyasətşünası) da keçmişə aid siyasətin hər hansı aspekti maraqlandıra bilər. Maraqlıdır ki, ABŞ-da politologiya və tarix çoxdan müstəqil fənn olsa da burada hazırda hər ikisi eyni kafedrada birləşir və tədris olunur.

Siyasətin yayılması və əlaqəsi sferasına ABŞ politoloqu **D.Xeld** daha geniş təsəvvür prizmasından münasibətini bildirir. O, siyasəti insanın imkanlarının təşkili uğrunda mübarizə kimi qiymətləndirir və təsdiqləyir ki, siyasət bütün insan həyatının ayrılmaz ünsürüdür, cəmiyyətin istehsalının və təkrar istehsalının ölçüsüdür[1]. D.Xeld sözünə davam edərək yazır ki, siyasət həm də hökumətin fəaliyyətinin me'yarıdır.

Siyasi elmlə tarix elmi arasında həm də ciddi fərqlər mövcuddur. Politoloqla (siyasi elmin tədqiqatçısı ilə) tarixçinin vəzifəsi və funksiyası bir-birindən əhəmiyyətli dərəcədə fərqlənir. Tarixçini keçmişə aid olan maraqlandırırsa, politoloq bu günün reallıqlarına diqqət yetirir. İspan tədqiqatçısı A.Qarsianın fikrincə "Tarixçinin fəaliyyəti keçmiş zamanla bağlıdır. O, ictimai formasiyaların başlanğıcını, inkişafını və sonunu müşahidə edə bilər. Əksinə, politoloq tarixə səhnə (tamaşa) kimi baxmır . O, tarixi hərəkətdə olan proses kimi dərk edir. Politoloqun siyasi təhlili tarixçinin təhlilindən fərqli olaraq özündə şüurlu marağı əks etdirir və siyasi layihəni reallığa çevirmək istəyir. Həm tarix, həm də siyasi elm reallığı, sosial gerçəkliyi zərurətlə təsadüfün vəhdəti halında izah edir. Onların arasında fərq bundan ibarətdir ki, tarix elmi sosial prosesi **postfaktum**[2] öyrənir, siyasi elm və sosialogiya ilə infaktum[3] formada açıqlayır.

Siyasi elm və tarix ümumi cəhətlərlə səciyyələnən tədqiqat obyektinə də malikdir. Lakin bə'zi alimlər belə hesab edir ki, tarix özünəməxsus yeganə və təkrarolunmaz faktları öyrəndiyi üçün o, elm sayıla bilməz. Həmin alimlər öz fikrini belə əsaslandırmağa çalışırlar: Tarix elmi nə qədər ki, obyektiv qanunauyğunluqların üzə çıxarılması ilə məşğul olmur, onu elm saymaq olmaz. Hakimiyyətin təşkili, sinfi ziddiyətlər, ekspansiya (işğalçı, təcavüzkar siyasət) və sair kimi tarixi proseslər həmişə nəinki

---

[1] Введение в политологию. М. "Просвещение". 1995. Səh.6-7.
[2] Postfaktum-hadisələr olub qurtarandan sonrakı izahetmədir.
[3] İnfaktum hadisələri mövcud vəziyyətində öyrənməkdir.

ayrıca adamın, həm də bütöv bir kollektivin emosional fəaliyyəti ilə bağlıdır, buna görə "bu proseslərin obyektiv elmi tədqiqi tam mümkün deyildir.[1] Əlbətdə, belə təsəvvürlə razılaşmaq çətindir. Çünki başqa humanitar elmin öyrəndiyi məsələləri mexaniki şəkildə tarix elminin predmetinə müncər etmək ən azı elmi ədalətsizlik olardı. Tarixi proseslərin obyektiv qanunauyğunluqlarını üzə çıxarmaq isə tarix elmnin yox, digər ictimai elmlərin tədqiqat obyektinə daxildir. Fəlsəfə, siyasi fəlsəfə və sair məhz, həmin qanunauyğunluqların tədqiqi ilə məşğuldur.

Siyasi elm həmçinin, fəlsəfə ilə əlaqə kəsb edir. Bu əlaqə antik dövrdən mövcuddur. Bə'zi bilik sahələri ilə yanaşı siyasi biliklər də antik fəlsəfənin tərkibinə daxil idi. Fəlsəfənin differensasiyaya uğraması nəticəsində digər elmlər ondan ayrıldı və müstəqil inkişaf etməyə başladı. Fəlsəfə siyasi elmin metodologiyasına çevrilməklə siyasi hadisə və proseslərin istiqamətini dünyagörüşü baxımdan əsaslandırır. Dünyanı və insanın ona münasibətini öyrənən fəlsəfə metodoloji cəhətdən siyasi elmin ümumiləşdirmələr aparmasına mühüm tə'sir göstərir. Siyasi elm **iqtisadi nəzəriyyə ilə** də müəyyən əlaqə daşıyır. İqtisadi nəzəriyyə siyasi proseslərin əsaslandırılmasına, bu prosesdə müxtəlif sosial qrupların iqtisadi mənafeyinin reallaşdırılması uğrunda mübarizəni görməyə kömək edir. Öz növbəsində siyasi elm də iqtisadi siyasətin işlənib hazırlanması və həyata keçirilməsi prinsiplərinin elmi cəhətdən əsaslandırılmasında, iqtisadi proseslərin dövlət tərəfindən tənzimlənməsində mühüm rol oynayır. Siyasi elmə yaxın olan humanitar fənnlərdən digəri **sosiologiya və siyasi sosiologiyadır.**[2] Sosiologiya bu və ya digər sosial sistemin inkişafı və fəaliyyətinin ümumi və spesifik sosial qanunları və qanunauyğunluqluları haqqında elmdir. Cəmiyyət, sosial qruplar və təbəqələr haqqında elm olmaq e'tibarilə sosiologiya siyasi elmlə tədqiqat obyektinə görə qovuşur. Yadda saxlamaq lazımdır ki, bir sıra humanitar elmlər kimi siyasi elm də sosiologiyanın üzə çıxardığı faktlardan və nəticələrdən istifadə edir.

---

[1] Политика как научная дисциплина по Д.Хелду. Полис (Полит. Исслед). 1991. №5 Səh 146-147.

[2] Социология, М. "Мысл" 1990. Səh 45-46.

**Siyasi elm sosiologiyadan fərqli olaraq siyasi sosiologiya ilə** daha sıx bağlıdır. Siyasi sosiologiya siyasətlə sosial mühitin qarşılıqlı fəaliyyəti sistemini öyrənir. Siyasi sosiologiya cəmiyyətin sosial strukturunun təhlilinə, fərdlərin şüuru, marağı və davranış motivinin, sosial qrupların maraq və məqsədlərinin, ictimai rə'yin öyrənilməsinə böyük diqqət yetirir. Göründüyü kimi, tədqiqat obyekti baxımdan siyasi elm və siyasi sosiologiya bir-birinə çox yaxındır. Lakin onların arasında ciddi fərqlər də mövcuddur.

Siyasi sosiologiya sosioloji biliklər sahəsi olmaqla siyasəti siyasi münasibətlər, tə'sisatlar və şüur kompleksi kimi öyrənir. Bə'zi elmi tədqiqat işlərində siyasi sosiologiyanın genezisinə toxunularaq göstərilir ki, o, törəmə elmdir. Belə fikrin tərəfdarları iddia edirlər ki, siyasi sosiologiya fəlsəfə, siyasi fəlsəfə, dövlət və hüquq nəzəriyyəsi, tarix, sosiologiya, idarəetmə nəzəriyyəsi, sosial kibernetika və digər bilik sahələrindən təşəkkül tapmışdır. Siyasi sosiologiyanın genezisinin tarixi ilə bağlı və siyasi spesifikliyindən asılı olaraq onu politologiya, dövlət və hüquq nəzəriyyəsilə eyniləşdirirlər və qeyd edirlər ki, bunların arasındakı fərq yalnız tədqiqatçılıq metodlarında, təşkilatçılıq formalarında, dərs demək üsulunda və əldə olunan biliklərdən istifadə olunmasında təzahür edir. Siyasi sosiologiyanın müəyyənləşdirilməsinə iki başlıca mövqedən - təsviri və normativ mövqelərdən yanaşılır. Belə yanaşma sosial fəlsəfədə XIX-XX əsrlərdə qərarlaşmışdır. Təsviri və normativ mövqelər sosial və humanitar biliklərin bütün sferalarına əhəmiyyətli tə'sir göstərir.

Təsviri yanaşmada siyasət sosial həyatın faktı kimi nəzərdən keçirilir. Normativ yanaşmada isə siyasət müəyyən sosial, siyasi və dünyagörüşü sərvətlərinin prizması vasitəsilə təhlil olunur. Təsviri və normativ yanaşma bir-birini qarşılıqlı surətdə tamamlayır.

Təsviri yanaşma siyasəti əsl elm kimi dərk etməyə imkan yaradır. Normativ yanaşma o zaman əhəmiyyət kəsb edir ki, dövlətin, partiyaların, siyasi rəhbərlərin və dövlət mə'murlarının siyasəti konkret sosial məqsədlər baxımından qiymətləndirilir.

Siyasi elmlə **siyasi tarixin** qarşılıqlı əlaqəsi spesifik əhəmiyyətə malikdir. Siyasi elmin nəzəri nəticələri tarixin gedişində və müasir siyasi praktika ilə yoxlanılır. Bu isə öz növbəsində yeni ümumiləşdirmə və nəticələrin əldə olunmasına

xidmət edir. Tarixin düzgün şərhinin təhrif olunması və onun müvafiq təcrübəsinin yanlış mövqedən izahı zərərli nəticələr doğura bilər. Siyasi elmin müddəaları və nəticələri tədbiqi siyasi fənnlərin çoxunun inkişafı üçün nəzəri baza təşkil edir. Dövlət idarəçiliyi nəzəriyyəsi xeyli dərəcədə siyasi elmin çıxardığı nəticələr əsasında təkmilləşir. Siyasi elmin təbiət elmləri ilə əlaqəsi də diqqəti cəlb edir. O, coğrafiya, antropologiya, demoqrafiya və digər elmlərin faktlarından istifadə etməklə çıxardığı nəticələrin məzmununu daha da zəngilləşdirir. Məsələn, siyasi elm kibernetikanın köməyi ilə siyasi sistemi modelləşdirir, dövlət quruluşunun daha məqsədəuyğun variantlarını üzə çıxarır, mərkəzi və yerli hakimiyyətin nisbəti məsələsini aydınlaşdırır.

Siyasi elmin **siyasi coğrafiya** ilə yaxınlığı siyasi proseslərin məkan vəziyyəti ilə qarşılıqlı əlaqəsində təzahür edir. Siyasi hadisə və proseslərin okeanlara, güclü dövlətlərə yaxın yerdə baş verməsi və digər bu kimi məsələlər siyasi coğrafiyanın tədqiqat obyetinə daxildir. Siyasi elmin **siyasi astrologiya** ilə əlaqəsi axırıncının tədqiqat obyektindən irəli gəlir. Siyasi astrologiya məhz, kosmosun, ulduzların yerləşməsinin, günəşin fəallığının və sairənin siyasi hadisələrə və siyasi davranışa tə'sirini aydınlaşdırır. Düzdür, bu elmin çıxardığı nəticələrin çoxu fərziyə xarakteri daşıyır. Bununla belə siyasi astrologiyanın bə'zi müddəaları, məsələn, günəşin fəallığının gütləvi siyasi davranışa, siyasi fəallığa tə'siri hökmən nəzərə alınmalıdır. Bu cəhət praktiki siyasətdə, xüsusilə böhranlı vəziyyətdə diqqətdən yayınmamalıdır.

Siyasi elmin ictimai elmlər sistemində yerini düzgün başa düşmək onun predmetinin daha dəqiq və daha əhatəli dərk olunmasına xidmət edir.

## 4. SİYASİ ELMİN TƏDQİQAT METODLARI

Müxtəlif siyasi elmlər bir-birindən nəinki predmetinə görə, eləcə də tədqiqat metodu baxımdan fərqlənirlər. Siyasi elmin metodları onun tədqiqat obyektinin hərtərəfli və dərindən öyrənilməsinə imkan yaradır. Siyasi elm tədqiqat metodlarının çoxsaylı olması ilə səciyyələnir.

Siyasi elmin metodlarının başlıca tipləri və metodologiyasının səviyyələri siyasi fikrin tarixi inkişafı gedişində təşəkkül tapmışdır. Politoloji ədəbiyyatda siyasi elmin metodologiyasının inkişaf mərhələlərinə dair diqqətəlayiq elmi mövqe mövcuddur. Bu baxımdan Amerikada nəşr olunmuş siyasi dərslik xüsusi əhəmiyyət daşıyır. "Siyasi tədqiqatın metodları: əsası və texnikası adlanan həmin dərslikdə siyasi elmin metodologiyasının dörd inkişaf mərhələsindən ibarət olduğu göstərilir:

1) Klassik dövr (XIX əsrə qədər). Bu dövrdə siyasi elmin metodologiyası əsasən deduktiv, məntiqi-fəlsəfi və əxlaqi-aksioloji mövqedən araşdırılır.

2) Tə'sisatlı dövr (dövlətlə, siyasi partiyalarla, ictimai təşkilatlarla əlaqələndirmə). Bu dövrdə tarixi-müqayisəli və normativ-tə'sisatlandırma metodu ön plana çəkilir ( XIX əsr - XX əsrin əvvəli).

3) Biheviorçu dövr (20-70-ci illər). Həmin dövrdə kəmiyyət metodları daha fəal tətbiq olunur.

4) Biheviorçuluqdan sonrakı dövr ( XX əsrin son rübü) ən'ənəvi və "yeni metodların əlaqələndirilməsi ilə səciyyələnir.

Siyasi elmin tədqiqat metodları barədə dolğun təsəvvür əldə etmək üçün "metod, "metodologiya və "metodika anlayışlarının konkret müqayisəli təhlili məqsədəuyğundur.

**"Metod"** yunan sözü olub tədqiqat üsulu və ya dərketmə, nəzəriyyə, tə'lim deməkdir. **O, həyati proseslərin ümumi qarşılıqlı əlaqəsini və məntiqini əks etdirir, gerçəkliyin öyrənilməsi üsulunu və ona yanaşmağı səciyyələndirir.**

"Metod kerçəkliyin praktiki və nəzəri cəhətdən mənimsənilməsi üsullarının və əməliyyatlarının məcmuudur.[1] Metod öz kenetik kökləri e'tibarı ilə praktiki fəaliyyətə aiddir. İnsanın praktiki fəaliyyətinin üsulları lap başlanğıcdan gerçəkliyin hadisə və qanunlarına uyğun gəlmişdir. Təfəkkür metodunun idrakın inkişafı gedişində inkişafı və differensiasiyası metod haqqında tə'limin-metodologiyanın yaranmasına gətirib çıxarmışdır.

---

[1] Философский энциклопедический словарь.М.1993, səh.364

Elmin metodunun başlıca məzmununu, hər şeydən əvvəl, praktikada yoxlanılan və təsdiqlənən elmi biliklər, tə'limlər şərtləndirir. Hər hansı belə biliklər, nəzəriyyələr əslində metodun funksiyasını təşkil edir.

Metod problemi hələ antik fəlsəfədə müzakirə obyektinə çevrilmişdir. **Metod** ən geniş mə'nada insanların praktiki və idraki fəaliyyətində müəyyən nəticələrin əldə olunması üsuludur.

İdrakın nəticələri ilə metodun qarşılıqlı asılılığı məsələsinə ilk dəfə məhz, həmin müzakirələrdə diqqət yetirilmişdir. Lakin idrak metodunun sistemli inkişafı və onun öyrənilməsi yeni dövrdə, eksperimental elmin meydana gəlməsi ilə başlanır. Bu vaxtdan e'tibarən metodun inkişafı və təkmilləşməsi elmin tərəqqisinin ən mühüm tərkib hissəsi kimi çıxış edir. Sözün geniş və xüsusi mə'nasında **elmin metodu anlayışı qarşıya qoyulan tədqiqatçılıq məqsədinin həlli üçün dərk edən subyektlə (alimlə, tədqiqatçı ilə) dərk edilən obyektin qarşılıqlı fəaliyyətini tə'min edən prinsiplərin, normaların, vasitələrin və proseduraların məcmuudur.**[1]

**Metodologiya** yunanca söz, anlayış, tə'lim deməkdir. O, hər cür tədqiqatlar üçün zəmin yaradır. Metodologiya xüsusi elmi sfera kimi çıxış edir, müxtəlif metodların və onların kombinasiyalarının siyasi idraka tədbiqi haqqında tə'lim kimi səciyyələnir.

Fəlsəfəyə dair ensklopedik lüğətdə metodologiya nəzəri və praktiki fəaliyyətin təşkilinin prinsipləri və üsulları (vasitələri) sistemi kimi qiymətləndirilir.[2] İlk əvvəllər metodologiya adamların obyektiv aləmlə qarşılıqlı münasibətlərinin praktiki forması kimi təsəvvür olunmuşdur. Sonralar o, rasional idrakın xüsusi predmetinə çevrilmişdir. Metodologiya probleminin işlənib hazırlanması antik dövrə təsadüf edir. Bu sahədə Sokratın, Platonun və Aristotelin xidmətləri xüsusilə böyükdür.

Yeni dövrə qədər metodologiya biliklər sistemində xüsusi əhəmiyyət kəsb etməmişdir. Yalnız bu dövrdən e'tibarən, təbiətşünaslığın inkişafı ilə bağlı metodologiya sahəsində köklü dəyişikliklər baş vermişdir. Uzun təkamül yolu keçən

---

[1] Политология курс лексий. под. ред. М.Н. Марченко изд. второе, М 1997. Səh. 45-56

[2] Филосифический енсклопедический словар. Səh. 365

metodologiya tə'limi XX əsrdə xüsusi dəyişikliyə mə'ruz qalır. Sosial praktikada, elmdə, texnikada və ictimai həyatın digər sferalarında təzahür edən yüksəliş metodoloji tədqiqatların sür'ətli inkişafına təkan verir. Metodologiyanın inkişafına elmi biliklərin differensiasiyası və inteqrasiyası prosesi xüsusi tə'sir göstərir. Bütün elmlər kimi siyasi elm üçün də onun tədqiqat metodologiyasının müəyyənləşdirilməsi, bu barədə geniş təsəvvürə malik olmaq mühüm əhəmiyyət kəsb edir. **Siyasi tədqiqatların metodologiyası siyasi hadisələrin təhlilinin metodları və prinsipləri sistemini, siyasi biliklərin qiymətləndirilməsi və ümumiləşdirilməsini əks etdirir.**

Qeyd etmək vacibdir ki, qərbdə siyasi elmin inkişaf istiqamətlərindən biri pozitivizmdir.[1] Pozitivizm ümumiyyətlə, elmi idrakın müəyyən metodlarının məcmuu təşəkkül tapdığı vaxtdan bu günə qədər siyasi elmin inkişafına mühüm töhvə bəxş etmişdir. XIX əsrdə məhz, pozivitizm çərçivəsində biheviorçuluq[2] adlanan cərəyan meydana gəlmişdir ki, bu da ilk əvvəl sosiologiyada, psixologiyada və sosial psixologiyada qərarlaşmışdır. Biheviorizm terminini elmə ilk dəfə 1913-cü ildə Uotsom gətirmişdir. «Biheviorizm» cərəyanının əsası isə 1916-cı ildə Torndayk tərəfindən qoyulmuşdur.

Biheviorçuluq siyasi elmin ən mühüm metodlarındandır. Biheviorçuluq metodologiyası çərçivəsində diqqəti daha çox cəlb edən metod **ictimai əhval-ruhiyyənin vəziyyətini, müxtəlif oriyentasiyaların nisbətini, adamların böyük kütləsinin mövqeyini və sairəni öyrənən ictimai rə'ydir.** Siyasi elmin bu kimi ən mühüm problemlərinin öyrənilməsi yalnız ictimai rə'y hesabına tə'min olunur. Biheviorçuluq metoduna dair geniş mülahizələrimiz bir qədər sonra açıqlanacaq.

**Metodika əsasən texniki üsul və vasitələrin məcmuu olub empirik materialların toplanması və sistemləşdirilməsi məqsədilə tətbiq olunur.** Siyasi tədqiqatlar üçün texnikada, riyaziyyatın, kibernetikanın inkişafında, hesablama texnikasının

[1] Pozivitizm XIX əsrin 30-cu illərində meydana gəlmişdir. Onun əsasını qoyan fransız filosofu və sosioloqu O. Kontdur.

[2] Biheviorçuluq (ingiliscə davranış deməkdir) ictimai həyatın müxtəlif sferalarında insanın davranışını tədqiq etməyi öz qarşısına başlıca məqsəd qoymuşdur.

geniş tətbiqi nəticəsində baş verən dəyişikliklər xüsusi əhəmiyyət daşıyır. Həmin dəyişikliklər siyasi tədqiqatların texnikasında, üsul və vasitələrində ciddi keyfiyyət yeniliklərinə səbəb olmuşdur. Bu üsul və vasitələrdən istifadə olunması siyasi həyat hadisələrinə aid olan faktların yeni qaydada toplanması, saxlanılması və təhlil olunmasına imkan yaratmışdır. Müasir metodika məhz, spesifik və nadir siyasi hadisələrin öyrənilməsi məqsədilə ümumi və xüsusi metodların uyğunlaşdırılması üsullarının məcmuunu əks etdirir. Siyasi elmlərin beynəlxalq assosiasiyasının son üç konqresinin (1988-ci il Vaşinqton, 1991-ci il Büanes-Ayres və 1994-cü il Berlin) materialarının təhlili göstərir ki, politoloqlar "ən'ənəvi və "yeni metodlardan fəal istifadə edirlər. Siyasi hadisə və proseslərin öyrənilməsində siyasi elmlərin metodikası çox mühüm rol oynayır. Siyasi həyatın tədqiq olunması metodikasının strukturuna ilk növbədə aşağıdakılar daxildir:

1) statistik göstəricilərin təhlili;
2) ictimai rə'yin tədqiq olunması metodikası;
3) müşahidə metodikası;
4) sosial eksperiment metodu;
5) sənədlərin öyrənilməsi metodikası;
6) klassik riyazi metod;
7) alternativ təkliflərin modelləşdirilməsi, işlənib hazırlanılması.

Siyasi tədqiqatların dərinləşdirilməsi üçün statistik mə'lumatlardan daha əhəmiyyətli istifadə olunması və bunların bacarıqla işlənib hazırlanması zəruridir. Ümumiyyətlə, bütün siyasi tədqiqatların obyektivliyi, tamlığı və dəqiqliyi o halda tə'min oluna bilər ki, kompleks metodlara əsaslansın.

Siyasi elmin öz predmeti ilə şərtlənən çox saylı ümumi və xüsusi metodları vardır. Siyasi elmin daha ümumi metodlarından ən əhəmiyyətlisi aşağıdakılardır: normativ, sosioloji, tə'sisatlı, müqayisəli, sistemli, struktur-funksional, antropoloji, psixoloji, sosial-psixoloji və sair.[1] Bunlarla yanaşı siyasətin tədqiqinə xüsusilə, tətbiqi politologiyanın öyrənilməsinə imkan yaradan biheviorçu metod da siyasi elmin fundamental metodlarındandır.

---

[1] Bu metodların mahiyyəti V. P. Puqaçovun red. altında " Politologiyanın əsasları: leksiya kursu (M.1992. Səh 13-18) adlanan kitabda açılır.

Siyasi elmin tədqiqat metodlarını ümumi formada üç başlıca qrupa ayırmaq olar:

1) ümumi elmi;
2) sosial-humanitar;
3) xüsusi-elmi.

Birinci **ümumi elmi metod** qrupu öz növbəsində iki komponentdən: məntiqi-evristik üsuldan və fəlsəfi-aksioloji prinsipdən ibarətdir. Məntiqi evristik üsul induksiya və deduksiyanın, təhlil və sintezin, diaqnoz və proqnozun, müəyyənləşdirmə və təsnifatın, müqayisə və oxşarlığın, müşahidə və eksperimentin, statistik təhlil və məntiqi-riyazi modelləşdirmənin və sairənin məcmuudur.[1]

Ümumi elmi metodun ikinci komponenti fəlsəfi dünyagörüşü prinsipləri ilə və aksioloji me'yarla bağlıdır.

**Sosial-humanitar metodlar** qrupunun mahiyyəti bundan ibarətdir ki, onun vasitələri başlıca olaraq sosial-humanitar fənnlərdə istifadə olunur. Bu qrupa tarixi-müqayisəli və sinxron-komparativ tədqiqat metodları, sənədlərin və mənbələrin təhlili, son zamanlar isə ictimai elmlərdə geniş tətbiq edilən test, sosiologiyadan əxz olunan anket sorğusu və sair daxildir.

**Xüsusi-elmi metodlar** qrupuna siyasətin özündə işlənib hazırlanmış üsul və qaydalar daxildir. Məsələn, nəzəri oyunun ünsürlərindən istifadə etməklə siyasi şəraitin təqlid olunmuş modelləşdirilməsi, siyasi liderin reytinqinin (nüfuzunun) ekspert tərəfindən qiymətləndirilməsi, kompüter texnikasından istifadə etməklə dövlətin və partiyanın müqayisəli, statistik təhlili və sair xüsusi elmi metodu səciyyələndirən üsullardır. Təbiət və texnika elmlərinin istifadə etdikləri eksperimenti sosial elmlərdə nəzəri modelləşdirmə əvəz edir. Praktiki məntiqdən kənarda elm yoxdur. F.Hegelin sərrast ifadə etdiyi kimi, " hər cür elm tətbiqi məntiqdir.

Əlbəttə, siyasi elmin tədqiqat metodlarını əks etdirən yuxarıdakı üç qrup heç də bu elmin yeni metodlar qrupunun və ya digər təsnifatının inkarı kimi başa düşülməməlidir. Hər bir elmin əhatə etdiyi problemlər dairəsi genişləndikcə onun metodu da təkmilləşir və zənginləşir.

---

[1] Политология: курс лексий под. ред. М. Н. Марченко. Səh 50-52

Siyasi tədqiqatlar metodu iki səviyyədən ibarətdir:

1. Siyasi elmlərin, o cümlədən müxtəlif səviyyədə ümumiləşdirilən siyasi nəzəriyyələrin tədqiqat metodu.

2. Konkret təhlil səviyyəsində (politoloji) emprik tədqiqat metodu.

Siyasi elmə dair tədqiqatlar iki səviyyədə - nəzəri və tətbiqi səviyyələrdə aparılır. Bu məqsədlə tədqiqat metodunun geniş dairəsindən, ilk materialların sistemləşdirilməsindən və təhlilindən istifadə olunur. Tədqiq edilən materiallara xüsusi mövqedən yanaşılmadıqda qarşıya qoyulan məqsədə çatmağın səmərəliliyi azalır. Məqsədyönlü və düzgün tədqiqat üsulu seçildikdə öyrənilən problemin səmərəli həlli tə'min olunur, tədqiqatçının idrakı fəaliyyəti istənilən nəticəyə gətirib çıxarır, ən başlıcası isə əldə olunmuş rəqəm və faktların sistemləşdirilməsi və düzgün qiymətləndirilməsi üçün imkan yaranır.

Siyasi proseslərin öyrənilməsində tətbiq olunan başlıca metodlar bunlardır: **Müqayisəli-tarixi, empirik, sistemli, biheviorçu və siyasi modelləşdirmə.**

**Müqayisəli metod** sosial gerçəkliyi dərk etməyin ən mühüm metodlarındandır. Müqayisəli-tarixi öyrənmə metoduna tarixi təsvir, konkret təhlil, müqayisəli-dövrləşdirmə, xronoloji, retrospektiv (keçmişə aid olan) və proqnozlaşdırma xarakterli tədqiqat üsulları daxildir. Müqayisəli-tarixi metod siyasi hadisələri və faktları onların meydana gəldiyi və fəaliyyət göstərdiyi şəraitlə sıx əlaqədə öyrənməyə imkan yaradır, digər tərəfdən isə siyasi reallıqların müxtəlif inkişaf mərhələlərində mə'ruz qaldığı keyfiyyət dəyişikliklərinin dərk olunmasına kömək edir. Bu metod tarixi inkişaf prosesində dəfələrlə təkrarlanan hadisələrin təhlili üçün olduqca vacib və əhəmiyyətlidir. Bu günə qədər politoloqların istifadə etdikləri metodoloji vasitələr içərisində müqayisəli metod çox əhəmiyyətli yer tutur. Siyasətin müqayisəli təhlili metodu oxşar və fərqli prinsiplərə, siyasi tə'sisatların deduktiv nəzəri modelinə və onların dürüstləşdirilməsinin induktiv metoduna (diaxron-tarixi və sinxron-emprik üsulların köməyilə) əsaslanır.

Müqayisəli-tarixi metod tədqiqatçını müxtəlif ölkələrin, xalqların və dövrlərin siyasi həyatının ümumi cəhətlərini açıqlamağa istiqamətləndirir. Müqayisə olunan faktlar, hadisələr

öz təbiəti baxımdan eyni mahiyyət kəsb etdiyinə görə onlar struktur-funksional oxşarlığa malik olur. Bu cəhət fəaliyyət və inkişafın obyektiv qanunauyğunluğunun ümumiliyi ilə şərtlənir. Məsələn, S.Verbanın rəhbərliyi altında inkişaf etmiş demokratiya şəraitində siyasi elitaların müqayisəli təhlili məhz, üç ölkənin (ABŞ, İsveçrə və Yaponiya) materialları əsasında verilmişdir. Müqayisəli metod hazırki şəraitdə yeni mühüm funksiyalar kəsb edir. Başqa sözlə, müasir dünyanın siyasi strukturları və dinamikası haqqında informasiyanın elmi cəhətdən sistemləşdirilməsində bu metodun tətbiqi əhəmiyyəti daha da artır. 60-cı illərin əvvələrindən e'tibarən EHM-in (elektrik hesablama maşınlarının) və kompüter şəbəkəsinin təzahürü ilə bağlı statistik və digər səhih informasiyaların riyazi üsullarla işlənib hazırlanmasına xeyli cəhd göstərilir. 1962-ci ildə ABŞ-da siyasi və sosioloji tədqiqatlara dair universitetlərarası konsorsiumun göstəriciləri əsasında dünya arxivinin yaradılması dünya siyasi elmində ən yüksək mərhələ oldu. Dünyada dövlətlərin və siyasi sistemlərin müqayisəli ( komparativ) təhlili məqsədilə üç böyük layihə işlənib hazırlandı: 1) "Dövlətlərin müqayisəli təhlili ("Massaçuse texnologiya institunun əməkdaşları A. Benks və R. Tekstonun rəhbərliyi altında); 2) " Millətlərin öyrənilməsi (Q.Qetskov və R.Rammel. Şimal-Qərb universiteti və s.); 3) "Siyasi göstəricilərin toplanılmasına dair Yelski proqramı (B. Rasset, X. Alker, Yelski universiteti və s.)

Siyasi prosesləri fərqləndirmək baxımdan məqsədyönlü metod almaq e'tibarilə müqayisəli-tarixi metod tədqiqatçını tarixi prosesləri vulqarlaşdırmaqdan və hər cür təhrifçi düşüncə tərzindən uzaqlaşdırır, müasir və tarixi təcrübəni ümumiləşdirməkdə ona kömək edir. Siyasi proseslərin ayrı-ayrı mərhələlərinin və dövrlərinin müqayisəsi həmin prosesin inkişafının obyektiv qanunauyğunluqlarını üzə çıxarmağa yardım göstərir. Müqayisəli-tarixi metod həm də siyasi hadisələri xronoloji ardıcıllıqla öyrənməyə imkan yaradır. Bu metoda aid olan retrospektiv üsul siyasi elmin proqnozlaşdırma funksiyasının inkişafına tə'sir göstərir.

Müqayisəli metod ABŞ politoloqları tərəfindən geniş istifadə olunur. Bu günə qədər dünyada müqayisəli siyasətə dair

ən məhşur tədqiqat işi amerika politoloqu R.Makridisin redaktəsi altında nəşr olunan və dəfələrlə çap edilən çoxnüxsəli dərslikdir. Bu dərslikdə müqayisəli yanaşma metodunun əsas prinsipləri: deduksiya və induksiya, oxşarlıq və fərqlər, dəyişikliklərin müqayisəsi və onların səbəbləri və s. əsaslandırılır. Heç də təsadüfü deyil ki, hələ XIX əsrin ikinci yarısından e'tibarən müqayisəli metod ABŞ-da başlıca tədqiqat üsulu kimi istifadə olunur. (Q.Adams, D. Bercess və başqaları tərəfindən) . Belə metodoloji vəziyyət qərb ölkələrində də müşahidə olunur. Müasir politologiyanın klassikləri hesab edilən M.Veber və M.Ostrovski, Q. Moska və V. Pareto siyasi faktlara dair topladıqları materialları məhz, bütövlükdə müqayisəli-tarixi metodun köməyi ilə işləyib hazırlamışlar.

Siyasi tədqiqatların **empirik metodu** xüsusilə XIX əsrin sonu və XX əsrin əvvələrində sürətlə inkişaf etməyə başlayır. Bu, vətəndaşların siyasətdə iştirakı ilə əlaqədar olub siyasi kerçəklik haqqında obyektiv biliklərə praktiki tələbatdan irəli gəlirdi. Tədqiqatçılar siyasi elmin öyrənilməsinin emprik metodunda aşağıdakılara xüsusi diqqət yetirirlər:

1) Siyasi davranış probleminə;
2) İctimai rə'yin və siyasi mədəniyyətin öyrənilməsinə;
3) Siyasi proseslərə müxtəlif amillərin tə'sirinin tədqiqinə;
4) Böyük və kiçik siyasi strukturların sistemli təhlilinə;
5) Cəmiyyətin siyasi idarə olunmasının və ona siyasi rəhbərliyin kompleks öyrənilməsinə;
6) Siyasi tə'sisatların struktur-funksional təhlilinə;
7) Siyasi planlaşdırmaya;
8) Siyasi proqnozlaşdırmaya

Yuxarıda qeyd olunan problemlərin dərindən və hərtərəfli öyrənilməsi məqsədilə empirik sosiologiya metodundan[1], xüsusilə, bu metodun aşağıdakı ünsürlərindən istifadə olunur: Müşahidə, anketləşdirmə və əhali arasında sorğu aparılması, statistik materialların təhlili, eksperiment, sənədlərin öyrənilməsi, modelləşdirmə, söhbət və sair.

---

[1] Siyasi elmə sosiologiyadan bir sıra tədqiqat üsulları, ilk növbədə anket sorğusu, müsahibə, müşahidə və s. nüfuz edilmişdir

**Müşahidə** qısa, orta, uzun müddətli ola bilər. Uzun müddətli müşahidə böyük tədqiqatçı qruplar tərəfindən aparılır və tədqiqat materialının toplanması üçün ciddi sə'y göstərilməsini tələb edir. Məs: ABŞ-da əhalinin bütün təbəqələrini təşkil edən adamlar sistem halında yaşayıb fəaliyyət göstərdikləri bütün müddətdə (doğulduğu, sosiallaşdığı gündən təqaüdə çıxdığı dövrə qədər) tədqiq edilir. Toplanılan materiallar bu və ya digər təbəqənin demoqrafik xarakteristiskasına, məşğulluğu dinamikasına dair müəyyən aydınlıq gətirir. Müşahidə aparan tədqiqatçı onu maraqlandıran situasiyanı öyrənir. O, həmin situasiyada bilavasitə iştirak edə bilər. Müşahidə metodu tədqiqatçıya imkan verir ki, siyasi münaqişənin törənməsi və inkişafı prosesini, kütləvi hərəkatın təkamülünü, siyasi partiyaların fəaliyyəti və sairəni öyrənə bilsin.

**Anket yolu** ilə tədqiqat və əhali arasında sorğu aparılması metodu XIX əsrin 30-cu illərindən geniş tətbiq olunur. Bu metoddan ilk dəfə Amerika sosioloqu **Corc Hellan** seçkiqabağı siyasi şəraiti öyrənmək məqsədilə istifadə etmişdir. Anket və sorğu yolu ilə tədqiqat metodu hazırkı şəraitdə geniş istifadə olunur.

Anket üsulu ilə seçkiqabağı tədqiqat aparmağın məqsədi seçkilərə dair statistik təhlil nəticəsində seçicilərin rəy'ini müəyyənləşdirməkdir. Bu, nəinki praktiki, həmçinin, elmi əhəmiyyət daşıyır. Praktiki əhəmiyyətin mə'nası bundan ibarətdir ki, seçkiqabağı kompaniya zamanı əldə olunmuş proqnozun səsvermənin nəzərdə tutulan nəticələrinə münasibətini aydınlaşdırmaq mümkün olur.

Anket və sorğu üsulu ilə tədqiqatın elmi əhəmiyyəti bununla səciyyələnir ki, seçicilərin rə'yinə tə'sir göstərən amilləri, o cümlədən seçkilərin sosioloji xarakteristikasını, yaşı, təhsil səviyyəsini, cinsi, peşə mənsubiyyətini, gəlir səviyyəsini və sairəni öyrənmək imkanı əldə edilir.

Anket və sorğu üsulu ilə aparılan tədqiqat eyni zamanda məhdud xarakter daşıyır. Belə ki, əvəlla, bu tədqiqat üsulları subyektiv mahiyyət kəsb edir və formal rəqəm və faktların izah edilməsi ilə səciyyələnir. İkincisi isə həmin üsullar aparılan eksperimentə sün'i şərait yaradır. Halbuki anket yolu ilə tədqiqatın məqsədi təbii şəraitdə həqiqəti üzə çıxarmaqdır.

**Statistik materialların təhlili** siyasi elmin qarşısında yeni imkanlar açdı. Müvafiq texniki vasitəyə malik olan tədqiqatçı əldə olunmuş mə'lumatdan texniki təhlil zamanı ən zərurisini qəbul edir, qanunauyğunluqluları izləyir, meylləri üzə çıxarır. Statistik materialların təhlili metodunun əhəmiyyəti budur ki, o, vaxt və məkan məhdudluluğundan uzaqlaşmağa imkan yaradır.

**Eksperiment üsulu** siyasi elmdə oyun şəkilində modelləşdirmənin spesifik forması kimi həyata keçirilir. Tədqiq olunan proses və ya hadisə tədqiqatçı politoloq tərəfindən oyun şəraiti yaradılması vasitəsilə dərk olunur. Belə ki, bu və ya digər siyasi hadisənin inkişafını təqlid etməklə (münaqişəni, danışıqları, parlamentin iclaslarını və s.) tədqiqatçı ya real prosesin inkişafını qabaqcadan dərk etmək imkanı əldə edir və ya həmin prosesin daxili mexanizmini açmağa nail olur.

**Sənədlərin öyrənilməsinə** rəsmi materialların təhlili, parlamentin iclaslarının stenoqraması, partiyaların proqramları, rəsmi danışıqlar haqqında hesabat və sair daxildir. Bunlarla yanaşı, sənədlərin öyrənilməsinə şəxsi sənədlərin, gündəliklərin, məktubların, xatirələrin araşdırılması da aiddir. Belə informasiya xarakterli mənbələr ən'ənəvi olaraq siyasətin öyrənilməsində istifadə olunmuşdur. Bu mə'nada kino, foto, plakat, rəsm və s. mühüm maraq doğurur.

**Söhbət bir metod kimi** müsahibədən bununla fərqlənir ki, o, ikitərəfli xarakter kəsb edir. Söhbətin gedişi bununla səciyyələnir ki, onu aparan adam sorğu keçirdiyi şəxsdən nə soruşacağını qabağcadan bilir və hansı informasiyanı əldə edəcəyini əvvəldən müəyyənləşdirir. Söhbət iştirakçıları adətən eyni vəziyyətdə olur. Belə ki, söhbət metodu tədqiqatçıya imkan yaradır ki, o, apardığı tədqiqatı qabaqcadan hazırlanmış xüsusi sxem əsasında həyata keçirməsin. Başqa sözlə, söhbətə başlamazdan müsahibə aparanla müsahibə verən arasında heç bir ünsiyyət olmur, fərdi xarakter daşıyan informasiya əldə etmək də qeyri-mümkündür.

Siyasi elm üçün **sistemli metod** xüsusi əhəmiyyətə malikdir. Məhz, bu metod vasitəsilə siyasəti kompleks hadisə və proses kimi öyrənmək, bu və ya digər siyasi hadisənin ümumi inkişaf fonunda daha mühüm ünsürlərini üzə çıxarmaq, həmin ünsürlərin qarşılıqlı asılılığını və bir-birini şərtləndirdiyini müəyyənləşdirmək mümkündür.

Müasir siyasi elmin səciyyəvi cəhətlərindən biri budur ki, siyasi bilik sahəsində sistemli ideyalar və təsəvvürlər geniş yayılır, mexaniki, bəsit görüşlər isə sıxışdırılıb aradan qalxır. Sistemli metodun təşəkkülü və inkişafı klassik elmi biliklərin struktur formalarının və metodoloji əsaslarının yenidən mə'nalandırılması ilə əlaqədardır. Bu isə tədqiqat obyektinə kompleks yanaşma zərurətindən irəli gəlir.

Sistemli metodun fərqləndirici xüsusiyyətlərindən biri tədqiqatın strategiyasının xüsusi formada işlənib hazırlanmasına tələbatdır. Bu metodun digər səciyyəvi cəhəti tədqiqat işinin başlanğıc mərhələsində obyektin vahid konseptual modelinin yaradılmasıdır. Bu isə öz növbəsində tədqiqat probleminin dəqiq qaydaya salınmasını tələb edir. Tədqiqatın bütün komponentləri qarşıya qoyulan yeganə məqsədə tabe edilməlidir. Əks halda amerika tədqiqatçısı **E.Kveydin** qeyd etdiyi kimi "qarşıya qoyulan problemin həll olunmaması təhlükəsi yaranır.[1]

Sistemli metod çərçivəsində formal analitik aspektin işlənib hazırlanmasına əhəmiyyətli diqqət yetirilir. Müxtəlif elmlərin nümayəndələri ümumi sistem nəzəriyyəsinin müxtəlif formal variantlarını və ixtisaslaşdırılmış sistem konsepsiyalarını irəli sürürlər. Bu meyl siyasi elm çərçivəsində də təzahür edir. Bununla əlaqədar olaraq tədqiqat işində istifadə edilən anlayışların əməliyyatlaşdırılması problemi meydana çıxır ki, bunsuz nə irəli sürülən fərziyyənin, ehtimalların empirik yoxlanılması, nə də bunların nəzəri səviyyədə ciddi müzakirəsi mümkün deyildir. Məsələn, əhalinin siyasi fəallığının əməliyyatlaşma səviyyəsinə yaxınlaşması üçün, o, özündə iki cəhəti birləşdirməlidir: Birincisi, siyasi fəallığın konkret təzahür kanallarını (seçkilərdə, siyasi yığıncaqlarda iştirak etmək, mətbuatda çıxış etmək və s.) və ikincisi, siyasi həyatda iştirakın cəmiyyətin bütün siyasi sferasını tam əhatə etmə dərəcəsini. Sistemli tədqiqatın ən mühüm prinsiplərindən biri obyektin xarici mühitlə qarşılıqlı fəaliyyətinə diqqət yetirilməsidir. Ümumiyyətlə, sistemli metodun bütün komponentləri və prinsipləri siyasi proseslərin tədqiqində özünə məxsus rol oynayır. Müasir şəraitdə siyasi elmin istifadə etdiyi ən

---

[1] Квейд Е. Методы системного анализа.-В.кн. Новое в теории и практике управленийа производством в США.М., 1971, Səh 85.

mühüm tədqiqat metodlarından biri **biheviorçuluqdur**. Biheviorçu metoddan istifadə olunması siyasi elmin və bütövlükdə ictimai elmlərin metodologiyasında inqilab hesab olunur. **Biheviorizm** XIX əsrin axırlarında Amerikada psixologiya elmində meydana gəlmiş və tezliklə ictimai elmlərin çoxunda tətbiq olunmağa başlamışdır. Bu metod təkcə siyasi elmin deyil, bütün ictimai elmlərin metodoloji istiqaməti kimi səciyyələnir. Bihevioral metodun mahiyyəti bundan ibarətdir ki, siyasi prosesləri adamların davranışını və əhval-ruhiyəsini öyrənmək əsasında tədqiq edir. Bu metod situasiyanın modelləşdirilməsinə imkan yaradır, cəmiyyətin siyasi inkişafının daha düzgün meylini dərk etməyə faydalı tə'sir göstərir. Biheviorizm ayrı-ayrı fərdlərin, qrupların, müxtəlif sosial, mədəni, peşə və s. birliklərin davranışını öyrənməyə ilk cəhd edən metodlardandır. Bu metod faktları və sərvətləri bir-birindən fərqləndirməyi qarşısına məqsəd qoyur. Biheviorizmin tərəfdarları politologiyanı sərvətlərdən və ideologiyadan azad elm e'lan etməklə dəqiq elmlərdən ayrı-ayrı modelləri və **tədqiqat metodlarını**, xüsusilə riyazi metodları və bununla əlaqəli olan kəmiyyət üsullarını əxz etmişdir. Beləliklə, siyasi elm gütləvi hərəkatları və sosial siyasi prosesləri hərtərəfli tədqiq etmək üçün əlverişli imkan əldə etmişdir. Ümumiyyətlə, biheviorçu metodun meydana gəlməsi ilə siyasi psixologiyadan, sosiologiyadan, iqtisadi elmlərdən və eləcə də riyaziyyat, kibernetika və coğrafiyadan, hətta tibb elmindən müəyyən empirik və kəmiyyət metodlarını götürməklə öz tədqiqat üsullarını daha da zənginləşdirmişdir. 1928-ci ildə ABŞ-da siyasətin öyrənilməsi məqsədilə riyazi metodun və statistik vasitələrin tətbiqinə dair ilk elmi işlərdən biri çap olunur. S.Raysın "Siyasətdə kəmiyyət metodu adlanan kitabında biheviorçu tədqiqat metodunun üstünlükləri bir daha təsdiqlənir.

Biheviorizmin me'yarı bundan ibarətdir ki, siyasi elm hər şeydən əvvəl, ciddi elmi, empirik metodun köməyilə adamların müşahidə olunan siyasi davranışını öyrənməlidir. Siyasi elmin sərvət mülahizələrindən azad olmasının zəruriliyini əsaslandırmağa çalışan biheviorçular iddia edirlər ki, sərvətlər və faktlar tədqiqatın nəticəsi yox, obyekti olmalıdır. Onlar həmçinin, siyasi davranışın psixoloji motivlə şərtləndiyini qeyd edirlər. Biheviorçu

metodun tərəfdarları siyasi elmin digər elmlərin, o cümlədən təbiət elmlərinin metodlarından və nailiyyətlərindən istifadə etməsini məqsədəuyğun hesab edirlər.

60-cı və xüsusilə 70-ci illərdə qərb siyasi elmində biheviorizmin böhranı başlanır. Məhz, bu zaman nəzəri və dünyagörüşü xarakterli xeyli konsepsiyalar təşəkkül tapdı, tədqiqatçıların siyasi fəlsəfəyə və siyasi nəzəriyyəyə diqqət yetirməsi gücləndi. Bu cəhət siyasətin sərvətlərdən və ideologiyadan azad olmasının labüdlüyü barədə biheviorial konsepsiyanın inkarı idi. Bir sıra amerika politoloqları, ilk növbədə. D.İston və başqaları siyasi elmin tədqiqində ən'ənəvi üsullara, keyfiyyət metodlarına və əxlaqi normalara qayıdılmasının tərəfdarı kimi çıxış etdilər.

Politoloqlar müasir siyasi elmin metodologiyasında iki əsas cərəyanın saxlanılması tərəfdarıdırlar:

1. Ən'ənəvi klassik və tə'sisatlı politologiyanın keyfiyyət metodları.
2. Bihevioral tədqiqat metodu (empirik və kəmiyyət metodları).

Belə mülahizə şübhəsiz, müasir dünyanın siyasi inkişafının real ümumi məntiqini əks etdirir.

Siyasi elmin hazırda istifadə etdiyi əhəmiyyətli metodlardan biri də **siyasi modelləşdirmədir**. Siyasi prseslərin modelləşdirilməsi hələ XX əsrin birinci rübündən həyata keçirilir. Siyasi modelləşdirmə metodunun tətbiqinə ilk cəhd göstərən L.Riçardson olmuşdur. O, 1919-cu ildə yazdığı "Müharibənin riyazi psixologiyası adlı kitabında iki milli dövlət arasında sür'ətlə silahlanma modelini işləyib hazırlayır. Siyasi elmdə riyazi modelin fəal tədbiqi 50-60-cı illərdə " biheviorial cərəyanın yüksəlişi ilə başlanır. Bu gün EHM-in və proqramlaşdırma vasitələrinin təkmilləşdirilməsi ilə əlaqədar olaraq makro və mikro proseslərin modelləşdirilməsi siyasi elmin metodologiyasının inkişafında perspektivli istiqamətə çevrilir. Siyasətin sistemli modelləşdirilməsi siyasi həyatın həm dinamik və həm də stoxastik modelini əhatə edir ki, bu da silsilə şəklində təkrarlanan seçki proseslərinin və kompaniyasının, eləcə də parlament seçkilərinin nəticələrinin təhlili üçün fəal tədbiq olunur.[1] Siyasi proseslərin

---

[1] Плотинский Ю.М. Математическое моделирование динамики социальных процессов. М, 1992. Səh.39-40.

tədqiqində sosioloji, antropoloji, psixoloji və digər metodlardan da istifadə olunur.

**Sosioloji metod** siyasətin cəmiyyətin vəziyyətindən, iqtisadi münasibətlərdən, sosial strukturdan, ideologiya və mədəniyyətdən asılılığının aydınlaşdırılması ilə bağlıdır.

**Antropoloji metod** siyasəti nəzərdən keçirərkən sosioloji metoddan fərqli olaraq sosial amilləri deyil, məhz, insanın təbiətini başlıca me'yar kimi qəbul edir. Psixoloji metod antropoloji metodla müəyyən oxşarlığa malikdir. Bu metod da insana siyasi hadisə kimi yanaşır. **Psixoloji metod** antropoloji metoddan fərqli olaraq ümumiyyətlə insanı yox, konkret fərdləri spesifik xüsusiyyətləri ilə öyrənir.

Siyasi fikir təşəkkül tapdığı vaxtdan bu günə qədər siyasi tədqiqat metodları və metodologiyası böyük təkamül yolu keçmişdir.

# II FƏSİL

## SİYASİ FİKRİN TƏŞƏKKÜLÜ VƏ TƏKAMÜLÜ

### 1. ANTİK SİYASİ TƏSƏVVÜRLƏR

İctimai şüurun müəyyən forması olmaq e'tibarı ilə siyasi fikir və ideyaların təşəkkülü antik dövrə təsadüf edir.[1] Siyasi fikir və ideyaların obyektiv məzmunu barədə elmdə indiyə kimi mübahisələr mövcuddur. Siyasi fikrin məzmununun müəyyənləşdirilməsinə tədqiqatçılar müxtəlif mövqelərdən yanaşırlar. Bə'zi tədqiqatçılar belə hesab edir ki, siyasi təsəvvür və fikrin məzmunu dövlət və hüquq haqqında biliklərin çoxluğu ilə səciyyələnir, digər tədqiqatçıların fikrincə onun məzmunu siyasi-hüquqi tə'sisatların inkişafının qabaqcadan nəzəri baxımdan duyulması ilə əlaqədardır. Elə müəlliflərə də rast gəlinir ki, onlar siyasi **fikrin və ideyaların** məzmununun sinfi mübarizənin müxtəlif forma və metodlarından ibarət olduğunu iddia edir, bir qrup alim isə həmin məzmunun müəyyənləşdirilməsində doktrinaların siyasi fikrin sonrakı inkişafına tə'sirini başlıca me'yar kimi qiymətləndirir.

Maraqlıdır ki, mütəxəssislərin bir qismi siyasi fikrin məzmununa dair keçmişə aid doktrinaların və konsepsiyaların müasir baxımdan qiymətləndirilməsinə xüsusi diqqət yetirirlər. Nəhayət, siyasi fikir tarixi və onun məzmunu bə'zi hallarda dövlət-hüquq tə'sisatlarının əsl təbiətinin, mahiyyətinin dərk olunması və dövlət-hüquq haqqında biliklərin təkamül prosesinin dərinləşməsi və inkişafı kimi nəzərdən keçirilir.[2] Şübhəsiz, bu müxtəlif konsepsiyalarda siyasi fikir tarixinə aid cəmiyyət

---

[1] Bu fəsildə yalnız siyasi fikrin inkişafında xüsusi əhəmiyyət kəsb edən ideya və tə'limlərə diqqət yetirəcəyik.

[2] История политических и правовых учений. Древний мир. М.,1985 Səh 3-4, 340-347.

üzvlərinin öz aralarında və allahla qarşılıqlı münasibətləri, hüquq və vəzifələri də işıqlandırılır. Qədim miflərin başlıca ideyası mövcud sosial və siyasi-hüquqi qaydaların ilahi mənşəyə malik olmasını əsaslandırmaqdan ibarətdir.

Eramızdan əvvəl, birinci minillikdə qədim dünyanın mədəni ölkələrində siyasi təsəvvürlərin müəyyən səmərəli inkişaf meyli nəzərə çarpır. Antik Şərq ölkələrində (Misir, Hindistan, Çin) sinfi və ideya-siyasi mübarizə şəraitində siyasi biliklərə dair ilk təsəvvürlər və siyasi biliklərin sahəsi kimi siyasətin əsasları təşəkkül tapır.

Siyasi biliklərin və təsəvvürlərin **ilk vətəni qədim Misirdir.** Bizim eradan əvvəl, IV-III minillikdə Misirdə quldarlıq dövləti yaranır. Bu dövlət Fir'onun başçılıq etdiyi mərkəzləşmiş bürokratik monarxiyadan ibarət idi. Quldarların siyasi ideologiyasında ictimai-siyasi sahədə müxtəlif təbəqələrin qeyri-bərabərliyi, "yuxarıların "aşağılar üzərində üstünlüyü və s. kimi təsəvvürlər hakim yer tuturdu. Dövlətin ilahi mənşəyə malik olması fir'onlara sitaişdə ifadə olunurdu. Mifologiya fir'onları yer üzünün allahı kimi təsvir edirdi. Qədim Misirin dövlət sənədlərindən birində allahın çar II Ramzesə müraciəti belə ifadə olunur: Mən sənin atanam, mən sənə ilahi vəzifə verdim ki, idarə edə biləsən.[1] Quldarlarla qullar arasında mübarizəni əks etdirən quldarlıq ideologiyası müxtəlif qədim mənbələrdə, o cümlədən ədəbi-siyasi traktatlarda öz təcəssümünü tapmışdır. Həmin ədəbi-siyasi mənbələr nəsihətlər şəklində tərtib olunurdu. Belə nəsihətlərdən məşhuru "Atanın öz oğluna nəsihəti"dir. Bu nəsihətdə hakimiyyətdə olanların dövləti necə idarə etməsinə dair məsləhətlər verilir.

"Atanın öz oğluna nəsihəti" traktatının müəllifi hakim dairələrin baxışlarını ifadə edərək yoxsulları çar hakimiyyətinin düşmənləri e'lan edir və buna görə yoxsullara, qullara qarşı terrora çağırır. Yoxsullara belə münasibət həm də ondan irəli gəlirdi ki, sosial-siyasi qeyri-bərabərliyin ədalətsiz hal olduğuna məhz, onlar daha çox inanırdılar.

"Ümidsiz adamın öz ruhu ilə söhbəti " adlı digər bir nəsihətdə axirət dünyasının mövcudluğuna şübhə ilə yanaşılır,

---

[1] История политических и правовых учений. М., 1988. Səh.26-30.

itaətkarlığa inam hissi zəifləyir və dini görüşlər sistemi şübhə altına alınır. Bu nəsihətdə müəyyən ictimai motivlər, xüsusilə "zorakılığa " qarşı e'tiraz diqqəti cəlb edir. Nəsihətin müəllifi qeyd edir ki, hər yerdə soyğunçuluqdur, qardaş qardaşın əmlakını mənimsəyir və sair. Yoxsulların ədalətsiz ictimai qaydalara şübhəsinin artmasının əhəmiyyəti bundan ibarətdir ki, mövcud dövlət hakimiyyətinə, Misir çarlığının istibdad üsul-idarəsinə qarşı e'tiraz hissi duyulur. Qədim Hindistanda quldarlıq quruluşunun müdafiəsinə istiqamətlənən siyasi fikirlər öz əksini **brahmanizm, buddizm** kimi dini-siyasi ideologiyalarda, o cümlədən siyasi traktat kimi səciyyələnən "Artxaşastrda tapmışdı. Brahmanizm ilk növbədə əhalinin azad, lakin hakim dairələr ilə bərabər hüquqa malik olmayan hissəsinin-**varnanın** ideologiyası idi. Brahmanizmə görə hər bir varna allah tərəfindən göndərilmiş qaydaları özünə təlqin etməlidir.

Brahmanizmə görə insanların daxili aləmi, hissləri illuziyalardan başqa bir şey deyildir. Buradan belə bir qənaət hasil olur ki, insanların əziyyəti, yoxsulluq, kədər, fəlakət və s. də illuziyadan ibarətdir. İnsanın varlığında başlıca yeri bədən deyil, ruh tutur fikrini iddia edən brahmanizm adamları öz həyat şəraitini yaxşılaşdırmaq, cəmiyyət quruculuğunda iştirak etmək sə'ylərindən uzaqlaşdırmağa çalışırdı. Brahmanizm dini-siyasi tə'liminə görə adamlar yalnız öz ruhlarını təkmilləşdirməlidirlər. Çünki ruh ölməzdir, əbədidir. Beləliklə, brahmanizm ideologiyasının siyasi mə'nası bundan ibarətdir ki, istismar olunanların yer üzündə istismardan azad olması qeyri-mümkündür.

Brahmanizmin siyasi ideologiyasını əks etdirən mühüm yazılı abidələrdən—mənbələrdən biri "Manu qanunlarıdır. Manu qanunlarında ictimai-siyasi sahədə qeyri-bərabərliyə, dövlətə və istibdada əsaslanan çar hakimiyyətinin mənşəyinə, mahiyyətinə dair maraqlı fikirlər irəli sürülür. "Manu qanunu " varnanın ali təbəqəsinin üstünlüyünün qorunub saxlanmasını mövcud dövlət quruluşunun müdafiə edilməsində görürdü.

Qədim Hind siyasi fikrinin inkişafında "Artxaşastr adlanan siyasi traktat mühüm rol oynamışdır. Bu traktatda dövlətin idarə olunması məsələsinə xüsusi diqqət yetirilir. Traktatın müəllifləri özlərinə qədərki mütəfəkkirlərin siyasətə dair fikirlərindən, ən

qədim hind siyasi fikrinin zəngin ən'ənələrindən geniş istifadə etmişlər. Artxaşastrda güclü mərkəzləşdirilmiş dövlət ideyası, quldarlıq cəmiyyətinin bütün iqtisadi və siyasi həyatının çar tərəfindən (heç bir məhdudiyyət qoyulmadan) idarə olunması fikri başlıca yer tutur. Hətta belə bir ideya irəli sürülür ki, hakimiyyəti qoruyub saxlamaq naminə çar qanunu pozmaq hüququna malikdir və bu məqsədlə bütün vasitə və tədbirlərə əl ata bilər. Traktatda həmçinin xarici siyasət, müharibə və sülh məsələlərinə böyük diqqət yetirilir. Onun müəllifləri açıq şəkildə qeyd edirlər ki, müharibənin məqsədi başqa dövlətlərin əmlakını, sərvətlərini, torpaqlarını zəbt etməkdən ibarətdir.

Digər dini-siyasi buddizm ideologiyasına görə hansı varnaya (təbəqəyə) mənsub olmasından asılı olmayaraq bütün adamlar mə'nəvi bərabərliyə malik olmalıdır. Bu ideologiyada belə bir maraqlı fikir ifadə olunur ki, insanlar cəmiyyətin yarandığı ilk vaxtdan bərabər və azad olmuşlar. Lakin sonralar oğurluğun və yalanın təzahürü ilə əlaqədar sosial cəhətdən qeyri-bərabərlik təşəkkül tapmışdır.

Bizim eradan əvvəl II minillikdə qədim şərqin digər ölkələrində də siyasi fikrin özünə məxsus təzahürü diqqəti cəlb edir. Belə ki, həmin dövrdə Çində quldarlıq dövlətinin yaranması ilə müxtəlif istiqamətli siyasi fikirlər meydana çıxır. Quldar əyanların hakim mövqe tutan siyasi ideologiyası çar hakimiyyətinin ilahi mənşəyə malik olmasını əsaslandırırdı. **İn** quldarlıq dövlətinin yaranmasından sonra (B.e.ə. II minillikdə) İn əyanlarının ideologiyası əsaslandırmağa çalışırdı ki, əyanların hökmranlığı səmanın hökmüdür, çar bütün mövcud olanların fövqündə durur, o, səmanın oğludur.

Hakim dairələrin sərt münasibətinə qarşı kütlələrin e'tirazını ifadə edən siyasi fikirlər xalq mahnılarında öz əksini tapırdı. Belə mahnılarda xalq xoşbəxtlik və ədalət haqqında arzularını, hakim dairələrin fəaliyyətinə nifrətini ifadə edirdi. Yoxsulların passiv e'tirazları **daosizm** tə'limində tərənnüm olunmuşdur. Bu tə'limin əsasını qədim Çinin müdrik şəxsiyyətlərindən biri olan **Laotszı** qoymuşdur. Daosizm tə'liminin əsası "Daodo tszin kitabında formalaşdırılmışdır. Həmin kitabda çar hakimiyyətinin ilahi mənşədən ibarət olması ideyası irəli sürülür. Lao-Tszının sosial

idealı adamların bərabərliyinə və istismardan azad olmasına əsaslanan quruluş idi. Lakin o, belə quruluşun bərqərar olmasını kütlələrin mübarizəsində deyil, ibtidai icma cəmiyyətindəki qaydalara qayıtmaqda görürdü. Lao-tıszı müharibə əleyhinə mübarizəyə böyük diqqət yetirmişdir.

Qədim Çində meydana çıxan siyasi tə'limlərdən digəri **Konfutsinin** (B.e.ə.551-479cu illər) tə'limi idi. Lao-Tıszının əleyhdarı olan Konfutsi imtiyazlı təbəqələrin mənafeyini müdafiə edirdi. O, vaxtı keçmiş ictimai və siyasi qaydalara haqq qazandırır, mərasimlərə və ən'ənələrə əsaslanan idarəetmənin tərəfdarı kimi tanınırdı. Konfutsi qeyd edirdi ki, dövlət elə idarə olunmalıdır ki, xalq dövlətin işinə müdaxilə edə bilməsin. Konfutsinin tə'limində "jen ideyası (insanpərvərlik, humanizm) mühüm yer tutur.

Qədim Çin siyasi fikrinin görkəmli nümayəndələrindən biri də **Mo-tıszıdır**. Onun siyasi görüşləri Konfutsinin fikirlərinə qarşı çevrilmişdi. Mo-tıszının tə'limi yoxsulların mənafeyini ifadə edirdi. O, bütün adamların bərabərliyi ideyasını irəli sürürdü. Bu prinsipdən çıxış edərək qeyd edirdi ki, adamlar siyasi həyatda da bərabər hüquqa malik olmalı, dövlət işlərinin idarə olunmasında eyni hüquqla iştirak etməlidirlər. Dövlətin idarə edilməsinin me'yarı adamların hansı təbəqəyə malik olması deyil, məhz, onların qabiliyyəti və xalqa xidmət etmək əzmi olmalıdır. Bu mütəfəkkirin fikrincə dövlətin güclü və sabit olması onu idarə edənlərin varı-sərvəti, mənşəyi və qohumluq münasibətləri ilə deyil, yalnız adamların şəxsi keyfiyyətləri və qabiliyyəti sayəsində tə'min olunur. Mo-tıszının tə'liminə görə ali hakimiyyət xalqa məxsus olmalıdır.

Konfutsinin fatalist ideyalarına qarşı mübarizə aparan bu Çin mütəfəkkiri əsaslandırırdı ki, əgər xalq öz mənafeyi uğrunda fəal mübarizə apararsa, o, azadlığa, ədalətə və zəngin həyata nail ola bilər. Ümumiyyətlə, Mo-tıszının adamların bərabərliyi, xalqın dövlətin idarə olunmasında iştirak etmək hüququ barədə siyasi ideyaları, mürtəce müharibələri pisləməsi və mövcud sosial-siyasi qaydaları tənqid etməsi mütərəqqi əhəmiyyət kəsb edirdi.

Qədim Çində siyasi fikirlər sonralar Xan-Fey və digər mütəfəkkirlər tərəfindən daha da inkişaf etdirilmişdir. Qədim şərqin quldarlıq dövlətlərində təşəkkül tapan siyasi təsəvvür və

ideyalar antik quldarlıq cəmiyyətinin başlıca siyasi fikir istiqaməti olmaqla qədim Yunanıstanda və Romada siyasi fikrin inkişafına tə'sir göstərmişdir.

**Azərbaycan xalqının siyasi fikir tarixi də qədimdir.** Azərbaycanda siyasi fikir və ideyaların təşəkkülü bizim eradan əvvəl birinci minilliyə təsadüf edir. Azərbaycan xalqının zəngin fikir tarixi ümumi şəkildə müqəddəs kitablar külliyyatı hesab edilən **Avestada** öz əksini tapmışdır. Elmi mülahizələrə görə Avesta 21 kitabdan ibarət olmuşdur. Elmi mənbələrdə belə bir ehtimal nəzərə çarpır ki, Makedoniyalı İsgəndərin işğalçı hücumları dövründə Avestaya daxil olan müqəddəs kitabların böyük əksəriyyəti məhv olmuşdur. Təsadüf nəticəsində ancaq üç kitab: "Vendidad ", Yasna və "Vispered salamat qalmışdır.

Avesta quldarlıq dövründə əhmənilər padşahlığının rəsmi dini olmuş, sonralar feodalizmin təşəkkül tapdığı ilk dövrlərdə isə Sasanilər dövlətinin hakim dini kimi tanınmışdır.[1]

Avestanın məzmununu belə bir fikir təşkil edir ki, dünyada iki başlıca qüvvə-xeyir və şər qüvvələr mövcuddur. Həmin qüvvələr arasında daim barışmaz mübarizə gedir. Xeyir qüvvələr xeyirxahlığın, paklığın və insanlara xoşbəxtlik bəxş etməyin təcəssümü kimi qiymətləndirilir. Şər qüvvələr isə fəlakətlərin, bədbəxtliklərin, pisliklərin başlıca mənbəyi kimi əsaslandırılır.

Avestanın bə'zi paraqraflarında demokratik ideologiyaya, cəmiyyətin yoxsul təbəqələrinin mənafeyinin müdafiəsinə və digər sosial-siyasi məsələlərə dair maraqlı fikirlər diqqəti cəlb edir.

Cəmiyyət həyatında xeyirlə şərin ekiz olması, bunların mübarizəsi, ən başlıcası isə haqqın, ədalətin, düzgünlüyün tərənnümü Avestanın başlıca qayəsini təşkil edir və Zərdüşt etikasının mahiyyətini təcəssüm etdirir. Avestadan aydın olur ki, zərdüştliyin ən ali əxlaq prinsipi müqəddəs qanunlara, ədalətli ictimai qaydalara riayət etməkdir. Ümumiyyətlə, Avestanın təhlili belə qənaətə gəlməyə əsas verir ki, bu müqəddəs kitab siyasi müdrikliyə çağırışdır, maarifçilik ideyalarının tərənnümüdür.

Avestada ifadə olunmuş zərdüşt qanunları mahiyyət e'tibarı ilə ictimai münasibətlərin hüquqi əsası kimi tə'sir bağışlayır.

---

[1] Ətraflı bax:M. Məlikova. E.Məmmədov. Azərbaycanda siyasi-hüquqi fikir. B., 1984.

Avestada elə müdrik, ülvi mülahizələrə rast gəlirik ki, bunlar həmişə bəşəriyyətin idealı olub. Bu mə'nada haqqında danışdığımız müqəddəs kitabda **müqəddəs ideyalara çağırış**-ideal cəmiyyət, sülh, düşmənçiliyin olmadığı ictimai quruluş və s. haqqında fikirlər Azərbaycan xalqının siyasi fikir tarixinin bəşəri, dünyəvi mahiyyət kəsb etdiyini, zəngin mədəni irsə malik olduğunu təsdiqləyir. Bə'zi elmi mənbələrdə qeyd olunur ki, zərdüşt qanunlarında hakimiyyət, onun xarakteri, hakimiyyətin xarakterinə münasibət məsələsi öz əksini tapmışdır. Hətta Zərdüştün maarifçi monarxiya tərəfdarı olmasına dair bə'zi mülahizələr də mövcuddur. Avestada cəmiyyətin dörd başlıca təbəqəsi haqqında fikir yürüdülür. Həmin təbəqələr bunlardır: kahinlər, döyüşçülər, əkinçilər və sənətkarlar. Bu bölgü şübhəsiz, sonralar cəmiyyətin sosial tərkibi haqqında Azərbaycan siyasi fikrinin təşəkkülü və inkişafına faydalı tə'cir göstərmişdir. Avestada tərənnüm olunan qiymətli siyasi fikirlər xalqımızın qədim milli sərvətidir. Elə sərvət ki, ondan bu gün də bəhrələnirik.

Antik Qərb ölkələrində ( Yunanıstan, Roma ) siyasi fikir daha da inkişaf edərək siyasi tə'lim və nəzəriyyələr səviyyəsinə yüksəlir. Qədim Yunanıstanın siyasi fikir tarixi Yunanıstanda quldarlıq cəmiyyətinin və dövlətin təkamülü ilə sıx bağlıdır. Qədim yunanların siyasi fikri öz inkişafında üç başlıca mərhələdən keçmişdir. Birinci mərhələ Yunanıstanda dövlətçiliyin formalaşması prosesi ilə eyni vaxtda təşəkkül tapan dövlət və hüquq haqqında təsəvvürlər dövrünü (b.e.ə. VIII-VI əsrlər) əhatə edir. İkinci mərhələ quldarlıq demokratiyasının yüksəlişi və tənəzzülü dövrünə uyğun gələn dövlət-hüquq barədə tə'limlərin inkişafı dövrüdür (b.e.ə.V-IV əsrlər). Bu tə'limlər başlıca olaraq Afinada təşəkkül tapıb. Üçüncü mərhələ ellinizm dövründə polis sisteminin tənəzzülünü əks etdirən siyasi nəzəriyyələrin böhranını səciyyələndirir (b.e.ə.IV-II əsrlər).

Qədim yunan dövlətinin yaranması xüsusiyyətlərinin tədqiqinə həsr olunmuş ilk yazılı mənbələrdən biri şair Kesiodun "Əmək və din poemasıdır. Yunan dövlətçiliyinin formalaşması və inkişafı məsələlərinə mühüm diqqət yetirən mütəfəkkirlərdən biri **Pifaqor** olmuşdur. Pifaqorun tə'limində aristokratik dövlətə aid

motivlər üstünlük təşkil edir. Pifaqor demokratik dövlət quruculuğunun əleyhinə çıxırdı. Onun fikrincə dövləti xüsusi dini-etik tərbiyə almış və başqalarından yüksək səviyyəsi ilə fərqlənən adamlar təbəqəsi idarə etməlidir və hamı dövləti idarə edənlərə sözsüz tabe olmalıdır. Pifaqor belə bir fikri tə'kidlə qeyd edirdi ki, dövlətin verdiyi əmrlər,sərəncam hökmən yerinə yetirilməli, qanunda yazılanlara riayət edilməlidir. Bir sözlə, bu mütəfəkkirin tə'limində aristokratik ruh aydın nəzərə çarpır. Yeri gəlmişkən qeyd edək ki, «fəlsəfənin» mənasını ilk dəfə açıqlayan məhz, Pifaqor olmuşdur: fəlsəfənin mənası həqiqəti tapmaqdır.

Böyük filosof **Heraklitin** siyasi tə'limi də maraq doğurur. Heraklitə görə dünya ziddiyyətlərin məcmuudur. Hər şey ziddiyyətlərin mübarizəsindən, müharibələrdən yaranır. O, xalqa nifrət bəsləməsini açıq bildirirdi, adamların çoxluğunu yox, azlığını qəbul edirdi. Bu filosof iddia edirdi ki, bir nəfərin iradəsinə tabe olmaq sarsılmaz qanundur. Heraklit hüququ müharibənin və zərurətin nəticəsi kimi əsaslandırır, ilahi qanunların əbədiliyini qətiyyətlə bildirirdi. Bununla belə göstərirdi ki, ədalətli və qeyri-hüquqi olan nə varsa insanın özü tərəfindən yaradılır, çünki allah üçün hər şey gözəl və ədalətlidir. Ümumiyyətlə, qədim yunanlarda dövlətçilik ideyası mücərrəd anlayış, reallığın xəyali obrazı kimi başa düşülürdü.

Qədim Yunanıstanın siyasi-hüquqi fikir tarixində böyük zəka sahibi **Demokritin** görüşləri xüsusi yer tutur. Demokrit adamların maddi tələbatını ictimai tərəqqinin zəruri amili kimi qiymətləndirir və bəşəriyyətin yüksələn xətlə inkişafına inanırdı. O, iddia edirdi ki, dövlət və hüquq heç bir kənar qüvvə tərəfindən yaradılmayıb. Dövlət məhz, adamların uzun sürən mübarizəsinin məhsuludur və vətəndaşların ümumi mənafeyinin təcəssümüdür. Demokritin fikrincə adamlar o halda azad ola bilər ki, bütün qanun və qaydalara dəqiq riayət olunması, bütün vətəndaşların bərabərliyi və yekdilliyi üçün şərait yaradılsın. Demokrit siyasəti insanın sə'ylərinin məhsulu kimi qiymətləndirir və onu böyük sənət adlandırır. Elə buna görə o, idarəetmə orqanlarında nadanların, kütbeyinlərin deyil, zehni qabiliyyəti, bacarığı və bilikləri ilə başqalarından seçilən adamların yerləşdirilməsinə üstünlük verirdi.

B.e.ə. V əsrin ortalarında Yunanıstanın müxtəlif yerlərində özlərini "müdriklik müəllimi adlandıran adamların spesifik siyasi tə'limi meydana gəlir. **Sofizm** adlanan bu tə'limdə iki cərəyan diqqəti cəlb edir: 1.Demokratik quruluşu və maarifçiliyi təbliğ və müdafiə edən mütərəqqi cərəyan. Bu cərəyanın görkəmli nümayəndələri Protoqor, Qorqi, Antifon, Hippi, Likofron, Alkidam və başqaları idi. 2.Aristokratiyanı, oliqarxiyanı müdafiə edən fərdi-anarxist mürtəce cərəyan. Həmin cərəyanı isə Frizimax, Kallikl, Kritiy və digərləri təmsil edirdi.

Sofistlər təbii hüquq nəzəriyyəsinin başlıca məsələlərinin işlənib hazırlanmasının ilk təşəbbüsçülərindəndir. Onlar göstərirdilər ki, siyasət ilahi mahiyyət daşımır, təbiətin məhsuludur, dövlət və hüquq fərdlərin iradəsinin nəticəsidir, adamlar arasında razılıq əsasında təşəkkül tapıb. Dövlət və hüquq vətəndaşların xüsusi mənafeyinin tə'min olunmasına, onların təhlükəsizliyinin qorunmasına xidmət etməlidir. Sofizm tə'limini təmsil edən hər iki cərəyan bir-birinə zidd olsalar da dövlət və hüquq məsələlərinə münasibətdə bə'zən eyni mövqedən çıxış edirdilər.

**Sokratın** siyasi baxışları da diqqəti cəlb edir. O, Afinada qərarlaşan "həddən artıq demokratiyaya və onun nümayəndələrinə düşməncəsinə münasibət bəsləyirdi və açıq şəkildə aristokratik dövlət quruluşuna haqq qazandırırdı (sparta aristokratiyasına). O, dövlətin idarə olunmasında demosun-xalq gütlələrinin əksəriyyətinin iştirakına e'tiraz edir və göstərirdi ki, dövlətə siyasətlə məşğul olmağı bacaran adamların müəyyən qrupu rəhbərlik etməlidir. Sokratın fikrincə dövlət zəruri olan elə bir şər qüvvədir ki, hamı ona tabe olmalıdır, hakimiyyətin tələblərini vicdanla yerinə yetirməlidir (əxlaqi qanunları əsas tutaraq). Yeri gəlmişkən qeyd edək ki, onun tə'limində əxlaqi motivlər üstünlük təşkil edir. **Platon** antidemokratik dövlət formasının ideoloqu kimi çıxış edirdi. Onun başlıca siyasi ideyaları "Dövlət və "Qanun adlı traktat-dialoqlarında irəli sürülmüşdür. Platon dövlət-hüquq haqqında öz görüşlər sistemini fəlsəfi baxımdan əsaslandırır. O, ilahi mənşəyə malik ideal dövlət quruluşu haqqında mükəmməl tə'lim işləyib hazırlayır. Platona görə belə dövlətə filosoflar başçılıq etməlidir. O, ideal dövlət quruluşunun siyasi forması kimi aristokratik respublikaya üstünlük verirdi. Quldarlara xidmət

etməli olan bu dövlət formasını idarə edənlər guya ən yüksək düşüncə sahibləridir və diktatorluq metodları ilə əhalinin bütün təbəqələrini idarə etməlidirlər. İdeal dövlət zahiri baxımdan monarxiya şəklində və ya aristokratik formada təşkil oluna bilər. Platon ictimai bərabərsizlik tərəfdarı kimi çıxış edirdi.

Qədim Yunanıstanın digər böyük filosofu, yunan fəlsəfəsinin makedoniyalı İsgəndəri adlandırılan (Karl Marks) **Aristotel** spesifik və orijinal siyasi görüşlər sistemi işləyib hazırlamışdır. Onun başlıca siyasi görüşləri "Siyasət və "Afina siyasəti adlı kitablarında şərh edilmişdir. Aristotel özünəqədərki dövlət və hüquq haqqında ideyaları, xüsusilə bunların mənşəyi, mahiyyəti, formaları və əhəmiyyəti barədə müxtəlif siyasi fikirləri təhlil edib ümumiləşdirmiş və inkişaf etdirmişdir. O, özünün siyasi tədqiqatlarını belə bir fikrin sübuta yetirilməsi ilə başlayır ki, cəmiyyətdəki qeyri-bərabərlik ona daxilən xas olan hadisədir. Bu qeyri bərabərlik cəmiyyətə kənardan nüfuz etməyib. Bunu şərtləndirən başlıca səbəb quldarlığın meydana gəlməsidir. Birinin hakimiyyətdə, digərinin isə itaətdə olması quldarlığın öz təbiətindən doğur. Dövlətin mövcudluğu üçün quldarlıq cəmiyyəti zəruri şərait yaradır. Dövlət heç də adamlar arasında qabaqcadan nəzərdə tutulan razılıq əsasında meydana gəlməyib. O, təbii yolla, tarixən təşəkkül tapmışdır. Aristotel hüquqi ideyaların mahiyyətini bunda görür ki, həmin ideyalarda dövlətin məzmunu, təbiəti açıqlanır, hüquq vasitəsilə vətəndaşların birgə ümumi mənafeləri ifadə olunur və möhkəmləndirilir.

Aristotelin siyasi tə'limində qanunların mahiyyətinə xüsusi diqqət yetirilir və bunların iki başlıca kateqoriyalardan ibarət olması qeyd edilir:

1.Ümumi təbii qanunlar. 2.Hər bir xalq tərəfindən yaradılan xüsusi qanunlar. Ümumi qanunlar xüsusi qanunlardan yüksəkdə durur. Qanunların məcmuu siyasi ədalətdə təşəkkül tapır və ya hüquq azad və bərabər adamlar arasındakı münasibətlərdə təzahür edir.

Ümumiyyətlə, qədim yunan mütəfəkkirləri dövlət və hüquq haqqındakı tə'limi xeyli inkişaf etdirdilər, bu tə'limə bir sıra qiymətli ideyalar gətirdilər və beləliklə, bəşəri sosial biliklərin daha da zənginləşməsinə mühüm töhvə bəxş etdilər.

Antik dövrdə siyasi fikir Yunanıstanla yanaşı Romada mühüm inkişaf istiqaməti kəsb etdi. B.e.ə. II əsrdə **plebeylər** hərəkatının tə'siri altında **Qrakx qardaşlarının** siyasi fikirləri təşəkkül tapdı. Xalqı təmsil edən həmin qardaşlar Romanın siyasi həyatının demokratikləşdirilməsi istiqamətində bə'zi təşəbbüslər etdilər. Qrakx qardaşları qədim romanın aristokratik quruluşunu kəskin tənqid edir və mülkiyyət sahəsində qeyri-bərabərliyə qarşı çıxırdılar. Bu qardaşların mühüm tələblərindən biri iri torpaq mülkiyyətini məhdudlaşdırmaq və əslində bu yolla Romanın siyasi həyatının demokratikləşməsinə nail olmaq, mülkiyyətsiz və az mülkiyyətli roma vətəndaşlarının dövlət işlərinin həllinə tə'sirini gücləndirməkdən ibarət idi. Tiberi Qrakxın ideyaları mahiyyət e'tibarilə yunan quldarlıq demokratiyasının siyasi fikirləri ilə səsləşirdi.

Qədim Romada qabaqcıl siyasi ideyaların inkişafı görkəmli filosof və şair, "Şeylərin təbiəti adlı poemanın müəllifi **Lukretsi Karın** adı ilə bağlıdır. Onun siyasi görüşlər sistemi antik Romada siyasi fikrin inkişafında çox mühüm mərhələdir. Lukretsi Kar quldarlıq demokratiyasının ideoloqu idi. O, cəmiyyətin inkişafı prosesinə mütərəqqi hal kimi baxaraq göstərirdi ki, ictimai tərəqqi əmək alətlərinin yaxşılaşdırılması ilə bağlıdır. Əmək alətlərinin təkmilləşməsi nəticəsində adamlar cəmiyyətdə bir-biri ilə ünsiyyət yaradır, özlərini saxlamaq və ümumi rifah naminə öz aralarında ictimai müqavilələr bağlayırlar. Lukretsinin fikrincə tədricən xüsusi mülkiyyət meydana çıxır, bundan sonra ictimai bərabərsizlik yaranır, hərc-mərclik əmələ gəlir. Lukretsinin bu siyasi fikirləri təxminən Platonun ideyalarına uyğun gəlir. Bu filosofun fikrincə adamlar cəmiyyətdəki bərabərsizliyi və hərc-mərcliyi aradan qaldırmaq məqsədilə hakimiyyətin seçilməsi və qanunların verilməsi qaydalarını öyrənməyə başlayırlar. Beləliklə, ictimai müqavilə nəticəsində dövlət və hüquq yaranır.

Öz siyasi baxışları ilə Roma cəmiyyətinin yuxarı dairələrinin mənafeyini ifadə edənlərdən biri də **M.T.Siseron** idi. O, quldarlıq aristokratiyasının ideoloqu kimi çıxış edirdi. Öz siyasi tə'limində Platonun, Aristotelin və stoiklərin baxışlarını əks etdirən Siseron təbiət qanunlarına əsaslanaraq ictimai bərabərsizliyə haqq qazandırmağa çalışırdı. Onun fikrincə, dövlətin

meydana gəlməsi insanın təbiətinə xas olan bir sıra cəhətlərlə, məs: adamların "birləşməyə, ittifaqa, dövlətə meylli olması ilə bağlıdır Siserona görə dövlətin başlıca vəzifəsi xüsusi mülkiyyəti müdafiə etməkdir. Dövlət bəşəriyyətin təşəkkülü nəticəsində yaranmışdır. O, təkcə xüsusi mülkiyyətin deyil, həm də dövlət mülkiyyətinin müdafiə olunması zərurətindən meydana gəlmişdir. Siseron dövlətin təsnifatı məsələsinə də böyük diqqət yetirərək qeyd edirdi ki, onun üç əsas forması mövcuddur: Demokratiya, aristokratiya və monarxiya. Bu üç dövlət formasına münasibətdə üstünlüyü monarxiyaya verirdi. O, müharibə məsələsinə toxunaraq onun ədalətli və ədalətiz xarakterə malik olduğunu nəzərə çatdırırdı.

Qədim Romanın siyasi fikir tarixində **stoiklərin** siyasi tə'limi xüsusi yer tutur. Stoiklərin tə'liminin əsasını **Zenonun** və **Xrizippin** ideyaları təşkil edir. Stoiklərin siyasi tə'limində Roma quldarlıq cəmiyyətinin ziddiyyətləri və tənəzzülü ifadə olunmuşdur. Onlar fəal siyasi mübarizədən imtina etməyə çağırır, bunun əvəzində adamların əxlaqi cəhətdən özünü təkmilləşdirməsinə, hökmdarların zülmünə qarşı əxlaqi e'tiraza üstünlük verirdilər. Quldarların mənafeyini ifadə edən stoiklərin yaratdığı **stoizm** tə'limini **Seneka** daha da inkişaf etdirdi. O, insanların mə'nəvi bərabərliyi mövqeyindən çıxış etsə də itaətkarlıq ideyasını təbliğ edir və köləliyi taleyin hökmü kimi əsaslandırırdı. Seneka qulların və əmlakı olmayan azad adamların üsyan edəcəyindən ehtiyat edərək məsləhət bilirdi ki, qullara humanist münasibət bəsləmək və onlara qarşı istismar üsullarını məhdudlaşdırmaq lazımdır.

Stoiklərin ideyalarını inkişaf etdirən ideoloqlardan digəri **Epiktet** idi. Onun siyasi görüşlərində məzlum təbəqələrin hakim dairələrə qarşı passiv e'tirazı ifadə olunurdu. Seneka kimi Epiktet də qulları fəal mübarizə metodlarından çəkinib əxlaqi cəhətdən özünütəkmilləşdirməyə çağırırdı. O, var-dövlətin, cah-cəlalın, eyş-işrətin əleyhinə çıxır, bunları şər qüvvə adlandırırdı. İstismarı pisləyən Epiktet qul-darları qullara qarşı münasibətdə "vicdanlı olmağa çağırırdı.

Romanın siyasi fikir tarixində Roma hüquqşünaslarının siyasi ideyaları özünəməxsus əhəmiyyətə malikdir. Roma

hüquqşünaslarının siyasi tə'limi hakim dairələrlə məzlumlar arasındakı kəskin ziddiyyətləri əks etdirirdi. Bu hüquqşünaslar hüququ xüsusi və ümumi hissələrə ayırırdılar. Hüquq sisteminin belə bölgüsü ilk dəfə roma hüquqşünası **Ulpian** tərəfindən irəli sürülmüşdür. Onun gəldiyi qənaətə görə xüsusi hüquq ayrı-ayrı adamların mənafeyini əks etdirirsə, ümumi hüquq dövlətin mənafeyinin ifadəsidir. Əlbəttə, belə bölgü hakim dairələri qane edirdi.

Roma hüquqşünasları xüsusi hüququn özünü də üç hissəyə ayırırdılar: təbii hüquq, xalqların hüququ və mülki hüquq. Belə bölgü mühüm siyasi mə'na daşıyırdı. Çünki həmin bölgünün məqsədi köləliyə, əhalinin müxtəlif təbəqələri arasında mövcud olan qeyri-bərabərliyə haqq qazandırmaq idi. Roma hüquqşünaslarının əksəriyyəti belə hesab edirdi ki, köləlik təbii hüquqa ziddir, bu mə'nada "xalqların hüququ baxımdan təbii hüququn əbədiliyini əsaslandırırdılar. Həmin hüquqşünaslar hakim dairələr (quldarlar) tərəfindən qullara qarşı terror tətbiq edilməsinə bəraət qazandırmaq məqsədilə qulları heyvanlardan fərqləndirməməyə çalışırdılar və iddia edirdilər ki, "qul şəxsiyyət deyildir. Görkəmli hüquqşünas Qay açıq şəkildə bildirirdi: Qullar, heyvanlar və digər şeylər. Ulpian isə qullara münasibətini belə ifadə edirdi: Qul və ya heyvan. Bununla yanaşı hüquqşünasların bir qismi e'tiraf edirdi ki, qullara belə münasibət insanın təbiətinə zidd olmaqla bərabər həm də təbii hüququn özünə qarşı istiqamətlənir.

Qədim Romada quldarlıq quruluşunun möhkəmləndirilməsi uğrunda mübarizəyə kilsə də qoşulmuşdu. Kilsə öz dini tə'limləri ilə sosial bərabərsizliyə, istismarçı dövlətə və hüquqa haqq qazandırırdı.

Roma imperiyasında ruhaniliyin hakim mövqe tutmasına sə'y göstərilməsini ifadə edən "teokratik nəzəriyyələr meydana çıxır. Keşiş **Avreli Avqustininin** fəaliyyəti məhz, bu dövrə təsadüf edir. Quldarlıq cəmiyyətinin əbədiliyini və sarsılmazlığını sübut etməyə çalışan Avqustini göstərirdi ki, köləlik allah tərəfindən göndərilmişdir. Onun fikrincə adamlar təbiət e'tibarilə bərabər olsalar da "qul öz qəbahətinə görə quldur, köləlik adının özü allah qarşısında günahkar olmağın rəmzidir. Buna görə qul öz ağasına inadkarlıqla xidmət etməlidir. Avqustini hesab edirdi ki,

xüsusi mülkiyyət, ictimai bərabərsizlik, dövlətli və kasıb olmaq ilahi mənşəyə malikdir. O, deyirdi: onu və başqalarını kim xəlq edib?-Allah Avqustini kilsənin və dövlətin mənşəyi məsələsinə dair öz tə'limini işləyib hazırlayır. Avqustininin tə'liminə görə dünyada iki aləm mövcuddur: İlahi aləm (kilsə) və yer aləmi (dövlət). Kilsə aləmi minillik aləm nəticəsində həyata keçirilən varlıqdır. O, yer aləmindən (dövlətdən) üstündür. Avqustini tə'kidlə qeyd edirdi ki, hökmdarın məqsədi kilsəyə xidmət etməkdən ibarətdir. Bir sözlə, Avqustininin tə'limində "teokratik imperiya ideyası hakim yer tutur[1] və bu ideyanın məzmununun dürüst, əhatəli öyrənilməsinə xidmət edir.

Siyasi fikir və ideyaların məzmununa dair elmi mülahizələr fərqli cəhətlərinə baxmayaraq həm də siyasi fikrin müasir vəziyyətini tədqiq etmək baxımdan əhəmiyyətlidir. Ümumiyyətlə, siyasi fikir tarixinin predmetinə müxtəlif siyasi-hüquqi təsəvvürlər, həmçinin, siyasi və hüquqi ideologiyanın bütün istiqamətlərinin mahiyyətinin açıqlanması daxildir.

İlk siyasi təsəvvürlər antik cəmiyyətdə müəyyən təbəqələşmənin, sinfi bölgünün və dövlətin meydana çıxması ilə təşəkkül tapır. Qədim şərq və qərb ölkələrində təzahür edən ilk siyasi fikirlər mifoloji zəmində nəzərə çarpır və insanın dünyada yeri haqqında mifoloji təsəvvürlərə əsaslanır. Mifoloji dünyagörüşü zəminində adamların yer üzündəki həyatı, onların dövlət quruculuğuna dair baxışları təsvir olunurdu.

## 2. ORTA ƏSRLƏRDƏ SİYASİ FİKRİN TƏZAHÜR XÜSUSİYYƏTLƏRİ

Orta əsrlər dövrü siyasi-elmi fikrin və ideyaların inkişafında mühüm tarixi mərhələdir. Bu mərhələnin mahiyyəti yeni tipli sosial-iqtisadi münasibətlərin formalaşması ilə müəyyən olunur. Mə'lum olduğu kimi V-VI əsrlərdə Qərbi Avropada feodalizm quruluşunun təşəkkül tapdığı bir sıra dövlətlər yaranır. Qərbi

[1] История политических учений. М., 1965. I hissə, Səh 82.

avropanın feodal cəmiyyətində katolik kilsəsi xüsusi yer tuturdu. Ruhanilər isə cəmiyyətin başlıca zümrəsi (təbəqəsi) sayılırdı.

Katolik kilsəsi özünün iqtisadi, siyasi qüdrətinə və ideoloji hökmranlığına əsaslanaraq feodalların aristokratik hissəsini özünə tabe etməyə cəhd göstərirdi. Kilsə xadimləri arasında **teokratik (dini)** nəzəriyyə geniş şöhrət qazanmışdı. Teokratik nəzəriyyə başda Roma papası olmaqla dünya hökmranlığına cəhd edən katolik dini təşkilatının mənafeyini ifadə edirdi. Teokratik nəzəriyyəyə "günəş və ay nəzəriyyəsi kimi tə'limlər daxil idi. Bu tə'limdə göstərilirdi ki, ay günəşdən şöləlendiyi kimi, kral hakimiyyəti də Papadan nurlanır. "İki qılınc nəzəriyyəsi də geniş yayılmışdı. Qədim İncil kitabından götürülən "iki qılınc ideyasına görə hökmdar öz qılıncını, yə'ni hakimiyyəti kilsədən alır və buna görə də həmin hakimiyyət kilsəyə tabe olmalıdır. Ümumiyyətlə, kilsə ali hakimiyyətə nail olmaq uğrunda mübarizədə teokratik nəzəriyyələrdən məharətlə istifadə edirdi.

X-XIII əsrlərdə feodalizm quruluşu və onun ideologiyası müxtəlif tə'limlər tərəfindən kəskin tənqidə mə'ruz qaldı. Bu hal feodalizmin ideoloji cəhətdən yeni istiqamətdə əsaslandırılmasını tələb edirdi. Belə ideoloji vəzifəni həyata keçirməyə ilk cəhd edən katolik dininin böyük ideoloqu keşiş **Akvinalı Foma** (1125-1174) oldu. O, Aristotelin bə'zi fəlsəfi müddəalarından katolik ehkamlarının əsaslandırılması və müdafiəsi üçün istifadə etməyə sə'y göstərdi. Akvinalı Foma Aristotelin fəlsəfəsindən hər şeydən əvvəl, passiv materiyaya həyat verən "fəal forma ideyasını əxz etdi. Akvinskiyə görə dünya iyerarxiya formalarına əsaslanır. Bu formalardan ən alisi aşağı formalara həyat verir. Həmin iyerarxiyaların fövqündə duran allah aşağı formaların yüksək formalara tabe olması prinsipini bərqərar etmişdir. Fomaya görə, cəmiyyət də belə prinsip üzrə təşkil olunmuş, yuxarılara və onlara tabe olan aşağılara bölünmüşdür. Göründüyü kimi, bu görkəmli din xadimi feodal iyerarxiyasına və onun təşkili prinsiplərinə sırf ilahi mə'na vermişdir.

Akvinalı Fomanın qanun haqqında tə'limi də bu məqsədə xidmət edir. O, insani və ilahi qanunların mövcudluğunu iddia edərək belə qənaətə gəlir ki, insani qanunlar ictimai həyat qayda-

larını müəyyənləşdirir, ilahi qanunlar isə "səma xoşbəxtliyinə nail olmaq yollarını göstərir.[1]

Bu teoloq (din nəzəriyyəçisi) Aristoteldən qanunların iki cür - təbii və müsbət olması ideyasını da mənimsəmiş və bu ideya əsasında belə qənaətə gəlmişdir ki, qanunların dörd növü mövcuddur: 1.İlahi təbii (əbədi qanun), 2.Təbii (insani təbii), 3.İnsani (insani müsbət). 4.İlahi (ilahi müsbət).

Fomanın fikrincə, "əbədi qanun dünyanı idarə edən ilahi zəkanın özüdür. Bu qanun bütün təbiət və cəmiyyət qanunlarının əsasını təşkil edir. O "təbii qanunu insan zəkasının əbədi qanunu adlandırır və nəslin davam etməsini, birgəyaşayış qaydalarını bu qanuna aid edir. O, "insani və ya müsbət qanun adı altında mövcud feodal hüququnu nəzərdə tuturdu və bunu təbii qanunun tələbinin təcəssümü kimi qiymətləndirirdi. Nəhayət, "ilahi qanunun İncildən ibarət olduğunu iddia edirdi.

Fomanın tə'liminə görə insani qanunlar təbii qanunlara zidd olmamalıdır. Bu, o deməkdir ki, feodal hökmdarlar vətəndaşlara kəbin və uşaq doğumu kimi halları qadağan etməməlidir. Foma Akvinskinin tə'limi dünya ölkələrinin çoxunda indi də öz aktuallığını itirməyib.

Qərbi Avropanın ictimai-siyasi həyatında baş verən keyfiyyət dəyişiklikləri yeni siyasi ideyaların, nəzəriyyələrin və ideologiyanın təşəkkülünə gətirib çıxardı. Dini ehkamların əksinə olaraq zəka və təcrübənin qüdrətinə, insanın yaradıcı qüvvələrinə inam hər şeydən üstün tutuldu. İctimai fikrin bu istiqaməti "humanizm adlandırıldı. İctimai inkişafın yeni mərhələsində əvvəlki dövrlərə aid olan dünyavi siyasi ideyaların müəyyən hissəsi mənimsənildi və inkişaf etdirildi. Yeni dünyavi siyasi görüşlər sistemi İtaliya mütəfəkkiri **Nikkolo Makiavellinin** (1469-1527) nəzəriyyəsində öz əksini tapdı. Makiavellinin siyasi nəzəriyyəsi üçün səciyyəvi cəhət bundan ibarətdir ki, o, dövlətin mövcudluğunun çoxəsrlik təcrübəsi əsasında siyasətin prinsiplərini izah etməyə, siyasi həyatın inkişafının qanunauyğunluqlarını müəyyənləşdirməyə cəhd edir və yaşadığı dövrün tələblərinə cavab verən dövlətin yaradılmasına çalışırdı. Siyasətin

[1] История политических учений. I hissə, Səh.89.

inkişafına tarixilik prinsipi mövqeyindən yanaşması Makiavellinin siyasi doktrinasının dünyəviliyini təsdiqləyir. Bu mütəfəkkir ictimai-siyasi hadisələrin qanunauyğunluğunu, bir dövlət formasının digəri ilə əvəz olunmasını şərtləndirən amilləri müəyyənləşdirməyə sə'y göstərir, idarəetmənin ən yaxşı formalarını, idarə edənlərin hakimiyyətinə xalqın münasibətini, cəmiyyətin siyasi təşkilinə kilsənin tə'sirini və digər mühüm məsələləri nəzərdən keçirir.

Makiavellinin dövlətin mənşəyinə dair fikirləri teoloji görüşlərdən tamamilə fərqlənir. O, qeyd edirdi ki, dövlət allah tərəfindən deyil, adamların fəaliyyəti sayəsində yaranıb. Dövlət adamların ümumi rifahı tələbatından irəli gələn cəmiyyət hadisəsidir. Dövlətin məqsədi hər bir şəxsin mülkiyyətdən azad surətdə istifadə etməsinə və təhlükəsizliyinə nail olmaqdır. Makiavelli üç dövlət formasının-monarxiyanın, aristokratiyanın və xalq hakimiyyətinin mövcudluğunu göstərir. Bununla belə o, hər üç dövlət formasının qeyri-sabitliyini və uzun sürmədiyini iddia etməklə respublikanı ideal dövlət forması kimi əsaslandırmağa cəhd göstərir. Makiavellinin fikrincə bərabərliyi və azadlığı daha çox respublika tə'min edə bilər, çünki feodal qaydalarını aradan qaldırmağa yalnız o, qadirdir. Bərabərliyin bərqərar olduğu yerdə monarxiya mövcud ola bilməz. Hökmdarla xalqı müqayisə edərək xalqın hökmdardan yüksəkdə durduğunu göstərirdi. Bu mütəfəkkir "Knyaz adlı traktatında siyasətin əxlaqdan "təmizlənməsi ideyasını irəli sürür. Bununla o, siyasətdə əxlaqa zidd qaydaların təbliğinə sə'y göstərirdi.

Dünyəvi siyasi fikrin təşəkkül tapdığı dövrdə meydana çıxan maraqlı siyasi görüşlər sistemindən biri **"tiranoborçuların"** siyasi ideologiyasıdır. Mərkəzləşdirilmiş dövlət yaradılması ideyasına qarşı çıxan tiranoborçular xalqın hökmdarlara müqavimət göstərməsinə haqq qazandırırdı. Onlar xalqın hökmdarlardan üstünlüyü və dövlət hakimiyyətinin müqavilə əsasında təşəkkül tapması fikrini müdafiə edirdilər.

Tiranoborçuların görkəmli ideoloqları olan **Qotman** və **Yuni Brutun** əsərlərində belə bir ideyanın sübutuna cəhd göstərilir ki, Fransada qədim dövrdən başlayaraq kral hakimiyyəti xalqın hakimiyyəti ilə məhdudlaşdırılıb. Müstəqillik həmişə xalqa

mənsub olub və olmalıdır da. Qotman "Franko-Qalli (qalli fransada qədim tayfa adıdır) adlı əsərində keçmiş ən'ənələrə və kalvin nəzəriyyəsinə əsaslanaraq xalqın müstəqilliyinin sarsılmazlığına dair maraqlı mülahizələr yürüdür. O, keçmişə nəzər salaraq yeni hüquq və azadlıqların bərqərar olunmasını arzulamır, sadəcə olaraq orta əsrlərə xas olan feodal üstünlüklərinin bərpa olunmasını və kral hakimiyyətinin məhdudlaşdırılmasını məsləhət görürdü. Xalqın hökmdarlara müqavimət göstərmək "hüququna malik olması haqqında fikir yürüdərkən Qotman xalq adı altında müəyyən təbəqəni, hər şeydən əvvəl isə feodalların nümayəndələrini nəzərdə tuturdu.

Tiranoborçuların digər ideoloqu Brut "Hökmdarlardan müdafiə olunmaq adlı kitabında Qotmanın fikirlərinə oxşar ideyalar irəli sürür. O, da xalqın müstəqilliyi ideyasını ön plana çəkir.

Lakin Qotman kimi Brut da xalqın müstəqiliyindən danışarkən birmə'nalı şəkildə yalnız əhalinin varlı təbəqəsini nəzərdə tuturdu. O, xalq gütlələrini lağa qoyaraq onu hətta "qara camaat, "dəstə, "yırtıcı adlandırır. Deməli, tiranoborçular əslində xalqın hüququnun müdafiəsinə dair heç bir ideya irəli sürmürlər. "Tiranoborçuları bə'zən "monarxomaxlar da adlandırırlar. Lakin tiranoborçuların ideologiyası bütövlükdə siyasi fikrin inkişafına mühüm tə'sir göstərmişdir. Məsələn, Yuni Brut üsyanı qanunauyğun hal hesab etməklə onu siyasi həyat üçün düzgün hadisə sayırdı. O, həm də qeyd edirdi ki, dövlət həyatının əsasını ictimai müqavilə təşkil edir. Tiranoborçuların siyasi ideyaları dəfələrlə ingilis və fransız burjua inqilablarında şüar kimi istifadə olunmuşdur.

Tiranoborçuların ən görkəmli ideoloqu **Etyen de la Boesidir** (1530-1563). Onun siyasi görüşləri böyük maraq doğurur. Boesinin "Könüllü köləlik haqqında mühakimə əsəri özünə qədərki tiranoborçu ədəbiyyatdan xeyli fərqlənir. Bu traktat təkcə hökmdarların üsul-idarəsinə (istibdada) qarşı e'tiraz deyil, həm də adamların təbii azadlığının şöhrətləndirilməsi kimi səciyyələnir. Əsərin əvvəlində müəllif göstərir ki, qarşısına heç də hansı dövlət formasının üstün olması fikrini araşdırmağı məqsəd qoymamışdır. Lakin bir şey aydındır: dövlət forması kimi monarxiyaya ehtiyac

yoxdur. La Boesi sadəcə olaraq istibdad üsul-idarəsinə (çarlığa, şahlığa və s.) qarşı deyil, ümumiyyətlə monarxiya prinsipinə qarşı çıxış edir. Dövlət formalarını nəzərdən keçirərək o, yazır: Hər şeydən əvvəl, monarxiyanın digər dövlət növləri arasında hansı yer tutduğunu aydınlaşdırmaq üçün mən bilmək istəyirəm ki, o, ümumiyyətlə dövlət növləri arasında müəyyən yer tutmağa layiqdirmi?

Boesi təbiət e'tibarilə insanların azad olması ideyasının qızğın tərəfdarı idi. Təsadüfi deyil ki, onun "Könüllü köləlik haqqında mühakimə traktatında azadlıq ideyası, xüsusilə siyasi azadlıq barədə fikirlər mərkəzi yer tutur. Azadlığı şöhrətləndirərək qeyd edirdi ki, o, təbii haldır, insanların təbii vəziyyətidir. Boesinin fikrincə adamların bərabərliyi də təbii və qanunauyğun haldır. Azadlıq və bərabərlik kimi iki siyasi prinsipi o, monarxiya, istibdad üsul-idarəsinə qarşı qoyurdu. Boesi yazırdı: İnsan nəinki doğulduğu gündən azaddır, həm də bu azadlığı müdafiə etməyə sə'y göstərməlidir.

Bu görkəmli nəzəriyyəçi maarifçiliyin inkişafına, zəkanın gücünə böyük ümid bəsləyərək bunu insanların azadlığa cəhd etməsinin mühüm şərti kimi qiymətləndirirdi.

Orta əsrlərdə Fransada siyasi fikrin görkəmli nümayəndələrindən biri **Jan Boden** idi (1530-1596). Boden Makiavelli kimi dövlətin tarixi baxımdan dünyəvi istiqamətdə tədqiq olunmasına sə'y göstərir. O, Aristotelin siyasi görüşlərindən istifadə etməklə ictimai və siyasi tə'sisatların təşkil olunmasında coğrafi mühitin roluna dair fikirlər söyləyir. Boden güclü mərkəzləşdirilmiş dövlət nəzəriyyəsi mövqeyində durmaqla, o zaman Fransada təşəkkül tapmaqda olan mütləqiyyəti müdafiə edirdi. Onun siyasi ideologiyasının mahiyyəti feodal dağınıqlığını ortadan qaldırmağa qadir olan **dünyəvi milli mərkəzləşdirilmiş dövlət** yaratmaqdan ibarətdir. Boden öz dövrü üçün çox mühüm əhəmiyyətə malik olan **siyasi ideya-dövlət müstəqilliyi** ideyasını işləyib hazırlamışdır. Əlbəttə, bu ideya əslində qədim dövrdə mövcud idi və məhdud siyasi mə'na daşıyırdı. Lakin Jan Boden elə sanballı nəzəriyyə işləyib hazırlayır ki, bu nəzəriyyənin mərkəzi ideyasını bölünməz, vahid, daimi və qanunlara əsaslanan dövlət hakimiyyəti yaratmaq təşkil edir. Siyasi nəzəriyyəyə

Bodenin bəxş etdiyi töhvə bundan ibarətdir ki, o, **"dövlət"** və **"müstəqillik"** anlayışları arasındakı əlaqəni açıb göstərə bilmişdir. Bodenə görə suverenlik (müstəqillik) dövlətin ən mühüm əlamətidir. Dövlətin suverenliyini hakimiyyətin qeyri-şərtiliyində (mütləq mə'nada) və daimiliyində görürdü. O, dövlətin formaları arasında monarxiyaya üstünlük verir. Lakin monarxiyaya üstünlük verməklə suverenlik, idarəetmə və ya idarəetmə hakimiyyəti anlayışlarının məzmununu məhdudlaşdırır. Boden dövlət anlayışına hüquqi prinsip gətirir. Dövlətin hüquqi prinsiplərini müəyyənləşdirməklə o, cəmiyyətdə elementar hüquq qaydalarının təşəkkülünə istiqamət verirdi.

Makiavelli kimi Boden də xüsusi mülkiyyətə böyük əhəmiyyət verirdi. Bu görkəmli fransız nəzəriyyəçisi iddia edirdi ki, "hökmdar bütün hüquqlara malikdir, yalnız allah ondan üstündür. Onun bu fikri yeni təşəkkül tapan burjuaziyanın mövqeyini əks etdirirdi. Boden belə hesab edir ki, suverenlik (müstəqillik) yalnız dövlət hakimiyyətinin fəaliyyəti sferasında daimidir.[1] O, xüsusi mülkiyyəti, ailə münasibətlərini, həmçinin, bə'zi şəxsi hüquqları ilahi sferaya və təbii hüquqa daxil edirdi. Başqa sözlə, xüsusi mülkiyyəti və ailəni müqəddəs sayırdı. Ümumiyyətlə, Bodenin müstəqillik ideyası formalaşmaqda olan gənc burjuaziyanın mənafeyini əks etdirirdi. Mütləqiyyətin məddahı kimi çıxış edən bu mütəfəkkirin siyasi görüşləri təkcə orta əsr feodal siyasi ideologiyasına qarşı deyil, həm də xalqın suverenliyi əleyhinə çevrilmişdir.

Mütləqiyyəti müdafiə edən ideoloqlar sırasında ingilis filosofu **Tomas Hobbsun** siyasi tə'limi özünəməxsus yer tutur. Hobbs öz siyasi görüşlərini "Vətəndaş haqqında tə'limin fəlsəfi başlanğıcı (1642-ci il), "Leviafan və ya materiya, forma, kilsə və vətəndaş dövlətinin hakimiyyəti (1651-ci il) adlı əsərlərində irəli sürmüşdür. Təbii hüquq məktəbinin digər nəzəriyyəçiləri kimi Hobbs da öz siyasi tə'limini insana təbiətən xas olan keyfiyyətləri, ilk növbədə isə "ehtirasları öyrənmək əsasında yaratmağa sə'y göstərir. O, belə hesab edir ki, fiziki və zehni qabiliyyət baxımdan adamlar təbiətən bərabər hüquqlu yarandığından hər bir insan

---

[1] История политических и правовых учений. Səh 191.

başqaları ilə eyni dərəcədə bütün hüquqlara malikdir. Bununla yanaşı insana dərin eqoizm, xəsislik, qorxu və şöhrətpərəstlik də xasdır. İnsan həm də paxıl adamlarla, rəqiblərlə, ona düşmən olan şəxslərlə əhatə olunmuşdur. "İnsanın təbiətinə son dərəcə pessimist düşüncə tərzi ilə yanaşan Hobbs belə qənaətə gəlir ki, adamlara xas olan "ehtiraslar onları bir-birinə düşmən edir. "İnsan insana canavardır ideyasını əsaslandırmaqla bu filosof cəmiyyətdə "hamının hamıya qarşı müharibəsinin labüdlüyünü qanunauyğun hal sayır. Hobbs məsləhət görürdü ki, adamlar "hamının hamıya qarşı müharibəsi kimi zərərli vəziyyətdən xilas olmaq üçün öz təbii hüquqlarından imtina etməli və bunları dövlətə həvalə etməlidir. Buna görə hökmdarın hakimiyyəti toxunulmazdır. Hakimiyyətə tabe olanlar isə dövlətə münasibətdə heç bir hüquqa malik olmamalıdır. Hakimiyyətdə olan şəxs qanunların qəbul edilməsində, vergi yığılmasında, vəzifəli şəxslərin tə'yin olunmasında, müharibə və sülh, məhkəmə hakimiyyəti və sair məsələlərdə qeyri-məhdud hüquqa malikdir. Hobbs belə hesab edirdi ki, hakimiyyətdə olanlar hakimiyyətə tabe olanların fikirlərinə, düşüncə tərzinə ciddi diqqət yetirməlidir, hakimiyyətə zidd olan tə'limlər qadağan olunmalıdır. Hökmdarın hakimiyyətinin hər hansı formada məhdudlaşdırılması və ya bölünməsi dövlətin məhvinə gətirib çıxara bilər.

Dövlətin müxtəlif formaları olmaq e'tibarilə mütləqiyyəti, aristokratiyanı və demokratiyanı bir-birindən fərqləndirən Hobbs mütləqiyyətə daha çox üstünlük verirdi. Onun fikrincə, sülhün bərqərar edilməsi və xalqın təhlükəsizliyi baxımdan mütləqiyyət ən əlverişli dövlət formasıdır. Mütləqiyyəti ən münasib dövlət forması hesab edən bu görkəmli filosof həmçinin, dövlətin digər formalarının zəruriliyini inkar etmirdi. Hobbs bu fikrini belə əsaslandırırdı: İdarəetmənin məşhur formasının qərarlaşdığı təqdirdə idarəetmənin üç formasından hansının daha yaxşı olması barədə mühakimə yürütməyə ehtiyac yoxdur. Yalnız mövcud olan dövlət formasına üstünlük vermək, onu müdafiə etmək və ən yaxşı idarəetmə forması saymaq lazımdır. Göründüyü kimi, o, yaşadığı və vətəndaşı olduğu ölkənin (İngiltərənin) timsalında mütləqiyyət idarə formasına haqq qazandırırdı. Makiavelli və Qrotsidən sonra Hobbs da dövləti teologiya prizmasından deyil, ağılın və

təcrübənin qanunları əsasında nəzərdən keçirir. Lakin bu, heç də onun allahı inkar etməsi deyil. Orta əsrlərdə siyasi fikrin digər görkəmli nümayəndəsi ingilis filosofu **Con Lokk** olmuşdur (1632-1704-cü illər). Lokkun siyasi tə'limində diqqəti cəlb edən mühüm cəhətlərdən biri konstitusiyalı monarxiyanın qanunvericilik əsasında yaradılmasının zəruriliyi ideyasıdır. Sosial kompromis ideologiyası mövqeyindən çıxış edən C.Lokk öz siyasi-hüquqi görüşlərini "Hökumət haqqında iki traktat " əsərində irəli sürmüşdür. O, Filmerin patriarxal nəzəriyyəsini tənqid edərək təbii hüquq barədə özünəməxsus maraqlı tə'lim işləyib hazırlayır. Lokk belə hesab edir ki, adamlar hələ təbii vəziyyətdə olarkən, yə'ni dövlət yaranmazdan əvvəl azadlıq, bərabərlik və xüsusi mülkiyyətə yiyələnmək hüququna malik olmuşlar. Bu filosofun fikrincə adamların təbii hüququ onların daimi və dəyişməz təbiəti ilə şərtləndiyi üçün heç kim tərəfindən ləğv edilə bilməz. Lokk adamların təbii hüququnu xüsusi mülkiyyətsiz təsəvvür etmirdi. Onun fikrincə cəmiyyət təbii vəziyyətdə olarkən (dövlətin yaranmasına qədər) adamların təbii hüququnun e'tibarlı tə'minatçısı yox idi. Buna görə adamlar onların hüquqlarını pozanları cəzələndırmaq və öz aralarında meydana çıxan mübahisələri həll etmək məqsədilə dövlətin yaradılması haqqında ictimai müqavilə bağlamaq qənaətinə gəlirlər. İnsanın təbii hüququnu müdafiə etmək məqsədilə yaradılan dövlət tərəfindən qanunlar qəbul olunur və bu qanunların icrası üçün cəmiyyətdəki ictimai qüvvələrdən istifadə edilir. C.Lokkun ictimai müqavilə haqqında siyasi-hüquqi baxışlarında ilk növbədə yeni yaranan burjuaziyanın tələbləri öz əksini tapır. Həmin tələblər sırasında xüsusi mülkiyyətin qorunması, bərabərlik və azadlıq, şəxsiyyətin müdafiəsi və digər tələblər nəzəri cəhətdən əsaslandırılır. Lokkun tə'liminə görə dövlət bütün digər kollektiv formalardan (ailə, malikanə ağalığı, təsərrüfat vahidi və s.) bununla fərqlənir ki, məhz, o, siyasi hakimiyyəti təcəssüm etdirir. Başqa sözlə, dövlət ictimai rifah naminə mülkiyyətin tənzimlənməsi və saxlanması məqsədilə qanunlar vermək, həmçinin cəmiyyətin gücündən istifadə etməklə özünü xarici hücumlardan müdafiə etmək hüququna malikdir. Ümumiyyətlə, bu ingilis filosofu qanuna və qanunçuluğa böyük ümid bəsləyirdi.

C. Lokkun tə'limində Avropa siyasi fikrinə xas olan cəhətlərdən biri, yə'ni dövlətin formaları barədə təsəvvür də diqqəti cəlb edir. O, tarixən təşəkkül tapan dövlət formalarından heç birinə xüsusi üstünlük vermək iddiasında olmayıb. Bununla belə Lokkun tə'limində konstitusiyalı monarxiyaya digər idarəetmə formaları ilə müqayisədə müəyyən maraq hissi duyulur. Bu, təsadüfi olmayıb, məhz, "şanlı inqilabın qələbəsindən, daha doğrusu, 1688-ci il dövlət çevrilişindən sonra İngiltərədə qərarlaşan dövlətçiliyə onun rəğbətindən irəli gəlir. C. Lokku hər şeydlən əvvəl maraqlandıran cəhət budur ki, dövlətin bütün formaları ictimai müqavilə əsasında meydana gəlib. Dövlətin hər bir formasının məqsədi isə adamların təbii hüququnu və azadlığını qorumaq, hamının ümumi mənafeyi qayğısına qalmaq olub. Lokk "hakimiyyətin bölünməsi barədə də çox maraqlı fikirlər irəli sürüb. O, qanunverici və icraedici hakimiyyətin funksiyalarına dair əhəmiyyətli mülahizələr yürüdüb. Məsələn, Lokk belə bir cəhətə xüsusi diqqət yetirirdi ki, əgər kral parlamentin razılığı olmadan qanunvericilik təşəbbüsündə olarsa, özbaşınalıq edib seçki sistemini dəyişdirməyə cəhd göstərərsə və ya dövləti başqa hökmdara tabe edərsə, belə halda o, hakimiyyətdən məhrum edilir.

C.Lokkun siyasi-hüquqi tə'limi orta əsrlərdə baş verən ilk burjua inqilabları ideologiyasının klassik ifadəsi idi. Orta əsrlərdə siyasi fikir və tə'limlərin təkmilləşməsi yalnız Qərbi Avropa ölkələri üçün səciyyəvi deyil. Mühüm və yeni siyasi ideyalar həmçinin, ərəb şərqi ölkələrində də təşəkkül tapır və inkişaf edir. Orta əsrlərdə ərəb ictimai fikrini səciyyələndirən cəhətlərdən biri siyasəti dindən təcrid etmək sə'yləridir. Bu istiqamətdə görkəmli ərəb mütəfəkkiri **Ən-Nəzzamın** baxışları maraq doğurur. O, xilafət dövründə teokratik ideologiyaya qarşı çıxaraq maarifçi monarxiya haqqında ideya irəli sürmüşdür. Ən-Nəzzam tə'kidlə qeyd edirdi ki, dövlət işlərində heç bir dini qanun tətbiq olunmamalıdır. Belə ideya irəli sürməklə o, vicdan azadlığı fikrini ortaya atmışdır. Onun vicdan azadlığı ideyası mahiyyət e'tibarilə islam ideologiyasına qarşı çevrilmişdi.

Mütərəqqi siyasi ideyalar böyük ərəb şairi və mütəfəkkiri **Əbül-Üla-Məərrinin** əsərlərində də inkişaf etdirilmişdir. O, zəhmətkeş kütlələrin istismarına haqq qazandıran dini görüşləri və

tə'limləri ifşa edərək göstərirdi ki, azadlıq ilahiyyatla, dinlə bir yerə sığmır. Əbül-Üla yoxsulların istismar olunmasına qarşı çıxmaqla əslində əmlak bərabərliyinin və sosial bərabərliyin yaradılmasına çağırırdı. O, bütün adamların təbiətən bərabərliyi fikrini müdafiə edirdi. Xalq tərəfindən seçilən dövlət hakimiyyətinə haqq qazandıraraq göstərirdi ki, xalq hakimiyyəti seçərkən, hər şeydən əvvəl, öz mənafeyini nəzərdə tutur. Əbül-Üla müasiri olduğu dövrün siyasi tə'sisatlarını, feodal hüququnu və dini ciddi tənqid edirdi. Onun mütərəqqi fikirləri ərəb şərqinin qabaqcıl siyasi ideyalarının inkişafına əhəmiyyətli tə'sir göstərmişdir. Ərəb şərqində dinin və sosial-siyasi qeyri-bərabərliyin pisləndiyi əsərlərlə yanaşı dövlətin ağıllı, müdrik idarə olunması qaydalarına və padşahların özbaşınalığının məhdudlaşdırılmasına aid çoxsaylı siyasi traktatlar da meydana gəlir. Həmin siyasi traktatlar sırasında **Məhəmməd-Əli-Tabatabın** ibn Tiktak adı altında "Padşahlar üçün qaydalar və müsəlman sülalələri haqqında hekayələr kitabı diqqəti cəlb edir. Elmi ədəbiyyatda bu əsərin yazıldığı tarix dəqiq mə'lum olmadığından onun təxminən XVI əsrin əvvəllərində yazılması ehtimal edilir. Kitabda-traktatda maarifçi mütləqiyyət ideyası əsaslandırılır, ədalət məhkəməsinin zəruriliyindən, zəiflərə mərhəmət göstərilməsindən, kasıbların və köməksizlərin çəkdiyi əziyyətlərdən, dözülməz vəziyyətindən danışılır. Traktatda irəli sürülən ideyalar belə qənaətə gəlməyə əsas verir ki, ərəb şərqinin qabaqcıl mütəfəkkirləri sultanların, əmirlərin, padşahların sərt idarə üsulunu yolverilməz hesab edir və onları öz fəaliyyətində mülayim idarəçiliyə çağırırlar. Traktatın müəllifi Məhəmməd-Əli-Tabatabın siyasi idealı maarifçi monarxiyadır. O, bu dövlət formasını digər idarəetmə formaları ilə müqayisədə əvəzolunmaz hesab edir.

Orta əsrlərdə Qərbi Avropa və ərəb şərqi ölkələri ilə yanaşı Azərbaycanda da siyasi fikrin təkmilləşməsi istiqamətində diqqətəlayiq yaradıcılıq sə'yləri nəzərə çarpır. Bu baxımdan XI-XII əsrlərdə Azərbaycanın ictimai siyasi fikir tarixində böyük şairimiz və mütəfəkkirimiz **Əfzələddin Xaqaninin** yaradıcılığı xüsusi yer tutur. Xaqaninin siyasi görüşlərində maraq doğuran ideyalardan biri bundan ibarətdir ki, ölkədə dövlətin qaydaları, nəzərdə tutduğu ictimai tədbirlər qanunlarla tənzim olunmalıdır.

Şah ədalətli olmalı və öz vətəndaşlarına humanist münasibət bəsləməlidir. Xaqani belə hesab edirdi ki, təkmilləşmiş mükəmməl dövlətə zor (güc) vasitəsilə deyil, azadlıq və sosial ədalət yolu ilə nail olmaq mümkündür.

XII əsrdə xalqımızın siyasi fikrinə ən böyük töhvə Azərbaycanın dahi şairi **Nizami Gəncəvi** tərəfindən bəxş edilib. Onun sosial-siyasi görüşlərinin formalaşmasında gizli fəaliyyət göstərən və şəhər əhalisinin inqilabi əhval-ruhiyyəsini, mütərəqqi baxışlarını əks etdirən "Əxi cəmiyyəti mühüm rol oynamışdır.

Nizami öz əsərlərində feodal cəmiyyətinin qüsurlarını açıb göstərir, şahların və feodalların özbaşınalığını ifşa edərək göstərirdi ki, onların hakimiyyəti zorakılığa əsaslanır. O, zəhmətkeşlərin mənafeyini müdafiə edir, xalqı zülmə, haqsızlığa qarşı amansız və dəyanətli olmağa, istibdad üsul-idarəsi ilə mübarizəyə çağırır.

Nizamiyə görə o dövlət qüdrətli ola bilər ki, azadlığı və sosial ədaləti bərqərar etsin. Onun fikrincə, dövlət quruluşunun başlıca prinsipi ədalət məhkəməsinin mövcudluğudur. Hökmdar idarə etdiyi ölkədə qayda-qanunların hökm sürməsinə nail olmalı və dövlətə qayğıkeşliklə rəhbərlik etməlidir. Əsl dövlət öz fəaliyyətində qanunlara əsaslanmalıdır.

Nizami bir sıra əsərlərində, xüsusilə "İsgəndərnamədə mühüm siyasi ideyaları tərənnüm edir. Azadlıq, bərabərlik və ədalət haqqında söylənilən müdrik fikirlər həmin əsərin ictimai-siyasi qayəsini xeyli gücləndirir. Yoxsul kütlələrin müdhiş və kasıb vəziyyətini görən Nizami belə qənaətə gəlmişdi ki, mövcud siyasi quruluş köklü surətdə dəyişdirilməlidir. Bu mə'nada onun sosial utopiyası xüsusi maraq doğurur. Nizami "İsgəndərnamə əsərində ədalətli, istismarın olmadığı siyasi quruluşun ideal cizgilərini nəzərə çatdırır. Onun sosial utopiyasında mülki qeyri-bərabərlik ləğv edilir, idarə edənlərə və tabelikdə olanlara təsadüf olunmur, cəmiyyətin sərvətləri adamlar arasında bərabər səviyyədə bölüşdürülür, vətəndaşlar eyni siyasi hüquqlara malikdirlər. Nizaminin arzuladığı ideal dövlətdə adamlar yalan nə olduğunu bilmir, ikiüzlülük, riyakarlıq nəzərə çarpmır. Dövlət qocalara və zəiflərə, köməksizlərə yardım göstərir. Əmək insan həyatının ən şərəfli sahəsi kimi təsvir olunur. Nizami elə bir

şəhər- dövlət arzulayır ki, burada polis, ordu, həbsxana və digər məcburetmə müəssisələri olmasın. Hələ Jan Bodendən də əvvəl bütün xalqların azadlığı və müstəqilliyi fikrini söyləyən və müdafiə edən Nizami Gəncəvi öz vətəninin sadəcə olaraq vətəndaşı deyil, ən başlıcası misilsiz vətənpərvər oğlu idi. Nizaminin utopik siyasi ideyaları dünya siyasi fikrinin inkişafına əsl töhvədir. Şübhəsiz, onun mütərəqqi ictimai-siyasi görüşləri XVII-XVIII əsrlərin Avropa utopik sosialistlərinin tə'liminin təşəkkülündə özünəməxsus rol oynamışdır. XIII-XVI əsrlərdə Azərbaycanın işğalçı hücumlara mə'ruz qalması və bununla əlaqədar sosial məşəqqətlərə düçar olması o zamankı mütəfəkkirlərimizin ictimai-siyasi baxışlarında dərin iz buraxmışdır. 1287-ci ildə Təbriz şəhərinin yaxınlığındakı Şəbüstər kəndində anadan olan **Mahmud Şəbüstəri** yaşadığı Azərbaycan məmləkətinin başına gələn müsibətləri özünəməxsus səviyyədə yüksək vətənpərvərlik hissi ilə açıqlamağa sə'y göstərmişdir. Şəbüstəri öz ictimai-siyasi görüşlərini məşhur "Gülşəni-raz əsərində irəli sürmüşdür. O, öz yaradıcılığında hökmdarların ədalətsiz idarəçiliyini, müasiri olduğu cəmiyyətin eybəcərliklərini, xalqa zidd qayda və qanunları kəskin tənqid edirdi. Əslində bu mütəfəkkir zəhmətkeş xalqın mənafeyinin müdafiəçisi kimi çıxış edərək istibdad üsul-idarəsinin yaramaz mahiyyətini açıb göstərirdi.

Şəbüstəri belə qənaətə gəlmişdi ki, cəmiyyətin tərəqqisinin başlıca şərti ədalətli qayda və qanunlardır. Maraqlıdır ki, o, cəmiyyətin xalq kütlələri tərəfindən dəyişdirilə biləcəyinə inanırdı. Özü də mövcud cəmiyyətin zorakı üsulla deyil, məhz, dinc yolla, sülh şəraitində dəyişdirilməsinin tərəfdarı idi. Siyasi quruluşun yeniləşməsi üçün tərbiyə vasitələrinə üstünlük verirdi. Ümumiyyətlə, Mahmud Şəbüstəri maarifçilik, tərbiyə və əxlaq məsələlərinə mühüm diqqət yetirirdi. O, əxlaq tərbiyəsinin dörd başlıca keyfiyyətlə şərtləndiyini qeyd edirdi: 1) Ədalətli olmaq, 2) Müdriklik, 3)Əxlaq, 4) Mərdlik. Heç də təsadüfi deyil ki, dövlət forması olmaq e'tibarilə maarifçi monarxiyaya üstünlük verirdi və cəmiyyətin əxlaqi cəhətdən təkmilləşməsində tərbiyə vasitələrini başlıca şərt hesab edirdi.

XIII əsrdə Azərbaycan xalqının siyasi fikrini dərindən zənginləşdirən mütəfəkkir şəxsiyyətlərdən digəri **Nəsrəddin Tusi**

idi. Tusi maraq doğuran siyasi görüşləri ilə özündən sonrakı ictimai-siyasi ideyaların inkişafına ciddi tə'sir göstərmişdir. O, siyasi-əxlaqi fikirlərini məşhur Əxlaqi-Nasiriəsərində açıqlayır. Tusi öz siyasi görüşlər sistemini yaradıcı şəkildə işləyib hazırlamışdır. Belə ki, bu böyük mütəfəkkir "Əxlaqi-Nasiri əsərində təkcə müsəlman şərqi ölkələrində mövcud olan ictimai-siyasi və fəlsəfi-əxlaqi ideyaları deyil, həm də siyasi-əxlaqi fikrin digər qiymətli nümunələrindən yaradıcılıqla istifadə etmişdir. Tusi özünəqədərki siyasi tə'lim və nəzəriyyələrə əsl yaradıcı alim mövqeyindən tənqidi yanaşmış, nəzərdən keçirdiyi ictimai-siyasi görüşləri dərin və diqqətlə təhlil edib ümumiləşdirmişdir. Elə buna görə də elmi ideyalarla zəngin olan qiymətli siyasi tə'lim hazırlamışdır. Heç də təsadüfi deyil ki, Tusi nəinki yaşadığı dövrdə, həm də sonralar və indi də böyük ehtiramla yad edilmiş və edilməkdədir. Dünyanın bə'zi ölkələrinin elmi mərkəzləri Nəsrəddin Tusinin adını daşıyır. Təkcə bunu demək kifayyətdir ki, İngiltərə kimi böyük ölkənin məşhur universitetlərindən birinin astrologiya kafedrasına xalqımızın bu mütəfəkkir oğlunun adı verilmişdir.

Tusi müasiri olduğu cəmiyyətdə əhalinin tərkibini müəyyənləşdirməyə sə'y göstərmişdir. Onun fikrincə feodal cəmiyyətində əhali dörd başlıca təbəqədən ibarət olmuşdur: 1.Əmirlər. 2.Tacirlər. 3.Sənətkarlar. 4.Əkinçilər. Tusi əhalinin bu dörd təbəqəsinə dair öz mülahizələrini yürüdür.

Nəsrəddin Tusinin siyasi tə'limində dövlət, cəmiyyət və digər tə'sisatlar barədə maraq kəsb edən fikirlərə təsadüf olunur. O, dövləti insanların birliyi hesab edərək göstərirdi ki, dövlətin məqsədi adamların ümumi tələbatını tə'min etməkdən ibarətdir. Tusi "dövlət, "qanun, "cəmiyyət "siyasi cəmiyyət və digər anlayışlara öz münasibətini bildirmiş və cəmiyyət həyatının demək olar ki, bütün sferaları haqqında mühakimə yürütmüşdür. Dövlətin roluna böyük əhəmiyyət verərək onu siyasi cəmiyyət adlandırırdı. Dövlətin idarə olunmasında şahların, hökmdarların roluna xüsusi əhəmiyyət verən Tusi tə'kidlə qeyd edirdi ki, ölkəni idarə edə bilmək üçün hökmdar ən nəcib və ali keyfiyyətlərə yiyələnməlidir. Əks təqdirdə ölkə istibdad yuvasına və özbaşınalıq aləminə çevrilə bilər.

Üç məqalədən və otuz fəsildən ibarət olan "Əxlaqi-Nasiri əsərinin üçüncü məqaləsində başlıca olaraq ictimai-iqtisadi və siyasi problemlərə diqqət yetirilir. Məqalənin əvvəlində ictimai həyatda baş verən kəmiyyət və keyfiyyət dəyişikliyindən bəhs olunur. Tusi siyasətin mahiyyətini açıqlayaraq qeyd edir ki, ictimai əməyi təşkil etmək, istehsal prosesində özbaşınalığa və hərc-mərcliyə son qoymaq ən vacib məsələlərdəndir. Bunun üçün dövlət tərəfindən zəruri tədbirlər həyata keçirilməlidir. Nəsrəddin Tusi belə tədbirləri "siyasət anlayışına müncər edir. Onun fikrincə siyasəti həyata keçirmək üçün bir şəxsə ehtiyac duyulur. Lakin bu şəxsin hökmən şah və ya hökmdar olması məcburi deyildir. Tusi yazır: "Hər dövr, hər zamanda hökmdara ehtiyac yoxdur. Düzdür əhali arasında nizam-intizam aradan qalxa bilər, insan cəmiyyəti lazım olduğu kimi inkişaf etməz. O, cəmiyyətin inkişafında ailənin, hüquqi tənzimləmənin, məhkəmənin, iqtisadiyyatın və digər ictimai hadisələrin roluna mühüm əhəmiyyət verir.

## 3. MAARİFÇİ SİYASİ GÖRÜŞLƏRİN TƏŞƏKKÜLÜ VƏ İNKİŞAFI

Maarifçi siyasi ideyalar və tə'limlər Avropa ölkələrində formalaşmaqda olan gənc burjuaziyanın mənafeyinin ifadəsi kimi təşəkkül tapır və inkişaf edir. Maarifçi siyasi görüşlər Almaniyada, İtaliyada və Fransada daha yüksək səviyyədə inkişaf etmişdi. Bu təsadüfi olmayıb, XVII-XVIII əsrlərdə həmin ölkələrdə qərarlaşan sosial-iqtisadi və siyasi həyatın mahiyyəti ilə şərtlənirdi.

İlk maarifçi siyasi görüşlər Almaniyada formalaşır. Almaniya maarifçiləri təbii hüquq nəzəriyyəsini burjuaziyanın inkişafı tələblərinə uyğunlaşdırmağa ciddi sə'y göstərirdilər. Onlar həmçinin, teologiyanın hüquqşünaslığa tə'sirini aradan qaldırmaq istiqamətində uğurlu addımlar atdılar. Bununla belə Almaniya maarifçiləri dövlət-hüquq nəzəriyyəsinin inkişaf etdirilməsinə eyni mövqedən yanaşmırdılar.

Dövlət-hüquq tə'liminin işlənib hazırlanmasında alman maarifçiliyində iki başlıca istiqamət mövcud idi. Həmin

istiqamətlərdən biri S.Pufendorf, X.Tomazi və X.Volfun təmsil etdiyi mö'tədil qanad, digəri isə M.Knutsen, T.Lau və Lessinqin fəaliyyət göstərdiyi daha radikal qanad idi.

Alman maarifçilərindən **Samuel Pufendorf** ilk dəfə olaraq hüquqşünaslığı dünyəvi zəmində əsaslandırmağa cəhd etdi. O, təbii hüquq barədə J.Bodenin, H.Qrotsinin və T.Hobbsun görüşlərini ümumiləşdirərək belə qənaətə gəlir ki, təbii hüquq universal (hərtərəfli) sosial etika kimi tə'sir bağışlayır. Təbii hüquq normaları adamların rütbəsindən və əmlak vəziyyətindən, hansı dövlətə mənsubiyyətindən və siyasi əqidəsindən asılı olmayaraq onların davranışını tənzim etməlidir mühakiməsini yürütməklə Pufendorf bildirmək istəyirdi ki, insan təklikdə mövcud ola bilməz, hər bir fərd ona yaxın olan, özünə oxşar adamlarla birləşməyə sə'y göstərməlidir. O, yazırdı: İnsanın təbiəti elədir ki, biz cəmiyyətdən kənarda yaşaya bilmərik. Pufendorfun tə'limində başlıca cəhət dövlətin yaranmasından əvvəl mövcud olan cəmiyyətə, təbii vəziyyətə münasibət bildirməkdir. Bu maarifçinin dövlətin mənşəyinə dair siyasi görüşlərində iki cəhətin-teoloji və dünyəvi təsəvvürlərin vəhdəti diqqəti cəlb edir. Pufendorf bir tərəfdən dövlətin allahın təşəbbüsü ilə yarandığını iddia edirsə digər tərəfdən dövlətin adamlar arasında azad surətdə müəyyən razılıq əsasında təşəkkül tapdığını bildirir. Onun fikrincə dövlətin yaranması iki cür müqaviləyə əsaslanır. Bunlardan birincisi xüsusi müqavilə digəri isə qərar adlanır. Xüsusi müqaviləyə görə ayrı-ayrı fərdlər sabit məqsəd ətrafında birləşir. Sonra isə özlərinə münasib olan idarəetmə forması təşkil etmək üçün qərar qəbul edirlər. Həmin qərarda nəzərdə tutulur ki, adamların azad surətdə özlərinə seçdikləri başçı xalqının qayğısına qalmalıdır, vətəndaşlar isə hakimiyyətə tabe olmalıdır, xalq tərəfindən seçilən başçının hakimiyyəti yeganə ali hakimiyyətdir, bu hakimiyyətə qeyri-məhdud səlahiyyətlər verilir və prinsip e'tibarilə öz fəaliyyəti üçün mə'suliyyət daşımır. Əlbəttə, belə hakimiyyətlə mütləq monarxiya arasında müəyyən əlaqəni görmək çətin deyildir. Heç də təsadüfi deyil ki, Pufendorf dövlətin formalarını fərqləndirərkən az-çox üstünlüyü məhz, mütləq monarxiyaya vermişdir. Onun fikrincə yalnız bu idarə hakimiyyəti dövlətin məqsədlərini daha yaxşı həyata keçirmək iqtidarındadır.

Alman maarifçilərinin siyasi tə'limində başlıca cəhət dövlət və hüquqşünaslıq haqqında maraqlı dünyəvi ideyalar irəli sürülməsidir. Bu baxımdan **Xristian Tomazinin** (1655-1728) fəaliyyəti diqqəti cəlb edir. O, hüquqşünaslıq elminə dair teoloji təsəvvürlərə qarşı qətiyyətli mübarizə aparan maarifçilərdəndir. Dinə dərindən inanan Tomazi belə hesab edirdi ki, adamlara allah tərəfindən verilən təbii hüquq bir sıra əxlaqi keyfiyyətləri özündə təcəssüm etdirir. Onun fikrincə insanların birgəyaşayışına dair humanist tələblərə əməl etmək, səfeh, yaramaz adamlardan uzaqlaşmaq sə'yləri insana təbiətən xas olan xoşbəxtliyə can atmaq üçün real zəmin yaradır. Dövlətin mənşəyi ilə bağlı olan teoloji görüşləri inkar edərək göstərirdi ki, xüsusi mülkiyyətin nə olduğunu bilməyən və xoşbəxt həyata can atan adamlar öz məqsədlərinə çatmaq yolunda müxtəlif maneələri dəf edərək müqavilə əsasında dövləti yaratmağa nail olurlar.

Tomazinin siyasi görüşlərində maraq doğuran cəhətlərdən biri nəinki hüququ dindən ayırmağa, həm də hüquqla əxlaqın həddini müəyyənləşdirməyə sə'y göstərməsidir. Bu maarifçiyə görə cəmiyyəti təşkil edən fərdlərin müəyyən qisminin qeyri-sağlam düşüncə tərzi və əxlaqdan uzaq davranışı adamlar arasında toqquşmalara gətirib çıxarır. Bu xoşagəlməz hadisəyə iki üsulla son qoymaq mümkündür. Həmin üsullardan biri əxlaqi mahiyyət daşıyan məsləhət-tərbiyə formasında həyata keçirilir. Digər üsul isə hüquqi mə'na kəsb edən əmr şəklində reallaşır. Tomazinin fikrincə məsləhət-tərbiyə müəllimin vəzifəsidir, adamlar arasında qarşılıqlı anlaşma yaranmasına tə'minat verən əmr-məcburetmə dövlətin funksiyasıdır.

Bu maarifçi hüquqla müqayisədə əxlaqa üstünlük verirdi. Əxlaqın hüquqdan üstünlüyünün siyasi qayəsini açıqlayan Tomazi yazırdı: "Kim əməli işdə əxlaqi cəhətdən əsl şəxsiyyət kimi təsdiqlənmirsə o, yaxşı siyasətçi ola bilməz. O, qeyd edirdi ki, hökmdarlara aid olan hüquq normaları onlara tabe olanlar tərəfindən sözsüz yerinə yetirilməlidir. Həm də xalqın hömdarlardan razılığı onların hakimiyyətinin mövcudluğu üçün vacib şərtlərdən biridir. Məhz, buna görə ölkədə nəzərə çarpan ədalətsizliyə qarşı xalq mübarizə aparmaq hüququna malikdir.

Tomazinin siyasi görüşlərində utopik sosializmə dair müəyyən təsəvvürlər də özünü göstərir. Məsələn, bu humanist alman maarifçisinin siyasi idealı xüsusi mülkiyyətin olmadığı və adamların əxlaqi cəhətdən daim təkmilləşdirilməsini tə'min edən əsl insan birliyinin (cəmiyyətin) qərarlaşmasıdır.

Alman maarifçiliyinin görkəmli nümayəndəsi **Xristian Volfun** (1679-1754-cü illər) siyasi görüşləri də siyasi əhəmiyyətinə görə maraq doğurur. Onun dövlət və hüquq haqqında fikirlərinin formalaşmasına Pufendorfun və Tomazinin siyasi baxışları mühüm tə'sir göstərmişdir. Volfun sosial-siyasi təliminin başlıca me'yarı insanlara azadlıq və xoşbəxtlik bəxş etməkdir. Onun fikrincə allah adamların qəlbini daim təkmilləşməyə doğru ruhlandırır, şərdən uzaqlaşmağa və xeyirxahlığa sövq edir.

Volf bildirirdi ki, hüquq insanın vəzifələrinə uyğun gəlməlidir, əks halda həmin vəzifələrin həyata keçirilməsi qeyri-mümkündür. Bu maarifçinin başa düşdüyü təbii qanuna görə "fərdlərin hüququ məhz, azadlığa müəyyən ölçüdə malik olmağı ifadə edir. Bu fikirdən belə qənaətə gəlmək olur ki, hakimiyyəti idarə edənlər tabeliyində olan kütlələrə azadlığı müəyyən dozada bəxş etməlidir. Elə bir dozada ki, hakimiyyətə tabe olanlar azadlığı yalnız dövlət qarşısında öz borcunu yerinə yetirmək mə'nasında başa düşsünlər.

Volfun dövlətin mənşəyi və mahiyyəti barədə görüşləri özünəqədərki təbii hüquq nəzəriyyəsinə dair fikirlərə, xüsusilə Pufendorfun və Tomazinin hüquqi baxışlarına daha çox uyğun gəlir. Onun fikrincə dövlət ailələr arasındakı razılığın məhsuludur. Volf ailə məvhumunu "evlər termini şəklində işlətmişdir. Onun gəldiyi qənaətə görə hər bir ailə həyat üçün zəruri olan şeyləri ayrılıqda əldə edə bilmədiyi üçün dövlət yaratmaq barədə öz aralarında müqavilə bağlamaq qərarına gəlmişlər. Volfun fikrincə dövlətin vəzifəsi "xalqın "ümumi rifahına xidmət etməkdən ibarətdir. O, ictimai həyatın və adamların davranışının hüquqi cəhətdən tənzimlənməsini hakimiyyəti idarə edənlərin başlıca vəzifəsi sayırdı. Heç də təsadüfi deyil ki, cəmiyyətin müxtəlif sferalarının, ilk növbədə iqtisadiyyatın, tərbiyə işlərinin, ailənin və dinin ciddi hüquqi normalar əsasında idarə olunmasını ən vacib şərt hesab edirdi. Volf hökmdarların hakim siyasi mövqeyinin qorunub saxlanmasına sə'y göstərirdi.

Alman maarifçiliyinin radikal qanadını təmsil edən M.Knutsen, T.Lau və Q.Lessinqin siyasi-hüquqi görüşləri daha qətiyyətli və ardıcıl mahiyyət daşıyır. Bu maarifçilər Almaniyadakı mövcud ictimai qaydaları kəskin tənqid edirdilər. Onlar hər şeydən əvvəl feodal mütləqiyyət qaydalarına, rəsmi dinin ehkamlarına və istismarçı dövlətə nifrət hissi bəsləyirdilər. Məsələn, Knutsen (1646-cı ildə anadan olub) mübariz ateist mövqeyindən kilsəni və həm də dünyəvi hakimiyyəti ifşa edirdi. O, mövcud hakimiyyətin, ruhaniliyin ləğv edilməsini, zəka və vicdan azadlığına geniş meydan verilməsini tələb edir, bütün adamların bərabərliyi ideyasını əsaslandırırdı. Knutsen xalqa zülm edən hakim dairələri lənətləyir, xalqı köhnə quruluşu devirməyə və ona xidmət edən kilsəni aradan götürməyə çağırırdı. Ümumiyyətlə, onun siyasi baxışlarında inqilabçılıq çalarları aydın nəzərə çarpır. Lakin Knutsenin dünyagörüşünə xas olan inqilabçılıq təsəvvürləri birtərəfli mə'na daşıyırdı. Başqa sözlə, onun arzuladığı inqilab məzmununa görə burjua inqilabı idi. Halbuki köhnə quruluşu devirmək üçün praktiki olaraq xalqı ayağa qalxmağa çağırırdı. Dünyagörüşündəki ziddiyyətli cəhətlərə baxmayaraq Knutsenin sosial tə'limi müəyyən siyasi məziyyətlərə malikdir.

Almaniya maarifçiliyinin radikal qanadının digər görkəmli nümayəndəsi dinə və kilsəyə qarşı humanist çağırışları ilə fərqlənən **T.Laudur** (1670-1740-cı illər). Onun 1717-ci ildə Frankfurt-Maynda gizli şəkildə çapdan çıxan "Allah, dünya və insan haqqında düşüncələr kitabı mübariz ateizmin və demokratik ideyaların təcəssümüdür. Həmin kitabda aydın şəkildə qeyd olunur ki, bütün insanlar təbiət e'tibarilə azad olduğu halda real həyatda təhkimli vəziyyətdədir.

Lau cəmiyyətdəki sosial ədalətsizliyi doğuran səbəbləri sadəlövh şəkildə izah edərək göstərirdi ki, istismar, özbaşnalıq, bərabərsizlik və digər sosial bəlalar insanlar arasındakı ehtiras fərqləri ilə bağlıdır. Adamların hərəkətləri onların zəkasının tələbləri ilə şərtlənir və hər bir fərdin azadlığının həddi-hüdudu olmamalıdır. Beləliklə o, bir növ anarxiya vəziyyətində olan ictimai quruluş arzulayırdı. Launun tə'limində sadəlövh, primitiv utopik sosializm təssəvürləri də diqqəti cəlb edir.

Dövlət və hüquq haqqında siyasi tə'limi zənginləşdirən görkəmli maarifçilərdən biri də **Q.Lessinq** (1729-1781) idi. Lessinq alman maarifçiliyinin ideya rəhbəri, burjua demokratiyasının qabaqcıl ideoloqu kimi tanınır. Lessinq vətəndaşı olduğu ölkədə nəzərə çarpan istibdad qaydalarını, ictimai bərabərsizliyi və dini özbaşnalığı qətiyyətlə tənqid edirdi. O, bə'zi maarifçilər kimi heç də "maarifçi monarxiyanın tərəfdarı deyildi. Əksinə, dövlət işlərinin idarə olunmasında xalqın iştirakının zərurliyini əsaslandırmağa çalışırdı. O, burjua cəmiyyətini ideallaşdıranlardan da deyildi. Lessinq başa düşürdü ki, burjua dövləti həqiqi bərabərliyi, ədalət və azadlığı tə'min etməyə qadir deyildir.

Lessinqin siyasi tə'limində ideal cəmiyyət haqqında maraqlı fikirlər diqqəti cəlb edir. O, heç bir dövlət forması haqqında mühakimə yürütməyib, çünki nə monarxiya, nə də dövlətin digər tarixi formaları onu maraqlandırmayıb. Lessinq elə bir cəmiyyət arzulayırdı ki, burada siyasi hakimiyyətin xüsusi aparatı kimi səciyyələnən dövlət yoxdur. Bu maarifçi iddia edirdi ki, ictimai qaydalar dövlət olmadan də həyata keçirilə bilər.

Maarifçi siyasi görüşlərin təşəkkül tapdığı və inkişaf etdiyi ölkələrdən digəri İtaliyadır. İtaliya burjua ideologiyasının ilk görkəmli maarifçi nümayəndələrindən biri **Cambatista Viko** (1668-1744-cü illər) idi. O, elmi sosiologiyaya dair samballı fikirlər irəli sürmüşdür. C.Viko cəmiyət tarixini dövrlər üzrə davam edən obyektiv qanunauyğun proses kimi qiymətləndirir və ictimai inkişafı "daimi ideal tarix kimi nəzərdən keçirirdi. O, tarixə "insanın hərəkətlərinin sonsuz düzümü kimi baxırdı. C.Vikonun başlıca siyasi görüşləri onun "Millətlərin ümumi təbiəti haqqında yeni elmin əsasları kitabında şərh olunmuşdur. Bu görkəmli maarifçinin başlıca xidməti bundan ibarətdir ki, o, dövlət-hüquq tə'sisatlarına tarixi-müqayisəli təhlil metodu baxımdan və determinizm mövqeyindən yanaşmışdır.

Vikonun tə'liminə görə tarixi inkişaf üç böyük mərhələdən ibarətdir. Birinci mərhələ **allahlara aid olan ilahi mərhələdir.** Həmin mərhələdə dövlət və hüquq normaları mövcud olmayıb. Adamları allahın iradəsini həyata keçirən kahinlər idarə edib. İlahi mərhələdə adamların maddi tələbatı, onların bir-birinə zidd mövqeləri qanunların və dövlətin yaranmasına zəmin hazırlayır.

C.Viko təbii hüquq məktəbi nümayəndələrinin dövlətin mənşəyinə dair mücərrəd mühakimlərini kəskin tənqid edir, dövlətin müqavilə əsasında yaradılması barədə nəzəriyyələrin əsassızlığı qənaətinə gəlir və göstərir ki, hər bir dövlət formasının özünəməxsus yaranma səbəbləri vardır.

**Qəhrəmanlar mərhələsi** kimi səciyyələnən ikinci fazada dövlət aristokratiya hakimiyyəti formasında mövcud olur. Həmin hakimiyyət sərt və amansız hüquq normalarını tətbiq edir. Bu hüquq plebeylərə təzyiq vasitəsi kimi səciyyələnən kobud güc hüququdur.

Üçüncü mərhələ isə **adamlar mərhələsidir.** Bu mərhələyə respublika-demokratik idarə quruluşu xasdır. Başqa sözlə, axırıncı mərhələdə insana layiq olan hüquq və azadlıqları, xalqın suverenliyini tə'min edən nümayəndəli monarxiya qərarlaşır. Burada mövcud olan müdrik qanunlar adamların xüsusi və ümumi mənafeyini düzgün əlaqələndirməyə imkan verir. Maarifçi filosof kimi tanınan C.Vikonun yuxarıdakı mülahizələrinin təhlili belə qənaətə gəlməyə əsas verir ki, onun siyasi tə'limi burjua cəmiyyətinin ideallaşdırılmasının təcəssümüdür.

İtaliya burjuaziyasının maarifçi ideoloqlarından digəri isə **Çezare Bekkariadır** (1738-1794-cü illər). Ç.Bekkaria cinayət hüququ elminin banilərindən biridir. O, cinayət hüququna dair sanballı fikirlərini "Cinayətlər və cəzalar adlı əsərində ümumiləşdirmişdir. Təbii hüquq tə'liminin tərəfdarı olan Ç.Bekkaria belə bir mühakimə yürüdür ki, nə vaxtsa daimi müharibələr və özbaşınalıq fərdləri tamamilə əldən salmış (yormuş) və onlar özlərinə məxsus olan azadlığın müəyyən hissəsini qurban verməklə birləşmək qənaətinə gəlmişlər. Birləşmənin məqsədi bundan ibarətdir ki, fərdlər azadlığın qalan hissəsindən sakit və təhlükəsiz şəraitdə zövq ala bilsinlər. Ümumi xoşbəxtlik naminə adamların qurban verdikləri azadlığın məcmuu millətin ali hakimiyyətinin yaranmasına səbəb olub. Bu ali hakimiyyət ədalətli qanunlar əsasında fərdlərin normal mövcudluğunu tə'min etməlidir. Bekkaria eyni cinayətkar hərəkət üçün dövlətli və kasıb adamların müxtəlif cəzalara məhkum edilməsinə haqq qazandırılmasının əleyhinə idi. Kasıb adamlara daha çox cəza verilməsinin əleyhinə olan bu humanist maarifçi cəmiyyətdə ədalətli hüquqi qaydaların tətbiq olunmasını tələb edirdi.

Bekkaria bir sıra sosial məsələlərin aydınlaşdırılmasına xüsusi diqqət yetirirdi. Məsələn: Onu belə bir cəhət narahat edirdi ki, nə üçün cəmiyyətin bir qütbündə varlı, xoşbəxt adamlar, digər qütbündə isə təhqir olunmuş, kasıb insanlar mövcuddur. Bekkaria cəmiyyətdəki belə bərabərsizliyin və sosial ədalətsizliyin maddi köklərini araşdıraraq göstərirdi ki, bəşəriyyətin böyük əksəriyyətinin dilənçi həyat keçirməsi mülkiyyət hüququ münasibətlərindən irəli gəlir. Lakin o, adamların sosial ədalətsizliyə düçar olmasının maddi amillərlə şərtlənməsinə dair fikirlərini axıradək inkişaf etdirmir. O, xalqın vəziyyətinin yaxşılaşdırılmasını ağıllı hökmdarların dinc, xeyirxah əməlləri ilə əlaqələndirirdi.

Bekkaria yoxsulluğun aradan qaldırılmasını, adamların tədricən həm əxlaqi münasibətlərdə və həm də maddi baxımdan bərabər vəziyyətdə olmasını arzulayırdı. O, eyni zamanda adamların ümumi maariflənməsinin, yaxşı tərbiyə olunmasının, hamının sadə və müdrik qanunlar qarşısında bərabərliyinin tərəfdarı kimi çıxış edirdi. Eləcə də ciddi qanunçuluğun zəruriliyinə və şəxsiyyətin hüquqlarının qorunmasına lazımi tə'minat verilməsinə haqq qazandırırdı. Bekkarianın bütün mütərəqqi siyasi fikirləri Avropa burjua inqilablarının ideoloji cəhətdən zənginləşməsində mühüm rol oynamışdır.

Avropada siyasi fikrin inkişafında fransız maarifçilərinin xidmətləri də böyükdür. Fransız maarifçiliyinin banilərindən biri olan **Volter** siyasi ideyaların təkmilləşməsində mühüm rol oynamışdır. O, cəmiyyətin yuxarıdan islahatlar yolu ilə dəyişdirilməsi tərəfdarı kimi çıxış edən burjuaziyanın mənafeyini ifadə edirdi. Volter burjuaziyanın mütləqiyyətlə kompromisə girməyə meyl edən hissəsini təmsil etməklə maarifçi mütləqiyyəti və İngiltərədəki konstitusiyalı mütləqiyyət sistemini ideallaşdırırdı. Hamının qanun qarşısında bərabərliyi ideyasını irəli sürən Volter belə hesab edirdi ki, insanın hüquq və ləyaqəti cəmiyyətin hər bir üzvü tərəfindən e'tiraf olunmalıdır. O, katolik kilsəsini maarifçiliyin və tərəqqinin düşməni sayırdı. Buna görə də maarifçilərin başlıca vəzifəsini kilsənin zorakılığına qarşı mübarizədə və maarifçiliyin inkişaf etdirilməsində görürdü. Volter katolik kilsəsinə nifrətini belə ifadə edirdi: "Rəzil adamları məhv

etmək lazımdır. O, feodal hüququnu təbii hüquq nəzəriyyəsi mövqeyindən tənqid edərək təbii qanunları insanlara bərabərlik və azadlıq bəxş edən zəka qanunları adlandırırdı. Voltere görə azadlıq ən təbii hüququdur. Bu mütəfəkkir vicdan, söz, mətbuat, mülkiyyət azadlığının zərurliyini əsaslandırmağa ciddi sə'y göstərirdi. O, kilsə məhkəməsinin ləğv edilməsini və ədliyyə sahəsində islahatlar aparılmasını tələb etməklə cinayət hüququna dair mütərəqqi ideyalar irəli sürmüşdür. Volter bütün həyatı boyu feodal ictimai quruluşuna və feodalizmin siyasi dünyagörüşünə qarşı mübarizə mövqeyində durmuş, qabaqcıl ideyaların ardıcıl və qətiyyətli müdafiəçisi kimi çıxış etmişdir. Onun müdafiə etdiyi mütərəqqi ideyalardan biri şəxsiyyətin azadlığı məsələsidir. Volter bütün əsərlərində dünyəvi siyasi görüşlərin inkişafına xüsusi diqqət yetirmişdir. Heç də təsadüfi deyil ki, XVIII əsr Fransa burjua inqilabının xadimləri onun siyasi fəaliyyətini yüksək qiymətləndirərək qeyd edirdilər ki, Volter xalqı azad olmağa hazırlayırdı.

XVIII əsrdə Fransada ictimai-siyasi görüşlərin inkişafında əhəmiyyətli rol oynayan maarifçi mütəfəkkirlərdən digəri **Monteskedir.** (1689-1775-ci illər). O, hər şeydən əvvəl, köhnə ictimai qaydalara, despot idarə üsuluna, siyasi özbaşnalığa qarşı mübarizə aparırdı. Monteskenin mütərəqqi siyasi fikirləri və fəaliyyəti Fransa burjua inqilabı xadimlərinin inqilabçı əzmkarlığına və ölkədə ideya-azadlıq hərəkatının güclənməsinə qüdrətli tə'sir göstərmişdir. Onun irəli sürdüyü siyasi azadlıq prinsipləri, burjuaziyanın mənafeyi ruhunda işləyib hazırladığı yeni siyasi tə'lim bu böyük maarifçini öz dövrünün ən görkəmli mütəfəkkirlərindən biri kimi tanıtmışdı.

"Fars məktubu əsərində Fransadakı mütləqiyyət rejimini dərindən ifşa edən Monteske bu rejimi mahiyyət e'tibarilə despot idarə üsuluna bərabər tuturdu. O, dəfələrlə qeyd etmişdir ki, dünyada mövcud olan bütün hökumətlərdən ən çox xoşuna gələn türk hökumətidir. Monteskinin bu fikri təsadüfi olmayıb, o zamankı Türkiyədə mövcud olan dövlət idarəçiliyinin demokratik, humanist və xalqın ümumi rifahını ifadə edən cəhətlərindən irəli gəlirdi. Despot idarə üsulu azadlıqla bir yerə sığmır qənaətinə gələn bu humanist maarifçi belə idarə üsuluna son qoyulmasını

qətiyyətlə tələb edirdi. Eləcə də katolik kilsəsinə, kilsə xidmətçiliyinin riyakar mahiyyətinə, ruhanilərin fanatizminə və tüfeyliyinə dərin nifrət bəsləyirdi.

Monteske idarəetmə formaları barədə mövcud olan siyasi ideyalara tənqidi yanaşaraq bu sahədə özünəməxsus orijinal fikirlər irəli sürmüşdür. O, başlıca əsəri olan "Qanunların ruhu haqqında əsərində respublika idarə formasına böyük üstünlük verir. Onun obrazlı fikrincə respublika azadlığa məhəbbət, despot isə nifrət hissi oyadır. Respublika idarə formasının tarixi zərurliyini konkret siyasi mülahizələrlə əsaslandıraraq göstərirdi ki, Romanın başqa dövlətlərdən yüksəkdə durması hər şeydən əvvəl, burada qərarlaşan respublika hakimiyyəti ilə bağlıdır. Romalıların süqutunu isə Romada azadlığın ləğv edilməsi ilə əlaqələndirirdi.

Monteskenin siyasi tə'liminin səciyyəvi cəhətlərindən biri bundan ibarətdir ki, o, dövlətin və hüququn mənşəyi məsələsini tarixi baxımdan nəzərdən keçirmiş, ictimai-siyasi həyatın qanunauyğunluqlarını açıb göstərməyə cəhd etmişdir. O, iddia edirdi ki, qanunların və tə'sisatların müxtəlifliyi istibdadın, zorakılığın nəticəsi deyil, məhz, müəyyən tarixi şəraitin məhsuludur. Monteske yazırdı: "Qanunlar sözün ən geniş və əhəmiyyətli mə'nasında şeylərin təbiətindən irəli gələn zəruri münasibətlərdir. Qanunların obyektiv xarakterə malik olmasını, dövlətin və hüququn inkişaf qanunauyğunluqlarını açıqlamağa sə'y göstərməsi Monteskenin xüsusi xidmətlərindən olmaqla siyasi nəzəriyyələr tarixinə onun mühüm töhvəsidir.

Monteskenin tarixi şəraitin, şeylərin təbiətinin hansı amillərlə şərtlənməsi sualına cavab tapmağa meyl etməsi də maraq doğurur. Yeri gəlmişkən qeyd edək ki, Monteske sosiologiya tarixində "coğrafi istiqamətlər nəzəriyyəsinin banilərindən biridir. Heç də təsadüfi deyil ki, o, hər bir xalqın əxlaqi simasının coğrafi mühitlə şərtlənməsi fikrini irəli sürmüşdür. Monteske əsaslandırmağa çalışırdı ki, bu və ya digər xalqa məxsus olan qanunların xarakteri iqlim, torpaq, yer səthinin quruluşu, ərazinin böyüklüyü və sair kimi coğrafi amillərlə müəyyən olunur. Düzdür, qanunların təbiətinə dair digər fikirlər də irəli sürmüşdür. Lakin həyat vasitələrinə nail olmaq üsulunu bütövlükdə coğrafi mühitlə

əlaqələndirirdi. O, cəmiyyət həyatının müxtəlif sahələri arasında mövcud olan bağlılığı açmağa da sə'y göstərmişdir. Monteske təbii qanunların meydana gəlməsi və məzmunu məsələsinə xüsusi diqqət yetirir. Fransız xalqının bu böyük mütəfəkkiri belə hesab edir ki, təbii qanunlar hələ cəmiyyət yaranana qədər mövcud olmuş və cəmiyyətin təşəkkülü ilə müəyyən dəyişikliklərə mə'ruz qalmışdır. Həmin qanunlara bərabərlik, sülh, insanın qida əldə etmək sə'yləri, cəmiyyətdə yaşamaq arzusu və digər məsələləri aid edir.

Monteske belə hesab edir ki, adamlar təbii vəziyyətdən uzaqlaşmaqla bərabərlik və sülhdən məhrum olur və nəticə e'tibarilə onların arasında münaqişələr, müharibələr baş verir. İnsanlar arasında meydana çıxan ziddiyyətlər, münaqişə və müharibələr isə öz növbəsində müsbət qanunların təzahürünü şərtləndirir. Monteske bu siyasi fikrini inkişaf etdirərək belə qənaətə gəlir ki, təbii vəziyyətdən çıxan adamlar cəmiyyətdə yeni hüquq qaydalarının təşəkkülünə tələbat duyurlar. Beləliklə xalqlar arasında əlaqələri müəyyən edən beynəlxalq hüquq, idarə edənlərlə idarə olunanlar arasında münasibətləri tənzimləyən siyasi hüquq və vətəndaşlar arasındakı münasibətləri qaydaya salan mülki hüquq yaranır. Bununla da Monteske özünəqədərki dövlət və hüquq haqqında nəzəriyyələri yeni çalarlarla zənginləşdirir. Maraqlıdır ki, qanunların yaradılması prosesində coğrafi amillərin rolunu, ilk növbədə isə iqlim şəraitini nəzərə almağı məsləhət görürdü. Məsələn, onun fikrincə **isti iqlim istibdad (despot) qaydalarının, soyuq iqlim isə azadlığın qərarlaşmasına zəmin yaradır**.

Monteske qanunların yaradılmasında təkcə coğrafi mühitin rolunu deyil, həmçinin siyasi amillərin əhəmiyyətini əsaslandırırdı. O, iddia edirdi ki, cəmiyyətdə qərarlaşan mövcud dövlət forması qanunların məzmununa və fəaliyyətinə həlledici tə'sir göstərir. Qanunların məzmununun və qanunçuluğun dövlət formaları ilə şərtləndiyini dönə-dönə qeyd edən Monteske yazırdı ki, "qanunlar mövcud hökumətlərin təbiətinə və prinsiplərinə hökmən uyğun gəlməlidir.

Monteskeyə görə idarəetmənin üç başlıca forması mövcuddur: respublika, monarxiya və istibdad. "Qanunların ruhu

haqqında əsərində idarəetmənin bu üç formasını geniş təhlil edir. İstibdad üsul-idarəsinin hərəkətverici qüvvəsini qorxudan ibarət hesab edən bu mütəfəkkir qeyd edirdi ki, despot üsul-idarəsi üçün köləlik ruhu, özbaşınalıq və zorakılıq səciyyəvidir. Monteskeyə görə istibdad idarə üsulu şəraitində qanunlar mövcud deyildir.

İstibdad idarəçiliyinin "mö'tədil-mülayim idarə forması ilə əvəz olunmasının zəruriliyini əsaslandırmağa sə'y göstərərək nəzərə çatdırır ki, belə idarə forması yalnız konstitusiyalı monarxiya və respublika şəraitində həyata keçirilə bilər. Monarxiyanı ayrıca idarəetmə forması kimi qəbul edib istibdad (despot) idarəçiliyinə qarşı qoyması Monteskenin mühüm siyasi xidməti kimi qiymətləndirilməlidir. Yeri gəlmişkən qeyd edək ki, o, monarxiyanı qanunla məhdudlaşdırılan və o zamankı İngiltərədə mövcud olan konstitusiyalı monarxiya tipində təsəvvür edirdi.

Monteskeyə görə monarxiya siyasi azadlığı həyata keçirən dövlətdir. "Azadlıq isə qanunlar əsasında yol verilən hər cür hərəkət etmək hüququdur. O, siyasi azadlıq ideyasını vətəndaş azadlığı ilə əlaqələndirərək göstərirdi ki, bu azadlıqlar vətəndaşların təhlükəsizliyinin tə'min olunmasında öz təcəssümünü tapmalıdır. Azadlıq hər şeydən əvvəl, qanunçuluğu və təhlükəsizliyi, vətəndaşların təhlükəsizliyinə tə'minat verilməsini ifadə edir. Monteske İngiltərədəki konstitusiyalı monarxiyanı siyasi ideal hesab edirdi. Ümumiyyətlə, bu mütəfəkkirin siyasi tə'limində zadəganların məhdud mənafeyinin ifadə olunduğunu sezmək çətin deyildir.

Monarxiya idarəçiliyinə üstünlük verməsinə baxmayaraq Monteske ən çox respublika idarə formasına rəğbət bəsləyirdi. Respublikanın iki başlıca növünü-demokratiyanı və aristokratiyanı ali idarəçilik nümunəsi kimi əsaslandırmağa çalışırdı. Monteske haqqında danışdığımız hər üç idarəetmə formasının "idarəçilik prinsiplərini də araşdırır. Məsələn, istibdad idarəçiliyində zorakılıq, monarxiyada şərəf prinsipinin qərarlaşdığını iddia edirsə, respublikada ləyaqət prinsipinin hakim olduğunu nəzərə çatdırır.

Onun fikrincə monarxiya kimi respublika da siyasi azadlığı həyata keçirən mö'tədil idarəçilik formasıdır. Bu idarəçilik formasının həyat prinsipi bərabərlik, vətənpərvərlik, məhəbbət və

azadlıqdan ibarətdir. Monteske respublikanı elə idarəetmə forması sayırdı ki, burada ali hakimiyyət tamamilə və ya qismən xalqın əlindədir. Elə buna görə o, respublikanın üstün cəhətlərini dönə-dönə nəzərə çatdırırdı.

Bütün qiymətli siyasi fikirləri ilə yanaşı Monteske qeyd edirdi ki, dövlət formaları onların təmsil edildiyi ərazinin həcmi ilə müəyyən olunur. Başqa sözlə, kiçik dövlətlər respublika, orta vəziyyətdə olan dövlətlər monarxiya, böyük dövlətlər isə despot (istibdad) idarəetmə formasında təşkil olunmalıdır.

Tərəqqini siyasi azadlıqla bağlayan Monteske söz, mətbuat, vicdan azadlığı ideyasını müdafiə edir və dini cəhalətə, məhkəmə özbaşnalığına qarşı ardıcıl mübarizə aparırdı. Monteskenin qabaqcıl siyasi ideyaları sonralar nəinki Fransada, eləcə də dünyanın digər ölkələrində geniş yayıldı və qabaqcıl, mütərəqqi ictimai-siyasi fikrin inkişafına böyük tə'sir göstərdi.

## 4. XIX-XX ƏSRLƏRİN HÜDUDLARINDA SPESİFİK SİYASİ TƏLİMLƏR

### a) Sosialist siyasi təlimi

XIX-XX əsrlərin hüdudlarında sənaye və ticarət sahələrində aparıcı mövqe xüsusi sahibkarlıqdan və tacirlərdən industrial və maliyyə korporasiyalarına keçir. Eləcə də nümayəndəli dövlət əhəmiyyətli dəyişikliklərə məruz qaldı. Dövlət təkcə qoruyucu (mühafizəkar) funksiyasını həyata keçirən, "gecə gözətçisi" kimi deyil, həm də xalq təhsilini, səhiyyəni, sosial təminatın idarə olunmasını təşkil edən sosial dövlət kimi çıxış edirdi. XX əsrin əvvələrindən etibarən iqtisadi münasibətlərin tənzimlənməsində dövlətin rolu yüksəlir.

Burjua siyasi-hüquqi ideologiyası hüquq və dövlət nəzəriyyəsini vətəndaş cəmiyyətinin kapitalist yolu ilə inkişafı istiqamətində əsaslandırdı. Bu ideologiyanın başlıca cəhəti cəmiyyətin sinfi bölgüsünü saxlamaq, fəhlə sinfi ilə burjuaziya arasında ziddiyyətləri yüngülləşdirmək üçün müəyyən islahatlar

həyata keçirmək, nümayəndəli dövlətin demokratikləşməsini davam etdirmək və onun sosial fəaliyyətini gücləndirməkdən ibarət idi.

Sosialist siyasi-hüquqi ideolokiyası isə kapitalizmin ləğvi və çəmiyyətin zəhmətkeş siniflərin mənafeyinə uyğun olaraq yenidən təşkili ideyasına əsaslanırdı.

XX əsrin başlanğıcında XIX əsrə aid olan sosialist ideologiyasının başlıça istiqamətləri inkişaf etməyə başladı. Sosial-demokratiya və bolşevizm ruhunda marksist siyasi-hüquqi ideologiya təşəkkül tapdı. İki internasionalın (1864-cü və 1889-cu illərdə yaradılan), sosialist, fəhlə və sosial-demokrat partiyaların fəaliyyəti XX əsrin əvvəllərində marksizmin üstün sosialist doktrina kimi qərarlaşmasına imkan yaratdı. Lakin marksizmin tərəfdarları arasında kapitalizmin tarixi taleyi (müqəddəratı) və sosialzim barədə, fəhlə sinfinin mənafeyini müdafiə etmək üsulları haqqında fikir ayrılığı üzə çıxdı. Nəticədə marksizmdə müxtəlif istiqamtlər təzahür etdi.

Alman sosial-demokratlarının və II internasionalın rəhbərlərindən biri olan **Eduard Bernştyen** (1850-1932-ci illər) XIX əsrin 90-cı illərində partiya mətbuatında "Sosializmin problemləri" seriyasından məqalələr çap etdirdi və sonra bunları "Sosializmin zəmini və sosial-demoraktiyanın vəzifələri" adı altında kitab şəklində nəşr etdirdi. (1899-cu ildə). Bernşteyn Marksın belə bir müddəasını təkzib etdi ki, məhsuldar qüvvəllərlə istehsal münasibətləri arasında antaqonist ziddiyyətlər son nəticədə kapitalizmin ləğvinə gətirib çıxarır və yeni ictimai-iqtisadi formasiyanın yaranmasını şərtləndirir. Marksdan fərqli olaraq Bernşteyn iddi edirdi ki, kapitalizmin sonunun çatması hələ xeyli uzaqdadır. O, yazırdı: "Əgər sosializmin qələbəsi immanent (burada "imanent" qəti mənasında başa düşülür) zərurətdirsə, onda müasir cəmiyyətin iqtisadi iflasının zəruriliyi sübut olunmalıdır. Belə sübut isə hələ yoxdur və ola da bilməz". Bernşteyn sübut etməyə çalışırdı ki, praktika nə "kapitalizmin məhvi" nəzəriyyəsini nə də "proletariatın dilənçi vəziyyətinə düşməsi" ideyasını təsdiqləməyib. O, qeyd edirdi ki, əksinə, həmkarlar ittifaqı və sosial-demokrat hərəkatının inkişafı burjuaziyanı məcbur edir ki, fəhlə sinfinin vəziyyətini nəzərə çarpacaq

dərəcədə yaxşılaşdıran güzəştlər etsin. **Bernşteynin** fikrincə, sosializm ideyası gələcək cəmiyyət haqqında ideyadan uzaq olmaq etibarilə fəhlə sinfinin hərəkatını indikindən yaxşı olmaqdan uzaqlaşdırır. Onun sosializm haqqında aşağıdakı məşhur fikri də təsadüfi deyildir: "hərəkət hər şeydir, son məqsəd heç bir şey". Bu fikirlə Bernşteyn fəhlə sinfinin inqilabi mübarizəsinin və bu mübarizənin son məqsədinin (sosializm qurmağın) mənasızlığını iddia edirdi. O, fəhlə sinfini yalnız hərəkət etməyə, başqa sözlə, öz yaşayış vəziyyətini yaxşılaşdırmaq üçün burjuaziyadan iqtisadi-sosial güzəştlər əldə etməyi lazım bilirdi.

Bernşteyn o mənada opportunist hesab olunur ki, fəhlə sinfinin əmək şəraitinin və həyatının məhz, kapitalizm cəmiyyətində yaxşılaşdırılmasının tərəfdarı idi. Onun islahatçılığa meyl etməsi də yalnız opportunizmindən irəli gəlirdi. Bernştyen islahatlar vasitəsilə kapitalizmin sosializmlə əvəz olunacağını əsaslandırmağa çalışırdı. Onun fikrincə, dövlət nəinki sinfi təşkilatdır, eləcə də ölkni idarə etmək üçün aparatdır.

Almaniya sosial-demokratiyasının və II İnternasionalın digər rəhbərlərindən biri **Karl Kautski** (1854-1938-ci illər) idi. Kautski marksizmin təbliğinə həsr olunmuş çoxsaylı əsərlərin müəllifidir. O, "Bernşteyn və sosial-demokrat partiyasının proqramı. Tənqid əleyhinə" adlı kitabında Bernşteynin marksizmə zidd olan bəzi fikirlərini rədd edərək sosialist inqilabının zəruriliyini əsaslandırır və onun sosial-demokrat partiyasını sosial islahatlar partiyasına çevirmək çağırışlarına etiraz edirdi. Kautski iddia edirdi ki, kapitalizmin saxlanması şəraitində islahatlar müvəqqəti və səthi xarakter daşıyır və son nəticədə yalnız sosial ziddiyyətlərin artmasına və mübarizənin kəskinləşməsinə, bütövlükdə isə cəmiyyətin yenidən qurulmasına gətirb çıxarır.

Alman sosial-demokratiyasının baniləri və rəhbərləri ("eyzenaxçılar") **Avqust Bebel** (1840-1913-cü illər) və **Vilhelm Libknext** (1826-1900-cü illər) marksizmi onun tənqidçilərindən müdafiə etməklə inqilabi nəzəriyyənin başlıca müddəalarının düzgünlüyünü təkidlə qeyd edirdilər. Bebel deyirdi ki, "kütlələri ruhlandıran yaylım atəşini müdafiə etməyin" ən yaxşı vasitəsi sosializmin təsdiqini sosial demokratiyanın və fəhlə sinfinin mübarizəsinin son məqsədi kimi təntənəli elan etməkdir. Libknext

də bu ruhda mülahizələr yürüdərək, sosial demokratları elə indicə "sosialist fikirinin yenidən təşkilinə nail olmağa" çağırırdı, özü də "sosialist inqilabının yetişən meyvələrini" gözləmədən. Onun fikrincə sosializm parlamentdə yox, küçə döyüşlərində əldə olunacaq.

Bernşteynin reformizmini tənqid edən inqilabçı marksistlər, ilk növbədə Kautski, Adler və digər sosial demokratlar bolşevikləri mərkəzçilər adlandıraraq, onlarla birləşmədilər, özlərini isə "marksist mərkəz" adlandırırdılar.

Mərkəzçilər fəhlə sinfinin siyasi hakimiyyətiini kapitalizmin yüksək inkişaf səviyyəsi ilə əlaqələndirirdilər və hesab edirdilər ki, belə halda fəhlə sinfi əhalinin əksəriyyətini təşkil edəcəkdir. Buna görə sosial-demokratlar siyasi mübarizənin məqsədini prlamentdə əksəriyyət təşkil edərək parlamentin hökumət üzərində hökmranlığa nail olmasında görürdülər. Kautski güman edirdi ki, mövcud burjua idarəetmə aparatı bir saat ərzində xalis proletar idarəçiliyi ilə əvəz oluna bilməz, buna görə proletar inqilabı ilk başlanğıcda (keçid dövründə) koalisiyalı hökumət yaratmalıdır.

Mərkəzçilərin digər nümayəndəsi **Georgi Valentinoviç Plexanov** (1856-1918-ci illər) idi. Plexanov Rusiya sosial-demokrat fəhlə partiyasının əsasını qoyanlardan biri və marksizmin görkəmli nəzəriyyəçisi sayılır. Xeyli digər marksistlər kimi Plexanov da hesab edirdi ki, sosialist inqilabı kapitalizmin elə inkişaf mərhələsində mümkündür ki, o zaman maddi istehsal yüksək səviyyəyə çatacaq və proletariat əhalinin böyük hissəsini təşkil edəcək. Plexanov əvvəl belə qənaətə gəlmişdi ki, proletariatın hakimiyyəti birbaşa xalq qanunvericiliyi vasitəsilə həyata keçiriləcək. O, sonra bu fikirdən imtina etdi. Plexanov məcburetmə yolu ilə deyil, xalqın qərarı və razılığı vasitəsilə qurulan sosializmə tərəfdar idi.

Opportunistlərlə mərkəzçilər arasında marksizmdən geri çəkilməklə bağlı qarşılıqlı ittihamlar 1917-ci il oktyabır inqilabından sonra gücləndi. Peterburqda ölümündən bir neçə gün əvvəl Plexanov inamla bildirmişdi ki, sovet hakimiyyəti çox yaşamayacaq. Belə də oldu. Kautiski yazdığı "Proletariat diktaturası" adlı kitabında bolşeviklərin demokratiyanın prinsiplərinə

zidd olan siyasətini kəskin tənqid etdi. V.İ.Lenin bu kitaba 1918-ci ildə yazdığı "Proletar inqilabı və reneqat Kautski" əsəri ilə cavab verərək proletar inqilabını xalis və ya burjua demokratiyasına qarşı qoydu.

**Marksizimin müstəqil cərəyanı Vladimir İliç Ulyanovun (Leninin) (1870-1924-cü illər) yaratdığı və rəhbərlik etdiyi** bolşevizmdir. V.İ.Lenin yazırdı: "Bolşevizm siyasi fikir cərəyanı və siyasi partiya kimi 1903-cü ildən mövcuddur".

**Bolşevizmin başlıca ideyası "yeni tipli partiya" yaratmaqdır. Peşəkar inqilabçıların mərkəzləşdirilmiş təşkilatı olan bu partiyanın məqsədi hakim partiyaya çevrilərək sosializmin və kommunizmin quruculuğuna dair marksist proqramı həyata keçirməkdən ibarətdir.** Belə partiyanın zəruriliyini əsaslandırmaq ondan irəli gəlir ki, məhz o, fəhlə sinfinin əsl mənafeyini dərk etməyə qadirdir.

Lenin "Nə etməli" əsərində (1901-1902-ci illərdə yazılmışdır) Kautskinin belə bir mülahizəsini ədalətli və əhəmiyyətli hesab etdi ki, proletariat öz sinfi mənafeyini elmi ifadə edən sosialist şüuru işləyib hazırlamaq qabiliyyətinə malik deyildir. Kautski qeyd edirdi ki, elmin daşıyıcısı proletariat deyil məhz, burjua ziyalılarıdır. Nəzəriyyəçilərin (burjua ziyalıları içərisindən çıxan) köməyi olmadan proletariat öz xüsusi mənafeyini dərk edə bilməz və nə uğrunda mübarizə aiardığını anlamaqdan uzaq olar. Onun gündəlik (kortəbii) əmək haqqının artırılması, əmək şəraitini və həyatını yaxşılaşdırmaq uğrunda mübarizəsi əməyin kapitala tabe olmasını aradan qaldırmır. Buna görə Lenin aydınlaşdırdı ki, "proletariatın başlıca iqtisadi mənafeyi yalnız burjuaziyanın diktaturasını proletariat diktaturası ilə əvəz edən siyasi inqilab vasitəsilə təmin oluna bilər". Lenin yazırdı ki, Rusiya sosial-demokratiyası fəhlə hərəkatını siyasi mübarizə yoluna istiqamətləndirməlidir. Bunun üçün Rusiyada peşəkar inqilabçaların gizli mərkəzləşdirilmiş təşkilatı yaradılmalıdır ki, o fəhlə sinfinin bütün dərnəklərinə, ittifaqına, birliklərinə rəhbərlik etməyə səy göstərsin. Lenin yazırdı: "Bizə inqilabçılar təşkilatı verin - Rusiyanı alt-üst edək".

Leninin və onun tərəfdarlarının belə partiya yaratmaq uğrunda mübarizəsi Rusiya sosial-demokratiyasında parçalanmaya

gətirib çıxardı, onun bolşeviklərə və menşeviklərə ayrılması ilə nəticələndi. Leninin "Nə etməli" əsərinə cavab olaraq, Plexanov "Nəyi etməməli" əsərini yazdı. Bu əsərdə Lenini və onun tərəfdarlarını blankizmə meyl etməkdə, xalqçı Tkaçovu yamsılamaqda günahlandırdı. Lenin Plexanovun siyasi görüşlərini və siyasi fəaliyyətini səciyyələndirərək, onu bir cümlə ilə sərrast qiymətləndirmişdi: "Plexanov doğuldu xalqçı, yaşadı marksist, öldü menşevik".

Menşeviklərin siyasi-hüquqi ideologiyası başlıca olaraq Kautskinin və Qərbi Avropanın digər sosial-demokratlarının ideologiyası ilə oxşarlıq təşkil edirdi. Onları belə bir fikir birlşdirirdi ki, sosialist inqilabı məhz, kapitalizmin yüksək inkişaf səviyyəsinə malik olduğu və fəhlə sinfinin əksəriyyət təşkil etdiyi ölkələrdə mümkündür.

XX əsrin əvvəllərində isə Rusiya belə ölkə deyildi. İlk əvvəllər Lenin başlıca nəzəri və təşkilati səylərini yeni tipli partiya yaratmağa və onu əsaslndırmağa istiqamətləndirdi. Lenin bolşeviklər partiyasını "dövrümüzün zəkası, şərəfi və vicdanı" adlandırırdı. Birinci rus inqilabı dövründə (1905-1907-ci illər) Lenin sübut etdi ki, bolşeviklər partiyasının rəhbərliyi altında Rusiyada burjua inqilabı böyüyərək sosialist inqilabına keçəcək. "Biz fasiləsiz inqilab tərəfdarıyıq. Biz yarı yolda dayanmayacağıq" fikrini qətiyyətlə irəli sürən Lenin bir qədər sonra nəzəri cəhətdən öz səylərini imperializmin devriləcəyinin əsaslandırılmasına istiqamətləndirdi. O, yazırdı ki, imperializm kapitalizmin elə səviyyəsidir ki, özü üçün mümkün olan hər şeyə edib, indi isə tənəzzülə uğrayır, "imperializm proletariatın sosialist inqilabı ərəfəsidir".

Lenin mühacirətdə olarkən Marks və Engelsin bir sıra əsərlərinin icmalını hazırlayır (1916-cı il) və bu zəmində dövlətin nəzəri problemlərinin tədqiqinə səy göstərir. "Marksizm dövlət haqqında" adlandırdığı həmin icmal əsasında 1918-ci ildə "Dövlət və inqilab" adlı məşhur əsərini çap etdirdi. Lenin fəhlə sinfinin mübarizəsinin əsl məqsədi naminə bolşeviklərin tutduğu yolun düzgünlüyünə qətiyyətli inamını obrazlı şəkildə həmin əsərində belə ifadə etmişdir. "Qoy, burjua alabaşları proletar filinə hürməkdə olsunlar. Biz öz yolumuzla gedirik".

Lenin dövlət probleminə eləcə də 1917-ci ilin yaz-yay aylarında yazdığı "Aprel tezisləri", "Bolşeviklər dövlət hakimiyyətini əldə saxlaya bilərlərmi" adlı məqalələrində və digər əsərlərində mühüm diqqət yetirmişdir. O, düzgün olaraq qeyd edirdi ki, hakimiyyəti ələ almaq asandır, lakin əldə saxlamaq çətindir. Bu mənada nəinki hakimiyyətin əldə olunması, eləcə də qorunub saxlanmasına dair öz mülahizələrini geniş şəkildə elan edirdi.

Lenin başlıca diqqətini burjua dövlətinə qarşı zoraki inqilabın əsaslandırılmasına, parlamentarizmin tənqidinə, köhnə dövlət maşınının sındırılması zəruriliyinə, Sovetlər Respublikasının yaradılmasına (Paris Kommunası tipli respublika) yetirdi.

Boşeviklər hakimiyyət başına gəldikdən sonra (1917-ci il oktyabr ayı) Lenin əvvəlki bəzi müddəalarını nəzərdən keçirərkən sinfi mübarizənin kəskinləşəcəyini əsaslandırdı. "Biz diktaturanı onun ən sərt formasında həyata keçirməli olacağıq". Lenin fəhlə sinfinin azsaylı olduğu Rusiyada partiya rəhbərliyini proletariat diktaturasının vacib şərti sayırdı. "Proletariat diktaturası kommunist partiyası olmadan heç cür mümkün deyildir". XX əsrin 90-cı illərinin əvvəlində SSRİ-nin (sovet imperiyasının) süqutunu şərtləndirən amillərdən biri, bəlkə də başlıcası ölkədə kommunist partiyasının ləğvi oldu. Leninin "kommunist partiyası olmadan proletariat diktaturası qeyri-mümkündür" fikri məhz onun özünün yaratdığı və məqsədyönlü surətdə dağıdılan sovet hakimiyyətinin timsalında əyani təsdiqləndi.

**b) "Solidarizm" siyasi doktrinası.**

Solidarizm ideyaları XIX əsrin axırları və XX əsrin əvvəllərində əhəmiyyətli dərəcədə yayılmağa başladı. həmin ideyanın nəzəri əsasını Oqyust Kontun cəmiyyətin vahid bütövlük təşkil etməsi haqqında sosioloji görüşləri təşkil edir. İdeoloji baxımdan solidarizm ideyaları fərdiyyətçiliyə və sosializmə (kommunizmə) zidd idi. Fərdiyyətçiliyin və liberalizmin əksinə olaraq solidaristlər subyektiv hüquqa skeptik (şübhəli) şəkildə yanaşırdılar. Onların fikrincə subyektiv hüquq cəmiyyət üzvlərini bir-birindən ayırır, cəmiyyətə pərakəndəlik (dağınıqlıq) xarakteri

təlqin edir. "Solidarizm"anlayışı ilk dəfə sosiologiyanın banisi hesab olnunan O.Kont tərəfindən irəli sürülmüş və fransız sosioloqu Emil Dyurkheymin "İctimai əmək bölgüsü haqqında" (1893-cü il) kitabında inkişaf etdirilmişdir. Dyurkheym sübut etməyə çalışırdı ki, cəmiyyətin sinfi strukturu əmək bölgüsü ilə şərtlənir və ona oxşardır. Buna görə əmək bölgüsü kimi o da vacibdir və ictimai zərurətdir (eləcə də müasir cəmiyyətdə burjuaziya və fəhlə sinfinin mövcudluğu zəruridir), siniflər ictimai istehsal sistemində birgə və həmrəy şəkildə çalışmalıdır. Bu ideyanı həmçinin fransız siyasi xadimi L.Burjua "həmrəylik" adlı kitabında (1897-ci il) geniş açıqlamışdır. XVIII və XIX əsrlərin fərdiyyətçi doktrinalarına qarşı çıxaraq L.Burjua iddia edirdi ki, öz-özlüyündə real surətdə fərdlər və dövlət deyil, məhz birgə həyatın faktları ilə bağlı olan adamların assosiasiyası mövcuddur.

Maraqlıdır ki, 1900-cü ildə Parisdə həmrəylik şüarı adı altında birinci "sosial tərbiyə konqresi" keçirildi. Sonrakı ildə isə həmin şəhərdə Sosial elmlərin Ali məktəbində "həmrəylik fəlsəfəsi" haqqında mühazirələr təşkil olundu. Qeyd edək ki, proletariatı burjuaziya əleyhinə mübarizəyə çağıran Sorel və digər fransız anarxist-sindikalistləri həmrəylik anlayışına qarşı kəskin şəkildə çıxış etdilər.

İnqilabi sindikalizmi (sindikalizm - fəhlə hərəkatında yalnız həmkarlar ittifaqı (sindikatlar) çərçivəsində iqtisadi mübarizəni qəbul edən xırda burjua cərəyanı) rədd edərək solidarizm (həmrəylik) ideyası əsasında siyasi hüquqi konsepsiya yaratmağa ilk cəhd edən Leon Dyuqi (1859-1928-ci illər) oldu. Bordodaki hüquq fakültəsinin professoru olan Dyuqi "Dövlət, obyektiv hüquq və müsbət qanun" adlı kitabında eləcə də sonrakı əsərlərində qeyd edirdi ki, "cəmiyyətin əsasını təşkil edən adamların qeyri-bərabərliyi cəmiyyətin siniflərə bölünməsinə gətirib çıxarır, bunlardan hər biri zəruri sosial funksiyalar yerinə yetirir. Bu qarşılıqlı asılılıq faktı, ümumi tələbat və əmək bölgüsü zəminində birləşən adamlar kimi başa düşülən sosial həmrəyliklə şərtlənir".

Dyuqi marksimi tənqid etməklə sinfi mübarizəni islahatçılıq səviyyəsinə istiqamətləndirməyi nəzərdə tutudu və bu məqsədlə O.Kontun, E.Dyurkheymin və L.Burjuanın ideyalarına əsaslanırdı. Dyuqinin nəzəriyyəsinə görə insanları cəmiyyətdə birləşdirən

əlaqə həmrəylik telləridir və ya qarşılıqlı asılılıqdır. Dyuqi hesab edir ki, hər bir sinif öz vəzifəsini, öz borcunu cəmiyyətdə həmrəyliyin və harmoniyanın təmin olunması naminə yerinə yetirir. İctimai əmək bölgüsü prosesində siniflərin əməkdaşlığı kapitalizmin mənfi tərəfinin inqilabsız, sülh yolu ilə aradan qalxmasına gətirib çıxarır. Dyuqi bildirirdi ki, ictimai həmrəylik faktı fərdlər tərəfindən dərk olunur və sosial həmrəylik normaları doğurur: sosial həmrəyliyin pozulmasına gətirib çıxaran heç nə etmə və onun reallaşması və güclənməsi üçün mümkün olan hər şeyi et. həmrəyliyin sosial normaları bütün obyektiv hüququn əsasını təşkil edir. hüquqi normalar sosial normaların "yüksək gücüdür".

Hüququn mahiyyətini sosial həmrəyliyə nüfuz etdirmək cəhdi zəhmətkeşləri kapitalist qaydaları ilə barışdırmaq, burjua hüququnun proletariatın mənafeyinə uyğun gəlməsini əsaslandırmaq məqsədi güdürdü.

Dyuqi təsdiqləyirdi ki, hüquq bilavasitə ictimai həmrəylikdən irəli gəlir və buna görə dövlətin fövqündə durur, onun üçün məcburidir. Dyuqiyə görə hüquqi normalar ictimai qarşılıqlı əlaqələr şəraitində öz-özünə əmələ gəlir. Qanunverici onu yaratmır, təsdiq edir. Bu mənada Dyuqinin nəzəriyyəsi sosioloji hüquqşünaslığa, daha dəqiq desək M.Oriunun, E.Erlixin və J.Qurviçin plyuralizm konsepsiaysına uyğun gəlir.

Dyuqi subyektiv hüququ və eləcə də gerçəkliyə müvafiq olmayan "metafizik" hüququn subyekti anlayışını həmrəylik mövqeyindən inkar etmişdir. Məhz, heç kimə - nə fərdə, nə kollektivə subyektiv hüquq verməyən obyektiv hüquq - hüquqi norma mövcuddur. həmrəylik norması fərd üçün yalnız "hüquqi situasiya", "soial vəzifə" yaradır. Bunların sayəsində mövcud fərd ictimai həmrəylik sistemində tutduğu yerə uyğun olaraq müəyyən funksiyalar yerinə yetirir. Beləliklə, Dyuqi subyektiv hüquqi şəxsiyyətin həmrəylik normalarından irəli gələn vəzifələri içərisində əridir. Bu isə faktiki olaraq şəxsiyyətin ictimai münasibətlərin fəal subyekti kimi müstəqilliyinin ləğvinə gətirib çıxarır.

Beləliklə, Dyuqi öz ideyalarını "çox böyük səhv", "iyrənc doktrina" adlandırdığı sinfi mübarizə təliminə qarşı qoymuşdur. Dyuqi yazırdı: "Sinfi mübarizəni təbliğ etmək cinayətdir, mən

düşünürəm ki, biz heç bir sinfin digərini məhv etməsinə doğru deyil, əksinə, siniflərin əlaqələndirilməsi və iyerarxiyalılığı rejiminə gedirik". Dyuqi müasiri olduğu Fransa və digər ölkələrdəki sindikalist hərəkatın elə istiqamətini pisləyirdi ki, o, burjuaziyaya qarşı barışmaz mübarizəyə yönələmişdi. Bu nəzəriyyəçi dövlət sosializminə də düşməncəsinə münasibət bəsləyirdi. "Əgər kollektiv doktrina qalib gələrsə o, inqilabın dövlətə bəxş etdiyi hakimiyyətdən daha qüdrətli hakimiyyət verəcəkdir; bu isə şəxsiyyətin məhvinə və barbarlığa qayıtmaq deməkdir". Dyuqinin nəzəriyyəsinə görə sahibkarlar və kapitalistlər cəmiyyət üçün proletariat qədər zəruridir. İnqilabi sindikalizmin ümumi tətilə, fəhlələrin fabrik və zavodları zəbt etməyə, burjuaziyaya qarşı zorakılığa çağırışı cəmiyyəti dağıtmaq təhlükəsi yaradır. Dyuqi sosializmin tərəfdarı olmasa da dinc, qeyri-zorakı sindikalist hərəkatı bəyənirdi. Sindikalizmin vəzifəsi əməklə kapital arasında kompromisə nail olmaqdan ibarət idi. Dyuqi belə hesab edirdi ki, XX əsrin səciyyəvi cəhəti fəhlələri, sahibkarları və digərlərini peşə əlamətlərinə görə birləşədirən geniş miqyasda inkişafı idi.

Fərdiyyətçilik doktrinasına qarşı çıxmaqla Dyuqi insan və vətəndaş hüquqları bəyannaməsində möhkəmləndirilən bərabərlik və insanın təbii hüququ ideyasına hücum edir. İnsanlar təbiətən bərabər deyillər və buna uyğun olaraq cəmiyyətdə ayrı-ayrı mövqelərə malikdirlər və eyni yox, müxtəlif hüquqi vəziyyətdə olmalıdırlar.

Dyuqinin yürütdüyü mülahizələrə görə həmrəylik doktirinası fərdin hər hansı hüquqa malik olmasını rədd edir, o, məhz "sosial vəzifələr" həyata keçirməlidir. Dyuqi bu ideyanı xüsusilə mülkiyyətə tətbiq etməklə daha geniş inkişaf etdirmişdir. Fərd "mülkiyyətçilik sosial funksiyasını azad, tam və mükəmməl şəkildə yerinə yetirməyə borcludur". Dyuqi xüsusi kapitalist mülkiyyətinin zəruriliyini və faydalılığını sübut etməyə çalışırdı. Dyuqi Oqyust Kontun nəzəriyyəsindən ən ifrat nəticələr çıxarır. O, ümumiyyətlə hüququn subyekti anlayışını qəbul etmir və təsdiqləyir ki, fərdlər məhz "sosial orqanizmin hüceyrələridir". Dyuqi yazırdı: Biz tamamilə aydın şüurla dərk edirik ki, fərd məqsəd deyil, yalnız vasitədir".

Dyuqi dövlət nəzəriyyəsinə müraciət edərək Esmenin, Ellinekin və digər liberal dövlətşünasların görüşlərini tənqid edir, ictimai müqavilə və dövlət suverenliyi barədə mövcud olan "metafizik" konsepsiyalara mənfi münasibətini bildirir. O, ümumiyyətlə dövlət hakmiyyətinin əlaməti kimi suverenliyi inkar etmişdir. Dyuqinin nəzəriyyəsinə görə ümumi hakimiyyətin əsasını yalnız sosial həmrəyliyin həyata keçirilməsi təşkil edir. O, qeyd edirdi ki, qanun ümumi iradənin deyil, parlamentdə səs verən bir neçə adamın iradəsini ifadə edir.

Dyuqi liberalizm nəzəriyyəçilərinin əksinə olaraq dövlətin müsbət vəzifələrinə böyük diqqət yetirirdi. O, belə hesab edirdi ki, həmrəylik normaları ümumi təhsil, səhiyyə, sosial təminat, əməyin mühafizəsi və digər qanunlara uyğun gəlir. Dyuqi belə bir mülahizə yürüdür ki, həmin qanunların qəbul olunması hüququn sosiallaşmasını təsdiqləyir. O, qeyd edirdi ki, sosial həmrəyliyə uyğun gəlməyən qanun "mövcud deyildir". hüququn və xüsusi mülkiyyətin funkiyasının sosiallaşması iri sənaye kapitalının xeyrinə mülkiyyətçilərin azadlığının məhdudlaşdırılmasına haqq qazandırırdı və eləcə də inhisarçı kapitalın mənafeyi naminə dövlətin iqtisadiyyata müdaxilə etməsinə hüquqi baza yaratdı.

Dyuqi xüsusi mülkiyyəti ümumi rifah naminə həyata keçirilən sosial borc kimi aydınlaşdıraraq kapitalist mülkiyyətinin istismarçı təbiətini təhrif edir və eləcə də onun konsepsiyası "xalq kapitalizminin" reformist doktrinası ilə qovuşur.

Dyuqi O.Kontun xəttini davam etdirərək yeni siyasi sistem olmaq etibarilə "sindikalist federasiyanı" xalq suverenliyinə qarşı qoyurdu. Bu sistem sosialist inqilabının qarşısını almaqla proletariat diktaturasının yaranmasına yol verməməli idi. Onun fikrincə bu məqsədlə sinfi cəmiyyət sindikatlar əsasında yenidən təşkil olunmalıdır. Belə halda müxtəlif siniflərin və peşə qruplarının əlaqələndirilməsinin siyasi-hüquqi forması və vasitəsi təmin edilmiş olar. Dyuqinin fikrincə nəticədə sinfi mübarizə minimuma enər və siniflərin barışması əldə olunar, dövlət hakmiyyətinin həyata keçirilməsində bütün xalqın və partiyaların hamısının iştirakı reallaşar.

Ümumiyyətlə, "solidarizm" nəzəriyyəsi burjua siyasi ideologiyasına əhəmiyyətli təsir göstərmişdir.

**V) Neokantçılıq konsepsiyası.**

Fəlsəfi istiqamət (cərəyan) olmaq etibarilə neokantçılıq XIX əsrin axırıncı onilliyində Almaniyada **Lanqe, Libman** və başqaları tərəfindən yaranmışdır. Sonralar isə Avropanın bir sıra ölkələrində (Avstriya, Fransa, Rusiya və s.) geniş yayılmışdır. Neokantçılar (yenikantçılıq) **Kantın** təlimindəki materialist cəhətlərə qarşı çıxış edirdilər. Onların əksəriyyəti Kant tərəfindən irəli sürülən və əsaslandırılan şey özündə ideyasını qəbul etməyərək bildirirdilər ki, idrak şüur hadisələrindən kənara çıxmaq imkanına malik deyildir.

Neokantçılıq əxlaq və hüquq normalarını ictimai münasibətlərdən təcrid etməklə hüquqşünaslığın "apriorluğunu", onun sosial gerçəkliyi öyrənən elmdən tam qeyri-asılılığını əsaslandırmağa çalışırlar. Neokantçılıq hüququn gerçəklikdən, mövcud olandan asılı olmadığını iddia edirdilər.

Neokantçılığın görkəmli nümayəndələrindən biri **Rudolf Ştammlerdir** (1856-1938-ci illər). O, hadisələr arasındakı səbəbiyyət əlaqələrini inkar etməklə ictimai həyatın elmi cəhətdən dərk olunmasının qeyri-mümkünlüyünü iddia edir. Ştammlerə görə, ictimai hadisələr insanlar tərəfindən şüurlu şəkildə qarşıya qoyulan, həyata keçirilən və həyata keçirilməli olan məqsədlər baxımdan araşdırılmalıdır. Bu neokantçı filosof qeyd edir ki, ictimai elm məqsədlər və vasitələrin nisbəti üzərində yaradılmalıdır. Sosial həyatın qanunauyğunluğu "bəşər cəmiyyətinin başa düşülməsi və son məqsədlərinin izlənməsidir". Bu fikirdən çıxış edərək Ştammler ictimai inkişafın gedişini qabaqcadan görməyin qeyri-mümkünlüyünü sübuta yetirməyə səy göstərir.

Neokantçılığın "Geriyə, Kanta doğru" şüarı xüsusilə, Almaniyada geniş yayılmışdı. Yeri gəlmişkən qeyd edək ki, XIX əsrin sonunda bu ölkədə iki başlıca neokantçılıq məktəbi fəaliyyət göstərirdi: Freyburq - Baben və Marburq məktəbləri. Baben məktəbini təmsil edən **Vilhelm Vindelband** (1848-1915-ci illər), **Henrix Rikkert** (1863-1936-ci illər) ilk növbədə marksizmə qarşı qəti mübarizə aparırdılar. Onlar fəlsəfəni elmi metodologiya hesab edirdilər. Bu məktəbin nümayəndələri tarixi qanunauyğunluğu

qəbul etməyərək bildirirdilər ki, tarix elmi qanunları kəşf etməyə səy göstərməlidir, məhz fərdi hadisələri təsvir etməklə məhdudlaşmalıdır.

Marburq məktəbinin nümayəndələri isə öz təlimini "elmi idealizm" adlandıran **Koqen, Natorp** və başqaları idi. Marburq məktəbinin ideyaları öz ifadəsini məhz, Rudolf Ştammlerin "Tarixin materialist anlayışı baxımdan təsərrüfat və hüquq" (1896-cı il) kitabında tapmışdı. həmin kitabın başlıca cəhəti bundan ibarətdir ki, öz qarşısına tarixi materializmin elmiliyini, cəmiyyətin inkişafının obyektiv qanunauyğunluqlarının dərk olunmasını təkzib etməyi qoymuşdu. Ştammlerin əsas tənqidi bazis və üstqurum, ictimai-iqtisadi formasiyalar və onların bir-birini əvəz etməsi haqqında təlimə qarşı istiqamətlənmişdi. O, demək olar ki, maksizmin inqilab haqqında ideyalarına toxunmamışdı. Ştammler belə hesab edir ki, əsərinin başlıca məqsədi hüququ müdafiə etməkdir. Bu nəzəriyyəçi kantçılığın "səbəbiyyət aləmi" ilə "azad iradə aləmini" bir-birinə qarşı qoyması fikrindən çıxış edərək ictimai həyat hadisələrinin səbəblə şərtlənməsini inkar edir. Ştammlerin gəldiyi qənaətə görə "adamların sosial varlığının mahiyyəti iradədə və məqsədlərin izlənməsində təcəssüm olunur. Sosial həyatın son məqsədlərinin qanunauyğunluqlarından başqa onun digər yüksək qanunauyğunluqları ola bilməz". Ştammlerin konsepsiyasında cəmiyyətin inkişafının səbəbiyyətlə şərtlənməsinin obyektiv qanunauyğunluqlarının inkarı məhz, onun marksizmi tənqidi ilə bağlıdır. Bu neokantçı filosof bazis və üstqurum haqqında marksist təlimi inkar edərək bildirir ki, istehsal münasibətləri adlandırılan şey həmişə hüquqi formada çıxış edir və buna görə iradi xarakter daşıyır. "hüquqi qayda və iqtisadi quruluş sözsüz, bir-birinin eynidir". Bu baxımdan Ştammler "Marksist triadaya: texnologiyaya - istehsal münasibətlərinə - hüquqi qanunlara" qarşı özünün iki pilləli ideyasını: təsərrüfat həyatının - "formasız materiya" ilə hüququn - ictimai əməkdaşlığın həyata keçirildiyi formal şəraitin məcmuunun nisbətini irəli sürür. Bir halda ki, adamların azad iradəsini nəzərədə tutan fəaliyyət texnikanın inkişafı ilə deyil, məhz, məqsədlərin əldə olunması sayəsində müəyyən olunur, deməli ictimai inkişafın mənbəyini məqsədə istiqamətləndirməkdə axtarmaq lazımdır, məqsəd-

yönlülük isə hüquqda ifadə olunur, deməli sosial tərəqqi məhz, ictimai inkişafın müəyyənedici amili olan hüquq sahəsində həyata keçirilir.

Ştammler sosial həyatda "tənzimləyici forma" hesab etdiyi hüququ "tənzimləyici materiya" kimi başa düşdüyü təsərrüfat, iqtisadiyyat anlayışından fərqləndirirdi. Neokantçı filosofa görə təsərrüfat fəal hüquqi forma ilə müəyyən olunan ikinci, törəmə və passiv bir şeyə çevrilir. O, başa düşdüyü və əsaslandırdığı hüququn mahiyyəti baxımdan hüququ qısaca olaraq belə qiymətləndirir: "Hüquq pozulmayan, hakimi-mütləq, məcbur edən istəkdir. hüquq ideyası bunda təcəssüm olunur ki, insanlara hüquqla tənzimlənən birgə fəaliyyətlərində ədalətli istək lazımdır".

Ştammler hüquqa dair mücərrəd, formal mülahizələr yürütməsinə baxmayaraq XIX və XX əsrlərin qovşağında təbii hüququn yenidən mənalandırılmasının ilk təşəbbüskarlarından biri kimi tanınır. Hüquq həmişə qeyri-mükəmməl olduğu üçün daim dəyişir fikrini iddia edən neokantçı filosofun yeni anlayışı - "təbii hüququn dəyişən məzmunu" anlayışını əsaslandırması onun xidməti sayılır. Bu anlayış hüququn inkişafı ilə müəyyən olunan tarixi proses haqqında təsəvvürlərlə bağlıdır.

Ştammler XVII-XVIII əsrlərin nəzəriyyəçilərindən fərqli olaraq təsdiqlədi ki, təbii hüquq "dəyişkən məzmuna" malikdir. Onun fikrincə, tarixən təşəkkül tapan və dəyişən, ictimai hüququ şüurda ifadə olunan və ictimai ideal nöqteyi-nəzərdən hüquqi islahatlar tələb edən ideyalar "təbii hüquq" adlanır.

Bir sözlə, Rudolf Ştammler son nəticədə belə qənaətə gəlir ki, ictimai tərəqqi mücərrəd hüquqi ideaila müəyyən olunur. O, Kantın ümumdünya tarixi haqqında ideyasına diqqət yetirərək təsdiqləyirdi ki, bu ideal ümumiyyətlə, heç vaxt əldə edilə bilməz, onun əldə olunması istər-istəməz bəşəriyyətin tarixinin başa çatması demək olardı.

# III FƏSİL

## SİYASƏT SOSİAL FENOMENDİR

### 1. SİYASƏTİN MAHİYYƏTİ, MƏZMUNU VƏ SPESİFİKLİYİ

Siyasət çoxcəhətli, çoxistiqamətli və çoxməntiqli mürəkkəb hadisədir. O, subyektiv və obyektiv təbiətə malik olmaqla adamlar arasında qarşılıqlı əlaqələrin təkrar istehsalı prosesi kimi çıxış edir, onları siyasi hakimiyyətin və idarəetmənin strukturu mə'nasında obyektivləşdirir. Siyasət hadisələrin, tə'sisatların, münasibətlərin və proseslərin son dərəcə mürəkkəb kompleksini əks etdirir. Siyasətin predmetini insanın adamlar arasında münasibətlərin tənzimlənməsinə istiqamətlənən şüurlu fəaliyyəti təşkil edir.

Siyasətin mahiyyəti haqqında dolğun təsəvvür əldə etmək üçün qısaca da olsa cəmiyyət və onun yarımsistemləri barədə, eləcə də "siyasət termininin yaranma tarixinə və təkamülünə dair şərhə ehtiyac duyulur.

Cəmiyyət insan birliklərini əhatə edən özünəməxsus sistem olmaqla bir-biri ilə əlaqə kəsb edən, bir-birinə keçən və nisbi müstəqilliyə malik olan yarımsistemlərdən ibarətdir. Həmin yarımsistemlər bunlardır: iqtisadi və ya istehsal-təsərrüfat yarımsistemi; sosial, mədəni və mə'nəvi sferaların məcmuu olan vətəndaş cəmiyyəti yarımsistemi; siyasi yarımsistem. Belə bir cəhəti qeyd edək ki, vətəndaş cəmiyyətini və siyasi həyatı insan cəmiyyətinin yarımsistemi kimi nəzərdə tutmaq heç də bu yarımsistemlərin həddinin şərti xarakter daşımasını inkar etmək deyil. İnsan cəmiyyətinin hər bir yarımsistemi (sferası) həyat qabiliyyətini və fəaliyyətini o halda saxlaya bilər ki, digər yarımsistemlər öz funksiyalarını layiqincə və müntəzəm surətdə yerinə yetirsinlər.

Cəmiyyətin yarımsistemlərinin qarşılıqlı əlaqəsinin zəruriliyi bu gün xüsusilə nəzərə çarpır. Hazırkı şəraitdə tam aydınlığı ilə hiss edirik ki, iqtisadi islahatların uğurla həyata keçirilməsi üçün köhnə, səmərəli olmayan metodların və maddi ne'mətlərin bölüşdürülməsi sisteminin təmtəraqlı şüarlarla pislənməsi və aradan qaldırılması kifayyət deyildir. Zəhmətkeşlərin sosial müdafiəsi üçün real mexanizm hazırlanmalı və bu praktiki tədbirlərlə tamamlanmalıdır. Əlbəttə, həmin mexanizmin işlənib hazırlanması və tədbiq olunması üçün dərin siyasi islahatlar strukturunun müəyyənləşdirilməsi zəruridir. Öz növbəsində hakimiyyət strukturlarının demokratikləşdirilməsinə istiqamətlənən siyasi islahatlar iqtisadi və sosial sferalarda real və geniş tədbirlər sistemi ilə möhkəmləndirilməzsə məhz, yaxşı arzu kimi qalar. Buna görə dürüst başa düşmək lazımdır ki, haqqında dönə-dönə danışdığımız bazar iqtisadiyatını, vətəndaş cəmiyyətini və siyasi demokratiyanı o halda tam formalaşdırmaq mümkündür ki, bunların qarşılıqlı əlaqəsi aydın və dəqiq dərk olunsun. Bütün yarımsistemlərin problemlərini həll etmək üçün onların hamısında islahatlar keçirilməsi həyati tələbatdır.

Siyasət qədim yunan dilində polis sözündən və bu sözdən əmələ gələn **politikos** terminindən götürülüb şəhərlə, dövlətlə, vətəndaşla əlaqəsi olan mə'nanı ifadə edir. Siyasət cəmiyyətin təşkiledici, tənzimləyici-nəzarətedici sferasıdır. Siyasət termini Aristotelin dövlət, idarəetmə və hökumət məsələlərinə həsr etdiyi "Siyasət adlı traktatının tə'siri altında yayılmışdır. «Siyasət» sözünü Aristotel vətəndaşların birgə yaşayış forması kimi, dövləti səciyyələndirərkən işlətmişdir. XIX əsrin axırlarına qədər siyasət ən'ənəvi olaraq dövlət haqqında tə'lim kimi, başqa sözlə, tə'sisatlaşmış hakimiyyət və dövlət səviyyəsində nəzərdən keçirilmişdir. Lakin yeni dövrdə siyasi fikrin inkişafı və dövlət barədə təsəvvürlər dövlət haqqında elmin yaranmasına, onun siyasi fəlsəfədən və siyasi elmlərdən ayrılmasına gətirib çıxardı. Siyasət haqqında təsəvvürlər əhəmiyyətli dərəcədə zənginləşdi və eyni zamanda siyasətin başa düşülməsi xeyli dərəcədə mürəkkəb problemə çevrildi. Bununla belə, o, müxtəlif tədqiqatların obyekti kimi araşdırıldı. Siyasət haqqında yeni və fəlsəfi cəhətdən daha yüksək səviyyədə əsaslandırılan konsepsiya **K.Şmitt** və **J.Frendə**

(XX əsr) məxsusdur. Bu tədqiqatçılar siyasətə dair baxışlarını siyasətin münaqişəli təbiəti baxımdan izah edərək belə qənaətə gəlmişlər ki, o, daxili ziddiyyətləri, mürəkkəbliyi və universallığı ilə səciyyələnən xüsusi sosial felomendir. Belə mövqe bə'zi müasir tədqiqatlarda da diqqəti cəlb edir. Bu baxımdan fransız politoloqları **M.Dyuverje** və **F.Brodun** fikirləri maraq doğurur. Onların fikrincə siyasətin təzahür etdiyi bütün ictimai sferaları münaqişəsiz təsəvvür etmək olmaz.

Son zamanlar politologiyaya dair çap olunan dərsliklərdə və siyasi elmin problemlərinə həsr olunan işlərdə "siyasət alayışının təhlilinə ciddi diqqət yetirilmişdir. Tədqiqatçıların bir qrupu siyasətin idarə etmə funksiyasına xüsusi əhəmiyyət verərək qeyd edirlər ki, o, cəmiyyətin idarə olunması haqqında elmdir. Digər müəlliflər siyasətin hakimiyyət münasibətləri ilə əlaqəsinə üstünlük verirlər. Bununla əlaqədar hər şeydən əvvəl, hakimiyyətin həyata keçirilməsində zorakı metodların nəzərə alınmasını məqsədəuyğun hesab edirlər. Elə müəlliflər də vardır ki, onlar siyasəti daha çox hüquqla əlaqələndirirlər. Bə'zi tədqiqatçılar isə iddia edir ki, siyasət maddi və isan ehtiyatlarının istehsalına və bölüşdürülməsinə istiqamətlənən siyasi fəallığın bütün formalarını əhatə edir. Siyasəti sosial fəallıqla eyniləşdirmək cəhdi **Q.Şubert, S.Ştrum** və başqalarının siyasi tədqiqatlarında daha aydın nəzərə çarpır.

Lakin belə təsəvvürə qarşı çıxan tədqiqatçılar da az deyil. Bu baxımdan **K.S.Hacıyevin** tədqiqatı xüsusilə maraq doğurur.[1] Əlbəttə, ictimai həyatın bütün proseslərini, eləcə də iqtisadi, sosial və ideoloji problemlərin hamısını siyasətə aid etmək məqsədəuyğun deyil. Tarixi inkişaf prosesi və siyasi praktika təsdiqləyir ki, ictimai həyatın bütün sferalarının qlobal siyasiləşdirilməsi yalnız totalitar sistemlərə xasdır. Demokratik rejimlərdə isə siyasətin predmetini adamların həyat fəaliyyətinin elə mühüm cəhətləri təşkil edir ki, bunlar sosial bütövlüyün (millətlərin, siniflərin, cəmiyyətin, dövlətin, partiyaların və digər sosial təşkilatların) inteqrasiyası ilə bağlıdır. Onu da qeyd edək ki, siyasət yalnız ümumi mənafelərin ifadəsi kimi deyil, həm də

---

[1] Гаджиев К.С. Политическая наука М., 1994.

xüsusi, o cümlədən fərdi mənafelərin daşıyıcısı kimi çıxış edir. Elə buna görə siyasəti mənafe ilə əlaqələndirənlər də vardır.

Sosial fenomen olmaq e'tibarilə siyasətin mahiyyətini onun funksiyaları baxımından qiymətləndirən konsepsiyaya da təsadüf olunur. Başqa sözlə, siyasətin idarəetmə, qayda-qanun yaratmaq, daxili və xarici əmin-amanlığın saxlanması və əksinə, müharibələr aparmaq, cəmiyyət və adamlar üzərində nəzarət funksiyaları bu mürəkkəb ictimai hadisənin məzmununu müəyyən edən amil kimi əsaslandırılır. Siyasət anlayışının məzmunu ilə bağlı irəli sürülən mülahizələrdən digəri budur ki, o, hər şeydən əvvəl, məqsədlərinə görə nəzərdən keçirilir.

Siyasət haqqında biliklərin inkişafı və differensasiyası onu tədqiq edən elmlərin inkişafı ilə bağlıdır. Hazırkı şəraitdə siyasət siyasi fəlsəfənin, siyasi elmlərin və politologiyanın tədqiqat obyektidir. Həmin elmlər siyasəti qarşılıqlı əlaqəyə malik olan üç səviyyədə öyrənirlər: sosial fenomen; siyasi fəaliyyətin mexanizmi, metodu, təşkili kimi; empirik biliklər səviyyəsində. Siyasət hazırda adi, kütləvi və elmi şüurun ən kəskin problemlərindən biridir.

Siyasət haqqında müasir biliklər onu təbii tarixi prosesin ən mühüm amili kimi tədqiq etməyə imkan yaradır. Siyasətin belə amil kimi çıxış etməsi onun iki başlıca funksiyasından irəli gəlir: birincisi, siyasət cəmiyyətin ümumi təşkilinin başlanğıcı kimi, ikincisi isə onun konkret tənzimedici-nəzarətedici sferası mənada çıxış edir. Başqa sözlə, o, adamların, ictimai qrupların, siniflərin, millətlərin, xalqların və ölkələrin həyatının, fəaliyyətinin, münasibətlərinin istiqamətverici amilidir. Siyasətin sosial sistemdə rolu ona xas olan üç cəhətlə şərtlənir: universallığı, geniş əhatə dairəsinə malik olması; cəmiyyətin bütün tərəflərinə, həyatına və ünsürlərinə praktiki tə'sir etmək qabiliyyəti; qeyri-siyasi ictimai fenomenlərlə, münasibətlərlə, sferalarla əlaqə daşıması, bunlara nüfuz edə bilməsi. Siyasəti səciyyələndirən cəhət budur ki, cəmiyyətin bütün yarımsistemlərinə, həmçinin, iqtisadi siyasətə, siyasi ideologiyaya, mədəniyyətə, əxlaqa və sairəyə ciddi tə'sir göstərir.

**Hakimiyyət münasibətləri, dövlət və dövlət quruculuğu ilə əlaqədar olan siyasət insanların həyat fəaliyyətinin xüsusi**

sferasıdır. **O, elə tə'sisatları, prinsipləri, normaları və sairəni özündə əks etdirir ki, bunlar adamların bu və ya digər birliklərinin həyat qabiliyyətini tə'min edir, onların ümumi iradəsini, mənafelərini və tələbatlarını reallaşdırır.** Siyasət həm dövlətdir, həm dövlət tə'sisatlarıdır və həm də siyasi sistemin özüdür. Bundan əlavə, hakimiyyəti və hakimiyyət münasibətlərini, cəmiyyətin dövlət-siyasi təşkilatlarını və onun bütün tə'sisatlar kompleksini ehtiva edir. Bir sözlə, **siyasət sistemdir. E.B.Şestopalın** qeyd etdiyi kimi "siyasət haqqında danışarkən biz hər şeydən əvvəl dövləti siyasi tə'sisatlar sistemi kimi xatırlayırıq. Bu sistemə isə prezident və parlament, ordu və təhlükəsizlik sistemi, daxili işlər və xarici işlər nazirlikləri, maliyyə və sosial tə'minat daxildir.[1] Siyasətin müəyyənləşdirilməsinə iki ən'ənəvi mövqedən yanaşılır. Bu mövqelərdən birinin mahiyyəti bundan ibarətdir ki, "siyasət fəaliyyətdə olan şəxslərin toqquşduğu yerdir. Başqa sözlə, öz iradəsini ifadə edən və öz qərarları və ya hərəkətləri ilə bütün sistemə tə'sir göstərən subyektlərin toqquşmasıdır. Digər mövqeyin tərəfdarları isə iddia edir ki, "siyasət dinamik şəkildə qarşılıqlı əlaqə daşıyan hadisələrin elə bir prosesidir ki, son nəticədə subyekt anlayışını kənara tullayır və onu qarşılıqlı fəaliyyət sistemləri ilə əvəz edir

Fransız politoloqu F.Brod siyasət sferasında fəaliyyət göstərən adamları dörd kateqoriyaya ayırır: idarə edənlər və siyasi partiyalar; dövlət idarələri; təzyiq qrupları; bütövlükdə əhali və onun müəyyən qismi. Marksizmə görə siyasət müəyyən ictimai qruplar (siniflərin, millətlərin) arasındakı rəqabəti əks etdirir. Bə'zi tədqiqatçılar və siyasətçilər isə siyasəti **mənafe qrupları** ilə əlaqələndirirlər. **A.Bentli, D.Trumen** və başqaları belə mövqedən çıxış edirlər. Tədqiqatçıların bə'zisi, məsələn, **M.Veber** iddia edir ki, siyasət hakimiyyətin ələ alınması, əldə saxlanması və istifadə olunmasına istiqamətlənən fəaliyyətdir. Alman politoloqu **Karl Şmittin** konsepsiyasına görə siyasət "siyasət aləmini dərk etməyə yönələn müstəqil, orijinal vasitədir. Amerika sosiologiyasının patriarxı adlandırılan **Tolkot Parsons** isə belə hesab edir ki, siyasət kollektiv məqsədlərin səmərəli şəkildə əldə olunmasını

---

[1] Политология. Под редак. М.Н.Марченко. Səh.255.

səciyyələndirən fəaliyyətdir. Politoloji ədəbiyyatda "siyasət və "siyasi sistem anlayışlarının nisbəti məsələsi də araşdırılır.

Bə'zi tədqiqatçılar siyasəti **elm**, digərləri isə **sənət** kimi qiymətləndirir. Belə fikir hələ antik dövrdən mə'lumdur. Platon və Aristotel kimi ensiklopedik zəka sahibləri siyasəti məhz, idarəetmə elmi, idarəetmə sənəti kimi qiymətləndirmişlər. Siyasətin belə səciyyələndirilməsi xüsusilə, böyük məqsədlərin əldə olunmasında və böyük siyasi tədbirlərin reallaşmasında daha aydın nəzərə çarpır. İctimai inkişafın hər bir mərhələsində ölkənin siyasi xəttini işləyib hazırlayarkən elmi cəhətdən əsaslandırılmış prinsiplər rəhbər tutulmalıdır. Belə siyasi xəttin işlənib hazırlanması ölkə əhalisinin onu nə dərəcədə müdafiə edəcəyi reallığına əsaslanmalıdır. Bununla yanaşı, siyasi sistemin özünün inkişaf qanunauyğunluqlarını, onun ictimai həyatın digər sferaları ilə qarşılıqlı əlaqəsini hökmən nəzərə almaq lazımdır. Siyasi xəttin ölkənin iqtisadi inkişaf səviyyəsi və mövcud siyasi rejimlə əlaqələndirilməsi də vacib şərtdir.

Müasir demokratik ölkələrdə vətəndaşlar dövlət səviyyəsində həyata keçirilən siyasətin elmi cəhətdən nə dərəcədə əsaslandırıldığına inanmaq imkanı əldə edirlər. ABŞ-da prezidentliyə, qubernatorluğa və digər belə mahiyyətli vəzifələrə öz namizədliyini irəli sürən şəxslər seçkiqabağı kompaniyada öz proqramlarında irəli sürdükləri və'dlərin həyata keçirilə biləcəyinə seçiciləri inandırmağa müvəffəq olurlar. Lakin belə bir cəhəti də yadda saxlamaq lazımdır ki, siyasət elm olmaqla yanaşı həm də ehtimal xarakteri daşıyır. Belə ki, siyasi proseslərin gedişində gözlənilməz şərait yarana bilər, bə'zi siyasi proseslərə nəzarət etmək mümkün olmaz və s. Bütün bunlar siyasətin elmi cəhətdən əsaslandırılmasını zərurətə çevirir.

Siyasət həm də **sənətdir**. O, fəaliyyət olmaq e'tibarilə konkret siyasi qərarların qəbul olunması zamanı incə manevr etməyi, psixoloji mülahizələri, **mürəkkəb şəraitdə siyasi kompromisə getmək bacarığını, milləti təhlükədən uzaqlaşdırmaq naminə** yeganə düzgün qərarın qəbul olunmasını tələb edir. Beləliklə, siyasətin sənət olması onun intellektual, rasional və intuitiv başlanğıca malik olmasını səciyyələndirir ki, bunların da məcmuu adamları siyasətə cəlb olunmağa, ona inanmağa təhrik edir.

Tədqiqatçılar siyasəti səciyyələndirərkən "yüksək səviyyədə siyasət, "siyasət şərdir, " siyasət çirkin işdir və s. kimi terminlərdən də istifadə edirlər. Əlbəttə, cəmiyyətin rifahına, demokratiyanın inkişafına, insan hüquqlarının və azadlıqlarının həyata keçirilməsinə, bəşəriyyətin tərəqqisinə, ictimai həyatın bütün sferalarının yeniləşməsinə (mütərəqqi formada) istiqamətlənən siyasət təbii ki, ali, yüksək səviyyəli humanist siyasətdir. Lakin tarix şər, çirkin işlərə, humanizm, xalq əleyhinə yönələn siyasətin də şahididir. XX əsrin birinci yarısında qərarlaşan faşist rejimləri (Almaniyada və İtaliyada), SSRİdə bərqərar olan totalitar siyasi rejim məhz, xalq əleyhinə, azadlığa qarşı çevrilən genişmiqyaslı siyasətin təzahürüdür. Tarixən ermənilərin azərbaycanlılara qarşı qərəzli siyasəti, xalqımız əleyhinə mənfur təbliğatı, **xeyli hissəsi azərbaycan torpağı olan indiki Ermənistan ərazisində,** azərbaycanın tərkib hissəsi olan Dağlıq Qarabağda, xüsusilə, Xocalıda həyata keçirilən soyqırımı insanlıq əleyhinə, haqqa, ədalətə qarşı çevrilən **ən çirkin, ən vəhşi siyasət deyilmi?**

Siyasət digər ictimai sferalarla əlaqəlidir. Siyasətin iqtisadi əsası onu iqtisadiyatla daha sıx əlaqələndirir. Əlbəttə, bu əlaqə hakimiyyət vasitəsilə reallaşır. Siyasətin strukturunun subyektə malik olması onun mütəşəkkilliyini, təşkiledici qabiliyyətini xeyli artırır. Bu cəhət isə cəmiyyəti üzvi birlik kəsb edən siyasət obyektinə çevirir. Belə birlik məhz, xeyli dərəcədə siyasətlə iqtisadiyyatın qarşılıqlı tə'siri sayəsində yaranır. İqtisadiyyat siyasətə münasibətdə maddi baza kimi çıxış edir. Siyasət isə iqtisadi qanunlardan şüurlu, məqsədyönlü istifadə olunmasını təcəssüm etdirir. Siyasət iqtisadi fəaliyyəti siyasi ideyalarla zənginləşdirir. O, iqtisadi qanunlardan nə dərəcədə şüurlu istifadə edirsə, iqtisadiyyata bir o qədər fəal tə'sir göstərir. Bu fəal tə'sir üç istiqamətdə təzahür edir. Birincisi, iqtisadiyyat hansı istiqamətdə fəaliyyət göstərirsə siyasət də həmin yönümdə fəaliyyət göstərir və onun inkişafına imkan yaradır. Nəticədə sosial tərəqqi əhəmiyyətli dərəcədə sür'ətlənir. Bu cəhət iqtidarın siyasətinin tarixi inkişafın obyektiv gedişinə uyğun gəldiyi dövr üçün səciyyəvidir. İkincisi, siyasət iqtisadiyyata əks istiqamətdə fəaliyyət göstərir. Belə halda gec-tez həmin siyasət

iflasa uğrayır. Bu cəhət iqtidarın siyasətinin ictimai inkişafın meylinə uyğun gəlmədiyi mərhələ üçün səciyyəvidir. Üçüncüsü, siyasət müəyyən istiqamətlərdə iqtisadiyyatın inkişafına mane ola bilər. Nəticədə həmin siyasət ya sosial tərəqqiyə kömək edə bilər və ya ictimai inkişafın meylinə uyğun gəlməz.

Ümumiyyətlə, iqtisadiyyata siyasi cəhətdən yanaşıma, iqtisadiyyatın siyasi baxımdan mə'nalandırılması heç də onun sün'i şəkildə siyasiləşdirilməsi deyil. Bu zərurət məhz, dövlətin mənafeyi nöqteyi-nəzərdən təhlil olunmalı və qiymətləndirilməlidir.

Siyasət ideologiya ilə də sıx bağlıdır. Əgər mə'nəviyyat, mədəniyyət, hətta din (bə'zi cəmiyyətlərdə) siyasəti az və ya təsadüfi halda müəyyən edirsə, ideologiya onunla bilavasitə əlaqədardır. Siyasət ictimai mahiyyət kəsb etdiyinə görə cəmiyyətin və insanın şüuru ilə ayrılmaz vəhdətdədir. Bu mə'nada ideologiyasız siyasət yoxdur. Mə'lumdur ki, real siyasət adamların, sosial qrupların və bütövlükdə cəmiyyətin mənafeyini, tələbatını və məqsədlərini ifadə edən partiyaların, ideologiyanın daşıyıcıları və yaradıcılarının fəaliyyəti sayəsində həyata keçirilir. "İzmlə qurtaran hər hansı siyasi anlayış özünə tərəfdarlar tapmağa və bunları əldə saxlamağa çalışır.

Bütün ideologiyalar-maoizmdən tutmuş mühafizəkarlığadək, kommunizmdən başlamış liberalizmədək hamısı özünə siyasi inamların "hazır kompleksinə malik olan "siyasi bazarlar axtarır.

"Siyasət anlayışı subyektiv amilin ünsürü kimi çıxış etsə də onun həm də obyektiv tərəfləri vardır. Siyasətin obyektiv tərəfinə partiyaların, siniflərin, millətlərin, dövlətin əməli fəaliyyətinin nəticələri, mövcud real siyasi münasibətlər, sinfi qüvvələrin obyektiv nisbəti daxildir. Siyasətin subyektiv tərəfi isə siyasi görüşlıri, ideyaları, nəzəriyyələri, kütlələrin, partiyaların şüurlu, məqsədyönlü fəaliyyətini ifadə edir. Siyasi münasibətlər şəxsiyyətin, siniflərin, sosial təbəqə və qrupların həyat fəaliyyətinin istiqamətini əhəmiyyətli dərəcədə müəyyənləşdirir. Bə'zi siyasi hadisələr, məsələn, keçmiş SSRİdə 80cı illərin ortalarında başlanan yenidənqurma və bunun qanunauyğun nəticəsi olan Sovet İttifaqının dağılması dünyadakı siyasi prosesə və eləcə də vətəndaşların bütöv bir nəslinin şüuruna müəyyənedici

tə'sir göstərdi. Bu cəhət heç də təsadüfi deyil. Digər sosial sistem kimi siyasət də özünün tənzimsləyici qanunlarına tabedir. Bu qanunlar yazılı (hüquq normaları) və yazılı olmayan qanunlardır (adətlər, ən'ənələr, davranış qaydaları və s.). Sür'ətli dəyişikliklər dövründə rəsmi normalar və tə'limatlar dəyişikliklərə uğrayır. Belə ki, yeni konstitusiyalar yazılır, qanunlar məcəlləsi qəbul olunur və bunlar da özlüyündə hakimiyyətdə olanlarla tabelikdə olanlar arasındakı rəsmi münasibətləri tənzimləyir.

Siyasətin cəmiyyətdə fəaliyyəti və onun ictimai varlığı həm cəmiyyətlə, dövlətlə, hakimiyyətlə, eləcə də siyasətin öz təbiəti, onun tarixən qərarlaşan universal və dəyişməz xüsusiyyəti və ya mövcudluğunun prinsipləri ilə müəyyən olunur. Bunların məcmuu və qarşılıqlı münasibətləri siyasətin ictimai varlığının əsasını təşkil edir. Siyasət iki yolla müəyyən olunur. Əvvəla o, tarixən qərarlaşan ümumi cəhətlərlə, ikincisi isə dövrün konkret şəraiti, mövcud cəmiyyət və onun xüsusiyyətləri ilə şərtlənir.

Siyasət şəraitin xarakterini açıqlamaqla bu və ya digər sosial qrupların mənafeyi naminə obyektiv reallıqdan istifadə olunması yolları müəyyənləşdirilməlidir.

Siyasəti təşkil edən cəhətlərin məcmuu, onun universal başlanğıca malik olması və əsası imkan verir ki, o, bütün cəmiyyətlərdə təzahür etsin. Özü də hər bir yeni cəmiyyət, nəsil, ayrı-ayrı fərdlər siyasəti yeni hal kimi qarşılayır, siyasəti başa düşməyə, ona cəlb olunmağa, siyasi həyatda iştirak etməyə, siyasi təhsilə yiyələnməyə sə'y göstərir və siyasi sosiallaşma prosesinə mə'ruz qalır. Siyasət qarşılıqlı əlaqədə olan çoxsaylı hadisə və proseslər məcmuunu əks etdirir: **Birincisi**, o, ictimai həyatın idarə olunması məqsədilə sosial qrupların və onların təmsil etdiyi hakimiyyət müəssisələrinin fəaliyyətinin təşkilini, **ikincisi**, dövlət hakimiyyətinin ələ alınması, əldə saxlanması və ondan istifadə olunması məqsədilə sosial qruplar və adamlar arasında ictimai münasibətləri, **üçüncüsü**, siyasi fəaliyyətin ayrılmaz hissəsi olan siyasi şüuru və siyasi mədəniyyəti, nəhayət, siyasi görüşlərin, məqsədlərin, mənafelərin reallaşmasına və həyata keçirilməsinə tə'sir göstərən siyasi təşkilatların və normaların məcmuunu əhatə edir.

Siyasi elmə dair ədəbiyyatda sözün ən geniş mə'nasında siyasətin məzmunu **tə'sisatlı, normativ** və **prosessual** mahiyyət

daşıyan sosial fenomen kimi araşdırılır.[1] Siyasətin tə'sisatlı məzmunu özündə hakimiyyət və idarəetmə fəaliyyətini, hakimiyyət münasibətlərinin funksional mahiyyətini əks etdirən tə'sisatların məcmuunu səciyyələndirir. Normativ məzmun sosial qrupların ümumi mənafeyindən asılı olan sərvətlərin, normaların, məqsədlərin məcmuunu və siyasi fəaliyyətin prosessual məzmunu isə hakimiyyətin həyata keçirilməsi, dövlətin idarə olunmasının ümumi mənafeyi, məqsədlərinin müdafiə olunması və reallaşması naminə fəaliyyət sistemini ifadə edir.

Siyasət özünün bütün çoxcəhətliliyi ilə sosial reallıqdır. İqtisadiyyat, sosial-sinfi struktur, mədəniyyətin müxtəlif formaları, əxlaq, din və digər sferalar cəmiyyətdə necə mövcuddursa siyasət də sosial sistemdə bunlar kimi obyektiv reallıqdır. Əlbəttə, siyasi reallıq, siyasət aləmi cəmiyyətin sosial, iqtisadi və mədəni sferaları ilə müqayisədə spesifiklik kəsb edir. Siyasət "dövləti idarə etmək sənəti, "dövlətə aid nə varsa mə'nasını səciyyələndirir. Bir sözlə, "siyasət anlayışı müəyyən hakimiyyətin, hər şeydən əvvəl isə dövlətin cəmiyyəti təşkil etməsi mə'nasında başa düşülməlidir. Siyasət siniflər, sosial təbəqə və qruplar, millətlər arasındakı münasibətlərlə bağlı olan fəaliyyət sferasıdır. O, ictimai həyatın bütün tərəflərinin təmərküzləşmiş ifadəsidir.

Siyasi elmə dair ədəbiyyatda siyasət humanizm, əxlaq və zorakılıqla da əlaqələndirilir. Siyasətlə zorakılıq nəinki bir-birinə bağlı olan hadisə kimi əsaslandırılır, hətta bunlar eyniləşdirilir. Əlbəttə, unutmaq olmaz ki, siyasətin ən mühüm əlamətlərindən biri mütəşəkkil zorakılığın tətbiq olunmasıdır. Açıq siyasi zorakılığı öz ərazisində məhz, dövlət həyata keçirir. Zorakılığı siyasətin digər subyektləri də, məsələn, partiyalar, terrorçu təşkilatlar, qruplar və hətta ayrı-ayrı şəxslər də həyata keçirə bilər. Zorakılıq insanın və ya digər canlı varlıqların məhv edilməsinə istiqamətlənən və ya ona ziyan vuran düşünülmüş hərəkətdir. Siyasətdə zorakılıq müxtəlif formalarda tədbiq olunur (fiziki, iqtisadi, psixoloji və s.). Zorakılıq bütün bəşər tarixinin ayrılmaz tərəfidir. Siyasi zorakılığı digər zorakılıq formalarından fərqləndirən başlıca xüsusiyyət onun mütəşəkkilliyi, əhatəli olması, sistemli xarakteri və səmərəli tədbiqidir.

---

[1] Д.П.Зеркин. Основу политологии. Ростов-на-Дону. "Феникс". 1997. Səh.64.

Siyasi zorakılıq bir şəxsin və ya qrupun iradəsinin cəmiyyətin digər üzvlərinə qəbul etdirilməsinə (məcburi) istiqamətlənən xüsusi hərəkətdir. Elə buna görə o, tərəflər arasında dinc razılaşmanın (konsensusun) əks tərəfidir. Zorakılığı elita və ya ona əks olan tərəf həyata keçirə bilər.

Sosial sistemdə qərarlaşan hüquqi qaydalar pozulduqda, həmçinin, mövcud hakimiyyətin legitimliyi üçün müəyyən təhlükə yarandıqda siyasi elita zorakılığa əl atır. Deməli, elitanın siyasi zorakılıq tətbiq etməsi hər bir siyasi sistemin zəruri ünsürlərindəndir. Zorakılıqdan elitaya əks olan, onu devirməyə çalışan qüvvələr və kütlələr də istifadə edə bilər. Təbii ki, elitaya əks qüvvələr zorakılığa o halda əl ata bilər ki, kütlələr ona tərəfdar olsun. Azərbaycanda xalq cəbhəsinin hakimiyyətə gəlməsi məhz, bu yolla başqa sözlə, çevrilişlə mümkün olmuşdur.

Ayrı-ayrı adamların və bütövlükdə cəmiyyətin siyasi şüurunun yetkinliyi siyasətə, siyasi həyata marağı daha da artırır. Bu mühüm cəhət, hər şeydən əvvəl, tərəqqiyə istiqamətlənməlidir. Sosial-siyasi praktika sübut edir ki, tarixi inkişafın müəyyən kəskin mərhələlərində kütlələrin siyasi fəallığından ya milli tərəqqiyə nail olmağa, taleyüklü milli problemləri həll etməyə, ya da şəxsi və qrup mənafeyi naminə siyasi hakimiyyəti ələ keçirməyə səʼy göstərən müəyyən qüvvələr meydana çıxır. Bu reallıq keçmiş sovet respublikalarının bir qismində, xüsusilə, Azərbaycanda aydın nəzərə çarpdı. "Meydanda meydana gələn iqtidar (xalq cəbhəsini təmsil edən hakimiyyət) xalqın oyanmaqda olan milli siyasi şüurundan "məharətlə istifadə edərək kütlələri öz ətrafına toplayıb "demokratik yolla hakimiyyətə gəldi və qanunauyğun olaraq həm ələ keçirdiyi hakimiyyətdən, həm də ən başlıcası arxalandığı kütlələrdən məhrum oldu. Qeyd edək ki, adamlrın kütləvi şəkildə siyasətə marağının artması hələ onlarda kütləvi siyasi mədəniyyətin formalaşması demək deyil. Siyasəti sənət, elm kimi mənimsəməyin vacib şərtlərindən biri siyasi mədəniyyətə dərindən yiyələnməkdir, siyasi uzaqgörənlikdir. XX əsrin görkəmli siyasi xadimlərindən biri, Böyük Britaniyanın keçmiş dövlət rəhbəri **Uinston Çörçillin** belə bir siyasi kəlamını qeyd etmək yerinə düşər: "Siyasi ustalıq odur ki, sabah, bir həftədən, bir aydan sonra, gələn il nə olacaqsa, onları qabaqcadan

xəbər verəsən, sonra isə həmin hadisələrin nə üçün baş vermədiyini izah edəsən.

Siyasətin məzmununu dürüst anlamaq baxımdan "siyasətçi və "siyasətbaz anlayışlarının nisbətini, bunların əsl mə'nasını düzgün dərk etmək xüsusi əhəmiyyətə malikdir. Xalqımızın, dövlətimizin taleyüklü problemlərlə, ilk növbədə, Dağlıq Qarabağla bağlı son dərəcə ciddi vəziyyətlə üzləşdiyi indiki anda bu məsələyə münasibətdə əsl siyasətçilərlə "istedadlı siyasətbazları bir-birindən fərqləndirmək çətindir. Çünki bunları fərqləndirməyin xüsusi me'yarı yoxdur. Əlbəttə, əsl siyasətçi o adamdır ki, yüksək siyasi mədəniyyətə, dərin siyasi təfəkkürə və uzaqgörənliyə malikdir. Belə adamlar ictimai həyatda baş verən hadisələri, cəmiyyətdəki siyasi prosesləri obyektiv düşüncə tərzi ilə təhlil edir, ümumiləşdirir və qiymətləndirir, ölkənin mövcud siyasi mənzərəsini dürüst təsəvvür edir, siyasəti reallıq kimi anlayır, sosial-siyasi proseslərin mahiyyətini, gedişini və ümumi inkişaf meylini elmi-siyasi təfəkkür süzgəcindən zəkalı şəkildə keçirir, bir sözlə, mövcud siyasi vəziyyəti, ictimai-siyasi təcrübəni nəzərə alır və xalqı uğurlu gələcəyə istiqamətləndirmək və səfərbər etmək qabiliyyətinə malik olur. **Siyasətbazlar** isə həyatda baş verən real hadisələrə, ictimai-siyasi proseslərə ya bilərəkdən qərəzli şəkildə, ya da səviyyə, qabiliyyət çatışmazlığından yanaşır, bu və ya digər hadisəyə, məsələyə şəxsi və qrup mənafeyi baxımdan qondarma, sün'i don geyindirir, sağlam düşüncəli adamların ağıllı fikirlərini, dövlət səviyyəsində yeridilən düzgün siyasəti, xalqın, vətənin uğurlu gələcəyi naminə atılan addımları subyektiv və təmənnalı mövqedən qiymətləndirirlər. Siyasətbazı xalqın taleyi, vətən deyil, şəxsi mənfəət, şöhrət, vəzifə, bir sözlə cılız hisslər maraqlandırır: Təcrübə **göstərir ki, belələri həm iqtidarda və eləcə də müxalifətdə diqqəti cəlb edir. Sözün əsl mə'nasında millətsevərlik, vətənpərvərlik şüuru milli mə'nəviyyatımızın "vicdan səsi" olmalıdır. Xalqın taleyinə, milli dəyərlərə, siyasi sərvətlərə mə'nəviyyat qıtlığı güclü zərbə endirir.** Milli birliyə və bu zəmində milli-siyasi müstəqillik şüurunun qərarlaşmasına nail olmaq bu gün bizim üçün tarixi zərurətdir.

Siyasət elm olduğuna görə onu həyata keçirənlər də yüksək intellektə, siyasi zəkaya malik olmalı, cəmiyyətdəki hadisələrin inkişafı və dəyişməsi axarını məharətlə duymalıdır. Cəmiyyəti, xalqı ağıllı, düzgün idarə etmək əsl sənətdir, siyasi məharətdir. **Dövləti müdrikliklə idarə edənlərin siyasi mə'nəviyyatı mahiyyət e'tibarilə xalqın milli sərvəti kimi qiymətləndirilməlidir.** Rus inqilabçı demokratı **Çernışevskinin** dediyi kimi, xalqın ən böyük sərvəti onun malik olduğu mə'nəvi keyfiyyətlərdir. **Ulularımızın, müdriklərimizin bizə miras qoyub getdiyi gözütoxluq, halallıq, səmimiyyət kimi milli sərvətin tədricən qıtlaşması təəssüf ki, milli müstəqillik şüurumuzun bərqərar olduğu dövrə təsadüf edir.** Siyasət sosial fenomen mə'nasında elmi ədəbiyyatda bir neçə terminlə ifadə olunur: "Siyasi sosial gerçəklik, "siyasi varlıq, "siyasi məkan, "siyasi həyat, "siyasi aləm, "siyasi reallıq və s. Bu anlayışları ictimai münasibətlərin maddi əsasını təşkil edən "ictimai varlıq və ya "iqtisadi həyat terminləri ilə eyniləşdirmək məqsədəuyğun deyildir.

Siyasətin reallığı bundan ibarətdir ki, onun yaranmasını tə'min edən ictimai subyektlərin fəaliyyətində həyat strukturları və növləri nəzərə çarpmazsa, heç bir cəmiyyət yaşamaq iqtidarında olmaz. Siyasət sferasında sosial birliklərin ümumi mənafeyi və məqsədləri formalaşdırılır və elə qaydalar işlənib hazırlanır ki, bunların reallaşması adamlar arasında konkret funksiyaların müəyyənləşdirilməsinə əsaslanır. Siyasi hakimiyyət tə'sisatları (dövlət) cəmiyyəti tənəzzüldən xilas edir, sosial əlaqələri və ünsiyyəti tənzimləyən simvollar sistemi yaradır. Adamlar, sosial qruplar, real birliklər, təşkilatlar və s. siyasətin subyekti və obyekti kimi çıxış edir. Siyasi fəaliyyətin formaları yalnız müxtəlif siyasi qərarların işlənib hazırlanması və qəbul olunması ilə məhdudlaşmır. Bu formalar hakimiyyət uğrunda mübarizəni, hakimiyyətdən bu və ya digər sosial qrupların, millətlərin mənafeyi üçün istifadə olunmasını da ifadə edir. Hər bir cəmiyyətdə siyasi biliklər, görüşlər və siyasi fəaliyyət adamların mənafelərinin reallaşmasına istiqamətlənməlidir. Fransız politoloqu **F.Bronun** obrazlı qeyd etdiyi kimi, "siyasətdə pis ehtiraslar adamları qəflətən fanatikə çevirər, onların şüurunu

xürafatla bulandıra bilər. Buna görə siyasi elmin vəzifəsi adamlarda soyuqqanlılıq, sağlam, mifologiyadan uzaq və obyektiv görüş dairəsinin formalaşdırılmasına nail olmaqdan ibarətdir.[1] Siyasətin mövcudluğunun xüsusi formalarından biri **siyasi fəaliyyətdir.** Bu mə'nada o, ictimai həyatın digər sferalarından fərqlənmir. Nəzəri siyasi fəaliyyət siyasətin daşıyıcılarında siyasi şüur, təfəkkür, mentalitet və s. formalaşdırılmasını tə'min edir. Siyasi fəaliyyət bir sıra yaradıcılıq istiqamətlərini özündə birləşdirir. İncəsənət, intuisiya, emosional vəziyyət, nəzəri layihələşdirmə, planlaşdırma və digər aspektlər bu qəbildəndir. Nəzəri siyasi fəaliyyətdə siyasət üçün həlledici olan problemlər, arzuedilən və real surətdə mümkün ola bilən, həqiqi və yalan, düzgün və səhv məsələlər məqsədəyönlü qiymətləndirilir.

Nəzəri, idrakı fəaliyyət siyasi varlığın ideal formasını təşkil edir. Onun maddi əsasını isə siyasi praktika, təşkilatçılıq və nəzarət fəaliyyəti, rəhbərlik, kadrların seçilməsi və yerləşdirilməsi, onların hazırlanması, təhsili, qərarların müzakirəsi və qəbulu, mə'lumat mübadiləsi, hakimiyyət orqanlarının təşkili, fəaliyyəti və sairə formalaşdırır. Siyasətin səmərəli olması onun özündən çox yarandığı və reallaşdığı cəmiyyətlə, mövcud sosial gerçəkliyin vəziyyəti, əhval-ruhiyyəsi, mənafeyi və hakimiyyətlə münasibətlərdən asılıdır. Siyasətin tə'sirli mahiyyəti həm də qeyri-ictimai amillərlə müəyyən olunur. Bu amillər sırasında təbii, siyasətdənkənar və ekoloji hallar səciyyəvidir (təbii sərvətlərin mövcudluğu, xarici əhatənin vəziyyəti və s.).

Siyasətin mövcudluğunun hər iki forması-ideal və maddi formalar obyektivləşir, konkret xarakter daşıyır, reallaşır və cəmiyyət tərəfindən dərk olunur. Siyasətin bu cür təzahürü, obyektivləşməsi iki istiqamətdə davam edir: bir tərəfdən şüurun müxtəlif hadisələrində - ideyalarda, nəzəriyyələrdə, inamlarda, niyyətlərdə digər tərəfdən isə maddi, hiss olunan, gözə çarpan əşya formasında. Siyasətin maddiləşməsi, onun əşya formasında fəaliyyəti müvafiq vasitələrlə başa çatır. Başqa sözlə, belə fəaliyyət siyasi tə'sisatlar (dövlət, hakimiyyət orqanları, ordu və s.) tərəfindən həyata keçirilir.

---

[1] БРО Ф. Политическая наука (Политология вчера и сегодня). М., 1990. Səh.237.

Siyasətin məkan ölçüsü onun cəmiyyətdəki rolunu, tə'sirli olmasını, reallığını, sabitliyini və uzunömürlüyünü, cəmiyyətlə münasibətlərini və sosial gerçəklikdə mövcudluğunu səciyyələndirir. Belə halda siyasət mənafelərin təzahürü kimi yaranır və formalaşır. Digər tərəfdən isə o, görüşlərin, inamların, hakim əhval-ruhiyyənin, ideologiyanın, cəmiyyətin vəzifə və məqsədlərinin dərk olunmasının amili kimi təşəkkül tapır və reallaşır.

Siyasət hakimiyyətlə sıx vəhdət daşıyır. Hakimiyyət siyasətin mənbəyi və səbəbi kimi çıxış edir. Siyasət məhz, hakimiyyət vasitəsilə həyata keçirilir. Düşünülmüş siyasətə əsaslanmadan hakimiyyət uğrunda mübarizə, onu ələ almaq, əldə saxlamağa sə'y göstərmək səmərəsiz fəaliyyət olmaqla hakimiyyət xatirinə hakimiyyətə gəlmək əzmidir. Hakimiyyət vasitəsilə həyata keçirilən və cəmiyyət tərəfindən dərk olunan siyasət ölkənin siyasi həyatını formalaşdırır, mövcud siyasi mədəniyyətə uyğun gələn siyasi varlığın təşəkkülünü şərtləndirir. Cəmiyyətin siyasi həyatı adamlar, qruplar, siniflər və ölkələrin müəyyən qismi arasındakı siyasi münasibətləri əks etdirir. Siyasət həyata keçirildiyi bütün sferalarda çoxsaylı konkret formalarda təzahür edir. Bütün bu formalar siyasətin bir-biri ilə qarşılıqlı əlaqədə olan iki istiqamətində—daxili və xarici siyasətdə öz əksini tapır. Bir sözlə, dövlətin, partiyaların, liderlərin, qruplaşmaların konkret siyasi praktikası cəmiyyətin siyasi həyatının əyani formalarıdır.

Siyasətin ayrı-ayrı formaları kimi onun sosial, humanist, mədəni və ideoloji məzmunu da zəngin və çoxcəhətlidir. Onlar konkret olaraq təkrarlanmazdır. Tarixi inkişaf prosesində baş verən hər bir çevrilişlə əlaqədar dəyişikliyə mə'ruz qalsalar da prinsipial strukturları dəyişməz qalır. Siyasətin tarixi strukturu bir-birini inkar edən prinsipial cəhətlərlə-təcavüzkar (xarici siyasətdə), sülhsevər, istismarçı, azadlıq, totalitar, avtoritar, demokratik, mürtəce, mütərəqqi və s. siyasətlə səciyyələnir.

Siyasətin tarixi təkamülü təsdiqləyir ki, onun fundamental əsası dəyişməz qalır. Bu əsas o zaman dəyişir ki, cəmiyyətin təşkiledici və tənzimləyici-nəzarətedici sferasının bütün sistemi yeniləşir. Siyasətin gələcəkdə aradan qalxa biləcəyinə dair hər cür mülahisə və təsəvvürlər əsassızdır. Hətta gələcəkdə dövlətin olub-

olmayacağı barədə mühakimə yürütsək belə siyasət digər subyektlərlə bağlı öz ictimai funksiyalarını həmişə saxlayacaqdır. Cəmiyyət həyatının təşkili və tənzimlənməsi vasitəsi olmaq e'tibarilə siyasət öz əhəmiyyətini heç vaxt itirməyəcəkdir. Fransız mütəfəkkiri **J.Bodenin** hələ vaxtilə irəli sürdüyü müdrik ideya-siyasətin demokratikləşdirilməsi zəmanəmizdə xüsusi aktuallıq kəsb edir. Cəmiyyətin humanistləşməsində, ən zəruri problemlərin həllində siyasətin rolu bu gün daha artıq dərəcədə hiss olunur.

## 2. SİYASİ MÜNASİBƏTLƏR VƏ SİYASİ MƏNAFELƏR

Siyasi münasibətlər siyasətin bütün ünsürlərində, ölçüsündə və formalarında bu və ya digər şəkildə təzahür edir. Siyasi münasibətlər hər şeydən əvvəl, dövlət hakimiyyətilə şərtlənir. Bu münasibətlər siyasətdə öz ifadəsini dövlət hakimiyyəti vasitəsilə böyük və kiçik ictimai qrupların qarşılıqlı münasibətlərinin üsulu kimi tapır. Siyasətin bu cür başa düşülməsi belə bir cəhəti ifadə edir ki, əvvəla, onun predmeti dövlət hakimiyyətidir. İkincisi, siyasətin obyektiv əsası böyük ictimai qrupların mülkiyyətə və dövlət hakimiyyətinə münasibətində müəyyən olunur. Üçüncüsü, siyasətin subyektiv əsası hakim dairələrin öz vəziyyətini həm ölkə daxilində (daxili siyasətlə), həm də ondan kənarda (xarici siyasətlə) qoruyub saxlamağa yönələn fəaliyyət ilə bağlıdır. Siyasi münasibətlər müəyyənedici münasibətlərdir. O, siyasi əlaqələrin sadə təzahür formasıdır. İqtisadi həyat iqtisadi münasibətlərdə üzə çıxdığı kimi cəmiyyətin siyasi həyatı da siyasi münasibətlərdə özünü göstərir.

**Siyasi münasibətlər cəmiyyət üzvləri arasında ümumi, mütləq mənafe ilə şərtlənən əlaqə və qarşılıqlı fəaliyyətdir.** Dövlət hakimiyyəti həmin mənafeyin reallaşması və müdafiəsi aləti kimi çıxış edir. Siyasi münasibətlər və mənafelər dövlətlə yanaşı digər siyasi tə'sisatlar tərəfindən də təşkil edilir və fəaliyyətdə olur. Bütün ictimai münasibətlər kimi siyasi münasibətlər də adamlar arasında təbii və qanunauyğun münasibətlərdir.

Siyasi münasibətlər digər ictimai münasibətlərdən xeyli fərqlənir. Bu fərq hər şeydən əvvəl, siyasi münasibətlərin obyekti ilə, yə'ni siyasi hakimiyyətlə, ən başlıcası isə dövlət hakimiyyəti tə'cisatları ilə müəyyən olunur. Siyasətin subyektləri ilə hakimiyyət arasındakı qarşılıqlı fəaliyyəti əks etdirən siyasi münasibətlər sözün geniş mə'nasında siyasi əlaqələrin spesifik təzahür formasıdır. Siyasi münasibətlər sosial və iqtisadi münasibətlər qədər cəmiyyətdə əhəmiyyətli rol oynayır. O, ictimai münasibətlərin tipini, istismar, hökmranlıq və tabelik və ya əməkdaşlıq, qarşılıqlı fəaliyyət və siyasi birlik münasibətlərini səciyyələndirir. Siyasi münasibətlərin məzmunu dövlət və cəmiyyət, hakimiyyət və xalq, siniflər, qruplar arasındakı münasibətlərlə müəyyən olunur, digər tərəfdən isə ictimai inkişaf prosesinin səviyyəsi, onun demokratikləşməsi, siyasi azadlıqlar, insanın maddi imkanları və xüsusilə, cəmiyyətin siyasi mədəniyyətinin səviyyəsi və xarakteri ilə şərtlənir.

Siyasi münasibətlərin intensivliyi siyasi həyatın ümumi vəziyyətindən asılı olaraq dəyişir, bu vəziyyətin fəallaşması və tənəzzülü ilə əlaqədar zəifləyə də bilər. Böhranlar dövründə hakimiyyətin və cəmiyyətin reaksiyasından asılı olaraq siyasi münasibətlər tədricən ya fəaliyyətdən qalır və ya coşğun surətdə inkişaf edir. Birinci hala fövqəladə vəziyyətin tətbiq olunduğu zaman, hərbi toqquşmalar və repressiyalar dövründə, ikinci hala isə inqilablar, açıq demokratik islahatlar zamanı təsadüf edilir.

Siyasi münasibətlərin strukturunda kompromis və konsensus xarakterli münaqişələr, tərəflərin qarşılıqlı anlaşmasına əsaslanan münasibətlər və s. öz əksini tapır. Cəmiyyətin siyasi təşkilinin prinsipi kimi müqavilə bağlamaq siyasi münasibətlərin universal və ümumi formalarından biridir. Hakimiyyət (dövlət) və cəmiyyətin (xalqın) müqavilə münasibətləri konsepsiyasında müqavilə praktikası öz nəzəri ifadəsini tapmışdır. Razılıq əsasında xalqın dövlətə hüquq verməsi ideyası ilk dəfə **T.Hobbsun** "Vətəndaş haqqında (1642) əsərində irəli sürülmüşdür. Bu mütəfəkkirdən sonra **J.Russo** özünün məşhur ictimai müqavilə konsepsiyasını işləyib hazırlayır. Həmin konsepsiya, başqa sözlə, cəmiyyət və dövlət hakimiyyəti arasında siyasi münasibətlərə dair

fikir Russonun 1762-ci ildə yazdığı "İctimai müqavilə haqqında və ya siyasi hüququn prinsipləri adlı əsərində əsaslandırılmışdır.

Siyasi münasibətlərin müqavilə xarakterli olması ideyası o dövrün bir sıra ölkələrinin, məsələn, Amerikanın (XVIII əsrin axırları) və Fransa inqilabının konstitusiya sənədlərində öz ifadəsini tapmış və tədricən dünya ölkələrinin əksəriyyəti arasında siyasi münasibətlərin müqavilə əsasında formalaşmasını şərtləndirmişdir. Siyasi münasibətlərin dövlət hakimiyyəti ilə müəyyən olunması qanunauyğun haldır. Axı, adamların siyasətdə iştirak edib-etməməsi, hakim sərvətlərə necə münasibət bəsləməsi, cəmiyyət üzvləri arasında qarşıdurma və ya əməkdaşlıq, hakimiyyət qarşısında tələblər qoymaq (siyasi iddialar) və ya onu müdafiə etmək məhz, adamların dövlət hakimiyyətinə münasibətini səciyyələndirir.

Siyasi münasibətlərin mühüm tərəflərindən biri əməyin qruplar arasında, o cümlədən hakimiyyəti həyata keçirən elita qrupları arasında bölünməsidir. Buna görə hakimiyyətdə olanlarla hakimiyyətə tabe olanlar arasında daimi ayrılıq nəzərə çarpır. Siyasi münasibətlər sosial qrupların və fərdlərin siyasi həyatda mövqeyini və rolunu müəyyən edir. Siyasi münasibətlərin əsasında siyasi mənafelər durur. Eyni zamanda bu münasibətlər mənafe formasında təzahür edir. Belə xüsusiyyət həm siyasi fəallığın bazasının formalaşmasına və həm də siyasətdən uzaqlaşmağa istiqamətlənir. Unutmaq olmaz ki, ictimai həyatın ən başlıca məsələləri, məsələn, cəmiyyətdə hakimiyyətdə kimdir və onu kim idarə edir, hakimiyyət hansı ictimai qüvvələrin mənafeyini əks etdirir, hakimiyyət və idarəetmə necə həyata keçirilir və sair siyasi münasibətlərdə ehtiva olunur. Kütlələrin cəmiyyətin idarə olunmasında iştirakının mümkünlüyünü və qəbul olunan qərarların səmərəlilik səviyyəsini məhz, siyasi münasibətlər şərtləndirir. Nəhayət, siyasi münasibətlər bütövlükdə siyasi reallığın məkan-zaman strukturunu formalaşdırır.[1]

Siyasi münasibətlər müxtəlif səviyyəli subyektlər və siyasi həyatın yarımsistemləri arasında təşəkkül tapır. Həmin münasibətlər makrosəviyyədə (ümumdövlət, ümumpartiya) və eləcə də regional və yerli səviyyələrdə mövcud ola bilər.

---

[1] Д.П.Зеркин. Основы политологии. Səh.67.

Siyasi münasibətlər öz daşıyıcılarının növünə görə, başqa sözlə, sinifdaxili, siniflərarası, ümumdövlət, partiyalı və digər səviyyədə differensasiyaya mə'ruz qalır. Siyasi münasibətlər məzmununa və xarakterinə görə demokratik, avtoritar, qarşıdurma, konsensus səciyyəli və digər mahiyyətdə təzahür edir. Həyata keçirilmə metoduna görə zoraki və qeyri-zoraki, qarşılıqlı fəaliyyət obyekti olmaq e'tibarilə əhəmiyyəti baxımdan liberal, sosialist, millətçi və sairə formalarda mövcud olur. Ümumiyyətlə, siyasi münasibətlərin mahiyyəti bu və ya digər məkanda həyata keçirilən siyasi fəaliyyət çərçivəsində təhlil olunmalıdır.

Siyasətlə digər ictimai sistemlər və sferalar arasındakı münasibətlər bir sıra ümumi qanunauyğunluqlarla müəyyən olunur: 1)siyasi münasibətlər güman edilə bilən elə çərçivə ilə məhdudlaşır ki, bu zaman tərəflər arasında gərgin və münaqişəli münasibətlər yaranır, hər iki tərəfə ziyan dəyir. Belə ki, siyasi amirliklə bağlı iqtisadiyyat həddən artıq siyasiləşdirilir və nəticədə iqtisadi inkişaf zəifləyir, idarəetmədə inzibati amirlik metodu hökm sürür, dövlətin ictimai həyata təzyiqi güclənir və s. 2)tərəflər arasındakı münasibətlər bir istiqamətli deyil, ikitərəfli, qarşılıqlı xarakter daşıyır. Bu vəziyyət qoşa formaların, məsələn, siyasi iqtisad və iqtisadi siyasətin, mədəni siyasət və siyasi mədəniyyətin, elmi siyasətin və siyasi elmin nisbətinin yaranmasında öz əksini tapır. 3)İkitərəfli münasibətlər son nəticədə nəinki münasibətlər sistemi ilə, həm də ona yaxın olan sferalarla və ya bütün bunların məcmuu ilə müəyyən olunur. Yadda saxlamaq lazımdır ki, siyasi və iqtisadi münasibətlər ideologiya, mədəniyyət, elm və hüquqi münasibətlərlə əlaqəlidir və bu əlaqə ola bilsin ki, müəyyənedici mahiyyət daşısın.

Siyasi münasibətlər ikitərəfli münasibətləri nəinki yaxınlaşdırır, həmçinin differensasiyaya sövq edir. Buna görə idarə edən qüvvələr və müxalifət, siyasi qüvvələrin məcmuu və ya siyasətin subyektləri münasibətlərin tərəflərinə çevrilir və sağlara, sollara, mərkəzçilərə ayrılırlar. Bunlar parlament işində və mübarizəsində, partiyalararası və partiyadaxili münasibətlərdə təzahür edir. Lakin siyasi münasibətlərin radikal (sağlar və sollar) və mötədil (mərkəzçilər) tərəflərini fərqləndirmək üçün sabit ən'ənələr də mövcuddur. Siyasi münasibətlərin ən mürəkkəb növü hakimiy-

yətlə cəmiyyəti, dövlətlə xalqı əlaqələndirən siyasi cəhətlər olsa da yuxarıda qeyd etdiyimiz üç prinsip nəinki siyasi, həmçinin iqtisadi, huquqi, ideoloji və mədəni-mə'nəvi proseslərin təşkili üçün mühüm şərtdir. Siyasi münasibətlər əsasən məqsədyönlü xarakter daşıyır: tərəflər arasında meydana çıxan ziddiyyətlərin və münaqişələrin aradan qaldırılmasına, dövlətlə cəmiyyət arasında razılığın və birliyin təşkilinə istiqamətlənir. Tərəflər arasındakı münasibətləri ədalətli şəkildə tənzimləməyin həlledici şərti hər iki tərəfin bərabərliyi prinsipinə ciddi riayət olunmasıdır. Bu prinsip isə öz növbəsində siyasi münasibətlərin subyektlərinin ümumi mənafe və məqsədlərini, cəmiyyətin birliyini tə'min etmək ideyasının bərqərar olmasına xidmət edir. Cəmiyyətin daha sabit birliyinə məhz, uzunmüddətli demokratik rejim şəraitində və bu şəraitdə qərarlaşan qüdrətli hüquqi dövlət vasitəsilə nail olmaq mümkündür.

Müəyyən amillərlə səciyyələnən siyasi münasibətlər bir sıra komponentlərə malikdir. Bunlardan çox mühümü **mənafedir**. Siyasi münasibətlərin muxtar forması olmaq e'tibarilə mənafe ictimai həyatın nisbi müstəqilliyə malik olan sferası kimi çıxış edir. Siyasi mənafelər mahiyyətinə görə sosial-iqtisadi mənafelərin təmərküzləşmiş ifadəsidir. Siyasi mənafelərin məzmunu hər şeydən əvvəl, bu və ya digər sosial qrupun tələbatının müəyyən siyasətdə ümumiləşmiş ifadəsindən ibarətdir. Siyasi mənafe kütlələrin, sosial qrupların müxtəlif dərəcədə və səviyyədə dərk olunmuş mənafeyidir. Bu mənafe müəyyən siyasət və siyasi strukturlar vasitəsilə reallaşır. Mənafe sosial qrupların siyasi münasibətlər sferasında davranışının müəyyən sabit istiqamətini səciyyələndirir. Siyasi mənafe insanın hakimiyyətə, dövlətə, sərvətlərə özünün dərk olunmuş münasibəti ilə bağlılıq kəsb edir. Siyasi mənafe eyni zamanda subyektin mövcud sosial sistemdəki vəziyyəti ilə müəyyən olunur.

Siyasi mənafe həmişə ümumi xarakter daşıyır. Başqa sözlə, o, əsasən siyasi həyatda böyük sosial qrupların vəziyyətini səciyyələndirir. Əlbəttə, bu o demək deyildir ki, siyasi həyatda ümumi fərdi mənafe və ya qrup mənafeləri yoxdur. Siyasi liderlər və adi vətəndaşlar, seçicilər və seçilənlər, bir sözlə, hamı ümumi mənafeyin daşıyıcısı kimi çıxış edir. Fərdi və qrup mənafelərində

təcəssüm olunan ümumi siyasi mənafe hər hansı siyasi mövqeyin və fəallığın mənbəyidir. İngilis siyasətçisi **Palmirston** siyasi davranışda mənafeyin əhəmiyyətini sərrast və obrazlı şəkildə belə ifadə etmişdir: "Bizim əbədi rəqiblərimiz və düşmənlərimiz yoxdur. Bizim üçün yalnız mənafe əbədidir. Siyasi fəaliyyət mürəkkəb və çoxcəhətli prosesdir. Həmin prosesi mə'nalandıran amillərdən biri məhz, müxtəlif mənafeləri ümumiləşdirməkdən və bu zəmində elə fəaliyyət xətti işləyib hazırlamaqdan ibarətdir ki, o, hamı tərəfindən qəbul edilsin. Heç də təsadüfi deyil ki, siyasi elmə dair ədəbiyyatda siyasi mənafe daim fəaliyyətdə olan başlıca və ümumi mə'nafe kimi qiymətləndirilir.[1]

Mövcud sosial münasibətlərdə həmişə aparıcı sosial qrupların mənafeləri təcəssüm olunur. Bununla əlaqədar qeyd edək ki, geniş xalq gütlələrinin mənafeləri hakim siyasi münasibətlərə uyğun gəlməyə bilər. Bu cəhət ilk növbədə qeyri-demokratik rejimlərdə nəzərə çarpır. Ümumiyyətlə, siyasi mənafelər siyasi və sosial proseslərin idarə olunmasının bazası olmaq e'tibarilə məhz, siyasi praktikada fəaliyyət göstərir.

Siyasət sferası adamların mütəşəkkil və qarşılıqlı fəaliyyətinin sosial məkanıdır. Belə fəaliyyətin təşkilinin spesifik forması isə **siyasi tə'sisatlardır**. Siyasi tə'sisatlar maddi və ideal (simvolik) vasitələrin göməyi ilə bütün ictimai münasibətləri, ilk növbədə isə siyasi münasibətləri tənzimləyən müəssisələr və təşkilatlar sistemidir. Siyasi tə'sisatların başlıca mahiyyətini dövlət, onun orqanları və müəssisələri, o cümlədən partiyalar təşkil edir. Sosial tə'sisatlardan fərqli olaraq siyasi tə'sisatlar siyasi münasibətlər sferasında fəaliyyət göstərir, cəmiyyət miqyasında hakimiyyətin həyata keçirilməsini tə'min edir, idarəetmə funksiyalarını həyata keçirir, mənafelər tarazlığının yaradılmasına, meydana çıxan sosial və siyasi münaqişələrin aradan qaldırılmasına sə'y göstərir.

Siyasi münasibətlər, mənafelər və tə'sisatlar siyasi sərvətlərə (dəyərlərə) nüfuz edir. Bunların hamısı siyasi həyatın bütün tərəflərini möhkəmləndirir, onun bütövlüyünü şərtləndirir. Nəticədə siyasi cəmiyyət siyasi sistem kimi təşkil olunur və

---

[1] Здравомысль А.Г. Потребности, интересы, ценности. М., 1986. Səh.136-144.

fəaliyyət göstərir. Siyasi sərvətlər sosial sərvətlərin bir növü olmaq e'tibarilə öz məzmununa görə fəaliyyət və münasibətlərin fundamental ideyalarını və nümunələrini əks etdirir. Siyasi sərvətlər və ya dəyərlər mahiyyəti baxımdan ümumi əhəmiyyət daşıyır. Bu baxımdan insan azadlığı, sosial ədalət, həmrə'ylik, kollektiv iradənin ləyaqətinə inam və s. səciyyəvidir. Siyasi sərvətlər obyektiv və subyektiv tərəflərə malikdir. Onun obyektiv əsasını böyük sosial qrupların ümumi həyatı tələbatı və uzunmüddətli marağı təşkil edir. Subyektiv tərəfi isə dövlət hakimiyyəti ilə əlaqədar olan tələbat və mənafelər haqqında təsəvvürlərdir.

Sərvətlərin obyektivləşməsinin mühüm formalarından biri **siyasi simvollardır.** Siyasi simvollar siyasi mədəniyyətin özünəməxsus əlaqələndirici ünsürləridir. Bu simvollar hadisələrin və anlayışların əsas ideyalarının təmərküzləşmiş ifadəsidir. Görkəmli rus filosofu **A.F.Losev** dövlət simvollarını emblemin tərkib hissəsi sayır. Mə'lum olduğu kimi, emblemin xüsusi növünü isə gerb, bayraq və digər atributlar təşkil edir. Bunlar isə milli dövlətin birliyi və əzəməti ideyasını təcəssüm etdirir. Simvollar eyni zamanda adamlar arasında ünsiyyətin spesifik vasitəsidir.

Adamların davranışına bə'zən hökumətin, siyasi partiyaların fəaliyyətindən daha çox dövlətin simvollar sistemi güclü tə'sir göstərir. **O.Şpenqlerin** qeyd etdiyi kimi hər bir mədəniyyətin birliyi onun simvollarının ümumi dilinə əsaslanır. Bütün xalqlar özünün milli-dövlət simvollarını yaradır və ona dərin rəğbət bəsləyir. Əlbəttə, bu və ya digər xalqın yaratdığı simvollar onun uzunmüddətli ən'ənələrinə əsaslanır. XX əsrin sonunda yenidən müstəqillik əldə edən xalqımız özünəməxsus milli dövlət simvollarını yaratmışdır. Milli dövlətin təşəkkül tapdığı dövrdə siyasi liderlər milli simvollardan öz yeritdikləri siyasi xətti əsaslandırmaq üçün istifadə etmişlər. Hələ 1848-ci ildə Fransanın xarici işlər naziri **Lamartin** deyirdi ki, "mənim üçrəngli bayrağımın ləğvi həm ölkəmdə, həm də ondan kənarda Fransanın qüdrətinin yarısının ləğvi deməkdir. **M.Ə.Rəsulzadənin** hamıya mə'lum olan siyasi kəlamını bir daha xatırlamaq yerinə düşər: Bir kərə yüksələn bayraq bir daha enməz. Milli dövlət embleminin qüdrətli atributu olan bayraq dövlətin suverenliyinin və dünya

birliyində yerinin parlaq təcəssümüdür. " Siyasət anlayışını təşkil edən siyasi fəaliyyət, mənafe, tə'sisatlar, sərvətlər və s. ideal və maddiləşmiş formada mövcud olmaqla mədəniyyətin spesifik predmetli hadisəsi kimi fəaliyyət göstərir. Siyasi şüurun, siyasi fəaliyyətin və münasibətlərin obyektivləşməsi prosesi siyasi tə'sisatlar haqqında xəyali təsəvvürlərin potensial səbəbidir.

Mənafe ilə məqsədi və tələbatı qarışdırmaq olmaz. Məqsəd insanların fəaliyyətinin nəticəsidir. İnsanın öz fəaliyyətini mə'nalandırması prosesində onun tələbatı təzahür edir. Tələbat isə mənafeləri doğurur. Mənafe insanların həyatının xarakterini və istiqamətini müəyyən edən təhrikedici qüvvə kimi çıxış edir və öz təbiətinə görə obyektiv xarakterə malikdir. Çünki mənafeyin mövcudluğu subyektin onu dərk edib-etməməsindən asılı deyildir. Lakin unutmaq olmaz ki, mənafe məhz, subyektin şüuru vasitəsilə dərk olunduğu üçün o, subyektiv və obyektiv xarakter daşıyır. Bununla yanaşı mənafe subyektin həqiqi və ya yalançı mənafeyini əks etdirə bilər. Cəmiyyətdə təzahür edən ictimai faydalı mənafeyin reallaşması məmləkətin tərəqqisinə imkan yaradırsa, ictimai-neqotiv mənafelər məhz, xalq və dövlət üçün mənfi, arzuolunmaz nəticələr doğurur. Bununla belə öz mənafeyi uğrunda mübarizə aparan hər hansı sosial qrup bu mənafeyin xarakterindən və adamların şüurunda onun əks olunmasının düzgünlüyü dərəcəsindən asılı olmayaraq siyasətin subyekti kimi çıxış edir. Şübhəsiz, siyasətin subyekti kimi çıxış edən belə sosial qrupların üzvləri müsbət və ya mənfi keyfiyyətlərə malik ola bilərlər. Cəmiyyətin həyatında mənafeyin əhəmiyyətini çox dəqiq ifadə edən **Hegel** yazır: "Tarixə yaxından nəzər salınması bizi inandırır ki, adamların fəaliyyəti onların tələbatlarından, cəhdlərindən, onların mənafelərindən irəli gəlir... məhz, onlar mühüm rol oynayırlar.[1] Siyasət sosial fenomen olmaq e'tibarilə şüurlu, məqsədyönlü fəaliyyətdir. Deməli, onun yaranması və həyata keçirilməsi müəyyən məqsədlərlə şərtlənir.

---

[1] Гегель. Соч. т. 8. М.Л. 1935. Səh.20.

## 3. SİYASƏTİN MƏQSƏDİ VƏ VASİTƏLƏRİ

**Siyasətin məqsəd və vasitələri** siyasi fəaliyyətin məzmununu təşkil edən başlıca ünsürlərdir. Fəaliyyət məqsədin naminə həyata keçirilir, məqsəd isə onun daxili sövqedici motivi kimi səciyyələnir. Məqsəd siyasi fəaliyyət sferasında təşkiledici və təhrikedici funksiyaları yerinə yetirir.

Siyasətin məqsədi daxilən ziddiyyətli, mürəkkəb və çoxcəhətli mahiyyət daşıyır. Siyasətin ümumi məqsədi cəmiyyətin ümumi mənafeyi naminə münaqişəli tərəflərin mənafelərinin uzlaşdırılmasına nail olmaqdan ibarətdir. Mənafelərin inteqrasiyasını tə'min etmək siyasi məqsədin çox mühüm istiqamətidir.

**Siyasətin məqsədi siyasi prosesin çıxış nöqtəsi olmaqla siyasətin istiqamətini və siyasi fəaliyyətin formalarını müəyyən edir.** Əhəmiyyətinə görə siyasi məqsədlər müxtəlif xarakterə malikdir. Məsələn, ümumi məqsədlərlə yanaşı kiçik siyasi məqsədlər də mövcuddur. Kiçik məqsədləri səciyyələndirən cəhət bundan ibarətdir ki, onlarsız siyasətin digər bütün məqsədlərinin reallaşması mümkün deyildir. Məsələn, hökumətin formalaşdırılması ölkənin idarə olunmasına və cəmiyyətin qarşısında duran vəzifələrin həllinə, müxtəlif məqsədlər kompleksinin reallaşmasına istiqamətlənir. Bir sözlə, kiçik məqsədlərin əhəmiyyətini azaltmaq olmaz.

**Siyasətin məqsədi əhəmiyyətinə, məzmununa və vaxta, siyasi prosesin mərhələlərinə görə fərqlənir. Əhəmiyyəti nöqteyi-nəzərdən** məqsədlər xüsusi (ayrıca hakimiyyətlərin, müəssisələrin, partiyaların məqsədləri) və az əhəmiyyətli (cəmiyyətin özünün, ayrıca qrupların, siniflərin və şəxslərin məqsədi) olur. Əhəmiyyəti baxımdan həmçinin, xarici və ən böyük məqsədlər mövcuddur. **Xarici məqsədlərə** cəmiyyətin yeniləşdirilməsi, böhranlı vəziyyətdən çıxmaq, ümumi rifah naminə nailiyyətlər, **ən böyük** məqsədlərə isə tarixi miqyaslı mə'na daşıyan məqsədlər məsələn, ümumi bərabərlik, ədalət, azadlıq və s. aiddir. **Siyasət məzmununa** görə sosial, iqtisadi, ideoloji, siyasi-hüquqi, ekoloji və s. məqsədlərə malikdir. Nəhayət, **vaxt, zaman e'tibarilə, siyasi prosesin mərhələləri**

baxımdan yaxın, aralıq, daha uzaq və son məqsədlər mövcuddur. Siyasəti dərin və əhatəli dərk etmək üçün onun məqsədyönlü fəaliyyət olması haqqında təsəvvürə malik olmaq çox əhəmiyyətlidir. Fransız alimi **J.Frendin** təbirincə, siyasət "məqsədlər aləmidir. Məqsədsiz siyasət cəmiyyətin inkişafının böhrana düçar olması və hakimiyyətin iflic vəziyyətinə düşməsi deməkdir. Siyasətin məqsədlərinin reallaşması ilə bağlı olan mühüm münasibətlər onun məqsədi ilə vasitələri və metodu arasındakı nisbətdir. Bu nisbət siyasi prosesləri qarşıya qoyulan məqsədlərə nail olmaq əsasında başa çatdırmağa imkan yaradır. Məqsədlərin reallaşması vaxtı, dərəcəsi və yeri onun siyasətin vasitələrinə, səriştəli olmasına, məqsədyönlülüyünə, hakimiyyətin ideologiyasına (onun həyata keçirdiyi metodlara), miqyasına və reallığına uyğun gəlməsindən çox asılıdır.

**Siyasətin vasitələri** onun məqsədlərinin praktiki baxımdan həyata keçirilməsi üsullarıdır. Vasitə onun subyektlərinin obyektlərinə tə'sirinin konkret amilləridir.[1] Başqa sözlə, siyasətin vasitələri təbliğat kompaniyasına, tə'tillərə, silahlı hərəkətlərə və sairəyə konkret tə'sir alətləridir.

Siyasətin vasitələri ilə metodları əlaqəlidir. **Siyasətin metodu** onun vasitələrinin tə'sir üsullarını səciyyələndirir. Siyasətin metodlarına hər şeydən əvvəl, zorakı və qeyri-zorakı üsullar, məcburetmə və inandırma tədbirləri aiddir.

Siyasi praktika təsdiqləyir ki, siyasətin məqsəd və vasitələri onun nəticələrinə və siyasətin əxlaqi baxımdan qiymətləndirilməsinə müəyyən tə'sir göstərir. Bu cəhətə münasibət siyasi elmə dair ədəbiyyatda müxtəlif mövqedə diqqəti cəlb edir. Bə'zi müəlliflər iddia edir ki, siyasətin əxlaqi xarakteri onun məqsədləri ilə şərtlənir. Bir qrup tədqiqatçı isə belə qənaətə gəlir ki, siyasətin əxlaqi əhəmiyyətinə onun vasitələri daha çox tə'sir edir. Elə politoloqlara da təsadüf olunur ki, bunların fikrincə siyasətin əxlaqiliyinə və humanistləşməsinə onun məqsəd və vasitələri eyni dərəcədə tə'sir göstərir. Əlbəttə, bu üç konsepsiyanın hər birində məntiqilik və həqiqətə uyğunluq nəzərə çarpır. Yadda saxlamaq lazımdır ki, siyasətdə əxlaq və humanizm məhz, onun təşkili

---

[1] В.П.Пугачев, А.И.Соловьев. Введение в политологию. Səh. 51.

formalarında, məqsədində, məzmununda və eləcə də siyasi fəaliyyətin vasitələrində təzahür edir. Siyasətin məqsəd və məzmununda təcəssüm olunan humanizm ilk növbədə cəmiyyət üzvlərinin mənafelərinin reallaşmasında, adamların rifahının və həyat şəraitinin yaxşılaşdırılmasında, sosial ədalətin bərqərar olmasında nəzərə çarpır.

Məqsəd yalnız siyasi fəaliyyətin nəticələrinə deyil, həm də siyasətin vasitələrinin seçilməsinə əhəmiyyətli tə'sir göstərir. Siyasi məqsədlərin iyerarxiyalı struktura malik olması, qısa müddətli və perspektivli mahiyyət daşıması, ümumi və xüsusi məqsədlərə ayrılması heç də təsadüfi deyildir. Yeri gəlmişkən qeyd edək ki, siyasi prosesin mərhələsi olmaq e'tibarilə **aralıq məqsədlər** siyasi mübarizənin metod və vasitələrinin seçilməsinə daha çox tə'sir göstərir.

Siyasətin məqsəd və vasitələri qarşılıqlı əlaqə kəsb edir. Belə ki, məqsədin reallaşması xeyli dərəcədə istifadə olunan vasitələrlə şərtlənir. Vasitə isə əldə olunan nəticələrə bilavasitə tə'sir göstərməklə məqsədlərin reallığını və ya utopikliyini müəyyən edir. Bir sözlə, siyasətin vasitələri onun nəticələrinə bilavasitə tə'sir göstərir. Siyasətin məqsəd və vasitələri qarşılıqlı əlaqə kəsb etsə də onların arasında müəyyən ziddiyyətlər də təzahür edir. Əlbəttə, bu ziddiyyətlərin həllinə həmişə nail olmaq mümkün deyil. Lakin məqsəd və vasitələr arasında təzahür edən real ziddiyyətlər siyasətin məqsəd və vasitələrinin **əxlaqi cəhətdən uzlaşdırılması** prosesində həll edilə bilər.

Siyasəti bir sənət kimi səciyyələndirərkən onun əxlaqi başlanğıca malik olmasını inkar etmək olmaz. Siyasət siyasi fəaliyyət və məqsədlər üçün hər an konkret zəmin yaradılması naminə əxlaqla uzlaşmalıdır. Belə zəminin nəzərə alınması heç də siyasətçinin öz inamından əl çəkməsi deyil. Əsas məsələ bundan ibarətdir ki, konkret şəraitin əksəriyyət üçün məqbul olmasını müəyyənləşdirəsən. Belə qabiliyyət həmin əksəriyyəti razı salmaq üçün siyasətçinin öz xüsusi inamından istifadə etməsinə tam hüquq verir. Siyasətçinin əxlaqi şüuru **mücərrəd nəsihətçiliyə** çevrilməməlidir, o, zərurətlə labüdlüyü dəqiq fərqləndirməyi bacarmalıdır. Başqa sözlə, bu və ya digər hərəkətin məqsədyönlü olmasını və əxlaqi cəhətdən ona haqq qazandırılmasını dürüst

müəyyənləşdirməlidir. Əlbəttə, məsələn, o kimyaçı pisdir ki, öz tədqiqatının nəticələrinin ətrafdakı adamlar və cəmiyyət üçün arzuolunmaz nəticələr verə biləcəyini dərk etmir. Lakin bu hələ o demək deyildir ki, həmin alim öz axtarışlarına son qoymalıdır. Əslində o kimyaçı qorxuludur ki, tədqiqatının nəticələrinin təhlükəli olacağını bilir, lakin bunu gizlədir. Bu deyilənlər siyasətçiyə də aiddir. Buna görə də o **siyasətçini ideal hesab etmək düzgündür ki, daha çox adamlar üçün daha çox xoşbəxtlik əldə olunmasına cəhd etsin.** Lakin təəssüf ki, heç bir siyasətçi belə prinsipin gözlənilməsinə tə'minat verə bilməz, hələ öz hərəkətlərinin verə biləcəyi nəticələri görə bilməyəcəyini demirik. Heç kim, siyasətçi isə ilk növbədə tam əmin ola bilməz ki, onun həyata keçirdiyi tədbirlər əhalinin bu və ya digər sosial təbəqəsinin və qrupunun mənafeyinə xələl yetirə bilməz.

Siyasətçilər tez-tez belə bir dilemma qarşısında qalır: ya humanist və əxlaqi nöqteyi-nəzərdən tənqidə mə'ruz qalmayan qeyri-populyar və sərt tədbirlər tətbiq etmək və ya onları tətbiq etməkdən əl çəkib şəraiti ağırlaşdırmaq. Siyasətçinin siyasəti həyati baxımdan fürsət kimi dərk etməsi bu sosial fenomenin müəyyən çərçivədə əxlaqiləşməsini şərtləndirir. Digər tərəfdən cəmiyyətdə mövcud olan əxlaqi normalar və dəyərlər mümkün olan elə bir hədd qoyur ki, siyasətçi cür'ət etmədən onu keçə bilməz. Əks təqdirdə nəinki onun ideyaları, həm də özü nüfuzdan düşər və siyasi meyitə çevrilər.

Siyasətin məqsədləri baxımdan əxlaqi nöqteyi-nəzərdən siyasətçilərin öz qarşılarına yalnız elə vəzifələr qoymağa haqqı vardır ki, bunları həll edə bilsinlər. Bu prosesdə cəmiyyətdə hamı tərəfindən qəbul olunmuş əxlaqi-etik normalara riayət edilməlidir. Lakin həyatın özü baxımdan siyasətçi üçün başlıca məqsəd hər şeydən əvvəl, bundan ibarət olmalıdır ki, adamların onları maraqlandıran ən əsas məsələlərlə məşğul olmasına şərait ən yaxın, birinci dərəcəli və daha uzaq məqsədlərin və buna müvafiq vasitələrin müəyyənləşdirilməsi və əldə olunması üçün siyasətdə idealla realın nisbətinin başa düşülməsi zəruridir. Etika, eləcə də siyasi etika özündə ictimai ideal problemini, cəmiyyətin son məqsədlərini həmçinin, onların əldə olunmasının məqsəd və vasitələrini təcəssüm etdirir. Alman şairi **F.Helderlin** yazırdı:

"Həmişə dövləti yer üzündə cəhənnəmə çevirən nədisə onu yer üzünün cənnəti etməyə sə'y göstərən də odur. Son məqsədi miqyaslı fəaliyyət kimi müəyyənləşdirmək cəhdi obyektiv (adamların şüurundan asılı olmayan) və subyektiv (insanların iradəsi ilə müəyyən edilən) xarakterli fövqəl'adə çətinliklərlə əlaqədardır.

İctimai ideal cəmiyyətin yüksək, təkmilləşmiş vəziyyəti olub ona adamların böyük əksəriyyəti can atır. İdeal ideyaların, nəzəriyyələrin, modellərin, gələcəyə aid layihələrin hər cür müxtəlif növündə mövcuddur. Bunlarda ictimai idealın tarixi zəruriliyi əsaslandırılır, onu əldə etmək yolları və vasitələri göstərilir. Lakin dəqiq başa düşmək lazımdır ki, hər bir ictimai ideal tarixən məhduddur, başqa sözlə, təzahür etdiyi anda cəmiyyətin həyat səviyyəsinə və özü haqqında elmi təsəvvürlərə uyğun gəlir. Bu o deməkdir ki, kamil cəmiyyətin idealına dair təsəvvürlər, məsələn, antik dövrün mütəfəkkirləri ilə müasir alimlərin, politoloqların və ideoloqların fikirləri müxtəlif ola bilər. Belə ki, Platonun ideal dövlət haqqında tə'limində ifadə olunan qadınların və uşaqların ümumiliyinə, ailənin idarə olunmasına, nigahın tənzimlənməsinə dair ideyaları çətin ki, müasir alimləri qane etsin. Məsələn, Platonun uşaqların valideynlərdən təcrid edilmiş halda ictima tərbiyəsi fikrini qəbul etmək olarmı. Eləcə də Aristotelin ideal dövlətdə kölə tə'sisatının mövcudluğu ideyası ilə razılaşmaq çətindir. Düzdür, Aristotel quldarlıq cəmiyyətində yaşamışdır və özünü kölədsiz cəmiyyətdən kənarda təsəvvür edə bilməzdi. Hökmən belə bir cəhəti nəzərə almaq lazımdır ki, **əvvəla**, ictimai ideal müəyyən biliklərin, elmin səviyyəsini əks etdirir. **İkincisi**, icimai ideal adamların həyatına mənfi, neqotiv tə'sir göstərən amillərə qarşı reaksiya kimi yaranır. **Üçüncüsü**, ictimai ideal həmişə gələcəyə istiqamətlənir və konkret şəraitdə yaşayan adamların arzu və istəklərini təcəssüm etdirir, idealın reallaşacağı şəraitə insanlar böyük ümid bəsləyirlər. Şübhəsiz, ictimai idealsız cəmiyyət irəliyə doğru inkişaf edə bilməz. Gələcəyin mənzərəsini vermək, ona dair müxtəlif modellər hazırlamaq məhz, ictimai idealın qərarlaşacağı mühitə sür'ətlə yaxınlaşmaq əzmindən doğur. **Siyasətin məqsədi ictimai idealın məzmununa uyğun gəlməlidir, onun vasitələri isə idealın reallaşmasına xidmət etməlidir.**

Hər cür ictimai idealın tarixi məhdudluğunu başa düşərək, elmin və praktikanın bugünkü səviyyəsinə əsaslanaraq müasir ictimai həyata nisbətən daha mükəmməl cəmiyyət haqqında təsəvvür formalaşdırmaq məqsədilə yeni istiqamət götürmək vacibdir. İctimai idealı işləyib hazırlayarkən sosial həyatın bütün tərəflərinin nə isə başa "çatmış ahəngdarlığından yox, sonsuz inkişaf azadlığının qəbul olunmasından çıxış etmək lazımdır. Əxlaqi tərəqqinin yolu bəşəriyyətin inkişafı istiqamətində daim axtarışlar aparılmasından, məqsədyönlü sə'ylərdən ibarətdir, əldə olunan nəticələrlə kifayətlənməməkdir. Burda söhbət birdəfəlik qərarlardan və son məqsədlərin əldə olunmasının başa çatmasından yox, əbədi idealın fasiləsiz həyata keçirilməsindən getməlidir. Bu ideal ideya, utopiya, ayrıca məqsəd kimi mövcud ola bilər. Düzdür buna tam mə'nada nail olmaq mümkün deyildir, lakin adamlar həmin ideala həmişə can atacaqlar. Cəmiyyət üzvləri bu istiqamətdə öz sə'ylərini reallaşdırmağa çalışaraq **daha mükəmməl cəmiyyətə daha humanist, azad və demokratik münasibətlərlə gedirlər.**

İctimai idealla gerçəklik arasında əbədi ziddiyyətlərin daim təkrar istehsalı həyatın özünün həmişə dəyişməsi ilə bağlıdır. Buna görə bəşəriyyətin minillik tarixini təhlil edərkən bu gün biz yaxşı başa düşürük ki, şəxsi azadlıqla bərabərlik arasındakı ziddiyyətin həll olunması prinsip e'tibarilə mümkün deyildir: Hər bir insanın azadlıq idealının tam reallaşması bütün adamların bərabərliyi idealının məhdudlaşdırılması demək olardı və əksinə, bərabərlik idealının tam reallaşması azadlıq idealının məhdudlaşmasına gətirib çıxarardı.

Əlbəttə, siyasətçinin ictimai idealı həyata keçirdiyi zaman tələskənliyinin səbəb və motivlərini başa düşmək və aydınlaşdırmaq çətin deyil, hətta utopik siyasətçi olsa da. **Lakin ona fayda gətirən qurbanlara, məqsədyönlü şər əməllərinə haqq qazandırmaq olmaz. Bu qeyri-əxlaqilikdir. Müxtəlif ictimai idealı həyata keçirən siyasətçinin yaşından asılı olmayaraq bu və ya digər şəxsiyyətin ləyaqətini nəzərə almamağa haqqı, ilk növbədə isə əxlaqi haqqı yoxdur. Hər cür şəraitdə, eləcə də təhlükəli şərait yarandıqda siyasətçi özünü həmin adamlardan hər birinin yerində hesab etməlidir.** İngilis yazıçısı **Q.Çestertonun** qəhrəmanlarından biri demişdir: "Mər-

həmətin bir səviyyəsində həmişə dayanmaq mümkündür, lakin şərin bir səviyyəsində daim dayanmaq hələ heç kimə qismət olmayıb. İctimai ideal və onu həyata keçirməyə çalışan siyasət real həyata əsaslanmalıdır.

## 4. SİYASİ HƏYAT, SİYASİ FƏALİYYƏT VƏ SİYASİ PROSES

Siyasi həyat əbədi mövcud olmayıb. Onun yaranma tarixi qədim dövrə təsadüf edir. Siyasi həyat ibtidai icma cəmiyyətinin dağılması və sosial cəhətdən qeyri-yekcins cəmiyyətin meydana çıxması ilə təşəkkül tapır. Bu qanunauyğunluq cəmiyyətin siyasi sisteminə də aiddir. Cəmiyyətin siyasi sistemi yarandığı ilk vaxtlar yetkin səviyyədə olmadığı kimi, siyasi həyat da təşəkkülünün başlanğıcında məhdud çərçivədə olmuş və siyasi fəaliyyət prosesində adamlar kiçik tələbatla kifayətlənmişlər. Quldarlıq cəmiyyətinin qərarlaşması ilə nəinki siyasi sistemdə, həm də siyasi həyatda köklü keyfiyyət dəyişiklikləri baş verir. Belə ki, siyasi sistemin ən mühüm ünsürü kimi siyasət aləminin başlıca komponenti olan dövlət və onunla birlikdə hakimiyyət təşəkkül tapır. Dövlət strukturları ilə yanaşı ilk partiyalar yaranır. Əlbəttə, belə "partiya anlayışı hər şeydən əvvəl, bu və ya digər şəxslə, şəxslər qrupu və hər hansı sülalə ilə yaxınlığı ehtiva edirdi. Başqa sözlə, aristokratik qruplaşmalar kimi meydana gələn ilk partiyalar həmin ictimai subyektlərin tərəfdarı kimi səciyyələnirdi. Siyasi sistemin inkişafı cəmiyyətdə baş verən ciddi dəyişiklikləri əks etdirirdi. Bu dəyişikliklər isə müxtəlif sosial təbəqələr arasında mövcud olan ziddiyyətlərlə şərtlənirdi. Heç də təsadüfi deyil ki, uzun əsrlər boyu siyasi həyatın başlıca istiqaməti rəqabət münasibətlərindən ibarət olmuşdur. Nəticə e'tibarilə cəmiyyətin siyasi həyatı siyasi sistemin yeni ünsürləri hesabına genişlənir və zənginləşir.

Orta əsrlər cəmiyyətinin ilk başlanğıcında bu və ya digər ölkədə imtiyazlı yuxarı dairələr siyasi sistemin və təbii ki, siyasi həyatın formalaşdırılmasında müstəqil rol oynayırdılar. İmtiyazlı

təbəqələr özlərinə məxsus inzibati və məhkəmə hakimiyyəti yaradır, əhali üzərinə vergilər qoyur və əmlak senzi tətbiq edirdilər. Sonralar müxtəlif sosial təbəqələrlə ölkəni idarə edənlər arasında hakimiyyət uğrunda mübarizə cəmiyyətdə yeni siyasi strukturların yaranmasına, demokratik idarəçiliyin ilk ünsürlərinin təşəkkülünə gətirib çıxardı. İngiltərədə ali silki nümayəndəlik orqanının, başqa sözlə, ilk parlamentin, Fransada və Niderlandda kortesin (ali qanunverici orqanın) təşəkkülü siyasi həyatın yeni mütərəqqi istiqamətdə inkişafının təzahürü idi. Orta əsrlər cəmiyyətində tədricən siyasətin demokratikləşməsi, ölkələrin müəyyən qismində (İngiltərə və s.) konstitusiyalı monarxiyaya keçilməsi, bə'zilərində parlamentli və ya prezidentli respublika idarəçiliyinin qərarlaşması, hakimiyyətin bölünməsinin praktiki reallığa çevrilməsi cəmiyyətin siyasi həyatının təkmilləşməsində keyfiyyətcə yeni mərhələ oldu.

Burjua inqilablarının (İngiltərədə, Fransada və s.) e'lan etdikləri azadlıq və bərabərlik şüarları tədricən həyata keçirildi. Yeni ictimai təşkilatlar yarandı. Bütün bunlar bir tərəfdən cəmiyyətin siyasi sistemində baş verən əhəmiyyətli dəyişikliklər idisə digər tərəfdən onun siyasi həyatının yeni çalarlarla zənginləşdiyinin təzahürüdür. Müasir dövrdə özünün yüksək inkişaf səviyyəsilə səciyyələnən siyasi həyat həm də daxili ziddiyyətləri, mürəkkəbliyi, çoxcəhətliliyi və yeni strukturlara malik olması baxımdan diqqəti cəlb edir.

**Siyasi həyat insanın və cəmiyyətin siyasi varlığının mə'nəvi, hissi, emosional və praktiki predmetli formasıdır.** Siyasi həyat adamların və cəmiyyətin siyasətə münasibətini və siyasətdə iştirakını səciyyələndirir. Siyasi həyat anlayışı ictimai, iqtisadi, mədəni, mə'nəvi, maddi, dini həyatla və sosial həyatın digər növləri ilə oxşarlıq təşkil edir: O, konkret dövrləri, ölkələri, cəmiyyətləri, siniflərin,sosial təbəqə və qrupların, ayrı-ayrı fərdlərin siyasi davranışını ümumiləşmiş şəkildə qiymətləndirmək üçün istifadə olunur. Siyasi həyatın xarakteristikası onun mövcud olduğu konkret şəraiti qiymətləndirməyə imkan yaradır. Eləcə də siyasi həyatın məzmunu onu şərtləndirən sosial, siyasi, iqtisadi və mədəni tarixi amilləri yə'ni dövlət tiplərini, cəmiyyətin siyasi quruluşunu, siyasi təşkilini, hakimiyyətin strukturunu və sairəni başa düşməyə yardım göstərir.

Hər hansı cəmiyyətin siyasi həyatında ən mühüm problemlər bunlardır: **Siyasi hökmranlıq və idarəetmə, hökmranlıq və əməkdaşlıq; hakimiyyətin konstitusiya vasitəsilə formalaşdırılması, möhkəmləndirilməsi və siyasi cəhətdən qeyri-bərabərlik; müxtəlif dövlət-siyasi sistemlər çərçivəsində idarəetmə mexanizmi; adamların hakimiyyət tə'sisatları ilə münasibətləri; cəmiyyətin həyat qabiliyyəti ilə onun fasiləsiz fəaliyyətinin birliyini tə'min edən mexanizm; siyasi sosiallaşma prosesi, insanın cəmiyyətdə siyasi münasibətlərin tam hüquqlu subyekt kimi mövcudluğu və kütləvi informasiya vasitələri.**

Siyasi həyat reallıqdır. Lakin siyasi həyatın reallıq mahiyyəti heç də onun təbiətinə xas olan utopiyaların inkarı deyildir. Heç də təsadüfi deyil ki siyasət problemini araşdıran tədqiqatçıların bir qismi utopiya və siyasi həyat məsələsinə müəyyən diqqət yetirir. Siyasi həyatda müxtəlif utopiyaları xüsusilə, **mütləq** və **nisbi** utopiyaları məqsədyönlü fərqləndirmək vacib və əhəmiyyətlidir. Mütləq utopiyaların məqsədlərinin prinsip e'tibarilə reallaşdırılması mümkün deyildir. Əksinə nisbi utopiyaların məqsədləri ictimai inkişafın bugünkü məqamında reallaşmasa da başqa bir şəraitdə həyata keçirilə bilər. Nisbi utopiyanın reallaşa biləcəyinə dair **Lamartinin** konkret fikri maraq doğurur: "Utopiyalar vaxtı çatmayan həqiqətlərdir.

Siyasi həyat ilk növbədə sosial və siyasi tə'sisatlı hakimiyyət strukturlarını, onun aparatını və orqanlarını, siyasi sistemin tipini, partiya sistemlərini, cəmiyyətin siyasi təşkilini, dövlət quruluşunun və siyasi rejimin tiplərini, ictimai qaydaların vəziyyətini və sairəni müəyyənləşdirir, Bununla yanaşı siyasi həyat vətəndaş cəmiyətinin inkişaf səviyyəsinə, müxtəlif nəsillərin münasibətlərinə, ictimai hərəkatlara, siyasi fəaliyyətə, siyasi hadisə və proseslərə, liderlərin davranışına, bir sözlə, siyasi mühiti yaradan bütün hissi və rasional amillərin məcmuuna mühüm tə'sir göstərir.[1] Siyasi həyatın formalaşdığı ictimai mühitə iqtisadi, ideoloji, mədəni, hüquqi və dini amillərin tə'siri

---

[1] Политология: Энсиклопедический словарь. под редак. Аверьянова Ю.И. М., 1993 Səh 261.

böyükdür. Adamların birgə həyat fəaliyyətinin formaları və ictimai münasibətlər şəxsiyyətin və cəmiyyətin siyasi həyatının təşəkkülündə mühüm rol oynayır.

F.Brodun qeyd etdiyi kimi, "siyasət dövlətdə hakimiyyət uğrunda yarışan və rəqabət aparan fərdlərin və qrupların toqquşması səhnəsidir. Partiyaların, lobbilərin, müxtəlif hərəkatların toqquşmasından ibarət olan siyasi həyat bu və ya digər cəmiyyətin doğurduğu problemlərlə bağlı daimi mübahi-sələri səciyyələndirir.[1]

Siyasi həyat dəyişkən və dinamikdir. O, yüksəliş və tənəzzül məqamlarına mə'ruz qala bilir. Mürəkkəb amillər sisteminin tə'sirilə siyasi həyatın tonusu (fəaliyyət dərəcəsi) dəyişir. İctimai həyatın sferalarından biri olmaq e'tibarilə siyasi həyatda müxtəlif siyasi və ictimai vəzifələrin həlli tə'min olunur. Demokratikləşmiş siyasi cəmiyyətdə adamlar siyasi həyatda fəal və könüllü iştirak edirlər. Avtoritar və totalitar sistemlərdə, diktator rejimlərində siyasi həyatda cəmiyyətin cüz'i hissəsi fəaliyyət göstərir. Əhalinin böyük əksəriyyəti isə siyasi fəaliyyətə formal cəlb olunur.

Ayrı-ayrı adamların fəal siyasi həyatı yalnız ümumi əhəmiyyət daşıyan vəzifələrlə deyil, eləcə də onların xüsusi məqsədləri ilə şərtlənir. Bu və ya digər fərd öz iradəsindən asılı olaraq şüurlu surətdə peşəkar siyasətçilər, dövlət və partiya fəalları sırasına qoşula bilər. Əlbəttə, bu cəhət yalnız ayrıca fərdlərin deyil, həm də bütövlükdə cəmiyyətin siyasi həyatının mahiyyətini səciyyələndirir. Yadda saxlamaq lazımdır ki, cəmiyyətin və şəxsiyyətin siyasi həyatı son nəticədə mövcud cəmiyyət və dövlət tipi ilə şərtlənir.

Siyasi elmə aid ədəbiyyatda "küçədə siyasət, "küçədə siyasi həyat kimi anlayışlara təsadüf olunur. Bu anlayışlar siyasi həyatın küçələrdə də təzahürünü əks etdirir. Kütlələrin siyasi məqsədlər naminə küçələrə axını, meydanlarda toplanması ictimai və xalq hərəkatı xarakteri daşıyır. Belə tədbirlər hər şeydən əvvəl, mövcud cəmiyyət tipi və onun siyasi təşkili ilə müəyyən olunur. Avtoritar və ya totalitar idarə sistemlərində kütləvi tədbirlər-

---

[1] Социальные и гуманитарные науки. Зарубежная литература. Реферативный журнал. Серия 4. Т.1 Səh 10.

mitinqlər, yığıncaqlar və s. rəsmi siyasi mərasimlərin tərkib hissəsi kimi səciyyələnir (təəssüf ki, biz də XX əsrdə təxminən 70 il belə arzuolunmaz mərasimlərin iştirakçısı olmuşuq). Demokratik cəmiyyətdə siyasətin küçələrə nüfuzu siyasi həyatın zəruri ünsürünə çevrilir və hakimiyyətlə xalqın münasibətlərində əlaqə amili kimi çıxış edir.

N.Makiavelli adamların siyasi sə'ylərini onların mə'nəvi keyfiyyətləri ilə əlaqələndirirdi. O, qeyd edirdi ki, "adamlar haqqında bunu demək kifayətdir ki, bütövlükdə onlar yaltaqlığa, nankorluğa, qədirbilməzliyə və aldanmağa daha çox meyllidir. Lakin hansı keyfiyyətlərə malik olmasından asılı olmayaraq xalq siyasi həyatdan kənarda qala bilməz.[1] Bu böyük mütəfəkkir dönə-dönə deyirdi ki, hökmdarlar xalqı düzgün, ağıllı idarə etməyi bacarmalıdırlar. Həm də xalqı ləyaqətlə idarə etmək üçün hökmdarların müdrik məsləhətçilərə ehtiyacı vardır. Bu sadə kəlam indi də öz əhəmiyyətini saxlayır. Elə məsələlər var ki, onları tədqiq etmədən politologiya əsil elm və tədris fənni kimi qəbul edilə bilməz. Bu məsələlərdən ikisi daha vacibdir. Əvvələ, siyasi həyat adlanan səhnədə fəaliyyət göstərən şəxslər, başqa sözlə, aktyorlar kimlərdir? İkincisi, siyasi fəaliyyətin ssenarisini kim yazır və təşkil edir?

Əlbəttə, siyasi həyatın teatr səhnəsinə bənzədilməsi şərti mahiyyət daşıyır. Buna baxmayaraq belə bənzətmə çoxdan mövcuddur. Böyük **Şekspir** təsdiqləyirdi ki, "Bütün dünya teatrdır. **Marks** göstərirdi ki, adamlar öz dramlarının müəllifləridir və fəaliyyətdə olan şəxslərdir.[2]

Siyasi həyatın səhnəyə oxşadılması bu gün də diqqəti cəlb edir. Müasir Fransız alimi **J.M.Denkenin** "Siyasi elm kitabında böyük bir bölmə məhz, bu məsələyə həsr olunmuşdur: Digər fransız sosioloqları **M.Doqan** və **D.Pelass** birgə yazdıqları "Müqayisəli siyasi sosiologiya adlı əsərdə sosial aktyorların təsnifatına xüsusi fəsil ayırmışlar.

Siyasi həyatı cəmiyyətin iqtisadi, sosial və mə'nəvi sferalarından fərqləndirən əhəmiyyətli cəhət bundan ibarətdir ki,

---

[1] Макиавелли. Государь. М., 1990. Səh 50.
[2] Маркс К. Енгельс Ф. Соч. т.4. Səh138.

bütövlükdə cəmiyyət məhz, dövlət tərəfindən təşkil və idarə olunur. Axı, siyasətin predmeti dövlət hakimiyyətidir. Siyasət ümumi rifahın əldə olunmasına istiqamətlənən fəaliyyətdir. Onun ali sərvəti xüsusi dəyərləri, haqqı, ədaləti, əmin-amanlığı, azadlığı və sairəni özündə ehtiva edən ümumi rifahdır. Təsadüfi deyil ki, Aristotel siyasəti insan fəaliyyətinin yüksək forması adlandırmışdır. O, yazırdı: "Ədalət yalnız siyasi həyatda mümkündür, çünki siyasi birgəyaşayışın bütün sistemi hüquqa əsaslanır.[1] İnsanlar arasındakı qarşılıqlı münasibətlərdə ədalət, düzgünlük siyasət vasitəsilə qərarlaşır və beləliklə, cəmiyyətdə hər kəsin rifahı tə'min olunur. Yadda saxlamaq lazımdır ki, siyasətin məzmunu onun məqsədlərində və sərvətlərində, həll edəcəyi problemlərdə, siyasi qərarların qəbulu mexanizmində ifadə olunur. Siyasətin formaları isə real surətdə dövlətdə, partiyalarda, mənafe qruplarında (assosiyasiyalarda və hərəkatlarda), eləcə də, qanunlarda, siyasi və hüquqi normalarda təcəssümünü tapır.

İctimai həyatın bütün sferaları onlara xas olan fəaliyyət növləri ilə səciyyələnir. Siyasi həyatın başlıca məzmununu təşkil edən **siyasi fəaliyyət** insanların həyat fəaliyyəti sistemində xüsusi yer tutur. Siyasi fəaliyyət subyektin fəallığının xüsusi formasıdır. Bununla əlaqədar qeyd edək ki, "fəallıq və "fəaliyyət anlayışları birmə'nalı başa düşülməməlidir. Fəallıq fəaliyyət anlayışına nisbətən məhdud xarakter daşıyır. O, fəaliyyətin forması, dərəcəsi kimi səciyyələnir.

Müasir sosiologiyada və siyasi fəlsəfədə fəallıq çoxcəhətli anlayış kimi tədqiq olunur. Adi dildə "fəallıq məvhumu ayrı-ayrı fərdlərin qiymətləndirilməsi mə'nasında işlədilirsə, fəlsəfi-sosioloji ədəbiyyatda sosial qrupların səciyələndirilməsi baxımdan araşdırılır. Daha geniş anlayış olan fəaliyyət isə nəinki fərdlərin və sosial qrupların, həm də cəmiyyətin çoxcəhətli, şüurlu fəaliyyətini ehtiva edir. Ümumiyyətlə, fəaliyyət mürəkkəb, əhatəli və çoxtərəfli anlayışdır. O, sözün geniş mə'nasında ictimai həyatın müxtəlif sferalarında (iqtisadi, sosial, siyasi, mə'nəvi və s.) adamların məqsədyönlü davranışını, hərəkətlərini, fəallığını, mütəşəkkil səfərbər olunma qabiliyyətini, özünü tənzimlənməni, idarəetmə mədəniyyətini və sairəni səciyyələndirir.

---

[1] Аристотель. Политика. М., 1985. Səh11.

Sosial subyektlərin fəallığının özünəməxsus sferası olan siyasi fəaliyyətin məzmununun müəyyənləşdirilməsi siyasətin özünün mahiyyətini aydınlaşdırmağa imkan yaradır. Siyasi elmə aid mövcud tədqiqatlarda siyasi fəaliyyət probleminin araşdırılmasına iki mövqedən yanaşılır. Bu mövqelərdən birinin mahiyyəti ondan ibarətdir ki, siyasi fəaliyyət siyasi sistemin daxilən özünütənzimləməsidir. Belə siyasi fəaliyyətin subyektlərinə fərdlərin təşkilat qrupları, məsələn, parlament, partiya fraksiyaları, idarə edən qruplaşmalar (elitalar), hökumət, digər hakimiyyət orqanları, liderlər və s. aid edilir.

Siyasi fəaliyyətin müəyyənləşdirilməsinə dair digər mövqe siyasi sistemin kənardan (öz daxilindən yox), sosial-sinfi qüvvələr tərəfindən idarə olunduğunu iddia edir. Siyasi fəaliyyətin bu cür başa düşülməsi sosial qruplar və ictimai birliklər sisteminə, adamlara tə'sir etməyin ümumiləşmiş ifadəsini səciyyələndirir.

Siyasi fəaliyyətin mahiyyətinin müəyyənləşdirilməsinə dair bu iki konseptual mövqeyin heç birinə üstünlük vermək məqsədəuyğun deyil. Çünki siyasi fəaliyyət siyasi sistemin həm daxilən ona xas olan və həm də ona kənardan tə'sir edən subyektlərin mütəşəkkil fəaliyyətinin məcmuudur. Siyasi fəaliyyətin əsasını hakimiyyət tə'sisatlarının köməyi ilə ictimai münasibətlərin idarə olunması təşkil edir.

Siyasi fəaliyyətin konkret məzmunu aşağıdakılardan ibarətdir: dövlət işlərində iştirak etmək, dövlətin fəaliyyətinin formalarını, vəzifələrini və istiqamətlərini müəyyənləşdirmək, hakimiyyətin bölünməsi, onun fəaliyyətinə nəzarət və eləcə də siyasi tə'sisatlara digər tə'sir göstərmək.[1] Bu cəhətlərin hər biri fəaliyyətin çoxtərəfli növlərini ümumiləşdirir. Məsələn, adamların dövlət hakimiyyəti tə'sisatları və siyasi partiyalar çərçivəsində bilavasitə həyata keçirdikləri siyasi funksiyalar siyasi fəaliyyət növlərinin ümumiləşmiş ifadəsidir. M.Veber siyasi fəaliyyətin tərkibini təşkil edən ünsürlərdən ölkədə qaydaqanun yaradılmasına aid fəaliyyətə, başqa sözlə, "mövcud hakim münasibətlərə daha çox üstünlük verir.[2]

---

[1] Д.П.Зеркин. Основы политологии. Səh.308-314.
[2] Вебер М. Избранные произведения. М., 1990. Səh 661.

Siyasi fəaliyyətin bilavasitə obyektinə siyasi sərvətlər, dəyərlər, tə'sisatlar bütövlükdə siyasi sistem və ona aid olan sosial qruplar, partiyalar, elitalar və liderlər daxildir. Siyasi fəaliyyətin subyekti həmişə mütəşəkkil ictimai qüvvə kimi çıxış edir.

Siyasi fəaliyyətin konkret subyektləri müxtəlifdir. Elmi ədəbiyyatda siyasi fəaliyyətin subyektinin iki növdən ibarət olması göstərilir: qrup halında və fərdi. Siyasi fəaliyyətdə qrup halında fəaliyyətə sinfi, milli, ərazi (regional), korporativ və elitar subyektlər aid edilir. Qrupla birgə fəaliyyət göstərən siyasi cəhətdən hər bir fəal şəxsiyyət isə siyasi fəaliyyətin fərdi subyekti kimi qiymətləndirilir. Siyasi şəxsiyyətin yüksək tipi siyasi lider hesab olunur.

İnsanın siyasi fəaliyyətə cəlb olunması təbii haldır. Siyasi fəaliyyətə meyl etmək müəyyən səbəblərlə, mənafe ilə və tələbatla şərtlənir. Siyasi fikir tarixində və müasir politoloji ədəbiyyatda siyasi fəaliyyəti şərtləndirən amillər bir mə'nalı qiymətləndirilmir. Marksizmə görə siyasi fəaliyyət sinfi mənafelərdən doğur və siyasi mübarizə vasitəsilə reallaşır. Bu konsepsiya şəxsiyyətin rolunu onun fəaliyyətinin kütlələrin fəaliyyəti ilə bağlılığında təsdiqləyir. Müasir dövrün Amerika və Qərb politoloqları isə siyasi fəaliyyəti doğuran səbəbləri başqa mövqedən əsaslandırırlar. Məsələn, Amerika politoloqu **Harold Lassuellin** irəli sürdüyü nəzəriyyədə şəxsiyyətin siyasi fəaliyyətini şərtləndirən bir neçə səbəb nəzərə çatdırılır:

1.Praqmatik səbəb. 2.Tarixi proseslərə cəlb olunmaq arzusunu şərtləndirən səbəb. 3.Təmənnasız səbəb. 4.Qrup mənafeyindən irəli gələn səbəb. 5.Təmənnalı səbəb.

**Praqramitik səbəbin** mahiyyəti ondan ibarətdir ki, şəxsiyyətin siyasi həyatda iştirakı elə dərin praktiki nəticələrin əldə olunmasına istiqamətlənir ki, bunlardan onun özü, təmsil etdiyi qrup, kollektiv və bütövlükdə cəmiyyət faydalansın. **Tarixi proseslərə cəlb olunmaq arzusunu şərtləndirən səbəb** belə bir cəhəti səciyyələndirir ki, bu və ya digər şəxs tarixdə iz buraxmaq naminə cəmiyyətdə baş verən hadisə və proseslərdə iştirak etməyə sə'y göstərir. **Təmənnasız səbəb** insanın başqalarına xidmət etmək arzusunu, ehtiyac içərisində, çətin vəziyyətdə

olanlar üçün narahatlığını, öz xalqı, vətəni və bəşər övladı naminə fəaliyyət göstərməyə hazır olduğunu ifadə edir. **Qrup mənafeyindən irəli gələn səbəb** insanın cəmiyyətə, bu və ya digər sosial qrupa, kollektivə mənsubiyyəti ilə bağlı olaraq müəyyən mənafe və məqsədlər naminə siyasətə qoşulmasını səciyyələndirir. Nəhayət, **təmənnalı səbəb** cəmiyyətdə nüfuz qazanmaq, hakimiyyət səlahiyyətləri əldə etmək xatirinə, maddi rifah və digər məqsədlər üçün siyasi fəaliyyətdə iştirak etməyə sə'y göstərməklə bağlıdır.

Siyasi proseslərdə siyasi fəaliyyətin mürəkkəb, çoxsubyektli və münaqişəli xarakteri əks olunur, o, müxtəlif sosial qrupların, təşkilatların və fərdlərin münasibətləri kimi təzahür edir.[1]

Siyasi fəaliyyət iqtisadi və mə'nəvi amillərlə sıx bağlıdır. İnsanların maddi rifahının, güzəranının yüksək səviyyəsi onun təhsil alması üçün əlverişli şərait yaradır. Təhsil isə öz növbəsində cəmiyyət üzvlərinin siyasi tərbiyəsində əhəmiyyətli rol oynayır. Təcrübə təsdiqləyir ki, azsavadlı və ya savadsız adamlar düzgün siyasi istiqamət götürə bilmir, zərərli siyasi tə'sir altına düşür və nəticədə belə çatışmazlıq **oxlokratiyanın** (kütlə hakimiyyətinin) formalaşmasına zəmin yaradır. Bu cəhət 1988-89-cu illərdə Azərbaycanda davam edən "meydan hərəkatında aydın nəzərə çarpdı. Həmin hərəkat öz sıralarına on minlərlə savadlı, siyasi görüş dairəsi lazımi səviyyədə olan adamlarla, yüksək intellektual səviyyəli ziyalılarla yanaşı siyasi cəhətdən qeyri-yetkin, səbatsız şəxsləri də cəlb etmişdi. 1988-89-cu il hadisələrinin əsl mahiyyəti və son məqsədi təəssüf ki, çoxları tərəfindən düzgün dərk olunmamışdı. Xalq Cəbhəsinin hakimiyyəti zorla ələ keçirməsi və yeritdiyi siyasi xətt fikrimizin əyani təsdiqidir. Siyasi fəaliyyəti müəyyən zəruri biliklərə yiyələnmədən uğurlu həyata keçirmək qeyri-mümkündür. Siyasi həyata fəal və məqsədyönlü qoşulmaq xeyli dərəcədə təhsil və şəxsi təhsil prosesində, başqa sözlə, mə'nəvi fəaliyyət sferasında tə'min olunur. Respublikamızın görkəmli filosofu **Əlikram Abdullayev** yazır: "Siyasət idarəçilikdə, hakimiyyətdə iştirak ilə, hakimiyyətə, dövlətin

---

[1] В.П.Пугачев. А.И.Соловьев. Введение в политологию. Səh 15.

fəaliyyətinə münasibət ilə bağlı olan spesifik fəaliyyət sahəsidir.[1] Səmərəli siyasi fəaliyyət mahiyyət e'tibarilə siyasi mədəniyyətin formalaşmasına xidmət edir. Siyasi mədəniyyət isə həmişə bu və ya digər formada siyasi fəaliyyətlə bağlıdır və bunsuz ola bilməz. Bə'zi qərb siyasətşünasları siyasi fəaliyyəti yalnız ayrı-ayrı fərdlərin davranışına müncər edirlər. Belə halda siniflərin, dövlətin, siyasi partiyaların siyasi fəaliyyətin subyekti kimi çıxış etməsi inkar olunur. Hətta M.Veber kimi məşhur politoloq iddia edir ki, siyasi fəaliyyəti, bütövlükdə isə hər hansı sosial fəaliyyəti yalnız ayrı-ayrı fərdlərin davranışı əsasında başa düşmək olar.

D.P.Zerkinlə haqlı olaraq razılaşmaq olar ki, siyasi fəaliyyətin subyektlərinə münasibətdə marksist konsepsiya M.Veberin mövqeyinə nisbətən həqiqətə daha yaxındır.[2]

Deməli, siyasi fəaliyyətin subyektini təkcə fərdlər deyil, həm də siniflər, dövlət, siyasi partiyalar, xalq və s. təşkil edir. Ayrı-ayrı fərdlərin özü də L.P.Buyevanın qeyd etdiyi kimi, məhz, praktiki sosial fəaliyyətdə cəmiyyətin, sinfin, sosial qrupun bir hissəsi kimi çıxış edir və tarixi fəaliyyətin xəyali deyil, həqiqi subyektidir.[3]

Hər bir şəxsin fəaliyyətinin siyasi mə'nası onun ictimai münasibətlər sisteminə nə dərəcədə cəlb olunması ilə əlaqədardır. Şəxsiyyətin siyasi mədəniyyətinin ahəngdar inkişafını tə'min etmək məqsədilə cəmiyyətin hər bir üzvünün sosial davranışının nəticələri üçün vətəndaşlıq mə'suliyyətinin gücləndirilməsi hazırda xüsusi əhəmiyyət daşıyır. Xalqımızın üzləşdiyi çətin siyasi və iqtisadi problemlərin uğurlu həlli hər birimizdən vicdanlı, ləyaqətli fəaliyyət tələb edir. Dövlətçiliyimizin möhkəmləndirilməsi istiqamətində həyata keçirilən tədbirlərdə hər kəs yüksək şüurluluğa əsaslanan peşə və vətəndaş fəaliyyətilə, namusla xidmət etməlidir. Nazirdən tutmuş sıravi vətəndaşa qədər hamı ictimai mövqeyi və imkanları çərçivəsində dinc əməklə məşğul olmaqla yanaşı ordu quruculuğuna öz töhvəsini bəxş etməlidir. Bunu Müstəqil Azərbaycanın indiki və gələcək taleyi tələb edir. Vətəndaşlıq siması zahiri işküzarlıqla, quru sözçülüklə, təmtəraqlı siyasi mülahizələrlə deyil, insanın ümumxalq

---

[1] Ə.Z.Abdullayev. Dil, siyasət, sosial tərəqqi. Bakı, 1985. Səh 39.
[2] Д.П.Зеркин. Основы политологии. Səh. 310.
[3] Л.П.Буева. Социальная среда и сознание личности. М.,1968. Səh.23.

və cəmiyyət mənafeyi baxımdan siyasi yetkinliyi, işküzar fəaliyyəti, bir sözlə, sosial ləyaqəti ilə müəyyən olunur. Şəxsiyyətin mə'nəvi xarakteristikası müəyyən mə'nada cəmiyyətin əxlaqi sərvətlərinin insan tərəfindən mənimsənilməsi dərəcəsini, onun siyasi yetkinliyinin səviyyəsini göstərir.[1]

Siyasi fəaliyyətin legitimliyi onun cəmiyyətdəki mövcud qaydalara uyğunluğunu ifadə edir. Bu cəhət siyasi fəaliyyətin spesifikliyinin daha bir təzahürüdür. Qaydaqanun subyektin məcburi normaları yerinə yetirməsini səciyyələndirir. Bu normalar mövcud siyasi sistem üçün ümumi əhəmiyyətə malikdir.

Siyasi fəaliyyətin mühüm əlamətlərindən biri onun səmərəliliyidir. Belə səmərəlilik siyasi mənafelərin, məqsədlərin, dəyərlərin şüurlu dərk olunmasına istiqamətlənməyi təcəssüm etdirir.

Siyasi fəaliyyətin səmərəliliyi bu fəaliyyətin məzmununu mə'nalandırmağın həlledici şərti olmaqla subyektin hakimiyyət tə'sisatlarına münasibətini əks etdirir. Belə münasibət hər şeydən əvvəl, siyasi fəaliyyət subyektinin mənafeyindən irəli gəlir. "Siyasətin mənbəyi məhz, insanın cəmiyyətdəki sosial mövqeyindən irəli gələn mənafelərdir. İstər iqtisadi, istər mə'nəvi amillər və ne'mətlərə siyasi səciyyə verən onların keyfiyyətlərinin sosial cəhətləridir. Siyasətə yol yalnız mənafelərdən keçib gedir.[2]

Yeri gəlmişkən qeyd edək ki, siyasi fəaliyyətin spesifikliyini anlamağa mane olan ehkamlar da diqqəti cəlb edir. Həmin ehkamlar bütövlükdə siyasətin özünün mahiyyətini dərk etməyə mane olur. Təəssüf ki, bu hal beynəlxalq siyasi praktikada da özünü göstərir. Belə ki, **O.Lafonten** "Gələcəyin cəmiyyəti adlı əsərində yazır ki, "müasir alman sosial-demokratiyası azad bazarın məqsədə çevrildiyi, insan azadlığı və hüquqlarının sıxışdırıldığı bir şəraitdə siyasi təfəkkürdə məhdud iqtisadçılığı inkar edir. Buna görə siyasətin modernləşməsi daha geniş mülahizələrdən çıxış etməlidir.[3]

İnsan və dövlət, dövlətlə cəmiyyətin qarşılıqlı münasibətlərinin çoxcəhətli xarakteri siyasi fəaliyyətin təsnifatını

---

[1] Məcid Əfəndiyev. Sənin mə'nəvi dünyan. Bakı, 1990. Səh.18-19.
[2] Ə.Z.Abdullayev. Dil,siyasət, sosial tərəqqi. Səh.39
[3] Лафонтен О. Общества будущего. Политика-реформ в изменившемся мире. М.,1990.

şərtləndirir. Siyasi fəaliyyətin başlıca obyektini siyasi hakimiyyət sistemi təşkil etdiyi üçün mövcud ədəbiyyatda onun təsnifatı müxtəlif me'yarlara əsaslanır. Siyasət problemini tədqiq edən alimlər siyasi fəaliyyəti üç başlıca qrupa ayırırlar: Siyasi sistem çərçivəsindəki fəaliyyət; Siyasi sistemin ictimai mühitə münasibəti ilə bağlı fəaliyyət; Siyasi hakimiyyət tə'sisatlarını əhatə edən sosial mühitin doğurduğu fəaliyyət. Bu üç fəaliyyət qrupunun mahiyyətindən çıxış edərək tədqiqatçılar siyasi fəaliyyətin ümumiləşmiş şəkildə iki tipini- **praktiki və nəzəri fəaliyyəti** nəzərə çatdırırlar. Siyasi fəaliyyətin bu tipləri öz məqsədləri və vasitələri baxımdan fərqlənir. Praktiki və nəzəri fəaliyyətin rolu və əhəmiyyəti, eləcə də siyasi həyatda onların qarşılıqlı münasibətlərinin xarakteri hər şeydən əvvəl, siyasi subyektin spesifikliyi və ictimai sistemdəki fəaliyyəti ilə müəyyən olunur.

Siyasi fəaliyyəti məqsədləri baxımdan səciyyələndirərək onun üç əsas modelini qeyd etmək olar: 1.Konstruktiv-pozitiv. Bu model siyasi sistemin funksiyalarının tə'min olunmasına istiqamətlənir. 2.Neqativ destruktiv Siyasi sistemin sarsıdılmasına yönəlməsi ilə səciyyələnir. 3.Strateji və operativ-taktiki. Bu model isə siyasi proqram vəzifələrinin və taktiki fəaliyyətin işlənib hazırlanmasını və həyata keçirilməsini əks etdirir. Axırıncı modelə həmçinin islahatçı və inqilabi fəaliyyət, mövcud siyasi sistemin modernləşdirilməsi və ya yenisi ilə əvəz olunmasından irəli gələn həlledici vəzifələr daxildir.

Siyasi fəaliyyətin bütün növləri son nəticədə siyasi rəhbərliyə müncər olunur və ya onunla əlaqədardır. Siyasi rəhbərliyi sosial idarəetmənin heç bir növü ilə eyniləşdirmək olmaz. Sosial idarəetmənin növlərindən fərqli olaraq siyasi rəhbərlik kütlələrin, sosial təbəqə və qrupların fəaliyyətini və ictimai münasibətlərini təşkil edir, ümumi istiqamətə yönəldir. Amerika politoloqu **D.Sartorinin** qeyd etdiyi kimi, siyasət idarə edənlərlə idarə olunanlar arasındakı qarşılıqlı münasibətlərdir.[1]

Adamların siyasi fəaliyyəti onların davranışı ilə sıx bağlıdır. Siyasi fəaliyyət kimi siyasi davranışın da mahiyyəti siyasi sferada

---

[1] Политология вчера и сегодня. М.,1990. Səh167.

fəallıq təzahür etdirməkdən ibarətdir. Davranış fəaliyyət prosesində subyektin vəziyyətini ifadə edir. Siyasi davranış siyasi fəaliyyət subyektlərinin bilavasitə qarşılıqlı tə'sirini səciyyələndirir.

Davranışın növləri bunlardır: fərdi, qrup halında və kütləvi. Davranış fəaliyyət prosesində subyektin vəziyyətini səciyyələndirməklə hər cür siyasi hərəkətdə təzahür edir. Polşa politoloqu **T.Bodio** davranışla bağlı üç nöqteyi-nəzərin mövcudluğunu qeyd edir: 1.Davranış siyasi hərəkətin xarici təzahürüdür. 2.Siyasi davranış və siyasi hərəkət eyni anlayışlardır. 3.Siyasi hərəkət siyasi davranışın spesifik formasıdır. **A.İ.Demidov** isə qeyd edir ki, davranış "siyasi fəaliyyətin mexanizmini, strukturunu səciyyələndirir.[1] Ümumiyyətlə, siyasi davranış siyasi fəaliyyətin ayrılmaz tərəfi olmaq e'tibarilə məhz, həmin fəaliyyətdə təzahür edir. Siyasi davranışda insanın mövcud siyasi sistemə, hakimiyyət tə'sisatlarına və cəmiyyətin siyasi quruluşuna münasibəti aydın nəzərə çarpır. Əlbəttə, belə münasibəti birmə'nalı düşünmək səhv olardı. Başqa sözlə, siyasi fəaliyyət kimi, siyasi davranış da pozitiv və neqativ istiqamət kəsb edə bilir. Şəxsiyyətin, sosial təbəqə və qrupların siyasi davranışı makro və mikro mühitin təbiəti və inkişaf qanunauyğunluqları ilə şərtlənir. Pozitiv siyasi davranış sosial sistemin mütərəqqi istiqamətdə yeniləşməsinə, ictimai tərəqqiyə yönəldiyi halda, neqativ siyasi davranış cəmiyyətin siyasi sisteminin əsaslarının sarsıdılmasına, siyasi sabitliyin pozulmasına və hərcmərcliyin qərarlaşmasına xidmət edir. Harada təzahür etməsindən asılı olmayaraq siyasi fəaliyyət və siyasi davranış mahiyyət e'tibarilə sosial subyektlərin cəmiyyətə, onun siyasi tə'sisatlarına münasibəti kimi səciyyələnir.

Subyektlərin siyasi fəaliyyətinin müxtəlif növləri və bunların qarşılıqlı münasibətləri **siyasi proseslərin** təzahürünə səbəb olur. "Siyasi proses anlayışı inteqral, ümumiləşdirici mə'na daşıyır. Sözün ən geniş mə'nasında bu anlayış siyasi sistemə tətbiq edildikdə həmin sistemin bütün ünsürlərini və tərəflərini əhatə edir, eyni zamanda siyasi sistemə aid olmayan hadisələri də səciyyələndirir. Məhz, buna görə siyasi proseslərin öyrənilməsi siyasi tə'sisatların və subyektlərin xüsusiyyətlərini dərk etməyə, siyasi

---

[1] Демидов А.И. Политическая деятельность. Саратов, 1987. Səh22.

həyatda siyasi mədəniyyətin əhəmiyyətini başa düşməyə imkan yaradır.

"Siyasi proses termini sosial-fəlsəfi və politoloji ədəbiyyatda çoxdan və geniş şəkildə istifadə olunur. Buna baxmayaraq onun hamı tərəfindən qəbul olunmuş ciddi tə'rifinə təsadüf edilmir. "Siyasi proses kateqoriyasının müəyyənləşdirilməsinə belə münasibət hər şeydən əvvəl, ona dair biliklərin kifayət dərəcədə mövcud olmamasından irəli gəlir.

Siyasi proses siyasi elmin başlıca və spesifik kateqoriyalarındandır. Tədqiqatçıların müəyyən qismi onu siyasət anlayışı ilə eyniləşdirir. Digərləri isə məsələn, Parsons siyasi prosesin spesifikliyini siyasi sistemin fəaliyyətinin nəticələrində gördüyü halda, R. Darendorf bu spesifikliyi qrupların hakimiyyətin statusları və resursları uğrunda mübarizəsi və rəqabəti ilə əlaqələndirir. Ç.Merriam isə iddia edir ki, siyasi prosesin özünəməxsusluğu subyektlərin öz mənafe və məqsədlərini reallaşdırmasının davranış aspektində təzahür edir. Siyasi prosesə belə müxtəlif yanaşma çərçivəsində onun ən mühüm mənbələri, vəziyyəti və ünsürləri üzə çıxır. Siyasi prosesin müəyyənləşdirilməsinə çoxcəhətli münasibətə baxmayaraq hamı tərəfindən belə bir cəhət yekdilliklə təsdiqlənir ki, o, siyasətin subyektlərinin real qarşılıqlı fəaliyyətini əks etdirir. Başqa sözlə, siyasi proses fərdlərin, qrupların və hakimiyyət tə'sisatlarının bir-birinə münasibətini, onların öz spesifik rollarını və funsiyalarını necə reallaşdırdığını açıqlayır, siyasi sistemdə baş verən səthi və dərin dəyişiklikləri üzə çıxarır. Belə halda siyasi proses üçün mövcud dəyişikliklərin müvəqqəti dövrünün uzun və ya qısa müddətli olması mühüm əhəmiyyət daşıyır.

Siyasi prosesin qeyd etdiyimiz cəhətlərini nəzərə alaraq belə qənaətə gəlmək olar ki, o, siyasi sistemin hərəkətini,dinamikasını və təkamülünü açıqlayır. Siyasi proses "tə'sisatlaşmış və tə'sisatlanmamış subyektlərin hakimiyyət sferasında öz spesifik funksiyalarını həyata keçirmək baxımdan fəaliyyətinin məcmuudur.[1]

Cəmiyyətə tətbiq etmək mə'nasında siyasi proses sosial və siyasi strukturların və münasibətlərin qarşılıqlı munasibətlərini açıqlayır və göstərir ki, cəmiyyət öz dövlətini necə formalaşdırır.

---

[1] В.Н.Пугачев, А.И.Соловьев. Введение в политологию. Səh284.

Hər bir konkret sosial siyasi sistem öz spesifik siyasi prosesləri ilə səciyyələnir. Zaman keçdikcə onlardan bə'zisi keçmişdə qalır. Lakin elə siyasi proseslər vardır ki, praktiki olaraq daim bütün siyasi sistemlərə nüfuz edir.Bunlara aşağıdakılar aiddir:

Vətəndaşların bu və ya digər siyasi tədbirlərdə iştirakı prosesi (seçki kompaniyalarında, səsvermə prosesinin özündə və s.);

Cəmiyyətin siyasi inkişafı prosesi. Politoloqlar bunu mövcud ictimai sistemdən daha yetkininə hərəkət kimi müəyyənləşdirirlər;

Siyasi dəyişikliklər prosesi. Bu siyasi tə'sisatlar sistemində, siyasi dəyərlər sistemində və sairədə daim baş verən dəyişikliklərdir;

Siyasi sosiallaşma prosesi. O, vətəndaşların siyasi mədəniyyətin başlıca ünsürlərinə yiyələnməsi, həmçinin onlarda siyasi fəaliyyət yönümünün formalaşması vasitəsilə cəmiyyətin siyasi sisteminə cəlb olunmasını ifadə edir.Bu proses vətəndaşların siyasi şüurunun və siyasi davranışının formalaşmasına istiqamətlənir.

Nəticə e'tibarilə bütün xüsusi siyasi proseslər onların subyektlərinin tələbatlarında öz təcəssümünü tapır. Buna görə müxtəlif əhəmiyyət kəsb edən siyasi proseslərin bütün iştirakçıları öz mənafe və tələbatlarının dövlət hakimiyyəti tə'sisatlarının idarəetmə qərarlarında nəzərə alınmasına tə'sir etməyə çalışırlar.

Dövlət hakimiyyəti tə'sisatları qrup tələbatının nəzərə alınmasının və siyasi inkişafın ümumkollektiv məqsədlərinin işlənib hazırlanmasının ən mühüm vasitəsidir. Siyasi prosesin universallığına dair zəngin biliklər isə bütövlükdə onu konkret anlayış kimi başa düşməyə əsas verir. Politoloqlar müasir siyasi proseslərin mücərrəd ümumi modelini işləyib hazırlayarkən bu ictimai hadisənin məhz, konkret məzmun daşımasından çıxış edirlər.

Elmi ədəbiyyatda siyasi prosesi onun predmet-məzmun aspektində də təhlil etmək sə'yləri diqqəti cəlb edir. Həmin prosesin mahiyyətinə bu cür yanaşma hər şeydən əvvəl, belə bir cəhəti səciyyələndirir ki, siyasi prosesin məzmunu yalnız, onun digər sosial hadisələrlə münasibətinin formalaşması baxımdan təhlil olunmalıdır. Siyasi prosesin bu mə'nada araşdırılması həm də onun inkişaf mərhələlərini düzgün müəyyənləşdirməyə xidmət edir.

Politoloji ədəbiyyatda siyasi proses dörd başlıca mərhələyə ayrılır:

1) Siyasi sistemin tərkibinin təşkili.

2) Siyasi sistemin komponentlərinin və əlamətlərinin təkrar istehsalı.

3) Siyasət-idarəetmə qərarlarının qəbulu və icrası.

4) Siyasi sistemin fəaliyyətinin və inkişafının istiqamətinə nəzarət.[1]

**Siyasi prosesin ilk tarixi və məntiqi mərhələsi** siyasi sistemin tərkibinin təşkilinə istiqamətlənməsi ilə səciyyələnir. Belə siyasi proses fasiləsiz surətdə daim baş verir. Siyasi prosesin ilk mərhələsi adamların siyasi sistemi yaratmaq sə'ylərini ifadə edən iradəsinin praktiki təcəssümüdür. Siyasət sferasında təzahür edən bu cür sosial yaradıcılıq müxtəlif formada həyata keçirilir. Əvvəlki siyasi-hüquqi strukturların köklü surətdə dəyişən yeni şəraitə uyğunlaşması məhz, həmin formalardan biridir. Siyasi sistemi tanımaq fəal və ya passiv, açıq və ya gizli, könüllü və ya məcburi, birbaşa və ya dolayısı şəkildə ola bilər. Lakin bütün hallarda siyasi sistem ümumi qaydada tanınmalı və e'tiraf olunmalıdır. Siyasi sistemin tərkibinin formalaşmasında sosial-psixoloji amillər də əhəmiyyətli rol oynayır. Bütövlükdə isə bu proses müəyyən tarixi qanunauyğunluğa və obyektiv ictimai-iqtisadi tələbata uyğun olaraq başa çatır. **Siyasi prosesin ikinci mərhələsi komponentlərinin və əlamətlərinin təkrar istehsalı** onun tarixi tipinin təkrarlanması, möhkəmləndirilməsi, yeniləşməsi, sosial təbiətinin yeni mahiyyət kəsb etməsi, cəmiyyətin digər yarımsistemlərilə əlaqə daşıması ilə səciyyələnir. Bu mərhələdə siyasi münasibətlər və tə'sisatlar, siyasi normalar və sərvətlər, simvollar, işarələr və siyasi dil yeniləşir.

Siyasi sistemin təkrar istehsalından onun **yeni mərhələsi**—siyasət-idarəetmə qərarlarının **qəbulu və icrası prosesi** başlanır. Siyasət-idarəetmə qərarlarının qəbulu və icrası müəyyən mə'nada siyasi sistemin təkrar istehsalı mexanizminin daxili tərəfi, başlıca cəhəti kimi başa düşülməlidir. Bu mərhələ idarəedənlərlə idarə olunanların qarşılıqlı tə'sirini, həmin tə'sir prosesində ictimai

[1] Политология. Под редак. М.Н.Марченко. Səh.198.

həyatda hakimiyyətin həyata keçirilməsini nümayiş etdirir. Siyasət-idarəetmə qərarlarının qəbulu və icrası siyasi prosesin spesifik xüsusiyyəti kimi səciyyələnir. Siyasət-idarəetmə qərarlarının işlənib hazırlanması, qəbulu və icrası qanunauyğun surətdə **siyasi sistemin vəziyyəti və fəaliyyətinin istiqaməti üzərində nəzarət mərhələsi** ilə tamamlanır. Bu mərhələ, başqa sözlə, siyasət sferasında nəzarət spesifik vəzifələri, fəaliyyətin arzu olunan nəticələrini əldə etmək naminə məqsədyönlü vasitələrdən istifadə olunmasını və beləliklə, siyasi sistemin səmərəli təkrar istehsalının tə'min olunmasını səciyyələndirir. Siyasi sistemin fəaliyyətinə nəzarət mərhələsi onun səmərəli inkişafına, daxili ünsürlərinin qarşılıqlı tə'sirinin güclənməsinə və siyasi sabitliyin qərarlaşmasına xidmət edir.

Siyasi prosesin strukturuna aşağıdakılar daxildir: prosesin subyekti, başqa sözlə, real hakimiyyət və ya onun daşıcıları; prosesin məqsədi kimi yaradılan və ya əldə olunan obyekt; prosesin vasitələri, metodları, resursları, prosesin icraçıları. Bunlar subyekt ilə obyekt-məqsədi əlaqələndirir. Siyasi prosesin ideal və maddi tərəfləri onun resursları kimi çıxış edir. Siyasi prosesin ideal və maddi tərəflərinə elm, bilik, texniki və maliyyə vasitələri, kütlələrin əhvalruhiyəsi, prosesin iştirakçıları və onların ideologiyası, ictimai əhatə dairəsinin vəziyyəti və digər amillər daxildir. Siyasi proses ona aid olan ideyalar, nəzəriyyə və konsepsiya əsasında təşkil olunur. Nəzəriyyə və ya konsepsiyaların işlənib hazırlanması isə siyasi məqsədlərin seçilməsini, ideallaşdırılmasını özündə ehtiva edir. Siyasi prosesə aid məqsədlər elə formalaşdırılmalıdır ki, mövcud prosesin ideya və konsepsiyalarına cavab versin. İdeal məqsəd siyasətin me'yarı kimi səciyyələnirsə, konkret məqsədlər real surətdə həyata keçirilə bilməsi ilə fərqlənir.

Siyasi prosesin konkret məzmunu siyasi sistemin xüsusiyyətləri və mövcud siyasi rejimlə müəyyən olunur. Hər bir siyasi sistemin özünəməxsus tipləri vardır. Demokratik xarakterli siyasi proses kütlələrin dövlət işlərinin idarə olunmasında iştirakı və siyasi həyatda fərdlərin real azadlığı ilə səciyyələnirsə totalitar rejimdə siyasi proses başqa xarakter daşıyır. Belə ki, geniş xalq kütlələrinin siyasi fəaliyyətə cəlb olunması formal mahiyyət kəsb edir.

Siyasi proses subyektdən kənar tə'sisatların və qüvvələrin qarşılıqlı fəaliyyəti nəticəsində təşəkkül tapan obyektiv amillərlə, öz qanunauyğunluqları ilə şərtlənir. Bununla yanaşı sosial və siyasi subyektlərin, təşkilatların və fərdlərin bütün fəaliyyətinin məcmuunun mahiyyəti adamların şüur və iradəsinin özünəməxsus şəkildə maddiləşməsindən ibarətdir. Siyasi proses sosial vakuumda (boşluqda) deyil, məhz, sosial mühitdə təzahür edən çoxlu obyektiv və subyektiv xarakterli hadisələrin tə'siri altında baş verir. İqtisadi, sosial, ideoloji, mədəni, psixoloji və digər amillər şüurlu surətdə təşkil və idarə olunan hərəkətlər və münasibətlər sahəsini məhdudlaşdırır.

**Belə bir cəhəti qeyd edək ki, politoloji ədəbiyyatda konkret siyasi proseslərin ümumiləşdirilmiş təhlilinə müxtəlif mövqelərdən yanaşılır və bu prosesin müəyyən modelləri müəyyənləşdirilir. Siyasi prosesin modellərinə dair təsnifatda qlobal və xüsusi modelləri daha məqsədəuyğun hesab edirik. Qlobal siyasi prosesin məzmunu siyasi sistemin formalaşmasında, fəaliyyətində, dəyişməsində və inkişafında öz təcəssümünü tapan siyasət subyektlərinin fəaliyyətinin məcmuunu əks etdirir.**

**Siyasi prosesin xüsusi modeli isə cəmiyyətin ayrı-ayrı sferaları çərçivəsində-siyasi, ideoloji-siyasi, siyasi-hüquqi və digər proseslər şəklində çıxış edir. Siyasi proseslərə qlobal və xüsusi mövqelərdən yanaşılması bütövlükdə siyasi sistemin və onun tə'sisatlarının fəallığını, siyasi sistemin qabiliyyətinin və funksiyalarının reallaşdırılmasını səciyyələndirir. Hər iki halda söhbət siyasi subyektlərin öz mənafelərini və ümumi məqsədlərini həyata keçirməsindən gedir. Həm qlobal və həm də xüsusi siyasi proseslər hakimiyyətin cəmiyyəti idarəetməsi və ona rəhbərliyi vasitəsi kimi çıxış edir.**

# IV FƏSİL

# ŞƏXSİYYƏT SİYASƏTİN SOSİAL KOMPONENTİDİR

## 1. ŞƏXSİYYƏTİN SOSİAL MAHİYYƏTİ

Şəxsiyyət problemi hələ qədim dövrlərdən filosofların, mütəfəkkirlərin diqqətini cəlb etmişdir. Antik dövrün müdriklərindən biri demişdir ki, insan üçün ən maraqlı obyekt insanın özüdür. İnsanın mə'nəvi siması, sosial varlığı, siyasi mahiyyəti, azadlığı və məs'uliyyəti kimi çox mühüm məsələlər müxtəlif mövqelərdən araşdırılmış və qiymətləndirilmişdir. Qədim yunan fəlsəfəsinin görkəmli nümayəndəsi Platon insanı "siyasi heyvan, XVIIIəsrin fransız filosofu Lametri "düşünən maşın, böyük alman filisofu Hegel isə "mə'nəvi fəaliyyətin subyekti adlandırmışlar.

Yüz illər boyu bəşəriyyətin gözəl və dərin zəka sahibləri insanın mahiyyətinə dair çox maraqlı mülahizələr yürütmüşlər. İnsanın mə'nəvi dəyəri görkəmli İtaliya mütəfəkkiri Cordano Bruno tərəfindən çox sərrast ifadə olunmuşdur. O, deyirdi ki, "bütün elmlər içərisində yeganə bir elm tanıyıram, bu, insanlıq elmidir.

Qədim yunan dilində «liçina» sözündən götürülən şəxsiyyət məvhumu maska kimi mənalanır. Təsadüfi deyil ki, şəxsiyyət anlayışı qədim yunan teatrlarında maska mə'nasını daşıyırdı. Başqa sözlə, aktyorların geydiyi maska real həyatdakı bu və ya digər insan tipini təsvir edirdi. Buradan belə qənaətə gəlmək olar ki, şəxsiyyət anlayışı adamların simasında və davranışında sosial əhəmiyyətli xüsusi cəhətlərin səciyyələndirilməsi tələbi kimi meydana gəlmişdir. Tarixi təcrübə göstərir ki, insanın özünü dərk etməsi mürəkkəb məsələdir. Bu məsələnin həlli yalnız insanın yaşadığı və özünü təsdiq etdiyi xarici aləmi, dünyanı dərk etmək zəminində mümkündür. Şəxsiyyət məhz, sosial mühitdə ictimai-

siyasi ideallara yiyələnir, cəmiyyət, dövlət və digər tə'sisatlar barədə təsəvvürə malik olur, fəaliyyət və davranış normaları formalaşır. Deməli, cəmiyyət və şəxsiyyət bir-birindən təcrid olunmuş iki əlahiddə fenomen deyildir. Onlar qarşılıqlı surətdə bir-birini şərtləndirir. Bir sözlə, şəxsiyyət hər şeydən əvvəl, sosial-siyasi fəaliyyətin, tarixi prosesin və idrakın subyektidir.

Sosioloji ədəbiyyatda şəxsiyyətin sosial sistem kimi tədqiqi təsadüfi deyildir.Axı, insan nəinki hər hansı sosial sistemin ünsürüdür, eləcə də onun özü mürəkkəb, ziddiyyətli və çoxcəhətli struktura malikdir. Şəxsiyyəti sosial sistem kimi aydınlaşdırarkən "şəxsiyyət və "fərd anlayışlarının fərqini dürüstləşdirmək elmi-metodoloji əhəmiyyətə malikdir. "Fərd anlayışı bu və ya digər sosial sistemin ayrı-ayrı nümayəndəsi kimi başa düşülür. Lakin həmin konkret adamların real həyatının və fəaliyyətinin spesifik xüsusiyyətləri "fərd anlayışının məzmununa aid edilə bilməz. Şəxsiyyət isə insanın mahiyyətinin konkret ifadəsidir. "Şəxsiyyət anlayışı fərdlərdə sosial əhəmiyyətli cəhətləri və sosial münasibətlərin təmərküzləşməsini ifadə edir. Sosial əhəmiyyətli keyfiyyətlər şəxsiyyətin fəaliyyətinin motivi və məqsədi kimi çıxış edir. Mövcud cəmiyyətin sosial əhəmiyyətli cəhətlərinin fərdi daşıyıcısı kimi çıxış edən hər bir adam məhz, "şəxsiyyət anlayışına daxildir. Həmin cəhətlərin şəxsi təzahürü isə fərdlərin fəaliyyətində təcəssüm olunur. Şəxsiyyətin başlıca xüsusiyyətləri özünüdərketmə, sosial əhəmiyyətli fəaliyyət, məqsədəuyğun pozitiv siyasi davranış, cəmiyyətə münasibətdə nisbi müstəqilliyə malik olmaq, məs'uliyyət hissi, əxlaqi tələbkarlıq, ləyaqətli ünsiyyət, yüksək mədəni səviyyə və sairdir. Şəxsiyyətin fərdiliyi isə hər hansı bir adamı başqalarından fərqləndirən spesifiklik və özünəməxsusluqda tə'zahür edir (bioloji və sosial cəhətlər də daxil olmaqla).

Şəxsiyyətin sosial-siyasi münasibətləri insanın fəaliyyətində və davranışında üzə çıxır. Deməli, şəxsiyyət adamların simasında və davranışında sosial, siyasi və əxlaqi cəhətdən əhəmiyyətli xüsusi keyfiyyətlərin təşəkkülü prosesində formalaşır.

İnsanın mahiyyətini dərk etmək üçün onun daxili üzvi birliyini təşkil edən üç başlıca komponent (bioloji, sosial və mə'nəvi komponentlər) haqqında dolğun təsəvvürə malik olmaq

lazımdır. İnsanın inkişafında sosial və bioloji ünsürlərin nisbəti bu günə qədər elmi mübahisələr obyektidir. Məsələn, marksizm maddi, iqtisadi həyat şəraitini insanların mə'nəvi inkişafının müəyyənedici şərti kimi əsaslandırır və göstərir ki, insan real sosial-iqtisadi şəraitdə yaşayan ictimai varlıqdır, insanın mahiyyəti ictimai münasibətlərin məcmuudur. Dünya alimlərinin çoxu isə insanın mahiyyətində bioloji və sosial ünsürləri bir-birinə qarşı qoyur, onlardan birini digərindən ayırır, bioloji amili heyvani və ya insanda qeyri-insani xüsusiyyət kimi qiymətləndirməyə cəhd edir. İnsanın mahiyyətində sosial ünsürü isə fərdin özünə qarşı qoyulan, kənardan nüfuz edən cəhət kimi əsaslandıramağa çalışırlar. "Naturalizm cərəyanının nümayindələri insanın inkişafında biologi ünsürləri mütləqləşdirirlər. Bu məqsədlə onlar xüsusilə, dövrümüzün məşhur etoloqu **K.Lorensin** nəzəri təsəvvürlərinə haqq qazandırırlar. Lorens iddia edir ki, insanın varlığının müxtəlif ziddiyyətlərini aydınlaşdırmaq üçün e'tiraf etmək lazımdır ki, insanın sosial davranışı... özündə elə qanunauyğunluqları əks etdirir ki, biz bunları heyvanların davranışını öyrənən zaman daha yaxşı bilirik.

Ümumiyyətlə, fəlsəfə və sosiologiyaya dair mövcud ədəbiyyatda şəxsiyyət anlayışının hamı tərəfindən qəbul olunmuş vahid tə'rifinə təsadüf olunmur və bu anlayışın dəqiqləşdirilməsi istiqamətində rə'y müxtəlifliyi hələ də davam edir.

Bə'zi müəlliflər insanı bioloji-sosioloji, digərləri isə bütövlükdə sosial varlıq hesab edirlər. Məsələn, **İ.S. Kon şəxsiyyət** anlayışını insanın başqa adamlarla bilavasitə və qarşılıqlı fəaliyyəti prosesində əldə olunmuş sosial əhəmiyyətli cəhətlərin məcmuu kimi səciyyələndirir. **T.M.Dautov** belə hesab edir ki, insan ictimai münasibətlərin məcmuu kimi çıxış etdikdə şəxsiyyət kimi mövcud olur. Çünki şəxsiyyətin mahiyytini təşkil edən keyfiyyətlər bu zaman reallaşır. **T.M.Yaroşevskiyə** görə insan öz sosial əhatəsini dərk etdikdə və dəyişdirdikdə özünü şəxsiyyət kimi təsdiqləyir. Hər üç müəllifin fikrində marksist ruh aydın nəzərə çarpır. Şəxsiyyət anlayışının belə bir mə'na daşıdığını iddia edənlər də var ki, guya, o adamların xüsusi keyfiyyətlərini əks etdirir. Belə təsəvvürə malik olan tədqiqatçılar şəxsiyyətin məzmununu bir sıra keyfiyyətlər - yüksək mədəni səviyyə,

təfəkkürün müstəqilliyi, ictimai fəallıq, iradə gücü, daxili intizam hissi, mə'suliyyət, ləyaqət və sair ilə müəyyən edirlər. Zənnimizcə, şəxsiyyəti insanların seçilmiş kateqoriyası kimi təsəvvür etmək elmi cəhətdən məqsədəuyğun deyil. Belə təsəvvür şəxsiyyət anlayışını müəyyənləşdirmək üçün obyektiv me'yarı aradan qaldırır. Şəxsiyyət fərdin xarakterində konkret surətdə təcəssüm olunan sosial sima kimi çıxış edir. Əlbəttə, şəxsiyyətin mahiyyətini bioloji amildən kənarda təsəvvür etmək də düzgün deyil. Şəxsiyyət tarixi inkişafın məhsuludur. Hər bir şəxs dünyaya şəxsiyyət kimi yox, insan kimi gəlir. İnsanın şəxsiyyətə çevrilməsi həyatda, əməli sosial, siyasi, əxlaqi və intellektual fəaliyyət prosesində baş verir. Şəxsiyyət yalnız tərbiyənin deyil, həm də özünütərbiyənin məhsuludur. Bu mə'nada şəxsiyyət fərdi istedad, qabiliyyət və mə'nəvi mə'suliyyətlə yanaşı yüksək sosial keyfiyyətləri özündə birləşdirən ictimai varlıqdır.

Tərbiyə və özünütərbiyə prosesində yüksək təfəkkür mədəniyyətinə, mə'nəvi nufuza arxalanmaq lazımdır. Çünki insanın əxlaqi mövqeyinin mükəmməlliyi xeyli dərəcədə zəkanın fəallığı, şüurun bir ünsürünün digərinə ciddi, səmərəli tə'siri ilə bağlıdır. Zəkalı adamın əxlaqi gözəlliyi həm də onun idrakı ilə psixoloji və siyasi aləminin üzvi əlaqəsində aydın nəzərə çarpır. Onu da qeyd edək ki, hər bir şəxsin sosial, siyasi fəaliyyətinin və əxlaqi davranışının tənzim olunmasında zəkanın rolu təkcə bununla məhdudlaşmır ki, o, mövcud tələbatlar, o cümlədən siyasi tələbat haqqında mənimsənilən informasiyanı yenidən mənalandırır. Zəka həm də bilavasitə mədəniyyətin mənimsənilməsi vasitəsilə əxlaqi tələbatın təşəkkülünə və inkişafına ciddi tə'sir göstərir. Şəxsiyyətin əxlaqi inkişafı onun mə'nəvi aləmində zəka ilə emosiyaların ahəngdarlığını ifadə edir. Axı, insanın sosial, siyasi və əxlaqi davranışı onun tələbat və marağı ilə şərtlənir. Bunlar isə hiss və emosiyalarla təzahür edir, zəka ilə dərk olunur.

Şəxsiyyətin sosial mahiyyəti onun **əxlaqi şüuru** ilə sıx bağlıdır. İnsanın şəxsiyyət kimi formalaşması hər şeydən əvvəl, fərdin qarşıya qoyduğu məqsədi, hərəkət xəttini, cəmiyyətdə öz yerini, mövqeyini və rolunu anlamasıdır, sosial-siyasi davranışının mə'nasını və nəticələrini aydın başa düşməsidir, əxlaqi

mə'ziyyətlərə yiyələnməyə və kamillik zirvəsinə ucalmağa ciddi sə'y göstərməsidir. Sadə əxlaq normalarından insan zəkasının qüdrətinə qədər, sağlam ünsiyyət mədəniyyətindən yaradıcı fəaliyyətədək, səmimilikdən obyektiv və vicdanlı düşüncə tərzinə qədər, ailəyə məhəbbətdən həqiqi vətənpərvərliyədək, bir sözlə, ən ali hisslər şəxsiyyətin məzmununun, kamilliyinin əyani təcəssümüdür.

İnsanın həyatı o zaman mə'nalı, məzmunlu olur ki, onun davranışı ali məqsədlərə, xalqın mənafeyinə istiqamətlənsin. Böyük məqsədlərə, amallara istiqamətlənən fəaliyyət həyatı nəcibləşdirir, ona ahəngdarlıq, yaradıcılıq sevinci bəxş edir.

Fransız yazıçısı **xanım de Stal** qeyd edirdi ki, həyatın məqsədi yaratmaq və mümkün qədər parlaq yanmaqdır, öz fəaliyyətini, həyatını adamlara həsr etməyən xoşbəxt ola bilməz. İnsan təklikdə sevinə bilər, nəş'ələnər, lakin xoşbəxt ola bilməz.

İnsanın məqsədi nə qədər qətiyyətli, məziyyətli olarsa, onun iradə gücünə də bir o qədər stimul yaradar. Dərk olunmuş tələbat, eləcə də siyasi tələbat əməli məqsədlərin yaranmasının başlanğıcıdır, ilk anıdır. Belə tələbat insanın, xalqın müəyyən arzularını, tələblərini, obyektiv gerçəkliyə münasibətini ifadə edir. Dərk olunmuş siyasi tələbat insanı düşüncəli sosial fəaliyyətə istiqamətləndirir. Sağlam sosial-siyasi tələbatın formalaşmasında şəxsi keyfiyyətlər, ilk növbədə isə insanın özünə şüurlu münasibəti, tənqidi yanaşması, onun mənlik şüuru, ləyaqət hissi, iradəsi, özünü bir şəxsiyyət kimi təsdiq etmək qabiliyyəti mühüm rol oynayır.

Əxlaqi davranışın subyektiv mənbəyi məhz, əxlaqi tələbat və inamdır. Əxlaqi tələbat və inam şəxsiyyətin mə'nəvi ləyaqətinin me'yarı kimi çıxış edir. Kamillik səviyyəsinə ucalmaq üçün insan özünə daim ali hissləri, saf düşüncələri təlqin etməlidir, özlüyündə başqalarına qarşı xudbin mülahizələrə, pis niyyətə qapılmamalıdır, bədxah əməllərə sə'y göstərməməlidir. Bir adama pislik edəndə insan ikiqat pis iş görmüş olur: həm öz qəlbini, həm də başqasının qəlbini incidir. əksinə, kiməsə yaxşılıq edəndə əvəzində yaxşılıq görürsən, qəlbin şad olur. Maraqlıdır ki, Polşada çoxdan "Təbəssüm ordeni tə'sis edilmişdir, bu ordenlə insanlara sevinc bəxş edən şəxsləri mükafatlandırırlar. Təcrübə göstərir ki,

alicənablıq, səmimi ünsiyyət, başqalarına təmənnasız xeyirxahlıq, bir sözlə, sağlam düşüncə tərzi insana yalnız fayda verir. Alman mütəfəkkiri **Hötenin** müdrik bir kəlamını xatırlamaq yerinə düşər: **"Böyük zəka qarşısında baş əyirəm, böyük qəlb qarşısında diz çökürəm.**

"İnsanlıq fəlsəfəsini ehtirasla təbliğ edən mütəfəkkirlərin fəaliyyətinin qayəsi həmişə belə bir ülvi mülahizə ilə zinətlənmişdir ki, özünü tərbiyə etməyi bacaran insan mə'nəviyyatında ən nəcib hissləri, xüsusilə xeyirxahlığı təzahür etdirməlidir. **L.Tolstoy** qeyd edirdi ki, insanın böyük xoşbəxtliyi nəinki başqalarına xeyirxahlıq etməsidir, ən başlıcası, etdiyi xeyirxahlıqdan zövq almasıdır.

İnsanın şəxsi ləyaqət hissinin inkişaf dərəcəsini qiymətdəndirmək üçün başlıca me'yar onun mütərəqqi ictimai ideallar, sosial ədalət və həqiqət uğrunda mübarizə aparmasıdır. Hər bir fərdin ləyaqəti onun özünə inamı, zehni və əxlaqi qabiliyyəti, yaradıcılıq imkanları və davranışının yönümü ilə qırılmaz surətdə bağlıdır. Özünə inam hissinin itirilməsi insanın əxlaqi fəallığını və tələbkarlığını zəiflədir, onun istedad və qabiliyyətinin inkişafına, mə'nəvi imkanlarının üzə çıxmasına mane olur. Sosial ədalət hissinə dərindən yiyələnmək və bunun uğrunda mübarizə şəxsiyyətin məzmununun çox qiymətli ünsürüdür. "Həyata və azadlığa yalnız o adam layiqdir ki, bunların uğrunda hər gün döyüşə gedirdeməkdə Höte nə qədər haqlı imiş.

Şəxsiyyətin sosial mahiyyəti xeyli dərəcədə onun **estetik mədəniyyəti** ilə müəyyən olunur. Adamların estetik mədəniyyətə yiyələnməsi bütövlükdə cəmiyyətin mə'nəvi tərəqqisinin amili kimi çıxış edir. Çünki ictimai şüurun digər formalarından fərqli olaraq estetik şüur gerçəkliyi estetik tələbat və maraqda əks etdirir. Estetik mədəniyyətin başlıca funksiyası məhz, insanı mədəni-mə'nəvi yaradıcılığın subyekti kimi formalaşdırmaqdan ibarətdir. Şəxsiyyətin estetik təsəvvürlərinin keyfiyyəti yalnız estetik və bədii biliklərlə müəyyən olunmur. Bu cəhət həm də onun gerçəkliyin konkret halisələrini "gözəllik qanunlarının (Marks) köməyi ilə qiymətləndirmək qabiliyyətindən asılıdır. Şəxsiyyətin estetik idealının xarakteri onun estetik qiymətləndirmə təsəvvürünün başlıca göstəricisidir.

Estetik cəhətdən inkişaf etmiş şəxsiyyət yalnız həyatdakı və incəsənətdəki gözəlliyi həyata tətbiq etmək məharəti, sosial hadisələrə yaradıcı yanaşmaq bacarığı ilə səciyyələnmir. Estetik mədəniyyətli şəxsiyyətin mahiyyəti gözəllik uğrunda mübarizədə, gözəlliyi əməli fəaliyyətdə duymaq qabiliyyətində, şərə qarşı barışmazlıqda, həyata fəal, yaradıcı müdaxilə etmək bacarığını əsl gözəllik kimi dərk etməkdə ifadə olunur. Fransa mütəfəkkiri **Anatol Frans** dönə-dönə demişdir ki, "əgər mənə həqiqət və gözəllikdən birini seçmək nəsib olsaydı, mən gözəlliyi seçərdim. O, hər halda həqiqətə yaxındır. Gözəllik özündə gerçəklik hadisələrinin ahəngini və zənginliyini ehtiva edir. Bu mə'nada bədii axtarış gerçəkliyə estetik münasibətin təzahürünün tükənməz mənbəyidir.

Gerçəkliyə estetik münasibətdə **estetik fəaliyyət** başlıca rol oynayır. Yaradıcı estetik fəaliyyətdə cəmiyyətin estetik idealı xüsusi əhəmiyyət kəsb edir. Estetik mədəniyyət tarixi inkişafın konkret mərhələsində mövcud cəmiyyət tərəfindən yaradılan və istifadə edilən estetik sərvətlərin məcmuudur. Cəmiyyətin estetik mədəniyyətinə nəinki incəsənət əsərləri, həmçinin, adamların maddi və mə'nəvi fəaliyyətinin bütün estetik tərəfi daxildir.

Estetik mədəniyyətin formalaşmasının çıxış nöqtəsi **estetik şüurdur**. Estetik şüurun ən adi forması isə estetik hissdir. Şəxsiyyətin estetik hisslərində onu əhatə edən aləmə, başqa adamlara, həmçinin, özünə münasibəti ifadə olunur. Bu, estetik şüuru və tələbatı, təbii ki, bütövlükdə şəxsiyyətin estetik mədəniyyətini səciyyələndirən mühüm cəhətdir. Həmin hissdə predmet və hadisələrin keyfiyyəti, əlaqələri açılır və beləliklə, insan və cəmiyyət üçün əhəmiyyəti üzə çıxır.

Həyatının müəyyən dövrlərində özünün estetik cəhətdən zənginləşməsinə xüsusi diqqət yetirməyən böyük ingilis alimi **Çarlz Darvin** tərcümeyi-halında qeyd edirdi ki, əgər mən həyata yenidən qədəm qoysaydım özümü müntəzəm surətdə bədii əsərlər oxumağa və heç olmasa həftədə bir dəfə musiqiyə qulaq asmağa hazırlaşdırardım. Darvinin fikrincə, itirilmiş estetik hissləri heç nə ilə əvəz etmək olmaz və bu, insan xoşbəxtliyinin ən qiymətli zərrələrindən birinin itirilməsidir. Estetik hiss gerçəkliyi sadəcə seyr etməklə, onu passiv şəkildə əks etdirməklə deyil, məhz, insanı əhatə edən mühiti fəal surətdə yenidən qurmaqla yaranır.

Estetik şüuru səciyyələndirən çox mühüm ünsürlərdən biri isə **estetik zövqdür**. Estetik hissin inkişafı prosesində təşəkkül tapan estetik zövq estetik sərvətləri, gözəlliyi, mə'nəvi ucalığı və eyni zamanda eybəcərliyi, riyakarlığı, rəzilliyi qiymətləndirmək bacarığıdır. Estetik zövq öz mahiyyətinə görə insanın yaradıcı, təşəbbüskar qabiliyyətinin emosional-bədii ifadəsidir. Mükəmməl estetik zövq gerçəkliyin estetik hadisələrinə nəinki emosional münasibətdir, eləcə də həmin hadisələr haqqında mülahizələr yürütmək bacarığıdır. Estetik zövq hər bir şəxsin ümumi mədəniyyəti, onun şüur və hissinin inkişaf səviyyəsi ilə şərtlənir.

Şəxsiyyətin estetik şüuru onun əxlaqi aləminin nəcibləşməsinə mühüm tə'sir göstərir. Estetik tərbiyə sözün müəyyən mə'nasında həm də əxlaqi tərbiyədir.

Estetik zövqün yanlış istiqamətdə formalaşması ümummədəni inkişafa, əxlaqi cəhətdən təkmilləşməyə, mə'nəvi yeniləşməyə ciddi maneələr törədə bilir. Ümumiyyətlə, bədii-estetik sərvətlər əxlaqi şəxsiyyətin formalaşmasında faydalı rol oynayır. Xalqımızın böyük mütəfəkkiri **Mirzə Fətəli Axundov** incəsənətin məqsədi "insanların əxlaqını yaxşılaşdırmaqdır deməklə məhz, estetik keyfiyyətlərlə əxlaqi cəhətlərin sıx əlaqəsini nəzərdə tutmuşdur.

Musiqi, ədəbiyyat hətta bu və ya digər böyük kəşflərin meydana gəlməsində mühüm rol oynamışdır. İncəsənət nəinki bədii-estetik yaradıcılığın, həmçinin, elmi axtarışların uğurla nəticələnməsinə çox əhəmiyyətli tə'sir göstərmişdir. **A.Eynşteyn** Motsartın musiqisini ehtiramla sevirdi, skripka çalmağı bacarırdı, ədəbiyyata böyük maraq göstərirdi. O, iftixarla e'tiraf edirdi ki, nisbilik nəzəriyyəsinin kəşf edilməsində Motsartın musiqisi və Dostoevskinin əsərləri ona böyük kömək göstərmişdir.

Yaradıcı, nəcib düşüncə tərzi, əxlaqi-estetik gözəllik, bir sözlə, təfəkkür mədəniyəti nəinki cəmiyyətdə baş verən gözəl hadisələrin mahiyyətini düzgün başa düşməyə kömək edir, həm də insanı şəxsi təcrübə və fəaliyyət çərçivəsindən çıxarıb keçmiş, indi və gələcək haqqında geniş təsəvvürlər aləminə sövq edir, həqiqəti anlamağa yol açır.

Gözəl insan həyatda və həyatın özü vasitəsilə formalaşır. Bu ülvi adı daşımaq o şəxslərə nəsib olur ki, onlar özündə ən nəcib

keyfiyyətləri, müdriklik adlanan ən böyük ləyaqəti təcəssüm etdirirlər.

Təəssüf ki, hələ aramızda elə adamlara təsadüf olunur ki, insandakı həqiqi gözəlliyi, ləyaqəti təmənnalı mövqedən, şəxsi mənafe baxımdan qiymətləndirirlər. Belə halda gözəllik, ləyaqət üçün bu və ya digər şəxsin vəzifəsi, ictimai mövqeyi, imkanları və s. "me'yar götürülür. Qəbahət, xoşa gəlməz hal orasıdır ki, başqalarına, "lazımlı adamlara belə münasibət şüurlu edilir.

Bu və ya digər adamın şəxsiyyətini obyektiv qiymətləndirməmək sə'yi bə'zən isə həyat təcrübəsinin və görüş dairəsinin məhdudluğundan, ümumi mədəni səviyyənin və intellektual qabiliyyətin aşağı olmasından irəli gəlir. Lakin onu da qeyd edək ki, səviyyə məhdudluğuna görə başqalarını obyektiv qiymətləndirməmək çatışmazlıqdırsa, müəyyən subyektiv mülahizələrlə, qərəzli mövqedən adamları "saf-çürük etmək əxlaqi eybəcərlikdir, riyakarlıqdır, deməli, gözəlliyə ziddir. Cəmiyyət üzvlərinin şəxsi məqsədləri, marağı və hərəkətləri ümumi məqsədlərə, cəmiyyətin, xalqın mənafeyinə istiqamətlənməlidir. Bir sözlə, insan insana xidmət etməlidir. **Sokratın** müdrikliklə qeyd etdiyi kimi, ağıllı davranış əsl insani davranışın sinonimidir.

Siyasi sistemin hərtərəfli və dərin öyrənilməsi (tədqiqi) yalnız cəmiyyət və onu təşkil edən sosial təbəqə, qrup və birliklər mövqeyindən deyil, həm də şəxsiyyət, ayrı-ayrı fərdlər baxımdan həyata keçirilməlidir. Siyasi sistemin mövcudluğunu, fəaliyyətini, demokratiyanın mexanizmini şəxsiyyətsiz təsəvvür etmək mümkün deyildir. Hər bir şəxsiyyət isə müəyyən sosial qrupu, xalqı, milləti, kollektivi və sairəni təmsil edir. Siyasi sistemin şəxsiyyət aspektində öyrənilməsi cəmiyyətin bütün sosial-siyasi sisteminin idarə olunmasının qanunauyğunluqlarını və spesifikliyini üzə çıxarmağa zəmin yaradır.

## 2. ŞƏXSİYYƏTİN HÜQUQİ-SİYASİ STATUSU

Belə bir cəhəti qeyd etmək vacibdir ki, cəmiyyətin siyasi sistemi ilə bağlı məsələlərin, eləcə də şəxsiyyətin statusu haqqında mövcud tədqiqatların işlənmə dərəcəsi və səviyyəsi

bütövlükdə müasir ictimai inkişafın tələblərini əks etdirmir. **Şəxsiyyətin siyasi və hüquqi statusu** daha dərindən və hərtərəfli öyrənilməlidir. Cəmiyyətin siyasi sistemində şəxsiyyətin statusu müxtəlif elmlərin, ilk növbədə isə fəlsəfənin, sosiologiyanın, hüququn, psixologiyanın və sairənin tədqiqat obyektidir. Bu problemin hüquq elmi tərəfindən tədqiqinin başlıca xüsusiyyəti ondan ibarətdir ki, şəxsiyyət yalnız hüquq və dövlətlə sıx əlaqədə öyrənilir. Lakin şəxsiyyətin statusu məsələsinin elmi təhlili təkcə şəxsiyyət dövlət münasibətlərinə deyil, həmçinin, şəxsiyyətlə siyasi sistemin digər ünsürlərinin əlaqəsinə istiqamətlənməlidir. Başqa sözlə, şəxsiyyətin partiyalar, ictimai birliklər və təşkilatlar, əmək kollektivləri və sairə ilə qarşılıqlı əlaqəsinin mexanizmi daha dərindən və əhatəli araşdırılmalıdır. Belə səciyyəli tədqiqatlar hər şeydən əvvəl, hüquqi dövlətin formalaşdırılması və qərarlaşması yollarını müəyyənləşdirməyə xidmət etmiş olar. Ümumiyyətlə, cəmiyyətdə şəxsiyyətin sosial statusu, siyasi sistemdə şəxsiyyətin statusunun fəaliyyətinin ümumi və spesifik qanunauyğunluqları kimi vacib problemin müasir aspektdə tədqiq olunmasına ciddi ehtiyac duyulur.

**Şəxsiyyətin sosial statusu** geniş və çoxcəhətli anlayışdır. Bu anlayış özündə bir neçə əlaməti əks etdirir: atributiv (kollektivə, sinfə, sosial qrupa mənsubiyyət mə'nasında); funksional; qiymətləndirmə (sosial nüfuz); normativ. Şəxsiyyətin sosial statusu sözün geniş mə'nasında ayrı-ayrı fərdin rolu ilə sosial nüfuzunun vəhdətini ifadə edir. Şəxsiyyətin sosial statusu anlayışı özündə funksional və qiymətləndirmə tərəflərini birləşdirir. Bu isə onu göstərir ki, şəxsiyyət nə edirsə onu edə bilər, onun hərəkətlərinin nəticələri nədir və bu hərəkətlər başqa adamlar və cəmiyyət tərəfindən necə qiymətləndirilir.

Şəxsiyyətin sosial statusunun mühüm növlərindən biri **sosial-normativ statusdur.** Sosial-normativ status sosial normaların növlərindən biri olan hüquq və vəzifələr sistemində şəxsiyyətin normativ mövqedən tənzimlənməsini səciyyələndirir. Təəssüf ki, hələlik hüquqi və siyasi ədəbiyyatda şəxsiyyətin sosial-normativ statusu az işıqlandırılmışdır. Şəxsiyyətin sosial-normativ statusunun mahiyyətini təhlil etməyə dövlət-hüquq və təşkilati-korporativ (və ya korporasiya) tənzimləmə nisbəti baxımdan diqqət yetirilməlidir.

Bununla yanaşı sosial-normativ statusu əxlaqi normalar sistemindən kənarda təsəvvür etmək olmaz.

Şəxsiyyətin sosial-normativ statusunun daha mühüm tərəfi **hüquqi statusdur.** Hüquqi status dövlət tərəfindən təsdiqlənən və tə'minat verilən hüquq qaydaları, azadlıq, şəxsiyyətin vəzifələri və qanuni mənafeləri sistemidir. Şəxsiyyətin sosial-normativ statusu yalnız onun hüquqi statusunda deyil, eləcə də şəxsiyyətin müəyyən partiyanın, ictimai təşkilatın və əmək kollektivinin üzvü kimi statusunda ifadə olunur.

Cəmiyyətin siyasi sistemində şəxsiyyətin sosial-normativ statusunun bütün növlərinin əsasını elmi ədəbiyyatda qeyd olunduğu kimi vətəndaş olmaq e'tibarilə şəxsiyyətin mənafeyi təşkil edir. Şəxsiyyətin mənafeyinin çoxu onun hüquqi statusunun məzmununa daxildir və bu statusun müstəqil struktur ünsürü kimi səciyyələnir.

Ümumiyyətlə, şəxsiyyətin sosial-normativ statusu spesifik mənafe olmaqla bu və ya digər təşkilatın, kollektivin üzvünün hüquq və vəzifələri kimi çıxış edir.

Şəxsiyyətin dövlətlə qarşılıqlı əlaqəsi hüquq vasitəsilə onun hüquqi statusunda öz əksini tapır. Şəxsiyyətin hüquqi statusunun tə'min olunması dövlət tərəfindən reallaşır. Şəxsiyyətin hüququnun, azadlığının və vəzifələrinin həcmi və həddi dövlətin fəaliyyətində sosial baxımdan nəzərə alınır. Daha doğrusu, şəxsiyyətin hüquqi və siyasi statusu dövlət tərəfindən ümumi iqtisadi, sosial, siyasi, mə'nəvi və digər amillərin məcmuu zəminində müəyyənləşdirilir. Şəxsiyyətin hüququ, azadlığı və vəzifələri sırf hüquqi amillərlə, beynəlxalq hüquq normaları ilə, dövlətlərin beynəlxalq müqavilələr və razılıq əsasında öz üzərinə götürdükləri öhdəliklərlə müəyyən olunur. Heç də təsadüfi deyil ki, bütün bunlar insan hüquqlarına aid beynəlxalq ümumi bəyannamənin məhz, birinci bölməsində öz əksini tapıb. Dövlətlərin beynəlxalq əməkdaşlığının ən mühüm prinsiplərindən biri insan hüqüqlarına və azadlığına hörmət edilməsidir. Dövlət insanın hüquqlarını, azadlığını və vəzifələrini, həmçinin, onların həddini müəyyənləşdirməklə məhdudlaşmır. O, həm də bunların hüquqa uyğun şəkildə tə'min olunması sistemini təşkil edir, qorunması üçün sosial (hüquqi) təminat verir. Yadda saxlamaq

lazımdır ki, insan hüququ prbleminin özü məhz, cəmiyyətin, dövlətin və insan şəxsiyyətinin inkişafı ilə qırılmaz surətdə bağlıdır. Təsadüfi deyil ki, insan hüququ ideyası ilk dəfə maddi cəhətdən az tə'minatlı, lakin mənlik şüuru və şəxsi ləyaqət hissi yüksək səviyyədə olan mütəfəkkirlər tərəfindən irəli sürülmüşdür. Fərdi ləyaqətin mə'nalandırılması və təsdiqlənməsinin ilk tarixi forması və şəxsiyyətin hakimiyyətə münasibətdə muxtar mahiyyət daşıması eramızdan əvvəl birinci minillikdə **təbii hüquq ideyası** kimi meydana gəlmişdir. Bu ideya ilk dəfə qədim yunan fəlsəfəsində sofizm adı altında təşəkkül tapan tə'limin nümayəndələri tərəfindən irəli sürülmüşdür. Sofist filisoflar kimi tanınan **Likofron, Antifon, Alkidam** və başqaları eramızdan əvvəl VIV əsrlərdə təsdiqləyirdilər ki, bütün insanlar doğulduğu gündən bərabərdir və təbiət tərəfindən şərtlənən eyni hüquqa malikdirlər.

İnsan hüququna dair ilk liberal konsepsiya özünün sistemləşdirilmiş ifadəsini 1791-ci ildə qəbul olunmuş ABŞ konstitutsiyasında tapmışdır. Başlıca insan hüquqları-şəxsiyyət azadlığı, mülkiyyət hüququ, təhlükəsizlik və istismar olunmağa müqavimət 1789-cu ildə konstitusiya yolu ilə insan və vətəndaş hüquqlarına aid fransız bəyannaməsində təsbit olundu. Liberal hüquqlara dair ilk praktiki tələblər XIX əsrin birinci yarısında İngiltərədə baş verən çartistlər hərakatında əsaslandırıldı və irəli sürüldü. Qərb ölkələrində vətəndaşların sosial hüquqlarının hüquqi cəhətdən təsdiqi ikinci dünya müharibəsindən sonra baş verdi. Ən başlıca sosial hüquqlar - əmək, istirahət, sosial tə'minat, təhsil, ləyaqətli həyat səviyəsi kimi insan hüquqları 1948-ci il dekabrın 10-da BMT-nin baş məclisində qəbul olunmuş ümumi bəyannamədə öz əksini tapdı. Hüquqi status şəxsiyyətin yalnız fərd kimi deyil, həm də dövlətin vətəndaşı olmağın zəruri sosial imkanlarını və potensialını əks etdirir. Vətəndaşlarının hüquqları, azadlıqları və vəzifələri dövlətin nüfuzu və bütün gücü ilə tə'min olunur. Şəxsiyyətin hüquq və azadlığı maddi amillərlə şərtlənən, hüquqi cəhətdən təsdiqlənən və tə'minat verilən elə ictimai hadisədir ki, bunun sayəsində hər bir fərd cəmiyyətin bütün sərvətlərindən istifadə etmək imkanı əldə edir.

Şəxsiyyətin hüquq və vəzifələri bir-birilə sıx bağlıdır. Bu bağlılıq ictimai həyatın köklü prinsiplərindəndir. İnsanların

birgəyaşayış tarixi və bu günkü ictimai praktika təsdiqləyir ki, vəzifələrsiz hüquq, hüquqsuz vəzifələr yoxdur. Bu dialektik aksiom heç vaxt nəzərdən qaçırılmamalıdır.

Hüquqi vəzifələr subyektin gələcək davranış imkanları olub iradə nöqteyi-nəzərindən dövlətin qanunlarında ifadə edilən zəruri xarakterdir. Başqa sözlə, vəzifə dövlət tərəfindən tə'min olunan vacib davranışdır.

Qeyd edək ki, hüquq elmi insan hüquqları konsepsiyasının formalaşması və inkişafına mühüm töhvə bəxş etmişdir. Bu konsepsiyanın başlıca ideyası bunlardır:

Maddi cəhətdən şərtlənmə, insan hüquqları və vəzifələrinin məzmunu;

Dövlətin və şəxsiyətin qarşılıqlı mə'suliyyəti;

Şəxsiyyətin sosial müdafiəsi. Sosial-iqtisadi hüquqlara tə'minat: əmək, istirahət, mənzil, pensiya tə'minatı hüququ və s;

İnsan hüquqları və azadlığının bütün növlərinin tamlığı, tə'minatlı olması, qarşılıqlı əlaqəsi və bərabərliyi;

Hüquq və vəzifələrin birliyi;

Şəxsiyyətin hüquq və azadlığının, rifahının və sərvətlərinin hüquqi baxımdan hərtərəfli müdafiəsi.

İnsan hüquqları adamların həyat fəaliyyətinin müxtəlif sferalarında təzahür edir. Bu baxımdan ən mühüm hüquqlar aşağıdakılardır: vətəndaş hüququ (şəxsi hüquq), siyasi hüquqlar, iqtisadi hüquqlar, sosial hüquqlar və mədəni hüquqlar. **Vətəndaş hüququ** şəxsi azadlığa tə'minat verir. **Siyasi hüquqlar** vətəndaşın dövlətin və ictimai həyatın idarə olunmasında iştirakını müəyyənləşdirir. **İqtisadi hüquq** mülkiyyətə yiyələnməyi, sahibkarlığı təcəssüm etdirir. **Sosial hüquq** insanın ləyaqətli həyat səviyəsini və sosial cəhətdən müdafiə olunmasını tə'min edir. **Mədəni hüquq** isə şəxsiyyətin mə'nəvi inkişafına tə'minat verir. Hüquq insana ona görə lazımdır ki, o, ictimai həyatın müxtəlif sferalarında öz imkanlarını reallaşdırsın, qabiliyətinə və arzusuna uyğun olaraq tələbatını tə'min etsin. İnsan hüquqları sırasında **vətəndaşlıq hüququ** (şəxsi hüquq) başlıca yer tutur. O, insan hüququnun təbii və ayrılmaz tərəfidir. Vətəndaşlıq hüququnu vətəndaş hüququ ilə qarışdırmaq olmaz. **Vətəndaş hüququ** vətəndaşlığı olan şəxslərin dövlət tərəfindən tə'min olunan bütün

hüquqlar kompleksini əhatə edir. Vətəndaşlıq hüququ isə yaşamağa və azadlığa təbii hüquqdan yaranmışdır. Belə hüququ hər bir insan doğulduğu andan qazanır və buna görə də öz fərdi azadlığını ona qarşı hakimiyyət və başqa adamlar tərəfindən ehtimal edilən özbaşnalıqdan müdafiə etməlidir. Bu hüquq insana öz fərdiliyini saxlamaq imkanı verir. Vətəndaşlıq hüququna adətən azadlıq, toxunulmazlıq, şərəf və ləyaqəti qorumaq, yaşayış yerini dəyişmək və seçmək, hər hansı dövləti tərk etmək, öz ölkəsinə qayıtmaq hüququ və s. daxildir.

İnsan hüquqlarının bütün kompleksinin praktiki reallaşması mürəkkəb və əhatəli məsələdir. Bu məsələnin həlli dərəcəsi həm ayrı-ayrı ölkələrin, həm də bütün bəşər sivilizasiyasının inkişaf səviyyəsini, tərəqqisini və eləcə də humanizmi bilavasitə səciyyələndirir. Müasir dünyada insan hüquqlarına riayət olunması, şəxsiyyətin hüquq və azadlıqlarının həyata keçirilməsinə qlobal səviyyədə ciddi diqqət yetirilməsi daxili və beynəlxalq siyasətin ən mühüm me'yarı kimi çıxış edir.

Ayrı-ayrı dövlətlərdə və bütövlükdə dünyada insan hüquqlarına hörmət olunması şəxsiyyətin ən ali sərvəti kimi təsdiqlənir. Hər hansı ölkə çərçivəsində bu hüquqların qorunması iqtisadi və sosial inkişafa təkan verir, siyasətdə sağlam düşüncənin təntənəsinə çevrilir. Hələ 1789-cu ildə insan və vətəndaş hüququna dair fransız bəyannaməsinin preambulasında (giriş hissəsində) qeyd olunurdu ki, "insan hüquqlarını bilməmək, unutmaq və ona hörmət etməmək ictimai bədbəxtliyin və hökuməti rüşvətlə ələ almağın yeganə səbəbidir. Dünya birliyi miqyasında insan hüquqlarının gözlənilməsi beynəlxalq münasibətlərin əsl humanizm əsasında, əxlaqi zəmində təşkilinə ən mühüm tə'minatdır.

Şəxsiyyətin hüquqi statusu ilə bağlı yürütdüyümüz mülahizələrlə əlaqədar qeyd etmək lazımdır ki, insan hüquqları və vəzifələrinin bütün növlərinin perspektiv inkişafını bunların formalaşmasına və təkamülünə tə'sir göstərən amillər sistemi vasitəsilə dərk etmək lazımdır. Bu baxımdan şəxsiyyətin sosial-normativ statusunun inkişafını müasir şəraitdə aşağıdakı istiqamətlərdə proqnozlaşdırmaq məqsədəuyğundur:

1. Şəxsiyyətin vətəndaş olmaq e'tibarilə müəyyən partiyanın, ictimai təşkilatın və kollektivin üzvü kimi

mənafelərinin, hüquq və vəzifələrinin sosial məzmunu daha intensiv şəkildə zənginləşir və genişlənir. Bununla bağlı şəxsiyyətin statusu yeni və daha dərin maddi məzmunla tamamlanır.

2. Spesifik mənafelərin kəmiyyət artımı və müxtəlifliyi daha çox diqqəti cəlb edir. Bu hal isə hüquqi və korporativ normalarda təsdiqlənir və möhkəmləndirilir, bunların reallaşmasına təşkilatlar və kollektivlər tərəfindən tə'minat verilir. Spesifik mənafelərdən doğan yeni hüquq və vəzifələr meydana çıxır.

3. Dövlət işlərinin, əmək kollektivlərinin idarə olunmasında demokratik prinsiplərin daha da qərarlaşması şəxsiyyətin hüquq və mənafeyinin məzmununun zənginləşməsinə səbəb olur.

4. Vətəndaşların hüquqi statusunun (hər şeydən əvvəl, konstitusiyada təsbit olunan) onun sosial-normativ statusunun digər növləri ilə əlaqəsi güclənir. Bu cəhət isə vətəndaşların hüquqlarının, azadlığı və vəzifələrinin konkretləşməsi, inkişafı və tamamlanması prosesində ifadə olunur.

5. Mənafelərin reallaşması sferasında, şəxsiyyətin vətəndaş kimi öz hüquqlarından istifadə etməsi və vəzifələrini həyata keçirməsi prosesində onun fəallığı daha da yüksəlir.

Şəxsiyyətin hüquqi statusu daha çox normativ aspektdən əsaslandırılıb mə'nalandırılırsa, **şəxsiyyətin siyasi statusu** daha çox funksional baxımdan müəyyənləşdirilir. Başqa sözlə, insanın siyasi hüquq və azadlığı müasir siyasi cəmiyyətin inkişafı və səmərəli fəaliyyəti nöqteyi-nəzərdən mə'nalandırılıb əsaslandırılır. Siyasi hüquq və azadlıqla bağlı çoxlu rə'y müxtəlifliyi, çoxcəhətli mövqe diqqəti cəlb edir ki, bu da xeyli dərəcədə meydana çıxan problemlərin siyasi kəskinliyi ilə əlaqədardır. Bütün bu müxtəlifliyə baxmayaraq həm nəzəri, həm də praktiki baxımdan ümumi əhəmiyyət daşıyan bütöv məsələlər toplusu mövcuddur. Həmin məsələlər sırasında ən vacibi siyasi qrup üzvlərinin hüquq və vəzifələri arasındakı uyğunsuzluğun aradan qaldırılmasıdır.

Şəxsiyyətin siyasi statusu, başqa sözlə, siyasi hüququ vətəndaşların dövlətin idarə olunmasında və ictimai həyatda fəal iştirak etmək imkanlarını müəyyənləşdirir. Başlıca siyasi hüquqlara bunlar aiddir: insanın vətəndaşlıq hüququ, seçki hüququ, ittifaqlar və assosiasiyalar, nümayişlər və yığıncaqlar hüququ,

informasiya, söz azadlığı, rə'y, o cümlədən mətbuat azadlığı, radio və televiziyadan istifadə, vicdan azadlığı və digər hüquqlar.

Siyasi münasibətlər siyasi şüurun, siyasi mənafelərin və siyasi həyat normalarının formalaşdığı sferanı yaradır.

Siyasi münasibətlərin daşıyıcısı olan ayrı-ayrı şəxslər dövlətə münasibətdə vətəndaş kimi səciyyələnir, seçkilərdə, müxtəlif dövlət orqanlarında, qanun lahiyələrinin ümumxalq müzakirəsində, ali qanunverici orqanda və əhalinin nümayəndəsi kimi dövlət hakimiyyəti orqanlarında iştirak edirlər. Beləliklə, vətəndaşların siyasi fəaliyyət sferasını da əhatə edən siyasi münasibətlər adamların cəmiyyət və dövlət işlərinin idarə olunmasında, dövlət hakimiyyətinin həyata keçirilməsində iştirakını təcəssüm etdirir.

**Siyasi azadlıq** mövcud cəmiyyətdə şəxsiyyətin sosial azadlığının növü (forması) kimi səciyyələnir. Siyasi azadlıq bütövlükdə cəmiyyətin və eləcə də şəxsiyyətin təmsil olunduğu sosial qrupun azadlığı ilə müəyyən olunur.

Siyasi azadlıqlar vətəndaşların siyasi hüquq və azadlıqlarının sosial məzmununu təşkil edir. Bu hüquq və azadlıqlar dövlət hakimiyyəti tərəfindən təsdiqlənir və hüquqi normalarda möhkəmləndirilir. K.Marks qeyd edirdi ki, "hüquqi cəhətdən təsdiq olunmuş azadlıq dövlətdə qanunlar formasında mövcud olur.[1]

Şəxsiyyətin siyasi hüquq və azadlığı vəhdət təşkil etməklə mövcud cəmiyyətin siyasi azadlığının səviyyəsini səciyyələndirir. Şəxsiyyətin siyasi statusunun reallıq dərəcəsi, onun məzmunu iqtisadi firavanlıq, siyasi rejim, siyasi mədəniyyət, cəmiyyətin mə'nəvi həyatı və digər amillərlə şərtlənir.

Hər bir azadlığın, xüsusilə, siyasi azadlığın obyektiv surətdə mövcud olan həddi vardır. Məsələn, hüquqi azadlıq siyasi sferada siyasi azadlıqdan geniş mövcud ola bilməz. Eyni zamanda dövlət siyasi sferada şəxsiyyətin hüquqi azadlığının həddini məhdudlaşdıra bilər. Mə'lum olduğu kimi, sovet hakimiyyəti proletariat diktaturası şəraitində vətəndaşların hüquq və azadlıqlarını açıq şəkildə məhdudlaşdırmışdı (1918-ci ildə qəbul olunmuş RSFSR konstitutsiyasına əsasən).

---

[1] Маркс К. Энгельс Ф. Соч. т.1. Səh.62,69.

Dövlət vətəndaşlara münasibətdə onların siyasi tələblərini və maraqlarını tə'min etməyə imkan yaratmaq məqsədilə öz üzərinə mühüm vəzifələr götürür. Dövlətin siyasətinin bu qanunauyğunluğundan imtina edilməsi hüquq və dövlətin demokratik xarakterinin dəyişməsinə və təhrif olunmasına gətirib çıxarır.

Şəxsiyyət cəmiyyətə və dövlətə, siyasi sistemin bütün tərəflərinin fəaliyyətinə öz əməyi, siyasi fəallığı, bütün fəaliyyəti ilə tə'sir göstərir. Sosial tərəqqiyə belə tə'sir vətəndaşların öz siyasi hüquq və azadlıqlarından daha fəal istifadə etməsi nəticəsində baş verir.

Siyasi hüquq və azadlıqlar sırasında vətəndaşın özünün və başqalarının hüquq və mənafeyini qoruması da mühüm yer tutur. Vətəndaşın özünün və başqalarının hüquqlarını və qanuni mənafelərini qoruması siyasi xarakter daşıyır. Əgər vətəndaş hər hansı səbəbə görə öz hüququnu və qanuni mə'nafeyini müdafiə etməyə cəhd göstərmirsə belə halda dövlət orqanları, ictimai təşkilatlar bir qayda olaraq şəxsiyyətin pozulmuş hüququnun və qanuni mənafeyinin müdafiəsinə qalxır. Bütün bunlar şəxsiyyətin hüququnun və qanuni mənafeyinin müdafiəsinə istiqamətlənən siyasi hüquq və azadlıqların xüsusi qrupunu (növünü) müəyyənləşdirməyə əsas verir. Bu hüquqlara aşağıdakılar aiddir: şərəf və ləyaqətin alçaldılmasına, şəxsiyyətin həyatına, sağlamlığına, şəxsi azadlığına və mülkiyyətinə qəsd edilməsinə qarşı məhkəmədən istifadə etmək, vəzifəli şəxslərin, dövlət orqanlarında və ictimai təşkilatlarda çalışan şəxslərin qanuna zidd hərəkətlərindən şikayət etmək və sair.

Vətəndaşların siyasi hüququ, azadlığı və qanuni mə'nafelərinin təsnifatını üç səviyyədə (növdə) müəyyənləşdirmək olar: 1) Şəxsiyyətin dövlətə mənsubiyyəti və ya vətəndaşlıq münasibəti hüququ. 2) Vətəndaşların qanun qarşısında bərabərliyi prinsipindən irəli gələn hüquq və qanuni mənafe. 3) Xalq hakimiyyətinin həyata keçirilməsində, cəmiyyətin və dövlətin idarə olunmasında iştirak etmək hüququ.

Siyasi hüquq və azadlıqların bütün növləri bir-biri ilə sıx əlaqəyə malikdir və reallaşmaları baxımdan öz aralarında dərin əlaqə kəsb edirlər. Onlar siyasi vəzifələrlə birlikdə vətəndaşların siyasi-hüquqi statusunu təşkil edirlər.

## 3. ŞƏXSİYYƏT SİYASƏTİN SUBYEKTİDİR

Demokratik cəhətdən inkişaf etmiş sivilizasiyalı cəmiyyətdə siyasət nəinki adamlar üçün, həm də onların vasitəsilə həyata keçirilir. Nə dərəcədə ictimai rol oynamasından asılı olmayaraq sosial qruplar, siyasi partiyalar və kütləvi ictimai hərakatların başlıca subyekti şəxsiyyətidir. Çünki həmin qruplar, partiyalar və hərakatlar real şəxsiyyətlərdən formalaşır. Ən başlıcası isə siyasi proseslərin, bütün siyasi həyatın məzmunu və istiqaməti məhz, adamların mənafelərinin qarşılıqlı tə'siri sayəsində müəyyənləşir.

Siyasətin subyekti kimi insanın rolu və əhəmiyyəti ideya-siyasi fikir tarixində əhatəli şəkildə öz ifadəsini tapmışdır. Hələ qədim zamanlarda insanın siyasətə və dövlətə münasibətinə dair müxtəlif tə'limlər təzahür edir. Belə tə'limlər sırasında antik hind siyasi fikrini səciyyələndirən **brahmanizm** maraq doğurur. Brahmanizm qədim Hindistanda siyasi və hüquqi ideologiyada aparıcı istiqamət idi (eramızdan əvvəl, I minilliyin ortalarında). Mahiyyət e'tibarilə dini-mifoloji mə'na daşıyan həmin tə'lim vedlərdə - hind mərasimlərinə dair kitablarda aydın nəzərə çarpır. Belə kitablarda dövlətin əyanlar tərəfindən formalaşdırılması ideyası təsdiqlənirdi.

Adamların siyasətin subyekti olmasına dair ideya sonralar antik dövrün məşhur Çin filosofu **Konfutsinin** tə'limində nəzərə çarpır. O,iddia edirdi ki, dövlət "ali və "aşağı adamlardan ibarət olan böyük ailədir. Həm brahmanizm tə'limində, həm də Konfutsinin konsepsiyasında sıravi şəxsiyyətin siyasətin şüurlu subyekti olmasına dair fikir diqqəti cəlb etmir.

Şəxsiyyətin siyasətdə roluna dair daha kamil fikirlər **Platonun** və **Aristotelin** siyasi baxışlarında nəzərə çarpır. Platon "Respublika əsərində göstərirdi ki, cəmiyyət və dövlət filosoflardan ibarət olan müdrik hökmdarların rəhbərlik etdiyi polis tərəfindən idarə olunmalıdır. Platona görə adi adamlar dövləti idarə etmək keyfiyyətlərinə malik deyildir. İnsanı siyasi heyvan adlandıran bu böyük filosof qeyd edirdi ki, adamlar kuklaya bənzər oyuncaq varlıqdır. Əlbəttə, Platon bu fikrini dövlət hakimiyyətinə tabe olan sıravi adamlara aid edirdi. Aristotel insanın dövlətə münasibətini "Siyasət əsərində şərh etmişdir. O,

iddia edirdi ki, dövlət adamların yüksək ünsiyyət formasıdır. Aristotelin fikrincə, insan təbiətinin başlıca məqsədi, yə'ni adamların bütöv siyasi orqanizmin bir hissəsi kimi mövcudluğu məhz, dövlətdə reallaşır.

Sonrakı dövrlərin mütəfəkkirləri, ilk növbədə, **N.Makiavelli, T.Hobbs, C.Lokk** və başqaları insanın siyasətə münasibəti məsələsinə dair, adamların zəkası və qabiliyyəti ilə şərtlənən şüurlu fəaliyyətinə aid çox maraqlı fikirlər irəli sürmüşlər. Məsələn, Makiavelli təntənəli surətdə e'lan edirdi ki, "Kainatın mərkəzi allah deyil, məhz, insandır. Bu mütəfəkkir insanı ali varlıq hesab etsə də unudur ki, bütün varlıqların və kainatın mərkəzi insan deyil, məhz, allahdır. Tanrı (allah) ən qüdrətli, hər şeyə qadir quvvədir. Kainatı da, onun zərrəsi olan insanı da bu ən böyük yaradan xalq etmişdir.

Siyasətin obyekti və subyekti insanlardır. Cəmiyyətin demokratikləşməsi səviyyəsindən asılı olaraq hakimiyyətin subyektləri çox və ya az dərəcədə həm də siyasətin obyekti kimi çıxış edirlər. İnsanın siyasətin subyekti və obyekti kimi çıxış etməsi, həmçinin, siyasi rejimin xarakterindən asılıdır.

Siyasətin başlıca subyektləri xalq, sosial qruplar, ictimai birliklər (millət), kollektivlər və şəxsiyyətdir. Şəxsiyyətin siyasətin subyekti kimi səciyyələnməsi müvafiq orqanlar vasitəsilə və bilavasitə təzahür edir. Adamların bu və ya digər qrupu siyasətin subyekti kimi o halda çıxış edir ki, müəyyən siyasi keyfiyyətlərə yiyələnsin. Bu keyfiyyətlərə siyasi biliklər, siyasi şüur, siyasi mənafe, siyasi psixologiya və sair daxildir. Bütün bunlar insanda dövlət hakimiyyəti haqqında və ona tə'sir yolları barədə elmi təsəvvür yaradır. Siyasi subyekt kimi çıxış etməyin digər şərti demokratiyanın inkişaf səviyyəsi, kütləvi informasiya vasitələri, siyasi mexanizmin fəaliyyəti və nəhayət, hakimiyyətdə olan adamlar hesab olunur.

Adamları siyasətin subyekti kimi səciyyələndirən həmin keyfiyyətlər və şərtlərin məcmuu **siyasi subyektivlik adlanır.** Siyasi subyektivlik ictimai qrupların, ayrı-ayrı şəxslərin və onların təmsil olunduğu təşkilatların inkişafının məntiqi nəticəsidir. Sosial subyektlərin bu qabiliyyəti onların ümumi mənafeyinin inteqrasiyası, müdafiəsi və reallaşması ilə əlaqədardır. Deməli,

**şəxsiyyət siyasi subyekt kimi özünün inkişafı prosesində təşəkkül tapır.**

Sosial subyektin siyasi subyektə çevrilməsinin üç başlıca şərti vardır: siyasi şüur, siyasi təşkilatçılıq, siyasi fəallıq. Siyasi şüur bütövlükdə bu və ya digər fərdin öz mənafeyini dərk etməsini və mənlik şüurunu, siyasi münasibətlər sistemində yerini, rolunu anlamasını və siyasi fəaliyyətinin nəticələrini başa düşməsini səciyyələndirir. Siyasi cəhətdən təşkilatçılıq insanın özünü fəaliyyətdə olan subyekt kimi təşkil və səfərbər etməsini, ümumi mənafeyinin həyata keçirilməsi naminə real fəaliyyətini əks etdirir. Siyasi fəallıq isə şəxsiyyətin təkcə şəxsi mənafe və məqsədləri baxımdan deyil, həmçinin, təmsil etdiyi sosial qrupun, təşkilatın, hərakatın və bütövlükdə cəmiyyətin ümumi mənafeyi, məqsədləri və rifahı naminə fəal, məqsədyönlü fəaliyyəti ifadə edir. Yeri gəlmişkən qeyd edək ki, siyasi subyektivliyi **siyasətdə subyektivlikdən fərqləndirmək lazımdır.** Siyasi fəaliyətdə subyektivlik həm praktiki, həm də nəzəri baxımdan o şəxslərdə təsadüf olunur ki, bunlar peşəkar siyasətçilər kimi səciyyələnmir, zəruri siyasi biliklərə və təcrübəyə malik deyildir. Belə hal onunla bağlıdır ki, siyasətə bə'zən ictimai həyatın digər sferalarında çalışan, siyasi səriştəsi zəif olan adamlar cəlb olunur. Hakimiyyət orqanlarında və parlamentlərdə siyasi cəhətdən səriştəsiz şəxslərin təmsil olunması sözün məhdud və geniş mə'nasında ictimai qəbahətdir, xalqın mənafeyi baxımdan yolverilməzdir.

Mövcud ədəbiyyat mənbələrinə istinad edərək siyasi subyektivliyin bə'zi me'yarlarını müəyyənləşdirmək olar. Bu me'yarlara daxildir:

- şüurluluğun və mütəşəkkilliyin müəyyən səviyyəsində siyasi fəaliyyət qabiliyyəti, qərarların qəbulunda və reallaşmasında iştirak etmək imkanları;
- müxtəlif sosial qruplara ideoloji, təşkilati və tərbiyəvi tə'sir;
- siyasi fəaliyyəti müstəqil, sərbəst surətdə həyata keçirmək, davranışın və fəaliyyətin şəxsiyyətin özü tərəfindən tənzimlənməsi;
- subyektin fəaliyyətinin mühüm ictimai nəticələri və ya onun bu fəaliyyətindən imtina etməsi. İctimai faydalı fəaliyyətdən imtina edilməsinin özü də siyasi faktdır.

Siyasi subyektivliyin me'yarlı əlamətlərini hər hansı partiyanın və ya ictimai-siyasi hərəkatın nümunəsində aydın görmək olar. Onların fəaliyyətinin mahiyyəti təmsil etdikləri qrupların və təbəqələrin mənafeyini ifadə etmələrində nəzərə çarpır.

Siyasi elmə dair ədəbiyyatda siyasətin başlıca subyekti məsələsinə münasibətdə birmə'nalı mövqeyə təsadüf olunmur. Məsələn, D.P.Zerkin qeyd edir ki, xalq (millət, millətlərin ittifaqi) və onu təşkil edən böyük sosial qruplar siyasətin ilkin (birinci) subyektləridir, o mə'nada ki, xalq dövlət hakimiyyətinin mənbəyidir.[1] Belə mülahizənin əsasını təşkil edən başlıca me'yar ondan ibarətdir ki, xalq öz hakimiyyət iradəsini dövlət və digər siyasi tə'sisatlar vasitəsilə həyata keçirir. E.A.Anufriev, M.P.Faruşkin, D.P.Zerkin və başqaları dövləti, partiyaları, digər ictimai-siyasi tə'sisatları və təşkilatları siyasətin ikinci subyekti adlandırırlar. Onlar öz mülahizələri üçün bunu me'yar hesab edirlər ki, həmin tə'sisatlar xalqın adından və onun tapşırığı ilə fəaliyyət göstərirlər. Bu müəlliflər siyasi elitanı, siyasi liderləri, cəmiyyətin ayrı-ayrı üzvlərini siyasətin üçüncü subyektinə daxil edirlər.

Yuxarıdakı mülahizələri ümumiləşdirərək belə qənaətə gəlmək olar ki, siyasətin subyektləri üç səviyyədə təzahür edir: 1) Xalq (millət), böyük sosial qruplar; 2) Dövlət, partiyalar, digər ictimai-siyasi tə'sisatlar; 3) Siyasi elitalar, fərdi liderlər, cəmiyyətin ayrı-ayrı üzvləri.

Bə'zi müəlliflər isə iddia edirlər ki, siyasətin başlıca, ilkin subyekti şəxsiyyətdir. Bu fikri daha çox **L.P.Borisov** əsaslandırmağa sə'y göstərir.[2]

Politoloji ədəbiyyatda siyasətin subyektləri yalnız **sosial** (sosial təbəqə və qruplar, siniflər və s.), **tə' sisatlar** (dövlət, partiyalar, ictimai təşkilatlar və hərəkatlar) və şəxsiyyət səviyyəsində müəyyənləşdirilmir. Belə ki, bə'zi hallarda siyasətin subyektinə **sosial tə'sisatları** da aid edirlər. Belə tə'sisatlar sırasında ilk növbədə kilsə, ali məktəblər, idman assosiasiyaları,

---

[1] Д.П.Зеркин. Основы политологии. Səh82.

[2] Л.П.Борисов. Политология. М.,1996. Səh.9.

könüllü cəmiyyətlər, korporasiyalar və s. nəzərə çatdırılır. Sosial tə'sisatlar əsasən siyasi vəzifələri həyata keçirməsələr də siyasi həyata hiss olunacaq dərəcədə tə'sir göstərirlər.

Şəxsiyyəti siyasətin ilkin subyekti kimi qiymətləndirən tədqiqatçıların, eləcə də L.P.Borisovun mövqeyini daha məqsədəuyğun hesab edirik. Yadda saxlamaq lazımdır ki, ayrı-ayrı şəxsiyyətlər mücərrəd anlayış olmayıb, hər şeydən əvvəl, bu və ya digər kollektivi, sosial qrupu, təbəqəni, sinfi, bütövlükdə isə xalqı, milləti təmsil edir və səciyyələndirir. İkincisi, hər hansı sosial qrupun, ictimai birliklərin, partiyaların və sairənin siyasi məqsədləri konkret surətdə onları təmsil edən ayrı-ayrı adamların siyasi fəaliyyətində və davranışında daha aydın nəzərə çarpır. Üçüncüsü, müxtəlif sosial qrupları və ictimai birlikləri siyasi həyatda iştirak etməyə, siyasi fəallığa təhrik edən, ümumiyyətlə, bütöv halda bu qrupların və birliklərin özləri deyil, məhz, onların ayrı-ayrı konkret üzvləridir, fəallarıdır, liderləridir. Hər hansı bir kollektivin cəmiyyətə münasibətinin mahiyyəti məhz, onu təmsil edən adamların əməli, məqsədyönlü fəaliyətində təzahür edir. Obrazlı desək, kollektivdən cəmiyyətə gedən **siyasi yol** ilk növbədə şəxsiyyətdən başlanır. Obyektiv siyasi reallıq və subyektiv siyasi fəaliyyət baxımdan siyasətin subyektlərini "dərəcələrə ayırmaq ədalətli deyil. Siyasətin subyektləri bir-biri ilə qarşılıqlı tə'sirə malikdir. Bu tə'sir siyasi sistemin və siyasi rejimin tipləri ilə bağlıdır. Bununla yanaşı bə'zi ümumi cəhətlər də mövcuddur. Əvvəla, siyasətin ilkin subyekti son nəticədə subyektlərin digər səviyyələrini müəyyənləşdirir (ikinci, üçüncü subyektləri). İkincisi, siyasi tə'sisatlar, təşkilatlar, liderlər, ayrı-ayrı şəxslər o halda siyasətin subyekti kimi səciyələnir ki, məhz, xalqın, sosial qrupun ümumi mənafeyinin təmsilçisi kimi çıxış edirlər. Üçüncüsü, partiyalar əhalinin müəyyən təbəqələrinin mənafeyini siyasi proqramlarında və praktiki fəaliyyətində təmərgüzləşmiş şəkildə ifadə və müdafiə edirlər. Nəhayət, siyasi liderlər gütlələr və partiyalar tərəfindən bu şərtlə qiymətləndirilir ki, müvafiq qərarlarla onların mənafeyini və iradəsini əks etdirirlər.

Siyasətin subyekti probleminin araşdırılmasında çətinlik törədən cəhətlərdən biri hələlik politoloji ədəbiyyatda siyasət,

siyasi hakimiyyət və qeyri-siyasi hakimiyyətin nisbətinin dəqiq müəyyənləşdirilməməsidir. Siyasi həyat siyasətin subyektlərinin sistemli qarşılıqlı tə'ciri kimi səciyyələnir. Bu subyektlərdən hər biri müəyyən siyasi şəraitdə nəinki subyekt, həm də obyekt kimi çıxış edir. Siyasətin subyekti yalnız kollektiv halda deyil, fərdi şəkildə də təzahür edə bilər.

Şəxsiyyətin siyasi subyektliyinin mühüm şərtlərindən biri onun digər adamlarla qarşılıqlı fəaliyyətidir. Siyasətə təklikdə tə'sir göstərməyə çalışan hər hansı şəxsi siyasi münasibətlərin subyekti kimi təsəvvür etmək çətindir, əlbəttə, terrorçuluq fəaliyyətini və digər zorakılıq hərəkətlərini nəzərə almamaq şərtilə. Hakimiyyət səlahiyyətlərinə, funksiyalarına və müvafiq hüquqlara malik olmayan adam siyasətin əsl subyekti ola bilməz.

Cəmiyyətin siyasi həyatında şəxsiyyətin fəal iştirakı çoxplanlı əhəmiyyət daşıyır. Əvvəla, siyasi həyatda fəal iştirak etmək vasitəsilə insanın bütün imkanlarının üzə çıxması üçün əlverişli şərait yaranır, yaradıcı surətdə özünütəsdiqi tə'min olunur. Bu cəhət isə öz növbəsində ictimai vəzifələrin daha səmərəli həlli üçün zəruri zəmin yaradır. Cəmiyyət həyatının bütün tərəflərinin keyfiyyətcə yenidən qurulması insan amilinin hərtərəfli intensivləşdirilməsini, xalq kütlələrinin bu prosesdə fəal və şüurlu iştirakını nəzərdə tutur. Yeri gəlmişkən qeyd edək ki, xalq ictimai həyatın, xüsusilə, siyasi həyatın yeniləşməsində həm siyasi, həm də sosial subyekt kimi çıxış edir. Belə halda xalq şübhəsiz, hakimiyyətin başlıca mənbəyi kimi səciyyələnir. Heç də təsadüfi deyil ki, bə'zi ölkələrin, o cümlədən Azərbaycan Respublikasının kostitusiyasında xalq dövlət hakimiyyətinin yeganə mənbəyi kimi təsbit olunmuşdur. Azərbaycan Respublikasının "xalq hakimiyyəti adlanan ilk fəslinin birinci maddəsində deyilir:Azərbaycan Respublikasında dövlət hakimiyyətinin yeganə mənbəyi Azərbaycan xalqıdır.

İkincisi, siyasətin subyekti kimi insanın ümumi inkişafı siyasi tə'sisatlarla vətəndaş cəmiyyətinin sıx əlaqəsi, xalqın siyasət-idarəetmə strukturlarına nəzarət etməsi və s. üçün zəruri şərtdir. Mə'lum olduğu kimi, rəhbərlikdə inzibati-amirlik üsulu, avtoritar metodlar adamları hakimiyyətdən uzaqlaşdırır, xalqı idarəetmə aparatından ayırır. Əlbəttə, iqtisadiyyatın ekstensiv

inkişaf rolu nə qədər səmərəli deyilsə, həmin üsul da bir o qədər səmərəli deyildir. Üçüncüsü, cəmiyyət demokratiyanın inkişafı vasitəsilə öz üzvlərinin dövlət işlərinin idarə olunmasında iştirakı tələbatını tə'min edir. Demokratik siyasi proseslərdə iştirak etmək insanın özünütəsdiqi, ünsiyyət mədəniyyətinin formalaşması, idarəetmə vərdişlərinin təşəkkülü üsulu kimi səciyyələnir.

Adamların siyasətdə geniş iştirakı xeyli dərəcədə onların öz siyasi fəaliyyətində rəhbər tutduğu motivlərlə (səbəblərlə) müəyyən olunur. Əlbəttə, belə motivlər ictimai mənafe baxımdan neqativ mahiyyət də daşıya bilər. Siyasi həyatda iştirak etməyi şərtləndirən müəyyən motivlərə dair elmi mülahizələr bugünkü politologiyanı çox maraqlandırır. Çünki həmin məsələ müasir politoloji ədəbiyyatda demək olar ki, öyrənilməmişdir.

Xarici ölkələrin politoloqları bu istiqamətdə müxtəlif mülahizələr yürüdürlər. Belə ki, məşhur Amerika politoloqu **Q.Lassuell** adamların müəyyən qismində hakimiyyətə can atmaq keyfiyyətinin mövcudluğunu nəzərə alaraq belə bir nəzəriyyə işləyib hazırlamışdır: insanın hakimiyyətə can atması özünü aşağı səviyyədə qiymətləndirməsidir. Çünki belə adamlar hakimiyyətin köməyi ilə özünə ucuz şöhrət, nüfuz qazandırmağa sə'y göstərir, şəxsi ləyaqətsizlik hissini örtbasdır etməyə çalışırlar. Bu fikir kifayət qədər yayılmış olsa da tədqiqatçılar tərəfindən birmə'nalı qarşılanmayıb. Lassuellin konsepsiyası ilə razılaşmayanlara da təsadüf olunur. Bə'zi politoloqlara görə özünü aşağı səviyyədə qiymətləndirmək şəxsiyyətin siyasi proseslərə cəlb edilməsinə mane olur, onun fəal siyasi fəaliyyətinin genişlənməsi imkanlarını azaldır: Belə fikri daha çox **R.Sniderman** əsaslandırmağa cəhd edir. Hər iki politoloqun mülahizəsindən belə qənaətə gəlmək olar ki, şəxsiyyətin siyasi fəaliyyətinin motivləşməsi şəxsi, psixoloji keyfiyyətlərlə bağlıdır. Lakin siyasi həyatda iştirak etməyi şərtləndirən motivlərə daha geniş və ümumi planda diqqət yetirilməsi məqsədəuyğundur. Siyasi elmə aid bə'zi ədəbiyyatda göstərildiyi kimi, "dövlətin və cəmiyyətin idarə olunmasında, siyasi proseslərdə iştirak etmək əvvəla, vətəndaşın öz imkanlarını, ikincisi əxlaqi-siyasi vəzifələrini, üçüncüsü isə marağını (əxlaqi-siyasi və ya maddi) reallaşdırması hüququdur.

Şəxsiyyətin siyasi proseslərə cəlb olunması üçün müəyyən zəmin lazımdır. Bu zəmin üç səviyyədə təzahür edir: maddi, sosial-mədəni və siyasi-hüquqi. Təcrübə təsdiqləyir ki, şəxsiyyətin normal siyasi fəaliyyətə qoşulması üçün ilk növbədə o, maddi cəhətdən tə'min olunmalı, lazımi yaşayış-məişət şəraitinə yiyələnməlidir. Siyasi proseslərə "ac qarına həç də hamı cəlb olunmur (siyasi fanatikləri nəzərə almırıq).

Xarici ölkələrdə politoloji tədqiqatlarda cəmiyyətin rifahı ilə onun siyasi sisteminin qarşılıqlı əlaqəsini əsasən üç aspektdə nəzərdən keçirirlər, əvvəla, kifayət qədər inandırıcı şəkildə əsaslandırırlar ki, cəmiyyət nə qədər varlı olarsa orada demokratik fəaliyyət formalarına yol bir o qədər açıqdır. Amerikanın ən görkəmli politoloqlarından biri olan **S.M.Lipset** cəmiyyətin maddi rifah halının başlıca göstəriciləri ilə onun siyasi rejimi arasındakı əlaqəni tədqiq etmək əsasında belə qənaətə gəlir ki, "xalq nə qədər firavan yaşasa demokratiyanı bir o qədər müdafiə edər. Bu politoloq fikrini davam etdirərək yazır: "İqtisadi inkişafın bütün müxtəlif aspektləri-industriallaşdırma, urbanizasiya, rifah halı və təhsil bir-biri ilə elə bağlıdır ki, nəticə e'tibarilə yaratdıqları yeganə amil siyasi planda demokratiyaya uyğun gəlir. İqtisadi cəhətdən inkişaf etmiş ölkələrdə sayına və tə'sirinə görə başlıca siyasi qruplar nə son dərəcə kasıb, nə də həddən artıq varlı adamları təmsil etmir. Əksinə, mülkiyyətə görə qütbləşmə aradan qalxır, qüvvətli orta təbəqə yaranır. Bu təbəqə isə cəmiyyətdəki vəziyyətinə və obyektiv mənafeyinə görə demokratik rejimin dayağı hesab olunur.

İkincisi, maddi rifahın səviyyəsi insanın siyasi inamına və fəaliyyət yönümünə nəzərə çarpacaq dərəcədə tə'sir göstərir. S.M.Lipset belə nəticəyə gəlir ki, "maddi baxımdan daha çox tə'min olunan adamlar daha liberaldırsa, kasıblar daha dözülməzdir. Onun qeyd etdiyinə görə bir sıra ölkələrdə ictimai rə'yin öyrənilməsinə dair göstəricilər təsdiqləyir ki, öz vəziyyəti e'tibarilə daha aşağı siniflər orta və yüksək siniflərlə müqayisədə demokratiyaya az meyllidir.

Üçüncüsü, milli rifah halının kifayət qədər yüksək səviyyədə olması səriştəli vətəndaşlıq xidmətinin, peşəkar cəhətdən hazırlıqlı idarəetmə kadrları toplusunun formalaşmasının zəruri bazasıdır.

Şəxsiyyətin siyasi görüşlərinin təşəkkülündə, onun siyasi fəaliyyətin subyekti kimi formalaşmasında sosial mühit əhəmiyyətli rol oynayır. Bu mə'nada **R.Davsonla** razılaşmaq olar ki, "gənclərin ən'ənəvi katolik kəndində, siyasi cəhətdən fəal universitetlərdə və ya proletar kəndində əldə etdikləri siyasi yetkinliyin müxtəlifliyi bunda ifadə olunur ki, həmin yetkinlik siyasət aləmində özünə necə yer tutur və ya necə qiymətləndirilir.

Politoloqların çoxunun fikrincə şəxsiyyətin siyasi şüuruna və davranışına təhsil daha güclü tə'sir göstərir. Xarici ölkələrin politologiyasında bu ideya birmə'nalı qiymətləndirilir: İnsanın təhsil səviyyəsi nə qədər yüksək olarsa onun siyasi fəaliyyət yönümü bir o qədər sanballı olar. Hələ antik dövrdə **Diogen** təhsilin əhəmiyyətini müxtəlif təbəqələrlə əlaqələndirərək yazırdı: «Təhsil cavanlara kamal, qocalara təsəlli, kasıblara dövlət, varlılara isə yaraşıq verir».

İctimai həyatın bütün sferalarında, xüsusilə, siyasi həyatda təhsilin əhəmiyyətli rolu danılmazdır. O, mə'nəvi mədəniyyətin ünsürləri sırasında xüsusi yer tutur. Təhsil adamların yüksək mədəni səviyyəyə yiyələnməsi və tarixi-mə'nəvi prosesləri düzgün izləmək üçün ilkin şərtdir. Sözün geniş mə'nasında təhsilin məqsədi təbiətin, cəmiyyətin, insan idrakının və davranışının qanunları haqqında elmi bilikləri yaymaq və mənimsətməkdir. Təhsil təbiət hadisələrini və ictimai hadisələri, onların əlaqələrini və inkişaf meyllərini dərk etməyə yardım göstərir.

Mə'lum olduğu kimi, sosial əhəmiyyətli ünsiyyət mədəniyyətinin formalaşması, insanın öz xalqına bağlılığı və müəyyən şəraitdə necə hərəkət etməsi, başqaları ilə öz münasibətlərini sağlam tərzdə tənzimləməsi ən əvvəl, onun əxlaqi səviyyəsi ilə müəyyən olunur. Lakin burada təhsilin özünəməxsus tərbiyəvi tə'sirini unutmaq olmaz. Təcrübə dönə-dönə təsdiqləyir ki, ictimai cəhətdən ədalətli tələbləri ifadə edən mə'nəvi-əxlaqi normaların şəxsiyyət tərəfindən mənimsənilməsi xeyli dərəcədə təhsil səviyyəsi ilə şərtlənir. Təhsil adamların öz xalqının təbii və mə'nəvi sərvətlərinə vicdanlı ictimai tələbatını doğurur, şəxsiyyətin milli-siyasi marağının yüksəlməsi perspektivinə əhəmiyyətli tə'sir göstərir, onun fəaliyyət xarakterini nəcibləşdirir, ictimai həyatın

bütün sferalarının və təbii ki, siyasi həyatın keyfiyyətcə yeniləşməsində böyük rol oynayır, bir sözlə, sosial tərəqqini, mütərəqqi proseslərin sür'ətlənməsini şərtləndirir.

Lakin bu heç də o demək deyil ki, bütün təhsilli adamlar həm də dərin əxlaqi düşüncə tərzinə, yüksək siyasi təfəkkürə malikdir. Təhsil özlüyündə mə'nəvi-əxlaqi ləyaqətin, siyasi təfəkkür mədəniyyətinin me'yarı və göstəricisi deyil. İnsanın təhsil ocağlarında, şəxsi təhsil yolu ilə mənimsədiyi biliklər uğurlu, faydalı fəaliyyətə, xalqına, insanlara xidmət etməyə istiqamətlənmirsə, o yetkin vətəndaş səviyyəsinə yüksələ bilməz. Təhsilin neqativ nəticələr də doğurduğunu nəzərə alan ABŞ prezidenti **Tedor Ruzvelt** (1901-1909-cu illər) obrazlı şəkildə, lakin düzgün olaraq qeyd edirdi ki, "ibtidai təhsili olmayan oğru dəmir yolu vaqonundan nə isə bir şey oğurlaya bilər. Universitet təhsilli oğru isə bütün dəmir yolunu oğurlayar. Amerika politoloqlarının çoxu siyasi həyatın inkişafında təhsilin roluna xüsusi diqqət yetirirlər. Məsələn, **V.Key** ABŞ-da aparılan tədqiqatların göstəricilərini ümumiləşdirərək vətəndaşların siyasi rolunda təhsil səviyyəsinin dörd istiqamətini üzə çıxarır: 1)Siyasi həyatda iştirak etməyə yüksək səviyyədə inkişaf etmiş tələbat hissi mükəmməl təhsilə yiyələnən adamlarda nəzərə çarpır. 2)Daha çox təhsil almış adamlar siyasi həyatda iştirak etməyin səmərəliliyinə dərindən inanırlar. Belə səmərəliyi siyasi proseslərə tə'sir etməklə siyasi hakimiyyətə gəlməkdə görürlər. 3)Yüksək təhsil səviyyəsinə malik olan şəxslər siyasətlə daha çox maraqlanır və ona cəlb olunurlar. 4)Təhsil belə bir ehtimal yaradır ki, vətəndaş siyasi cəhətdən fəal ola bilər.

Amerika politoloqları **Almond** və **Verbanın** "Vətəndaş mədəniyyəti (1963) adlı birgə yazdıqları əsərdə dünyanın beş ölkəsində (ABŞ, İngiltərə, Almaniya, İtaliya və Meksika) aparılan müqayisəli empirik tədqiqatlar əsasında belə qənaətə gəlinir ki, təhsil insanın siyasi şüuruna və davranışına ciddi tə'sir göstərir. Həmin politoloqlar hər şeydən əvvəl, belə bir cəhəti qeyd edirlər ki, yüksək təhsil səviyyəsinə malik olan şəxsiyyət hökumətin fərdlərə tə'sirini daha yaxşı dərk edir, siyasi cəhətdən daha mə'lumatlıdır və o, daha geniş siyasi məsələlərə dair öz rə'yini bildirməyə qadirdir.

Siyasətdə fəal iştirak etməyə siyasi-hüquqi amillər mühüm zəmin yaradır. Həmin amillərə demokratik siyasi rejim, cəmiyyətdə demokratik siyasi mədəniyyətin hakim yer tutması, hakimiyyətin bütün strukturlarının demokratik əsasda formalaşmasına hüquqi tə'minat, siyasət-idarəetmə qərarlarının qəbulu və reallaşması, cəmiyyət üzvlərinin siyasi proseslərin bütün mərhələlərində iştirakı daxildir.

Ümumiyyətlə, şəxsiyyətin siyasətin subyekti kimi təşəkkülü insanın sosial cəhətdən tədricən yetkinləşməsi və onun siyasi sosiallaşması prosesində baş verir.

Siyasətin subyekti olmaq e'tibarilə şəxsiyyətin siyasi fəaliyyəti **bilavasitə və ya vasitəli (dolayı yolla)** səviyyələrdə həyata keçirilir. Dövlətin və cəmiyyətin mühüm məsələlərinin həllində vətəndaşların bilavasitə iştirakı **birbaşa demokratiya** kimi səciyyələnir. Belə iştirak etmə formalarına seçkilər, referendumlar və s. daxildir. Siyasətdə vasitəli iştirak isə vətəndaşların seçdikləri orqanlar (parlament, yerli hakimiyyət orqanları, ictimai-siyasi təşkilatların seçkili orqanları) vasitəsilə həyata keçirilir.

İnkişaf etmiş sivilizasiyalı cəmiyyətdə vətəndaşların ictimai həyatın bütün sferalarının idarə olunmasında iştirakı lazımi səviyyədə tə'min olunur. Sosial demokratiya spesifik həyat tərzi olmaqla cəmiyyət üzvlərinin sosial cəhətdən bərabərliyinə, xüsusilə, vətəndaşlıq statusuna tə'minat verir.

# V FƏSİL

## ƏXLAQ ŞÜURUN SİYASƏTƏ NÜFUZ SFERASIDIR

### 1. ƏXLAQLA SİYASƏTİN FUNKSİONAL ÜMUMİLİYİ

Əxlaqın kollektiv, ümumbəşəri xarakteri, əxlaqi sərvətlərin şəxsiyyətdaxili və mə'nəvi-psixoloji mexanizminin tə'sir xüsusiyyətləri, eləcə də onun cəmiyyətdə insanın fəaliyyətini və davranışını humanistcəsinə tənzimləməsi əxlaqla siyasətin qarşılıqlı münasibətlərini obyektiv surətdə şərtləndirir. Həm əxlaq, həm də siyasət cəmiyyətin təşkiledici, tənzimləyici və nəzarətedici sferalarıdır, lakin onların cəmiyyətdə mövcudluğu və fəaliyyəti bir-birindən əhəmiyyətli dərəcədə fərqlənir.

Əxlaq digər nəzarətedici, təşkilati sferalardan, məsələn, hakimiyyətdən, siyasətdən fərqli olaraq əşya formalarına malik deyildir, idarəetmə aparatında, hakimiyyət tə'sisatlarında maddiləşmir, əlaqə vasitələrindən məhrumdur. O, məhz, dildə və nitqdə, digər ictimai hadisələrin əlamətlərində və xassələrində obyektivləşir. Bununla belə əxlaq siyasətin mahiyyətini və bütün fenomenlərini əhatə edir. Əxlaqa xas olan bu xüsusiyyət onu siyasi etikadan xeyli fərqləndirir. Əxlaq bu və ya başqa formada siyasi fəaliyyəti səciyyələndirsə də özü həmin fəaliyyətdən kənarda dayanır, onunla yalnız müəyyən münasibətdə olur. Etika isə əksinə, siyasətdə iştirak edir, onu istiqamətləndirən başlanğıc hadisələrdən biri kimi səciyyələnir və buna görə etika siyasətdən ayrılmazdır.

Siyasi sferaya aid olan hər hansı siyasi fəlsəfə və normativ nəzəriyyə bu və ya başqa formada siyasi etikanın və əxlaq haqqında tə'limin qoyduğu suallara cavab axtarmaqla əlaqədardır. Siyasi etikanın başlıca problemlərinin tədqiqinə hələ qədim Yunanıstanda **Antiqon Sofokl** tərəfindən xüsusi diqqət yetirilmişdir.

İctimai fenomen olmaq e'tibarilə əxlaq və siyasət həm ümumi, həm də fərqli cəhətlərə malikdir. İctimai həyatın bu iki sferası eyni mənbədən təşəkkül tapır. Başqa sözlə, insana xas olan fərdiyyətçilik, xüsusi keyfiyyətlər və eləcə də onun kollektivçilik təbiəti, başqaları ilə qarşılıqlı münasibəti əxlaqla siyasətin vəhdətini şərtləndirir.

Əxlaq insanı təhlükəli hallardan qoruyur, fərdlə cəmiyyət arasındakı ziddiyyətlərin həlinə imkan yaradır. Bəşər sivilisaziyasının başlanğıcında kiçik insan kollektivləri (tayfa, qəbilə) müxtəlif adət-ən'ənələrin köməyilə adamlar arasındakı qarşılıqlı münasibətləri siyasətsiz də tənzimləyə bilərdi. Belə şəraitdə qeyri-siyasi tənzimləmənin üstünlük təşkil etməsi cəmiyyətdə sosial bərabərliyin mühüm amili idi. Tayfa, qəbilə mühitində sosial münaqişələrin aşağı səviyyədə olması da bundan irəli gəlirdi. İlk sosial birliklərin təşəkkül tapdığı vaxt adamların davranışının tənzimlənməsi təbii ki, lazımı səviyyədə ola bilməzdi. İstehsalın inkişafı və əmək bölgüsünün dərinləşməsi, sosial münaqişələrin kəskinləşməsi və eləcə də adamların qarşılıqlı fəaliyyət formalarının mürəkkəbləşməsi, sosial nəzarətin köhnə ən'ənəvi formalarının zəifləməsi nəticə e'tibarilə xüsusi tə'sisat və fəaliyyət növü kimi siyasətin yaranmasına gətirib çıxardı. Bu sosial fenomen xüsusi məcburetmə aparatının köməyilə adamların davranışını tənzimləyən spesifik vasitəyə çevrildi.

Göründüyü kimi, əxlaq və siyasətin başlıca ictimai funksiyaları bir-birinə uyğundur. Əxlaqla siyasətin təbii-tarixi "qohumluğu təsadüfi deyil. Siyasət və əxlaq cəmiyyətdə ümumi rifahın və sosial ədalətin qərarlaşmasına istiqamətlənən ictimai hadisədir. Siyasət əxlaqın adamların davranışını, qarşılıqlı münasibətlərini kifayət dərəcədə tənzimləyə bilməməsi nəticəsində yaranır. Siyasət əxlaqın spesifik formada tamamlanmasıdır.[1] Siyasətlə əxlaqın bir-birindən ayrılığını ilk dəfə XVəsrin sonu XVI əsrin əvvəlində Nikkolo Makiavelli əsaslandırmışdır.

Əxlaqla siyasətin ümumi cəhətlər kəsb etməsinə baxmayaraq bunlar bir-birindən prinsipial surətdə fərqlənir. Əxlaqla siyasəti fərqləndirən başlıca xüsusiyyət siyasətin

---

[1] В.П.Пугачев, А.И.Соловьев. Введение политологию. Səh.41.

münaqişəli təbiətə malik olmasıdır. Əxlaq isə insanlar arasında gündəlik fərdi münasibətlərlə səciyyələnir. Əxlaqın münaqişəli mahiyyət daşıması xüsusi hallarda nəzərə çarpır. Siyasətin bilavasitə mənbəyi kimi iqtisadi və digər zəruri mənafelər çıxış edir. Əxlaqın mənbəyi isə ümumbəşəri və kollektiv sərvətlərdir, digər dəyərlərdir.

Əxlaqi imperativlər mücərrəd-normativ xarakter daşıdığı halda, əxlaqi tələblər konkretlik kəsb edir. Siyasət müxtəlif vasitələrlə müəyyən məqsədlərin reallaşmasına istiqamətlənir. Əxlaq siyasətdən fərqli olaraq insanın hərəkətlərinin, davranışının subyektiv, daxili tərəfinin qiymətləndirilməsidir.[1] Siyasət üçün başlıca olaraq əldə olunan nəticələr əhəmiyyət daşıyırsa, əxlaqı davranışın özü, buna sövq edən vasitə və məqsədlər daha çox səciyyələndirir. Əxlaq həmişə fərdi mahiyyətə malik olmaqla onun subyektini məhz, ayrı-ayrı fərdəlr təşkil edir. Siyasət isə əksinə kollektiv xarakter daşıyır. Siyasəti fərqləndirən ən mühüm xüsusiyyət onun gücə arxalanmasıdır, məcburetməyə üstünlük verməsidir. **M.Veber** yazır: "Siyasət spesifik vasitənin-hakimiyyətin köməyilə zorakılıqdan istifadə etməsi ilə fərqlənir.[2] Əxlaq isə prinsip e'tibarilə zorakılığı pisləyir və başlıca olaraq vicdanın "hökmünə əsaslanır. Vicdan isə təkcə əxlaqi kateqoriya deyil, həm də sosial keyfiyyətdir.

Vicdanın mahiyyəti bunda ifadə olunur ki, insan öz davranışını ictimai borcun, əxlaqi idealın tələblərinə uyğunlaşdırır, özünü daxilən qiymətləndirməsi əsasında fəaliyyətini və hərəkətlərini tənzimləyir. Vicdan dərin intim hiss olub, şəxsiyyətin öz davranışı üçün başqaları və cəmiyyət qarşısında əxlaqi mə'suliyyətini, mə'nəvi ləyaqətini ifadə edir. Hər bir şəxs kollektivin, başqalarının və bütövlükdə xalqın taleyi üçün öz fəaliyətini, hərəkətlərini "vicdanının səsi ilə idarə etməyə ciddi tələbat duymalıdır. Müdrik adamlardan biri çox gözəl demişdir: "Mən şəxsi vicdanımın sakit səsindən dəhşətli məhkəmə tanımıram. Vicdan cəmiyyətin mə'nəvi həyatının ideallarının müəyyən cəhətlərini özündə ehtiva edir. Şübhəsiz, vicdan həm anadangəlmə keyfiyyətdir, həm də insanın biliyindən, düşüncə qabiliyyətindən

---

[1] Гаджиев К.С. и др. Философия власти. М.,1993. Səh.15-17.

[2] Вебер М. Избранные произведения (пер. с.нем), М.,1990.Səh.694.

və həyat tərzindən asılıdır. Siyasi elmə dair ədəbiyyatda siyasi və etik tə'limlər tarixinə əsaslanaraq əxlaqla siyasətin qarşılıqlı münasibətlərinin üç başlıca cəhəti araşdırılır: 1) Əxlaqın siyasətə tam tabe olması; 2) Siyasətlə əxlaq arasında tam ayrılığın mövcudluğu; 3) Siyasətlə əxlaqın gərgin qarşılıqlı əlaqələrinin saxlanmasına cəhd etmək.[1] Mülahizə və hərəkətlərin ədalətli olması ən'ənəvi olaraq əxlaqiliyin ən mühüm me'yarlarından biri kimi e'tiraf olunur. Bu prinsip təkcə siyasi və etik tə'limlərdə deyil, həm də dini görüşlərdə öz ifadəsini tapır. Məsələn, orta əsrlərdəki ədalətə **xristianlıq fəlsəfəsi** siyasətin əxlaqiliyinin əsası və me'yarı kimi baxır. Şübhəsiz, **islam dini** də əxlaqla siyasətin qarşılıqlı münasibətinə bu nəcib prinsip mövqeyindən yanaşır.

Siyasi fikir tarixində bir-biri ilə sıx bağlı olan "ədalət və "bərabərlik kateqoriyalarının məzmununa mühüm diqqət yetirilmişdir. Məsələn, **Aristotel** bölüşdürücü və bərabərləşdirici ədalətin mövcudluğunu iddia edir. Onun fikrincə, bölüşdürücü ədalət həndəsi və ya proporsional bərabərliyə, bərabərləşdirici ədalət isə ədəd, hesab bərabərliyinə əsaslanır. Ədalətin məzmununu təşkil edən bu hər iki ünsür bir-biri ilə münaqişəyə girməyə qadirdir. Siyasət sferasında münaqişənin artması ədalətin həqiqətən və həm də formal cəhətdən müəyyənləşdirilməsi ilə şərtlənir. Ədalət haqqında həqiqi, dolğun təsəvvürlər tarixi dəyişikliyə uğramışdır. Belə bir sual ortaya çıxır: əgər ədalət siyasi fəaliyyətin və siyasi vəziyyətin miqyası kimi çıxış edirsə, onda ədalətin miqyası nədən ibarət olmalıdır.

Antik Avropa təfəkkür tərzi əxlaq və siyasət arasındakı qarşılıqlı münasibətin yuxarıda qeyd etdiyimiz üçüncü cəhətinə— onların arasındakı gərgin vəziyyətin tədqiqinə əhəmiyyətli dərəcədə diqqət yetirmişdir. Maraqlıdır ki, Aristotel yaxşı adamla yaxşı vətəndaş arasındakı fərqlərin müəyyənləşdirilməsinə sə'y göstərir. Aristoteldən sonrakı mütəfəkkirlər də əxlaq aləmi ilə siyasət sferasının bir-birinə uyğun gəlmədiyini qeyd edirlər. Orta əsrlərin siyasi fikrində isə belə bir cəhət vurğulanır ki, əxlaqla siyasət qarşılıqlı tabelik kəsb edir. Bu fikri daha çox **Avqustin** və **M.Lüter** əsaslandırmağa cəhd göstərirlər.

---

[1] Политология: Энциклопедический словарь. Səh.185

Yeni dövrün başlanğıcında siyasət və əxlaq arasındakı qarşılıqlı münasibətlərdə müəyyən uyğunsuzluq meydana çıxır. Bu ayrılığı dövlət mənafeyi anlayışı ilə əlaqələndirirlər. Siyasətlə əxlaq arasındakı uyğunsuzluğun üzə çıxarılması Makiavellinin adı ilə bağlansa da o, dövlət mənafeyi anlayışını işlətməmişdir. Axı, dövlət mənafeyi ümumi anlayış olmaqla çox şeyi əhatə edir. Əksinə, bütün xüsusi mənafelər **partikulyar mənafeyə** aiddir.

Alman idealist fəlsəfəsi dövlət mənfəəti ehtimalından (və ya ideyasından) çıxış edərək dövləti mə'nəviyyat şəklində hipozlaşdırır. **Hegel** Hüquq fəlsəfəsi əsərində yazır ki, "yaxın vaxtlaradək əxlaqla siyasətin bir-birinə əks olması barədə ciddi müzakirələr diqqəti cəlb etmiş və belə fikir formalaşmışdır ki, siyasət əxlaqa uyğun gəlməlidir. Siyasətin həmişə əxlaqla bir yerdə olmasına dair bu xəyalpərəst rə'y əxlaqilik haqqında, dövlət haqqında və onun əxlaqi görüşlərə münasibəti barədə təsəvvürlərə üstünlük verilməsidir. Ümumiyyətlə, əxlaqla siyasətin qarşılıqlı tə'sirinə və münasibətlərinə dair bir-birinə zidd və ya uyğun gələn müxtəlif mülahizələrə bu gün də təsadüf olunur. Politoloji ədəbiyyatda öz əksini tapan belə səciyyəli fikirlər siyasi fikir tarixinin daha da zənginləşməsinə xidmət edir. Bu baxımdan müasir siyasi elm M.Veberə daha çox minnətdar olmalıdır. Maraqlıdır ki, o, siyasətdə zorakılığın tətbiqinin legitimləşdirilməsini (qeyri-əxlaqiliyi) suveren dövlətlərin hüquqi fəaliyyəti kimi araşdırır.

Qeyd etmək lazımdır ki, bir-birinə münasibətdə əxlaq və siyasət muxtar xarakter daşıyır. İnsana əxlaqi tələbkarlıq müəyyən situasiyada heç bir xüsusi və yaxın nəticələrin əldə olunmasını nəzərdə tutmur. Əxlaqi tələbkarlıq hər şeydən əvvəl, davranışın ümumi normalarına və prinsiplərinə əməl edilməsini səciyyələndirir. Təsadüfi şəraitdən asılı olaraq ayrı-ayrı hallarda davranışın praktiki nəticələri müxtəlif ola bilər. Ümumsosial miqyasda əxlaqi normaların bütün məcmuunun yerinə yetirilməsi bu və ya digər ictimai tələbata cavab verir. Buna görə əxlaqi normaların ifadə formaları xarici məqsədəuyğunluq prinsipi deyil (müəyyən nəticələrin əldə olunmasına istiqamətlənmir), məhz, elə imperativ tələbatdır ki, insan özünün ən müxtəlif məqsədlərini həyata keçirərkən buna riayət etməlidir. Əxlaqi normalar insanın və

cəmiyyətin tələbatını müəyyən xüsusi şərait və situasiya hüdudunda əks etdirmir. Bununla belə əxlaqi qiymətləndirmə situasiyalı me'yardır. Siyasət adamların birgə həyatını və fəaliyyətini təşkil edir, cəmiyyətin həyatını tənzimləyir və ona nəzarət edir. Əxlaq da belə funksiyalara malikdir, lakin o, həm də siyasətə nəzarət edir. Etikadan fərqli olaraq əxlaq siyasətdən kənarda və onun üzərində dayanır. Məhz, buna görə onların birləşməsi bir o qədər mürəkkəb və qeyri-sabit olur.

Siyasət əxlaqa nəzarət etməsə də konkret siyasi hərəkətlərin spesifik əxlaqına tə'sir göstərə bilər. O, ideal əxlaqi şüurdan fərqli olaraq konkret situasiya xarakteri daşıyır, bu və ya digər ictimai, siyasi, eləcə də etik və əxlaqi şərait yaradır. Əxlaq yüksək me'yar baxımdan mütləq norma kimi qiymətləndirilir. Nisbi situasiyalı me'yar və ya ayrıca mədəniyyət, cəmiyyət nöqteyi-nəzərdən siyasətin əxlaqi cəhətdən qiymətləndirilməsi bu qiymətləndirməni hər cür digər qiymətləndirmə ilə müqayisəedilməz səviyyəyə qaldırır. Siyasətdə və əxlaqda "yaxşı-pis anlayışları müxtəlif mə'na daşıyır.

Əxlaqi borcun normaları və siyasətdə borc haqqında təsəvvürlərin özü də birmənalı və ziddiyyətsiz deyildir. **Əxlaq sferasında borc yüksək prinsip, mə'nəviyyatın me'yarı hesab olunursa, siyasətdə borc arzu edilən nəticələrin əldə olunmasıdır.** Buradan **Makiavellinin** belə bir dilemması meydana çıxır: hər hansı siyasi məqsədlərin əldə edilməsi ilə siyasi borcun həyata keçirilməsi vasitələrinin və ya siyasi nəticələrin əxlaqi borc kimi qiymətləndirilməsinin nisbəti necə olmalıdır? Başqa sözlə, belə düşünməyə əsas var ki, həmin nəticələr qeyri-əxlaqi metodlarla əldə oluna bilər. Elə Makiavellinin öz fikrini xatırlatmaq yerinə düşər: xalq demokratiya şəraitində yaşamağa qabil deyildir, **intizamlı cəmiyyət yaratmaq və siyasi vəzifələri həll etmək məqsədilə güclü hakimiyyət lazımdır.** Əgər siyasi borc əxlaqi normalara uyğun gəlməklə məhdudlaşırsa siyasətin həyata keçirilməsi siyasi nəticələr doğurmur, başqa sözlə, siyasi borc həyata keçirilmir, istər-istəməz siyasət üçün eyni vaxtda iki borc mövcud olur. Bunlardan birinin icrası zamanı siyasət alınmır, digərinin icra edildiyi vaxt isə əxlaqa yer qalmır. Eyni vaxtda hər iki borca əməl etmək isə mümkün deyildir. Onlardan yalnız birini

seçmək lazımdır. Təbii ki, siyasətçi ilk növbədə siyasətə üstünlük verir. Belə halda onun icra etdiyi siyasi borc özlüyündə əxlaqi mahiyyət kəsb edir və etik cəhətdən əsaslandırılmış olur.

Siyasəti belə bir nəticə çıxarılmasına istiqamətləndirməmək üçün əxlaqla siyasətin münasibətləri çərçivəsindən kənara çıxmaq lazımdır. Başqa sözlə, bu münasibətlərə qeyri-siyasi və qeyri-əxlaqi amillərin nüfuz etməsi, əxlaqla siyasət arasındakı qarşılıqlı münasibətlərdə ziddiyyətlərin azadılması daha məqsədəuyğundur. Əxlaq və siyasət muxtar xarakter daşısa da əxlaq siyasəti, nəzarətsiz siyasi fəaliyyət azadlığını məhdudlaşdırır.

## 2. ƏXLAQ VƏ SİYASƏTİN QARŞILIQLI MÜNASİBƏTİ

Siyasi fikir tarixində siyasəti cəmiyyətin digər təşkilati və tənzimləyici sistemlərindən təcrid etmək cəhdləri həmişə səmərəsiz olmuşdur. Siyasət ideologiya, hüquq, iqtisadiyyat, mədəniyyət və elmlə bağlı olduğu kimi, əxlaqla da qarşılıqlı əlaqəyə malik olmalıdır. Cəmiyyətin iki başlıca sferası olmaq e'tibarilə siyasətlə əxlaqın qarşılıqlı münasibətləri ictimai inkişafın obyektiv tələbatıdır. Siyasətin və hakimiyyətin zəif yeri mə'nəviyyat olduğuna görə onlar əxlaqdan və əxlaqi sərvətlərdən uzaqlaşmağa cəhd edir.

Sosial həyatda siyasətlə əxlaqın qarşılıqlı münasibəti elmi ədəbiyyatda dörd başlıca mövqedən qiymətləndirilir. Bunlardan birincisi **nəsihətçilik** mövqeyidir. Nəsihətçilik mövqeyinə görə siyasət nəinki yüksək əxlaqi məqsədlərə malik olmalıdır, həm də düzlük, adamlara nəcib münasibət, saflıq və digər bu kimi əxlaqi prinsiplərin pozulmasına yol verməməlidir. Siyasətə nəsihətçi (əxlaqi) mövqedən yanaşma ictimai fikirdə yeni dövrə qədər hakim olmuş və XX əsrə qədər öz əhəmiyyətini itirməmişdir. Lakin həyat təsdiqləyir ki, siyasəti təmamilə əxlaqa tabe etdirmək cəhdləri səmərəsiz nəticələr verir, həm əxlaqı və həm də siyasəti nüfuzdan salır.

Siyasətlə əxlaqın qarşılıqlı münasibətinə dair ikinci mövqe isə onların muxtar xarakter daşıdığını ifadə etməklə bir-birinin

səlahiyyətinə qarışmamasını nəzərdə tutur. Belə ki, əxlaq vətəndaş cəmiyyətinə aid olan işdir, şəxsi mə'suliyyətdir, siyasət isə qrup mənafelərinin qarşıdurma sahəsidir, mə'nəviyyatdan azad olan sferadır. Çoxları belə hesab edir ki, siyasətlə əxlaqın bu cür münasibətinə dair ideya Makiavelliyə məxsusdur. O, **əxlaqı siyasətçilərin xüsusi həyatının tənzimləyicisi kimi əsaslandırır.** Əlbəttə, Makiavellinin siyasəti əxlaqdan tamamilə ayırmağa cəhd göstərməsi barədə mülahizələrlə razılaşmaq çətindir.

Əxlaqi dəyərlərin siyasiliyini təhrif etmək siyasətin qeyri-əxlaqiliyinə dəlalət edir. Real həyatda siyasətin mə'nəviyyadan uzaq olması geniş yayılan hadisədir. Belə hal siyasətlə əxlaqın **barışmaz əksliklər** olmasını, başqa sözlə, əxlaqın xeyir, siyasətin isə şər kimi səciyyələndirilməsini əsaslandırmağa xidmət edir. Bu üçüncü nöqteyi-nəzər onların nisbətinə istiqamətlənir.

Anarxizmə görə siyasət ən neqativ hadisədir. Çünki onun təbiəti şərlə köklənir. Rus anarxizminin atası sayılan **M.A.Bakunin** yazırdı ki, siyasət və onun başlıca daşıyıcısı olan dövlət məhz, zorakılıqdır, zorakılıq vasitəsilə hökmranlıqdır.[1]

Siyasətlə əxlaqın münasibətinə dair dördüncü mövqe onların nisbətinə **kompromis** nöqteyi-nəzərdən yanaşılmasıdır. Müasir politoloqlar arasında bu mövqe daha geniş yayılmışdır. Həmin mövqe siyasətin spesifikliyini nəzərə almaqla əxlaqın mə'nəviyyata tə'sirinin zəruriliyindən çıxış edir.

Siyasət və əxlaqın nisbətinə **kompromis** mövqedən yanaşılmasını əsaslandıranlardan biri Veberdir. O, belə hesab edir ki, etika ilə siyasəti bir-birindən tamamilə ayırmağa cəhd etmək məqsədəuyğun deyildir, bununla belə siyasətin xüsusiyyətlərini diqqətlə nəzərə almaq lazımdır. Onun fikrincə etika siyasətin xüsusiyyətlərini, ilk növbədə onun zorakılıq tətbiq etmək cəhətini nəzərə almalıdır. "Məhz, zorakılığın legitimliyinin spesifik vasitəsi siyasətin bütün etik problemlərinin xüsusiyyətlərini şərtləndirir. Siyasət peşəkar fəaliyyəti ilə şərə qarşı mübarizə aparmasa öz qələbəsi üçün mə'suliyyət daşıyır. Veber hər şeydən əvvəl, zorakılıq vasitələrindən legitimcəsinə istifadə olunmasını siyasət üçün məqbul hesab edir, özü də mə'nəviyyatın siyasətə tə'sir

[1] Бакунин М.А. Государственность и анархия. Полн. соб. соч.т.2, 1907, Səh.27

imkanlarını məhdudlaşdırmaq şərtilə. Siyasətlə əxlaqın nisbətində siyasətə neqativ münasibət liberal mütəfəkkirlərin baxışlarında da diqqəti cəlb edir. Məşhur rus filosofu **N.Berdyayev** yazır: "Mən siyasətə nifrət edirəm, çünki o, bəşəri mövcudluğun obyektivləşməsi üçün ən mənhus formadır, adamlara hakim olan uydurmadan başqa bir şey deyildir.[1] Siyasətin əxlaqi tərəfi hüquqdan və ictimai nəzarətdən kənarda qalmamaladır. Əks təqdirdə siyasətdə mə'nəviyyatsızlıq qərarlaşa bilər. Əxlaqi tələblərin tə'sisatlaş-dırılması onların siyasi təşkilatların normalarında və hər şeydən əvvəl, hüquqda möhkəmləndirilməsini nəzərdə tutur və əxlaqi prinsiplərin pozulmaması üçün müəyyən tə'minat verilməsini əks etdirir. Əxlaqın belə tə'sisatlaşdırılmış formada möhkəmləndirilməsi siyasətin humanistləşdirilməsinin ən mühüm şərtlərindən biridir.

"Alman politoloqu **B.Sutorun** qeyd etdiyi kimi, siyasətin humanistləşdirilməsi və mə'nəviyyatın möhkəmləndirilməsi üçün o quruluş yaxşı deyildir ki, öz vətəndaşlarının daha yüksək və ya hətta ən yüksək əxlaqi tələblərə yiyələnməsini məqsədəuyğun sayır, o quruluş yaxşıdır ki, hər şeydən əvvəl, insan xarakterinə cavab verir... və eyni zamanda adamların hüquq və iradəsi üçün maksimum imkanlar açır, onların xeyirxahlıq qabiliyyəti naminə özünü inkişaf etdirməsini həyata keçirir.[2]

Siyasi tə'sisatlar öz səmərəliyi üçün müqəddəs, əxlaqi cəhətdən kamil adamlara deyil, məhz, adi vətəndaşlara üz çevirməlidir. Həmin tə'sisatlar adi adamların mənafelərinin ifadə olunmasına, hüquqlarının müdafiə olunmasına və vəzifələrinin yerinə yetirilməsinə imkan yaratmalıdır, onları hamı üçün məqbul olan "oyun qaydalarının, dövlət qanunlarının gözlənilməsinə təhrik etməlidir.

Müasir dünyada əxlaqi tələblərin siyasətə tə'sisatlaşdırılmış başlıca istiqaməti insan hüquqlarıdır. Dünya birliyi tərəfindən qəbul olunmuş sənədlərə uyğun olaraq insan hüquqları siyasətin humanistliyini qiymətləndirməyin universal me'yarı kimi çıxış edir.

Bütövlükdə əxlaqın siyasətə tə'siri bir sıra istiqamətlərdə həyata keçirilməlidir və keçirilə bilər. Bu istaqamətlər əxlaqi məqsədlərin qoyuluşunda bunlara uyğun olan real metodlar və

---

[1] Бердяев Н.А. Самопознание. м.,1996 Səh.101.

[2] Сутор Б. Политическая этика. Полис. 19936 №1.Səh.68.

vasitələr şəraətinin seçilməsindən, əxlaqi prinsiplərin fəaliyyəti prosesini nəzərə almaqdan, siyasətin səmərəliliyini tə'min etməkdən ibarətdir. Əlbəttə, bütün bu tələblərin real siyasətdə yerinə yetirilməsi mürəkkəb məsələdir. Praktikada əxlaqi tələblərin humanistliyi məqsədlərin təntənəsindən çox, onlara nail olmaq prosesində istifadə olunan metod və vasitələrdən asılıdır. Bir sözlə, siyasətin əxlaqiliyi onun müqəddəsliyinin təcəssümüdür.

Siyasi fəaliyyətin strukturu hər şeydən əvvəl, bununla səciyyələnir ki, onun daşıyıcıları siyasi mə'nəviyatına görə fərqlənir. Məsələn, qrup əxlaqı və qrupda əxlaqi münasibətlər fərdin əxlaqından mürəkkəbdir. Buna görə əxlaqi cəhətdən qüsursus fərd ola bilsin ki, istər-istəməz qrupun qeyri-əxlaqi siyasətində iştirak etsin. Başqa sözlə, belə fərd siyasi tə'sisatın, partiya təşkilatının, hakimiyyət orqanının, ordunun və sairənin fəaliyyətinə cəlb oluna bilər. Buradan da ikiqat əxlaqın-qrup və fərdi əxlaqın toqquşması meydana çıxır. Bir-birinə zidd iki əxlaqi mənafeyin toqquşması xüsusilə ictimai böhran dövründə baş verir. Əksinə də ola bilər. Əxlaqi cəhətdən naqis fərd əxlaqi baxımdan qüsurlu olan qrupa nəzarət etməyə qadirdir və ya axırıncının əxlaqi şöhrətini kölgədə qoya bilər. Fərdin əxlaqı siyasətlə həmişə rəqabətdə olmur. Qrupda və qruplararası münasibətlər artıq siyasətdir, deməli, həm də əxlaqidir. Buna görə siyasi və əxlaqi paradoks[1] meydana çıxır: qüsurlu liderin və rejimin kütləvi şəkildə müdafiə olunması, kütlələrin heç də qüsurlu olmayan, bə'zən isə sadəcə olaraq cinayətkar təşkilatların işində iştirak etməsi və s. bu qəbildəndir.

Müxtəlif siyasi funksiyaları səciyyələndirən əxlaq da mövcuddur. Siyasətin və hakimiyyətin əxlaqi məs'uliyyəti bu qəbildəndir. Belə ki, əxlaqi hakimiyyət qeyri-əxlaqi siyasət yeritməyə məcbur ola bilər və əksinə, əxlaqi cəhətdən qüsurlu hakimiyyət tarixi zərurət üzündən əxlaqi siyasət həyata keçirə bilər. Lakin bir qayda olaraq belə siyasətin təntənəsi mümkün olmur.

Şəxsiyyət və siyasətin qarşılıqlı münasibətini, əxlaqla siyasətin əlaqəsini başa düşmək baxımdan əxlaqi ideal barədə konkret təsəvvürə malik olmaq məqsədəuyğundur. Şəxsiyyətin mə'nəvi inkişafını əxlaqi idealsız təsəvvür etmək çətindir. **Əxlaqi**

---

[1] Paradoks dedikdə hamı tərəfindən qəbul edilmiş doğru fikirlərlə, elmi müddəalarla düz gəlməyən fikir başa düşülür.

**ideal** şəxsiyyətin həyati təsəvvürlərinin, görüşlərinin, həyatı qiymətləndirmə qabiliyyətinin birliyidir. İdeal həmişə insanın həyat planları və məqsədləri ilə daxili bağlılıq kəsb edir.

Əxlaqi ideal xüsusi, təkrarolunmaz keyfiyyətdir, həmişə fəal xarakter daşıyır. O, nəinki şərə, çirkin siyasətə qarşı barışmazlığı, həm də xeyirxah əməllərin, əxlaqi, humanist siyasətin həyata keçirilməsini, ədalətsizliklə fəal mübarizə aparılmasını, yüksək vətəndaşlıq davranışını tələb edir. Bu mə'nada əxlaqi ideal insanın mə'nəvi-siyasi inkişafını "layihələşdirən amil kimi tə'sir bağışlayır. İdealın ictimai əhəmiyyəti bundadır ki, o, şəxsiyyətin mə'nəvi simasının, siyasi təfəkkürünün formalaşmasında və əxlaqca yeniləşməsində fəal sövqedici rol oynayır.

Əxlaqi idealın həyata keçirilməsi obyektiv və subyektiv şəraitlə bağlıdır. Xarici mühit idealın reallaşması üçün obyektiv zəmin yaradır. İdealın həyata keçirilməsi üçün hər bir fərdin psixoloji hazırlığı və fəal sə'yi də çox mühüm əhəmiyyətə malikdir. Deməli, ideallarn həyata keçirilməsində mə'nəvi tərbiyənin, o cümlədən özünütərbiyənin rolu aydın nəzərə çarpır. Əxlaqi keyfiyyətlərlə siyasi qabiliyyəti özündə birləşdirən şəxsiyyətin formalaşmasının subyektiv cəhətini məhz, mə'nəvi tərbiyə təşkil edir.

Mə'nəvi tərbiyə özünütərbiyəni inkar etmir. Şəxsiyyətin əxlaqi-siyasi simasının təşəkkülü və inkişafı nəinki tərbiyənin sosial şəraitindən, həm də onun özündən asılıdır. Tərbiyə əxlaqi ideallara və ictimai məqsədlərə uyğun olaraq insana özünütəkmilləşdirmə sə'yi aşılamalıdır. Bu bir həqiqətdir ki, adamların böyük əksəriyyəti öz əxlaqi və siyasi davranışına qabaqcadan və hərtərəfli düşünülmüş sağlam məqsədlərə uyğun şəkildə nəzarət edə bilər. Lakin hərtərəfli düşünülmüş davranış heç də həmişə insanın rəftarının və əməllərinin əxlaq normalarına uyğunluğuna tə'minat vermir. Fərdi təfəkkürün inkişaf istiqaməti şəxsiyyətin əxlaqi mövqeyinin çıxış nöqtəsindən asılıdır. Şübhəsiz, sağlam əxlaqi mövqeyin formalaşmasında təfəkkür mədəniyyəti, intellektual inkişaf səviyyəsi və yüksək sosial hisslər fəal rol oynayır. Başqalarına, dövlətə və bütövlükdə cəmiyyətə münasibətdə ali hisslərlə silahlanmaq böyük fəzilətdir. Aristotelin sözlərilə desək, "ən yaxşı adam o şəxs deyil ki, yalnız özünə hörmətlə yanaşır, eyni

zamanda o adamdır ki, başqalarına münasibətdə də ləyaqətli mövqe tutur., bu isə çətin işdir. Hər hansı siyasi sistemin həyat qabiliyyəti xeyli dərəcədə onunla müəyyən olunur ki, dövlət tə'sisatları və bütün siyasi sistem bütövlükdə cəmiyyətdə hakim olan əxlaqi ideala və dəyərlərə nə dərəcədə uyğun gəlir. Şübhəsiz, siyasi sistem və əxlaq, mə'nəviyyat sistemi bir-birini qarşılıqlı surətdə şərtləndirir, onlara nüfuz edən proseslərin məzmununa və xarakterinə mühüm tə'sir göstərir.

Əxlaq sferası özündə nəinki adamlar arasındakı əxlaqi münasibətləri, onların davranışını, eləcə də insanın hərəkətlərinin motivlərini izah edən əxlaqi şüuru əks etdirir. Bundan əlavə, cəmiyyətdə əxlaq və mə'nəviyyat haqqında xüsusi elm olan etika mövcuddur.

Hər bir tarixi mərhələdə cəmiyyətdə müəyyən əxlaqi dəyərlər sistemi mövcud olur. İnsanların hərəkətləri və davranışı həmin dəyərlər sistemi mövqeyindən qiymətləndirilir. Konkret əxlaqi normalar, ən'ənələr və sair ilə tənzimlənən (adamlar arasında) və müvafiq olaraq adamların və sosial qrupların davranış qaydalarını formalaşdıran əxlaqi amillər məcmuu fəlsəfi nəzəriyyələrdə öz təcəssümünü tapır. Bu nəzəriyyələrdə həmişə belə bir məsələyə toxunulur: xeyir və şər nə deməkdir, yaxşı və pis nədir, düzgün olmayan necə başa düşülməlidir. Buna görə əxlaqi normaları dini, hüquqi və siyasi normalardan fərqləndirmək mühüm əhəmiyyətə malikdir. Eyni zamanda qeyd etmək lazımdır ki, əxlaqi normalar bu və ya başqa cür ictimai həyatın bütün digər tərəflərinə nüfuz edir.

Etika elm olmaq e'tibarilə özündə ləyaqət, vicdan, borc şüuru, davranış qaydalarını və sair haqqında tə'limi əks etdirir. İnsanların hərkətləri həmin keyfiyyətlərə uyğun gəlməlidir. Bu mə'nada etika insanların davranış qanunları və normaları haqqında elm olub "yüksək səadət, "xeyir, "haqq kimi kateqoriyalara əsaslanır. Buna görə etika idealın ən başlıca ünsürünü özündə ehtiva etməklə son məqsədlər haqqında tə'limdir. Həyat fəaliyyətinin hər bir sferasında bütün zamanlarda insanların hərəkətləri əxlaq kateqoriyasında qiymətləndirilmişdir. Təbii ki, biz siyasətə də tam hüquqla əxlaqi ölçü ilə yanaşa bilərik. Siyasət aləminə və onun tə'sisatlarına aid olan əxlaqi dəyərlər və

normaların, cəmiyyət üzvlərinin bu sferada münasibətləri və davranışının məcmuu elmi biliklərin xüsusi sahəsinin - **siyasi etikanın** tədqiqat obyektini təşkil edir.

Siyasi etika ədalətli sosal quruluş, rəhbərlərin və vətəndaşların qarşılıqlı hüquq və vəzifələri, insanın və vətəndaşın köklü hüququ, azadlıqların sağlam nisbəti, bərabərlik və ədalət, eləcə də bu kimi digər problemlərə toxunur.

Siyasi etika haqqında danışarkən ümumiyyətlə, etikanın kateqoriyalarının və əxlaqi dəyərlərin (sərvətlərin) siyasət sferasına tətbiqi düzgündürmü. Bu məsələ siyasi fikir tarixində çoxdan mövcuddur və ona dair birmə'nalı cavaba təsadüf olunmur. İlk başlanğıcda siyasi hadisə və proseslər bütün ictimai hadisələr kompleksi ilə əlaqədar öyrənilmişdir. Siyasətin başlıca məqsədini polisin (dövlətin) vətəndaşının "yüksək səadətinin, xoşbəxtliyinin tə'min olunmasında görənlər bunun həm də əxlaqi tərbiyəvi əhəmiyyətini də nəzərdən qaçırmamışlar. **Aristotel** xüsusi tərzdə qeyd edirdi ki, "dövlətin xoşbəxtliyi onun ədalətli olmasıdır, başqa sözlə, ümuminin mənafeyinə xidmət etməsidir.[1]

Platon və Aristoteldən başlanan antik ən'ənə əxlaqla siyasəti vəhdətdə nəzərdən keçirir və bu vəhdəti bütövlükdə ədalətin əldə olunmasına istinamətlənən hadisə kimi qiymətləndirir. Xristianlıq ən'ənəsi "əxlaq və "siyasətanlayışlarını roma papasında və imperatorunda təcəssüm olunan keyfiyyət kimi səciyyələndirir. **Ali və müdrik islam dini** həmin anlayışları ilahi varlıqdan irəli gələn nem'ət kimi qiymətləndirir. Heç də təsadüfi deyil ki, **dünya şöhrətli alim olan Mirzə Kazım Bəyin** tələbəsi olan böyük söz karifeyi **L.N.Tolstoy** islam dinini bütün dinlər içərisində ən mütərəqqi din hesab edirdi.

Əxlaqla siyasətin qarşılıqlı əlaqəsi probleminin öyrənilməsinə dair səmərəli tədqiqatların ortaya çıxmasında İ.Kantın **ümumi əxlaqi qanunlar - qət'i imperativlər**[2] tə'limi xüsusi rol oynadı. Ümumi əxlaqi qanunlara görə insan mənşəyindən, sosial vəziyyətindən, hətta şəraitdən asılı olmayaraq mütləq ümumbəşəri qaydalara əməl etməlidir. Bu qanundan belə

---

[1] Аристотель. Политика. Соч., т.4. Səh. 508

[2] İmperativ məvhumu idealist fəlsəfədə qeyd-şərtsiz tələb mə'nasında başa düşülür

bir mühüm nəticə hasil olur ki, hər bir adam **vasitəyə yox, məqsədə** necə yanaşır. Ümumi əxlaqi qanunların tələbləri sonralar siyasi-hüquqi sferada da yayıldı.

Digər alman filosofu **A.Şopenhauer** (1788-1860-cı illər) əxlaqın "qızıl qaydalarına əsaslanaraq "özünə etmək istəmədiyini başqasına da rəva görmə, çünki bunu sənə başqası da edə bilər qənaətinə gəlməklə əxlaq qaydalarının çərçivəsini əhəmiyyətli dərəcədə genişləndirdi və əslində yeni əxlaqi qayda təklif etdi: "Heç kimə pislik etmə, hamıya bacardığın qədər kömək et. Bu sadə kəlam insanın öz xüsusi hüquqları ilə başqa vətəndaşların hüquqlarının eyniliyini, bərabərliyini qəbul etməsini səciyyələndirir. Beləliklə, siyasətçilərin, alimlərin və ideoloqların şüurunda tədricən siyasətlə əxlaq arasındakı qırılmaz əlaqəyə inam hakim oldu.

Şübhəsiz, bu gün şəxsi, eqoist mənafeyin gözlənilməsilə yanaşı başqa adamların rifahı, səadəti haqqında qayğı göstərilməsi də ümumi tələbata çevrilir. Düzdür, siyasətdə bu mürəkkəb məsələdir, lakin bununla belə hər hansı tərəfin, yə'ni siyasətlə əxlaqın bir-birinə həddən artıq xələl yetirməsinə yol vermək olmaz. Başqa sözlə, siyasi peşəkarlıq əxlaqa zidd və əksinə əxlaqi başlanğıc hüququn ziyanına istiqamətlənməməlidir. Unutmaq olmaz ki, hər bir siyasi fəaliyyət hakimiyyətlə əxlaq arasında gərginlik yaratmaq meydanına çevrilərsə adamların xeyli hissəsinin taleyinə toxunmuş olar. Bu, "ya siyasət və ya əxlaq alternativi formasında əxlaqla siyasətin nisbəti məsələsinin düzgün qoyulmasını səciyyələndirir.

Əxlaqla siyasətin nisbəti probleminin **ikinci tərəfi** də mövcuddur. Məsələ ondadır ki, dövlət aparatının səmərəli fəaliyyəti üçün dəqiq işlənib hazırlanmış və həyata keçirilməsi zəruri olan qaydalar, siyasətdə ciddi peşəkarlıq və idarəetmə mexanizmi tələb olunur. Bu, inzibati idarəetmə aparatının siyasi icraedici hakimiyyəti sistemində mə'murların xüsusi təbəqəsi olan bürokratiyanın yaranmasına gətirib çıxarır. Bürokratiyanın fəaliyyəti yüksək peşəkarlıq səriştəsini və onun həyata keçirdiyi funksiyaların ixtisaslaşmasını həyati tələbata çevirir. Əlbəttə, adi mə'murun və siyasətçinin fəaliyyəti müxtəlif prinsip və normalara tabedir. Mə'mur ondan yüksəkdə dayanan müdiriyyətin, idarə başçısının əmr və göstərişlərini (hətta səhv olsa da) dəqiq və vicdanla yerinə

yetirməlidir. Təbii ki, mə'suliyyət hissi, əxlaqla möhkəmlənən şəxsi intizam olmadan hər hansı aparatın fəaliyyəti qeyri-mümkündür. Siyasətçi və ya dövlət xadimi isə özünün hər bir praktiki hərəkəti üçün şəxsi mə'suliyyət daşıyır. Bu isə yüksək səriştəliliklə yanaşı daha yüksək səviyyədə inkişaf etmiş əxlaqi şüuru, davranışın daim əxlaqi cəhətdən motivləşməsini, öz hərəkətlərinin humanist, ədalətli xarakterinə əxlaqi inamı tələb edir.

Beləliklə, siyasətin əxlaqi aspektinin inkişafı siyasətçiyə öz fəaliyyətində düzgün əxlaqi istiqamət seçməsinə, kobud səhvlərdən uzaqlaşmağa yardım göstərir. Nəhayət, əxlaqla siyasətin, daha dəqiq desək, əxlaqla hüququn nisbətində **üçüncü aspekt** təzahür edir. Tarixi inkişaf prosesi inandırır ki, (çoxsaylı misallarla) xeyir və ədalətin qərarlaşması zorakılıqla deyil, məhz, dinc və qanuni vasitələrlə həyata keçirilməlidir. İnsanların həyatında ən yüksək əxlaqi başlanğıc siyasi mahiyyət kəsb etdikdə belə, qurbanlarla əlaqədardırsa həmin siyasilik əxlaqiliyin təcəssümü kimi e'tiraf oluna bilməz. Hər cür, o cümlədən ən yüksək və nəcib məqsədlər adamların əzab-əziyyəti və bədbəxtliyi əsasında həyata keçməməlidir. Bu, mahiyyət e'tibarilə **siyasi məqsədlərə də aiddir.** Məsələn, XX əsrin 30-50-ci illəri keçmiş SSRİdə təbii ki, həm də Sovet Azərbaycanında industrial sənayenin əsaslarının yaradılması, elmi-texniki tərəqqiyə geniş yol açılması, elmin və mədəniyyətin inkişafı üçün zəmin hazırlanması və sair ilə tarixə daxil olmuşdur. Bununla yanaşı həmin dövr minlərlə günahsız və ləyaqətli adamlara qarşı kütləvi repressiya-ların tətbiq olunması ilə səciyyələnir. Bu, **siyasətdə əxlaqsızlığın təzahürü deyilmi?** Buna bənzər çoxsaylı misallar **tarixin yaddaşından** silinməyib. Rus alimi **N.A.Berdyayevin** sözləri ilə desək, həqiqət-düzgünlük həqiqət-ədalətlə birləşməlidir. **Ən yüksək əxlaqi dəyər məhz, xalqa, Vətənə məhəbbətdir.** Buna görə siyasətçilər, dövlət xadimləri öz fəaliyyətində daim həqiqət-düzgünlüklə həqiqət-ədaləti üzvi surətdə əlaqələndirməlidir. Böyük alman alimi İ.Kantın ümumi əxlaq qanunları da elə bunu tələb edir. Əlbəttə, unutmaq olmaz ki, hər bir siyasətçi ədalətlilik və səmərəlilik, azadlıq və bərabərlik arasında əbədi və mahiyyət e'tibarilə həll olunmaz ziddiyyətlərlə qarşılaşır.

Hər bir ictimai-siyasi sistem özünün yaşaması naminə sosial ədalətin elementar normalarını hüquqi yolla tə'min etməlidir. Bundan əlavə, ədalət hər hansı rejimin və ya sistemin qanuniliyini əsaslandırmağın təməl daşlarından biridir. Heç də təsadüfi deyil ki, ən tiran rejimlər də sosial ədalətə meylli olduğunu elan edir.

Əxlaqi-etik kateqoriya olmaq e'tibarilə **"ədalət"** müxtəlif şəraitdə və ayrı-ayrı dövrlərdə rəngarəng konkret-tarixi məzmun daşıyır. Məsələn, müharibələr və dağıdıcı təbii fəlakətlər dövründə cəmiyyətin bütün qüvvələri son dərəcə gərgin şəraitdə adamların sadəcə olaraq fiziki cəhətdən salamat qalması və maddi həyat ne'mətlərinin bərabər qaydada bölüşdürülməsi naminə ciddi sə'y göstərirlər. Bu hal təbii ki, ədalətli hesab olunur. Lakin ölkə təbiət quvvələrinin kədərləndirici şıltaqlığına və eləcə də sərt müharibələrə mə'ruz qalmadığı dinc dövrdə maddi ne'mətlərin bərabər bölüşdürülməməsi ədalətli sayıla bilməz və belə bölgü dəyişdirilməlidir.

Həqiqi ədalət bütün adamlara bərabər, eyni münasibət bəslənilməsini tələb edir, lakin belə münasibətin zorakılıqla həyata keçirilməsini arzuolunmaz sayır. Məcburi yolla bərabərləşdirmə adamlara qeyri-ədalətli münasibətdir. Bu prblemlə bilavasitə qarşılaşan amerikanın sosial filosofu **C.Rouls** ədalət nəzəriyyəsini işləyib hazırlamışdır. O, belə hesab edir ki, həqiqət elmin, ədalət isə ictimai tə'sisatların başlıca məziyyətdir. Bu tə'sisatlardan biri, eləcə də hər hansı qanun özünü ədalətsiz nümayiş etdirdikdə daha ədalətlisi ilə əvəz olunmalıdır. Ədalətsizlik o zaman dözümlü olr ki, ondan daha böyük ədalətsizliklə real üzləşmək təhlükəsi meydana çıxsın. Siyasətçilər öz fəaliyyətində bu cəhəti nəzərə almalıdırlar.

# VI FƏSİL

# SİYASƏT KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİ SİSTEMİNDƏ

## 1. KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN SİYASİ FUNKSİYALARI VƏ SİYASƏTDƏ ROLU

Siyasi ədəbiyyatda **kütləvi informasiya vasitələri** adətən "hakimiyyətin dördüncü qolu adlandırılır. Bu təsadüfi deyil, qanunauyğun haldır. Çünki kütləvi informasiya vasitələri hakimiyyət strukturları ilə bilavasitə bağlıdır və bunlar bir-birilə qarşılıqlı əlaqə kəsb edir. **KİV** siyasətin ayrılmaz tərkib hissəsidir. İctimai fəaliyyətin digər növləri ilə müqayisədə siyasət xüsusi mə'lumat mübadiləsi vasitələrinə daha çox ehtiyac duyur. Belə ki, iqtisadiyyat bazar tənzimləməsi zəminində adamların qarşılıqlı fəaliyyətinin bilavasitə formaları əsasında fəaliyyət göstərə bilir, siyasət isə ünsiyyətin dolayı (bilvasitə) formaları və hakimiyyətin daşıyıcıları arasında xüsusi əlaqə vasitələri olmadan mümkün deyildir. Bu hər şeydən əvvəl, siyasətin təbiəti ilə bağlıdır. Adamların ixtisaslaşdırılmış ünsiyyət formaları qrup məqsədlərinin və mənafelərinin reallaşdırılması baxımdan zəruridir. Vətəndaşların bilavasitə əlaqələləri həm də onlara müəyyən mə'lumatların verilməsi üçün xüsusi vasitələrdən istifadə olunmasını tələb edir. Belə vasitələr məhz, KİV-dir.

KİV müasir cəmiyyətin ən mühüm tə'sisatlarından biridir. "KİV anlayışının məzmunu özündə mə'nəvi və maddi ünsürləri təcəssüm etdirir. Həmin anlayışın mə'nəvi tərəfinə dövrü mətbuat (qəzet, jurnal, mə'lumat vərəqələri, bülletenlər, mə'lumat arayışları və s.), radio, televiziya, kino işləri, videoyazı və digər mə'lumat vasitələri daxildir. Son illər sputnik əlaqələrinin yayılması ilə əlaqədar olaraq kütləvi əlaqələndirmə sistemində mühüm dəyişikliklər baş vermişdir "KİV anlayışının maddi

tərəfini isə müxtəlif texniki avadanlıq, cihazlar, aparatlar, alətlər və sair təşkil edir. Bir sözlə, adamların şüurunda mə'nəvi dəyərlərin maddiləşməsini tə'min edən texniki avadanlıq və vasitələr sistemi KİV-nin məzmununda maddi, predmet mahiyyətli ünsür kimi səciyyələnir.

KİV cəmiyyətin bütün sferalarına və tə'sisatlarına eləcə də siyasətə, təhsilə, dinə və sairəyə mühüm tə'sir göstərir. KİV-nin köməyi ilə kütləvi mədəniyyət özünün bütün variantlarında formalaşır, yayılır və saxlanır. Kütləvi informasiya vasitələri ictimai şüurun təşəkkülü, fəaliyyəti və təkamülündə əhəmiyyətli rol oynayır. Hər bir ölkədə və dünyada baş verən ən mühüm xəbərlər və hadisələrin dərk olunması və şərhi məhz, KİV-nin köməyi ilə həyata keçirilir. Qəzet və ya jurnaldakı hər bir məqaləyə, televiziya və radio vasitəsilə verilən verilişə adamlarla birbaşa və ciddi söhbət kimi baxmaq lazımdır. Çünki cəmiyyətin hər bir vətəndaşı faktların, hadisələrin yalnız doğru-düzgün və operativ şərh edilməsini deyil, həm də dərindən təhlil olunmasını, ciddi ümumiləşdirilmələr aparılmasını istəyirlər. Bu cəhət öz aktuallığını xüsusilə, KİV-nin siyasət sferasına nüfuz etməsi və siyasi proseslərin reallaşmasının ən mühüm alətlərindən birinə çevrilməsilə təsdiqləyir. Müasir politologiyada KİV nəinki hakimiyyətin dördüncü qolu, (qanunverici, icraedici və məhkəmə hakimiyyəti ilə yanaşı), həm də böyük arbitr (hakim) kimi səciyyələndirilir. KİV-dən biri olmaqla radio və televiziyanın siyasi tə'sir gücü daha böyükdür. Televiziyanın siyasi həyata qüdrətli tə'sirini nəzərə alan bə'zi siyasi xadimlər qeyd edir ki, **televiziyaya nəzarət edən adam bütün ölkəyə nəzarət edir.**

Cəmiyyətin siyasi sisteminin kütləvi informasiya vasitələrinə tələbatı bilavasitə onun funksiyalarından, siyasətin agentlərindən (müvəkkillərindən), siyasi qərarların qəbul olunması üsullarından,dövlətin ərazisinin həcmindən və digər amillərdən asılıdır. Radio, televiziya və digər bu kimi mə'lumat vasitələrinin meydana çıxmasından əvvəl, siyasi tələbatın və vətəndaş tələbatının ödənilməsinə poçt əlaqələri (müxtəlif nəqliyyat növləri vasitəsilə) xidmət edirdi. XIX-XX əsrlərdə teleqraf və telefon əlaqələrinin, radio və televiziyanın yayılması ilə bağlı dövlətin kommunikativ tələbatı nəinki tə'min olundu və həmçinin,

siyasətin özündə əsl inqilab baş verdi. KİV xeyli demokratik və totalitar ideyaların həyata keçirilməsini praktiik cəhətdən reallaşdırdı.[1] KİV hakimiyyətin legitimliyinin və həyata keçirilməsinin üsullarını əhəmiyyətli dərəcədə dəyişdirdi. **O.Tofflerin** qeyd etdiyi kimi, müasir hakimiyyətin keyfiyyətinin və səmərəliliyinin yüksək olması rəqibi müttəfiqə çevirir.

Hazırda KİV biliklərin və siyasi cəhətdən mühüm mə'lumatların yayılmasının başlıca daşıyıcısıdır.

Kütləvi informasiya vasitələri bir sıra əhəmiyyətli funksiyalar həyata keçirir. Bu funksiyalar aşağıdakılırdır: vətəndaşların mə'lumatlandırılması, təhsil, sosiallaşma, nəzarət, inteqrasiya, səfərbəretmə.

**Vətəndaşların mə'lumatlandırılması funksiyasının** mahiyyəti dövlət orqanları üçün ən əhəmiyyətli mə'lumatların alınması və yayılmasında ifadə olunur. Siyasi mə'lumata elə xəbərlər aiddir ki, o ictimai əhəmiyyət daşıyır və dövlət orqanları tərəfindən diqqət yetirilməsini tələb edir. Əldə olunan informasiya əsasında vətəndaşlarda hökumətin, parlamentin, siyasi partiyaların, partiyalar sisteminin və ictimai təşkilatların fəaliyyəti barədə rə'y formalaşır. Digər tərəfdən isə ölkənin iqtisadi, mədəni və mə'nəvi-əxlaqi həyatı barədə əhatəli təsəvvür əldə olunur.

KİV-nin **mə'lumatlandırma funksiyası** adamların siyasi hadisə və proseslər haqqında mühakimə yürütməsinə o zaman imkan yaradır ki, həmin funksiya həm də **təhsil funksiyasını** yerinə yetirir. Təhsil funksiyası mə'lumatların qiymətləndirilməsinə imkan yaradan biliklərin əldə olunmasını tə'min edir. Bu funksiya informasiyanın mürəkkəb və ziddiyyətli axınında düzgün istiqamət götürməyə yardım göstərir. Əlbəttə, yüksək ixtisaslı təhsil ocaqlarından fərqli olaraq KİV vətəndaşların siyasi bilikləri sistemli şəkildə və dərindən mənimsəməsini tə'min edə bilməz.

KİV-nin **təhsil funksiyası** onun **sosiallaşma funksiyası** ilə sıx bağlıdır. Əgər siyasi təhsil biliklərin sistemli və ardıcıl şəkildə mənimsənilməsini, şəxsiyyətin idraki imkanlarını nəzərdə tutursa, siyasi sosiallaşma insanın siyasi normaları, dəyərləri və nümunəvi davranışı mənimsəməsini ifadə edir. Siyasi təhsil cəmiyyət

---

[1] В.П.Пугачев, А.И.Соловьев. Введение в политологию. Səh.254.

üzvlərinin sosial gerçəkliyə uyğunlaşmasına zəmin yaradır. Demokratik cəmiyyətdə KİV-nin siyasi sosiallaşma funksiyası kütləvi şəkildə qanunlara və insan hüququ kimi dəyərli cəhətlərə hörmətlə yanaşılmasını, münaqişələri dinc yolla həll etməyə və dövlət quruculuğu məsələlərində konsensusa gəlməyə dair təsəvvürlərin formalaşdırılmasını tə'min etməkdən ibarətdir.

KİV-nin mə'lumatlandırma, təhsil və sosiallaşma funksiyaları onun **digər mühüm funksiyasının - tənqid və nəzarətin** həyata keçirilməsinə real şərait yaradır. Bu funksiyanı yalnız vətəndaşlar deyil, eləcə də müxalifət, xüsusilə prokurorluq, məhkəmə və digər nəzarət orqanlarının ixtisaslaşdırılmış tə'sisatları həyata keçirirlər. Lakin KİV-ni həmin nəzarət tə'sisatlarından fərqləndirən cəhət budur ki, onun tənqid obyekti geniş və qeyri-məhduddur. Məsələn, Rusiyada "müstəqil televiziya verilişləri (NTV), Azərbaycanda "ANS, Speys, Lider və sair televiziya şirkətlərinin fəaliyyəti buna aydın sübutdur.

Əgər müxalifətin başlıca diqqət obyekti hökumət və onu müdafiə edən partiyalardırsa, müstəqil televiziya şirkətləri bu və ya digər ölkədə nəinki hökuməti, eləcə də prezidenti, məhkəməni, dövlətin siyasətinin müxtəlif istiqamətlərini açıq və obyektiv mövqedən tənqid edirlər. Ölkəmizdə hələlik ictimai televiziyanın olmaması belə mövqedən uzaq olmağı şərtləndirir.

Məhz, bu mə'nada KİV-nin ən əhəmiyyətli ünsürü olan televiziya siyasətin subyekti kimi səciyyələnir.

KİV-nin **nəzarət funksiyası** ilə əlaqədar qeyd edək ki, onun mahiyyətini qayda-qanuna əməl etməyənlərə qarşı inzibati və iqtisadi sanksiyalar tətbiq etmək yox, yalnız bu və ya digər hadisələrə, şəxslərə əxlaqi qiymət verilməsi təşkil edir. İctimai qaydaları pozanlara sanksiya tətbiq etmək və ya cəza vermək KİV-nin səlahiyyətinə daxil deyil. Belə səciyyəli tədbirlər hüquqi nəzarət tə'sisatlarının fəaliyyəti ilə bağlıdır. Demokratik cəmiyyətdə kütləvi informasiya vasitələrinin nəzarət funksiyası sözün əsl mə'nasında **həm ictimai rə'yə,** həm də qanunlara əsaslanır. İctimai rə'y müxtəlif hakimiyyət strukturlarında, bütövlükdə isə cəmiyyətdə siyasətin səmərəli istiqamətini şərtləndirən mühüm amillərdəndir.

İctimai rə'y həmişə, daha doğrusu, əksər hallarda birmə'nalı olmur. Belə ki, onun təzahüründə müəyyən qrupların tərəfdar olduğu müxtəlif mövqelər və nöqteyi-nəzərlər diqqəti cəlb edə bilər. Qeyd edək ki, ictimai rə'yin istiqamətlərinin başlıca tədqiqat üsulu sorğudur. İnsanların şəxsi həyatı qapalı və daxili aləmi özünəməxsusluq kəsb etdiyinə görə bu üsul tələb olunan mə'lumatların əldə edilməsinin yeganə vasitəsidir. Kütləvi informasiya vasitələri nəinki ictimai rə'yin üzə çıxmasına tə'sir göstərir, ən başlıcası isə onun formalaşmasında xüsusi rol oynayır. Hazırda ABŞ-da ictimai rə'yi öyrənmək məqsədilə (sorğu yolu ilə) 200dən artıq ixtisaslaşdırılmış firma fəaliyyət göstərir. Hellap institutunun apardığı sorğu daha səciyyəvidir. Bu institutun ictimai rə'yi yüksək səviyyədə öyrənmək məqsədilə apardığı sorğuda adətən 1500 nəfər iştirak edir. Sorğuda iştirak edənlər bütün ölkə üzrə mövcud olan seçki məntəqələrinin müxtəlif nümayəndələridir. İlk baxışda iştirak edənlərin sayı az görünür. Lakin sorğunun nəticələri 3 min, 19 min və hətta 20 min nəfəri əhatə edən sorğuların yekunlarını əks etdirir. Maraqlıdır ki, Hellap İnstitutunun prezident seçkiləri ərəfəsində apardığı sorğuda kimin qələbə çalacağına dair proqnozlaşdırmada orta hesabla 1,5% səhvə yol verilir. Qərbi Avropa ölkələrində də ictimai rə'yin öyrənilməsinə ciddi diqqət yetirilir. Məsələn, Fransada bu məqsədlə təxminən 10 min nəfər adamın çalışdığı 150 təşkilat fəaliyyət göstərir.

KİV-nin apardığı ictimai rə'y sorğuları "siyasi kəşviyyat xarakteri daşımaqla əhalinin müxtəlif siyasi məsələlərə münasibətini öyrənməyə xidmət edir.

KİV-nin mühüm siyasi funksiyalarından digəri **inteqrasiya funksiyasıdır** (birləşdirmə, əlaqələndirmə mə'nasında). Bu funksiya siyasətin subyektlərinin müxtəlif mənafelərinin inteqrasiyasına istiqamətlənir, müəyyən ictimai qrupların nümayəndələrinə öz rə'yini açıq şəkildə bildirmək, həmfikirlərini birləşdirmək, onların ümumi məqsədlər naminə daha sıx fəaliyyət göstərməsinə imkan yaradır. Əlbəttə, unutmaq olmaz ki, müxtəlif sosial qrupların siyasi mənafeləri yalnız KİV tərəfindən deyil, həmçinin, digər tə'sisatlar vasitəsilə həyata keçirilir. Lakin KİV-dən istifadə etmədən həmin tə'sisatlar, ilk növbədə isə partiyalar və

mənafe qrupları öz tərəfdarlarını üzə çıxarmaq və sıx birləşdirməyi vahid fəaliyyət istiqamətində səfərbər etməyə qadir ola bilməz. KİV-nin əhəmiyyətli funqsiyalarından biri də **səfərbəretmə funksiyasıdır.** Haqqında danışdığımız yuxarıdagı funksiyalar bilavasitə və ya dolayı yolla səfərbərlik funksiyasının həyata keçirilməsinə xidmət edir. Səfərbərlik funksiyası öz ifadəsini adamların müəyyən siyasi hərəkətlərə sövq edilməsində, siyasi proseslərə cəlb olunmasında tapır. Bununla əlaqədar qeyd edək ki, KİV vətəndaşların ağıl və hisslərinə, düşüncə tərzinə, siyasi davranışının motivlərinə qüdrətli tə'sir imkanlarına malikdir.

Təfəkkürün demokratikləşməsi prsesinin genişləndiyi hazırkı şəraitdə xalqımızın keçmişi, bugünü və gələcəyi haqqında həqiqətləri adamlara çatdırmaq sə'yləri subyektiv mülahizələrə, emosiyalara deyil, sağlam zəkaya, obyektiv reallıqlara əsaslanmalıdır. İdraki fəallıq, mütərəqqi mə'nəvi davranış vərdişləri yalnız insanın şəxsi əqidəsi və vətəndaşlıq mövqeyi, ictimai qeyrəti əsasında təşəkkül tapa bilər. Məhz, təfəkkür mədəniyyətinə dərindən yiyələnmək nəticəsində insan sür'ətlə dəyişən ictimai həyatdan, ziddiyyətli hadisələrdən dürüst baş çıxarmağı bacarır, müstəqil qərara gəlir, həqiqəti sözə, ibarələrə inanıb qəbul etmir, ona sübutla, inandırıcı əsaslandırma yolu ilə gəlib çıxır. Həqiqətin şübhəsiz ki, həm də siyasi həqiqətlərin əsaslandırılmasına, sübuta yetirilməsinə bu cür tələbkarlıq və adamların hər cür həqiqəti müstəqil dərk etmək arzusu, müsbət, mütərəqqi haldır. Bütün bunların reallaşdırılmasında KİV əvəzsiz rol oynayır. Həyat həqiqətlərinin, siyasi reallıqların düzgün başa düşülməsi, qəbahət ilə fəzilətin həddinin dürüst müəyyənləşdirilməsi hazırkı inkişafımızın ictimai tələbatdır. Şəraitə uyğunlaşmaq deyil, şəraiti sağlamlaşdırmaq, ətrafında baş verən xalqa zidd hərəkətlərə seyrçilik mövqeyindən yox, fəal, vicdanlı vətəndaş kimi müdaxilə etmək həyatımızın ahəngdar inkişafının zəruri şərtidir.

Vətəndaşların siyasi cəhətdən mə'lumatlanmağa daxili tələbatı ilə KİV-nin fəaliyyətinin ahəngdarlığı mühüm sosial mə'na kəsb edir. KİV ictimai şüurun inkişafına faydalı və yaradıcı tə'sir göstərir, fəal düşünən ləyaqətli insan şəxsiyyətinin tərbiyələndirilməsində özünəməxsus sanballı rol oynayır. Bu və

ya digər fərdin televiziyaya, radioya və mətbuata marağı heç də onun ətraf aləmdən "qaçması, təcrid olunması deyil, əslində xarakter bütövlüyünün formalaşmasına, insan həyatının ötəri hisslərdən, mə'nasızlıqdan xilas olmasına yönələn mə'nəvi prosesdir. KİV-nin təbliğat obyektinin məhdudluğu, yeknəsəqliyi mə'nəvi cəhətdən, siyasi baxımdan sanballı şəxsiyyətin, fəal vətəndaşın təşəkkülünə kömək edə bilməz. KİV özünütərbiyənin, insanın özünü ifadəsinin və özünütəsdiqinin e'tibarlı vasitəsidir. Xalqımızın qarşısında duran iqtisadi, siyasi və hərbi xarakterli mürəkkəb vəzifələrin həllinə vətənpərvər münasibətin formalaşdırılmasında radio və televiziyanın, qəzet və jurnalların, müvafiq sanballı kitabların əhəmiyyəti bu gün həmişəkindən daha artıq dərəcədə artır. İctimai fəaliyyətin bütün sferalarında, xüsusilə, **xalqımızın dövlətçilik və qanunvericilik tarixinin öyrənilməsində dərin siyasi verilişlərə, yazılara ciddi ehtiyac duyulur.**

Şəxsiyyətin mə'nəvi qüdrətinin təzahür formaları çoxcəhətlidir. Prinsip e'tibarilə yüksək mə'nəvilik ictimai fəaliyyətin hər hansı növündə təzahür edə bilər, çünki mə'nəviyat hər şeydən əvvəl, insanın öz fəaliyyətinə münasibətində daha qabarıq nəzərə çarpır, elə bir münasibətdə ki, bu və ya digər şəxs öz fəaliyyətini necə dərk edir və qiymətləndirir, başlıcası isə həmin fəaliyətə insanı hansı maraq və tələbat təhrik edir. Əgər bu və ya digər şəxsin fəaliyyəti hərada təzahür etməsindən, o cümlədən KİV-də nəzərə çarpmasından asılı olmayaraq məhdud fərdi xarakter daşımırsa, eqoist, qeyri-əxlaqi və xalqa zidd məqsədlərin "təntənəsinə istiqamətlənmirsə və məhz, xalqın ümumi mənafeyinə, ideallarına xidmət etməyə yönəlirsə belə fəaliyyət milli ləyaqətin və həqiqi ictimai nüfuzun mücəssəməsidir. Təəssüf ki, hər yerdə, hətta kütləvi informasiya vasitələrində belə, xalqın adından öz məhdud, xudbin mənafeyi üçün istifadə edən dönük adamlara hələ də rast gəlirik. İnsanın mə'nəvi mədəniyyəti yalnız bilikli, çox mə'lumatlı, təhsilli və hətta elmi dərəcəli olması ilə tamamlanmır. Şəxsiyyətin yüksək mə'nəviliyinin ruhu onun həyata, əhatəsində olduğu mühitə, mürəkkəb ictimai hadisələrə, milli problemlərə fəal, yaradıcı ən başlıcası isə əsl vətəndaş mə'suliyyəti mövqeyindən yanaşmasıdır. İnsanın bütün yaradıcı imkanlarını üzə çıxarmaq qabiliyyəti və

özünü namuslu, vətənpərvər şəxsiyyət kimi ifadəsi və təsdiqləməsi şübhəsiz, onun xalqına xidməti ilə qırılmaz surətdə bağlıdır. Məhz, bu keyfiyyət **şəxsi və milli ləyaqətin zirvəsidir.** İctimai-milli əhəmiyyətli davranış və tələbatın yetkinliyi vətənə məhəbbətin, xalqa sədaqətin ifadəsindən başqa bir şey deyildir.

KİV-nin funksiyaları totalitar və avtoritar siyasi sistemlərdə formal və rəsmi xarakter daşıyırsa, demokratik rejimlərdə vətəndaş-dövlət, insan-cəmiyyət münasibətlərinin təmənnasız siyasi mahiyyət kəsb etməsinə, vətəndaş cəmiyyətinin təşəkkülünə təkan verir. KİV-nin siyasi funksiyaları daha tam şəkildə demokratik dövlət çərçivəsində təzahür edir. Demokratik proseslərlə səciyyələnən sosial sistemdə KİV demokratiyanın fəaliyyət mexanizminin ayrılmaz tərkib hissəsi kimi nəzərə çarpır. Hətta yüksək təhsil almış adam radionun, televiziyanın, qəzet və jurnalların köməyi olmadan ziddiyyətli siyasi proseslərin mürəkkəb və çoxcəhətli mahiyyətindən düzgün nəticə çıxara bilməz, mə'suliyyətli qərarların qəbul edilməsinə nail olmaz. KİV-nin fəaliyyəti söz azadlığının real təzahürüdür. Söz azadlığı olmadan isə şəxsiyətin digər siyasi azadlıqlarının reallaşması qeyri-mümkündür. Demokratiyanın özünün mövcudluğu isə həm də kütləvi informasiya vasitələri ilə bağlıdır. Başqa sözlə, KİV praktiki baxımdan demokratiyanın maddiləşməsinin çox mühüm vasitəsidir.

KİV nəinki vətəndaşların ayrı-ayrı siyasi hadisə və prosesləri dərk etməsinə, həm də onların bütövlükdə siyasətə münasibətinə fəal tə'sir göstərmək üçün real imkanlara malikdir. Əhalinin siyasi passivliyi və kütləvi siyasi fəallığı KİV-nin mövqeyilə bilavasitə bağlıdır.

Müasir şəraitdə KİV-nin vətəndaşların siyasi şüuruna və davranışına fəal tə'siri belə bir cəhəti səciyyəlndirir ki, "hakimiyyətin dördüncü qolunun müasir cəmiyyətdə rolu durmadan artır. Lakin tədqiqatçılar KİV-nin rolunu birmə'nalı deyil, müxtəlif mövqedən qiymətləndirirlər. Məsələn, O.Toffler KİV-nin getdikcə artan tə'sirini yeni, daha yüksək və humanist sivilizasiyanın rüşeymləri kimi əsaslandırmağa sə'y göstərir. Digər alimlər və mədəniyyət xadimləri isə belə qənaətə gəlir ki, KİV şəxsiyyətə və mədəniyyətə dağıdıcı tə'sir göstərir. Belə ki, italiya kinorejissoru **Fideriko-Fellini** belə hesab edir ki, "televiziya

nəinki kinonu, eləcə də fərdlərin gerçəkliyə münasibətini viran etmişdir. Bütün həyat-təbiət, dostlarımız, ədəbiyyat, qadınlar tədricən bu kiçik ekranın tə'siri altında məhv olub gedir. Tarixi təcrübə təsdiqləyir ki, KİV cəmiyyətə, insanlara iki istiqamətdə tə'sir göstərir: Bir tərəfdən insanların siyasi cəhətdən maariflənməsinə, şəxsi ləyaqət hissinin inkişafına, vətəndaşların azadlıq və sosial ədalət uğrunda mübarizəsinə kömək edir, digər tərəfdən isə inamsızlıq, yalan mə'lumatlandırma, kütləvi nifrət hissi oyatmaq, çaşqınlıq yaratmaq və digər bu kimi mənfi halların təbliğinə diqqət yetirir. Bə'zi ən'ənəvi tə'sisatlardan, məsələn, kilsədən, məsciddən, məktəbdən, ailədən, siyasi partiyalardan və təşkilatlardan yan keçərək ictimaiyyətə **birbaşa müraciət etmək** qabiliyyətinə malikdir. Bu xüsusiyyət KİV-ni həmin tə'siatlardan fərqləndirir. KİV-nin vətəndaşlara birbaşa müraciət etmək qabiliyyətindən siyasi xadimlər, siyasi partiyalar və təşkilatlar öz proqramlarının kütləvi şəkildə müdafiə olunması üçün istifadə edirlər. KİV bilavasitə müraciətlə adamları səfərbər etməyə nail olur və beləliklə, siyasi həyatın əsl və fəal subyekti kimi çıxış edir.

Uzun müddət ərzində geniş əhali kütləsi üçün başlıca informasiya mənbəyi mətbuat (qəzet və jurnallar) olmuşdur. Qəzet və jurnalların xeyli hissəsi bu və ya digər siyasi partiyanın orqanı kimi meydana çıxmış, müxtəlif formada siyasi proseslərə cəlb olunmuşdur.

**Radio və televiziya** kütləvi kommunikasiya proseslərindən siyasi məqsədlər üçün istifadə olunması imkanlarını xeyli artırmışdır. XIX əsrin sonunda radionun kəşf olunması mə'lumatın işıqlandırılması mexanizmini köklü surətdə dəyişdirdi. İkinci dünya müharibəsinin başlanğıcında və gedişində radio cəmiyyətin siyasi cəhətdən səfərbər olunmasının ən başlıca vasitələrindən birinə və ən mühüm təbliğat alətinə çevrildi. Müharibədən sonrakı dövrdə dünyanın inkişaf etmiş ölkələrinin bütün guşələrində radionun praktiki olaraq yayılması onun siyasi rolunu daha da artırdı.

**Televiziyanın** inkişafı və yayılması (yarandığı vaxtdan) radio ilə müqayisədə daha sür'ətli olmuşdur. O, hazırda kütləvi informasiya vasitələrinin ən başlıca komponenti kimi çıxış edir. Ölkədə və dünyada baş verən real hadisələr haqqında adamlara obyektiv və operativ mə'lumat verilməsi və ya insanların müəyyən qruplarının

mənafeyi əsas götürülməklə onların mə'lumatlandırılması məhz, televiziyanın kimlərin əlində olmasından asılıdır.

Çoxsaylı sosioloji və sosial-psixoloji tədqiqatlar göstərir ki, kütləvi informasiya vasitələrində, xüsusilə televiziyada cəmiyyətdə qərarlaşan ümumi normalardan uzaqlaşan adamlar haqqında dönə-dönə mə'lumat verilməsi dinləyicini, oxucunu narahat edir. Neqativ hadisələri törədənlərə əhalinin müxtəlif kateqoriyalarının münasibəti heç də eyni deyildir. Cinayətkarlıq, narkomaniya, terrorçuluq, qayda-qanunun pozulması və sair haqqında tez-tez mə'lumat verilməsi oxucuların, radio və televiziya dinləyicilərinin müəyyən qismində belə təsəvvür yaradır ki, artıq ölkədə "dəmir əllərə, güclü şəxsiyyətə ehtiyac vardır və yalnız belə şəxslər cəmiyyətdəki özbaşınalığa son qoyub qayda-qanun yarada bilər. Vaxtilə, ABŞ və İngiltərədə belə düşünən vətəndaşların müəyyən qisminin çağırışlarına **R.Reyqan, M.Tetçer**, sağ və mühafizəkar qüvvələrin digər rəhbərləri hay verdi. Reyqan və Tetçer məhz, ölkədə anarxiyaya, neqativ hallara son qoyacaqları barədə müvafiq şüarlarla çıxış etdilər. Sonrası artıq mə'lumdur.

Kütləvi informasiya vasitələri siyasi həyatın nəinki subyektidir, eyni zamanda obyektidir. Bu cəhət onunla şərtlənir ki, KİV-nin özü də sosial gerçəkliyin tərkib hissəsidir. O, sosial gerçəkliyi bütün ziddiyyətləri və münaqişələri ilə birlikdə bu və ya digər formada təkrar istehsal edir. Elə buna görə də informasiya axını çoxlu ziddiyyətlərdən, bə'zən bir-birilə araya sığmayan mə'lumat və materiallardan ibarətdir. Aydın məsələdir ki, hər hansı bir şəxs və ya ayrıca adamlar qrupu heç də bütün partiyalara və ya namizədlərə səs vermir, eləcə də reklamlaşdırılan bütün malları almır, mövcud rə'ylərin hamısı ilə razılaşmır. Bə'zi hallarda mə'lumatlar və materiallar bir-birini neytrallaşdırır. Şübhəsiz, KİV-nin mə'lumat və materiallarının məcmuu ictimai rə'yin formalaşmasına tə'sir göstərir.

KİV həmişə ayrı-ayrı adamların və sosial qrupların şüurunda baş verən dəyişikliklərin təşəbbüsçüsü və subyekti kimi çıxış etmir. Təbii ki, özlüyündə KİV nə dağıdıcı vasitədir, nə də yaradıcılıq və tərəqqi alətidir. **Kütləvi informasiya vasitələrinin** pozitiv və ya **neqativ rolu onunla şərtlənir ki, bu informasiya**

**vasitələrindən hansı qüvvələr istifadə edir, özü də hansı məqsədlərə.** Məşhur ingilis tarixçisi **C.M.Trevelyanın** tə'bincə desək, siyasət sosial dəyişikliklərin səbəbi deyil, nəticəsidir. Zənnimizcə, bu gözəl fikir siyasətin həm də səbəb kimi çıxış etməsinin inkarı deyildir. KİV-nin hər hansı istiqamətdə baş verən dəyişikliklərə xidmət vasitəsi kimi çıxış etməsi son nəticədə konkret ictimai-tarixi şəraitlə şərtlənən vəzifə və tələblərdən irəli gəlir. KİV məhz, dəyişikliklərə imkan yaradan vasitə və əlavə amil kimi səciyyələnir.

**Müasir şəraitdə genişlənən informasiya və telekommunikasiya inqilabının** mühüm xüsusiyyəti bundan ibarətdir ki, birxətli mə'lumatlandırma prosesini çoxtərəfli və dialoq şəkilində informasiya əlaqəsi əvəz etmişdir. Siyasi proseslər üçün mühüm əhəmiyyət daşıyan belə dəyişiklik hər şeydən əvvəl, kabel televiziyasının həyata keçirilməsinin bəhrəsidir. Kabel televiziyası vasitəsilə "ikitərəfli əlaqələr, "telekörpü industrial cəhətdən inkişaf etmiş bütün ölkələrdə ən möhkəm mövqelərə nüfuz edə bilir.

"İkitərəfli əlaqə texnologiyasının köməyilə istehlakçı (tələbat duyan şəxs) qəzet oxuya bilər, kitabxanadan videokitab mütaliə etmək imkanı əldə edər. Yeni texniki vasitə və üsullardan siyasi proseslərdə ictimai rə'yi öyrənmək məqsədilə istifadə olunur. Maraqlıdır ki, ictimai rə'yi öyrənməyə istiqamətlənən sorğu istənilən vaxt aparılır və sorğu qurtaran kimi onun nəticələrindən dərhal siyasi diskusiyalarda, referendumlarda və s. hallarda səmərəli istifadə olunur. Haqqında danışdığımız yeni kommunikasiya vasitələri və üsulları o qədər məşhurlaşıb ki, qərb politologiyasında bunları cəmiyyətin ümumi demokratikləşməsinə istiqamətlənən informasiya aləti kimi səciyyələndirirlər. Məsələn, O.Tofflerin fikrincə əhalinin "kompyüterlə silahlanması gedişində fərdi kompyüterlərin sayının artması adamların birbaşa informasiya əlaqələrinə şərait yaradır, dövlət tərəfindən onların üzərində mərkəzləşdirilmiş nəzarətin həyata keçirilməsini şərtləndirir və bununla belə şəxsi azadlıqları üçün təhlükəni azaldır.

Kütləvi informasiya vasitələrində tətbiq olunan yeni texnologiya cəmiyyətdə plyuralizmin genişlənməsi, yerli mənafelərin ifadəsi və nümayəndəli demokratiyanın "iştirak etmə demokratiyası

ilə əvəz olunması üçün geniş imkanlar açır. Şübhəsiz, belə demokratik dəyişiklik heç bir demokratik tə'sisata xələl yetirmir. Təsadüfi deyil ki siyasi ədəbiyyatda bu vəziyyəti səciyyələndirmək üçün "teledemokratiya anlayışından istifadə olunur.

"İştirak etmə demokratiyası cəmiyyətin siyasi təşkilinin elə sistemidir ki, vətəndaşlar seçdikləri nümayəndələrin vasitəçilik köməyi olmadan onları maraqlandıran sadə sosial və siyasi məsələləri həll etməyə sə'y göstərirlər. Həqiqətən də bu və ya digər region, ölkə üçün əhəmiyyət daşıyan (xüsusilə yerli səviyyədə) konkret problemin həlli üçün "teledemokratiyanın ayrı-ayrı ünsürlərindən, "evdə elektron səsvermə üsullarından səmərəli istifadə oluna bilər. Lakin ən yeni telekommunikasiyanın əhəmiyyəti və rolunu birmə'nalı qiymətləndirmək düzgün deyil. Məsələ ondadır ki, telekommunikasiyanın yeni vasitələri bir tərəfdən özlüyündə neytrallıq kəsb edir, digər tərəfdən isə bunların nəticələrindən istifadə olunması həmin vasitələrin kimə və nə məqsədə xidmət etməsindən asılıdır.

Ümumiyyətlə, kütləvi informasiya vasitələrinin fəaliyyət dairəsinin fəallaşdırılması və genişləndirilməsi bir tərəfdən cəmiyyət qarşısında duran vəzifələrin, müxtəlif partiyaların və namizədlərin mövqelərinin işıqlandırılmasına zəmin yaradır, digər tərəfdən isə adamların əhval-ruhiyyəsinin dəyişməsi və fəaliyyət yönümü baxımdan qiymətli imkanlar üzə çıxarır.

## 2. KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİLƏ HAKİMİYYƏT STRUKTURLARININ QARŞILIQLI ƏLAQƏSİ

Kütləvi informasiya vasitələri ilə mövcud hakimiyyət strukturlarının qarşılıqlı əlaqəsi bir sıra amillərlə və konkret siyasi şəraitlə bağlıdır. Bu əlaqə hər şeydən əvvəl, onunla şərtlənir ki, mövcud şəraitdə hakimiyyət hansı qüvvələrin əlindədir, hakimiyyətə gələn hökumətin diqqət mərkəzində nə kimi problemlər durur, dünyada, ölkədə situasiya necədir və sair.

KİV və hakimiyyət strukturlarının qarşılıqlı əlaqəsi, eləcə də jurnalistlərin, müxbirlərin, naşirlərin bu və ya digər dəyərləri,

idealları, ideya-siyasi oriyentasiyanı (istiqaməti), başlıca məqsədləri və sairəni nə dərəcədə, necə səciyyələndirirlər. KİV **dövlətin siyasətinin ən mühüm məsələləri üzrə informasiya** almaq məqsədilə görkəmli siyasi xadimlərlə, dövlət adamları ilə xüsusilə partiya, dövlət və hökumət rəhbərlərilə bilavasitə əlaqə saxlamağa çalışır. Çünki rəsmi siyasi şəxslər informasiyanın əsl mənbəyi sayılır. Heç də təsadüfi deyil ki, jurnalistlərin, müxbirlərin, xüsusi müxbirlərin böyük əksəriyyəti məhz, inkişaf etmiş dünya ölkələrinin paytaxtlarında cəmləşiblər. Belə ki, hazırda Vaşinqtona təhkim olunan 16000 müxbirdən 60 nəfəri onlara xidmət edən səs operatorları və yüksək ixtisaslı texniki mütəxəssislərlə birlikdə hər gün Ağ evdə fəaliyyət göstərir. Bunların hamısı başlıca olaraq "Assoşieyted Press və "Yunayted Press İnterneşil teleqraf agentliklərini, eləcə də iri həcmli, nüfuzlu qəzet, jurnal və radio şəbəkələrinin Vaşinqton bürolarını təmsil edirlər. Müxtəlif sindikatlar isə özlərinə dair xəbərlər informasiyasını KİV-nin daha kiçik orqanları vasitəsilə yayırlır. ABŞ konqresinin hər iki palatası kütləvi informasiya vasitələrinin nümayəndələri üçün xüsusi mə'lumat orqanına malikdir.

Kütləvi informasiya vasitələri ilə hakimiyyət dairələrinin əlaqələri müxtəlif kanallarla həyata keçirilir. Siyasi xadimlərlə kütləvi informasiya vasitələri nümayəndələrinin qarşılıqlı münasibətlərində mətbuat konfransları mühüm rol oynayır. Bu baxımdan üstünlük və ilk təşəbbüs yenə ABŞ-a məxsusdur. İlk mətbuat konfransının keçirilməsi məhz, öz xalqı və dövləti üçün xeyli siyasi uğurlara nail olan ABŞ prezidenti **T.Ruzveltin** (1901-1909-cu illərdə bu ölkənin prezidenti olmuşdur) adı ilə bağlıdır. O, Ağ evdə müxbirlər üçün xüsusi mətbuat xidməti idarəsi təşkil etmişdir. Həmin idarə Amerikanın dövlət rəhbərləri üçün səmərəli təbliğat mexanizminə çevrilmişdir. Amerikanın Ruzveltdən sonrakı prezidentləri və digər dövlət xadimləri həmin mətbuat xidməti idarəsinin köməyilə öz siyasi xəttini müdafiə etdirmək məqsədilə ictimai rə'yin səfərbər edilməsinə nail olmuşlar. Mətbuat konfrasları özlüyündə kütləvi informasiya vasitələri üçün də yeni siyasi informasiya mənbəyi kimi mühüm rol oynamışdır. ABŞ-da " vətəndaşlıq hüququ qazanan bu siyasi praktika tədricən dünyanın digər ölkələrinə, o cümlədən Müstəqil Azərbaycana də

nüfuz etmişdir. Siyasi xadimlərin və dövlət rəhbərlərinin keçirdikləri mətbuat konfransları, kütləvi informasiya vasitələrinə verdikləri müsahibələr şübhəsiz, kütləvi informasiya vasitələri ilə hakimiyyətin qarşılıqlı səmərəli əlaqələrinin ifadəsidir.

Kütləvi informasiya vasitələrində iqtisadi, siyasi və mə'nəvi xarakterli aktual problemlərin işıqlandırılması KİV ilə hakimiyyət strukturlarının qarşılıqlı əlaqəsinin fasiləsizliyini təsdiqləyən mühüm amildir.

Bir qayda olaraq hökumətin və onun rəhbərlərinin məşhurlaşmasında, yeritdikləri siyasətin beynəlxalq nüfuz qazanmasında departamentlər (ali dövlət idarələri) mühüm rol oynayırlar. Lakin gündəlik praktika baxımdan bu məsələdə mətbuat xidməti əvəzsiz rol oynayır.

Hazırda industrial cəhtdən inkişaf etmiş bütün ölkələrdə dövlət və hökumət başçılarının, qanunvericilik orqanlarının öz mətbuat xidməti vardır. Prezidentin, baş nazirin, hökumətin siyasəti və siyasi "imici kütləvi informasiya vasitələrinə və onların vasitəsilə hər yerə məhz, mətbuat xidməti vasitəsilə çatdırılır. Qeyd etmək lazımdır ki, industrial cəhətdən inkişaf etmiş ölkələrdə dövlət informasiyanın ən böyük istehsalçısı sayılır. Belə ki, ABŞ hökuməti ölkənin 20 böyük reklam agentlikləri sırasına daxil olmaqla vəsait sərf etmək baxımdan "Kokakola kimi ən iri şirkətlərlə rəqabət aparır. Məsələn, hökumətin ildə reklama sərf etdiyi xərc 20 milyon dollar təşkil edir. Təbliğat filmlərinin istehsalına hökumət agentlikləri təxminən 600 milyon dollar sərf edirlər. 1986-cı ildə hökumətin mətbuat məhsullarına ümumi xərci 1,3 milyard dollar təşkil etmişdir. İctimaiyyətlə əlaqəyə xidmət edən "Pablik rileymiz təşkilatına dövlətin illik xərci 400 milyon dollara çatır.

Televiziyanın geniş yayılması ilə əlaqədar bə'zi tədqiqatçılar belə qənaətə gəldilər ki, seçki kampaniyaları ixtisar olunacaq (azalacaq), seçicilərin mə'lumatlanması və siyasi fəallığı artacaq və siyasi proseslər üzərində ictimai nəzarət güclənəcək. Lakin əksinə, bütün demokratik ölkələrdə seçki kompaniyalarının müddəti və dəyəri durmadan artır. Baha başa gələn reklam hazırda hər hansı seçki kampaniyasının tərkib hissəsinə çevrilib. Namizədlərin seçki kompaniyalarının keçirilməsinə sərf edilən xərcinin xeyli hissəsi KİV-nin payına düşür.

Siyasi rəqabətin gücləndiyi şəraitdə **vaxt amili** durmadan böyük əhəmiyyət daşıyır. Buna görə hələ seçki kompaniyası başlanmazdan əvvəl KİV-nin orqanlarından bütün iddiaçılar və namizədlər xüsusi diqqətlə istifadə edirlər. Bu və ya digər seçkili vəzifəni tutmaq qərarına gələn hər bir iddiaçı (siyasi xadim və s.) çalışır ki, KİV orqanlarına daha tez müraciət etsin və bunların vasitəsilə ictimaiyyətlə, işgüzar dairələrlə əlaqə yarada bilsin.

Kommersiya reklamının siyasət sferasına nüfuzu ilə əlaqədar kütləvi informasiya vasitələrində siyasi kompaniya reklam xarakteri daşıyır. Reklamın üsul və metodlarının KİV-nə sür'ətlə və əhatəli nüfuzu televiziya, radio və mətbuatı peşəkar fəaliyyətin yeni növü kimi qərarlaşdırır. Başqa sözlə, KİV "Siyasi marketinq xarakteri kəsb edir.

Siyasi marketinqin mahiyyəti bundan ibarətdir ki, hər bir namizəd seçkili vəzifəni tutmağa çalışır. Bu məqsədlə o, öz ətrafını, fəaliyyət dairəsini diqqətlə öyrənir, seçkiqabağı taktikanı müəyyənləşdirmək məqsədilə mürəkkəb problemlərlə müxtəlif sosial mə'nafelərin nisbətini qiymətləndirir. Bu prosesdə seçkilərdə qalib gəlmək üsulu və metodu peşəkar siyasi fəaliyyətin növünə çevrilir. Həmin fəaliyyət növü ilə peşəkar məsləhətçilər məşğul olurlar.

Siyasi marketinq **üç mərhələni** əhatə edir. Birinci mərhələdə fəaliyyət yeri sosial, iqtisadi, siyasi və psixoloji cəhətdən təhlil olunur. İkinci mərhələ strategiyanın seçilməsi, seçicilərin müxtəlif qruplarını "ələ almaq üçün məqsədlərin müəyyənləşdirilməsi, seçki kompaniyasının mövzusunun seçilməsi, yerli və milli KİV-dən istifadə olunması taktikası ilə səciyyələnir. Üçüncü mərhələdə isə namizədlər irəli sürülür.

Siyasi marketinqin nisbətən tamamlanmış formasına ABŞ-da təsadüf olunur. Seçki prosesində siyasi marketinqin metodu və mexanizminin son dərəcə diqqətlə işlənib hazırlanması və beləliklə onun reallaşması məhz, bu ölkəyə məxsusdur. Həmin mexanizm və metod içərisində başlıca yeri ictimai rə'y sorğusu, seçkilərin təşkili və aparılmasına dair siyasi məsləhət, namizədlərin "imicinin yaranması və "satılması texnikası tutur. Hazırda ABŞ-da müxtəlif siyasi kompaniyaların təşkilində geniş iştirak edən xeyli firma və şirkətlər meydana gəlmişdir. Amerikalı məsləhətçilər öz

fəaliyyətini ölkənin hüdudlarından kənarda da genişləndirirlər. Son illər onların xidmətindən dünyanı 30-a yaxın ölkəsində istifadə olunur. Avstraliyada, Böyük Britaniyada, Kanadada, İspaniyada, Yaponiyada, İsveçdə, İtaliyada və digər ölkələrdə ilk növbədə seçki kompaniyalarına Amerikalı məsləhətçilər müntəzəm surətdə cəlb edilirlər.

Hazırda demək olar ki, dünyanın inkişaf etmiş ölkələrinin hamısında siyasi mövqelərə (və ya vəzifələrə) yiyələnmək iddiasında olan aparatda mütəxəssislər və məsləhətçilər mərkəzi yerlərdən birini tuturlar. Hər bir böyük partiya ictimai rə'y sorğusu aparmaq problemi üzrə xüsusi ekspertlərə, radio və televiziya məsələlərinə dair məsləhətçilərə malikdir. Bununla yanaşı siyasi xadimlər və partiyalar öz imkanlarına uyğun olaraq geniş məsələlər üzrə mütəxəssislərdən və məsləhətçilərin xidmətindən istifadə edirlər. Belə ki, bunların ölkənin müxtəlif guşələrinə getməsi, müvafiq reklam ədəbiyyatı yaymaları təşkil olunur.

Siyasi məsləhətçilərin funksiyalarını dəqiq müəyyənləşdirmək məqsədilə daha təcrübəli jurnalist-şərhçilərdən, reklam və məsləhət firmalarının əməkdaşlarından, obrazlı desək, **seçki kompaniyasının rejissorlarından** bə'zilərini hətta müvafiq işlə tə'min edirlər. Belə adamların geniş şəxsi əlaqələrə malik olması, müxtəlif kompaniyaların tarixi barədə dərin təsəvvürə yiyələnməsi, kütləvi informasiya vasitələrində fəaliyyət təcrübəsi imkan verir ki, onlar qarşılarına qoyulan vəzifələri dəqiq yerinə yetirə bilsin. Siyasi məsləhətçilər təmsil etdikləri namizədi kütləvi informasiya vasitələrində geniş işıqlandırır, haqqında müsbət təssəvür formalaşdırmağa ciddi sə'y göstərirlər, hətta həmin namizədlərin televiziya və radio ilə çıxışları təşkil olunur, mətbuatda yazıları çap edilir. Bir sözlə, məsləhətçilər öz namizədlərini "hazır siyasi xadim kimi təqdim etməyə çalışırlar. Şübhəsiz, kütləvi informasiya vasitələri ilə hakimiyyət strukturlarının bu tipli qarşılıqlı əlaqəsi yalnız demokratik dövlətin mövcud olduğu şəraitdə tə'min oluna bilər.

Siyasi məsləhətçilərin vəzifəsi yalnız ictimaiyyətin diqqətini iddiaçı namizədlərə cəlb etdirməklə məhdudlaşmır, həm də onların müəyyən imicini (obrazını) yaratmaqdan ibarətdir.

İctimai rə'y üzrə mütəxəssislər məşhur kinorejissorların xidmətindən istifadə edərək reklamda tətbiq olunan texniki üsulların və metodların köməyilə siyasi xadimlərin imicinin yaradılması və "satılması texnologiyasını işləyib hazırlamışlar. Bu imic K.S.Hacıyevin yazdığı kimi, seçki kompaniyalarının məqsədlərinə, ictimaiyyətin siyasi liderin arzu edilən tipi haqqında təsəvvürlərinə, partiya qaydalarına, işgüzar dairələrin niyətlərinə və sairəyə maksimum uyğun gəlməlidir.[1] Mütəxəssislər öz fəaliyyətində ABŞ-ın respublikaçılar partiyasının milli komitəsinin sədri **L.Hollun** hələ 1856-cı ildə dediyi belə bir tezisdən çıxış edirlər: "Biznes öz mallarını satdığı kimi, siz də öz namizədlərinizi və proqramlarınızı satırsınız.

Hazırda "ideal namizəd haqqında xeyli nəzəriyyə işlənib hazırlanmışdır. Bu nəzəriyyələr real namizədin imicinin yaradılmasına xidmət edir. Belə namizədlər elə keyfiyyətlərə malik olmalıdırlar ki, bunlar ölkədəki konkret siyasi şəraitə maksimum uyğun gəlsin. Məsələn, sosial-siyasi böhranlar dövründə "açıq danışan və "təmiz, səmimi adamlar daha böyük şansa malik olurlar. Çünki siyasi mövqeyə yiyələnmək iddiasında olan belə namizədlər vətəndaşlarla maksimum səviyyədə açıq danışma qabiliyyəti ilə diqqəti cəlb edirlər. Lakin siyasi məsləhətçilər belə xarakterə malik olmayan "ideal iddiaçıları müdafiə etmək naminə mövcud olan bütün təbliğat vasitələrindən istifadə etməklə öz namizədlərinin daha üstün cəhətlərini nəzərə çatdırır və mövcud siyasi şəraitə, seçicilərin arzularına uyğun gəlməyən keyfiyyətlərini isə ört-basdır edirlər. Şübhəsiz, hansı ölkədə həyata keçirilməsindən asılı olmayaraq bu cür "səmimi siyasi praktika mahiyyət e'tibarilə son nəticədə vətəndaşlara və cəmiyyətə həqiqi fayda verə bilməz.

Siyasi marketinqin reallaşmasının ən mühüm aləti ictimai rə'ydir. Partiyalar və siyasi təşkilatlar, heç bir hökumət plyuralizm şəraitində seçicilərin əksəriyyətinin razılığı və azad iradəsi olmadan hakimiyyəti ələ keçirə bilməz. Əlbəttə, siyasi praktika təsdiqləyir ki, bu və ya digər ölkədə səsvermə prosesində müəyyən saxtakarlıqlara da yol verilir. Müdrik atalar sözü ilə

[1] Введение в политологию. М., 1995, Səh 266.

desək, "yalan ayaq tutar, ancaq yeriməz. Bütün ölkələrdə ictimai rə'yin tə'siri günü-gündən artır. Bu ictimai tərəqqinin ümumi qanunauyğunluğudur.

Kütləvi informasiya vasitələrinin ən mühüm siyasi tə'sir vasitələrindən biri ictimaiyyətin və hökumətin diqqətini cəlb edən diskusiyaların mövzusunun və istiqamətinin düzgün müəyyənləşdirilməsidir. Siyasi mövzuların seçilməsi yalnız KİV-nin rəhbərlərinin və ona sahib olanların istəyi və marağı ilə şərtlənir, bu həm də informasiya plyuralizmi şəraitində qərarlaşan spesifik qaydaların tə'siri ilə müəyyən olunur. Burada başlıca me'yar KİV-nin müvəffəqiyyət qazanmasıdır. Ümumiyyətlə, mövzuların seçilməsi və müəyyənləşdirilməsində elmi ədəbiyyatda göstərildiyi kimi, KİV aşağıdakı ümumi prinsipləri rəhbər tutur:

1. Vətəndaşlar üçün daha maraqlı olan mövzuların seçilməsi. Bu prinsipə uyğun olaraq KİV daha çox elə problemlər haqqında mə'lumat verir ki, bunlar adamların əmin-amanlığı və həyatı üçün real təhlükə törədir. Həmin problemlər içərisində sülh və vətəndaşların təhlükəsizliyi üçün qorxu törədən hallar, terrorçuluq, ekoloji, demoqrafik partlayış və s. xüsusi yer tutur.

2. Faktların qeyri-adiliyi. Bu o deməkdir ki, aclıq, müharibə, sərt cinayətkarlıq və digər bu kimi hallar gündəlik həyat hadisələrinin işıqlandırılmasına nisbətən ön plana keçir. Bu həm də KİV-nin neqativ xarakterli informasiyanı yaymağa meylli olmasından irəli gəlir.

3. Faktların yeniliyi. Bu o deməkdir ki, vətəndaşlara geniş surətdə mə'lum olmayan informasiyanı KİV əhaliyə əhatəli çatdırmağa qadirdir. Yeni faktlar müxtəlif xarakterli ola bilər. Məsələn, iqtisadi inkişafın nəticələrinə və ya işsizlərin sayına dair, yeni siyasi partiyalar, ictimai təşkilatlar və hərəkatlar, siyasi liderlər və s. haqqında ən yeni informasiya bu qəbildəndir.

4. Siyasi müvəffəqiyyət. Bu prinsipə müvafiq olaraq radio və televiziya verilişlərində və mətbuatda siyasi liderlərin, partiyaların və ya bir sıra dövlətlərin əldə etdiyi uğurlara aid mə'lumat verilir. Bu baxımda seçkilərdəki qələbəyə və reytinqlə bağlı sorğulara xüsusi diqqət yetirilir. Bazar iqtisadiyyatı cəmiyyətində siyasət, idman və incəsənət ulduzlarına pərəstiş KİV üçün tipik hadisədir.

5. Yüksək ictimai status. İnformasiya mənbələrinin statusu nə qədər yüksəkdirsə, bununla bağlı müsahibələr və verilişlər də bir o qədər əhəmiyyətə malikdir. Başqa sözlə, siyasi, hərbi xarakterli yüksək vəzifələrdə, kilsədə, məsciddə və digər bu kimi mövqelərdə təmsil olunan şəxslər kütləvi informasiya vasitələrinə asanlıqla nüfuz edə bilir. Qəzetlərin birinci səhifələri, radio və televiziyanın ilk başlıca verilişləri məhz, prezidentlərin, baş nazirlərin, spikerlərin, güc nazirliklərinin və digərlərinin fəaliyyətindəki ən mühüm məqamlara həsr olunur.

KİV-in nəinki vətəndaşların ayrı-ayrı siyasi hadisələri dərk etmələrinə, eləcə də onların bütövlükdə siyasətə münasibətinə fəal tə'sir göstərmək imkanları böyükdür.

Müasir dünyada vətəndaşlar və demokratik dövlət quruculuğu üçün real təhlükə törədən siyasi amillərdən biri KİV-dən **siyasi manipulyasiya** məqsədilə istifadə olunmasıdır. Siyasi manipulyasiya bu və ya digər siyasi qrupun, tə'sisatın öz mənafeyi naminə adamların siyasi şüuruna və davranışına üstüörtülü, gizli şəkildə tə'sirini ifadə edir. Manipulyasiya yalana, riyakarlığa əsaslanır. Heç də təsadüfi deyil ki, müasir siyasi nəzəriyyədə və siyasi praktikada manipulyasiya kifayət dərəcədə elmi təhlilini tapmışdır. Ümumdövlət səviyyəsində siyasi manipulyasiyanın ümumi texnologiyası adamların kütləvi şüuruna sosial-siyasi miflərin yeridilməsinə nail olmaqdan ibarətdir. Görkəmli politoloqların müəyyən qismi belə hesab edir ki, siyasi elitanın hökmranlığının qərarlaşması üçün başlıca ideya sosial-siyasi miflərdən istifadə olunmasıdır. Məsələn, liberal görüşləri ilə səciyyələnən amerika professoru **Herbert Şillerin** fikrincə, hakim elita beş başlıca sosial mifdən istifadə edir: 1.Vətəndaşların fərdi azadlığı və şəxsən seçmək qabiliyyəti. 2. Ən mühüm siyasi tə'sisatların: konqresin, məhkəmənin, prezident hakimiyyətinin, eləcə də KİV-nin bitərəfləşdirilməsi. 3. İnsanın dəyişməz eqoist təbiəti, onun təcavüzkarlığı, var toplamağa və istehlakçılığa meylli olması. 4. Cəmiyyətdə sosial münaqişələrin, istismar və zülmün olmaması. 5. KİV-nin plyuralizmi. Onların çoxluğuna baxmayaraq əslində iri reklamçılar və hökumət tərəfindən daim nəzarətdədilər və illiyuziyalı şüurun yeganə industriyasını təmsil edirlər.[1]

---

[1] Шиллер Г. Манипуляторы сознанием.(ер. с англ.) М., 1980, Səh.25-40.

Müasir manipulyatorlar öz məqsədlərinə nail olmaq üçün kütləvi psixologiyanın qanunauyğunluqlarından bacarıqla istifadə edirlər. Siyasi manipulyasiya nəinki totalitar və avtoritar dövlətlərdə geniş tətbiq olunur, həmçinin, müasir qərb demokratiyasında müntəzəm surətdə ondan istifadə edilir. Bu gün qərb ölkələrində elə bir prezident və ya parlament seçkisi yoxdur ki, orada manipulyasiya üsullarından yan keçilsin. Həmin üsul və reklamlar dünyanın digər ölkələrində də tətbiq olunur. Empirik tətqiqatlar təsdiqləyir ki, prezidentliyə və parlamentə namizədlərin seçilməsində seçicilər elə namizədlərin mövqeyini müdafiə edir ki, onların imici (obrazı) məhz, kütləvi informasiya vasitələrində və xüsusilə, televiziya vasitəsilə yaradılır.

Praktika göstərir ki, KİV yalnız pozitiv sosial-siyasi fəaliyyəti ilə səciyyələnmir, eyni zamanda onun fəaliyyəti müəyyən arzuolunmaz, neqativ hallara da gətirib çıxara bilər. KİV-nin fəaliyyətinin doğura biləcəyi neqativ nəticələr hər şeydən əvvəl, onun demokratik təşkilatları tərəfindən məhdudlaşdırıla bilər. Demokratik təşkilatların ən mühüm prinsipi cəmiyyət miqyasında nəinki hakimiyyət plyuralizliminin eləcə də KİV-nin özündə plyuralizmin, qərarlaşmasıdır. Hakimiyyət plyuralizmi cəmiyyətdə iqtisadi, sosial, xüsusi siyasi (məcburetmə) və mə'nəvi-informasiya hakimiyyət bölgüsünün mövcudluğunu ifadə edir. KİV-nin iqtisadi və ya siyasi cəhətdən hökmranlıq edən qrupların tə'siri altında fəaliyyət göstərməsi demokratiyanın heçə enməsini və ya müəyyən dərəcədə tənəzzülə uğramasını təsdiqləyir.

Elmi ədəbiyyatda göstərildiyi kimi, KİV-nin müstəqilliyi onun ictimai təşkilatlarının müvafiq formaları tərəfindən tə'min oluna bilər. KİV-nin müasir təşkilatlarının üç başlıca forması mövcuddur: xüsusi (kommersiya), dövlət və ictimai-hüquqi. Kommersiya təşkilatının hökmranlıq etdiyi ölkələrdə, məsələn, ABŞ-da KİV xüsusi şəxslərin sərəncamında olmaqla yalnız reklamlardan əldə olunan gəlir və ayrı-ayrı adamların şəxsi köməyi hesabına maliyyələşdirilir. Kütləvi informasiya vasitələrinin kommersiya təşkilatının ən mühüm çatışmazlığı onun bilavasitə reklam verənlərdən və sahibkarlardan asılılığıdır. Digər çatışmazlıq isə KİV-nin fəaliyyətində kommersiya xarakterli

uğurlar naminə ictimai mənafeyin və etik normaların unudulmasıdır. Dövlət təşkilatı şəraitində KİV dövlətə məxsus olmaqla, məhz, onun tərəfindən maliyyələşdirilir və nəzarət olunur. KİV-nin bu təşkilat formasının üstünlüyü ondan ibarətdir ki, o, iri kapitaldan asılı deyildir, parlamentin və hökumətin nəzarətindən kənardadır. KİV-nin ictimai təşkilat forması bir sıra ölkələrdə, xüsusilə Fransada daha geniş yayılmışdır. Lakin belə bir cəhəti də qeyd edək ki, KİV-nin dövlət tərəfindən maliyyələşdirilməsi onun rəqabət aparmaq qabiliyyətinin azalmasına və son nəticədə imtiyazlı dairələrin hakimiyyətinin və bürokratiyanın tabeliyində qərarlaşmasına gətirib çıxara bilər.

KİV-nin ictimai-hüquqi təşkilatı çalışır ki, onu dövlətin və xüsusi adamların asılılığından xilas etsin. İctimai təşkilatın bu forması başlıca olaraq vətəndaşlardan əldə edilən xüsusi vergi hesabına maliyyələşdirilir, hüquqi şəxs və özünü idarə hüququna malikdir. KİV-nin ictimai-hüquqi təşkilatına ən mühüm ictimai qrupların və təşkilatların nümayəndələrindən ibarət olan ictimai şuralar tərəfindən nəzarət edilir. Radio və televiziya ictimai təşkilatının bu modelinə ən çox Almaniya Federativ Respublikasında təsadüf olunur. Bununla yanaşı həmin ölkədə şəxsi radioteleviziya verilişləri də mövcuddur. Mətbuat isə tamamilə xüsusi adamlara məxsusdur, ayrı-ayrı imtiyazlı şəxslərin əlindədir.

KİV-nin öz funksiyalarını səmərəli yerinə yetirməsi baxımdan onun plyuralizmi mühüm əhəmiyyətə malikdir. KİV-nin plyuralizmi cəmiyyətdə çoxlu informasiya agentliklərinin, qəzet, radio və televiziyanın mövcudluğu sayəsində, eləcə də televiziya və radio proqramlarının müstəqilliyi nəticəsində tə'min oluna bilər.

Müasir şəraitdə sərt rəqabətin tə'siri altında demokratiya üçün təhlükəli olan bə'zi meyllər təzahür edir. Həmin meyllərdən biri məhz, KİV-nin təmərküzləşməsidir. Kütləvi informasiya vasitələrinin təmərküzləşməsi meyli əvvəl, mətbuatın məhdudlaşmasında, xüsusilə yerli qəzetlərin kəskin şəkildə ixtisara düşməsində və geniş informasiya şəbəkəsinə nəzarət edən iri milli və transmilli korporasiyaların (şirkətlərin) yaranmasında nəzərə çarpır. Məsələ ondadır ki, kiçik teleradio

stansiyalarının yeni təzahür edən nəhəng informasiya məkanlarından asılılığı getdikcə güclənir. Heç də təsadüfi deyil ki, dünyanın xeyli dövləti bu prosesin qarşısını almaq məqsədilə tə'sirli tədbirlərə əl atırlar. Belə ki, nəhəng informasiya məkanlarının, iri milli və transmilli şirkətlərin kiçik kütləvi informasiya vasitələrini "udmasının-həzm etməsinin qarşısını almaq məqsədilə bir sıra dövlətlər xüsusi qanunlar qəbul edirlər. Şübhəsiz KİV-nin plyuralizminin məhdudlaşdırılması sadəcə olaraq təkcə onun demokratik inkişafının qarşısında sədd çəkilməsi deyil, həm də müəyyən mə'nada cəmiyyətdə demokratikləşmə prosesinə xələl yetirilməsidir.

Kütləvi informasiya vasitələri özbaşına fəaliyyət göstərən tə'sisat deyildir. O, bu və ya digər ölkədə müəyyən şəxslər və ya xüsusi orqanlar tərəfindən idarə olunur və nəzarət edilir. KİV-nin kommersiya xarakterli ictimai təşkilatına hər şeydən əvvəl, onun sahibi, dövlətin himayəsində olan kütləvi informasiya vasitələrinə onun özü və ictimai hüquqi informasiya təşkilatına isə ictimaiyyət nəzarət edir. KİV-nin kimlər tərəfindən idarə olunmasından və ona hansı orqanın, təşkilatın və şəxslərin nəzarət etməsindən asılı olmayaraq bütün hallarda o, qanun çərçivəsində fəaliyyət göstərir.

Maraqlıdır ki, dünya ölkələrinin əksəriyyətində KİV-nin fəaliyyətində etik və hüquqi normalara necə riayət edilməsinə ümumi nəzarət edən xüsusi orqan mövcuddur. Məsələn, Fransada belə nəzarət orqanı kommunikasiya vasitələri üzrə Ali şura adlanır. Bu şura nəinki dövlətin himayəsində olan və xüsusi teleradio stansiyalarına nəzarəti həyata keçirir, həmçinin, onların efirə çıxmacı hüququ əldə etmələri üçün onlara dövlət tərəfindən lisenziyalar verilir. İngiltərədə isə radio və televiziyanın fəaliyyətinin ümumi istiqamətini hökumət və parlament müəyyən edir. Mətbuatda etik normaların gözlənilməsinə isə xüsusi özünə nəzarət komisiyası diqqət yetirir. Kütləvi informasiya vasitələrinə cəmiyyət tərəfindən demokratik nəzarət heç də söz azadlığının və rə'yi ifadə etməyin pozulması deyildir. Bu və ya digər şəxsin informasiya və siyasi azadlığı, eləcə də digər azadlıqları o halda məhdudlaşdırıla bilər ki, o, digər vətəndaşların və dövlətin azadlıqlarını və hüquqlarını pozur. Siyasi və iqtisadi hakimiyyət kimi informasiya hakimiyyətinə də cəmiyyət tərəfindən nəzarət

edilməsinə daim ehtiyac duyulur. Elə bu cəhətin özü də kütləvi informasiya vasitələri ilə hakimiyyət strukturlarının qarşılıqlı əlaqəsinin ifadəsidir.

Kütləvi informasiya vasitələri ictimai inkişafın keçid mərhələlərində, məsələn, respublikamızın hazırkı vəziyyətində daha böyük rol oynayırlar. KİV-nin səmərəli fəaliyyəti olmadan geniş əhali kütlələrinin siyasi şüurunun, siyasi fəaliyyət yönümünün və məqsədlərinin dəyişdirilməsi və sosial dəyişikliklər siyasətinin kütləvi şəkildə müdafiəsi mümkün deyildir.

# VII FƏSİL

## DİN VƏ SİYASƏT

### 1. DİNİN TƏŞƏKKÜLÜ, MAHİYYƏTİ, ƏSASLARI

İdrakın zəruri və tarixən ən qədim formalarından biri dindir. Dinin başlıca məqsədi insanın həyatının mənasını, təbiətin və cəmiyyətin varlığını müəyyənləşdirməkdən ibarətdir.

"Din" latın mənşəli reliqio terminindən götürülməklə vicdanlı münasibət, vicdanlı olmaq, müqəddəslik, ehtiram etmə, əşyaya sitayiş mənalarını ifadə edir. İlk əvvəllər bu termin yunan ioniyasında (İoniya - qədim Yunasıstanın İoniya vilayətinin adından götürülmüşdür) pərəstiş qaydalarını, adətlərini gözləmək kimi başa düşülürdü, lakin sonralar etiqadın məcmuu və sitayiş praktikası "din" adlandırıldı.[1]

Latın termini olmaq etibarilə reliqionun etimologiyası bir neçə aspektdə təklif olunmuşdur. həmin aspektlərdən daha çox qəbul olunanı roma mütəfəkkiri **Siseronun** (er.ə. 106-43-cü illər) və xristianlığın məddahı (müdafiəçisi) **Laktantsiyanın** (er.ə. 250-ci er. sonra 325-ci illər) təklif etdiyi aspektlərdir. Siseron "din" termininin latın dilinə məxsus olan reliqere felindən əmələ gəldiyini və geri qayıtmaq, yenidən oxumaq, fikirləşmək, seyr etmək, qorxmaq mənasını əks etdirməklə Allahdan qorxan, Allaha pərəstiş mənasını təcəssüm etdirdiyini bildirmişdir. Laktantsi isə belə güman edirdi ki, reliqio sözü latınca reliqare felindən yaranmaqla bağlamaq, əlaqələndirmək, birləşdirmək kimi səciyyələnir və dinə tətbiq olunduqda Allaha xidmət etmək üçün bizi onunla birləşdirən və din vasitəsilə itaət etmə baxımdan mənalanır. Qeyd edək ki, Laktantsi tərəfindən təklif olunan etimologiya xristian mədəniyyətində möhkəmləndirilmişdir.

---

[1]Бенвинист Э. Словар индоевропейских социальных терминов. M., 1995 səh. 394.

Etiqad və mərasim - sitayiş praktikası siyasətdən "yaşlıdır". O, təxminən 40 min il bundan əvvəl homo sariens (insanın heyvanlar aləmindən təcrid olunması) təşəkkül tapdığı vaxtdan təzahür etmişdir. İnsanın dünyanı mənimsəməsinin ilk tarixi tipi ibtiadi icma – **sinkretik tipdir**. (sinkretik - bir-birinə uyğun gəlməyən ziddiyyətli görüşlərin birləşdirilməsi) Bu tipin mənəvi sferası bilik və bacarığı, norma və nümunələri, etiqadı və mərasimləri birləşdirən mifologiyanı yaratdı. Mifologiyanın məcmuunun differensasiyası gedişində mənəvi mədəniyyətin müxtəlif sahələri tədricən və nisbi şəkildə müstəqil mənəvi sfera kimi təşəkkül tıpır: incəsənət, əxlaq, fəlsəfə, din, siyasət, elm və s. Mənəvi mədəniyyətin bu növləri bütün mürəkkəbliyinə və yekcinsliyinə baxmayaraq tarixən bir-birinə qrşılıqlı təsir göstərmişlər. Nəticə etibarilə mənəvi həyatın bütövlüyü və universallığı qərarlaşmışdır. Ayrı-ayrı dövrlərdə müxtəlif tarixi-mədəni situasiya təşəkkül tapmış, mədəniyyətin bu və ya digər sahələri daha intensiv inkişaf istiqamətinə malik olmuşdur. Məsələn, incəsənət və fəlsəfə daha çox antik dövrlərdə, din orta əsrlərdə, fəlsəfə XVII-XIX əsrlərdə, elm XIX və xüsusilə XX əsrdə inkişaf etmişdir. Din bəşəriyyətin əldə etdiyi təcrübəyə əsaslanaraq insan həyatının ən mühüm təzahürlərini məsələn, ailədə və məişətdə davranışı, əxlaqi qaydaları, əməyə, təbiətə. cəmiyyətə, dövlətə münasibəti tənzimləyir. Universumun son məqsədi haqqında öz təsəvvürlərini əsaslandırmaqla, din kainatın və bəşəriyyətin vəhdətini başa düşməyə imkan yaradır. O, həqiqət sistemini ehtiva etməklə insanı və onun həyatını dəyişdirməyə qadirdir. Dini doktrinaların səciyyəvi xüsusiyyəti bundan ibarətdir ki, kollektiv təcrübəni ifadə edir və buna görə nəinki hər bir dindar adamın eləcə də qeyri-dindarların nüfuzunu qazanır. Dini doktrinalar hər şeydən əvvəl, belə bir suala cavab verməlidir ki, Allah varmı? Onu necə dərk etmək olar? Allahı dərk etmək mümkündürmü? Din kainatı (dünyanı) başa düşməsini **Müqəddəs yazıların mətnində** təcəssüm etdirir, eləcə də hər bir ünsürü simvolik əhəmiyyət daşıyan dini qaydalarda və əşyalarda ifadə edir. Məbəd, məscid, ikona (İkona - xristianlarda Allahın, yaxud evliyaların şəkli) eləcə də Müqəddəs yazılar dərin simvolik məzmun daşıyır. Şüurun spesifik forması olan din etiqad, inam,

bilik mexanizminə, başqa sözlə gündəlik təcrübəyə əsaslanır. Dini inam reflekslərlə müdafiə olunur, fərdin faciəli təcrübəsinin (ölüm qorxusu və ya yaxınların itirilməsi) mənalandırılması vasitəsilə təşəkkül tapır və möhkəmləndirilir. Bu isə fərdi öz həyatını və düşüncə tərzini köklü surətdə dəyişdirməyə sövq edir. "Din inam olmaqla, əxlaqi və estetiki də əhatə edən xüsusi tərzdə yaranan dəyərlər hissi, canatma, həyat qaydalarını özündə ehtiva edən mürəkkəb yaşantı kompleksidir".[1]

İnam bir qayda olaraq mövcud dini sistemin başlıca müddəalarının dünyagörüşü və psixoloji cəhətdən qəbul olunması kimi müəyyənləşdirilir...[2]

Ən ümumi formada qeyd etmək olar ki, din cəmiyyətin, qrupların, ayrıca insanın mənəvi həyatının sferalarından biridir, eləcə də dünyanın mənəvi cəhətdən mənimsənilməsinin praktiki üsuludur, mənəvi istehsalın sahələrindir. O, keyfiyyətcə müxtəlif tərəflərlə səciyyələndirilə bilər. Əvvəla, din insanın və cəmiyyətin təşəkkülü prosesində onların həyat fəaliyyətinin aspekti kimi yaranması ilə səciyyələnir.

İkincisi, din özgəninkiləşdirmə münasibətlərinin ifadəsi və aradan qaldırılması üsuludur. O, özgəninkiləşdirmə münasibətlərini ifadə etməklə həm də onların aradan qaldırılması üsulu kimi çıxış edir. Din həqiqi özgəninkiləşdirmənin nəticələrini xeyriyyəçilik, mərhəmət, əlaqəsi kəsilən fərdləri birləşdirmək vasitəsilə yüngülləşdirir, hakmiyyətdən kənar qüvvələrin uzaqlaşdırılması məqsədilə özünün təmin olunmasını ideyaların və mərasimlərin təmizliyində, günahını boynuna almaqda (tövbə etməkdə), xilaskarlıqda, Allahdan ayrı düşməyi aradan qaldırmaqda axtarır.

Üçüncüsü, din gerçəkliyin əks etdirilməsidir, öz-özlüyündə təbiətdə, cəmiyyətdə baş verən proseslərin və insana aid olan xüsusiyyətlərin təsviridir. O, əks etdirdiyinə uyğun gələn informasiyanı qəbul edir, əldə etdiyi məlumatları fəal surətdə yenidən işləyib hazırlayır və kökündən dəyişdirir, dünyanın mənzərəsini, insanın, təbiətin, cəmiyyətin surətini yaradır. Dində gerçəkliyin çoxcəhətli hadisələri əks olunur.

---

[1] 1. H.İmanov, A.Əhədov, N.Əhmədli. Etnik dinlər və dünya dinləri. Bakı, "Elm" 2003, səh. 11)
[2] 2. (Б.С.Ерасов. Социальная культурология. М, 2000. səh. 362)

Dördüncüsü, mənəvi həyata aid fenomen olmaqla, din cəmiyyətə münasibətdə onun yarımsistemi kimi çıxış edir, özünəməxsus ünsürlərə və bu ünsürlər arasında əlaqəyə malik olması ilə səciyyələnir. Dinin strukturu belə fərqlənir:

- dini şüur: adi və konseptual (məzhəb, teologiya və b.), dini fəaliyyət - sitayiş xarakterli (sitayiş) və qeyri-sitayiş xarakterli (məsələn, dini-siyasi), münasibətlər - sitayişli və qeyri-sitayişli (fəaliyyətin növlərinə müvafiq olaraq fərqlənən); təşkilatlar.

Mənəvi həyatın sahəsi olmaq etibarilə dinin məzmunu, xüsusiyyəti dini şüurla müəyyənləşir. Dinin dünyanın praktiki-mənəvi mənimsənilməsinin digər üsullarından nisbi həddi məhz, onunla bağlıdır. Dini şüura bir sıra cəhətlər xasdır: təxəyyüllə yaradılan hissi əyanilik, simvoliklik, güclü emosionallıq, ən başlıcası inteqrativ xüsusiyyətə malik olan dini inam. Din kainatı və insanı dərk etməyin spesifik intuitiv - mistiki üsullarını işləyib hazırlamışdır. həmin üsullardan vəhy (xəbər) və meditatsiya (düşüncənin əşyalara nüfuzu) daha çox diqqəti cəlb edir.

Vəhy anlayışı dini təsəvvürlərin təkamülü prosesində formalaşmışdır. İlk əvvəllər o, xüsusi seçilmiş yüksək səviyyəli qüvvələrə verilən istedad, qabiliyyət mənasında başa düşülmüşdür. Onlar insanın hipnoz, şüursuz vəziyyətə düşdüyü məqamda kahinlər, falçılar, cadugərlər adından danışırmışlar. Bəzi dinlər məsələn, xristianlıq vəhyi fərdin gərgin fikrə dalması nəticəsində həqiqətin açılması kimi qiymətləndirir. Vəhy həqiqəti axtarışların obyekti və ilahi iradənin nəticəsi deyildir. Xristian dini vəhyin iyerarxiyalı-pilləli xarakterə malik olmasını göstərir: Yeni vəsiyyət, Köhnə (Qədim) Vəsiyyət, kilsə başçısının teksti (mətni). Xristianlıqda islahatçı cərəyanın nümayəndələri əksinə, vəhyə ortodoksal (Ortodoksal - öz məsləkində sabit və ardıcıl olan) mövqedən yanaşaraq iddia edirlər ki, hər bir insan Allahla ünsiyyətdə ola bilər və ondan vəhy əldə etmək imkanına malikdir.

Müqəddəs yazılara daimi müraciət yeni həqiqətləri üzə çıxarmaq üçün dindarlara imkan yaradır. Meditatsiya - əşyalara (şeylərə) nüfuz edən zehni düşüncənin bir obyektdə dərinləşməsi yolu ilə əldə olunan, insanın diqqətindən təcrid edilən bütün kənar amillərin aradan qaldırılmasıdır.[1]

---

[1] (Н.Ф.Бучило, А.Н.Чумаков, Философия. М., 2001, səh. 147)

Dində meditatsiya fərdi şüurun Absolyutda (mütləq olanda) ərimasini ehtiva edir. Xristianlıqda meditatsiya bəşəri və ilahi şəxsiyyətin qovuşması kimi şərh olunur. Meditatsiyanın nüfuz etməsi bir qayda olaraq refleksiyanın təşəkkülünün təbii prosesində fəaliyyətin müəyyən ardıcıllığı ilə əlaqədardır. O, bir sıra psixi texniki üsullardan istifadə olunmasını nəzərdə tutur.

Dindar inanır ki, bunun köməyilə o, fövqəltəbii və xüsusi psixi qüvvədən istifadə edərək özünü idarə etmək, özünü və təbiəti anlamaq imkanı qazanır. Meditatsiyanın idraki üsul olmaq etibarilə səmərəliliyi elmdə də etiraf olunur, məsələn, daxili xəstəliklərin müalicəsinə istiqamətlənən psixi texniki məşq sistemi dini-mistik ideyalarla əlaqədar deyildir.

İnsanın şüuru, düşüncə tərzi birmənalı xarakter kəsb etmir və bir qayda olaraq ziddiyyətli olması ilə səciyyələnir. Nər hansı bir şəxs öz şüurunda elmi, dini və digər mənəvi fenomenləri sistem halında əks etdirə bilər və etdirir də. Mütəfəkkirlər içərisində ilk dəfə olaraq, antik yunan filosofu **Heraklit** təfəkkürün (zəkanın) müxtəlif tipli xarakterə malik olduğunu sezmişdir. O, qeyd edirdi ki, bir üsulla düşünmək məhdud xarakter daşıyır, insan bu yolla hər şeyi dəyişdirə bilməz. Zəka isə təbiəti bütöv halda, hərəkətdə və qarşılıqla əlaqədə dərk etmək imkanına malikdir. **Platon** belə hesab edirdi ki, zəka mövcud olanı anlayışlarda dərk etmək qabiliyyətidir, düşüncə isə praktiki fəaliyyətə gündəlik tətbiq edilməsi ilə səciyyələnir.

**Nikolay Kuzanskiyə** görə düşüncənin mahiyyəti mücərrədlikdir.

Din azadlığa malik olmamaq, asılılıq, hökmranlıq - tabelik münasibətlərində real əsasa və zəminə malikdir, həmin münasibətlərdə idarəetmə, göstəriş, məqsədyönlü tənzimləmə dəyərsiz məna kəsb edir. Ümumiləşdirici formada dinin əsası və zəmini aşağıdakılardan ibarətdir: sosium, antron, sosial-mədəni, antropoloji, psixoloji, qnoseoloji əsaslar və zəminlər. Dinin sosium (sosium - ümumi, universal) əsası cəmiyyətin həyat fəaliyyəti ilə bağlıdır, onlar maddi-iqtisadi, texnoloji və mənəvi həyat sferasında bunlardan törəyən münasibətlər - siyasi, hüquqi, dövlət, əxlaqi və digər belə obyektiv münasibətlər sayəsində yaranır.

Həmin münasibətlər insanların gündəlik həyatı və onlara yad olan ünsürlər üzərində hökmranlıq edir, azadlıq əldə etməyə, adamların xarici şəraitdən asılılığına istiqamətlənir. Bu münasibətlərin başlıca tərəfi aşağıdakılardan ibarətdir: ictimai proseslərin kortəbiiliyi; arzu olunan fəaliyyətin arzulanan nəticələrinə inamın təmin edilməməsi və məhsuldar qüvvələrin inkişaf səviyyəsinin qənaətbəxş vəziyyətdə olmaması; mülkiyyətin özgəninkiləşdirilmiş formalarının inkişafı; işçinin qeyri-iqtisadi və iqtisadi məcburetməyə məruz qalması, şəhər və kənd həyatı şəraitində mənfi amillərin mövcudluğu; sinfə, təbəqəyə, sexə, silkə, etnosa mənsub olmaqda sərbəstliyin qeyri-mövcudluğu, belə çərçivədə fərd çoxluğun məhz, nümunəsi kimi çıxış edir; əmək bölgüsünün məhdudlaşdırılması şəraitində fərdin qismən (natamam) inkişafı; amiranə - avtoritar münasibətlər; etniklərarası münaqişələr, bir etnosun digərini əsarət altına alması; təbii fəlakətdən və ekoloji böhran prosesindən asılılıq.

**Dinin antrop** (Antrop - insan amilinin iqtisadi tərəfi) **əsası** insanın istehsal fəaliyyətinin nəticəsi kimi təzahür edir.

Antrop amillərin fəaliyyəti bəşəriyyəti fəlakətli həddə sövq edən texnogen sivilizasiya şəraitində kəskin şəkildə güclənmişdir. Elmi-texniki tərəqqinin nəticələri ziddiyyətlidir: bir tərəfdən, həmin prosesdə əldə olunan industrial və elmi nəticələr insana firəvanlıq perspektivi açır, digər tərəfdən isə ekoloji böhran təhlükəsini artırır, hətta ən mükəmməl texnoloji sistem də gözlənilməz və fəlakətli hallar üçün təminat vermir. Belə hal nüvə energetikası, kosmosun mənimsənilməsi, kimya sənayesi, neft, qaz istehsalı və digər sahələrdə xüsusilə təhlükəlidir.

**Dinin sosial mədəni əsası** dəyərlər sisteminin tənəzzülə uğramasını, qeyri-mənəviliyin (müəyyən mənada mənəviyyatsızlığın güclənməsini, stisyentizmin (Stisyentizm - latın dilində elm, bilik deməkdir) üstünlüyünü təmin edən irəliləmələri, faşizmi, ticarətləşməni, bayağı kütləvi mədəniyyətin geniş yayılmasını, incəsənətin çətin vəziyyətə məruz qalmasını, əxlaq düşgünlüyünü və s. şərtləndirir.

**Dinin antropoloji** (Antropologiya - insanın bioloji təbiətindən bəhs edən elm) **kökü** fərd olmaq etibarilə insan həyatının elə tərəflərini əmələ gətirir ki, bu zaman varlığın

incəliyi büruzə verilir, xəstəliklərin, epidemiyanın, sərxoşluğun, narkomaniyanın, mənəvi pozğunluğun, ölümün, etnosun genofondunun kəskin həddə çatmasının, "homo sariens"in aradan qalxması təhlükəsinin və bəşəriyyətin məhvinin mövcudluğu məhdudlaşır.

**Dinin psiloxoloji** zəmini psixologiya sferasında (ictimai və fərdi psixologiyada) mövcudluğu ilə səciyyələnir, başqa sözlə ictimai psixologianın böhranlı vəziyyətini, qrup halında və kütləvi qorxunu, iztirabı, insanlararası ünsiyyətin səbatsız (yanlış) xarakterini, dərk olunmamış prosesləri, ictimai və qrup halında rəyi, nəsihət, təqlid, adətlər, ənənələr mexanizmini, fərdin digər adamlardan hərtərəfli asılılığı hissini keçirməsini, ölüm qorxusunu, şəxsiyyətin mənəvi düşgünlüyünü, intuisiyanı və s. ifadə edir.

Nəhayət, **dinin qnoseoloji zəmini** dərk olunmayanı ("sirri") bilməməyi, biliklərin nisbiliyini və onun yanlış istiqamətini, gələcəkdə baş verəcək xeyli hadisədən qabaqcadan xəbər verə bilməməyi, hissi idarkın illüziyasını (xülyasını), təfəkkürün metafizikliyini, mücərrəd olanın kokretdən təcrid olunmasını və s. təcəssüm etdirir.

## 2. SİYASİ MÜNASİBƏTLƏRİN VƏ PROSESLƏRİN DİNDƏ İFADƏSİ

Siyasi münasibətlərin və proseslərin dində təcəssümü hər şeydən əvvəl, siyasi münasibətlərin hakimiyyət xarakteri ilə, məcburetmə mexanizmi və avtoritar təsirlə, dövlətin gücündən, o cümldən repressiya (Repressiya - cəza, cəza tədbirləri) mexanizmindən istifadə olunması ilə bağlıdır. Alman klassik filosofu Lüdviq Feyerbax bu əlaqəni sərrast ifadə edərək bildirirdi ki, dinin əsasını insanın asılılıq hissi təşkil edir. Tarixin ilk mərhələlərində bu asılılıq təbiətin qüvvələrini və hadisələrini təcəssüm etdirən təbii dinlərdə əks olunurdu. Lakin insan tədricən siyasi varlıq kimi təşəkkül tapır. L.Feyerbaxın yazdığı kimi, "insan sırf fiziki varlıqdan siyasi varlığa çevrilir".[1]

---

[1] (Фейербах Л. Избранные филосовские произведения. Т.П.М., 1955, səh. 456)

Siyasətin fərddən və ictimai qruplardan özgələşməsi, fəaliyyətin bu və ya digər növünə siyasi məcburetmə, işçinin siyasi vasitələrlə istismarı, dövlətin zülmü, hakimiyyətdən təzyiq mexanizmi kimi istifadə olunması, etnokratiya, soyqırım, müstəmləkəçi dövlətlərin müstəmləkə vəziyyətində olan ölkələri istismar etmələri, azadlığa malik olmamaq, asılılıq, hökmranlıq-tabeçilik münasibətlərini şərtləndirmişdir. Bundan əlavə, siyasi amil müəyyən qrupların, təşkilatların, təsisatların sosium (məsələn, istehsal sahəsində bütövlükdə və ya onun ayrıca bölməsində dağıdıcı siyasət), antrop (məsələn, sənaye sahəsi mühitini əhatə edən çirklənməni himayə etmək, kimyəvi, nüvə, bioloji və bu kimi silahların istehsalına sifariş vermək), sosial-mədəni (məsələn, təhsilin və mədəniyyətin inkişafına büdcədən ayrılan xərclərin ixtisar olunması), antropoloji (məsələn, səhiyyəyə dair proqramın reallaşmasına optimal minimum vəsaitin ayrılmaması), psixoloji vəziyyət (məsələn, kütləvi informasiya vasitəsilə qorxu və həyəcanın aşılanması) dinin əsası və zəmininin fəaliyyətini gücləndirə bilər.

Siyasət-dövlət, hakimiyyət münasibətləri öz ifadəsini həm də dini şüurda, fəaliyyətdə, münasibətlərdə, təşkilatlarda tapır. Bu münasibətlər Allah haqqında təsəvvürlərin və anlayışların formalaşmasına və inkişafına təsir göstərmişdir. Allah haqqında daha ilk təsəvvür tayfa Allahının surətidir. Bu təsəvvür qəbilə quruluşundan sonra tayfa etnosunun təşəkkülü və inkişafı şəraitində yaranmışdır. Tayfa Allahı mövcud tayfanın nümayəndələrini birləşdirirdi, tayfanın digər tayfalardan ayrılmasını ifadə edirdi, mövcud etnik qrup çərçivəsində "fəaliyyət sahəsi" ilə məhdudlaşırdı, bu sahədən kənar sferanı digər Allahlar idarə edirdi. O, həyat fəaliyyətinin təzahür etdiyi bütün prosesləri "tənzimləyirdi" (tayfaya aid olanları), ən başlıcası öz tayfasını müdafiə edən, digər tayfalarla və onların Allahları ilə mübarizəyə ruhlandıran Allah idi. (İlk tayfa Allahı nəzərdə tutulur).

Dövlətin yarandığı dövrdə tayfaların və ya şəhər-dövlətlərin ittifaqı daha güclü qəbilənin və ya şəhər-dövlətin ətrafında təşəkkül tapdı, axırıncıların Allahı tayfalararası və ya ümumdövlət Allahına, **panteonun** (Panteon - hər hansı çoxallahlı dinin bütün Allahları) başçısına çevrildi, digər tayfaların və şəhər-dövlətlərin Allahları da

ona tabe olmaq hüququ əldə etdi. Nəticə etibarilə **politeizm** (Politeizm - yunan dilində çoxallahlılıq) sistemi yarandı. Bir tərəfdən, əmək bölgüsünün artması, cəmiyyətin differensasiyaya məruz qalması, digər tərəfdən, inteqrasiya proseslərinin təsiri altında hökmdar (çar) hakimiyyətinin formalaşması ilə əlaqədar bəzi xalqlarda monoteizm (Monoteizm - yunan dilində təkallahlılıq) təşəkkül tapdı. Tədqiqatçılar qeyd edirlər ki, çox-cəhətli bütün təbiət və cəmiyyət hadisələrinə nəzarət edən yeganə və tək Allah haqqında təsəvvürlər və anlayışlar eləcə də başda hökmdar olmaqla monarxiya istibdad quruluşunun yaranmasını əks etdirir.

Siyasət-dövlət fenomeni dini münasibətlərdə təkrar istehsal olunur. Dini münasibətlər cəmiyyətin mənəvi sferasına aid olan münasibətlər növünü səciyyələnlirir. Onlar dini şüura müvafiq olaraq təşəkkül tapır, dini fəaliyyət vasitəsilə reallaşır və mövcud olur, onların daşıyıcısı fərdlər, qruplar, təsisatlar, təşkilatlar ola bilər. Dini münasibətlər subyektiv plana, şüur planına malikdir. Axırıncı, adamların obyektivləşdirilmiş varlığa, xüsusiyyətlərə və əlaqələrə, eləcə də dindarların bir-birinə müəyyən münasibətini "nəzərdə tutur".

Birinci münasibət (obyektivləşdirilmiş varlığa) şüur planında açıqlanır, lakin zəruri olaraq adamlar arasındakı həqiqi münasibətlərdə təzahür edir, məsələn, dünyəvi (ruhani olmayan) insanla ruhani adam arasındakı münasibətdə. Lakin dindarların bir-birilə əlaqəsi yuxarıda qeyd etdiyimiz varlığa, xüsusiyyətlərə, əlaqələrə də aid olmaqla həqiqi qarşılıqlı münasibətlər kimi səciyyələnir. Dini şüur digər tərəfdən, həqiqi münasibətləri onların surəti və oxşarlığı baxımdan əks və ifadə etdirməklə dini münasibətlərin sxemini yaradır. Bu sxemə uyğun olaraq obyektivləşdirilmiş (ifadə edilmiş) varlıqların bir-birilə və adamlarla, adamların bu varlıqlarla və öz aralarındakı münasibətini səciyyələndirir. Dini münasibətlərin sxemi hökmranlıq - tabeçilik münasibətlərinin ("Allah və Allah bəndəsi"), dövlət-hüquqi strukturun ("İlahi səltənət", Allah - "Səma hökmdarı", baş keşiş və "hökmdar", papa - "hökmdar"), mühakimə üsulunun əlaqəsinin (Allah - "hakim", günahkar-mühakimə olunan, "Qiyamət günü" və s.), ailə münasibətlərinin ("Allah-Ata", "Allah-oğul", "qardaş", "bacı") modelini işləyib hazırlayır.

Siyasi, dövlət-hüquqi münasibətlər dini təşkilatların strukturunda əks olunurlar. Dini təşkilatların təşkili müəyyən normalara, kilsə hüququna və ya nizamnaməsinə, "din adamlarının" məsləhətlərinə, konstitusiyaya və sairəyə əsaslanır. Təşkilati prinsiplər dini təşkilatların tərkib hissəsini, fərdlərin mövqeyi və rollarının məcmuunu, fəaliyyətinin subordinasiyasını (Subordinasiya - xidmətdə kiçiyin böyüyə tabe olması, tabelik) və koordinasiyasını müəyyənləşdirir (Koordinasiya - uyğunlaşdırma, əlaqələndirmə).

Birliklərin ilk özəyi dini icmalardır, icmalar üzərində yüksək səviyyədə təşkil olunan birliklərin mərkəzi (həlqələr kompleksindən ibarət olan) təşəkkül tapır. Birliklərdə spesifik təşkilati əlaqələrə malik olan bir sıra bütöv digər tərkib ünsürlər də mövcuddur, bunlar eyni zamanda ümumi struktura daxildir (məsələn, "ruhanilər", "rahiblər"). Ayrı-ayrı tərkib hissələr xüsusi infrastruktura malikdirlər. Bütün həlqələr, tərkib hissələr bütövün qarşılıqlı əlaqədə olan vasitələrinə, orqanlarına çevrilirlər.

Ailə, etnos, təbəqə, sinif, peşəkar qrup və dövlət öz təbəələri (vətəndaşları) ilə və ya göstərilən birliklərin bir qismi müxtəlif tarixi şəraitdə dinin daşıyıcısı kimi çıxış edə bilər, sosial dini qrupları (öz fəaliyyətinin əsasını və məqsədlərini dini zəmində vurğulayan), dini fərdləri də bu cür səciyyələndirmək olar. Sabit dini birliklər formalaşdıqca dinin saxlanması, inkişafı və fəaliyyətində onların nüfuzu ön plana keçir.

Siyasi münasibətlərin və proseslərin dində ifadəsi nöqteyi-nəzərdən siyasi mədəniyyətin dini aspektinin açıqlanması da elmi əhəmiyyət doğurur. Çünki siyasi mədəniyyət özündə yalnız şüurun və mədəniyyətin (mənəvi mədəniyyət nəzərdə tutulur) əlamətlərini deyil, eləcə də siyasətin xüsusiyyətlərini əks etdirir.

Siyasi mədəniyyətin formalaşmasında və fəaliyyətində din mühüm rol oynaır. Dinlə bağlı olan xeyli ideyalar, sərvətlər, məqsədlər tamamilə bu və ya digər millətin, ölkənin, xalqın siyasi mədəniyyətinə qovuşur. Bu, onunla izah olunur ki, din mövcud xalqın milli və tarixi ənənələrinin tərkib hissəsi olmaq etibarilə onun mədəni irsinə nüfuz edir və müvafiq olaraq həmin xalqın siyasi mədəniyyətinin xarakterində öz əksini tapmaya bilməz. Səciyyəvi haldır ki, bu və ya digər millətin formalaşması, onun

ictimai-tarixi aləmə (meydana) daxil olması tez-tez nədənsə ilahi qüvvə ilə əsaslandırılır. Bunu sübut etmək üçün çox hallarda müqəddəs yazılara, xüsusilə Tövrata və İncilə, eləcə də onların elə yerlərinə əsaslanırlar ki, burada deyilir: Allah dünyanı nəinki idarə edir, eləcə də bütün xalqların içərisindən birini, özünə faydalı olanı seçir.

Qeyd etmək lazımdır ki, "ilahi ideya" bu və ya digər formada yer üzündə mövcud olan bütün xalqların tarixinə nüfuz etmişdir, bununla da onların ən çətin vaxtlarında birliyinin möhkəmlənməsinə imkan yaratmışdır. Yeri gəlmişkən qeyd edək ki, xeyli tədqiqatçı Amerikanın respublikaçılar və demokratlar təsisatlarını dinlə birbaşa əlaqələndirirlər. Hələ XIX əsrin fransız ictimai xadimi və tarixçisi **A.de.Tokvil** iddia edirdi ki, Amerikada kilsə əsl mərhəmət məktəbi olmuşdur. Onun sözlərinə görə, din Amerikanın ilk siyasi təsisatı kimi səciyyələnir. O, respublikaçıların və demokratların dini olmaqla özündə nəinki respublikaçı dəyərləri təcəssüm etdirmişdir, eləcə də ictiami həyatda iştirak etməyin ilk nümunələrin bəxş etmişdir. A.de.Tokvilə görə qanunlarla və ya fiziki şəraitlə müqayisədə əxlaq Amerika demokratiyasının uğurlar əldə etməsinə daha çox imkan yaratmışdır, əxlaqın özü isə dindən köklənir.

Din və sosial mədəni ənənəçilik tez-tez sosial-fəlsəfi və ideya-siyasi mühafizəkarlıqla qovuşur.

Din bütövlükdə həyat tərzinin bir hissəsi olan mədəni sərvətlərlə sıx bağlıdır. O, həmişə ənənəvi sərvətlərin (dəyərlərin) mənbəyinə xidmət etmişdir. Həyat tərzi təhlükəyə məruz qaldığı zaman onun dini və əxlaqi komponentləri adi həyat tərzinin mövcud sistemini müdafiə etmək üçün dayaq nöqtəsi kimi nəzərə çarpır. Buna görə əhalinin ayrı-ayrı kateqoriyalarının müəyyən şəraitdə qanun və qaydaların, intizamın, konsensusun, vətənpərliyin və s. dəyərlərin zəifləməsinə təəssüflü münasibətinin müşahidə olunması tamamilə təbiidir.

Konfessional (dini) amil keçmişdə çox vaxt üstünlük təşkil etmişdir və hazırki şəraitdə də bəzi ölkələrdə sosial-sinfi meylli güclü amil kimi diqqəti cəlb edir. Klerikalizmin[1] və

---

[1] Klerikalizm - siyasi və mədəni həyatda dini təşkilatların hakimiyyətini möhkəmlətməyə çalışan siyasi cərəyan

konfessionalizmin (konfessionalizm - latın dilində Confessionalis sözündən götürülüb - 1) düşüncə və davranış tərzi, müəyyən dini tələb; 2) bir sıra ölkələrdə yüksək dövlət vəzifələrinin dini icmalar arasında bölüşdürülməsi prinsipi (məsələn, Livanda)) ictimai şüura və müvafiq olaraq siyasi mədəniyyətə təsiri məhz, Qərbi Avropanın xeyli ölkələrində müxtəlif yönümlü klerikal partiyaların təşəkkülünü şərtləndirdi, bunların rolunu və əhəmiyyətini isə birmənalı qiymətləndirmək olamaz. Mühafizəkar və hətta mürtəce konfessional partiyalar da mövcud olmuşdur və indi də vardır. Belə partiyalar sosial islahatlar mövqeyindən çıxış edirlər (məsələn, sosial xristianlıq).

Mənəvi mədəniyyətin spesifik komponenti olmaq etibarilə siyasi mədəniyyət fenomenini açıqlayarkən siyasi sosiallaşmanın mühüm amili kimi dini başlanğıcı təhrif etmək aydın şəkildə səhvə yol vermək demək olardı.

Yuxarıdakı mülahizələri yekunlaşdıraraq qeyd etmək olar ki, siyasi mədəniyyət mürəkkəb və çoxtəbəqəli fenomendir. (Ətraflı bax: XVII fəsil) O, tərkib ünsürlərinin müxtəlifliyi və dəyişkənliyi ilə səciyyələnir.

## 3. DİNİN SİYASƏTƏ TƏSİRİ

Din mədəniyyətin xeyli əhəmiyyət kəsb edən, bəzi hallarda isə müəyyənedici rol oynayan komponentidir. Bu cəhət ondan irəli gəlir ki, din sivilizasiya çərçivəsində həyata keçirilən sosial mədəni tənzimləmənin ən mühüm funksiaları ilə bağlı olan xüsusi, yüksək statuslu normaları, dəyərləri, bilikləri və s. qərarlaşdırmaq qabiliyyətinə malikdir. Sivilizasiya sisteminin mərkəzi sayılan dünya dinləri nəinki mənəvi həyatın differensasiyasına, eləcə də ümumiliyin (etnik və milli məhdudiyyətin silinməsi zəminində birliyin yaranmasının) təşəkkülünə imkan yaradır.

Hələ eramızdan əvvəl, I minillikdə o dövrün bir sıra aparıcı sivilizasiyalarında mənəvi inqilab baş verdi və nəticədə alman filosofu K.Yaspers tərəfindən "zamanın oxu" xətti adlandırılan tarixin yeni hesablanması baş verdi. Bu termin o zamanki dünyanın

aparıcı sivilizasiyalarının mənəvi təşkilinin yeni prinsiplərinin formalaşmasının başlanğıcını dürüst ifadə etdi. (Antik dövrün sivilizasiyalarından biri də məhz, siyasətlə daxili bağlılıq kəsb edən dövlət təsisatının yaranması idi) Öz-özlüyündə həmin hadisə mədəniyyətin, dinin və ya fəlsəfənin tarixinə aiddir. Lakin görkəmli izrail alimi Eyzenştadtın qeyd etdiyi kimi, kulturologiya özünün makronəzəri təşəkkülündə "zaman oxunda" (xəttində) əmələ gələn meyllərin, dini sivilizasiyanın özəyini təşkil edən yetkin dünya dinlərinin formalaşmasının əhəmiyyətini nəzərə almalıdır. Belə mənalandırma müəyyən aspektdə siyasi elmə də aid edilməlidir. Bunsuz dinlə siyasətin qarşılıqlı əlaqəsini və təsirini ümumi metodoloji, eləcə də nəzəri-elmi baxımdan təhlil edib aydınlaşdırmaq çətin olardı.

Sosial-siyasi təşkilin dini prinsipi şəxsiyyətlərarası münasibətlərə müraciətlə bağlıdır. Bəşəriyyət tərəfindən yaradılan və yaşadılan dünya dinləri özündə etikanı, hüququ və estetikanı birləşdirən geniş ideoloji sistemin mövcudluğunu nəzərdə tutur.

Bütün ictimai sistemin, onun müxtəlif sferalarının, eləcə də siyasətin təsirinə məruz qalan din onların özünə də əks təsir göstərərək bir sıra funksiyalar yerinə yetirir: dünyagörüşü, müvazinətləşdirmə, tənzimləyici, inteqrallaşdırma[1], dezinteqrallaşdırma[2], legitimləşdirici (qanuni əsasa malik olan), etnik va s. Həmin funksiyalar insanın, cəmiyyətin anlaması nöqteyi-nəzərdən son meyarları, absolyutları (mütləq olanları) bəxş edir, dünyanın mənzərəsini yaradır, məqsədə çatmağı və onun mənasını reallaşdırır, insanın varlığının məhdudluğunu, asılılığını, nisbiliyini, müvəqqətiliyini tamamlayır, ünsiyyəti təmin edir, tənhalığı aradan qaldırır, əzab-əziyyətə təsəlli verir, onu yüngülləşdirir.

Dini normaların, hüququn, əxlaqın köməyilə adətlərin, ənənələrin, təsisatların təqlid olunması üçün fərdin, qrupun, cəmiyyətin fəaliyyətinin, şüurunun və davranışının idarə edilməsi həyata keçirilir. Din müəyyən münasibətlərdə fərdləri, qrupları, təsisatları birləşdirə, digər münasibətlərdə isə ayıra bilər, eləcə də bəzi ictimai qaydaları, müəssisələri (dövlətə aid olan, siyasi,

---

[1] İnteqrallaşdırma - inkişaf prosesində ayrı-ayrı hissələrin və ya ünsürlərin vahid tam halında birləşməsi

[2] Dezinteqrallaşdırma - bütövün öz tərkib hissələrinə parçalanması

hüquqi və s.), münasibətləri qanunilaşdirməyə qadirdir və ya əksinə, onları "günahkar", "lüzumsuz", "əxlaqa sığmayan şər" kimi elan etmək iqtidarındadır.

Dinin cəmiyyətdəki yerindən asılı olaraq onun təsiri çox və ya az nəzərə çarpa bilər. İctimai həyatda dinin yeri **Sakralizasiya və sekulyarizasiya** gedişində dəyişir. Sakralizasiya latın dilində Sacrare sözündən götürülüb Allaha həsr etmək, müqəddəsləşdirmək, toxunulmaz elan etmək, ilahiləşdirmək mənasını verir. O, ictimai şüurun müxtəlif formalarının və fərdi şüurun, ictimai münasibətlərin, adamların, təsisatların fəaliyyətinin və davranışının dini cəhətdən təsdiqlənmiş sferalara cəlb olunması prosesi kimi səciyyələnir. Sekulyarizasiya isə (latın dilində sonralar təzahür edən Saecularis məfhumundan əxz olunmaqla ruhi-dini olmayan baxımdan mənalanır) ictimai və fərdi şüurun dini ideya və təsəvvürlərin təsirindən, ictimai münasibətlərin, fəaliyyətin və təsisatların dini sanksiyalardan azad olması prosesidir. Sakralizasiya meyli kapitalizmə qədərki cəmiyyət tipləri üçün səciyyəvidir. Burjua münasibətlərinin təşəkkülü, orta əsrlərin patriarxal icmalarının dağılması, elmin və sənayenin inkişafı ilə sekulyarizasiya prosesi genişlənir.

Hazırki şəraitdə din ayrı-ayrı ölkələrdə və regionlarda müxtəlif yer tutur. Onun təsir dərəcəsi iqtisadiyyatın və siyasətin inkişafı səviyyəsindən və xarakterindən, sinfi, etniklərarası və digər münasibətlərdən, dini təşkilatların fəallıq tədbirlərindən və s. asılıdır. Ənənəvi nəsil-qəbilə dini Afrika və Cənubi Amerikanın bir sıra ölkələrində, Avstraliyada, islam dini Şimali Afrikada, Yaxın və Orta Şərqdə, İndoneziyada, buddizm hindiçin ölkələrində, iudaizm (yəhudi dini) İzraildə, induizm (hindistanda yayılmış brahmanizm dinini müasir forması) hindistanda, sintoizm Yaponiyada böyük təsir gücünə malikdir. Xristian təşkilatları inkişaf etmiş ölkələrdə (ABŞ, İngiltərə, İtaliya və b.), islam dini müəyyən müsəlman ölkələrində (Pakistan, İran, Səudiyyə Ərəbistanı və b.) ictimai həyatın müxtəlif sferalarına, eləcə də siyasətə fəal müdaxilə edirlər.

Tarixin müxtəlif mərhələlərində bu və ya digər regionlarda və ölkələrdə siyasi münasibətlər dini cəhətdən qanunilaşmiş (rəsmiləşmiş) və qanuni şəkil almaqdadır, dini əhəmiyyət kəsb

etmiş və etməkdədir. Siniflərin, təbəqələrin, peşə qruplarının və digər qrupların mənafeyi, siyasi münaqişələr quldarlıq və feodalizmdə, "asiya istehsal üsulu" şəraitində və eləcə də patriarxal - nəsil və feodal münasibətlərinin saxlandığı ölkələrdə, bəzi hallarda isə inkişaf etmiş ölkələrdə dini formada çıxış etmiş və edir.

Sosial xidmət prinsipinin tərəfdarı olan dini fərdlər, qruplar, birliklər, təşkilatlar (dünyanın xristianlaşdırılması, islamlaşdırılması və s. məqsədilə) dini autizm (yunanca autos sözündən götürülüb tək özün - heç kimsiz mənasını verir) məqsədlərini, başqa sözlə "dünyadan", "aləmdən" uzaqlaşmaq, qaçmaq iddiasını rədd etməklə siyasi həyata fəal cəlb olunurlar və siyasətin subyekti kimi təşəkkül tapırlar. Dini liderlər, dini təşkilatların rəhbərləri və bu təşkilatların özü, rahiblər cəmiyyəti, etnik dini və sosial dini qruplar, dini dövlətlər (müxtəlif dinlərə və konfessiyalara aid olan), dinin digər daşıyıcıları, xristianlığı, müsəlman, buddizm, iudaizm, induizm və b. dinləri təmsil edən partiyalar, həmkarlar təşkilatları, qadın və gənclər hərəkatları, müxtəlif vəzifələri həll etmək məqsədilə yaranan beynəlxalq (regional və qlobal) ittifaqlar - İslam Konfransı Təşkilatı, İslam dünyası Cəmiyyəti, Ümumdünya xristian Kilsə Şurası, Buddistlərin Ümumdünya Qardaşlığı, Ümumdünya Sionist təşkilatı (yəhudi dininin siyasi konsepsiyasını və praktikasını əsaslandırmaq üçün istifadə olunan) və xeyli digərləri siyasətin dini subyekti kimi çıxış edə bilərlər. Dini subektlər müəyyən siyasi məqsədləri formalaşdırır, dini-siyasi konsepsiyaları və proqramları, dini təşkilatların huquqi normalarını,dövlətin təşkili prinsiplərini və s. işləyib hazırlayırlar. Siyasi, əxlaqi və dini məsələlərə dair papanın, müsəlman dininin ən nüfuzlu liderlərinin müraciətləri dini subyektlərin fəaliyyətində əhəmiyyətli yer tutur. XX əsrin ikinci yarısında müxtəlif mövqelərdən - "sol", "mötədil", "sağ" mövqelərdən "siyasi teologiya" fəal surətdə işlənib hazırlanır. "Sollar" kimi xristian "azadlıq teologiyası", "inqilab teologiyası", "feminist teologiya" (Feminizm - qadınlara kişilərlə bərabər hüquq verilməsini tələb edən qadın hərəkatı), "qaraların teologiyası", "ekoloji teologiya" səciyyələnir. "Sağ" mövqedən müxtəlif fundamentalist dini-siyasi konsepsiyalar diqqəti cəlb edir. Təəssüf ki, və heç bir əsas olmadan xristianlıq aləminə aid olan bəzi dövlətlərin siyasətində və siyasi təbliğatında

"islam fundamentalizmi" ideyası nəzərə çatdırılır. Mahiyyəti etibarilə son dərəcə humanist, bəşəri din sayılan islamda da dini-hüquqi məktəblər təşəkkül tapmış və fəal fəaliyyət göstərir. Sünnilikdə hənbəli, hənəfilik, şafii və maliki, şiəlikdə isə zeydilik, cəfərilik və ismailik məzhəbləri buna misal ola bilər[1]. Əlbəttə, siyasət-dövlət konsepsiyası, hüquqi görüşlər və normativlər digər dinlərdə və konfessiyalarda da geniş əksini tapmışdır.

Dini münasibətlərin xarakterindən asılı olaraq din siyasi proseslərə, münasibətlərə, təsisatlara müxtəlif təsir göstərə bilər.

Həmin münasibətlər həmrəylik, bitərəflik, rəqabət, münaqişə, dini düşmənçilik və ədavət, tez-tez güclü dini fanatizm (mövhumat) meylləri ilə ifadə oluna bilər. Lakin hətta "dinc yanaşı yaşamaq" şəraitində də bir qayda olaraq mövcud birliyin, konfessiyanın, istiqamətin dini üstünlüyü barədə təsəvvürlər təzahür edir. Dini münasibətlərin xarakterindən asılı olaraq din siyasi gərginliyi və qarşıdurmanı yüngülləşdirə bilər və ya təbəqələrin, siniflərin, etnosların, digər ictimai qrupların siyasi ziddiyyətlərini kəskinləşdirmək mövqeyindən çıxış etməsilə nəzərə çarpar. Tarixən siyasi və dini proseslərin "birləşdirilməsinin" məhsulu olan dini-siyasi hərəkat təşəkkül tapmışdır. Dini subyektlərin sosial-siyasi praktikası hakimiyyətə, rejimə, mövcud qaydalara, siyasətin digər obyektlərinə münasibətdə "müdafiəçi", "bitərəf", "radikal - rədd edən" kimi səciyyələnmişdir.

Dini-siyasi münasibətlərin və hərəkatların xüsusi forması dini müharibələrdir. Mahiyyəti silahlı toqquşmalardan ibarət olan bu müharibələrin başlıca məqsədi dini azadlıq əldə etməkdən, dinin ilk başlanğıc prinsiplərinin "təmizliyinin" bərpasından, yeni dini "həqiqətlərin" qərarlaşdırılmasından, "keçmiş" inamı müdafiə etməkdən, mövcud dinin müqəddəsliyini azad etməkdən (ona qarşı çıxmaq hallarından), kilsə təsisatlarını qorumaqdan və ya dağıtmaqdan ibarətdir. Dini müharibələr dövlətlər, etnik qruplar (tayfalar, xalqlar, millətlər), təbəqələr, siniflər arasında aparılmışdır. Hər cür dini müharibələr müqəddəs sayılmışdır. Tarixdə belə müharibələr çox olmuşdur. Orta əsrlərdə katoliklərin "xaç yürüşü" (XI-XIII əsrlərdə Qərb rıtsarlarının şərqə səlib

---

[1] Ətraflı bax: Məcid Əfəndiyev. Siyasi və hüquqi təlimlər tarixi. səh. 99-100

müharibələri), islamın müxtəlif cərəyanlarının vaxtaşırı cihadı (bu gün də nəzərə çarpır) buna misal ola bilər. Bu və ya digər birliyin, sinifin, təbəqənin, qrupun mənafeyindən asılı olaraq dini müharibələrə haqq qazandırılır və müxtəlif dini dəstələr yaradılır. Məsələn, XVI əsrdə Almaniyada reformasiya dövründə üç böyük dəstə təşəkkül tapmışdı. Mühafizəkar - katolikləri elə ünsürlər təşkil edirdi ki, feodal qaydalarının - imperiya hakimiyyətinin, ruhaniliyin və qismən dünyəvi knyazlığın qorunub saxlanılmasında maraqlı idilər. Katolisizmdən feodal münasibətlərinin müqəddəsliyi üçün istifadə olunurdu. Martin Lüter (1483-1546-cı illər) başda olmaqla bürger-mötədil (mülayim) dəstə müxalifət ünsürlərinin - kiçik zadəganların, bürgerlərin, dünyəvi knyazların bir hissəsinin (imperiya asılılığından daha çox azad olmaq istəyənlərin) mülkiyyətini yaratdılar.

Kəndlilər və plebeylər (rəiyyət) isə inqilabi dəstə yaratdılar. Onların kəskin tələbləri və doktorinası Tomas Münser (təxminən 1490-1525-ci illər) tərəfindən irəli mürülmüşdü.

Müasir dini-siyasi hərəkat da ictimai inkişafın birmənalı olmayan meyllərini ifadə edir. Həmin meyllərdən mürtəce, mütərəqqi, mühafizərkar, liberal, demokratik mahiyyət daşıyanlar xüsusilə müşahidə olunur. Hazırda dünyanın müxtəlif bölgələrində lokal (yerli) dini-hərbi münaqişələrə tez-tez təsadüf olunur.

Dinin spesifik siyasi məna kəsb edən funksiyaları sırasında etnik funksiyası əhəmiyyətli yer tutur. Din etnik münasibətlərə özünəməxsus təsir göstərir. Etnos yunan dilində tayfa, xalq deməkdir. O, insanların tarixən təşəkkül tapan sabit birliyi olub müəyyən ərazidə qərarlaşan, ümumi cəhətlərlə, sabit mədəniyyət xüsusiyyətləri (dil də daxil olmaqla) və psixoloji cəhətləri, milli xarakteri ilə səciyyələnən, mənsub olduğu birliyi dərk edən və digər birliklərdən fərqləndiyini başa düşən sosial fenomendir.[1]

Tayfa, xalq və millətin məcmuunu özündə təcəssüm etdirən etnos dinlə mürəkkəb qarşılıqlı təsirə malikdir. Bir tərəfdən, etiqadın (dini inamın) təkamül istiqaməti, sitayiş - pərəstiş, dini təsisatlar xeyli dərəcədə etnik proseslərdən asılıdır. Bu isə dinin tiplərinin - nəsil-tayfa, xalq-millət (etnik) və dünya dinlərinin

---

[1] Ətraflı bax: Məcid Əfəndiyev, Azər Şirinov. Sosiologiyanın nəzəri problemləri. Bakı, 2001, səh. 148-154

formalaşmasını şərtləndirmişdir. Digər tərəfdən isə din amili nəslin, tayfanın, xalqın, millətin inkişafına təsir göstərmişdir, dini mənsubiyyət etnosun əlamətlərindən biri kimi çıxış edə bilər.

Nəsil-tayfa dini nəslin və tayfanın ictimai həyat şəraitindən kortəbii surətdə cücərir, bu şəraitə qovuşur, etnosun mövcud tipini müqəddəsləşdirir. Bu dinləri xüsusilə genetik, qanqohumluğu birliyini ifadə edən ağsaqqallara, qəbilə başçılarına sitayişi səciyyələndirir. İbtidai icma quruluşunda etnos müvafiq dini icmaya uyğun gəlir. Xalq - milli dinlər (iudaizm, induizm, daosizm, sintoizm və b.) mövcud xalqın və millətin varlığının şəraitini (iqtisadi, siyasi və s.) əks etdirmişlər, bu şəraitə qovuşmuşlar, etnosun göstərilən tarixi-mərhələli tipini sakralizasiya etmişlər. Bununla yanaşı etnosun "xüsusi" tarixi missiyası ideyası ifadə olunmuşdur.

Dünya dinləri (buddizm, xristianlıq, islam) böyük tarixi çevrilişlər, "dünya imperiyalarının" yarandığı dövrdə təşəkkül tapmışlar və müxtəlif ictimai münasibətləri, xeyli bölgələrin həyat tərzini, ayrı-ayrı ictimai qrupları əks etdirmişlər. Onların daşıyıcıları isə müxtəlif siniflərin, təbəqələrin, etnosların nümayəndələri, ayrı-ayrı dövlətlərin vətəndaşları olmuşlar, təbliği isə etniklərarası, kosmopolit xarakter daşıyır (Kosmopolit - vətənpərvərlik hissini itirərək öz vətəninin mənafeyi ilə maraqlanmayan, xalqına yad olan və onun mədəniyyətinə xor baxan adam). Lakin tarixi şəraitdə dünya dinlərinin müxtəlif istiqamətləri etnik çalarlar kəsb etmişdir. Dünya dinləri öz etnik variantlarında etnik və dini mənsubiyyətin eyniləşdirilməsi, mövcud etnosun sakralizasiyası meylinə malik olur. Quldarlıq və feodalizm şəraitndə bir qayda olaraq mövcud etnosun (xalqın) dindarlığının nisbi yekcinsliyi mövcud idi. Kapitalizmdə mövcud millətin nümayəndələri arasında müxtəlif dinlərin (məzhəblərin) yayılması imkanı yaranır. Lakin etnik və dini mənsubiyyətin eyniləşdirilməsi meyli saxlanılır.

Təkkonfessional etnosda din etnointeqrallaşdırma (mövcud etnosun birləşməsi) və etnodifferensasiya (digər etnoslardan ayrılmaq), çoxkonfessionallıqda isə dezinteqrasiya funksiyasını yerinə yetirə bilər. Müəyyən şəraitdə o, etnik, dini mənlik şüurunu möhkəmləndirmək qabiliyyəti ilə yanaşı eləcə də etnosentrizmin formalaşmasına imkan yarada bilər, həmçinin, mövcud etnosun digərindən təcrid olunması amili kimi çıxış edər. Adamaların digər

mədəniyyəti öz mədəniyyətləri baxımdan qiymətləndirmələri məhz, etnosentrizm adlanır.

Hazırda etnosentrizm çox geniş yayılan hadisədir. Etnosentrizmin ən bariz təzahürü missionerlikdir. Missionerlik fəaliyyəti isə bu və ya digər etnosun (xalqın, millətin) mədəniyyətinin digər bölgələrdə (regionlarda) yayılmasına istiqamətlənən səylərdir.

Etnik birliyin formalaşmasında birliyin digər növləri ilə uyğunluq da əhəmiyyətli rol oynayır. Bu baxımdan irqi, dini və s. uyğunluq səciyyəvidir. Sosioloqların tədqiqatları göstərir ki, Afrikanın və ABŞ-ın zənciləri özlərini vahid birlik kimi dərk edirlər. Bu, onunla bağlıdır ki, onlar vahid siyasi məkanda yaşayırlar və mövcud siyasi şəraitə uyğunlaşmışlar. Din isə sosial-mədəni və mənəvi kompleks halında bütün etnosların formalaşmasına böyük təsir göstərir. Bundan əlavə o, etnosun müəyyən tipinin - etnokonfessional birliyin formalaşması üçün başlıca sistem əmələ gətirən əlamət kimi çıxış edir. Belə etnoslara Şimali İrlandiyanın katolikləri və protestantları, Bosnya və Hersoqovinanın müsəlmanları aydın nümunədir.

Ümumiyyətlə, dindarlıq tez-tez etnik müstəsnalıq ideyası ilə, millətçiliklə, şovinizmlə birləşir, milli düşmənçilik isə dini ədavətlə gücləndirilir.

Dinin siyasətə təsirini açıqlayarkən onun dövlətlə qarşılıqlı münasibətinin təhlili də vacib və məqsədəuyğundur. Din dövlət-hüquq münasibətlərinə və təsisatlarına mühüm təsir göstərir. Dövlətin təşəkkülü prosesində dini amil çox əhəmiyyətli rol oynamışdır.

Dövlət bir tərəfdən, hər necə olursa-olsun ümumi münasibətlərin tənzimlənməsini təmin edən ümumi funksiyanı müdafiə etməlidir, digər tərəfdən, bütün hallarda hakim təbəqənin və ya etnik qrupların xüsusi mənafeyinin silahı kimi çıxış edir. Məhz, buna görə cəmiyyətin yüksək mənafeyinin və onun son məqsədlərinin ifadəsinə istiqamətlənən dövlət və din arasında ziddiyyətlər əmələ gəlir.

Məşhur fransız linqvisti **E.Benvenist** (1902-1976-cı illər) iddia edir ki, latın sözü olan Rex (reqo felindən əmələ gəlib idarə etmək, istiqamətləndirmək mənasını verir) "hökmdar" kimi

tərcümə olunur. Rex daha çox dini anlayışdır, nəinki siyasi. Rexin vəzifəsi məcbur etmək, dövlət hakimiyyətini idarə etmək deyil, qayda yaratmaq və "hüquqa" aid olan nə varsa onu müəyyənləşdirməkdən ibarətdir. Məhz, uzunmüddətli inkişaf nəticəsində "hökmdar" termini xüsusi dövlət - hüquqi məna daşımış, siyasi hakimiyyətə sahib olmağı ifadə etmişdir. Dini hakimiyyət isə din xadimlərinin (kahinlərin) imtiyazı kimi mövcud olmuşdur.[1]

Tarixən dövlət-hüquq və dini hakimiyyət arasında müxtəlif qarşılıqlı münasibətlər təşəkkül tapmışdır: paposezarizm, sezarepapizm, separatlıq. Qarşılıqlı münasibətin bu tipləri xristianlığın tarixini öyrənmək əsasında fərqləndirilmişdir. Lakin belə təşəkkül tipləri digər dinlərdə də təzahür etmişdir.

**Paposezarizm** (yunan dilində rara-papa, ata, və latın dilində Caesar-hökmdar deməkdir) dini-dövlət hüquqi sistem olmaqla dini hakimiyyətin siyasi hakimiyyətdən yüksəkdə durduğunu səciyyələndirir. Belə vəziyyətdə bəzən dini təşkilatın rəhbəri və ya liderlərindən biri həm də dövlət başçısı hesab olunur. Belə sistem öz ifadəsini daha çox teokratiyada (Teokratiya - yunan dilində teos-Allah, kratos isə güc, qüdrət, hakimiyyət mənasını ifadə edir) tapır. Teokratiyada dini lider dövlət hakimiyyətini də öz əlində cəmləşdirir, dini təşkilatların funksionerləri (bəzi ölkələrdə müxtəlif təşkilatların fəallarına verilən ad) isə dövlət aparatının məmurları sayılırlar. VIII əsrdə Romadan kənar teokratik papa dövləti yaradıldı və 1870-ci ilə qədər mövcud oldu. 1929-cu ildən etibarən Vatikan teokratik dövləti mövcuddur. Roma Papası - Katolik Kilsəsinin başçısı dövlətin mütləq hökmdarı hesab olunur. Qədim Misir kahinlərinin (din xadimlərinin), Qədim yəhudilərin hakimiyyəti teokratik mahiyyət kəsb edirdi, teokratik hakimiyyət eləcə də orta əsrlər Tibetində, Ərəb Xilafətində (Xəlifələrin hakimiyyətində) və s. mövcud olmuşdur.

**Sezarepapizm** (latın dilində Caesar - hökmdar və yunan dilində rara - papa, ata mənasını əks etdirir) dövlət-hüquqi dini sistem hesab olunur. Bu sistemdə dini hakimiyyət siyasi hakimiyyətə tabedir, dövlət başçısı isə tez-tez həm də dini təşkilatın rəhbəri kimi səciyyələnir. Dövlət-hüquq-dini sistemdə

---

[1] Бенвенист.Э. Словарь индоевропейских социальных терминов. М. 1995, səh. 249, 252, 258, 287

dövlət forması müxtəlifliyilə fərqlənir: mütləq və ya konstitusiyalı monarxiya, imperiya, krallıq və s. Sezarepapizm Bizans imperiyasında təşəkkül tapmışdır. Kral XVI əsrdə Reformasiya dövründə yaranan Anqlikan kilsəsinin başçısı sayılır. O, yepiskopları (baş keşişləri) təyin edir, yepiskopların xeyli hissəsi lordlar palatasının üzvləridir.

**Separatlıq** (latın dilində Seraratus - ayrı, tək, xüsusi mənalarını ehtiva edir) dini və siyasi hakimiyyətlərin, dini təşkilatların və dövlət-hüquqi müəssisələrin (idarələrin) bir-birindən ayrılmasını səciyyələndirir. Belə qayda cəmiyyətin differensasiyalaşdırılmış (fərqləndirilmiş) təsisatlı sistemi şəraitində təşəkkül tapır. Qeyd etmək lazımdır ki, bu hakimiyyətlər "bərabər çəkiyə" malik deyildirlər, dövlət-hüquqi təsisatlar din üzərində üstünlüyünü təmin edən vasitələrə və mexanizmə malikdir.

Sekulyarizasiya prosesində bir sıra ölkələrdə dini təşkilatlar dövlətdən ayrılmışdır. Lakin hazırda xeyli ölkələrdə din dövlət statusu əldə etmişdir. Yunanıstanda Pravoslav yunan kilsəsi "hakim"mövqeyə yönəlmişdir. Dövlət statusuna malik olan dinlər aşağıdakılardır:

İngiltərədə anqlikan, İsveçdə, Norveçdə və Danimarkada incil - lüteranlıq (Lüteranlıq - Martin Lüter tərəfindən təsis edilmiş protestant məzhəbi; xristianlığın bir qolu), Yaxın və Orta Şərq öləkələrinin əksəriyyətində, Şimali Afrikada islam. Dini dövlət quruluşunun formaları müxtəlifliyi ilə səciyyəlinir: krallıq (İngiltərə, Norveç, Səudiyyə Ərəbistanı və b.), respublika (Pakistan İslam Respublikası, Mavritaniya (Mavritaniya – Afrikanın şimal-qərb hissəsinin qədim adı), İran İslam Respublikası və s.) və b.

Dinin və dövlətin nisbəti formulunun qəbul edilməsi hər bir dini regionda fərqlənir. İnduizmdə dünyəvi hakimiyyət kşatrilər kastasının (təbəqəsinin) sərəncamında idisə (Kasta - ancaq öz silki və qrup imtiyazlarını güdən ictimai qrup), ruhani hakimiyyət brahmanların inhisarında idi. İslamda həm xəlifə ideyasında və eləcə də dini mahiyyətli qanunda - şəriətdə təcəssüm olunan bu və ya digər hakimiyyətin birliyi prinsipi daim müdafiə olunurdu. Çində imperatorun ali hakimiyyətinə Konfutsinin dini mahiyyətli nəsihətlərini qoruyub saxlayan konfustiyaçı təbəqə tərəfindən

nəzarət edilirdi. Lakin həmin müxtəlif dini regionların tarixi inkişafı din və hakimiyyət münasibətlərinin oxşarlığına gətirib çıxarmış, onların arasında qarşılıqlı fəaliyyətin və funksiyaların müəyyənləşdirilməsini şərtləndirmişdir. Dövlət ali inzibati, hərbi hakimiyyəti öz əlinə almış, müəyyən təsərrüfat funksiyalarını həyata keçirmişdir, din isə cəmiyyətin əxlaqi və dini mahiyyətli tənzimlənməsini qərarlaşdırmışdır.

Lakin dövlət hakimiyyəti hətta əgər real surətdə əks mövqedə və müxalifətdə (dinə qarşı) olmasa belə, siyasi təsisatın özü "əbədi həqiqətə" və "sarsılmaz qanunlara" müraciət edən dinə nisbətən daha müvəqqəti (keçici) başlanğıc kimi təzahür etmiş olardı (həyati zərurət olaraq). İdarə edənlərin xeyli hissəsi hakimiyyətin səbatsızlığını (möhkəm olmamasını) dərk edərək onu rəsmi sitayişlə möhkəmləndirməyə səy göstərmişlər və bununla da tabeliyində olanların zəkasına təsir göstərmək istəmişlər. Lakin cəmiyyətin dini çərçivəsində formalaşan ilk dövlət birliklərində siyasi mədəniyyət tipləri və ideologiyalar arasında prinsipial fərqlər mövcud olmuşdur.

# VIII FƏSİL

## HAKİMİYYƏT VƏ ONUN DAŞIYICILARI

### 1. HAKİMİYYƏTİN MAHİYYƏTİ, MƏZMUNU, STRUKTURU. AĞALIQ VƏ TABELİK MÜNASİBƏTLƏRİNİN TƏBİƏTİ

Siyasi hakimiyyət siyasi elmin başlıca kateqoriyasıdır. O, cəmiyyətin siyasi sisteminin mahiyyətini və əhəmiyyətini başa düşməyə imkan yaradır. Siyasi elmin bütün problemləri bu və ya digər dərəcədə "siyasi hakimiyyət anlayışı ilə qarşılıqlı əlaqə daşıyır. Siyasi hakimiyyətin öyrənilməsinin başlıca əhəmiyyəti bundan ibarətdir ki, o, bütün cəmiyyətlər üçün tarixi zərurətdir.

İctimai münasibətlər tarixində elə bir fenomen tapmaq çətindir ki, hakimiyyət qədər daim sosial ziddiyyətlər doğursun və bunları özündə əks etdirsin. Eyni zamanda hakimiyyət cəmiyyətdə qayda-qanun yaradılmasının zəruri şərtidir. Hakimiyyət uğrunda mübarizə kompromisə əsaslanmayan və sərt rəqabətlə müşahidə edilən prosesdir. Heç də təsadüfi deyil ki, hakimiyyətə yiyələnməyə istiqamətlənən mübarizə çoxlu qurbanlara səbəb olub. Bunu müasir reallığımız da aydın sübut edir. Hazırda Azərbaycanın üzləşdiyi sərt problemlər hakimiyyət uğrunda mübarizələrin nəticəsi deyilmi?

Eyni zamanda hakimiyyət məsələsi hər hansı sosial inqilabın, bu və ya digər cəmiyyətin müasirləşdirilməsinin, bir sözlə, ictimai tərəqqinin ən mühüm məsələlərindən olmuşdur. Adamların sabit birliyinin mövcud olduğu hər yerdə hakimiyyət labüddür. Hakimiyyətin aliliyi məhz, buradan irəli gəlir.

Hakimiyyət problemi çoxmənaliqlidir. Cəmiyyətdə həmişə sosial, iqtisadi, əxlaqi və təbii ki, siyasi hakimiyyət problemi mövcud olub. Obyektivlik naminə qeyd edək ki, siyasi hakimiyyət probleminin təhlili iki xarakterə malik çətinliyin aradan qaldırılması

zərurəti ilə bağlıdır. Birincisi, hakimiyyətə münasibətdə müxtəlif dünyagörüşlərinə əsaslanan baxışların sintezi zərurətindən, ikincisi isə, hakimiyyətin adamlar arasında qarşılıqlı münasibətin üsulu olmasını dərk etmək məntiqindən irəli gəlir.

"Hakimiyyət anlayışı geniş mə'nada işlədilir: "valideynlərin hakimiyyəti, "ailə hakimiyyəti, "vərdiş hakimiyyəti, "hiss hakimiyyəti, "cəhalət hakimiyyəti, "zəka hakimiyyəti, "yaşlıların hakimiyyəti, pul hakimiyyəti, "dini hakimiyyət, "ideologiya hakimiyyəti, "məhkəmə hakimiyyəti, "mafiya hakimiyyəti, "partiya hakimiyəti və s.[1] Bütün müxtəlifliyinə, birmə'nalı olmasına baxmayaraq bu anlayışları birləşdirən və onlara ümumilik təlqin edən yeganə cəhət vardır: Bir qrupun iradəsi və hərəkətləri digərlərinin iradəsi və hərəkətləri üzərində hökmranlıq edir.

Elmi ədəbiyyatda "hakimiyyət anlayışına müxtəlif mövqelərdən yanaşılır. Başqa sözlə, hakimiyyət probleminin öyrənilməsinə sosial, psixoloji, teleloji, biheviorçu, qnoseoloji, təşkilati və siyasi aspektlərdə diqqət yetirilir.

**Sosial aspektə** görə hakimiyyət zorakılıq münasibətləridir. M.Veberin fikrincə, siyasətin başlıca vasitəsi zorakılıqdır.[2] **Psixoloji aspekt** hakimiyyətin liderlik münasibətlərindən ibarət olduğunu ifadə edir. **Teleloji aspekt** hakimiyyəti qarşıya qoyulan məqsədlərə çatmaq üsulu kimi səciyyələndirir. Bertran Rassel iddia edir ki, hakimiyyət nəzərdə tutulan məqsədlərin reallaşdırılması vasitəsidir.[2] **Biheviorçu aspektə** görə hakimiyyət davranışın xüsusi tipidir. Q.Lassuell əsaslandırmağa çalışır ki, hakimiyyətin meydana gəlməsinin ilk impulsu fərdlərin hakimiyyətə can atması və "siyasi enerjiyə malik olmasıdır. **Qnoseoloji aspekt** hakimiyyətə biliklərdən istifadə olunmasının məqsədyönlü üsulu baxışdan diqqət yetirir. **Təşkilati aspekt** hakimiyyəti qayda yaratmaq, təşkil etmə səviyyəsi mənada nəzərdən keçirir. Nəhayət, **siyasi aspekt** isə hakimiyyəti tə'siretməni həyata keçirmək, tabeçilik, məcburetmə üsulu nöqteyinəzərdən səciyyələndirir.

---

[1] Политология. Под ред. Г.В.Полуниной. М., 1996, Səh.52.

[2] Очерки современной политической философии Запада.М.,1989.Səh196

[3] Вебер М. Избранные произведения. М., 1990.Səh.697.

Hakimiyyət siyasətin məğzidir, özəyidir. Siyasi hakimiyyət iqtidarla ona tabe olan qrup arasında münasibətlər tipidir.[1] Subyekt və obyekt hakimiyyətin bilavasitə daşıyıcılarıdır, agentləridir. Subyekt (aktor) hakimiyyətin fəal, istiqamətverici başlanğıcını təcəssüm etdirir. Ayrı-ayrı adamlar, təşkilatlar, xalq və hətta BMT də birləşmiş dünya birliyi hakimiyyətinin subyekti kimi çıxış edə bilərlər. Hakimiyyətə tabe olanlar isə onun obyektini təşkil edirlər. Əgər hakimiyyətə tabe olan mövcud deyilsə, deməli hakimiyyət də yoxdur **M.Dyuverje** hakmiyyətin iki tərəfinin (ağalıq edənlə tabe olanın) mövcudluğunu qətiyyətlə iddia edir. **Ağalıq və tabelik münasibətlərinin olmadığı yerdə hakimiyyətdən, eləcə də onun subyekti və obyektindən danışmağa dəyməz.** Axı, hakimiyətin mə'zmunu geniş mə'nada onun sosial mahiyyət kəsb etməsi ilə şərtlənir. **Sosial hakimiyyəti** səciyyələndirən başlıca xüsusiyyət ondan ibarətdir ki, o ancaq siyasi sferada yox, həmçinin, iqtisadi, hüquqi, əxlaqi, psixoloji formalarda da təzahür edir.

Sosial hakimiyyət konkret sosial biliklərə yiyələnmək sayəsində fəaliyyət göstərmək qabiliyyətidir. Sosial hakimiyyətə yiyələnən qüvvələr onu öz bildiyi kimi idarə etmək hüququna malikdirlər. Çünki hakimiyyətə sahib olmaq azad fəaliyyət hüququ əldə etməkdir. Təbii ki, hakimiyyətdən məhrum olmaq bu hüququ itirməkdir. Sosial hakimiyyət fərdi inamların məhsulu deyil, məhz, qarşılıqlı fəaliyyətdə olan fərdlər qrupunun səciyyəvi əlamətidir, onların fəaliyyət göstərməyə yönələn ümumi qabiliyyətidir. Elə buna görə də hakimiyyət biliklərin bölüşdürülməsi kimi səciyyələnir.

Hakimiyyət və sosial hakimiyyət terminlərini bütövlükdə siyasi hakimiyyətin sinonimi kimi başa düşmək elmi ədəbiyyatda çoxdan qəbul edilmişdir. Bu təsadüfi olmayıb, həmin üç terminin bir sıra mühüm oxşar cəhətlərə malik olması ilə bağlıdır. Elmi ədəbiyyatda birmənalı şəkildə qeyd olunur ki, hakimiyyət mövcud sosial sistemin ünsürlərindən birinin həmin sistem daxilində öz xüsusi mənafeyini real surətdə həyata keçirmək qabiliyyətidir. Bu baxımdan hakimiyyət cəmiyyətdə baş verən proseslərə real tə'sir göstərməkdir. Deməli, **hakimiyyət adamlar və ya adamlar**

[1] Санистебан Л.С. Сиjаси елмин эсаслары. Бакы.,1994. Səh.48.

**qrupu arasında qarşılıqlı münasibətlər olub, mahiyyət e'tibarilə cəmiyyətdə baş verən hadisə və proseslərə tə'sir göstərməyi, bunları tənzimləməyi ifadə edir.** Sözün əsl mə'nasında hakimiyyət adamlar arasındakı münasibətlərdir.

"Hakimiyyət anlayışından çıxış edərək politoloqların müəyyən qismi belə qənaətə gəlir ki, siyasi hakimiyyət böyük ictimai qruplar arasındakı münasibətlərdə bunlardan birinin öz iradəsini real surətdə həyata keçirmək bacarığıdır, ağalıq və tabelik təbiəti ilə səciyyələnən reallıqdır. Siyasi hakimiyyət konkret siyasi biliklərə yiyələnmək əsasında sosial kerçəklikdə baş verən proseslərə tə'sir göstərmək mədəniyyətidir.

Mə'lumdur ki, dövlətə münasibət və dövlətin hansı məsələləri həll etməsi haqqında təsəvvür müxtəlif sosial qruplarda, hətta müəyyən qrupun öz daxilindəki ayrı-ayrı adamlarda bir-birinə uyğun gəlməyə bilər. Dövlət möhkəmləndikcə, onun orqanları genişləndikcə, cəmiyyət həyatının bütün cəhətlərinə tə'siri gücləndikcə siyasi hakimiyyət haqqındakı biliklər də çoxalır və təkmilləşir. Siyasi hakimiyyət haqqında mühakimə yürüdərkən "hakimiyyət və "hökmranlıq anlayışlarının həddini müəyyənləşdirmək məqsədəuyğundur. Hakimiyyət ümu-mi anlayışdır, hökmranlıq isə tə'sisatlaşdırılmış hakmiyyəti və ya hakimiyyət üsulunu ifadə edir. Əlbəttə, hakimiyyətsiz hökmranlıq yoxdur. Bə'zən belə bir fikrə rast gəlirik ki, guya əsl demokratiya hakimiyyətin hökmranlıq üsuluna (məsələn, avtoritarlığa) son qoyur. Əlbəttə, belə düşünmək bütövlükdə həqiqətə uyğun deyil. Həqiqətə uyğun gəlməyən həmin fikri müasir cəmiyyətlərdə mövcud olan demokratiya müəyyən hallarda qəti şəkildə təsdiqləyir.

Hakimiyyət qədim siyasi biliklərin, ədəbi və təsviri yaradıcılığın ən mühüm və daha qədim problemlərindən biridir. Hakimyyətin ictimai hadisə kimi və xüsusilə siyasi hakimiyyət səviyyəsində öyrənilməsi onun çoxcəhətli problemlərini dərk etməyə imkan verir.

Hakimiyyət nəzəriyyəsində onun müxtəlif aspektlərinin tədqiqi ilə bağlı elmi mübahisələr hələ də davam edir. Bununla yanaşı hakimiyyət barədə bütöv elmi tə'limin yaranması üçün real zəmin vardır. Hakimiyyət nəzəriyyəsinin tam elmi mövcudluğu üçün başlıca me'yar hakimiyyətin siyasətə münasibətdir. Bə'zi

hallarda hətta hakimiyyətlə siyasətin eyniləşdirilməsi də diqqəti cəlb edir. Hakimiyyət nəzəriyyəsində (siyasi elmlərdə və fəlsəfədə) ilk dəfə hakimiyyətin, yoxsa siyasətin yaranması məsələsinə dair mübahisəli mülahizələrə bu gün də təsadüf olunur. Şübhəsiz, hakimiyyət siyasətin həyata keçirilməsi vasitəsidir. Hakimiyyət siyasətin mərkəzi, mütəşəkkil və tənzimləyici-nəzarətedici başlanğıcıdır.[1] Hakimiyyət uğrunda, onu mənimsəmək və əldə saxlamaq istiqamətində mübarizə (dinc demokratik prosesdə seçkilərlə və ya tə'yin olunma yolu ilə, çevrilişlə və s.) cəmiyyətin siyasi həyatının ən başlıca aspektlərindəndir. Buna görə hakimiyyət bu və ya digər məqsədlərin həyata keçirilməsinə cəhd edən qüvvələr, siyasətçilər və "böyük siyasətçilər üçün sadəcə olaraq məqsəd deyil. Hakimiyyətə gələn siyasi qüvvələr hakimiyyətin müxtəlif səviyyələrdə konkret strukturlarını formalaşdırır (hökumət, parlament, mütləqiyyət, prezident üsul idarəsi və s.), öz mənafeyinə uyğun siyasət işləyib hazırlayır və bunu həyata keçirməyə çalışırlar. Deməli, bu və ya digər siyasi qüvvənin yeritdiyi siyasət onun mənimsədiyi hakimiyyətin həyata keçirilməsi vasitəsi kimi səciyyələnir. Başqa sözlə, siyasət hakimiyyətin, hakimiyyət isə siyasətin səbəbi kimi təzahür edir. Siyasətlə hakimiyyətin bir-birinə səbəb və nəticə kimi çıxış etməsi hakimiyyətin nəzəri problemlərinin həlli üçün mühüm şərtdir.

Hakimiyyətlə siyasətin qarşılıqlı əlaqəsi konkret siyasi şəraitin təhlili baxımdan da əhəmiyyətlidir. Çünki siyasətin bütün məsələlərinin arxasında bu və ya digər formada hakimiyyət məsələləri dayanır, öz növbəsində hakimiyyət problemləri də siyasət problemlərini ifadə edir. Siyasət insanların həyat fəaliyyətinin bütün sferalarına nüfuz etsə də, hətta özünün sırf siyasi funksiyalarını itirib "qeyri-siyasi xarakter kəsb etsə də siyasəti cəmiyyətdə ümumi ictimai başlanğıc və muxtar sfera kimi e'tiraf etməliyik. Əlbəttə, hakimiyyət də muxtar mahiyyət daşıyır. Bu cəhəti ictimai və şəxsiyyətlərarası münasibətlərin bütün tiplərində hakimyyətin qeyri-siyasi formalarının mövcudluğu təsdiqləyir. Hakimiyyətin özü adamları birləşdirən, onları

[1] Политология: Энсиклопедический словарь.Səh.40.

cəmiyyətdə təşkil və idarə edən amil kimi səciyyələnir. Yadda saxlamaq vacibdir ki, hər bir siyasi sistemdə başlıca qərarları qəbul etmək səlahiyyətlərini öz əlində cəmləşdirən kiçik qrup mövcuddur. Əhalinin çox hissəsinin həmin qrupa tə'sir göstərmək imkanları olduqca məhduddur. Hakimiyyət və tabeçilik, ağalıq və asılılıq bir-birini şərtləndirən sosial fenomenlərdir. Başqa sözlə, tabeçiliksiz hakimiyyət, hakimiyyətsiz isə tabeçilik ağlasığmazdır. Kütlələr təbii olaraq siyasi elitanın iradəsini qəbul etməyə məcburdur. Daha doğrusu, kütlələr siyasi elitanın iradəsini yerinə yetirirlər. Hər bir siyasi sistemin sabit fəaliyyət göstərməsi məhz, bununla bağlıdır.

Hakimiyyət çoxcəhətli xüsusiyyətlərə malikdir: 1.Onun başlıca xüsusiyyəti ümumiliyidir. Yə'ni o, ictimai münasibətlərin bütün sferalarını və siyasi prosesləri əhatə edir; 2.Hakimiyyət həyat fəaliyyətinin bütün növlərinə nüfuz etməyə qadirdir; 3.O, adamları, ictimai qrupları əlaqələndirmək və həm də onları bir-birinə qarşı qoymaq qabiliyyətinə malikdir. Heç də təsadüfi deyil ki, "hakimiyyət anlayışı və hakimiyyətin özü adamlar və ya adamlar qrupu arasındakı münasibətlərdə, ictimai qruplar arasında qərarlaşan qarşılıqlı münasibətdə təşəkkül tapır. **H.Morgentau-nun** haqlı qeyd etdiyi kimi, "hakimiyyət dedikdə, insanın başqa insanların şüuru və hərəkətləri üzərində nəzarət etməsi başa düşülür. Belə nəzarət məhz, adamlar arasında təzahür edən qarşılıqlı münasibətləri səciyyələndirir.

Ağalıq və tabelik münasibətlərinin təbiətini əks etdirən çox mühüm cəhət onun legitimliyidir. Legitimlik hər şeydən əvvəl, xalqın iradəsindən doğur və onun iradəsinə uyğun həyata keçirilir. Daha dəqiq desək, mövcud dövlət hakimiyyəti bilavasitə müəyyən müddətə xalqın böyük əksəriyyəti tərəfindən seçilir. Hakimiyyətin legitimliyinin digər vacib şərti bundan ibarətdir ki, o, konstitusiya prinsipləri əsasında həyata keçirilir. **Hakimiyyət hər şeydən əvvəl, öz fəaliyyəti ilə başqa adamları idarə etmək, onlara sərəncam (əmr) vermək, digər adamları öz iradəsinə tabe etdirmək deməkdir. Siyasi hakimiyyətin başlıca və yeganə daşıyıcısı dövlətdir.** Dövlətin ən mühüm vəzifələrindən biri isə cəmiyyətdə mövcud olan münaqişəli mənafelər arasındakı

ziddiyyətləri həll etməkdən ibarətdir. Dövlət və hakimiyyət sosial-siyasi prosesləri səmərəli təşkil etməlidir.

Mənafeyə, inama və nüfuza əsaslanan hakimiyyət tez-tez **subyektiv eyniləşmə** vəziyyəti yaradır. Başqa sözlə, tabelikdə olanla rəhbərin eyniləşməsi nəzərə çarpır. Belə halda hakimiyyətin maksimum gücü əldə olunur və subyekt (idarə edən) obyekt (tabelikdə olan) tərəfindən özünün nümayəndəsi və müdafiəçisi kimi dərk edilir. Subyekt və obyekt hakimiyyətin strukturunun fəal başlanğıcını səciyyələndirir. Əlbəttə, adamların subyektə və obyektə bölünməsinin özü şərti xarakter daşıyır və dəyişkəndir. İnsan bir münasibətdə başçı (rəhbər), digər münasibətdə tabelikdə olan şəxs kimi çıxış edir. Şübhəsiz, vaxtı çatanda bu fərdlər (əks mövqedə duranlar) öz rollarını dəyişə bilər.

Tarixi təcrübə göstərir ki, adamların razılaşdırılmış fəaliyyətinə zərurət təzahür etdikdə onların fəaliyyəti müəyyən məqsədlərin əldə olunmasına tabe olur. Eyni zamanda idarə edənlə idarə olunan, hakimiyyətdə olanla hakimiyyətdən məhrum edilən, ağalıq səlahiyyətinə yiyələnənlə asılı vəziyyətə düşən müəyyənləşdirilir. Tabelikdə olma motivləri müxtəlif formada nəzərə çarpır. Bu motivlər qarşıya qoyulan məqsədlərin əldə olunması marağına, sərəncamların (əmrlərin) həyata keçirilməsi zərurətindən doğan inama, idarə edənlərin nüfuzuna və nəhayət, tabeçilikdən imtina etdikdə arzuolunmaz nəticələrdən ehtiyat etmək (qorxmaq) hissinə əsaslana bilər.

Sadaladığımız motivlər özlüyündə hakimiyyətin səmərəliliyi üçün böyük əhəmiyyətə malikdir və onun uzunömürlü olmasına real tə'minatdır. Buradan belə qənaətə gəlmək olar ki, hakimiyyət münasibətləri ictimai həyata **obyektiv** surətdə xas olan hadisədir. "Bu, cəmiyyət həyatının özünəməxsus qazancıdır. Çünki cəmiyyətdə yaşayıb onun qaydalarından təcrid olmaq mümkün deyildir.[1]

Hakimiyyət çoxplanlı, mürəkkəb və ziddiyyətli ictimai hadisədir. Hakimiyyətin həyata keçirilməsi cəmiyyətin bütövlüyünü və ahəngdarlığını tə'min etməyə istiqamətlənir. Təsadüfi deyil ki, bə'zi tədqiqatçılar "hakimiyyət anlayışını

[1] Политология в вопросах и ответах. М., 1994.

müəyyənləşdirməyə sə'y göstərərkən onun ümumi əhəmiyyətini me'yar kimi qəbul edirlər. Məsələn, rus alimi iqtisadiyyat üzrə prfessor Q.V.Polunina yazır: "özünün ümumi əhəmiyətinə görə hakimiyyət anlayışı birinin digərini tabe etdirmək, ona sərəncam vermək, başqasını idarə etmək hüququnu və imkanlarını ifadə edir; birinin digərinə münasibətdə öz iradəsini həyata keçirmək, onların davranışına və fəaliyyətinə tə'sir göstərmə qabiliyyətini və imkanını nəzərdə tutur. Bu məqsədlə idarə edən öz nüfuzundan, hüququndan, gücündən və digər vasitələrdən istifadə edir.[1] Siyasi hakimiyyət digər ictimai sistemlərin (iqtisadi, sosial, mə'nəvi və s.) hamısının inkişafına bilavasitə tə'sir göstərir.

Geniş anlayış olmaq e'tibarilə siyasi hakimiyyət digər hakimiyyət formalarından fərqlənir və spesifiklik kəsb edir. Siyasi hakimiyyətin fərqləndirici xüsusiyyətləri aşağıdakılardır:

- Alilik. Onun qərarlarının bütün cəmiyyət və digər hakimiyyət növləri tərəfindən yerinə yetirilməsi. O, digər hakimiyyət formalarının tə'sirini məhdudlaşdıra bilər və ya ümumiyyətlə, onları aradan qaldırmaq səlahiyyətlərinə malikdir;
- Ümumilik. Bu, o deməkdir ki, siyasi hakimiyyət bütün cəmiyyətin adından fəaliyyət göstərmək hüququna malikdir;
- Öz gücündən və idarəetmənin digər vasitələrindən ölkə daxilində açıq, qanuni şəkildə istifadə etmək;
- Qərarların qəbul edilməsi üçün ümumdövlət mərkəzinin (hakimiyyət orqanları sisteminin) mövcudluğu;
- Hakimiyyəti əldə etmək, saxlamaq və həyata keçirmək məqsədilə istifadə olunan vasitələrin geniş və miqyaslı olması.

**Siyasi hakimiyyət bütün cəmiyyətə (dövlətə) rəhbərlik iradəsini həyata keçirmək, onu idarə etmək, dövlətin sərəncamında olan vasitələrin köməyilə xalq kütlələrinin davranışına müəyyənedici tə'sir göstərmək, adamları qarşıya qoyulan məqsədlərə çatmaq naminə səfərbər etmək, müxtəlif qruplar arasındakı münasibətləri tənzimləmək qabiliyyətidir.** Siyasi hakimiyyətin uğurları çoxlu amillərlə şərtlənir. Həmin amillər sırasında siyasi hakimiyyətin qanuniliyini əsaslandırmaq, onun cəmiyyətdə rəhbər rolu hüququnu e'tiraf etmək mühüm əhəmiyyət daşıyır.

---

[1] Политология под.ред. Г.В.Полуниной. Səh.53.

İctimai həyat hadisələrinin hamısı kimi siyasi hakimiyyət də özünəməxsus başlanğıca malikdir. Hər bir sosial fenomenin ilk başlanğıcı onun gələcək taleyinə ciddi tə'sir göstərir. Tarixi təcrübə təsdiqləyir ki, bu xüsusiyyət siyasi hakimiyyətin taleyində də öz əksini tapır. Mə'lumdur ki, siyasi hakimiyyət azad demokratik seçkilər əsasında, hərbi çevriliş və ya qanlı inqilab yolu ilə formalaşa bilər. Zorakılıqla qərarlaşan hakimiyyət xalqı böyük faciələrə düçar edir, əhalinin xeyli təbəqəsinin qurbanlar verməsinə səbəb olur. **Hakimiyyətin yaranması ilə əlaqədar olan faciəni xalq heç zaman unutmur. Onillər keçsə də, nəsillər deyişsə də ölkəyə qeyri-qanuni rəhbərlik edən hakimiyyətə xalqın inam hissi aradan qalxır.**

İlk başlanğıcdan qanuna əsaslanan, cəmiyyətin özü və xarici dövlətlər tərəfindən rəsmən tanınan hakimiyyətə isə xalq başqa münasibət bəsləyir. Əvvəldən belə səlahiyyətə malik olan hakimiyyət cəmiyyətlə siyasi hakimiyyətin qarşılıqlı münasibətində konsensusun qərarlaşmasına imkan yaradır, xalq, cəmiyyət bu hakimiyyətin rəhbər rolunu e'tiraf edir. Lakin əvvəldən qanuni şəkildə yaradılan hakimiyyət heç də o demək deyil ki, gələcəkdə xalqın inamını doğruldacaq. Tarixi təcrübə göstərir ki, hakimiyyətin **legitimliyi** hələ onun səmərəli siyasi hakimiyyət olmasına dəlalət etmir. Qanuna əsaslanan, legitim hakimiyyət səmərəli olmaya da bilər. Legitim hakimiyyətin səmərəli cəhətlərindən biri demokratik prinsiplər və dəyərlər zəminində inkişaf etmiş müasir cəmiyyət qurulmasına nail olmaqdan ibarətdir. **Rəsmi hakimiyyətin qanuniliyinin cəmiyyət tərəfindən e'tiraf olunması siyasi hakimiyyətin fundamental xarakteristikasıdır.** Heç də təsadüfi deyil ki, politologiyada bu xarakteristika məhz, "legitimlik (latınca Leqitimus sözündən götürülüb qanuni deməkdir) anlayışında ifadə olunur. "Hakimiyyətin legitimliyi anlayışı elmə ilk dəfə böyük alman politoloqu Maks Veber tərəfindən gətirilmişdir. O, qeyd edirdi ki, **legitimlik** heç də bütün hallarda eyni əsasa, kökə malik olan birtipli proses deyildir. Veber hakimiyyətin qanuniliyinin üç başlıca mənbəyini (əsasını) göstərir. Əvvəla, hakimiyyət **ən'ənəyə uyğun olaraq** ligitimlik qazana bilər. Məsələn, **ən'ənə əsasında** təşkil olunan monarxiya idarə formasında hakimiyyət irsən keçir. İkincisi, siyasi hakimiyyət dövlətə rəhbərlik edən siyasi xadimin

böyük populyarlığı və şəxsiyyətinə pərəstişlə əlaqədar olaraq qanunilik keyfiyyətlərinə malik olur. Hakimiyyətin bu tipini Veber **Harizma** adlandırır. Harizma latınca **harisma** sözündən götürülüb ilahi qabiliyyət mə'nasını ifadə edir. Siyasi hakimiyyətin legitimliyinin bu tipi siyasi liderin son dərəcə mühüm keyfiyyətlərinə, nüfuzuna əsaslanır ki, bu da onun rəhbər kimi çıxış etməsinə (fəaliyyətinə) imkan yaradır. Üçüncüsü, hakimiyyətin legitimliyi **rasional-hüquqi** zəminə əsaslanır. Bu hakimiyyət xalq tərəfindən ona görə e'tiraf olunur ki, o, rasional qanunlar əsasında fəaliyyət göstərir.

Siyasi hakimiyyətin ən'ənəvi və harizmalı legitim tipləri siyasi sistemləri zəif inkişaf edən dövlətlər, rasional-hüquqi tip isə siyasi sistemləri yüksək inkişaf etmiş dövlətlər üçün səciyyəvidir.

İlk iki tipi səciyyələndirən dövlətlərdə (məsələn, Ərəb Əmirlikləri, Küveyt və s.) iqtisadi inkişaf qanunauyğun proseslərin deyil, onlara xas olan xüsusi şəraitin nəticəsidir (ilk növbədə enerji daşıyıcılarının zənginliyi ilə bağlıdır). Ümumiyyətlə, ən'ənəvi və rasional-hüquqi legitimlik tipi daha uzunmüddətlidir. Məsələn, Böyük Britaniyada kral hakimiyyətinin legitimliyi həmişə möhkəm səviyyədə olub. Maraqlıdır ki, bu hal indi də diqqəti cəlb edir. 1995-ci ilin yanvarında keçirilən rə'y sorğusunun nəticələrinə görə britaniyalıların 36%i qəti şəkildə bildiriblər ki, monarxiyanın tərəfdarıdırlar. Sorğuda iştirak edənlərin yalnız 28%i monarxiya tə'sisatının əleyhinə olduqlarını bildirmişlər.[1]

Rasional-hüquqi me'yara əsaslanan hakimiyyət legitimliyi də özünün uzun ömürlülüyü üçün tə'minat verir. Bu cəhət onunla bağlıdır ki, rasional-hüquqi legitimlik tipi müasir demokratik siyasi rejimlərə aid olan siyasi hakimiyyət forması üçün daha səciyyəvidir. Belə siyasi rejimlər siyasi və iqtisadi sistemlərin yüksək inkişaf səviyyəsilə, siyasi və iqtisadi sabitliklə fərqlənir. Bu baxımdan ABŞ-dakı prezident hakimiyyətini nümunə göstərmək olar.

Siyasi hakimiyyətin harizmalı legitimliyi isə onun uzunömürlülüyünü proqnozlaşdırmağa əsas vermir. Məsələ ondadır ki, harizmalı siyasi liderin ölümü ilə hər şey dəyişir. Başqa

---

[1] "Известия" qəzeti, 1995-ci il, 11 yanvar.

səbəbələr də var. Legitimliyin bu tipi xüsusi funksiya yerinə yetirir. Onun təşəkkülü dərin ictimai dəyişikliklər - inqilablar, müharibələr, irimiqyaslı sosial islahatlar və sair ilə bağlıdır.

Siyasi hakimiyyətin legitimliyi mühüm əhəmiyyətə malikdir. Praktika təsdiqləyir ki, cəmiyyətin hakimiyyəti müdafiə etməsi, ona inam nümayiş etdirməsi hakimiyyətin səmərəliliyi üçün vacib şərtdir.Əksinə, vətəndaşların siyasi hakimiyyətin qanuniliyinə zəif inamı bu hakimiyyətin qeyri-sabitliyi üçün əsas səbəblərdəndir. Heç də təsadüfi deyil ki, hər bir siyasi hakimiyyət xalqın inamını qazanmağa cəhd edir. Bunun üçün müxtəlif vasitələrdən istifadə olunur, ayrı-ayrı sənədlər, fərmanlar, qərarlar, qanunvericilik aktları nəşr olunur. Legitimləşmənin obyektini adətən dövlət və onun orqanları, ictimai quruluş, siyasi rejim, həyata keçirilən siyasi və iqtisadi proqramlar və s. təşkil edir. Siyasi hakimiyyətin legitimliyi üçün dövlət xadimləri, siyasi lider böyük rol oynayır. Təsadüfi deyil ki, bir sıra ölkələrin, xüsusilə prezident idarəçiliyinin mövcud olduğu dövlətlərin konstitusiyalarında qeyd olunur ki, ölkə prezidenti legitimliyin tə'minatçısıdır.

Siyasi hakimiyyət öz-özlüyündə qeyri-bərabərlik fenomenidir. Bu hakimiyyətin subyekti və obyektinin vəziyyətindən və imkanlarından çıxış etsək belə bir təbii qənaətə gəlirik: bir qrup idarə etmək hüququna malikdirsə, digərləri tabeçilikdə olmağa məhkumdur. Həmin qeyri-bərabərlik müxtəlif vasitələr sistemi ilə müdafiə olunur və nəticə e'tibarilə siyasi hakimiyyət həyata keçirilir. Məhz, bu baxımdan müasir şəraitdə siyasi hakimiyyətin inkişafında təzahür edən yeni meyllərə diqqət yetirək.

Hakimiyyət insanın inkişafı ilə birlikdə meydana gəlmiş, öz təşəkkülündə uzun və mürəkkəb yol keçmiş və daim təkmilləşmişdir. Hakimiyyətin təkamül prosesi müasir şəraitdə də davam edir. Siyasi hakimiyyətin inkişafı üçün səciyyəvi olan yeni **meyllərdən birincisi onun demokratikləşməsi prosesinin intensivliyinin güclənməsidir.** Daha dəqiq desək, birbaşa zorakılığa və tabeçiliyə əsaslanan siyasi hakimiyyət forması ictimai konsensusa və özünüidarəyə əsaslanan idarəçilik forması ilə əvəz olunur. Hakimiyyət münasibətlərində demokratikləşmə meylinin güclənməsini həmin münasibətlərə ictimai hərakatların,

qeyri-siyasi birliklərin tə'sirinin artması və posttotalitar ölkələrdə vətəndaş cəmiyyətinin təşəkkülü və inkişafı sübut edir.

**İkinci meyl sivilizasiyalı hakimiyyətin mütləq əlaməti kimi legitimlik amilinin yüksəlməsində nəzərə çarpır.** Bütün ölkələrin hakimiyyət strukturları siyasi hakimiyyətin legitimliyini tə'min etmək məqsədilə maksimum sə'y göstərirlər, başqa sözlə, cəmiyyət tərəfindən onun qanuni xarakterinin etiraf olunmasına çalışırlar.

**Üçüncü meyl siyasi hakimiyyətin təşəkkülü və fəaliyyətinin köklü cəhətlərindən biri olmaq e'tibarilə hakimiyyətin bölünməsi sisteminin formalaşmasını səciyyələndirir.** Bu sistemin fəaliyyəti xüsusilə, Şərqi Avropa ölkələrində nəzərə çarpır.

**Dördüncü meyl hakimiyyətin müxtəlif qolları arasında ziddiyyətlərin artmasını ifadə edən neqativ prosesi əks etdirir.** Həmin meyl bütün ölkələrdə iqtisadi və siyasi sabitliyə tə'sir göstərir. **Nəhayət, beşinci meyl hakimiyyət strukturları aparatının yüksək sür'ətlə bürokratikləşməsində təzahür edir.** Bu proses faktiki olaraq bütün ölkələrdə nəzərə çarpır və neqativ nəticələr doğurur. Bürokratik aparat siyasi sistemin başlıca ünsürlərindən biridir. Bürokratik hakimiyyəti təmsil edənlər cəmiyyətdəki rollarını aydın başa düşür və mövcud sosial sistemdə ümumi mənafelərin ifadəçiləri kimi çıxış edirlər. Siyasi sistemlərdə bürokratiyanın obyektiv vəziyyəti onun özünəməxsus maraqlarının təşəkkülünə gətirib çıxarır. Bürokratiya cəmiyyətin ümumi mənafelərinin təcəssümü olmağa sə'y göstərsə də praktikada onun spesifik maraqlarının formalaşması prosesi baş verir. Ümumiyyətlə, bürokratiya daxili münaqişələrdən sarsılır.

Hakimiyyətin məzmununa dair bir sıra müasir konsepsiyalar da diqqəti cəlb edir. Həmin konsepsiyalardan **relyativist, biheviorçu və sistemli** konsepsiyalar müəyyən maraq doğurur.

**Relyativist konsepsiyaya** görə hakimiyyət şəxsiyyət münasibətlərindən ibarət olub bir nəfərin (subyektin) digərinə (obyektə) müəyyən tə'sir gösərməsidir. Subyekt və obyekt kimi ayrı-ayrı adamlar, qruplar, əhalinin təbəqələri çıxış edə bilər. Aparıcı hakim siyasi partiyalar və müxalifət də subyekt-obyekt münsibətlərinin daşıyıcısı kimi səciyyələnir. Belə halda mövcud aparıcı partiya müxalifətə tə'sir göstərə bilər. Hakimiyyətin

relyativist konsepsiyası sabitlik yaranması naminə cəmiyyətə tə'sir göstərmək metodlarını və yollarını da özündə əks etdirir.

**Eləcə də biheviorçu konsepsiyası** hakimiyyəti adamlar arasındakı münasibət baxımdan nəzərdən keçirir. Bu konsepsiyaya görə hakimiyyətin mahiyyəti ondan ibarətdir ki, bir qrup hökmranlıq, ağalıq edir, digərləri isə tabeçilik vəziyyətində qalır və qərarları birinci yerinə yetirir. Lakin biheviorçu mövqeyin başlıca cəhəti hakimiyyət uğrunda mübarizədə adamların xüsusiyyətlərinə, davranışının motivlərinə mühüm diqqət yetirilməsidir. Biheviorçu məktəbin nümayəndələri belə bir mülahizə yürüdürlər ki, bazar iqtisadiyyatı şəraitində hakimiyyətin özü əmtəəyə çevrilir. Başqa sözlə, öz menecerləri ilə səciyyələnən spesifik "bazar hakimiyyəti yaranır ki, bu da siyasi hakimiyyətə namizədlər hazırlamağa və seçkilərdə onların qələbəsini tə'min etməyə sə'y göstərir.

**Hakimiyyətin sistemli konsepsiyası** isə hakimiyyəti cəmiyyətin siyasi sistemində sistem əmələ gətirən münasibətlər kimi araşdırır. Sistemin bütün digər ünsürləri siyasi hakimiyyətlə bilavasitə və bilvasitə əlaqədardır. Ümumiyyətlə, siyasi hakimiyyət cəmiyyətdə həm siyasi və eləcə də iqtisadi sabitliyin qərarlaşmasına sə'y göstərməlidir.

## 2. HAKİMİYYƏTİN RESURSLARI, FUNKSİYALARI VƏ NÖVLƏRİ

Adamların müəyyən qisminin digər adamlara tabe olmasının ən mühüm sosial səbəblərindən biri hakimiyyətin resurslarının[1] qeyri-bərabar səviyyədə bölüşdürülməsidir. "Resurs termini sözün geniş və məhdud mə'nasında işlədilir. Geniş mə'nada o, fərdin və ya fərdlər qrupunun başqalarına tə'sir göstərmək məqsədilə istifadə etdiyi çoxcəhətli vasitələr sistemidir. Şübhəsiz, bu vasitələr siyasi hakimiyyətin özünəməxsus tə'sir üsullarını da ehtiva edir. O, malik olduğu resurslardan tabeliyində olanları

[1] Resurs dedikdə müxtəlif vasitələr sisteminin köməyilə siyasi hakimiyyətin həyata keçirilməsi nəzərdə tutulur.

inandırmaq, həvəsləndirmək və həm də cəzalandırmaq məqsədilə istifadə edir.

Yadda saxlamaq lazımdır ki, hakimiyyət resurslarının geniş, ümumi mə'nada təsəvvür olunması hakimiyyətin müxtəlif ünsürlərinin fərqləndirilməsinə imkan yaratmır, başqa sözlə, onun subyektinin, obyektinin və vasitələrinin həddinin dəqiq müəyyənləşdirilməsini məhdudlaşdırır. Çünki sözün daha geniş mə'nasında işlədilən hakimiyyət resursları ona tə'sir göstərən bütün amilləri əhatə edir.

Hakimiyyətin məzmununu və strukturunu düzgün öyrənmək baxımdan "resurs terminini dar mə'nada işlətmək məqsədəuyğundur. Bu baxımdan bütöv resurslar sistemində elə vasitələrdən danışmaq daha vacibdir ki, bunlardan istifadə edilməsilə subyektin obyektə tə'siri tə'min olunur. Elmi ədəbiyyatda bə'zən əsassız olaraq hakimiyyətin resurslarını onun zəminilə, həmçinin, subyekti və obyekti ilə eyniləşdirirlər.

Hakimiyyətin əsası olmaq e'tibarilə resursların həlledici əhəmiyyəti **P.Blau** və başqalarının **"sosial mübadilə"** nəzəriyyəsində öz əksini daha aydın tapmışdır. Bu nəzəriyyəyə görə hakimiyyətin əsasını defisit (aztapılan) resursların qeyri-bərabər səviyyədə bölüşdürülməsi təşkil edir. Resurslara malik olmayan adamlar bunları tabeliyində olduqları adamların sərəncamlarını icra etmək müqabilində (deməli, mübadilə yolu ilə) əldə edirlər. Beləliklə, adamların müəyyən qrupu başqalarından asılı vəziyyətə düşür, daha dəqiq desək, hakimiyyətin obyektinə çevrilir.

Cəmiyyət üzvlərinin maddi, sosial və mə'nəvi tələbatlarının ödənilməsi vasitələri kimi hakimiyyətin resursları da çoxcəhətlidir, rəngarəngdir. Müasir elmi ədəbiyyatda hakimiyyətin resurslarına dair müxtəlif təsnifatlara təsadüf olunur. Məsələn, **A.Ettiştonun** təsnifatında resursların üç başlıca növü qeyd edilir: **utilitar, məcburetmə və normativ.**

Utilitar resurslar adamların sosial rifahını və maddi güzəranını səciyyələndirir. Bu resursun fərqləndirici cəhəti ondan ibarətdir ki, cəmiyyət üzvlərinin gündəlik marağını əks etdirir. Maddi və sosial əhəmiyyətli resursların (vasitələrin) köməyilə hakimiyyət nəinki ayrı-ayrı siyasətçiləri, hətta əhalinin bütöv təbəqələrini ələ ala bilər. Ümumiyyətlə, utilitar resurslar

həvəsləndirmə və cəzalandırma məqsədilə istifadə olunur. Məcburetmə resursları adətən inzibati cəzalandırma tədbiri kimi istifadə edilir. Bu resurslar o zaman tətbiq olunur ki, utilitar resurslardan istifadə edilməsi imkan xaricində olur. Normativ resurslar isə insanın daxili aləminə, mə'nəviyyatına və davranış normalarına tə'sir vasitələridir. Bu resursların məqsədi rəhbərlərlə icraçıların mənafelərinin ümumiliyini tabeçilikdə olanlara inandırmaqdan ibarətdir.

Hakimiyyət resurslarının mövcudluğu cəmiyyət üzvlərinin həyatfəaliyyəti sferalarından irəli gəlir. Bu baxımdan resurslar sırasında iqtisadi, sosial, informasiya, məcburetmə (güc) və sair resurslar səciyyəvidir.

Siyasi hakimiyyət nəinki cəmiyyətin həyat fəaliyyətinin bütün sferalarına tə'sir göstərir, həm də onun mövcudluğu bir sıra resurslara əsaslanır. Həmin resurslar içərisində ən mühümlərindən biri **iqtisadi resursdur.** İqtisadi resursun həlledici rolu bununla şərtlənir ki, siyasi hakimiyyətin fəaliyyəti onsuz mümkün deyildir. İqtisadi resurslar sırasında pul xüsusi rol oynayır. Siyasi hakimiyyət üçün pul resursu həmişə zəruri əhəmiyyət kəsb edib. İstər hakimiyyətin irsən keçməsində, istər inqilabi çevrilişlərdə və ya seçkilərin demokratik prosedurlarında pul resursunun rolu aydın şəkildə nəzərə çarpır. Məsələn, müxtəlif ölkələrdə müasir seçki kompaniyalarının aparılması on milyonlarla dollar tələb edir. Bə'zən dövlət büdcəsindən seçkilərə ayrılan vəsait kifayət etmədiyi üçün namizədlər xüsusi şəxslər tərəfindən maliyyələşdirilməyə ciddi ehtiyac duyurlar. İnqilabi yolla hakimiyyətə gəlmək və inqilab gedişində dağıdılmış ölkəni bərpa etmək isə daha böyük məbləğdə vəsait tələb edir.

Siyasi hakimiyyətin fəaliyyəti, iqtisadi proqramın hər cür növünün həyata keçirilməsi böyük iqtisadi vəsaitlə bağlıdır. Heç də təsadüfi deyil ki, hakimiyyət dairələrinin diqqət mərkəzində iqtisadi siyasət başlıca yer tutur. Məsələn, Amerikanın bütün görkəmli prezidentləri öz iqtisadi proqramlarını müxtəlif devizlər altında e'lan etmişlər. **T.Ruzvelt** "Yeni kurs, **C.Kennedi** "Yeni mərhələ, **L.Conson** "Yoxsulluğa qarşı müharibə çağırışları ilə ABŞ-ın iqtisadi yüksəlişini tə'min etməyə sə'y göstərmişlər. Ölkənin iqtisadi inkişaf səviyyəsi və bunun yüksəlməsində siyasi

hakimiyyətin rolu mövcud hakimiyyəti qiymətləndirməyin başlıca me'yarıdır. Mübaliğəsiz qeyd etmək olar ki, **hakimiyyətin gücü, möhkəmliyi və legitimliyi cəmiyyətdəki iqtisadi sabitliyin əldə olunmuş səviyyəsindən bilavasitə asılıdır.**

İqtisadi resurslar həm də siyasi hakimiyyətin müdafiə olunması, təhlükəsizliyinin tə'min edilməsi üçün zəruridir. Siyasi hakimiyyət aparatının saxlanması xeyli maliyyə vəsaiti tələb edir. Bir sözlə, hakimiyyətin əldə olunması, saxlanması və məqsədlərinin həyata keçirilməsi üçün böyük iqtisadi resurslar lazımdır.

Siyasi hakimiyyət iqtisadi resurslardan xeyli ümumdövlət problemlərinin və beynəlxalq xarakterli məsələlərin həlli üçün istifadə edir. İqtisadi vəsaitin köməyilə siyasi hakimiyyət aşağıdakıları tə'min edə bilər:

İqtisadi proseslərin həddən artıq böyük sür'ətinin qarşısını almaq və ya zərurət duyulduqda bunun əksinə;

Elmi-texniki nailiyyətləri praktiki mənimsəmək məqsədilə təsərrüfatın strukturunun yenidən qurulmasını stimullaşdırmaq;

Milli iqtisadiyyata investisiyaların stimullaşdırılması;

Ölkədə kapitalın həddən artıq toplanmasının qarşısını almaq və bu məqsədlə onun xaricə göndərilməsinə stimul yaratmaq;

İnfilyasiyanın sür'ətini aşağı salmaq və işsizliyin azalmasına əhəmiyyətli dərəcədə nail olmaq və s.

Həmin vəzifələrin reallaşdırılması məqsədilə siyasi hakimiyyət ilk növbədə dövlət büdcəsindən istifadə edir. Bu baxımdan ölkənin vergi sistemi də böyük imkanlar açır. Vergi təkcə büdcənin gəlir hissəsinin formalaşması vəsaiti kimi deyil, həm də ictimai kapitalın təkrar istehsalı prosesinə tə'sir göstərən amil kimi səciyyələnir. Heç də təsadüfi deyil ki, vergini əsl "iqtisadi mö'cüzə adlandırırlar. Bu iqtisadi resursun (verginin) köməyilə ABŞ-da praktiki olaraq bütün iri və ən iri müəssisələr korporasiya (aksioner cəmiyyət) formalarına malikdirlər. Əlbəttə, iqtisadi qüdrətə malik olan müəyyən korporasiyalar, şirkətlər siyasi hakimiyyətə tə'sir göstərə bilir, ayrı-ayrı şəxsləri ələ alır, müəyyən güzəştlərə nail olur və s.

Qeyd edək ki, öz növbəsində hakimiyyətdən sui istifadə olunmasına, siyasi xadimlər arasında satqınlığa və korrupsiyaya da təsadüf olunur. Yaponiyanın hakim partiyası olan Liberal

Demokrat Partiyasının yüksək vəzifəli şəxslərinin 30 milyon ien məbləğində rüşvət almaları artıq bütün dünyaya mə'lumdur. Fransa naziri **Bernar Tapi** 13 milyon frank rüşvət almaqda təqsirləndirilərək istefa verməyə məcbur olmuşdur. Keçmiş sosialist Rumıniyasının başçısı **Çauşevskinin** xəzinəsində 5 milyard dolların olması sübuta yetirilmişdir. Şübhəsiz, belə faktlar dünyanın digər ölkələrində də mövcuddur. **Hakimiyyət strukturlarında çalışan şəxslərin korrupsiyaya aludəçiliyi, rüşvətxorluğu xalqa, dövlətə xəyanətdən başqa bir şey deyildir.**

Siyasi hakimiyyətin əsasını təşkil edən mühüm vasitələrdən digəri **sosial resurslardır.** Sosial resurslar sosial dərəcəni (rütbəni) artırmaq və ya azaltmaq qabiliyyətidir. O, tez-tez iqtisadi resursla eynilik təşkil edir. Məsələn, gəlir və sərvət iqtisadi resurs olmaqla yanaşı həm də sosial statusu səciyyələndirir. Lakin sosial resurslar mühüm göstəricilər olmaq e'tibarilə vəzifəni, nüfuzu, təhsili, tibbi xidməti, sosial tə'minatı və sairəni özündə ehtiva edir. Sosial resurslar bilavasitə siyasi hakimiyyətin müdafiə olunmasına istiqamətlənir. Ümumiyyətlə, müasir qərb ölkələrinin çoxunda siyasi hakimiyyət əhalinin əksəriyyətinin sosial maraqları baxımdan təşkil olunur. Bu isə öz növbəsində cəmiyyətdə sosial tarazlığın qorunub saxlanmasına, sosial gərginliyin aradan qalxmasına xidmət edir. Qərb ölkələrinin xeyli hissəsində pensiyanın səviyyəsi pensiyaya çıxmaq ərəfəsində alınan əmək haqqının 90%dən yuxarıdır. Sosial resursların siyasi hakimiyyətin fəaliyyətinin qiymətləndirilməsi me'yarı kimi səciyyələnməsi baxımdan "sosial siyasət anlayışının təhlilini məqsədəuyğun hesab edirik.

Sosial siyasət dövlətin daxili siyasətinin başlıca istiqamətlərindən biri olmaqla onun müdafiəsini tə'min edən sosial ehtiyatların təkrar istehsalına zəmin yaradır, fəaliyyətinin genişlənməsini və ictimai sistemin sabitliyini şərtləndirir. Sosial siyasətin ən mühüm məqsədi ictimai həyatda tarazlığın müəyyən səviyyəsinə nail olmaqdan ibarətdir. Bu məqsəd aşağıdakılar vasitəsilə həyata keçirilir:

1.Dövlət tərəfindən aclığın, xəstəliklərin, təbii və texniki fəlakətlərin, demoqrafik "partlayışın və digər bədbəxt hadisələrin qarşısının alınmasına tə'minat verilməsi;

2.Ölkədə əldə olunmuş müəyyən həyat səviyyəsinin saxlanmasına istiqamətlənən maddi vasitələrin yayılması,

təşkilatçılıq sə'yləri və cəmiyyətdə sosial gərginliyin azalmasının tə'min olunması;

3.Həyat tərzinin tənzim olunmasının (vergilərlə, vəsaitlə, xeyriyyəçilik tədbirlərilə, sahibkarlıq təşəbbüsləri ilə) müvafiq cəza tədbirləri ilə əlaqələndirilməsi.

Deməli, sosial siyasətin vacibliyi cəmiyyət üzvlərinin sosial tələbatının tə'min olunmasına imkan yaratmaq zərurətindən irəli gəlir.

Demoqrafiq xidmət, səhiyyə, sosial tə'minat, idmanın təbliği kimi sahələr bir tərəfdən sosial siyasətin differensasiyalı istiqamətinin həyata keçirilməsinə zəmin yaradır, digər tərəfdən həyat tərzi, həyat səviyyəsi, həyat keyfiyyəti və s. barədə hökumətə informasiya verilməsini tə'min edir. Ümumiyyətlə, **sosial siyasət cəmiyyətin sosial inkişafının idarə olunmasına, adamların maddi və mədəni tələbatının tə'min edilməsinə və cəmiyyətin sosial differensasiyası prosesinin tənzimlənməsinə istiqamətlənən fəaliyyətdir.**

Sosial siyasət tədbirlərinin işlənib hazırlanmasında sosioloqlar və demoqraflar xüsusi rol oynayırlar. Sosial siyasət ilk növbədə cəmiyyətin cari və perspektiv mənafeyi arasındakı ziddiyyətlərin həllini, sosial təbəqə və qrupların mənafelərinə dair uyğunsuzluqların aradan qaldırılmasını təmin etməlidir. Bir sözlə, sosial siyasətin başlıca məqsədi ictimai inkişafın mövcud mərhələsində ən ümdə və tə'xirəsalınmaz vəzifələrin həllini tə'min etməkdən, meydana çıxan ziddiyyətləri cəmiyyətin ümumi mənafeyi baxımdan məqsədyönlü və çevik şəkildə aradan qaldırmaqdan ibarətdir.

Güclü sosial siyasətin həyata keçirilməsi cəmiyyətin siyasi sisteminin demokratikləşdirilməsi prosesi ilə qırılmaz surətdə bağlıdır. Bu əlaqə demokratik metodlardan istifadə olunmasını, sosial siyasətin işlənib hazırlanması və həyata keçirilməsi formalarını (aşkarlığa riayət olunmasını, ictimai rə'yin nəzərə alınmasını və s.) nəzərdə tutur.

Sosial siyasət bir sıra sabit sosial tə'sisatların, məsələn, mülkiyyətin, ailənin, təhsil sisteminin, kütləvi informasiya vasitələrinin və sairənin fəaliyyətinin tənzimlənməsi vasitəsilə həyata keçirilir. Sosial siyasət dövlət tərəfindən müəyyən edilən

sosial tədbirlər və sosial proqram vasitəsilə reallaşır. Sosial proqram bu və ya digər sosial problemin həllinə istiqamətlənən sosial tədbirlər sistemidir. Sosial proqramda şəraitin qiymətləndirilməsi, qərar, vəzifələrin həlli mərhələləri, hər mərhələnin reallaşdırılmasının konkret tədbirləri və üsulları müəyyənləşdirilir. Bir sözlə, sosial proqramın reallaşdırılması mərhələ-mərhələ həyata keçirilir.

Hakimiyyət resurslarının digər mühüm növü **informasiya resurslarıdır.** İnformasiya resurslarına hər şeydən əvvəl bilik və informasiya, onların əldə olunması və yayılması vasitələri daxildir. İnformasiya resurslarının əldə olunması vasitələrindən çox mühümü kütləvi informasiya vasitələridir. Praktiki olaraq bu gün dünyanın bütün ölkələrində siyasi hakimiyyətin sərəncamında olan kütləvi informasiya vasitələri resursların "ən gənc növüdür. Lakin kütləvi informasiya vasitələrinin gənc resurs kimi səciyyələnməsi heç də onun az səmərəliliyini və ya ikinci dərəcəli rol oynamasını ifadə etmir. Kütləvi informasiya vasitələri həm siyasi hakimiyyətin təşəkkülü dövründə həm də onun fəaliyyət mərhələsində əhəmiyyətli rol oynayır. Məşhur Amerika sosioloqu Olvin Toffler belə hesab edir ki, XX əsrin sonunda bilik və informasiya hakimiyyətin ən mühüm resursuna çevrilir. O, yazır:"İctimai inkişafın gedişində hakimiyyətin məcburetmə və sərvət kimi ən'ənəvi resursları tam aradan qalxmasa da öz tə'sirini itirir. Əsl hakimiyyət isə biliklərə və informasiyaya sahib olur.[1]

Şübhəsiz, bilik və informasiyanın digər hakimiyyət resursları ilə müqayisədə üstünlük təşkil etməsi bütün ölkələrdə təzahür etmir. Lakin hakimiyyətin mənbəyi olmaq e'tibarilə informasiya resursunun əhəmiyyətinin yüksəlməsi meyli aydın nəzərə çarpır. Hakimiyyətin informasiya resursu digər resurslardan spesifik surətdə fərqlənir. Mə'lum olduğu kimi, siyasi hakimiyyət həmişə gizli və açıq şəkildə müxalifətlə üzləşir. Buna görə kütləvi informasiya vasitələri müəyyən dərəcədə siyasi hakimiyyətə qarşı çıxan resurs kimi də çıxış edə bilər. Kütləvi informasiya vasitələrinin siyasi hakimiyyətin əsl resursuna çevrilməsi xeyli dərəcədə həmin təbliğat vasitələrinin hakimiyyət tərəfindən əldə

---

[1] Тоффлер О. Проблема власти на пороге XXI века. Свободная мысль. 1992. №2. Səh.16.

saxlanması ilə müəyyən olunur. İnformasiya vasitələri həmişə müstəqil fəaliyyət göstərməyi arzulayır.

Nəhayət, hakimiyyətin mühüm resurslarından (mənbəyindən) biri də **məcburetmə (güc) resurslarıdır.** Siyasi hakimiyyət resurslarının bu növü ölkənin müdafiəsini tə'min etmək, daxili qayda-qanun yaratmaq, siyasi hakimiyyətin təhlükəsizliyinə nail olmaq funksiyasını yerinə yetirir. Məcburetmə (güc) resurslarına silah, fiziki məcburetmə tə'sisatları və bu tə'sisatlarda çalışmaq üçün xüsusi hazırlığa malik şəxslər daxildir. Dövlət sistemində resursların özəyini ordu, polis, müxtəlif təhlükəsizlik xidmətləri, prokurorluq, məhkəmə təşkil edir. Tarixi təcrübə göstərir ki, güc resurslarının bu və ya digər hissəsinə siyasi hakimiyyət çox tez-tez əl atır. Güc resursları hakimiyyətin daha səmərəli mənbəyidir. Lazım gəldikdə o, adamları həyatdan, azadlıqdan və mülkiyyətdən məhrum etmək qabiliyyətini nümayiş etdirir. Siyasi hakimiyyət güc resurslarından o zaman istifadə edir ki, **onun cəmiyyətə tə'siri tükənir və gücü azalır.** Məcburetmə resursları xüsusilə iqtisadi və siyasi böhranlar dövründə tətbiq olunur. Siyasi hakimiyyət ordudan, polisdən, qayda yaradan qüvvələrdən hökumətin iste'fasını tələb edən kütləvi çıxışları yatırtmaq məqsədilə istifadə edir. Hətta Avropanın demokratik ölkələrində və ABŞ-da ordu qüvvələri konstitusiyadan irəli gələn qaydaların müdafiə olunmasında mühüm rol oynayırlar. Bu bir həqiqətdir ki, siyasi hakimiyyət güc strukturlarının loyallığına və ona sədaqətinə ümid bəsləyir. Beynəlxalq təcrübə göstərir ki, güc (məcburetmə) strukturlarında çalışmaq nüfuzlu və yüksək məbləğdə əmək haqqına əsaslanan iş hesab olunur. Belə bir faktı qeyd etmək kifayətdir ki, ABŞ-da polisdən il ərzində şikayət ştat qubernatoru ilə müqayisədə çox azdır. Təsadüfi deyil ki, "güc resursları anlayışını bə'zən "polis hakimiyyəti, "hərbi hakimiyyət kimi anlayışlarla əlaqələndirirlər.

Siyasi hakimiyyət münasibətlər sistemi olmaq e'tibarilə bir sıra mühüm funksiyalar yerinə yetirir. Siyasi hakimiyyətin başlıca funksiyası bütövlükdə **cəmiyyəti idarə etməkdən, ona rəhbərlikdən ibarətdir.** Bu funksiya bir tərəfdən ölkənin, dövlətin idarə olunmasında, digər tərəfdən isə ictimai həyatın müxtəlif sferalarının (siyasi, iqtisadi, sosial və s.) tənzim-

lənməsində təzahür edir. Hər bir siyasi hakimiyyət təşəkkül tapdığı andan ölkənin konkret şəraitinə, iqtisadi və siyasi vəziyyətinə uyğun olaraq müəyyən strategiya və taktika işləyib hazırlayır. Bu fəaliyyət xətti hər şeydən əvvəl, bütövlükdə cəmiyyətin idarə olunmasına istiqamətlənir. Cəmiyyətin idarə edilməsi funksiyası sözün məhdud, konkret mə'nasında isə əhalinin müxtəlif təbəqələri arasındakı ziddiyyətlərin aradan qaldırılmasını, ayrı-ayrı sosial qrupların, milli birliklərin və fərdlərin mənafeyinin tə'min olunmasını nəzərdə tutur. Haqqında danışdığımız funksiya siyasi müxalifət və hakimiyyət münasibətlərinin məqsədyönlü təşəkkülünə xüsusi diqqət yetirir.

Siyasi hakimiyyətin ən mühüm funksiyalarından biri **idarəetmə məqsədlərinin reallaşdırılmasına nail olmaqdan ibarətdir.** Bu funksiya mahiyyət e'tibarilə cəmiyyətin idarə olunması funksiyası ilə sıx bağlı olub onun tam reallaşmasına xidmət edir. Hakimiyyət idarə edənlərlə idarə olunanlar arasında hökmranlıq və tabeçilik münasibətlərini həyata keçirməlidir. Hökmranlıq və tabeçilikdən kənarda dövlət hakimiyyəti təsəvvür etmək qeyri-mümkündür. Unutmaq olmaz ki, hakimiyyət fenomeni cəmiyyətə təbiətən xasdır. Bununla belə hakimiyyət müxtəlif mənbələrə və dayaqlara malik olan çoxcəhətli fenomendir. Qarşıya qoyulan məqsədlərin reallaşdırılması funksiyasının zəruriliyi və əhəmiyyəti də buradan irəli gəlir.

Siyasi hakimiyyətin digər mühüm funksiyası **siyasi sistemin özünün optimallaşdırılması, onun tə'sisatlarının (dövlət, partiya sistemləri, seçki sistemi və s.) hakimiyyətə gələn qüvvələrin məqsədlərinə və vəzifələrinə uyğunlaşmasıdır.** Aydın məsələdir ki, demokratik sistem üçün çoxpartiyalılıq və demokratik seçkilər səciyyəvidir. Eləcə də totalitar hakimiyyət birpartiyalı sistemi və alternativsiz seçkiləri qərarlaşdırır. Tarixi təcrübədən (keçmiş sosialist ölkələrinin timsalında) mə'lumdur ki, hakimiyyətə gələn siyasi lider və ya qrup özündən əvvəlki siyasi sistemi saxlamağa çalışır.

Nəhayət, siyasi hakimiyyətin ən əhəmiyyətli funksiyalarından biri **ölkə daxilində münaqişələrin tənzimlənməsi, mövcud ictimai sistemin daxili əlaqələrinin həyata keçirilməsi və sabitliyin tə'min olunmasıdır.** Bu və ya digər dövlətlərdə, ölkələrdə siyasi hakimiyyətin həmin funksiyası müxtəlif dərəcədə

həyata keçirilir. Lakin belə bir cəhət təkzibolunmazdır ki, hər bir siyasi hakimiyyət mövcud funksiyanın həyata keçirilməsinə ona görə ciddi diqqət yetirir ki, hakimiyyətin legitimliyinə xalq inansın. Siyasi vasitələr sisteminə yalnız zorakılıq, güc tətbiq etməklə qorxutmaq, cəzalandırma və həvəsləndirmə xas deyil, eləcə də mükafatlandırma, əməkdaşlıq, mübadilə və sairə aiddir. Hakimiyyət iki tərəf arasında münasibət olmaq e'tibarilə mövcud cəmiyyətdə hamı tərəfindən qəbul olunmuş və ya hüquqi cəhətdən təsbit edilmiş dəyərlərə və prinsiplərə əsaslanır. Bu dəyərlər və prinsiplər həm ayrı-ayrı adamların, həm də sosial qrupların ictimai və siyasi münasibətlər sistemində yeri, rolu və funksiyasını müəyyənləşdirir və tənzimləyir.

Hakimiyyətin strukturu özünəməxsus **növlərilə** də səciyyələnir. **Hakimiyyətin növləri** onun resurslarına və cəmiyyət həyatının müxtəlif sferalarına uyğun şəkildə təzahür edir. Bu baxımdan hakimiyyət sistemində siyasi, iqtisadi, hərbi, diplomatik, bürokratik, maliyyə, hüquqi tə'sisat və digər hakimiyyət növləri mövcuddur. Elmi ədəbiyyatda hakimiyyətin növlərinin təsnifatında başlıca diqqət iqtisadi, sosial, mədəni-informasiya və məcburetmə hakimiyyət növlərinə yetirilir.

**İqtisadi hakimiyyət** iqtisadi resurslar, müxtəlif maddi sərvətlər üzərində nəzarəti həyata keçirir. Sakit (qeyri-böhranlı) ictimai inkişaf dövründə iqtisadi hakimiyyət adətən digər hakimiyyət növləri üzərində üstünlük təşkil edir. F.A.Xayek yazır: "İqtisadi nəzarət heç də digər sferalardan təcrid olunan insan həyatı sahələrindən birinin nəzarəti deyil bu, bizim bütün məqsədlərimizin təntənəsi vasitələri üzərində nəzarətidir.[1]

İqtisadi hakimiyyət hakimiyyətin digər növləri ilə, ilk növbədə siyasi hakimiyyətlə sıx bağlıdır. Bu əlaqə politoloqlar tərəfindən birmənalı şəkildə təsdiqlənir. Məşhur politoloq **Y.Vyatr** iddia edir ki, siyasi məcburetmə deyilən ünsür iqtisadi hakimiyyətdə sırf formada təzahür etmir, yə'ni bu hakimiyyət növü siyasi məcburetmə ilə şərtlənməyən ictimai münasibətdir.

Hakimiyyətin digər mühüm növü **sosial hakimiyyətdir.** Bu hakimiyyətin fərqləndirici cəhəti ondan ibarətdir ki, o, ictimai

---

[1] Хаек Ф.А. Дарога к рабству. Новый мир. 1991, №7. Səh.218.

həyatın digər sferalarında da təzahür edir və iqtisadi hakimiyyətlə daha çox əlaqəlidir. İqtisadi hakimiyyət nəinki maddi ne'mətlərə nəzarətdir, həm də bunların bölüşdürülməsi qabiliyyətini təcəssüm etdirir. İqtisadi hakimiyyətdən fərqli olaraq sosial hakimiyyət sosial pillələrin-statusun, vəzifənin, güzəştin və imtiyazların bölüşdürülməsi (paylanması) qabiliyyətidir. Müasir dövlətlər böyük sosial hakimiyyətə malikdirlər və sosial siyasətin köməyilə əhalinin müxtəlif kateqoriyalarının vəziyyətinə tə'sir göstərə bilirlər. Sosial dövlət hər bir vətəndaşın mövcud vəziyyətini yaxşılaşdırmaq məqsədilə ləyaqətli şərait yaratmağa, onun sosial müdafiəsinə, istehsalın idarə olunmasında iştirakına sə'y göstərir və cəmiyyətdə şəxsiyyətin özünü reallaşdırması imkanlarını tə'min edir. Bir sözlə, sosial dövlətin fəaliyyəti cəmiyyətdə sosial ədalətin qərarlaşmasına istiqamətlənir.

Hakimiyyətin əhəmiyyətli növlərindən biri olan **mədəni-informasiya** hakimiyyəti spesifik mahiyyət daşıyır. Belə hakimiyyəti səciyyələndirən başlıca cəhət bundan ibarətdir ki, adamların idarə olunması intellektual qabiliyyətə, informasiyaya əsaslanır. Mədəni-informasiya hakimiyyəti adamlar üzərində biliklərə, informasiyaya və bunların yayılması vasitələrinə əsaslanan hakimiyyət növüdür. Müasir dünyada insanlara mə'nəvi tə'sirin bütün növləri sırasında elmi-informasiya hakimiyyəti başlıca rol oynayır. Elmi biliklər və informasiya bir tərəfdən hökumət qərarlarının hazırlanmasında, digər tərəfdən isə kütlələrin şüuruna bilavasitə tə'sir göstərməklə onların siyasi loyallığının tə'min edilməsində istifadə olunur. Cəmiyyət üzvlərinin şüuruna belə tə'sir sosiallaşma tə'sisatları (müxtəlif təhsil ocaqları və s.) vasitəsilə, kütləvi informasiya vasitələrinin köməyilə həyata keçirilir. Mədəni-informasiya hakimiyyəti müxtəlif məqsədlərə xidmət etmək qabiliyyətinə malikdir. Bu hakimiyyət nəinki hökumətin fəaliyyəti haqqında, cəmiyyətdəki vəziyyət barədə obyektiv mə'lumat yaya bilər, eləcə də adamların şüuruna aldadıcı tə'sir göstərmək qabiliyyətinə qadirdir.

Nəhayət, hakimiyyətin başlıca növlərindən biri **məcburetmə hakimiyyətidir.** Məcburetmə hakimiyyəti zorakılıq (güc) resurslarına əsaslanır və fiziki qüvvə tətbiq etmək yolu ilə və ya tətbiq etmək hədəsilə adamlar üzərində nəzarəti əks etdirir.

Məcburetmə hakimiyyətini siyasi hakimiyyətlə eyniləşdirmək olmaz. Əlbəttə, unutmaq olmaz ki, siyasi hakimiyyətin mühüm xüsusiyyətlərindən biri məhz, dövlət tərəfindən açıq şəkildə güc tətbiq edilməsidir. Bununla belə politoloqların əksəriyyəti "hakimiyyət anlayışının mahiyyətini açıqlayarkən məcburetmə hakimiyyətilə siyasi hakimiyyətin növlərindən olan nüfuz hakimiyyəti arasındakı həddin müəyyənləşdirilməsinə xüsusi diqqət yetirirlər.

Siyasi hakimiyyətin funksiyaları və növləri ilə yanaşı onun səviyyələri barədə də qısaca təsəvvürə malik olmaq məqsədəuyğundur. Siyasi hakimiyyət sistemi qarşılıqlı fəaliyyətdə olan üç funksional səviyyə ilə səciyyələnir. Siyasi hakimiyyətin **birinci (yüksək) səviyyəsi** hakimiyyətin ali orqanlarının makro-siyasi sistemidir (qanunvericilik, icraedici və məhkəmə hakimiyyəti). Siyasi hakimiyyətin **ikinci (orta,ara)** səviyyəsi onun orta pillə aparatıdır, müxtəlif dərəcəli bürokratik aparatdır. Orta səviyyə siyasi hakimiyyətin elə pilləsidir ki, tə'sisatlı hakimiyyəti qeyri-formal ictimai təşkilatlarla, partiyalarla, hərəkatlarla, bütövlükdə əhali ilə əlaqələndirir. **Üçüncü səviyyə** siyasi hakimiyyətin mikro səviyyəsidir. Bu səviyyə özündə adamların bilavasitə siyasi ünsiyyətini, kiçik qrupları təcəssüm etdirir. Mikro səviyyədə adamların siyasət haqqında təsəvvürləri, rə'yi, siyasi inamı və siyasi mədəniyyəti formalaşır.

## 3. HAKİMİYYƏTİN BÖLÜNMƏSİ

Müasir suverenlik ideyasında belə bir prinsip öz əksini tapıb ki, hakmiyyət hakimiyyət bölgüsünün hər hansı qolu və ayrıca şəxsiyyət tərəfindən ölkədə despot üsul-idarəsinin, antidemokratik rejimin yaranmasına yol verməməlidir. Bu prinsip real surətdə hakimiyyətin bölünməsi sistemində təcəssüm olunmuşdur. Hakimiyyətin bölünməsi onun üç başlıca və bərabər mahiyyətli qolunun - qanunverici, icraedici və məhkəmə hakimiyyətinin mövcudluğunu və qarşılıqlı fəaliyətini nəzərdə tütur. Söhbət hakimiyyətin bölünməsinə əsaslanan tə'sisatlaşdırılmış hakimiyyətdən gedir. Hakimiyyətin bölünməsi praktiki olaraq 1887-ci ildə

ABŞ Konstitusiyasının qəbul olunması ilə həyata keçirilir. Lakin hakimiyyət nəzəriyyəsi daha əvvəl meydana gəlmişdir. Hakimiyyətin bölünməsi ideyası ilk dəfə **levellerlərin** (bərabərlik tərəfdarları) siyasi-hüquqi tə'limində öz əksini tapıb. Levellerlərin siyasi ideyaları İngiltərə burjua inqilabı gedişində təzahür edən siyasi fikrin istiqamətlərindən biri kimi meydana gəlmişdir. Hakimiyyətin bölünməsi sistemində onun mənbəyini xalq təşkil edir və xalqın hüququ ölkə konstitusiyası ilə müdafiə olunur. Elə, levellerlərin siyasi proqramının başlıca prinsipi də xalq hakimiyyətinin aliliyinə və müstəqilliyinə üstünlük verilməsidir. Levellerlərin lideri və ideoloqu **Con Lilbern** yazırdı: "Bütün hakimiyyət əzəldən və mahiyyit e'tibarilə xalqa məxsusdur xalqın azad surətdə seçmək hüququ və razılığı hər cür ədalətli idarəetmənin yeganə me'yarıdır.[1] Lilbern ingilis xalqının "anadangəlmə hüququna əsaslanaraq tələb edir ki, ingiltərənin bütün əhalisini təmsil edən birpalatalı parlament yaradılmalıdır. Levellerlər qanunçuluğun tə'min olunması naminə qanunverici və icraedici hakimiyətin birləşdirilməsini deyil, bunların ayrılmasını, ayrılıqda həyata keçirilməsini məsləhət bilirdilər. Hakimiyyətin bölünməsinə belə münasibətin məqsədi burjua-demokratik qanunçuluğu tə'min etmək, demokratik hüquq və azadlıqları möhkəmləndirmək, bürokratik hakimiyyət aparatının özbaşınalığına son qoymaq idi.

Hakimiyyətin bölünməsinə dair demokratik siyasi fikir **Con Lokk** tərəfindən daha da inkişaf etdirilmişdir. Onun siyasi tə'liminin maraqlı cəhətlərindən biri məhz, "hakimiyyətin bölünməsi nəzəriyyəsini işləyib hazırlamasıdır. Hakimiyyətin bölünməsinə dair C.Lokkun siyasi-hüquqi baxışlarının sosial-siyasi mahiyyəti bundan ibarətdir ki, o, qalib gələn ingilis burjuaziyası ilə hakimiyyəti öz inhisarında saxlamaq imkanından məhrum olan feodal aristokratiyası arasında kompromisə ideoloji cəhətdən haqq qazandırmaq istəyirdi.[2]

C.Lokk hakimiyyətin üç formada-qanunverici, icraedici və ittifaq formasında mövcud olması fikrini əsaslandırır və qanunverci hakimiyyəti dövlətin ali hakimiyyəti hesab edir və

---

[1] История политических и правовых учений. Səh. 225-226.
[2] История политических и правовых учений. Səh.235-236

bildirir ki, digər hakimiyyətlər məhz, bu hakimiyyətə tabe olmalıdır. O, qanunverici hakimiyyətlə icraedici hakimiyyəti fərqləndirərək bunların mahiyyətinə dair öz fikrini belə izah edir: qanunverici hakimiyyət parlamentə məxsus olmalıdır, parlament qanunlar qəbul etmək məqsədilə vaxtaşırı toplanmalıdır. Lakin parlament qəbul olunmuş qanunların icrasına qarışmamalıdır, ona müdaxilə etməməlidir. Parlament iki palatadan ibarət olmalıdır: ümumi palatadan və lordlar palatasından. İcraedici hakimiyyətin strukturuna dair Lokkun tə'liminin mahiyyəti bundan ibarətdir ki, həmin hakimiyyət krala məxsus olmalıdır. Kral isə öz növbəsində qanunun icrasına rəhbərlik edir, nazirləri, məhkəməni və digər vəzifəli şəxsləri tə'yin edir. Kralın fəaliyyəti isə qanunla tənzimlənir. Lakin parlamentə münasibətdə ona müəyyən üstünlüklər verilir (parlamenti buraxmaq hüququ və s.). Belə üstünlüklərin verilməsində məqsəd odur ki, parlament bütün hakimiyyəti öz əlində cəmləşdirməsin və vətəndaşların təbii hüquqlarını pozmağa sə'y göstərməsin. Ümumiyyətlə, siyasi fikir tarixində hakimiyyətin bölünməsi haqqında maraqlı və qiymətli fikirlər az deyil. Ş. Monteske "Qanunların ruhu haqqında kitabında (1748-ci il) xəbərdarlıq edərək yazırdı: "Siyasi azadlıq o yerdə mümkündür ki, orada hakimiyyətdən sui istifadə olunmur. Qanunverici hakimiyyətin birləşdiyi yerdə azadlıq ola bilməz. Digər tərəfdən məhkəmə hakimiyyəti qanunverici və icraedici hakimiyyətdən təcrid olunursa azadlıqdan danışmağa dəyməz.

Hakimiyyətin bölünməsi siyasi hakimiyyətin bütün növlərinin və qeyri-siyasi hakimiyyətin fəaliyyətinin prinsipial şərti və başlıca mexanizmidir. Hakimiyyətin bölünməsi tə'sisatlı siyasi proseslərdə bir qayda olaraq mürəkkəbləşir. Hakimiyyətin bölünməsinin belə prosesində onun subyekti kimi dövlət idarələri (müəssisələri) və digər siyasi (həm də qeyri-siyasi) pillələr çıxış edir. Buna görə hakimiyyətin bölünməsinin tə'sisatlı prosesi cəmiyyətin siyasi sistemində əmək bölgüsü baxımdan funksional mə'na daşıyır. Hakimiyyətin belə tə'sisatlı funksional bölünməsi dövlətin formalaşmasının ilk mərhələlərində təzahür etmişdir.

İlk böyük hakimiyyət bölgüsü siyasi və dini (mə'nəvi) hakimiyyətin, dövlət və kilsə hakimiyyətinin təşəkkülü ilə başlanır. Hakimiyyətin belə bölünməsi uzun müddət onun vahid şəklə salınması uğrunda mübarizə ilə müşahidə olunmuşdur. Başqa sözlə, dünyəvi hakimiyyət dini hakimiyyətin, dini hakimiyyət isə dünyəvi hakimiyyətin üzərində hakim mövqe tutmağa cəhd etmişdir. Belə rəqabət uzun müddət orta əsrlərdə və yeni dövrün başlanğıcında Qərb ölkələrində davam etmişdir. Qeyd edək ki, dünyəvi və dini hakimiyyət arasında rəqabət hələ dünyanın bir sıra dövlətlərində başa çatmayıb.

Dövlət hakimiyyətinin tə'sisatlı və funksional bölünməsinin həlledici mərhələsi Yeni dövrün başlanğıc mərhələsinə təsadüf edir (XVI-XVII əsrlər). Bu mərhələdə Qərbi Avropa ölkələrinin çoxunda mərkəzləşmiş mütləq monarxiya təşəkkül tapır, daha inkişaf etmiş və səmərəli idarəetmə aparatına ehtiyac duyulur.

Hakimiyyətin bölünməsinin sonrakı inkişafı bir neçə paralel yolla müşahidə olunmuşdur: 1)Parlamentin strukturunun mərkəzləşməsi və nümayəndəli hakimiyyətin formalaşması; 2)Mərkəzi icraedici hökumət hakimiyyətinin möhkəmlənməsi və təşmilləşməsi; 3)feodal orta əsrlər sistemində yaranan nəzarət orqanının və ədalət məhkəməsinin formalaşmasının başa çatması, hakim feodal dairələrin səlahiyyətinə aid olan məhkəmə funksiyalarının ixtisaslaşdırılmış məhkəmə (ədliyyə) orqanlarına verilməsi. Bütün bu obyektiv proses təbii olaraq siyasi-fəlsəfi tə'limlərdə nəzəri cəhətdən əsaslandırıldı və vətəndaş cəmiyyətinin, hüquqi dövlətin yaradılmasının bir növ layihəsi kimi işlənib hazırlandı.

Hakimiyyətin bölünməsi Avropada qeyri-bərabər səviyyədə baş vermişdir. Hakimiyyətin bölünməsinin ilk klassik forması XVII əsrin sonunda İngiltərədə yaranan parlamentdir. Daha sonra hakimiyyət bölgüsünün Amerikaya məxsus strukturu və fransa inqilabının doğurduğu inqilabi ruha malik olan parlament strukturu təşəkkül tapdı. XIX əsrdə Belçikada, Hollandiyada, İtaliyada, sonralar isə Avropa ölkələrinin əksəriyyətində parlament hakimiyyətinin yaranması başa çatdı.

Müasir demokratik cəmiyyətlərdə siyasi tə'sisatların təşkilinin hamı tərəfindən qəbul olunmuş norması hakimiyyətin bölünməsi prinsipidir. Hakimiyyətin bir nəfərin əlində həddən artıq cəmləşdirilməsi, hər hansı siyasi idarəetmə orqanının hakimiyyəti öz inhisarına alması böyük təhlükə olmaqla demokratik prinsiplər üçün təhlükə yaradır, qanunsuzluq, ədalətsizlik doğurur.

Hüquqşünaslar icraedici, qanunverici və məhkəmə orqanlarının səlahiyyətlərinin normativ cəhətdən möhkəmləndirilməsinin təhlilinə daha çox diqqət yetirirlər. Belə bir təhlil hüquqşünasların fikrincə, siyasi tə'sisatların öz səlahiyyətləri çərçivəsində bir-birindən asılılığına imkan yaratmır, bir-birinə nəzarət etməyi tə'min edir, hakimiyyətin bütövlükdə onun hər hansı qolunun əlində mərkəzləşməsinin qarşısını alır və demokratiya üçün təhlükəni aradan qaldırır. Hakimiyyət orqanlarının formalaşmasının və qarşılıqlı münasibətlərinin prinsipləri müxtəlifdir. Lakin belə bir **ümumi qayda mövcuddur ki,** qanunverici hakimiyyət icraedici hakimiyyətə nəzarət edir və bunların hər ikisi sözsüz, qanun çərçivəsində fəaliyyət göstərir, məhkəmə hakimiyyəti isə onların öz səlahiyyətlərini necə yerinə yetirdiklərini müşahidə edir, özü də icraedici və qanunverici hakimiyyətin heç birindən asılı olmamaq şərtilə. Hakimiyyətin hər hansı bir qolunun üstünlüyünə yol verməmək və məhkəmə hakimiyyətinin müstəqilliyini tə'min etmək üçün hakimiyyətin seçkili orqanları insan hüquqlarının və siyasi azadlıqların müdafiəsinin mexanizmini yaratmalıdır.

Hakimiyyətin bölünməsi konsepsiyasının tərafdarları hakimiyyət orqanları sistemində parlamentə başlıca üstünlük verirlər və onun səlahiyyətinə qanunvericilik sferasını aid etməklə yanaşı iddia edirlər ki, icraedici hakimiyyətlə məhkəmə hakimiyyətinin fəaliyyətinin həddini məhz, parlament müəyyənləşdirməlidir. Praktika təsdiqləyir ki, icraedici hakimiyyət qanunvericilik prosesində, xüsusilə qanun lahiyələrinin hazırlamasında və təqdim olunmasında fəal iştirak edir. Bununla belə təqdim olunmuş qanun lahiyəsi bir qayda olaraq parlamentdə müzakirə olunur və müvafiq komissiyalarda qəbul edilidikdən sonra qüvvəyə minir.

**Parlament** müasir demokratik ölkələrdə gizli səsvermə yolu ilə ümumi və bərabər seçki hüququ əsasında seçilən ali qanun-

verici orqandır, nümayəndəli ümummilli tə'sisatdır. Maraqlıdır ki, orta əsrlərdə əhalini təşkil edən zümrələrin (təbəqələrin) sayına görə nümayəndəli yığıncaqda (parlament mahiyyətində) üç palata təmsil olunurdu (ruhanilər, zadəganlar və şəhər əhalisi). İngiltərədə ruhanilər tələb edirdilər ki, onlara müstəqil surətdə vergilər müəyyənləşdirmək hüququ verilsin və buna görə parlamentin işində iştirak etmirdilər. Ruhanilərin yüksək təbəqəsi isə iri torpaq mülkiyyətçiləri kimi lordlar palatasının iclasında iştirak edirdilər. Nəticədə İngiltərədə ikipalatalı parlament təşəkkül tapdı. Elə politoloqlara təsadüf olunur ki, onlar müasir parlamentlərin yalnız iki palatadan ibarət olduğunu qeyd edirlər. Məsələn, **Q.V.Komenskaya** nədənsə sadə və obyektiv reallığı unudaraq yazır: "Hazırkı vaxtda bir qayda olaraq parlamentlər iki palatadan təşkil olunur. Müasir dünyada ikipalatalı parlamentə nisbətən birpalatalı parlament daha çoxdur.

Ölkələrin çoxunda hakimiyyətin bölünməsi sistemini səciyyələndirən cəhət bundan ibarətdir ki, vətəndaşların müəyyən kateqoriyası məsələn, orduda, məhkəmədə çalışan dövlət qulluqçuları qanunvericiliklə parlamentə seçilmək hüququndan məhrumdurlar. Eləcə də dünyanın əksər ölkələrində deputatın geri çağrılması məsələsi mövcud deyil. Dünya ölkələrinin xeyli hissəsində belə bir praktika mövcuddur ki, parlament öz hərəkətlərilə ölkənin mənafeyinə ziyan vuran yüksək vəzifəli dövlət quluqçularını günahlandırmaq huququna malikdir. Məsələn, ABŞ prezidenti **R.Nikson impicment**[1] qaydasında məsuliyyətə cəlb olunmaq üçün real təhlükəni hiss etdikdə istefa verməyə məcbur olmuşdur.

Avropanın demokratik dövlətlərində, Avstraliyada, ABŞ-da hakimiyyətin bölünməsi sistemində məhkəmə hakimiyyəti mühüm rol oynayır. Hələ antik dövrdən sosial münasibətlərin hüquqi qaydalarla tənzimlənməsi mə'lumdur. Müasir demokratik dövlətlərin belə bir ən'ənəyə sadiq qalması təqdirəlayiqdir. Çünkı demokratik hüquqi tənzimləmə humanist mə'na kəsb edir. Məhkəmə hakimiyyəti qanunverici və icraedici tə'sisatların fəaliyyətində qanunçuluğa riayət olunmasının təminatçısıdır. Eyni

---

[1] İmpiciment dedikdə yüksək vəzifəli dövlət qulluqçusundan tutmuş prezidentə qədər parlament məhkəməsinə cəlb olunmaq proseduraşı nəzərdə tutulur.

zamanda qanunverici hakimiyyətlə icraedici hakimiyyət arsında çətin həll olunan ziddiyyətlər və ixtilaflar meydana çıxdıqda, konstitusiya problemləri nəzərə çarpdıqda məhkəmə hakimiyyəti əsl və ədalətli münsif rolunu oynayır.

Demokratik dövlətlərdə konstitusiyaya əməl olunması, qanunverici və icraedici hakimiyyət aktlarına riayət edilməsi üçün xüsusi ədliyyə orqanları və məhkəmə müəssisələri yaradılır. ABŞ-da konstitusiya nəzarətini həyata keçirən yüksək məhkəmə orqanı **Ali məhkəmədir**. Ümumiyyətlə, amerika məhkəmə sistemi iki növ məhkəmədən - federal məhkəmədən və ştatların məhkəmə sistemindən ibarətdir. Federal məhkəmə sistemində Ali məhkəmə xüsusi yer tutur. Konstitusiyaya görə ABŞ Ali məhkəməsi yuxarı məhkəmə pilləsi kimi səfirlərin, konsulların işinə baxır, ştatlar arasındakı mübahisəni həll edir. Bununla yanaşı Ali məhkəmə konstitusiyaya zidd olaraq qanunveriçilik üzərində ali konstitusiya nəzarəti hüququnu həyata keçirir.

Əgər ali məhkəmə qanunun konstitusiyaya uyğun gəlmədiyini təsdiq edirsə, belə halda qanun qüvvədən düşür.

ABŞ Ali məhkəməsinin tərkibi 9 üzvdən ibarətdir. Ali məhkəmin sədri və üzvləri prezident tərəfindən senatın razılığı və məsləhəti ilə tə'yin olunur. Hakimlər dəyişməz vəzifəli şəxs hesab olunur. ABŞ konstitusiyasının 3-cü maddəsinin 1 hissəsinə görə Ali məhkəmənin və yerli məhkəmələrin üzvləri o vaxta qədər öz vəzifələrində qala bilərlər ki, onların fəaliyyətində nöqsanlar üzə çıxsın.

Ali məhkəmə yuxarı məhkəmə pilləsi kimi bütün federal və ştat məhkəmələrinin fəaliyyətinə nəzarət edir, onların cinayət və mülki işlərə aid hökm və qərarlarını ləğv etmək, eləcə də dəyişdirmək hüququna malikdir. O, yüksək rütbəli vəzifəli şəxslərin cinayət işlərinə baxan birinci dərəcəli məhkəmə kimi çıxış edir.

Ali məhkəmə ilə yanaşı federal məhkəmə sistemində 11 apelyasiya məhkəməsi mühüm rol oynayır. Hər bir apelyasiya məhkəməsi 39 üzvdən ibarət olub, prezident tərəfindən senatın razılığı və məsləhəti ilə tə'yin olunur. Federal məhkəmə sistemində bir neçə xüsusi məhkəmə (gömrük, hərbi və s.) də mövcuddur.

Federal məhkəmədən fərqli olaraq ştatların məhkəmə orqanları onların öz konstitusiyaları və qanunları əsasında təşkil olunur və fəaliyyət göstərir. Ştatlarda məhkəmə sisteminə ştatın ali məhkəməsi başçılıq edir. Bu məhkəmənin üzvləri bə'zi ştatlarda əhali tərəfindən seçilir, bə'zilərində isə ştatın qubernatoru tərəfindən tə'yin olunur. Ştatların ali məhkəmələri də ali konstitusiya nəzarəti hüququna malikdir.

**AFR-in federal konstitusiya məhkəməsi** də geniş səlahiyyətlərə malikdir. Onun qərarları federasiyanın və torpaqların bütün orqanları üçün məcburidir. AFR-in federal konstitusiya məhkəməsi ölkənin siyasi həyatının prinsipial məsələlərini tənzimləyir. Konstitusiya məhkəməsi müstəqil orqandır və heç bir dövlət orqanına tabe deyildir.

Konstitusiya məhkəməsi dövlət orqanlarının səlahiyyəti məsələsinə baxır, ittifaq və torpaqlar arasında baş verən mübahisələri həll edir, partiyaların fəaliyyətinin konstitusiyaya uyğun fəaliyyət göstərib-göstərməməsini müəyyənləşdirir. AFR konstitusiyasının 94-cü maddəsinə görə Federal konstitusiya məhkəməsinin üzvləri bundestaq və bundesrat tərəfindən seçilir. Bu məhkəmənin üzvləri bundestaqın, bundesratın və hökumətin üzvü ola bilməzlər.

AFR-də Federal konstitusiya məhkəməsindən başqa Ali federal məhkəmə də fəaliyyət göstərir. Ali federal məhkəmə birinci dərəcəli məhkəmə kimi mühüm əhəmiyyətli işlərə baxır. Ali federal məhkəmənin üzvləri AFR-in ədliyyə naziri tərəfindən tə'yin olunur. Ali federal məhkəmənin məhkəmə icraatı qaydası federal qanunlarla müəyyən olunur. **Ali məhkəmə nəzarəti hakimiyyəti** digər ölkələrin praktikasında da diqqəti cəlb edir. Bir sözlə, hakimiyyətin bölünməsi sisteminin fəaliyyət mexanizmi bütün demokratik dövlətlərdə öz xüsusiyyətləri ilə fərqlənir.

Hakimiyyətin bölünməsi problemi ilə əlaqədar olaraq **hakimiyyətin reallaşmasının amilləri və mexanizmi** də maraq doğurur. "Hakimiyyətin reallaşması amilləri anlayışı elə hadisələrin, əlaqələrin məcmuunu əks etdirir ki, hakimiyyətin varlığı bütövlükdə bunlardan asılıdır. Həmin hadisə və əlaqədar

sistemində iqtisadi, texniki, insani, mə'lumat, təşkilati, ideoloji, mədəni, psixoloji və digər xarakterli amillər mühüm yer tutur. Belə ki, hər hansı ictimai qüvvənin (hakim dairənin) iqtisadi hökmranlığı son nəticədə onun siyasi sistemdə hökmranlığını şərtləndirir. Maddi və mə'nəvi istehsalın inhisara alınması siyasi hakimiyyətin inhisara alınmasının zəruri şərtidir. Maddi və digər resurslar kimin sərəncamındadırsa, adamları kim idarə edirsə hakimiyyət də onun əlindədir.

Hakimiyyətin mexanizmi, onun varlığı hökmranlığın, ağalığın müxtəlif növləri ilə qırılmaz surətdə bağlıdır. Bu və ya digər ictimai qüvvənin (sinfin, təbəqənin və s.) nəinki iqtisadi, eləcə də ideoloji hökmranlığı onun siyasi hökmranlığını tə'min edir. Hakimiyyət də öz növbəsində iqtisadi və ideoloji hökmranlığa tə'minat verir. Siyasi hakimiyyət özündə texniki, insani, təşkilati, mə'lumat və digər mahiyyətli amilləri təcəssüm etdirən sosial tə'sisatlar vasitəsilə fəaliyyət göstərir. Başqa sözlə, siyasi hakimiyyətin tə'sisatlaşdırılması ictimai-tarixi zərurətdir.

"Hakimiyyətin reallaşması mexanizmi isə hakimiyyətin istifadə etdiyi müxtəlif, çoxcəhətli üsul və vasitələri ehtiva edir. Siyasi hakimiyyət hər şeydən əvvəl, müxtəlif formalarda məcburetmə yolu ilə tə'min olunur. Bu baxımdan bilavasitə fiziki zorakılıq, kommunikativ tə'siretmə stimulu, əməkdaşlıq, konsensus və ya əksinə, münaqişəli ünsiyyət, informasiya tə'siri, psixoloji tə'sir səciyyəvidir. Hakimiyyət qanun əsasında və onunla bağlı fəaliyyət göstərir. Qanunçuluq və qeyri-qanunçuluq siyasi münasibətlərin tə'sisatlaşdırılmış strukturunun tərkib hissələrindən biridir.

Cəmiyyət üzvləri ilə siyasi hakimiyyətin münasibətləri müxtəlif formalarda çıxış edir. Bu formalar aşağıdakılardır: hakimiyyətlə xalqın iradəsinin eyniliyinin e'tirafı, loyallıq, qarşıdurma, hakimiyyətdən özgələşmə, hakimiyyət uğrunda mübarizə və ya hakimiyyətdən əl çəkmək və sair. Hakimiyyətin xarakterindən asılı olaraq həmin formalardan bu və ya digəri müəyyənedici rol oynayır.

## 4. SİYASİ LİDER VƏ SİYASİ LİDERLİK

Siyasi liderlik mürəkkəb ictimai hadisədir. Hakimiyyət və təşkilat olan yerdə liderlik də mövcuddur. Siyasi liderliyin mahiyyətini əhatəli başa düşmək üçün "lider və "liderlik anlayışlarının müqayisəli təhlili məqsədəuyğundur. Lider sözü ingilis dilindən tərcümə edildikdə aparıcı, başqa adamları idarə edən mə'nasını ifadə edir. Bu termin liderin cəmiyyətdə əhəmiyyətini, yerini, rolunu və funksiyasını dəqiq əks etdirir. Sözün konkret mə'nasında lider müəyyən məqsədlərə çatmaq üçün adamların birgə fəaliyyətini təşkil etmək istiqamətində onlara tə'sir göstərmək qabiliyyətidir. Lider müxtəlif insan birliklərinə, adamların kiçik qruplarına və bütövlükdə dövlət səviyyəsində cəmiyyətə rəhbərliyi ifadə edir.

Liderin meydana çıxması və fəaliyyəti **obyektiv** və **universal hadisədir.** Liderə ehtiyac ona görə **obyektivdir ki,** adamların hər cür birgə fəaliyyəti təşkilatçılıqdan, qarşıya qoyulan məqsədlərə çatmağın səmərəli yollarından çox asılıdır. Bu funksiyanı nüfuzu, yüksək fəallığı və enerjisi ilə fərqlənən adam-lar yerinə yetirirlər. Liderin fəaliyyətinin **universallığı** bununla şərtlənir ki, adamların, qrupların, təşkilatların və hərəkatların birgə fəaliyyətinin bütün növləri liderə ehtiyac duyur. İctimai həyatın müxtəlif sferalarını lidersiz təsəvvür etmək çətindir. Siyasi liderlə yanaşı biznes sahəsində, elmdə, incəsənətdə, din aləmində, partiyalarda, həmkarlar təşkilatında, ailədə, tələbə qrupunda və digər sahələrdə liderlər mövcuddur. Lider o şəxsdir ki, fəaldır, rəğbət bəslənilir, enerjilidir, başqalarını idarə etmək qabiliyyəti və səviyyəsilə fərqlənir, bu və ya digər kiçik və böyük qrup onun rəhbərlik etmək hüququnu e'tiraf edir, mənsub olduğu kollektivin, qrupun, birliyin fəaliyyət proqramını müəyyənləşdirir, adamları öz ardınca aparmaq keyfiyyətinə malikdir və sair.

"Liderlik anlayışı "lider anlayışı ilə sıx bağlıdır. Liderlik, liderlə tabelikdə olanın qarşılıqlı fəaliyyətinin mürəkkəb mexanizmini səciyyələndirir. Bu anlayışın başlıca tərkib hissəsini aşağıdakılar təşkil edir: şəraiti dəqiq qiymətləndirmək qabiliyyəti; qarşıda duran vəzifələrin həlli yollarını düzgün

müəyyənləşdirmək; hər hansı qərarın yerinə yetirilməsi naminə adamların zəkasına və enerjisinə tə'sir göstərmək, onları səfərbər etmək; idarə olunanların liderin qəbul etdiyi qərarları, verdiyi göstərişləri bəyənməsi və onu fəal müdafiə etməsi, idarə edilənlərin liderə şüurlu və könüllü tabeçiliyi və sair. Liderlik liderlə bu və ya digər qrupun, birliyin üzvləri arasında xüsusi mexanizmə malik olan qarşılıqlı fəaliyyətdir. Deməli, "liderlik geniş anlayışlar kompleksinə daxildir. Liderlik bir tərəfdən liderin ideyalar irəli sürməsini, adamlara fəal və ciddi tə'sir göstərməklə onları idarə etməsini, digər tərəfdən liderə inanmağı, ona tabe olmağı, adamların onun ardınca getməyə hazır olmasını, qəbul etdiyi qərarın yerinə yetirilməsində bilavasitə iştirakını əks etdirir. Liderlik adamların birgə fəaliyyətinin təşkilinin obyektiv qanunauyğunluğudur.

Müasir siyasi elmdə liderliyin müəyyənləşdirilməsinə müxtəlif mövqelərdən yanaşılır. Məsələn, **V.P.Puqaçev** və **A.İ.Solovyev** liderlik üçün üç başlıca cəhəti me'yar hesab edirlər:

1. Liderlik hakimiyyətin növlərindən (variantlarından) biri olmaqla onun spesifikliyi yuxarıdan aşağıya istiqamətlənməsində təzahür edir. Liderliyin daşıyıcısı əksəriyyət deyil, bir nəfərdir və ya şəxslərdən ibarət qrupdur.

2. Liderlik idarəetmə statusudur, sosial mövqedir.

3. Liderlik başqa adamlara tə'sir göstərməkdir. (V.Kats, L.Gdinker və b.).[1]

**Jan Blondelə** görə "liderlik millətin üzvlərini fəaliyyətə oyatmaq üçün bir nəfər və ya bir neçə fərd tərəfindən həyata keçirilən hakimiyyətdir. Daunton isə yazır: "Liderlik cəmiyyətdəki vəziyyət olmaqla onun bir üzvünün cəmiyyətin bir neçə və ya bütün üzvlərinin kollektiv davranışını istiqamətləndirmək və təşkil etmək qabiliyyətidir.

Lider kimi liderliyin təşəkkülü və fəaliyyəti də obyektiv və universal hadisədir. Lakin liderliyin universal xarakter daşımasına baxmayaraq onun konkret məzmunu və təzahür formaları xeyli dərəcədə bir sıra obyektiv və subyektiv amillərlə müəyyən olunur. Həmin amillər bunlardır: konkret şərait; liderlərin və idarə

---

[1] В.П.Пугачев, А.И.Соловьев. введение в политологию.Səh.116-117.

olunanların sosial vəziyyəti; onların psixoloji xüsusiyyətləri; liderin və tabelikdə olanların fərdi keyfiyyətləri; bunların qarşılıqlı münasibətlərinin xarakteri. Ümumiyyətlə, liderliyi bir mühüm xüsusiyyət səciyyələndirir, bu da liderlikdə hakimiyyət və hakimiyyət münasibətlərinin təzahürüdür. Liderlik hakimiyyətin reallaşmasının konkret tə'sisatıdır.

Liderliyin məzmununda **formal və qeyri- formal liderlik** də öz əksini tapır. Rəhbərlik funksiyalarının tə'sisatlaşması formal liderlik anlayışında təcəssüm olunur. Formal liderlik müəyyən şəxsin mövcud təşkilatın üzvlərinə nüfuzlu tə'sirini səciyyələndirir. Bu tə'siretmə təşkilatın norma və qaydalarında təsbit edilir və ictimai iyerarxiya vəziyyətinə əsaslanır. Qeyri-formal liderlik lider rolunu yerinə yetirməyə subyektiv qabiliyyəti, hazırlığı və bacarığı səciyyələndirir, eləcə də o, qrup üzvlərinin bu və ya digər şəxsin rəhbərlik etməyə hüququ olmasını təsdiq etməsidir. Qeyri-formal liderlik müəyyən şəxsi keyfiyyətlərlə şərtlənən nüfuza əsaslanır. Liderliyin hər iki aspekti, yə'ni formal və qeyri-formal aspektləri məhz, siyasi liderliyi səciyyələndirir. Siyasətdə formal, tə'sisatlı aspekt aparıcı hesab olunur. Çünki o, şəxsi keyfiyyətlərdən çox adamlara, təşkilata tə'sir göstərməkdən, onları öz ardınca aparmaq gücündən asılıdır. Liderliyin müəyyən sosial şəraitdən asılılığı **situasiya konsepsiyasında** öz əksini tapır. Bu konsepsiyanı əsaslandıran **R.Stoqdill, Xilton, A.Qoldiyer** və başqalarıdır. Situasiya konsepsiyası liderliyin nisbiliyindən və çoxluğundan çıxış edərək əsaslandırmağa çalışır ki, lider müəyyən situasiyanın funksiyasıdır. Məsələn, R.Stoqdill qeyd edir ki, liderlik hər hansı sosial situasiyada adamlar arasında əlaqədir. Bu konsepsiya baxımdan qeyd edək ki, İran İslam Respublikasında avropa və amerika tipli siyasətçilər rədd edilir. Eləcə də dini lider Qərb siyasi aləmində özünü təzahür etdirmək imkanından məhrumdur. Onu da qeyd edək ki, situasiya nəzəriyyəsi liderlik üçün şəxsi keyfiyyətlərin əhəmiyyətini inkar etmir, lakin bunu mütləqləşdirmir də.

"Lider və "Liderlik anlayışlarından çıxış edərək "siyasi lider və "siyasi liderlik anlayışlarının nisbətinə diqqət yetirək. Siyasi lider sadəcə olaraq siyasi proseslərə rəhbərlik edən, cəmiyyətin idarə olunması funksiyalarını həyata keçirən, siyasi təşkilatları və

hərakatları öz ardınca aparan şəxs deyil. O, hər şeydən əvvəl, hadisələrin gedişini dəyişdirməyə, siyasi prosesləri istiqamətləndirməyə qadir olan adamdır. Heç də təsadüfi deyil ki, hər bir baş nazir, hökmdar, siyasi partiyanın rəhbəri, parlamentin spikeri siyasi lider hesab olunur. Siyasi liderlər cəmiyyətdə siyasi proseslsri fəallaşdırmağa nail olurlar. Onlar tarixi inkişafın gedişini müəyyən edən proqram irəli sürürlər. Real siyasət heç vaxt siyasi liderlərin iştirakı olmadan uğurla başa çatmayıb. Tanınmış mərhum professor **Səfyar Musayev** və bu kitabın müəllifi birgə yazdıqları "Siyasət elmdir adlı məqalədə qeyd edirlər ki, "Siyasi lider belə bir siyasi aksiomu nəzərdən qaçırmamalıdır ki, siyasi təfəkkürün mərkəzi problemi dövlət hakimiyyətini yalnız ölkənin bugünkü mənafeyindən deyil, həm də gələcək taleyi baxımdan, məqsədyönlü təşkil etməkdir.[1]

Tarix göstərir ki, ən.görkəmli siyasi liderlər ictimai inkişafın böhranlı, dönüş mərhələlərində təzahür edir. Onlar cəmiyyəti böyük çətinliklərdən xilas olmağa kömək edən siyasi və iqtisadi xarakterli tarixi proqramların təşəbbüsçüsü kimi çıxış edirlər. **Atatürk, Teodor Ruzvelt** və başqaları məhz, belə siyasi liderlər olmuşlar. Görkəmli qərb politoloqlarından biri olan **Robert Takker** qeyd edir ki, **F.Trumen** fövqəl'adə ağıla və başqalarının rə'yini nəzərə almaq qabiliyyətinə malik olan siyasi lider idi. Ruzvelt sanballı mütəxəssislərdən ibarət olan "komanda, özünəməxsus "beyin tresti yarada bilmişdi. Bununla yanaşı o, ölkəni ən dərin iqtisadi böhrandan çıxarmağa qadir olan proqram həyata keçirmişdi. Bu mə'nada T.Ruzvelti "amerikanın yenidən qurulmasının atası adlandırmağa mə'nəvi haqqımız var.

Tarixi-siyasi praktika dönə-dönə təsdiqləyib ki, ölkəni ləyaqətli, peşəkar siyasətçilər idarə edəndə dövlət daha qüdrətli olur. İdarəetmənin bu ümumbəşəri prinsipi pozulduqda dövlət tədricən tənəzzülə uğrayır, mə'nəvi dəyərlərin, milli ən'ənələrin qorunub saxlanmasının e'tibarlı tə'minatı heçə enir. Siyasi liderliyin ən əhəmiyyətli cəhətlərindən biri idarəetmə aparatına sərištəli, peşəkar və xalqına vicdanla xidmət etməyi bacaran kadrların cəlb olunmasıdır. Bu həqiqəti hələ antik dövrün böyük

---

[1] "Azərbaycan qəzeti, 17 dekabr 1993-cü il.

yunan filosofu, ensiklopedik zəka sahibi sayılan **Demokrit**, eləcə də **Pifaqor** dönə-dönə qeyd edirdi. Siyasət elm olduğuna görə onu həyata keçirənlər də yüksək zəkaya, analitik siyasi təfəkkürə malik olmalı, cəmiyyətdəki hadisələrin inkişafı və dəyişməsi axarını məharətlə duymalıdırlar. Cəmiyyəti, xalqı idarə edə bilmək, kütlələri razı salmaq əsl sənətdir, siyasi məharətdir. **Dövləti müdrikliklə idarə edənlərin siyasi mə'nəviyyatı mahiyyət e'tibarilə xalqın milli sərvəti kimi qiymətləndirilməlidir.**

Müstəqilliyi üçün hələ təhlükə sovuşmamış Azərbaycan xalqının çətin günlərini keçirdiyi indiki şəraitdə **onun ümumxalq mənafeyini, milli ləyaqəti məhdud şəxsi və qrup mənafeyindən, yerliçilik hissindən üstün tutan siyasətçilərə, rəhbər şəxslərə böyük ehtiyacı vardır.** Xalqımızın qarşısında duran mürəkkəb və çətin problemlərin uğurlu həlli o zaman mümkündür ki, idarəetmə hakimiyyətinə, dövlət əhəmiyyətli kollektivlərə namuslu, ləyaqətli fəaliyyəti ilə seçilən, xırda hisslərə uymayan, xalq tərəfindən tanınan və sevilən, eləcə də xalqını sevən adamlar cəlb olunsunlar. **Xalqımızın bugünkü kövrək taleyi və mə'nəviyyatı istedadlı, bacarıqlı və işgüzar (işbaz yox) adamların vicdanlı fəaliyyəti ilə köklənərsə uğurlu gələcəyimizə e'tibarlı tə'minat yaranmış olar. Siqləti siyasi alicənablıqdan, əxlaqi fəzilətdən və xalqa sədaqətdən yoğrulan fəaliyyət milli ləyaqətin əvəzsiz me'yarıdır. Bu me'yar isə özlüyündə dövlətin qüdrətinin, milli birliyin rəhnidir.**

Sosial proseslərin subyektiv tərəfi ilə bağlı olan siyasət ilk növbədə adamlarla işləmək bacarığını ifadə edir. Bu mə'nada siyasi lider vətənin taleyi naminə xalq və cəmiyyət qarşısında sosial mə'suliyyət hissini dərindən dərk edən, təşkilatçılığı, işgüzarlığı, mübarizliyi və möhkəm xarakterə malik olması ilə səciyyələnən, şəraitdən asılı olaraq xalqının mənafeyi baxımdan qətiyyətli addımlar atmağı bacaran şəxsiyyətdir. AFR-in kansleri **Helmut Kol** tarixə vahid mədəniyyəti, ən'ənələri, tarixi olan alman xalqının milli birliyini bərpa edən siyasi lider kimi daxil olmuşdur. O, sadəcə olaraq AFR-nın müəyyən bölgəsinin bütövlüyü üçün deyil, məhz, vahid Almaniyanın qərarlaşması

naminə hər şey etmişdir. Bu baxımdan onun böyük siyasətçi adlanmağa haqqı vardır.

Siyasi liderin məharəti ictimai inkişafın mövcud mərhələlərinə uyğun olaraq adamların siyasi həyatda iştirakı formalarını müəyyənləşdirmək bacarığında ifadə olunur.

Təəssüf ki, aramızda müəyyən adamlar, hətta ziyalıların bə'zisi "siyasi lider anlayışını məhdud mə'nada, bəsit şəkildə dərk edir, həqiqi siyasi liderlə qondarma siyasi lideri eyniləşdirir. Ən qəbahətli cəhət budur ki, bə'zi fəal siyasətbazlar özlərini "siyasi xadim, "siyasi lider kimi qələmə verirlər. Təəssüf ki, əhalinin müəyyən qisminin siyasi mədəniyyətinin aşağı olması xalqın mənafeyinin həqiq ifadəçisi kimi formalaşan və fəaliyyət göstərən şəxslərlə fərdi və qrup mənafeyi baxımdan çıxış edən insanları fərqləndirməyə mane olur. Əhalinin siyasi görüş dairəsi məhdud olan hissəsi bə'zən siyasətbaz liderləri (beləleri hətta çoxalıb) xalqın mənafeyinin yeganə təmsilçisi kimi qiymətləndirir. Təcrübə göstərir ki, siyasətbaz liderlər özlərinin bütün maddi və mə'nəvi imkanlarından, hər cür üsullardan, o cümlədən bə'zi mətbuat səhifələrindən, televiziyadan istifadə etməklə əhalinin siyasi şüur səviyyəsi aşağı olan hissəsini "məharətlə öz tərəfinə cəlb edə bilir, özlərini incə üsullarla təbliğ etdirib xalqın gözündə "yüksəlməyə sə'y göstərirlər. Beləleri xalqın böyük əksəriyyətinin sevdiyi ləyaqətli, sanballı şəxsiyyətləri müxtəlif üsullarla nüfuzdan salmağa çalışırlar. Səmimiyyətlə və qətiyyətlə deyə bilərik ki, **bu gün Azərbaycanda sözün əsl mə'nasında peşəkar, səriştəli, siyasi fəaliyyəti ilə xalqın e'timadını doğrultmaq səviyyəsinə yüksələ bilən şəxslər, siyasi xadimlər olduqca azdır.** Respublikamızda siyasi partiyaların və təşkilatların çoxluğu heç də həqiqi siyasi liderlərin, siyasi xadimlərin çoxluğuna dəlalət etmir. Belə bir cəhəti qeyd edək ki, bu və ya digər siyasi partiya, ictimai təşkilat o zaman sanballı siyasi tə'sisat səviyyəsinə yüksələ bilər ki, onun lideri ümumxalq məhəbbəti qazansın, həmin təsisatın sosial bazasını təşkil edən təbəqələrin ümumi intellektual və siyasi səviyyəsi yetkin olsun. Yetkin siyasi fəaliyyət isə məhz, dərin əhatəli siyasi düşüncə tərzi ilə şərtlənir. "Cırtdan siyasi təşkilatların və buna uyğun olaraq "cırtdan liderlərin xüsusi çəkisinin artması respublikamızın demokratik inkişaf yolu ilə

şərtlənsə də bu meyl həqiqi demokratiyanın və plyuralizmin, sivilizasiyalı inkişafın amili kimi çıxış etmir. "Cılız siyasi bolluq heç də siyasi sivilizasiyaya gedən yol deyil. **Psixologiyamıza hakim kəsilmiş fərdiyyətçilik, mənəm-mənəm və yerliçilik az qala hər rayonun öz siyasi partiyasını, öz siyasi liderini yaratmağa gətirib çıxarsın.** Müşahidələrimizin əsasında deyə bilərik ki, Azərbaycanda fəaliyyət göstərən partiyaların hamısı yerliçilik prinsipi üzrə təşəkkül tapmışdır. Yalnız sağlam niyyət, mütərəqqi təşəbbüs və alicənab addımlar xalqın ümumi tərəqqisinə istiqamətlənə bilər, milli dəyərləri qoruyub inkişaf etdirməyə qadir olar. **Milli inkişafı məhdudlaşdıran eybəcər cəhətlərdən biri də siyasi yarınmaq, siyasi fəaliyyətə təmənnalı mövqedən qoşulmaqdır.** Təcrübə göstərir ki, siyasi partiyaların rəhbər hey'ətində yer tutmağa çalışan şəxslərin çoxu, sıravi üzvlərin isə müəyyən qismi bu və ya digər partiyaya yalnız «gələcək hakimiyyətdə» vəzifə əldə etmək naminə daxil olur. Əlbəttə, siyasi hakimiyyətə gələn partiya və ya siyasi təşkilatın ləyaqətli nümayəndələrinin müvafiq vəzifələrə yiyələnməsi təbii və qanunauyğundur. Axı, partiyaların siyasi mübarizənin başlıca məqsədi siyasi hakimiyyətə sahib olmaqdır. Lakin vəzifə xatirinə siyasi fəaliyyətə cəlb olunmaq, cılız əqidə ilə silahlanıb şəraitdən asılı olaraq **"əlverişli"** partiya və ya ictimai təşkilatların mövqeyindən çıxış etmək, xudbin şəxsi niyyətinə çatdıqdan sonra isə əvvələr rəğbət bəslədiyin siyasi təşkilatdan uzaqlaşmaq nəinki siyasi mədəniyyətsizlikdir, əxlaqi baxımdan rəzil hərəkətdir, nankorluqdur. Artıq "avam camaat siyasi ibarələrə, şüarbazlığa inanmır. Böyük Sabir demişkən düzü-düz, əyrini-əyri görə bilir, nicat yolunu siyasətbaz liderlərin deyil, **xalqın zəkasını, mə'nəviyyatını və ideallarını öz əməllərində təsdiqləyən əsl siyasi liderlərin, ləyaqətli rəhbərlərin fəaliyyətində görürlər. Dərin zəkaya, böyük və geniş milli qəlbə malik olan peşəkar, səriştəli siyasətçilər xalqın sərvətdir. Elə siyasətin elm olması da,** əsl **siyasi liderlik də belələrinin fəaliyyətində** təsdiqlənir. Ümumdövlət, ümummilli miqyasda siyasi lider dövlət xadimidir, böyük partiyaların rəhbəridir, deputatlardır, ictimai siyasi hərakatların lideridir, müxtəlif ictimai birliklərin yaradılmasının təşəbbüsçüsüdür. Onlar siyasətə real tə'sir göstərmək imkanları ilə səciyyələ-

nir. Belə ki, cəmiyyətin inkişaf strategiyasını müəyyənləşdirir, hökuməti formalaşdırır, nazirlər kabinetinə nəzarət edir və sair.

"Siyasi liderlik anlayışı "siyasi lider anlayışı ilə əlaqəlidir, yaxındır. Siyasi liderlik hakimiyyətin reallaşmasının mexanizmi və konkret üsullarıdır. Siyasi liderlik liderliyin yüksək səviyyəsini əks etdirir. Çünki o, siyasi prosesləri və münasibətləri hakimiyyətin ali strukturlarında əks etdirir, siyasətin subyekti və obyekti arasındakı hakimiyyət münasibətlərini müəyyənləşdirir. Siyasi liderlik üçün vətəndaşların zəkasına, iradəsinə, enerjisinə, siyasi fəallığına şəxsən tə'sir göstərmək səciyyəvidir. Yuxarıda deyilənlərdən iki nəticə çıxarmaq olar: Birincisi, ümumiyyətlə, liderliyin daha yüksək forması siyasi liderlikdir. İkincisi, belə düşünmək səhv olardı ki, siyasi liderliyin xarakteri bütün siyasi liderlərdə eyni olmalıdır. **V.P.Puqaçev** və **A.İ.Solovyovun** qeyd etdikləri kimi siyasi liderlik hakimiyyət mövqeyində çalışan bir və ya bir neçə şəxsin bütün cəmiyyətə, təşkilata və ya qrupa nüfuzlu, legitim tə'siridir. Bu müəlliflərin fikri siyasi liderliyin mahiyyətini dəqiq və əhatəli əks etdirir. Liderlik siyasi fəaliyyətin ayrılmaz komponentidir. Siyasi liderlik siyasi rəhbərliyin mühüm tərəfidir. Siyasi liderlik hər şeydən əvvəl, münasibətdir, lider subyektlə onun mənsub olduğu bütün birlik (təşkilatla,qrupla) arasındakı qarşılıqlı fəaliyyətdir.

**Parsonsun** fikrincə, liderlik tə'sisatı normativ qayda olub əhatəli liderlik funksiyasını həyata keçirmək üçün səlahiyyətlərin bir neçə yarımqrupa və ya fərdə (siyasi xadimə) verilməsini tə'min edir. Siyasi lider subyektdir, mövcud funksiyaların daşıyıcısıdır.

"Siyasi liderlik münasibətləri aşağıdakı ünsürləri özündə təcəssüm etdirir:

1) Subyektin - liderin hökmranlığı. Bu hökmranlıq liderə mənsub olduğu qrup, təşkilat tərəfindən ona görə həvalə olunub ki, həmin birliklərin iradəsini yerinə yetirsin, başqa sözlə, ümumi mənafe və məqsədlərin həllini tə'min etsin;

2) Liderin təşəbbüskarlığı. Həmin keyfiyyə kollektiv məqsədlərin həyata keçirilməsi naminə yollar axtarılmasını və bütün resursların səfərbər edilməsini nəzərdə tutur;

3) Rəhbərlik münasibəti. Yə'ni subyekt-lider adamların birgə fəaliyyətinə rəhbərlik etməklə kollektiv fəaliyyət prosesini düzgün,məqsədyönlü səmtə istiqamətləndirməlidir;

4) Liderliyin mövcud qrupun, birliyin mənafeyinin xaraktnrindən, məqsədlərinin məzmunundan asılılığı. Siyasət sosial fəaliyyətin və münasibətlərin təşkil olunmuş prosesi olduğuna görə kollektiv iradəni həyata keçirənlərin dərin nüfuza malik olmasını həmişə obyektiv zərurətə çevirir. Əsl siyasət daim razılaşdırılmış mənafelərin yollarının axtarılmasını, meydana çıxan sosial ziddiyyətlərin və münaqişələrin həllini özündə təcəssüm etdirir. **D.P.Zerkinin** düzgün qeyd etdiyi kimi liderlik bilavasitə siyasətin yaradıcı mahiyyətindən irəli gəlir.[1]

Siyasi liderlik çoxcəhətli anlayışdır. Lakin onun üç aspekti müəyyənedicidir: **Liderin şəxsi keyfiyyətləri, onun həyata keçirdiyi hakimiyyətin vasitələri və liderin rastlaşdığı şərait.** Siyasi liderin təşəkkülü və fəaliyyətinin səmərəli, nəticəli olması xeyli dərəcədə həmin üç aspektlə şərtlənir.

Lideri fərqləndirən səciyyəvi cəhətlər çoxdur. Bütün bu cəhətləri üç başlıca qrupda birləşdirmək olar: təbii, əxlaqi və peşə keyfiyyətləri.

**Təbii keyfiyyətlərə** xarakterin gücü, iradə, qətiyyətli olmaq, hipnoz qabiliyyəti, incə intuisiya daxildir. Fransa prezidenti general **Şarl de Qol** incə intuisiyaya malik olması ilə fərqlənirdi. Məsələn o, Şərqi Avropada demokratik dəyişikliklərin həyata keçiriləcəyini sezmişdi. Yoxsulluğa qarşı mübarizə proqramının müəllifi Amerika prezidenti Lindon Conson ictimai rə'y sorğusuna böyük diqqət yetirirdi. Zarfatla onun ünvanına deyilirdi ki, Conson ən axırıncı ictimai rə'y sorğusunu cibində gəzdirir.

Siyasi lideri səciyyələndirən **əxlaqi keyfiyyətlərin** idarəetmə üçün zəruriliyini hələ Platon, Aristotel və Konfutsi kimi böyük filosoflar qətiyyətlə qeyd edirdilər. Onlar əxlaqi keyfiyyətlər sırasında nəcibliyi, düzlüyü, ictimai borca sədaqəti, adamlara qayğını, ictimai rifahın tə'min olunmasını və ədalətli olmağı idarə edənlər üçün çox mühüm xüsusiyyət sayırdılar.

---

[1] Д.П.Зеркин. Основы политологии. Səh.334.

Müasir şəraitdə siyasi lider üçün əxlaqi amillərin rolu daha da artır. Bu hər şeydən əvvəl, kütləvi qırğın silahının təzahürü, lokal (yerli) hərbi münaqişələrin yaranması təhlükəsilə bağlıdır. Müasir cəmiyyətin demokratikləşməsi prosesi, bəşəriyyətin ümumi siyasi mədəniyyətinin yüksəlməsi siyasi idarəetmənin qeyri-insani, sərt metod və vasitələrindən imtina olunmasını obyektiv həyati tələbata çevirir. Siyasi liderin **peşə keyfiyyətləri** rəngarəngdir. Bu mə'nada analitik qabiliyyət, şəraiti tez və dəqiq qiymətləndirmək bacarığı, özgə rə'yə qarşı arqumentlər (dəlillər) əsasında çıxış etmək, siyasi müdriklik, səriştəlilik, siyasi qərarların qəbul olunmasında peşəkarlıq nümayiş etdirmək səciyyəvidir.

Böyük siyasi lider həmişə cəsarətli, parlaq şəxsiyyətdir. Belə insan **yalnız enerjisi və natiqlik məharəti ilə deyil, həm də adamların tələbat və ehtiyaclarını ifadə etmək bacarığı ilə fərqlənir, cəmiyyətdə ayrı-seçkiliyə yol verilir. Geniş xalq kütlələri tərəfindən müdafiə edilməyən, adamlarla əlaqədə olmayan siyasi lider çox şey əldə edə bilməz**. Siyasi lider əgər bu və ya digər problemin həlli zamanı daim müəyyən siyasi qüvvələr tərəfindən təzyiqə mə'ruz qalırsa belə halda dəyanətli olmalı, müxtəlif nöqteyi-nəzərləri, təklif və tələbləri düzgün dərk edib obyektiv qiymətləndirmək mədəniyyəti nümayiş etdirməlidir.

Siyasi lider və liderlik probleminin təhlili ilə əlaqədar "hakimiyyətin vasitələri anlayışını qısaca da olsa dərk etmək vacibdir. Başqa sözlə, siyasi lider qarşıya qoyulan məqsədlərə çatmaq üçün nəyə, hansı qüvvələrə əsaslanmalıdır. Bu qüvvələr hər şeydən əvvəl, siyasi partiyalar, qanunvericilik orqanları, məhkəmələr, bürokratik aparat, kütləvi informasiya vasitələridir. Bir sözlə, elə vasitələrdir ki, siyasi liderin xalq kütlələri ilə əlaqəsi üçün şərait yarada bilər və bilir də. Lakin haqqında danışdığımız "hakimiyyət vasitələri müəyyən şəraitdə siyasi liderin qarşıya qoyduğu məqsədlərin həyata keçirilməsinə qarşı da çıxa bilər, iqtidara əks mövqedən münasibət bildirər. Tarix belə misallarla zəngindir.

Elmi ədəbiyyatda liderlik fenomeninin müxtəlif me'yarlara əsaslanan **təsnifatına** mühüm diqqət yetirilir. Şübhəsiz, liderliyin elmi ədəbiyyatda rast gəldiyimiz bütün təsnifatı şərti, xeyli dərəcədə subyektiv xarakter daşıyır.

Siyasi liderliyin təsnifatı bə'zi tədqiqatçılar tərəfindən əsasən aşağıdakı me'yarlar üzrə aparılır: a) liderliyin tipinə görə (proqramçı, strateq və icra edən); b) fəaliyyətin xarakterinə görə (universal və situasiyalı); v) rəhbərlik stilinə (üsuluna) görə (demokratik, avtoritar, anarxist).[1] Politoloji ədəbiyyatda daha ümumi mə'nada liderlik **adi** və **böyük** liderlərə bölünür. Adi (real) liderlər tarixdə nəzərə çarpacaq şəxsi iz qoyub getmirlər. Böyük (qəhrəman) liderlər isə özünəməxsus böyük siyasətçi olmaqla öz ideyalarını yeritdiyi siyasətdə həyata keçirirlər ki, bu da iri miqyaslı sosial və siyasi dəyişikliklərə gətirib çıxarır.

Liderliyin ən geniş yayılmış təsnifatı **M.Veberin** adı ilə bağlıdır. Veberin mülahizələrinə görə siyasi lider hakimiyyətin legitimləşməsi baxımdan üç tipə ayrılır: ən'ənvi liderlik, harizmalı liderlik və rasional - leqal liderlik. Əslində bu üç tip Veberin siyasi hakimiyyətin növlərinə dair təsnifata uyğun gəlir. Bu baxımdan ən'ənəvi liderlik ən'ənələrin gücü, qüdrəti ilə şərtlənir, harizmalı liderlik şəxsiyyətin qeyri-adi istedad və keyfiyyətlərinə, ona inama əsaslanır, rasional-leqal liderlik isə vətəndaşların qanunların müqəddəsliyinə inamı ilə şərtlənir.

Siyasi liderin təsnifatı üçün ümumiləşdirici me'yarlardan biri onun qarşıya qoyduğu məqsəddir, cəmiyyətə göstərdiyi tə'sirdir. Bu me'yarla əlaqədar olaraq amerika politoloqu **Robert Takker** siyasi liderin üç tipinin mövcudluğunu göstərir: **mühafizəkarlar, islahatçılar, inqilabçılar.**

**Mühafizəkarların** mövqeyi cəmiyyətdə **statuskvonu** (mövcud vəziyyəti və ya əvvəlki vəziyyəti) qoruyub saxlamaqdan ibarətdir. Siyasi liderin coşqun fəallığı, hazırladığı proqram və onun bütün hərəkətləri cəmiyyətin müasir görkəmdə saxlanılmasının zəruriliyini əsaslandırmağa istiqamətlənməlidir.

**İslahatçılar** iri miqyaslı islahatlar aparmaq yolu ilə ictimai quruluşun, hər şeydən əvvəl isə hakimiyyət strukturlarının köklü surətdə dəyişdirilməsinə cəhd edirlər. R.Takkerin yazdığı kimi, islahatçı lider mövcud siyasi cəmiyyətin başlıca mifini və ya başqa cür desək, mədəniyyətin ideal modelini müdafiə edir, mövcud sistemin tədricən təkmilləşdirilməsini həyata keçirir.

---

[1] Парыгин Б.Д. руководство и лидерство. Л. 1973.Səh.7-8; Манкийев А.Д. Микросреда личности. Грозный, 1982. Səh.49-50.

**İnqilabçılar** prinsip e'tibarilə başqa ictimai sistemə keçməyi qarşıya məqsəd qoyurlar. Tarix göstərir ki, belə halda dinc yol nadir hadisədir. **Robert Takker Karl Marksı** ən tipik inqilabçı siyasi xadim adlandırır. R.Takker qeyd edir ki, inqilabçı lider mühafizəkarların müdafiə etdiyi başlıca mifi, mövcud quruluşun mədəniyyətinin ideal modelini rədd edir və siyasi cəmiyyətin əsaslı surətdə yenidən qurulmasına istiqamətlənir, həmçinin, siyasi mədəniyyətin real modelini inkar etməklə prinsip e'tibarilə yeni sistemin qərarlaşmasına cəhd göstərir.

Mövcud politoloji tədqiqatlarda siyasi liderliyin elə təsnifatına da təsadüf olunur ki, bunun me'yarı liderliyin idarəetmədə istifadə etdiyi metodla əlaqələndirilir. Bu me'yara uyğun olaraq politoloqlar iki idarəetmə üsulunu-demokratik və avtoritar üsulları nəzərə çatdırırlar. Liderin siyasi idarəetmə metodu ona bağlılığı məhdudlaşdıra və ya stimullaşdıra bilər. **Demokratik siyasi lider** adamların ləyaqətinə hörmət bəsləyir, onların nailiyyətləri üçün maksimum imkanlar stimullaşdırır. Belə liderlər tənqiddən ehtiyat etmir, adamlara xeyirxah münasibət bəsləyir, ünsiyyətlidir, əməkdaşlıq və mənafelərin ümumiliyi üçün şərait yaradır.

**Avtoritar siyasi lider** isə qeyri-demokratik idarəetmə metodlarına istiqamətlənir. O, tənqidə yol vermir, təkbaşına istiqamətverici tə'sirə üstünlük verir. Belə halda güc tətbiq etmək təhlükəsinə əsaslanır. Praktiki olaraq bütün diktatorların, tiranların, istibdadçıların (müstəbidlərin) siyasi fəaliyyəti avtoritar metodlara əsaslanır.

Liderliyin tiplərinin rəngarəngliyi liderin həll etdiyi məsələlərin geniş miqyası ilə izah olunur. Siyasi liderin yerinə yetirdiyi funksiyalar onun qarşıya qoyduğu məqsədlər, fəaliyyət göstərdiyi situasiya və mühitlə şərtlənir. Lakin məqsəd fəaliyyət proqramını və onun həyata keçirilməsini səciyyələndirirsə situasiya bir qayda olaraq böhranlı olur. Ümumiyyətlə, liderin fəaliyyətinin başlıca mərhələlərini qiymətləndirmək əsasında onun **üç ümumi funksiyasını** qeyd etmək olar: 1) Situasiyanın təhlilini və qiymətləndirilməsini nəzərdə tutan siyasi diaqnoz; 2) İctimai problemlərin həllinə xidmət edən fəaliyyət istiqamətinin və proqramının müəyyənləşdirilməsi; 3) İcraedicilərı (vəzifəli

şəxsləri, bürokratiyanı və gütləəri) məqsədlərin reallaşdırılmasına səfərbər etmək.

Siyasi liderin daha **konkret funksiyalarına** isə aşağıdakılar daxildir:

1. **İnteqrativ funksiya.** O,cəmiyyətin inteqrasiyasını, kütlələrin birləşdirilməsini nəzərdə tutur. Lider vətəndaşları ümumi məqsədlər və dəyərlər ətrafında birləşdirməyə nail olmaqla xalqa xidmət etmək nümunəsi göstərməlidir. İnteqrativ funksiya cəmiyyətin bütövlüyünün və sabitliyinin qorunmasına, vətəndaş sülhünün və razılığının qərarlaşmasına istiqamətlənir. Buna görə lider milli mənafe naminə digər dövlətlərlə qarşılıqlı münasibətlərə xüsusi diqqət yetirməlidir, cəmiyyətin bütün siyasi qüvvələrinin, bütün sosial qruplarının birliyini tə'min etməlidir. Siyasi lider islahatların sosial aspektini aydın dərk etməli, cəmiyyətdə kəskin qütbləşmə yaranmasına, müxtəlif cür sosial partlayışın və münaqişələrin baş verməsinə imkan yaratmamalıdır. O, cəmiyyətdə təzahür edən dəyişikliklərə və ictimai rə'yə böyük diqqət yetirməlidir. Bir sözlə, cəmiyyətdə konsensusun bərqərar olmasına çalışmaq siyasi liderin başlıca funksiyasıdır.

2. **Sosial arbitraj funksiyası** (sosial mübahisələri həll etmək). Bu funksiya vətəndaşları qanunsuzluqdan, bürokratiyanın özbaşınalığından müdafiə etməyə, qayda və qanunçuluğa riayət olunmasına istiqamətlənmişdir. Düzdür, sosial arbitraj, sosial himayəçilik həmişə həyata keçirilmir. Bu laqeydlik "yaxşı hökmdara, "xalqın atasına inamdan irəli gəlir.

3. **Analitik funksiya və ya diaqnoz qoymaq funksiyası.** Həmin funksiya yaranan şəraitin səbəblərini dərindən və hərtərəfli təhlil etməyi, obyektiv-subyektiv amillərin və reallıqların məcmuunu öyrənməyi ifadə edir.

4. **Fəaliyyət proqramı hazırlamaq funksiyası.** Onun yerinə yetirilməsində siyasi liderin şəxsi keyfiyyətləri, qətiyyəti, enerjisi, zəkası, intuisiyası, cəsarəti, öz üzərinə böyük mə'suliyyət götürmək qabiliyyəti xüsusi rol oynayır.

5. **Qəbul olunmuş proqramın həyata keçirilməsi naminə ölkənin, xalqın səfərbər olunması funksiyası.** Bu funksiyanın reallaşması siyasi liderin geniş kütlələrlə əlaqəyə girmək, onları inandırmaq, ruhlandırmaq, tərəddüd edənləri öz tərəfinə cəlb

etmək bacarığı və qabiliyyətindən çox asılıdır. Tarixi təcrübə göstərir ki, siyasi liderin irəli sürdüyü proqram ya uğurla həyata keçib və ya əksinə.

6. **Təşəbbüskar, yenilikçi funksiya.** Həmin funksiya sosial quruculuq naminə siyasi liderin yeni, işgüzar ideyaları şüurlu surətdə həyata keçirməsini səciyyələndirir. Bunun üçün ictimai inkişafın yeni siyasi proqramı və strateji planı işlənib hazırlanır, siyasi strukturların yeniləşməsi, yenidən təşkili həyata keçirilir. Ümummilli məqsədlərin və proqramın irəli sürülməsi o halda reallaşır ki, sosial, maddi, maliyyə resursları və siyasi vasitələr hərtərəfli təhlil edilib qiymətləndirilsin. Lider həmçinin, xalqın ən'ənələrini qorumalı, ictimai tərəqqini tə'min etməli, kütlələrdə sosial ideallara və dəyərlərə inam hissi oyatmalıdır. Təşəbbüskarlıq, yeniçilik funksiyasının geniş miqyasda yerinə yetirilməsi harizmalı liderə aiddir. Məsələn, Şimali Vetnam ilə müharibədə məcburiyyətdən sonra ABŞ-da yayılmış "vetnam sindromunun, milli pessimizmin və süstlüyün aradan qaldırılmasında Ronald Reyqanın uğurlu siyasi fəaliyyəti səciyyəvidir. İnformasiyaya lazımi səviyyədə yiyələnməyən, sutka ərzində cəmi 23 saat işləyən bu amerika prezidentinin gücü dərin siyasi sezməyə, siyasi intuasiyaya malik olmasında idi.

7. **Kommunikativ funksiya.** O, adamların bütün tələbatının və mənafelərinin liderlərin siyasi bəyannamələrində və proqramlarında, eləcə də praktiki fəaliyyətində əks olunmasını ifadə edir. Axı, siyasi liderin fəaliyyətinin bütün mə'nası bütövlükdə cəmiyyətin mənafeyi naminə xalqa xidmət etməkdir. Siyasi lider dəyişilən ictimai həyatın ifadəsi olan ictimai əhval-ruhiyəni və rə'yi daim nəzərə almalıdır. Siyasi lider kütləvi informasiya vasitələrilə, xüsusilə televiziya vasitəsilə xalqla bilavasitə ünsiyyətdə olmaq üçün geniş imkanlara malikdir.

8. **Əlaqələndirmə funksiyası.** Bu funksiya mahiyyət e'tibarilə təşkilatçılıq, səfərbərlik funksiyasının davamı olub siyasi dəyişikliklərin subyektlərinin - hakimiyyət tə'sisatlarının və idarələrinin fəaliyyətinin, həmçinin praktiki icraedici qərarların əlaqələndirməsinə istiqamətlənir. Əlaqələndirmə funksiyası hakimiyyətin bütün qollarının və hakimiyyət strukturlarının:

parlamentin, məhkəmənin, icraedici hakimiyyət orqanlarının fəaliyyətinin əlaqələndirilməsini özündə ehtiva edir.

Siyasi liderliyə dair xeyli **konsepsiya** mövcuddur. Bunlardan bir neçəsinin mahiyyətini şərh edək:

**Xüsusiyyət (keyfiyyət)** nəzəriyyəsi. Həmin nəzəriyyədə liderin şəxsi keyfiyyətlərinə başlıca diqqət yetirilir, onlarla keyfiyyət adı çəkilir və göstərilir ki, lider məhz, bu keyfiyyətlərə yiyələnməlidir. Məsələn, amerika alimi Boqardus hesab edir ki, lider adlanan şəxs həmin səviyyəyə enerji, zəka, xarakter kimi keyfiyyətlər əsasında yüksəlir. Lider təbiət tərəfindən ona verilən qabiliyyəti doğulandan sonra üzə çıxarır və uşaqlığında belə qənaətə gəlirsən ki, bu adam lider olacaq. Xüsusiyyət nəzəriyyəsinin inkişafı XX əsrin ortalarında ABŞ-da **Smit, Berd** və başqaları tərəfindən daha yüksək səviyyəyə çatdı.

**Situasiya konsepsiyası.** Bu konsepsiyanın müəllifləri amerika politoloqları **V.Dal, V.Fidler** və **T.Xinton** hesab olunur. Onlar liderliyi situasiyanın funksiyası kimi nəzərdən keçirir, başqa sözlə, liderin davranışı kimi izah edirlər. Belə ki, onun davranışı bir situasiyaya uyğun gəlirsə başqa situasiyaya yaramıya bilər. Liderin təzahürü zaman, məkan və şəraitin məhsuludur. Xalqımızın tarixindən buna dair çoxlu misallar gətirmək olar. Məsələn, Azərbaycan xalqının böyük siyasi xadimi **Nəriman Nərimanovun** 20-ci illərdə digər millətlərin siyasi nümayəndələrinin əhatəsində təzyiq, hətta tə'qibə mə'ruz qalmasına baxmayaraq o zaman Dağlıq Qarabağın Azərbaycanın tərkib hissəsində qalmasına nail oldu. N.Nərimanovu "bəyənməyən indiki bə'zi siyasətbazlar isə Dağlıq Qarabağın ermənilər tərəfindən işğalına əlverişli şərait yaratdılar.

Amerika politoloqları tərəfindən siyasi liderin **kompleks xarakteristika əsasında təsnifatı konsepsiyası** işlənib hazırlanmışdır. ABŞ tədqiqatçısı xanım **M.Xerman** siyasi liderin funksiyasının məzmununu müvafiq olaraq dörd obraz (model) vasitəsilə səciyyələndirir:

**Birinci obraz** "bayraqdar lider adlanır. Onu real gerçəkliyi özünəməxsus şəkildə dərk etməsi fərqləndirir. Belə lider məqsədləri müəyyənləşdirir, tərəfdarlarına fəaliyyət istiqamətini göstərir və onları öz ardınca aparır.

**İkinci obraz** "siyasətçi-xidmət edən liderlə eyniləşdirilir. Bu elə xadimdir ki, öz tərəfdarlarının mənafeyinin ifadəçisi rolunda çıxış edir, arzu və istəklərini rəhbər tutur, onların adından fəaliyyət göstərir.

**Üçüncü obraz** "satıcıya bənzədilir". Belə liderin qabiliyyətini nəzərə alaraq tərəfdarları onun planını və ya ideyalarını satın alır və bunların həyata keçirilməsinə cəlb olunurlar. Bu halda liderin təbiəti ictimai münasibət kimi nəzərdən keçirilir.

**Dördüncü obraz** "yanğınsöndürən" lider kimi səciyyələndirilir. Həmin lider situasiyanın doğurduğu hadisələrə dərhal reaksiya verməyi bacarmalıdır. M.Xerman belə qənaətə gəlir ki, yuxarıda göstərilən dörd xüsusiyyət siyasi praktikada liderlərin əksəriyyəti tərəfindən həyata keçirilir.

# IX FƏSİL

## SİYASİ ELİTA

### 1. ELİTA ANLAYIŞI: MƏZMUNU, FUNKSİYALARI

Hər bir cəmiyyət idarə edənlərlə və idarə olunanlarla səciyyələnir, başqa sözlə, ölkədə siyasi hakimiyyəti kim və kimə qarşı həyata keçirir. İdarə edənləri səciyyələndirmək üçün müxtəlif anlayışlar işlədilir, lakin bunlardan daha çox yayılanı "elita" anlayışıdır.

"Elita" anlayışı latın dilində seçmək mənasını verən "eliqere", fransız dilində isə ən yaxşı mənasını ifadə edən "elite" sözlərindən götürülmüşdür. Ümumiyyətlə, ədəbiyyatda elita cəmiyyətin ağalıq edən hissəsi, idarə edən təbəqəsi mənasında müxtəlif məvhumlarla nəzərə çatdırılır.

XVII əsrdən bşlayaraq elita sözü ən yüksək keyfiyyətli malları səciyyələndirmək üçün işlədilir, XIX əsrdən etibarən sosial iyerarxiya sistemində yüksək sosial qruplara tətbiq edilir. Bu termin sosiologiyada və politologiyada XX əsrdə yayılmağa başlayır.[1]

Elita elitar nəzəriyyənin mərkəzi anlayışı olmaq etibarilə belə bir müddəadan çıxış edir ki, hər cür sosial strukturun tərkib hissəsini idarəetmə, eləcə də yaradıcı idarəetmə (elm, mədəniyyət və s. sferada) funksiyalarını həyata keçirən yüksək, imtiyazlı təbəqə və ya təbəqələr təşkil edir.

Müasir elita nəzəriyyəsinin sələfləri **Platon** və **Karleyl Nitsşe** hesab olunur. Bu nəzəriyyəni bütöv görüşlər sistemi kimi XX əsrin əvvəllərində **Pareto, Moska, Mixels** formalaşdırmışdır. Q.Moska və V.Pareto bir-birindən asılı olmadan (müstəqil surətdə) elitar cəmiyyət konsepsiyasının əsasını qoymuşlar. Qərb sosiologiyasında və politologiyasında "elita" anlayışı birmənalı müəyyənləşdirilmir. Paretoya görə adamların fəaliyyət sahəsinin daha yüksək göstəricilərlə

---

[1] Bax: "Elita" - Политология: енсиклопедический словар. М., 1993

səciyyələnməsi elita adlanır. Moskanın fikrincə, elita siyasi münasibətlərdə daha çox fəallıq göstərən, hakimiyyətə istiqamətlənən adamlardır, cəmiyyətdə azlıq təşkil edən, idarəedici siniflərdir. Bu təriflərlə yanaşı ədəbiyyatda elitaya çoxsaylı yanaşma diqqəti cəlb edir. Məsələn, elita sosial həyatı müəyyənləşdirir **(Day)**, ilahi qabiliyyətə malik olan şəxslərdir **(Freynd)**, qeyri-yaradıcı çoxluğa qarşı duran cəmiyyətin yaradıcı azlığıdır **(Toynbi)**, daha çox nüfuza malik olan, cəmiyyətdə daha çox mühüm funksiyalar həyata keçirən azlıqdır **(Keller)**. Maraqlıdır ki, **Boden** elitanın təyyarəçilərdən, şahmatçılardan, hətta oğrulardan ibarət olduğunu iddia edir. Bir sözlə, elitaya dair plyuralist nəzəriyyələr özünəməxsusluğu ilə fərqlənir.

XX əsrin 40-cı illərinə qədər elita nəzəriyyəsi daha çox İtaliyada, Almaniyada, Fransada, sonralar isə ABŞ-da yayılmışdır. Moskanın və Paretonun ilk xidmətlərini nəzərə alaraq tədqiqatçılar birmənalı şəkildə İtaliyanı elita nəzəriyyəsinin vətəni hesab edirlər. Elita nəzəriyyəsinin başlıca istiqamətləri "sərvət yönümlü" **(Orteqa)**, "makiavelliçilik" **(Bernhels)**, struktur funksionallıq **(Keller)** hesab olunur.

Elita nəzəriyyəsinin ümumi cəhətləri bunlardır: tarixi tərəqqini inkar etmək, başqa sözlə, tarix elitanın müəyyən tiplərinin hökmranlığını səciyyələndirən sosial dövrlərin məcmuu kimi başa düşülür; xalq suverenliyi ideyasına qarşı çıxmaq, yəni qeyri-bərabərlik ictimai həyatın əsasını təşkil edir; elitaya qarşı çevrilən sosial inqilabın kütlələrin gözlədiyi nəticələrə gətirib çıxarmadığını iddia etmək və s.

Elita nəzəriyyəsində "elita" anlayışının tərkibi olan "siyasi elita" anlayışına xüsusi diqqət yetirilir. Bu baxımdan elmi ədəbiyyatda "siyasi elita" və "ağalıq edən elita" anlayışları birmənalı qiymətləndirilmir. "Ağalıq edən" elita anlayışına idarəetmə proseslərində bilavasitə və dolayı yolla iştirak edən müxtəlif qruplar aid edilir. Elitanın siyasi, iqtisadi, hərbi, ideoloji və digər növləri məhz, buraya aiddir. Deməli, siyasi elita ağalıq edən elitanın məhz bir hissəsidir.

Belə bir cəhəti qeyd etmək vacibdir ki, ağalıq (idarə) edən elitanı təşkil edən bütün digər qruplardan fərqli olaraq siyasi elita siyasi hakimiyyətin həyata keçirilməsində bilavasitə iştirak edir. Beləliklə, siyasi elita cəmiyyətin müəyyən qrupu, təbəqəsi olmaqla

dövlət hakimiyyətini öz əlində cəmləşdirir və komanda mövqeyi tutmaqla cəmiyyəti idarə edir. Bu təbəqə başlıca olaraq idarə etmək funksiyalarına və səlahiyyətlərinə malik olan yüksək rütbəli peşəkar siyasətçilərdir, eləcə də siyasi proqramın işlənib hazırlanmasında və reallaşmasında, ictimai inkişafın strategiyasının müəyyənləşdirilməsində iştirak edən, peşə hazırlığına, siyasi səriştəliyə malik olan yüksək vəzifəli dövlət qulluqçularıdır. Bəzən siyasi elitanın başlıca mahiyyəti müəyyənləşdirilərkən təəssüf ki, o, tez-tez "siyasi rəhbərlik", "idarəetmə strukturları", "qərarların qəbul olunması mərkəzi", "siyasi sistemin mərkəzi həlqələri" anlayışları ilə eyniləşdirilir. İllər keçir, siyasi elitanın tərkibini təşkil edən şəxslər dəyişilir, lakin onun vəzifəli strukturu praktiki olaraq dəyişməz qalır.

Müasir dövlətlərin siyasi elitası hökmdarlarla (monarxla), prezidentlərlə, vitse-prezidentlərlə, baş nazirlərlə, nazirlərlə, qanunverici və icraedici orqanların rəhbərləri ilə, deputatlarla, ali məhkəmənin üzvləri, ştatların, qubernatorları, müxtəlif qurumların, vilayətlərin, yüksək diplomatik nümayəndəliklərin üzvləri və s. ilə səciyyələnir.

Vaxtilə bir sıra qərb dövlətlərində (Böyük Britaniyada, AFR-də), eləcə də ABŞ-da siyasi elitanın tərkibi təhlil edilmiş və belə bir göstərici müəyyənləşdirilmişdir ki, ona daxil olan şəxslərin daha fəal yaş həddi 50-65 arasındadır. həmin şəxslərin 60-dan 80 faizə qədəri bir-iki ali məktəbi qurtarmışdır, böyük əksəriyyəti isə iri mülkiyyətçilərdir. Əldə olan məlumata görə müxtəlif ölkələrdə siyasi elitanın məcmuu təxminən 2-4 min nəfəri əhatə edir, başqa sözlə o, çox məhdud və azsaylı təbəqədir. Məşhur tarixçi və filosof N.A.Berdyayev çox haqlı olaraq yazır: "Dünya yaranandan bir qayda olaraq həmişə çoxluq deyil, azlıq idarə etmiş və edəcəkdir. Bu, idarəetmənin bütün forma və tiplərinə, monarxiyaya və respublikaya, irtica dövrünə və inqilabi dövrlərə aiddir. Azlığın idarəçiliyindən çıxış yoxdur. Bir azlıq digər azlıqla əvəz olunur. Harada dövlət varsa siyasi elita da vardır". Bu həqiqətən belədir. Əksinə iddia etmək tarixi təcrübəni və müasir həyatın faktlarını təhrif etmək deməkdir.

Cəmiyyətin idarə edənlərə və idarə olunanlara bölünməsi aşağıdakı bir sıra obyektiv və subyektiv xarakterli amillərlə şərtlənir:

1. İctimai əmək bölgüsünün uzun müddətli təkamülü prosesində peşəkar fəaliyyətin xüsusi hazırlıq, səriştəlilik, bilik və bacarıq tələb edən xüsusi növünün - idarəetmə əməyinin təşəkkülü.

2. Cəmiyyətin idarə olunması zərurəti nöqteyi-nəzərdən, onun rəhbərlik edənlərə və icraçılara, idarə edənlərə və idarə olunanlara bölünməsi. İyerarxiyalı sosial təşkil bir qrup adamların hökmranlığında və digərlərinin tabeçiliyində təzahür edir.

3. Siyasi elitanın təşkilinə cəmiyyətin siyasi təşkili strukturunun özü ilə bağlı və ictimai prosesslərin idarə olunması ilə əlaqədar olan xüsusi aparatın yaranması. Təşkil etmə prinsipi hakimiyyət iyerarxiyasının təşəkkülünə, siyasi mənsəbpərəstliyə istiqamətlənən peşəkar siyasətçilərin təzahürünə gətirib çıxarır.

4. Siyasi elitanın formalaşması idarəetmə fəaliyyətinin hər cür statusunun müxtəlif maddi və mənəvi imtiyazlar, şöhrət əldə etmək imkanları ilə birləşdirilməsi stimulu ilə şərtlənir.

5. Eyni zamanda vətəndaşların əksəriyyətinin adamların təbii qeyri-bərabərliyi ilə bağlı hakimiyyətdən və siyasətdən uzaqlaşması. Axı, hamı irimiqyaslı təşkilatları idarə etmək qabiliyyətinə malik deyildir. Sadə adamların əksəriyyətində siyasi proseslərdə iştirak etmək marağı və arzusu yoxdur. Məhz, vətəndaşların böyük əksəriyyətinin idarəetmə qabiliyyətinə malik olmaması onları məcbur edir ki, bu funksiyanı rəhbərlərə, siyasətçilərə, peşəkarlara etibar etsin.

Siyasi elita mürəkkəb struktura malikdir. Onun başlıca növlərini müəyyənləşdirmək üçün meyar hakimiyyət funksiyalarının həcmidir. Bu meyar əsasında siyasi elitanın aşağıdakı növləri və ya səviyyələri fərqləndirilir: yüksək, orta, inzibati.

Yüksək siyasi elita özündə aparıcı siyasi rəhbərləri, qanunverici, icraedici və məhkəmə hakimiyyətində çalışan yüksək vəzifəli şəxsləri birləşdirir. Bunlara prezidentin, baş nazirin, parlamentin spikerinin (sədrinin) bilavasitə əhatəsində olanları, dövlət hakimiyyəti orqanlarının, aparıcı siyasi partiyaların, parlamentdəki siyasi fraksiyaların rəhbərləri daxildir. həmin şəxslər milyonlarla insanların taleyinə aid olan, bütün cəmiyyət üçün daha çox siyasi əhəmiyyət daşıyan qərarları qəbul edən və kifayət qədər azlığa malik olan (100-200 nəfər) adamlar dairəsidir. Orta siyasi elita seçkili vəzifəli şəxslərin çoxsaylı böyük dəstəsindən formalaşır. Bunlara parlament üzvləri, senatorlar, qubernatorlar, merlər, müxtəlif siyasi partiyaların və ictimai-siyasi hərəkatların liderləri, seçki dairələrinin rəhbərləri daxildir. İnzibati (bürokratik) elitanı nazir-

liklərdə, departamentlərdə və dövlət idarələrinin digər orqanlarında yüksək mövqelər tutan dövlət qulluqçuları (məmurlar) təşkil edir.

Siyasi elitanın sosial əhəmiyyəti onun yerinə yetirdiyi funksiyalarda ifadə olunur. Bu funksiyalar müxtəlif və mürəkkəbdir və təbiidir ki, böyük məsuliyyətlə bağlıdır. Məsuliyyət hissi elitanı belə bir məsələ barədə düşünməyə vadar edir ki, siyasi elitanın funksiyaları nəyə əsaslanır və nə ilə müəyyənləşir. İlk baxışda elə təsəvvür yaranır ki, buna cavab sadədir. Başqa sözlə, siyasi elitanın yerinə yetirdiyi funksiyanın məzmunu və həddi ölkə konstitusiyası ilə şərtlənir. Əlbəttə, legitim (Legitim - qanuni, hüquqi əsası olan) siyasi elitaların mövcud olduğu ölkələrdə belədir. Bu cür ölkələrdə siyasi şərait sabitliyi ilə səciyyələnir. Lakin real həyatda konstitusiya ilə real hakimiyyət arasında ziddiyyətli hallar tez-tez nəzərə çarpır. Belə vəziyyət ən azı iki halda baş verir. Birincisi, ölkədə siyasi şərait əsaslı surətdə dəyişdiyi vaxt (keçid dövrlərində), lakin bu dəyişiklik konstitusiyada öz əksini tapmır. İkincisi isə siyasi elita konstitusiyadan uzaqlaşdığı vaxt təzahür edir. Bu vəziyyət ilk növbədə avtoritar və totalitar rejimlərdə müşahidə olunur. Ümumiyyətlə, siyasi elitanın yerinə yetirdiyi funksiyaların məzmununa siyasi rejim böyük təsir göstərir. Siyasi elitaların yerinə yetirdiyi funksiyalar çoxdur. Biz bunlardan ən əhəmiyyətlilərini - strateji, kommunikativ, təşkilati və inteqrativ funksiyaları nəzərdən keçirəcəyik. Həmin funksiyalar sırasında birinci yeri strateji funksiya tutur. Onun məzmunu cəmiyyətin inkişaf strategiyasının və taktikasının işlənib hazırlanmasında, siyasi fəaliyyət proqramının müəyyənləşdirilməsində ifadə olunur. Strateji funksiya ictimai tələbatları köklü dəyişikliklərdə əks etdirən yeni ideyaların əsaslandırılmasında, ictimai inkişafın strateji istiqamətinin müəyyənləşdirilməsində, vaxtı çatmış islahatlar konsepsiyasının işlənib hazırlanmasında təzahür edir.

Strateji funksiya siyasi elitanın yüksək səviyyəsində - parlament deputatları, nazirlər kabinetinin üzvləri, prezidentin ekspertləri, müşavirləri, köməkçiləri vasitəsilə tam şəkildə reallaşa bilər, əlbəttə, elmi-tədqiqat institutlarının, analitik mərkəzlərin mütəxəssislərindən, ən görkəmli alimlərdən istifadə etməklə. Deməli, siyasi elitanın strateji funsiyanı yerinə yetirməsi üçün ondan yüksək səriştəlilik və peşəkarlıq səviyyəsi tələb olunur. Həmin

funksiya eləcə də hökmranlıq edən təbəqənin əksəriyyət hissəsinin mövcud strateji planla razılaşmadığı təqdirdə siyasi elitanın cəsarətli və qətiyyətli addımından asılıdır. Tarixdə belə hallar az olmamışdır. ABŞ prezidenti T. Ruzveltin XX əsrin əvvələrində ölkəni iqtisadi böhrandan çıxarmaq naminə qətiyyətli tədbirləri və səyləri buna klassik misaldır.

Siyasi elitanın strateji funksiyanı uğurla həyata keçirməsi yalnız "beyin qərargahının" keyfiyyətli kadr tərkibi ilə şərtlənmir, bu, eləcə də ölkədə ictimai rəyin vəziyyətindən və onun qəbul edilən siyasi qərarda əks olunmasından asılıdır. Söhbət siyasi elitanın ən mühüm funksiyalarından biri olan kommunikativ (Kommunikativ - əlaqələndirmək mənasında) funksiyadan gedir.

Kommunikativ funksiya siyasi proqramlarda əhalinin müxtəlif sosial qrupları və təbəqələrinin mənafe və tələbatının (siyasi, iqtisadi, mədəni, dini, peşə və s.) əks etdirilməsini və bunların praktiki fəaliyyətdə reallaşmasını nəzərdə tutur. həmin funksiya özündə müxtəlif sosial birliklərin əhval-ruhiyyəsinin xüsusiyyətlərini görməyi, ən mühüm ayrı-ayrı məsələlərə dair ictimai rəydə baş verən dəyişikliklərə dərhal və dəqiq münasibət bildirməyi səciyyələndirir. Kommunikativ funksiya eləcə də sosial məqsədlərin, ideyaların və sərvətlərin (sülh, təhlükəsizlik, ümumi məşğulluq və s.) müdafiə olunmasını nəzərdə tutur. Bu funksiyanın yerinə yetirilməsi siyasi elitanın nümayəndələrindən müəyyən zəruri keyfiyyətlərə yiyələnməyi, ilk növbədə adamların böyük əksəriyyəti ilə ünsiyyətdə olmağı tələb edir. Siyasi elitanın ən mühüm funksiyalarından digəri təşkilatçılıq funksiyasıdır. Siyasi elita həmişə kütlələri təşkil etmək zərurəti ilə üzləşmiş və üzləşəcəkdir.

Potensial siyasi elita (hakimiyyətə iddia edən qrup) içərisində ən təsirlisi o olacaqdır ki, öz proqramının kütlələr tərəfindən müdafiə olunmasını təmin etməyə qadirdir. Siyasi elitanın təşkilatçılıq funksiyası işlənib hazırlanmış xəttin praktikada reallaşmasını, siyasi qərarların həyatda təcəssümünü nəzərdə tutur. İşlənib hazırlanmış strateji xətt (kurs) müxtəlif siyasi tədbirlər sistemində ifadə olunur. Bunlara aşağıdakılar aiddir.

- qanunverici (parlament, prezident, hökumət tərəfindən qanunların və digər qanunverici aktların (qərarların, sənədlərin)) qəbul olunması;

- səfərbəredici (ictimai şüura təsir göstərən müxtəlif formalar, əhval-ruhiyyənin formalaşması, adamların sərvət yönümü);

- tənzimləyici (maddi, insan, maliyyə resurslarının bölüşdürülməsi və yenidən bölüşdürülməsi);

- əlaqələndirici (mərkəzi və regional fəaliyyətlərin əlaqələndirilməsi);

- nəzarətedici;

- nizamlayıb qaydaya salmaq və s.

Siyasi elitanın ən mühüm funksiyalarından biri də inteqrativ funksiyadır (İnteqrativ - qovuşma, birləşmə mənasını ifadə edir). Bu funksiyanın mahiyyəti ondan ibarətdir ki, cəmiyyətin sabitliyinin möhkəmlənməsinə, siyasi və iqtisadi sisteminin mükəmməlləşməsinə, eləcə də münaqişələrə, barışmaz ziddiyyətlərə, kəskin qarşı durmaya, siyasi strukturun dəyişməsinə yol verməməyə istiqa-mətlənir. İnteqrativ funksiyanın məzmununun mühüm ünsürü əhalinin müxtəlif təbəqələrinin birliyinə, onların sosial mənafelərinin ahəngdarlığına, konsensusun (Konsensus - razılıq, razılaşma deməkdir) əldə edilməsinə, cəmiyyətin bütün qüvvlərinin əməkdaşlığına, sıx qarşılıqlı siyasi fəaliyyətinə nail olmaqdan ibarətdir. İnteqrasiya funksiyasında siyasətçilərin məharəti, çevikliyi, diplomatikliyi, cəmiyyətin bütün təbəqələri ilə əlaqəsi və qarşılıqlı fəaliyyəti ifadə olunur. İnteqrativ funksiyanın başlıca vəzifəsi siyasi qüvvələrin sabit tarazlığını, inteqrativ prosesin genişlənməsini təmin etməkdən ibarətdir. Siyasi elitanın bu funksiyanı yerinə yetirməyə qadir ola bilməməsi partlayışlı nəticələrə gətirib çıxarır. Tarixdə belə hallara az təsadüf olunmur. "Formasiyalararası bütün inqilablar" buna praktiki nümunədir.

Siyasi elitanın tam, əhatəli səciyyələndirilməsi eləcə də onun formalaşması mexanizmi ilə şərtlənir. Bunsuz, siyasi elita haqqında təsəvvür yarımçıq, birtərəfli xarakter kəsb etmiş olardı. Siyasi elitanın seçilməsi sistemi müəyyən amillərə əsaslanır. Bunlardan ən başlıcası sosial bazanın geniş olması və elitanın seçilməsi meyarlarını və qaydalarını həyata keçirən şəxslər dairəsidir. Aydındır ki, bu amillərin konkret məzmunu ölkədən ölkəyə dəyişilir və onların çoxu hakim siyasi rejimdən asılıdır. Qeyd etdiyimiz amillərin məzmunu və siyasi rejimlər elitanın formalaşmasında iki meyli doğurur. Birinci meyl üçün səciyyəvi cəhət siyasi elitanın formalaşması mexanizminin qapalı olmasıdır, başqa sözlə:

- onun formalaşmasının sosial bazası çox məhduddur;

- bir qayda olaraq sosial bazaya axın cəmiyyətdə hökmranlıq edən sosial təbəqəni təmsil edən şəxslər hesabına baş verir;

- siyasi elitanın seçilməsini həyata keçirən şəxslər dairəsi (selektorat) məhduddur.

Bu meyl avtoritar və totalitar siyasi rejimlər üçün səciyyəvidir və nəticə etibarilə durğunluğa, böhranlı halların artamına gətirib çıxarır.

Siyasi elitanın formalaşmasının və təkrar istehsalının ikinci meyli birinci meylə qarşı bilavasitə əks xarakter daşıyır. Bu meylin fəaliyyəti isə demokratik siyasi rejimlər üçün səciyyəvidir. Söhbət elə dövlətlərdən gedir ki, siyasi elitanın xeyli hissəsi təyin olunma yolu ilə deyil, məhz ümumi seçkilər nəticəsində formalaşır. Bu baxımdan siyasi elitanın formalaşmasının ikinci meyli aşağıdakılarla fərqlənir:

- selektoratın (bütün seçicilərin) geniş dairəsinə malik olması;

- seçmə prosesinin açıq olması;

- siyasi strukturda vəzifələr tutmağa cəmiyyətin hər bir sosial qrupunun iddia etməsi imkanı;

- seçilmənin rəqabət xarakteri daşıması;

- rəhbər vəzifələrə seçilmək iddiasında olanlara yüksək şəxsi keyfiyyətlər, bacarıq və qabiliyyət tələbi.

## 2. ELİTA VƏ NEOELİTA NƏZƏRİYYƏSİ

Burjua demokratiyasının böhranı şəraitində xalq kütlələrinin idarə etmək qabiliyyətinə malik olmaması barədə əvvəlki aristokratik ideyalar geniş yayılmağa başladı. Bu ideya öz ifadəsini məhz, elita nəzəriyyəsində tapdı. Elita nəzəriyyəsinin baniləri **Qaento Moska** (1855-1941-ci illər) və **Vilfredo Pareto** (1848-1923-cü illər) hesab olunur. "Siyasi (idarə edən) sinif" anlayışını elmi dövriyyəyə Moska gətirmişdir. O, yazırdı: "Bütün çox və ya az sivilizasiyalı cəmiyyətlərdə iki sinif - idarə edən və idarə olunan siniflər yaranır". İdarə edən həmişə azsaylı olur, "siyasi hakimiyyəti inhisara alır", "inzibati, hərbi, dini, iqtisadi və əxlaqi rəhbərliyi

həyata keçirir və bu əsasda imtiyazlı sinfə çevrilir, çoxsaylı mənfəətlərdən, maddi və mənəvi xarakterli üstünlüklərdən istifadə edir. O, əhalinin böyük əksəriyyətini təşkil edən "idarə olunan sinfin" hesabına yaşayır, bu sinif idarə edən sinfi siyasi orqanizmin həyati fəaliyyəti üçün zəruri olan "maddi vasitələrlə" təmin edir".

Moska elitizm mövqeyindən demokratiyaya düşmən münasibət bəsləmişdir. O, demokratiyanı xəyal, utopiya adlandırırdı. Moska bəşəriyyətin azadlığını kapitalizm cəmiyyətinin (səriştəli) elitası ilə əlaqələndirirdi.

O, "idarə edən sinif" nəzəriyyəsində inhisarçı burjuaziyanın yüksək əhval-ruhiyyəli elita dairəsinin hökmranlığını, islahatlar yolu ilə kapitalizmdə sabitlik yaradılacağını ideallaşdırmışdır. heç də təsadüfi deyil ki, Moskanın başlıca əsəri sayılan "Siyasi elmin əsasları" 1939-cu ildə yenidən çap olunmuş və həmin ildə "İdarə edən sinif" adı altında ingilis dilinə tərcümə olunmuşdur. Bu əsər anqlo-saks ölkələrində, xüsusilə ABŞ-da elita nəzəriyyəsinin inkişafına böyük təsir göstrmişdir.

Elita nəzəriyyəsinin digər banisi Pareto sayılır. "Elita" terminini siyasi elmə məhz o gətirmişdir. Pareto elitanı "daha məhsuldar və ya daha qabiliyyətli" adamlar qrupu kimi müəyyənləşdirmişdir. O, yazırdı: "Bəşəriyyətin tarixi elitanın daim əvəz olunması tarixidir, bəziləri yüksəlir, digərləri tənəzzülə uğrayır". Pareto bunun səbəbini elitanın psixologiyasının dəyişilməsində görürdü. Bu görkəmli nəzəriyyəçi "Ümumi soliologiyaya dair traktat" əsərində (1916-cı il) bildirir ki, cəmiyyətin tarixi "elitanın mübrizəsi və əvəz olunmasıdır", "dövr etməsidir". Onun fikrincə, insanların fəaliyyəti qeyri-məntiqi, irrasional sövqedici başlanğıca - necə deyərlər instinktlərin "qalıqlarına" əsaslanır. Pareto "qalıqların" altı növünü fərqləndirir: 1) "ünsiyyət instinkti". Bu, siyasət üçün hər şeydən əvvəl, rəhbərlik edənlər tərəfindən onların təşkilatına, partiyalarına, dövlətə tələbatın təsdiqlənməsi deməkdir; 2) "kombinasiyalar instinkti". İlk növbədə görkəmli siyasi xadimlərdə nəzərə çarpır, onların başlıca peşə keyfiyyətlərini təşkil edir. 3) "xüsusi hisslərin nümayiş etdirilməsinə tələbat". Bunun vasitəsilə siyasətdə iyerarxiyalı sistemdə pərəstiş formaları, mərasimlər, rəhbərə "etiqad", sitayiş etmək əsaslandırılır; 4) sabitliyə cəhd etmək. Bu, siyasi təsisatların uzun müddət mövcudluğunu,

"qanuni" sülalələri, konkret siyasi görüşləri, ənənələri, stereotipləri və sairəni şərtləndirir. 5) "fərdlərin bütövlüyü instinkti". O, siyasi-hüquqi sferada şəxsiyyətin təhlükəsizliyinin təmin olunmasına cəhd etməyi və mülkiyyətin toxunulmazlığını təcəssüm etdirir. 6) "seksuallıq instinkti". Bu, bütün "qalıqlardan" ən dərini və sabitidir, bununla belə onu müxtəlif əxlaqi, dini və hüquqi qadağanlarla məhdudlaşdırırlar.

Moskanın ardıcıllarından biri Robert Mixelsdir (1876-1936-cı illər). Mixels Moskanın elitaya təşkilati baxımdan yanaşma müddəasını inkişaf etdirərək belə bir cəhəti vurğulayır ki, elitanın hakimiyyəti onun təşkil olunması səviyyəsindən asılıdır.

Mixels Moska və Paretonun elita konsepsiyasını siyasi partiyaların tədqiqinə tətbiq etmişdir. O, "Müasir demokratiya şəraitində siyasi partiyaların sosiologiyası" adlı kitabında iddia edir ki, tiplərindən (burjua və sosialist) asılı olmayaraq bütün partiyalarda "demokratiya oliqarxiyaya gətirib çıxarır". Bu, bütün təşkilatların inkişafının qanunauyğunluğu olmaqla "oliqarxiyanın dəmir qanunu" adlanır. Partiyanın fəaliyyəti prosesində onun aparatı sıravi üzvlərdən təcrid olunaraq müstəqil əhəmiyyət kəsb edən təşkilata - "partiya elitasına" çevrilir. Beləliklə, müəyyən mərhələdə demokratiya oliqarxiyanın yaranmasını təmin edir. Təbii olaraq demokratiya "partiya elitasının dövrləşməsi" meydanına çevrilir. Ümumiyyətlə, elita nəzəriyyəsinin baniləri sosial həyatı başlıca olaraq siyasət prizmasından təhlil etmişlər.

Moska, Pareto və Mixels elita nəzəriyyəsinə dair makiavelliçilik məktəbinin nümayəndələridir. Həmin məktəbi təmsil edənlər və eləcə də bu üç görkəmli politoloq məhz aşağıdakıları iddia edirlər:

- Elitarlıq hər cür cəmiyyətə xasdır. Bunun əsasında adamların təbii fərqlənməsi faktı - fiziki, psixoloji, zehni, əxlaqi cəhətdən fərqlənməsi durur.
- Elita xüsusi siyasi və təşkilatçılıq keyfiyyətləri ilə səciyyələnir.
- Kütlələr elitanın hakimiyyət səlahiyyətinə malik olması hüququnu başqa sözlə, legitimliyini qəbul edir.
- Nə qədər ki, heç kim hakimiyyətdən könüllü əl çəkmir, hakimiyyət uğrunda mübarizə gedişində elita bir-birini əvəz edir.

Müasir elita nəzəriyyəsi bir sıra istiqamətləri ilə səciyyələnir. Bunlardan başlıcası aşağıdakılardır:

Demokratik elitizm nəzəriyyəsi; sərvət nəzəriyyəsi; elita plyuralizmi konsepsiyası (və ya funksional elita nəzəriyyəsi); sol liberal elita konsepsiyası.

Demokratik elita nəzəriyyəsi üçün (R.Dal, S.Lipset) ümumi cəhət bundan ibarətdir ki, seçki kompaniyası dövründə hakimiyyətə rəhbərlik uğrunda rəqabət mübarəizəsi demokratik xarakter daşıyır. Söhbət siyasi elitanın əldə etdiyi yeni üsuldan (seçkilərdə xalq tərəfindən müdafiə olunması uğrunda mübarizədən) və elitanın öz siyasi taleyinin sıravi vətəndaşlardan asılılığını dərk etməsindən gedir. Demokratik elita nəzəriyyəsində elita liberal-demokratik sərvətlərin (azadlığın, bərabərliyin, əmək hüququnun, sosial təminatın və s.) müdafiəçisi kimi nəzərdən keçirilir. Eləcə də iddia olunur ki, elita ağalıq etmir, kütlələrin razılığı əsasında azad seçkilər vasitəsilə onlara rəhbərliyi həyata keçirir.

Sərvət nəzəriyyəsinə görə **(V.Ropke, Orteqa-i-Qasset)** elita cəmiyyəti idarə etmək üçün yüksək qabiliyyətə malik olan təbəqədir. Yüksək təbəqə olmaq etibarilə elitanın vəziyyətinə haqq qazandırılıb, istər-istəməz bütövlükdə cəmiyyətin mənafeyinə cavab verir.

Elita cəmiyyəti idarə etmək üçün xeyli dərəcədə yüksək keyfiyyətlərə və qabiliyyətə malik şəxslərin seçilməsinin məhsuludur. Elitanın formalaşması demokratiyanın prinsiplərinə zidd deyildir.

Elita plyuralizmi konsepsiyasına görə **(Keller, O.Ştammler, D.Rismen)** cəmiyyətdə çoxlu elita mövcuddur. Elitaya daxil olan heç bir qrup eyni vaxtda cəmiyyətin bütün sahələrinə həlledici təsir göstərmək qabiliyyətinə malik deyildir. Demokratiya şəraitində hakimiyyət elitanın müxtəlif qrupları arasında bölüşdürülür. Bu qruplar öz mənafeyini müdafiə etməklə qərarların qəbul olunmasına təsir göstərir. Elitanın kütlələrə təsiri seçkilər, referendum, sorğu, mətbuat, təzyiq qrupları vasitəsilə həyata keçirilir.

Elitalar arasında rəqabət bütöv elitar qrupların formalaşmasının qarşısını alır və kütlələr tərəfindən nəzarətin həyata keçirilməsinə imkan yaradır. Elitalarla kütlələr arasındakı hədd şərti xarakter daşıyır. Elitaya yalnız böyük sərvət sahibləri deyil, eləcə də yüksək şəxsi qabiliyyətə, biliklərə malik olanlar mənsub ola bilir.

Sol-liberal elita konsepsiyasının tərəfdarları isə **(R.Mills)** plyuralist elitizmin əksinə olaraq iddia edirlər ki, cəmiyyət yalnız

vahid ağalıq edən elita tərəfindən idarə olunur. Bu konsepsiyanın başlıca müddəaları aşağıdakılardır:

- Real həyatda elita hakimiyyətin yüksək səviyyəsində durur və kütlələrin siyasətdə iştirakına imkan vermir. Belə halda demokratik təsisatlar (seçkilər, referendumlar və s.) əhəmiyyət kəsb etmir.
- Ağalıq edən elita dövlətdə ən başlıca vəzifələrə sahib olur və bu əsasda özünə hakimiyyəti, var-dövləti və şöhrəti təmin edir.
- Elita ilə kütlələr arasındakı fərqlər o dərəcədə böyükdür ki, bunları praktiki olaraq aradan qaldırmaq mümkün deyildir.

Ümumiyyətlə, görkəmli İtaliya politoloqları XX əsrdə siyasi təlimlərin inkişafına böyük təsir göstərdilər.

Müasir siyasi fikirdə neoelitizm konsepsiyası da nüfuzlu nəzəri istiqamətlərdən hesab olunur. Neoelitizmin məşhur nümayəndələri **X.Lassuellin, C.Sartorinin, T.Dayın, X.Zeyqlerin** və başqalarının demokratik elita, plyuralist elita və sərvət elitası barədə fikirləri siyasi elmin, siyasi və hüquqi görüşlərin yeni özünəməxsus səviyyəsini səciyyələndirir.

Neoelitaçılar **Moska** və **Paretonun** görüşlərini fərqləndirərək güman edirlər ki, həqiqi demokratiya, xalqın idarə etməsi, xalq suverenliyi və s. utopiyadır və praktikada həyata keçirilməsi, eləcə də müasir şəraitdə reallaşması qeyri-mümkündür. Onlar iddia edirlər ki, insan "kütləsi", "kütləviləşmiş nüsxə" irrasional (ağıla, düşüncəyə zidd) fikirləşir və hərəkət edir, aşağı bilik səviyyəsinə malikdir, siyasətdən baş çıxarmır və buna görə manipulyasiya (əl-qol atmaq) obyektinə çevrilir. Azadlığı və tərəqqini təmin etmək üçün elita zəruridir.

Elitanı aradan qaldırmağa və həqiqi demokratiya yaratmağa yönələn bütün səylər uğursuzluğa düçar olmuşdur və "mədəniyyətsizliyin", "cəhalətin", "demaqogiyanın" hökmranlığına və son nəticədə diktaturaya (faşizmə və s.) gətirib çıxarmışdır. Məsələ bundan ibarətdir ki, "səriştəli" elita qaydalarını həm "sağ", həm də "sol" radikalizm saxlamağa qadir olmaqla kapitalizmin sabit inkişafını burjua-liberal rejim çərçivəsində təmin edir. Bu məqsədlə neoelita konsepsiyasının tərəfdarları **elitizmi "plyuralist demokratiya"** ünsürləri ilə birləşdirməyi məsləhət bilirlər. Beləliklə, "plyuralist elitizm" və ya "demokratik elitarizm", "elita plyuralizmi" konsepsiyalarını əsaslandırmağa səy göstərirlər. Məsələn, **Lassuell** bildirir ki, XX əsr elitanın yoxluğu ilə deyil, məhz avtoritarizmin və

totalitarizmin əksinə olaraq elitanın "açıq", "nümayəndəli" və "məsuliyyətli" xarakteri ilə fərqlənir. "Demokratik elita plyuralizmi" daha qəbul oluna bilən sistemdir, çünki idarə edən azlıq, bütün qabiliyyətli adamları öz tərkibinə daxil etməyə hazırdır və elitaların rəqabətini təmin edir. Beləliklə, **Lassuellin** fikrincə demokratiya "xalqın idarəetməsi deyil, məhz xalqın bəyəndiyi idarəetmədir".

Sartori yazır: "Demokratiya elə bir siyasi sistemdir ki, burada hakimiyyət fəal adamların əlindədir. Fəal adamlar say nöqteyi-nəzərdən aydın şəkildə azlıq təşkil edirlər. Lakin bu bizi narahat etməməlidir. Çünki idarə edən azlığın qapısı bütün qabiliyyətli adamların üzünə açıqdır. Bu isə başlıca prinsipdir. Demokratiyanı başqa cür də başa düşmək olar. Başqa sözlə, demokratiya fəal demokratik azlığın hakimiyyətidir". Bu mülahizə "plyuralist demokratiya" konsepsiyasına uyğunlaşmağın təzahürü kimi təsir bağışlayır.

Neoelita konsepsiyasının nümayəndələri iddia edirlər ki, "tarixdə başlıca məsələ inqilab deyil, məhz, elita tərəfindən gündəlik mühüm məsələlərin həyata keçirilməsidir, lakin ən vacibi isə idarə edən qrupun tərkibində əhəmiyyətli dəyişikliyin baş verməsidir".

Neoelitaçılıq belə iddia edir ki, müasir kapitalizm sisteminin elitar - oliqarxiya xarakterini aradan qaldırmaq cəhdi demokratiyanın özünə qəsd edilməsidir. Onlar demokratiya üçün təhlükəni kapitalizmin təbiətində yox, məhz, zəhmətkeşlərin inqilabi - demokratik hərəkatında görürlər. Buradan neoelitizmin ziddiyyətli ideyası yəni **demokratiya demokratiyanın özü üçün təhlükədir** fikri meydana çıxır. Sartori bildirir ki, "biz qorxmalıyıq ki, demokratiya Saturn haqqında mifdə olduğu kimi xüsusi liderləri udur". Beləliklə, xalq "demokratiyanı" təmin etməyə qadir deyildir və demokratiya xalqdan "qorxur".

**Day və Zeyqler** bu mənada müasir demokratiyaya istehzalı münasibət bəsləyirlər. Onlar yazırlar ki, "demoratiya xalqın hakimiyyətidir". Lakin demokratiyanın sıxışdırılması üçün məsuliyyət elitanın üzərinə düşür. Bu, istehzalı demokratiyadır: elita müdrik idarə etməlidir ki, "xalqın hakimiyyəti sıxışdırılsın".

Ümumiyyətlə, elita nəzəriyyəsində müasir burjua cəmiyyətinin siyasi həyatı bir neçə səviyyədə əks olunmuşdur və mahiyyət etibarilə kapitalizmin müdafiəsinə istiqamətlənmişdir.

# X FƏSİL

# CƏMİYYƏTİN SİYASİ SİSTEMİ

## 1. "SİYASİ SİSTEM" ANLAYIŞI: STRUKTURU, TİPLƏRİ, FUNKSİYALARI VƏ İNKİŞAF QANUNAUYĞUNLUQLARI

İctimai həyat çoxsaylı və bir-birilə qarşılıqlı əlaqədə olan sferalarla səciyyələnir. Bunlardan ən genişi iqtisadi, sosial, siyasi və mənəvi sferalardır. Cəmiyyətin siyasi sisteminin iqtisadi, sosial və mənəvi, eləcə də digər sferalardan fərqi bundan ibarətdir ki, bütövlükdə cəmiyyətin dövlət tərəfindən idarə olunmasının təşkilini və həyata keçirilməsini (ümumdövlət səviyyəsindən dövlət idarəçiliyi kompleksinədək ən kiçik strukturlara qədər) təmin edir. Siyasi sistemsiz cəmiyyətin həyatı mövcud olmaq qabiliyyətindən məhrum olardı.

Cəmiyyətin siyasi sistemi siyasi təsisatların, siyasi rolların, münasibətlərin, proseslərin, cəmiyyətin siyasi təşkili prinsiplərinin bütöv, qaydaya salınmış (nizamlanmış) məcmuudur. Bu məcmu siyasi, sosial, hüquqi, ideoloji, mədəni normalar kodeksinə, tarixi ənənələrə, konkret cəmiyyətin siyasi rejiminin məqsədlərinə tabe edilməsi ilə səciyyələnir[1]. Siyasi sistem özündə siyasi hakimiyyətin təşkilini, cəmiyyət və dövlət arasındakı münasibətləri birləşdirir, hakimiyyətin təsisatlaşması da daxil olmaqla siyasi prosesləri, siyasi fəaliyyətin vəziyyətini, cəmiyyətdəki siyasi yaradıcılığın səviyyəsini, siyasətdə iştirakçılığın xarakterini və təsisatlı mahiyyət daşımayan siyasi münasibətləri əks etdirir.

Müxtəlif siyasi hadisələr qırılmaz surətdə qarşılıqlı əlaqədədir və nisbi müstəqilliyə malik bütövlük kəsb edirlər. Onların bu xüsusiyyətləri məhz, siyasi sistem anlayışını əks etdirir. Siyasi sistem kateqoriyasının təzahürü **T.Parsons** tərəfindən

---

[1] Ətraflı bax: Политология: Энциклопедический словарь. səh. 273-274

cəmiyyətin sistemli təhlilinin inkişaf etdirilməsi ilə bağlıdır. Siyasi sistem nəzəriyyəsi ilk dəfə təfərrüatına qədər Amerika politoloqu **D.İston** tərəfindən XX əsrin 50-60-cı illərində işlənib hazırlanmışdır. Sonralar bu nəzəriyyə **P.Almondun, U.Mitçellin, K.Doyçun, Ettsionun, D.Divaynın** və digər xeyli alimlərin əsərlərində inkişaf etdirilmişdir.

Siyasi sistem ictimai sistemin məcmuunun hissələrindən biri və ya yarımsistemi kimi səciyyələnir. O, ictimai sistemin digər yarımsistemləri: siyasi sistemin ictimai əhatəsini əmələ gətirən sosial, iqtisadi, ideoloji, etik, hüquqi, mədəni yarımsistemlərlə qarşılıqlı təsirdədir.

Müasir elmdə siyasi sistem anlayışı qarşılıqlı əlaqə kəsb edən iki əhəmiyyətə malikdir. Bunlardan birində siyasi sistem süni surətdə yaradılan, nəzəri təfəkkürün quraşdırması, müxtəlif siyasi hadisələrin sistemli xüsusiyyətlərini üzə çıxarmağa imkan yaradan vasitə kimi qiymətləndirilir. Belə qiymətləndirmə nisbi müstəqillik kəsb edən hər bir siyasi birliyə məsələn, partiyaya, dövlətə, həmkarlar ittifaqına, eləcə də siyasi mədəniyyətə və s. tətbiq oluna bilər. "Siyasi sistem" termini ilk metodoloji əhəmiyyəti baxımdan bütün siyasi sferada tətbiq oluna bilməsi ilə səciyyələnir.

Siyasi sistem cəmiyyətin siyasi məkanında mövcuddur, ərazi ölçüsünə malikdir. O, zaman etibarilə siyasi münasibətlərin və təsisatların dəyişilməsi, inkişafı və ya tənəzzülü prosesi kimi mənalanır. Müxtəlif dövrlərdə və ayrı-ayrı cəmiyyətlərdə siyasi sistemin konkret təkamül yolu rəngarəngdir, lakin onun məkan-zaman etibarilə dəyişilməsi prinsipi daimidir.

Siyasi sistem özünəməxsus struktura malikdir, başqa sözlə, hakimiyyətin üç səviyyəsinin yarımsistemindən və siyasi münasibətlərdən təşəkkül tapır: yüksək və ya yuxarı **(meqasəviyyə)**, orta və ya aralıq **(mezosəviyyə)** və təsisatlı olmayan və ya aşağı, kütləvi **(mikrosəviyyə)**. Öz növbəsində onlar paralel şəkildə rəqabətdə olan strukturlara bölünür (həmin səviyyələrdə): leqan və gizli. Siyasi sistem bu strukturların daxilində siyasi münasibətlərin subeyktlərini (rəhbərləri, idarə edənləri) və hakimiyyətin daşıyıcılarını, icraçıları, kütləvi assosiasiyaların sıravi üzvlərini, onların sosial bazasını özündə birləşdirir.

**Siyasi sistem təsisatlaşmış makrosistem səviyyəsində** özündə dövlət hakimiyyətinin mərkəzi aparatını birləşdirir.

Hakimiyyət bölgüsünün mövcud olduğu demokratik cəmiyyətdə və hüquqi dövlətdə isə qanunvericilik, icraedici və məhkəmə hakimiyyətini təcəssüm etdirir. Siyasi sistemin növü cəmiyyətin və idarəetmənin tipindən asılıdır.

**Siyasi sistemin orta (mezo) strukturu** da makrosistemin strukturuna bənzəyir. O, idarəetmə aparatı, hakimiyyətin seçkili və təyinatlı orqanları tərəfindən yaradılır və bilavasitə makrosəviyyə strukturuna qovuşur, lakin bu strukturun periferiyasını (**Periferiya - hakimiyyətin mərkəzdən uzaq yerli orqanları (təşkilatları)**) təşkil edir. Siyasi sistemin orta səviyyəsi dövlət hakimiyyətinin yüksək hissəsilə cəmiyyət arasındakı siyasi məkanda yerləşir və onu dövlətlə məhz, bunlar əlaqələndirir.

Orta səviyyə strukturu siyasi sistemin makrostrukturu ilə cəmiyyət arasında əlaqələndirici həlqə kimi səciyyələnir, onların münasibətlərini təşkil edir.

**Siyasi sistemin mikrosəviyyəsi** (mikrosəviyyə strukturu) ictimai qrupların, siniflərin və təbəqələrin, cəmiyyət üzvlərinin siyasi həyatda kütləvi iştirakı sayəsində yaradılır. Başqa sözlə, kütləvi siyasi və ya qeyri-siyasi, lakin nüfuzlu təşkilatların üzvü olmaqla, hakimiyyəti müdafiə etmək və ya ona etiraz məqsədilə kütləvi siyasi aksiyalarda (tədbirlərdə) iştirak etməklə, siyasətə sosial nəzarətlə demoraktik dəyişikliklərin məsuliyyətli proseslərində (seçkilərdə, referendumlarda və s.) təşəkkül tapır. Mikrosəviyyədə siyasi xalq hərəkatı formalaşır, siyasi qruplaşmalar və partiyalar yaranır, ictimai rəy formalaşır, cəmiyyətin mühüm tərkib hissəsi və xarakteristikası kimi səciyyələnən siyasi mədəniyyət təşəkkül tapır.

Cəmiyyətin siyasi strukturu ilə bağlı olaraq qeyd edək ki, siyasi sistemin tərkibində bir-biri ilə sıx əlaqədə olan dörd böyük yarımsistem fəaliyyət göstərir: **təsisatlı, tənzimləyici, kommunikativ və siyasi-ideoloji.**

**Təsisatlı yarımsistem** cəmiyyətin siyasi sisteminin "skeleti", "aparıcı quruluşu" hesab olunur. O, özündə siyasi təsisatları[1], hər şeydən əvvəl isə siyasi idarəetmə formalarını (respublika,

---

[1] "Təsisat" anlayışı və nəticə etibarilə "təsisatlı" yarımsistem anlayışı burada geniş mənada işlədilir, başqa sözlə, yalnız siyasi orqanları və təşkilatları deyil, eləcə də ictimai münasibətlərin məcmuunu tənzimləyən hüquqi normaları özündə əks etdirir. Məsələn, siyasi hakimiyyət təsisatı, xüsusi mülkiyyət təsisatı və s.

monarxiya), siyasi rejimləri (demokratik, totalitar, avtoritar və s.), qanunverici, icraedici və məhkəmə hakimiyyəti orqanlarını, siyasi partiyaları və hərəkatları, çoxsaylı ictimai təşkilatları, seçki sistemini və s. birləşdirir. Təsisatlı yarımsistem siyasi sistemdə hakim mövqe tutur. Bütün siyasi sistemin fəaliyyət imkanları və həddi üçün normativ-hüquqi baza, müəyyənedici şərait məhz, burada yaradılır. Eləcə də siyasi sistemin özünün sabitliyinin təmin olunması şərti, onun digər ictimai sistemlərin inkişafına təsir formaları, həmçinin beynəlxalq siyasət yalnız təsisatlı yarımsistemdə işlənib hazırlanır. Bu yarımsistem bütün siyasi sistemin fəaliyyətinin məqsədlərini və istiqamətini əhəmiyyətli dərəcədə müəyyənləşdirir.

**Tənzimləyici yarımsistem** ölkənin konstitusiyasında və digər qanunvericilik sənədlərində əks olunan və cəmiyyətdə qəbul edilən siyasi-hüquqi normalara əsaslanaraq siyasi təsisatların formalaşmasını və fəaliyyətini, eləcə də bütövlükdə cəmiyyətin siyasi sisteminin fəaliyyətini tənzimləyir. Qeyd etmək lazımdır ki, bu yarımsistemin əsaslandığı başlıca baza yalnız siyasi-hüquqi normalarla məhdudlaşmır, həmçinin milli, tarixən təşəkkül tapan adət və ənənələr, cəmiyyətdəki hakim siyasi görüşlər, inam, prinsiplər cəmiyyətin siyasi sisteminə təsir göstərir.

**Kommunikativ yarımsistem** cəmiyyətin siyasi sisteminin fəaliyyəti prosesində yaranan münasibətlərin məcmuu kimi səciyyələnir. Bu münasibətlər hər şeydən əvvəl, cəmiyyətin idarə olunmasına aiddir.

Siyasi təsisatlar və təşkilatlar, siyasi liderlər, siyasi elitanın nümayəndələri və əlbəttə, vətəndaşlar həmin münasibətlərin subyektləridir. Kommunikativ yarımsistemə həmçinin, hakimiyyət uğrunda mübarizə, onu əldə etmək, saxlamaq və reallaşdırmaqla bağlı olan münasibətlər daxildir. Belə mübarizə və onun doğurduğu münasibətlər açıq və ya gizli formada hər bir dövlətin siyasi sistemində baş verir. Bu münasibətlər bir qayda olaraq formalaşmış, başqa sözlə, mövcud hüquqi normalara əsaslanan xarakter kəsb edir. Lakin bunlarla yanaşı siyasi sistemdə çox vaxt mövcud cəmiyyətin hüquq normalarında möhkəmləndirilməyən qeyri-formal münasibətlər də təşəkkül tapır və inkişaf edir. Onların əhəmiyyətini azaltmaq məqsədəuyğun deyildir, çünki siyasi sistemin həyatında az rol oynamırlar.

**Siyasi-ideoloji yarımsistem** siyasi konsepsiyaları, nəzəriyyələri, təlimləri və görüşləri əks etdirir. Onlar ictimai-siyasi təsisatların, siyasi-hüquqi normaların yaradalması və inkişafının, siyasi münasibətlərin və bütün siyasi sistemin təkmilləşdirilməsinin əsasını təşkil edirlər. Siyasi-ideoloji yarımsistem siyasi məqsədlərin və bunların əldə olunması yollarının müəyyənləşdirilməsində, cəmiyyətdə meydana çıxan çoxsaylı siyasi problemlərin həllində mühüm rol oynayır. Cəmiyyətin siyasi sisteminin strukturu (dörd yarımsistem) hər bir cəmiyyətin siyasi sistemində təzahür edir, lakin ayrı-ayrı ölkələrin konkret şəraitlərində həmin yarımsistemlər müxtəlif formalarda yaradılır və fəaliyyət göstərir. Bu, mövcud dövlətlərin spesifik şəraiti ilə şərtlənir. Haqqında mülahizələr yürütdüyümüz yarımsistemlərin hamısı xeyli ölkədə məsələn, ABŞ-ın və Rusiyanın siyasi sistemlərində, eləcə də Azərbaycan Respublikasının siyasi sistemində vardır, lakin bu siyasi sistemlərin tamamlanması müxtəlifdir. Siyasi elm siyasi sistemin strukturunu bütün çoxcəhətliliyi ilə onun konkret formalarında öyrənir.

Cəmiyyətin siyasi sisteminin araşdırılması ilə bağlı olaraq ilk növbədə onun ünsürlərini təşkil edən spesifik cəhətlər və xüsusiyyətlər əhəmiyyət daşıyır. Təsadüfi deyildir ki, uzun illərdən bəri bu məsələ ətrafında hüquqi, fəlsəfi və bəzi hallarda sosioloji ədəbiyyatda fasiləsiz mübahisələr davam edir. Tədqiqatçılar cəmiyyətin siyasi sisteminin strukturuna yuxarıda qeyd etdiyimiz ünsürlərdən əlavə mütəşəkkillik əlamətlərinə malik olan müxtəlif sosial-siyasi təsisatları da daxil edirlər.

Bir qrup müəllif siyasi sistemin strukturunda müxtəlif ictimai-siyasi təsisatlarla yanaşı siyasi münasibətlərin də ifadə olunduğunu nəzərə çatdırırlar.

Digərləri isə siyasi sistemin ünsürlərinə əmək kollektivlərini, sinifləri, xalqı, ailəni, ictimai özfəaliyyətin müxtəlif formalarını, kütləvi informasiya vasitələrini, birbaşa demokratiyanın müxtəlif formalarını və s. aid edirlər. Belə mövqeyə daha çox marksist fəlsəfi ədəbiyyatda təsadüf olunur.

Nəhayət, cəmiyyətin siyasi sisteminin tədqiqatçılarının üçüncü qrupu onun struktur ünsürləri sırasında siyasi ideyaların, görüşlərin, təsəvvürlərin, siyasi şüurun, siyasi ideologiyanın spesifik yer tutduğunu bildirirlər.

Cəmiyyətin siyasi sistemi məzmununa görə son dərəcə mürəkkəb və zəngin hadisədir. Buna görə siyasi elmə dair ədəbiyyətda onun tipləri müxtəlif meyarlar əsasında müəyyənləşdirilir. Bəzi politoloqlar **siyasi sistemin təsnifatını məhz, mövcud cəmiyyətin tipləri** baxımdan nəzərə çatdırırlar. Məsələn, görkəmli fransız sosioloqu **R.Aron**, Amerika politoloqu **U.Rostou** və başqaları siyasi sistemin **üç tipinin - ənənəvi, modernləşdirilmiş demokratiya** və **totalitar** tiplərinin mövcudluğunu əsaslandırırlar. Onların fikrincə, siyasi sistemin bu üç tipi mühitlə qarşılıqlı təsir xarakterinə görə açıq və gizli formada olur. Məşhur Amerika politoloqu **Q.Almond** siyasi mədəniyyətdə və hakimiyyətin təşkili formalarında ifadəsi baxımdan siyasi sistemin dörd başlıca tipini müəyyənləşdirir: **ingilis-amerika; kontinental-avropa; sənayeyə qədərki və qismən sənaye; totalitar.**

Elmi ədəbiyyatda siyasi sistemin xeyli digər və eləcə də mürəkkəb təsnifatları verilir. Lakin siyasi sistemin daha sadə və geniş yayılmış, ən başlıcası isə kifayət qədər dərin təsnifatı maraq doğurur: totalitar, avtoritar və demokratik. Siyasi sistemin bu tiplərinin müəyyənləşdirilməsi üçün siyasi rejim yəni hakimiyyətin, cəmiyyətin (xalqın) və şəxsiyyətin (vətəndaşın) qarşılıqlı münasibətlərinin xarakteri və üsulları meyar hesab olunur. Totalitar siyasi sistem üçün ən ümumi şəkildə cəmiyyətin və şəxsiyyətin hakimiyyətə tamamilə tabe olması, dövlət tərəfindən vətəndaşlar üzərində hər şeyi əhatə edən nəzarətin mövcudluğu səciyyəvidir.

Avtortarizm bir şəxsin və ya şəxslər qrupunun vətəndaşlar üzərində qeyri-məhdud hakimiyyəti ilə səciyyələnir. Burada şəxsiyyətin və cəmiyyətin muxtar (avtonom) vəziyyəti yalnız qeyri-siyasi sferalarda saxlanılır. Nəhayət, demokratik siyasi sistemdə cəmiyyətin (çoxluğun) hakimiyyət üzərində nəzarəti həyata keçirilir.

Əgər şəxsiyyət muxtarlığa, hüquq və azadlıqlara malikdirsə hakimiyyətin ən mühüm mənbəyi kimi etiraf olunur və liberal demokratiyanın mövcudluğu reallaşır, lakin hakimiyyət çoxluq tərəfindən məhdudlaşdırılmırsa, vətəndaşların ictimai və şəxsi həyatı üzərində nəzarətə cəhd edilirsə, belə halda demokratiya totalitarlığa çevrilir. Avtoritar və totalitar siyasi sistemlər də

yekcins deyildir. Belə ki, bir nəfərin və ya şəxslər qrupunun hakimiyyətin mənbəyini təşkil etməsindən asılı olaraq avtoritar və totalitar rejimlər avtokratiya kimi mövcud ola bilər (bir şəxsin hakimiyyəti formasında) və ya qrupkratiya (aristokratiya, oliqarxiya, ektnokartiya və s.) kimi təzahür edər.

Bir sözlə, siyasi sistemin şərh etdiyimiz təsnifatı onun ideal tiplərini əks etdirir və real həyatda mövcud olanlardan əhəmiyyətli dərəcədə fərqlinir[1].

Siyasi sistem cəmiyyətin digər sferaları ilə müqayisədə müəyyən spesifiklik kəsb edir. Cəmiyyətin siyasi sisteminin digər sistemlərdən fərqi bundan ibarətdir ki, əvvəla, bu sistem müəyyən mənada digər sistemlərə münasibətdə başlıca rol oynayır. Belə vəziyyət siyasi sistem çərçivəsində qəbul olunan qərarların yerinə yetirilməsi zərurəti ilə şərtlənir. Siyasi sistem çərçivəsində işlənib hazırlanan siyasi kurs bütün cəmiyyət üçün mütləq zərurətə çevrilir.

İkincisi, siyasi sistemin fəaliyyəti digər ictimai sistemlərin inkişafına nisbətən onu əhatə edən sosial mühitlə, xüsusilə iqtisadi sistemin inkişafının məzmunu və xarakteri ilə müəyyənləşir. Siyasi sistemin fəaliyyəti ilə bağlı «informasiyanın daxil olması» və «informasiyanın çıxması» anlayışları işlədilir. Söhbət ondan gedir ki, bu sistemə kənardan böyük informasiya axını nüfuz edir (təkliflər, tələblər, vətənədaşların müraciəti və s. formalarda). Məsələn, əmək haqqının artırılması, vergi sisteminə yenidən baxılması, islahat yolu ilə pensiya təminatını, səhiyyə sistemini dəyişdirmək tələbləri məhz, bu qəbilədəndir. Siyasi sistemin həmin informasiyalara reaksiyası nəticəsində cəmiyyətin mövcud normativ – hüquqi bazasında müvafiq dəyişikliklər, dəqiqləşmələr, düzəlişlər edilir. Deməli, bu cür fikir söyləməyə əsas vardır ki, cəmiyyətin siyasi sistemi özünütənzimləmə, özünüyeniləşdirmə və özünüistehsal qabiliyyətinə malikdir. Buradan belə nəticəyə gəlmək olur ki, siyasi qüvvələrin siyasi sistemi idarə etmək imkanlarının həddi vardır. Bununla yanaşı həmin qüvvələr elmi yanaşma çərçivəsi ilə ciddi surətdə məhdudlaşdırılır, bəzi hallarda isə cəmiyyətin siyasi sisteminin inkişafının obyektiv qanunları ilə müəyyən çərçivədə qaydaya salınır.

---

[1] В.П.Пугачев, А.И.Соловьев, Введению политологию. səh. 133

Üçüncüsü, siyasi sistem digər ictimai sistemlərlə müqayisədə xeyli dərəcədə formalaşmış səviyyə kəsb edir. Bu, siyasi sistemin hüdudlarında xüsusi hüquqi və siyasi normalar münasibətlərinin yüksək dərəcədə tənzimlənməsi ilə izah olunur, həmin vəziyyət siyasi sistemin müəyyən nisbi müstəqilliyi (muxtarlığı), qeyri-asılılığı üçün zəmin təşkil edir.

Cəmiyyətin siyasi sisteminin yuxarıda göstərilən xüsusiyyətləri, strukturu, başlıcası isə qabaqcadan təyini onun funksiyalarınının məzmununu əhəmiyyətli dərəcədə müəyənləşdirir.

Cəmiyyətin siyasi sisteminin **başlıca funksiyası cəmiyyətin idarə olunması, dövlətin siyasi rəhbərliyi funksiyasıdır.** O, strateji məqsədlərin və ictimai inkişafın perspektivinin müəyyənləşdirilməsində, siyasi kursun (xəttin) işlənib hazırlanmasında və reallaşdırılmasında təzahür edir. İctimai inkişafın başlıca məqsədlərini və vəzifələrini həyata keçirmək üçün siyasi rəhbərlik siyasi sistemin bütün ünsürlərini səfərbərliyə alır. Bu funksiyanı bəzi hallarda məqsədə yönələn funksiya adlandırırlar.

Siyasi sistemin **digər əhəmiyyətli funksiyası inteqrativ funksiyasıdır.** Bu funksiyanın məqsədi ictimai-siyasi quruluşun birliyini (möhkəmlənməsini), təmin etməkdən, bütövlükdə cəmiyyətin, ayrılıqda isə onu təşkil edən sistemlərin dinamik sabitliyinə nail olmaqdan ibarətdir.

Nəhayət, **siyasi sistemin spesifik əhəmiyyət daşıyan funksiyalarından biri tənzimlənmə funksiyasıdır.** Həmin funksiya dövlətdə siyasi davranışın və siyasi münasibətlərin qaydaya salınmasına və reqlamentləşdirilməsinə istiqamətlənir. Tənzimləmə funksiyası adamların ictimai cəhətdən məqbul sayılan davranışının yüksək səviyyəsini işləyib hazırlamaqdan və əsaslandırmaqdan ibarətdir.

Hər bir sistem kimi cəmiyyətin siyasi sistemi də öz obyektiv qanunları əsasında inkişaf edir. Məlum olduğu kimi, **ictimai inkişaf qanunları** və hər bir **ictimai sistemin qanunları** praktiki baxımdan xalis formada olmur. O, özünün həyata keçirilməsi gedişində çoxsaylı, bir-birinə qovuşan ictimai münasibətlər qatından yol açaraq fəaliyyət göstərir. Buna görə ictimai inkişaf qanunları məhz, qanunlar-meyllər, müəyyən qanunauyğunluq kimi realaşır.

**İctimai inkişafın qanunauyğunluqları** sırasında aşağıdakı qurupları ayırmaq olar.

1. **Siyasi hakimiyyətin təşəkkül və inkişafı qanunauyğunluğu.** Bu qanunauyğunluq başlıca olaraq şəxsiyyətlə hakimiyyətin qarşılıqlı münasibətinə aiddir.

Misal olaraq hələ **N.Makiavellinin** əsaslandırdığı belə bir müddəanı qeyd etmək kifayətdir ki, hər bir siyasi liderin fəaliyyətinin məzmunu və məqsədi siyasi hakimiyyəti ələ almaq və saxlamaqdan ibarətdir.

Siyasi hakimiyyətlə bağlı olan digər qanunauyğunluqlar da məlumdur:

- Siyasi hakimiyyət sistemindəki münasibətlər cəmiyyətin siyasi sistemindəki bütün digər münasibətləri müəyyən edir:
- Hər bir siyasi hakimiyyət (sosial bazasından və fəaliyyətinin hansı motivlərlə əsaslandırmasından asılı olmayaraq) öz səlahiyyətlərini genişləndirmək və cəmiyyət üzərində total nəzarəti həyata keçirmək meylinə malikdir. Buna görə demokratik cəmiyyət qurmaq məqsədilə bəşər sivilizasiyası necə deyərlər həmin qanunauyğunluğun «qarşısını alan» qaydalar işləyib hazırlamışdır. Buna hakimiyyətin bölünməsi sistemi, eləcə də vətəndaş cəmiyyəti sisteminin təşkilinin və həmin cəmiyyətin münasibətlərinin formalaşması aidir:
- siyasi hakimiyyət praktiki olaraq həmişə və hər yerdə siyasi müxalifətə (açıq və ya qeyri leqal) malik olur.
- totalitar rejim hakimiyyətin bölünməsini, çoxpartiyalılığı, şəxsiyyət azadlığını aradan qaldırır. Əksinə, real demokratiya hakimiyyətin bölünməsini nəzərdə tutur və hakimiyyətin hər bir qolu onun digər qollarının funksiyalarına qəsd etmək (toxunmaq) imkanını aradan qaldırır. Demokratik siyasi sistem şəxsiyətin hüquq və azadlıqlarına qəsd etmək (toxunmaq) imkanını aradan qaldırır. Bu siyasi sistem şəxsiyyətin hüquq və azadlıqlarına təminat verir. Avtoritar sistem cəmiyyətdə sabitlik yaratmaq məqsədilə hakimiyyətin maksimum şəkildə mərkəzləşdirilməsidir. Bununla yanaşı iqtisadi və mədəni sferalarda nisbi azadlıq müşahidə olunur.

2. **İqtisadi-siyasi qanunauyğunluq.** Qanunauyğunluqların ikinci qrupuna iqtisadi-siyasi qanunauyğunluqlar daxildir. Onlar

iqtisadi və siyasi ictimai sistemlərin qarşılıqlı fəaliyyətni əks etdirirlər. Məsələn, bu və ya digər ilkədə iqtisadi sistemin inkişaf səviyyəsi ilə demokratiyanın inkişafı arasında qarşılıqlı asılılıq aydın şəkildə nəzər çarpır. Lakin müstəsna hallar da olur. Məsələn, cənubi Afrika Respublikasında (CAR) inkişaf edən aparteid (aparteid – irqi ayrı - seçkilik) yüksək iqtisadi inkişaf səviyyəsinə malik olan ölkələrə də aiddir. İkinci qrup qanunauyğunluqda diqqəti cəlb edən digər qanunauyğunluq son onilliklərdə siyasi vasitələrin cəmiyyətin iqtisadi sferasının inkişafına təsiri meylidir. Məsələn, **R.Reyqan** adminstrasiyası (idarə sistemi) iqtisadi siyasət vasitələrilə əvvəllər həll olunmayan məsələni həyata keçirə bildi: eyni vaxtda inflyasiyanın sürətini, işsizliyin səviyyəsini kəskin şəkildə aşağı saldı və beləliklə, dövlət büdcəsinin artmasına nail oldu. Müasir cəmiyyətdə eləcə də iqtisadi siyasət vasitələri ilə köklü siyasi proseslərin tənzimlənməsinə geniş imkan yaranmışdır.

## 2. TOTALİTAR SİYASİ SİSTEMİN MƏNBƏYİ VƏ SƏCİYYƏVİ CƏHƏTLƏRİ

İctimai inkişaf tarixi müxtəlif dövrlərin, xalqların və mədəniyyətlərin işləyib hazırladıqları siyasi sistemlərlə səciyyələnir. Onlar daha ümumi formada iki cür – demokratiya və diktatura kimi müəyyənləşdirilir.

Bir qayda olaraq demokratiya siyasi quruluşun daha mükəmməl forması kimi nəzərdən keçirilir. Zəmanəmizdə xeyli ölkə nümayəndəli idarəetməyə keçir. Belə keçid ilk növbədə demokratiyanın ənənələri ilə əlaqələndirilir. Lakin hələlik ölkələrin əksəriyyəti qeyri-demokratik metodlarla idarə olunur. Bu cür idarəetmənin öz dərin kökləri vardır. XX əsrdə diktatura iki başlıca formada – totalitar və avtoritar formalarda çıxış edir. Onlar, xüsusilə totalitarizm dövrümüzün spesifik cəhətləri ilə əlaqədardır, lakin bunların müəyyən ünsürləri əvvəllər də mövcud olmuşdur.

Totalitarizm siyasi sistem kimi XX əsrdə meydana gəlmişdir. Lakin totalitarizm mövhumu və ideyaları xeyli əvvəllər

yaranmışdır. «Totalitarizm» termini latın dilində «totalitas» (bütövlük, tamlıq) və «totalis» (bütün, tam, qeyri-məhdud) sözlərindən götürülmüşdür. Həmin termin etimoloji və qeyri-siyasi mənada çoxdan xeyli alimlər tərəfindən istifadə olunmuşdur. Siyasi leksikona isə onu ilk dəfə, rəhbərlik etdiyi hərəkatı səciyyələndirmək üçün 1925-ci ildə Mussolini gətirmişdir. Totalitarizm siyasi və politoloji termin kimi XX əsrin ortalarında, xüsusilə həmin əsrin ikinci yarısında geniş yayılmışdır.

Totalitarizm nəzəriyyəsi isə XX əsrin 40-50-ci illərində təşəkkül tapmışdır. Totalitarizm probleminin klassik tədqiqatçıları **İ.A.İlin, F.Xayek, X.Arend, K.Fridrix, Z.Bjezinski** və başqaları hesab olunur. Həmin problemə dair ilk sanballı tədqiqat işləri F.Xayekin «Köləliyə doğru yol» (1944-cü il) və X.Arendin «Totalitarizmin mənbəyi» (1951-ci il), eləcə də K.Fridrix və Z.Bjezinskinin «Totalitar diktatura və avtokartiya» (1956-cı il) kitabları hesab olunur.

Siyasi elmə aid ədəbiyyatda «totalitarizm» anlayışı müxtəlif mövqelərdən müəyyənləşdirilir. İnqilab əleyhinə mübarizəsinə görə 1922-ci ildə SSRİ-dən xarici ölkələrə (Almaniya, İsveçrə) mühacirət etmiş görkəmli rus alimi **İ.A.İlin** belə hesab edir ki, «totalitarizm vətəndaşların bütün fəaliyyəti daxil olmaqla onların həyatına son dərəcə müdaxilə edən və idarəetmədə məcburi tənzimləməyə əsaslanan siyasi quruluşdur. Bu sosial-hipnotizm maşınıdır: tarixdə görünməmiş dəhşətli bioloji hadisədir – möhkəm qorxuya və cinayətkarlağa əsaslanan, hüququn, azadlığın və mənəviyyatın olmadığı cəmiyyətdir».Amerika tədqiqatçıları **K.Fridrix** və **Z.Bjezinski** isə totalitarizmə başqa mövqedən yanaşırlar. Onlar totalitarizmi siyasi sistemin digər tiplərindən – demokratiyadan və avtoritarizmdən aşağıdakı cəhətlərlə fərqlənən ictimai quruluş tipi kimi müəyyənləşdirirlər: 1) harizmalı (harizma -- yunan dilində harizma sözündən götürülüb nemət, mərhəmət, ilahi vergi mənasını ifadə edir – son dərəcə istedadlı, xüsusi keyfiyyətlərə malik, fövqəltəbii müdrikliyi ilə seçilən siyasi liderlərə aid edilir). Harizmalı liderlər sırasına **V.İ.Lenini, İ.B.Stalini, Mao-Tsze-Dunu, A.Hitleri, R.Reyqanı, M.Tetçeri** və b. daxil edirlər); liderin rəhbərlik etdiyi vahid kütləvi siyasi partiyaya malik olmaq;

2) Hakimiyyətin rəsmi ideologiyanı bütün vətəndaşlar arasında yaymaq cəhdi; 3) Dövlətin kütləvi informasiya vasitələrini inhisara alması; 4) Dövlət tərəfindən bütün silahlı mübarizənin və silahların inhisara alınması; 5) Hakimiyyət orqanları tərəfindən vətəndaşların siyasi loyallığına (qanun dairəsində hərəkət etməsinə) nəzarət məqsədilə xüsusi zorakılıq sisteminin, spesifik terror vasitələrinin mövcudluğu; 6) İqtisadiyyatın idarə olunmasının sərt mərkəzləşdirilmiş sistemi. Tədqiqatçılar qeyd edirlər ki, həmin əlamətlərin məcmuu bu və ya digər siyasi sistemin totalitar mahiyyət kəsb etməsinə əsas verir. Bir sözlə, **totalitarizm cəmiyyətdə vahid ideologiyanın hökmranlığıdır.** Terrorçu diktatura olmaq etibarilə totalitarizmin mənbəyi hələ antik dövrə təsadüf edir. Qədim Romanın bəşəriyyətə bəxş etdiyi terrorçu diktatura nümunəsini xatırlamaq kifayətdir. **Sull** və **Kaliqul** kimi tiranların diktaturası məhz, buna aydın misaldır. Eləcə də Qədim Misirdə sərt təsərrüfat idarəçiliyi sistemi mövcud olmuşdur.

Orta əsrlər Avropasında vahid rəsmi ideologiya- katolik dini hökmranlıq etmişdir. **Makedoniyalı İskəndərin** və **Çingizxanın** imperiyalarında ilk dəfə olaraq dünyada hökmranlıq etmək ideyası təzahür etmişdir. Rus alimi **N.A.Berdyayev** qeyd edir ki, totalitarizmin ilk mənbəyini utopiyanın siyasiləşməsində axtarmaq lazımdır. Kamil, harmoniyalı quruluşun – utopiyanın ideal nümunələri tarixdə böyük rol oynayır və bunlar əksər hallarda fasiləsiz təhrif olunmuş formada həyata keçirilir. Totalitar utopiya kollektiv fəaliyyətin məqsədlərini əsaslandıran ideologiya formasında səciyyələnir.

Totalitar modelin real təcəssümü və məntiqi məhz, müəyyən ictimai şəraitdə mümkündür. **Totalitarizmin başlıca ümumi zəmini cəmiyyətin inkişafının sənaye mərhələsidir.** Həmin mərhələ kütləvi kommunikasiya sisteminin yaranmasına gətirib çıxardı, ictimai əlaqələri mürəkkəbləşdirdi, ideologiyanın zorakılıqla həyata keçirilməsini təmin etdi. Bununla əlaqədar dövlətin özü möhkəmləndi, onun sosial funksiyaları genişləndi.

Totalitarizm ictimai inkişafın gedişində cəmiyyətin sosial təşkili səviyyəsi ilə fərdi azadlıq arasında kəskinləşən real ziddiyyətləri həll etməyə spesifik cəhd etməsi ilə səciyyələnir.

İtaliya faşizminin atası **Mussolini** demişdir: «Biz ilk dəfə elan etdik ki, sivilizasiya nə qədər mürəkkəbləşirsə şəxsiyyət azadlığı bir o qədər məhdudlaşır». Sənaye mərhələsinin və etatizmin[1] təzahürü ilə kollektiv – mexanisizmə əsaslanan dünyagörüşü totalitarizmin əsasını təşkil edir. Bu dünyagörüşün mahiyyəti ondan ibarətdir ki, dünyanın böyük mexaniki sistem mənasında dərk olunmasını ifadə edir, kamil, ideal dövlət isə idarəetmə mərkəzinə, vahid komandaya tabe olan yeganə, yaxşı təşkil olunmuş maşın kimi səciyyələndirilir.

Totalitarizmin ən mühüm **subyektiv mənbələrindən** biri sənaye mərhələsində cəmiyyətin atomlaşdırılmasına insanın psixoloji cəhətdən hazırlanmasıdır, eləcə də ənənəvi kollektiv təşkilatların dağıdılması və dini əlaqə və sərvətlərin aradan qalxmasıdır, sosial özgələşmənin artmasıdır[2]. Mövcud quruluşda psixoloji cəhətdən qeyri-qənaətbəxş vəziyyət həm də sosial-iqtisadi vəziyyətin kəskinləşməsi ilə bağlı dolğunlaşır. Böhran totalitarizmin sosial mənbəyinin təşəkkülünü də təmin edir. başqa sözlə, totalitar inqilabda bilavasitə iştirak edən sosial təbəqələrin sayının və təsirinin təzahürünü əhəmiyyətli dərəcədə yüksəldir. Totalitarizmin daha qətiyyətli tərəfdarı kimi sosial strukturda sabit mövqeyə malik olmayan marginal qruplar, aralıq təbəqələr çıxış edir. bu qruplar siyasi təxribata xeyli meylli olmaqla başqaları ilə müqayisədə öz ümidlərini ideologiya ilə daha çox əlaqələndirirlər. Totalitarizmin yuxarıda qeyd etdiyimiz mənbələrindən müvafiq siyasi şəraitdə istifadə oluna bilər. Buraya cəmiyyətin etatizləşməsi, eləcə də yeni tipli totalitar hərakatların və partiyaların (son dərəcə ideologiyalaşmış kütləvi təşkilatların) təzahürü aiddir.

Totalitar şüur sferası təsadüfi təşəkkül tapmır, o, obyektiv qanunauyğunluq kəsb edən ictimai hadisədir. Totalitar sistem kortəbii deyil, məhz, müəyyən ideoloji nümunə əsasında yaranır. Siyasi sistem olmaq etibarilə totalitarizm insan zəkasının məhsuludur, onun məqsədi ictimai və şəxsi həyatı bilavasitə rasional nəzarət altına almaqdan ibarətdir, bunları müəyyən məqsədlərə tabe etməkdir. **Totalitarizmin əsasını ideologiya təşkil edir, totalitar sistem öz həyati gücünü məhz,**

---

[1] Etatizm – ictimai həyatın müxtəlif sahələrinə dövlətin kəskin təzyiqinin genişlənməsi

[2] Б.П.Пугачев, А.И.Соловьев, Введение в политологию. səh. 137

**ideologiyadan alır.** İdeologiya sosial-inteqrativ funksiyanı yerinə yetirir, adamları siyasi birlikdə (cəmiyyətdə) birləşdirir, vətəndaşların davranışının və dövlət siyasətinin motivləşməsinin istqamətverici amili kimi səciyyələnir. Bütün ictimai həyatın ideologiyalaşması, iqtisadi və sosial proseslərin planlaşdırılması vasitəsilə cəmiyyəti «yeganə düzgün» nəzəriyyəyə tabe etmək totalitar siyasi quruluşun ən mühüm cəhətidir.

Totalitar ideologiyanın ümumi xüsusiyyətlərindən biri **teleologizmdir** (teleoloji – latın dilindən götürülüb, mənası məqsədyönlü deməkdir). Teleologizm müəyyən məqsədlərə çatmaq üçün tarixin qanunauyğun hərəkət kimi səciyyələndirilməsidir, eləcə də məqsədin vasitə üzərində üstünlüyünü əsaslandırmaqdır. «Məqsəd vasitəyə haqq qazandırır» - ideyası teleologizmin başlıca prinsipidir. Totalitar ideologiya cəmiyyətə paternalist (zorakı) ruhda, məcburi xarakterdə nüfuz edir. İdeologiya hamı üçün məcburi xarakter daşıyan düzgün təlim nöqteyi-nəzərdən təbliğ olunur, «ümumi mənafeyin» ölçüsü kimi əsaslandırılır. Hətta nasist Almaniyasında elə bir qanun qəbul olunmuşdu ki, buna görə ideologiya bütün almanlar üçün məcburi sayılırdı.

Totalitarizm üçün hakimiyyətin informasiyanı inhasara alması, kütləvi informasiya vasitələri üzərində nəzarət, başqa cür düşünməyə dözümsüzlük, ideya əleyhidarına siyasi düşmən kimi yanaşmaq səciyyəvidir. Totalitar siyasi sistem ictimai rəyi aradan qaldırır, onu rəsmi siyasi qiymətləndirmə ilə əvəz edir.

Totalitar siyasi sistemin öz məntiqinə uyğun olaraq cəmiyyətin hərtərfli ideologiyalaşması onun totalitar siyasiləşməsi, hakimiyyət aparatının həddən artıq inkişafı ilə tamamlanır. Güclü hakimiyyət əhali üzərində ideoloji nəzarətin təminatçısı kimi çıxış edir. Totalitarizm vətəndaş cəmiyyətinin tamamilə aradan qaldırılmasına isiqamətlənir. Siyasi sistem, daha dəqiq desək cəmiyyətin partiya-dövlət təşkilatı sərt iyerarxiyalı strukturla fərqlənən bütün sosial və iqtisadi orqanizmin əsaslarına xidmət edir. Totalitar siyasi sistemin özəyini totalitar tipli partiya başda olmaqla yeni qaydalar uğrunda fəaliyyət göstərən son dərəcə mərkəzləşdirilmiş siyasi hərəkat təşkil edir. Bu partiya cəmiyyətdəki real hakimiyyəti özündə təmərgüzləşdirir və hər cür siyasi müxalifət qadağan olunur. Eləcə də totalitar siyasi sistem

özünü xalqın iradəsini ifadə edən və ya yüksək tipli demokratiya kimi göstərməyə çalışır.

Totalitar cəmiyyətin xüsusi siyasi cəhətlərinə həmçinin, güclü sosial nəzarət aparatının və məcburetmə orqanlarının (təhlükəsizlik xidməti, ordu, polis və s) mövcudluğu, kütləvi terror və digər xüsusiyyətlər aiddir. Kor-koranə inam və qorxu totalitar idarəetmənin başlıca vasitəsidir. Totalitar siyasi sistemi fərqləndirən cəhətlərdən digəri özünə uyğun **sosial struktur** yaratmaq cəhdidir.

Kütləvi dayaq əldə etmək məqsədilə o, müəyyən sinfin, millətin və ya irqin üstünlüyünü elan edir. Bunun üçün daxili və xarici düşmənlərin (burjuaziyanın, imperializmin, yəhudilərin vəs) mövcudluğunu bildirir. Fərd dövlətdən total asılılığa məruz qalır, şəxsiyyət hər cür muxtarlığını və hüquqlarını itirir.

İdeologiyanın və siyasətin hegemonluğu nəinki sosial sahədə, eləcə də iqtisadi sferada təzahür edir. Bu sferadakı fərqləndrici cəhət təsərrüfat həyatına dövlətin hərtərəfli təzyiqi, sosial məhdudiyyət, xüsusi mülkiyyətin tamamilə aradan qaldırılması, bazar münasibətlərindən təcrid olunmaq, rəqabət, planlaşdırma və idarəetmədə inzibati – amirlik metodları ilə səciyyələnir.

Siyasi fəaliyyətin məzmununa təsir göstərən hakim ideologiyadan asılı olaraq totalitar siyasi sistem üç formada təzahür edir: **kommunizm, faşizm və milli-sosializm.** Elmi ədəbiyyatda tez-tez ümumiləşmiş formada faşizmi sağ totalitarizm kommunizmi isə **sol totalitarizm** adlandırırlar[1]. Sağ totalitarizmə Almaniyada **A.Hitlerin**, İtaliyada **B.Mussolininin** rejimləri aid edilir. Sol totalitarizm isə sosialist (kommunist) rejimi ilə əlaqələndirilir. Totalitar siyasi sistem ayrı-ayrı ölkələrdə – Rusiyada, Şərqi Avropa dövlətlərində (Yunanstandan başqa), eləcə də Çində, Vetnamda, Monqolustanda, Kambocada, Şimali Koreyada və Kubada mövcud olmuşdur.

Totalitarizmin sol və sağ növləri arasında mühüm fərqlər vardır. Kommunist ideyalarında üstünlük xüsusi əməyin hesabına yaşayan fəhlə sinfinə (proletariata), bütövlükdə zəhmətkeşlərə, faşizm ideologiyasında isə millətə və irqə verilir. Kommunizm beynəlmiləlçiliyi, faşizm isə mənasız səviyyədə milli ideyanı

---

[1] Введение в политологию. М., 1995. səh.186

ideallaşdırır. Faşizm ölkə daxilindəki sosial mühiti millətin mənəvi birliyi əsasında qərarlaşdırır.

**Totalitarizmin ilk klassik tarixi forması** 1918-ci ildə ümumi cəhətləri ilə təşəkkül tapan **sovet tipli kommunizm (sosializm)** hesab olunur. Həmin tarixi formanın əsasını hərbi kommunizm sistemi təşkil edir. Kommunist totalitarizmi digər totalitar formalarla müqayisədə bu quruluşun başlıca cəhətlərini daha çox ifadə edir, xüsusi mülkiyyəti tamamilə aradan qaldırır, şəxsiyyətin hər cür muxtarlığına son qoyur. Bununla yanaşı kommunizm siyasi sisteminə müəyyən humanist məqsədlər də xasdır. Məsələn, SSRİ-də əhalinin təhsil səviyyəsi xeyli yüksəlmişdi, cəmiyyət üzvləri elmin, mədəniyyətin nailiyyətlərinə qovuşa bilmişdi, əhalinin sosial müdafiəsi təmin olunmuşdu, iqtisadiyyat inkişaf etmişdi, cinayətkarlığın səviyyəsi kəskin şəkildə aşağı düşmüşdü.

**Totalitar siyasi sistemin digər növü faşizmdir.** O, ilk dəfə 1922-ci ildə İtaliyada yaranmışdır. Həmin sistemdə totalitar cəhətlər tam şəkildə ifadə olunmamışdı. İtaliya faşizmi yeni cəmiyyətin radikal surətdə qurulmasından çox Roma imperiyasının bərpa olunmasına cəhd etmişdir. Faşizm «xalq ruhunun» bərpasına və ya təmizlənməsinə, mədəni və etnik zəmində kollektivçiliyin təmin edilməsinə, kütləvi cinayətkarlığın aradan qaldırılmasına çalışırdı. **Totalitar siyasi sistemin üçüncü forması milli-sosializmdir.** Real siyasi və ictimai quruluş kimi o, 1933-cü ildə Almaniyada yaranmışdır. Nasional – sosializm faşizmlə qohumluq kəsb edir, lakin sovet kommunizmindən, xüsusilə onun inqilabi və sosialist komponentlərindən xeyli cəhətlər götürmüşdür, totalitar partiyanın və dövlətin təşkili formalarını da mənimsəmişdir. Eyni zamanda nasional-sosializmdə sinfi millət, sinfi düşmənçiliyi isə milli və irqi düşmənçilik əvəz edir.

Ümumiyyətlə, totalitar siyasi sistemlər bir sıra ümumi, oxşar cəhətlər kəsb etməklə yanaşı mühüm daxili fərqlərə də malikdirlər. Hər bir ideologiya, eləcə də totalitarizm cəmiyyətdə mövcud olan status-kvoya (status – Kvo-indiki məqamda mövcud olan və ya vaxtilə mövcud olmuş vəziyyət) haqq qazandırılmasına xidmət edir.

## 3. AVTORİTAR SİYASİ SİSTEMİN FƏRQLƏNDİRİCİ XÜSUSİYYƏTLƏRİ

İctimai inkişaf tarixində siyasi sistemin daha çox yayılmış tiplərindən biri avtoritarizmdir. Səciyyəvi xüsusiyyətlərinə görə o, totalitar və demokratik siyasi sistemlər arasında sanki aralıq mövqe tutur. Avtoritar sistemi totalitarizm ilə yaxınlaşdıran onun hakimiyyətin qanunları ilə məhdudlaşmayan avtokratik xarakteridir, başqa sözlə, tək hakimiyyətlilik və ya hakimiyyətin məhdud qrupa mənsub olmasıdır, demokratiya ilə «qohumluğunu» şərtləndirən isə ictimai sferaların, xüsusilə iqtisadiyyatın və xüsusi həyatın muxtarlığıdır, dövlət tərəfindən tənzimlənməsidir, vətəndaş cəmiyyəti ünsürlərinin saxlanmasıdır. Siyasi sistem nəzəriyyəsinin yaradıcılarından biri olan Amerika alimi D.İston 1953-cü ildə yazdığı «Siyasi sistem» adlı sanballı kitabında bildirir ki, «sistem qarşılıqlı fəaliyyətdə olan subyektlərin məcmuudur, bu subyektlər vasitəsilə cəmiyyətdə sərvətlər ~~amiranə~~, avtoritar qaydada yayılır». Digər politoloq İ.Xus isə avtoritar siyasi sistemi başqa cür müəyyənləşdirir: «sistem vahid bütövlüyü formalaşdıran ideyalar, prinsiplər, qanunlar, doktrinalar və s. kompleksidir». Bu fikir «sistem» anlayışına, eləcə də avtoritar sistemin mahiyyətinə idealist mövqedən yanaşmaq kimi səciyyələnir. Siyasi sistem nəzəriyyəsinin tədqiqatçılarından biri sayılan T.Madron iddia edir ki, totalitar, avtoritar və demokratik formalarda təzahür edən cəmiyyətin siyasi sistemi «münasibətlər şəbəkəsi və s. ilə möhkəmləndirilən obyektlərin və onların əlamətlərinin məcmuudur».

Avtoritar siyasi sistemdə inqilabi dünyagörüşü deyil, məhz hakimiyyətin əldə saxlanması marağı başlıca rol oynayır. Avtoritarizm daha çox cəmiyyətin üzvi inkişafı ideyasına meyillidir.

Totalitar və Avtoritar sistemləri fərqləndirən əlamətlərdən biri bundan ibarətdir ki, ictimai həyatın müxtəlif aspektlərinin reqlamentləşdirilməsi eyni dərəcədə həyata keçirilmir. Totalitarizmdə nəticə etibarı ilə, nəinki totalitar sərvətlər sisteminin təbliği və yaradılması, eləcə də siyasiləşmiş insan, fərd formalaşdırılması nəzərdə tutulur, eləcə də ki, kollektivçiliyə tabe edilsin.

Avtoritarizm üçün əksinə, kütlələrin siyasətdən uzaqlaşdırılması, onların siyasi cəhətdən zəif məlumatlandırılması səciyyəvidir.

**Partiyalar, parlament, hakimiyyətin bölünməsi və demokratiyanın digər atributları avtoritar sistemdə formal surətdə mövcud olur.** Dövlət vətəndaş cəmiyyətinə tam şəkildə təzyiq göstərmir, hətta **«müəyyən dozada başqa cür düşünmək»** də mümkündür, bir şərtlə ki, rejimin fəal əleyhidarı olmayasan.

**Avtoritar siyasi sistem** totalitarizmə xas olmayan ənənəvi sinfi, silki və ya **tayfa həddinin** saxlanmasına üstünlük verir.

Totalitar və avtoritar sistemlər arasındakı prinsipal fərqlərdən biri bunların hakimiyyət təsisatlarının strukturunda təzahür edir.

Totalitar sistemdə hakimiyətin mərkəzində vahid partiya mövcud olur və partiya orqanları bütün dövlət aparatına, ictimai təşkilatlara və istehsal strukturlarına nüfuz edir. Avtoritar diktaturada isə dövlət yüksək siyasi dəyər xarakterində çıxış edir, hakimiyyət funksiyalarının əsası kimi səciyyələnir və mahiyyətinə görə cəza tədbirləri deyil, idarəetmə vəzifələrini həyata keçirir.

Nəhayət, totalitar və avtoritar sistemlərdə cəzaların tətbqi müxtəlif səviyyələrdə reallaşdırılır. Totalitar siyasi sistemin təşəkkülü və hökmranlığı dövründə bu sistem öz əleyhidarlarına qarşı leqal və mütəşəkkil surətdə sistemli terror üsullarına əl atır. Həmin terror əhalinin bütöv bir kateqoriyasının (siniflərin, millətlərin, irqlərin) ləğv edilməsinə istiqamətlənmişdir.

Avtoritar sistemdə də qanunları kobud surətdə pozan və mövcud siyasi quruluşa (rejimə) qarşı çıxanlara terror tətbiq edən gizli polis fəaliyyət göstərir. Lakin avtoritar sistemdə qanunuləşdirilmiş və xüsusi düşərgələrdə hazırlanmış cəza dəstələri az hallarda nəzərə çarpır. Avtoritar diktatura adətən müxalifətdə olan deputatları, görkəmli ictimai xadimləri aradan götürmək və ya qorxutmaq məqsədilə seçmə terror tətbiq edir.

Əlbəttə, totalitar və avtoritar siyasi sistemlər arasındakı fərqli cəhətləri mütləqləşdirmək lazım deyildir. Çünki xeyli rejimlər həmin diktaturalar arasında aralıq mövqe tutmaqla müxtəlif siyasi sistem tiplərinin əlamətlərini özündə birləşdirir. Müasir şəraitdə bir sıra ölkələrin artıq diktaturadan demokratiyaya keçməsi baş verir.

Yuxarıda qeyd etdiyimiz totalitar və avtoritar siyasi sistemlər arasındakı fərqlər siyasi sistemə xas olan cəhətləri

müəyyənləşdirməyə xidmət edir. həmin xüsusi cəhətlər aşağıdakılardır:

1. Avtokratizm (qeyri-məhdud hakimiyyət) və ya hakimiyyətin cüzi daşıyıcıları. Bu, bir nəfərdən (monarx, tiran - hökmdar) və ya müəyyən şəxslərdən ibarət qrup (hərbi xunta, oliqarxiya)[1] və s. ola bilər.

2. Hakimiyyətin məhdudlaşdırılması, vətəndaşların ona nəzarət etməməsi. Buna baxmayaraq hakimiyyət qanunların köməyi ilə idarə oluna bilər, o, qanunları öz istədiyi kimi qəbul edir.

3. Güclü dayağa malik olmaq. Avtoritar rejim geniş əhali təbəqələri arasında şöhrət naminə kütləvi cəzalara cəhd etməyə də bilər. lakin o, kifayət qədərə gücə malikdir və zərurət yarandıqda öz gücündən istədiyi kimi istifadə etməklə vətəndaşları itaətdə saxlamağa məcbur edə bilər.

4. Hakimiyyətin və siyasətin inhisara alınması, siyasi müxalifətə və rəqabətə yol verməmək. Avtoritarizmdə məhdud sayda partiyalar, həmkarlar ittifaqı və digər təşkilatların mövcudluğu mümkündür, lakin onların hakimiyyətin nəzarətində qalması şərtilə.

5. Cəmiyyət üzərində total nəzarətdən imtina etmək, qeyri-siyasi sferalara və ilk növbədə bütün iqtisadiyyata müdaxilə etməmək və ya məhdud şəkildə qarışmaq, hakimiyyət başlıca olaraqa xüsusi təhlükəsizlik, ictimai qaydalar, müdafiə, xarici siyasət məsələlərinin təmin olunmasına çalışır, eləcə də bazar özünütənzimləmə mexanizmini pozmaqla kifayət qədər fəal sosial siyasət yeritməyə səy göstərir.

6. Siyasi elitanın seçkisiz, təyin olunma yolu ilə formalaşdırılması.

Yuxarıdakı əlamətləri nəzərə alaraq avtoritarizmi belə müəyyənləşdirmək olar: o, **siyasi müxalifətə yol verməyən, lakin cəmiyyətin qeyri-siyasi sferalarında şəxsiyyətin muxtarlığını saxlayan bir nəfərin və ya şəxslər qrupunun hakimiyyətidir**[2]. Avtoritar siyasi sistemdə müəyyən, başlıca siyasi fəaliyyət formaları qadağan olunur, vətəndaşların digər fəaliyyət növləri isə azaddır. **Avtoritar siyasi sistemi bəzi hallarda məhdud plyuralizmlə**

---

[1] Oliqarxiya - maliyyəçi və sənayeçi qrupların hakimiyyəti

[2] В.П.Пугачев, А.И.Соловьев, Введение политологию. səh.144

**şərtlənən idarə üsulu kimi müəyyənləşdirirlər.** O, iqtisadi, sosial, mədəni, dini və qismən isə ideoloji plyuralizmə uyğunlaşa bilir. Avtoritarizmin ictimai inkişafa təsirinin zəif və həm də güclü tərəfləri mövcuddur. Zəif cəhətlərə siyasətin dövlət başçısının və ya yüksək rəhbərlər qrupunun mövqeyindən tam asılılığı, artikulyasiya təsisatlarının, ictimai mənafeyin siyasi ifadəsinin məhdudlaşdırılması və s. daxildir.

Eyni zamanda avtoritar siyasi sistem özünəməxsus yaxşı cəhətlərə malikdir, bu, xüsusilə ekstremal şəraitdə hiss olunur. Avtoritar hakimiyyət siyasi sabitliyi və ictimai qaydaları təmin etmək üçün yüksək qabiliyyətə malikdir, müəyyən vəzifələrin həlli məqsədilə ictimai resursları səfərbər edə bilməsi, siyasi əleyhidarlarının müqavimətini qırması və s. ilə səciyyələnir. Bütün bunlar radikal ictimai islahatların aparılmasının təsirli vasitəsi kimi çıxış edir. **Avtoritar rejimlərin demokratik istiqaməti uzunömürlü deyildir. Müasir şəraitdə onların real perspektivi siyasi sistemin daha mükəmməl və sabit tipi olan demokratiyadır.**

## 4. DİKTATURADAN DEMOKRATİYAYA KEÇİD

İndiki şəraitin daha aydın nəzərə çarpan meyllərindən biri demokratiyanın yeni ölkələrdə yayılmasıdır. Demokratik dəyişikliklər prosesi Şərqi Avropa ölkələrində və keçmiş SSRİ ərazisindəki dövlətlərin əksəriyyətində, eləcə də latın Amerikasının və Asiyanın onlarla dövlətlərində baş verir. Demokratik meyl Afrikanın bəzi ölkələrində də təzahür edir. Yeri gəlmişkən qeyd edək ki, post-sosialist ölkələrin böyük əksəriyyəti hazırki şəraitdə fəal kütləvi müdafiəyə əsaslanmayan "xalis" avtoritarizm sistemi ilə səciyyələnir. Asiya, Afrika və Latın Amerikası ölkələrinin çoxu öz mövcudluğuna milli azadlıq və dirçəliş zərurəti ilə haqq qazandırırlar. XX əsrin səciyyəvi xüsusiyyətlərindən biri bundan ibarətdir ki, legitimləşmə məqsədilə milli ideologiyadan geniş istifadə olunur.

XX əsrdə demokratik dövlətlər cəmiyyətinin əhəmiyyətli dərəcədə genişlənməsinə baxmayaraq bu irəliləyişi asan, nisbətən

bərabər və ya sürətli proses kimi başa düşmək düzgün olmazdı. Tətqiqatçılar yeni millətlərin demokratik ideallara qovuşması gedişinin hamar, ziddiyyətsiz olmadığını və siyasi sistemin müxtəlif tiplərinə şübhə ilə yanaşmalarını çoxdan qeyd etmişlər.

**Müstəqil dövlətlərin demokratik inkişafının yüksək mərhələlərindən biri** birinci dünya müharibəsinin qurtarmasından sonrakı dövrə təsadüf edir. Bu zaman avropanın Almaniya və Avstriya-Macarıstandakı köhnə monarxiyalarının məhvi ilə bağlı Şərqi Avropada bir neçə gənc dövlətlər yarandı. Lakin XX əsrin 20-30-cu illərində məhz həmin ölkələrdə, eləcə də İtaliyada, Argentinada, Yaponiyada, Portuqaliyada və İspaniyada parlament sistemləri iflasa uğradı.

**Demokratiyanın yeni zəfər mərhələsi** ikinci dünya müharibəsindən sonra AFR, Avstriya, İtaliya və Yaponiyada hüquqi dövlətlərin təşəkkülü ilə başlayır, sonra isə müstəmləkə sistemindən azad olan ölkələrdə demokratik dövlətlərin yaranması prosesi davam edir. Lakin 60-cı illərin ortalarında **inkişaf etməkdə olan ölkələrin əksəriyyətində avtoritarizmin qərarlaşması nəticəsində həmin proses tənəzzülə uğradı**. Nəhayət, **70-80-cı illərin sonunda SSRİ-də yenidənqurmanın** başlanması ilə əlaqədar **demokratik yüksəlişin əlamətləri** yenidən nəzərə çarpdı. Siyasi azadlığın sonuncu dalğası demokratiya tərəfdarlarının ümidlərini daha da artırır.

Siyasi elmdə keçid dedikdə bir sistemin tənəzzülü ilə digərinin qərarlaşması başqa sözlə, təsisatların və sərvətlərin yeni quruluşunun yaranması arasındakı keçid prosesi başa düşülür. Lakin bu, həmin prosesin nəticəsi barədə heç nəyi ifadə etmir. Demokratikləşmənin qarşısı alına bilər, **hibrid strukturun** təşəkkülü mümkündür və ya köhnə qaydaya qayıtmaq olar.

Demokratikləşdirməni liberallaşdırmadan fərqləndirmək lazımdır. **Liberallaşdırma** siyasi və vətəndaşlıq hüququ sferalarında "yuxarıların" tam və əhatəli olmayan, məhdud-laşdırılmış və nəzarət edilən xarakterdə güzəştlərə getməsini səciyyələndirir. Rejim müxalifətlə bəzi kompromislərə gedir, lakin onun hakimiyyət səlahiyyətlərinə cəlb olunmasının qarşısını alır. Eləcə də liberallaşdırma prosesi çox mütəhərrikdir və xüsusi dinamiklik kəsb edir. **Liberallaşdırma tez-tez demokratiyaya keçilməzdən** əvvəl

nəzərə çarpır. Məsələn, 1968-ci ildə Macarıstanda müəssisələrə geniş muxtariyyat verilməsində bazarın rolunu gücləndirməyə istiqamətlənən "yeni iqtisadi mexanizm" tətbiq olundu. Digər ölkələrdə (SSRİ, Çexoslavakiya) liberallaşdırma və demokratikləşdirmə praktiki olaraq eyni vaxta düşmüşdü. Diktaturanın tənəzzülünün səbəbləri daxili və xarici zəminin (şəraitin) fərdi əlaqələndirilməsidir. Bəzi ölkələrdə (Çilidə) avtoritrizm elə potensial imkanlarını reallaşdırdı ki, nəticə etibarilə onun özünün yaradılmasına gətirib çıxardı. Digər ölkələrdə (Cənubi Koreyada) müxalifət qüvvələri əhəmiyyətli siyasi çəkiyə malik oldular və nəticədə onları susdurmaq mümkün olmadı.

Xeyli ölkə bu gün iqtisadi sferada diktatura idarəçiliyi ilə demokratiyaya keçilməsini reallaşdırır. Lakin bu proses ciddi problemlərlə üzləşir və onları həll etmək mümkün deyildir. Bu, ilk növbədə "sosialist oriyentasiyalı" ölkələrə aiddir. Yalnız bəzi ölkələrdə (Tayvan, Çili, Cənubi Koreya və b) avtoritarizm səmərəli təsərrüfatın təşkilinə imkan yaratmışdır. İstehsalın və kapitalın beynəlmiləlləşməsi artdıqca azad iqtisadiyyatla gizli hökmranlıq strukturları arasındakı fərqlər daha aydın üzə çıxır. Avtoritar dövlətlərin bürokratik aparatları industriallaşdırma prosesinin və xarici yardımın paylanmasının təsiri altında formalarını dəyişməyə məcbur olurlar.

Avtoritarizm siyasi sferada hakim sinfin yeni elitasının ənənəvi liderlərdən narazılığı ilə üzləşir. İdarəedici blok daxilində münaqişələr çoxalır, onun müəyyən hissəsi kənar qrupları öz tərəfinə cəlb edir, bu isə rejimin möhkəmliyini dağıdır. Bir sıra hallarda avtoritarizm kənar siyasi qüvvələrin qarşıdurmasını zorla aradan qaldırmaqla öz gücünü, sabitliyini itirmiş olur və onun funksiyaları tükənir. Bəzi ölkələrdə avtoritarizm ilk başlanğıcda "qayda yaratmalı olan" müvəqqəti hadisə hesab olunurdu, parlament təsisatları isə kifayət qədər inkişaf etmişdi. Xeyli diktaturada ziyalıların getdikcə artan hərəkatı avtokratik hökmranlığın imkanlarına və etikasına böyük şübhəni ifadə edir. Xarici amillər diktaturalar üçün bilavasitə daha mühüm əhəmiyyət daşımışdır, bəzi hallarda isə məsələn, Şərqi Avropada həlledici mahiyyət kəsb etmişdir. Belə xarici amillərə bir tərəfdən sosializm birliyi ölkələrinə SSRİ-nin yardımının dayandırılması, digər

tərəfdən isə Qərbin inkişaf etməkdə olan, "kommunist oriyentasından" imtina edən ölkələrə təzyiq siyasətinin güclənməsidir. Əlbəttə, bu cür düşünmək düzgün olmazdı ki, Qərb ölkələrinin avtoritar rejimlərə münasibətdə siyasəti birmənalı şəkildə həmin ölkələrdə demokratiyanın həyata keçirilməsinə istiqamətlənir. Demokratik dövlətlərin xarici siyasətinin üstünlükləri üç başlıca səbəb əsasında təşəkkül tapmışdır.

**Birincisi**, Qərb kommunizmlə qarşıdurma şəraitində "üçüncü dünyadakı" müttəfiqlərini onların siyasi quruluşundan asılı olmayaraq silahla bolluca təmin edirdi. Bu, hərbiçilərin mövqeyini xeyli gücləndirdi. Sosializmə meyl edən Anqola və Konqo ilə qonşu olan Zairdə özünün əfsanəvi rüşvətxorluğu ilə tanınan prezident **J.D. Mobutu** kommunizmə qarşı mübarizə məqsədilə amerikalılardan yüz milyonlarla dollar alırdı.

**İkincisi**, avtoritar dövlətlərə münasibətdə qərb siyasətində siyasi inkişafdan çox iqtisadi inkişafa üstünlük verilir, siyasi sabitlik isə demokratik perspektivlərin qeyri müəyyənliyi kimi üstün tutulur. İqtisadi mənafe ilə əlaqədar olaraq plyuralizm və insan hüququ hər dəfə arxa plana çəkilir.

**Üçüncüsü**, xeyli siyasətçilər və ictimai təşkilatlar üçün inkişaf etmiş ölkələrdə demokratik prinsip və ideallanın həyata keçirilməsi prinsipial məsələ hesab olunur. XX əsrin 80-90-cı illərində qərb dövlətləri avtoritar sistemlərin demokratikləşməsi xəttinə təkidlə səy göstərmişlər. Bu məqsədlə iqtisadi yardım ən təsirli vasitə hesab olunmuşdur.

Yuxarıda qeyd olunan səbəblərin nisbəti, müxtəlif qərb demokratiyasında konkret tarixi mərhələdə avtoritarizmə münasibət birmənalı olmayıb, lakin mövcud prinsiplərin əlaqələndirilməsi avtoritar sistemə xarici təsiri səciyyələndirir. Avtoritar dövlətlərin siyasi cəhətdən süqutunu sübut edən ciddi və əyani amil konstitusiyaya əsaslanan islahatların həyata keçirilməsi və hüquqi dövlət prinsiplərinin qəbul edilməsidir. Daha dəqiq desək, dövlətin rolunun müəyyənləşdirilməsinə yeni yanaşma diqqəti cəlb edir, çünki hazırda cəmiyyətin muxtarlığı etiraf olunur, dövlətin funksiyaları məhdudlaşır və s, iki mandatlı prezident səlahiyyətlərinin məhdudlaşdırılması tətbiq olunur və bəzi hallarda dövlət başçısının və hökumət başçısının vəzifələrinin bölünməsi

məhdudlaşdırılır, bununla belə güclü dövlət başçısının təsisatı saxlanılır. Parlamentin səlahiyyətləri genişləndirilir, iki palatalı parlamentin yaradılması nümunələri nəzərə çarpır. Məhkəmə hakimiyyətinin müstəqillik əldə etməsində irəliliyiş müşahidə olunur. Xeyli ölkələrdə, xüsusilə Latın Amerikasında konstitusiya demokratik idarəçilik ruhuna istiqamətlənir. Diktaturadan demokratiyaya keçid irəliləyişinin başlıca istiqamətləri hansılardır?

**Həmin prosesi ümumi şəkildə təsəvvür edərkən ilk mərhələ kimi yeni konstitusiyanın qəbul olunması,** dövlət başçısının və yeni parlamentin seçilməsi səciyyələnir. hakimiyyət az və ya çox dərəcədə demokratik yolla formalaşan hökumətin əlinə keçir. Lakin bu hələ demokratiyanın yaranması deyildir. Qarşılıqlı siyasi əlaqələr sistemi olmaq etibarilə demokratiyanın qərarlaşması dövlətin və cəmiyyətin öz formasını dərindən dəyişməsini ehtiva edir. Bu mənada **demokratiyaya keçidin ilk mərhələsi üçün diktaturaya qayıtmaq imkanları daha çox təhlükəlidir.** Həmin mərhələdə dövlət quruluşunda islahatlar aparmaqdan çox (bu tez-tez və ilk növbədə baş verən prosesdir), vətəndaş cəmiyyətinin formalaşması, başqa sözlə dövlətdən asılı olmayan vətəndaş birliklərinin məcmuu, onların digər assosiasiyalarla ittifaqda öz hüquq və mənafelərini müdafiə etmələri həlledici əhəmiyyətə malikdir. Bu qrupların mövcudluğunun zəruri şərtlərindən biri onların öz fəaliyyətini əlaqələndirə bilmək qabiliyyətidir. Vətəndaş cəmiyyətinin ünsürlərinin yetkinliyi yalnız ilk növbədə istehsal və iqtisadi münasibətlər sferasına aid olan proseslərin modernləşdirilməsindən (müasirləşdirilməsindən) asılı deyildir, eləcə də vətəndaş birliklərinin formalaşmasına imkan yaradan tarixi və mədəni şəraitlə şərtlənir.

Bütövlükdə möhkəm demokratik quruluşun yaranması barədə o halda böyük inamla mülahizə yürüdülə bilər ki, məhz, aşağıdakılar reallaşdırılsın: -siyasi davranış normalarına siyasi əleyhidarla birlikdə əməl olunsun, belə halda siyasi əleyhidar düşməndən opponentə, başqa sözlə qərəzsiz, obyektiv mövqedən çıxış edən şəxsə çevrilir. Başlıca siyasi qüvvələr ekstremizmdən[1] uzaqlaşaraq ictimai həyatın periferiyası[2] kimi mövcud olur;

---

[1] Ekstremizm-siyasətdə ifrat tədbirlərə və baxışlara meyl.
[2] Periferiya-mərkəzdən uzaq yerlər, idarələr, təşkilatlar.

-demokratik təsisatlar real surətdə və səmərəli fəaliyyət göstərir;

-vətəndaş cəmiyyəti formalaşır;

-başlıca siyasi qüvvələr əsas dəyərlər üzrə razılığa gəlirlər;

-siyasi qruplaşmalar arasındakı münaqişələr qanunla tənzimlənir. Demokratik prinsiplərin uğurlarına, demokratiyanın təqlid edilməsinin çoxsaylı nümunələrinə baxmayaraq demokratiya adı altında yeni normalar yalnız elan olunur, praktiki olaraq reallaşmır. Məsələn, Zambiyada və ya Malidə ilk baxışda demokratik şəkildə seçilən hökumət nəzərə çarpır.

Əslində isə formal demokratik təsisatlar arxasında əvvəlki siyasi mexanizm və iqtisadi idarəetmə vasitələri gizlənilir. Demokratik şüarlar qərbin iqtisadi yardımına ümid kimi səslənir.

İnkişaf etməkdə olan, xüsusilə zəif inkişaf etmiş ölkələrdə demokratiyanın perspektivini düşünərkən onun imkanlarını həddən artıq şişirtmək lazım deyildir. Son nəticədə demokratiyanın taleyi ondan asılıdır ki, o inkişaf problemlərinin yeni mexanizmini yaratmağa qadirdirmi, başqa sözlə nəinki iqtisadi inkişafın təmin olunmasına, eləcə də ictimai məhsulların ədalətli bölüşdürülməsinə nail olunmalıdır, bu isə **sosial demokratiyaya** doğru irəliləyişi ifadə edir. Avtoritarizmdən demokratiyaya keçid müxtəlif formalar kəsb edir və mürəkkəbliyi ilə səciyyələnir. **AFR-da və İtaliyada demokratiya diktator rejimlərinin hərbi süqutu sayəsində qərarlaşdısa, SSRİ-də və Şərqi Avropa ölkələrində totalitarizmdən demokratiyaya keçid tarixi nümunəyə çevrilmədi.** Bunu səciyyələndirən cəhətlərdən biri sosializm dünyası ölkələrində xüsusi mülkiyyətin və siyasi plyuralizmin qeyri-mövcudluğu idi.

Totalitarizmin aradan qaldırılmasının spesifikliyi nədən ibarətdir? Bu prosesin başlıca məqamını aşağıdakılar təşkil edir: partiyanın rəhbər rolu barədə maddənin ləğvi; hökumət və parlament təsisatlarının xarakterinin yenidən gözdən keçirilməsi; "nomenklatura" sisteminin aradan qaldırılması; xüsusi mülkiyyətin bərpası.

Sovet siyasi sisteminin süqutu prosesi yalnız nümayəndəli sistemin təşkili cəhdi kimi deyil, eləcə də avtoritarizmin dirçəlişi ilə müşahidə olunmuşdur. Orta Asiya və Zakavqaziya

respublikaları buna misal ola bilər. Belə ki, Türkmənistan, Özbəkistan və Tacikstanda dövlət idarəçiliyinin avtoritar strukturaları təşəkkül tapmışdır, Qazaxıstan və Qırğızıstanda isə bəzi avtoritar meyllər nəzərə çarpır. Belə vəziyyət Zaqafqaziya respublikalarında da aydın təzahür edir. Yadda saxlamaq lazımdır ki, tayfa tipli siyasi ənənələrin kökləri feodalizmə və feodal münasibətlərinə qədərki dövrə gedib çıxır. Zaqafqaziya respublikalarında müşahidə olunan **tayfa tipli siyasi idarəçilik ənənələri nəinki sosializm şəraitində (covet məkanında) mövcud olmuşdur, təəssüf ki, onların müstəqillik əldə etdikləri dövrdə də davam edir. Bu və ya digər ölkənin, xalqın taleyinə tayfa hakimiyyəti qədər zərbə endirən digər siyasi qüvvə təsəvvür etmək çətindir.** Mənəvi-siyasi uğurlar bütün hallarda millilik kəsb edir. Vətən elə ucalıqdır ki, onu idarə edənlər millətə əsl, insani, təmənnasız, bəşəri dəyərlər bəxş etməlidir. **Dövləti yer üzündə cəhənnəmə çevirən nədirsə, cənnətə çevirən də məhz odur, yəni siyasətdir. Müdrik siyasəti yalnız ölkə əhalisinin bir hissəsi deyil, bütün xalq bəyənir, qiymətləndirir və öz xoşbəxtliyinin mənbəyini belə siyasətdə görür.**

Bir sözlə, geniş mənada diktatura, qanunları öz mənafeyi naminə dəyişdirən, xalqa hesabat verməyən və zamanın çərçivəsi ilə məhdudlaşmayan yeni tipli şər hakimiyyətdir.

# XI FƏSİL

## DEMOKRATİYA SİYASİ-HÜQUQİ DƏYƏRLƏR SİSTEMİDİR.

### 1. DEMOKRATİYANIN TƏŞƏKKÜLÜ, TƏKAMÜLÜ VƏ SİYASİ-HÜQUQİ MAHİYYƏTİ.

Demokratiyanı siyasi-hüquqi dəyərlər sistemi kimi təsəvvür etmək baxımdan, eləcə də dövlətin təşkilinin siyasi forması mənada anlamaq məqsədilə ilk növbədə, "demokratiya" anlayışının özünün aydınlaşdırılması, onun məzmununun açıqlanması elmi-praktiki zərurətdir.

Siyasi elmin "vətəndaş cəmiyyəti", "hüquqi dövlət", "avtoritarlıq", "diktatura" və digər anlayışları kimi "demokratiya" anlayışı da heç vaxt ideoloji yükdən və sərvətli mahiyyətdən təcrid olunan bitərəf elmi terminlər sırasına mənsub olmayıb. O, müasir siyasətçilərin dilində başlıca, simvol əhəmiyyətli məvhum kimi səslənir. Müxtəlif istiqamətli fəaliyyəti ilə səciyyələnən xadimlər demokratiya ideyalarına və prinsiplərinə meylli olduqlarını qeyd edir, ən mənfur rejimlər demokratik siyasət yeritməyə hazır olduqlarını bildirir, beynəlxalq hüququn pozulması "demokratiyanın bərpası və müdafiəsi" zərurəti kimi əsaslandırılır.

Ayrı-ayrı elmlərdə "demokratiya" termini çox geniş mənalarda işlədilir: tarixçilər hərbi, antik demokratiyanın tədqiqinə diqqət yetirirlər. Siyasi elm və hüquqşünaslıq liberal, parlament, nümayəndəli və iştirakçılıq demokratiyasını tədqiq edirlər. "İstehsal demokratiyası", "partiyadaxili demokratiya", "idarəetmənin demokratik metodları" anlayışları da mövcuddur və öyrənilir.

"Demokratiya" yunan dilində üç söz birləşməsindən əmələ gəlib: demos-xalq, kratos-hakimiyyət, kratein -ağalıq etmək və "xalqın hakimiyyəti", "xalq hakimiyyəti" mənalarını ifadə edir.

"Demokratiya" terminini ilk dəfə qədim yunan tarixçisi **Herodot** işlətmişdir.

İctimai fikir və siyasi elm tarixində"demokratiya" anlayışı uzun müddət və əsasən antik yunan filosofu **Aristotelin** həmin anlayışı başa düşdüyü tərzdə qiymətləndirilmişdir. Bu böyük filosof dövlətin təşkili formasını iki əlamət üzrə fərqləndirməyi təklif etmişdir: 1) hakimiyyət kimin əlindədir və 2) bu hakimiyyətdən necə istifadə olunur-"düzgün" yoxsa "qeyri-düzgün". Monarxiyada hakimiyyət bir nəfərə-monarxa, hökmdara məxsusdur; aristokratiyada hakimiyyət bəzi adamların-"yaxşıların" əlindədir; politiyada hamı və ya vətəndaşların əksəriyyəti idarə edir. **Aristotelə** görə bunlar hakimiyyətin "düzgün" formaları hesab olunur. Həmin idarəçilik formalarında hakimiyyət bütün vətəndaşların rifahına, bütövlükdə cəmiyyətin mənafeyinə xidmət edir. Dövlətin "qeyri düzgün" formaları isə onunla səciyyələnir ki, hakimiyyətdə olanlar öz mənafeləri naminə fəaliyyət göstərirlər, vətəndaşların rifahına qayğı ilə yanaşmırlar. "Qeyri düzgün" formaya tiraniya-monarxiyalı hakimiyyət aid edilir, "burada yalnız idarə edən bir nəfərin mənafeyi üstün tutulur. Oliqarxiya varlı vətəndaşları, demokratiya isə mülkiyyətdən məhrum olanları qidalandırır".

Sonralar isə demokratiya anlayışı dövlətin "düzgün" formasına-politiyaya, idarəetmənin "qeyri-düzgün" ("düzgün olmayan") forması isə əksəriyyət tərəfindən oxlokratiya anlayışına-"kütlənin hakimiyyətinə", heç bir qanunla dayandırıla bilməyən qara camaatın hakimiyyətinə aid edildi. Beləliklə, demokratiya uzun müddət, XVIII əsrin axırlarına- Böyük Fransa inqilabına qədər dövlət forması kimi başa düşülürdü. Başqa sözlə, hakimiyyətin qanunlarına tabe olan hamının və ya azad vətəndaşların əksəriyyətinin əlində olması kimi dərk edilirdi. **Yeni avropa siyasi fikri demokratiyaya siyasi təşkil forması prinsipini əlavə etdi.**

İki başlıca **demokratik prinsip-azadlıq** və **bərabərlik** fərqləndirilir. Demokratiya anlayışının məzmununun dəyişilməsi ilə bağlı bu anlayışdan nəinki dövlətə münasibətdə eləcə də lokal (yerli) sosial və siyasi birliklərə-şəhər, kənd, istehsal kollektivləri kimi birliklərə münasibətdə istifadə olundu.

**Demokratiyanın başlıca tarixi formaları dörd təkamül mərhələsini əhatə edir:**

-Antik demokratiya (Yunanıstan);

-Orta əsrlər cəmiyyətində demokratiya (siyasi və hüquqi təsəvvürlər);

-Yeni dövrün demokratiyası (XVII əsr İngiltərə inqilabi və 1789-cu il fransa inqilabından sonrakı dövr);

-Müasir demokratiya (XIX əsrin sonuncu illərindən indiyə kimi).

**Müasir demokratiya** mənafelərin nümayəndəliyi kimi səciyyələnir. Bütün vətəndaşlar siyasi həyatın iştirakçıları olmaq etibarilə demokratik dövlətdə bərabər hüquqludur. Bərabərlik iki cür-qanun qarşısında bərabərlik və siyasi hüquq bərabərliyi kimi səciyyələnir. Əmlak vəziyyətindən və vəzifəsindən, ictimai mövqeyindən asılı olmayaraq hamı qanun qarşısında bərabər hüquqludur. İnsanın cəmiyyətdə tutduğu mövqedən onun əxlaqi məsuliyyəti daha yüksəkdir, çünki hər bir fərdin qanuna qarşı laqeydliyi qanunçuluğa və çox adamın hüquq qaydalarına inamını aradan qaldırır. **Siyasi hüquq bərabərliyi o deməkdir ki, hər kəs seçmək və seçilmək hüququna malikdir.**

Müasir demokratik dövlət hüquqi dövlət kimi başa düşülür, çünki praktikada hakimiyyətin bölünməsi prinsipi həyata keçirilir və zəhmətkeşlərin hüquq və azadlıqları müdafiə olunur.

Hazırki şəraitdə demokratik dövlət tərəfindən qəbul edilən (təsdiqlənən) hüquq və azadlıqları şərti olaraq üç başlıca qrupa ayırmaq olar: 1) vətəndaş cəmiyyəti daxilində fərdlərin münasibətlərini müəyyənləşdirən **sosial-iqtisadi hüquq və azadlıqlar;** 2) siyasi birliklərin üzvü olmaq etibarilə fərdlərin **siyasi hüquq və azadlıqlarının** təsdiqlənməsi; 3) fiziki şəxs kimi hər bir insanın **şəxsi hüquq və azadlıqları.**

**Sosial-iqtisadi hüquq və azadlığa** kollektiv müqavilələrin bağlanması hüququ, zəhmətkeşlərin müəssisələrin idarə olunmasında iştirakı hüququ, əmək, istirahət, ədalətli mükafatlandırılma hüququ, təhsil hüququ, sosial sığorta və pensiya təminatı, sağlamlığın qorunması, tibbi xidmət, mənzil hüququ daxildir.

Sosial-iqtisadi hüququn və bununla bağlı inkişaf etmiş ölkələrin yeritdiyi sosial siyasətin mənası bundan ibarətdir ki,

iqtisadi fəallıq göstərən əhali öz vəziyyətinin sabitliyinə təminat əldə etsin, işsizliyin, xəstəliyin, əmək qabiliyyətini itirməyin nəticələrindən müdafiə olunsun, uşaqlara təhsil verə bilsin və **ləyaqətli həyat səviyyəsini** saxlasın. Belə siyasət demokratiyanın sabitliyinə xidmət edir.

Vətəndaşların demokratik dövlətlərdə ümid bəslədiyi **siyasi hüquq və azadlıqlar** onların seçmək və seçilmək hüququ, öz rəyini azad surətdə ifadə etmək, siyasi partiyalar, digər ictimai-siyasi təşkilatlar, həmkarlar ittifaqları yaratmaq, mitinqlər, yığıncaqlar və nümayişlər keçirmək hüquqları ilə səciyyələnir. Dövlət vətəndaşların vicdan azadlığına təminat verir, hər hansı dini qəbul etmək hüququnu müdafiə edir, azadlığı və ictimai həyatda iştirak hüququnu reallaşdırır.

Bunlarla yanaşı azadlığın qanuni şəklə salınmasına hüquqi maneə yaradılması qanunla məhdudlaşdırılır.

Ən sarsılmaz demokratik azadlıqlardan biri söz azadlığıdır. Lakin yalan, vətəndaşları ləkələyən materialları çap edən mətbuatın qanunvericiləkdə məhkəmə məsuliyyətinə cəlb edilməsi də nəzərdə tutulur. Bununla bağlı mənəvi-əxlaqi zərər çəkən şəxsin onun haqqında saxta mülahizələr yürüdənlərdən mətbuatda üzr istəməsini və hətta pulla cərimələnməsini tələb etməyə qanuni haqqı vardır.

**Şəxsi hüquq və azadlıqlar** fərdləri dövlət orqanları və xüsusi şəxslər tərəfindən ona qarşı özbaşınalıqdan müdafiə edir. Şəxsi hüquq və azadlığa insanın yaşamaq, azadlıq, şəxsiyyətin toxunmazlığı, zorakılığa müqavimət hüquqları aiddir. Demokratik cəmiyyətdə məhkəmənin qərarı və prokurorun sanksiyası olmadan heç kəsi saxlamağa, axtarış aparmağa və həbs etməyə yol verilmir, müqəssir hesab olunanların hamısının ədalətli mühakiməsinə əməl edilməlidir. Şəxsi hüquqa eləcə də vətəndaşların azadlığı və şəxsi həyatının təhlükəsizliyi, mühafizə olunması hüququ daxildir. Bu hüquq yaşayış yeri seçmək, ölkədə yer dəyişmək, ölkədən çıxmaq və buraya qayıtmaq azadlığını da özündə təcəssüm etdirir.

Belə bir cəhəti qeyd etmək vacibdir ki, liberal-demokratik fikirdə azadlıqla bərabərliyin nisbətinə dair müxtəlif rəylər mövcuddur. Məsələn, azadlıq siyasi-hüquqi kateqoriya kimi əsaslandırılır və bərabərlik prinsipi ilə müqayisədə ona üstünlük verilir.

**Demokratiya idarəetmənin, cəmiyyətin siyasi və sosial təşkilinin, dövlətin və hakimiyyətin başlıca formalarından biridir.** Qeyd edək ki, demokratizm, demokratikləşdirmə və demokratiklik eyni mənanı ifadə etmir. Demokratizm rejimin səciyyələndirilməsidir, idarəetmə üsuludur, tətbiq olunan metodlardır, siyasi münasibətlər tərzidir və hakimiyyətin davranışıdır. Buna görə prinsipcə demokratiya yalnız respublika idarə formasına deyil, eləcə də monarxiya dövlətinə də xas ola bilər (məsələn, "mülayim" liberal rejim). Bu mənada nominal zahiri rol oynayan müasir monarxiya dövləti xüsusilə səciyyəvidir. Beləliklə, demokratiya müxtəlif siyasi idarəetmə formasına malik olan dövlətlər üçün daha ümumi addır.

Demokratik prosesin mühüm istiqamətlərindən biri nümayəndəli demokratiyanın (seçki hüququnun) inkişafıdır. Digər əhəmiyyətli istiqamət isə demokratiyanın təminatı sisteminin-siyasi, mədəni, hüquqi, iqtisadi, ideoloji təminatın yaradılmasıdır. Demokratiyanın ən mühüm təminatı, şərti və eləcə də nəticəsi demokratik dünyanın müxtəlif ölkələrində vətəndaş cəmiyyətinin və hüquqi dövlətin formalaşması prosesidir.

Demokratik prosesin mühüm tərkib hissəsi müasir demokratiya üçün səciyyəvi olan universal demokratik proseduranın (üsulun) işlənilib hazırlanmasıdır:

1. yüksək siyasi qanunverici orqanın xalq tərəfindən seçilməsi;

2. həmin prinsiplə yanaşı hakimiyyətin seçkili orqanlarının mövcudluğu; (bu səviyyədən özünüidarəyə qədər);

3. seçicilərin bərabər hüquqa malik olmasının təmin edilməsi;

4. bütün seçicilərin bərabər seçki hüququna malik olmaları;

5. səsvermənin azad keçirilməsi;

6. seçkilər səslərin əksəriyyətinin bütün səviyyələrində başa çatdırılmalıdır; bu əksəriyyətin əhəmiyyəti ola bilsin ki, müxtəlif cür müəyyənləşdirilə bilər;

7. çoxluğun qərarı azlığın hüququnu məhdudlaşdırır;

8. cəmiyyətlə onun seçdiyi orqanların hakimiyyəti qarşılıqlı və mütənasib olmalıdır;

9. demokratiya fasiləsiz və diqqətli ictimai nəzarətə məruz qalmalıdır;

10. dövlət və cəmiyyət bütün sosial və siyasi səviyyələrdə münaqişələrin qarşısını almaq və aradan qaldırmaq üçün fəaliyyət mexanizmi işləyib hazırlayır (çoxluqla azlıq, sosial qruplar, millətlər, şəhər və kənd arasında mövcud olan, eləcə də digər münaqişələrdən xilas olmaq məqsədilə).

Demokratiya da aşağı səviyyədə siyasi partiyalar sistemi ilə müəyyənləşir (iki variantda): bir və çox partiyalılıqla. Bir partiyalı sistem demokratik hesab olunmur. Onun digər xarakteristikası partiyaların qruplaşması sistemi (iki və ya çoxqütblü), partiya müxalifəti (parlament və qeyri parlament xarakterli), mərkəzdə və sol və sağ cinahda qruplaşma ilə şərtlənir.

Demokratik rejim nəinki hakimiyyətin yüksək təsisatlarının strukturunu (makro səviyyədə), eləcə də dövlət aparatının orta səviyyəsinin, idarələrin idarəetmə orqanlarının siyasi strukturunu müəyyənləşdirir. Amerika politoloqu **Q.Almond** bu əsasda demokratiyanın üç tipini fərqləndirir:

1) yüksək müstəqillik kəsb edən yarımsistem (partiyalar, həmkarlar, ittifaqlar, təzyiq qrupları və s.) (İngiltərə, ABŞ);

2) məhdudlaşdırılmış muxtariyyat (Fransa, İtaliya və s.);

3) kiçik muxtariyyat (məsələn, Meksika).

Demokratik strukturun və münasibətlərin mürəkkəbliyi cəmiyyətlə dövlətin, xalq və hakimiyyətin, onun strukturunun daha ümumi problemlərinin əks etdirilməsidir.

Cəmiyyətin demokratik siyasi təşkilində dövlətin funksiyası demokratiyanın qorunması və inkişafı zərurəti ilə müəyyən olunur. Bunun üçün hakimiyyət kifayət dərəcədə güclü olmalıdır. Lakin güclü hakimiyyət demokratik prosesin ayrı-ayrı mərhələlərində özünü müxtəlif tərzdə aparır və aparmalıdır da. Demokratiyanın möhkəmlənmədiyi şəraitdə, **demokratik cəmiyyətin təşəkkülü-nün ilk mərhələsində güclü hakimiyyət asanlıqla diktaturaya** (avtoritar və ya totalitar) çevrilir. Belə halda yeganə çıxış yolu siyasətə təsirli sosial nəzarət üçün cəmiyyətin idarəetmədə, hüquqi, iqtisadi, siyasi, ideoloji şərait yaradılmasında real iştirakıdır.

Demokratiya **bütöv ictimai hadisədir**. Müasir cəmiyyətdə demokratiya ümumi xarakter daşımırsa, əhalinin bir hissəsinə (siniflərə, təbəqələrə) şamil edilib, digərlərinə tətbiq olunmursa o,

əsl demokratiya deyildir. Demokratiya seçkili formada cəmiyyət həyatının yalnız bir sferasında, bir məsələdə tətbiq edilib digər sahələrə şamil olunmursa (məsələn, ictimai özünüidarəyə aid edilərək dövlət müəssisələrində həyata keçirilmirsə) dəyərli, qiymətli ola bilməz.

Cəmiyyət demokratiyanı öyrənir, lakin onun təlim gedişi kifayət qədər uzun tarixi prosesidir, onu rasional şəkildə və məqsədyönlü sürətləndirmək olar. Demokratiya şıltaqlıq, ictimai israfçılıq deyil, məhz labüd tarixi zərurətdir, cəmiyyətin yenidən təşkili, təkmilləşməsi üçün lazımdır. O, fəal, yaradıcı olmalı, pozitiv, vətəndaş, əxlaqi, ideoloji, siyasi inam və hissələri təcəssüm etdirməlidir.

Dünya təcrübəsinin mənimsənilib mənalandırılması belə bir cəhəti ifadə edir ki, demokratik prosesə daxil olan cəmiyyət **ən əvvəl** öz vətəndaşlarının və idarəetmə orqanlarının qanun qarşısında real bərabərliyini təmin etməlidir. **İkinci**, cəmiyyət və vətəndaşlar hüquqa zidd hərəkətlərdən müdafiə olunmalıdır. **Üçüncü**, demokratik formalar və birgəyaşayış normaları təkmilləşdirilməlidir. **Dördüncü**, formal elan olunmuş və real fəaliyyətdə olan ictimai münasibətlər, hüquq, idarəetmə uyğunlaşdırılmalıdır. **Beşinci**, insana hörmət, onda insani ləyaqət hissi və idarəetmənin bütün formalarına, həmvətənlərə əsl inam hissi tərbiyə edilməlidir. **Altıncı**, ayrı-ayrı ictimai qrupların və vətəndaşların kateqoriyalarının, idarələrin, hakimiyyət və dövlət orqanlarının imtiyazları aradan qaldırılmalıdır. **Yeddinci**, bütün mühüm daxili və xarici hadisə və proseslər haqqında məlumatlandırma ardıcıl surətdə və obyektiv şəkildə həyata keçirilməlidir. **Səkkizinci**, cəmiyyət mədəniyyət sferasında, yaradıcılıq sahəsində məcburi qəyyumluqdan (himayəçilikdən) əl çəkməlidir. **Doqquzuncu**, əhalinin yerli, dövlət və iqtisadi idarəetmə orqanları ilə daimi əlaqəsi təmin olunmalıdır. Bir sözlə, demokratiyanın inkişafı ictimai nəzarətin sosial funksiyası və ictimai tənqidlə şərtlənir. Belə şərtləndirmə isə bütövlükdə cəmiyyətin tərəqqisinin hərəkətverici qüvvəsi kimi səciyyələnir.

## 2. REFERENDUM BİRBAŞA DEMOKRATİYANIN XÜSUSİ FORMASIDIR.

Ayrı-ayrı ölkələrin siyasi nəzəriyyələri və praktikası nümayəndəli və birbaşa demokratiyanın ən müxtəlif formalarını və növlərini işləyib hazırlamışlar. Öz xarakterinə görə bir-birindən fərqlənən demokratiyanın müxtəlif növləri arasında siyasi demokratiya daha çox seçilir. Siyasi elmə dair və hüquqi ədəbiyyatda nümayəndəli demokratiyanın müxtəlif formalarına xeyli diqqət yetirilsə də birbaşa demokratiyanın formalarının açıqlanması kifayət dərəcədə deyildir. Başqa sözlə, kollektiv ərizələrin, yığıncaqların, toplanışların, ümumxalq sorğusunun, referendumun (xalqın rəyinin öyrənilməsinin) və s tədqiqinə az diqqət yetirilir. Birbaşa demokratiyanın bütün bu formalarını araşdırmağı qarşımıza məqsəd qoymamışıq, yalnız demokratiya sistemində referendumun mahiyyətini və metodoloji aspektini nəzərdən keçirəcəyik. Bu məsələ respublikamızda referendumun keçirilməsi ilə bağlı qanunun qəbul edilməsi baxımdan da xüsusi əhəmiyyət kəsb edir.

Demokratiya çərçivəsində referendum xalqın qlobal məsələlərin həllində bilavasitə iştirakının, eləcə də ərazi, digər dövlətdaxili və dövlətlərarası problemlərin həll olunmasının yeni forması deyildir. Xüsusi hüquqi ədəbiyyatda qeyd olunur ki, **bəşər tarixində ilk referendum 1439-cu ildə keçirilmişdir, onun "vətəni" isə İsveçrə hesab olunur.** Axırıncı yüzillikdə bu ölkədə müxtəlif səviyyələrdə xeyli referendum keçirilmişdir. Bunlardan yüzdən çoxu yalnız konstitusiya məsələsinə aiddir. Referendum eləcə də dəfələrlə Fransada, İtaliyada, Danimarkada, Norveçdə, İrlandiyada, Braziliyada, Uruqvayda və digər kapitalist ölkələrində və inkişaf etməkdə olan ölkələrdə keçirilmişdir. **Referendumlardan dünyada ən məşhuru** və beynəlxalq ictimaiyyətin diqqətini cəlb edən **1905-ci ildə Norveçdə keçirilən referendum** hesab olunur. Bu referendumun məqsədi Norveçin gələcəkdə İsveçlə ittifaqda qalıb-qalmamasını müəyyənləşdirməkdən ibarət idi. Norveçin həmin ittifaqdan çıxmasına dair ictimai rəy artıq təşəkkül tapmışdı. 1912-ci ildə İsveçrə konstitusiyasında belə bir müddəa təsbit olunmuşdu ki, 15 ildən

artıq müddətə beynəlxalq müqavilələr imzalamaq üçün ümumxalq referendumu keçirilsin.

Bəzi amerika politoloqlarının yazdığına görə XIX əsrin sonu XX əsrin əvvəllərindən başlayaraq (1898-ci ildən etibarən) referendum təsisatı ABŞ-ın bir sıra ştatlarında qanunvericiliklə təsbit olunmuşdur.

**Birinci dünya müharibəsindən sonra referendum təsisatı** bütöv bir sıra **Avropa dövlətlərinin konstitusiyasına** daxil olmuşdur. İkinci dünya müharibəsindən sonra və xüsusilə son dövrlər referendum təsisatından istifadə praktikası kapitalist ölkələrinin siyasi həyatında və hüquqi yaradıcılığında daha geniş yayılmışdır. Hər bir referendum öz mahiyyətinə görə və ictimai maraq kəsb etməsi baxımdan xüsusi hadisədir. Bəs birbaşa demokratiyanın bu formasının mahiyyəti nədən ibarətdir.

Dövlət idarəçiliyinin respublika və monarxiya formaları müxtəlif idarəetmə mexanizmlərinə malikdir. Onlardan biri məhz, referendum təsisatıdır. **Referendum latın dilində "nə barədəsə məlumat vermək"** mənasını ifadə edir. O, mühüm dövlət məsələləri və ictimai məsələlər üzrə xalqın iradəsini əks etdirir, ümumxalq səsverməsi kimi səciyyələnir.

Referendum ümumxalq səsverməsi yolu ilə cəmiyyət üçün ən mühüm problemlərin həllini nəzərdə tutur. Onun nəticələri yüksək hüquqi status kəsb edir və bütün dövlət orqanları tərəfindən mütləq mənada həyata keçirilməlidir. **Referendum dünyanın demokratik dövlətlərinin əksəriyyətində qanunvericilik mexanizmi kimi istifadə olunur** (xüsusilə yerli səviyyədə), lakin bütövlükdə parlamentin qanunvericilik fəaliyyətinə münasibətdə tabeli əhəmiyyətə malikdir.

Müxtəlif ölkələrdə referenduma təşəbbüs hüququ sahəsində mühüm fikir ayrılığı vardır. Bir qrup ölkələrdə (Böyük britaniya, İsveç, Norveç və s.) onun keçirilməsnin təşəbbüsçüsü məhz, parlament və hökumətdir, digərlərində (məsələn, Fransada) həm də prezidentdir, bəzi ölkələrdə isə (İsveçrə, Avstriya, İtaliya) bilavasitə xalqdır. İsveçrədə referendum keçirilməsinə nail olmaq üçün vətəndaşlar 50 min imza toplamalıdırlar. İmza toplamaqla referendum keçirilməsi digər ölkələrin siyasi praktikasında da mövcuddur. Qeyd edək ki, referendumun baş tutması üçün əhalinin

əksəriyyətinin iştirakı qəti şərt deyildir. Ümumxalq səsverməsi yalnız qanunların qəbul olunması üçün deyil, eləcə də onların ləğvi baxımdan istifadə edilir. Bir sıra ölkələrdə (Fransa, Avstraliya və b.) eləcə də Azərbaycanda birbaşa demokratiyanın bu forması konstitusiyaya düzəlişlər edilməsi üçün tətbiq olunur.

Əlbəttə, referendumun keçirilməsi (xüsusilə, ölkə miqyasında) kifayət qədər mürəkkəb və baha başa gələn işdir, lakin onun köməyilə xalq öz iradəsini bilavasitə ifadə etmək qabiliyyətini, təşəbbüskarlığını nümayiş etdirir. Bundan əlavə ümumxalq səsverməsini həyata keçirmək imkanları dövlət orqanlarını və hökuməti xalqın rəyi ilə hesablaşmağa daha çox istiqamətləndirir.

XX əsrin 50-ci illərindən etibarən sənaye cəhətdən yüksək inkişaf etmiş kapitalist ölkələrində referendumun daha da inkişafına və təkmilləşdirilməsinə güclü təkan verildi. Hazırda elə ölkə tapmaq çətindir ki, orada bu və ya digər dərəcədə referendum tətbiq olunmasın, ən azı isə o nəzərdən keçirilməsin. Demokratiya təsisatından intensiv surətdə istifadə olunması 60-80-cı illərdə xüsusilə yüksək səviyyə kəsb etdi.

Məsələn, ABŞ-ın qanunvericiliyində demək olar ki, hər bir ştat səviyyəsində (Delaver ştatından başqa) və yerli səviyyədə referendum keçirilməsi nəzərdə tutulmuşdur. Həmin ölkədə birbaşa demokratiyanın bu təsisatına müraciət hallarının sayı hər il 12 mindən 15 minə çatır. Qərbi avropa ölkələrində (İsveçrədən başqa) konstitusiyada təsbit olunmaqla yalnız milli səviyyədə keçirilən referendum hallarının sayı 100-dən artıqdır. Təkcə belə bir faktı qeyd etmək kifayətdir ki, referendumdan federal və ya ümummilli səviyyədə istifadə olunması baxımdan İsveçrə birinci yerdədir. Həmin ölkənin dövlətşünaslarının və hüquqşünaslarının hesablamalarına görə 1843-cü ildən başlayaraq İsveçrədə federal və ya ümummilli səviyyədə 240-dan çox referendum halları tətbiq olunmuşdur.

İngiltərənin Avropa iqtisadi birliyində qalmasına dair keçirilən referendum (1975-ci ildə) dünya ictimaiyyətinin diqqətini cəlb etmişdi, eləcə də 1979-cu ildə Şotlandiyada və Uelsdə keçirilən referendumda yerli muxtariyyatın genişləndirilməsi məsələsi nəzərdə tutulmuşdu.

1986-cı ildə İspaniyada bu ölkənin NATO-nun strukturunda iştirakına dair keçirilən ümummilli referendum böyük ictimai əks-səda doğurmuşdu. 1985-ci ildə neytral ölkə olmaq etibarilə İsveçrənin BMT-də təmsil olunmasına aid bu ölkədə keçirilən referendum da xüsusi maraq kəsb etmişdi və s.[1]

Dünya siyasi və dövlət hüquq nəzəriyyəsində və praktikasında referendum birmənalı şərh olunmur. Məsələn o, tez-tez ümumxalq sorğusu ilə eyniləşdirilir, eləcə də ümumxalq seçkilərindən fərqləndirilir.

Referendumla ümumxalq seçkiləri arasındakı fərqlərə etinasızlıq ən azı təəssüf doğurur. Yadda saxlamaq lazımdır ki, seçkilərin gedişində seçilməli şəxs və ya namizəd seçilir, referendum gedişində isə seçici nəzərdə tutulan sualı "hə" və ya "yox" sözləri ilə cavablandırır. İkincisi, əgər seçkilər bilavasitə nümayəndəli demokratiya ilə bağlıdırsa, referendum birbaşa və ya bilavasitə demokratiyanın təsisatı kimi səciyyələnir.

Lakin qeyd etdiyimiz və digər fərqlər tamamilə nisbi xarakter daşıyır, çünki həm seçkilərə həm də referenduma cəlb olunanlar eyni seçki korpusuna mənsub olanlardır, dəfələrlə eyni proseduralardan istifadə olunur, səslər eyni qaydada hesablanır. Nəhayət, çox vaxt referendumun və seçkilərin keçirilməsinin nəticələrinə görə eyni daxili və xarici siyasət müəyyənləşir. Təsadüfi deyil ki, xarici ölkələrin bəzilərinin qanunvericilik aktlarında referendum məhz, ümumxalq səsverməsi kimi səciyyələnir.

Ümumxalq referendumunda ölkənin siyasi həyatının ən mühüm məsələləri öz əksini tapır: konstitusiyanın qəbulu və ona düzəlişlər, dövlət quruluşu formalarının və ya idarəçilik formalarının dəyişdirilməsi, yeni qanunların qəbulu və ya fəaliyyətdə olan bir sıra qanunların ləğvi, ölkənin beynəlxalq təşkilatlara daxil olması, dövlətlər arası ittifaqlara qoşulmaq (bunlara aid yuxarıda bəzi misallar qeyd etmişik). Referendumun nəticələrinin əhəmiyyəti bundan ibarətdir ki, demokratik hökumətin praktikasında seçicilərin (xalqın) iradəsi ilə hesablaşmamaq mümkün deyildir. Seçkilərdən fərqli olaraq

---

[1] (Современное буржуазное государственное право. Отв. ред.Б.А. Туманов. М.1987. Səh.203-211)

referenduma hazırlıq görülərkən seçki dairələri yaradılmır və o qərar qəbul olunmuş hesab edilir ki, referendumda iştirak edən vətəndaşların əksəriyyəti onun lehinə səs vermiş olurlar. İsveçrə və ABŞ-da yerli səviyyədə referendumlar geniş yayılmışdır. Yerli referenrdumun gedişində ayrıca regionun və ya dairənin sakinləri müəyyən təkliflər verə bilirlər.

Şəhər büdcəsinə daxil olmaq üçün əlavə vergilərin tətbiqi, yeni mənzil sahəsinin salınması və ya əsas avtomobil yolu inşa etmək məqsədilə verilən təkliflər buna misal ola bilər.

Demokratik dövlətlərin siyasi praktikasında referendum əvəz olunmur, məhz nümayəndəli demokratiyanın mexanizmini tamamlayır. Müasir liberalizm XVIII əsrin radikal demokratiyasından başqa sözlə, birbaşa demokratiya ideyasının ardıcıl tərəfdarlarından fərqli olaraq referendumu kifayət qədər qiymətləndirmək qabiliyyətinə malik deyildir.

**Jan-Jak Russo** bildirirdi ki, xalqın bəyənmədiyi heç bir siyasi qərar, hər hansı qanun həqiqi gücə malik deyildir. Bu fikir mütəfəkkirin siyasi radikalizmini səciyyələndirən qiymətli cəhətlərdəndir. Təcrübə göstərir ki, birbaşa demokratiya təsisatı olmaq etibarilə referendumun qiymətləndirilməsinə birmənalı münasibət nəzərə çarpmır. Qərarların qəbul olunmasının bu üsulu zəif tərəflərə də malikdir: səsvermədə iştirak etməyənlərin sayının çoxluğu; qərarların çox vaxt cüzi əksəriyyətin səsverməsi ilə qəbul olunması; mövcud nöqteyi-nəzərin çalarları nəzərə alınmır; ictimai rəy tezliklə dəyişə bilər və belə halda referendumun nəticələri cəmiyyətin böyük hissəsinin əhval-ruhiyyəsinə cavab verə bilmir.

Referendumun xalqın iradəsini dəqiq ifadə etməsi üçün səsvermədə nəzərdə tutulan sual qabaqcadan geniş və hərtərəfli müzakirə olunmalıdır. O qərarı tamamilə qəbul edilmiş hesab etmək olar ki, ixtisaslı əksəriyyət səsvermədə iştirak edən vətəndaşların üçdə iki hissəsi tərəfindən müdafiə olunur. Əgər sabit əksəriyyət referendumda təklif olunmuş suala münasibət bildirməyə hazır deyildirsə belə halda onu yenidən müzakirə etmək zərurəti yaranır. Lakin bütün tələb olunan şərtlər əsasında keçirilən referendumun özünə də real xalq hakimiyyətinin ileal vasitəsi (üsulu) kimi baxmaq düzgün deyildir: bir tərəfdən,

referenduma hazırlıq görülərkən seçki dairələri yaradılmır və o qərar qəbul olunmuş hesab edilir ki, referendumda iştirak edən vətəndaşların əksəriyyəti onun lehinə səs vermiş olurlar. İsveçrə və ABŞ-da yerli səviyyədə referendumlar geniş yayılmışdır. Yerli referenrdumun gedişində ayrıca regionun və ya dairənin sakinləri müəyyən təkliflər verə bilirlər.

Şəhər büdcəsinə daxil olmaq üçün əlavə vergilərin tətbiqi, yeni mənzil sahəsinin salınması və ya əsas avtomobil yolu inşa etmək məqsədilə verilən təkliflər buna misal ola bilər.

Demokratik dövlətlərin siyasi praktikasında referendum əvəz olunmur, məhz nümayəndəli demokratiyanın mexanizmini tamamlayır. Müasir liberalizm XVIII əsrin radikal demokratiyasından başqa sözlə, birbaşa demokratiya ideyasının ardıcıl tərəfdarlarından fərqli olaraq referendumu kifayət qədər qiymətləndirmək qabiliyyətinə malik deyildir.

**Jan-Jak Russo** bildirirdi ki, xalqın bəyənmədiyi heç bir siyasi qərar, hər hansı qanun həqiqi gücə malik deyildir. Bu fikir mütəfəkkirin siyasi radikalizmini səciyyələndirən qiymətli cəhətlərdəndir. Təcrübə göstərir ki, birbaşa demokratiya təsisatı olmaq etibarilə referendumun qiymətləndirilməsinə birmənalı münasibət nəzərə çarpmır. Qərarların qəbul olunmasının bu üsulu zəif tərəflərə də malikdir: səsvermədə iştirak etməyənlərin sayının çoxluğu; qərarların çox vaxt cüzi əksəriyyətin səsverməsi ilə qəbul olunması; mövcud nöqteyi-nəzərin çalarları nəzərə alınmır; ictimai rəy tezliklə dəyişə bilər və belə halda referendumun nəticələri cəmiyyətin böyük hissəsinin əhval-ruhiyyəsinə cavab verə bilmir.

Referendumun xalqın iradəsini dəqiq ifadə etməsi üçün səsvermədə nəzərdə tutulan sual qabaqcadan geniş və hərtərəfli müzakirə olunmalıdır. O qərarı tamamilə qəbul edilmiş hesab etmək olar ki, ixtisaslı əksəriyyət səsvermədə iştirak edən vətəndaşların üçdə iki hissəsi tərəfindən müdafiə olunur. Əgər sabit əksəriyyət referendumda təklif olunmuş suala münasibət bildirməyə hazır deyildirsə belə halda onu yenidən müzakirə etmək zərurəti yaranır. Lakin bütün tələb olunan şərtlər əsasında keçirilən referendumun özünə də real xalq hakimiyyətinin ideal vasitəsi (üsulu) kimi baxmaq düzgün deyildir: bir tərəfdən,

zamanı nəzərdə tutulan (arzu olunan) nəticəni təmin etmək üçün ən geniş siyasi vasitələrdən istifadə olunur: Təbliğat prosesində dini simvollar və millətçi şüarlar nümayiş etdirilir, müxalifətin siyasi fəaliyyəti faktiki olaraq qadağan edilir. Hər hansı ölkədə referendum mütərəqqi sosial qüvvələrin və siniflərin mənafeyi nöqteyi-nəzərdən o halda siyasi və ideoloji səmərə kəsb edər ki, əhalinin geniş təbəqələri tərəfindən düzgün başa düşülsün və bəyənilsin, eləcə də siyasi məsələləri həll edərkən humanist amalları öz məqsədinə çevirsin. Referendumun təsirli olması üçün onun statusunun, keçirilməsi prosedurlarının (qaydalarının), nəticələrinin düzgün çatdırılmasının qanunvericilikdə yeri və rolu mühüm əhəmiyyətə malikdir.

Təsadüfi deyildir ki, hazırki şəraitdə referendum təsisatı inkişaf etmiş qərb ölkələrinin xeyli hissəsində (20-dən artıq) AFR-da, Fransada, ABŞ-da, Danimarkada, İtaliyada, İspaniyada, Norveçdə, İsveçdə, İsveçrədə və digər ölkələrin konstitusiyalarında, dekretlərdə (ali hökumət orqanının qərarlarında) və digər normativ-hüquqi aktlarda (sənədlərdə) qanunvericiliklə təsbit olunmuş və möhkəmləndirilmişdir.

## 3. PLYURALİST DEMOKRATİYA KONSEPSİYALARI.

"Demokratiya" anlayışı barədə yürütdüyümüz mülahizələr plyuralist demokratiya konsepsiyasının mahiyyətini düzgün anlamağa xidmət edir. Plyuralist demokratiya konsepsiyası ümumi şəkildə belə bir müddəadan çıxış edir ki, dövlət məhz, hakimiyyətin həyata keçirilməsində iştirak edən çoxlu təşkilatların və ya muxtar qrupların mövcudluğu şəraitində mümkündür. Əgər "ümumi rifah dövləti" doktrinası əsasən müasir dövlətin iqtisadi və sosial fəaliyyətinə diqqət yetirirsə, "plyuralist demokratiya" nəzəriyyəsi (Plyuralist demokratiya termini həm də siyasi demokratiyanın sinonimi kimi işlədilir) başlıca olaraq siyasi hakimiyyətin burjua-demokratik sistemini araşdırır. Plyuralist və ya siyasi plyuralizm ideyalarının təşəkkülü yetkin kapitalizm

cəmiyyətinin sosial strukturunun mürəkkəbləşməsi, sənaye cəhətdən inkişaf etmiş ölkələrdə çoxpartiyalı sistemin formalaşması ilə bağlı olmuşdur.

Qeyd edək ki, liberal-demokratik siyasi sistem cəmiyyətdə çoxsaylı sosial qrupların və təbəqələrin dini, peşə və gənclər assosiasiyalarının mövcudluğu ilə səciyyələnir. Bununla yanaşı liberal-demokratik sistemdə öz mənafeyini qarşılıqlı münaqişələrlə, bir-biri ilə toqquşmalar və əməkdaşlıq şəraitində müdafiə edən müxtəlif klublara və qruplara da təsadüf olunur. Belə vəziyyət "sosial plyuralizm" adlanır. Siyasi sferada plyuralizm isə çoxlu partiyaların və siyasi təsisatların, müxtəlif ideya-siyasi istiqamətlərin, cərəyanların və sairənin mövcudluğu ilə təzahür edir. Bu vəziyyət isə "siyasi plyuralizm" kimi səciyyələnir.[1] Sosial plyuralizm siyasi plyuralizmi müdafiə edir və stimullaşdırır. Eləcə də siyasi plyuralizm soail plyuralizm mövqeyindən çıxış edir. Siyasətdə plyuralizm başlıca partiyaların və təşkilatların qarşılıqlı fəaliyyətinə və qarşı durmasına əsaslanan hakimiyyət sistemidir.

**Plyuralist demokratiya konsepsiyasının nümayəndələri olan H.Laski, M. Dyuverje, R. Darendorf, R. Allen, R. Dal** və başqaları iddia edirlər ki, müasir kapitalizm cəmiyyətində antaqonist siniflər istər-istəməz aradan qalxmışdır, onların əvəzində bu və ya digər mənafelərin ümumiliyi nəticəsində təşəkkül tapan, qarşılıqlı fəaliyyətdə olan müxtəlif təbəqələr ("stratlar") mövcuddur (peşə və maddi vəziyyəti, yaşı, dini, etiqadı və s. ilə səciyyələnən). Bu mənafelər antaqonist mahiyyət daşımır, onlar tamamilə barışan (aqonist) təbiət kəsb edir. həmin mənafelərin üzə çıxarılması, ifadəsi və həyata keçirilməsi üçün müvafiq "maraq qrupları" və ya təzyiq qrupları yaradılır: sahibkarlar assosiasiyası, peşə ittifaqları (fəhlələr, həkimlər, müəllimlər və b.), dini birliklər, **pasifist** (pasifist-susdurma, sakitləşdirmə mənasını ifadə edir) və vətənvərvər təşkilatlar, mədəniyyət və idman cəmiyyətləri və s. Bunların hamısı öz mənafelərini siyasi hakimiyyətə təsir, "təzyiq" vasitəsilə həyata keçirməyə cəhd edirlər. Təzyiq qrupları demokratik cəmiyyətdə

---

[1] Məcid Əfəndiyev. Siyasi elmin problemləri. Bakı, 1998, Səh.411-412

öz mənafelərini azad surətdə ifadə edir, ümumi seçki hüququndan, siyasi partiyalarda və müxtəlif ictimai təşkilatlarda birləşmək hüququndan, istifadə edərək siyasi həyata açıq şəkildə cəlb olunur, müvafiq ictimai rəyin formalaşdırılması üçün müasir informasiya vasitələrinə (radio, mətbuat, televiziya) nüfuz edə bilirlər.

**Siyasətdə plyuralist görüşlərin başlanğıcını reformist sosializmin ideoloqları qoymuşlar.** Onlar sosial birliklərin çoxluğuna cəmiyyətin qeyri-imtiyazlı təbəqələrinin, ilk növbədə isə fəhlələrin mənafelərinin müdafiə olunması baxımdan yanaşırdılar. Fəhlələr və digər az imtiyazlı təbəqələr parlament demokratiyası şəraitində yüksək dövlət orqanlarının siyasətinə real təsir göstərmək imkanından məhrum olurlar.

Plyuralist demokratiya ideyasını geniş şəkildə Böyük Britaniyanın Leyboristlər partiyasının görkəmli xadimi və nəzəriyyəçisi **Harold Laski** (1893-1950-ci illər) əsaslandırmışdır. O, dövlətin plyuralist nəzəriyyəsi və siyasi plyuralizm anlayışlarının mahiyyətini dəqiq şəkildə və dürüst açıqlamışdır. Laskinin həmin anlayışlara dair fikirləri siyasi plyuralizm tərəfdarları tərəfindən düzgün başa düşülmüş və qiymətləndirilmişdir. Heç də təsadüfi deyil ki, həmin nəzəriyyəçinin görüşləri hazırda siyasi plyuralizm adlandırılır.

Laskinin təliminə görə dövlətin müasir tipini Reformasiya dövrü doğurmuşdur. Həmin vaxt dünyəvi idarə edənlər kilsə üzərində qalib gələrək bütün hakimiyyəti öz əllərində cəmləşdirmişlər. Sonralar kapitalizmin möhkəmlənməsi ilə bağlı dövlət hakimiyyəti bürokratlaşır və mərkəzləşmiş iyerarxiyalı idarəetməyə çevrilərək xüsusi mülkiyyətin mənafeyini şərtləndirir. Laski belə idarəetmə formasını **monist dövlət** adlandırır. Nümayəndəli təsisatlar (parlament və yerli özünüidarə orqanları) prinsipial dəyişikliklərə səbəb olur, çünki onlar mülkiyyət sahiblərini müdafiə edən təsisatların vahid sisteminə daxildirlər. Laski yazırdı ki, parlament demokratiyası ölkələrində fəhlələrin seçki hüququ rəsmi, formal xarakter daşıyır. "Vətəndaşlar səmərəli fəaliyyət göstərən mərkəzləşdirilmiş hakimiyyətin şəxsləri qarşısında gücsüzdür. Laski buradan belə bir ümumi nəticə çıxarır: "Kapitalizm azadlıqla bir yerə sığmır".

Bu nəzəriyyəçi **azadlığın bərqərar olmasını** yeni ictimai **quruluşla-sənaye demokratiyası** ilə əlaqələndirir. Gələcək cəmiyyətin mənzərəsini təsvir edərək, Laski belə bir müddəadan çıxış edir ki, həmin cəmiyyətdə xüsusi mülkiyyət saxlanılacaq, lakin istehsalın idarə olunması funksiyası zəhmətkeşlər kollektivinə veriləcək. Hakimiyyətin mərkəzləşdirilmiş təşkilini "plyuralist dövlət" əvəz edəcək. Burada ərazi prinsipi üzrə yaradılan təsisatlar sistemini peşə mənafeləri nümayəndəliyi orqanları tamamlayacaq. Başqa sözlə, istehsal assosiasiyaları (məsələn, dəmiryol korporasiyası), həmkarlar ittifaqları, mədəniyyət və təhsil xadimləri birlikləri, müstəqil kilsələr fəaliyyət göstərəcək. Eləcə də hakimiyyət müxtəlif sosial mənafeləri təmsil edən çoxsaylı birliklərdə yayılacaq. Hakimiyyət mərkəzləri sayının artması cəmiyyətin federativ təbiətini, differensasiyalı sosial strukturunu əks etdirəcək.

Plyuralist demokratiyaya görə belə şəraitdə siyasi qərarların qəbulu müxtəlif qrupların qarşılıqlı fəaliyyətinin, "azad oyunlarının" və rəqabətinin nəticəsidir. Guya siyasi hakimiyyət hökumət və qeyri-hökukmət təsisatları arasında parçalanacaq. h.Laski iddia edir ki, müxtəlif ictimai təşkilatlar, eləcə də zəhmətkeşlər hakimiyyəti bölüşdürəcək. Beləliklə, xeyli dövlət və qeyri-dövlət xarakterli təsisatlar arasında müstəqillik "diffuziyası" (qarışığı) baş verəcək. "Plyuralist demokratiya", "siyasi plyuralizm" anlayışları da məhz, buradan irəli gəlir. Bu konsepsiyanın tərəfdarları bildirirlər ki, plyuralizm vasitəsilə siyasi hakimiyyət əsl mənada ümumxalq xarakteri daşıyacaq. Həmin halda dövlət yalnız müxtəlif qrupların mənafelərinin razılaşdırılması vasitəsi kimi çıxış edəcək. Plyuralizm ideoloqları belə qənaətə gəlirlər ki, plyuralist cəmiyyətdə dövlət har hansı sinfin deyil, bütün siniflərin və təbəqələrin mənafeyini ifadə edir. Qeyd edək ki, neoliberal doktrinalarda siyasi plyuralizm digər nöqteyi-nəzərdən araşdırılır. Bu mənada ən ilk konsepsiyalar kimi Fransada **M.Oriunun** institutsionalizm, ABŞ-da **A.Bentlinin** təzyiq qrupları nəzəriyyələri diqqəti cəlb edir.

həmin nəzəriyyələrdə dövlətin fəal iqtisadi siyasət yeritməsi çağırışı nəzərə çarpır və qeyd edilir ki, o, rejimi ayrı-ayrı sahibkarlara "daha çox kömək etməyə" istiqamətləndirməlidir.

Neoliberallar xüsusi mənafelərin siyasi cəhətdən təmin olunmasına, muxtar sosial təsisatların vasitəsilə dövlətin bitərəfləşdirilməsinə böyük üstünlük verirlər.

Moris Oriu (1856-1929-cu illər) institutsionalizm (İnstitutsionalizm-təsisatlaşma mənasında) nəzəriyyəsinin banisi sayılır. Tuluz universitetinin professoru və hüquq fakültəsinin dekanı olan Orionun əsərləri sosiologiya və hüquq elmləri tarixində əhəmiyyətli iz buraxmışdır. Bu Fransız hüquqşünası cəmiyyətə çoxsaylı təsisatların məcmuu kimi baxır. O, yazırdı: "Sosial mexanizm özündə adamları birləşdirən təşkilatlardan və təsisatlardan ibarətdir, eləcə də bu fərdlərə xidmət edən və onların enerjisindən hasil olan ideyaları, idealları, prinsipləri özündə təcəssüm etdirir". Əgər ilk başlanğıcda bu və ya digər adamlar dairəsi birgə fəaliyyət üçün birləşərək təşkilat yaradırsa, fərdlərin ona daxil olduğu andan və birliyi şüurlu dərk etdikdən sonra artıq təşkilat təsisata çevrilir.[1] Oriu təsisatın fərqləndirici əlamətini məhz, istiqamətverici ideyadan ibarət hesab edirdi.

Oriu təsisatı hüquqi vasitələrlə həyata keçirilən iş və ya müəssisə ideyası kimi müəyyənləşdirirdi. Məsələn, kommersiya müəssisəsi gəlir alveri ideyası, hərbi xəstəxana şəfqət ideyası əsasında təşkil olunmuşdur.

Oriu qeyd edirdi ki, dövlət vətəndaş cəmiyyətinin milləti himayə etməsi ideyasını reallaşdırır, fərdin azadlığı sferası olan xüsusi mülkiyyətin müdafiəsini həyata keçirir. Yarandığı vaxtdan təsisatlar sabit xarakter kəsb edir və bir qayda olaraq onları yaradan şəxslərdən daha çox yaşayır. Oriu təsisatların iki tipini fərqləndirir: korporativ (ticarət şirkətləri, assosiasiyalar, dövlət, həmkarlar ittifaqı, kilsə) və mülkiyyət (hüququ normalar). O, hər iki tipi sosial münasibətlərin özünəməxsus ideal modeli kimi səciyyələndirir. Onların arasındakı fərq belə açıqlanır: birinci tip (növ) sosial kollektivlərin tərkibinə daxildir, ikinci tip xüsusi təşkilata malik deyildir və hər hansı birlik çərçivəsində tətbiq oluna bilər.

Oriunun nəzəriyyəsində başlıca diqqət **korporativ təsisatlara** yetirilir. Muxtar birlik olmaq etibarilə onlar ümumi

---

[1] Sosial təsisat barədə dolğun təsəvvürə malik olmaq üçün bax: Məcid Əfəndiyev, Azər Şirinov. Sosiologiyanın nəzəri problemləri, Bakı, 2001, səh.200-221

cəhətlərə malikdirlər: müəyyən istiqamətverici ideyalar, hakimiyyətin təşkili və daxili qaydaları tənzimləyən normaların məcmuu. Oriu qeyd edir ki, "hüquq və qayda yaradılması vasitəsilə adamlar qrupunun idarə olunmasının həyata keçirilməsi tələb edir ki, idarə edənin özü hüququ yaratmalıdır". Onun doktrinasında hakimiyyət anlayışı, idarəetmə, hüquq bütün korporativ təsisatlara aid edilir. Sosial formalaşma isə bir-birinə bərabər tutulur, eyni qaydaya xas olan hadisə kimi təsvir olunur.

Plyuralizm konsepsiyasını idarəetmənin sosiallaşması və istehsal üzərində fəhlə nəzarəti ideyası ilə tamamlayan Laskidən fərqli olaraq Oriu korporativ təsisatları kapitalizm quruluşunun möhkəmləndirilməsi baxımdan nəzərdən keçirir. Təsisat nəzəriyyəsi sabit tarazlıq vəziyyətində bazar iqtisadiyyatını müdafiə etməyə istiqamətlənir.

Oriu fərdlərin fəaliyyətinin qrupların səylərinə zidd olması zərurətini bununla izah edir ki, xüsusi sahibkarlıq kapital yığımına cəhd edir və iqtisadi hakimiyyəti öz əlində mərkəzləşdirir. O, belə hesab edirdi ki, azad sahibkarlıq fəaliyyəti cəmiyyətdə tarazlığın pozulmasına gətirib çıxarır. Neoliberalizmin digər nümayəndələri kimi Oriu da sübut edirdi ki, "dövlətin qarışmasını qəbul etmək zərurəti qaydanı müdafiə etmək məqsədilə siyasi qarışmaqdır və bu, dövləti iqtisadi birliyə çevirmək iddiası deyildir" (iqtisadiyyatın milliləşdirilməsinə dair kommunist layihəsi nəzərdə tutulur).

Oriunun konsepsiyasına görə dövlət açıq şəkildə liberal qaydalara xidmət etməlidir. Onun vəzifəsi ümummilli təsisatları müdafiə etməklə cəmiyyətin iqtisadi həyatını istiqamətləndirməkdən və buna nəzarət etməkdən ibarətdir. "Dövlət millətin hüquqi şəxsləşdirilməsi olub nizama salınmış və tarazlaşdırılmış rejimi formalaşdırır".

Oriu dövlətlə digər sosial təsisatların nisbəti məsələsini "bərabərlər arasında birinci" formulu üzrə həll edir. O, yazırdı ki, "dövlətə suverenlik kimi yox, təsisatlar təsisatı kimi baxmaq" vaxtı gəlib çatmışdır.

Oriunun nəzəriyyəsində siyasi plyuralizm ideyası dəqiq formula edilməsi ilə fərqlənmir. Bununla belə onun cəmiyyətin və dövlətin tədqiqinə təsisatlı mövqedən yanaşması **J.Burdo,**

**M.Dyuverje** və digər xeyli fransız politoloqlarının plyuralist demokratiya konsepsiyalarının təşəkkülünün əsasını təşkil etmişdir.

**XX əsrin ortalarında təsisat konsepsiyası Fransa politologiyasında hakim mövqeyə malik** olmuşdur. 40-cı illərin axırlarından etibarən siyasi plyuralizm nəzəriyyəsinin ideya məzmunu əhəmiyyətli dərəcədə genişləndi. Bu nəzəriyyədə totalitar (faşist və kommunist) rejimlərinin tənqidinə ciddi diqqəq yetirildi. Bununla əlaqədar liberal demokratiya çoxpartiyalı siyasi sistemin üstünlüyünü qeyd etdi, ideya və dünyagörüşü plyuralizminin müdafiə olunmasının əsaslandırılması gücləndi.

Plyuralist demokratiya nəzəriyyəsinin daha da inkişafı siyasi sistemdə müxtəlif sosial təşkilin yeri və rolunun dəqiqləşdirilməsi ilə bağlıdır. Politoloqlar indiyə qədər partiyaların təsnifatı problemini, onların kütləvi təşkilatları və təzyiq qrupları ilə fərqi xüsusiyyətlərini fəal müzakirə edirlər.

XX əsrin sonuncu onilliklərində qərb politoloqları plyuralizm prinsiplərini hakimiyyətin icraedici qolunda yaymağa başlayırlar. 80-cı illərdə çap olunan bir sıra tədqiqat işlərində plyuralizm çoxpartiyalı zəmində nəinki dövlətin nümayəndəli orqanlarının, eləcə də nümayəndəli təsisatların təşkilini tələb edir. Bu nöqteyi-nəzərin tərəfdarları inanırlar ki, ardıcıl plyuralist demokratiya müxtəlif siyasi partiyaların, o cümlədən bir-birinə qarşı müxalifətdə olan partiyaların iştirakı ilə koalisiyalı hökumətin yaradılmasını nəzərdə tutur.

# XII FƏSİL

## DÖVLƏT BAŞLICA SİYASİ TƏSİSATDIR

### 1. DÖVLƏTİN MƏNŞƏYİ, MAHİYYƏTİ VƏ TƏŞƏKKÜL MƏRHƏLƏLƏRİ

Dövlət xüsusi siyasi tə'sisat olmaqla cəmiyyətin siyasi sisteminin özəyini təşkil edir. O, siyasi sistemin bütün əlamətlərini və funksiyalarını özündə birləşdirir. Dövlət digər sosial tə'sisatlardan keyfiyyətcə fərqlənir. Onun xüsusiyyətləri başqa tə'sisatlarla, ilk növbədə vətəndaş cəmiyyəti ilə müqayisədə üzə çıxır.

Dövlət mürəkkəb sosial fenomen olduğuna görə onun mənşəyi və mahiyyəti barədə təsəvvürlər də bir'mənalı deyil, ziddiyyətlidir. Qərb tədqiqatçıları dövlət probleminin öyrənilməsinə xeyli elmi iş həsr etmişlər. Nəticədə dövlətin mahiyyəti politoloji səpgidə belə bir ümumi tə'riflə səciyyələndirilmişdir:

**Dövlət siyasi birlik olmaq e'tibarilə müəyyən struktura malik olan, siyasi hakimiyyətin müəyyən təşkili ilə səciyyələnən və müəyyən ərazidə sosial proseslərin tənzimlənməsini tə'min edən xüsusi tə'sisatdır.**

Dövlətin mahiyyəti barədə müasir mülahizələr iki istiqamət kəsb edir. Birinci istiqamət siyasi fikir tarixində mövcud olan klassik ən'ənələrə, təsəvvürlərə (Aristotelin, Hobbsun və Russonun ideyalarına) əsaslanır. Belə halda dövlət cəmiyyətin, onun siyasi varlığının təşkilinin zəruri forması kimi nəzərdən keçirilir. Əlbəttə, bu cür təsəvvürlərdə dövlət cəmiyyətin özü ilə eyniləşdirilir. İkinci istiqamət isə dövlətin tə'sisatlaşmış tərəfinə xüsusi diqqət yetirilməsilə səciyyələnir. Belə mülahizələrə görə dövlət başlıca olaraq normalar sistemidir və onun məzmunu isə cəmiyyətdə adamların davranışını müəyyən etməkdən ibarətdir. İspan politoloqu **L.S.Sanisteban** yazır: "Dövlət əslində konkret məkan-zaman şəraitində sosial davranışı hüquqi tənzimləmənin

müəyyən tipidir[1]. Rus dövlətşünas alimi **İlinin** nöqteyi-nəzəri də həmin ispan tədqiqatçısının mövqeyinə yaxındır. İlinə görə, dövlət adamların hüquqi əsaslarla təşkil edilən ittifaqıdır, o, həmişə canlı funksiyanın, şəxsi hüquqi şüurun canlı surətdə yaradılan təzahürüdür[2].

Dövlətin mənşəyi və mahiyyətinin yuxarıda qeyd etdiyimiz iki istiqamətli mülahizələr fonunda təhlilinə keçirik.

Hakimiyyət münasibətləri bu və ya digər formada cəmiyyət həyatının bütün sferalarına - mə'nəvi, istehsal, ailə və digər ictimai sferalara xasdır. Siyasi hakimiyyət isə cəmiyyətin siyasi sistemini əmələ gətirən xüsusi tə'sisatlar vasitəsilə həyata keçirilir. Həmin tə'sisatlar içərisində dövlət mərkəzi yer tutur.

Xeyli yüzilliklər ərzində dövlət tə'sisatlarının inkişafı ilə yanaşı dövlət, onun rolu, funksiyaları və ən yaxşı siyasi quruluş formaları barədə təsəvvürlər də dəyişilmişdir. Antik dövrün mütəfəkkirləri dövlətin meydana gəlməsinə adamların birgə-yaşayış qaydalarının inkişafının və mürəkkəbləşməsinin təbii prosesi kimi diqqət yetirmişlər. **Aristotel** belə güman edirdi ki, ilk başlanğıcda adamlar ailədə birləşir, sonra bir neçə ailə kənd şəklində təşkil olunur və bu prosesin başa çatdığı mərhələdə vətəndaşların birgəyaşayış forması kimi dövlət yaranır, vətəndaşlar mövcud siyasi quruluşdan istifadə etməklə qanunun hakimiyyətinə tabe olurlar. **Aristotel** yazırdı:Bir neçə kənddən ibarət olan cəmiyyət başa çatmış, tamamilə müstəqil olan və həyatın tələbləri naminə yaranan dövlətdir. Bu dövlət həm də həyatın rifahının təntənəsi üçün mövcuddur. Buradan belə qənaətə gəlmək olar ki, ilk ünsiyyət kimi hər cür dövlət də təbii yaranmanın məhsuludur. Aristotelin təsəvvürünə görə insan öz təbiəti e'tibarilə siyasi varlıqdır. O, "Siyasət adlı əsərində yazırdı: Təbiət bütün adamlara dövlət ünsiyyətinə can atmağı bəxş edib. Bu ünsiyyəti kim birinci təşkil etsə bəşəriyyətə səadət gətirmiş olar. Hər şeyi başa düşən insan mövcud canlılardan ən kamilidir, əksinə qanun və hüquqdan kənarda yaşayan insan isə hər şeydən

---

[1] Санистебан Л.С. Основы политической науки (перевод с испанского). М., 1992, Səh.22.

[2] Ильин И.А. О монархии и республике. Вопросы философии. 1991 № 5. Səh.129.

daha pisdir. Ədalət anlayışı dövlət haqqında təsəvvürlərlə bağlıdır. Buna görə ədalətliliyin me'yarı olan hüquq siyasi ünsiyyəti tənzimləyən normadır.

Antik filosofların görüşlərində dövlətin - polisin siyasi həyatının reallığı əks olunmuşdur. Ümumiyyətlə, ilk əvvəllər dövlət vətəndaş cəmiyyəti ilə eyniləşdirilir. Sonralar isə yüksək İlahi varlığa tabe olan və insanın allahla münasibətləri sahəsinə müdaxilə etməyən yer üzündəki hakimiyyət tə'sisatı kimi nəzərdən keçirilir. Nəhayət, siyasətin kilsə hakimiyyətindən azad olması ilə dövlət hakimiyyətini məhdudlaşdıran və onun üçün məcburi olan normaların mövcudluğu e'tiraf olundu.

Müasir formada olan dövlət uzun tarixi inkişafın nəticəsidir. Tarix elminə mə'lum olan ən qədim dövlət eramızdan əvvəl VI-III minillikdə Mesopotamiyada (köhnə dünyada) Nil və İnd vadilərində qərarlaşmışdır, Yeni dünyada isə bizim eradan əvvəl I minillikdə Meksikanın cənubunda bərqərar olmuşdur. Ümumiyyətlə, cəmiyyətin inkişafının müəyyən mərhələsində dövlət təşkilatına keçid tədqiqatçılar tərəfindən qədim dövrdəki sivilizasiyanın təzahürü kimi qiymətləndirilir.

Antik dövrdə dövlətin təşəkkülünü bir sıra sosial amillərlə, xüsusilə ictimai əmək bölgüsü ilə əlaqələndirən mütəfəkkirlərə də təsadüf olunur. Bu baxımdan böyük filosof **Platonun** görüşləri təqdirəlayiqdir. Dövlətin yaranmasında xüsusi mülkiyyətin roluna mühüm əhəmiyyət verən Platon onun meydana gəlməsini ictimai əmək bölgüsünün inkişafı və cəmiyyətdə müxtəlif zümrələrin (əhali qruplarının) təzahürü ilə əlaqələndirirdi. Dövlətin yaranmasına və mahiyyətinə dair teoloji[1], patriarxal, ictimai müqavilə, təbii hüquq nəzəriyyələri və marksist konsepsiya maraq doğurur. Elmi ədəbiyyatda dövlətin yaranmasına tə'sir göstərən bir sıra amillərin roluna ciddi əhəmiyyət verilir. Bunların sırasında bir millətin digər milləti əsarət altına almasına (**F.Oppenheymer, L.Qumploviç** və digərləri), demoqrafik səbəblərə, psixoloji, antropoloji[2] və digər amillərə daha çox üstünlük verilir.

Dövlətin inkişafı iki qlobal mərhələyə- **ən'ənəvi** və **konstitusiyalı** mərhələlərə ayrılır. Ən'ənəvi dövlət adət və

---

[1] Teologiya dini tə'limlərin sistemləşdirilmiş şərhi mə'nasını ifadə edir.
[2] Antropotoloci dedikdə-dövlətə meyl etməyin insanın ijtimai təbiətinə xas olması başa düşülür.

normalar əsasında kortəbii yolla yaranır. Bu, vətəndaşlar (təbəələr) üzərində tə'sisatlı qeyri-məhdud hakimiyyət olub bütün adamların bərabərhüquqlu olmasını inkar edir, şəxsiyyəti dövlət hakimiyyətinin mənbəyi kimi e'tiraf etmir. Ən'ənəvi dövlətin tipik nümunəsi monarxiyadır.

Konstitusiyalı dövlət insanları şüurlu idarəetmənin, tənzimləmənin obyektidir. O, insanın həyat fəaliyyətinin bütün sferalarına tənzimləyici tə'sir göstərir. Bütövlükdə dövlətin inkişafında konstitusiyalı mərhələ onun cəmiyyətə və vətəndaşlara tabe olması ilə bağlıdır. Bir sözlə, konstitusiyalı dövlət konstitusiyanın təzahürü ilə əlaqədardır.

Orta əsrlərdə dövlətin mənşəyinə və mahiyyətinə dair təsəvvürlər daha da təkmilləşir və zənginləşir. Avropada burjua inqilabları dövründə dövlət və hüquq məsələlərinə dünyəvi mövqedən münasibət xeyli gücləndi. Mütləqiyyətə və kilsəyə qarşı mübarizədə burjua ideoloqları dövlət və hüquqla bağlı bütün məsələlərin dindən ayrılmasına ciddi sə'y göstərirdilər. Burjua siyasi-hüquqi şüurunun mərkəzi ideyası kimi insanın "təbii hüququ məsələsi xüsusi aktuallıq kəsb etdi.

Bu nəzəriyyəyə görə dövlət və hüquq allah tərəfindən deyil, insan zəkasının qanunlarına uyğun olaraq insanların əsrlər boyu əldə etdiyi təcrübə prosesində ictimai müqavilə əsasında meydana gəlmişdir. Adamların təbiəti ilə şərtlənən insan zəkasının tələbləri "təbii hüququn yaranmasına gətirib çıxarır. Bu hüquq isə dövlət tərəfindən müəyyən edilən qanunlara uyğunlaşdırılmalıdır. Əlbəttə, XVII əsrdə həmin ideya özlüyündə yenilik kimi qiymətləndirilməsə də onun konkret məzmunu keyfiyyətcə yeni çalarlara malik idi. Belə ki, "təbii hüquq ideyasını irəli sürənlər zəka ilə şərtlənən və insanlara təbiətən xas olan müəyyən keyfiyyətləri nəzərdə tuturdular. Məsələn, onlar insanın öz əqidəsində və hərəkətlərində azad olmasını, mülkiyyətə yiyələnmək hüququnu, hamının bərabərliyini, özbaşınalığa qarşı tə'minat yaradılmasını xüsusilə qeyd edirdilər. Təbii hüquq ideyası inkişaf etdirilərək "ictimai müqavilə konsepsiyası ilə tamamlanır.[1]

---

[1] История политических и правовых учений. Səh.198-200.

Bu konsepsiyaya görə bütün sosial dünyanın başlanğıc ünsürü müstəqil surətdə mövcud olan fərdlərdir. Fərdlərin məcmuu öz "təbii hüquqları ilə sivilizasiyanın başlanğıcında cəmiyyəti "təbii vəziyyətində təşkil etmişlər. Sonralar gələcəkdə yarana biləcək narahatlıqdan, təhlükədən və münaqişələrdən xilas olmaq üçün adamlar "təbii vəziyyətdən çıxmaq və vətəndaş vəziyyətində yaşamaq qərarına gəlirlər. Bu məqsədlə onlar öz aralarında müqavilə bağlayır və beləliklə dövlət yaradılır.

"İctimai müqavilə konsepsiyası sayəsində dövlətin suverenliyinin əsl subyekti barədə əvvəlki görüşlər qəti şəkildə dəyişdi. Həmin konsepsiya dövlət tərəfindən fərdlərin və cəmiyyətin həyatına məqsədyönlü müdaxilə edilməsində, hakimiyyəti idarə edənlərlə hakimiyyətə tabe olanlar arasında münasibətlərin düzgün təşkilinə imkan yaratdı.

Təbii hüquq nəzəriyyəsinin ilk görkəmli nümayəndəsi Niderland burjua inqilabının ideoloqu **Hüqo Qrotsi** (1583-1645-ci illər) olmuşdur. O, Fransada mühacirətdə olarkən yazdığı "Müharibə və sülh hüququ haqqında üç kitab adlı sanballı əsərində dövlət və hüquq haqqında, xüsusilə beynəlxalq hüquq barədə burjua elminin əsasını qoyur. Qrotsi hüququ çoxcəhətli ictimai hadisə kimi nəzərdən keçirir. Onun nəzəriyyəsinə görə dövlətin və xüsusi mülkiyyətin olmadığı vaxt "təbii vəziyyət mövcud deyildi. Bəşəriyyətin inkişafı gedişində əmlak bölgüsünün əmələ gəlməsi ilə adamlar öz aralarında razılığa gəlib dövləti yaratmışlar. Dövlətin mənşəyinə dair bu ictimai müqavilə nəzəriyyəsi mahiyyət e'tibarilə dövlət haqqında feodal teoloji tə'liminə qarşı çevrilmişdi.

Qrotsiyə görə dövlətin məqsədi xüsusi mülkiyyəti qorumaqdır. Dövlətin əlaməti isə ali hakimiyyətdir. Ali hakimiyyəti o, mücərrəd anlayış kimi yox, konkret hüquqi məzmuna malik olan ictimai-siyasi hadisə səviyyəsində qiymətləndirirdi.[1] Başqa sözlə, bu mütəfəkkir belə hesab edirdi ki, ali hakimiyyətin məzmununu qanunların verilməsi, məhkəmə, vəzifəli şəxslərin tə'yin olunması və onların fəaliyyətinə rəhbərlik, vergilərin yığılması, müharibə və sülh, beynəlxalq müqavilələrin bağlanması və digər məsələlər təşkil edir. Qrotsi iddia edirdi ki, dövlətin

[1] История политических и правовых учений. Səh.202-203.

bir şəxs bu hakimiyyəti məhdudlaşdırmağa və dağıtmağa cəsarət edə bilməz. Salmazidən sonra dövlətin mənşəyinə dair patriarxal tə'limi **Robert Filmer** inkişaf etdirir. O, "Patriarxiya və ya kralın təbii hakimiyyəti adlı əsərində qeyd edir ki, dövlət heç də azad və bərabər hüquqlu adamlar tərəfindən bağlanmış ictimai müqavilənin məhsulu deyil. Hökmdar tə'yin olunmur, seçilmir və ona tabe olanlar tərəfindən vəzifəsindən kənar edilə bilməz. Çünki tabeliyində olanlar onun uşaqlarıdır. Bu kimi fikirlər irəli sürməklə Filmer hökmdar hakimiyyətinin allah tərəfindən göndərildiyini sübut etməyə çalışır və güman edir ki, həmin hakimiyyət bəşəri qanunlara tabe deyil.

Ümumiyyətlə, dövlətin mənşəyi insan birliklərinin oturaq həyata keçməsi, əmək bölgüsü, idarəetmə funksiyalarının xüsusi sosial təbəqənin əlində mərkəzləşməsi və müəyyən ərazi çərçivəsində əhali üzərində siyasi hakimiyyətin qərarlaşması ilə bağlıdır.[1] Amerika alimi **D.Frenkel** dövlətin təşəkkülünü adamlarda tələbatın inkişafı ilə əlaqələndirərək qeyd edir ki, onlar öz tələbatlarını təklikdə tə'min edə bilmədikləri üçün qrup halında birləşməyə məcbur olmuşlar. Şəraitdən asılı olaraq həmin qrupların həcmi və xarakteri müxtəlif səviyyədə ola bilər, lakin onlar eyni problemlərlə qarşılaşır.

Dövlətin yaranmasını şərtləndirən ümumi səbəblərlə yanaşı dövlət strukturlarının təzahürünü sür'ətləndirən və bu strukturlara spesifiklik gətirən müəyyən amillər də mövcud olmuşdur. Bunlardan istilaçılıq (məsələn, bir tayfanın digərini əsarət altına alması), kölə vəziyyətində olanları itaətdə saxlamaq üçün hakimiyyət mexanizminin yaradılması, xarici təhlükənin mövcudluğu, hərbi dəstələrin yaradılması tələbi və bunların saxlanması məqsədilə müntəzəm surətdə vəsait toplanması və s. səciyyəvidir. Müxtəlif insan birlikləri arasında tez-tez və vaxtaşırı əlaqələrin artması onların bir-birinə, həyat tərzinə və idarəetmə sisteminə tə'sirini gücləndirdi.

Xatırlatmaq kifayətdir ki, alman və kelt qəbilələrində dövlətin yaranması üçün onların qədim Yunanıstan və Roma ilə yaxından tanışlığı qüdrətli stimul oldu. Antik Romanın "barbar

---

[1] Цыганков П.А.Международные отношения. М. 1996.Səh.172-173.

bir şəxs bu hakimiyyəti məhdudlaşdırmağa və dağıtmağa cəsarət edə bilməz. Salmazidən sonra dövlətin mənşəyinə dair patriarxal tə'limi **Robert Filmer** inkişaf etdirir. O, "Patriarxiya və ya kralın təbii hakimiyyəti adlı əsərində qeyd edir ki, dövlət heç də azad və bərabər hüquqlu adamlar tərəfindən bağlanmış ictimai müqavilənin məhsulu deyil. Hökmdar tə'yin olunmur, seçilmir və ona tabe olanlar tərəfindən vəzifəsindən kənar edilə bilməz. Çünki tabeliyində olanlar onun uşaqlarıdır. Bu kimi fikirlər irəli sürməklə Filmer hökmdar hakimiyyətinin allah tərəfindən göndərildiyini sübut etməyə çalışır və güman edir ki, həmin hakimiyyət bəşəri qanunlara tabe deyil.

Ümumiyyətlə, dövlətin mənşəyi insan birliklərinin oturaq həyata keçməsi, əmək bölgüsü, idarəetmə funksiyalarının xüsusi sosial təbəqənin əlində mərkəzləşməsi və müəyyən ərazi çərçivəsində əhali üzərində siyasi hakimiyyətin qərarlaşması ilə bağlıdır.[1] Amerika alimi **D.Frenkel** dövlətin təşəkkülünü adamlarda tələbatın inkişafı ilə əlaqələndirərək qeyd edir ki, onlar öz tələbatlarını təklikdə tə'min edə bilmədikləri üçün qrup halında birləşməyə məcbur olmuşlar. Şəraitdən asılı olaraq həmin qrupların həcmi və xarakteri müxtəlif səviyyədə ola bilər, lakin onlar eyni problemlərlə qarşılaşır.

Dövlətin yaranmasını şərtləndirən ümumi səbəblərlə yanaşı dövlət strukturlarının təzahürünü sür'ətləndirən və bu strukturlara spesifiklik gətirən müəyyən amillər də mövcud olmuşdur. Bunlardan istilaçılıq (məsələn, bir tayfanın digərini əsarət altına alması), kölə vəziyyətində olanları itaətdə saxlamaq üçün hakimiyyət mexanizminin yaradılması, xarici təhlükənin mövcudluğu, hərbi dəstələrin yaradılması tələbi və bunların saxlanması məqsədilə müntəzəm surətdə vəsait toplanması və s. səciyyəvidir. Müxtəlif insan birlikləri arasında tez-tez və vaxtaşırı əlaqələrin artması onların bir-birinə, həyat tərzinə və idarəetmə sisteminə tə'sirini gücləndirdi.

Xatırlatmaq kifayətdir ki, alman və kelt qəbilələrində dövlətin yaranması üçün onların qədim Yunanıstan və Roma ilə yaxından tanışlığı qüdrətli stimul oldu. Antik Romanın "barbar

---

[1] Цыганков П.А.Международные отношения. M. 1996.Səh.172-173.

qəbilələr ittifaqını əsarət altına almasından sonra dövlətin təşəkkülü prosesi xeyli sür'ətləndi.

Dövlət strukturlarının yaranmasının əlavə impulsu müxtəlif etnik birliklər arasındakı münaqişələr idi. Hakim qəbilələrin istilaçılığı gedişində bir qayda olaraq başqa etnosa mənsub olanlar əsarət altına alınırdı. Qədim Roma dövləti məhz, özgə tayfadan olan əsirlərin daim köçüb gəldiyi yerdə təşəkkül tapmışdı (əsirləri əsarətdə saxlamaq lazım idi).

Dövlət özünəqədərki təşkilatdan bir neçə mühüm əlamətlərlə fərqlənir: 1.İdarəetmə aparatından ibarət olan tə'sisat (və ya müəssisə) və orqanların yaradılması. 2.Qohumluq və ya icma əlaqələrinin ərazi əlaqələri ilə əvəz olunması. 3.Müntəzəm surətdə vergi qoyulmasının həyata keçirilməsi. 4.Gözlənilməsi dövlət orqanları tərəfindən tə'min olunan hüquq sisteminin, məcburi normaların tətbiq olunması.

Həmin əlamətlərdən bə'ziləri dövlətlə yanaşı digər tə'sisatlara da xasdır. Buna görə alman sosioloqu **M.Veber** qeyd edir ki, dövləti müəyyənləşdirmək üçün məhz, onun yerinə yetirdiyi funksiyaları reallaşdıran spesifik vasitələrdən çıxış etmək lazımdır. Onun fikrincə, "dövlət legitimliyə..., bir vasitə kimi zorakılığa əsaslanan hökmranlıq münasibətləridir. Dövlət siyasi idarəetmə vasitəsi olmaq e'tibarilə nə ideal rifah halı yaradır, nə də mütləq mə'nada şər qüvvə deyildir. Cəmiyyətdə iqtisadiyyatın normal fəaliyyətinin tə'min olunması, təhsil sisteminin təkmilləşdirilməsi, adamların sosial müdafiəsinin təşkili, səhiyyənin, elmin və mədəniyyətin inkişafı məhz, xeyli dərəcədə dövlətin fəaliyyəti ilə bağlıdır.

Dövlət hakimiyyət nəzəriyyəsinin xüsusi problemlərindən biridir. Heç də təsadüfi deyil ki, hakimiyyət nəzəriyyəsinə dair biliklərin meydana çıxdığı qədim dövrdən indiyə qədər dövlət və hakimiyyətin nisbəti məsələsi siyasi elmlərin tədqiqat sferasında mərkəzi yer tutmuşdur. Dövlət cəmiyyətin siyasi sistemində başlıca rol oynamaqla adamların, ictimai qrupların, siniflərin, assosiasiyaların birgə fəaliyyətini və münasibətlərini təşkil edir, istiqatləndirir və buna nəzarət edir.

Dövlət cəmiyyətdə hakimiyyətin başlıca tə'sisatı olmaqla onun siyasətini mərkəzləşdirilmiş formada həyata keçirir. Buna

görə həm nəzəri, həm adi şüurda, eləcə də real gerçəklikdə üç hadisə-dövlət, hakimiyyət və siyasət eyniləşdirilir. Bunu demək kifayətdir ki, XIX əsrin sonuna qədər siyasi fəlsəfədə və siyasi elmlərdə dövlət və siyasət anlayışları fərqləndirilməmişdir.

Dövlət nəzəriyyəsi dövlətin yaranması, formalaşması və mövcudluğu ilə əlaqədar olan genetik və funksional problemlərin üç qrupunu əhatə edir: 1.İctimai. 2.Sinfi. 3.Dövlətin fəaliyyətinin siyasi-hüquqi və təşkilati-struktur əsası.[1] Bu üç me'yardan asılı olaraq dövlət probleminin tədqiqinə tarixən üç mövqedən yanaşılmışdır:

1. Öz mənbəyini antik ən'ənələrdən əxz edən **siyasi-fəlsəfi və siyasi-elmi yanaşma**. Belə yanaşmada dövlət "ümumi işlərin həlli vasitəsi kimi, idarə edənlərlə (hakimiyyətlə) xalqın (cəmiyyətin) münasibətlərinin tənzim olunması mə'nasında başa düşülür. Məsələn, **Aristotel** dövləti xalqın və insanın siyasi həyatını tə'min edən vasitə kimi izah edirdi.

2. **Sinfi yanaşma**. Bu mövqeyə görə dövlət cəmiyyətin siniflərə bölünməsi məhsuludur, sinfi mübarizə silahıdır (marksist konsepsiya).

3. **Hüquqi** və **təşkilati-struktur baxımdan yanaşma**. Belə nöqteyi-nəzərə görə dövlət hüquqi dövlət, hüquq və qanunun mənbəyi, cəmiyyət həyatını və dövlətin özünün fəaliyyətini təşkil edən, siyasi sistemdə onun öz strukturunu müəyyənləşdirən tə'sisat kimi başa düşülür. Beləliklə, siyasi münasibətlərin dövləti əhatə edən üç cəhəti və buna müvafiq olaraq dövlətin üç funksiyası müəyyənləşdirilir: **1.Təşkilati. 2.İdarəedici. 3.Ümumi məqsədləri müəyyən edən.** Üçüncü funksiyaya həyat fəaliyyətini qoruyub saxlamaq, "ümumi rifahın əldə olunması, qayda-qanun yaradılması, dövlətlə xalq, millət, etnos arasında qarşılıqlı münasibətin tənzimlənməsi və sair daxildir.[2]

Dövlət həmçinin, siniflərlə dövlət arasındakı münasibətlərdə münaqişələrin mənbəyi kimi çıxış edir. Dövlət haqqında mövcud olan müxtəlif təsəvvürlərin sintezi imkan verir ki, çoxlu problemləri-siyasi sistemlə cəmiyyətin nisbətini, eləcə də dövlətlə

---

[1] Политогия: Энциклопедический словарь. Səh.65-67.

[2] Вебер М. Политика как призванные и профессия. Избр. произв М.1990; Санистебан Л.Государство и общество. Диалог. №1993. №5-6.

cəmiyyətin, həm də idarə edən qüvvələrin birliyini, dövlətin mənşəyini, onun inkişafının şəraitini və istiqamətini və digər mühüm ictimai məsələləri həll etmək mümkün olsun[1]

Hər bir ictimai inkişaf mərhələsinin tarixi regional xüsusiyyətlər, məhdud sivilizasiyanın spesifikliyi (qədim şərq, yunan-roma sivilizasiyası, habelə orta əsrlərdə şərqdə və qərbdə mövcud olan sivilizasiya), ictimai-iqtisadi formasiyalar və digər amillərlə şərtlənən mürəkkəb, çoxcəhətli prosesdir. Ümumiyyətlə, dövlətin mənşəyi və tarixi təkamülü bir neçə mərhələdən ibarətdir:

**I Mərhələ.** Dövlətin təşəkkülünün ilk mərhələsində ibtidai icma (hərbi) demokratiyasının qalıqları saxlanılır, antik avropada respublika və monarxiya, despot rejimləri və idarə formaları bir-birini əvəz edir. Tam şəkildə formalaşmayan (mükəmməl olmayan) həmin cəmiyyətdə azad və azad olmayan adamlar mövcud idi. Başqa sözlə, cəmiyyət azad vətəndaşlardan ibarət idi ki, bunlar da öz növbəsində siniflərə (təbəqələrə) bölünürdü (azad sənətkarlar, kəndlilər, tacirlər, hərbçilər, incəsənət nümayəndələri - heykəltəraşlar, rəssamlar, şairlər və başqaları). Bu mərhələdə cəmiyyətdə idarə edən yuxarılar və tabelikdə olan aşağılar meydana çıxır (məsələn, qədim Romada patrisilər və plebeylər və s.), həmçinin, əhalinin qullardan və tam azad olmayan adamlardan ibarət kateqoriyası yaranır ki, bunlar da vətəndaşlığa və siyasi hüquqa malik deyildilər. Belə mükəmməl olmayan, obrazlı desək, "natamam cəmiyyətdə dövlətin iki başlıca funksiyası dəqiq müəyyənləşdirilir: Birinci, azad adamların "ümumi işinin qaydaya salınması. İkinci, hökmranlıq-kölə halına salınmış adamlara təzyiq göstərilməsi. Hakimiyyətin ibtidai icma formasından miras qalan hökmranlıq (vojdizm) monarxiya və imperiya hakimiyyət formalarında, eləcə də, dövlətin inkişafının sonrakı mərhələsində daha da möhkəmləndirilir.

**II Mərhələ.** Dövlətin təşəkkülünün ikinci mərhələsi orta əsrləri və Yeni dövrün başlanğıcını (XVI əsr) əhatə edir. Bu mərhələdə hökmranlıq və mülkiyyət münasibətlərinin üstünlük təşkil etdiyi güclü despot, monarxiya hakimiyyəti saxlanılır, ölkə və vətəndaş (xalq) münasibətləri üstünlük təşkil edir. Avropada

---

[1] Демидов А.Н.Федосеев А.А.Основы политологий. М.1995; Бро Ф. Политология. вып. второй. М.1990.

dağılmaqda olan, lakin hələ aradan qalxmayan qan qohumluğu tipində əlaqələr - senyor[1] hakimiyyəti qərarlaşır. Bu mərhələdə güclü despot hakimiyyəti ilə dövlət eyniləşdirilir. Şərqdə və Qərbdə hələ qeyri-iqtisadi məcburetmə forması saxlanılır. **T.Hobbsun** fikrincə bu mərhələdə cəmiyyətdə dövlət qorxu intizamı kimi mövcuddur. XIII əsrdən başlayaraq XVI əsrə qədər Avropada Yeni dövrün dövləti təşəkkül tapır. XV əsrdə dünyada 5-6 dövlət mövcud idi. Bu dövlət üçün səciyyəvi cəhət ondan ibarətdir ki, hakimiyyət genişlənməkdə olan sosial və iqtisadi baza üzərində formalaşır, dövlət özünə mənsub olan əraziyə sahib olur (feodal dağınıqlığı aradan qalxır, torpaqların birləşdirilməsi başa çatır), hakimiyyət tədricən mərkəzləşir. Ərazi dövlətin məkan əsasıdır. İctimai fenomen olmaq e'tibarilə dövlət fiziki, maddi əsası olmadan yaşaya bilməz. Ərazisiz dövlət təsəvvürə sığan deyil:

İkinci mərhələdə vassalın monarxa şəxsi sədaqətindən ibarət olan münasibətləri idarəetmənin mütəşəkkil dövlət aparatı əvəz edir, cəmiyyətdə şəxsi asılılıq münasibətləri deyil, xidmət münasibətləri və funksiyaları aparıcı rol oynayır. Beləliklə, cəmiyyətin dövlət-ərazi məkanında formalaşması, hakimiyyətin siyasi təşkili prosesi başlanır. Məhz, ilk dəfə olaraq haqqında danışdığımız mərhələdə—XVI əsrdə "dövlət termini işlədilir. Bu termin əvvəlki dövrlərdə "malikanə, "krallıq, "knyazlıq, "torpaq, "imperiya məvhumları kimi, elmi ədəbiyyatda isə "respublika termininin sinonimi şəklində işlədilmişdir.

Dövlət termini meydana gələnə qədər dövlət mə'nasında istifadə olunan "respublika anlayışını hələ XVI əsrin ikinci yarısında **Jan Boden** özünün "Respublika haqqında altı kitab əsərində (1576-cı il) işlətmişdir.

**III Mərhələ.** Həmin mərhələdə şərqdə olduğu kimi Avropada da dövlətin monarxiya və imperiya formaları möhkəmləndi, hakimiyyətin arxaik ictimai strukturu və hərbi-feodal strukturu formalaşdı. Bu mərhələdə xalqların çoxunda heç bir inkişaf etmiş dövlət forması mövcud deyildi. Lakin avropada millətin təşəkkülü, ümummilli bankın formalaşması, ölkələrin əksəriyyətində dil və mədəniyyət birliyinin möhkəmlənməsi

---

[1] **Senyor-feodalizm** cəmiyyətində öz mülkündə hökmdar olan torpaq sahibi deməkdir.

prosesi başa çatır. XVII əsr sosial-sinfi strukturun və əmtəə-pul münasibətlərinin yaranması dövrü kimi səciyyələnir. Bu mərhələdə insan hüquqları və azadlıqları uğrunda mübarizə, cəmiyyətdə bərabərlik və vətəndaş cəmiyyətinin inkişafı barədə ideyalar fəallaşır (**Hobbs, Lokk**, XVIII əsrdə **Russo, Kant** və b.). Mütləqiyyət dövlətin hüquqi formalarından biri kimi əsaslandırılır (**Lokk, Kant, Qumbolt** və b.), dövlət zəka və mə'nəviyyat forması hesab edilir (XVIII əsr maarifçiləri, **Kant** və b.), dövlətin hüquqla məhdudlaşdırılması ideyası irəli sürülür (**Kant, Hekel**), konsitusiyalı inkişaf konsepsiyası işlənib hazırlanır (XIX-XX əsrlər - **Yaspers** və başqaları).

XVIII əsr dövlətçiliyin yayılmasında, başqa sözlə, monarxın suverenliyindən millətin suverenliyinə keçilməsində yeni mərhələdir. Belə ki, dövlətçiliyin milli dövlət forması formalaşır və XIX əsrdən başlayaraq bütün Avropa regionunda yayılır.

III mərhələdə hüquqi dövlətçilik və vətəndaşlıq münasibətlərinin inkişafı ideyası zəif də olsa nəzərə çarpır. Tədricən federativ və konfederativ dövlət formasının zəruriliyi fikri formalaşdı. Federativ dövlət quruluşunun üstünlüyü ideyası XVIII əsrdə Monteske tərəfindən irəli sürülmüşdür. Belə dövlət forması XVIII əsrin sonunda ABŞ-da, ikinci dünya müharibəsindən sonra isə AFRda yaranmışdır.

**Dördüncü (müasir) mərhələ.** Bu mərhələ dövlətin təkamül mərhələsi olmaqla federativ və konfederativ proseslərin genişlənməsi ilə səciyyələnir (Almaniya, İsveçrə və ABŞ, keçmiş Yuqoslaviya və SSRİ). Bu mərhələdə yeni dövlətlərin yaranması prosesi daha da sür'ətlənir. Məsələn, 1900cü ildə dünyada 30, 1945-ci ildə 60, 1965-ci ildə 100, 1990-cı ildə 160, 1992-ci ildə 175, 1996-cı ildə isə 185 dövlət var idi.[1] BMTyə üzv olmaq üçün hər bir dövlət beynəlxalq hüququn subyekti kimi e'tiraf edilməli, müstəqil hökumətə, əraziyə və əhaliyə malik olmalıdır. Dövlətçiliyin müasir forması məhz, suverenlik anlayışı ilə bağlıdır. Müasir dövlətçiliyin formasının genezisi və mövcudluğu sosial birliyin **millət** adlanan növü ilə sıx əlaqədardır. Qeyd edək ki, dövlətlər arasında "təbii sərhəd yoxdur. Sərhədlərin mövcudluğu

[1] Цыганков П.А. Международные отношения. Səh. 171-172.

tarixi inkişafın məhsuludur, qüvvələr nisbətinin nəticəsidir, elə buna görə də "sün'i, siyasi xarakter daşıyır. Bu həqiqəti və praktiki reallığı "böyük Ermənistan xülyası ilə yaşayan "fağır" ermənilər nədənsə başa düşmür. Bütün millətlər çox etnik birliklərdən ibarətdir və onların hamısı siyasi sosiallaşma prosesində formalaşır və mükəmməlləşir. Bir sözlə, dövlət insanların birliyinin siyasi təşkilinin universal formasıdır. Elə buna görə də o, beynəlxalq hüququn başlıca subyektidir.

Dövlətin bütün inkişaf mərhələləri və tipləri bir sıra sabit, ümumtarixi əlamətlər və funksiyalarla səciyyələnir. Aşağıdakılar bu qəbildəndir: Bu və ya digər sosial və sinfi zəmində idarəedici qüvvələrin formalaşmasının labüdlüyü. Həmin zəmində müasir dövlətlərdə siyasi partiyaların, ictimai hərəkatların, hakimiyyətin seçkili subyektlərinin hesabına cəmiyyətin demokratikləşməsi meyli genişlənir; siyasi təşkilin xarakterik mövcudluğu-siyasi sistemlər, mərkəzi və periferiya hakimiyyətinin strukturu və onların arasındakı münasibət; dövlətin yeritdiyi xarici siyasətlə əlaqədar onun ərazisindən kənarda siyasi məkanının genişlənməsi zərurliyi; ölkə və xalq qarşısında bir sıra öhdəliklərin yerinə yetirilməsi. Başqa sözlə, daxildə əmin-amanlığın və qaydaların qorunması, hakimiyyətə mənsub olan ərazinin müdafiəsi, sosial, milli, iqtisadi münasibətləri tənzimləmək, ümumi rifah məqsədlərini və vəzifələrini nəzərdən qaçırmamaq; hamı üçün mütləq xarakter daşıyan qanunlar qəbul etmək, büdcə siyasətini həyata keçirmək, müxtəlif tə'yinatlı silahlı qüvvələr yaratmaq, saxlamaq və bundan istifadə etmək, xarici siyasəti həyata keçirmək və dövləti xarici ölkələrdə təmsil etmək hüququ və s. Beləliklə, dövlət milli və çoxmillətli durumun yaratdığı və müəyyən ərazidə möhkəmlənən siyasi tə'sisatdır.

## 2. DÖVLƏTİN XÜSUSİYYƏTLƏRİ VƏ FUNKSİYALARI

Cəmiyyətin siyasi sistemi vahid normativ dəyərlər əsasında təşkil olunan siyasi subyektlərin qarşılıqlı fəaliyyətinin məcmuudur. Siyasi sistemin özəyini təşkil edən dövlətin özü də sözün ən geniş mə'nasında adamlar arasındakı əlaqədir, yeganə ali

hakimiyyətə tabe olan siyasi birlikdir. Dövlət adamların davranışının məcburi surətdə tənzimlənməsini nəzərdə tutan və normalar sistemi əsasında idarə olunan təşkilatdır. Onun başlıca məqsədi ümumi mənafeyi və ümumi iradəni ifadə etməkdən, insan hüquqlarını və azadlıqlarını qorumaqdan ibarətdir.

Müasir dövlət insanın ümumi hüquqlarını, ən başlıca sosial-siyasi və hüquqi dəyərləri tə'min edən tə'sisatlarsız təsəvvürə sığan deyil. Siyasi birlik olan dövlət vahid iqtisadi və mədəni məkan xaricində ola bilməz. O, həm də sosial vakuumda yox, dünya birliyi çərçivəsində mövcuddur. Qeyd edək ki, adamların birgə həyatının təşkili forması olmaq e'tibarilə dövləti bütövlükdə cəmiyyətlə eyniləşdirmək olmaz. O, cəmiyyətin məhz, bir hissəsidir. Deməli, dövlət adamlar arasında tarixən qərarlaşan siyasi, sosial-siyasi əlaqələr və hüquqi münasibətlər sistemidir. Bu sistem adamların davranış və fəaliyyətinin ümumi əhəmiyyət daşıyan növlərinin çoxsaylı aktıdır.

Elmi ədəbiyyatda "dövlət anlayışına bir tərəfli, məhdud nöqteyi-nəzərdən yanaşmaq meylinə təsadüf edilir. Elə müəlliflərə rast gəlinir ki, onlar dövləti həddən artıq tə'sisatlı ünsürlər çərçivəsində nəzərdən keçirirlər. Başqa sözlə, dövlətin məzmununu üç başlıca əlamətlə-ərazi, əhali və hakimiyyətlə məhdudlaşdırırlar. Məsələn, N.N. Sedıx yazır: "Beynəlxalq hüquq və siyasi aspekt nöqteyi-nəzərdən dövlətin xarakteristikası üçün onu təşkil edən üç başlıca ünsür-ərazi, əhali və hakimiyyət böyük əhəmiyyətə malikdir.[1] Maraqlıdır ki, bu müəllif sonrakı mülahizələrində dövlətin məzmununu təşkil edən digər mühüm ünsürlər üzərindən sükutla keçir. Əvvəla, müasir dövləti digər insan birliklərindən təcrid etmək təsəvvürə sığan deyil. Axı, bütün insan birlikləri vahid iqtisadi, ümumi mədəni məkanda və hətta informasiya mühitində mövcuddur. Mə'lum olduğu kimi, hər bir dövlət öz idarəedici elitasını formalaşdırır, siyasi idarəetmə sistemini yaradır. İkincisi, dövlətin ünsürləri sırasında onun hüququ və iqtisadi əsası xüsusi yer tutur.

Qeyd edək ki, müvafiq normativ qaydalara və iqtisadi kompleksə malik olmadan müstəqil suveren dövlət ola bilməz.

---

[1] Политология. Под редак. Г.В. Полуниной. Səh 119.

Şübhəsiz, ərazi, əhali və hakimiyyət dövlətin ümumi və xüsusi əhəmiyyət daşıyan əlamətləridir. Bunların əhəmiyyətini azaltmaq əlbəttə, ən azı elmi sayıqlama olardı. Dövlət konkret məkan-zaman çərçivəsində mövcud olan kollektiv fenomenidir.[1] Dövlətin strukturuna həmçinin, inzibati dövlət tə'sisatı (idarəetmə aparatı hakimiyyət aparatı ilə tam eynilik təşkil etmir), hakimiyyət və idarəetmə orqanlarının istifadə etdiyi kommunikasiya sistemi daxildir. Dövlətin tərkib hissəsini təşkil edən ünsürlərin çoxcəhətliliyi onun çoxfunksiyalı spesifik siyasi tə'sisat olması ilə bağlıdır. Bir sözlə, dövlətin ünsürləri olmadan adamların sosial həyatının fenomeni kimi siyasi sistem mövcud ola bilməz.

Dövlətin başlıca səciyyəvi xüsusiyyətləri aşağıdakılardır:

- Suverenlik, başqa sözlə, xarici asılılığa malik olmamaq və ölkənin daxili işlərinə münasibətdə onun aliliyi. Suverenlik məhz, siyasi hakimiyyətin aliliyini ifadə edir. Bütün hakimiyyət qərarları ölkədə yalnız ali siyasi hakimiyyət adından qəbul olunur və cəmiyyət üzvləri tərəfindən hökmən yerinə yetirilməlidir.
- Dövlət ayrıca siyasi qüvvələrin deyil, bütün cəmiyyətin mənafeyini ifadə edir.
- Dövlət hakimiyyətinin funksiyalarını reallaşdıran xüsusi orqanlar və idarəetmə sisteminin mövcudluğu.
- Hakimiyyətdə olanların zorakılıqdan istifadə olunmasını öz inhisarına alması. Bu o deməkdir ki, öz vətəndaşlarına qarşı yalnız dövlətin güc tətbiq etmək hüququ vardır. Cəmiyyət üzvlərinə qarşı məcburetmə inhisarı hökmranlıq edən azlığın və ya ölkə əhalisinin əksəriyyətinin mənafeyinə xidmət edə bilər. Bu məqsəd təşkilati imkanlara (məcburetmə aparatına) malikdir.
- Dövlət müəyyən hüquqi qaydalarla səciyyələnir. O, öz ərazisində hüquqi qaydaların yaradıcısı və qoruyub saxlayanı kimi çıxış edir. Hüquq dövlətin müəyyən norma və münasibətlər sistemini möhkəmləndirir.
- Hakimiyyətin aliliyini həyata keçirən müəyyən adamlar qrupunun mövcudluğu. Bu qrup bəzi sinifləri və ya cəmiyyətin əksəriyyətini təmsil etməklə ümumi işlərin idarə olunması funksiyalarını yerinə yetirir.

---

[1] Санистебан Л. Государство и общество. Диалог 1993. № 5-6

- Cəmiyyət adından daxili və xarici siyasətin həyata keçirilməsi.

- Qanun və qayda yaratmaq üçün dövlətin müstəsna hüquqa malik olması. Həmin qanun və qaydalar mövcud ərazi daxilində bütün əhali üçün məcburidir. Xüsusi məqsədlər və digər ictimai ehtiyaclar üçün vergilər yığılması da dövlətin səciyyəvi xüsusiyyətlərindəndir.

- Nisbi daimilik. Yə'ni dövlətin məkan-zaman xarakteri, hüquqi qaydaların konkret ərazidə və konkret vaxtda fəaliyyəti.

Əvvəldə qeyd etdiyimiz kimi **ərazi, əhali və hakimiyyət** dövlətin başlıca ünsürlərindəndir. **Ərazi** dövlətin fiziki, maddi-təbii əsasıdır, onun məkan mahiyyətidir. Tarix şahiddir ki, bir dövlətin digərinə ərazi iddiaları sərt mübahisələrə, münaqişələrə və hətta hərbi toqquşmalara gətirib çıxarmışdır. Xalqımız tarixi inkişafın müəyyən mərhələlərində bə'zi dövlətlərin ədalətsiz ərazi iddialarına mə'ruz qalmışdır. **Ermənilərin tarixi riyakarlığı və siyasi həyasızlığı** o dərəcəyə çatdı ki, XX əsrin son onilliyinin əvvəllərində Ermənistan hərbi birləşmələri xarici qüvvələrin köməyi və öz içərimizdən olan xəyanətkarların sə'yi ilə Azərbaycan ərazisinin 20 faizini – Dağlıq Qarabağdan əlavə 7 rayonumuzu işğal etdilər. Zəbt olunmuş ərazidə artıq Azərbaycan dövləti, yə'ni əhalimiz və hakimiyyətimiz mövcud deyildir.

Dövlətin mənsub olduğu ərazi onun **sosial-siyasi** məkanına çevrilir. Sosial dedikdə mövcud siyasi birliyin (dövlətin) həyat fəaliyyəti üçün mühitin mövcudluğu başa düşülürsə, siyasi məvhumu dövlət hakimiyyətinin fəaliyyətinin məkan sərhəddini səciyyələndirir. Dövlətin məzmununa ölkənin konkret şəraiti, onun ərazisi ilə səciyyələnən təbiəti ciddi tə'sir göstərir. Maddi-təbii amillər dövlətin varlığının ən vacib şərtlərindəndir. Dövlətlərin təşəkkülü və aradan qalxması ilk növbədə ərazi ilə şərtlənir.

Dövlətin ərazisinə torpaq, faydalı qazıntılar, hava məkanı və mövcud ərazidəki sular daxildir. Ərazi yalnız quru torpaqla məhdudlaşmır. Bu o deməkdir ki, dövlət öz suveren hakimiyyətini qeyd etdiyimiz məkanların hamısına müncər edir, onları xarici dövlətlərin və xüsusi şəxslərin müdaxiləsindən qorumaq hüququna malik olur.

Mövcud ölkə ərazisinin bir hissəsində dövlətin hakimiyyətinin məhdudlaşdırılmasının digər forması əhalinin istəyinin əksinə olaraq həmin hissədə xarici qoşunların yerləşdirilməsidir. Yuxarıda yürüdülən bütün mülahizələr əsasında belə qənaətə gəlmək olar ki, nisbətən sabit və bütövlüyünə e'tibarlı tə'minat olan hər hansı ərazi dövlətin mövcudluğunun başlıca şərtlərindəndir.

Dövlətin ikinci mühüm ünsürü mövcud dövlətin ərazisində yaşayan və onun hakimiyyətinə tabe olan **əhalidir.** Burada məsələ ondan ibarətdir ki, dövlət bir millətdən (bu nadir hallarda olur) və ya çoxmillətli birlikdən ibarət ola bilər. Çoxmillətli dövlət şəraitində hakimiyyətin sə'yləri müxtəlif milli qruplar arasında baş verən münaqişələri tənzimləməyə istiqamətlənir. Millətlərarası münaqişələrin təhlükəsi bundan ibarətdir ki, o, nəticə e'tibarilə separatçılığa və hətta çoxmillətli dövlətin süqutuna gətirib çıxarır. Keçmiş Yuqoslaviya və Çexoslovakiya buna misal ola bilər.

Xalqsız, milli əsasdan məhrum dövlət ola bilməz, lakin dövlətsiz xalqlar mövcuddur. 1948-ci ildə İsrail dövləti yaranana qədər yahudilər bu vəziyyətdə olmuşlar. Hazırda fələstinlilər öz dövlətini yarada bilmirlər. Deməli, millət dövlətin təşəkkülünün vacib şərtlərindəndir.

Bir dövlətin ərazisində yaşayan müxtəlif millətlər eyni siyasi hakimiyyətin daşıyıcısı olsalar da onların arasında ziddiyyətlər və münaqişə ehtimalı aradan qalxmır. Çoxmillətli dövlət şəraitində millətlərarası ziddiyyətlər və gərginlik ictimai-siyasi sabitlik üçün ciddi təhlükə törədir. Çünki millətçi separatçı qüvvələr öz müstəqil dövlətlərini yaratmağa cəhd edirlər. Bu məqsədlə onlar silahlı mübarizəyə, hətta terrora əl atırlar. XX əsrin 80-cı illərinin sonunda Dağlıq Qarabağ ermənilərinin - separatçılarının hərəkətləri buna aydın sübutdur. Onların "siyasi təngənəfəsliyi "Müstəqil Dağlıq Qarabağ Respublikasının yaradılması ilə nəticələndi. Təəssüf ki, Fransa parlamenti bu bədnam qeyri-qanuni respublikanı "tanımağı qərara aldı. (1998-ci ildə).

İctimai inkişaf tarixində qabarıq surətdə özünü təzahür etdirən siyasi fenomenlərdən ən çirkini millətçilik olmuşdur. Millətçilik bu və ya digər insanlar qrupunun öz milli birliyinə daxili ehtirasla, təcavüzkar niyyətlə məftunluğundan başqa bir şey

deyildir. **Millətçilik mənfur milli düşüncə tərzinin çirkin məhsuludur. Bu mə'nada ermənilərin çirkin mə'nəviyyatı tarixi yaddaşımızdan silinməməlidir.**

Dövlətin üçüncü ünsürü müəyyən ərazidə müvafiq orqanlar tərəfindən həyata keçirilən **dövlət hakimiyyətidir.**[1] Dövlətin formalaşması üçün dövlət hakimiyyəti tarixi zərurətdir. Hakimiyyət siyasi elita ilə əhalinin qalan hissəsi arasında ağalıq və tabeçilik münasibətləridir.

Dövlətin xüsusiyyətlərindən danışarkən **bürokratiya** və ya dövlət idarəsi haqqında mülahizə yürütmək də vacibdir. Bürokratiya dövlətin strukturunun spesifik ünsürüdür. Bürokratiyasız, zora malik olmayan dövlət utopiya olardı. Müasir dünyanın heç bir inkişaf etmiş dövləti idarəedici bürokratiyadan yan keçmir. Məsələn, XIX əsrlə müqayisədə iyirminci yüzilliyin sonunda dövlət mə'murlarının sayı xeyli artmışdır. Məşhur Belçika iqtisadçısı **Mandelin** hesablamalarına görə ABŞ-da dövlət idarələrində çalışanların sayı 1821-ci ildəki 0,7%dən 1901-1902-ci illərdə 3,1%ə, 1920-1921-ci illərdə 5,3%ə, 1941-ci ildə 11%ə və 1970-1971-ci illərdə isə 14%ə çatmışdır. Böyük Britaniyada həmin rəqəm 1901-1902-ci illərdə 1,4%, 1920-1921-ci illərdə 2,6%, 1939-1940-cı illərdə 3,4%, 1968-ci ildə isə 8,6% olmuşdur. ABŞ-da dövlət qulluqçularının sayı 1947ci ildə 5 milyon 891 min, 1967ci ildə 11 milyon 867 min, 1982-ci ildə isə 16 milyon 197 min nəfərə çatmışdır.[2]

Dövlət qulluqçularının fəaliyyəti ilk başlanğıcda funksional inzibatçılıq xarakteri daşıyır. Lakin bürokratiyanın mahiyyətində təzahür edən funksionallıq sonralar (müəyyən şəraitdə) siyasi xarakter kəsb edir və bürokratiya müstəqil siyasi qüvvəyə çevrilir, hətta avtoritar hakimiyyətin dayağı kimi çıxış edir.

Dövlət qulluqçularının xüsusi çəkisinin sür'ətlə artması yalnız sinfi siyasi hökmranlıqla şərtlənmir. Dünya praktikası təsdiqləyir ki, müasir dövlət təkcə sinfi hökmranlıq aləti kimi çıxış etmir. O, mövcud ən'ənəvi funksiyanı saxlamaqla bərabər ictimai ziddiyyətlərin və münaqişələrin geniş dairəsini tənzimləməyə

---

[1] Əvvəlki fəsildə hakimiyyət haqqında əhatəli təhlil verdiyimiz üçün burda onun şərhinə ehtiyac duymuruq.

[2] Мандел Э. Власть и деньги. М., 1992. Səh. 137-138

mühüm diqqət yetirir. **V.Brandt** yazırdı ki, "hər cür münaqişə "sinfi məsələ deyilən şey deyil.[1]

Dövlət müasir cəmiyyətdə ictimai həyatın bütün tərəflərinə tə'sir göstərən orqanizmdir. Onun fəaliyyəti hər hansı fərdi və ya qrupu deyil, bütün sosial təbəqə və qrupları maraqlandırır. Əlbəttə, hər bir sosial qrup özünəməxsus müxtəlif mənafelərə malikdir. Dövlətin sosial funksiyasının inkişafı əhalinin əksəriyyəti tərəfindən onun legitimliyinin təsdiqi və e'tirafı kimi çıxış edir. Əksinə, dövlətin sosial fəaliyyətinin məhdudlaşması və demokratiyanın sıxışdırılması həmin legitimliyin səviyyəsini aşağı salır. Bir sözlə, müasir dövlətin əsasını yalnız sinfi əlamət təşkil etmir. Onun fəaliyyəti və dinamikası xeyli ictimai-tarixi, mədəni və sosial-psixoloji hadisələri şərtləndirir.

Siyasi sistem donmuş vəziyyətdə qalan hadisə kimi səciyyələnmir. O, daim inkişaf edir və buna müvafiq olaraq dövlət də siyasi tə'sisat olmaq e'tibarilə həmişə təkmilləşir. Müasir dövlətin inkişafında bir neçə **meyl** diqqəti cəlb edir. Dövlətlərin çoxunun inkişafında (xüsusilə avropa dövlətlərində) **aparıcı meyl** onların əsl demokratik, hüquqi dövlət yaradılmasına cəhd etmələridir. Bu cəhət Avropa ölkələrinin çoxunun konstitusiyasında öz əksini tapmışdır. Xalqımızın qəbul etdiyi konstitusiya da səciyyəvidir. 1995-ci il noyabrın 12də Azərbaycan Respublikası referendumunda qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyasında deyilir: "Azərbaycan dövləti demokratik, hüquqi, dünyəvi, unitar respublikadır.

Müasir demokratik dövlət ilk növbədə hüquqi mə'na daşıyır. Hüquqi dövlətin müasir modeli həm keçmişə aid təcrübəni, həm də son illərin nailiyyəti olan demokratik prinsiplərin bir hissəsini özündə birləşdirir. Şübhəsiz, hüquqi dövlətin prinsiplərinin bu və ya digər ölkədə reallaşması müxtəlif formada həyata keçirilir. Məsələn, **AFR, Fransa və İspaniya** hüquqi dövlətin təkmilləşmiş modelini tətbiq etməyə daha yaxındır.

Müasir dövlətin inkişafında **mühüm meyllərdən** digəri dövlətin suverenliyinin demokratik məhdudlaşdırılmasıdır. Əgər əvvələr dünya birliyi tərəfindən bu və ya digər dövlətə müəyyən

---

[1] Брандт В. Демократический социализм: статьи и речи. М., 1992. Səh. 127.

məsləhət verilməsi onun daxili işlərinə qarışmaq kimi qiymətləndirilirdisə, indiki qarşılıqlı asılılıq dünyasında ayrı-ayrı problemlərin (hərbi, ekoloji, və s.) həlli suverenliyin lazım gəldikdə müəyyən ağıllı düşüncə tərzi ilə məhdudlaşdırılmasını tələb edir. Məsələn, bir dövlətin atom stansiyasında baş verən partlayışın nəticələrinin aradan qaldırılmasını digər dövlətdən tələb etməsi heç də bu dövlətin daxili işinə qarışmaq kimi başa düşülməməlidir.

Müasir dövlətin inkişafının **meyllərindən** biri isə dövlət hakimiyyətinin desentralizasiyasıdır.[1]

Yerli strukturların mənafeyi naminə hakimiyyət yüksək dövlət strukturları arasında yenidən bölüşdürülür. Bu cəhd yerli hakimiyyət strukturlarının müstəqil qərarlar qəbul etməsi, başqa sözlə, özünüidarənin inkişafı naminə edilir. Dövlət hakimiyyəti orqanlarının funksiyalarının belə bölüşdürülməsi yerlərdə demokratikləşməyə, vətəndaşların idarəetmə prosesinə daha geniş cəlb olunmasına, siyasi və sosial-iqtisadi qərarların qəbul olunmasında iştirakına imkan yaradır.

Müasir dövlətin inkişafının səciyyəvi **meyllərindən** biri də iqtisadi və siyasi həyatın inteqrasiyasıdır. İnteqrasiya meyli hazırda ilk növbədə Avropa İqtisadi birliyinə daxil olan dövlətlərin kəmiyyət artımında təzahür edir. 1994-cü ildə həmin təşkilata Avstriya, İsveç və Finlandiya daxil olduqdan sonra onun üzvlərinin sayı 15ə çatdı. Artıq Avropa parlamenti tipində xüsusi dövlətlərarası hakimiyyət orqanı yaradılır. Bütün bu tə'sisatlar Qərbi Avropa ölkələrinin daha sıx siyasi inteqrasiyasını nümayiş etdirir.

Müasir dövlətin inkişafında əhəmiyyətli **meyllərdən** digəri cəmiyyətin birliyini tə'min edən xüsusi ideologiyaya malik olmaq səy'ləridir. Əgər cəmiyyəti vahid şəkildə birləşdirmək ideyası yoxdursa onda dövlət öz inteqrasiya funksiyasını itirir. Belə halda müxtəlif qruplar hakimiyyətin ali orqanlarına təzyiq göstərməklə "özlərinə lazım olan sayda ictimai şəkərbura tələb edəcəklər. Nəticədə dövlət bütün cəmiyyətin mənafeyini ifadə etmək imkanından kənarda qalacaq.

---

[1] Desentralizasiya mərkəzi orqanların bə'zi vəzifələrinin yerli orqanlara verilməsi deməkdir.

İdeoloji dayaq hazırda Azərbaycan üçün daha vacibdir. **Milli ideologiyanın mövcudluğu ölkəmizdə xalqın dövlət ətrafında sıx birləşməsinin, milli birliyin, həqiqi vətənpərvərliyin bərqərar olmasını tə'min etmiş olardı.** Yeri gəlmişkən qeyd edək ki, 90-cı illərin ikinci yarısında milli ideologiyanın yaradılması ilə bağlı kütləvi informasiya vasitələri xüsusilə, mətbuat xeyli fəallıq göstərdi. Təssüf ki, ziyalıların, siyasət sferasında çalışan bə'zi şəxslərin bu istiqamətdə fəallığı azaldı, ictimai rə'y dalğası diqqətdən yayındı. Bir sözlə, milli ideologiya ilə bağlı təbliğat kompaniya xarakteri daşıdı.

Nəhayət, müasir dövlətin inkişafında səciyyəvi **meyllərdən** biri isə bürokratik idarəetmə aparatının ixtisar olunmasıdır, onun saxlanılmasına sərf edilən xərclərin azalmasıdır. Dövlət qulluqçuları-bürokratlar həmişə özlərinin eqoist mənafeyini güdür. Bu isə dövlətin **mənafeyinə** uyğun gəlmir.

Dövlət haqqında yürütdüyümüz mülahizələri ümumiləşdirmək və konkretləşdirmək əsasında ona belə bir tə'rif vermək olar: **Dövlət bütün vətəndaşlar üçün məcburi xarakter daşıyan dövlət hakimiyyətinin köməyilə müəyyən ərazidə müəyyən əhalinin həyatını təşkil və idarə etmək məqsədilə yaradılan və cəmiyyətin siyasi sistemində xüsusi, başlıca, spesifik yer tutan tə'sisatdır.** Dövlətin mahiyyəti daha çox onun funksiyalarında təzahür edir.

Dövlətin ən'ənəvi iki başlıca funksiyası vardır: **Daxili** və **xarici** funksiyalar. Dövlətin **daxili funksiyasına** bunlar aiddir: 1)Mövcud siyasi quruluşu, cəmiyyətin sosial-siyasi strukturunu qoruyub saxlamaq; 2)Təsərrüfat-təşkilatçılıq və ictimai-iqtisadi vəzifələr (iqtisadiyyatın tənzimlənməsi, iqtisadi sabitliyə nail olmaq); 3) Sosial vəzifələr, yə'ni sosial proqramın yerinə yetirilməsi; 4) Mədəni-tərbiyə vəzifələri. Buraya təhsilin, mədəniyyətin, elmin inkişaf etdirilməsi, tərbiyə məsələlərinin tənzimlənməsi, bir sözlə, cəmiyyətin mə'nəvi həyatının daim təkmilləşdirilməsi daxildir. **Xarici funksiyaya** ölkənin müdafiəsi, beynəlxalq aləmdə onun mənafeyinin qorunması və suverenliyinin tə'min olunması aiddir.

Siyasi tə'sisat olmaq e'tibarilə dövlət bir sıra mühüm vəzifələri həll edir. Bunlara ilk növbədə cəmiyyətdə siyasi

sabitliyin tə'min edilməsi, müxtəlif mənafelərə malik olan ayrı-ayrı sosial qruplar arasındakı münaqişələrin, ziddiyyətlərin üzə çıxarılması və aradan qaldırılması, vətəndaşların hüquq və azadlıqlarının qorunması, onların təhlükəsizliyinin tə'min edilməsi, hüquq qaydalarının gözlənilməsinə nail olmaq daxildir.

Dövlət həyatının təşkilinin əsas qaydaları, xüsusilə dövlətin siyasi təşkilinə aid başlıca prinsiplər dövlətlərin konstitusiyalarında təsbit olunmuşdur. Yeri gəlmişkən qeyd edək ki, İsrail, Səudiyyə Ərəbistanı, Butan və Oman müstəsna olmaqla dünya ölkələrinin böyük əksəriyyəti yazılı konstitusiyaya malikdir.

Müasir dövlətin sosial funksiyalarının əhatə dairəsi getdikcə genişlənir. Məsələn, indiki elmi-texniki tərəqqi dövründə informasiya sahəsində dövlətin rolu olduqca böyükdür. **İnformasiya funksiyası** hazırda dövlətin funksiyaları içərisində ən aparıcılarından sayılır. Bu funksiyanın məzmunu çoxplanlıdır. Buraya informasiya-təbliğat, informasiya-idarəetmə, informasiya-istehsal və informasiya-mədəniyyət sahəsindəki fəaliyyət aiddir. **İnformasiya sənayesi** və onun təşkili dünyanın əksər ölkələrində dövlətin ən mühüm fəaliyyət sferasına çevrilib, bə'zi ölkələrdə isə dövlətin inhisarına keçib. İdeoloji aparat dövlət tə'sisatlarının ayrılmaz ünsürünü təşkil edir. İctimai-siyasi informasiyanın idarə olunması məhz, dövlət tə'sisatlarının fəaliyəti ilə bağlıdır.[1]

İnformasiyanın cəmiyyətdə oynadığı böyük rol zamanın ən başlıca tələblərindən biri olan aşkarlığı doğurdu. Adamların siyasi, iqtisadi, sosial və mədəni həyatı haqqında, onların mənafeləri barədə informasiya cəmiyyətin sərvəti olmalıdır. Sivilizasiyalı cəmiyyətin prinsipi məhz, bundan ibarətdir.

Qeyd etmək lazımdır ki, müasir dövlətin funksiyalarının genişlənməsi, ictimai həyatın müxtəlif sferalarında onun rolunun güclənməsi politoloqlar tərəfindən birmə'nalı qiymətləndirilmir. Məsələn, Yuqoslaviyada marksist ədəbiyyatda belə bir fikir hakimdir ki, dövlətin funksiyalarının daha da güclənməsi **etatizasiya**[2] prosesinə gətirib çıxarır və vətəndaş cəmiyyətinin zəifləməsinə səbəb olur.

---

[1] Рокар. М. Трудиться с душой. М. 1990. Səh. 132-134.

[2] Etatizasiya ictimai həyatın bütün sahələrinə, xüsusilə iqitsadi sferaya dövlətin təzyiqinin güclənməsi deməkdir.

Əlbəttə, belə fikirlə razılaşmaq çətindir. Siyasi elitanın həyata keçirdiyi dövlət hakimiyyəti cəmiyyətdə nəinki idarəetmə, həm də əlaqələndirmə funksiyasını yerinə yetirir. Siyasi elita ziddiyyətlərin tənzimləyicisi kimi çıxış edir. O, ictimai sistemin əsaslarını qoruyan, sosial qrupların qarşılıqlı toqquşmalarının qarşısını ala biləcək güzəştlərin, kompromisin formalarını, yollarını arayıb tapır. Dövlət hakimiyyəti daxili ziddiyyətlərlə yanaşı, xarici ziddiyyətləri, başqa sözlə,digər ölkələrlə münasibətlərdə meydana çıxan münaqişəli vəziyyəti aradan qaldırmağa, ortaya çıxan dövlətlərarası ziddiyyətləri tənzimləməyə çalışır. Bununla əlaqədar dövlət hakimiyyətini həyata keçirən elita milli müdafiə vəzifələrini həll edir, diplomatik münasibətlərin həyata keçirilməsini reallaşdırır.

**Dövlətin sosial funksiyalarının genişlənməsi** əhalinin gözündə **onun legitimliyini** daha da təsdiqləyir. Dünya siyasi praktikası sübüt edir ki, dövlətin idarəetmə funksiyaları bu və ya başqa şəkildə hər yerdə genişlənir. Bütün ölkələrdə iqtisadi və sosial yüksəliş, mədəniyyətin inkişafı dövlətin fəaliyyətindən kənarda mümkün deyildir. Təsadüfi deyil ki, dövlətin aradan qaldırılmasını, ləğvini bu gün heç kim nəinki tələb etmir, hətta arzulamır da. Yadda saxlamaq lazımdır ki, dövlət zəruri tarixi-ictimai fenomendir.

## 3. DÖVLƏT İDARƏÇİLİYİNİN FORMALARI

Müasir dünyanın hər bir dövləti başqalarından çoxlu spesifik cəhətləri və səciyyəvi xüsusiyyətləri ilə fərqlənir. Bu cəhətlər və xüsusiyyətlər müasir dövlətlərin özünəməxsus tarixi təkamülü gedişində dini-mədəni ən'ənələrinin, sosial və etnik münaqişələrin xarakterinin, xarici siyasi və təbii amillərin tə'siri altında təşəkkül tapmışdır. Dövlət quruluşu ən'ənəvi olaraq idarəçilik və ərazi formaları ilə səciyyələnir. Dövlətin formalarının müəyyənləşdirilməsində onun tam şəkildə necə adlanması da kömək edir. Bu baxımdan Böyük Britaniyanın Birləşmiş Krallığı və Şimali İrlandiya, Vatikan dövləti-şəhəri, Almaniya Federativ Respublikası,

İran İslam Respublikası, Cənubi Afrika Respublikası, İsveç Krallığı və s. səciyyəvidir. Dövlətin təsnifatının politoloji təhlili həmin təsnifatın hansı me'yar əsasında aparılmasından asılıdır. Siyasi fikir tarixində **dövlət quruluşu formalarının ilk təsnifatı Platon və Aristotel** tərəfindən verilmişdir. Onlar dövlətin təsnifatı üçün hakimiyyətin mənbəyinin kimdən ibarət olduğunu əsas götürürdülər.

Renesans dövründən başlayaraq dövlətin monarxiyaya və respublikaya bölünməsi tipik hal kimi diqqəti cəlb edir. Belə bölgü XIX əsrə qədər saxlanılır və hazırda da öz əhəmiyyətini itirməyib. İndiki şəraitdə dövlətin təsnifatı üçün başlıca me'yar bunlar götürülür: idarəetmə formaları; hakimiyyətin həyata keçirilməsi metodları; dövlətin milli-ərazi prinsipi üzrə təşkili; dinə münasibət və s. İdarəetmə formaları hakimiyyətin təşkili üsuluna və onun formal mənbəyi baxımdan **monarxiyaya və respublikaya** ayrılır. Monarxiyada dövlət başçısının hakimiyyəti başqasına irsi olaraq keçir. Monarxiya tə'sisatı indiyə kimi 40-a yaxın ölkədə qalır. Maraqlıdır ki, Kanada, Avstraliya, Yeni Zelandiya kimi ölkələrdə hüquqi cəhətdən dövlət başçısı Böyük Britaniyanın kralı sayılır. Monarxiya idarəetmə forması **konstitusiyalı və mütləq monarxiyadan** ibarətdir. Konstitusiyalı monarxiyanın da müxtəlif növləri vardır. Geridə qalan ölkələr üçün səciyyəvi olan həmin növlərdən biri **dualist monarxiyadır.** Burada monarx əslində icraedici hakimiyyəti həyata keçirir, qanunverici hakimiyyət isə parlamentə məxsusdur (İordaniya, Mərakeş, Küveyt). İnkişaf etmiş sənaye ölkələrinin konstitusiyalı monarxiyasında nümayəndəli demokratiya tə'sisatlarının səlahiyyətləri məhdudlaşdırılmır. Monarxın hakimiyyəti qanunverici sferaya yayılmır və idarəetmə sahəsində əhəmiyyətli dərəcədə məhdudlaşdırılır. Qanunları parlament qəbul edir, veto hüququnun mövcud olduğu yerdə monarx bundan çoxdandır istifadə etmir. Hökumət parlamentin əksəriyyəti əsasında yaradılır və monarx qarşısında deyil, parlament qarşısında məs'uliyyət daşıyır. Bu o deməkdir ki, hökumət parlament deputatlarının əksəriyyəti tərəfindən müdafiə edilmədikdə istefa verməlidir və ya parlament buraxılmalıdır və növbədənkənar parlament seçkiləri tə'yin olunmalıdır. Ölkənin idarə olunmasını real surətdə hökumət həyata keçirir, monarx isə bütün öz

funksiyalarını hökumətlə sıx əlaqədə və əməkdaşlıq şəraitində yerinə yetirir.

Monarxın səlahiyyətlərinin konstitusiya yolu ilə möhkəmləndirilməsi haqqında həqiqi təsəvvürü Yaponiya konstitusiyasının I fəslində aydın görmək olar. Həmin fəslin I maddəsində deyilir: "İmperator dövlətin və xalqın birliyinin simvoludur. Onun statusu suveren hakimiyyətə malik olan bütün xalqın iradəsi ilə müəyyən olunur. İnkişaf etmiş demokratik ölkələrin siyasi idarəetmə sistemində monarxın vəziyyəti tam dəqiq olmasa da, yığcam formada belə müəyyənləşdirilmişdir: "Kral çarlıq edir, idarə etmir. Monarx dövlət işlərində hökumətin "təklifi və ya "razılığı ilə fəaliyyət göstərir. İngilis müəlliflərindən biri yazmışdır ki, əgər parlament kralı ölüm cəzasına məhkum edərsə həmin hökm müvafiq qanunvericilik layihəsi ilə təsdiq olunmalıdır. Bu qanunvericilik layihəsi isə öz növbəsində hökmü təsdiq edir. İnkişaf etmiş ölkələrdə konstitusiyalı monarxiya idarəetmənin sarsılmaz forması və qanunçuluğun, siyasi sabitliyin tə'minatçısı kimi çıxış edir.

**Mütləq monarxiyada** isə idarəetmə konstitusiyasız, bə'zi hallarda isə parlamentsiz həyata keçirilir. Mütləq monarxiya başlıca olaraq Asiya regionunda saxlanılır (Səudiyyə Ərəbistanı, Oman, Qatar və s.) Maraqlıdır ki, avropanın bir sıra inkişaf etmiş ölkələrində məsələn, Bolqarıstan, Rumıniya və Fransada monarxiya əhval-ruhiyyəsi güclüdür, ona meyilli adamlar çoxdur. Müasir demokratik monarxiyaların böyük əksəriyyəti parlamentli monarxiyalardır. Bu idarəetmə formasında hökumət parlamentin əksəriyyəti tərəfindən formalaşır. Monarxiya minillər boyu hakim idarəetmə forması olmuşdur. Bu gün o, spesifik formada dünyanın demək olar ki, üçdə bir hissəsində mövcudur (məsələn, Böyük Britaniyada, İsveçdə, Danimarkada, İspaniyada).

Hakimiyyət orqanlarının xalq tərəfindən seçildiyi idarəetmə forması isə **respublikadır.** Respublika elə idarəetmə formasıdır ki, burada dövlət başçısı seçilir, dəyişdirilir, nümayəndəli orqan və ya bilavasitə seçicilər adından məhdudlaşdırılan formada hakimiyyətə sahib olmaq hüququ əldə edir. Müasir dünyada respublika daha çox yayılan idarəetmə formasıdır. Respublika şəraitində hakimiyyətin mənbəyini xalqın əksəriyyəti təşkil edir, dövlətin ali

orqanları isə vətəndaşlar tərəfindən seçilir. İdarəetmə forması olmaq e'tibarilə respublikanın müasir dövrdə üç başlıca növü vardır: **prezidentli respublika, parlamentli respublika** və **qarışıq** və ya **yarımprezidentli respublika.**

Prezidentli respublika ilk dəfə ABŞ-da tə'sis edilmişdir. Sonralar XIX əsrin birinci yarısında İspaniyanın müstəmləkəçiliyindən azad olan Latın Amerikası ölkələrində siyasi quruluş nümunəsi kimi ABŞ-a xas olan prezident idarəçiliyi təşəkkül tapdı. Prezidentli respublika üçün belə bir cəhət səciyyəvidir ki, prezident həm dövlətin, həm də hökumətin başçısı kimi çıxış edir. Prezident idarəçiliyinin fərqləndirici xüsusiyyəti bundan ibarətdir ki, prezident və parlament (konqres) ayrı-ayrı seçkilər vasitəsilə seçilir. Bu xüsusiyyət həmin tə'sisatların bir-birindən qeyri-asılılığını gücləndirir. Belə forma onu ifadə edir ki, parlamentin hökuməti buraxmaq və ya prezidentin fəaliyyətinə qarışmaq hüququ yoxdur. Prezident konstitusiyanı pozarsa, cinayət etmiş olarsa, konqres ona qarşı impicment[1] məsələsini ortaya ata bilər. Öz növbəsində prezident parlamenti buraxıb yeni seçkilər tə'yin edə bilməz. Hökumət üzvləri konqresə deputat seçilə bilməzlər. Prezident böyük hakimiyyət səlahiyyətlərinə malikdir. O, hökumətin üzvlərini tə'yin edir. Əlbəttə, qanunvericilik məclisi (senat) bəyəndikdən sonra. Prezident nazirlər kabinetinin tərkibinə müstəqil fəaliyyət göstərən mütəxəssisləri və hətta müxalifət partiyalarını təmsil edən siyasətçiləri cəlb edə bilər. Prezident daxili və xarici siyasətə rəhbərlik edir, ölkənin silahlı qüvvələrinin ali baş komandanıdır. O, parlamentin qərarına veto qoymaq hüququna malikdir.

Prezidentli respublikanın siyasi təcrübəsi sübut edir ki, siyasi idarəetmə sistemində real aparıcı qüvvə prezidentdir, icraedici hakimiyyətdir.

Prezidentli respublika Avropada yayılmamışdır. O, daha çox Latın Amerikası ölkələri üçün səciyyəvidir.

**Parlamentli respublika** hökumətin parlament əsasında formalaşması ilə fərqlənir. Belə idarəçilik formasında hökumət qanunverici hakimiyyət orqanı qarşısında mə'suliyyət daşıyır.

---

[1] İmpicment-yə'ni dövlət başçısının və vəzifəli şəxslərin parlament məhkəməsinə cəlb olunması.

Parlament tərəfindən hökumətə **votum**[1] etimadsızlığı hökumətin istefasına və ya parlamentin buraxılmasına və tə'cili seçkilər keçirilməsinə gətirib çıxarır. Hökumətin tərkibində müəyyən vəzifələri yalnız qanunverici məclisdə və ya onun aşağı palatasında əksəriyyət yerə malik olan partiyanın deputatları əldə edə bilər. Nəticə e'tibarilə hökumətin üzvləri həmişə eyni vaxtda həm icraedici, həm də qanunverici hakimiyyətdə təmsil olunurlar. Bu cəhət ən'ənəvi prezident respublikasında mümkün deyildir.

Hökumət icraedici hakimiyyətin daşıyıcısı olmaqla yanaşı, bə'zi hallarda qanunvericilik təşəbbüsündə olur və hətta parlamentin buraxılması haqqında prezident qarşısında vəkalət qaldıra bilər (xahiş formasında). Lakin hökumətin rəhbəri (baş nazir, kansler) rəsmi olaraq dövlət başçısı hesab olunmur, əslində isə o, siyasi iyerarxiyada birinci şəxs sayılır. Prezident ya parlament, yaxud seçicilər yığıncağı və ya bilavasitə xalq tərəfindən seçilir. Onun siyasi çəkisi demək olar ki, seçkilərin xarakterindən asılı deyildir və bir qayda olaraq nümayəndəçilik funksiyaları ilə məhdudlaşır. Prezident hökumətlə birgə icraedici hakimiyyəti həyata keçirir və hökuməti öz bildiyi kimi tə'yin etməkdə azad deyil, nazirlər kabinetinin tərkibini parlamentdə əksəriyyət təşkil edən partiyaların liderləri müəyyənləşdirir.

Bir sözlə, parlamentli respublikanın dövlət hakimiyyəti orqanları sistemində hökumət aparıcı mövqeyə malikdir. Parlament hökumətin fəaliyyətinə nəzarət etsə də əslində nazirlər kabineti qanunvericilərdən ehtiyat etmədən qərarlar qəbul etməkdə geniş müstəqilliyə malikdir. Belə səlahiyyət birpartiyalı parlamentin əksəriyyətinə arxalandıqda daha möhkəm əsasa malik olur. Prezidentli respublikadan fərqli olaraq parlamentli respublikada səsvermə zamanı deputatlar ciddi partiya intizamına riayət edirlər. Parlamentli respublika prezidentli respublika ilə müqayisədə sabitliyin az olması ilə fərqlənir, eləcə də parlamentli respublikada hökumət dəyişikliyi və növbədənkənar seçkilər tez-tez baş verir. Əlbəttə, demokratik ən'ənələrə əsaslanan ölkələrdə belə hadisələr ictimai sarsıntılarla müşahidə olunmur. Lakin sosial-siyasi böhranlar dövründə hökumətin qeyri-sabitliyi siyasi strukturların dağılması amili kimi səciyyələnir.

---

[1] Votum latın sözü olub səsvermə yolu ilə ifadə olunan qərar, rə'y deməkdir.

Əgər prezidentli respublikanın klassik tipi ABŞ-dırsa, parlament respublikasının siyasi quruluşunun əsl nümunəsi İngiltərədəki dövlət quruluşudur. Parlamentli respublika ən çox Avropada yayılmışdır. Avropanın 15 ölkəsindən 7-si parlamentli monarxiyadırsa (Böyük Britaniya, Danimarka, Belçika, Niderland, Lüksenburq, İspaniya, İsveç), 8-i parlamentli respublikadır (Fransa, İtaliya, Almaniya, Yunanıstan, İrlandiya, Portuqaliya, İsveçrə, Finlandiya). Əhalinin prezidenti birbaşa seçməsi ilə əlaqədar Fransa, Portuqaliya və Finlandiya kimi ölkələrin özünəməxsus xüsusiyyətləri vardır. Buna görə bə'zən həmin ölkələrin siyasi quruluşu **qarışıq idarəetmə** forması adlanır. Belə idarəçilik forması özündə prezidentli və parlamentli idarə formasının ünsürlərini əlaqələndirir. Təsadüfi deyil ki, bə'zi hallarda onu **yarımprezidentli** idarəetmə forması adlandırırlar. 1958-ci il konstitusiyası ilə Fransada yaradılan V respublika buna aydın misal ola bilər. Bu idarəçilik forması həmçinin Polşada, Bolqarıstanda və digər ölkələrdə mövcuddur. Yarımprezidentli idarə üsulu prezidentli və parlamentli respublikalara xas olan sabit tipik xüsusiyyətlərə malik deyil. Onun **başlıca səciyyəvi cəhəti hökumətin prezident və parlament qarşısında ikiqat mə'suliyyət daşımasıdır.**

Dövlət quruluşu formalarının təsnifatı üçün başlıca me'yar onların milli-ərazi üzrə təşkilidir. Bu me'yara uyğun olaraq dövlət quruluşunun **unitar, federasiya və konfederasiya formaları mövcuddur.**

Dövlətin ərazi üzrə təşkili hakimiyyətin mərkəzi və regional orqanlarının nisbəti ilə səciyyələnir. Dövlətin ərazi quruluşu üzrə iki başlıca forması vardır: Unitar və federasiya. Unitar dövlətdə ali dövlət hakimiyyəti orqanlarının yeganə sistemi, vahid idarəetmə və hüquq mövcuddur. Unitar dövlət inzibati-ərazi vahidindən ibarət olan, xüsusi əlahiddə dövlət təşkilatının olmadığı siyasi cəhətdən yekcins, vahid siyasi tə'sisatdır. Bu dövlət formasında vahid konstitusiya, vahid məhkəmə sistemi və vahid vətəndaşlıq mövcuddur. Dövlət quruluşu forması olmaq e'tibarilə unitarlığı inzibati mərkəzləşmə ilə eyniləşdirmək olmaz. İnzibati mərkəzləşmə keçmişdə mütləq monarxiyaya xas idisə yeni dövrdə totalitar və avtoritar rejimlərin praktikasında təzahür edir.

Demokratik ölkələrdə hakimiyyətin bütün tə'sisatlarının razılaşdırılmış siyasi fəaliyyəti sayəsində **siyasi mərkəzləşmənin yüksək mərhələsi** əldə olunur.

Unitar dövlət əsasən əhalisi bir millətdən olan ölkələrdə formalaşır. Lakin elə ölkələr də vardır ki, burada unitar dövlət başqa milli birliklərin mövcudluğu ilə səciyyələnir və onların problemləri muxtar qürumların köməyilə həll olunur. Bu baxımdan Böyük Britaniya, İspaniya və Finlandiya daha səciyyəvidir. Azərbaycan Respublikasının Konstitusiyasında deyildiyi kimi, Azərbaycan dövləti unitar respublikadır.

**Federasiya** elə dövlətdir ki, öz tərkibində müəyyən müstəqilliyə malik olan inzibati-ərazi bölgüsü və qanunvericiliyi ilə səciyyələnən dövlət birliklərini birləşdirir. Federasiyanı unitar dövlətdən fərqləndirən başlıca cəhət bundan ibarətdir ki, burada hakimiyyətin mənbəyini, dövlətin suverenliyinin subyektini iri ərazi birlikləri, məsələn, respublikalar, ştatlar, **kantonlar**[1] əyalətlər, torpaqlar təşkil edir. Federasiyada bütün xalq bərabər hüquqlu sayılır. Bu dövlətdə hakimiyyətin ali federal orqanları və federasiyanın subyektləri səviyyəsində hakimiyyətin ali orqanları mövcuddur. Burada ikiqat məhkəmə sistemi, ikiqat vətəndaşlıq, ikiqat hüquq və sair səciyyəvidir.

Federalizmin me'yarı hakimiyyətin ali federal orqanları tərəfindən federasiyaya daxil olan bütün ərazi üzərində nəzarətdən ibarətdir. Federasiyanın subyektinin onun tərkibindən çıxmaq hüququ vardır. Federasiyanın subyektləri müstəqil konstitusiyaya malik ola bilər, lakin bu federasiya konstitusiyasına zidd olmamalıdır. Federasiyada sərhədlər onun subyektlərinin rə'yi nəzərə alınmaqla dəyişdirilə bilər. Federativ dövlətlər üçün bütün federal strukturlarda nümayəndəliyi əks etdirən ikipalatalı parlamentlər səciyyəvidir. Federasiya subyektləri xeyli səlahiyyətlərə malikdir.

Müasir tipli federativ dövlətlər XVIII əsrin axırlarında yaranmışdır. ABŞ ilk federativ dövlət hesab oluna bilər. 1787ci il Konstitusiyasından sonra ABŞ-ın siyasi quruluşunu və onun yeni dövrdəki federativ dövlətini fərqləndirən cəhət bundan ibarətdir

[1] Kanton bə'zi ölkələrdə inzibati ərazi bölgüsü deməkdir.

ki, ittifaq orqanlarına (ştatlara) vergi tətbiq etmək, qanunlar vermək, inzibati idarəçiliyi həyata keçirmək və sair hüququ verilir. Siyasi idarəetmənin iki səviyyəli sistemi belə təşəkkül tapmışdır. Federasiya tarixən Almaniya, ABŞ və İsveçrə kimi ölkələr üçün siyasi dağınıqlığın (parçalanmanın) aradan qaldırılması forması olmuşdur. Həmin ölkələrdə ittifaq dövlətinin yaranması onların heç birində millətlərarası münasibətlərin tənzimlənməsinə xidmət etməmişdir. Buna görə klassik federasiyalarda siyasi-ərazi bölgüsü əhalinin milli tərkibinə bənd olunmaması ilə diqqəti cəlb edir. Hazırda xeyli ölkənin siyasi praktikasında milliyyəti vətəndaşlıq kimi müəyyənləşdirmək yayılmışdır, əhalinin çoxmillətli tərkibi rəsmi qaydada e'tiraf olunmur. Məsələn, Hindistanda bir neçə linqvistik qruplar da daxil olmaqla vahid hind xalqının mövcudluğu konsepsiyası qəbul olunmuşdur.

Hazırda federasiya dövlət quruluşu Avstraliyada, Avstriyada, Argentinada, Belçikada, Braziliyada, Venesuelada, Hindistanda, Kanadada, Meksikada, Nigeriyada, Pakistanda, Rusiyada, ABŞ-da, AFRdə, İsveçrədə və s. ölkələrdə mövcuddur. Öz-özlüyündə federasiya xeyli regional və milli ziddiyyətləri aradan qaldırmağa qadir deyildir. Bununla belə federativ struktur siyasi manevr üçün, təzahür edən ziddiyyətlərin və problemlərin aradan qaldırılması naminə üsullar axtarılmasına böyük meydan açır. Lakin daxili münaqişələrin sülh yolu ilə həlli, federasiya mərkəzi ilə onun subyektləri arasında razılığın əldə edilməsi, onların qarşılıqlı mənafelərinin nəzərə alınması, ittifaq iştirakçılarının dövlət müstəqilliyinin saxlanması yalnız regional və yerli özünüidarənin möhkəm ən'ənələrinə əsaslanan demokratik dövlətlərdə mümkündür.

**Konfederasiya** müstəqil dövlətlərin ittifaqı olmaqla hər hansı ümumi məqsədlərin, əsasən isə xarici məqsədlərin həyata keçirilməsi naminə yaradılan dövlət quruluşu formasıdır. Onun üzvləri tam müstəqildir, ittifaqın səlahiyyətinə məhdud sayda məsələlərin həlli həvalə edilir. Həmin səlahiyyət ilk növbədə müdafiə sahəsinə, xarici siyasətə, nəqliyyat və rabitəyə, pul sisteminə, bə'zi hallarda isə gömrük məsələsinə aiddir. Konfederasiya müstəqil dövlətlərin könüllü birliyidir. **Konfederasiyada alilik müqavilə iştirakçısı olan dövlətlərin konstitusiyasına və qanunlarına aiddir.** Federasiyadan fərqli olaraq

konfederativ müqavilə onun iştirakçılarının hər biri tərəfindən birtərəfli qaydada pozula bilər. Konfederasiyanın mərkəzi orqanları onun tərkibinə daxil olan dövlətlərin vətəndaşları üzərində birbaşa hakimiyyətə malik deyildir, həmin orqanların qərarları ümumi razılıq əsasında qəbul olunur və ittifaqa daxil olan hər bir dövlətin hakimiyyət tə'sisatları tərəfindən həyata keçirilir. Konfederasiyada vahid hüquq və vergi sistemi mövcud deyil.

Konfederasiya bir sıra ölkələrdə müəyyən tarixi mərhələlərdə mövcud olmuşdur. Belə ki, ABŞ-ın (1767-1787-ci illər), İsveçrənin (1848-ci ilə qədər), Almaniyanın (1815-1867-ci illər) dövlət quruluş forması konfederasiya ilə səciyyələnmişdir. Konfederasiya dövlətin ərazi quruluşunun forması kimi federasiyadan fərqli olaraq həyat qabiliyyətinə malik olmadığını göstərmişdir. Yeni dövrdə konfederasiya hər şeydən əvvəl, iştirakçılarının daha sıx birləşdiyi dövlətlərin ittifaqına (federasiyaya və unitar dövlətə) keçid forması kimi səciyyələnmişdir. Hazırda konfederasiyanın bə'zi cəhətləri Avropa iqtisadi birliyində diqqəti cəlb edir.

Sovet imperiyası dağıldıqdan sonra keçmiş SSRİ-nin ərazisində Müstəqil Dövlətlər Birliyi yaradılmasına cəhd edilmişdir. Bu birlik öz fəaliyyətini müxtəlif sferalarda əlaqələndirir. Azərbaycanın da daxil olduğu bu dövlətlər birliyi sabit və səmərəli ola bilməz. Çünki MDB ona daxil olan dövlətlərin fəaliyyət birliyini tə'min etmir, onların öz üzərinə götürdüyü öhdəlikləri yerinə yetirmələri üçün hakimiyyət tə'minatı yaradılmayıb, birliyin bə'zi üzvləri arasında müxtəlif məsələlərə dair fikir ayrılığı, ərazi iddiaları və sair nəzərə çarpır. Avropa Birliyinin inkişafı təsdiqləyir ki, dövlətlərin uzunmüddətli birliyi və yaxınlığı məhz, iqtisadi inteqrasiya əsasında mümkündür.

Dövlətin təsnifatının digər me'yarları da mövcuddur. Belə ki, dinə münasibətdə dövlət **dünyəvi və dini** ola bilər. Dini dövlətlər bir qayda olaraq ruhani şəxslər – din xadimləri tərəfindən idarə olunur. Hakim din idarəetmənin əsası kimi qəbul olunur. Belə dövlət strukturu islam ölkələrində, xüsusilə, İran İslam Respublikasında və Pakistanda böyük əhəmiyyət kəsb edir.

Gələcəkdə konfederasiyanın cəhətlərini özündə birləşdirən yeni dövlət birliyi də yarana bilər.

## 4. HÜQUQİ DÖVLƏT VƏ VƏTƏNDAŞ CƏMİYYƏTİ

Hüququn və ya qanunun ictimai həyatda qərarlaşması ideyası qədim dövrdə ilk dövlətlərin yaranması vaxtına təsadüf edir. Elə hüquqi dövlətin özü də dövlətçiliyin müvafiq ideyaları və ünsürləri əsasında formalaşır. Qanunun hakimiyyəti, vətəndaşların hamısı üçün onun eyni olması haqqında hələ eramızdan əvvəl VI əsrdə qədim yunan **arxontu**[1] **Solon** söhbət açmışdır. Afina dövlətinin yaranmasının başa çatması məhz, **Solonun** və **Klisfenin** məşhur islahatları ilə bağlıdır. Beləliklə, hüquq meydana gəldiyi andan nəinki ictimai münasibətlərə tə'sir vasitəsi həm də dövlət hakimiyyətinin normal fəaliyyətinin amili kimi çıxış edir. Dövlət hakimiyyətinin hüquqi əsasının müəyyənləşdirilməsi problemi bütün siyasi-hüquqi fikrin xüsusi predmetini təşkil etmiş və bir-birinə qarşı duran sosial qüvvələrin (siniflərin) ideologiyasında müxtəlif həllini tapmışdır.

Dini dünyagörüşün hakim olduğu kapitalizmə qədərki şəraitdə mövcud ictimai qaydaların ilk səbəbi ilahi varlığa müncər edilir və hakimiyyətin qanuni əsası bir qayda olaraq dini məsləhətlərlə (vəsiyyətlərlə) əlaqələndirilirdi.

Hakimiyyətin ilahi qanunlara tabe olması ideyasını kahinlər və quldarlıq aristokratiyasının nümayəndələri **(Platon, Aristotel)**, xristian kilsəsinin "atası **Avqustini**, orta əsrlər sxolastı **Akvinalı Foma** müdafiə və inkişaf etdirmişlər. Onlar haqlı olaraq allah tərəfindən qabaqcadan verilən, "təbiətdən, "əsrdən gələn qanunu qəbul edirdilər. Platon yazırdı: "Qanunun qüvvəyə minmədiyi və kiminsə hakimiyyəti altında olduğu yerdə dövlətin tezliklə məhv olacağını hiss edirəm. Qanunun hökmdarlar üzərində hakim olduğu, onların qanunun köləsinə çevrildiyi yerdə isə dövlətin xilas olmasını və bütün xoşbəxtliyi görürəm. Bunu yalnız allah dövlətə bəxş edə bilər ("Qanunlar əsərində). Bu fikirlə razılaşan Aristotel qeyd edirdi ki, "qanun hamının üzərində hökmranlıq etməlidir, vəzifəli şəxslər və xalq yığıncağı isə yalnız xüsusi məsələlərin müzakirəsi ilə məşğul olmalıdır. ("siyasət əsərində). Platondan sonra Aristotel təsdiqləyirdi ki, müdrik adamlara qanun

---

[1] Arxont-qədim Yunanıstanda hökumətin baş mə'murlarına deyilirdi.

lazım deyil. Çünki onlar o qədər mə'ziyyətlərə malikdirlər ki, bunun özü qanundur ("Siyasət əsərində).

Dövlətin özünün mahiyyətcə hüquqi birlik hesab olunması ideyası **Siserona** məxsusdur. Onun fikrincə, dövlət xalq iş olub "hüquq və mənafe ümumiliyi məsələsində çoxlu adamlar arasında razılıq əsasında yaranan birlikdir. Siseronun ideyaları dövlət haqqında hüquqi təsəvvürlərin inkişafında mühüm rol oynadı. O, platon-aristotel ən'ənələrini dərk etmək əsasında tipik yenilik kəsb edən aristokratik dünyagörüşünə yiyələnmişdir. Bu filosof sübut etməyə çalışmışdır ki, "həqiqi və birinci qanun əmr və qadağan etməyə qadirdir, o, hər şeydən uca olan Yupiterin birbaşa zəkasıdır. Siseron fikrini davam etdirərək yazırdı: qanun təbiətin qüvvəsidir, o, müdrik adamın ağılı və şüurudur, hüquq və hüquqsuzsuzluğun ölçüsüdür ("Qanunlar haqqında əsərində).

Dövlətin hüquqi birlik olması ideyası yalnız yeni dövrdə nəzəri cəhətdən əsaslandırılır. Həmin ideyanın əsaslandırılması kapitalist mülkiyyət formasının yaranması ilə əlaqədardır. Klassik hüquqi dünyagörüşün başlıca prinsiplərini ilk antifeodal inqilabları dövrünün ideoloqları olan **H.Qrotsi, B.Spinoza, T.Hobbs** və başqaları işləyib hazırlamışlar.

Siyasi-hüquqi münasibətlərin yenidən təşkili tarixində həlledici hadisə **C.Lokk** tərəfindən hazırlanan **hüquqi dövlət konsepsiyası** oldu.

Hüquqi dövlətə dair bu antimütləqiyyət konsepsiyası C.Lokkun 1690cə ildə yazdığı "İdarəetmə haqqında iki traktat əsərində formalaşdırılmışdır. Hüquqi dövlət haqqında layihənin praktiki olaraq reallaşdırılması məhz, Lokka məxsusdur. Onun hazırladığı bu layihə 1669-cu ildə İngiltərənin Amerikadakı müstəmləkəsi olan Karolinanın konstitusiyasında öz əksini tapmışdır. Sonralar siyasi-hüquqi və konstitusiya yaradıcılığında **İ.Kant, V.Qumbolt** və başqa mütəfəkkirlər fəal iştirak etmişlər.

Hüquqi dövlət yaradılması yolunda mühüm addım praktikada reallaşa bilməyən Fransa inqilabının Konstitusiyası və ABŞ Konstitusiyası hesab olunur. ABŞ Konstitusiyası ilk və ən sabit Konstitusiyalardandır. XIX-XX əsrlərdə konstitusiya problemi çox görkəmli alimlərin (**Q.Ellinek, K.Şmitt və s.**) siyasi və hüquqi tədqiqatlarının mühüm predmetinə çevrildi.

Siyasi-hüquqi rasionalizmin sosial zəminini əmtəə-pul, bazar münasibətlərinin inkişafı şərtləndirdi. Hüquqi dövlət idealını keyfiyyətcə yeni səviyyədə əsaslandıran klassik alman fəlsəfəsinin banisi **İ.Kant** oldu. Onun hüquq və dövlət haqqında tə'limi **ilk böyük siyasi doktrina idi.**

Kantın xidməti bundan ibarətdir ki, hüquq və dövlət anlayışı haqqında məsələ onun fəlsəfəsində metodoloji qaydada irəli sürüldü. Kantın tə'limi siyasi-hüquqi fikrin sonrakı inkişafına böyük tə'sir göstərdi. Onun ideyalarının tə'siri altında Almaniyada hüquqi dövlət nəzəriyyəsinin işlənib hazırlanmasına xüsusi diqqət yetirildi. Həmin nəzəriyyənin ən görkəmli nümayəndələri bunlardır: "Hüquqi dövlət terminini **ilk dəfə işlədən Robert fon Mol** (1799-1875), **Karl Teodor Velker** (1790-1869), **Otto Ber** (1817-1895), **Fridrix Yulius Ştal** (1802-1861), **Rudolf fon Qneyst** (1816-1895). Bu alimlərin zəhməti sayəsində **hüquqi dövlət ideyası terminoloji müəyyənlik** kəsb etdi və nəinki Almaniyada, hətta onun hüdudlarından kənarda geniş yayıldı. Dövlət tipi olmaq e'tibarilə hüquqi dövlətdə konstitusiya idarəçiliyi rejimi fəaliyyət göstərir, inkişaf etmiş və ziddiyyətli olmayan hüquq sistemi və səmərəli məhkəmə hakimiyyəti mövcuddur, o, hakimiyyətin bölünməsi ilə səciyyələnir, siyasət və hakimiyyət inkişaf etmiş nəzarətə malikdir.[1] Hakimiyyət və siyasət sisteminin ümumi demokratik vəzifələri onun hüquqi mexanizmi ilə üzvi surətdə bağlıdır. Hüquqi dövlətin əsasını hakimiyyətin, vətəndaşın, cəmiyyətin və hüququn bərabərliyi, onların qanun qarşısında hüquqi eyniliyi təşkil edir. Hüquqi dövlətin yaranmasının tarixi prosesi hüquqda suverenlik prinsiplərinin yayılmasından ibarət olmuş və olmaqdadır.

Hüquqi dövlət haqqında təsəvvür iki başlıca prinsip əsasında - dövlətdə qaydalara əməl etmək və vətəndaşların müdafiə olunması ilə yaranır. Burada hər bir adam qəbul olunan qərarların nəticələrini, ardıcıllığını və ümidverici olmasını nəzərə almaq hüququna malikdir, eləcə də qanunla dəqiq müəyyənləşdirilən öz hüquq və vəzifələrini başa düşür. **Hüquqi dövlətin başlıca məqsədi** ictimai həyatın bütün sferalarında öz vətəndaşlarının

---

[1] Политология: Энциклопедический словарь. Səh.314.

hüquq və azadlıqlarının həyata keçirilməsinə tə'minat verməkdir. Lakin həmin məqsədə çatmaq bu şərtlə mümkündür ki, vətəndaşlar öz növbəsində qanunlara və mövcud sistemin tə'sisatlarına hörmətlə yanaşsınlar. Hüquqi dövlət bütün vətəndaşlar üçün vahid və məcburi olan elə hüquqi qaydalar yaratmağa cəhd edir ki, onlar siyasətçilərin şıltaqlığından az asılı olsunlar. Suveren və vahid dövlətin tarixi tələbləri məhz, orta əsrlərdə feodal qaydaları üçün səciyyəvi olan hüquq və sanksiyaların[1] qeyri-bərabərliyinə cavab kimi meydana gəlmişdir. Həmin dövrdə cəmiyyətin fərdi üzvlərinin qanuna və hakimiyyətə münasibəti xeyli amillərlə şərtlənirdi. Bu amillər sırasında fərdin sosial vəziyyəti, bu və ya digər sosial qrupa mənsubluğu, hər hansı dinə meylli olması və s. daha səciyyəvidir.

Hüquqi dövlət hamı üçün vahid və məcburi olan hüquq qaydalırını, sosial, irsi və digər statusdan asılılıq kəsb edən qeyri-bərabərliyin və müxtəlif hüququn ləğvini nəzərdə tutur. Hazırda bütün vətəndaşların bərabər mahiyyətli olması və onların hüquqlarının eyni dərəcədə tə'min olunması prinsipi qərarlaşır.

Hüquqi dövlətin başlıca tə'sisatlarına və prinsiplərinə aşağıdakılar daxildir: Müxtəlif siyasi partiyalar və təşkilatlar vasitəsilə yaradılan nümayəndəlik; seçki sistemi; parlamentarizm, konstitusiyalılıq və hakimiyyətin bölünməsi; kilsənin dövlətdən ayrılması; ideologiyanın dövlətdən kənar olması; azadlığın bərabərlik üzərində üstünlüyü.

Hüquqi dövlət despot – istibdad dövlətindən fərqli olaraq müəyyən daimi normalar və qaydalar kompleksi ilə öz-özünü məhdudlaşdırır. Onların içərisində hakimiyyətin üç qola ayrılması norması mərkəzi yer tütür. Hər hansı hakimiyyət özünün ciddi ümumi funksiyalarını həyata keçirir, lakin birgə fəaliyyətində bir-birini tarazlaşdırır, demokratik normaların pozulmasına və hakimiyyətdən sui-istifadə edilməsinə qarşı tə'minat yaradırlar. Bununla yanaşı dövlətin vətəndaşları ümumi seçki sistemi və seçki prosesi vasitəsilə hakimiyyətə nəzarət etmək imkanı əldə edirlər. Hüquqi dövlət üçün səciyyəvi olan qarşılıqlı nəzarətin bu prinsipi hələ alman filosofu **İ.Kant** tərəfindən formalaşdırılmışdır.

---

[1] Sanksiya-bir müqavilə və ya qanunun yerinə yetirilməsini tə'min edən şərtdir.

Filosofun fikrincə, hər bir vətəndaş idarə edənləri məcbur etməlidir ki, onlar qanunları dəqiq və sözsüz yerinə yetirsinlər, eləcə də bunu, idarə edənlər vətəndaşlardan tələb etməlidirlər. Başqa sözlə, qanunverici də ayrıca vətəndaş kimi qanuna tabe olmalıdır.

Qanuni hakimiyyət özünün qərarlaşması və möhkəmlənməsi üçün hüquq formasında ifadə olunur. Çünki güc öz-özlüyündə hakimiyyəti yarada bilməz. Dövlət hüquqla, hüquq normaları ilə bağlıdır, buna görə o, elə bir qüvvədir ki, məhz, hüquqa xidmət göstərməlidir. Bu isə öz növbəsində onun ifadəsidir ki, dövlət insan hüquqlarına zidd olan qanunlar yarada bilməz.

Hüquqi dövlətdə hüquq ayrıca fərdin azadlığının tə'minatçısı kimi çıxış edir. Fərdin hüququnun qorunması belə bir cəhəti ifadə edir ki, o, istədiyi yerdə yaşamaq, həyat tərzi seçmək, fəaliyyət sferasını və növünü azad müəyyənləşdirmək hüququna malikdir. Hüquq şəxsiyyətin, mülkiyyətin, mənzilin, xüsusi həyat tərzinin, mə'nəvi azadlığın və sairənin toxunulmazlığını tə'min edir. **Cəmiyyətdə adamlar yox, qanunlar hökmranlıq etməlidir.** Dövlətin funksiyası isə bundan ibarət olmalıdır ki, vətəndaşlar arasındakı münasibətləri hüquq əsasında tənzimləsin. Demokratik hüquqi dövlətin hamıya aydın görünən **əlamətləri** bunlardır: siyasi prosesdə iştirak hüququ; siyasi partiyalar, müxtəlif maraq qrupları arasında müəyyən oyun qaydalarının gözlənilməsi; ümumi seçki prosesində hakimiyyətin bütün səviyyələrində hakimiyyət dəyişikliyi; parlamentirizmin və plyuralist demokratiyanın digər norma və prinsipləri.

Hüquqi dövlət hüququn üstünlüyünü nəzərdə tutmaqla dövləti obyektivlik və qərəzsizlik meyarı əsasında fəaliyyətə məcbur edir. **Hüquq** dövlət hakimiyyəti tərəfindən gözlənilə bilən sui-istifadə hallarını nəzərə alıb bu və ya digər şəxsiyyətin azadlığına tə'minat verməlidir. O, müxtəlif müəssisələrin, assosiasiyaların, cəmiyyətin hər bir üzvünün və dövlətin özünün fəaliyyətinin nəticələrinə qabaqcadan tə'minat verir. Hüququn vəzifəsi bundan ibarətdir ki, mübahisələri və mübahisəli problemləri gücə və qeyri-qanuni hallara əsaslanan formada deyil məhz, dinc vasitələrlə həll etsin. Hüquqi dövlətin mühüm əhəmiyyəti odur ki, burada bütün vətəndaşlar, prezident və ya süpürgəçi, general və ya

sıravi əsgər, zavod direktoru və ya fəhlə qanun qarşısında bərabərdir və onun pozulmasına görə bərabər mə'suliyyət daşıyırlar.

Bu mə'nada ABŞ-ın keçmiş prezidenti **R.Niksona** aid olan misal ibrətamizdir. Bu dövlət xadiminin həm amerika xalqı, həm də dünya birliyi qarşısında xidmətləri danılmazdır. Məhz, onun prezidentliyi dövründə ABŞ-ın Vyetnamda apardığı çoxillik mə'nasız müharibəyə son qoyuldu. Nikson amerika xalqının böyük nüfuzunu qazanmışdı. Təsadüfi deyil ki, o, dalbadal iki dəfə (1968 və 1972-ci illərdə) öz rəqibləri üzərində böyük üstünlük qazanmaqla prezident seçildi. Lakin belə bir sirr üzə çıxarıldı ki, seçki kompaniyası ərəfəsində R.Niksonun komandası bə'zi hüquqa zidd hərəkətlərə yol vermişdir. Bunu bilən prezident üzə çıxarılan mə'lumatları istintaq orqanlarından gizlədir. Həmin mə'lumat ictimaiyyətə və hüquq mühafizə orqanlarına mə'lum olduqda prezidentin məhkəmə yolu ilə hakimiyyətdən uzaqlaşdırılacağı təhlükəsi ortaya çıxdı. Məhkəmədən qaçmaq və həbs olunmaqdan yayınmaq məqsədilə Nikson istefa verməyə məcbur oldu. Beləliklə, qanun ölkənin ən yüksək vəzifəli vətəndaşını hüquq qaydalarını pozan sıravi amerikalıların sırasına cəlb etdi.

Hüquqi dövlət özünün formalaşması və qərarlaşması prosesində nəinki fərdi azadlığın və hüququn qanunvericiliklə tə'min olunmasını işləyib hazırlayıb və möhkəmlədib, həm də **vətəndaş cəmiyyətinin** normal mövcudluğu və fəaliyyəti, onun başlıca tə'sisatları, prinsipləri və dəyərləri üçün başlıca tə'minat yaradıb. Hüquqi dövlət vətəndaş cəmiyyəti ilə bir sıra ümumi və birləşdirici hüquqi əsasa malikdir ki, bu da mahiyyət e'tibarilə ümumbəşəri xarakter daşıyır.

Vətəndaş cəmiyyətində bir-birinə zidd olan xüsusi mənafelər təmərküzləşir. Vətəndaşların ümumi iradəsini ifadə edən hüquqi dövlət real həyati prosesdə bu mə'nafeləri barışdırmalı və uyğunlaşdırmalıdır. Əgər dövlət mülkiyyətçilərin iqtisadi mənafeyinin siyasi ifadəsi olsaydı bu halda o, oliqarxiya respublikası formasını əks etdirərdi. Lakin dövlət quruluşunun əsasını təşkil edən demokratik prinsiplər əhəmiyyətli dərəcədə dövlətin müstəqilliyini, onun tə'sisatlarının fəaliyyətinin bu və ya digər iqtisadi və sosial-sinfi mənafelərdən asılı olmamasını tə'min edir. Bu qeyri-asılılıq vətəndaş cəmiyyətinin mövcudluğu

və onunla hüquqi dövlət arasında real uyğunluğun təzahürü ilə şərtlənir.

**Vətəndaş cəmiyyəti politologiyanın ən qəribə** kateqoriyasıdır. O, heç bir təşkilati mərkəzə malik olmayan cəmiyyətdir. Vətəndaş cəmiyyətini təşkil edən təşkilatlar və birliklər öz-özünə yaranır. Dövlətin hər hansı formada iştirak etmədiyi vətəndaş cəmiyyəti ictimai həyatı təşkil edən və tənzimləyən qüdrətli sferaya çevrilir. **Vətəndaş cəmiyyəti demokratik dövlətin ən mühüm tərəfidir.** Vətəndaş cəmiyyətinin inkişaf dərəcəsi demokratiyanın inkişaf səviyyəsini əks etdirir.

Vətəndaş cəmiyyəti haqqında tarixi ideya qədim Yunanıstan və Romadakı siyasi-hüquqi fikrə aid yaradıcılıq dövrünə təsadüf edir. Həmin ideya **Siseronun** yaradıcılığında mühüm yer tutur. Siseronun vətəndaş cəmiyyəti haqqında təsəvvürləri elə bir vaxtda formalaşır ki, artıq "vətəndaşlıq və vətəndaş, vətəndaşların məcmuundan ibarət olan "cəmiyyət anlayışları barədə müəyyən fikirlər mövcud idi. Vətəndaşın xüsusi hüquq və vəzifələri haqqında təsəvvürlər Qədim Romada daha çox inkişaf etmişdi. Roma imperiyasının təbəəliyində olan şəxsən azad adamlar vətəndaş sayılırdı.

Lakin məhz, XVII əsrin ortalarında **T.Hobbs** Vətəndaş haqqında (1642) və "Leviafan (1651) adlı məşhur əsərlərində vətəndaş cəmiyyətinə dair **prinsip e'tibarilə yeni konsepsiya** irəli sürdü. Sonralar vətəndaş cəmiyyətinə, onun azadlıq, hüquq, borc, əxlaq, mülkiyyət problemlərinə dair konsepsiyanı ən görkəmli mütəfəkkirlərdən **C.Lokk, J.J.Russo, İ.Kant** və başqaları işləyib hazırladılar. İ.Kant qeyd edirdi ki, bu və ya digər fərdin azadlığı ilə hamının azadlığının nisbətində başlıca amil vətəndaş cəmiyyətinin formalaşmasıdır.

İlk başlanğıcda fəlsəfi konsepsiya kimi yaranan vətəndaş cəmiyyəti ideyası tədricən Qərbdə siyasi fikrin və azadlıq hərəkatının mərkəzi probleminə çevrildi. Vətəndaş cəmiyyətinin yaranması cəmiyyətin mütərəqqi qüvvələrinin uzunmüddətli mübarizəsində əldə olunmuş məqsədyönlü dəyişikliklərin nümunəsidir. XIX-XX əsrlərdə inkişaf etmiş ölkələr üçün vətəndaş cəmiyyətinin təşəkkülü son nəticədə ictimai məqsədlərin

qəbul olunması (e'tirafı) kimi qiymətləndirilir. XX əsrin ikinci yarısında vətəndaş cəmiyyətinə doğru irəliləmə coşğun iqtisadi və elmi-texniki inkişafın tərkib hissəsi kimi səciyyələndi.

Vətəndaş cəmiyyəti nədir, nə üçün o, məhz, daha çox demokratik siyasi rejim şəraitində inkişaf edə bilər? Bu suala siyasi elmə dair ədəbiyyatda müxtəlif cavablar verilir. Onlardan diqqəti daha çox cəlb edənlərini nəzərdən keçirək.

**Y.İ.Averyanovun** rəhbərliyi altında nəşr edilən politologiyaya dair ensiklopedik lüğətdə vətəndaş cəmiyyəti belə səciyyələndirilir: "Vətəndaş cəmiyyəti dövlətdən asılı olmayan, lakin onunla əlaqə kəsb edən, həmin cəmiyyətin üzvləri arasında inkişaf etmiş iqtisadi, mədəni, hüquqi və siyasi münasibətlərdir, dövlətlə birlikdə inkişaf etmiş hüquqi münasibətlər yaradan, yüksək sosial, iqtisadi, siyasi, mədəni və əxlaqi statusa malik olan vətəndaş cəmiyyətidir.[1] Vətəndaş cəmiyyəti ideaila (ideal layihə ilə) cəmiyyətin əldə etdiyi real vəziyyətin nisbətinin nəticəsidir. Bu, mahiyyət e'tibarilə cəmiyyətin, hakimiyyətin, siyasətin və insanın daimi təkmilləşməsi prosesidir. **V.P.Puqaçev** və **A.İ.Solovyov** isə yazır: "Vətəndaş cəmiyyəti azad və bərabər hüquqlu fərdlərin bazar və demokratik hüquqi dövlətçilik şəraitində dövlət vasitəsilə tənzimlənməyən qarşılıqlı münasibətlərinin çoxcəhətliliyidir.[2] **Vətəndaş cəmiyyəti aşağıdan öz-özünə təşəkkül tapan ictiamai orqanizm olmaqla xüsusi mənafelərin və fərdiyyətçiliyin azad oyun sferasıdır**. **K.S.Hacıyevə** görə "mülkiyyətin milliləşdirilməsi hökmən vətəndaş cəmiyyətinin milliləşdirilməsinə gətirib çıxarır. Buna görə aydındır ki, vətəndaş cəmiyyəti və hüquqi dövlət bir-birini şərtləndirir və biri digəri üçün həyat qabiliyyəti şəraiti yaradır, lakin bir-birini əvəz etmirlər.[3] **Vətəndaş cəmiyyətinin labüdlüyü tarixi zərurətdir. O, sivilizasiya fenomenidir.**

**Q.F.Slesarova** vətəndaş cəmiyyətinə belə tə'rif verir: "Vətəndaş cəmiyyəti demokratik dövlətdə formalaşan və inkişaf edən insan birliyi olub iki cəhəti ifadə edir: 1)Cəmiyyətin həyat

---

[1] Политология: Энциклопедический словарь. Səh.75.
[2] В.П.Пугачев. А.И.Соловьев. Введение в политологию. Səh.196.
[3] Гаджиев К.С.Философийа власти. М. 1993. Səh.38.; Введение в политологию. К.С.Гаджиев и др... М., 1995. Səh. 164-165.

fəaliyyətinin bütün sferalarında könüllü yaranan qeyri-dövlət strukturlarını (birliklər, təşkilatlar, assosiasiyalar, ittifaqlar, mərkəzlər, klublar, fondlar və s.) və 2)iqtisadi, siyasi, sosial, mə'nəvi, dini və digər qeyri-dövlət münasibətlərinin məcmuu.[1] Həmin tədqiqatlarda vətəndaş cəmiyyətini təşkil edən ünsürlərə əhatəli münasibət bildirilsə də təəssüf ki, vətəndaş cəmiyyəti ailə-qohumluq və etnik münasibətlərdən kənarda təsəvvür olunur. Bu münasibətləri unutmaq vətəndaş cəmiyyəti anlayışını məhdudlaşdırmaqdır. Vətəndaş cəmiyyəti rəngarəng ictimai ünsürlərlə şərtlənən mürəkkəb struktura malikdir. Vətəndaş cəmiyyəti ilə bağlı yuxarıdakı mülahizələri konkretləşdirsək belə qənaətə gəlmək olar:

**Birincisi,** vətəndaş cəmiyyəti bir neçə ölkədə vətəndaşların yüz minlərlə birliyini və müəssisələrini özündə birləşdirən möhkəm ictimai "şəbəkədir. Bu cəhət yüksək inkişaf etmiş demokratik cəmiyyətin əlamətidir.

**İkincisi,** vətəndaş cəmiyyətini təşkil edən birliklər vətəndaşların iqtisadi, ailə, hüquqi, mədəni və digər mənafelərinin geniş dairəsini əks etdirir və bu mənafeləri tə'min etmək məqsədilə yaradılır.

**Üçüncüsü,** vətəndaş cəmiyyətini əmələ gətirən bütün təşkilatların spesifikliyi bundan ibarətdir ki, onlar dövlət vasitəsilə deyil, vətəndaşların özü və müəssisələr tərəfindən yaradılır, dövlətə münasibətdə muxtar xarakter daşıyır, əlbəttə, fəaliyyətdə olan qanunlar çərçivəsində.

**Dördüncü,** vətəndaş cəmiyyətinin formalaşmasını şərtləndirən birliklər öz-özünə, vətəndaşlar qrupunun və ya müəssisələrin təzahürü ilə yaranır. Onlar öz mə'nafelərini və tələbatlarını reallaşdırmağa çalışırlar. Düzdür, sonralar həmin birliklərin müəyyən qismi öz mövcudluğunu aradan qaldırır, lakin onların xeyli hissəsi uzun ömürlü olur, daim qüvvə toplamaq və nüfuz qazanmaqla fəaliyyət göstərir.

**Beşincisi,** vətəndaş cəmiyyəti bütövlükdə ictimai rə'yin ifadəçisi olmaqla özünün spesifik formada tə'zahür edən siyasi hakimiyyətinə xidmət edir.

---

[1] Политология под редак. Г.В.Полуниной. Səh 156

Vətəndaş cəmiyyətində assosiasiya həyatı, kütləvi hərəkatlar sferası, partiyalar, inama və digər əlamətlərə görə təzahür edən qruplaşmalar azad surətdə formalaşır. Onlar hakimiyyət səlahiyyətlərinin bir hissəsinin özünüidarəyə həvalə olunması hesabına hakimiyyətin mərkəzləşdirilməsinə nail olur, müna-qişəsiz, razılıq əsasında çoxluğun və azlığın qarşılıqlı fəaliyyətini həyata keçirir.

Vətəndaş cəmiyyəti genetik və funksional baxımdan cəmiyyətin maddi həyatı, texnika, istehsal və biliklərlə əlaqədardır. Vətəndaş cəmiyyətinin şəxsiyyəti yeni insan tipi olub vətəndaş münasibətlərinin və yeni mə'nəviliyin formalaşdırılmasına istiqamətlənir.

Yeri gəlmişkən qeyd edək ki, **Hobbsdan** başlamış **Hegelə və Marksa** qədər çoxəsrlik polemika (elmi mübahisə) vətəndaş cəmiyyəti ilə dövlətin münasibəti probleminə istiqamətlənmişdir. Həmin problem vətəndaş cəmiyyətinin təzahürü ilə meydana çıxmışdır. Onlardan hansının üstünlüyü, birinciliyi barədə çoxlu və birmə'nalı olmayan mülahizələr mövcuddur. Bunu demək kifayətdir ki, **vətəndaş cəmiyyəti elə böyük ictimai qüvvədir ki, dövlət onunla hesablaşmaya bilməz.**

Mə'lum olduğu kimi, vətəndaş cəmiyyəti ümumi anlayışdır. Lakin elə tədqiqatçılara təsadüf olunur ki, həmin anlayışın ümumiliyini nisbətən məhdudlaşdırır. Məsələn, Fransız politoloqu **J.Kermann** belə hesab edir ki, "vətəndaş cəmiyyəti şəxsiyyətlərarası münasibətlərin və sosial qüvvələrin çoxluğunu səciyyələndirməklə həmin cəmiyyəti təşkil edən qadınları və kişiləri dövlətin müdaxiləsi və göməyi olmadan birləşdirir.[1]

Ümumiyyətlə, vətəndaş cəmiyyəti probleminə dair müxtəlif təsəvvürləri ümumiləşdirməklə onunla dövlətin nisbətinə dair bir neçə konseptual müddəalar söyləmək olar:

**Birincisi,** "vətəndaş cəmiyyəti və "dövlət anlayışları müxtəlif cür səciyyələnir, lakin daxilən qlobal cəmiyyətin bir-birilə daxili əlaqəsi olan, bir-birini tamamlayan tərəfləridir, vahid ictimai orqanizmin ünsürləridir. Vətəndaş həyatı bu və ya digər dərəcədə siyasi aləm fenomeninə nüfuz edir, siyasi aləm isə vətəndaş həyatından təcrid olunmuş halda mövcud deyil.

---

[1] Шмачкова Т.В. Из основ политологии Запада. "Политическое Исследование". 1991.№2. Səh.138.

**İkincisi,** vahid ictimai orqanizmin tərkib hissəsi olmaqla vətəndaş cəmiyyəti və dövlət arasında hədd qoyulması təbii qanunauyğun proses olub bir tərəfdən sosial-iqtisadi və mə'nəvi sferanın, digər tərəfdən isə siyasi həyatın tərəqqisi ilə səciyyələnir.

**Üçüncüsü,** vətəndaş cəmiyyəti siyasi sistemin ilk əsasıdır, dövlət onunla şərtlənir və müəyyən olunur. Öz növbəsində dövlət tə'sisat olmaq e'tibarilə vətəndaş cəmiyyətinin varlığı və fəaliyyəti üçün şərait yaradır.

**Dördüncüsü,** vətəndaş cəmiyyəti muxtar fərdlərin nə isə məcmuu deyildir, bu adamların birlik forması, assosiasiyaların və digər təşkilatların toplusu olub vətəndaşların birgə maddi və mə'nəvi həyatını tə'min edir, onların tələbat və mənafelərinin ödənilməsinə istiqamətlənir. **Dövlət vətəndaş cəmiyyətinin rəsmi ifadəsidir, onun siyasi varlığının in'ikasıdır.** Vətəndaş cəmiyyəti **fərdi, qrup halında və regional mənafelərin təzahür sferasıdır.** Vətəndaş cəmiyyətinin tələbləri dövlətin iradəsi sayəsində reallaşır.

**Nəhayət,** vətəndaş cəmiyyəti nə qədər çox inkişaf etmiş olarsa (öz üzvlərinin fəaliyyəti, təşəbbüskarlığı mə'nasında) dövlətin demokratikliyi üçün bir o qədər meydan açılır. Vətəndaş cəmiyyəti bəşər sivilizasiyasının müasir səviyyəsində fərdlər, qruplar və birliklər arasında dövlət vasitəsilə şərtlənməyən inkişaf etmiş iqtisadi, mədəni, hüquqi, siyasi münasibətlərdir.[1]

Vətəndaş cəmiyyəti sosial-təşkilati struktur olub prinsip e'tibarilə siyasi strukturlardan kənarda təşəkkül tapır, lakin bu strukturları əhatə edir, çünki onlar vətəndaş cəmiyyətinin bir hissəsidir və vətəndaşlar tərəfindən yaradılır.

Vətəndaş cəmiyyətini təşkil edən təşkilatlarla müqayisədə onun üçün aşağıdakılar daha böyük əhəmiyyətə malikdir:

a) vətəndaş cəmiyyətinin legitimliyi, başqa sözlə, hakimiyyətə sahib olmaq üçün xalqdan, seçicilərdən əsl demokratik mandatın əldə edilməsi. Bu o deməkdir ki, cəmiyyət üzvləri həm vətəndaş-hüquqi, həm siyasi və eləcə də sosial-psixoloji münasibətlərdə azad iradəyə malikdirlər.

---

[1] Кравченко И.И. Концепции гражданского общества в философском развитии. "Политические образования." 1991.№5. Səh.136.

b) demokratiyanın ümumiliyi, tamlığı, yəni, hakimiyyətin bütün formalarında reallığı, eyni zamanda hakimiyyətin səmərəli fəaliyyəti üçün onun qanundan asılılığı və nəzarətdə olması.

v) hakimiyyətin səmərəliliyi, başqa sözlə hakimiyyətin daxili psixoloji motivləşməsi nə dərəcədə realdır, hakimiyyətdə olanlar xalqdan aldığı mandatı necə reallaşdırır (onun mənafeyi naminə), bir sözlə, idarə edənlər seçicilərin həyat problemlərinin həllinə hansı mövqedən yanaşırlar.

Müasir şəraitdə vətəndaş cəmiyyəti quruculuğunda vətəndaşların şəxsi təhlükəsizlik zonasının yaradılması ilə yanaşı onların **sosial-iqtisadi təhlükəsizliyinin** tə'min olunması ön plana çəkilir (dövlətə münasibətdə). Şəxsiyyətin təhlükəsizliyi vasitələri sırasında sağlamlığın qorunması, təhsilə, mədəniyyətə yiyələnmək, məcburetmənin bütün formalarının qadağan olunması ilə yanaşı əmək haqqının kompensasiyasına sosial tə'minat verilməsi mühüm yer tutur.

Vətəndaş cəmiyyətinin hakimiyyət strukturlarına və bütövlükdə siyasətə tə'sir göstərməsi meyli siyasi özgələşmənin məhdudlaşdırılmasından və aradan qaldırılmasından ibarətdir. Bu meyl siyasi fəaliyyətin sosial problemlərin həlli texnologiyasına çevrilməsi vasitəsilə reallaşır.

# XIII FƏSİL

## SİYASİ REJİMLƏR

### 1. SİYASİ REJİMİN MAHİYYƏTİ VƏ TƏSNİFATININ MEYARLARI

Siyasi elmdə rejim hakim sinfin iqtisadi və siyasi hakimiyyətinin həyata keçirilməsinin üsul və metodlarının məcmuu kimi səciyyələndirilir. Rejim məvhumu fransızca reqime, latın dilində reqimen sözlərindən əmələ gəlib, idarəetmə kimi mənalanır. **Siyasi rejim isə siyasi hakimiyyətin həyata keçirilməsi metodlarının, üsullarının, vasitələrinin məcmuudur.** O, cəmiyyətin siyasi həyatının mühitini və şəraitini səciyyələndirir, başqa sözlə bu və ya digər ölkənin konkret tarixi inkişaf mərhələsinin müəyyən mühitidir.

Siyasi rejim müəyyən dövlət tipi üçün səciyyəvi olan siyasi münasibətlərin, hakimiyyət tərəfindən tətbiq olunan vasitə və metodların, dövlət hakimiyyətində və cəmiyyətdə təşəkkül tapan münasibətlərin, ideologiyanın hakim formasının, qarşılıqlı sosial və sinfi münasibətlərin, siyasi mədəniyyətin vəziyyətinin məcmuudur[1]. Bu baxımdan demokratik, avtoritar və totalitar rejimlər fərqləndirilir. Sözün daha xüsusi mənasında dövlət idarəçiliyi rejimləri kimi - liberal, diktator, sərt, qəddar, xüsusi qəddarlıq kəsb edən (faşist, ekstremist yönümlü məs., Kambocada keçmiş **Pol Pot** rejimi) və digər rejimlər mövcuddur. İdarəetmə formaları baxımdan parlament tipli, prezident idarəçiliyi, monarxiya, respublika, fövqəladə və s. rejimlər fərqləndirilir. Siyasi rejimin qiymətləndirilməsi bir qayda olaraq simvolik məna daşıdığına görə ölkənin, dövlətin, idarəçilik tipinin obrazının yaradılmasına imkan verir (mütləq, hökmdar, «əvvəlki rejimlər» və d.), tez-tez sadəcə olaraq şəxsləndirilmiş formada, dövlət başçısının adı ilə əlaqələndirilən

---

[1] Политология: энциклопедический словарь, səh. 296.

rejimlər də diqqəti cəlb edir. **Səddam Hüseyn** rejimi, **Hitler** rejimi və digərləri məhz, həmin qəbildəndir. Buna görə siyasi rejim dövlətin və cəmiyyətin tipoloji, stilistik (üslub xarakterli) və obrazlı səciyyələndirilməsidir. Ümumiyyətlə, siyasi rejimin strukturunu və məzmununu təşkil edən cəhətlər bütövlükdə cəmiyyətin siyasi sisteminin mahiyyətini ifadə edir. Siyasi rejimi eləcə də bu və ya digər ölkədə milli qüvvələrin nisbəti, fərdlərin, vətəndaş cəmiyyətinin siyasi yetkinlik səviyyəsi, geosiyasi vəziyyət, dövlətin rəhbər siyasi xadimlərinin xüsusilə, siyasi liderlərin şəxsiyyəti və s. amillər şərtləndirir. Siyasi rejimin ziddiyyətli məzmununu əks etdirən kifayət qədər dəqiq və sadə tərif məşhur polşa politoloqu **E.Vyatr** tərəfindən verilmişdir: «siyasi rejim dedikdə mən konstitusiyalı (qanuni) qaydalar sistemini və bu sistemin praktikada konkret təcəssümünü başa düşürəm!»[1]. Həmin tərifdə belə bir cəhət ifadə olunur ki, konstitusiyada təsbit edilən qaydalar həmişə onların siyasi həyatda konkret təcəssümünə uyğun gəlməyə bilər. Siyasi rejim elə reallıqdır ki, həm birincini və eləcə də ikincini özündə birləşdirir. Eyni zamanda həmin anlayış bu və ya digər ölkədə siyasi hakimiyyətin real mənzərəsini əks etdirir.

Siyasi təlim və nəzəriyyələrdə siyasi rejimlərin mahiyyəti və fərqləndirici cəhətləri müxtəlif mövqedən araşdırılır. Məsələn, marksizm siyasi rejimlərin müqayisəli təhlilini istehsal sistemi ilə əlaqələndirir. Müasir avropa politoloqları isə bu məsələyə digər nöqteyi-nəzərdən yanaşırlar. Belə ki, məşhur fransız sosioloqu (politoloqu) Moris Dyuverje «Siyasət ideyası» adlı əsərində bildirir ki, siyasi rejimlər arasındakı fərqlər ilk növbədə tarixi inkişafın və mədəniyyət sferasındakı tərəqqinin məhsuludur. Ümumiyyətlə, belə bir cəhəti unutmaq olmaz ki, ictimai inkişafın bu və ya digər mərhələsində siyasi rejimlərin təsnifatı həmin mərhələnin konkret reallığı ilə şərtlənir.

Bir sözlə, siyasi rejim sırf «təmiz» formada mövcud olmur. Heç də təsadüfi deyil ki, siyasi rejimlərin təsnifatına cəhd edən tədqiqatçılar bir qayda olaraq müasir politologiyanın patriarxı adlandırılan, sosial hakimiyyət nəzəriyyəsinin ən görkəmli nümayəndəsi hesab olunan **Maks Veberin «ideal tip»**

---

[1] Вятр Е. Типология политических режимов. Таллин, 1991. т.1, səh. 55.

anlayışından istifadə edirlər. Bununla əlaqədar olaraq «ideal tip» anlayışının mahiyyətinin açıqlanması nəinki nəzəri, ilk növbədə metodoloji zərurətdir.

Sosioloji ideal tip nəyi səciyyələndirir sualını cavablandıran Veberə görə tarix məkan daxilində məhdudlaşdırılan sosial hadisələrin səbəbiyyət təhlilinə cəhd edirsə, sosiologiyanın məqsədi hadisələrin məkan-zaman daxilində müəyyənləşdirilməsindən asılı olaraq həmin hadisələrin ümumi qaydalarını üzə çıxarmaqdan ibarətdir. Bu mənada sosioloqun fəaliyyətinə kömək edən ideal tip ümumi xarakter daşımalıdır və genetik tipdən fərqli olaraq sırf ideal tip sayılmalıdır. Məsələn, sosioloq hökmranlığın ideal modelini yaradır (bütün tarixi dövrlərə və yer kürəsinin hər hansı guşəsinə aid olan harizmalı, rasional hökmranlıq tipləri). Beləliklə, bu tiplər («genetik» və «xüsusi») ümumilik dərəcəsinə görə fərqlənirlər. Birinci məkan və zaman etibarilə məhdudlaşdırılır, ikinci isə məhdudlaşdırılmır, birinci əlaqələrin üzə çıxması vasitəsi kimi xidmət edir və bir halda mümkündür, ikinci isə həmişə mümkün olmaqla əlaqələrin aşkarlanması vasitəsi kimi səciyyələnir.

Siyasi elmə dair ədəbiyyatda M.Veberin «ideal tip» haqqında həmin müddəası əsas götürülməklə siyasi rejimlərin təsnifatı üçün bir sıra əlamətlər başlıca meyar kimi qəbul edilir: **hakimiyyətin sosial bazası; siyasi fəaliyyət metodları; sosial (ictimai) tərəqqiyə münasibət.**

**Hakimiyyətin sosial bazasına** demokratiya, aristokratiya (nəcib mənşəli elitanın hakimiyyəti), plutokratiya (imtiyazlı-varlı yuxarı təbəqənin hakimiyyəti), oliqarxiya (maliyyəçi və sənayeçi dairələrin hakimiyyəti), teokratiya (din xadimlərinin hakimiyyəti), oxlokratiya (kütlənin, camaatın böhranlı, təlatümlü keçid dövrləri ilə şərtlənən hakimiyyəti) aid edilir.

**Siyasi fəaliyyət metodları** demokratik idarəçilik formaları ilə mənalanır. Parlament və prezident idarəçiliyi bu qəbildən hesab olunur.

**Sosial (ictimai) tərəqqiyə münasibət** isə mütərəqqi, mürtəce, inqilabi, liberal və mühafizəkar qaydalarla səciyyələnir. Siyasi fikir tarixində siyasi rejimlərin təsnifatına ilk cəhd antik dövrə təsadüf edir. Başqa sözlə, siyasi rejimlərin ilk təsnifatı qədim Yunanıstanın böyük tarixçisi **Herodot** tərəfindən veril-

mişdir. Sonralar yunan filosofları **Platon** və onun şagirdi **Aristotel** öz siyasi təlimləri əsasında siyasi rejimlərə aid Herodotun ideyasını daha da təkmilləşdirmiş və özlərinə məxsus yeni təsnifata səy göstərmişlər.

Qeyd edək ki, **demokratiya ilə diktaturanın** müasir dövrdə mövcud olan əksliyi hələ antik siyasi təşkilatlar formasında Yunanıstanda təzahür etmişdir. Qədim yunanlar **tiraniya** (bir nəfərin qeyri-məhdud istibdad hakimiyyəti) və **oliqarxiyanı** (cüzi adamların mənafeyi naminə idarəetmə) **demokratiyadan** fərqləndirirdilər. **Platonun** fikrincə, «tiraniya və oliqarxiyanın hökmranlıq etdiyi şəhər[1] digər insanları öz Allahı və yaxud köləsi hesab edən adamları məskunlaşdırır, sakininə çevirir», başqa sözlə, həyatda qeyri-bərabər vəziyyətdə doğulanları məskunlaşdırır". Aristotelə görə, tiraniya «dövlət quruluşu növlərindən ən pisidir». O, eləcə də tiraniyanı **monarxiyadan** - ümumi rifah naminə bir nəfərin idarəetməsindən fərqləndirirdi. Oliqarxiya varlı vətəndaşları, demokratiya isə mülkiyyətdən məhrum olanları qidalandırır[2]. Bir sözlə, **tiraniya və oliqarxiya demokratiyadan təşəkkül tapmışdır**: bir nəfər və ya bir qrup zorla, yaxud hiyləgərliklə bütün hakimiyyəti qəsb etmiş və xalqın razılığı olmadan onu həyata keçirmişdir.

Siyasi rejimlərin təsnifatına dair antik təsəvvürlər orta əsrlərdə daha da zənginləşmişdir. Siyasi rejimləri monarxiya, aristokratiya və demokratiyadan ibarət hesab edən Aristoteldən fərqli olaraq görkəmli fransız maarifçisi **Şarl Monteske** respublikanı və istibdad üsul - idarəsini də siyasi rejimlər kimi əsaslandırmağa səy göstərmişdir. Siyasi rejimlərin təsnifatına dair fikirlər sonralar daha da təkmilləşmiş və müasir siyasi elmdə bütövlükdə tamamlanmış səviyyə kəsb etmişdir.

Siyasi rejimin mahiyyəti barədə daha geniş təsəvvürə malik olmaq üçün və onun təsnifatını dəqiqləşdirmək baxımdan aşağıdakı sualların cavablandırılması zəruridir.

**1. Mövcud siyasi rejim necə təşəkkül tapmışdır?** Siyasi hakimiyyət orqanlarında seçkilərin təşkili və keçirilməsi nəzərdə

---

[1] Antik Yunanıstanda şəhər dövlətin və polisin sinonimi kimi mövcud idi.
[2] Ətraflı bax: Məcid Əfəndiyev. Siyasi və hüquqi təlimlər tarixi. Bakı, 2002, səh. 526-527.

tutulur. **E.Vyatr** qeyd edir ki, formalaşan siyasi rejimin xarakteri və məzmunu seçkilərin yarışqanlığı ilə müəyyən olunur, bu isə «öz namizədini irəli sürmək azadlığını nəzərdə tutur. Seçkilər o halda düzgün sayılır ki, saxtakarlığa yol verilmir və düzgün oyunun xüsusi mexanizmi mövcuddur»[1].

**2. Hakimiyyət kimin əlindədir və bu hakimiyyətdən necə istifadə olunur. Başqa sözlə, hakimiyyət hansı siyasi qruplaşmalara məxsusdur?** Əgər hakimiyyət demokratik qüvvələrin nümayəndələrinə mənsubdursa, belə halda ictimai həyatın demokratikləşdirilməsi məsələsi qarşıya qoyulur. Hakimiyyət hərbi elitanın nümayəndələrinin, ekstremist dairələrin əlindədirsə başqa məqsədlər güdülür.

**3. Siyasi hökmranlığın hansı metodlarına üstünlük verilir? - demokratik yoxsa zorakı metodlara.** Başqa sözlə, siyasi həyat xalqın hakimiyyətin yüksək mənbəyi kimi etiraf olunması ilə səciyyələnə bilər. Eləcə də o, siyasi zorakılıqla, başqa cür düşünənlərə (hakimiyyətə zidd) qarşı repressiyalarla, müxtəlif miflərin (əsatirlərin) və yalançı informasiyanın köməyi ilə adamların şüuruna mənfi təsir göstərməklə nəzərə çarpa bilər.

**4. Hakimiyyəti əldə etməyə hansı partiyalar səy göstərir** (kommunist, liberal, demokratik və s.)? Partiyaların qarşıya qoyduğu məqsədlər bu və ya digər ölkədə siyasi rejimin tipini xeyli dərəcədə müəyyən edir.

**5. Siyasi müxalifətin mövcudluğuna, həm də nə dərəcədə yol verilir?** Siyasi müxalifətin mövcudluğu fikir azadlığını, kütləvi informasiya vasitələrinin müstəqilliyini, hakimiyyət strukturlarının fəaliyyətinin tənqidini və ona nəzarəti, ölkənin iqtisadi və siyasi inkişafına dair alternativ proqramın təklif olunmasını nəzərdə tutur. Müxalifət hökumətin istefasını və yeni seçkilərin keçirilməsini tələb edə bilər. Beləliklə, müxalifətin mövcudluğu və ya olmaması faktı siyasi rejimin tipini müəyyənləşdirmək üçün mühüm şərtdir.

**6. Mövcud ölkədə şəxsiyyətin vəziyyəti necədir, insan və vətəndaş hüquqları və azadlıqları nə dərəcədə həyata keçirilir və müdafiə edilir?** İlk növbədə söhbət ondan gedir ki, vətəndaş

---

[1] Вятр Е. Типология политических режимов. Таллин, 1991. т.1, səh.55.

hüquqları və azadlıqları təsisatlarının insan hüquqlarına, fərdi azadlığa faktiki təminat verilməsini reallaşdıra bilməsi hansı səviyyədədir. Eləcə də vətəndaşların dövlətin idarə olunmasında fəal iştirakı, mülkiyyət, sahibkarlıq fəaliyyəti hüquqları, işçi qüvvəsinin azad fəaliyyəti və s. nəzərdə tutulur. Ləyaqətli həyat səviyyəsi, şəxsiyyətin sosial müdafiəsi və mənəvi inkişafı da həmin qəbildəndir. Bir sözlə, bu və ya digər dövlətdə insan hüquqlarının həyata keçirilməsi dərəcəsi siyasi rejimlərin təsnifatına imkan yaradan mühüm meyarlardan biridir.

Yuxarıda qeyd etdiyimiz cəhətlər siyasi rejimlərin təsnifatının başlıca meyarları kimi nəzərdə tutulur. Bunların əsasında siyasi rejimlər iki böyük qrupa ayrılır: **demokratik** və **qeyri-demokratik**. Öz növbəsində qeyri-demokratik rejim də iki tipi - **totalitar** və **avtoritar** tipləri özündə birləşdirir.

Ümumiyyətlə, dövlət haqqında daha dəqiq təsəvvürə malik olmaq üçün «siyasi rejim» anlayışının mahiyyətini dürüst başa düşmək vacibdir. Siyasi rejim siyasi idarəetmənin metodlarının məcmuunun həyata keçirilməsini, demokratik hüquq və azadlıqların vəziyyətini, konstitusiyada real surətdə əksini tapan hakimiyyət münasibətlərinin xarakterini ifadə edir. Siyasi rejim siyasi sistemin təsisatlarının fəaliyyətinin məzmununu və siyasi rəhbərlik nöqteyi-nəzərdən siyasi sistemin tipini müəyyənləşdirir. «Siyasi rejim» anlayışından istifadə etməklə cəmiyyətdə siyasi idarəetmənin hansı metodlarla həyata keçirilməsini bilmək olar.

## 2. DEMOKRATİK SİYASİ REJİM.

"Demokratiya" anlayışı xalq hakimiyyətini təcəssüm etdirir. Lakin bütün xalqın həyata keçirə biləcəyi siyasi hakimiyyət başqa sözlə, bilavasitə demokravtiya şəraiti yalnız idealdır. **Real demokratiya xalq tərəfindən seçilən adamların hakimiyyətidir. O, nümayəndəli demokratiya adlanır**. Məşhur alman alimi **Ralf Darendorf** demokratiyanın dəqiq tərifini · verərək yazır: "Demokratiya" xalqın idarə etməsi deyildir. Dünyada ümumiyyətlə, belə şey olmur. Demokratiya xalqın seçdiyi hökumətdir;

Bundan əlavə demokratiya öz xüsusi kursuna malik hökumətdir.[1] Bu mənada demokratiya hər şeydən əvvəl, xalq hakimiyyətinə əsaslanan dövlət quruluşu forması kimi səciyyələnir. Digər tərəfdən demokratiya dedikdə insanların iyerarxiyalı-pilləli şəxsiyyətlərarası münasibətlərini tənzimləyən norma və prinsiplərin məcmuu başa düşülür. Demokratik siyasi rejimlə bağlı yalnız demokratiyanın mahiyyəti barədə konkret təsəvvürlə kifayətlənmək azdır, eləcə də cəmiyyətin siyasi sisteminə dair zəruri biliklərə yiyələnmək vacibdir. Çünki siyasi rejim bütövlükdə cəmiyyətin siyasi həyatının tərkib hissəsi olan siyasi sistemi bu və ya digər dərəcədə səciyyələndirir. Əgər siyasi rejim idarəetmə üsulları və metodlarının məcmuudursa, siyasi sistem dövlət idarələrinin, siyasi müəssisələrin və təsisatların, siyasi münasibətlərin, siyasi və hüqüqi normaların toplusudur. Məlum olduğu kimi, siyasi sistemin tərkibində dövlət başlıca yer tutur. Dövlət hakimiyyətinin öz funksiyalarını həyata keçirməsi üsulu isə məhz, siyasi rejim adlanır. Beləliklə, demokratik siyasi rejim problemini açıqlayarkən ilk növbədə nəinki demokratiya təsisatından, eləcə də müəyyən mənada siyasi sistem anlayışından çıxış etmək məqsədəuyğundur. Bu mənada demokratik siyasi rejim aşağıdakı cəhətlərlə səciyyələnir:

1. Demokratik dövlətdə hakimiyyətin mənbəyi xalqdır. Xalq öz rəyinə əsaslanaraq nümayəndələrini seçir, onlara hər hansı bir məsələni həll etmək hüququ verilir. Əgər seçilənlər seçicilərin onları hakimiyyətin orqanlarında görmək istədikləri kimi davranmırsa (etimadı doğrultmursa) belə halda vəziyyəti yalnız növbəti səsvermə qaydaya sala bilər. Demokratiya şəraitində qanun nəinki vətəndaşları hakimiyyət özbaşınalığından eləcə də hakimiyyəti vətəndaşlardan müdafiə edir. Deputatın səhvi (əgər o bununla qanunu pozmayıbsa) və ya onun nüfuzunu itirməsi geri çağırılması üçün bəhanə (səbəb) sayıla bilməz.

2. Siyasi hakimiyyət demokratiya şəraitində legitim xarakter daşıyır və qəbul olunmuş qanunlara müvafiq olaraq həyata keçirilir. Dövlət qanun çərçivəsində fəaliyyət göstərməklə yanaşı, vətəndaşların mənafeyi və tələbatının reallaşdırılması naminə

[1] Дараендорф Р. Дорога к свободе. Вопросы философии, 1990, N-9. səh.91

geniş imkanlar yaradır. **Demokratik siyasi rejim üçün qanunla qadağan olunmayan hər şeyi həll edə bilmək prinsipi səciyyəvidir.** Buna görə demokratik ölkələrdə iqtisadiyyatın bütün sahələrində vətəndaşlar geniş təsərrüfatçılıq təşəbbüslərinə, müxtəlif birliklər, təşkilatlar, fondlar və s. yaratmaq təşəbbüsünə malikdirlər. Bu isə öz-özlüyündə vətəndaş cəmiyyətinin inkişafının yüksək dərəcəsini sübut edir.

3. Demokratik rejim üçün hakimiyyətin bölünməsi səciyyəvidir. Bu, qanunverici, icraedici və məhkəmə hakimiyyətinin bir-birindən ayrılmasını, praktiki olaraq real müstəqilliyini təcəssüm etdirir. Ölkənin ali qanunverici orqanı sayılan parlamentə qanunlar hazırlamaq məqsədilə müstəsna hüquq verilir. Qeyd edək ki, real reprezentativ[1] (nümayəndəli) demokratiya bir qayda olaraq parlamentarizmdə – hakimiyyətin bölünməsinə və parlament hakimiyyətinin aliliyinə əsaslanan idarə sistemində təcəssüm olunur. Beləliklə, parlament üzvünə ayrıca seçki dairəsinin nümayəndəsi kimi deyil, ilk növbədə xalqın mənafeyinin müdafiəçisi kimi baxılır. Sözün əsl mənasında parlament hakimiyyət orqanı olmaq etibarilə üstünlük kəsb edən rol oynayır, lakin siyasi hakimiyyətin həmin orqanda təmərküzləşməsi üçün potensial təhlükə mövcuddur. Buna görə demokratik siyasi rejim şəraitində siyasi hakimiyyətin üç qolu bir-birini tarazlayır. Xüsusilə ali idarəedici hakimiyyət (prezident, hökumət) qanunvericilik, büdcəyə, kadrlara dair təşəbbüskarlıq hüququna malikdir. Qanunvericilik orqanının qəbul etdiyi qərarlara prezidentin veta hüququ vardır. Məhkəmə hakimiyyətinə, çıxarılan qanunların dövlətin konstitusiyasına uyğunluğunu müəyyənləşdirmək hüququ verilir.

4. Demokratik rejim xalqın siyasi qərarların işlənib hazırlanmasına təsiri hüququ ilə səciyyələnir. Bu hüqüq kütləvi informasiya vasitələrində təkliflər və ya tənqid formasında, nümayişlərdə və ya lobbiçlik fəaliyyətində, seçkiqabağı kompaniyada iştirak etməkdə təzahür edir. Qəbul olunmuş qərarların işlənib hazırlanmasında xalqın siyasi iştirakına konstitusiya ilə təminat verilir.

---

[1] Reprezentativ demokratiya-nümayəndəli idarəetmənin xalq qarşısında səlahiyyətini və məsuliyyətini ifadə edir, vətəndaşların seçkilərdə bilavasitə iştirakını səciyyələndirir

5. Demokratik siyasi rejimin mühüm cəhətlərindən biri iki və yaxud çoxpartiyalı sistemin yaradılması imkanını, siyasi partiyaların yarışqanlığını və onların xalqa təsirini, eləcə də həm parlamentdə və həm də ondan kənarda qanun əsasında siyasi müxalifətin mövcudluğunu nəzərdə tutan siyasi plyuralizmdir. Müxalifət öz vəzifəsini həyata keçirərək hakimiyyət orqanlarını tənqid etmək istiqamətində çıxış edir. O hakimiyyətə özünün parlamentdəki fraksiyalarının və bloklarının fəaliyyəti vasitəsilə, öz informasiya vasitələrində və mətbuatda fəaliyyəti ilə nəzarət edir.

6. Nəhayət, demokratik siyasi rejim insan hüququnun reallaşmasının yüksək dərəcəsi ilə səciyyələnir. Buna dövlət və vətəndaşların qarşılıqlı münasibətlərinin normaları, qaydaları və prinsipləri aiddir. İnsan hüququ problemi dünya ictimaiyyətinin diqqət mərkəzindədir. Hazırda insan hüququnu elan edən və onu qanunvericiliklə təsbit edən 50-yə yaxın siyasi-hüquqi sənəd mövcuddur. Onların arasında BMT Baş Məclisinin 1948-ci il dekabrın 10-da qəbul etdiyi insan hüquqları haqqında ümumi bəyannamə, insan hüquqlarının və azadlıqlarının müdafiəsi haqqında Avropa konvensiyası (beynəlxalq müqavilə-1950-ci il), insan və xalqların hüququna dair Afrika xartiyası (1984-cü il)[1], yeni Avropa üçün Paris xartiyası (1990-cı il) və s. səciyyəvidir. Hüquqi normalar, insan hüquqları və azadlıqları bu və ya digər sənədlərdə konkret təcəssüm olunmuşdur.

Müasir demokratik siyasi rejimlərin mahiyyətini xalqlar arasında qarşılıqlı etimada və hörmətə əsaslanan münasibətlərin xarakteri də aydın əks etdirir. Belə hüquq bir sıra beynəlxalq təşkilatların, o cümlədən BMT-nin sənədlərində öz əksini tapmışdır. Söhbət bütün xalqların aşağıdakı hüquqlarından gedir:

-Millətlərin mövcudluğu hüququ, genosidin və etnosidin[2] qadağan olunması;

Özünü eyniləşdirmə hüququ, başqa sözlə, vətəndaşların milli mənsubiyyətini özlərinin müəyyənləşdirməsi[3];

---

[1] Xartiya-ictimai-siyasi cəhətdən əhəmiyyət kəsb edən bəzi sənədlərin adı

[2] Genosid-irqi, milli, dini, ədavətlə bağlı olaraq əhalinin ayrı-ayrı qruplarının, hətta böyük əksəriyyətinin məhv edilməsi. Ermənilərin Xocalıda azərbaycanlılara qarşı törətdiyi cinayət əməlləri əsl genosiddir

[3] Etnosid-bir xalqın bütün mədəniyyətinin məhv edilməsi. Ermənilərin işğal etdikləri qədim Azərbaycan torpağında - Dağlıq Qarabağda məhv etdikləri mədəniyyət abidələri buna misaldır

-Dil sferası və təhsil, mədəni irs və xalq ənənələri daxil olmaqla milli xüsusiyyətlərin saxlanılması;

-Xalqların yaşadığı ərazidə təbii sərvətlərdən və ehtiyatlardan istifadə etmək hüququ. Bunun aktuallığı xüsusilə yeni ərazilərin intensiv şəkildə təsərrüfatçılıq baxımdan mənimsənilməsi ilə bağlıdır;

-Hər bir xalqın dünya sivilizasiyasının naliyyətlərinə qovuşması və bunlardan istifadə hüququ.

Yuxarıda göstərilən hüquqların praktiki baxımdan həyata keçirilməsi onlardan hər birinin və bütövlükdə hamısının səmərəli yolla həllini nəzərdə tutur. Bu məqsədlə obyektiv və subyektiv amillərin dərindən, incə şəkildə nəzərə alınması, iqtisadi, siyasi və sırf etnik xarakterli çoxlu ziddiyyətlərin və çətinliklərin aradan qaldırılması zəruridir.

Əvvəlki paraqrafda qeyd etmişdik ki, idarəçilik nöqteyi-nəzərdən parlament tipli, prezident idarəçiliyi, monarxiya və respublika tipli siyasi rejimlər mövcuddur. Qısaca da olsa belə tipli rejimlərin mahiyyətinə aydınlıq gətirək.

Hakimiyyət səlahiyyətlərinin strukturundan, hüquqi vəziyyətindən və nisbətindən asılı olaraq dövlət hakimiyyətinin müxtəlif qolları və dövlət idarəçiliyi formaları arasında fərqlər mövcuddur. Hazırda ali dövlət hakimiyyətinin təşkilinin iki başlıca növü təşəkkül tapmışdır: respublika və monarxiya. Respublika elə idarəetmə formasıdır ki, burada dövlət hakimiyyətinin yüksək orqanları ya seçilir və ya ümummilli nümayəndəli təsisatlar (idarələr-müəssisələr) tərəfindən formalaşdırılır. Respublika idarəetmə formasının üç başlıca növü mövcuddur: prezidentli respublika - güclü prezident hakimiyyəti - belə idarəetmədə dövlət başçısının seçilməsi parlamentdən asılı deyildir, ümumsəsvermə yolu ilə həyata keçirilir, dövlət başçısının və hökumət başçısının səlahiyyətləri prezidentin əlində cəmləşir, hökuməti prezident təyin edir, hökumət prezident qarşısında məsuliyyət daşıyır (ABŞ-da və digər ölkələrdə); parlamentli respublika-prezident parlament yolu ilə seçilir, idarə etmədə həlledici rol hökumət başçısına - baş nazirə məxsusdur, hökumət parlament yolu ilə formalaşır, hökumət parlament qarşısında məsuliyyət daşıyır. (İtaliya, Almaniya, İsveçrə və b); yarımparlamentli respublika-prezidentin

və ya dövlət başçısının seçilməsi parlamentdən asılı deyildir, ümumi səsvermə yolu ilə həyata keçirilir, güclü prezident hakimiyyətinə malikdir, hökumət parlament qarşısında məsuliyyət daşıyır. (Fransa, Portuqaliya, Finlandiya və b), bu, belə bir cəhəti ifadə edir ki, müxtəlif idarəetmə formalarının mövcudluğunun əsası hüquqi vəziyyətlə və yüksək dövlət orqanlarının nisbəti ilə bağlıdır. Eyni zamanda xeyli dövlət monarxiya idarəetmə formasına malikdir. Belə idarəetmədə dövlət başçısının vəzifəsinin əvəz olunması irsi prinsipə əsaslanır. Hökmdarın (dövlət başçısının) səlahiyyətlərinin həcmindən asılı olaraq monarxiya idarəçiliyinin iki növü vardır: mütləq və konstitusiyalı monarxiya. Bununla belə əgər mütləq monarxiyanın fərqləndirici əlaməti dövlət başçısının qeyri-məhdud hakimiyyətidirsə, konstitusiyalı monarxiya dövlət başçısının səlahiyyətlərinin məhdudlaşdırılması ilə səciyyələnir. Hazırda dünyada 40-a yaxın monarxiyalı dövlət mövcuddur, onlardan əksəriyyəti parlamentli monarxiya kimi səciyyələnir. (Böyük Britaniya, Yaponiya, İsveç, Norveç və b). Yeri gəlmişkən qeyd edək ki, həmin dörd dövlətdən ikisi (İsveç və Yaponiya) inzibati- ərazi quruluşu baxımından unitar dövlətdir. Unitar dövlət, siyasi müstəqillik kəsb etməyən inzibati-ərazi vahidinə malik dövlət quruluşudur.

Ümumiyyətlə, respublika və monarxiya rejimləri baxımdan yuxarıda yürütdüyümüz mülahizələr bütövlükdə "siyasi rejim" anlayışını tamamlamağa xidmət edir.

## 3. TOTALİTAR REJİMİN SİYASİ PRAKTİKASI.

**Totalitar rejim ictimai həyatın bütün sahələrinə mütləq nəzarəti həyata keçirən, insanı siyasi hakimiyyətə və hakim ideologiyaya tabe etdirən dövlət quruluşu kimi səciyyələnir.** Totalitar rejimin idealına **C.Oruell** tərəfindən utopiya əleyhinə təsvir edilən quruluş xidmət edə bilər. **Stalin və Hitler** rejimləri məhz, həmin idealın nümunələridir." Totalitarizm" anlayışı(latın dilində totalis sözündən götürülüb) tam, bütöv mənasını ifadə

edir[1]. Həmin anlayış XX əsrin əvvəllərində italiya faşizminin ideoloqu **Covanni Centilen** tərəfindən italiyadakı faşizmi səciyyələndirmək üçün istifadə olunmuşdur.

"Totalitarizm" məmhumu ilk dəfə 1925-ci ildə italiya parlamentində səslənmişdir. Həmin məvhumu siyasi leksikona (lüğətə) italiya faşizminin lideri **B. Mussolini** gətirmişdir. Totalitarizmin ideya əsasları hələ antik dövrə təsadüf edir. Lakin siyasi reallıq olmaq etibarilə o, XX əsrin hadisəsidir.

Totalitar rejim şəraitində mütləq hakimiyyət müxtəlif formalarda təzahür edə bilər: siyasi həyatın sivilizasiyalı normalarını tapdalayan terrorçu diktaturadan dünya ictimai rəyinə nümayiş etdirilən yalançı demokratiyaya (formal seçkilərlə və çoxpartiyalılıqla səciyyələnən) qədər (Polşada, Almaniya Demokratik Respublikasında olduğu kimi), Bütün hallarda totalitarizm şəraitində xalq hakimiyyəti mövcud olmur. Belə şəraitdə xalq dövlətin siyasətinə fəal təsir etmək imkanından kənarda qalır. Bu cəhət xüsusilə onda ifadə olunur ki, vəzifəli şəxslər seçilmir, məhz təyin olunurlar. Belə təyin etmə sistemi isə formal demokratik qaydalarla müşahidə oluna bilər və müşahidə edilir də. Hökuməti xalq faktiki olaraq öz arzusuna müvafiq seçmir, ali hakimiyyət öz iradəsini zorla bütün əhaliyə qəbul etdirir. **Elə sərt iyerarxiyalı hakimiyyət sistemi yaradılır ki, dövlət orqanları bütün səviyyələrdə vətəndaşların nəzarətinə məruz qalmır.**

Totalitar rejim şəraitində real hakimiyyət dövlət və onun orqanlarından çox hakim partiyaya, hər şeydən əvvəl isə onun liderinə və yaxın ətrafına məxsusdur. Siyasətin başlıca istiqamətini də məhz, onlar işləyib hazırlayırlar. Dövlət "ikinci rol oynayır", vəzifəsi isə partiyanın planını həyata keçirməkdən ibarətdir. Dövlətin bir nömrəli şəxsiyyəti hakim partiyanın başçısı hesab olunur. Dövlətin siyasətinin ən mühüm istiqamətləri hakim partiyanın rəhbərliyi tərəfindən işlənilib hazırlanır. Totalitarizmdə hakimiyyət sistemi gizli xarakter daşıyır. Partiyanın, dövlətin, hüquq mühafizə orqanlarının konkret fəaliyyəti xalqın mühakiməsinə məruz qalmır, xalqdan gizlədilir.

---

[1] Ətraflı bax: X fəsil, ikinci paraqraf

Praktika göstərir ki, bütün totalitar rejimlər gec-tez süquta uğrayır (hətta hərbi məğlubiyyət nəticəsində məhv olmasa da - məsələn, 1945-ci ildə Almaniya kimi), demokratiyaya doğru istiqamətlənir. Cəmiyyətə təzyiq göstərən hakimiyyətin mütləq, hər şeyi əhatə edən xarakteri tədricən zəifləyir. Xalq ilə "nomenklatura" - təyinatlı yüksək-rəsmi vəzifələr sistemi arasında artan ziddiyyət cəmiyyətdə mənafelərin ahəngdarlığı mexanizmini sarsıdır və onların əsaslandığı ideologiya nüfuzdan düşür.

Totalitar siyasi rejimin təşəkkül tapdığı və inkişaf etdiyi hər bir ölkədə o, spesifik xüsusiyyətlərə malik olmuşdur. Lakin totalitarizmin bütün formaları üçün səciyyəvi olan və onun mahiyyətini əks etdirən ümumi cəhətlər də mövcuddur. Bu cəhətlər aşağıdakılardır:

1. hakimiyyətin yüksək dərəcədə təmərgüzləşməsi, hakimiyyət aparatının hipertrofiyası (həddən artıq böyüməsi), onun cəmiyyət həyatının bütün sferalarına nüfuz etməsi. Totalitar rejimdə "hakimiyyət və cəmiyyət" problemi mövcud deyildir. Hakimiyyət və xalq vahid tərzdə düşünür. Tamamilə, digər problemlər aktuallıq kəsb edir, hakimiyyət və xalq daxili düşmənə qarşı, düşmən xarici əhatə ilə mübarizəyə qalxır. Hakimiyyətdən real surətdə uzaqlaşdırılan xalq maraqlıdır ki, totalitarizm şəraitində öz mənafeyinin özü tərəfindən yox, hakimiyyət vasitəsilə dərindən və tam ifadə olunacağına inanır.

2. Totalitar rejimlər üçün birpartiyalılıq səciyyəvidir. Harizmalı liderin başçılıq etdiyi vahid hakim partiyanın partiya şəbəkəsi özəyi cəmiyyətin bütün istehsal-təşkilatı strukturalarına nüfuz etməklə onların fəaliyyətini istiqamətləndirir və buna nəzarəti həyata keçirir.

3. Cəmiyyətin bütün həyatının ideologiyalaşması. Totalitar ideologiyanın əsasını müəyyən məqsədə çatmaq üçün tarixə qanunauyğun hərəkət kimi baxmaq təşkil edir və bu, bütün vasitələrlə əsaslandırılır. Həmin məqsəd dünya hökmranlığına can atmaqdan, kommunizm qurmaqdan və s. ibarətdir. Mövcud ideologiya miflər seriyasını (fəhlə sinfinin rəhbər rolu haqqında, ari irqinin üstünlüyü barədə və s. ideyanı) özündə səciyyələndirməklə sehrli simvolun gücünü əks etdirir. Totalitar rejim əhalinin ideologiyanı mənimsəməsi naminə çox geniş qüvvə sərf

edir. Həmin rejimdə ideologiya ictimai həyatın bütün sferalarına nüfuz etməyə çalışır (vətəndaşların şəxsi həyatı da daxil olmaqla), müəyyən hərəkətlərə sərt qadağa qoyur. Almaniyada millətlərarası kəbinə, SSRİ-də xüsusi sahibkarlığa qoyulan qadağalar buna misal ola bilər.

Totalitar rejim bəzi ölkələrdə nəinki sırf siyasi mənada, eləcə də dünyagörüşündə başqa cür düşünmək baxımdan, xüsusilə dinə inamda yolverilməz hesab olunur. Totalitar ideologiya hər şeydən əvvəl, utopik xarakter daşıyır, ya "işıqlı gələcəyə" (kommunizmə) və ya "işıqlı keçmişə" (faşizmə) istiqamətlənir. Dövlət bütün vasitələrlə inandırmağa çalışır ki, totalitar rejimdəki həyat yeganə mümkün olan reallıqdır. Bu məqsədlə informasiyanın yayılması üzərində sərt nəzarət həyata keçirilir. Mətbuatın, radionun, televiziyanın fəaliyyətinə ciddi senzura tətbiq olunur. Bir sözlə, totalitarizm hakimiyyətin informasiyanı inhisara alması, kütləvi informasiya vasitələri üzərində tam nəzarətin həyata keçirilməsi ilə səciyyələnir.

4. Silahlı mübarizə aparmağın bütün vasitələrindən istifadə olunmasını dövlətin öz inhisarına alması. Ordu, polis, bütün digər güc strukturları son dərəcədə siyasi hakimiyyət mərkəzinin tabeliyində olur.

5. Adamların davranışına ümumi nəzarət sisteminin işlənib hazırlanmasının, zorakılıq sisteminin mövcudluğu. Bu məqsədlə əmək düşərgələri və xüsusi rejimli düşərgələr, **getto**[1] və s yaradılır, burada ağır əmək tətbiq olunur, adamlara əzəb-əziyyət verilir. Müqavimət göstərdikdə onları iradəsindən döndərməyə məcbur edirlər, günahsız insanların kütləvi surətdə öldürülməsi həyata keçirilir. Məsələn, SSRİ-də **QULAQ** (rus dilində belə səslənir) adlanan bütöv düşərgələr şəbəkəsi yaradılmışdı.

1941-ci ilə qədər ona 53 təkmilləşdirilmiş güc düşərgəsi, 425 islah əmək kaloniyaları və həddi-buluğa çatmamışlar üçün 50 düşərgə daxil idi. Bu düşərgələrin mövcudluğu dövründə onlarda 40 milyondan artıq insan öldürülmüşdür. Totalitar cəmiyyətdə diqqətlə işlənib hazırlanmış cəza tədbirləri (repressiya) aparatı mövcuddur.

---

[1] getto-orta əsrlərdə bəzi ölkələrin iri şəhərlərində yəhudilər üçün ayrılan xüsusi məhəllələr. Müəyyən ölkələrdə, məsələn ABŞ-da indi də zəncilərə qarşı getto tədbiq edilir.

6. Bütün totalitar rejimlər üçün ümumi olan elə bir cəhət mövcuddur ki, məhz, "bütün qadağan olunanlar hakimiyyətin əmrinə əsaslanır" prinsipi ilə şərtlənir. Cəmiyyət bu prinsipi rəhbər tutaraq insan tərbiyəsini həyata keçirir. Totalitar siyasi rejimin bütün yuxarıda qeyd etdiyimiz ümumi cəhətləri ilə yanaşı spesifik xüsusiyyətləri də mövcuddur. Bu spesiflik onun tarixdə məlum olan növlərini müəyyənləşdirməyə imkan yaradır. Bunlar **kommunist totalitarizmi, faşizm və milli sosializmdir** (ətraflı bax: X fəsil, ikinci paraqraf). **Kommunist totalitarizmi** totalitar rejimin səciyyəvi xüsusiyyətlərini daha tam əks etdirir. Burada iqtisadi həyat da daxil olmaqla cəmiyyətin bütün sferaları total nəzarətə məruz qalır, xüsusi mülkiyyət aradan qaldırılır, nəticə etibarilə fərdiyyətçiliyin və cəmiyyət üzvlərinin muxtarlığının hər cür əsası ləğv edilir.

Totalitarizmin ikinci tipi **faşizmdir**. Faşist təşkilatlarının təşəkkül tapdığı ölkələr Almaniya və İtaliyadır. İtaliyada faşizm 1922-ci ildə qərarlaşmışdır. İtaliya faşizmi üçün böyük Roma imperiyasını bərpa etməyə cəhd göstərmək səciyyəvidir. Faşist tipli totalitar siyasi rejim demokratiyaya qarşı mübarizliyi, irqçilik və şovinizmlə fərqlənir. Faşizm güclü, amansız hakimiyyətə əsaslanır, bu hakimiyyət isə avtoritar partiyanın ümumi hökmranlığı, rəhbərə pərəstiş sayəsində qorunub saxlanılır.

Totalitar siyasi rejimin üçüncü növü **milli sosializmdir**. O, 1933-cü ildə Almaniyada bərqərar olmuşdur, özündə həm faşizmin və eləcə də kommunist totalitarizminin cəhətlərini birləşdirmişdir. Bununla yanaşı onlardan məqsədləri baxımdan və sosial üstünlüyü (birinciliyi) əldə etmək istəyilə fərqlənmişdir. Nasional-sosializmin məqsədi ari-irqçiliyin hökmranlığına nail[1] olmaq, almanları ali millət elan etməkdən ibarətdir (arilik məhz, bu mənanı ifadə edir)

Totalitar siyasi rejimin ümumi cəhətlərinin və onun müxtəlif formalarının xüsusiyyətlərinin öyrənilməsi şübhəsiz, totalitar rejimlərin təşəkkülünün şəraitini və yollarını başa düşməyi asanlaşdırır, onun bəşəriyyət üçün nə qədər fəlakətli olduğunu anlamağa kömək edir. Totalitar rejimlər hakim olduqları ölkələrdə

---

[1] arilər-hind avropa dillərində danışan xalqlara verilən qeyri elmi şərti ad

iqtisadi və sosial inkişafın tərəqqisinin xeyli dərəcədə ləngiməsini şərtləndirmişlər. Bu məsələnin öyrənilməsi xeyli görkəmli alimlərin-politoloqların, iqtisadçıların, tarixçilərin, psixoloqların, sosioloqların və başqalarının diqqətini cəlb etmişdir. Totalitar siyasi rejimlər məsələsinə **F.Xayekin** "Köləliyə doğru yol" (1944-cü il), **X.Arendin** "Totalitarizmin mənbəyi" (1951-ci il), **K. Fridrixin** və **Z.Bjezinskinin** "Total diktatura və avtoritariya", (1956-cı il), **R.Aronun** «Demokratiya və totalitarizm» (1958-ci il) əsərləri və digər tədqiqat işləri böyük töhvədir bəxş etmişdir. Praktiki olaraq bütün tədqiqatçılar belə qənaətə gəlirlər ki, totalitarizmin mənbəyi çoxcəhətlidir və ictimai həyatın müxtəlif (təsərrüfat, siyasi, sosial) sferalarından törəyir. Onların əsasını dünyagörüşü zəmini və psixoloji amillər təşkil edir.

Totalitar siyasi rejimin çoxcəhətli təzahür edən səbəbləri və şərtləri sırasında tarixin göstərdiyi kimi, iqtisadiyyatda və dövlətin bütün ictimai həyatında baş verən dərin böhran şəraiti başlıca rol oynayır. **Hitlerin** hakimiyyətə gəlməsi ərəfəsində Almaniyada məhz, belə olmuşdur. Totalitarizm SSRİ-də də dərin böhran şəraitində "start götürmüşdür". Totalitarizmin yaranmasının başlıca şərtdlərindən birini tədqiqatçılar cəmiyyətin industrial mərhələyə daxil olması ilə əlaqələndirirlər. Belə şəraitdə cəmiyyətin ümumi ideologiyalaşmasına imkan yaradan kütləvi informasiya vasitələrinin obrazlı desək, "informasiya sənayesinin" imkanları kəskin şəkildə artır. KİV eləcə də şəxsiyyətin üzərində total nəzarətin həyata keçirilməsini təmin edir. İndustrial mərhələ iqtisadiyyatın inhisara alınmasını və eyni zamanda dövlət hakimiyyətinin güclənməsini, onun tənzimləyici və nəzarət funksiyalarının qüvvətləndirilməsini doğurur. Həmin mərhələ dünyagörüşü zəmininin təzahürünə, xüsusilə kollektivçiliyin fərdiyyətçilikdən üstünlüyünə əsaslanan kollektivçi dünyagörüşün, şüurun formalaşmasına imkan yaradır. Nəhayət, yeni kütləvi partiyanın təzahürünə, dövlətin rolunun kəskin şəkildə güclənməsinə, müxtəlif totalitar hərəkatların inkişafına aid olan siyasi şərait totalitar siyasi rejimin təşəkkülünə həlledici təsir göstərmişdir.

## 4. AVTORİTAR SİYASİ REJİMİN FƏRQLƏNDİRİCİ XÜSUSİYYƏTLƏRİ

Avtoritar rejim dövlətdə hakimiyyətin bir liderin və ya kollektivin əlində cəmləşməsidir. Belə rejim öz məqsədlərinə nail olmaq naminə əvvəllər təşəkkül tapan qanunların və normaların dəyişdirilməsi ilə müşahidə olunur. Bir sözlə, **avtoritarizm cəmiyyətin bir nəfərin və ya qrupun diktaturasına əsaslanan dövlət-siyasi quruluşudur.** Avtoritar mövhumu latın dilində **au(S)toritas** sözündən əmələ gəlib **hakimiyyət, təzyiq** mənasını ifadə edir. Avtoritarizm bir nəfərin və ya hakimiyyətin bir orqanının əlində təmərküzləşən elə hakimiyyət formasıdır ki, digərləriniin, hər şeydən əvvəl isə onun bütün nümayəndəli təsisatlarının rolunu azaldır. Beləliklə, müxalifətin mövcudluğunu və siyasi yarımsistemlərin (assosiasiyaların, ictimai qrupların, ittifaqların) muxtarlığını minimuma endirir.

Avtoritarlıq ideoloji münasibətlərdə hakimiyyətin strukturunda, iqtisadiyyatda, elmdə, mədəniyyətdə iyerarxiyalı münasibətləri inkar etsə də əslində, əməli işdə onu tətbiq edir. Avtoritarizm bir-birilə əlaqələndirilən **üç başlıca əlamətlə** idarəetmənin və hakimiyyətin digər tiplərindən fərqlənir: **1)hakimiyyətin mərkəzləşdirilməsi; 2) rəhbərliyin qəti komanda (inzibati-amirlik) metodu; 3)şərtsiz itaət etmə.**

Avtoritarizm tarixən ayrı-ayrı dövrlərdə və ölkələrdə müxtəlif formalarda mövcud olmuşdur. (Antik yunan və Şərq despotu və tiraniyası - Fars, Sparta və xeyli digərləri, feodal mütləqiyyət rejimləri və s). Avtoritarizmin nəzəriyyəsi XIX əsrin başlanğıcında **J.de Mentr** və **L.de Bonald** kimi ultramühafizəkar nəzəriyyəçilər tərəfindən işlənib hazırlanmışdır. (Fransa inqilabına və sosialist hərəkatına cavab olaraq). İndustrial cəmiyyətin inkişafı ilə avtoritarizm ideyası konstruktiv (əməli) siyasi ideologiya çalarları kəsb etdi, J. de Mentrə məxsus əksinqilabi qayda ideyası monarxiyalı istiqamətini itirdi, mütləq avtoritarizm konsepsiyası aradan qalxdı. XIX əsrdə avtoritarizm Alman siyasi fikrində daimi və mühüm cərəyana çevrilərək milli və dövlət birliyi ideyası ilə tamamlandı. **Q. Trayç** iddia edir ki, həmin əsrin axırlarında avtoritarizm güclü milli və sosial səfərbərlik eləcə də dövlət

quruculuğu prosesini yuxarıdan idarə etmək vasitəsi kimi nəzərdən keçirilir. XX əsrin birinci yarısında ifrat dərəcədə sağ fransız ideoloqu və siyasətçisi sayılan **Ş. Morranın** doktrinasında avtoritarizm industriallaşmanın, dövlətin cəmiyyətə nüfuz etməsinin, siyasətin həyata keçirilməsi vasitəsi kimi xalqın yüksək səfərbərliyinin obyektiv və zəruri şərti baxımdan əsaslandırılır.

Tarixi təcrübə göstərir ki, avtoritar rejim bir qayda olaraq siyasi qüvvələrin kəskin qütbləşməsi ilə müşahidə olunan ictimai quruluşların əvəz olunması zamanı baş verir. Bu zaman müşahidə olunan uzunmüddətli iqtisadi və siyasi böhranın demokratik vasitələrlə aradan qaldırılması mümkün olmur. Tarix və müasir dövr avtoritar rejimlərə dair misallarla zəngindir. Avtoritar rejimlər xüsusilə XX əsrin ikinci yarısında Asiya, Afrika və Latın Amerikasının müstəmləkəçilikdən azad olan bir sıra ölkələrində təşəkkül tapdı. 1953-cü ildən sonra SSRİ-də totalitar rejimin avtoritar rejimə çevrilməsi başlanır.

XX əsr bir tərəfdən totalitarizmin yüksəlişi və dağılması, digər tərəfdən isə demokratiyanın avropa və şimali amerika hüdudlarından kənarda yayılması dövrü kimi səciyyələnir. Əlbəttə, demokratiyanın təntənəsi barədə danışmaq hələ tezdir. Çünki yer kürəsi əhalisivnin yarısından çoxu avtoritarizm şəraitində yaşayır. Müqayisə üçün qeyd edək ki, yaxın keçmişdə bəzi avropa dövlətləri avtoritar metodlarla idarə olunurdular. Portuqaliyanı (1922-1974-cü illər), İspaniyanı (1939-1976-cı illər) və Yunanıstanı (1967-1974-cü illər) xatırlamaq kifayətdir. Praktiki olaraq bütün diktator sistemləri bəzən "üçüncü dünya ölkələri" adlandırılan "inkişaf etməkdə olan ölkələrdə" mövcuddur. Hazırki dövrdə həmin ölkələr arasındakı fərqlər, xüsusilə də sosial-iqtisadi inkişaf səviyyəsinə görə elə həddə çatmışdır ki, "üçüncü dünya ölkələri", "inkişaf etməkdə olan ölkələr" terminlərini işlətmək artıq öz elmi əhəmiyyətini azaltmışdır, bunları yalnız söz xatirinə tətbiq etmək olar.

İnkişaf etməkdə olan ölkələrin əksəriyyəti çoxsaylı çevrilişlərə və inqilablara məruz qaldıqları üçün onları bəzi hallarda bir-birindən fərqləndirmək çətinlik törədir. Bir avtoritar rejimi digəri əvəz etmiş olur. Məsələn, 1979-cu ildə İranda şah rejimi əvəzinə **Xomeyni hakimiyyəti** qərarlaşdı və ya elə həmin

ildə Nikaraquada inqilabçı sandinistlər **D. Samosun** oliqarxiya diktaturasını devirdilər. (özlərinin diktaturasını yaratmaq naminə)

Son 30 ildə avtoritarizmin aşağıdakı növləri mövcud olmuşdur və mövcud olmaqda davam edir:

-**Ənənəvi mütləq monarxiya** (1974-cü ilə qədər Eviopiya, eləcə də Səudiyyə Ərəbistanı, Mərakeş, Nepal və b.) Onlar hakimiyyət haqqında mifoloji təsəvvürlərlə silahlanan avtoritarizmin daha köhnə tipləridir. Bu ölkələrdə siyasi rəqabətin səviyyəsi çox aşağıdır, hakimiyyətin idarə olunması kökləri konkret şəxsiyyətlərlə bağlıdır. Aristokratik sinfin ideologiyası hakim mövqeyə malikdir.

-**Oliqarxiya avtoritarizmi** (Qvatemala, 1979-cu ilə qədər Nikaraqua, Kamerun, Tunis, **F.Markosun** vaxtında Filippin (1972-1985-ci illər və s.) Bu halda hakimiyyət bir neçə güclü ailənin və ya tayfanın - iri torpaq sahiblərinin və ya kompradar[1] burjuaziyanın əlində olur, onlar bütün iqtisadi və siyasi həyata nəzarət edir. Burada bir lider sadə çevrilişin köməyilə digərini əvəz edə bilər (eləcə də razılaşma yolu ilə). Yeni dövlət başçısının hakimiyyətində siyasi struktur əvvəlki kimi qalır. Elita kilsə və yüksək hərbi dairələrlə sıx əlaqədə olur.

-**"Sosialist oriyentasiyalı"** ölkələr (Əlcəzair, Birma, Qvineya və b.) Onlara sosializm və onun tiplərini dərk etməyin spesifikliyi xasdır. Totalitarizmin bu növü indiki şəraitdə praktiki olaraq yox dərəcəsindədir.

- **Hərbi rejimlər**. Bunlar üç cür mövcud olur:

1) Sərt diktatorçu, terrorçu təbiətə malik olan və şəxsi xarakterli hakimiyyət. Belə hakimiyyət sözün tam mənasında **pretorian**[2] rejim sayılır. (Uqandadakı **İ. Aminin** rejimi və s.)

2) Müvəqqətiliyi və iqtisadiyyatı modernləşdirməyə cəhd etməsi ilə fərqlənən xunta. (Latın Amerikası)

3) Geniş sosial bazaya malik olan və uzun müddətli xarakter kəsb edən birpartiyalı sistem. (İndoneziya, keçmiş İraq (**Səddam Hüseyn** rejimi)

---

[1] Kompradar yerli bazarla xarici kapital arasında vasitəçilik edən tacirlər
[2] Pretorian- istibdad üsul idarəsinin arxalandığı qoşun hissələri

Müasir avtoritarizmin demokratiya ilə müqayisə olunmasına "ağ-qara cizgilər" müəyyən çətinlik törədir. Bununla bağlı düzgün olmayan təsəvvürlərin təşəkkülü bir tərəfdən qərb demokratik nəzəriyyələrinin, digər tərəfdən isə avtoritarizmin siyasi praktikasının fərqləndirilməsi ilə şərtlənir. Bu və ya digər ölkənin nailiyyətlərini obyektiv qiymətləndirmək üçün iqtisadi və sosial inkişaf göstəricilərini, təhsilin əldə olunmuş səviyyəsini və mədəniyyət sahəsindəki uğurları, milli və irqi dözümlüyü, eləcə də cəmiyyət həyatının digər konkret aspektlərini öyrənmək lazımdır. Digər avtoritar dövlətlərin inkişaf xüsusiyyətləri ilə hətta səthi tanışlıq, belə bir cəhəti qeyd etməyə imkan verir ki, məsələn, Sinqapurda cinayətkarlıq Böyük Britaniyaya nisbətən on dəfə azdır, milli gəlirin artım sürəti isə qərb dövlətlərinin göstəriciləri ilə müqayisədə daha yüksəkdir. Bununla belə avtoritar siyasi rejimlərin əlverişli inkişafına dair bu cür misallar əksəriyyət hallarda ya böyük təbii resurslar ehtiyatı (Fars körfəzi monarxiyaları) və ya əmək etikasının xüsusiyyətləri (şərqi Asiya regionu ölkələri) ilə əlaqədardır.

Avtoritar siyasi sistemin "start götürdüyü" fövqəladə şərait onun həm də irəli sürdüyü başlıca məqsədi müəyyənləşdirir. Bu məqsəd isə ölkədə qayda yaratmaqdan, cəmiyyət həyatının normal şəraitini təmin etməkdən ibarətdir. Avtoritar rejimin irəli sürdüyü başlıca məqsəd öz növbəsində onun əldə olunması vasitələrini müəyyənləşdirir, eləcə də ictimai həyatın bütün sferalarının, sosial təbəqələrin hamısının imkanlarını və vəzifələrini şərtləndirir.

Avtoritar rejimlərin yaranmasının konkret şəraiti nə qədər müxtəlifdirsə, onların hər biri bir o qədər fərqləndirici cəhətlər kəsb edir. Məqsədimiz demokratik və totalitar rejimlər kimi, avtoritarizmin də ümumi cəhətləri və onun müxtəlif tipləri barədə mülahizələr yürütməyə imkan verən spesifik xüsusiyyətlərini nəzərə çatdırmaqdan ibarətdir. Eləcə də avtoritar rejimin totalitarizmdən fərqini nəzərdən keçirmək vacibdir.

Avtoritar siyasi rejimin **ümumi cəhətləri** aşağıdakılardır.

1. Xalqın hakimiyyətdən özgələşməsi. Onun daşıyıcısı bir nəfərdən və yaxud bir qrupdan ibarətdir. Bu, harizmalı lider, monarx, hərbi xunta, istibdad və diktatur rejimi, populist sistem və sairə ola bilər. Onlar məhdudlaşdırılmayan və cəmiyyət tərəfindən

nəzarət olunmayan hakimiyyətdir. Avtoritar cəmiyyət xalq ilə siyasi hakimiyyət arasında dərin uçurum doğurur.

2. Vahid ideologiyanın olmaması. Avtoritar liderlər (totalitar liderlərdən fərqli olaraq) öz hərəkətləri ilə yüksək məqsədlərə cəhd etməyə məsələn, dünyanı yenidən qurmağa haqq qazandırmırlar. Onlar təsdiqləyirlər ki, cəmiyyət son dərəcə uçurum vəziyyətindədir və onu xilas etməyi öz üzərlərinə götürürlər, həm də iddia edirlər ki, məhz, bundan sonra lazım gələrsə hakimiyyətdən əl çəkməyə hazırdırlar.

3. Gücə arxalanmaq, zərurət yaranarsa onun köməyilə əhalini itaətkarlığa məcbur etmək. Lakin bu rejim totalitarizmdə baş verən repressiyaya əl atmır. Bundan başqa mövcud rejim xalq kütlələrinin nüfuzundan istifadə edə bilər, bu o zaman tətbiq olunur ki, kütlələrin fəallığının müsbət nəticələri aydın surətdə tamamilə nəzərə çarpır.

4. Siyasətin inhisara alınması. Bütün siyasi fəaliyyət yalnız hakimiyyətin funksiyasına çevrilir. Müvafiq surətdə siyasətin digər subyektləri: siyasi müxalifət, siyasi partiyalar və digər ictimai təşkilatlar qadağan olunur. Avtoritarizmdə ayrı-ayrı hallarda məhdudlaşdırılmış sayda həmkarlar ittifaqlarının və siyasi partiyaların fəaliyyətinə yol verilir, lakin onlar hakimiyyətin ciddi nəzarəti altında fəaliyyət göstərirlər.

5. Cəmiyyət üzərində tam, total nəzarətdən imtina olunması. Avtoritarizm özünün daha inkişaf etmiş vəziyyətində "siyasətdən başqa hər şeyə icazə verilir" prinsipinə əsaslanır, hakimiyyət ümumi nəzarətə aid real olmayan iddialardan imtina edir, yalnız bəzi sahələrdə: xüsusi təhlükəsizlik, milli müdafiə, ictimai qaydalar və xarici siyasətlə bağlı tam nəzarəti həyata keçirir. Bundan başqa siyasi hakimiyyət sosial təminatın təşkilinə fəal qarışır və inkişafın ümumi strategiyasını işləyib hazırlayır. İqtisadiyyat, mədəniyyət, din, adamların xüsusi həyatı dövlətin nəzarətindən kənarda qalır.

İdarə edən elita demokratik yolla deyil, yuxarıdan təyinetmə vasitəsilə formalaşır. Avtoritar liderin əhatəsi rəhbərin rəğbət bəslədiyi və ona sədaqətli olan şəxslər hesabına təşəkkül tapır, (işgüzar keyfiyyətlərə və qabiliyyətə görə yox).

Avtoritar siyasi rejimlər yuxarıdakı ümumi cəhətlərlə yanaşı **spesifik xüsusiyyətlərə** də malikdirlər. Onların differensasiyası və təsnifatı həmin xüsusiyyətlərə uyğun olaraq aparılır.

Məşhur Polşa politoloqu **E. Vyatr** avtoritar rejimlərin təsnifatını aşağıdakı kimi təklif edir:

1. **Hərbi idarəçilik**. Hərbçilər hakimiyyəti zəbt edirlər. Siyasi fəaliyyət ya ümumiyyətlə qadağan olunur və ya kəskin şəkildə məhdudlaşdırılır. Çilidə **Pinoçet** başda olmaqla hərbi xuntanın hakimiyyətə gəlməsi ilə bütün partiyalar qadağan edildi. Fəaliyyətini məhdudlaşdırmaqla siyasi partiyaların mövcudluğuna yer verən avtoritar rejimin bu tipinin nümunəsi **Marşal Pilsudskinin** Polşadakı hakimiyyəti olmuşdur.

2. **Teokratik avtoritar rejim**. Bu tip, siyasi hakimiyyətin fanatik dini tayfanın əlində cəmləşdiyini ifadə edir. Belə rejim 1979-cu il inqilabından sonra İranda yaradılmışdır. Əlbəttə, özünəməxsus cəhətlərinin məcmuu baxımdan teokratik rejim tamamilə totalitar rejimə bənzəyir.

3. **Şəxsləşdirilmiş rejim**. Zəif təsisatlara (polisdən başqa) malik olan hakimiyyətin siyasi liderə mənsub olması. Həmin rejimlər son dərəcə azömürlüdür, çünki liderin hakimiyyətdə uzun müddət qalmasına imkan yaratmır.

4. **Monarxiyalı avtoritar rejim**. İordaniyada, Mərakeşdə, Səudiyyə Ərəbistanında və digər ölkələrdə mövcuddur.

5. **Neoavtoritar rejimlər.** Kütləvi partiyalara yol verilməsi (məsələn, Meksika), müxalifətin, seçkilərin mövcudluğu ilə fərqlənir. Lakin seçkilərin nəticələri saxtalaşdırılır. Siyasi rejimlərin üç başlıca növünü: demokratik, totalitar və avtoritar rejimləri öyrənmək əsasında **avtoritar rejimi totalitarizmdən nə ilə fərqləndirmək** sualını tam cavablandırmaq mümkündür:

**Birincisi**, avtoritarizmin totalitarizmdən fərqi bu rejimin məqsədlərini, tarixi vəzifələrini başa düşməklə bağlıdır. Totalitarizm bir qayda olaraq utopik ideyalarla əlaqədardır. Məsələn, "**üçüncü reyx**" min il yaşamağı nəzərdə tuturdu. **Sovet kommunist sistemi** əbədi mövcud olacağını güman edirdi.

Avtoritar rejim isə cəmiyyətin köklü, inqilabi surətdə yenidən dəyişdirilməsini qarşısına məqsəd qoymur. Əvvəldə qeyd olunduğu kimi, onların məqsədi konkret vəzifələri həyata

keçirməkdən, ölkəni çətin vəziyyətdən çıxartmaqdan ibarətdir. Məsələn, **Pinoçetin** avtoritar rejimindən 20 il sonra ölkənin iqtisadi böhrandan çıxarılması zamanı Pinoçet başda olmaqla xunta ölkə başçısının və parlamentin ümumi seçkilərinə mane olmadı.

**İkincisi**, əgər totalitar cəmiyyətdə total (ümumi) nəzarət və zorakılıq tədbiq olunursa, avtoritarizmdə ictimai həyatın mövcud sferaları dövlətin nəzarətinə məruz qalmır. Totalitar cəmiyyətdə "hakimiyyət tərəfindən əmr edilənlərə icazə verilir" prinsipi hakimdirsə, avtoritar rejimdə "siyasətə aid olmayanlara icazə verilir" prinsipi hökm sürür.

**Üçüncüsü**, totalitar cəmiyyətdə rəqibə qarşı sistemli şəkildə terror mövcuddursa, avtoritar cəmiyyətdə müxalifətin təşəkkülünün qarşısını almağa istiqamətlənən seçmə terror taktikası tətbiq olunur.

**Dördüncüsü**, totalitar cəmiyyətdə hakimiyyətdən hökmranlıq (güc), adamlardan isə itaət və sakitlik tələb olunduğu halda avtoritarizmdə hakimiyyətdən səriştəlilik, adamlardan tabelik və peşəkarlıq tələb edilir.

Avtoritar rejimin mahiyyəti, siyasi proseslərin "avtoritarlaşması" məhz, yuxarıda yürütdüyümüz mülahizələrlə səciyyələnir.

# XIV FƏSİL

## SİYASİ PARTİYALAR VƏ PARTİYA SİSTEMLƏRİ

### 1. "SİYASİ PARTİYA" SİYASİ TƏSİSATLARIN SPESİFİK NÖVÜDÜR

Siyasi partiyalar müasir demokratik cəmiyyətin siyasi sisteminin ayrılmaz hissəsidir. Müasir dünyanın siyasi tarixinə diqqət yetirsək dərk etmək olar ki, siyasi partiya kimi fenomenin izahından yan keçmək qeyri-mümkündür, tədqiqatçı üçün qəbahətdir. Sivilizasiyalı ölkələrin siyasi həyatını bu tə'sisatsız və təşkilatsız təsəvvür etmək çətindir. Əhalinin dövlətə münasibəti mənafe və təzyiq qrupları ilə yanaşı həm də partiyalar vasitəsilə tə'min olunur. Lakin partiyalar həmin qruplar ilə müqayisədə xeyli spesifikliyə malikdir. **R.Douz** onların funksional və təşkilati xüsusiyyətlərini nəzərə alaraq qeyd edir ki, ictimai təşkilatlar içərisində "ən siyasiliyə malik olan partiyalardır. Rus politoloqu **Ostroqorskinin** fikrincə, kütlələrin davranışını və onları təmsil edən təşkilatları-partiyaları öyrənmək sayəsində hər cür demokratiyanı dərk etmək olar. Təsadüfi deyil ki, XX əsrin ikinci yarısında ictimai-siyasi hərakatlara və siyasi partiyalara dair xeyli əsərlər həsr olunmuşdur: Professor **Romanovski** yazır ki, 60-70-ci illərdə xarici ölkələrdə çap olunan işlərin demok olar ki, yarısı siyasi partiyalara aiddir.[1]Siyasi partiyaların mənşəyinə və siyasi proseslərdə roluna dair nəzəri mübahisələr (polemika) bu günə qədər davam edir. "Siyasi partiya anlayışını müəyyənləşdirmədən siyasi sistemdə partiyaların yeri və rolunu, demokratiya tə'sisatı olmaq e'tibarilə onun funksiyalarını və tiplərini aydınlaşdırmaq çətindir.

---

[1] Романовский Н.Б. Политические партии и партийные системы. М. ,1990. Səh.90.

"**Partiya** termini latınca hissə, qrup mə'nasını ifadə edir. Bu termin hələ Qədim dünyada yayılmışdı. Aristotel dağ və düzənlik sakinlərinin partiyası haqqında, Afinada şəhər kənarında yaşayan adamların partiyası barədə söhbət açmışdır.[1] Partiya tipli siyasi qrupların xüsusiyyətləri orta əsrlər Avropasında düşmənçilik edən saray birləşmələrinə (koalisiyasına) xas idi. İtaliyada **gibellinlərin** (kralın tərəfdarları) və **givelflərin** (Roma papasının tərəfdarları) partiyaları bir-birinə qarşı mübarizə aparırdılar.

Partiyaların formalaşması uzun proses olub parlamentarizm normalarının yayılması, qanunverici və icraedici hakimiyyətin seçilməsi praktikası və tədricən ümumi seçki hüququna keçilməsi ilə bağlıdır. Xüsusi siyasi partiyalar XVIII-XIX əsrlərdə parlamentarizmin təşəkkülü prosesində təzahür edir. İlk əvvəl bunlar parlamentdə fəaliyyət göstərən **elitar klublar** olmuşlar. Həmin klublar parlamentdən kənarda yalnız seçkilər zamanı özlərini biruzə verirdilər və təşkilati cəhətdən formalaşmamışdılar, onlar partiyaya üzv olmaq prinsipini qəbul etmirdilər. Yalnız XIX əsrin ortalarında milyonlarla insan səsvermə hüququ əldə etdikdən sonra siyasi hakimiyyətə yiyələnmək və ya onu devirmək məqsədilə ixtisaslaşmış təşkilat kimi partiyalar yaranmağa başlayır.

Elmi ədəbiyyatda bə'zən qədim dövrdə təşəkkül tapan **aristokratik qruplaşmaları** müasir partiyaların tlk nümunəsi kimi səciyyələndirmək cəhdləri də'diqqəti cəlb edir. Bu fikir o halda məqbul sayıla bilər ki, aristokratik qruplaşma məhdud da olsa parlamentdə fəaliyyət göstərsin. Zənnimizcə, İngiltərədə təşəkkül tapan **liberal və mühafizəkar qruplaşmalar** buna əyani nümunədir. Həmin qruplaşmalar arasındakı münasibətlər isə dünyəvi yox, dini xarakter daşıyırdı. **Viqilər II Yakovun** əleyhdarları, **Torilər** isə tərəfdarları idi.

V Əvvəldə haqqında danışdığımız elitar klublar cəmiyyətdə qərarlaşan plyuralizmə və siyasi sferadakı rəqabətə daha uyğun gəlir. Elitar siyasi klubun strukturlarından sonralar çoxsaylı yeni tipli qruplaşmalar yarandı ki, bunun da bariz nümunələrinə XIX əsrin əvvəllərində Avropa ölkələrində, ilk növbədə isə Fransada və İngiltərədə təsadüf olunur. 1831-ci ildə ingilis toriləri

---

[1] Çox ehtimal ki, həmin fikir kənd və şəhər sakinlərinə məxsus olan partiyalara işarədir, bəlkə də belə deyil.

(mühafizəkarları) "Kartlon klubun, viqilər (liberallar) isə "Reform klubun əsasını qoydular. İlk başlanğıcda "Kartlon klub ən'ənəvi torpaq aristokratiyası, "Reform klub isə liberal burjuaziya ilə əlaqəli idi. İngilis klubları eyni zamanda parlament fəaliyyətinə diqqət yetirir, eləcə də parlamentdən kənar fəaliyyət göstərirdilər.

Elitar klublar aristokratik qruplaşmalardan sosial bazasına, ideoloji əlaqələrinə, əhatəli təşkilatlarına və bunlardan irəli gələn daha böyük ictimai fəaliyyətlərinə görə seçilirlər. Siyasi klublar İtaliya və Polşada da mövcud olub.

Partiyaların yaranması bütün cəmiyyətlərdə birmə'nalı qarşılanmayıb. Cəmiyyətin irəliyə doğru inkişafı prosesində iqtisadi və siyasi həyatda sabitliyin yaranması ilə bağlı və siyasi şüurun yetkinlik səviyyəsinə çatdığı təqdirdə adamlar siyasi partiyaların əsl mahiyyətini daha düzgün başa düşüb və onları öz hüquqlarının müdafiəçisi kimi qiymətləndirməyə başlayıblar.

Müasir partiyalar XIX əsrdə Avropa və Amerikada yaranmışdır. Onlar avropanın siyasi həyatına və mə'dəni ən'ənələrinin məcmuuna müəyyən ideologiyaların daşıyıcısı, başqa sözlə, cəmiyyətin sosial, siyasi, iqtisadi və digər məqsədlərini müəyyən edən dünyagörüşü sistemi kimi daxil olmuşdur. Beləliklə, partiyalar bəzi qrupların mənafeyini ifadə edən nümayəndəli struktur kimi formalaşmışdır. Onlar tə'sisat, dövlətə qarşı müxalifətdə duran qüvvə və həmfikirlərin ittifaqı mənada təzahür etmişlər.

İngiltərədə partiyalar 1832-ci ildə seçki islahatı nəticəsində, ABŞ-da XIX əsrin 30-cu illərində Consonun prezidentliyi dövründə, Fransada 1848-ci il inqilabı zamanı, təşkil olunmuşdur. Polşa sosialist partiyası 1892-ci ildə, Rusiya sosial-demokrat partiyası 1898-ci ildə yaradılmışdır. Avropada kütləvi partiyalar isə XIX əsrin ikinci yarısında meydana çıxır. Bu partiyalar kütlələrin geniş təbəqəsini əhatə etməsi və çoxcəhətli siyasi tə'sir vasitələrindən istifadəsi ilə səciyyələnirlər. İlk kütləvi partiya kimi İngiltərədə "Seçkilərdə qeydə almağın liberal yoldaşlığı yarandı (1861-ci ildə). 1863-cü ildə isə Almaniyada **Fridrix Lassalın** rəhbərliyilə "Ümumalman fəhlə ittifaqı adlı kütləvi partiya təşəkkül tapdı.

Partiyalar siyasi proseslərin gedişinə güclü tə'sir göstərə bilən tə'sisat kimi səciyyələnir. Siyasi elmə dair ədəbiyyatda partiyaya xeyli tə'rif verilmişdir. Bə'zi müəlliflərin hesablama-

larına görə partiyanın iki yüzdən artıq tə'rifi mövcuddur. Bu və ya digər tədqiqatçı siyasi partiyaların müxtəlif aspektə malik olduğunu iddia etməklə ona ayrı-ayrı mövqedən yanaşır, partiyanı müsbət və ya mənfi siyasi hadisə kimi qiymətləndirir. Belə fikir ayrılıqlarını nəzərə alan siyasi partiyaların nüfuzlu tədqiqatçısı **S.Eldersveld** "partiyanı müəyyən edəcək universal anlayış tapmaq çətindir qənaətinə gəlib.[1]

✓Ümumiyyətlə, siyasi partiyaya verilən təriflərdə əsasən aşağıdakı əlamətlər diqqəti cəlb edir: partiya 1) ümumi ideoloji dəyərlər əsasında birləşən qrupdur; 2)təşkilatın spesifik növüdür; 3)müəyyən sinfin və ya digər sosial qrupların ümumi mənafeyini təmsil edən daha fəal hissədir; 4) cəmiyyətdə siyasi münaqişələrin ifadəsi olmaqla, bunların şərtləndirdiyi problemlərin həlli silahıdır. Təsadüfi deyil ki, C.Vaşinqton amerika xalqına "Vəsiyyət məktubunda " "partiya ruhunun təhlükəli nəticələrindən danışaraq partiyanı xalqın hakimiyyətinin sarsıdılması və hökumətin hakimiyyətinin qəsb edilməsi üçün "hazır silah adlandırmışdır. Əlbəttə, bu fikir partiyaları dövlətə qarşı müxalifətdə olan "mürtəce qüvvə kimi səciyyələndirir. Siyasi partiyaların **milli ləyaqəti** bütün ölkələrdə eyni səviyyədə təzahür etmir və edə də bilməz. **Öz xudbin, məhdud mənafeyi uğrunda mübarizə aparan, çirkin niyyətlərini xalqın adından danışmaqla pərdələyən hər hansı siyasi partiya C.Vaşinqtonun partiya haqqında fikrinin müdrikliyini əyani təsdiqləyir.** Amerika politoloqu S.Lipset yazır ki, müasir demokratik ölkələrdə partiyaların mövcudluğu stratifikasiya və mədəni dəyərlərlə bağlı olan amillərlə şərtlənir. Birinci tipin (stratifikasiyanın) prototipi sinfi partiyadırsa ikincininki dini partiyadır. [2] (prototip nümunə deməkdir). Digər amerikalı müəllif K.Cend qeyd edir ki, partiya təşkilatların toplusu olub, məqsədi öz nümayəndələrini hökumət vəzifələrində yerləşdirməkdən ibarətdir. Fransız politoloqu M.Dyuverje partiyaya tə'rif verərkən vurğulayır ki, o, dövlət sistemi ilə qırılmaz əlaqədə olan təşkilatdır. Bir sıra xarici tədqiqatçılar partiyanın mahiyyətini və rolunu müasir cəmiyyətdə

---

[1] М.Н.Марченко. М.Х.Фарукшин. Буржуазные политические партий. М.1987. Səh 24.

[2] Липсет С. Политическая социология . Американская социлогия ., 1972. Səh 214

siyasi münaqişələrin həlli təbiətindən və mexanizmindən çıxış etməklə nəzərdən keçirirlər, özü də sinfi aspektə məhəl qoymamaq şərtilə.[1]

Siyasi partiya və onun funksiyaları məsələsi **R.J.Şvartsenberqin** "Siyasi sosiologiya (üçüncü hissə) adlı monoqrafiyasında əhatəli araşdırılır. Müəllif partiyanın aşağıdakı əlamətlərini (me'yarlarını) nəzərdən keçirir: fəaliyyətinin uzun müddətliliyi; təşkilatın tam miqyaslı olması; hakimiyyəti həyata keçirmək sə'yləri (partiyanın məqsədi hakimiyyətə yiyələnmək və ya onun həyata keçirilməsində iştirak etməkdir); xalq tərəfindən müdafiə olunması üçün axtarışlar (xüsusilə seçkilər yolu ilə). Partiya ümumi həmrəylik ideyasına əsaslanır, qlobal cəmiyyətin bu və ya digər ideyasını müdafiə edir. Nəticə e'tibarilə müəllif siyasi partiyaya belə bir tə'rif verir:

V"Siyasi partiya fasiləsiz fəaliyyət göstərən təşkilat olub həm milli həm də yerli səviyyədə mövcudluğu ilə səciyyələnir, hakimiyyəti ələ almağa və ya yola salmağa istiqamətlənir və bu məqsədlə xalq tərəfindən müdafiə olunmasına cəhd göstərir.[2]

VMarksizm siyasi partiyaları müəyyən ideologiya ilə əlaqələndirir. Məsələn, kommunist partiyası sosializm ideyaları ilə inqilabi fəhlə hərakatının birləşməsi nəticəsində yaranır. Elə bunun nəticəsidir ki, keçmiş sovet ictimaiyyətşünaslıq elmi bütün siyasi anlayışlar kimi partiya anlayışına da marksist mövqedən, başqa sözlə, sinfi baxımdan yanaşırdı/ Böyük Sovet Ensiklopediyasında "partiya anlayışı məhz, aşağıdakı kimi müəyyənləşdirilir: "Siyasi partiya ictimai sinfin, yaxud təbəqənin maraqlarını ifadə edən, onların daha fəal nümayəndələrini birləşdirən və müəyyən məqsəd və ideallarn əldə olunması üçün onlara rəhbərlik edən siyasi təşkilatlardır. Siyasi partiya sinfi təşkilatın ən yüksək formasıdır.[3]. **M.Dyuverjenin** gəldiyi qənaətə görə, məsələyə bu mövqedən yanaşma partiyaların və partiya sistemlərinin müəyyən aspektlərini üzə çıxarsa da onların fəaliyyəti, rolu və siyasi sistemdəki yeri ilə bağlı bə'zi halların

---

[1] Дарендорф Р. О будущем партий. (Политология вчера и сегодня). Səh 133. 138; Элдерн Т., Артер Д. Условия достижения консенсуса. Yenə orada. Səh 154-163.
[2] Швартсенберг Р. Ж. Политическая социология. М.1992. част. III. Səh 78.
[3] Большая Советская Энциклопедия. М.1975. т.19. Səh 248.

izah olunmasında acizdir. Bu müəllif belə hesab edir ki, əgər XIX əsrdə partiyaların sosial bazasının müəyyənləşdirilməsində sinfi yanaşmanı qəbul etmək olardısa, indiki şəraitdə həmin metod praktiki olaraq qaneedici deyil.

Elə müəlliflərə də təsadüf olunur ki, onlar "partiya anlayışına münasibətdə başlıca vurğunu seçki prosesinə müncər edərək göstərirlər ki, partiyalar seçkilər nəticəsində rəsmi tə'sisatlara və hökumətə nəzarət etməyə sə'y göstərən həmfikirlərin könüllü təşkilatıdır, assosiasiyasıdır. C.Sartori siyasi partiyaları "seçkilərin keçirilməsində fəal iştirak edən və bunun sayəsində öz namizədlərini dövlət tə'sisatlarına göndərmək imkanına malik olan siyasi qrup sayır. ABŞ-ın siyasi həyatında partiyaların roluna dair sanballı tədqiqatı ilə tanınan R.Xaktoriyə görə "siyasi partiyalar dövlət müəssisələrində vəzifələrin tutulması və hökumətin təşkili yolu ilə hakimiyyətə nəzarət etmək ümidində olan və bu məqsədlə də seçkilərdə iştirak etməyə öz namizədlərini irəli sürən vətəndaşların muxtar qrupudur. F.Riqst isə iddia edir ki, bütün partiyalar qanunverici orqanlara öz namizədlərini irəli sürmürlərsə onlar partiya deyillər.[1]

V.P.Puqaçev və A.İ.Solovyev partiyaya belə tə'rif verirlər: Partiya tarixən formalaşmaq nəticəsində özünü ixtisaslı, təşkilati cəhətdən tənzim olunan, bu və ya digər məqsədlərə daha fəal meyl göstərən, adamları birləşdirən, hakimiyyətin əldə edilməsi və siyasi hakimiyyətdən istifadə olunması uğrunda mübarizə aparan təşkilat kimi biruzə vermişdir[2] Siyasi partiyaların çoxsaylı tərifləri içərisində aşağıdakı da maraq doğurur: "Siyasi partiya xalqın bir hissəsinin mənafeyini təmsil edən, dövlət hakimiyyətini əldə etmək və ya onun həyata keçirilməsində iştirak yolu ilə həmin mənafeyin reallaşmasını qarşısına məqsəd qoyan həmfikirlərin mütəşəkkil qrupudur.[3] Beləliklə, partiya siyasi sistemin ünsürü olmaqla bir-birini şərtləndirən və bir-birinə keçən əlamətlərlə səciyyələnir. Həmin əlamətlər bunlardır: partiya bilavasitə sosial qruplar və təbəqələrlə, onların ümumi mənafeləri ilə bağlıdır, çalışır ki, bu qruplar və təbəqələr daim onu müdafiə

---

[1] М.Н.Марченко, М.Х.Фарушкин Буржуазные политические партии. Səh.24.
[2] В.П.Пугачев. А.И.Соловьев. Введение в политологию. Səh.213.
[3] Политология: Энциклопедический словарь. Səh.245.

etsinlər; cəmiyyətdəki sosial-siyasi ziddiyyətləri ifadə edir; özünün bütün üzvləri tərəfindən qəbul olunmuş ideoloji və siyasi dəyərlər əsasında formalaşır və fəaliyyət göstərir; Həmin dəyərlərin daşıyıcısı kimi çıxış edir; Bu və ya digər böyük sosial qrupların və birliklərin (xalqların, millətlərin) siyasi proqramlarının reallaşması vasitəsi olan dövlət hakimiyyətinə can atır, ümumi siyasi məqsədlər naminə birləşir; Nəhayət, bu və ya digər prinsiplərə əsaslanan (partiyanın xarakterindən və məqsədlərindən asılı olaraq) sabit təşkilatdır. Siyasi partiyaların formalaşmasının spesifikliyindən, onların inkişaf tarixindən asılı olmayaraq bütün hallarda bu proseslər kütlələrin dövlətin idarə olunmasına cəlb edilməsinin obyektiv tələbatını, cəmiyyətin demokratikləşməsinin qanunauyğun meylini, xeyli regionda isə xalqların milli müstəqilliyə can atmasını ifadə edir.

√Partiya ilk başlanğıcda bu və ya digər sosial təbəqənin mənafeyini müdafiə etmək məqsədilə yaradılmışdır. Tədricən **ümummilli** partiyalar seçicilərin yeni-yeni qruplarını özünə cəlb etmişdir. Nəticədə partiyalar müxtəlif sosial təbəqələrin mənafelərinin əlaqələndirilməsinə istiqamətlənən təşkilata çevrilmişdir. Buna görə partiyalar bir qayda olaraq qeyri-yekcins olur və öz daxilində fraksiyalarla səciyyələnir. Fraksiyaların proqramı partiyanın ümumi proqramından ayrı-ayrı cəhətləri ilə fərqlənir.

√ Partiyada fraksiyaların mövcudluğu onun siyasətini daha da mükəmməlləşdirir, seçicilərin müxtəlif qrupları arasında tə'sirini qoruyub saxlayır, cəmiyyətdəki sosial, iqtisadi və siyasi mənafelərin çoxcəhətliliyini nəzərə almağı şərtləndirir. /Partiyanın siyasəti onun daxilindəki müxtəlif fraksiyalar və cərəyanlar arasındakı mübarizənin gedişində işlənib hazırlanır. Partiyanın qurultaylarında bu qruplar alternativ sənədlərlə çıxış edərək onun nümayəndələr tərəfindən təsdiqinə çalışır, müxtəlif konsensusa gəlir və güzəştə gedirlər. Partiyaların çoxunun rəhbər orqanları fraksiyaları təmsil edən nümayəndəlik əsasında təşkil olunurlar. Belə praktika partiya aparatına imkan verir ki, öz möhkəmliyini saxlasın, seçicilərin əhval-ruhiyyəsində baş verən dəyişikliyi vaxtında hiss etsin və partiya qarşısında duran problemlərin həlli üçün səmərəli yollar axtarıb tapsın. √Partiya cəmiyyətdəki təbəqələrdən birinin nüfuzunu daha çox qazanırsa və uzun müddət

hansı tərəfindən müdafiə olunursa həmin təbəqə partiyanın **sosial bazası** adlanır, seçkilərdə öz səsini müntəzəm surətdə rəğbət bəslədiyi partiyaya verən seçicilər isə onun **eloktoratı** hesab olunur.

Avropada sosial-demokrat partiyalarının ən'ənəvi sosial bazasını gəliri aşağı səviyyədə olan muzdlu əmək adamları təşkil etmişlər; liberal-demokrat partiyaları isə daha çox qulluqçular, ziyalılar və kiçik sahibkarlar arasında nüfuz qazanmışlar; Mühafizəkar istiqamətli partiyalar iri mülkiyyət sahibləri, orta təbəqələrin və kəndlilərin bir hissəsi tərəfindən müdafiə olunmuşlar; aqrar partiyalar kənd əhalisinə arxalanmışlar. Lakin 70-80cı illərdən e'tibarən vəziyyət başqa cür olmuşdur: böyük partiyalar seçkilərdə əhalinin müxtəlif kateqoriyalarına mənsub olan seçicilərin səsini əldə etməyə başlayırlar. Sosial-demokratlara yalnız fəhlələr deyil, eləcə də qulluqçular, ziyalılar, xırda və orta mülkiyyətçilər səs verirlər. Mühafizəkarları fəhlə və qulluqçular, həmkarlar ittifaqlarının üzvləri və sahibkarlar müdafiə edirlər. Təəssüf ki, Azərbaycandakı partiyaların hansı sosial təbəqələr arasında daha çox nüfuza malik olduğunu təsdiqləmək çətindir. **Ümummilli me'yarları və dəyərləri öz siyasətində və fəaliyyətində praktiki olaraq təsdiqləyən hər hansı partiya bütün xalqın sevimlisidir. Yerliçilik və digər ötəri prinsiplər** üzərində qərarlaşan partiyalar məhz, fərdi və qrup mənafeyinin ifadəsindən başqa bir şey deyildir.

Demokratik ölkələrin siyasi həyatında partiyalarla yanaşı çoxsaylı ittifaqlar, assosiasiyalar, ictimai hərəkatlar və s. Mövcuddur. Onlar da partiyalar kimi öz tərəfdarlarının mənafelərini müdafiə edirlər. Bu ictimai birliklər ayrıca sosial qrupların məhdud, dar məqsədlərinin reallaşmasına sə'y göstərirlər və ya bütövlükdə cəmiyyət üçün faydalı olan ayrı-ayrı problemlərin həllinə istiqamətlənirlər (ətraf mühitin qorunması, istehlakçıların hüquqlarının müdafiəsi və s.). İctimai birliklərin fəaliyyətinin fərqləndirici cəhəti bundan ibarətdir ki, onlar hakimiyyətə yiyələnməyi qarşılarına məqsəd qoymurlar, məhz, siyasi proseslərə tə'sir göstərmək, konkret qərarların qəbul olunması uğrunda mübarizə aparırlar.

Düzdür, tarixdə elə hallar olmuşdur ki, ictimai hərəkat genişlənib partiyaya çevrilmişdir. Məsələn, ətraf mühitin qorunması uğrunda hərəkat buna aydın sübutdur. Ekologiya tərəfdarlarının yaratdığı "yaşıllar partiyası bü gün praktiki olaraq bütün inkişaf etmiş ölkələrdə fəaliyyət göstərir. Maraqlıdır ki, "yaşılların tə'siri altında ən'ənəvi partiyalar öz proqramlarında təbiətin qorunub saxlanılması tələblərini xüsusi qeyd edirlər.

Bütün digər siyasi tə'sisatlardan, mənafe qruplarından və müxtəlif ictimai birliklərdən fərqli olaraq partiya özünəməxsus xüsusi funksiyalara və bunları həyata keçirmək üçün səciyyəvi üsullara, müəyyən daxili təşkilata və struktura, siyasi fəaliyyət proqramına və digər ideoloji istiqamətləndirmə sisteminə malikdir.

## 2. SİYASİ PARTİYALARIN TƏSNİFATI VƏ FUNKSİYALARI

V Siyasi partiyaların funksiyalarının xarakteri onların təsnifatı ilə bilavasitə bağlıdır. Bu prinsipi nəzərə almayan bə'zi müəlliflər nədənsə əvvəl siyasi partiyaların funksiyaları, sonra isə onun təsnifatı barədə mülahizə yürütməyi məqsədəuyğun hesab edirlər. Partiyaların funksiyalarının xarakteri və məcmuu onların təsnifatı ilə şərtləndiyi üçün biz ilk növbədə siyasi partiyaların təsnifatını verməyi daha düzgün hesab edirik. Politoloqlar siyasi partiyaların təsnifatına dair müxtəlif meyarlar təklif edirlər. Məsələn, partiya liderləri ilə onun sıravi üzvləri arasında ünsiyyət tərzi baxımından **avtoritar və demokratik** partiyaların mövcudluğunu iddia edən müəlliflər vardır. Bə'zi təsəvvürlərə görə cəmiyyətin müxtəlif təbəqələrini, daha doğrusu, onun bütün və ya xeyli gücünü əks etdirən siyasi təşkilat **inteqrativ** partiya hesab olunur. Bir sosial təbəqəni və ya sinifi təmsil edən partiyanı **nümayəndəli** partiya kimi qiymətləndirənlərə də rast gəlinir. Bu fikir müəyyən mə'nada partiya haqqında **marksist** konsepsiyaya yaxındır. Həmin konsepsiya partiyanın təsnifatında sinfi me'yarı müəyyənedici sayır. Sinfi xarakterdən asılı olaraq fəhlə, burjua və kəndli partiyaları vardır. **İdeoloji əlamətinə** görə inqilabçı, islahatçı,

mühafizəkar və praqmatik partiyaların mövcudluğu nəzərə çatdırılır.

Xarici ədəbiyyatda partiyaların təsnifatı üçün başlıca me'yar üzvlərin sayı, partiyanın daxili strukturu və daxili həyatı hesab olunur. Məsələn, **M.Dyuverjeyə** görə **kadr partiyaları** və **kütləvi partiyalar** vardır. Yeri gəlmişkən qeyd edək ki, amerika partiyaları kadr partiyalarına, avropadakı kommunist və sosial-demokrat partiyaları isə kütləvi partiyalara aid edilir. Bə'zi müəlliflər belə qənaətə gəlirlər ki, kütləvi partiyalar tədricən dəyişərək, islah edilərək "hamının tələsik yediyi "hər şeyi yeyən universal partiyaya çevrilir. Bu nöqteyi-nəzər cəmiyyətdə sinfi antaqonizmin aradan qalxacağı tezisi ilə əsaslandırılır.

Kütləvi partiyalar mürəkkəb təşkilati struktura malikdir, çoxsaylı tərəfdarları vardır və maliyyələşmə mənbəyi üzvlük haqqıdır. Partiyanın məsləkdaşları arasında daimi və sıx əlaqə mövcuddur. Həmin partiya ideya-tərbiyə işinə mühüm diqqət yetirir. Burada rəhbərlik peşəkar siyasətçilərə, partiya bürokratiyasına mənsubdur. Partiya hakimiyyətinin mərkəzi parlamentdə deyil, partiyanın özündə yerləşir. Kütləvi partiyalar siyasi sistemdə tə'sirli nüfuza malikdirlər. Keçmiş SSRİdəki Kommunist partiyası kütləvi partiya idi. Qərbi Avropa sosial-demokrat partiyalarının çoxunu bura aid etmək olmaz. Kadr partiyaları çoxsaylı deyil, öz xadimlərinin nüfuzuna əsaslanır. ABŞ-dakı Respublikaçılar və Demokratlar partiyası buna misal ola bilər. Belə partiyalarda üzvlük haqqı formal xarakter daşıyır, onu qəbul etmək mexanizmi yoxdur, bir sözlə, üzvlük haqqı qeydə alınmır. Kadr partiyaları bir qayda olaraq əsasən seçki kampaniyası dövründə fəaliyyət göstərir.

Siyasi partiyaların təsnifatında **səfərbəredici partiyalara** da diqqət yetirilir. Həmin partiyaların məqsədi əhalini hər hansı vəzifənin yerinə yetirilməsinə səfərbər etməkdir. Bu kateqoriyaya keçmiş sosialist ölkələrinin əksəriyyət partiyasını aid etmək olar.

**Patronaj partiyaların** mövcudluğu da e'tiraf olunur. Belə tipli partiya başlıca olaraq lider və onun əhatəsi üçün yaradılır.

Elə partiyalar da vardır ki, bura **fərdi** və **kollektiv şəkildə** qəbul olunurlar. Səciyyəvidir ki, bu cür qəbul bilavasitə başqa

təşkilatlar, məsələn, həmkarlar ittifaqları tərəfindən həyata keçirilir. İngiltərədəki Leyboristlər partiyası buna misal ola bilər.

Siyasi sistemdəki yerinə görə **iqtidar** və **müxalifət partiyaları** da partiyaların təsnifatının predmetini təşkil edir. **Parlament və qeyri-parlament, leqal və qeyri-leqal** partiyalar da mövcuddur. Siyasi spektrdə yerinə görə **sol, mərkəzçi** və **sağ partiyalar** da tədqiqatçıların diqqət mərkəzindədir.

Siyasi partiyaların təsnifatına daha əhatəli və qlobal baxımdan yanaşan müəlliflərə də rast gəlirik. Məsələn, **R.Makridis** partiyaları avtoritar və demokratik, inteqrativ və nümayəndəli, ideoloji və praqmatik, problemin həllinə və öyrənilməsinə, yaxud öz "müştərilərinə xidmətə yönələn ümummilli və regional, dini və dünyəvi, islahatçı və inqilabçı, kütləvi, yaxud elitar (kadr), açıq və qapalı partiyalara bölür.

**Stiv Kouyen** isə partiyaların təsnifatını aşağıdakı kimi təklif edir:

Totalitar partiyalar (möhkəm intizamla, yad fikirliyi boğması və ideologiyalığı, dövləti və cəmiyyəti özünün tam nəzarətinə tabe etdirmək istəyi ilə fərqlənir).

Parlament partiyaları (seçkilərdə öz namizədlərini irəli sürür və qələbə qazanmasına kömək edir. Bundan sonra partiya özünün parlament fraksiyaları ilə daimi əlaqə saxlayır, yaxud seçiciləri idarə edir).

Seçki maşını partiyaları (təkcə seçki kompaniyası ilə məşğul olur, faktiki olaraq partiya aparatına malik deyildir, hər namizəd partiya bayrağı altında öz komandasını formalaşdırır).

Hərəkat partiyaları (hakimiyyətə nail olmaqdan daha çox, konkret problemin həllində hökumət orqanlarına təzyiq göstərmək üçün cəmiyyətin səfərbər edilməsi məqsədini güdürlər. Məsələn, yaşıllar, hərb əleyhinə, qadınlar hərəkatı və s.).

Partiyaların təsnifatına dair mülahizələrdə **harizmalı, ən'ənəvi** və **rasional partiyaların** mövcudluğuna da diqqət yetirilir. Harizmalı partiyalar liderə şəksiz inama əsaslanması ilə səciyyələnir. Ən'ənəvi partiyalar yüksək sosial statusa malik olan şəxslərin ictimai nüfuzuna əsaslanır. Rasional partiyalar isə liderin və bürokratik aparatın rolunu müəyyən edən Nizamnamə normaları zəminində fəaliyyət göstərməsi ilə fərqlənir. **Sanistebana**

görə partiyalar həmçinin, **yarışqan və inhisarçı** ola bilər. Yarışqan partiyalar plyuralist sistemdə olur. Onlar ya siyasi sistemdə ali hakimiyyəti həyata keçirir, ya da bu hakimiyyət uğrunda mübarizə aparırlar. İnhisarçı ("tək partiya kimi tanınan) partiya siyasi sistemdən istənilən başqa partiyanı sıxışdırıb çıxararaq ali hakimiyyəti təkbaşına idarə edir.[1] /

Partiyaların funksiyaları və təsnifatı ilə bağlı **Dyuverjenin** belə bir fikri diqqəti cəlb edir ki, Avropa ölkələrində parlament seçkiləri qərarlaşdıqdan sonra partiyaların təşkilinin ideoloji üsulları daha geniş və miqyaslı yayılır. Belə partiyalar əvvəlcə hansısa ideyaya, doktrinaya, konsepsiyaya inanan adamların dərnəkləri,klubları şəklində təzahür edir. Onlar hakimiyyətə gəlməyi və ya seçki kampaniyasında iştirak etməyi qarşılarına məqsəd qoymamışlar. Həmin partiyaların parlamentarizm sisteminə keçmələri sonralar onların öz dövlət siyasətlərini həyata keçirmək tələbatı yarandıqdan sonra baş verdi. Bu qrupa Dyuverje sosialist və xristian partiyalarının çoxunu aid edir.[2] Ümumiyyətlə, siyasi partiyaları müxtəlif me'yarlar əsasında tədqiq edən görkəmli politoloqlar sırasında **M.Dyuverje, La Palambara, C.Sartori, J.Şarlo** və başqaları xüsusi yer tutur. Şübhəsiz, siyasi partiyalara dair təsnifatların hamısı nisbi xarakter daşıyır. Partiyaların çoxunun əlamətləri bir-birinə uyğun gəlir. Kommunist partiyası və həm də sosial-demokrat partiyası iqtidar və ya müxalifət partiyaları ola bilər, eləcə də leqal və qeyri-leqal, islahatçı, inqilabçı və mühafizəkar partiyalar kimi səciyyələnir və sair.

√ Siyasi partiyaların təbiəti daha əyani şəkildə onların **funksiyalarında** təzahür edir. Partiyanın funksiyaları məsələsi xeyli dərəcədə konkret tarixi xarakter daşıyır. Belə ki, partiyanın funksiyalarının əhatə dairəsi, rəngarəngliyi, ixtisaslaşması konkret siyasi sistemin, rejimin xüsusiyyətlərindən, vətəndaş cəmiyyətinin vəziyyətindən, bütövlükdə isə bu və ya digər ölkənin sosial-siyasi inkişaf səviyyəsindən asılıdır. Məsələn, ABŞ-da iki başlıca partiyanın-demokratların və respublikaçıların funksiyaları əsasən seçki kampaniyasında iştirak etmək, öz namizədlərini hakimiyyət

---

[1] L.S. Sanisteban. Siyasi elmin əsası. Səh.40.

[2] Г.В. Пушкарева. Партии и партийные системы: концепция М. Дюверже. "Социально-политический журнал". 1993 № 9-10. Səh.113.

sistemində müxtəlif vəzifələrdə yerləşdirmək naminə seçicilərin səsini qazanmaq uğrunda mübarizə ilə məhdudlaşır. XIX əsrin 30-cu illərində Amerikada demokratiyanı tədqiq edən **A.Tokvil** yazır: "Partiya demokratik idarəçiliyə xas olan şərdir.[1] Müasir amerika siyasətçiləri öz partiyalarının klassikinin bu fikri ilə çətin ki, razılaşsın.

Qərbi Avropa ölkələrində də siyasi partiyaların funksiyaları məhdudlaşdırılır. Fransanın Konstitusiyasında partiyanın funksiyası belə müəyyənləşdirilir: "Partiyalar və siyasi qruplaşmalar seçki hüququnun ifadəsinə imkan yaradırlar. Onlar azad surətdə formalaşır və öz fəaliyyətini həyata keçirirlər. Eləcə də milli müstəqillik və demokratiya prinsiplərinə hörmət etməlidir. AFR-ın əsas qanununda partiyaların funksiyaları daha geniş təsbit olunur: "Partiya siyasi iradənin formalaşmasına və ifadəsinə imkan yaradır.[2]

Siyasi partiyalar çoxsaylı funksiyalara malikdir. Siyasi elmə aid müasir ədəbiyyatda həmin funksiyalar **həm ümumi həm də konkret** şəkildə müəyyənləşdirilir.

Partiyaların funksiyalarını **ümumi formada** səciyyələndirərkən müəlliflər bu sosial tə'sisatın mahiyyətindən çıxış edirlər. Həmin ümumi funksiyalardan başlıcası siyasi sistemdə müxtəlif sosial qrupların mənafelərinin müdafiə olunmasının ümumiləşmiş formada üzə çıxarılması və ifadə edilməsi sayılır[3]

Xarici ədəbiyyatda həmin funksiya mənafelərin **artikulyasiyası (xüsusiliyi) və aqreqasiyası (ümumiliyi)** kimi səciyyələndirilir. İkinci və az əhəmiyyətli olmayan ümumi funksiya isə ictimai qrupların sosial mənafelərini əks etdirən ideologiyanın və siyasi doktrinanın işlənməsi hesab olunur.[4]

Ümumi funksiyaların məcmuunda mə'lumatların kommunikativ (əlaqələndirici) kanallarının strukturunun təşkili də mühüm yer tutur. Nəhayət, siyasi partiyaların ümumi funksiyaları sistemində idarəedici elitanın formalaşdırılması özünəməxsus əhəmiyyət daşıyır.

---

[1] Токвиль А. Демократийа в Америке. М., 1992.Səh.144.
[2] Шварценберг Р.Ж. Политическая социолгия. 1992. часть. III. Səh.12
[3] Д.П.Зеркин. Основы политологии. Səh. 287-288.
[4] Yenə orada.

Partiyalar bu və ya digər dərəcədə siyasi proseslərdə praktiki olaraq iştirak etməklə siyasi sistemə **adaptasiya olunmağa** (uyğunlaşmağa) imkan yaradır, onun təkmilləşdirilməsinə tə'sir göstərir və ya siyasi sistemin sarsılması üçün ictimai rə'yin müvafiq istiqamətini formalaşdırır.

**S.Eldersveldin** fikrincə, partiya seçkilərdə iştirak etmək yolu ilə siyasi hakimiyyət uğrunda yarışan,[1] sosial maraqları səfərbər və ideoloji mövqeləri müdafiə edən, beləliklə, vətəndaşları siyasi sistemlə bağlayan qrupdur. Bu görkəmli politoloq siyasi partiyaların funksiyalarını təkcə seçkilərdə iştirakla məhdudlaşdırmır. C.Eldersveldin fikrincə, həmin siyasi tə'sisat digər funksiyalar da həyata keçirir.

Siyasi partiyaların funksiyaları haqqında əhatəli və dürüst təsəvvürə başqa tədqiqatların köməyilə də yiyələnmək olar. Bu baxımdan 1996-cı ildə Moskvada **B.A. Straşunun** rəhbərliyi ilə çap edilən "Xarici ölkələrin konstitusiya (dövlət) hüququ" dərsliyi maraq doğurur. Həmin dərsliyin müəllifləri partiyaların fəaliyyətinin istiqamətini əks etdirən başlıca funksiyaların aşağıdakılardan ibarət olduğunu nəzərə çatdırırlar:

1. Hər bir partiyanın fəaliyyətinin ilkin məqsədi cəmiyyətdəki problemlərin həllinə istiqamətlənən siyasi xəttin işlənib hazırlanmasıdır. Bu məqsədlə partiya fəallarından və mütəxəssislərdən təşkil olunan təşəbbüs qrupları, komitələr, komissiyalar, ictimai şuralar, "beyin mərkəzləri və s. yaradılır.

2. Partiyanın proqram sənədlərində ifadə olunan strategiya və taktika onun praktik fəaliyyətinə çevrilərək seçicilərə tə'sir imkanı əldə edir. Həmin mərhələdə yeni üzvlərin cəlb olunması, liderlərin seçilməsi və onların dövlət və ictimai orqanlara irəli çəkilməsi funksiyası üzə çıxır.

3. Daha zəruri funksiya bundan ibarətdir ki, hakimiyyət orqanlarının formalaşması, onlara nəzarətdə partiyanın sayının çox olması və bunların dövlət orqanlarına seçkilərdə iştirakı sosial münaqişələrin sülh yolu ilə həllinə zəmin yaradır. ... cəmiyyətin idarə olunmasının daha səmərəli yollarının axtarılmasına əlverişli imkan verir.

---

[1] Бу фикир. Л.С.Санистебанын партија һаггында мөвгејинә јахындыр

4. Milli dövlətlərin yarandığı dövrlərdə siyasi partiyalar bir qayda olaraq milli inteqrasiya funksiyasını yerinə yetirməli olurlar... Hindistan Milli Konqres partiyası buna misal ola bilər.

5. Bütün partiyaların fəaliyyətinin bir istiqaməti də ideoloji funksiyadır. Onun mahiyyəti öz üzvlərinə və tərəfdarlarına ideoloji tə'sir etməklə öz fəaliyyəti üçün sosial-psixoloji mühitin formalaşmasına əlverişli şərait yaradılmasında təzahür edir.

6. Siyasi partiyalar dövlət hakimiyyətinin həyata keçirilməsi üçün lazım olan kommunikasiya funksiyasının da daşıyıcıdır. Burada başlıca məqsəd hakimiyyətlə cəmiyyət arasında əlaqə yaratmaqdır.

Şübhəsiz, müxtəlif müəlliflərin birgə əməyinin məhsulu olan bu sanballı dərslikdə bütövlükdə siyasi partiyaların funksiyalarının başlıca cəhətləri öz əksini tapmışdır.

√ İndi də siyasi partiyaların **konkret funksiyalarının** təhlilinə keçək. Bu funksiyalardan ən əhəmiyyətlisi aşağıdakılar hesab olunur:

√1. Hakimiyyətin müxtəlif qolları, dövlət idarəçiliyinin yerli və mərkəzi orqanları ilə və bə'zi siyasi tə'sisatlarla **əlaqə və münasibətlərin dərinləşməsi.** Bu bir qayda olaraq partiya proqramının irəli sürülməsi zamanı, siyasi proseslərin iştirakçıları arasında müttəfiqlərin və əleyhidarların müəyyən olunması gedişində baş verir.

√2. Siyasi sistemin bütün səviyyələri üçün **siyasi liderlərin seçilməsi və cəlb edilməsi.** Peşəkar siyasətçilərin irəli sürülməsi ilə yanaşı cəmiyyət və dövlət işlərinin idarə olunmasında partiyanın ekspertləri, analitikləri,[1] mütəxəssisləri fəal iştirak edirlər.

√ 3. **Sosial nümayəndəlik.** Bu funksiya partiyanın sosial qruplarla və bütövlükdə cəmiyyətlə əlaqəsini səciyyələndirir. Hər cür siyasi partiya müəyyən sosial mənafelərin ifadəçisidir, öz fəaliyyətində konkret sosial qruplara və təbəqələrə əsaslanır və siyasi aləmdə onların nümayəndəsi kimi çıxış edir. XX əsrin 60-70-ci illərindən başlayaraq indiyə qədər praktiki olaraq elə bir

---

[1] Analitik-siyasi hadisələrin, proseslərin və vəziyyətin təhlili ilə məşğul olan mütəxəssislərə deyilir.

partiya tapmaq çətindir ki, onun sosial bazası yalnız bir sosial təbəqədən ibarət olsun. Hər bir partiya çalışır ki, imkan daxilində cəmiyyətin geniş təbəqələrini özündə birləşdirsin və müxtəlif sosial qrupları təmsil etsin. Məsələn, Almaniyanın sosial-demokratları özünü bütün xalqın partiyası kimi e'lan edir. Qərbi Avropanın digər sosial-demokrat partiyaları da özlərini belə qələmə verirlər.

**4. Sosial inteqrasiya.** Həmin funksiya mövcud quruluşla razılıq əldə etməyi, sosial yaxınlığı və münaqişəli sosial qrupların mənafelərinin barışmasını səciyyələndirir.

**5. Siyasi sosiallaşma.** Mövcud funksiya partiyaların ən mühüm funksiyası olub vətəndaşların siyasi sosiallaşmasına xidmət edir, onlarda hakimiyyət münasibətlərində iştirak etməyə yönələn xüsusiyyət və vərdişlərin formalaşmasına imkan yaradır. Bir sözlə, bu funksiya şəxsiyyəti siyasət aləminə cəlb edir, onda sosial dəyərlərin, siyasi normaların təşəkülünə istiqamətlənir, adamları sosial-siyasi fəaliyyətdə ehtiyac duyduqları keyfiyyətlərə təhrik edir.

**6. Hakimiyyət uğrunda mübarizə və ya hakimiyyətin həyata keçirilməsində iştirak etmək.** Bu funksiya partiyanın siyasi sistemdə yeri və rolunu əks etdirdiyi üçün onun funksiyaları sistemində böyük əhəmiyyətə malikdir. Parlament demokratiyasında çoxlu partiyaların mövcudluğunun mə'nası bundan ibarətdir ki, seçkilərdə qələbə qazanıb hökuməti formalaşdırsın.

**7. Siyasi kursun, xəttin işlənib hazırlanması və həyata keçirilməsi.** Həmin funksiya ayrı-ayrı siyasi sistemlərdə müxtəlif cür təzahür edir. Partiyanın bu və eləcə də digər funksiyalarının məzmunu və üstünlüyü həmişə eyni vəziyyətdə qalmır, cəmiyyətdəki sosial və siyasi şəraitdən asılı olaraq müəyyən dəyişikliyə uğrayır. Məsələn, İsveçin sosial-demokrat fəhlə partiyasının 1920ci ildə qəbul etdiyi ikinci proqramda burjua dövlət maşınının sındırılması tələbi var idi.[1] Həmin partiyanın sonrakı proqramlarının hamısında "firavanlıq cəmiyyəti xətti əsaslandırılmışdır. Mövcud dövlət maşınının sındırılması çağırışı onun dəyişdirilməsi (islahat yolu ilə) ideyası ilə əvəz olundu. İsveç

---

[1] Актуальные проблемы социал-демократии. Вып. 1.М., 1990.Səh.124.

sosial-demokrat fəhlə partiyasının 1990-cı ildə qəbul etdiyi proqram layihəsində İsveçin inkişaf modelinin başlıca məqsədi belə əsaslandırılır: mərkəzi orqanların bə'zi vəzifələrinin yerli orqanlara verilməsi, ətraf mühitin problemlərinin həlli, bazar iqtisadiyyatı ideyasının qəbul olunması və onun neqativ nəticələrinə qarşı müqavimət göstərmək.

Əlbəttə, tarixi praktika sübut edir ki, partiyaları onların şüarları və proqramları ilə deyil, məhz, real və konkret davranışı və fəaliyyəti ilə, hansı mənafe və məqsədlərə xidmət etməsilə qiymətləndirmək lazımdır.

Almaniya sosial-demokrat partiyasının məşhur xadimi **Q.İ.Foqel demişdir:** "Dövlət ictimai qüvvələrə əsaslanır. Burada partiyalar başlıca rol oynayır. Onlar cəmiyyətin siqnallarını dərk edir, bunları özlərinin dəyərli təsəvvürləri fonunda yenidən işləyir və siyasətdə həyata keçirirlər.[1] Qərbi Avropa sosial-demokratlarının liderlərindən birinin bu fikri müasir cəmiyyətin siyasi həyatında baş verən ümumi qanunauyğunluğu düzgün əks etdirir.

## 3. PARTİYA SİSTEMLƏRİNİN MAHİYYƏTİ VƏ ONLARIN İNKİŞAF MEYLLƏRİ

Müasir dünya birliyini səciyyələndirən tarixi, sosial-iqtisadi və siyasi şəraitin rəngarəngliyi müxtəlif partiya sistemlərinin (birpartiyalı, ikipartiyalı və çoxpartiyalı sistemlərin) təşəkkülünü və fəaliyyətini şərtləndirir. Partiya sistemlərinin qərarlaşması partiyaların siyasi sistemdəki vəziyyəti, onların arasındakı qarşılıqlı əlaqə və münasibətlər, eləcə də siyasi partiyaların öz tipi ilə əlaqədardır. Partiyaların mövcud olduğu hər bir ölkədə tarixi, milli, mədəni, sosial-iqtisadi və digər amillərin tə'siri altında partiya sistemləri yaranır.

Elmi ədəbiyyatda partiya sisteminin birmə'nalı tərifinə təsadüf olunmur. Partiya sistemlərinin mahiyyətini təhlil etmək baxımdan ümumiyyətlə, "sistem anlayışını müəyyənləşdirmək

---

[1] Фогель Г.И. В поисках плюрализма и терпимости. "Огонек." 1991.№52. Səh.7.

məqsədəuyğundur. Fəlsəfi ədəbiyyatda sistemin çoxsaylı tərifi mövcuddur. Əlbəttə, həmin tariflərin müqayisəli təhlilini vermək fikrində deyilik. Tədqiqatımızın məqsədi nöqteyi-nəzərdən "sistem terminin yığcam mə'nasını dərk etmək vacib və əhəmiyyətlidir. Bu baxımdan fəlsəfi ədəbiyyatda sistem dedikdə tam, bütövlük kəsb edən, bir-biri ilə qarşılıqlı əlaqədə və tə'sirdə olan, qanunauyğunluqlarla şərtlənən ünsürlərin məcmuu başa düşülür. Təbii ki, partiya sistemi də sadəcə olaraq partiyaların sayı və çoxluğu ilə səciyyələnmir, ən başlıcası həmin partiyalar arasındakı münasibətləri və qanunauyğun əlaqələri əks etdirir. Partiyalar arasındakı münasibətlərin xarakteri son nəticədə siyasi sistemin mahiyyəti ilə müəyyən olunur.

**Partiya sistemi dedikdə mövcud ölkədə fəaliyyət göstərən bütün siyasi partiyaların məcmuu, onların bir-birilə qarşılıqlı münasibətləri, eləcə də dövlətlə və digər tə'sisatlarla sabit əlaqələri nəzərdə tutulur.**

Partiya sistemlərini səciyyələndirmək üçün onların **təsnifatı** mühüm şərtdir. Bu sistemlərin təsnifatı məqsədilə elmi ədəbiyyatda iki əlamət və ya me'yar əsas götürülür, başqa sözlə, həmin təsnifat kəmiyyət (say) və keyfiyyət göstəriciləri ilə şərtləndirilir. Lakin tədqiqatçılar kəmiyyət me'yarına daha çox üstünlük verirlər. Bu baxımdan politoloqlar birpartiyalı, ikipartiyalı və çoxpartiyalı partiya sistemlərinin mövcudluğunu iddia edirlər.

Partiya sistemlərinin təsnifatında kəmiyyət (say) me'yarına daha çox **M. Dyuverje** üstünlük verir. Lakin **L.Viner** və **La Palambara** isə bu me'yarı praktiki baxımdan faydasız hesab edirlər. **V.P.Puqaçev** və **A.İ.Solovyov** isə partiya sisteminin təsnifatında kəmiyyət metodunu düzgün hesab etmirlər. Bu müəlliflər məsələnin keyfiyyət cəhətini daha çox qiymətləndirərək yazırlar ki, "partiya tə'sisatlarının sayının nümayiş etdirilməsi dövlət qərarlarının qəbul olunması prosesinə neçə partiyanın cəlb edildiyini üzə çıxarmır.[1] Həmin müəlliflərin fikrinə müəyyən mə'nada haqq qazandıraraq qeyd etmək istəyirik ki, Fransada seçki kompaniyasında 20-dən artıq partiya iştirak etsə də əslində ölkəni bir-iki partiya idarə edir.

[1] В.П.Пугачев. АИ.Соловьв. Введение в политологию. Səh 218.

Politologiyaya dair ensiklopedik lüğətdə də partiya sistemlərinin təsnifatına diqqət yetirilmişdir. Buradakı təsnifat belədir:

1. Birpartiyalı sistemlər. Belə sistemlərdə digər partiyaların nominal mövcudluğu istisna edilir və partiya dövlət aparatının əsas hissəsi kimi çıxış edir:

2. Çoxpartiyalılıq pərdəsinə bürünən faktiki birpartiyalı sistemlər. Burada dövlət partiyası tərəfindən ciddi reqlamentləşdirilmiş əlaltı partiyalar total ideoloji və təşkilati nəzarət altında fəaliyyət göstərirlər. Əlaltı partiyalar adətən dövlət partiyasının nəzarətində olan milli və xalq cəbhələri təşkilatlarında birləşdirilir və onlar fəxri nümayəndəlik imtiyazlarından faydalanırlar.

3. Siyasi həyatda əsas yeri dövlət hakimiyyət sükanını mütamadi olaraq bir-birinə ötürən iki partiyanın tutduğu faktiki çoxpartiyalı sistem.

4. Dövlət səviyyəsində möhkəm koalisiyada olan iki və daha çox partiyanın fəaliyyət göstərdiyi, öz müttəfiqlərinin nəinki hökumətdə olarkən, eləcə də müxalifətdə olduqları dövrdə də yaxınlıq münasibətlərini saxlayan partiyaların mövcud olduğu çoxpartiyalı sistem.

5. Əvvəl mövcud olan bloklaşma siyasətinin zəiflədiyi (ancaq hələ tam aradan çıxmayan) plyuralist meylli çoxpartiyalı sistemlər. Belə sistem partiyaları üçün seçki kompaniyalarının təşkili və keçirilməsində müstəqillik başlıca xüsusiyyətdir... Hökumət koalisiyaları isə seçkilərin nəticələrinə görə formalaşır.[1] Bu təsnifat şübhəsiz, partiya sistemləri barədə əhatəli və dolğun təsəvvür yaranmasına mühüm kömәkdir, lakin müəyyən cəhətlərlə tamamlanmasına ehtiyac duyulur.

Partiya sistemlərinin təsnifatını verməyə cəhd edən politoloqlar sırasında **M.Dyuverje, C.Sartori** və başqalarının konsepsiyaları xüsusi maraq doğurur. Müasir İtaliya politoloqu C.Sartori özünün "Siyasi partiyalar" adlı sanballı əsərində partiya sisteminin yeddipilləli təsnifatını verir: birpartiyalı sistem; hekemonluğu həyata keçirən partiya sistemi; üstünlük təşkil edən partiya sistemi; ikipartiyalı sistem; polyarlaşmış plyuralizm;

---

[1] Политология. Энциклопедический словарь. Səh 243.

məhdudlaşdırılmış plyuralizm sistemi; ifrat plyuralizm sistemi. Bu axırıncı sistem birpartiyalı və çoxpartiyalı sistemlərin müxtəlif tiplərini nəzərdə tutur.

**Hakimiyyətdə olan vahid partiyadan ibarət partiya sistemini** təkpartiyalılığın klassik nümunəsi hesab etmək olar. Belə sistemdə partiya dövlətə qovuşur və çox vaxt onu əvəz edir. Başqa partiyanın yaradılması qanunla qadağan edilir, partiya siyasi fəaliyyəti inhisara alır. Belə ki, partiyadan kənar hər cür siyasi fəaliyyət qeyri-qanuni sayılır. Ölkədə başlıca siyasi qərarlar partiyanın ali rəhbərliyi tərəfindən qəbul oldunur, dövlət xadimləri isə əksər hallarda icraedici rol oynayırlar. Hazırda belə sistem Koreya Xalq Demokratik Respublikasında və Kubada mövcuddur, Əvvələr isə SSRİ-də, Albaniyada və Rumıniyada qərarlaşmışdı.

**Hegemonluğu həyata keçirən tək partiya sistemi** bir neçə partiyanın formal fəaliyyət göstərdiyi cəmiyyətdə mövcuddur. Real siyasi hakimiyyət isə digər partiyalara münasibətdə "böyük qardaş hüququna malik olan partiyaya məxsusdur. Belə partiya ona heç bir nəzarət olmadan hakimiyyəti inhisara alır. Bu sistem hazırda Çində fəaliyyət göstərir, yaxın vaxtlara qədər Meksikada, daha əvvəl isə Şərqi Avropanın sosialist dövlətlərinin əksəriyyətində mövcud idi.

Yadda saxlamaq lazımdır ki, totalitar və avtoritar rejimlərlə səciyyələnən ölkələrdəki partiya sistemləri ilə demokratik rejimli ölkələrin partiya sistemləri bir-birindən fərqlənir. Lakin demokratik rejimlərə malik olan ölkələrin özündə də partiya sistemləri əhəmiyyətli dərəcədə fərqləndirici xüsusiyyətləri ilə səciyyələnirlər. Məsələn, Böyük Britaniya və Fransa demokratik ölkələr olsalar da, birincidə ikipartiyalı, axırıncıda isə çoxpartiyalı sistem mövcuddur.

**Partiyanın üstünlük təşkil etdiyi sistemdə** bir neçə siyasi partiya fəaliyyət göstərir, uzun dövr ərzində hakimiyyət vahid partiyanın əlində cəmləşir, lakin digər partiyaların da hakimiyyətə gəlmək imkanları hüquqi cəhətdən təsbit olunur. Yaxın vaxtlaradək Hindistan milli konqresi və Yaponiyanın Liberal-demokrat partiyası bu tipli tə'sisat idi.

**İkipartiyalı sistemin klassik nümunəsi** ABŞ-dır. Demokratlar və Respublikaçılar partiyası vaxtaşırı dövlət hakimiy-

yəti sükanında bir-birini əvəz edirlər. Bu o demək deyil ki, ABŞ-da digər partiyalar yoxdur, var, lakin onlar ölkənin siyasi həyatına mühüm tə'sir göstərmək iqtidarında deyillər.

**Məhdudlaşdırılmış plyuralizm sisteminin** başlıca əlaməti cəmiyyətdə fəaliyyət göstərən bütün partiyaların hökumətdə iştirak etmək sə'yidir, koalisiyalı kabinetdə təmsil olunmaq cəhdidir. Belə plyuralizm şəraitində partiyalar arasında ideoloji fərqlər o qədər böyük deyil. Bu baxımdan Belçika səciyyəvidir.

**Polyarlaşmış və ya qütbləşən** plyuralizm sistemi özündə sosial sistemə zidd olan, başqa sözlə, mövcud ictimai-iqtisadi və siyasi sistemə qarşı çıxan partiyaları birləşdirir. Onlar bir-birinə zidd olan ideologiyalara tərəfdar çıxırlar.

Polyarlaşmış plyuralizm ikitərəfli müxalifətlə-hökumətə soldan və sağdan təzyiq göstərməklə səciyyələnir.

Belə çoxpartiyalılığın üçüncü əlaməti bundan ibarətdir ki, ifrat və ya polyarlaşmış plyuralizm sistemi bir partiyanın və ya partiyalar qrupunun mərkəzi mövqeyi ilə səciyyələnir. Qütbləşən plyuralizmin digər səciyyəvi əlaməti mə'suliyyətsiz müxalifətin mövcudluğudur. Belə plyuralizm şəraitində hökumətin formalaşdırılmasında iştirak etmək məhdud xarakter daşıyır.

**Çoxpartiyalılığın digər növü ifrat partiya sistemidir.** Bu sistemdə partiyaların sayını dəqiq hesablamağa ehtiyac yoxdur, ölkədə neçə (20,30) partiyanın fəaliyyət göstərməsi bir o qədər əhəmiyyətli deyil (Azərbaycanda olduğu kimi).

Elmi ədəbiyyatda **C.Sartorinin** təsnifatını şəklini dəyişmiş ikipartiyalı sistemlə tamamlamaq cəhdi də diqqəti cəlb edir. Bunu bə'zi hallarda 2,5 və ya "2+1 partiya sistemi adlandırırlar. Belə sistem məhz, Almaniya Federativ Respublikasında mövcuddur.

Burada başlıca partiyalar hesab olunan Xristian Sosial Demokrat və Almaniya Sosial-Demokrat partiyaları yalnız Azad demokratlarla ittifaqa girmək şəraitində hökuməti formalaşdıra bilirlər. Şəklini dəyişmiş ikipartiyalı sistem hazırda həmçinin, Böyük Britaniyada, Kanadada, Avstriyada və Avstraliyada mövcuddur.

Yeri gəlmişkən qeyd edək ki, partiya sistemlərinin təşəkkül tapması yollarını tədqiq edən **ilk politoloq Moris Dyuverjedir.** Seçki və partiya sisteminin qarşılıqlı əlaqəyə malik olduğunu sübut

etmək məhz, ona məxsusdur. Dyuverje partiya sistemlərini araşdırarkən "üç sosial qanunu işləyib hazırlamışdır:

1. Proporsional seçki sistemi bir-birindən asılı olmayan, sərt daxili struktura malik çoxlu partiyalarla səciyyələnən çoxpartiyalı sistemin yaranmasına gətirib çıxarır.

2. İki turda keçirilən majoritar səsvermə sistemi qarşılıqlı əlaqələrə və kompromislərə can atan, öz mövqeyini çevikliklə dəyişə bilən bir neçə partiyanın mövcud olduğu partiya sisteminin meydana gəlməsinə şərait yaradır.

3. Bir turda keçirilən majoritar səsvermə sistemi iki partiyanın rəqabətdə olduğu partiya sisteminin formalaşmasını şərtləndirir.[1]

İkipartiyalı sistem adətən yalnız bir turda keçirilən səsvermə sisteminin mövcud olduğu ölkələrdə formalaşır. Moris Dyuverjenin fikrincə, belə vəziyyət iki amillə - "**texniki**" və "**psixoloji**" amillərlə şərtlənir. **Texniki amilin** mahiyyəti onunla səciyyələnir ki, üçüncü partiya parlamentdə daim zəif təmsil olunur. Çünki onun əldə etdiyi səsin sayı nisbətən az səs toplayan ikinci partiyanın səsindən xeyli az olacaqdır. "**Psixoloji" amil** bununla səciyyələnir ki, səsvermə məntəqəsinə gələn seçicilər nisbətən böyük şansı olan partiyaya səs verməyə can atırlar. Seçicilərin uzun müddət tərəddüd edə biləcəyi qənaətinə gələn Dyuverje belə hesab edir ki, psixoloji amil daha uzun müddətli ola bilər.

Avtoritar və totalitar rejimlərdə partiya sistemlərinin rolu bundan ibarətdir ki, o, mövcud rejimi müdafiə edən silaha çevrilir. Birpartiyalı, ikipartiyalı və çoxpartiyalı sistemin fəaliyyətinin tarixi təcrübəsi göstərir ki, bu və ya digər sistemin qərarlaşması siyasi quruluşun xarakterindən çox ölkədə mövcud olan konkret tarixi şəraitdən asılıdır. Belə ki, ABŞ-da iki dəfə - Vətəndaş müharibəsindən dərhal sonra və XIX əsrin əvvəllərində birpartiyalı sistem mövcud olmuşdur. Artıq həmin əsrin 30-cu illərindən e'tibarən bu ölkədə ikipartiyalı sistem qərarlaşmışdır. Digər bir misal - Fransada eyni seçki sisteminin olmasına baxmayaraq Üçüncü Respublikada partiyaların sayı Beşinci respublikaya nisbətən çox idi.

---

[1] Г.В.Пушкарева. Партии и партийные системы: концепция М.Дюверже. "Социально-политический журнал.". 1993 №9-10. Səh.117.

Birpartiyalı, ikipartiyalı və çoxpartiyalı sistemlər adətən müxtəlif siyasi rejimlərə malik olan ölkələrdə təşəkkül tapır. Belə bir cəhəti qeyd etmək vacibdir ki, cəmiyyətin demokratikləşməsi səviyyəsi heç də bilavasitə partiya sistemlərinin tipi ilə bağlı deyil. Lakin hər halda XX əsrin siyasi tarixi təsdiqləyir ki, çoxpartiyalılıq (əgər o dekorativ xarakter daşımırsa) cəmiyyətin siyasi həyatının, ümumiyyətlə, bütün sferalarının demokratikləşməsi üçün əlverişli şərait yaradır.

Çoxpartiyalı sistemin mövcudluğu kompleks amillərlə: sosial, milli, ideoloji, dini, tarixi və tə'sisatlı amillərlə şərtlənir. "Partiya sistemləri sosial maraqları və siyasi baxışları qruplaşdırır, onlara yerli və ümummilli səviyyədə özünü ifadə imkanı yaradır, ictimai siyasi qüvvələri, o cümlədən seçiciləri təşkil edir, onların nümayəndəli orqanlara deputatların irəli sürülməsində və istiqamətləndirilməsində yardımçısı olur. Siyasi nöqteyi-nəzərdən demək olar ki, partiya sistemləri hakimiyyətin həyata keçirilməsinin ikinci yoludur.[1]

Çoxpartiyalılıq bilavasitə sosial təbəqələrlə bağlıdır və onların rəngarəngliyini əks etdirir. O, əhalinin qeyri-yekcins milli tərkibi ilə də şərtlənə bilər. Bu, etnik qrupların mənafelərinin partiya tərəfindən təmsil olunmasını nəzərdə tutur. Çoxpartiyalılığın yaranması ideoloji və dini plyuralizmlə müəyyən olunur və xeyli dərəcədə proporsional nümayəndəlik və majoritar sistemdəki seçkilərlə stimullaşdırılır (**M.Dyuverje**). Şübhəsiz, çoxpartiyalılığın məziyyəti-siyasətdə qrup mənafelərinin çoxcəhətliliyinin təmsil olunmasının optimal imkanları və siyasi koalisiyanın potensialının reallaşması sosial münaqişələrin həlli üçün zəruridir. Çoxpartiyalılığın neqativ tərəfi isə mənafelərin aqreqasiyası (ümumiliyi) ilə parlament çoxluğunun sabitliyinin qarşı durmasının mənbəyidir.

Birpartiyalı sistemin xeyli neqativ, demokratiyaya zidd tərəflərə malik olmasına baxmayaraq o, müəyyən şəraitdə xüsusilə, sosial cəhətdən yekcins cəmiyyət üçün nəinki özünü doğruldur, hətta zəruridir. **Şvartsenberqin** fikrincə, birpatiyalılıq millətin inteqrasiyası vasitəsi kimi çıxış edə bilər, əlaqəsi kəsilən

[1] Политология: Энциклопедический словарь . Səh 143.

sosial və milli qrupların birliyinə xidmət edər. Vahid partiya cəmiyyətdə parçalanmanın aradan qaldırılmasına tə'sir göstərir, rəhbərliyin nüfuzunun legitimləşməsi və kütlələrin siyasi proseslərə cəlb olunması üçün istifadə edilir. [1]

Birpartiyalı sistemin iqtisadi və sosial yeniləşmə, eləcə də siyasi səfərbərlik vasitəsi kimi çıxış etməsini qiymətləndirməmək olmaz. Əlbəttə, bütün bunlar bir partiyanın hökmranlığına heç cür haqq qazandıra bilməz. Birpartiyalılıq məhz, avtoritarizmin və totalitarizmin real amilidir. Lakin birpartiyalı sistem həmişə belə amil kimi çıxış etmir. Məsələn, **Kamal Atatürkün** əsaslandığı xalq respublikası partiyası Türkiyədə vahid partiya idi (1923-1946-cı illər), bununla belə o, öz ideologiyasına və strukturuna görə totalitar partiyaya çevrilmədi.

**Müasir cəmiyətdə partiya tə'sisatlarının təkamülündə** bir sıra mühüm meyllər nəzərə çarpır. Bu meyllər hər şeydən əvvəl, partiyaların aparıcı tiplərinin dəyişikliyə mə'ruz qalması və müxtəlif ölkələrdə siyasi proseslərdə rolunun artması ilə şərtlənir.

Hələ əsrimizin başlanğıcında **R.Mixels, M.Veber** və **Ostroqorski** kimi görkəmli politoloqlar sosialist partiyalarının timsalında sıravi partiya üzvlərinin zərərinə partiya aparatının rolunun artdığını, partiya birliklərinin bürokratikləşməsini, partiya liderlərinin və elitanın hegemonluğunun yüksəldiyini görürdülər. Eyni zamanda qərb demokratiyasında bu meyl partiyanın inkişafının ümumi və təbii xətti kimi qiymətləndirilirdi. Başqa sözlə, iddia olunurdu ki, partiya birliklərinin təkamülündə təzahür edən dəyişikliklər mahiyyət e'tibarilə bunun ifadəsidir ki, onlar qanunverici orqanlara öz namizədlərini irəli sürür, idarəedici elitanın təşkilinə və formalaşmasına sə'y göstərirlər. Belə inkişaf vəziyyətində ideya prinsipləri partiya elitasını əvvəlki vaxtdan fərqli olaraq partiya üzvlərinin **elektoral**[2] müdafiəsindən məhrum edirdi. Buna görə ideologiya tədricən seçkilərdə uğurlar əldə etməyə qurban verilirdi, partiya liderləri kütləvi şəkildə müdafiə olunmalarına istiqamətlənirdilər, Partiyalar millətin əksəriyyətinin mənafeyini ifadə edən funksiyaları öz üzərinə götürməklə "hamı üçün partiyaya çevrilirdilər.

---

[1] Шварценберг Р.Ж. Политическая социалогия. часть III. Səh 67.

[2] Elektoral-sıravi partiya üzvlərinin seçkilərdə təmsil olunduğu partiyaya müntəqəm səs verməsi.

Beləliklə, liberal demokratiya inkişaf etdikcə və əhalinin siyasi idealının formalaşdırılması ilə bağlı Qərbi Avropa ölkələrində siyasi partiyaların əksəriyyəti tədricən bütövlükdə elektoral partiyalara çevrildilər.

Partiyalar hakimiyyətin nümayəndəli sistemini möhkəmləndirməyə çalışaraq seçki prosesinin xeyli iştirakçısını siyasətə cəlb olunmağa sövq etdi. Əhalinin hakimiyyətlə birbaşa qarşılıqlı münasibətləri xeyli gücləndi, vətəndaşların fərdi mövqelərinin nəzərə alınmasına xüsusi diqqət yetirildi. **S.Xantin-qtonun** yazdığı kimi, "amerikalıların öz siyasi inamına meylli olması nə qədər sür'ətlə artsa da onlar öz siyasi mənafelərinin ifadəsinin qrup formalarına bir o qədər laqeyd münasibət bəslədilər.[1] Digər tərəfdən hazırda partiyaların xeyli hissəsi dövlət qərarlarının qəbul olunması prosesində iştirak etməyə maraq göstərməklə çox vaxt elektorat əldə etməyi yox, hökumətə qarşı mübarizə aparmağı qarşılarına başlıca məqsəd qoyurlar. Bu isə əhalinin onlara münasibətinə tə'sir göstərməyə bilməz. Alman nəzəriyyəçisi **K. Fon Boymenin** fikrincə, bu gün partiyalar siyasi elitanın təşkilində öz sə'ylərini artırsalar da vətəndaşların siyasi sosiallaşmasına öz tə'sirlərini müəyyən dərəcədə itiriblər. Bu avropa demokratiyasında qabarıq şəkildə nəzərə çarpan **meyldir.**

Müasir partiya sistemlərinin inkişafında təzahür edən **səciyyəvi meyllərdən digəri** mərkəzi partiya aparatının funksiyalarının nisbətən zəifləməsi və yerli təşkilatların rolunun güclənməsidir. Partiya sistemlərinin **inkişaf meyllərindən biri də** totalitar idarəetmə şəraitində hakim partiyaya üzv qəbul olunmaq üçün sərt ideoloji tələblərin tətbiq olunmasıdır.

√ Siyasi partiyaların və partiya sistemlərinin gələcəyi ilə bağlı müxtəlif mülahizələrə təsadüf olunur. Dünya siyasi elminə aid ədəbiyyatda belə bir fikir yayılır ki, hazırkı şəraitdə siyasi partiyaların nüfuzu aşağı düşməyə başlayır. Məşhur alman sosioloqu və siyasi xadimi **R.Darendorf** isə qət'i şəkildə bildirir ki, gələn əsrdə (XXI əsr nəzərdə tutulur) dünyanın bu və ya digər regionuna, o cümlədən sosializm düşərgəsinə mənsub heç bir partiya mövcud olmaycaq, onların hamısı "siyasi cəhətdən bir-birinə qarışacaq və nəticədə "siyasi kokteyl əmələ gətirəcəklər.

[1] В.П.Пугачев, А.И.Соловьев. Введение в политологию. Səh 221.

Partiyaların indiki rolunun itəcəyi haqqında qərbin digər politoloqları da mülahizələr yürüdürlər. "Gerçəkliyin aydınlaşdırılması sahəsində ən geniş səlahiyyətlərə malik olan kütləvi böyük partiyalar ictimai həyatda öz mühüm yerini itiriblər. Bu fikri Avstriya Sosialist partiyası nəzdində fəaliyyət göstərən "gələcəyin e'malatxanasının əməkdaşları, daha doğrusu avstriya politoloqları əsaslandırmığa çalışır və həmin prosesi ictimai inkişafın **yeni meyli** kimi qiymətləndirirlər (təbii ki, həm də partiyaların inkişaf meyli kimi). İctimai inkişafın bu meylini hər şeydən əvvəl, siyasi dəyərlər sistemində baş verən dönüşlə əlaqələndirirlər. Politoloqların fikrincə, müasir dəyərləri birləşdirici sinfi ideologiyaya aid etmək olmaz. Bunlar sosial həyatın getdikcə artmaqda olan fərdiləşməsi ilə əlaqədardır, adamların muxtarlığa, kiçik kollektivlərdə təşkil olunmağa cəhd göstərməsilə bağlıdır. Bu isə vətəndaşların siyasətdə ən'ənəvi kütləvi fəaliyyət halında iştirakı ilə ziddiyyət təşkil edir. Sinfi münaqişə mövcuddursa da əvvəlki əhəmiyyətini itirib. Partiya sistemlərinin yeni inkişaf meylləri nöqteyi-nəzərdən və siyasi partiyaların müəyyənləşdirilməsinə münasibət baxımdan bə'zi **müasir nəzəriyyələr** maraq doğurur. Elə politoloqlara təsadüf olunur ki, onlar partiyanın mahiyyətinin üzə çıxarılması üçün onun **strukturunun xüsusiyyətlərini, uzun müddətli mövcudluğunu** və **sosial sabitlik amillərini** başlıca me'yar hesab edirlər. Belə təsəvvürə görə partiya "adamları birləşdirən, xüsusi struktura malik olan tə'sisat kimi səciyyələndirilir. Bu fikri daha çox **M.Dyuverje** əsaslandırır. O, göstərir ki, partiya "nisbi möhkəmliyə malik olan, sosial cəhətdən formalaşan və uzun müddət mövcudluğu ilə fərqlənən, dövlət hakimiyyətinə yiyələnməyə sə'y göstərən, idarəetmə mərkəzində partiya liderləri ilə onların tərəfdarlarını birləşdirib siyasi meydana çıxaran tə'sisatdır. Partiyanın müəyyənləşdirilməsinə belə münasibət onun fəaliyyətinə xas olan mühüm tərəfləri üzə çıxarır.

**Funksional yanaşma** nəzəriyyəsinin tərəfdarları isə partiyanı yerinə yetirdiyi funksiyalar baxımdan müəyyənləşdirirlər. **K.Louson** yazır ki, "partiya haqqında təriflərin heç biri bütövlükdə qaneedici deyil, lakin faydalı sayıla bilər. Təriflərdə daha çox partiyaların siyasi fəaliyyəti vurğulanır ki, bunun özü də ümumi xarakter daşıyır. K.Lousonun özü isə belə bir tərif təklif

edir: "Siyasi partiya fərdlərdən ibarət təşkilat olub seçkilər vasitəsilə və ya seçkilərdən kənar yolla xalqın və ya onun bir hissəsinin səlahiyyətlərini uzatmağa cəhd göstərir. Bu cəhd həmin təşkilatın xüsusi nümayəndələri naminə buna görə edilir ki, siyasi hakimiyyət mövcud hökumət idarələrində həyata keçirilsin, belə hakimiyyətin özü isə xalqın adından həyata keçirilir.

Amerika politoloqu **P.Merkl** belə hesab edir ki, "partiya elə siyasi birlikdir ki, yeni üzvlər toplayır və onları sosiallaşdırır, nümayəndəliyin daxili prosesləri və seçkilər vasitəsilə liderləri seçir, daxili mübahisələri həll edir.

Müasir nəzəriyyələrdə partiya sistemlərinin təsnifatına və inkişaf meyllərinə də mühüm diqqət yetirilir. Çoxpartiyalı sistemin təsnifatı ilə bağlı fransız politoloqu **J.Burdo** özünəməxsus variant təklif edir. O, çoxpartiyalılığın iki başlıca tipini—nizamsız-dağınıq və nizamlı qaydada olan tiplərini qeyd edir. Onun fikrincə, nizamsız çoxpartiyalılıq İtaliya və Fransaya məxsusdur. "Bu ölkələrdə partiyalar siyasi həyatda nizamsızlıq tə'siri bağışlayır. Onlar siyasi sistemin fəaliyyəti üçün mə'suliyyət hissindən uzaqdırlar. **J.Burdoya** görə nizamlı çoxpartiyalılıq sistemi Niderlandda və Skandinaviya dövlətlərində mövcuddur. Bu ölkələrdəki" partiyalar daxili birliyə malikdirlər, seçicilər isə onlara məhəbbət bəsləyir və bu şəraitdə sabit hökumət formalaşır".

Siyasi partiyaların və partiya sistemlərinin strukturunun yeni istiqamətdə təkmilləşməsi və onların kütlələrə real təsirinin güclənməsi ilə əlaqədar partiya sistemlərinin inkişafında spesifik meyllər üzə çıxır.

# XV FƏSİL

# SİYASİ İDEOLOGİYALAR

## 1. "İDEOLOGİYA" ANLAYIŞI.

Mənəvi-ideoloji sfera adamlar arasındakı ümumi münasibətlərin xüsusi növüdür. O, elmi ədəbiyyatda ideoloji münasibətlər adlandırılır. Bu münasibətlər ideoloji prosesin fəaliyyətinin, başqa sözlə mövcudluğunun başlıca tərəflərindən biridir. İdeoloji proses ictimai münasibətlərin bütün məcmuuna təsir prosesini, ideyaların subyektlər arasındakı münasibətlərdə maddiləşməsini nəzərdə tutur[1].

İdeoloji proses şübhəsiz, müəyyən mənada "ideologiya" anlayışının məzmununu əks etdirir. **İdeologiya** latın sözü olub iki söz birləşməsindən əmələ gəlib. **İdea-ideya, təsəvvür, loqos** isə təlim deməkdir.

**İdeologiya görüşlər və ideyalar sistemi olub adamların gerçəkliyə və bir-birinə münasibətinin dərk olunmasıdır, qiymətləndirilməsidir. O, müxtəlif sosial qrupların, siniflərin, cəmiyyətin mənafeyini ifadə edir.** Görüşlər və ideyalar sistemi olan ideologiya bu və ya digər gerçəkliyə münasibəti, eləcə də görüşləri, mənafeləri, məqsədləri, adamların, siniflərin, partiyaların və siyasətin subyektlərinin əhval-ruhiyyəsini ifadə edir. "İdeologiya" termini elmi dövriyyəyə ilk dəfə Fransız alimi və filosofu **Antuan Destyut de Trasi** tərəfindən "Düşünmək qabiliyyəti haqqında etüdlər" adlı əsərində gətirilmişdir. O, "ideologiya" terminindən ideyalar haqqında elmi səciyyələndirmək məqsədilə istifadə etmişdir. A.D. de Trasi sonralar bu anlayışı "İdeologiyanın ünsürləri" əsərində hərtərəfli inkişaf etdirmişdir. Dörd cilddən ibarət olan həmin əsər 1801-1815-ci

[1] Социология. M, 1990.səh.370

illərdə yazılmışdır. A.Destyut de Trasinin fikrincə, ideologiya "İdeyaların təşəkkülü və insan təfəkkürünün qanunları haqqında elmdir". Onun gəldiyi qənaətə görə ideologiya bütün təbii elmlər kimi dəqiq elmdir. Bir sözlə, bu görkəmli alim ideologiyanı ideyalar, onların mənşəyi, inkişaf qanunları, həqiqiliyi və tətbiq oluna bilməsi haqqında elm kimi səciyyələndirir.

İctimai fikir tarixində ideologiya müxtəlif mövqelərdən qiymətləndirilmişdir. Elmi sosializmin banisi **Marksa** görə ideologiya müəyyən siniflərin spesifik mənafeyini, bütün cəmiyyətin mənafeyini ifadə edən yanlış, uydurma şüurdur. **K.Manheym** isə iddia edir ki, ideologiya şeylərin mövcud qaydalarını qoruyub saxlamağa cəhd edən müəyyən qrupların və siniflərin mənafelərini ifadə edir, eləcə də sosial gerçəkliyin təhrif olunmuş şəkildə əks etdirilməsidir. Lakin bu alim ideologiyanın funksional səciyyələndirilməsinə, xüsusilə adamları birləşdirmək qabiliyyətinə, onların siyasi enerjisinin toplanmasına böyük diqqət yetirmişdir.

Amerika nəzəriyyəçisi **H. Morqentau** qeyd edir ki, siyasətin mahiyyəti tələb edir ki, siyasi səhnənin aktyoru ideologiyadan öz fəaliyyətinin məqsədlərini bilavasitə pərdələmək üçün istifadə etsin. Digər Amerika alimi **L.Sadcent** hesab edir ki, ideologiya siyasi inkişafın müəyyən məqsədlərini və dəyərlərini işləyib hazırlamaqla bərabər həm də praktiki məsələlərin həllini kobudlaşdırır. Onun həmyerlisi **F.Uotkins** bildirir ki, ideologiya həmişə status-kvoya (status-kvo indiki anda mövcud olan və yaxud vaxtilə mövcud olmuş vəziyyət) qarşı istiqamətlənir və mühüm dəyişdirici potensialın saxlanılmasının siyasi amilidir. Elita nəzəriyyəsinin baniləri sayılan İtaliya politoloqları **R. Moska, R.Mixels** və **V.Pareto** siyasi ideologiyanı daha geniş mənada izah edirlər. Onların fikrincə, estetik və dini şüur formaları siyasi ideologiyanın spesifik təzahürləridir.

Yeri gəlmişkən qeyd edək ki," ideologiya" termini **Destuyut de Trasi** ilə yanaşı digər fransız alimlərinin də əsərlərində geniş istifadə olunmuşdur. Həmin alimlər sırasında **Volney, Kabanis, Qar, Cerando** və **Lanselin** xüsusi yer tuturlar. Lakin bu terminin şərhinə XVIII əsrdə hər şeydən əvvəl, siyasi sfera təsir göstərdi. **Napoleon Bonapartın** fikrincə, hər cür

ideologiya məzmun və məna daşımır, çünki ictimai inkişafın heç bir tələbini, meylini və mənafeini ifadə etmir və edə də bilməz. O, ideoloqları həyatdan ayrı düşən adamlar hesab edirdi. Belə nəzəriyyəçilərə elə şəxsləri aid edirdi ki, onlar reallıq hissindən məhrumdurlar və gerçəkliyə uyğunlaşa bilmirlər. **Maraqlıdır ki, Napoleon Destyut de Trasini də həmin şəxslərdən biri sayırdı.** Çünki ideologiya terminini elmə gətirən və onu geniş inkişaf etdirən bu filosof Napoleonun idarəçilik üsuluna tənqidi yanaşırdı. Lakin Napoleonun ideologiyaya nifrət etməsinə baxmayaraq həmin dövrdə ideologiyanın inkişafına və məşhurlaşmasına, o imkan yaratdı. Qeyd edək ki, ideologiyanı siyasəti və siyasi fəaliyyəti pərdələyən amil kimi qiymətləndirənlər hər şeydən əvvəl, Napoleonun ideologiya haqqında fikirlərinə əsaslanırlar.

İdeologiya termininin və onun haqqında təsəvvürlərin XVIII əsrdə təzahürünə baxmayaraq bəzi tədqiqatçılar iddia edirlər ki, ideologiya dövrü köhnə Avropanın süqutu və müasir dünyanın yaranması ilə başlayır. Məsələn, Fransız nəzəriyyəçisi **R. Aron** və Amerika tədqiqatçısı **D. Bell** ideologiyanın təzahürünü XVIII və XIX əsrlərdə Avropada dini etiqadın tənəzzülü və həmin dövrdə "ziyalı sinfinin" formalaşması ilə əlaqələndirirlər.

"İdeologiya nəzəriyyəsi" sahəsində ixtisaslaşan, müxtəlif təfəkkür tiplərini, ideyalar sistemini, onları kütlələrin və ayrı-ayrı fərdlərin şüuruna yeritmək üsullarını tədqiq edən alimlər ideologiyanın təşəkkülünü İngilis filosofu **Frensis Bekonun** xidməti kimi qiymətləndirirlər. Həmin alimlərin fikrincə, Bekon özünün "büt" nəzəriyyəsində belə bir məsələni izah etməyə səy göstərir ki, nə üçün insan zəkası gerçəkliyi təhrif etmədən onu dərk edə bilmir. **F. Bekon dövrü** tədqiqatçılar tərəfindən ictimai sərvətlərin "vahid" sisteminin dağılmasının başlanğıcı, müxtəlif ideologiyaların təşəkkülü kimi mənalandırılır.

İdeologiyanın təbiətinə dair mübahisələr indi də davam edir.

Plyuralizmin və relyativazmin mövcudluğuna baxmayaraq siyasi elmdə ideologiyaya münasibətdə bir sıra sabit müddəalar qərarlaşıb. Əvvəla bu, ideologiya və elmin bir-birindən qeyri-şərtsiz ayrılmasıdır, onun idrakı funksiyalarının inkarıdır. Bu ənənə hər şeydən əvvəl, XX əsrdə M. **Veberin** və **K.Manheymin**

adı ilə əlaqələndirilir. Onlar qeyd edirlər ki, "ideologiya" gerçəkliyin təhrif olunmuş növüdür. **İkincisi**, ideologiya birliklərin inteqrasiyası vasitəsi kimi şərh olunur, birliklər isə onun sosial-iqtisadi müəyyənedici mənbəyi kimi əsaslandırılır. İdeologiyanın idrakı imkanlarının tamamilə inkarı "ideologiya" anlayışının məzmununun müəyyənləşdirilməsində səhvlərə gətirib çıxarır. "Cəmiyyətin inkişaf tələblərinə uyğun gəlməyən, yeniliyə qarşı çıxan köhnəpərəst sosial qüvvələrin mənafeyini əks etdirən mühafizəkar ideologiya mürtəce ideologiyadır"[1]

**Ən ümumi planda ideologiya dedikdə mühüm xüsusiyyəti ictimai qrupların mənafeləri və cəhdləri ilə funksional əlaqədən ibarət olan görüşlərin sistemləşdirilmiş məcmuu başa düşülür.** Bütövlükdə tədqiqatçıların çoxu belə hesab edir ki, ideologiya bu və ya digər şəxslər qrupunun hakimiyyət iddialarına haqq qazandıran müəyyən doktrinadır və bu məqsədlərə müvafiq olaraq ictimai rəyi öz ideyalarına tabe etdirməkdir. **İdeologiya ona görə ideologiya adlanır ki, həmişə əldə edilə bilməyən ideala istiqamətlənir. Lakin cəmiyyət və onun müəyyən hissəsi üçün daim cəlbedici görünür.** Heç də təsadüfi deyil ki, siyasi mütəfəkkirlərin böyük əksəriyyəti öz doktrinalarını (təlimlərin) yaşadıqları dövrün ruhuna, mövcud şəraitə uyğun olaraq əsaslandırmışlar, "tarixi zərurəti", "ədaləti", "xalqın iradəsini", "ümumi rifahı" və ictimai idealları öz təlimlərinin ruhu kimi şərh etmişlər.

Hər hansı təlimin metodoloji əsası və nəzəri məzmunu ictimai ideologiyanın daha yüksək mərhələsini təşkil edir. Siyasi təlimlərdə sinfi mənafelərlə yanaşı ümumbəşəri dəyərlər də öz əksini tapır. Daha ümumi formada bu dəyərlərə ədalət, ümumi rifah, azadlıq ideyaları və digər adi mənəviyyat normaları aiddir. İdeologiyanın tərkibinə tarixi təcrübə və həyat şəraiti əsasında sosial birliklərin təşəkkül tapan müəyyən ideyaları daxildir. Bu ideyalar gerçəkliyi xüsusi tərzdə əks etdirir və qiymətləndirir. Ona daha çox həmin ideyalara əsaslanan və fəaliyyətdə olan direktivləri (göstərişləri) aid edirlər. Axırıncı üçün xüsusilə, siyasi hakimiyyət və bütövlükdə siyasət sferası haqqında ideyalar

---

[1] Məqsəd Səttarov. İnsan və cəmiyyət haqqında düşüncələr. Bakı, 2000.səh.70

kompleksi olan siyasi ideologiya səciyyəvidir. "İdeologiya" anlayışının mürəkkəb və ziddiyyətli təbiəti bir sıra kateqoriyalarda eləcə də "ideoloji proses" kateqoriyasında ifadə olunur. Təsadüfi deyil ki, sosioloji, fəlsəfi və politoloji ədəbiyyatda "ideoloji proses" termini birmənalı işlədilmir. Politologiyada (Siyasi elmdə) bu termin hər şeydən əvvəl, iki cəhətdən mənalandırılır. Sözün geniş mənasında ideoloji proses ideoloji fəaliyyət olub ideologiyanın işlənib hazırlamasını, onun saxlanılmasını, yeniləşdirilməsini və müdafiəsini ifadə edir. Sözün məhdud mənasında isə o, ideologiyanın yayılması, hakim ideologiyanın kütləvi şüura və eləcə də hər bir ayrıca fərdin şüuruna yeridilməsidir.

İdeoloji prosesin əsasını "ideoloji fəaliyyət", "ideoloji münasibətlər", ideoloji təsir" və "ideoloji təsəvvür" təşkil edir. İdeoloji prosesin strukturunda ideoloji münasibətlər xüsusi yer tutur. Bu münasibətlər ideoloji fəaliyyət subyektlərinin qarşılıqlı fəaliyyətinin daha kütləvi formasıdır. İdeologiyanın maddiləşməsi mahiyyət etibarilə ideoloji münasibətlər prosesində həyata keçirilir. İdeoloji münasibətlər ideoloji təsir və ideyaların, görüşlərin, təsəvvürlərin mənimsənilməsi forması kimi çıxış edir. İdeoloji münasibətlər ideoloji fəaliyyətin və onun nəticələrinin mübadiləsi formasında obyektiv şəkildə mövcuddur. Eyni zamanda bunlar əhalinin ən mühüm müxtəlif təbəqələri və qrupları arasında geniş yayılır və ikitərəfli istiqamət kəsb edir, başqa sözlə bu, cəmiyyətdə fasiləsiz surətdə baş verən başlıca sosial, iqtisadi, siyasi və digər proseslərdə adamların qarşılıqlı münasibətlərinin ifadəsidir. Deməli, **ideoloji münasibətlər elə bir mexanizmdir ki, onun vasitəsilə ideologiya cəmiyyətin sosial-iqtisadi prosesləri ilə əks əlaqə daşıyır, başqa sözlə, onun ictimai varlığa dəyişdirici təsiri həyata keçirilir.**

İdeoloji prosesin mövcudluğunu başa düşmək məqsədilə ideoloji fəaliyyətin məzmun və istiqamətinin təhlili xüsusi əhəmiyyətə malikdir. O, ideoloji təsəvvürlərin, görüşlərin və şüurun ideoloji formalarının istehsalı, təkrar istehsalı, qorunması və yayılmasına aid olan sosial fəaliyyətin spesifik növünü səciyyələndirir.

## 2. SİYASİ İDEOLOGİYA: MAHİYYƏTİ, SƏVİYYƏLƏRİ VƏ FUNKSİYALARI.

Siyasi şüur antik dövrdə dövlət və dövlət hakimiyyəti kimi yeni hadisələrin mənalandırılmasına real sosial tələbat kimi təşəkkül tapmışdır. Siyasi ideologiya məhz, siyasi şüurun daha təsirli formalarından biri kimi səciyyələnir."Şüurun siyasi forması və ya siyasi ideologiya siniflərin, millətlərin və dövlətin köklü mənafeyini ifadə edən ideyaların məcmuudur"[1]. Vətəndaşların siyasi əhval-ruhiyyəsi mövcud cəmiyyətin iqtisadi və dövlət quruluşu ilə müəyyən olunur. Siyasi ideologiya siyasi partiyaların və dövlətin fəaliyyətində inkişaf edir və reallaşır. O, hakimiyyət münasibətlərinin məzmununa təsir göstərir. Makiavellinin sözləri ilə desək, siyasi ideologiya bu və ya digər siyasi qüvvənin "mənəvi knyazlığı" silahıdır. Siyasi ideologiyanın təşəkkülü dövlətin təzahürü ilə baş verir və bu vaxtdan etibarən ideologiya ilə siyasət arasında xüsusi münasibətlər formalaşır. Onlar **nəzəriyyə və praktikanın, şüurla fəaliyyətin münasibəti nümunəsini səciyyələndirirlər.**

Siyasət amiranə şəkildə varlığın bütün sferalarına müdaxilə, şüurun isə hər cür formalarına nüfuz edir. **Əslində ibtidai icma quruluşundan başqa hər bir cəmiyyətin həyatı siyasi mənafelərdən, siyasi mübarizədən qidalanmışdır.** Siyasət sosial ziddiyyətlərin gərginliklərini özündə təmərküzləşdirir. O, bütün inteqrasiyaların (birləşmələrin) və differensasiyaların (ayrılmaların), əməkdaşlığın və toqquşmaların əsasını təşkil edir. Siyasi şüur adamların praktiki fəaliyyətinin bilavasitə mənafelərini təzahür etdirməklə daha qabarıq və açıq şəkildə cəmiyyət həyatının sosialiqtisadi əsasını əks etdirir, digər şüur formaları isə bunu bilvasitə (dolayısı ilə) ifadə edir. Şüurun siyasi formasının, başqa sözlə, siyasi ideologiyanın iqtisadi mənafelərə belə yaxınlığı onun spesifikliyini səciyyələndirir. Siyasi ideologiya təbii olaraq birmənalı mahiyyət daşımır, istər-istəməz o bütün siniflərin, sosial qrupların dövlətə və hökumətə

---

[1] А.Г. Спиркин. Философия. М, 2001. səh.719

münasibətlər sahəsini, sosial qüvvələr arasındakı qarşılıqlı münasibətləri əhatə edir[1]. Unutmaq olmaz ki, dövlət hakimiyyətinin təşkili siyasi təfəkkürün mərkəzi problemidir. **Siyasi mənafe obyektivlik kəsb etdiyinə görə hər bir insana aiddir. Siyasi ideologiya sosial-siyasi ideyalar sistemi olmaq etibarilə müəyyən sosial qrupların, təbəqələrin, siniflərin, millətlərin, etnik və ya digər birliklərin mənlik şüurunun qanuniləşmiş ifadəsidir.** Siyasi ideologiya həmin sosial qrupların və birliklərin siyasi mənafelərinin nəzəri müdafiəsinin mexanizmini müəyyənləşdirir. O, siyasi fəaliyyətin intellektual və mənəvi əsasını səciyyələndirir və bunların qarşılıqlı fəaliyyəti bir sıra şərtlərlə müəyyən olunur. **Əvvəla**, ideologiya siyasətdə fəaliyyət göstərən qüvvələri aydınlaşdırır, dünyada ümumi sosial və siyasi situasiyanı, inkişafın perspektivini izih edir, fəaliyyətinin əsasını təşkil edən sərvətləri (dəyərləri) müəyyənləşdirir, bu sərvətlərin reallaşmasını təmin edən vasitələri göstərir. Çox hallarda siyasi ideologiya fəaliyyət üçün ümumi göstərişlər verir. Siyasi hərəkatlar dürüst ifadə edilmiş və qəbul olunan siyasi ideologiyadan müxtəlif cür istifadə edirlər. Məsələn, nasizm prinsipcə daimi və dəyişməz ideya prinsiplərini inkar edir və onları rəhbərin iradəsilə əvəz edir. Xeyli reformist istiqamətli hərəkatlarda və partiyalarda məqsədəuyğunluğun praqmatik səviyyədə başa düşülməsi ideya prinsiplərini pərdələyir. Bununla yanaşı hər bir siyasi hərəkat çox və ya az da olsa konkretləşdirilmiş daimi ideya prinsiplərinə malikdirlər. Bu prinsiplər siyasi hərəkatların fəaliyyətinin iqstiqamətini və xarakterini xeyli dərəcədə müəyyənləşdirir.

**İkincisi**, ideologiya siyasi hərəkatları birləşdirən təşkiledici qüvvədir. Hər bir böyük siyasi hərəkatı əlaqələndirən mühüm həlqə eyni düşünən, yaxın insanların mənsub olduğu qrupa inamıdır. Plyuralizm və fikir ayrılığının mövcud olduğu demokratik hərəkatların, partiyaların özündə də ümumi qəbul olunmuş prinsiplər nəzərə çarpır. Bunların inkarı siyasi hərəkat-ların bu və ya digər xadimini həmin hərəkatdan kənarlaşdırır. **Üçüncüsü**, siyasi ideologiya emosional məzmun kəsb edən simvolların

[1] А.Г.Спиркин Философия. М.200.səh.720

məcmuu kimi səciyyələnir. Həmin simvollar bu və ya digər dərəcədə fərdlərin və qrupların fəaliyyətinin intensivləş-məsinə təsir göstərir. Tarixdən belə çox saylı misallar məlumdur ki, **vətən, millət ideyası rəhbərə, hökmdara sadə münasibət hissi ilə müqayisədə qəhrəmanlığa, intihara daha çox sövq etmişdir.** Siyasi ideologiya məhz, millətin, dövlətin köklü mənafeyini ifadə edən görüşlər, ideyalar sistemidir, cəmiyyətin necə təşkil olunmasına, onun dövlət quruluşunun təbiətinə dair baxışlar toplusudur, eləcə də mövcud şəraitdə hansı siyasi xətt hazırlayıb həyata keçirməyə dair ideyalar məcmuudur.

Adi-praktiki siyasi şüurdan (siyasi psixologiyadan) fərqli olaraq elmi-nəzəri siyasi şüur (siyasi ideologiya) sosial-siyasi gerçəkliyin qanunauyğunluqlarının, xüsusiyyətlərinin inkişaf meyllərini açıqlamağa qadirdir, siyasi həyatın mahiyyətini dərk etməyə və etdirməyə yardım göstərir, eləcə də siyasi ideoloji proseslərin mahiyyətini, mərhələlərinin məzmununu üzə çıxarmağa qabildir.

Siyasi elmə aid müasir ədəbiyyatda siyasi ideologiyanın formalaşdırılması yolları səciyyələndirilərkən bu prosesin dörd başlıca modeli qeyd edilir. **Birincisi, "kondensasiya"** (kondensasiya sözün hərfi mənasında toplama, sıxışdırma kimi başa düşülür) **modelidir.** O, elə halda fəaliyyətdə olur ki, adi siyasi şüura xas olan ideoloji təsəvvürlər nəzəri ideoloji strukturlara qovuşur. **İkincisi, inteqrativ modeldir.** Bu model üçün müxtəlif ideyaların sintezi[1], inteqrasiyası, konvergensiyası (konvergensiyauyğunlaşma, birləşmə) və mövcud ideya-siyasi cərəyanların, təsəvvürlərin və yaxud ideoloji məqsədlərin yeni kəsişməsi (neomühafizəkarlıq, neoliberalizm və s.) səciyyəvidir. **Üçüncüsü, divergensiya** (divergensiya inkişaf prosesində əlamətlərin birbirindən fərqlənməsi) **modelidir.** Belə halda yeni siyasi ideologiyanın formalaşması **reduksiya[2], dezinteqrasiya** (dezintiqrasiya bütövün öz tərkib hissələrinə parçalanması), **divergensiya** nəticəsində, başqa sözlə ideologiyanın "parçalanması" ilə bağlı baş verir. **Dördüncüsü, ideologiyanın revitalizasiyası modeli** (geri qayıtmaq cəhdi) adlanır. Başqa sözlə, o

---

[1] Sintez, təhlil prosesində əldə olunan müxtəlif ünsürlər arasındakı əlaqəni müəyyənləşdirmək və bunlardan ümumi nəticə çıxarmaq üsulu

[2] Reduksiya mürəkkəb bir prosesin sadə prosesə keçməsi və ya keçirilməsi

köhnə ideyalara qayıtmağı, bunları çox və ya az şəkildə dəyişdirməklə yeni formaya salmağı ifadə edir (məsələn, mühafizəkarlığın Marksizmin və s. öz başlanğıcına qayıtmaq cəhdi). Həmin modellər şərti və yardımçı xarakter daşıyırlar. Çünki ideologiyanın mənşəyi və dəyişilməsinin real prosesində onlar tez-tez əlaqələndirilir, biri digərinə nüfuz edir. Eləcə də bu modellərə dair biliklər bəzi ideya cərəyanlarının təşəkkülü mexanizminin təhlilində istifadə oluna bilər.

Siyasi fəaliyyətin subyektinin sosial və siyasi praktikası prosesində baş verən ideologiyanın kütləvi siyasi şüura inteqrasiyası və onun inama çevrilməsi çox mürəkkəb hadisədir. Kütləvi siyasi şüurun formalaşması prosesində müvafiq ideologiyanın qəti şərtləri təsvir olunur və eyni zamanda o, ənənələrin nəsillərə verilməsi vasitəsi kimi xidmət edir və şüurun müəyyən ölçüdə formalaşmasına təkan verir. Bununla əlaqədar olaraq siyasi ideologiyanın aşağıdakı başlıca səviyyələri təzəhür edir: 1. **Nəzəri konseptual.** Bu səviyyədə müəyyən təbəqələrin, siniflərin, millətin və ya dövlətin mənafeyindən çıxış edən, dünyanı spesifik formada müşahidə etməyi açıqlayan ən mühüm müddəalar ifadə olunur. 2. **Proqram-siyasi.** Həmin səviyyədə məqsədlər, prinsiplər və ideallar proqramlarda, şüarlarda, siyasi elitanın tələblərində öz əksini tapır, eləcə də idarəetmə qərarlarının qəbulu və əhalinin siyasi davranışının istiqaməti üçün zəmin yaradır. 3. **Aktuallaşdırılan siyasi səviyyə** - vətəndaşların mövcud ideologiyanın məqsəd və prinsiplərini mənimsəməsi dərəcəsini səciyyələndirir. Bu, onların siyasi həyatda iştirakını mənalandırır. Siyasi ideologiyanın **axırıncı (üçüncü) səviyyəsi** adamların ideoloji məqsədlərə çox geniş sahədə münasibətini ehtiva edir. **İdeologiya adamların sosial təfəkkürünün prinsiplərini müəyyənləşdirmək, onların şüurunda dünyanın mənzərəsini tənzimləmək qabiliyyətinə malikdir.** Təsadüfi deyildir ki, **K. Manheym** məhz, bu mənada ideologiyanı **"total"** xarakterə malik hadisə kimi qiymətləndirmişdir. Qeyd edək ki, ideologiyanın ictimai rəyə təsirinin zəifləməsi və ya sosial sərvətlərin siyasi əlaqələrə və münasibətlərə təsirini inkar edən texnokratik təsəvvürlərin yayılması **siyasətin ideologiyasızlaşmasına** gətirib çıxarır.

Bunun əksi olan **siyasətin ideologiyalaşması** isə siyasi nəzəriyyənin və praktiki siyasi prosesin, siyasi şüurun ideoloji konsepsiyalara, ideyalara, hər hansı və ya bir sıra müxtəlif istiqamətlərin (cərəyanların) məqsədlərinə tabe edilməsidir. İdeologiyanın və siyasətin zəruri qarşılıqlı fəaliyyəti həddən artıq və mürtəce şəkildə ideologiyanın siyasətə müdaxilə etməsinə gətirib çıxara bilər ki, bu da bir qayda olaraq ictimai həyatın digər sferalarının, ilk növbədə hüququn, iqtisadiyyatın və sairənin ideologiyalaşması ilə əlaqədardır. Həmin prosesin məzmunu xeyli müxtəlif ola bilərliberal-demokratik, mütərəqqi istiqamətdən tutmuş ən radikal sol və sağ meyllərə qədər, hətta açıq şəkildə təzahür edən irtica səviyyəsində. Siyasətin həddən artıq ideologiyalaşması onu zəruri muxtarlıq ölçüsündən məhrum edir, eləcə də siyasəti ideoloji ekstremizmin hər hansı formasına tabe edə bilər. Həddən artıq ideologiyalaşma avtoritarizmin səciyyəvi cəhətidir. Hər cür dövlətçilik formaları, hüquq qaydaları və s həm də ümumbəşəri tələbləri və konkret sosial-siyasi şəraitə uyğun olaraq sosial və siyasi həyat fəaliyyətinin təşkilinin normalarını ifadə etməlidir. Bu ideoloji və onun ardınca siyasi və sosial-iqtisadi formaların tənəzzülü, həmin ümumbəşəri məzmunun heçə endirilməsi dövlətçiliyin məhvinə, durğunluğa, mürtəce inkişaf yoluna sürükləyir.

Beynəlxalq münasibətlərin mürtəce, totalitar səviyyədə ideologiyalaşması onların vəzifələrinin dövlətlərarası mübarizədə ideoloji motivlərə tabe edilməsini səciyyələndirir. Siyasətin ideologiyalaşması ideoloji üstünlüyə tabe edildikdə o, tez-tez riyakar anlayışa çevrilir, antisosial mahiyyət daşımaqla cəmiyyətin və ayrıca fərdlərin həyatına neqativ, qeyri-humanist təsir göstərir. Siyasi ideologiya elitanın mənəvi silahıdır. Bu və ya digər qrupun mənafeyinin qanuni şəklə salınması məhz, elitanın davranış taktikasından asılıdır. Lakin siyasi ideologiyanın hakimiyyət münasibətlərində real rolu onun ictimai şüura yiyələnməsi xarakteri ilə şərtlənir.

Beləliklə, **siyasi ideologiyanın başlıca funksiyaları aşağıdakılardan ibarətdir: İctimai şüura hakim olmaq; ona keçmişə, indiyə və gələcəyə aid olan özünü qiymətləndirmə meyarını tətbiq etmək; siyasi ideologiyanın məqsədlərinə və**

**siyasi inkişafın vəzifələrinə aid onun nəzərdə tutduqlarına dair ictimai rəydə pozitiv obrazın yaradılması.** Bununla əlaqədar siyasi ideologiya öz məqsədlərini və ideallarını yaymaqdan, təbliğ etməkdən çox, vətəndaşların siyasi ideologiya tərəfindən qarşıya qoyulmuş vəzifələrə məqsədyönlü fəaliyyətlə nail olmasını təmin etməlidir.

Siyasi funksiya baxımdan ideologiya həm hər hansı sosial (milli, dini və s) qrupun mənafeyi əsasında cəmiyyətin birliyinə, inteqrasiyasına cəhd edir və yaxud əhalinin konkret təbəqələrinin əsaslanmadığı məqsədlərin (məsələn, anarxizmin, faşizmin ideologiyasının) əldə olunması üçün çalışır. Lakin rasional-nəzəri cəhətdən əsaslandırılmış müddəalarla yanaşı hər bir ideologiya gerçəklikdən nə isə bir qədər aralı olur, elə məqsədləri və idealları etiraf edir ki, adamların bunlara inamını məsləhət bilir. Belə inama az da olsa hərdən bir dövlət siyasətinin real kursuna istiqamətlənən rəsmi ideologiya sahib olur.

Deməli, ideologiya siyasi fəaliyyətin tərkib hissəsi olmaqla siyasi prosesdə mühüm funksiyalar yerinə yetirir. Lakin onun siyasətə güclü təsiri heç də siyasətin ideologiyadan nisbi müstəqilliyinin inkarı deyildir. Siyasətçi-reallığı qəbul edən belə bir mövqedən çıxış edir ki, elə situasiya ilə rastlaşmaq mümkündür ki, hətta ən əlverişli ideoloji motivlərə az diqqət yetirməli olursan, çünki işin faktiki vəziyyətini nəzərə almaq lazımdır.

Tarixdə xeyli belə hallar olmuşdur ki, sosial bərabərlik cəmiyyəti yaratmaq tərəfdarları əməyin nəticələrindən asılı olaraq maddi nemətlərin bölüşdürülməsi sistemini tədbiq etmiş və təkmilləşdirmişlər. Onlar iddia edirlər ki, bunun zəruriliyi başlıca məqsədə çatmaq naminə iqtisadi inkişafın yüksək səviyyəsinə nail olmaqla bağlıdır. Siyasətin ideologiyadan asılılığının nisbi xarakteri o zaman təzahür edir ki, o, fəaliyyətin ən mühüm istiqamətinə toxunur, davranışın metodlarının seçilməsini müəyyənləşdirir, lakin konkret məsələlərin praqmatik həllini, hər şeydən əvvəl isə siyasi fəaliyyətin taktikasını inkar etmir.

Siyasət və ideologiya onları yaxınlaşdıran bir sıra spesifik xüsusiyyətlərlə müəyyən olunur. Bunların hər ikisi şüur hadisəsidir. Siyasət kimi ideologiya da universal xarakter daşıyır, başqa sözlə müxtəlif fikir sahələrini, fəaliyyəti, davranışı və

bunların istiqamətini, məqsəd və vasitələrini əhatə etmək qabiliyyətinə malikdir. Siyasəti ideallar və dəyərlər sisteminə məhz, ideolgiya istiqamətləndirir.

Hər cür siyasi qıtlıq, siyasətin hər hansı zəifliyi, siyasi boşluq, siyasi ideyaların çatışmazlığı və s. hökmən ideologiya ilə əvəz olunmağa və ya tamamlanmağa gətirib çıxarır.

İdeologiya siyasəti sıxışdırmağa və özünə tabe etməyə qadirdir. Bu hal xüsusilə siyasi ideologiyalaşma prosesinin xarici amillərlə stimullaşması prosesində təzahür edir. (məs, xarici təhlükə, bu və ya digər düşmən əhatəsinə qarşı tədbirlərə zərurət duyulduqda və s.)

İdeologiyalaşma siyasi və ictimai təsisatların bu və ya digər ideologiya tərəfindən ifrat dərəcədə ifadəsi kimi başa düşülür və təbii olaraq bir-birinə əks olan sinfi mənafeləri əks etdirir, eləcə də bu mənafelərin legitimləşməsinə və müdafiəsinə istiqamətlənir. Bununla əlaqədar siyasi təsisatların və siyasi fəaliyyətin vəzifəsi kütlələri bir-birinə əks olan sinfi mənafelərin reallaşdırılmasına ideoloji səfərbərlikdən ibarətdir. Beynəlxalq münasibətlərin ideologiyalaşması onların vəzifəlirinin total (ümumi) şəkildə sinfi mübarizəyə tabe olmasını səciyyələndirir. Beynəlxalq münasibətlərin daha çox ideologiyalaşması 1940-cı illərin axırlarında başlanan "soyuq müharibə" vaxtı nəzərə çarpdı və 1985-ci ilə qədər davam etdi. Soyuq müharibə gedişində siyasi təbliğat təsisatları və kütləvi informasiya vasitələri sosial, hərbi və siyasi qarşı durma ideologiyasını elan etdilər. SSRİ-nin dağılması ilə beynəlxalq münasibətlərin ideologiyalaşması nisbətən zəiflədi, bu münasibətlərin və bütün siyasi təsisatların humanistləşdirilməsi istiqamətində axtarışlar diqqət cəlb etdi. İdeologiya və siyasətin qarşılıqlı əlaqəsi baxımdan "ideoloji bürokratiya" anlayışının açıqlanması da məqsədəuyğundur. **İdeoloji bürokratiya ideyanəzəri təfəkkürün bürokratiyadan asılılığını həyata keçirən ileoloq-funksionerlər[1] təbəqəsi kimi səciyyələnir.**

İdeoloji bürokratiya üçün siyasi təfəkkürün elə xüsusi tipi xarakterikdir ki, burada inam yüksək məsuliyyətə çevrilir. Bor-

[1] Funksioner- bu və ya digər təbəqənin partiyanın, ictimai təşkilatının fəalları

cunu başa düşmək təfəkkürün başlıca kateqoriyası-siyasi fəaliyyətin oriyentiri (istiqamətvericisi) kimi nəzərə çarpır. Onun əsasını isə sosial inkişafın idealları təşkil edir. Bunlar gerçəkliyin "yaxşı" tərəflərinin toplanması, "pis" tərəflərinin çıxılması yolu ilə yaradılır. Lakin gerçəkliyin belə tərəflərə ayrılması elmi tədqiqat normalarına müvafiq olaraq deyil, məhz, bu və ya digər ideoloqun siyasi vəziyyətə üstünlük verəmsi ilə müəyyən olunur. Son nəticədə qiymətləndirmə meyarı kimi məhz özbaşınalıq, zorakılıq çıxış edir. "Dövlətin kişiləri"[1] bir qayda olaraq sosial elmi mövcud hakimiyyətə haqq qazandırmaq tələblərinə tabe etməyə cəhd edirlər. İdeoloqlar bütün qüvvəsini bu sifarişin yerinə yetirilməsinə istiqamətləndirir və ideologiya ilə elm arasındakı fərqlərin silinməsinə səy göstərirlər. Bundan sonra siyasi strategiya, proqram və onların həyata keçirilməsi işlənib hazırlanır. Bütün bu proseduralar (qaydalar) konkret tarixi şəraitin və ideoloqun üstünlük verdiyi əxlaqi-siyasi şərtlərin güclü təsirinə məruz qalır. Nəticədə nə sosial inkişafın əsl meylləri nə də konkret tarixi situasiyanın spesifikliyi adekvat (uyğun gələn) şəkildə əks etdirilə bilməz. Adamların real mövcud olan mənafeləri və tarixi meyllər özbaşınalıqla təhrif olunur, neqativ istiqamətdə dəyişdirilir və qondarma xarakter alır. Buna görə reallıq inamsız və etinasız səviyyədə başa düşülür. İdeoloqun bu keyfiyyəti onu klassik bürökratla yaxınlaşdırır. Adamlar, qruplar, siniflər, bütövlükdə cəmiyyət ideoloqun və dövlət məmurunun fəaliyyətində passiv obyektlər kimi nəzərdə tutulur. İdeoloq və bürökrat həqiqət üzərində inhisarçılığı son məqamda möhkəmləndirməyə çalışır. Adamlardan yalnız nəzərdə tutulan sosial dəyişikliklər proqramı ilə razılaşması tələb olunur. Bir sözlə, məmurun fəaliyyəti kimi ideoloji bürokratiyanın da fəaliyyəti adamların tarixi təşəbbüskarlığını iflic edir.

Müasir siyasi ideologiyada bir sıra yeni hadisələr təzahür edir. Bunların arasında spesifik ideoloji istiqamətlər diqqəti cəlb edir: **antikomunizm, antimarksizm, antimüstəmləkəçilik, antifaşizm** və s. belə ideoloji cərəyanların təşəkkülü ikinci dünya müharibəsi dövründə və ondan sonra başlanan uzunmüddətli

---

[1] Hələ qədim Çində siyasi ideoloqlar dövlətin "nəcib kişilər" tərəfindən idarə olunmasını lazım bilirdilər

soyuq müharibənin, sosializm və kapitalizm sistemləri arasında ideoloji və siyasi mübarizənin kəskinləşməsinin, müstəmləkə sisteminin dağılmasının məntiqi nəticəsidir.

Müasir səciyyəvi hadisələrin mahiyyəti bunda ifadə olunur ki, **ənənəvi ideologiyalar yeniləşir və qeyri-sinfi formada təzahür edir: neomarksizm, neoliberalizm, neomühafizəkarlıq.** Bunlar əvvəlki cərəyanların başlıca məqamlarını özündə saxlamaqla bərabər müəyyən münasibətlərdə radikallaşma qabiliyyətini də təzahür etdirirlər.

## 3. MÜASİR DÜNYADA BAŞLICA İDEOLOJİ CƏRƏYANLAR.

Müasir qərbdə siyasi ideologiyanın başlıca inkişaf xüsusiyyətləri və meylləri ən yeni tarixin başlanğıcını qoyan XIX əsrin sonundakı dərin sosial dəyişikliklərlə müəyyən olunur. XIX-XX əsrlərin hüdudlarında qüdrətli industrial dövlətlər (İngiltərə, ABŞ, Almaniya və Fransa) yetkin kapitalizm mərhələsinə qədəm qoydular.

Yetkin kapitalizmə keçilməsi ilə dövlət hakimiyyətinin fəaliyyətinin əhatə dairəsi genişlənir. XIX əsrin sonu XX əsrin əvvəllərində daha çox inkişaf edən ölkələrdə ictimai həyatın demokratikləşməsi prosesi sosial-siyasi və hüquqi təlimlərin, nəzəriyyələrin və konsepsiyaların yeniləşməsi üçün əhəmiyyətli təkan oldu. Bununla bağlı siyasət anlayışının özü yeni çalarlarla səciyyələndi. Daha dəqiq desək, XIX əsrin ortalarında həmin anlayış nisbətən məhdud məna daşıyaraq yalnız dövlət hakimiyyətinin fəaliyyət sferasını əhatə edirdisə indi o, ictimai münasibətlərin daha geniş dairəsini mənalandırmaq baxımdan istifadə olunur. Eləcə də sosial qruplar, siyasi partiyalar arasındakı münasibətlər və onların funksiyaları aspektində nəzərdən keçirilir.

Avropa qitəsində ilk faşist rejimlərin təzahürü siyasi-hüquqi fikir nəzəriyyəçilərini məcbur etdi ki, dövlət formalarının təsnifatında və demokratiyanın əsaslandırılmasında düzəlişlər etsinlər. XIX-XX əsrlərin hüdudlarında fəlsəfi və ictimai elmlərin meto-

doloji əsasları yenidən araşdırıldı, dövlət və hüquq haqqında yeni ideyalarla səciyyələnən xeyli təlimlər təzahür etdi. Onların içərisində müasir siyasi fikrin inkişaf istiqamətini müəyyənləşdirən nüfuzlu konsepsiyalar və doktrinalar maraq doğurur.

Bu mənada **M.Veberin sosiologiyası, M.Oriunun təsisatlar nəzəriyyəsi, Q.Lassuellin biheviorizmi** və digər konsepsiyalar geniş şöhrət qazandı.

Müasir siyasi və hüquqi tədqiqatların fərqləndirici cəhəti bundan ibarətdir ki, onların ixtisaslaşmasının dərinləşməsi güclənir. Bu meyl aydın şəkildə XX əsrin 50-ci illərinin əvvəllərindən etibarən siyasi elmin hüquqşünaslıqdan ayrılıb muxtar bilik sahəsi statusu əldə etməsi ilə nəzərə çarpır (hazırda qərb universitetlərinin əksəriyyətində fakültələrdə öyrənilir). Tədqiqatların ixtisaslaşması öz növbəsində həm siyasi elmin və eləcə də hüquq elminin strukturunun dəyişilməsinə gətirib çıxardı. Bu meylin təzahürlərindən biri siyasi nəzəriyyənin differensasiyasıdır, başqa sözlə, onun daxilində bir və ya bir neçə probleme həsr olunan xüsusi konsepsiyaların, məsələn totalitarizm, plyuralist demokratiya, idarə edən elita və digər konsepsiyaların formalaşmasıdır.

**Müasir dövrün** (XX əsrin) burjua sosial-siyasi fikrində ən nüfuzlu cərəyan **neoliberalizm** və **mühafizəkarlıqdır**. Neoliberalizm və mühafizəkarlıq ideologiyasının tərəfdarları bütövlükdə mülayim mövqedən çıxış edirlər. Neoliberalizm və mühafizəkarlıq cərəyanlarını ictimai fikrin müasir mənzərəsinin mərkəzi kimi araşdırmaq məqsədəuyğundur. Bu siyasi cərəyanların sol qanadı sosializmin, kommunizmin və sol radikalizmin ("yeni sollar" konsepsiyası, sol ekstremizm və s.) müxtəlif doktrinaları ilə təmsil olunur. Əks qütb isə (sağ qanad) ümumiləşmiş sağ radikalizm (faşizm və neofaşizm, "yeni sağlar", rasizm) adlanan nəzəriyyənin yaradıcısı kimi səciyyələnir.

Neoliberalizm və müasir mühafizəkarlıq ideya hərəkatı olmaq etibarilə XIX əsrin axırlarında klassik liberalizm ideologiyasının böhran keçirdiyi şəraitdə təşəkkül tapmışdır. Onun təzahürü industrial cəhətdən inkişaf etmiş ölkələrdə iqtisadiyyatın tənzimlənməsi üçün dövlətin fəaliyyətinin genişlənməsi ilə bağlıdır.

Qeyd edək ki, siyasi təlimlər tarixini tədqiq edən alimlər arasında "neoliberalizm" və "mühafizəkarlıq" terminləri ümumi şəkildə qəbul olunmayıb. Tədqiqatçılar "neoliberalizm" terminini "sosial liberalizm" (köhnə, fərdiyyətçi liberalizmin əksinə olaraq), "demokratik liberalizm" (aristokratik liberalizmə zidd mənada), liberal-reformizm və digər anlayış kimi də işlədirlər. "Mühafizəkarlıq" terminindən isə "yeni mühafizəkarlıq", "neoklassik mühafizəkarlıq", "liberal-mühafizəkarlıq" anlayışları kimi istifadə edirlər.

Neoliberalizmin ideoloqları (**C.Keyns, A.Xansen, C.Helbreyt** və b.) cəmiyyətin reformist (islahatçı) əhval-ruhiyyəli təbəqələrinin-iqtisadiyyatın dövlət bölməsi ilə əlaqəli olan sənayeçilərin, yüksək vəzifəli məmurların, eləcə də ziyalıların xeyli hissəsinin görüşlərini ifadə edirlər. Yeni liberallar böhransız və sabit inkişafın əldə olunması naminə dövlətin ictimai proseslərə geniş təsiri ideyasına tərəfdardılar. Dövlətin xüsusi sahibkarlıq fəaliyyəti sferasına fəal qarışması tələbi bütün neoliberal proqramların və konsepsiyaların fərqləndirici cəhətidir.

XX əsrin birinci yarısında və ortalarında neoliberalizmin mühüm cərəyanlarından biri **keynsiançılıq** olmuşdur. Bu cərəyanın banisi **Con Meynard Keynsdir** (1883-1946-cı illər). Keynsin "Məşğulluğun ümumi nəzəriyyəsi, faiz və pul" adlı kitabı çap olunduqdan sonra müəllifinə geniş şöhrət qazandırmışdır. Bu kitab 1929-1933-cü illərdəki "böyük depressiyadan" (iqtisadi tənəzzüldən) dərhal sonra yazılmışdır. Həmin illərdə baş verən hadisələri çürüməkdə olan kapitalizm haqqında leninçi nəzərəriyyənin təsdiqi kimi qiymətləndirən marksistlərin əksinə olaraq Keyns sübut etdi ki, bazar iqtisadiyyatı heç də öz dinamik inkişaf qabiliyyətini itirməmişdir. Onu əhatə edən böhran müvəqqəti hadisədir. İqtisadi tənəzzül kapitalizmin daxili qüsurlarını deyil, məhz, azad rəqabət münasibətlərini doğurmuşdur və nəticə etibarilə burjua alverçilərinin və renta (gəlir) ilə yaşayanların vəziyyətini yaxşılaşdırmışdır. Sərvətin onların əlində toplanması investisiyaların (investisiya-bir işə və ya müəssisəyə kapital (maya) qoyuluşu) məhdudlaşmasına, sahibkar fəallığının zəifləməsinə gətirib çıxarmışdır ki, bu da öz növbəsində işsizliyin artmasına və sosial ziddiyyətlərin kəskinləşməsinə istiqamətlənir.

Keyns yazırdı ki, yaranmış şəraitdə siyasətin vəzifəsi "elə yeni vasitələr axtarıb tapmaqdır ki, kapitalizmi bolşevizmin qoyduğu addan xilas etsin". Bunun üçün hər şeydən əvvəl, azad sahibkarlıq rejiminə son qoymaq lazımdır. Həmin fikri Keyns məhz "Azad sahibkarlığın sonu" adlı əsərində əsaslandırmağa səy göstərir. Dövlət kapitala faiz qoyuluşunu azaltmalı, möhtəkirlik xarakterli alverçiyə yüksək vergi tətbiq etməli və beləliklə, topladığı vəsaiti istehsalın inkişafına və sosial problemlərin həllinə istiqamətləndirməlidir. Keyns inandırmağa çalışırdı ki, "iqtisadiyyatın dövlət tərəfindən tənzimlənməsi xüsusi təşəbbüskarlığın həyata keçirilməsinə təminat verən yeganə vasitədir".

Keyns dövlət və hüquq problemləri ilə xüsusi məşğul olmadığı üçün onun işləyib hazırladığı proqram bilavasitə siyasi praktikaya təsir göstərmişdir.

İkinci dünya müharibəsindən sonra (40-cı illərin axırlarında) Qərbi Avropa ölkələrinin çoxunda iqtisadiyyatda böhranın aradan qaldırılmasına, əhalinin məşğulluq səviyyəsinin və istehlak tələbatının yüksəlməsinə istiqamətlənən islahatlar həyata keçirildi. Həmin tədbirlərin məcmuunu neoliberallar "Qərbdə keynsiançılıq inqilabı" adlandıraraq bunu Şərqi Avropa ölkələrindəki kommunist inqilabına qarşı qoydular.

Dövlətin daimi funksiyası olmaq etibarilə məşğulluğun stimullaşdırılmasının keynsiançı prinsipi 1983-cü ildə Niderland konstitusiyasında, digər yüksək inkişaf etmiş ölkələrin qanunvericilik sənədlərində təsbit olundu.

Neoliberalizmin prinsiplərinin praktiki olaraq həyata keçirilməsi dövlət nəzəriyyəçilərini yeni problemlərlə üzləşdirdi. Bu prinsiplərin reallaşdırılması hökumətin fəaliyyətinin qanunverici orqanların zərərinə güclənməsi ilə müşahidə olundu. Çünki islahatda baş verən dəyişikliklərə uyğun olaraq hökumətin həyata keçirmək istədiyi bəzi islahatlar parlament prosedurları ilə məhdudlaşırdı.

Keynsiançılıq ideyalarının yayılması XX əsrin 50-60-cı illərində ən yüksək zirvəyə çatdı. Bu ideyalar **C. Helbreytin postindustrial, V.Rostounun iqtisadi inkişaf mərhələləri** və

**Q.Murdalın firavanlıq** (rifah) dövləti konsepsiyalarında inkişaf etdirildi.[1]

Neoliberalizm ideologiyası mühafizəkarların təlimində tənqidə məruz qaldı.

**Müasir mühafizəkarların** nümayəndələri olan **F. fon Xayek, İ. Kristal və M. Fridman** azad sahibkarlığın müdafiəçisi kimi çıxış edirlər. Bu cərəyanın sosial bazasını hökumətin güclənməsini arzulamayan biznesmenlər, maliyyə oliqarixiyası, varlı fermerlər və ziyalıların müəyyən dairələri təşkil edirlər. Mühafizəkarlar dövlətin iqtisadi fəaliyyətini tamamilə inkar etmirlər, lakin xüsusi kapitalın mənafeyi naminə onun məhdudlaşdırılması ideyasını irəli sürürlər. Onların fikirləri tərtib etdikləri xüsusi layihədə öz əksini tapmışdır. Mühafizəkarlar dövlət hakimiyyətinin iqtisadiyyatdakı rolunu yalnız bazarın tənzimlənməsində görürlər.

**Neomühafizəkarlığın** ideologiyasını daha ətraflı Avstriya iqtisadçısı **Fridrix Avqust fon Xayek** (1899-1992-ci illər) əsaslandırır. O, XX əsrin 30-cu illərində mühazirə oxumaq məqsədilə Londona gəlir və burada S.Keynslə polemikaya (mübahisəyə) girişir; sonra ABŞ-da, AFR-da və Avstriyada müəllim işləyir. Xayek özünün iqtisadi konsepsiyası əsasında geniş sosial-fəlsəfi doktrina işləyib hazırlayır. Bu doktrinada elmi idrakın metodoloji problemləri, müasir cəmiyyətin təşkili, mədəniyyəti, inkişafı məsələləri irəli sürülür. Onun "Köləliyə yol", "Azadlıq konstitusiyası" adlı əsərləri, eləcə də "Hüquq, qanunvericilik və azadlıq" trilogiyası siyasi-hüquqi məsələlərə həsr olunmuşdur. Xayekin nöqteyi-nəzərincə, bazar iqtisadiyyatı öz-özünə mürəkkəb qayda olmaqla onun çərçivəsində bir fərdin hərəkətləri başqalarının hərəkətləri ilə qiymət mexanizmi vasitəsilə əlaqələndirilir. Qiymət mexanizmi informasiyanın, (malların-əmtəənin təklif edilməsi, istehlakçıların ehtiyacı və s barədə) verilməsinə imkan yaradan özünəməxsus siqnallar kimi çıxış edir. Xayek bu yolla təşəkkül tapan münasibətləri müxtəlif mənafelərə malik olan adamların qarşılıqlı fəaliyyətinin nəticəsi kimi açıqlayır. O, qeyd

---

[1] Ətraflı bax: Məcid Əfəndiyev, Azər Şirinov. Sosiologiyanın nəzəri problemləri. Bakı, 2001. səh. 361-367.

edir ki, "bazar iqtisadiyyatına malik olan cəmiyyət öz təbiəti etibarilə plyuralist xarakter daşıyır".

Xayek belə hesab edir ki, yüksək inkişaf etmiş sosial sistemin ayrılmaz cəhəti "biliklərin səpələnməsidir". Mühafizəkarlar iddia edirlər ki, bu ideyanın əsaslandırılması ilk növbədə filosoflara aiddir. Baş verən hadisələr və proseslər haqqında tam və əhatəli məlumata yalnız bütövlükdə cəmiyyət, onun üzvülərinin bütün məcmuu yiyələnir. Xayek buradan belə qənaətə gəlir ki, müasir cəmiyyətdə elə bir mərkəz yoxdur ki, və ola da bilməz ki, adamların böyük əksəriyyətini istiqamətləndirə bilsin. Bu filosof qeyd edir ki, "xüsusi sahibkarlıq ictimai orqanizmdə səpələnən biliklərdən daha səmərəli istifadə etməyə imkan yaradan yeganə sistemdir".

Xayek özü etiraf edir ki, onun sosial konsepsiyası bazarın dövlətin hər cür formaları tərəfindən tənzimlənməsinə, ilk növbədə isə keynsiançılığa qarşı çevrilmişdir. Dövlətin iqtisadiyyata qarışması fərdlərin azadlığını məhdudlaşdırır və hökmən fəaliyyətinin pozulmasına gətirib çıxarır. Xayek 20-ci illərin sonu 30-cu illərin əvvəllərindəki tənəzzülün səbəbini məhz, bununla izah etmişdir. O, sosialist iqtisadi sisteminin əsassızlığını da iddia edərək nəzərə çatdırır ki, ümumi rifah naminə mülkiyyətin ictimailəşməsi praktikada fərdi azadlığa təzyiq olunması və totalitar rejimin yaranması ilə nəticələnir.

Xayekin fikirincə, müasir plyuralist cəmiyyətə məhz, hüququn aliliyinə əsaslanan dövlət uyğun gəlir. Dövlət hakimiyyəti ölkə daxilində yalnız bir vəzifəyə malikdir. Bu vəzifə bütün vətəndaşların ümumi davranış qaydalarını gözləməsini təmin etməkdən ibarətdir, başqa sözlə hüquq qaydalarının müdafiəsinə istiqamətlənməlidir. Bu o deməkdir ki, "dövlət fərdlərin iqtisadi fəaliyyətini istiqamətləndirməkdən və ona nəzarət etməkdən" praktiki olaraq məhrum olur.

XX əsrin 60-70-ci illərində Xayekin əsərləri geniş yayıldı. Bu, ABŞ, İngiltərə və digər ölkələrdə sağ mərkəzçi qüvvələrin hakimiyyətə gəlişi və "mühafizəkar dalğanın" başlanması ilə bağlıdır.

**Siyasi ideologiyanın istiqamətlərindən** biri olmaq etibarilə müasir dünyada başlıca **ideoloji cərəyanlardan digəri sosializm-**

**dir.** Sosializm ideyaları hələ qədim dövrdən məlumdur, lakin bu ideyaların nəzəri cəhətdən əsaslandırılması və ideoloji nöqteyi-nəzərdən qanunilaşdirilməsi məhz, XIX əsrə təsadüf edir.

Sosializm[1] siyasi ideologiya olmaq etibarilə kütlələrin tarixən sosial ədaləti, həmrəyliyi, şəxsiyyətin sosial müdafiəsini həyata keçirən cəmiyyət haqqında çox saylı arzuları ilə bağlıdır. Sosializm ideyalarının konseptuallaşmasında Fransız mütəfəkkiri **J.J.Russonun** və onun həmyerlisi sosializm haqqında özünəməxsus fikirləri ilə fərqlənən **F. Babefin** müddəaları böyük əhəmiyyət kəsb etmişdir. Keçmişə aid çoxsaylı sosial utopiyalardan və eqalitar (eqalitar-əmlakın bərabər bölünməsinə əsaslanan) nəzəriyyələrdən sosializm onunla fərqlənir ki, sosial yoxsulluğu istehsal vasitələri üzərində mülkiyyət münasibətləri və sosial sferada siyasi dəyişikliklərin aparılması zərurəti ilə əlaqələndirir.

Sosializm ictimai quruluşu idealını ümumi şəkildə ilk dəfə təsvir etməyə səy göstərən yeni dövrün mütəfəkkirləri **T. Mor** və **T. Kampanella**[2], XVIII əsrin axırları - XIX əsrin əvvəllərinin böyük utopik sosialistləri **Sen-Simon, Ş. Furye və Ouen olmuşdur.**

XX əsrin səciyyəvi xüsusiyyətlərindən biri bundan ibarətdir ki, xeyli mütəfəkkir və eləcə də tədqiqatçıların böyük qismi sosialist ideologiyasının nəzəri əsasını modernləşdirməyə (modern-müasir, yeni) ciddi cəhd etmişdir. Məsələn, avstriya marksistləri **M.Adler** və **O. Bauer** kommunizm ideyası ilə sosial demokratiyanı birləşdirərək "inteqrativ sosializm" konsepsiyasını yaratmağa səy göstərmişlər. **A.Şaff** və **Q.Petroviç** isə "humanist" kimi marksizm doktrinasını əsaslandırmışlar, eləcə də "ekoloji" və "xristianlıq" sosializm nəzəriyyələri işlənib hazırlanmışdır. Lakin hansı səviyyədə əsaslandırılmasından asılı olmayaraq sosializm real praktikada zorakı üsullara arxalanan idarəçilik forması kimi təsdiqlənmişdir.

XX əsrdə kütlələrin ictimai şüuruna daha çox sosial-demokratiya ideologiyası təsir göstərmişdir. Sosializm ideologiya-

---

[1] Latın dilində sosialis sözündən əxz edilən sosializm məvhumu ictimai mənasını əks etdirir

[2] Ətraflı bax: Məcid Əfəndiyev. Siyasi və hüquqi təlimlər tarixi. Bakı 2002, səh, 143-150

sının təzahür formalarından biri olmaq etibarilə sosial demokratiya sosial və dövlətlərarası aləmin üstünlüklərini müdafiə etməklə yanaşı həm də ədalətli ictimai quruluş idealını azadlıq və həmrəylik prinsipləri ilə əlaqələndirmişdir.[1] Bu ideologiyanın mahiyyətini sinfi mübarizədən, xalq hakimiyyətindən imtina etməklə burjua cəmiyyətinin tədrici islahatlar yolu ilə təkmilləşdirilməsi təşkil edir. halbuki klassik (elmi) sosializm ideyasının - marksizmin ruhunu məhz, sinfi mübarizə, zəhmətkeşlərin inqilabi hərəkatını sosializm təlimi ilə birləşdirmək, radikal vasitələrlə kommunizm cəmiyyətinin qərarlaşdırılması təşkil edir. **Müasir dünyada başlıca ideoloji cərəyanlardan biri də faşizmdir.** Əgər sənaye cəmiyyətinin təşəkkülü problemləri liberalizmlə sosializm arasındakı ideya mübahisələrini ön plana keçirdisə, hazırki şəraitdə ənənəvi və modernləşmiş ölkələr arasındakı ziddiyətlər dünya birliyi ölkələ-rinin mənəvi həyatının ideoloji sahəsinə nüfuz etmişdir. Başqa sözlə, humanizm ideallarını müdafiə edən ideologiya ilə əks mövqedə duran ideologiyalar arasında qarşıdurma qabarıq surətdə nəzərə çarpır. Axırıncılar sırasında faşizm başlıca yer tutur. Qeyd edək ki, **faşizm məvhumu latınca fasio, İtalyan dilində isə fasSismo sözlərindən götürülmüşdür və dəstə, birləşmə** məna-sını ifadə edir. Bu gün siyasi elmdə faşizmin başa düşülməsi ikili mövqedə nəzərə çarpır.

Bəzi alimlər faşizmi XX əsrin 20-30-cu illərində İtaliyada, Almaniyada və İspaniyada formalaşan siyasi ideologiyanın növlərindən biri kimi qiymətləndirirlər. Faşizmin banisi İtaliya sosialistlərinin sol qanadının keçmiş lideri **B.Mussolini** hesab olunur. Onun nəzəriyyəsi **Platonun, Hegelin** elitar nəzəriyyəsinə əsaslanmaqla mahiyyət etibarilə son dərəcə millətçilik, dövlətin "sonsuz iradəsi" və onu idarə edən siyasilərin elitarlığı mövqeyindən çıxış edir və bu mövqeyin təbliğinə istiqamətlənir.

Faşizmin səciyyəvi növlərindən biri Hitlerin (A.Şiklquriberin) nasional-sosializmidir. Faşizmin alman variantı özünün xeyli dərəcədə mürtəce irrasionalizmi ilə fərqlənir, eləcə də hakimiyyətin təşkilinin daha yüksək totalitar səviyyəsi və açıq

---

[1] Ətraflı bax: Məcid Əfəndiyev, siyasi və hüquqi təlimlər tarixi. Bakı, 2002.səh 369-373.

rasizm (rasizm-irqçilik) ilə səciyyələnir. Alman faşizminin **nəzəriyyəçiləri A.Qobinonun** irqi üstünlük ideyasında[1], eləcə də **İ. Fixtenin, A.Şopenhauerin və F. Nitsşenin** bir sıra fəlsəfi müddəalarından istifadə etməklə neçə dəyərlər mifoloji (əfsanəvi) xalqın-"arinin" sosial və siyasi hüquqlarının üstünlüyünə vurğulanan öz ideologiyasını işləyib hazırlamışlar. Alman milli sosializmi İtaliya faşizmi ilə sovet kommunizminin bəzi cəhətlərini özündə təcəssüm etdirir. Əgər sovet kommunist sistemində "sinif" amili hakim mövqeyə malikdirsə, Alman nasional faşizmində "millət" ideyası başlıca yer tutur. Faşizmin mahiyyətinə dair siyasi elmdə mövcud olan istiqamət bundan ibarətdir ki, faşizm ideologiya olmaq etibarilə müəyyən ideya məzmununa malik deyildir və elə yerdə, həm də o zaman formalaşır ki, siyasi qüvvələrin ideya və praktiki fəaliyyətində ön plana demokratiyaya təzyiq göstərilməsi çəkilir, zorakılıq və terror ehtirası hakimiyyəti ələ keçirmək və ondan istifadə olunması cəhdlərini pərdələyir. Beləliklə, faşizmin ideya əsasının üstünlüyü daha çox bu və ya digər irqi, etnik, sinfi, yerliçilik münasibətlərində, eləcə də cəmiyyətin digər qruplarına münasibətdə təzahür edir.

**Müasir dünyada** təzahür edən və böyük rol oynayan **ideoloji cərəyanlardan** digəri isə **milli ideologiyadır**. Onun inkişafı tarixən orta əsr strukturlarının dağılması və yeni ictimai-iqtisadi quruluşun təşəkkülü ilə əlaqədardır. Bu mənada millət ideyası yeni dövrün demokratiyasının hüquqi və ideoloji-əxlaqi cəhətdən əsaslandırılmasıdır. Hələ Böyük Fransa inqilabı zamanı **üç baza zəminində** təcəssümünü tapan həmin ideya bu günə qədər öz əhəmiyyətini saxlayır: 1.Xalq suverenliyinə dair sankülot[2] **konsepsiya**. Bu konsepsiyaya görə xalq öz mahiyyətinə görə eyni qanunlarla tənzimlənən və fərdlər birliyini səciyyələndirən hüquqi şəxs kimi şərh olunurdu, suverenliyin təşəkkülünün mənbəyi sayılırdı; 2. **Millətin robespyersayağı azadlıq uğrunda** mübarizə aparan **vətənpərvərlər** kimi başa düşülməsi. Başqa sözlə, bəşər tarixində tərəqqiyə nail olmağa cəhd əsasında özünü

---

[1] Bax: Məcid Əfəndiyev. Siyasi və hüquqi təlimlər tarixi. Bakı.2002.səh.268-270

[2] Sankülot-1789-cu il Fransa inqilabı zamanı inqilabçılara, respublikaçılara verilən ad

müəyyən mənəvi vəhdətdə ifadə etmək; 3. **Təbii sərhədlər** də daxil olmaqla **millətin ərazi-etnik ölçü aspektində** şərh olunması.

Milli birliklərin təşəkkülü prosesinin təzahür etdiyi ölkələrdə **mono və ya yarımetnik** əsasda dövlətin möhkəmləşdirilməsi həyata keçirilir. Praktika təsdiqləyir ki, həmin prosesdə milli ideologiya ciddi siyasi rol oynayır. Məsələn, XIX əsrin axırında və XX əsrin birinci yarısında Qərbi Avropa milli ideologiyanın coşması ilə üzləşdi. İnkişaf etməkdə olan ölkələrdə millətçilik müəyyən pozitiv əhəmiyyət kəsb etdi, çünki millətçilik bayrağı altında müstəmləkəçiliyə və yeni müstəmləkəçiliyə qarşı ciddi mübarizə həyata keçirilirdi. Eləcə də hazırki şəraitdə postsovet məkanında prinsip etibarilə başqa mənzərənin qərarlaşması meyli müşahidə olunur. Yuqoslaviyada, Rusiyada, keçmiş SSRİ-nin əksəriyyət respublikalarında **milli ideologiya** cəmiyyətin siyasi həyatında müəyyənedici rol oynayır.

Bütövlükdə **ideologiyanın milli tipi vətəndaşların siyasi tələblərini ifadə edir, onların sosial statusunu milli mənsubiyyətlə yüksəltməyə istiqamətlənir.** Milli ideologiya hər şeydən əvvəl, milli qrupların təbiətinin bu və ya digər səviyyədə başa düşülməsini ehtiva edir. Daha dəqiq desək, vahid iqtisadi şərait, ərazi, dil və mənəvi mədəniyyətin müəyyən cəhətləri əsasında formalaşan milli birliyi səciyyələndirir. **C.Brendin** qeyd etdiyi kimi milli ideologiya mədəni normalarla, dəyərlərlə və simvollarla müdafiə olunan "milli ruhu" təcəssüm etdirir.

Milli ideologiya ilə (millətçiliklə) stimullaşan siyasi hərəkat bəzi ölkələrdə (İsveçrə və s.), millətlərarası münaqişələrin həllinə, mədəni yekcinsliyin güclənməsinə imkan yaratmaqla cəmiyyətin inteqrasiyasını şərtləndirir. Digər ölkələrdə isə separatizmə və etnik hegemonluğa rəvac verməklə (məsələn, Ermənistandan azərbaycanlıların zorla köçürülməsi, Bosnyada serblərin hərəkatı və s.) millətçilik cəmiyyətin bütövlüyünə xələl yetirir, siyasi idarəçiliyin sabitliyini pozur. Qeyd edək ki, milli ideologiya dövlətlərarası münasibətlərin möhkəmləndirilməsinin mənbəyi kimi də çıxış edə bilər.

Millətçilik tez-tez siyasi və etnik vahidlərin birləşdirilməsi tələbinin prinsipi kimi şərh olunur, eləcə də mövcud siyasi vahidlər daxilində idarə edənlərin və idarə

olunanların eyni etnosa mənsub olması kimi əsaslandırılır. **(E.Qellner)** Milli ideologiyaya (millətçiliyə) belə mövqedən yanaşmaq millətin yaradıcı surətdə özünü açıqlaması sferası, xalqın özünü təmizləməsinin və inkişafının güclü vasitəsi kimi izah olunur.[1] Millətçilik yalnız ideoloji fenomen kimi səciyyələnmir, tez-tez daha çox real siyasətin hərəkətverici qüvvəsinə çevrilir. Belə keyfiyyətlə o keçmiş SSRİ respublikalarının hamısında təzahür edir.

Əlbəttə, bu cür əhval-ruhiyyə yalnız postsovet respublikaları üçün səciyyəvi deyildir. Millətçilik fəaliyyətdə olan prinsip olmaq etibarilə hələlik "üçüncü dünya" ölkələrinin bütöv bir qisminin siyasi praktikasında təsirli amil kimi nəzərə çarpır, eləcə də Avropada, ABŞ-da, Kanadada və digər ölkələrdə sabit demokratik ənənələrlə öz mövqeyini saxlayır. Heç də təsadüfi deyildir ki, XX əsrin əllinci illərində bəzi qərb analitikləri dünyaya "millətçilik əsrinin" və hətta "panmillətçiliyin" nüfuz etməsinə dair tezis işləyib hazırlamışdılar.

Şübhəsiz, hər bir ölkənin milli mənafeyinin qanuniliyi haqqında tezis cəmiyyətdə müdafiə olunmalıdır, hər hansı konkret millətin və xalqın milli dəyərləri və bərabər hüquqlu olması heç bir halda diqqətdən yayınmamalıdır. **Elmdə belə bir müddəa dərindən kök salmalıdır ki, milli-mədəni müxtəliflik vahid halda müasir sivilizasiyalı cəmiyyətin zənginliyinin zəruri zəmini kimi çıxış etməlidir.**

Milli münasibətlər sferası mürəkkəb və incədir. Milli ideologiya mövqeyindən milli diasporun mədəniyyət dəyərləri və siyasi hüquqlarının müdafiəsi üçün zəruri siyasət həyata keçirilməlidir, əsl ərazinin və milli suverenliyin xarici qəsdlərdən qorunmasına diqqət yetirilməlidir. Eləcə də həmin mövqedən etnik hegemonluq əhval-ruhiyyəsi, seperatizmin mənbəyinin ideya zəmini və "yerli millətdən" olan şəxslərin üstünlüyünün stimullaşdırılması həyata keçirilə bilər.

Müasir dünyanın siyasi həyatının mənəvi zənginliyi yuxarıda haqqında mülahizələr yürütdüyümüz başlıca ideoloji cərəyanlarla və eləcə də milli ideologiyanın çoxcəhətliyi ilə

---

[1] Политология Под.ред. М.Н. Марченко .М.1999. səh.177

tükənmir. İnsanların əhval-ruhiyyəsinə təsir edən, öz tələblərini dini müddəalar və dəyərlər əsasında formalaşdıran doktrinalar o cümlədən xristian-**demokrat ideologiyası, ortodoksal yəhudi dini, müxtəlif sol və sağ radikal ideologiyalar** (məsələn, neotrotskizm, yeni sağlar) da müasir dünyanın siyasi həyatının mənəvi istiqaməti kimi səciyyələnir. Mənəvi-siyasi həyatın bu vasitələri hakimiyyətin ələ alınmasında və həyata keçirilməsində getdikcə daha çox rol oynayırlar.

# XVI FƏSİL

# PARLAMENT ALİ QANUNVERİCİLİK TƏSİSATIDIR

## 1. "PARLAMENT"İN SƏLAHİYYƏTLƏRİ VƏ FUNKSİYALARI

Parlament öz fəaliyyətini demokratik prinsiplər və dəyərlər əsasında həyata keçirən hər bir dövlətin zəruri atributudur. O, yüksək seçkili nümayəndəli orqandır, bə'zi hallarda isə qismən təyin olunma formasında təşkil edilir. Parlament əhalinin sosial və siyasi cəhətdən fəal qruplarını təmsil edən nümayəndələr hesabına formalaşır və bir sıra ölkələrdə müxtəlif cür: ABŞ və Latın Amerikası ölkələrində (Braziliya, Boliviya, Meksika, Venesuela) konqres, İsveçdə Riqsdaq, Finlandiyada seym, Norveçdə stortinq, Türkiyədə Böyük Millət Məclisi, Almaniya Federativ Respublikasında Federal Məclis, Azərbaycanda isə Milli Məclis adlanır. O, bu və ya digər ölkədə müxtəlif səlahiyyətlərə malikdir.

İlk parlamentlər XII-XIII əsrlərdə meydana gəlmişdir. "Parlament termini də məhz, XII-XIII əsrlərdə işlədilmişdir. İlk ispan parlamenti kortes adlanırdı. "Parlament termini latın dilində danışmaq mə'nasını ifadə edən "**parla** sözündən əmələ gəlmişdir. Latın sözü olmaq e'tibarilə "parlamentum termini ilk başlanğıcda monarxların nahardan sonrakı söhbətini səciyyələndirirdi. Parlament məvhumu onun vətəni olan İngiltərədə XIII əsrdə işlədilmişdir. İngiltərədə bu söz əvvəllər hər hansı müzakirə mə'nasını ehtiva edirdisə, sonralar "formal yığıncaqları parlament adlandırırdılar. 1265-ci ildə ilk dəfə olaraq "İngiltərənin ali şurası təsisatı parlament kimi təsdiqlənir. Məhz, bu mə'nada İngiltərə parlamentin klassik vətəni hesab olunur. Heç də təsadüfi deyil ki, **Uinston Çörçill** "Britaniyanın yaranması adlı kitabında yazırdı:

"Parlament termini siyasi mə'nada İngiltərədə XIII əsrdə işlədilmişdir.

Parlament mürəkkəb və ziddiyyətli siyasi fenomendir. Elə buna görə ona qət'i və birdəfəlik qiymət vermək qeyri-mümkündür. Ümumiyyətlə, ilk dəfə İngiltərədə nümayəndəli orqan kimi meydana gələn parlament bu gün Böyük Britaniya, Fransa, İtaliya, Yaponiya, Kanada, Belçika, Hindistan və digər ölkələrdə ali nümayəndəli orqan kimi fəaliyyət göstərir.

"Parlament anlayışının mahiyyətini düzgün və əhatəli anlamaq məqsədilə hər şeydən əvvəl, parlamentin **səlahiyyətləri** və **funksiyaları** barədə dolğun təsəvvürə malik olmaq vacibdir.

**Parlamentin səlahiyyəti** bir tərəfdən onun hüquqi mövqeyini, ölkənin siyasi həyatında rolunu müəyyən edən mühüm amildir, digər tərəfdən ümummilli nümayəndəli tə'sisat olmaq e'tibarilə parlamentin dövlət hakimiyyətinin digər orqanları ilə qarşılıqlı münasibətinin zəruri şərtidir.

Müxtəlif ölkələrdə parlamentlərin səlahiyyətləri eyni olmasa da, həmin səlahiyyətləri **üç başlıca qrupa ayırmaq olar. Birinci qrupa** aid olan səlahiyyətlərin mahiyyəti bundan ibarətdir ki, konstitusiyaya görə qanunverişilik fəaliyyətinin obyekti olan məsələlərin dəqiq siyahısı hazırlanır. Belə parlamentlər öz səlahiyyətlərinin həddini aşmaq hüququna malik deyildir. Əks halda məhkəmə parlamentin hüquqi əsası olmayan təşəbbüslərini konstitusiyaya zidd hərəkət kimi qiymətləndirir və onu qanunvericilik imkanlarından məhrum edir, həmçinin, parlamentin təşəbbüs xarakterli qərarını qeyri-qanuni sayır.

Səlahiyyətinə görə birinci qrupa aid olan parlamentin fəaliyyətinin səciyyəvi və klassik nümunəsi ABŞ-ın konstitusiyasında daha aydın nəzərə çarpır. Bu konstitusiyada ali qanunverici orqan olan konqres üçün müəyyən fəaliyyət səlahiyyətləri öz əksini tapmışdır. Eləcə də konqresin səlahiyyətlərinə aid olmayan əlavə məsələlərin siyahısı verilmişdir. Ümumiyyətlə, konqresin fəaliyyət sferasından kənarda qalan məsələlər isə ayrı-ayrı ştatların səlahiyyətlərinə şamil edilir.

Parlamentin səlahiyyəti məsələsi ABŞ-da necədirsə Fransada da təxminən elədir. Fransa konstitusiyasının 34-cü maddəsində parlamentin qanunvericilik fəaliyyətinin obyektini

təşkil edən məsələlərin daha da dəqiqləşdirilməsi və əlavə məsələlərlə tamamlanması müəyyən hüquqi qaydalara əsaslanmaqla həyata keçirilə bilər. Bu konstitusiyanın 37-ci maddəsində deyilir: "Qanunvericilik sahəsinə aid olmayan məsələlər inzibati qaydada həll olunur. ABŞ və Fransa ali qanunverici orqanlarının səlahiyyətlərinin müqayisəli təhlili belə qənaətə gəlməyə əsas verir ki, əgər ABŞ-da qanunvericilik səlahiyyəti konqreslə federasiya subyektləri arasında məhdudlaşdırılırsa, Fransada bu səlahiyyət parlamentlə hökumət arasında məhdudlaşdırılır. Deməli, parlamentin səlahiyyətinin müəyyənləşdirilməsi sistemi həm federativ, həm də unitar dövlətlərdə tətbiq oluna bilər. Lakin fərq bundan ibarətdir ki, səlahiyyətlərin bölüşdürülməsi müxtəlif subyektlər arasında həyata keçirilir.

Səlahiyyətlərinə görə **ikinci qrupa** aid olan parlamentlər qeyri-məhdud fəaliyyət istiqamətinə malikdirlər.

Belə parlamentlərin hüquqi baxımdan bu və ya digər məsələ üzrə qanun qəbul etməyə səlahiyyətləri çatır. Lakin bu tipli parlamentlərin suverenliyi praktiki cəhətdən de-yure (rəsmən, hüquqi baxımdan) və defakto (faktiki olaraq, əslində) məhduddur. Bununla yanaşı ikinci qrupa aid olan parlament səlahiyyətləri bir sıra ölkələrdə, məsələn, Böyük Britaniya, Yeni Zelandiya, İtaliya və İrlandiyada parlament sisteminin əsası hesab olunur. İtaliya və İrlandiyada hətta konstitusiya nəzarəti tətbiq olunur ki, bu da parlamentin nəzərdə tutulan geniş səlahiyyətlərinin məhdudlaşdırılması deməkdir. Məsələn, İrlandiya konstitusiyasının 15-ci maddəsində deyilir: "Hazırkı konstitusiyaya zidd olan hər hansı qanunu parlamentin qəbul etmək hüququ yoxdur.

Belə hüquqi qayda İtaliya konstitusiyasının 136-cı maddəsində də təsbit olunmuşdur. Həmin maddədə qeyd olunur ki, "konstitusiyaya zidd hesab edilən sərəncam ona dair məhkəmənin qərarı çap olunduğu gündən e'tibarsız sayılır.

Səlahiyyətlərinə görə **üçüncü qrupa** daxil olan parlamentlərin fəaliyyətinin fərqləndirici cəhəti bundan ibarətdir ki, onların səlahiyyət sferası vahid prinsip üzrə müəyyən olunur. Bu baxımdan Hindistan parlamenti səciyyəvidir. Hindistan parlamentinin səlahiyyəti həmin ölkənin konstitusiyasının 246-cı

maddəsinə əsasən üç istiqamətdə həyata keçirilir. Birinci istiqamət xüsusi səlahiyyətlərə malik olan ittifaq (federasiya) parlamentinin fəaliyyətini əks etdirir. Qanunvericilik səlahiyyətinin ikinci istiqaməti ştatların səlahiyyətini ifadə edir. Üçüncü istiqamətə isə ittifaq (federasiya) və ştatların parlamentinin birgə səlahiyyəti daxildir. İttifaqla onun subyektləri arasında münaqişəli vəziyyət yarandıqda Hindistan konstitusiyasına görə ittifaq parlamentinin qanunvericilik üstünlüyü saxlanılır. Deməli, bu ölkənin parlamenti ciddi konstitusiya göstərişləri ilə məhdudlaşdırılmır.

Parlamentə malik olan ölkələrin konstitusiyalarında parlament dövlət hakimiyyətinin ali orqanları sistemində mərkəzi tə'sisat kimi təsbit olunmuşdur. Ümumiyyətlə, parlament xalqın siyasi tə'sisatı, onun müstəqilliyinin aparıcı qüvvəsi kimi qiymətləndirilir. Lakin hazırkı şəraitdə ölkələrin xeyli hissəsində hakimiyyət sistemində parlamentin mərkəzi mövqeyinin müəyyən dərəcədə zəifləməsi nəzərə çarpır. Parlamentin rolunun qismən tənəzzülə uğraması müxtəlif ölkələrdə spesifik cəhətlərlə səciyyələnir.

Ölkələrin bir qrupunda, məsələn, qüdrətli dövlətlərdən olan Fransada parlamentin böyük səlahiyyətlərə malik olmaması konsti-tusiyada təsbit olunmuş və qanuniləşdirilmişdir. Belə hal elmi ədəbiyyatda bə'zən parlamentin gücsüzlüyü kimi qiymətləndirilir.

ABŞ kimi ən qüdrətli ölkədə isə əksinə, parlament müstəqil ali qanunverici orqan kimi mövcuddur və hüquqi baxımdan onun səlahiyyətləri məhdudlaşdırılmır. Lakin belə bir cəhəti qeyd edək ki, ABŞ parlamenti (konqresi) ikinci dərəcəli məsələlərin həllində müstəqildir. "Sözün əsl mə'nasında qanunvericilik icra hakimiyyətinə - prezidentə və onun başçılıq etdiyi inzibati aparata məxsusdur, fikri xeyli vaxtdır Amerikanın hüquqa dair ədəbiyyatında geniş şəkildə öz əksini tapıb. ABŞ-ın siyasət sahəsində görkəmli tədqiqatçılarından biri olan **Conson** həmin fikri obrazlı şəkildə belə ifadə edir: "Bütün ölkə və konqresin özü prezidentə mə'muniyyətlə qanunvericilik lideri kimi baxır.

Nəhayət, bir sıra ölkələrdə (İngiltərə, Kanada, Yeni Zellandiya və s.) dövlətin idarə olunmasında ağırlıq mərkəzi

parlamentin yox, hökumətin üzərinə düşür. Həmin ölkələrin hüquqi-siyasi dairələrində belə vəziyyət "kabinet idarəçiliyinin ən mühüm prinsipi kimi izah olunur və əsaslandırılır. Bütün bunlara baxmayaraq dünya dövlətşünaslığında parlamentin funksiyaları birmə'nalı qiymətləndirilir. Başqa sözlə, ali qanunverici orqan böyük səlahiyyətləri olan siyasi tə'sisat kimi əsaslandırılır. Belə əsaslandırma parlamentin fəaliyyət sferasına aid olan **üç başlıca səlahiyyətlə-qanunvericilik, büdcə və hökumət üzərində nəzarətlə əlaqədardır.**

"Parlament anlayışının mahiyyətini əhatəli dərk etmək baxımdan onun **funksiyaları** haqqında dürüst nəzəri təsəvvürə malik olmaq məqsədəuyğundur.

İngiltərədə konstitusiyalı monarxiyanın təşəkkül tapdığı dövrdən parlamentin funksiyalarının müəyyən sxemi qəbul olunmuşdur. Avropa ölkələrinin hüquqi və sosioloji ədəbiyyatında parlamentin funksiyalarının müəyyənləşdirilməsi istiqamətində təqdirəlayiq addımlar atılmışdır. Məsələn, ingilis hüquqşünası və sosioloqu **Sidney Lou** parlamentin funksiyalarını aşağıdakı qaydada müəyyənləşdirir:

1.Qanunverici fəaliyyət.

2.İdarəetmə və icra sahəsində nəzarət.

3.Maliyyə siyasəti və dövlət gəlirlərinin tənzim olunması.

4.Cinayətkarlığa və şikayətlərə dair məsələlərin müzakirəsi.

5.Dövlət xadimlərinin sınaqdan keçirilməsi, parlament müzakirələrində seçilməsi və müvafiq nazir vəzifələrinə tə'yin olunması.

Sidney Lou bu funksiyaları parlamentin qanunvericilik fəaliyyətinin **"başlıca kateqoriyaları"** adlandırır. Qeyd edək ki, Lounun təklif etdiyi sxem həddən artıq milli xarakter kəsb edir. Onun parlamentin funksiyalarına dair fikri əslində ingilis parlament sistemini səciyyələndirir. Lounun əsaslandırdığı funksiyalar müasir siyasi və hüquqi ədəbiyyatda lazımi səviyyədə qiymətləndirilsə də hüquqşünas alimlər və politoloqlar tərəfindən dünya ölkələrinin əksəriyyəti üçün daha ümumi əhəmiyyətə malik olan funksiyalar sistemi də təklif olunur. Bu baxımdan parlamentin funksiyaları barədə **Robert Karr**

tərəfindən təklif olunan fikir diqqəti cəlb edir. Onun vacib saydığı funksiyalar bunlardır:

1.Siyasətin müəyyən edilməsi və ya siyasi xəttin parlament tərəfindən rəsmən təsdiqi.

2.Dövlət xəzinəsi üzərində nəzarət.

3.İnzibati aparat üzərində və qanunların həyata keçirilməsi prosesinə nəzarət.

4.İctimai rə'yə tə'sir.

Robert Karrın əsaslandırdığı həmin funksiyalar universal xarakter daşıyır, yə'ni ölkələrin xeyli qismi üçün məqbul hesab olunur. Bu funksiyaların əhəmiyyəti və səciyyəvi cəhəti bundan ibarətdir ki, özündə hər şeydən əvvəl, qanunvericilik mahiyyətini əks etdirir. Robert Karr tərəfindən irəli sürülən funksiyalar sxeminin digər diqqəti cəlb edən cəhəti ictimai rə'yin tə'sirinin siyasi baxımdan mə'nalandırılmasıdır. Yeri gəlmişkən qeyd edək ki, ictimai rə'yin dövlət tərəfindən nəzərə alınması demokratik idarəçiliyin qüdrətli amillərindəndir.

Ümumiyyətlə, elmi ədəbiyyatda bu və ya digər hakimiyyət orqanının, o cümlədən parlamentin həyata keçirdiyi funksiyaların təsnifatı üçün aşağıdakı cəhətlər başlıca me'yar hesab olunur:

1.Hakimiyyətin hər hansı orqanının dövlət aparatında yeri.

2.Mövcud hakimiyyət orqanının digər idarəetmə orqanları ilə qarşılıqlı münasibəti.

3.Hakimiyyət orqanının cəmiyyətə dövlət rəhbərliyini həyata keçirməsi prosesində praktiki rolu.

Əlbəttə, unutmaq lazım deyil ki, parlamentin başlıca məqsədi qanunlar qəbul etməkdir. Lakin bir cəhəti də qeyd etmək vacibdir ki, müasir parlamentin qanunvericilik fəaliyyəti ciddi dəyişikliklərə mə'ruz qalmışdır. Belə ki, sənaye kapitalizminin təşəkkülü və inkişafı dövründə parlament sözün əsl mə'nasında hakimiyyətin qanunverici orqanı idi. Həmin dövrdə hökumətin fəaliyyəti əslində parlamentə tabe idi və axırıncının qəbul etdiyi qanunvericilik aktlarının sayı artırdı, onun qanunvericilik fəaliyyətinin həcmi isə genişlənirdi. Lakin inhisarçı kapitalizmin iqtisadi qüdrətinin artması parlamentin qanunvericilik səlahiyyətlərinin tədricən məhdudlaşdırılmasına gətirib çıxarır və onun əvvəlki səlahiyyətləri hökumətin fəaliyyət

sferasında əksini tapır. Müasir dövrdə sözün müəyyən mə'nasında **parlament qanunverici orqandan qanun təsdiq edən orqana çevrilib.** Bu real cəhəti dünyanın ən nüfuzlu hüquqşünasları və politoloqları da təsdiqləyirlər. Hazırda parlamentin nüfuzunun tənəzzülə uğramasını **Belfastdakı Britaniya Krallığı** universitetinin mühazirəçisi **Ceyms** daha dəqiq ifadə edir. Ceymsin fikrincə, "Britaniya konstitusiyasının inkişafı ona gətirib çıxardı ki, icraedici hakimiyyət qanunvericilik təşəbbüslərini tam inhisara aldı. Belə mülahizələri yürüdən görkəmli alimlərdən digəri Fransa sosioloqu **Lekeldir.** Lekel Fransa respublikasının qanunvericilik praktikasını tədqiq etmək əsasında belə qənaətə gəlir ki, "parlamentin qanunvericilik təklifləri seçicilərin şüuruna tə'sir edə bilən mərasimdən başqa bir şey deyildir.

Ümumiyyətlə, müasir dövrdə ölkələrin əksəriyyətində qanunvericilik təşəbbüsləri hökumətə məxsusdur. Məsələn, İngiltərə hökumətində nazirlər kabinetinin tərkibində Lordprezidentin və nümayəndələr palatasının liderinin başçılıq etdiyi qanunvericilik təklifləri komitəsi fəaliyyət göstərir. Bu komitə bilavasitə hökumətin qanunvericilik proqramının işlənib hazırlanması ilə məşğuldur. İngiltərə parlamentinin fəaliyyəti isə hökumətin qanun layihələrini nəzərdən keçirmək səlahiyyəti ilə məhdudlaşır.

Prezident idarəçiliyinin mövcud olduğu ölkələrdə isə konstitusiyaya görə hökumət qanunvericilik təşəbbüsündən məhrumdur. Buna görə hökumət qanunvericilik təşəbbüsünü dolayı yolla həyata keçirməyə məcburdur. Bu cəhət ABŞ-ın nümunəsində aydın nəzərə çarpır. ABŞ prezidenti parlamentin qanunvericilik fəaliyyətinə formal, sırf informasiya xarakteri daşıyan müraciət və ya məktub vasitəsilə tə'sir göstərir. Əslində isə prezidentin konqresə göndərdiyi məktub qanunvericilik gücünə malikdir. Bir sözlə, prezident qanunvericilik prosesinə partiya liderlərinin iştirakı ilə çağrılan "prezident müşavirəsi və digər üsullarla həlledici tə'sir göstərir.

"Parlament anlayışı ilə bağlı biliklərimizi zənginləşdirmək baxımdan **parlament üzvünün (deputatın) hüquqi mövqeyinə** dair konkret təsəvvürə yiyələnmək də siyasi əhəmiyyətə malikdir. Parlament üzvü peşəkar qanunverici şəxs olmaq e'tibarilə bütün

milləti təmsil edir. Əhalinin müxtəlif sosial qruplarını təmsil edən nümayəndələrin parlamentdə deputat mandatı əldə etmə dərəcəsinin me'yarı onların sosial fəallığı və siyasi yetkinliyidir.

Deputat mandatı dövlət vəzifələrində və digər vəzifələrdə çalışan şəxslərlə müqayisədə deputata müəyyən üstünlük verir və onun hüquqi mövqeyini möhkəmləndirir. Bir qayda olaraq konstitusiya və ya müvafiq qanunvericilik deputat mandatının digər vəzifələrlə bir araya sığmamasının me'yarlarını və əlamətlərini müəyyən edir. Bu, mahiyyət e'tibarilə belə bir cəhəti ifadə edir ki, parlamentdəki fəaliyyət deputatın yeganə fəaliyyət sferasıdır (nazir vəzifəsi daşıyan şəxslər istisna olmaqla). Deputatın peşəkarlığı nəzəri cəhətdən "hakimiyyətin bölünməsi prinsipi ilə şərtlənir. Həmin prinsip isə qanunverici və icraedici hakimiyyətin birləşməsini qadağan edir. Təəssüf ki, ölkələrin cüz'i qismində həmin prinsip pozulur.

**Parlamentlə parlamentarizmin nisbəti** məsələsini açıqlamaq da vacib və faydalıdır.

**Qanunvericilik orqanlarının icraedici orqanlardan üstünlük təşkil etdiyi dövlətlərdə siyasi hakimiyyət sistemi parlamentarizm adlanır.** Parlamentarizm bu və ya digər ölkədə cəmiyyətə dövlət rəhbərliyi sistemidir. Parlamentarizm qanunverici və icra funksiyalarının dəqiq bölüşdürülməsi, qanunvericilik orqanı olmaq e'tibarilə parlamentə digər dövlət orqanlarına nisbətən üstünlük verilməsi ilə səciyyələnir. Parlamentarizm şəraitində hökumət parlament tərəfindən təşkil olunur və onun qarşısında mə'suliyyət daşıyır. Başqa sözlə, parlamentarizm dövlət hakimiyyəti və idarəçiliyi mexanizmində seçkili orqanın formal cəhətdən başlıca mövqe tutmasıdır. Parlamentarizm kapitalizmin təşəkkül tapdığı ilk dövr üçün səciyyəvi olan siyasi hakimiyyət sistemidir. XIX əsr parlamentarizmin yüksək səviyyədə inkişafı dövrüdür. Müasir dünyamız isə parlamentarizmə nisbətən idarəçilik orqanlarının rolunun artması və hökumətlərin parlamentin bir çox funksiyalarını, o cümlədən qanunvericilik funksiyasını öz əlinə alması ilə diqqəti cəlb edir.

## 2. PARLAMENTİN STRUKTURU

Bütün ölkələrin parlamentləri mahiyyətinə və fəaliyyət xarakterinə görə fərdi, özünəməxsus cəhətlərə malikdir. Bununla yanaşı həmin parlamentlərə bir sıra ümumi əlamətlər xasdır. Bu əlamətlər dünya parlamentlərinin sistemləşdirilməsi üçün başlıca şərtdir. Müasir parlamentlər əsasən aşağıdakı **üç əlamət üzrə** sistemləşdirilir:

1) Parlamentin strukturu, 2)parlamentin səlahiyyətlərinin həcmi, 3) sosial tərkib.

**Parlamentlər strukturuna görə ikipalatalı (bikameral) və ya birpalatalı (unikameral) ola bilər.** Parlamentlərin ən'ənəvi təşəkkül tarixi ikipalatalılığla səciyyələnir. Lakin XX əsrin ikinci yarısından e'tibarən bu qanunauyğunluq mühüm dəyişikliyə uğramışdır. Belə ki, müstəmləkə sistemindən azad olan və müstəqil inkişaf yoluna qədəm qoyan ölkələr praktiki şəkildə ikipalatalı parlament sistemini inkar etmiş və birpalatalı parlamentə üstünlük vermişlər. Hətta klassik kapitalist ölkələrinin müəyyən hissəsi müxtəlif mülahizələrə görə birpalatalı parlament idarə sisteminə keçmişlər.

Politologiyaya dair bə'zi tədqiqat işlərində parlamentə malik ölkələrdə ikipalatalı sistemin sayca üstünlük təşkil etməsi iddia olunr. Əslində isə belə deyildir. Hazırda dünya parlamentlərinin əksəriyyəti birpalatalıdır. İndi dünyada elə bir qitə yoxdur ki, orada ikipalatalı parlament üstünlük təşkil etsin. Faktlara müraciət edək. Avropada 23 dövlətdən 12-si birpalatalı parlamentə malikdir (keçmiş sosialist ölkələri buraya daxil deyil). Həmin göstərici digər qitələrdə də aydın nəzərə çarpır. Məsələn, Afrikada parlamentə malik olan 36 dövlətdən 26-da birpalatalı parlament sistemi, Amerika qitəsində 22 dövlətdən 11-də, Asiya, Avstraliya və Okeaniyada isə 22 dövlətdən 11-də birpalatalı parlament mövcuddur.

İlk parlamentlərin ikipartiyalılıq formasında təşəkkül tapması bir sıra amillərlə bağlıdır. Əvvəla, yuxarı palata aristokratiyanı təmsil etmək məqsədilə yaradılıb. İkincisi isə o, dövlət hakimiyyətinin yüksək orqanları sistemində demokratik ünsürlərə malik olan aşağı palata ilə tarazlığı saxlamaq üçün təşkil olunmuşdur. Klassik kapitalist ölkələrinin ideoloqları həmişə

ikipalatalı parlamentə böyük üstünlük vermiş və ikipalatalı parlament sistemini demokratiyanın dəyərlərindən biri kimi əsaslandırmağa sə'y göstərmişlər. Məsələn, XX əsrin nüfuzlu siyasi xadimlərindən biri olan **Çörçill** özünəməxsus qət'iyyətlə qeyd edirdi ki, "mən indiyə qədər demokratik tə'sisatlara malik elə bir ölkə tanımıram ki, o, birpalatalı parlament idarə sistemini qəbul etsin. Mənə elə bir azad, demokratik konstitusiya göstərin ki, o, birpalatalı idarə prinsiplərinə əsaslansın.

İkipalatalı və birpalatalı parlamentlərin formalaşması **ümumi və fərqli cəhətlər kəsb edir**. Həmin palataların təşəkkülünün **ümumi əlamətlərindən** biri bundan ibarətdir ki, ikipalatalı parlamentin aşağı palatası və birpalatalı parlament ümumi, bərabər və birbaşa seçki əsasında şəxsi və gizli səsvermə yolu ilə təşkil olunur. Həm ikipalatalı, həm də birpalatalı parlamentlərin səlahiyyəti ölkələrin böyük əksəriyyətində parlamentin ilk iclas günü başlanır və sonuncu iclasda başa çatır. Lakin bu palataların səlahiyyət müddəti bütün ölkələrdə eyni deyildir.

İkipalatalı parlamentin yuxarı palatası birbaşa, bə'zi hallarda isə dolayı yolla yə'ni çoxdərəcəli seçki əsasında təşkil olunur.

Yuxarı palatanın birbaşa seçki əsasında formalaşması ABŞ, İtaliya və s. dövlətlərdə, dolayı yolla təşkili isə Fransa, Hindistan və digər ölkələrdə həyata keçirilir.

İkipalatalı və birpalatalı parlamentdə komitələr yaxud komissiyalar fəaliyyət göstərir. Parlament komissiyaları parlamentin köməkçi orqanlarıdır. Komissiyalar içərisində qanunverici parlament komissiyaları başlıca rol oynayır. Qanunverici parlament komissiyaları **daimi, müvəqqəti və xüsusi formada** olur. **Daimi komissiyalar** yarandığı vaxtdan parlamentin səlahiyyət müddəti başa çatana qədər fəaliyyət göstərir. **Müvəqqəti komissiyalar** öz fəaliyyətini müvafiq parlament qanunvericiliyində nəzərdə tutulan qayda əsasında palataların səlahiyyət vaxtının müxtəlif məqamlarında dayandırır. Xüsusi komissiyaların fəaliyyətini səciyyələndirən cəhət isə peşəkar parlament üzvlərindən təşkil olunmasıdır, başqa sözlə, yüksək səviyyədə ixtisaslaşdırılmış komissiya kimi formalaşmasıdır. Avropa dövlətlərinin əksəriyyətində daimi qanunverici parlament komissiyaları fəaliyyət

göstərir. Reqlamentə görə parlament komissiyaları seçilir. Federativ dövlət formasının mövcud olduğu ölkələrdə ikipalatalılıq mövcuddur. Birpalatalı parlament isə başlıca olaraq unitar dövlətlərdə (Panama, Boliviya, Azərbaycan və s.) təşkil olunur. Bütövlükdə ikipalatalı parlamentin həyata keçirdiyi səlahiyyətlər birpalatalı parlamentə malik ölkələrdə məhz, mövcud vahid palata tərəfindən icra olunur. İkipalatalı parlamentlərin fəaliyyət predmetinə daxil olan məsələlər əvvəl aşağı, sonra isə yuxarı palatada müzakirə olunur və müvafiq qərarlar qəbul edilir. Birpalatalı parlamentdə müzakirə edilən müxtəlif məsələlər isə əvvəl ayrı-ayrı komitələrdə və ya komisiyalarda nəzərdən keçirilir, bundan sonra parlamentin ümumi müzakirəsinə təqdim olunur.

İkipalatalı və birpalatalı parlamentin fəaliyyətinin bu fərqli cəhətləri heç də ikipalatalı parlament sistemində mövcud olan daimi komitələrin və yaxud komiSsiyaların unudulması kimi başa düşülməməlidir.

İkipalatalı parlament sistemi ilə səciyyələnən federativ dövlət formasının spesifik cəhətləri təbii olaraq ikipalatalı parlamentin strukturunda və fəaliyyətində müəyyən özünəməxsusluq doğurur. Federativ dövlət forması kimi səciyyələnən ölkələr mahiyyət e'tibarilə bir tərəfdən vahid dövlət kimi mövcuddur, digər tərəfdən isə federasiya subyektlərinə (ştatlara, əyalətlərə, respublikalara və s.) malikdirlər. Məsələn, hazırda ABŞ-da federasiya subyektləri ştatlardırsa, keçmiş SSRİdə bu subyektlər respublikalardan ibarət idi. Bir sözlə, **Federativ ölkələrin inkişafının** spesifik şəraiti hər iki palatanın - aşağı və yuxarı palataların hər birinin formalaşmasında və iş üsulunda səciyyəvi xüsusiyyətləri şərtləndirir. Məsələn, bütün ölkənin mənafeyini ifadə edən aşağı palatanın deputatı ümumi və birbaşa seçki yolu ilə seçilirsə, federasiya subyektlərinin mənafeyini təmsil edən yuxarı palatanın üzvü seçilə bilər, tə'yin edilir. Federasiyanın bütün subyektləri öz miqyasından (böyük və ya kiçikliyindən), əhalisinin sayından asılı olmayaraq palatanın tərkibində eyni sayda nümayəndə ilə təmsil olunur. Məsələn, ABŞ-da yuxarı palatanın (senatın) tərkibinə hər ştatdan altı il müddətinə iki nəfər senator seçilir. Senatın üçdə bir hissəsi hər

iki ildən sonra təzələnir. Ştatların səfirləri sayılan senatorlar onları seçən ştatlar qarşısında mə'suliyyət daşımırlar. Parlament üzvünün öz seçiciləri qarşısında mə'suliyyət daşımaması Avropanın bir sıra ölkələrində də diqqəti cəlb edir. Yeri gəlmişkən qeyd edək ki, seçicilər qarşısında mə'suliyyət daşımaq hələ ilk parlamentlərin təşəkkül tapdığı vaxtdan mövcuddur. Seçicilər qarşısında mə'suliyyət daşımaq parlamentə malik avropa ölkələrində tarixən deputatın əldə etdiyi "imperativ mandatla şərtlənmişdir. Lakin XVII-XVIII əsrlərdə imperativ mandatın ləğvi ideyası irəli sürülür. Bu ideya ilk dəfə ingilis nəzəriyyəçisi ser **Edvard Kok** tərəfindən onun "İngiltərənin hüquqi tə'sisatı (1630-cu il) kitabında öz əksini tapmışdır, sonralar isə ingilis konstitusiya hüququnun klassiki **Edmund Berk imperativ mandatı** və deputatın hər hansı tə'limata tabe olmasını qətiyyətlə pisləmişdir. Parlament üzvünün öz seçiciləri qarşısında deyil, məhz, bütün millət qarşısında məs'uliyyəti demokratiyanın mahiyyətindən irəli gəlir. Hazırda nəinki ABŞ-da, həm də Avropanın Almaniya, Fransa və İtaliya kimi demokratik ölkələrində **imperativ mandat ləğv edilmiş** və **deputatın tutduğu parlament vəzifəsindən geri çağrılması qadağan olunmuşdur.** Təsadüfi deyil ki, imperativ mandatın ləğvi və deputatın parlamentdən geri çağırılmaması bir sıra avropa ölkələrinin konstitusiyalarında təsbit edilmişdir. AFR-nın konstitusiyasının 38-ci maddəsində qəti şəkildə qeyd olunur ki, "alman bundestaqının deputatı bütün xalqı təmsil edir və buna görə də yalnız öz vicdanına tabedir. Buradan belə bir məntiqi nəticə hasil olur ki, deputatın yerinə yetirdiyi vəzifələr onun əldə etdiyi mandatla deyil, məhz, xalqa sədaqəti ilə şərtlənir. Obrazlı desək, parlament üzvünün vətənə, millətə vicdanla, təmənnasız xidməti onun vətəndaşlıq statusudur.

İkipalatalı parlamentin fəaliyyəti ABŞ-dakı kimi digər federativ dövlətlərdə də özünəməxsusluq kəsb edir. Məsələn, AFRdə yuxarı palata - bundesrat seçilmir. O, alman torpaqlarının hökumət nümayəndələrindən təşkil olunur. Bundesratın təşkilində alman torpaqlarının əhalisi iştirak etmir. Lakin əhalinin sayından asılı olaraq hər bir torpaq sahəsinin bundesratda 35 nümayəndəsi ola bilər. Bundesratın üzvləri torpaqların hökumətləri tərəfindən

tə'yin olunur və lazım gəldikdə geri çağrılır. Bundesrat daim fəaliyyət göstərən orqandır. Konstitusiya qanunları müstəsna olmaqla digər qanunlar bundesratda sadə səs çoxluğu ilə qəbul olunur. Bunlardan heç kəs tərəfindən buraxıla bilməz. O konstitusiyanın və torpaqların sərhədlərinin dəyişdirilməsi, maliyyə, vergi və sair məsələlər üzrə bundestaqın - aşağı palatanın qəbul etdiyi qanunları təsdiqləyir. Əgər bundesrat bu qanunlarla razılaşmazsa o zaman veto hüququndan istifadə edir.

İkipalatalı parlament sistemi **unitar dövlətlərdə** də mövcud ola bilər. Məsələn, İtaliyada parlament iki bərabər hüquqlu palatadan - senatdan (yuxarı palata) və deputatlar palatasından (aşağı palata) ibarətdir. İtaliya parlamentli respublikadır. 1947ci il konstitusiyasına əsasən ölkədə qanunvericilik hakimiyyət funksiyası parlament tərəfindən həyata keçirilir. Palataların iclaslarını aparmaq üçün hər palata öz üzvlərindən sədr (spiker) və rəyasət hey'əti seçir. Respublika prezidenti müxtəlif fəaliyyət sahələrində görkəmli nailiyyətləri ilə fərqlənən və vətənin şöhrətini ucaldan beş nəfər vətəndaşı ömürlük senator seçə bilər. Konstitusiyaya görə parlamentin səlahiyyətinə qanunlar vermək, hökumətin fəaliyyətinə nəzarət, müharibə e'lan etmək, beynəlxalq müqavilələri təsdiqləmək, büdcə haqqında hesabatı təsdiq etmək və s. daxildir. Konstitusiyanın 71-ci maddəsində xalqın qanunvericilik təşəbbüsü təsbit olunmuşdur. Bu isə o deməkdir ki, 50 min nəfərdən ibarət olan seçicilər öz adından qanun layihəsi irəli sürə bilər. Palatalara təqdim olunmuş qanun ləyihəsi ilk növbədə komissiyalarda müzakirə olunur, sonra palataların ümumi iclaslarına göndərilir. Qanunlara palatalarda iki dəfə baxılır və mütləq səs çoxluğu ilə qəbul edilir. Qanun parlamentdə qəbul olunduqdan sonra, prezident tərəfindən imzalanır və quvvəyə minir.

Böyük Britaniyada qanunvericilik hakimiyyəti monarxdan (ölkə başçısından), icma və lordlar palatasından ibarət olan parlamentə məxsusdur. Lakin hazırda ingiltərə parlamentinin, xüsusilə icma palatasının rolu azalaraq əvvəlki əhəmiyyətini itirmişdir. Çünki mühüm siyasi xarakterli məsələlər parlamentin palatalarında deyil, məhz, hökumətin iclaslarında həll olunur.

Parlamentin səlahiyyətləri faktiki olaraq hökumət vasitəsilə həyata keçirilir. Qanunvericilik təşəbbüsü praktiki baxımdan hökumətə məxsusdur. Deputatların qəbul etdiyi hər hansı qanun layihəsi hökumət tərəfindən bəyənilmədikdə qəbul edilmir.

Ali qanunverici orqan olmaq e'tibarilə İngiltərə parlamenti iki palatadan—icma palatası və lordlar palatasından ibarətdir. Majaritar seçki sistemi şəraitində icma palatasının deputatlığına iki əsas partiyadan - mühavizakarların və leyboristlərin nümayəndələri seçilir. Qanuna görə baş nazir parlamentin buraxılmasını kraldan tələb edə bilər. İcma palatasının səlahiyyətinə icraedici orqanların fəaliyyətinə nəzarət, kabinetin hesabatını dinləmək, ona e'timad məsələsini həll etmək və s. vəzifələr aiddir. Əslində isə icma palatası kabinetə deyil, məhz, kabinet icma palatasına nəzarət edir. Hökumət parlamenti buraxmaq səlahiyyətinə malikdir.

Lordlar palatası isə parlamentin imtiyazlı palatası olub varislik hüququ əsasında təşkil olunur. Bu palatanın üzvləri seçilmir (21 per müstəsna olmaqla), varislik qaydasında tə'yin olunur. Lordlar palatasının fəaliyyətinə baş nazirin təqdimi ilə kral tərəfindən tə'yin olunmuş Lord-kansler sədrlik edir. Lord-kansler hökumətin üzvüdür və baş nazirə tabedir.

Qeyd etmək lazımdır ki, mühüm əhəmiyyətə malik qanun layihələrinin üçdə iki hissəsi icma palatası tərəfindən hazırlanıb müzakirəyə təqdim edilir. Qanun layihəsi parlamentdə müzakirə olunduqdan və hər iki palata tərəfindən bəyənildikdən sonra kral tərəfindən təsdiqlənir və o, qanun layihəsinin qüvvəyə mindiyin e'lan edir.

Yaponiya parlamenti iki palatadan ibarətdir: Nümayəndələr palatası və məsləhətçilər palatası. Parlament qəbul etdiyi qərar əsasında öz üzvləri içərisindən baş nazir seçir. Baş nazir isə parlament üzvlərindən dövlət nazirlərini tə'yin edir. Əgər nümayəndələr palatası hökumətə e'timad göstərməmək barədə qərar layihəsi qəbul edərsə və 10 gün müddətində həmin palata hökumət tərəfindən buraxılmazsa belə halda hökumət bütün üzvləri ilə istefa verməlidir.

**Birpalatalı parlamentlər isə unitar dövlətlərdə mövcuddur.** Unitar dövlətlərin özünəməxsus, spesifik inkişaf şəraiti birpalatalı parlament sisteminin mahiyyətində öz əksini

tapır. Unitar dövlət formasının mövcud olduğu ölkələrdə birpalatalı parlamentin nəinki strukturunda və səlahiyyətlərində, həmçinin onun sosial tərkibində və fəaliyyətində ikipalatalılıqla müqayisədə fərqli cəhətlər təzahür edir. Bu baxımdan Finlandiya parlamentinin mahiyyəti və səlahiyyətlərini nəzərdən keçirək.

Finlandiya respublikasının ali qanunvericilik orqanı seymdir. Seym adlanan Finlandiya parlamenti birpalatalıdır. Bu ölkənin konstitusiyasının 2-ci paraqrafında qeyd olunur ki, qanunverici hakimiyyət seym tərəfindən respublika prezidenti ilə birlikdə həyata keçirilir. 1928-ci il yanvarın 13də Seymin təşkili və fəaliyyəti haqqında nizamnamə qəbul olunmuşdur. Seym 200 deputatdan ibarət olub proporsional seçki sistemi ilə 4 il müddətinə seçilir. Seym ildə bir dəfə öz növbəti sesiyasını çağırır. Finlandiya prezidenti seymin fövqəl'adə sesiyasını çağırmaq hüququna malikdir. Seymin səlahiyyətlərinə qanunlar vermək, büdcəni təsdiq etmək, konstitusiyanı dəyişdirmək, hökumətin fəaliyyətinə nəzarət, beynəlxalq müqavilələr bağlamaq və s. daxildir. Seymin hər sesiyasında sədr, iki nəfər sədr müavini və 5 daimi komissiya seçilir. Həmin komissiyalar bunlardır: 1.Konstitusiya komissiyası. 2.Qanunvericilik komissiyası. 3.Xarici işlər komissiyası. 4.Maliyyə komissiyası. 5.Bank işləri komissiyası.

Hər bir komissiya təşkil olunduqdan sonra ən çoxu 2 gün ərzində öz iclasını çağırmalı və seymin ümumi iclası üçün bütün zəruri məsələlərə dair rə'yini hazırlamalıdır. Seymin nizamnaməsinin 66-cı maddəsinə görə qanun layihələri üç oxunuşdan keçməlidir. Üçüncü oxunuşda qanun layihəsi səsə qoyulur. Seym ikinci oxunuşda bəyənilən qanun layihəsini qəbul və ya rədd edə bilər.

Unitar dövlət olan **Azərbaycan Respublikasının Milli Məclisi** də birpalatalıdır. Birpalatalı və ikipalatalı parlamentlər üçün səciyyəvi olan ümumi prinsiplər Azərbaycan Respublikasının Milli Məclisinin strukturunda, sosial tərkibində və səlahiyyətlərində öz əksini tapmışdır. Milli məclis öz təşkilində və fəaliyyətində varislik ən'ənələrini də qoruyub saxlayır. Azərbaycanın parlament tarixi XX əsrin ikinci onilliyinə təsadüf edir. 1918-ci il dekabrın 7-də Azərbaycan Respublikasının parlamenti təşkil olundu. Azərbaycan parlamentinin birinci iclasını Azərbaycan Milli Şurasının sədri **M.Ə.Rəsulzadə** açdı. Parlamentdə təmsil

olunan bütün fraksiyalar bəyannamə ilə çıxış edərək parlamentdə gələcək fəaliyyətlərinə dair öz mövqelərini və proqramlarını e'lan etdilir. Bu və ya digər problemin həllinə müxtəlif mövqedən yanaşmalarına baxmayaraq bütün parlament fraksiyaları bir məsələdə Azərbaycanın müstəqilliyinin qorunması, onun milli-siyasi hüquqlarına sədaqət prinsipində yekdillik nümayiş etdirdilər.

Azərbaycan parlamenti öz fəliyyətinin ilk mərhələsində müxtəlif siyasi partiyaları və qrupları təmsil edən 97 nəfərdən ibarət idi. 1918-ci ilin dekabrında Azərbaycan parlamentində Müsavat 38, İttihad 11, sosialistlər 12, Əhraf (liberal) 10, müstəqillər 9, Daşnaksütyun 7, digər erməni partiyaları 4 və milli azlıqların nümayəndələri 5 deputatla təmsil olunurdu.[1]

Parlamentin ilk tədbirlərindən biri Paris sülh konferansına səlahiyyətli nümayəndə göndərməkdən ibarət idi. Bu nümayəndə hey'əti qarşısında Azərbaycanın müstəqilliyinin Avropa ölkələri tərəfindən tanıdılması vəzifəsi dururdu.

Azərbaycan parlamenti ölkədə müvvəqəti ali qanunvericilik orqanı hesab olunduğundan bir sıra dövlət əhəmiyyətli məsələlər müəssislər məclisində həll edilməli, eləcə də Azərbaycan Demokratik Respublikasının konstitusiyası burada təsdiqlənməli idi. Müəssislər məclisinə seçkilərin əsaslarını hazırlamaq məqsədilə parlamentdə böyük bir komissiya yaradılmışdı. Bu komissiyada bütün fraksiyaların nümayəndələri təmsil olunmuşdu. 1919-cu il iyulun 21də Azərbaycan Respublikasının müəssislər məclisinə seçkilər haqqında əsasnamə qəbul olundu. Əsasnamə 4 fəsil, 116 bənddən ibarət idi. Əsasnaməyə görə müəssislər məclisinə seçkilərdə cinsindən, dinindən, dilindən, milliyyətindən asılı olmayaraq 20 yaşına çatmış bütün Azərbaycan vətəndaşları iştirak edə bilərdilər.[2]

Seçkilərin bərabər, müstəqil və qapalı keçirilməsi, məclisə isə 120 nəfər üzv seçilməsi nəzərdə tutulurdu.

Seçkilər 1920-ci ilin aprelinə tə'yin edilmişdi.

---

[1] Айдын Балаев. Азербайджанское национально-демократическое движение. Баку. Элм. 1990 Səh. 41.

[2] Ətraflı bax: Bəxtiyar Nəcəfov. Azərbaycan Demokratik Respublikası. Bakı, 1992.

Parlament milli əhəmiyyət daşıyan bir sıra qanunlar qəbul etdi. Hərbi mükəlləfiyyət, maarifin təşkili və inkişaf etdirilməsi, vətəndaşlıq haqqında qanun (1919-cu il 11 avqust) xüsusi əhəmiyyətə malik idi. Məsələn, təkcə bunu qeyd etmək kifayətdir ki, parlamentin qəbul etdiyi qanuna görə 1919-1920ci tədris ilində xarici ölkələrə 100 nəfər abituriyent və tələbə e'zam olunmalı idi. İngiltərəyə (10 nəfər), İtaliyaya (23 nəfər), Fransaya (45 nəfər), Türkiyəyə (9 nəfər) və Rusiyaya (13 nəfər) tələbə göndərilməsi nəzərdə tutulurdu.[1] Bir sözlə, Azərbaycanın ilk parlamenti müstəqil Azərbaycan Respublikasının hərtərəfli mənafeyini ifadə edən tarixi qanunlar və qərarlar qəbul etmişdi. Şübhəsiz, ilk parlamentimiz bugünkü müstəqil Azərbaycan Respublikasının ilk Milli məclisinin formalaşmasına özünəməxsus tə'sir göstərmişdir.

Azərbaycan Respublikasının Milli Məclisi 1995-ci il noyabrın 12də keçirilən seçkilərin yekunu əsasında və 1995-ci ildə qəbul olunan Azərbaycan Respublikasının Milli Məclisinə seçkilər haqqında Azərbaycan Respublikasının qanununa müvafiq olaraq təşkil edilmişdir. Seçki haqqında qanunda deyilir: "Azərbaycan Respublikasının ali qanunverici hakimiyyəti orqanı olan Azərbaycan Respublikası Milli Məclisini Azərbaycan Respubliuasının vətəndaşları bu Qanunla müəyyən edilmiş qaydada majoritar və proporsional seçki sistemləri, ümumi, bərabər, birbaşa seçki hüququ əsasında sərbəst, şəxsi və gizli səsvermə yolu ilə seçirlər.[2]

Seçki haqqında qanunda Milli Məclisin tərkibi, səlahiyyət müddəti və seçki hüququ barədə xüsusi maddələr öz əksini tapmışdır. Azərbaycan Respublikasının Milli Məclisi 125 deputatdan ibarətdir. Onun səlahiyyət müddəti 5 ildir. Milli Məclisin səlahiyyətləri onun ilk iclası günü başlanır və son iclas günü başa çatır. Milli Məclisin deputatlarının səlahiyyətləri yalnız Milli Məclisin səlahiyyəti müddətində qüvvədədir. Seçkilər günü 25 yaşı tamam olan və yaşı 25-dən çox olan Azərbaycan Respublikasının vətəndaşları Milli Məclisə deputat seçilə bilərlər.

---

[1] Bəxtiyar Nəcəfov. Azərbaycan Demokratik Respublikası. Səh. 30.

[2] Azərbaycan Respublikasının Milli Məclisinə seçkilər haqqında Azərbaycan Respublikasının qanunu. Bakı, 1995 Səh. 3.

Milli Məclisin qanunvericilik səlahiyyəti Azərbaycan Respublikası Konstitusiyasının 81-ci maddəsində təsbit edilmişdir.[1]

Milli Məclis deputatlarının əksəriyyəti Yeni Azərbaycan Partiyasının üzvləridir. Bununla yanaşı Milli Məclisdə digər partiyaların nümayəndələri də təmsil olunmuşdur. Azərbaycan Respublikasının Milli Məclisində 11 daimi komissiya fəaliyyət göstərir. Bu komissiyalar aşağıdakılardır:

1.Hüquq siyasəti və dövlət quruculuğu məsələləri daimi komissiyası.

2. Büdcə məsələləri daimi komissiyası.

3. İqtisadi siyasət daimi komissiyası.

4. Təbii ehtiyatlar, energetika və ekologiya məsələləri daimi komissiyası.

5. Aqrar siyasət daimi komissiyası.

6. Sosial siyasət daimi komissiyası.

7. Yerli özünüidarə məsələləri daimi komissiyası.

8. Elm və təhsil məsələləri daimi komissiyası.

9. Mədəniyyət məsələləri daimi komissiyası.

10. İnsan hüquqları daimi komissiyası.

11.Beynəlxalq münasibətlər və parlamentlərarası daimi komissiyası.

Qanun layihələri iki yolla - Milli Məclis və Prezident Aparatı tərəfindən hazırlanır. Milli Məclisin təşəbbüsü əsasında hazırlanan qanun layihələri onun daimi komissiyalarında işlənir, müzakirə olunur və bundan sonra Milli Məclisin müzakirəsinə təqdim edilir. Milli Məclisin hazırladığı qanun layihələrinin özü də iki yolla işlənir. Birincisi, Milli Məclisin perspektiv iş planı əsasında hazırlanan qanun layihələridir. İkincisi isə zəruri hallarda deputatların təşəbbüsü ilə və daimi komissiyalar tərəfindən işlənib hazırlanan qanunlardır.

Prezident aparatı tərəfindən təqdim edilən qanun layihələri də Milli Məclisdə müzakirə ediləndən sonra qəbul olunur. Milli Məclis tərəfindən qəbul edilən qanun prezident tərəfindən geri qaytarıla bilər.

---

[1] Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, 1996. Səh.25.

## 3. PARLAMENT PARTİYALARI

Parlament partiyalarının mahiyyətini səciyyələndirən başlıca cəhət bundan ibarətdir ki, onlar öz işini məhz, parlament çərçivəsində həyata keçirirlər. Klassik parlament partiyalarının fəaliyyəti nümayəndəli sistemin yüksək nüfuza malik olduğu ölkələrdə mövcuddur. Bununla yanaşı müəyyən ölkələrin siyasi praktikasında partiyalı və nümayəndəli sistemin müxtəlif formada bir-birinə qarşılıqlı nüfuz etməsinə də təsadüf olunur. Məsələn, bə'zi hallarda dövlət strukturları partiya strukturlarını tamamilə özünə tabe edir. Belə cəhət hətta birpartiyalı sistem şəraitində nəzərə çarpır. Digər halda isə partiya dövləti özünə tabe edir. Bu tabelik sosial həyatın müxtəlif sferalarında (siyasi, iqtisadi və ideoloji) özünü göstərir.

Klassik parlament partiyaları ABŞ, Böyük Britaniya və digər ölkələrdə fəaliyyət göstərir. ABŞ-da həmin partiyalar respublikaçılar və demokratlar, Böyük Britaniyada isə mühafizəkarlar və leyboristlər partiyalarıdır. ABŞ-da ikipartiyalılıq sistemi Amerika burjua inqilabı dövründə təşəkkül tapmışdır. Demokratlar partiyası 1824-cü ildə, respublikaçılar partiyası isə 1854-cü ildə təşkil olunmuşdur. 1865-ci ildə Amerikada vətəndaş müharibəsi dövründə demokratlar partiyası quldarlığın, respublikaçılar partiyası isə burjuaziyanın mənafeyini müdafiə edirdi. Vətəndaş müharibəsi qurtardıqdan sonra bu partiyalar arasındakı köklü fərq aradan qalxdı.

Artıq yüz ildən çoxdur ki, respublikaçılar və demokratlar partiyası növbə ilə hakimiyyətdə bir-birini əvəz edir. Hər iki partiya hazırda əhalinin təxminən eyni sosial təbəqələri tərəfindən müdafiə edilir.

İngiltərədə xeyli onilliklər ərzində parlamentə seçkilərdə yalnız iki partiya-mühavizəkarlar və leyboristlər qalib gəlir. Heç də təsadüfi deyil ki, Şotlandiyanın və Uelsin milli partiyalarını təmsil edən fəal qruplar dəfələrlə mühafizakarların və leyboristlərin hakimiyyətdə üstünlük təşkil etməsinin qarşısını almağa cəhd etmiş lakin buna nail olmamışlar. İngiltərədə 1941, 1948 və 1949-cu illərdə qüvvəyə minən seçki qanununa əsasən majoritar seçki sistemi şəraitində icma palatasının deputatlığına məhz, mühafizəkarlar və leyboristlər partiyasının nümayəndələri seçilir.

İcma palatasında hər iki partiyanın öz fraksiyası və rəhbər orqanları vardır. Parlamentli ölkələrdə bir qayda olaraq partiya intizamı o dərəcədə möhkəm olur ki, fraksiya çoxluğu tamamilə hökumətə tabe vəziyyətdə fəaliyyət göstərir. Deputat müzakirədən əvvəl, öz fraksiya liderindən göstəriş alır və bu göstərişə uyğun olaraq lideri ilə həmrəy şəkildə iş aparır. Nəticə e'tibarilə təbii olaraq fraksiya çoxluğu hökumətə itaət edən qüvvəyə çevrilir. Bu qayda elə ölkələrdə qabarıq nəzərə çarpır ki, parlamentdə bu və ya digər partiya hakim mövqeyə malikdir, (məsələn, İngiltərədə mühafizəkarlar və ya leyboristlər, Yeni Zelandiyada millətçilər, Yaponiyada liberal-demokratik partiyalar və s.).

Parlamentli respublikalarda parlamentdə yerlərin çoxunu əldə edən partiya hökuməti təşkil etmək hüququ qazanır. Parlamentin daxilində bu və ya digər partiyadan partiya qrupları-deputat fraksiyaları yaradılır. Fraksiya nümayəndələri nəzərdə tutulan qanunvericilik iclası üçün gündəlik işləyib hazırlayır, parlamentin spikerin və daimi fəaliyyət göstərən parlament komissiyalarının sədrlərini tə'yin edirlər.

Partiyalar qanunverici orqanda fraksiyalar, hökumətdə isə nümayəndələri vasitəsilə siyasi qərarların qəbul olunmasının və həyata keçirilməsinin iştirakçıları kimi səciyyələnirlər.

Prezidentli respublikalarda isə partiya intizamı zəifdir və partiya fraksiyaları daha azad fəaliyyət göstərirlər. Prezidentli respublikalarda mə'suliyyətli və geniş səlahiyyətlərə malik hökumət tə'sisatı olmadığından icraedici orqanın formalaşması parlamentin fəaliyyətindən kənarda baş verir.

Belə bir sual ortaya çıxır: parlamentdə partiya nümayəndəsi kimi təmsil olunan deputat heç kimlə və heç nə ilə hesablaşmadan azad fəaliyyət göstərmək imkanına malikdirmi? Bu suala cavab vermək üçün aşağıdakı **üç cəhəti** düzgün dərk edib qiymətləndirmək vacibdir:

**Birincisi,** parlamentin üzvü bu və ya digər partiyanı təmsil edir. O, hətta müstəqil namizəd kimi deputat seçiləndə belə partiya mənsubiyyəti mövqeyində durur. Bu baxımdan deputat onun parlamentə seçilməsinə imkan yaradan partiyaya bilavasitə bağlıdır və partiya intizamına tabedir. Deputatın parlamentdə gündəlik fəaliyyəti onun mənsub olduğu partiyanın fəaliyyət proqramı ilə

şərtlənir. Digər tərəfdən isə deputat təmsil etdiyi partiyanın liderinin və fraksiya rəhbərinin göstərişləri əsasında hərəkət edir. **İkincisi,** parlament üzvü həmişə müəyyən qruplardan maliyyə yardımı alır. İngiltərədə belə deputatlar **"subsidor namizəd"**, yə'ni maddi yardım edilən parlament üzvü adlandırılır. Yeri gəlmişkən qeyd edək ki, deputatların "maliyyələşdirilməsi praktikası bütün avropa ölkələrində və xüsusilə ABŞ-da geniş yayılmışdır.

İnkişaf etmiş demokratik dövlətlərdə parlament üzvünün əmək haqqı da yüksəkdir. Məsələn, ABŞ konqresinin hər iki palatasının üzvləri 1991-ci il yanvarın 1dən e'tibarən ildə 120 min dollar maaş alır. Müqayisə üçün qeyd edək ki, ABŞ prezidentinin illik maaşı isə 200 min dollardır. Lakin bu ölkədə ən yüksək maaş amerika korporasiyalarının maliyyə şö'bələrinin rəhbərlərinə verilir. 1989-cu ildə həmin rəhbər işçilər orta hesablı 344 min dollar əmək haqqı almışlar.

Ümumiyyətlə, Avropa ölkələrinin və ABŞ-ın parlamentində yalnız o adamlar nisbi müstəqillik mövqeyindən çıxış edə bilir ki, deputat seçilmək üçün özünü maliyyələşdirməyə qadirdir. **Üçüncüsü,** hər hansı demokratik ölkədə parlament üzvünün öz seçki dairəsindən asılılığı, deputatla onun seçiciləri arasında az-çox əlaqə həmişə mövcuddur. Deputatın mandatının taleyi son nəticədə seçicilərin rə'yi və iradəsi ilə həll olunur. Buna görə hər bir partiya və deputat mənsub olduğu seçki dairəsində öz mövqeyini nəinki saxlamağa, hətta möhkəmləndirməyə daim maraq göstərir.

Seçicilərin kütləvi müdafiəsi olmadan heç bir partiya deputatlığa namizəd irəli sürdüyü şəxsin parlament üzvlüyünə seçilməsinə nail ola bilməz. Məsələn, uzun müddət parlament seçkilərində qələbə qazanan Yaponiya liberal-demokrat partiyası 1993-cü ilin seçkilərində məğlubiyyətə uğradı. Belə uğursuzluq, 1955-ci ildən sonrakı dövr ərzində liberal-demokratların ilk məğlubiyyətidir. Bunun əksini isə digər partiyaların nümunəsində qeyd etmək olar. Bu mənada Türkiyədə 2002-ci ildə Ərdoğanın başçılıq etdiyi Ədalət partiyasının seçkilərdə qələbəsi səciyyəvidir.

Yaponiyanın liberal-demokrat partiyasının uğursuzluğuna başlıca səbəb həmin partiyanın rəhbərliyində **üzə çıxan rüşvətxorluqla bağlı** seçicilərin liberal demokratlara e'timad göstərməməsi idi. Nəticə e'tibarilə ölkənin baş naziri **K.Tanaka**

istefa verməyə məcbur oldu və 1993-cü ilin parlament seçkilərində öz namizədliyini qeyri-partiya xətti ilə qızına həvalə etdi.

Qanunvericilik fəaliyyətində və dövlət qərarlarının qəbul olunması prosesində partiyaların bilavasitə iştirakı say e'tibarilə eyni deyildir. Məsələn, Fransada seçki kampaniyasında 20-dən çox partiya təmsil olunsa da cəmiyyətin idarə olunmasında bir-iki partiya iştirak edir. Lakin avropa ölkələrində partiyalar öz siyasi və ideoloji simasını saxlamaqda davam edirlər.

Parlament partiyaları seçkilərdə daha çox mandat (deputat yeri) əldə etməyə çalışırlar. Bu məqsədə nail olmaq parlament partiyalarına imkan verir ki, onlar hökumətin formalaşmasını bilavasitə tə'min etsinlər və öz siyasətini həm parlament və eləcə də hökumət vasitəsilə həyata keçirsinlər. Seçki kampaniyasının başa çatması ilə parlament partiyalarının fəaliyyəti praktiki olaraq dayanır. Nizamnaməyə və ən'ənəyə uyğun olaraq deputatlara müxtəlif səviyyələrdə bütün məsələlərin, o cümlədən partiya daxili problemlərin həlli üçün geniş səlahiyyətlər verilir. Partiya lideri parlament qrupu tərəfindən seçilir və onun qarşısında mə'suliyyət daşıyır. **Bu tipli parlament partiyaları əksər hallarda ciddi mərkəzçilik prinsipi əsasında təşkil olunur.** Son illər onların fəaliyyətində obyektiv proseslərin proqnozlaşdırılmasına böyük diqqət yetirmək və həyata keçirəcəkləri siyasətin planlaşdırılması meyli təzahür edir. Lakin bu fəaliyyət bir qayda olaraq partiyanın nizamnamə orqanları tərəfindən deyil, müxtəlif xüsusi klublar, qruplar, assosiasiyalar, ixtisaslaşdırılmış politoloji firmalar və s. vasitəsilə həyata keçirilir.

Parlament partiyalarının **ikinci başlıca tipinə** elə partiyalar aiddir ki, olar parlamentdə aparılan işə siyasi fəaliyyətin istiqamətlərindən biri kimi baxırlar. Bu tipli partiyaların təşkilatlarını fərqləndirən cəhət odur ki, onlar daimi və nisbi sabitlik kəsb edən üzvlüyə malikdirlər, digər tərəfdən isə həmkarlar taşkilatı və başqa kütləvi təşkilatlar parlament partiyaları ilə əməkdaşlıq edir və öz fəaliyyətini bu partiyaların işi ilə əlaqələndirirlər. İkinci tipə aid olan partiyalar deputat korpusu ilə az bağlıdır. Lakin həmin partiyaların parlament fraksiyaları partiyanın fəaliyyətində fəal iştirak edir və onların apardığı işdə mühüm rol oynayırlar. Sırf partiya orqanları daha geniş hüquqlara -

komitələr təşkil etmək, yığıncaqlar, konfranslar və qurultaylar keçirmək səlahiyyətlərinə malikdirlər. Seçki kompaniyalarının yekunları partiyanın yeritdiyi siyasətin və kadr seçkisinin başlıca me'yarı kimi qiymətləndirilir. Seçkilərdə məğlubiyyət siyasətdə və siyasi rəhbər heyətdə dəyişikliklər aparılmasına səbəb olur.

İkinci tipə aid olan parlament partiyalarının bə'zisi **üç müxtəlif zəmində—partiya strukturu, deputat korpusu, həmkarlar və digər kütləvi təşkilatlar** əsasında formalaşır. 70-80cı illərdə bu tipli partiyalarda parlament qrupunun ziyanına partiya strukturunun rolu nisbətən güclənmişdir. Beynəlxalq inteqrasiya həmin partiyaları qərarların işlənib hazırlanması prosesinin səmərəliliyini daha da artırmağa, öz fəaliyyətində köhnə məhdud çərçivəni və ən'ənəvi praqmatizmi aradan qaldırmağa vadar etmişdir.

Parlament partiyalarının **üçüncü tipinə** parlament fəaliyyətinə ikinci dərəcəli iş istiqaməti kimi baxan partiyalar daxildir. Bu tipli partiyalar kommunist partiyalarıdır.

Hazırda qərbi avropada kommunist partiyaları ikinci dünya müharibəsindən sonra əldə etdiyi parlament nümayəndəliyindən məhrum olmuşlar.

Nəhayət, **antiparlament** (parlament əleyhinə olan) **partiyalar da** mövcuddur. Belə partiyalar parlamentdə fəaliyyət göstərməkdən prinsipial surətdə imtina edir və hətta seçkilərdə iştirak etməyi bə'zi ideallara xəyanət kimi qiymətləndirirlər. Bu tipli partiyalara spontanekist təşkilatlar (1968-ci ilin mayında Fransada yaranmışdır), Almaniyada müəyyən mərhələlərdə "yaşıllar və sair daxildir.

Parlament partiyalarının strukturunun seçki sistemi vasitəsilə formalaşması müxtəlif ölkələrdə özünəməxsus xüsusiyyətlər kəsb edir. ABŞ-da seçki sisteminin başlıca xüsusiyyəti seçki strukturunun ikipilləli olmasıdır. İlk seçkilərdə hər bir partiya necə deyərlər "namizədini namizədliyə irəli sürür. Seçkilərdə iştirak etməyi arzu edənlərin hamısı səsverməyə cəlb olunur. Xüsusi seçkilərə isə hər iki partiyanın ən çox səs toplayan namizədləri irəli sürülür. Amerika seçki sisteminin digər səciyyəvi xüsusiyyəti personallaşmasıdır. Hər bir seçici nəinki deputat seçilmək üçün hansı namizə-

də, həm də hansı prezidentə səs verdiyini bilir. Özü də seçkilər bir gün ərzində keçirilir.

İngiltərədə seçki sistemi isə amerika seçki modelindən fərqlənir. Belə ki, mühafizəkarlar partiyasının strukturu ciddi seçki prinsipləri əsasında formalaşır. Seçki dairəsinin Assosiasiyası başlıca həlqə hesab olunur. Assosiasiyaların sayı seçki dairələrinin sayına uyğun gəlir. Deputat və ya deputatlığa namizəd hər il Assosiasiya qarşısında hesabat verir. Seçkiqabağı iş aparmaq məqsədilə müxtəlif köməkçi komitələr - maliyyə, qadın, siyasi maarif, həmkarlar, yerli özünüidarə və təbliğat komitələri yaradılır. Assosiasiya mərkəzlə razılıq əsasında namizədlər irəli sürür. Seçkiqabağı praktiki iş hər bir seçki məntəqəsi nəzdində fəaliyyət göstərən özəklər tərəfindən həyata keçirilir. Özəklər "bloklara, başqa sözlə, qruplara bölünür. Bu bloklar evlərdə fəaliyyət göstərən qruplara uyğun gəlir. Partiyanın ev qruplarındakı üzvləri mərkəzdən tə'yin olunan fəallar tərəfindən vahid şəkildə birləşir və iş aparır. Başqa sözlə, müvafiq ədəbiyyatları yayır, söhbətlər keçirir, partiya mitinqləri və seçkiqabağı kompaniyalar təşkil edirlər. Bir qayda olaraq mühafizakarlar partiyasındakı fəallar yerli dükançılar, xırda sənayeçilər və dövlət mə'murları hesabına təşəkkül tapır. İngiltərədə parlament strukturları və partiya strukturları arasındakı sıx əlaqə həm də mərkəz səviyyəsində həll olunur. Belə ki, mühafizəkarlar partiyasının ildə bir dəfə çağrılan konfransı partiyanın işini qiymətləndirir, onun siyasətinə və təşkilat məsələsinə dair qətnamə qəbul edir. Konfransın tərkibi maraq doğurur. Tərkibə lordlar və icma palatasındakı bütün deputatlar, mühafizəkarların iclasında seçilən partiya lideri, qarşıdakı seçkilərdə namizədliyi nəzərdə tutulan şəxslər və icraiyyə komitəsinin üzvləri, partiyanın digər mə'suliyyətli işçiləri, hər bir Assosiasiyadan yeddi nümayəndə, hər iki palatanın parlament fraksiyasının üzvləri və başqaları daxildir. Əlamətdar haldır ki, deputatlar və deputatlığa namizədlər bu partiyada rəsmi status alır və ali orqanda nümayəndəliyə malik olmaq hüququ əldə edirlər.

Mühafizəkarlar partiyasında konfransla yanaşı partiya liderinin məsləhətçi orqanı olan Mərkəzi şura fəaliyyət göstərir. Bu şurada nümayəndəlik arasında lordlar palatasının bütün üzvləri iclas aparmaq hüququna malikdirlər.

Şuranın iclaslararası dövründə fəaliyyət göstərən icraiyyə komitəsində bütün parlament fraksiyaları təmsil olunur. Partiyanın İcraiyyə komitəsinin mühüm bölmələrindən biri parlamentə namizədlər məsələsi üzrə fəaliyyət göstərən daimi məsləhət komitəsidir. Komitənin funksiyalarından ən mühümü bu və ya digər şəxsin parlament üzvlüyünə namizədliyinin mümkünlüyünü diqqətlə öyrənməkdir. Komitədə həmçinin, partiyanın parlament təşkilatçıları geniş təmsil olunmuşdur.

Mühavizəkarlar partiyasının rəhbər orqanı partiya liderinin nəzarətində olan Mərkəzi bürodur. Büronun ən mühüm orqanlarından biri isə partiyanın parlament fraksiyasının katibliyinin funksiyasını yerinə yetirən tədqiqatçılıq şö'bəsidir. Mühafizəkarlar partiyasının parlament fraksiyası, deputatlar və hətta deputatlığa namizədlər partiyanın siyasətinə bütün səviyyələrdə tə'sir göstərir və bunun həyata keçirilməsinə nəzarət edirlər. Mahiyyət e'tibarilə partiya deputatların parlament fəaliyyəti üçün köməkçi qüvvə kimi nəzərə çarpır.

Böyük Britaniyanın leyboristlər partiyası isə parlamentdə tred-yunionların mənafeyini təmsil etmək məqsədilə yaradılmışdır. Parlament fraksiyası bu partiyada da həmişə böyük rol oynamışdır. Lakin bu nüfuz 70-ci illərdə kəskin partiyadaxili mübarizə nəticəsində xeyli azaldılmışdır. Partiyanın fəaliyyətinə dair başlıca məsələlər **"üçlük" səviyyəsində: partiya təşkilatlarının nümayəndələri, həmkarlar və sonra isə parlament fraksiyaları** tərəfindən həll olunur. Leyboristlərin parlament funksiyası hökumətə qarşı çıxış edə bilməz. Çünki o, hökumətə nəzarət edir. Nazirlər kabinetinin özü parlament fraksiyası tərəfindən tə'yin olunur. Fraksiya tərəfindən seçilən və müxalifət mövqeyində duran partiya lideri həm də fraksiyanın sədri hesab edilir. Lider qələbə qazandıqda baş nazir seçilir.

Böyük Britaniyanın leyboristlər partiyasının ali orqanı hər il çağrılan konfrans hesab olunur. Həmin konfransın nümayəndələrinin tərkibini partiya, həmkarlar və bunlara qoşulan digər təşkilatların üzvləri, həmçinin vəzifəsindən asılı olaraq parlament deputatları təşkil edirlər. Konfransda deputatların səsi həlledici olmasa da onlar böyük tə'sir gücünə malikdirlər. Konfransda

İcraiyyə komitəsi seçilir. Bu komitə parlamentlə və yerli seçkilərlə bağlı olan məsələlərə xüsusi diqqət yetirir.

Mühafizəkarlar və leyboristlər partiyasına xas olan parlament fəaliyyətinin xüsusiyyətləri kontinental avropa partiyalarının çoxuna xasdır. Bu partiyaların, məsələn, sağların və eləcə də sosial-demokratların strukturunun formalaşması və fəaliyyət meyli ciddi və dəqiq prinsiplərə əsaslanır. Sağlar və sosial-demokratlar seçki dairələrinin və məntəqələrinin prinsipləri üzrə təşkil olunurlar. Bu tipli partiyalara üzv olmaq kütləvi xarakter daşımır. Maraqlıdır ki, partiya üzvləri əsasən deputatlardan və seçki kompaniyalarının fəallarından ibarətdir.

# XVII FƏSİL

## SİYASİ ŞÜUR VƏ SİYASİ MƏDƏNİYYƏT

### 1. SİYASİ ŞÜURUN MAHİYYƏTİ

Siyasi mədəniyyət ümumi mədəniyyət anlayışının komponentlərindən biridir. Mədəniyyət anlayışının digər tərəfləri isə maddi və mə'nəvi mədəniyyətdir. Siyasi mədəniyyətin məzmunu və strukturu barədə əhatəli və düzgün təsəvvürə yiyələnmək üçün "mədəniyyət anlayışının, xüsusilə mə'nəvi mədəniyyətin mahiyyətinin qısa təhlili məqsədəuyğundur.

İctimai inkişafın hər bir müəyyən konkret mərhələsi mədəniyyətin yeni tarixi tipini doğurur. Cəmiyyətin tarixi inkişaf mərhələləri yeniləşdikcə mədəniyyətin məzmunu da dəyişir və təkmilləşir. Mədəni tərəqqi prosesi yalnız maddi və mə'nəvi sərvətlərin toplanması mə'nasında başa düşülməməlidir. Bu proses həm də bəşər mədəniyyətinin irəliyə doğru inkişafı, adamların tarixən təşəkkül tapan mə'nəvi fəaliyyətinin təkmilləşməsi və yetkinləşməsi kimi çıxış edir. Adamların mə'nəvi fəaliyyətinin nəticələrini əhatə edən mə'nəvi mədəniyyət maddi mədəniyyətlə əlaqə daşıyır. Mədəniyyətdə ictimai həyatın zənginliyi ifadə olunur.[1]

**Mədəniyyət ictimai tələbatı ödəmək üçün əsrlər boyu bəşəriyyət tərəfindən yaradılan və yaradılmaqda olan maddi və mə'nəvi sərvətlərin dəyərlərin məcmuudur.** Lakin mədəniyyət yalnız insanların fəliyyətinin nəticəsi deyil, o həm də əməli dəyişdirici fəaliyyət prosesidir. Tədqiqatçılar mə'nəvi mədəniyyəti müxtəlif mövqedən qiymətləndirirlər. Məsələn, mədəniyyət probleminin görkəmli tədqiqatçılarından biri olan **A.İ.Arnoldov** mə'nəvi mədəniyyəti konkret tarixi inkişaf kəsb edən mə'nəvi sərvətlər sistemi, cəmiyyətin mə'nəvi potensialı,

---

[1] Б.С. Ерасов. Социальная культурология. М., 2000, Səh. 9.

insanların yaradıcılıq prosesi və adamlar arasında müəyyən münasibətlərin ifadəsi kimi nəzərdən keçirir.[1] **M.S.Kaqan** mədəniyyəti insanların fəaliyyəti nəticəsində meydana çıxan hadisə, mə'nəvi mədəniyyəti isə onun tərkib hissəsi kimi təhlil edir.[2] Əlbəttə, mədəniyyət spesifik mə'nəvi fəaliyyətin məhsulu olmaq e'tibarilə son nəticədə mə'nəvi xarakter daşıyır.

Bütövlükdə mədəniyyət yalnız maddi və mə'nəvi sərvətlərin məcmuu olmadığı kimi, mə'nəvi mədəniyyət də ancaq mə'nəvi sərvətlərin toplusundan ibarət deyildir. **Mə'nəvi mədəniyyət nainki yaradılan və yaradılmaqda olan mə'nəvi sərvətlərin məcmuunu və istehsalını, mövcud cəmiyyətin əvvəlki inkişaf mərhələsindən mədəni irs kimi saxladığı sərvətləri, həmçinin, mə'nəvi sərvətlərin yayılması və isteh-lakını ehtiva edir, mədəniyyət müəssisələrini, təhsil sistemini və kütləvi informasiya vasitələrini özündə birləşdirir.** Mədəniyyət müəssisələri və kütləvi informasiya vasitələri mə'nəvi mədəniyyətin istehsalı, yayılması və saxlanmasında mühüm rol oynayırlar.

G.A.**Baller** haqlı olaraq qeyd edir ki, "...mədəniyyət yalnız maddi və mə'nəvi sərvətləri deyil, həm də bəşər tarixinin hər bir mərhələsi üçün səciyyəvi olan mədəniyyətin yaradılması və istifadə olunması metodunu, müəyyən əmək vərdişlərini, təhsil ən'ənələrini, eləcə də yaradılan sərvətlərin yayılması və mübadiləsinin təşkili formalarını, onların saxlanmasını və s. əhatə edir.[3]

Mə'nəvi mədəniyyət bu və ya digər dərəcədə ictimai həyatın bütün sferalarında nəzərə çarpır. Lakin **mə'nəvi mədəniyyət daha əhatəli, geniş və çoxcəhətli şəkildə mə'nəvi həyat sferasında öz əksini tapır.** "Mə'nəvi mədəniyyət cəmiyyətin mə'nəvi həyatının inkişaf etməkdə olan keyfiyyətcə müəyyən tipi kimi çıxış edir.[4]

Mə'nəvi mədəniyyət həmçinin bu və ya digər sosial sistemdə formalaşan şəxsiyyətin mə'nəvi aləmini də şərtləndirir. Hər bir cəmiyyətin mə'nəvi həyatı həmin cəmiyyətdə mə'nəvi

---

[1] Арнольдов А.И.Культура и современность. М., 1973, Səh.7.
[2] Каган М.С.Человеческая деятельность. М., 1974, Səh.185.
[3] Э.А.Баллер. Коммунизм. Культура. Человек. М. 1979. Səh.21.
[4] Яковлев Б.Д. Методологические проблемы исследования истории социалистической духовной культуры. Л. 1978.Səh.23.

mədəniyyətin inkişaf dərəcəsi və nailiyyətləri ilə səciyyələnir. Mə'nəvi mədəniyyət mə'nəvi həyatın bütün mədəni nəticələrini özündə birləşdirir. Deməli, "mə'nəvi həyat və "mə'nəvi mədəniyyət anlayışları bir-birinin sinonimi kimi çıxış etmir. Mə'nəvi həyat daha geniş anlayışdır, mə'nəvi mədəniyyət onun çox mühüm tərəflərindən biridir. Həmin anlayışlar ümumi məzmununa görə bir-birinə uyğun gəlsələr də **mədəniyyət mə'nəvi həyatdan sistemliliyi, nizama salınmış strukturu, tərtibatı və normaya düşmüş vəziyyəti ilə fərqlənir.**

İnsanın mədəni-tarixi prosesin subyekti kimi fəaliyyət göstərməsinə bir tərəfdən cəmiyyətin inkişafına istiqamətlənən hadisə kimi, digər tərəfdən isə hər bir fərdin özünün mə'nəvi aləminin formalaşmasını və təkmilləşməsini şərtləndirən xüsusiyyət baxımdan diqqət yetirilməlidir.

Mürəkkəb ictimai fenomen olan mə'nəvi mədəniyyətin təhlilinə birtərəfli deyil, kompleks yanaşmaq tələb olunur. **Mə'nəvi mədəniyyət mə'nəvi sərvətlərin, ideyaların, biliklərin, görüşlərin, əxlaqi və fəlsəfi sərvətlərin, təhsilin, elmin, incəsənətin və sairənin məcmuudur.** Mə'nəvi mədəniyyət ideyaların, görüşlərin mexaniki məcmuu kimi çıxış etmir. O, həm də şəxsiyyətin düşüncə tərzinin, təfəkkür mədəniyyətinin, əməli davranışının formalaşmasında mühüm rol oynayır.

Cəmiyyətin mə'nəvi mədəniyyəti onun mə'nəvi həyatı ilə qırılmaz əlaqə kəsb edir və bir-biri ilə qarşılıqlı tə'sirə malikdir. Mə'nəvi mədəniyyət nə qədər çox inkişaf etmiş olarsa, mə'nəvi həyat da bir o qədər zəngin olar. Eyni zamanda mə'nəvi həyatın inkişafı mə'nəvi mədəniyyəti zənginləşdirir. Bir sözlə mədəniyyət insanın fəaliyyətinin komponentidir, onun həyatının müxtəlif tərəflərini təmin edən fəaliyyət sisteminin tərkib hissəsi və şərtidir.[1]

Ümumi mədəniyyət anlayışına aid olan mə'nəvi mədəniyyətlə yanaşı siyasi mədəniyyət də mə'nəvi həyat hadisəsidir. Mə'nəvi həyatın bütövlüyünü və zənginliyini tə'min edən amillər sırasında **siyasi mədəniyyət** spesifik yer tutur.

Ümumbəşəri mədəniyyətin tərkib hissəsi olmaq e'tibarilə siyasi mədəniyyət haqqında ilk təsəvvür hələ antik şərq

---

[1] Б.С.Ерасов. Социальная культурология. М., 2000. Səh. 8.

ölkələrində, Yunanıstanda və Romada meydana gəlmişdir. Qədim Çinin mütəfəkkir filosofu **Konfutsi**, antik Yunanıstan fəlsəfi fikrinin ensiklopedik zəka sahibləri **Platon**, **Aristotel** və başqaları siyasi mədəniyyətin məzmunu və bə'zi ünsürləri barədə maraqlı fikirlər söyləmişlər. "Siyasi mədəniyyət terminini elmi ədəbiyyata ilk dəfə XVIII əsrdə alman filosofu **İ.Herder** gətirmişdir. Bununla belə siyasi mədəniyyətlə bağlı olan siyasi hadisələr haqqında nəzəriyyə məhz, XX əsrin ortalarında təşəkkül tapmışdır. Siyasi mədəniyyət nəzəriyyəsinə sanballı elmi töhvə amerika alimləri **Almond**, **Verba**, ingilis **Rouz**, alman tədqiqatçısı **fon Boyme**, fransız nəzəriyyəçisi **Dyuverje** və başqaları tərəfindən bəxş edilmişdir. **Siyasi mədəniyyət termini siyasi elmin kateqoriyası kimi** qərb ədəbiyyatında ilk dəfə amerika politoloqu Almond tərəfindən istifadə olunmuşdur. Bu politoloqun fikrincə, siyasi mədəniyyət hər bir siyasi sistemin spesifikliyini əks etdirən siyasi fəaliyyət istiqamətinin xüsusi tipidir.

Siyasi mədəniyyət probleminə dair ən əhəmiyyətli fikirlər amerika politoloqları **Almond** və **Verbanın** "Vətəndaş mədəniyyəti kitabında irəli sürülmüşdür. Bu kitabda qeyd olunur ki, "siyasi mədəniyyət mövcud sosial sistemin üzvlərinin fərdi mövqelərinin və fəaliyyət istiqamətlərinin məcmuudur, siyasi fəaliyyətin əsasını təşkil edən və həmin fəaliyyəti mə'nalandıran subyektiv sferadır. Fərdi fəaliyyət istiqamətləri özündə bir sıra ünsürləri, ilk növbədə idraki fəaliyyət istiqamətini ehtiva edir. Başqa sözlə, o, siyasi obyektlər və ideyalar haqqında dürüst və yanlış bilikləri, siyasi obyektlər barədə mülahizə və rəyləri əks etdirir.[1] Ümumiyyətlə, Almond və Verbanın fikrincə, eləcə də bə'zi digər tədqiqatçıların mülahizəsinə görə siyasi mədəniyyət özündə mə'nəvi həyatın elə ünsürlərini təcəssüm etdirir ki, bunlar siyasi fəaliyyət istiqamətinin daha sabit məcmuunu səciyyələndirir.

Elmi ədəbiyyatda siyasi mədəniyyətə çoxsaylı mövqedən yanaşılır, ona müxtəlif mə'nalı tə'riflər verilir. Siyasi mədəniyyət fenomeninə müasir politoloqlar **psixoloji, kompleks (ümumiləşdirici), normativ, evristik, sosial-psixoloji** və **aksioloji** mövqelərdən diqqət yetirirlər.

---

[1] Политология: Энциклопедический словарь. М. 1993. Səh 265.

Q.Almondun məktəbi kimi səciyyələnən **psixoloji yanaşma** siyasi mədəniyyəti sosial-siyasi obyektlərə və proseslərə istiqamətlənən psixoloji dəst kimi əks etdirir.

**D.Mervik, R.Takker** və **L.Dittmerin** görüşlərini əks etdirən **kompleks, ümumiləşdirici yanaşma** siyasi mədəniyyəti siyasətdə baş verənlərlə məhdudlaşdırır. D.Mervikə görə siyasi mədəniyyət siyasi sistemlə eynilik təşkil edir. R.Takkerin fikrincə, siyasi mədəniyyət siyasi münasibətlərdən ibarətdir və spesifik məzmuna malik deyildir.

**Normativ yanaşmada** siyasi mədəniyyət siyasi sistem tərəfindən qəbul edilən siyasi davranış normaları və nümunələri kimi səciyyələndirilir. Bu fikri daha çox **L.Pay** və **D.Pol** əsaslandırır.

**Evristik konsepsiyaya** görə siyasi mədəniyyət arzu olunan davranışın hipotetik (fərziyyəyə əsaslanan) normativ modelidir. (**S.Xantinqton**).

**Sosial-psixoloji** mövqe isə siyasi mədəniyyəti ölçüyə salınmış davranış norması kimi səciyyələndirir. Belə mövqeyə görə siyasi mədəniyyətin məzmununu obyektiv sosial amillər müəyyənləşdirir.

**Aksioloji** nöqteyi-nəzər siyasi mədəniyyəti müəyyən qaydalardan ibarət olan dəyərlərin məcmuu kimi qiymətləndirir və ona həm müsbət, həm də mənfi dəyərləri aid edir.

Politoloqların müəyyən qismi haqlı olaraq siyasi mədəniyyətin formalaşmasında mə'nəvi həyatın mühüm ünsürü olan siyasi şüurun roluna xüsusi üstünlük verirlər. Siyasi mədəniyyətin məzmununun əhatəli və dürüst öyrənilməsi siyasi şüurun mahiyyətinin izah olunması məqsədəuyğunluğunu şərtləndirir. Bununla əlaqədar qeyd etmək vacibdir ki, siyasi şüur siyasi mədəniyyətin formalaşdırılmasının ən mühüm ünsürü kimi çıxış edir. **Qnoseoloji baxımdan siyasi şüur siyasi elmin başlıca anlayışları və kateqoriyaları ilə sıx bağlıdır.** Siyasi şüur siyasi mədəniyyətin yüksək mərhələsidir, onun inkişaf etmiş formasıdır. Siyasi şüur siyasi davranışın subyektiv mexanizminin səmərəli əsası və cəmiyyətin siyasi sisteminin subyektiv fundamenti kimi çıxış edir. Dünya miqyasında bütün tədqiqatçılar tərəfindən **siyasi şüur siyasətin psixi ifadəsinin məcmuu, siyasətin subyektiv**

**komponenti və müxtəlif şəraitlərdə çoxcəhətli səviyyədə təzahür edən ictimai şüur variantı kimi qiymətləndirilir.**

Dünya siyasi elmində siyasi şüurun subyekti əsasən üç səviyyədə araşdırılır. **Birinci səviyyədə** siyasi şüur aktual siyasi məzmun daşıyan məsələlərə dair cəmiyyətin kütləvi şüuru kimi nəzərdən keçirilir.[1]

Kütləvi siyasi şüur cəmiyyətin siyasi mədəniyyətinin tipini və səviyyesini müəyyən edir, siyasi davranışın daha tipik və kütləvi variantını şərtləndirir. **İkinci səviyyədə** siyasi şüur siyasətlə bağlı olan böyük (sosial siniflər, milli-etnik birliklər, əhalinin müxtəlif qrupları və təbəqələri) və kiçik (siyasi elita, hərbi hökumət xuntası, hakim partiyanın siyasi bürosu, təzyiq qrupu tipi olmaq e'tibarilə müxtəlif lobbi birlikləri və s.) qrupların ümumiləşmiş şüuru kimi şərh olunur. Belə siyasi şüur qrupların siyasi fəallığının intensivliyini, istiqamətini və məzmununu şərtləndirən təsəvvürlərin məcmuu kimi səciyyələnir.[2]

**Üçüncü səviyyədə** siyasi şüur siyasəti müxtəlif cür dərk edən, onu az və ya çox dərəcədə dəqiq qiymətləndirən və siyasi planda məqsədyönlü fəaliyyət göstərən şəxsiyyətin, "siyasi fərdin xarakteri və keyfiyyəti baxımdan başa düşülür.

Cəmiyyətin siyasi şüurunda adamların praktiki fəaliyyəti ilə bu fəaliyyətin sosial şəraiti arasındakı nisbət öz əksini tapır.[3] Siyasi şüur dövlət hakimiyyətinin mahiyyətini dərk etmək tələbatı kimi meydana gəlmişdir. Dövlət hakimiyyəti isə hər şeydən əvvəl, müxtəlif sosial qrupların mənafeyini ifadə edir. Deməli, siyasi şüur dövlət hakimiyyətinə münasibətdə sosial qrupların iqtisadi və ictimai münasibətlərini əks etdirir. İqtisadi və sosial mənafelərin bilavasitə belə şərtlənməsi siyasi şüurun spesifikliyini doğurur və bu zəmində xüsusi siyasi mənafe formalaşır. Siyasi şüur ictimai şüurun digər tərəflərinə nisbətən iqtisadi bazislə daha sıx bağlıdır. Bu ondan irəli gəlir ki, siyasi şüur, daha doğrusu, onun yüksək səviyyəsi olan siyasi ideologiya iqtisadi bazislə dolayısı deyil, birbaşa əlaqə kəsb edir. Lakin bu əlaqənin özü də sosial qrupların mənafeyindən asılıdır.

---

[1] Б.А.Грушин. Массовое сознание М.1987-Səh.148-156.

[2] Духовная культура социалистического общества. М, "Прогресс" 1979. Səh. 33-34; Культура развитого социализма "Наук" М. 1978 Səh. 14-16.

[3] А.Г. Спиркин. Основы философии. М, 1988. Səh 485.

Qeyd etmək vacibdir ki, cəmiyyətin siyasi şüuru yekcins ola bilməz. Çünki o, bütün sosial qrupların və təbəqələrin dövlətə münasibətlərini, sosial qruplar arasındakı qarşılıqlı münasibətlər sferasını əhatə edir. Gerçəkliyin siyasi cəhətdən düzgün qiymətləndirilməsi mövcud sosial sistemdəki fərdlərin və qrupların konkret vəziyyətindən asılıdır.

Hər bir sosial qrupun real vəziyyəti dövlət hakimiyyətinə münasibətdə spesifik fərqlər kəsb etdiyinə görə bu hakimiyyət uğrunda mübarizədə daim siyasi mənafelərin toqquşması nəzərə çarpır. Elə buna görə də dövlət hakimiyyətinin təşkili siyasi təfəkkürün mərkəzi problemidir.[1] Siyasi mənafelər obyektiv xarakterə malik olduğuna görə hər bir adam açıq və ya üstüörtülü şəkildə onun daşıyıcısı kimi çıxış edir. Özündə kəskin sosial ziddiyyətləri əks etdirən siyasi mənafelər bütün cəmiyyətlərin həyatına nüfuz etmək qabiliyyətinə malikdir. Siyasi mənafelər bir tərəfdən sosial fəallığa malik olan bütün təşkilatların, birliklərin fəaliyyətinin əsasını təşkil edir, digər tərəfdən isə cəmiyyətdə sosial toqquşmaları şərtləndirir.

Əlbəttə, siyasi şüurun məzmununun müəyyənləşdirilməsi yalnız sosial mənafelər me'yarı ilə məhdudlaşmır. Siyasi şüurun öyrənilməsinin mühüm funksional istiqaməti həm də onun adi və nəzəri-ideoloji formalarının tədqiq olunmasında üzə çıxır. Siyasi şüurun bu formalarının məzmunu barədə müəyyən təsəvvürə malik olmaq siyasi mədəniyyətin mahiyyətini dərk etməyə xidmət edir. Heç də təsadüfü deyil ki, sosial fəlsəfəyə və siyasi elmə dair ədəbiyyatda siyasi şüurun bu iki formasının—**adi-praktiki (siyasi psixologiya)** və **ideoloji-nəzəri (siyasi ideologiya)** siyasi şüurun öyrənilməsinə mühüm diqqət yetirilir. Belə maraq siyasi mədəniyyət anlayışının məzmununun məqsədyönlü tədqiqi baxımdan vacib və əhəmiyyətlidir. Adi-praktiki siyasi şüur özündə sistemləşdirilməmiş görüşləri və təsəvvürləri, o cümlədən müxtəlif sosial qrupların hisslərini və əhval-ruhiyyəsini, məsələn, həmrə'yliyi, düşmənçiliyi və sairəni əks etdirir. Nəzəri-ideoloji siyasi şüur isə sosial qrupların, millətlərin, dövlətin köklü mənafelərini ifadə edən görüşlər, ideyalar sistemidir, cəmiyyətin

---

[1] А.Г. Спиркин. Основы философии. Səh. 486.

necə təşkil olunmasına, onun dövlət quruluşunun xarakterinə və hansı siyasəti həyata keçirməyə dair baxışlar sistemidir.

Adi-praktiki siyasi şüur adamların əməli fəaliyyətindən, sosial təcrübəsindən hasil olmaqla kortəbii surətdə meydana gəlir. Həmin şüur emosiyalardan və dəyişməkdə olan sosial təcrübədən asılı olaraq çox hallarda sabit xarakter daşımır. Adi siyasi şüurda təzahür edən müəyyən stereotiplər siyasi təfəkkürün mükəmməl şəkildə formalaşmasına mane olur. Hər hansı sosial qrupun adi siyasi şüuru gündəlik həyatda necə təzahür edirsə, hakimiyyətə münasibətdə də bu cür nəzərə çarpır. Adi siyasi şüurun məzmunu zəkanın ümumiləşdirici fəaliyyətindən, geniş tarixi perspektivdən, nəzəri düşüncə tərzindən və fəlsəfi kateqoriyalardan məhrumdur. Bununla yanaşı adi şüur məhz, obyektiv sosial gerçəklikdən birbaşa asılı olduğu üçün onun gündəlik məzmunu özündə təmsil etdiyi sosial qrupun siyasi ideologiyasının rüşeymlərini də əks etdirir.

Siyasi şüurun məzmunu barədə qeyd etdiyimiz mülahizələr bütövlükdə siyasi mədəniyyət anlayışının mahiyyətini və funksiyalarını düzgün başa düşməyə xidmət edir. Unutmaq olmaz ki, siyasi mədəniyyətin formalaşdırılması hər şeydən əvvəl, **siyasi şüurun tərbiyə olunması prosesidir.**

## 2. SİYASİ MƏDƏNİYYƏTİN MƏZMUNU VƏ STRUKTURU

Müasir elmi ədəbiyyatda siyasi mədəniyyətin kifayət qədər əsaslandırılmış elmi tə'riflərinə rast gəlirik. Siyasi mədəniyyətə dair təriflərin əksəriyyətində onun ən mühüm cəhətləri və xüsusiyyətləri öz əksini tapmışdır. Lakin siyasi mədəniyyət anlayışına dair rə'y müxtəlifliyi heç də bu anlayışın lazımi səviyyədə araşdırılmamasından deyil, məhz, onun mürəkkəbliyi və çoxcəhətliliyindən irəli gəlir.

**Siyasi mədəniyyət özündə şüurun, siyasətin və mədəniyyətin əlamətlərini birləşdirir.** Maddi və mə'nəvi mədəniyyət kimi, siyasi mədəniyyət də mədəniyyət anlayışının

müstəqil komponentidir. Mədəniyyətin ümumi sistemində siyasi mədəniyyətin xüsusi və spesifik yer tutması ictimai hadisə olan siyasətlə şərtlənir. Cəmiyyətin sosial-siyasi tə'sisatları məhz, maddi və mə'nəvi mədəniyyətin "qovuşağında yerləşir.[1] Bu cəhət siyasi mədəniyyətin xüsusiyyətlərində özünü aydın göstərir.

Siyasi mədəniyyət nəinki siyasi şüurla (siyasi biliklər, görüşlər, təsəvvürlər, inam və s.), həm də adamların sosial-siyasi mədəniyyəti ilə sıx vəhdət daşıyır. O, təkcə siyasi mənafeləri və siyasi münasibətləri deyil, həmçinin fəal sosial-siyasi fəaliyyəti özündə əks etdirir.

**Siyasi mədəniyyət ümumi əhəmiyyət kəsb edən siyasi biliklərin səviyyəsini və xarakterini səciyyələndirir, vətəndaşların siyasi təcrübə ilə şərtlənən fəaliyyətini və davranışını ifadə edir.** Eyni zamanda siyasi mədəniyyət siyasi davranışın müəyyən tiplərinin formalaşmasına imkan yaradır və ona spesifik istiqamət verir.

Siyasi davranışla siyasi mədəniyyət arasında sıx əlaqə mövcuddur. Siyasi mədəniyyət məhz, siyasi davranış vasitəsilə reallaşır. Siyasi mədəniyyət dinamik hadisə olub bu və ya başqa formada varislik keyfiyyətlərini təcəssüm etdirir.

Siyasi mədəniyyət cəmiyyətin siyasi sisteminin ən əhəmiyyətli cəhəti kimi çıxış edir. Yadda saxlamaq lazımdır ki, siyasi tə'sisatlar mədəniyyətin məzmununa və təzahürünə əhəmiyyətli tə'sir göstərir. Cəmiyyətin siyasi sistemi ilə siyasi mədəniyyət siyasi həyatın yarımsistemləri olduğuna görə bunların arasında kəskin fərq qoymaq qeyri-mümkündür. Həmin yarımsistemlər bir-birinə qarşılıqlı tə'sir göstərirlər. Siyasi sistem və siyasi mədəniyyət bir-birindən ayrılıqda mövcud ola bilməz. **Siyasi mədəniyyət siyasi sistemin fəaliyyəti prosesində siyasi münasibətlərin xarakteristikası kimi başa düşülməlidir.** Siyasi mədəniyyətin pozitiv və neqativ ünsürləri mövcud siyasi sistemlə şərtlənir. Cəmiyyətin müxtəlif qruplarının siyasi mədəniyyətinin qüsurları, "yaxşı və "pis cəhətləri əslində siyasi sistemlə bağlı olan funksional ünsürlərdir. Özü də bu ən əvvəl, siyasi sistemin tə'sisatlarına və həmin tə'sisatların fəaliyyət üsuluna aiddir.

---

[1] В.Ж.Келле, М.Я.Ковальзон. Теория и история. М, 1981. Səh.241-244.

Siyasi sistemlə siyasi mədəniyyətin bir-birini qarşılıqlı şərtləndirməsi tamamilə təbii və qanunauyğundur. Məsələn, liberal-demokratik sistem cəmiyyətdə çoxsaylı sosial qrupların və təbəqələrin, təşkilatların, birliklərin, dini, peşə və gənclər assosiasiyalarının mövcudluğu ilə səciyyələnir. Bununla yanaşı liberal-demokratik sistemdə öz mənafeyini qarşılıqlı münaqişələrlə, bir-biri ilə toqquşmalar və əməkdaşlıq şəraitində müdafiə edən müxtəlif klublara və qruplara da təsadüf olunur. Belə vəziyyət "sosial plyuralizm adlanır. Siyasi sferada plyuralizm çoxlu partiyaların və siyasi tə'sisatların, müxtəlif ideya-siyasi istiqamətlərin, cərəyanların və sairənin mövcudluğu ilə təzahür edir. Bu vəziyyət isə siyasi plyuralizm kimi səciyyələnir. Sosial plyuralizm siyasi plyuralizmi müdafiə edir və stimullaşdırır. Eləcə də siyasi plyuralizm sosial plyuralizm mövqeyindən çıxış edir.

Siyasi mədəniyyəti təşkil edən sərvətlər, siyasi yönümlər, normalar və stereotiplər sistemində başlıca sosial əhəmiyyətə malik olan budur ki, o, siyasi sistemin formalaşmasına və saxlanmasına imkan yaradır. Siyasi sistemin formalaşmasına tə'sir göstərən mədəni sərvətləri cəmiyyət üzvləri nə qədər çox mənimsələr cəmiyyətdə sabitlik də bir o qədər yüksək olar.

Siyasi mədəniyyətin məzmununa yalnız siyasi sistemin müdafiə olunmasına xidmət edən sərvətlər deyil, həm də onun dəyişdirilməsinə tə'sir göstərən ünsürlər daxildir. Bu cəhət nəinki siyasi mədəniyyətin, həm də bütövlükdə ictimai-siyasi sistemin mahiyyətinin və inkişaf meylinin mühüm göstəricisi kimi səciyyələnir. Buna görə hər bir siyasi sistem çərçivəsində müxtəlif qrupların siyasi inamındakı fərqlərin mə'nasını və dərəcəsini başa düşmək əhəmiyyətlidir.

Siyasi mədəniyyəti öyrənmədən siyasi reallıqların və proseslərin mahiyyəti barədə düzgün təsəvvür əldə etmək mümkün deyildir. Yadda saxlamaq lazımdır ki, insan və mədəniyyət amillərini, bunların xüsusiyyətlərini nəzərə almadan həyata keçirilən hər hansı ağıllı tədbirlər, qanunlar, islahatlar və s. arzu olunan səmərəli nəticəni verə bilməz. Hər bir siyasi sistemin sabitliyi və həyat qabiliyyəti vətəndaşların əksəriyyətinin siyasi mədəniyyətinin dərəcəsi ilə şərtlənir.

**Siyasi mədəniyyətin əsasını ictimai inkişaf qanunlarını dərindən bilmək, sosial gerçəkliyin hadisə və proseslərinə elmi cəhətdən əsaslandırılmış qiymət verilməsi, nəsillərdən gələn və gündəlik sosial-siyasi təcrübənin mənimsənilməsinə tələbat, siyasi baxışların, təsəvvürlərin və ideyaların vəhdəti, mövcud cəmiyyətin hüquq və vəzifələrinə, fəaliyyət normalarına yiyələnmək təşkil edir.** Siyasi mədəniyyət fəaliyyətin həm müəyyən üsuludur, həm də nəticəsi. Siyasi mədəniyyətin fəaliyyət sferası cəmiyyətin bütün siyasi həyatını, o cümlədən siyasətlə iqtisadiyyatın, siyasətlə hüququn və siyasətlə mə'nəviyyatın qarşılıqlı əlaqə və tə'sir sahəsini əhatə edir.

Siyasi mədəniyyətin bütün ünsürləri, onun sosial yönümü praktiki sosial fəaliyyət vasitəsilə üzə çıxır. Lakin siyasi mədəniyyətin formalaşmasının əsasını hər cür praktiki fəaliyyət deyil, məhz, sosial cəhətdən fəal və faydalı fəaliyyət təşkil edir. Sosial cəhətdən fəal fəaliyyət həm də siyasi şüurluluğun ifadəsidir.

Ümumiyyətlə, mə'nəvi həyatın ünsürü olmaq e'tibarilə siyasi mədəniyyəti müxtəlif sosial səviyyələrdə nəzərdən keçirmək lazımdır. Başqa sözlə, o, bütövlükdə cəmiyyət, onun sosial qrupları və təbəqələri, eləcə də şəxsiyyət səviyyəsində araşdırılmalıdır. Bu və ya digər siyasi ideologiyaya müvafiq olaraq siyasi mədəniyyətə yiyələnmək siyasi biliklərin müəyyən həcmini mənimsə-məyi zərurətə çevirir. Siyasi biliklər siyasi təsəvvürlərlə, hisslərlə və ideallarla vəhdətdə siyasi mədəniyyətin mə'nəvi tərəfini təşkil edir. Əlbəttə, siyasi mədəniyyəti onun mə'nəvi tərəfi ilə eyniləşdirmək və ya məhdudlaşdırmaq olmaz. O, biliklərin həm inama çevrilməsidir və həm də adamların siyasi mübarizədə həyata keçirilən qabiliyyətidir. İnsanın mahiyyət gücünün və bacarığının siyasi fəaliyyətdə maddiləşməsi məhz, bu prosesdə baş verir.

Mövcud ədəbiyyatda bə'zən siyasi mədəniyyəti yalnız siyasi biliklərin müəyyən səviyyəsi, siyasi inam və sərvətlərin məcmuu kimi əsaslandırırlar. Siyasi mədəniyyət anlayışının müəyyənləşdirilməsinə belə münasibət nə qədər əhəmiyyətli və məqsədyönlü olsa da həmin təsəvvür birtərəfli xarakter daşıyır.[1]

---

[1] Б.Д. Яковлев. Методологические проблемы духовной проблемы. Л. 1988. Səh. 78-80.

Şəxsiyyətin siyasi şüurunun keyfiyyət tərəfinə dəlalət edən bilik, inam, peşə səriştəliyi və vərdişlər hələ bu və ya digər şəxsin siyasi mədəniyyətinin tam ifadəsi kimi çıxış etmir. Siyasi biliklər, görüşlər və inam yalnız ictimai-siyasi praktika ilə, əməli siyasi fəaliyyətlə üzvü əlaqə kəsb etdikdə siyasi mədəniyyət səviyyəsinə yüksəlir. **Siyasi mədəniyyətin məzmununun formalaşması** idrak qabiliyyəti ilə əməli siyasi fəaliyyətin vəhdətindən ibarət mürəkkəb və çoxcəhətli prosesdir.

Siyasi mədəniyyət bir tərəfdən siyasi fəaliyyətin başlıca prinsiplərini və normalarını, cəmiyyətə, mövcud siyasi tə'sisatlara siyasi rəhbərliyi, digər tərəfdən isə adamların siyasi şüurluluğunun dərəcəsini və siyasi mübarizə təcrübəsinə yiyələnmək səviyyəsini, cəmiyyət üzvlərinin sosial-siyasi münasibətlər sferasında fəaliyyət üsulunu səciyyələndirir. Azad fəaliyyət fəallığın yüksək, daha ardıcıl təcəssümüdür.[1]

Vətəndaşların öz hüquq və azadlıqlarını başa düşməsi və bundan istifadə etməsi, cəmiyyətin siyasi həyatına fəal cəlb olunması, azad siyasi fəaliyyət və s. siyasi mədəniyyətin əhəmiyyətli ünsürləridir. Heç də təsadüfi deyil ki, siyasi mədəniyyət nəzəriyyəsinin görkəmli ideoloqu ingilis alimi **R.Rouz siyasi azadlığı siyasi mədəniyyətin ən qiymətli ünsürü sayır**. O, qeyd edir ki, ingilis siyasi mədəniyyəti mövcud rejimə münasibətdə vətəndaşların həmrəyliyinə və loyallığına istiqamətlənmişdir.

Adamların siyasi mədəniyyyətinin mühüm göstəricilərindən biri onların siyasi həyata fəal cəlb olunması, siyasi hadisə və proseslərə dərindən nüfuz etməsidir. İctimai-siyasi proseslərə fəal qoşulan hər bir vətəndaşın sosial əhatə dairəsi genişlənir, siyasi təcrübəsi zənginləşir və siyasi düşüncə tərzi yeni faydalı çalarlar kəsb edir. Siyasi fəallığın ünsürləri bir-birindən təcrid olunmuş həlda deyil, qarşılıqlı tə'sir prosesində təkmilləşir.[2] Məsələn, siyasi informasiyanın mənimsənilməsinin mahiyyəti bunda ifadə olunur ki, əldə olunmuş siyasi biliklər fəaliyyət prosesində adamların düzgün istiqamətləndirilməsinə, şüurlu davranışına imkan yaradır. Nəzərdən qaçırmaq olmaz ki, nəinki siyasi biliklərə, siyasi informasiyaya, həm də bunların əsasında forma-

---

[1] М.С. Каган. Мир общения,. 1988. Səh. 94.

[2] Творческая природа общественного сознания. М., 1980. Səh. 154-156.

laşan siyasi norma və prinsiplərə dərindən yiyələnmədən məqsədyönlü faydalı sosial fəaliyyət mümkün deyildir. Bu mə'nada siyasi bilik və informasiyanı, siyasi norma və prinsipləri mənimsəməyi ifadə edən fəaliyyət siyasi mədəniyyətin təzahür üsullarından biri kimi səciyyələnir. Belə fəaliyyət öz növbəsində siyasi biliklərə yiyələnmək tələbatını şərtləndirir.

Sosial qrupların, əhalinin müxtəlif kateqoriyalarının siyasi fəallığı təbii ki, eyni dərəcədə və səviyyədə təzahür etmir. Sosial təbəqə və qrupların siyasi fəallığının təşəkkülü və inkişafı həm ümumi, oxşar cəhətlərə, eləcə də fərqli, spesifik xüsusiyyətlərə malikdir. Sosial subyektlərin siyasi fəallığının inkişaf meylləri xeyli dərcədə adamların əmək fəaliyyətinin növləri ilə, ixtisas səviyyəsində, mədəni görüş dairəsində özünü göstərən spesifik cəhətlərlə şərtlənir.

Cəmiyyət üzvlərinin siyasi həyata fəal müdaxiləsi, sosial gerçəklikdə təzahür edən siyasi hadisə və proseslərə münasibəti, bir sözlə, siyasi mədəniyyəti aşağıdakı amillərin qarşılıqlı əlaqəsi və tə'siri zəminində formalaşır: adamların real sosial-siyasi münasibətləri və əhatəsində olduğu konkret siyasi şəraiti dərk etmələri; mövcud cəmiyyət tərəfindən əldə olunan və əsaslandırılan siyasi bilik, norma, inam və prinsiplərin mənimsənilməsi; vətəndaşların siyasi mədəniyyətinin yüksəldilməsinə məqsədyönlü, ardıcıl və sistemli diqqət yetirilməsi.

Yüksək siyasi mədəniyyətlə şərtlənən fəaliyyətdə insanın yetkin sosial tələbatı, siyasi qabiliyyəti və vərdişləri formalaşır, adamların ləyaqətli vətəndaş səviyyəsinə yüksəlməsi tə'min olunur. Fərdlərin **siyasi mədəniyyətinin məzmununun zənginləşməsinə** tə'sir göstərən sosial amillər sırasında təhsil səviyyəsi, peşə mənsubiyyəti, əməyin xarakteri və s. əhəmiyyətli yer tutur. Onu da qeyd edək ki, həmin amillər vətəndaşların siyasi həyata fəal münasibətinə eyni dərəcədə tə'sir göstərmir. Çünki təhsil, peşə və əmək fəaliyyətinin növləri siyasi fəaliyyətə cəlb olunmağı dərhal, öz-özünə müəyyən etmir. Bu proses mürəkkəb və çoxcəhətli mahiyyət daşıyır. Lakin təhsil və ixtisas səviyyəsi nə qədər yüksək, əməyin məzmunu intellektual cəhətdən daha da zəngin olarsa cəmiyyət üzvlərinin siyasi fəallığı bir o qədər fəallaşır. Təcrübə göstərir ki, adamların siyasi şüurluluğunun

artması bir tərəfdən onların sosial-siyasi və elmi-nəzəri informasiyaya yiyələnməyə daxili tələbatında, digər tərəfdən isə praktiki ictimai fəaliyyətdə məqsədyönlü, əhatəli və yaradıcı iştirakında təzahür edir.

Siyasi mədəniyyətin mahiyyətini dolğun dərk etmək üçün onun **strukturu** barədə dəqiq təsəvvürə malik olmaq vacibdir. **Siyasi mədəniyyətin strukturunu təşkil edən ünsürlər sosial-iqtisadi, milli-mədəni, ictimai-tarixi və digər uzunmüddətli amillərlə şərtlənir.** Buna görə həmin ünsürlər nisbi sabitliyi, yaşamaq qabiliyyəti, daimiliyi ilə səciyyələnir və yalnız cəmiyyətdə dərin dəyişikliklər prosesində yeni cəhətlər kəsb edir.

Siyasi mədəniyyət çoxsəviyyəli ictimai hadisədir. **Onun strukturuna hər şeydən əvvəl, uzun müddət ərzində formalaşan çoxlu nəsillərin ən'ənələri, siyasi praktikanın fəaliyyətdə olan normaları, müxtəlif ictimai-siyasi tə'sisatların qarşılıqlı münasibətləri haqqında ideyalar, konsepsiyalar və inamlar daxildir.** Siyasi mədəniyyətin strukturunu həmçinin, mövcud siyasi sistemə münasibətdə adamların fəaliyyət istiqaməti, ayrı-ayrı fərdlər, cəmiyyət və dövlət arasında münasibətlərin prinsipləri təşkil edir. Siyasi mədəniyyətin strukturu subyektin siyasi davranışının formalaşmasının texnologiyasını əks etdirir.

Politologiyaya dair ədəbiyyatda siyasi mədəniyyətin strukturu **üç səpgidə: dünyagörüşü, dövlət hakimiyyətinə münasibət və siyasi hadisələri qiymətləndirmək** səpgisində nəzərdən keçirilir. Dünyagörüşü səpgisində siyasi mədəniyyətin strukturu zorakılığa və azadlığa, fərdi və kollektiv sərvətlərə münasibəti, bu və ya digər ideologiyanı qəbul etməyi, yaxud ona rəğbət bəsləməməyi səciyyələndirir. Dövlət hakimiyyətinə münasibət səpgisi dövlətin şəxsiyyət üzərində üstünlüyünü və ya şəxsiyyətin hüquqlarının dövlətin hüquqlarından aliliyini nəzərdə tutur. Bu cəhət həm də hakimiyyət çərçivəsində dövlətin öz vətəndaşlarının hüquq və vəzifələrinə münasibətini şərtləndirir. Nəhayət, siyasi hadisələri qiymətləndirmək səpgisi isə insanın müxtəlif mahiyyətli siyasi hadisələrə nüfuz etmək qabiliyyətini, siyasi hadisə və prosesləri obyektiv mövqedən təhlil edib ümumiləşdirmək bacarığını əks etdirir. Başqa sözlə, bir tərəfdən siyasətin tə'sisatlı subyektlərinin - dövlətin, siyasi partiyaların,

hərəkatların, digər tərəfdən isə siyasətin sosial subyektlərinin - şəxsiyyətin, siniflərin, qrupların, xalqın və millətin cəmiyyətdə baş verən siyasi dəyişikliklərə, siyasi həyatın inkişaf meyllərinə münasibət səviyyəsi açıqlanır.

Siyasi mədəniyyətin strukturunu formalaşdıran ünsürlər sırasında **ümumi əhəmiyyət daşıyan siyasi biliklər, siyasi təfəkkür tərzi, siyasi təfəkkür mədəniyyəti, siyasi davranış və fəaliyyət qabiliyyəti, siyasi hisslər və emosiyalar** mühüm yer tutur. Ümumi əhəmiyyət daşıyan siyasi biliklər nəzəri və gündəlik informasiya əsasında əldə olunan praktiki biliklər zəminində yaranır. Nəzəri biliklərsiz gündəlik informasiya siyasi həyat haqqında dərin və dolğun təsəvvür formalaşdıra bilməz. Eləcə də gündəlik informasiya əsasında əldə olunan praktiki biliklərsiz siyasi nəzəri biliklər əhəmiyyətsizdir. Siyasi mədəniyyətin strukturunu təşkil edən ünsürlər içərisində **siyasi təfəkkür mədəniyyəti** özünəməxsus əhəmiyyətə malikdir.

Siyasi təfəkkür mədəniyyəti siyasi həyatda baş verən başlıca hadisələri dərk edib qiymətləndirmək, düzgün siyasi fəaliyyət istiqaməti seçmək və siyasi həyatda şüurlu iştirak etmək qabiliyyətidir. Siyasi mədəniyyətin strukturunda xüsusi yer tutan siyasi davranış və fəaliyyətin özü siyasi təfəkkür mədəniyyətinin, cəmiyyətdə qərarlaşan siyasi ən'ənələrin və siyasi şüur səviyyəsinin tə'siri altında formalaşır. Beləliklə, **siyasi davranış və fəaliyyət siyasi mədəniyyətin təzahürünün son nəticəsi kimi çıxış edir**. Adamların bu və ya digər siyasi fəaliyyət istiqamətini və siyasi davranış üsulunu seçməsi onların sosial (siniflər, təbəqələr), milli (etnos, millət, xalq), demoqrafik (qadın, kişi, gənc, yaşlı), ərazi (müəyyən rayonların və bölgələrin əhalisi), dini və digər mənsubiyyətlərindən çox asılıdır. Sosial qrupların mənafe və məqsədləri əsasında formalaşan siyasi davranış və fəaliyyət istiqaməti sosial mənsubiyyət subyektlərinin dövlət hakimiyyətinə, hakim partiyalara, siyasi həyatda iştirakı üsullarına ciddi tə'sir göstərir.

Siyasi mədəniyyətin məzmununu və strukturunu əks etdirən ünsürlərdən çox mühüm **siyasətdə iştirakdır**. Siyasətdə iştirak adamların siyasi idarəetmə fəaliyyətinin ayrılmaz cəhətidir. Siyasi məziyyət daşıyan bu cəhət cəmiyyət üzvlərinin mənafeyini ifadə

edən vasitələrdən biri kimi mə'nalanır. Siyasətdə iştirak o halda siyasi keyfiyyət kimi səciyyələnir ki, şəxsiyyət, qruplar, təbəqələr, siniflər siyasət-hakimiyyət münasibətlərinə, siyasi xarakter daşıyan qərarların qəbul olunmasına və idarəetmə prosesinə cəlb olunurlar. Vətəndaşların siyasi qərarların qəbul edilməsinə və idarəetmə prosesinə cəlb edilmələri onların cəmiyyət həyatının şosial, iqtisadi və mədəni sferalarında bu və ya digər dərəcədə siyasiləşməsini şərtləndirir.[1] **Siyasətdə iştirak mövcud cəmiyyət daxilində fərdi, sinfi, milli-etnik, dini və digər zəmində siyasət-hakimiyyət münasibətləri prosesinə cəlb olunmağı səciyyələndirən universal hadisədir.**

Demokratik cəmiyyətdə şəxsiyyət geniş hüquq və azadlıqlardan istifadə etməklə bütün siyasi proseslərdə hər hansı səviyyədə, bu və ya digər formada və müxtəlif mərhələlərdə iştirak edə bilər. İlk növbədə idraki məqsədlər baxımdan siyasətdə iştirakın səviyyələrini aydınlaşdırmaq zəruridir. Vətəndaşların siyasətdə iştirakı əsasən dörd səviyyədə təzahür edir: 1.Funksional səviyyə. 2.Bilavasitə və ya dolayı yolla iştirak səviyyəsi. 3.Sırf siyasi və qeyri-siyasi səviyyə. 4.Siyasi proseslər mərhələsindən asılı olan səviyyə.

**Funksional səviyyə** siyasi hakimiyyətin strukturunun müəyyənləşdirilməsində, həmin hakimiyyətin siyasi tə'sisatlar, dövlət orqanları və digər vəzifəli iyerarxiyalar arasında bölüşdürülməsini dərk etməkdə şəxsiyyətin rolunu aydınlaşdırır. Funksional səviyyə həmçinin, aşağıdakıları əks etdirir: siyasi sistemin normativ əsasının formalaşdırılmasında və təkmilləşdirilməsində, dövlət hakimiyyətinin və idarəetmə orqanlarının şəxsi hey'ətinin komplektləşdirilməsində, eləcə də digər siyasət-hakimiyyət strukturlarının təşəkkülündə şəxsiyyətin rolunu anlamaq; konkret siyasət-idarəetmə qərarlarının qəbul edilməsi; daxili və xarici siyasət xəttinin işlənib hazırlanması və həyata keçirilməsi; siyasi həyata dair problemləri vətəndaşların başa düşməsi. Şəxsiyyətin siyasətdə iştirakını səciyyələndirən **ikinci səviyyə (bilavasitə iştirak)** ən mühüm dövlət və ictimai həyat məsələlərinin həllinə vətəndaşların bilavasitə cəlb edildiyini əks

---

[1] Ətraflı bax: Шестопал Е.Б. Личность и политика. М. 1989.

etdirir. Siyasi həyatda belə iştirakın başlıca formaları seçkilər, referendum, yığıncaqlar və sairədir. Bununla yanaşı siyasətdə iştirak dolayı yolla da həyata keçirilir. Başqa sözlə, adamların siyasətdə iştirakı onların seçdikləri orqanlar (parlament, hakimiyyətin yerli orqanları, ictimai-siyasi təşkilatların seçkili orqanları) vasitəsilə tə'min olunur.

Siyasi həyatda iştirakın **üçüncü səviyyəsi** sırf siyasi və sırf siyasi olmayan mahiyyət daşıyır. Sırf siyasi səviyyə vətəndaşların siyasət-hakimiyyət münasibətlərinə cəlb olunmasını təcəssüm etdirir. Bu cəhət siyasi demokratiyanı səciyyələndirir. Sırf siyasi olmayan fəaliyyət yalnız inkişaf etmiş sivilizasiyalı cəmiyyətdə tə'min olunur. Belə cəmiyyətdə adamlar ictimai həyatın nəinki siyasi, həm də iqtisadi və sosial sferalarının idarə edilməsində iştirak edirlər. Bu xüsusiyyət isə iqtisadi və sosial demokratiyanın ifadəsidir. Yeri gəlmişkən qeyd edək ki, istehsal özünüidarəsi və ya "təsərrüfat demokratiyası ideyası ilk dəfə XIX əsrin axırlarında İngiltərədə irəli sürülmüşdür. Bu ideyanın praktiki baxımdan maddiləşməsi də həmin ölkədə və həmçinin Almaniyada, Fransada, ABŞ-da və sonralar isə Yaponiyada həyata keçirilmişdir.

"İqtisadi demokratiya cəmiyyətin iqtisadi sferasında demokratik prinsiplərin qərarlaşmasını ifadə edirsə, "sosial demokratiya termini vətəndaşlıq statusu baxımdan cəmiyyət üzvlərinin sosial bərabərliyini səciyyələndirir. Bu mə'nada sosial demokratiya "sosial bərabərlik, "sosial ədalət, "mə'nəvi azadlıq kimi anlayışlarla yaxınlıq təşkil edir.

Nəhayət, siyasətdə iştirakın **axırıncı səviyyəsi** siyasi proseslərin mərhələləri ilə şərtlənir. Siyasi proseslərin bütün mərhələlərində vətəndaşlar fəaliyyət subyekti kimi çıxış edirlər. Siyasət-idarəetmə prosesi özündə bir neçə mərhələni: qərarların hazırlanmasını və qəbul olunmasını, onların yerinə yetirilməsini və icrasına nəzarəti ehtiva edir. Avtoritar cəmiyyətdə siyasi proseslərin bütün mərhələlərində şəxsiyyətin rolu məhdudlaşdırılmış, vətəndaşların hüquq və azadlıqları formal xarakter daşımışdır. Sivilizasiyalı hüquqi cəmiyyət isə öz üzvlərinin siyasi həyata fəal nüfuz və müdaxilə etməsini reallaşdırır.

Vətəndaşların siyasətdə iştirakının formalarını, üsullarını, səviyyəsini, gərginliyini, motivlərini, xüsusilə həcmini və

nəticələrini təhlil etmək siyasi hökmranlıq, belə hakimiyyət metodu uğrunda mübarizə və onun yayılması kimi siyasi proseslərin məzmununun və xüsusiyyətlərinin tam açılmasına imkan yaradır. Bu cür təhlil eləcə də siyasi-idarəetmə qərarlarının işlənib hazırlanmasına, qəbul olunmasına və reallaşmasına, siyasi rəhbərlərin (siyasi elitanın) seçilməsinə və fəaliyyətinə, siyasi münaqişələrin həllinə və sairəyə mühüm tə'sir göstərir. Siyasətdə iştirak vətəndaşların, ayrı-ayrı təbəqələrin, siniflərin, qrupların həm yerli səviyyədə və həm də cəmiyyətin siyasi sistemində real rolunu üzə çıxarmağa zəmin yaradır.

Vətəndaşların siyasətdə iştirakı tarixən mövcud olan və müasir siyasi sistemlərin, onların demokratikləşməsinin keyfiyyət xüsusiyyətlərinin başlıca göstəricisidir. Siyasətdə iştirak demokratik cəmiyyətdə ümumi, azad, təşəbbüskar və tə'sirli xarakter daşıyır, vətəndaşların mənafeyi ilə bağlı olan məsələlərin həllinə istiqamətlənir. Siyasətdə iştirak mahiyyətcə adamların məqsədlərinə çatması vasitəsidir, özünüifadə və özünütəsdiq tələbatının, vətəndaşlıq hissinin reallaşmasıdır. Belə iştirak müəyyən dövlət-hüquq tə'sisatları və normaları ilə tə'min olunur. Bunların məcmuu isə hüquqi dövlətin, əsl demokratik siyasi rejimin əsasını təşkil edir.

Siyasi rejimdən, ən'ənələrdən, ərazinin həcmindən və əhalinin sayından, nəqliyyat və kommunikasiya vasitələrinin inkişaf dərəcəsindən asılı olaraq hər bir cəmiyyətdə siyasətdə iştirakın birbaşa və dolayı yolla (nümayəndəli) əlaqələndirilməsi müxtəlif şəkildə müşahidə olunur. Vətəndaşların siyasətdə iştirakının ən mühüm formaları siyasi partiyalar, ictimai-siyasi təşkilatlar və hərəkatlardır. Sosial subyektlərin **siyasi həyatda iştirakının** digər başlıca vasitəsi isə **seçkilərdir**.

Müxtəlif siyasi rejimlərdə əhalinin siyasətdə iştirakı fərqli xüsusiyyətlərə malikdir. Məsələn, avtoritar rejimdə əhali siyasətdə iştirakdan tamamilə və ya qismən uzaqlaşdırılırsa, totalitar cəmiyyətdə əhalinin böyük əksəriyyəti mövcud rejimi müdafiə məqsədilə mərasim mahiyyətli səfərbərliklə siyasətdə iştiraka cəlb olunur. Demokratik rejimdə isə siyasətdə iştirak siyasi sosiallaşma və siyasi tərbiyə funksiyalarını həyata keçirir. Əgər **totalitar cəmiyyətdə siyasi e'tirazların** və **narazılığın** bütün

formaları **qadağan olunursa demokratik rejimdə siyasi e'tirazların** formalarına yol verilir, vətəndaşlar mitinqlərdən, nümayişlərdən, piketlərdən, tə'tillərdən və sairdən **siyasi narazılıq vasitəsi** kimi istifadə edirlər. Hələ vaxtilə **Platon** və **Aristotel** vətəndaşların polisin işlərində iştirakının zəruri olub-olmadığını təhlil etmək əsasında belə qənaətə gəlmişlər ki, bir dövlət quruluşundan digərinə keçmək üçün siyasətdə iştirakın özünəməxsus əhəmiyyəti vardır. Platona görə ideal dövlət formasının qərarlaşması baxımdan siyasi həyatda iştirak olduqca vacibdir. Yeni dövrdə siyasi həyatda iştirakın əhəmiyyətli ideyası daha da zənginləşir. Siyasi həyatda iştirak hakim dairələrin siyasi strategiyasının ideal modelini yaratmaq üçün vasitə (**Makiavelli**), suverenliyin və müxtəlif idarəetmə üsullarının daşıyıcısı (**Boden**), idarəetmənin forma və prinsipi (**Monteske**), ictimai müqavilənin təbiəti, idarəetmənin və xalqın suverenliyinin forması kimi çıxış edir. Müasir siyasi elmlərdə siyasətdə iştiraka dair nəinki xüsusi nəzəriyyə mövcuddur, həm də politoloji konsepsiyaların işlənib hazırlanmasında siyasətdə iştirak ideyasından istifadə olunur. Heç də təsadüfi deyil ki, vətəndaşların beynəlxalq hüquq tərəfindən təsdiq olunmuş hüquqları sırasında siyasətdə iştirak da öz əksini tapmışdır. Məsələn, BMT Baş Məclisinin irqi ayrı-seçkiliyin bütün formalarının ləğvi haqqında beynəlxalq konvensiyasının (7 noyabr 1962-ci il) 5-ci maddəsində göstərilir ki, irqindən, dərisinin rəngindən, milli və etnik mənsubiyyətindən asılı olmayaraq hər bir adamın qanun qarşısında bərabər hüquqlu olması tə'min olunur. Həmin konvensiyanın iştirakçısı olan dövlətlər həmçinin, vətəndaşların siyasi hüquqlarının praktiki olaraq həyata keçiriləcəyini rəsmən ifadə edən bəyannamə qəbul etmişlər. Bu bəyannamədə deyilir: "Siyasi hüquqlar, xüsusilə seçkilərdə iştirak hüququ, ümumi və bərabər seçki hüququ əsasında səs vermək və öz namizədliyini irəli sürmək, ölkənin idarə olunmasında iştirak etmək və dövlət işlərinə bütün səviyyələrdə rəhbərlik hüququ, həmçinin dövlətə xidmət etməyə bərabər hüquqlu cəlb olunmaq tə'min edilsin.[1]

---

[1] Шестопал Е. Личность и политика, III фясил, п. 2.

Vətəndaşların siyasətdə iştirakının konkret növləri, üsulları, səviyyəsi və formaları, həmin iştirakın intensivliyi və nəticələri mövcud cəmiyyətin siyasi sisteminin funksional xüsusiyyətlərini, onun siyasi rejiminin spesifikliyini və cəmiyyətin siyasi mədəniyyətinin xüsusiyyətlərini həm ifadə edir, eləcə də müəyyənləşdirir.

Siyasətdə iştirak üçün ən əlverişli şəraiti demokratiya və hüquqi dövlət yaradır. Belə halda bütün hüquq və azadlıqları həyata keçirən vətəndaş cəmiyyəti və dövlət, məhkəmə tərəfindən müdafiə olunan vətəndaşlarla mə'murlar konstitusiyaya və digər qanunlara görə bərabər hüquqlu partnyor (əməkdaş) hesab olunurlar.

Siyasət-dövlət idarəçiliyinin demokratik və ya qeyri-demokratik prosesinin ən mühüm göstəricilərindən biri həmin prosesdə cəmiyyət üzvlərinin geniş dairəsinin iştirakıdır. Demokratiyanın digər şərtləri - qanunvericiliklə təsbit olunan hüquq və azadlıqların geniş həcmi, dövlət hakimiyyəti və idarəetmə orqanlarının əhalinin ehtiyaclarına qayğıkeşliklə yanaşması, vətəndaşların azad iradəsi əsasında nümayəndəli dövlət orqanlarının formalaşması və s. o halda reallaşar ki, vətəndaşlar siyasətə intensiv şəkildə cəlb olunsunlar. Vətəndaşların siyasi həyatda könüllü, şüurlu, kütləvi və tə'sirli iştirakı olmadan həqiqi demokratiyadan söhbət ola bilməz. **Demokratiyanın tərəqqisi vətəndaşların siyasi sferada iştirakının genişlənməsi ilə əlaqədardır.**

Qeyd etmək lazımdır ki, Amerikada və Qərbi Avropada 60cı illərə qədər vətəndaşların siyasi həyatda iştirakına sosioloqlar və politoloqlar məhdud şəkildə, başqa sözlə, konsepsiya xarakterli və praktiki-siyasi planda diqqət yetirirdilər. Siyasətdə iştiraka belə münasibətin nəzəri mənbəyini. 3. **Freydin, Q. Lebonun, R. Mixelsin, V. Paretonun, Q. Moskanın, M. Veberin** və başqalarının siyasi nəzəriyyəsi təşkil edirdi. Qərb sosioloqları siyasətdə iştirakı yalnız seçkilərə müncər edirdilər.

Ümumiyyətlə, siyasətdə iştirak siyasi sistemin universal xüsusiyyəti olmaq e'tibarilə aşağıdakı suallara cavab verməyə prınsipial imkan yaradır:

Siyasətdə kim, harada, nə zaman, nə üçün, hansı məqsədlə, hansı formada və nə kimi nəticələrlə iştirak etmişdir. Başqa sözlə, siyasətdə iştirak müqayisəli politoloji tədqiqatlar aparmağa obyektiv tə'minat verir.

## 3. SİYASİ MƏDƏNİYYƏTİN FUNKSİYALARI

Siyasi mədəniyyətin funksiyalarının mahiyyətini dolğun başa düşmək üçün onun özünün əhəmiyyətini qısaca da olsa şərh etmək məqsədəuyğundur. Siyasi mədəniyyət şəxsiyyətin siyasi fəallığını təcəssüm etdirməklə onun öz mənafeyinin spesifikliyini anlamaq qabiliyyətini, tələbatının və xarici şəraitin dəyişilməsi prosesində fəaliyyətini yaradıcı surətdə yenidən təşkil etməyi səciyyələndirir. Siyasi mədəniyyətin başlıca xüsusiyyəti bundan ibarətdir ki, o, siyasətin özünü və ya siyasi prosesləri deyil, məhz, onların dərk olunmasını, izahını şərtləndirir. Siyasi sferada çox vaxt nəinki dövlətin real fəaliyyəti və tədbirləri həm də bunların necə qiymətləndirilməsi və başa düşülməsi əhəmiyyət daşıyır. Dövlətin fəaliyyətinin və tədbirlərinin reallaşması formaları başlıca olaraq əhalinin böyük əksəriyyətinin siyasi mədəniyyəti ilə səciyyələnir.

Siyasi mədəniyyət xalqın mə'nəvi mədəniyyətinin elə ünsürlərini özündə təcəssüm etdirir ki, bunlar ictimai-siyasi tə'sisatlarla və siyasi proseslərlə bağlıdır. O, dövlət tə'sisatlarının və siyasi tə'sisatların formalarına, fəaliyyətinə və inkişafına tə'sir göstərir, siyasi prosesləri istiqamətləndirir, adamların siyasi davranışını müəyyənləşdirir.

Bütövlükdə mə'nəvi mədəniyyət ən müxtəlif həyati situasiyalarda davranış normalarını və "oyun qaydalarını şərtləndirir. **Siyasi mədəniyyət cəmiyyətin siyasi sistemini, onun tə'sisatlarını və təşkilatlarını tə'min edən dəyərlər sistemi kimi səciyyələnir.**

Bu və ya digər ölkənin siyasi mədəniyyətini o halda düzgün başa düşmək olar ki, ona ümummilli mədəniyyətin ayrılmaz hissəsi kimi baxılsın. Siyasi mədəniyyəti təşkil edən ən mühüm

ünsürlər ümummilli mədəniyyətlə, milli-tarixi və dini ən'ənələrlə, adətlərlə, davranış və təfəkkür stereotiplərilə, əxlaqi normalarla sıx əlaqəlidir.

Siyasi mədəniyyətin qiymətli cəhəti bundan ibarətdir ki, o, müxtəlif sosial birliklərin və şəxsiyyətin siyasi davranışının spesifikliyinin dərin səbəblərini üzə çıxarmağa imkan yaradır. Bu səbəblər mədəniyyətin ikili təbiətə-kollektiv və fərdi xarakterə malik olması, mədəniyyətdə ümuminin (qrup, sosial, milli və s.), ümumbəşəriliyin, xüsusinin və təkcənin əlaqələndirilməsi ilə bağlıdır. Mədəniyyət kollektivin məhsulu olsa da, o, hər bir fərd tərəfindən ayrılıqda formalaşır, mənimsənilir və təzahür edir.

Politologiyaya dair ədbiyyatda siyasi mədəniyyətin siyasi proseslərə və tə'sisatlara tə'siri **üç istiqamətdə nəzərdən keçirilir. Birinci istiqamət** siyasi mədəniyyətin tə'siri altında siyasi həyatın ən'ənəvi formalarının təkrar istehsalını səciyyələndirir. **İkinci istiqamət** belə bir cəhəti ifadə edir ki, siyasi mədəniyyət cəmiyyət üçün sosial və siyasi həyatın yeni, qeyri-ən'ənəvi formalarını doğurmağa qadirdir. **Üçüncü istiqamət** isə əvvəlki və perespektivli siyasi quruluşun ünsürlərinin uyğunlaşdırılmasında siyasi mədəniyyətin əhəmiyyətini əks etdirir.

Siyasi mədəniyyət siyasi sferada müəyyən konkret **funksiyalar** həyata keçirir. Siyasi təfəkkürün formalaşmasında, sosial hadisə və prosesləri siyasi cəhətdən düzgün təhlil edib qiymətləndirməkdə siyasi mədəniyyətin funksiyaları əhəmiyyətli rol oynayır. Siyasi mədəniyyətin ümumi əhəmiyyət daşıyan ən mühüm funksiyaları bunlardır: **eyniləşdirmə, siyasi yönüm, uyğunlaşma, qovuşma (inteqrasiya), əlaqələndirmə təhsil, tərbiyə, səfərbəredici, təhrikedici, sosial təşkilatçılıq** və **sosiallaşma.**

Həmin funksiyaların mahiyyətini nəzərdən keçirək. **Eyniləşdirmə funksiyası** fərdin mənsub olduğu sosial qrupu təmsil etməsini başa düşməyə daimi daxili tələbatı açıqlayır, digər tərəfdən isə insanın yaşayıb fəaliyyət göstərdiyi cəmiyyətin mənafeyini müdafiə etməsini və bu məqsədlə siyasi həyatda iştirakın ən münasib üsullarına yiyələnməsini şərtləndirir.

**Siyasi yönüm** adamların siyasi hadisə və prosesləri, siyasi həyatın qayəsini, onun inkişafının ümumi meyllərini

mə'nalandırmaq sə'yəlrini ifadə edir, mövcud siyasi sistemdə vətəndaşların öz hüquq və azadlıqlarını reallaşdırmaq imkanlarını səciyyələndirir. Bu funksiya həmçinin, fərdlərin siyasi fəaliyyətinin sosial əhəmiyyətli yönümünün nəticələrini qabağcadan qiymətləndirmək qabiliyyətini açıqlayır.

**Uyğunlaşma** bir tərəfdən cəmiyyət üzvlərinin dəyişilən siyasi mühitə, yeniləşən siyasi həyata uyğunlaşmaq qabiliyyətini, digər tərəfdən onların öz hüquqlarını və idarəetmə səlahiyyətlərini həyata keçirmək şəraitinə nüfuz etmələrini səciyyələndirir.

**Qovuşma (inteqrasiya)** müəyyən siyasi sistem çərçivəsində müxtəlif sosial təbəqə və qrupların yanaşı mövcudluğunu, dövlətin təhlükəsizliyini və dövlətlə cəmiyyətin qarşılıqlı münasibətlərini tə'min edir.

**Əlaqələndirmə** ümumi qəbul olunmuş terminlərdən, simvollardan, stereotiplərdən, digər informasiya vasitələrindən və ünsiyyət dilindən istifadə etmək əsasında hakimiyyətin bütün subyektlərinin və tə'sisatlarının qarşılıqlı tə'sirini şərtləndirir.

Siyasi mədəniyyətin **təhsil və tərbiyə funksiyaları** xüsusi əhəmiyyətə malikdir. **Təhsil funksiyasının** məzmunu siyasi ideyaların, nəzəriyyələrin və biliklərin mütəşəkkil, məqsədyönlü, sistemli və ardıcıl şəkildə əhalinin şüuruna çatdırılmasında ifadə olunur.

**Tərbiyə funksiyası** adamların sosial-siyasi təcrübəsinin zənginləşməsində, onlarda müəyyən siyasi əqidənin formalaşdırılmasında özünü göstərir. Təhsil və tərbiyə funksiyalarının qarşılıqlı əlaqəsi insanın faydalı sosial fəaliyyətə, səmərəli konkret sosial-siyasi davranışa sövq edilməsinə ciddi tə'sir göstərir. Siyasi mədəniyyətin məzmununda **səfərbəredici-birləşdirici** və **təhrikedici funksiyalar** spesifik əhəmiyyətə malikdir. Həmin funksiyalar öz ifadəsini bütövlükdə cəmiyyətin təkmilləşdirilməsinə istiqamətlənən şüurlu və fəal fəaliyyətdə, belə fəaliyyətə daim hazır olmaq qabiliyyətində və iradəsində tapır. Səfərbəredici və təhrikedici funksiyaların sosial mənası bundan ibarətdir ki, bu funksiyalar insanın mə'nəvi aləmi ilə praktiki fəaliyyətinin qarşılığlı tə'sirini şərtləndirir, cəmiyyətin əsaslarının möhkəmləndirilməsinə və hərtərəfli təkmilləşdirilməsinə imkan yaradır. Bir sözlə, cəmiyyət üzvlərində yetkin siyasi mədəniyyətə malik olmaq sə'ylərinin güclənməsinə təkan verir.

Siyasi mədəniyyət həmçinin, **sosial təşkilatçılıq** kimi çox mühüm funksiyanı yerinə yetirir. Bu funksiya adamlara məqsədyönlü tə'sir göstərməklə onları faydalı sosial yönümlü fəaliyyətə sövq edir, sosial-siyasi fəallığın təşəkkülü, inkişafı və yüksəlməsində qiymətli rol oynayır.

Siyasi mədəniyyətin ümumi əhəmiyyət daşıyan funksiyalarından biri isə **sosiallaşma funksiyasıdır.** Həmin funksiya cəmiyyət üzvlərində elə keyfiyyətlərin formalaşmasını tə'min edir ki, bunun sayəsində hər bir fərd mövcud hakimiyyət sistemində öz vətəndaşlıq hüquqlarını və vəzifələrini, siyasi funksiyalarını və mənafeyini reallaşdırmaq imkanına malik olsun. Sosiallaşma funksiyası nəinki siyasi sferada həmçinin, iqtisadi, əxlaqi və dini sferalarda şəxsiyyətin sosiallaşmasına mühüm tə'sir göstərir, müxtəlif vərdişlərin, sosial davranış qaydalarının mənimsənilməsini tə'min edir.

Qeyd etmək vacibdir ki, siyasət sferasında sosiallaşma prosesinə fərdin həyat fəaliyyətinin sosial və şəxsi tərəflərinin vəhdət halında dəyişməsi kimi baxmaq lazımdır. Siyasət sferasında sosiallaşma şəxsiyyətin formalaşmasına və inkişafına mühüm tə'sir göstərir. Siyasi sosiallaşma insanın siyasi münasibətlərin və siyasi fəaliyyətin subyekti kimi təşəkkülünün bütün prosesini əhatə edir. Sosiallaşma funksiyası həm insanın özünün siyasi mədəniyyətinə, və eləcə də bütövlükdə cəmiyyətin siyasi mədəniyyətinə bilavasitə tə'sir göstərir.

Siyasi mədəniyyətin funksiyaları müxtəlif inkişaf mərhələlərində heç də eyni səviyyədə fəaliyyət göstərmir. Məsələn, siyasi sabitliyin pozulduğu prosesdə həmin funksiyaların bə'zisinin fəaliyyəti zəifləyir və hətta dayanır. Siyasi təcrübə göstərir ki, siyasi sabitliyin pozulduğu hallarda siyasi mədəniyyətin əlaqələndirmə, sosial təşkilatçılıq funksiyalarının fəaliyyəti əhəmiyyətli dərəcədə zəifləyə bilər. Belə halda mövcud ölkədə siyasi hakimiyyətə münasibətdə əks mövqelərdə dayanan sosial qruplar arasındakı mübahisə və münasibətlər kəskinləşir.

Ümumiyyətlə, siyasi mədəniyyətin funksiyalarının çoxcəhətliyi ən əvvəl, onun öz məzmununun zənginliyi və rəngarəngliyi ilə müəyyən olunur.

Bu cəhət siyasi mədəniyyətin sosial qayəsini və rolunu başa düşmək üçün prinsipial əhəmiyyətə malikdir.

Vətəndaşların siyasi mədəniyyətinin yüksəldilməsi təkcə siyasi mədəniyyətin funksiyaları ilə tə'min olunmur. Həmin prosesin səmərəli olması həmçinin, siyasi mədəniyyətin formalaşmasına fəal tə'sir göstərən forma və vasitələrin hər an təkmilləşdirilməsini tələb edir. Bu tə'sir vasitələri içərisində şəxsi siyasi təhsil, tə'lim-tərbiyə prosesi, siyasi diskusiya dərnəkləri, kütləvi informasiya vasitələri və s. xüsusi yer tutur. Siyasi tərbiyənin nəticələri belə bir cəhəti təsdiqləyir ki, həmin prosesdə siyasi mədəniyyətin yüksəldilməsi məqsədilə həyata keçirilən tədbirlərdən daha çox, mövcud tədbirlərin tərbiyəvi və praktiki-siyasi səmərəsi mühüm rol oynayır.

Müxtəlif tə'sir formaları və vasitələrinin köməyilə adamların siyasi şüurluluq səviyyəsində baş verən dəyişiklikləri qiymətdləndirərkən onların rə'ylərini, əhval-ruhiyyəsini, bilik və görüşlərini, inamını və faydalı fəaliyyət yönümünü nəzərə almaq vacibdir. Siyasi tərbiyə prosesində fərdlərin siyasi marağından yayınmaq gözlənilən səmərəli nəticədən məhrum olmağa gətirib çıxarır. Başqa sözlə, siyasi mədəniyyətin yüksəldilməsinə ciddi ziyan vura bilər. Yetkin siyasi mədəniyyətə malik olmayan tərbiyəçi yüksək siyasi mədəniyyət də tərbiyə edə bilməz.

Adamların siyasi prinsipləri, normaları və ideyaları dərk etmələri əslində onların siyasi mədəniyyətini səciyyələndirir. Həmin siyasi ünsürlər vətəndaşların siyasi münasibətlər sferasında davranışını, onların əhatəsində olduğu sosial gerçəkliyə şüurlu münasibətini müəyyən edir və siyasi hadisələr sferasında insanın sabit qiymətli sosial fəaliyyət yönümünə imkan yaradır. Siyasi mədəniyyət ümumbəşəri və milli mövqelərin düzgün və ardıcıl əlaqələndirilməsini, bütün ictimai hadisələri siyasi cəhətdən qiymətləndirmək qabiliyyətini, dünya ölkələrinin sosial və siyasi inkişaf mənzərəsinin dürüst təhlil olunmasını ifadə edir. Sosial proseslərin siyasi mahiyyətini dərindən dərk etmək dərəcəsi bir tərəfdən subyektin siyasi yetkinliyini, digər tərəfdən isə onun ictimai fəaliyyət sferasında prinsipial və məqsədyönlü mövqeyini əks etdirir. Vətəndaşların siyasi mədəniyyətinin yetkinliyi sosial həyatın bütün sferalarının qarşılıqlı tə'sir zəminində inkişafını,

xüsusilə, mə'nəvi həyatın zənginliyini, rəngarəngliyini və bütövlüyünü tə'min edən amillərdəndir.

Siyasi elmə aid ədəbiyyatda siyasi mədəniyyətin funksiyaları ilə yanaşı onun tiplərinin müəyyənləşdirilməsinə də ciddi diqqət yetirilir. Siyasi mədəniyyətin tiplərinin müəyyən olunması müxtəlif ölkələrin və xalqların siyasi mədəniyyətinin qiymətləndirilməsi və səciyyələndirilməsi baxımdan xüsusi əhəmiyyətə malikdir. Bütün ölkələr və xalqlar üçün yeganə siyasi mədəniyyət mövcud deyilidir. Siyasi mədəniyyətin tiplərinin təsnifatı bir meyar əsasında izah oluna bilməz. Çünki hər bir ölkənin və millətin təşəkkülü və inkişaf xüsusiyyətləri onun siyasi mədəniyyətinin mahiyyətində, strukturunda və formalarında dərin iz buraxır. Bu və ya digər ölkənin, millətin, xalqın siyasi mədəniyyətinin təşəkkülü və təkamülü bir sıra obyektiv və subyektiv xarakterli sosial, təbii amillərin tə'siri altında tə'min olunur.

## 4. SİYASİ MƏDƏNİYYƏTİN TİPLƏRİ

Siyasi mədəniyyətin tiplərinin təsnifatının əsasını ictimai-tarixi, coğrafi, milli-mədəni, iqtisadi, mə'nəvi, dini və digər amillər təşkil edir.

Politologiyaya dair müasir ədəbiyyatda siyasi mədəniyyətin tiplərinin təsnifatına ciddi maraq göstərilir. **X.Ekstayn, Q.Almond, S.Verba, D.Elazar, E.Vyatr** və başqaları siyasi mədəniyyətin tiplərini müxtəlif me'yarlara əsaslanaraq müəyyənləşdirməyə sə'y göstərmişlər. Elmi ədəbiyyatda siyasi mədəniyyətin tiplərinə dair təsnifatlardan **Q.Almondun** və **S.Verbanın** təklif etdiyi təsnifat daha çox diqqəti cəlb edir. Onlar siyasi mədəniyyətin özünəməxsus, spesifik modelini işləyib hazırlamış və əsaslandırmışlar. Almond və Verba siyasi mədəniyyətin tiplərinə dair təsnifatı ilk dəfə birgə yazdıqları və 1963-cü ildə Nyu-Yorkda çap etdirdikləri "Vətəndaş mədəniyyəti adlı kitabda irəli sürmüşlər. Həmin alimlər İngiltərə, İtaliya, AFR, ABŞ və Meksikanın siyasi sisteminin komponentlərinin və formalarının müqayisəli təhlili əsasında bu ölkələrin "siyasi mədəniyyətinin

loyal xarakterini müəyyənləşdirərək siyasi mədəniyyətin üç başlıca tipinin mövcudluğunu əsaslandırırlar: **"vətəndaşlıq mədəniyyəti"**, **"tabelik-itaətetmə mədəniyyəti"** və **"patriarxal mədəniyyət"**. Almond və Verba **vətəndaşlıq mədəniyyətini** siyasi mədəniyyətin yüksək, ideal tipi sayırlar. Onlar iddia edirlər ki, siyasi mədəniyyətin bu tipi məhz, ABŞ və İngiltərədə yayılmışdır. Həmin fikri onunla əsaslandırırlar ki, cəmiyyət üzvlərinin azadlığı ilə siyasi sistemin sabitliyinin üzvi surətdə əlaqələndirilməsi daha çox bu ölkələrdə tə'min olunur. Vətəndaşlıq mədəniyyəti tipi öz xüsusiyyətlərinə, prinsiplərinə və fəaliyyət üsullarına görə demokratiyanın ingilis-amerika modelinə tam uyğun gəlir. Siyasi mədəniyyətin vətəndaşlıq tipini səciyyələndirən cəhət bundan ibarətdir ki, vətəndaşlar siyasətdə, siyasi həyatda iştirak etməyə və fəallıq göstərməyə daxili tələbat duyurlar.

**Almond və Verba** siyasi mədəniyyətin **tabelik-itaətetmə** tipinin isə digər inkişaf etmiş kapitalist ölkələrində yayıldığını təsdiqləyir və qeyd edirlər ki, o, siyasi tə'sisatlara güclü meyli, lakin vətəndaşların fərdi fəallıq səviyyəsinin yüksək olmadığını səciyyələndirir. Nəhayət, onlar **patriarxal siyasi mədəniyyət** tipinin inkişaf etməkdə olan ölkələrdə qərarlaşdığını əsaslandırırlar. Siyasi mədəniyyətin həmin tipi bununla səciyyələnir ki, vətəndaşlar siyasi həyata maraq göstərmirlər. Almond və Verbanın gəldikləri qənaətə görə siyasi mədəniyyətin haqqında mülahizələr yürütdüyümüz hər üç tipi fəaldır və bir-birinə qarşılıqlı tə'sir göstərir. Bununla yanaşı, onlar Amerika və ingilis siyasi mədəniyyətinin daha mütərəqqi və sabit xarakterə malik olduğunu e'tiraf edir və siyasi mədəniyyətin digər tiplərini isə məhz, onun yüksək (amerika-ingilis) tipinə yanaşma mərhələsi kimi qiymətləndirirlər.

Almond və Verba ingilis-amerika siyasi sistemini və siyasi mədəniyyətini beynəlxalq etalon kimi sübuta yetirməyə çalışırlar. Bu siyasi mədəniyyət əhalinin orta təbəqələrinin vəziyyəti baxımdan araşdırılır. Başqa sözlə, həmin təbəqənin maddi tə'minatının qənaətbəxş səviyyədə olduğu nəzərə çatdırılır, mənafeyinin isə e'tibarlı şəkildə müdafiə olunduğu göstərilir. Məhz, buna görə vətəndaşların siyasətdə iştirakı sistem daxilində və sistemin normalarına uyğun gələn iştirak kimi tədqiq olunur. Ölkələrin və xalqların siyasi mədəniyyəti müxtəlif sosial sərvətlər

yönümünün və vətəndaşların siyasətdə iştirakının bir-birinə nüfuz etməsi, milli adətlər, ən'ənələr prosesində, həmçinin cəmiyyətin mütərəqqi inkişafının və dövlətin sabit cəhətlərinin tə'siri altında formalaşır. Məsələn, ABŞ dövlətinin təşəkkülü və inkişafı tarixinə diqqət yetirsək aydın şəkildə görərik ki, bu ölkədə demokratiyanın e'tibarlı bazası yaradılmış və plyuralist hakimiyyətin təşkili tə'min olunmuşdur. Həmin mühüm xüsusiyyət ABŞ vətəndaşlarının siyasi fəallığının aşağı səviyyədə olmasını şərtləndirmişdir. Lakin burada vətəndaşların siyasi fəallıq səviyyəsinin yüksək olmaması heç də mənfi hal kimi təsəvvür edilməməlidir. ABŞ-da sözün əsl mə'nasında demokratik zəmində qərarlaşan hakimiyyət bölgüsü vətəndaşların hakim elitaya rəğbətini şərtləndirir, siyasətdə iştirakın legitim formalarından istifadə etməyə maraq doğurur və yüksək vətəndaşlıq keyfiyyətlərinin, vətənpərvərlik hissinin formalaşmasına təkan verir. Avropanın inkişaf etmiş bir sıra ölkələrində (İngiltərə, Almaniya və s.) siyasi mədəniyyəti səciyyələndirən başlıca cəhətlər hakimiyyətin legitimliyinin yüksək səviyyəsi, siyasi elitanın öz fəaliyyəti və hərəkətləri üçün mə'suliyyət daşıması, dövlətçilik simvollarına və qaydalarına dərin rəğbət, vətəndaşların qanunlara sözsüz tabe olması, siyasi davranışın hüquqi normalarla şüurlu surətdə tənzim olunması və vətəndaş mə'suliyyəti kimi keyfiyyətlərdir. Əlbəttə, bu və ya digər ölkənin siyasi mədəniyyətinin özünəməxsusluğu, spesifik xüsusiyyətləri heç də müxtəlif ölkələrin və xalqların siyasi mədəniyyətində mövcud olan bə'zi oxşar, ümumi cəhətləri inkar etməyə əsas vermir. Siyasi mədəniyyətlərin bir-birinə yaxınlaşması təbii və qanunauyğun haldır. Lakin bu, mürəkkəb və uzun sürən prosesdir.

Q. Almond siyasi mədəniyyətin yuxarıda qeyd etdiyimiz üç "təmiz tipi ilə yanaşı onun digər tiplərinin mövcudluğunu da iddia edir. Bu politoloqun siyasi mədəniyyətin tiplərinə dair təklif etdiyi təsnifatda siyasi mədəniyyətin **homogen (eyni mənşəli), natamam, qarışıq və totalitar tipləri** maraq doğurur. Almond göstərir ki, ABŞ, Böyük Britaniya və digər anqlosaks ölkələrində homogen siyasi mədəniyyət üstünlük təşkil edir. **Homogen siyasi mədəniyyəti** səciyyələndirən cəhət budur ki, siyasi proseslərin subyektlərinin böyük əksəriyyətini mövcud siyasi sistemin təşkilinin başlıca prinsipləri və ümumi normaları ayırır. Belə siyasi

mədəniyyət şəraitində siyasi sistemin mühüm ünsürü olan siyasi partiyalar, mənafeləri uyğun gələn qruplar və "dördüncü hakimiyyət adlandırılan kütləvi informasiya vasitələri əhəmiyyətli dərəcədə müstəqil fəaliyyət göstərmək imkanına malik olur və nəticə e'tibarilə bütün mənafelərin və mövqelərin qanuniliyi e'tiraf olunur. Bu isə öz növbəsində cəmiyyətdə praqmatik siyasi xəttin həyata keçirilməsinə zəmin yaradır, müxtəlif sosial subyektlər arasında konsensusun (razılığın) baş tutmasını tə'min edir.

Kontinental avropa ölkələrinin siyasi mədəniyyəti həm də **natamam tipli** olması ilə səciyyələnir. **Natamam siyasi mədəniyyət** siyasi qaydalara münasibətdə müxtəlif sosial qruplar arasında zəruri konsensusun qeyri-mümkünlüyü ilə diqqəti cəlb edir. Siyasi mədəniyyətin **natamam-yarımçıq tipində** faydalı fəaliyyət yönümünə və davranış qaydalarına görə bir-birinə uyğun gəlməyən xeyli **subkulturalara**[1] təsadüf olunur. Bir-birinə qarşı duran subkulturalarla səciyyələnən natamam siyasi mədəniyyət tipi Fransa və İtaliyanın müxtəlif siyasi inkişaf mərhələlərində özünü göstərmişdir. Belə siyasi mədəniyyət şəraitində siyasi sabitliyin pozulması nəzərə çarpır.

Almond **totalitar siyasi mədəniyyət tipinin** izahına xüsusi diqqət yetirir və onu digər tiplərin hamısından köklü surətdə fərqləndirir. Totalitar siyasi mədəniyyət zahirən homogen tipi xatırladır. Lakin totalitar siyasi mədəniyyətdə homogenlik (eyni mənşəyə malik olmaq) sün'i xarakter daşıyır. Heç də təsadüfi deyil ki, totalitar siyasi mədəniyyət tipində könüllü təşkilatlar və birliklər qadağan olunur, siyasi kommunikasiyalar (siyasi əlaqələr) sisteminə isə mərkəzdən nəzarət edilir. Belə siyasi mədəniyyətin hökmranlığı şəraitində vətəndaşların hakim siyasi elitaya qarşı rəğbət dərəcəsini müəyyənləşdirmək çətin olur.

Almond və Verbanın təsnifatını təkmilləşdirmək əsasında U. **Rozenbaum** siyasi mədəniyyətin **yeni-inteqrallaşma (birləşmə) tipini** müəyyənləşdirir. Siyasi mədəniyyətin bu tipi cəmiyyətin siyasi təşkilinin başlıca məsələlərinə dair yüksək dərəcədə konsensusun mövcudluğu, siyasi zorakılığın aşağı səviyyəsi və plyuralizmin müxtəlif formalarının mükəmməlliyi ilə fərqlənir.

---

[1] Subkultura-müəyyən etnik qrupların, sosial təbəqələrin, ictimai təşkilatların özünəməxsus, spesifik siyasi mədəniyyətini ehtiva edir.

Amerika politoloqu **D. Elazarın** fikrincə siyasi mədəniyyətin **üç başlıca tipi** mövcuddur: **əxlaqi, fərdi və ən'ənəvi.**

Digər amerika politoloqu **U. Blyum** isə siyasi mədəniyyətin **liberal və kollektiv tiplərə** malik olduğunu iddia edir.

Siyasi mədəniyyətin yuxarıda qeyd olunan tipləri şübhəsiz, müəyyən əhəmiyyətə malikdir. Çünki siyasi mədəniyyətə dair hər hansı təsnifat bu və ya digər ölkənin, millətin spesifik milli-mədəni və ən'ənəvi tarixi xüsusiyyətlərinin araşdırılması, müqayisəli təhlili əsasında irəli sürülmüşdür.

Bu cəhət məhz, müxtəlif ölkələrin və xalqların siyasi mədəniyyətini qiymətləndirmək baxımdan nəzərə alınmalıdır. Avropa və Yaxın Şərq, Qərb yarımkürrəsi və Uzaq şərq regionu, Afrika və Avstraliya üçün vahid siyasi mədəniyyət modelinin mövcudluğundan danışmaq düzgün deyildir.

Siyasi mədəniyyətin əhatə dairəsinə görə daha **geniş, böyük tipləri** və ya **modeli** aşağıdakılardır: **liberal-demokratik, avtoritar və totalitar.** Siyasi mədəniyyətin həmin tiplərinin fərqli cəhətlərini aydınlaşdırmaq məqsədilə məntiqi ardıcıllıqla onların müqayisəli təhlilinə keçək.

Siyasi mədəniyyətin liberal-demokratik tipi hər bir konkret ölkədə milli-spesifik formada təzahür edir Liberal-demokratik tipin ən mühüm komponenti fərdi azadlıq ideyasıdır. Başqa sözlə, hər bir şəxsin yaşamağa, azadlığa və xüsusi mülkiyyətə yiyələnməyə anadan gəlmə, təbii hüququ vardır. Burada başlıca cəhət xüsusi mülkiyyətin fərdi azadlığın əsasını təşkil etməsinə və hər bir şəxsin özünütəsdiqi üçün zəruri şərait yaratmasına inanmaqdır. Liberal-demokratik tip sosial, iqtisadi, mə'nəvi və siyasi sferada plyuralizmin təzahürü ilə səciyyələnir. Plyuralizm ictimai həyatın bütün sferalarında müxtəlif prinsiplərin qərarlaşmasını əks etdirir. O, sosial sferada ayrı-ayrı sinifləri, təbəqələri, mənafeləri uyğun gələn qrupları və sairəni; mədəni-mə'nəvi sferada etnik, regional mədəniyyətləri, mədəniyyət tiplərini və cərəyanlarını, kütləvi informasiya vasitələrini, dini təriqətləri, məzhəbləri: siyasi sferada siyasi qüvvələri, partiyaları, təşkilatları, qruplaşmaları və bu kimi digər birlikləri nəzərdə tutur. Liberal-demokratik tipin plyuralist prinsipləri cəmiyyətdəki bütün fərdlərin və qruplaşmaların özünü təsdiqi üçün bərabər imkanlara malik olmalarını ifadə edir. Həmin

prinsip **hüquqi cəmiyyət üçün** səciyyəvi olan çox mühüm cəhəti-qanun qarşısında hamının bərabərliyini əks etdirir.

Liberal-demokratik modeldə həmçinin **vətəndaş cəmiyyəti ideyası** mərkəzi yer tutur. Həmin ideyada belə bir təsəvvür mühüm rol oynayır ki, azadlıq **nəinki dövlət hakimiyyətinin tarazlığını şərtləndirən çoxlu hakimiyyət mərkəzlərinin** mövcudluğunu, **eləcə də iqtisadi seçmə azadlığını ifadə edir.** Əgər totalitar və avtoritar siyasi sistemlərdə dövlət cəmiyyət üzərində hökmranlıq edirsə, burjua-demokratik sistemdə əksinə, cəmiyyət dövlətin və onun tə'sisatlarının üzərində hakimdir.

**Hərtərəfli inkişaf etmiş vətəndaş cəmiyyəti** inkişaf etmiş siyasi demokratiyasız, hüquqi dövlətsiz mümkün deyildir.

Liberal-demokratik tipdə və ya modeldə cəmiyyət üzvlərinin böyük əksəriyyətinin şüurunda **siyasi nümayəndəlik ideyasının** bərqərar olması xüsusi əhəmiyyətə malikdir. Bütün adamların bərabərliyinə dair maarifçilik ideyası mahiyyət e'tibarilə belə bir cəhəti təcəssüm etdirir ki, heç bir insan digər şəxsi onun razılığı olmadan idarə edə bilməz. Lakin qeyd edək ki, dövlətin idarə olunmasında ayrı-ayrı fərdin bilavasitə iştirakı mümkün olmadığına görə demokratik idarə forması hakimiyyət sistemində müxtəlif təbəqələrin nümayəndəliyi prinsipini qərarlaşdırmışdır. Əlbəttə, ayrı-ayrı ölkələrdə bu prinsip müxtəlif cür təşəkkül tapır.

Nümayəndəlik prinsipi və müxtəlif sosial qrupları təmsil edən adamların seçilməsi prinsipi qanunvericilikdə və digər orqanlarda həmin prinsiplərin reallaşması vasitələrinə dair məsələnin öz əksini tapmasını şərtləndirdi. Belə vasitə olmaq e'tibarilə bütün ölkələrdə tədricən siyasi partiyalar təşəkkül tapdı. Həm də siyasi partiyalar təkcə siyasi proseslərin reallaşdırılması vasitəsi kimi deyil, **qanuni müxalifət** kimi formalaşdı. Başqa sözlə, cəmiyyətdə müxtəlif mənafelərin qanuniliyinin e'tirafı hakimiyyət sistemində həmin mənafelərin partiyalar tərəfindən təmsil olunması qanuniliyini şərtləndirdi.

Zaman keçdikcə əhalinin geniş təbəqələrinin şüurunda partiyalara münasibət cəmiyyətin siyasi təşkilinin ən mühüm ünsürü kimi qərarlaşmışdır. Bu, həm hakim partiyalara və eləcə də müxalifətdə olan partiyaların əksəriyyətinə aiddir.

Liberal-demokratik tipi səciyyələndirən ünsürlər sırasında **azadlıq, bərabərlik və ədalətin nisbəti** problemi mühüm yer tutur. Bununla belə həmin problemə müxtəlif nöqteyi-nəzərdən münasibət diqqəti cəlb edir. Belə ki, açıq şəkildə bərabərlik ideyasına qarşı çıxan, sosial bərabərliyin zəruriliyini e'tiraf edən, azadlığı anarxist mövqedən qiymətləndirən, həyatın müxtəlif sferalarında dövlət tərəfindən fərdi azadlığın sərt şəkildə məhdudlaşdırılmasının məqsədəuyğunluğunu ifadə edən görüşlərə təsadüf olunur. Bununla belə siyasi mədəniyyətin liberal-demokratik tipinin tərəfdarları **hüququ, hüquqi sistemi** fərdi azadlığa tə'minat verən amil kimi qiymətləndirirlər. Onlar belə hesab edirlər ki, qanun şəxsiyyət azadlığını, mülkiyyətin, mənzilin, şəxsi həyatın toxunulmazlığını, mə'nəvi azadlığı tə'min etməlidir. Cəmiyyətdə insanlar deyil, məhz, qanun hökmranlıq etməlidir. Dövlətin funksiyası isə insanlar arasındakı münasibətləri qanun əsasında tənzimləməkdir.

Liberal-demokrat tipinə meyl edənlər bildirirlər ki, əsl həqiqət cəmiyyətin hər bir üzvünün siyasi proseslərdə iştirak etmək hüququndan, siyasi partiyalar, müxtəlif qruplar arısındakı "oyun qaydalarını müşahidə etməkdən, hakimiyyətin bütün səviyyələrində ümumi seçkilər əsasında hakimiyyətin dəyişilməsindən, plyuralist demokratiyanın mövcudluğundan və sairədən ibarətdir.

Liberal-demokratik siyasi mədəniyyətin daşıyıcısı olan qərb ölkələrinin əhalisinin müəyyən hissəsinin dövlətə və onun tə'sisatlarına münasibəti ziddiyyətlidir. Bu ölkələrin əhalisinin müəyyən kateqoriyaları bir tərəfdən dövləti qanunun və əxlaqın tə'minatının əsl mənbəyi hesab edirlər. Onlar inanırlar ki, güclü dövlət olmadan cəmiyyətdə hakimiyyət səviyyəsində anarxiya hökm sürər. Digər tərəfdən isə dövlətin təzyiq alətinə və şəxsiyyətin hüquqlarının pozulması vasitəsinə çevrilə biləcəyini başa düşürlər.

Liberal-demokratik siyasi mədəniyyətin subyekti olan qruplar içərisində **fərdlə cəmiyyətin, cəmiyyətlə hökumətin nisbəti** məsələsinə müxtəlif mövqedən yanaşma meylləri də diqqəti cəlb edir. Mühafizəkar görüşlərin daşıyıcısı olan vətəndaşların müəyyən qismi cəmiyyətə üstünlük verir və cəmiyyətlə

hökumətin eyniləşdirilməməsi mövqeyindən çıxış edirlər. Onlar bildirirlər ki, hökumət cəmiyyətin siyasi aləti olmaq e'tibarilə insan hüquqlarının müdafiəsini tə'min etməlidir. Mühafizəkar görüşləri ilə səciyyələnən vətəndaşların müəyyən hissəsi hökumətin roluna üstünlük verirlər. Qanun və qaydalara, intizama birinci dərəcəli əhəmiyyət verməklə onlar hakimiyyətin və hökumətin nüfuzunun bərpa olunmasının və yüksəldilməsinin zəruriliyini göstərirlər. Həm də qeyd edirlər ki, əsl azadlığı yalnız güclü dövlət tə'min edə bilər.

Ümumiyyətlə, liberal-demokratik modeldə dövlətin roluna müxtəlif münasibət əhalinin başlıca kateqoriyalarının ən çox hansı siyasi tə'sisata üstünlük verdiyini müəyyənləşdirməyə çətinlik törədir.

Qeyd etmək lazımdır ki, Qərb ölkələrinin vətəndaşlarının əksəriyyəti bu ölkələrdə mövcud olan ictimai-siyasi və dövlət tə'sisatlarına rəğbətlə yanaşır. Əhalinin bu və ya digər qisminin ayrı-ayrı hallarda müəyyən siyasi tə'sisatların, o cümlədən dövlətin ünvanına söylədikləri heç də onların mövcud siyasi sistemdən narazılığını ifadə etmir. Təsadüfi deyil ki, başlıca sosial-siyasi qüvvələr (sosial-demokratlar, liberallar və mühafizəkarlar) arasında nəzərə çarpan münaqişə və mübahisələr idarə formaları və hakimiyyət məsələsi ilə deyil, məhz, mövcud idarəetmə formalarını və hakimiyyəti kim daha yaxşı həyata keçirə bilər problemi ilə şərtlənir.

İndi isə siyasi mədəniyyətin **avtoritar** və **totalitar tiplərinin** izahına keçək. Totalitar və avtoritar siyasi rejimləri fərqli cəhətlərlə yanaşı bir sıra ümumi prinsiplər və normalar səciyyələndirir. Bu xüsusiyyəti nəzərə alaraq həmin rejimlər üçün xarakterik olan siyasi mədəniyyəti vəhdət halında, vahid **totalitar-avtoritar siyasi mədəniyyət** kimi şərh edəcəyik. Həm də ilk növbədə totalitar-avtoritar şüurun siyasi reallığa aid olan prinsipləri, xüsusiyyətləri və ünsürlərini nəzərdən keçirəcəyik. Totalitar şüurun başlıca fərqləndirici xüsusiyyəti məhdud qrupa və kollektivə xas olan prinsiplərin şəxsi, fərdi prinsiplərdən üstünlüyüdür. Buna uyğun olaraq dövlət adamların şüurunun, daxili aləminin formalaşmasına ciddi nəzarət edir. Belə halda şəxsiyyətin formalaşmasının başlıca vasitəsi **fərdi-şəxsi amilin kollektiv-qrup amilinə tabe olmasıdır.**

Siyasi mədəniyyətin totalitar-avtoritar tipinin mühüm xüsusiyyətlərindən biri əsrlər boyu təşəkkül tapan **mə'nəvi mədəniyyət ən'ənələrinin xeyli hissəsinin inkarı və hətta məhv edilməsi ideyasıdır.** Bu ideya ayrı-ayrı ölkələrdə müxtəlif cür həyata keçirilmişdir. Həmin mürtəce ideyanın mahiyyəti bundan ibarətdir ki, guya köhnə ən'ənələr yeni mədəniyyət normalarının, adət və ən'ənələrin normal təşəkülü və inkişafına mane olar.

Totalitar-avtoritar siyasi mədəniyyət tipində həmçinin, başqa bir **ideya-millət və xalqların təbiətinin köklü surətdə dəyişdirilməsi ideyası** mövcuddur. Bu ideyanın tərəfdarlarının çoxu belə iddia edir ki, millət adamların xüsusi tarixi birliyi kimi onların ərazisinin, iqtisadi əlaqələrinin, ədəbi dilinin, spesifik mədəniyyətinin və milli xarakterinin formalaşmasının müəyyən mərhələsində yaranmışdır. Guya müxtəlif millətlərin birgə həyat fəaliyyəti prosesində onlara xas olan spesifik xüsusiyyətlər tədricən aradan qalxacaq və yalnız millətlərin ümumi cəhətləri yaşayacaqdır. Milli mədəniyyətlərin bir-birini qarşılıqlı surətdə zənginləşdirməsi prosesində ictimai həyatın beynəlmiləlləşəcəyi ideyası mahiyyət e'tibarilə bundan ibarətdir ki, köhnə adətən'ənələrlə bir araya sığmayan keyfiyyətcə yeni məişət və mədəniyyət ünsürləri (o cümlədən siyasi mədəniyyət) təşəkkül tapacaq. Lakin totalitar-avtoritar siyasi mədəniyyət tipinin bə'zi variantlarında sün'i şəkildə həmin prosesi sür'ətləndirmək cəhdi bununla nəticələndi ki, köhnə mədəniyyət ünsürləri ömrünü sadəcə olaraq başa vurmadı, təbii olaraq öz-özünə aradan qalxdı, bə'zi hallarda isə həmin ünsürlərin kökü tamamilə kəsildi. Bu həqiqət keçmiş SSRİ-nin və digər avtoritar-totalitar rejimli dövlətlərin timsalında aydın təsdiqləndi. Totalitar tipli siyasi rejimlərdə yenicə təşəkkül tapmağa başlayan ən'ənələr zamanın sınağından çıxa bilmədi və çıxa da bilməzdi. Təbii olaraq **bu yeni ən'ənələr yaşamadı, adamların şüurunda və davranışında qərarlaşmadı.**

Xalqa zidd rejimlərin rəhbərləri xalqların və millətlərin həqiqi mənafeyinin ifadəçisi olduqlarını unutdular. **Özünü xalqın "rəhbəri" adlandıranlar tədricən öz şəxsi mənafe sferasını hər şeydən əziz tutdular.** Hələ vaxtilə XIV Lüdovik qətiyyətlə

deyirdi ki, "dövlət mən özüməm. Belə düşüncəli rəhbər şəxsiyyətlərin fəaliyyəti cəmiyyətdə spesifik mə'nəvi vakuumun (boşluğun) yaranmasına gətirib çıxardı. Bu mə'nəvi tənəzzül nəinki ayrı-ayrı fərdlərin, həm də bütövlükdə cəmiyyətin fəlakətli vəziyyətə düşməsinə səbəb oldu.

Totalitar-avtoritar siyasi mədəniyyət tipinin **digər əlaməti siyasi fəaliyyətin əxlaqi cəhətdən qiymətləndirilməməsidir.** Axı zorakılıq, güc həqiqətinin qərarlaşması əxlaqla, demokratiya ilə bir araya sığmır. Demokratik siyasi mədəniyyətin belə bir cəhəti mövcuddur ki, əgər insan (xüsusilə dövlət xadimi) hamıya mə'lum olan dəlillər əsasında öz mövqeyinin (məs; proqramının) düzgünlüyünü milyonlarla seçicilərə və seçkilərdə ona e'timat göstərməyənlərə inandırmaq qabiliyyətinə malik deyilsə - **həmin dövlət xadiminin öz mənafeyi naminə məcburetmə və zorakılıq tədbirlərinə əl atmağa haqqı yoxdur.**

Əlbəttə, antik dövrün "Allah və hökmdar həmişə haqlıdır prinsipi əsasında formalaşdırılan ictimai rə'y, habelə siyasətçilərin zorakılığa "xalqın mənafeyi baxımdan haqq qazandırması kütlələrin zorakılığı düzgün vasitə kimi qəbul etmələrinə təkan verir. XX əsrin tarixi təsdiqlədi ki, totalitar-avtoritar dövlətlərin mövcudluğu məhz, həmin rejimləri xalqın kütləvi şəkildə müdafiə etməsi ilə bağlıdır. Lakin belə vəziyyətə həmişə sırf siyasi vasitələrlə deyil, həmçinin, bu vasitələrin fiziki zorakılıqla əlaqələndirilməsi sayəsində nail olmaq mümkündür. Əhalinin siyasi mədəniyyəti bə'zən, xüsusilə mövcud dövlətin dağıldığı dövrdə artmaqda olan siyasi passivliklə səciyyələnir. Belə halda həm insanın özü şəxsiyyət kimi tənəzzülə uğrayır, həm də bütövlükdə cəmiyyət daha inkişaf edə bilmir.

Siyasi mədəniyyətin siyasi həyata tə'siri, onun funksiyalarının və tiplərinin əhəmiyyəti xeyli dərəcədə siyasi mədəniyyətin özünün inkişafını şərtləndirən bir sıra amillərlə bağlıdır. Həmin amillərdən ən əhəmiyyətlisi **ideologiya, əhalinin qanunçuluq ideyasını qəbul etməsi, kütləvi informasiya vasitələri, milli amil, din, təhsil, tərbiyə** və sairədir.

İdeologiya müəyyən sosial qrupların mənafeyi ilə şərtlənir. O, adamların şüuruna güclü tə'sir göstərir. Əhalinin bu və ya digər ideologiyanı qəbul etməsi zorakı yolla deyil, könüllü surətdə

həyata keçirilməlidir. Siyasi praktika göstərir ki, bu və ya digər ölkədə bir neçə ideologiya mövcud ola bilər. İdeologiya plyuralizmi ölkədə təbii olaraq müxtəlif subkulturaların yaranmasına ciddi tə'sir göstərə bilər.

Siyasi mədəniyyətin inkişafına tə'sir göstərən çox mühüm amillərdən biri kütləvi informasiya vasitələridir. Operativ, düzgün və hərtərəfli informasiya əhalinin geniş dairəsinin ölkənin siyasi həyatına dair problemləri, dövlət səviyyəsində yeridilən siyasi xəttin mahiyyətini, cəmiyyət qarşısında duran ciddi sosial məsələlərin həllində şüurlu fəaliyyəti dərindən dərk etməsinə zəmin yaradır. Kütləvi informasiya vasitələri cəmiyyətin bütün sferalarına və tə'sisatlarına əhəmiyyətli tə'sir göstərir. Onların köməyi ilə kütləvi mədəniyyət formalaşır, yayılır, mənimsənilir və qorunur. Kütləvi informasiya vasitələri, həmçinin, ictimai şüurun təşəkkülü, fəaliyyəti və təkamülündə mühüm rol oynayır. Başlıcası isə siyasi sferaya nüfuz etməklə siyasi proseslərin reallaşmasının ən mühüm vasitəsi kimi çıxış edir. Heç də təsadüfi deyil ki, müasir siyasi elmdə kütləvi informasiya vasitələri "hakimiyyətin dördüncü qolu adlandırılır.

Siyasi mədəniyyətin, onun funksiyalarının və tiplərinin təkamülündə, həmçinin, **milli amil** spesifik rol oynayır. Milli amilin əhəmiyyətini birmənalı qiymətləndirmək olmaz. O, bir tərəfdən milli dövlətin yaranmasının və onun müstəqilliyinin, milli mədəniyyətin və dilin inkişafının vacib atributudursa, digər tərəfdən siyasi həyatın təşkilini, siyasi proqramların, şüarların, simvolların yaradılmasını şərtləndirir, milli şüurun, mənlik şüurunun formalaşmasına imkan yaradır. Milli amil sosial əhəmiyyətli ümumi inkişaf meylini sür'ətləndirən ictimai hadisədir. Hər bir xalqın, millətin öz mədəniyyətini, dilini, təhsilini və digər mə'nəvi dəyərlərini inkişaf etdirməsi məhz, milli amil zəminində tə'min olunur. Bununla yanaşı milli amil təzahür xarakterindən asılı olaraq etnosun siyasi mədəniyyətinə müsbət və mənfi tə'sir göstərə bilər.

Siyasi mədəniyyətin məzmununun inkişafına tə'sir göstərən amillər sırasında mə'nəvi mədəniyyətin mühüm ünsürlərindən biri olan **təhsil** xüsusi yer tutur. Yüksək təhsilli insan nəinki ümumi mədəniyyətə, həm də siyasi mədəniyyətə daha çox və mükəmməl

səviyyədə yiyələnir, mə'nəvi sərvətləri mənimsəməyə daxili tələbat duyur. Təhsil adamların yüksək mədəni səviyyəyə yiyələnməsi və tariximə'nəvi prosesləri düzgün izləməsi üçün ilkin şərtdir. Sözün geniş mə'nasında təhsilin məqsədi təbiətin, cəmiyyətin, insanın idrakının və davranışının qanunları haqqında elmi bilikləri yaymaq və mənimsətməkdir. Təhsil təbii və ictimai hadisələri, onların əlaqələrini və inkişaf meyllərini dərk etməyə yardım göstərir. Təcrübə təsdiqləyir ki, mövcud cəmiyyətin siyasi-əxlaqi normalarının adamlar tərəfindən lazımi səviyyədə mənimsənilməsi xeyli dərəcədə təhsil ilə bağlıdır. Bir sözlə, təhsilin köməyilə insan mənsub olduğu cəmiyyətin sosial, siyasi və əxlaqi prinsiplərinə yiyələnir, milli və bəşəri tələbləri mənimsəmək səviyyəsinə yüksəlir.

## 5. ŞƏXSİYYƏTİN SİYASİ SOSİALLAŞMASI

Cəmiyyətin siyasi strukturunun təkmilləşməsi qanunauyğun, daimi və mürəkkəb prosesdir. Bu proses müxtəlif istiqamətlərdə və müəyyən amillərin tə'siri altında inkişaf edir. Cəmiyyətin siyasi strukturunun məqsədyönlü inkişafı sistemində şəxsiyyətin **siyasi sosiallaşması** spesifik və çox mühüm yer tutur. Sosiallaşma geniş anlayış olub insanların həyat fəaliyyətinin bütün sferalarını, o cümlədən siyasəti əhatə edir.

Siyasi sosiallaşma mövcud cəmiyyətin siyasi strukturunun təkrar istehsalını, onun üçün xarakterik olan ictimai-siyasi münasibətləri, bu münasibətlərin inkişaf istiqamətini, həmçinin, cəmiyyətin siyasi münasibətlərinin subyektinin-şəxsiyyətin spesifik keyfiyyətlərinin təkrar istehsalını səciyyələndirir.[1] Sosiallaşma siyasi sferada tarixi varisliyin təşkili üsuludur. O, "keçmişlə gələcəyin əlaqələndirilməsində özünəməxsus rol oynayır, başqa sözlə, keçmiş nəsillərin təcrübəsini mənimsəmək əsasında fərdlərin cəmiyyətin siyasi tə'sisatlarına, ilk növbədə siyasi sistemə cəlb olunmasını tə'min edir. Şəxsiyyətin siyasi sistemlə qarşılıqlı

---

[1] Философская энциклопедия. т.5. М. 1970. Səh.67.

fəaliyyəti gedişində iki proses nəzərə çarpır. Bir tərəfdən siyasi sistemə yeni üzvlərin cəlb olunması ilə bu sistemin öz-özünə təkrar istehsalı baş verir, siyasi sosiallaşma bu prosesdə siyasi sərvətlərin və sistemin məqsədlərinin saxlanması mexanizmi rolunu oynayır, siyasətdə nəsillərin varisliyinin saxlanmasına imkan yaradır, digər tərəfdən siyasi sistemin tələbləri şəxsiyyətin strukturuna tə'sir göstərir. Belə ki, siyasi sosiallaşma onun siyasi şüurunun, siyasi davranışının təşəkkülünə təkan verir, nəticə e'tibarilə şəxsiyyət-vətəndaşın formalaşması tə'min olunur. Məhz, bu mə'nada siyasi sosiallaşma siyasi tərbiyə və ya siyasi maariflənmə anlayışlarından genişdir. Başqa sözlə, o, təkcə hakim ideologiyanın şəxsiyyətə məqsədyönlü tə'sirini deyil, həm də kortəbii tə'siri və şəxsiyyətin xüsusi fəallığını əks etdirir.

Yeri gəlmişkən qeyd edək ki, "**siyasi sosialaşma** terminini siyasi elmə ilk dəfə **Q. Xaymen** gətirmişdir ("Siyasi sosiallaşma əsərində).

Siyasi elmdə siyasi sosiallaşma prosesinin mahiyyətini anlamağa dair uzun müddət vahid konsepsiya mövcud olmamışdır. Şəxsiyyətin siyasi sosiallaşmasının ilk sanballı, bütövlükdə politoloqlar tərəfindən qəbul edilən nəzəriyyəsi **D. İstonun** rəhbərliyi altında ABŞ-ın Çikaqoda fəaliyyət göstərən bir qrup alimi tərəfindən işlənib hazırlanmışdır. Çikaqo alimləri siyasi sosiallaşmanı siyasət sferasında yerinə yetirilməsi zəruri olan xüsusi mövqe və tə'lim prosesi kimi əsaslandırırlar. Bu nəzəriyyəni müdafiə edən alimlərin çoxu, xüsusilə **L. Koen, R. Lipton, T. Parsons** və başqaları siyasi sosiallaşmanın mahiyyətində insanın siyasi sistemlə və onun tə'sisatları ilə qarşılıqlı fəaliyyətini başlıca cəhət kimi qiymətləndirirlər. **M. Xabermas, K. Luman** və digər alimlər isə siyasi sosiallaşmaya insanın özü üçün yeni sərvətləri mənimsəməsi prosesi kimi baxırlar. Belə halda insanın siyasi şüurunun və davranışının formalaşmasında daxili fərdi və psixoloji mexanizm başlıca cəhət kimi əsaslandırılır.

Şəxsiyyətin siyasi sosiallaşması məsələsinə alimlərin münasibəti birmə'nalı olmasa da tədqiqatçıların əksəriyyəti belə hesab edir ki, siyasi sosiallaşmanın **başlıca funksiyası** şəxsiyyətin siyasətə marağıdır və siyasi sferada müəyyən hakimiyyət vəzifələrini yerinə yetirmək bacarığıdır.

Bu və ya digər cəmiyyətin hər bir üzvü sosial sistemin gündəlik həyatına cəlb olunmaqla və digər adamlarla müxtəlif münasibətlər yaratmaqla sosiallaşma prosesinin subyektinə çevrilir. Qeyd etmək lazımdır ki, şəxsiyyətin sosiallaşması nəinki ümummədəni, həm də siyasi-mədəni mühitdə reallaşır.

Siyasi sosiallaşmanın mexanizmi insanın və siyasi sistemin qarşılıqlı fəaliyyətinin bir neçə səviyyəsində fəaliyyət göstərir: 1.**Sosial səviyyədə**, yə'ni bütövlükdə cəmiyyət və böyük qruplar səviyyəsində 2.**Sosial-psixoloji səviyyədə** 3.**Şəxsiyyətdaxili səviyyədə**.

**Sosial səviyyədə** şəxsiyyətə işsizlik, seçicilərin ələ alınması, zorakılıq, terror və digər makrososial amillər tə'sir göstərir.

Cəmiyyət, siniflər və millət səviyyəsində fəaliyyət göstərən siyasi sosiallaşmanın ən'ənəvi makro amillərini hazırkı şəraitdə müharibə təhlükəsi, ekoloji partlayış və digər qlobal problemlər tamamlayır. **Sosial-psixoloji səviyyədə** siyasi məqsədlər və sərvətlər böyük və həm də kiçik qrupları təmsil edən şəxsiyyətlərə sirayət edir. **Şəxsiyyətdaxili səviyyədə** siyasi sosiallaşmanın mexanizmi kimi siyasətdə şəxsiyyətin davranışını və şüurunu idarə edən tələbat, motiv, faydalı fəaliyyət yönümü, norma və s. çıxış edir.

Şəxsiyyətin siyasi sosiallaşması ikitərəfli proses kimi nəzərdən keçirilməlidir. Həmin proses bir tərəfdən şəxsiyyətin siyasi informasiyaya, biliklərə yiyələnməsini, onun mövcud siyasi dəyərlərə qovuşmasını, sosial təcrübəni, normaları, vərdişləri mənimsəməsini, digər tərəfdən sosial-siyasi mühitdə fəal fəaliyyət hesabına fərdin mövcud ictimai münasibətlər sistemini sadəcə olaraq təkrar istehsalını deyil, həmçinin daha da inkişaf etdirməsini nəzərdə tutur.

Şəxsiyyətin siyasi sosiallaşma prosesi mövcud cəmiyyətin real ictimai münasibətlərinin xarakterini mənimsəməklə məhdudlaşmır. Həmin prosesdə bu və ya digər fərd siyasi həyata dair toplanmış təcrübəyə, onun xüsusiyyətlərinə, mövcud normalara, sərvətlərə və ən'ənələrə, siyasi mövqeyə yiyələnir. Nəticə e'tibarilə sosial qrupların və bütövlükdə cəmiyyətin həyatında iştirak etməyi şərtləndirən keyfiyyət - sosial-siyasi yetkinlik və

qabiliyyət formalaşır. Beləliklə, **siyasi sosiallaşma prosesində cəmiyyət insanı vətəndaş kimi yetişdirirsə, sosiallaşan fərd mövcud siyasi struktura və ictimai münasibətlərə yaradıcı tə'sir göstərməklə cəmiyyətin özünü yeniləşdirir.** Siyasət sferasında sosiallaşma şəxsiyyətin formalaşmasına və inkişafına mühüm tə'sir göstərir. Siyasi cəhətdən sosiallaşma insanın siyasi münasibətlərin və siyasi fəaliyyətin subyekti kimi təşəkkülü prosesini əhatə edir. Siyasi sosiallaşma prosesi özünün bütün istiqamətlərində həm şəxsiyyətin və həm də bütövlükdə cəmiyyətin siyasi mədəniyyətinə bilavasitə tə'sir göstərir. O, insan həyatının bütün mərhələlərini əhatə edir və təkcə sırf siyasi tə'limi deyil, eləcə də qeyri-siyasi tə'limi özündə təcəssüm etdirir.

Şəxsiyyətin siyasi sosiallaşmasının mahiyyəti barədə dolğun təsəvvürə malik olmaq üçün həmin prosessin əhatə etdiyi mərhələləri aydınlaşdırmaq vacibdir. Siyasi elmə dair ədəbiyyatda şəxsiyyətin sosiallaşması mərhələlərinə dair ciddi fikir ayrılığı yoxdur. Tədqiqatçıların böyük əksəriyyəti bu mərhələləri təxminən eyni mövqedən təhlil edirlər.

Müasir cəmiyyətdə **şəxsiyyətin sosiallaşmasının başlanğıcı 3-4 yaş həddinə** təsadüf edir. Siyasi həyata dair ilk təsəvvür ailədə, kütləvi informasiya vasitələrindən və yaxın əhatə dairəsində əldə olunur. Fərdin siyasi sosiallaşmasına ilk tə'sir göstərən başlıca tə'sisat ailədir. Ailə üzvləri müəyyən sosial qrupa mənsub olmaqla təmsil etdiyi sosial qrupun marağını, tələbatını, siyasi fəaliyyət yönümünü əks etdirirlər. Bu cəhət təbii olaraq fərdin sosial mahiyyətinin, fəaliyyət yönümünün formalaşmasına və gələcəkdə onun siyasət sferasında konkret mövqeyinin reallaşmasına tə'sir göstərir.

Ailə uşağın siyasət, hakimiyyət, dövlət və digər tə'sisatlar haqqında siyasi biliklərinin və təsəvvürlərinin əsasını möhkəmləndirir. Beləliklə, onun müxtəlif siyasi hadisələrin xarakterini və düzgünlüyünü başa düşməsi məhz, valideynlərin siyasi mədəniyyətinin səviyyəsi və ailədə hökm sürən siyasi görüşlərlə şərtlənir. **Ailə əvəzolunmaz əxlaqi-siyasi tərbiyə ocağıdır, sosiallaşmanın mənbəyidir. Fərdin siyasi sosiallaşmasının ikinci mərhələsi** onun müxtəlif təmayüllü təhsil ocaqlarına (ümumtəhsil məktəbləri, ali və orta ixtisas müəssisələri və s.) cəlb olunması ilə

başlanır.[1] Humanitar fənləri mənimsəməklə gənclər yeni siyasi biliklərə yiyələnirlər. Nəinki müxtəlif təhsil növlərinin, həmçinin bə'zi kortəbii amillərin tə'siri altında fərdlər siyasətə dair xeyli biliklər əldə edir və tədricən onlarda siyasətin özünə konkret münasibət formalaşır, mənimsənilən siyasi biliklər real həyatla əlaqələndirilir.

**Şəxsiyyətin siyasi sosiallaşmasının üçüncü mərhələsi** siyasi həyata bilavasitə cəlb olunmaqla, başqa sözlə, qeyri-rəsmi təşkilatlarda, müxtəlif cəmiyyətlərdə, siyasi partiyalarda və digər siyasi fəaliyyət formalarında yaxından iştirak etməklə başlanır. Həmin mərhələnin səciyyəvi cəhəti bundan ibarətdir ki, insan hər şeydən əvvəl, xüsusi sosial və siyasi mövqeyə malik olur, siyasi fəaliyyətdə şəxsən iştirak etmək təcrübəsinə yiyələnir.

Şəxsiyyətin siyasi sosiallaşmasında rəsmi siyasi təhsilin əhəmiyyəti böyükdür. Bu təhsilin məqsədi adamlarda mövcud hakim ictimai-siyasi sistemə, onun sərvətlərinə bağlılıq və inam hissi tərbiyə etməkdir. Siyasi münasibətlərin, sərvətlərin, davranış normalarının və vərdişlərin nəsildən-nəslə verilməsində təhsil ocaqlarının bütün növlərinin üzərinə ciddi mə'suliyyət düşür. Uşaqların, gənclərin əldə etdiyi siyasi informasiya onlarda dəqiq və aydın siyasi mövqeyin təşəkkülünə istiqamətləndirilməlidir. Bə'zi ölkələrin siyasi təcrübəsi təsdiqləyir ki, uşaqların müəyyən partiyalara, təşkilatlara, ayrı-ayrı siyasi xadimlərə və iqtidarın nümayəndələrinə münasibəti birmə'nalı deyil. Başqa sözlə, həmin münasibət rəğbət və ya nifrət kimi təzahür edə bilər. Bu mə'nada araşdırmalara görə ABŞ-da və Böyük Britaniyada 12 yaşına qədər uşaqların 2/3 hissəsi şəxsi rəğbət və ya nifrət mövqeyi ilə səciyyələnir. Bu, bütövlükdə valideynlərin mövqeyinə uyğun gəlir. Lakin uşaqlar kifayət qədər informasiyaya malik olmadıqlarına görə onların siyasi tə'sisatlara, müxtəlif siyasi xadimlərə və dövlət adamlarına münasibəti səthi xarakter daşıyır. Belə bir cəhəti qeyd edək ki, uşaqlıq dövründə hər hansı partiyaya və ya partiya xadiminə olan münasibət heç də bütövlükdə ölkəyə, onun siyasi sisteminə və milli simvollara münasibəti əks etdirmir. Çünki

[1] Андреева Г.С. Социальная психология. М, 1980 Səh.86.

həmin yaş dövründə uşaqlar siyasət haqqında dəqiq təsəvvürə malik olmurlar.

ABŞ, Böyük Britaniya və bə'zi digər ölkələrdə aparılan tədqiqatlar təsdiqləyir ki, çoxpartiyalılıq şəraitində siyasi mədəniyyətin formalaşmasının vacib şərti müxtəlif səviyyələrdə həyata keçirilən seçkilərdir. Uşaqlar böyüdükcə səsverməyə siyasi sistemin mərkəzi ünsürü kimi baxırlar. Onların partiyalara ilk münasibəti məhz, seçki kompaniyası dövründə başlanır. Uşaqların partiyalara rəğbət bəsləməsində kütləvi informasiya vasitələri, evdə, qonşuda və həmyaşıdları arasındakı siyasi diskusiyalar əhəmiyyətli rol oynayır. Kütləvi informasiya vasitələrində, xüsusilə televiziya vasitəsilə partiyaların fəaliyyətinin işıqlandırılmasına geniş yer verilməsi uşaqların bu və ya digər siyasi partiyaya rəğbət bəsləməsinə mühüm tə'sir göstərir. Yaşlılarla mübahisə etmək prosesinə cəlb olunmaqla onlar siyasi hakimiyyətin mahiyyəti, hakimiyyətin yaşlılar tərəfindən ələ alınması yolları və mexanizmi barədə təsəvvürə yiyələnirlər. Uşaqların siyasi görüşlərinin təşəkkülünə xüsusi şirkətlər, mənafeləri eyni olan müxtəlif qruplar, lobbiçilər, həmkarlar təşkilatları və digər siyasi tə'sisatlar özünəməxsus tə'sir göstərirlər.

Sosiallaşma prosesində uşaqlar və gənclər cəmiyyətin üzvü, sosial-mədəni varlıq kimi formalaşır və siyasi mədəniyyətin müxtəlif ünsürlərini mənimsəyirlər. Hər bir fərdin sosiallaşması hansı sosial birlikdə baş verirsə o, həmin birliyin siyasi mədəniyyətinin daşıyıcısı kimi çıxış edir. Fərdlərin siyasi mədəniyyəti bütün cəmiyyətin mə'nəvi mədəniyyətinin ayrılmaz hissəsidir. İnsan mövcud cəmiyyətin hakim siyasi mədəniyyətini mənimsəmək prosesində hakimiyyət münasibətlərinin çoxcəhətli və dinamik prosesinə qoşulur, özünü siyasi mədəniyyətin müəyyən səviyyəsinin daşıyıcısı kimi daim təkrar istehsal edir.

Şəxsiyyətin sosiallaşmasının ilk mərhələsini (uşaqlıq dövrünü) tədqiqatçılar müxtəlif səviyyələrdə araşdırırlar. Məsələn, amerika alimləri **D. İston** və **İ. Denis** uşaqlıq dövründə sosiallaşma prosesini **dörd səpkidə** nəzərdən keçirməyi məqsədəuyğun hesab edirlər: 1.Uşağın siyasi həyatı, aldığı informasiyanı bilavasitə "dərk etməsi. 2.Siyasətin "təcəssüm etdirilməsi gedişində hakimiyyət sferasına mənsub olan bu və ya digər şəxsin siyasi

sistemlə əlaqəsinin nümunəvi vəziyyəti. 3. Bu siyasi nümunənin "ideallaşdırılması, siyasi mədəniyyətə, siyasətə sabit emosional münasibətin formalaşdırılması. 4.Uşağın daxili siyasi aləminin mürəkkəbləşməsini ifadə edən keyfiyyətlərin "tə'sisatlaşdırılması və onun siyasəti müstəqil qiymətləndirmək mövqeyi.

Ümumiyyətlə, şəxsiyyətin siyasi sosiallaşmasının ilk mərhələsi bununla səciyyələnir ki, **insan siyasi sistemin və mədəniyyət normalarının mahiyyətini və əhəmiyyətini dərk etmədiyi halda bunlara uyğunlaşır.**

**Şəxsiyyətin siyasi sosiallaşmasının ikinci mərhələsi** (gənclik dövrü) özünəməxsus xüsusi siyasi əhəmiyyət kəsb edir. Bu mərhələ onunla səciyyələnir ki, gənc fərdlər əldə etdiyi siyasi informasiyanı təhlil etmək üsullarına yiyələnir, ideoloji mövqeləri müstəqil araşdırmaq səviyyəsinə yüksəlir. Gənclik dövründə siyasi sosiallaşmanın mahiyyəti bir tərəfdən fərdlərin hakimiyyətlə qarşılıqlı fəaliyyət normalarını və qaydalarını mənimsəməsində, digər tərəfdən siyasi fəaliyyət yönümünü müəyyənləşdirmək, siyasi davranış və vərdiş keyfiyyətlərini daxili tələbata çevirmək qabiliyyətinin formalaşmasında ifadə olunur. Şəxsiyyətin siyasi sosiallaşmasını birtərəfli proses, yə'ni onun yalnız siyasi bilikləri və vərdişləri mənimsəməsi kimi qiymətləndirmək düzgün olmazdı. Şəxsiyyətin siyasi sosiallaşmasının digər mühüm prosesi də mövcuddur. Bu prosesdə insan qərarlaşan konkret siyasi şəraitə uyğun gəlməyən hər şeydən imtina edir, siyasi həyatda təzahür edən müxtəlif hadisələrə yeni mövqedən yanaşır. Şəxsiyyətin siyasi sosiallaşmasının gənclik mərhələsində bu və ya digər fərd sosial və siyasi varlıq kimi təşəkkül tapır və inkişaf edir. Məhz, həmin mərhələdə insan həyatın mə'nası, ictimai həyatda yeri, siyasi inkişaf prosesinə münasibəti barədə vacib məsələləri özlüyündə həll etməyə ciddi sə'y göstərir.

Siyasi sosiallaşma yalnız uşaqlıq və gənclik dövrü ilə məhdudlaşmır. **İnsanın siyasi cəhətdən sosiallaşması onun bütün həyatı boyu davam edir**. Bu proses insanın sosial yetkinliyinin formalaşdığı dövrdən, yə'ni fərdlərin əmək həyatına qədəm qoyduğu və siyasi fəallığının təzahür etdiyi vaxtdan başlayaraq daim yeniləşir və inkişaf edir. **Şəxsiyyətin siyasi**

**mahiyyəti hər şeydən əvvəl və daha çox onun sosial yetkinliyi dövründə reallaşır. Sabit və mükəmməl siyasi mövqeyə malik olan fərd geniş və dərin informasiyaya yiyələnməsi, çoxcəhətli siyasi biliklər əldə etməsi, təcrübə toplaması, məqsədyönlü siyasi fəaliyyət yönümü və yüksək siyasi təfəkkür tərzi ilə səciyyələnir.**

Şəxsiyyətin siyasi sosiallaşmasında əmək kollektivləri, ictimai təşkilatlar, rəsmi və qeyri-rəsmi qruplar daha əhəmiyyətli rol oynayırlar. Siyasi sosiallaşmanın bu tə'sisatları həm də mə'nəvi-əxlaqi sosiallaşma prosesinə faydalı tə'sir göstərir.

Aparılan çoxsaylı tədqiqatlar belə qənaətə gəlməyə əsas verir ki, insanın siyasi sosiallaşması sistemində əmək kollektivləri və kütləvi informasiya vasitələri xüsusi yer tutur. Bunların sosiallaşma prosesinə spesifik tə'sirinin mahiyyəti onunla səciyyələnir ki, həmin sosiallaşdırma tə'sisatları insanın siyasi cəhətdən sosiallaşmasının xarakterini və istiqamətini, nəticə e'tibarilə siyasi mədəniyyətinin səviyyəsini müəyyən edir.

"Siyasi sosiallaşma sisteminin tərkib hissələri və ya "Siyasi sosiallaşma amilləri ümumi terminlər olmaqla şəxsiyyətə cəmiyyət və siyasi sistem tərəfindən real tə'sir göstərir. Lakin həmin amillər içərisində eləsi vardır ki, bu məhz, siyasi sosiallaşma tə'sisatı kimi məqsədyönlü təşkil edilib. Məsələn, **siyasi gənclər təşkilatının başlıca funksiyası** siyasi sosiallaşmanı reallaşdırmaqdır. Lakin elə sosiallaşma tə'sisatları da mövcuddur ki, onlar üçün **siyasi sosiallaşma funksiyası ikinci dərəcəli** əhəmiyyət daşıyır. Məktəb, kilsə və məscid məhz, bu qəbildəndir. Bununla belə məktəb, kilsə, məscid və sair rəsmi siyasi mövqe formalaşdırılması vasitələridir.

Siyasi sosiallaşma prosesinin xarakterindəki dəyişiklik dövri, tarixi xarakter daşıyır. İctimai inkişafın hər bir yeni məqamında şəxsiyyətlə siyasi sistemin qarşılıqlı uyğunlaşması təzahür edir. Cəmiyyətin sosial və siyasi strukturunda baş verən dəyişiklik şəxsiyyətin formalaşması naminə hər bir nəslin özünəməxsus şərait yaratmasına təkan verir. Siyasi sosiallaşma mexanizminin tarixi dəyişikliyi bütün dövrlərdə mürəkkəb xarakter kəsb etmişdir. Lakin cəmiyyətin müasir inkişaf mərhələsində sosial-sinfi və milli xarakterli ən'ənəvi ziddiyyətlər sivilizasiyanın qlobal

ziddiyyətləri ilə tamamlanır. Siyasi sistemin ən'ənəvi funksiyalarının sür'ətli texniki inkişafla əlaqələndirilməsi və xeyli sosial proseslərin qloballaşması son vaxtlar şəxsiyyətin inkişafı üçün yeni şərait yaratmışdır. Bu şərait insanın dövlət, hakimiyyət və siyasətlə qarşılıqlı münasibətinin dərinləşməsinə ciddi tə'sir göstərir.[1] Bununla belə müxtəlif ölkələrdə siyasi sosiallaşmanın müəyyən böhrana mə'ruz qalması müşahidə olunur.

Müasir dövrdə siyasi sosiallaşma prosessində **iki meyl** təzahür edir. Bir tərəfdən şəxsiyyətin siyasi inkişafına ictimai tələbat getdikcə artır, onun siyasi həyata fəal cəlb olunması və cəmiyyətdə öz rolunu dərk etməsi daha da güclənir. Bu meyl müxtəlif siyasi sistemlərin və rejimlərin demokratikləşməsi prosessində xüsusilə nəzərə çarpır. Digər tərəfdən isə şəxsiyyətin siyasi sosiallaşması prosesinin ləngiməsi meyli təzahür edir. Belə ki, bu və ya digər fərdin müxtəlif formalarda dövlətdən, onun tə'sisatlarından uzaqlaşması, qəbul edilən siyasi qərarlara laqeyd münasibəti müşahidə olunur.

**Həmin meyllərdən birincisi** şəxsiyyətin fəallığının artmasını, siyasət haqqında informasiyaya malik olduğunu, kütləvi siyasi davranışın və şüurun dəyişilməsini, əvvəllər siyasətdən uzaqlaşan adamların artıq siyasətə cəlb edildiyini sübuta yetirir. **İkinci** meyl isə öz ifadəsini vətəndaşların siyasi özgələşməsində, onların fəaliyyətsizliyində, rəsmi siyasətə inanmamasında, həmçinin siyasi tə'sisatları, partiyaları və dövləti zəif müdafiə etməsində tapır. Bu iki meylin mübarizəsində siyasi davranışın tənzim olunmasının yeni subyekti: fəal, geniş informasiyaya malik, müstəqil və mə'suliyyət hissilə siyasi qərarlar qəbul etməyə qadir olan insan-vətəndaş formalaşır. Nəticə e'tibarilə siyasi mədəniyyətin mexanizmi kütləvi siyasi davranışın tənzim olunmasının ən mühüm vasitəsinə çevrilir. Siyasi sosiallaşma sisteminin təkmilləşdirilməsi və inkişafı həmçinin, onun **funksiyalarının** ahəngdar surətdə əlaqələndirilməsi ilə bağlıdır. Şəxsiyyətin siyasi sosiallaşmasının funksiyalarının başlıca məqsədi cəmiyyət üzvlərində yüksək siyasi mədəniyyətin və vətəndaşlıq ləyaqətinin formalaşmasına nail olmaqdan ibarətdir.

---

[1] Политическая система: вопросы демократии и самоуправления. М.1988.Səh.77-78.

Şəxsiyyətin siyasi sosiallaşmasının başlıca funksiyaları bunlardır: **informasiya, sərvət yönümü, istiqamətverici-normativ, davranış-fəaliyyət.**

Siyasi sosiallaşmanın **informasiya funksiyasının** mahiyyəti insanda dərin siyasi təfəkkürün, siyasi düşüncə tərzinin formalaşmasını tə'min etməkdir, fərdlərdə sosial həyatın ən aktual məsələlərinin həllinə daxili tələbat hissi formalaşdırmaqdır. Əlbəttə, bu məqsədlə hər şeydən əvvəl, insan ən zəruri siyasi biliklərə yiyələnməlidir. Siyasi sosiallaşmanın informasiya funksiyasının digər mühüm məqsədi ölkə daxilində, bütün dünyada baş verən siyasi hadisələrə dair mə'lumatları vətəndaşların nəzərinə çatdırmaqdan, onların siyasi hadisə və proseslərlə bağlı olan tələbatını və marağını tə'min etməkdən ibarətdir.

İnformasiya funksiyası siyasi münasibətlər sferasına aid olan idraki vəzifələrin həllinə istiqamətlənir. Siyasi informasiyanın məzmununu cəmiyyətdəki real sosial münasibətlərin forması və bunun siyasi cəhətdən tənzimlənməsi, mövcud dövlət quruluşu, vətəndaşların hüquq və vəzifələri, siyasi sistemin inkişafında şəxsiyyətin rolu və digər məsələlərə dair biliklər təşkil etməlidir.

İnformasiya funksiyasının həyata keçirilməsi insanın yalnız sırf siyasi biliklərlə mə'lumatlandırılmasını deyil, həm də ictimai həyatın digər sferalarına dair zəruri biliklərin vətəndaşların şüuruna çatdırılmasını ifadə edir.

Siyasi sosiallaşmanın **sərvət (dəyər) yönümü funksiyası** özünəməxsus sosial əhəmiyyətə malikdir. Bu funksiyanın həyata keçirilməsi prosesində insan mövcud cəmiyyətdə tarixən qərarlaşan siyasi münasibətlər, sərvətlər və davranış sisteminə cəlb olunur, fərdlərdə müəyyən siyasi təfəkkür mexanizmi təşəkkül tapır. Sərvət yönümi funksiyasının köməyi ilə insanda **üççəhətli: idraki, emosional və davranış xarakterli** xüsusi sərvət yönümü formalaşır. Haqqında danışdığımız funksiyanın həyata keçirilməsi bütövlükdə cəmiyyətin siyasi mədəniyyəti ilə bağlıdır. Sərvət yönümü funksiyası şəxsiyyətin siyasi mədəniyyətinin dünyagörüşü istiqamətini müəyyənləşdirir. Siyasi mədəniyyətin dünyagörüşü aspekti hər şeydən əvvəl, nəzəri biliklərin xüsusilə siyasi elmlərin və sosial fəlsəfənin

mənimsənilməsi gedişində, zəngin siyasi həyat təcrübəsinə yiyələnmək əsasında formalaşır və qərarlaşır. Şəxsiyyətin sosiallaşmasında və siyasi həyata fəal müdaxiləsində **istiqamətvericinormativ funksiya** da əhəmiyyətli rol oynayır. Bu funksiya şəxsiyyətin siyasi informasiyanı dərk etməsi və mənimsəməsi naminə onun müəyyən mövqeyə yiyələnməsini tə'min etməyə istiqamətlənir, siyasi münasibətlərə, siyasi hadisə və proseslərə insanın düzgün, obyektiv münasibətinin formalaşmasına səmərəli tə'sir göstərir.[1]

Siyasi sosiallaşmanın **davranış-fəaliyyət funksiyası** isə insanın şəxsiyyət-vətəndaş mövqeyinə yüksəlməsini, mövcud cəmiyyətin siyasi bilik, norma və prinsiplərini əməli fəaliyyət prosesində reallaşdırmağa bilavasitə sə'y göstərməsini təcəssüm etdirir. Şəxsiyyətin siyasi davranış normaları öz təmərküzləşmiş ifadəsini siyasi fəallıqda təsdiqləyir. Siyasi mədəniyyət həmişə bu və ya digər formada siyasi fəaliyyətlə bağlıdır və bunsuz mümkün deyildir.[2]

Əsl şəxsiyyət - vətəndaş mövqeyinin formalaşdırılması sadəcə olaraq adamların cəmiyyət və onun tə'sisatları, müxtəlif kollektivlər, sosial qruplar və birliklər barədə mə'lumatlandırılması kimi başa düşülməməlidir. Cəmiyyətin hər bir üzvü ilk növbədə, siyasi hadisə və amilləri müstəqil mövqedən araşdırmaq, təhlil etmək, ümumiləşdirmək və dəqiq qiymətləndirmək mədəniyyətinə yiyələnməli, sosial-siyasi, iqtisadi və mə'nəvi-ideoloji proseslərdə öz yerini düzgün müəyyənləşdirmək səviyyəsinə yüksəlməlidir. Şəxsiyyətin mə'nəvi xarakteri müəyyən mə'nada nəinki əxlaqi keyfiyyətlərin, eləcə də cəmiyyətin siyasi sərvətlərinin insan tərəfindən mənimsənilməsi dərəcəsini, onun siyasi yetkinliyinin səviyyəsini əks etdirir.

Davranış-fəaliyyət funksiyası təkcə siyasi fəaliyyət istiqamətinin müəyyənləşməsinə deyil, eləcə də sözün geniş mə'nasında sosial davranış qaydalarına yiyələnməyə kömək edir. Şəxsiyyətin sosial davranışı onun həyat fəaliyyətinin bütün sahələrini əhatə edir. Lakin sosial davranışın başlıca məzmunu sadəcə fəaliyyətlə deyil, ən əvvəl, fəaliyyətin istiqaməti ilə

---

[1] Политология. под ред. Г.В. Полуниной. Səh. 234.
[2] Бро. Ф. Политология. М. 1992. Səh 52-54.

müəyyən olunur. Şəxsiyyətin sosial davranışı onun fəallığının, o cümlədən siyasi fəallığının dərəcəsini əks etdirir.

Siyasi sosiallaşmanın müəyyən amilləri və funksiyaları ilə yanaşı mühüm əhəmiyyət daşıyan **tipləri də mövcuddur**. Müasir siyasi elm siyasi sosiallaşmanın əsasən beş başlıcı tipini müəyyənləşdirir: 1.Harmoniyalı (ahəngdar). 2.Hegemon. 3.Plyuralist. 4.Münaqişəli. 5.Konyuktur.

**Harmoniyalı tip** insanla hakimiyyət tə'sisatları arasındakı normal, məqsədyönlü, səmərəli münasibətləri, cəmiyyətdə hökm sürən mövcud hüquqi qaydalara, dövlət quruluşuna fərdlərin şüurlu rəğbətini, adamların hüquq və vəzifələrini düzgün dərk etməsini, kollektiv və cəmiyyət qarşısında vətəndaşlıq borcunu yerinə yetirməyə sə'y göstərməsini ifadə edir.

**Hegemon tip** insanın hər hansı "özgə siyasi sistemə, siyasi qaydalara, hakimiyyətə neqativ, kəskin tənqidi münasibətini səciyyələndirir.

**Plyuralist tip** insanın demokratik mahiyyətini, onun demokratik təfəkkür tərzini əks etdirir. Belə fərdlər özünün başqa vətəndaşlarla bərabər hüquqlu olduğunu, cəmiyyətin digər üzvlərinin hüquq və azadlığını e'tiraf edir, başqalarının rə'yi ilə hesablaşır. Siyasi sosiallaşmanın plyuralist tipinin əhəmiyyətli cəhətlərindən biri də ondan ibarətdir ki, bu və ya digər fərd öz siyasi baxışlarının səhv olduğunu dərk etdikdə düzgün siyasi təsəvvürlü adamların mövqeyinə keçir və bunu təbii hal kimi qəbul edir.

**Münaqişəli tip** qruplararası mübarizə zəminində və qarşılıqlı asılılıqda olan mənafelərin bir-birinə zidd olması əsasında formalaşır. Siyasi sosiallaşmanın bu tipi onunla səciyyələnir ki, insan siyasətdə iştirakın məqsədini mənsub olduğu sosial qrupun loyal (bi'tərəf və ya qanun dairəsində) mövqeyinin qorunub saxlanmasında və həmin qrupu siyasi əleyhidarlara qarşı mübarizədə müdafiə etməkdə görür.

**Konyuktur tip** isə insanın siyasi görüşlərinin, təsəvvürlərinin, inamının və davranışının elə bir şəraitdən asılılığını ifadə edir ki, o, bu şəraitdən təmənnalı məqsədlər üçün, öz məhdud mənafeyi naminə istifadə etməyə sə'y göstərir.

Siyasi sosiallaşmanın digər tipləri də mövcuddur. Bunlar bütövlükdə şəxsiyyətin təşəkkülünə imkan yaradır, bu isə insanın nəzəri və əməli, təbliğat və inzibati xarakterli siyasi fəaliyyətinə təkan verir.

Siyasi sosiallaşmanın bütün tipləri insanın bu və ya digər keyfiyyətlərinin hakimiyyətin müəyyənedici strukturlarının və tə'sisatlarının tə'siri altında formalaşdığını əks etdirir. Həmin strukturlar və tə'sisatlar isə təbii olaraq hakim siyasi mədəniyyətin normalarını, prinsiplərini və sərvətlərini özündə ehtiva edir.

# XVIII FƏSİL

# BEYNƏLXALQ MÜNASİBTLƏRİN POLİTOLOGİYASI

## 1. BEYNƏLXALQ MÜNASİBƏTLƏR: ANLAYIŞI VƏ PREDMETİ

Beynəlxalq münasibətlər bir sıra elm sahələrinin-diplomatiya tarixinin, beynəlxalq hüququn, dünya iqtisadiyyatının, hərbi strategiyanın və digər elmlərin tərkib hissəsidir. Beynəlxalq münasibətlərin predmetində "beynəlxalq münasibətlər nəzəriyyəsi xüsusi əhəmiyyət daşıyır. Bu mə'nada **Stenli Hoffmanın** qeyd etdiyi kimi "beynəlxalq münasibətlər nəzəriyyəsi qədim tarixə malikdir.[1] Həmin fikirdə tarixi həqiqət vardır. Antik dövrdə bir sıra elm sahələri, ilk növbədə isə siyasi fəlsəfə və tarix münaqişələrin və müharibələrin səbəbləri, xalqlar arasında sülh və əmin-amanlığın yaradılması yolları, onların qarşılıqlı əməkdaşlığı və digər bu kimi məsələlərin araşdırılmasına mühüm diqqət yetirmişdir. **Fukidid** hələ iki min il bundan əvvəl, **müstəqil siyasi vahidlər** arasında münasibətlərin dərin təhlilini vermişdir. Qədim dövrdən etibarən münaqişələrin və müharibələrin səbəbləri, xalqlar arasında sülh və əmin-amanlığın yaradılması, onların qarşılıqlı əməkdaşlığı və digər bu kimi məsələlərin araşdırılmasına məqsədyönlü diqqət yetirilmişdir. "Beynəlxalq münasibətlər nəzəriyyəsi tədricən nisbi müstəqilliyə malik olan elmi sfera kimi təşəkkül tapır. Həmin proses XX əsrin ikinci yarısından sonra daha da sür'ətlənir. Məhz, bu dövrdə onun "sosiologiyalaşması istiqamətində ilk cəhdlər nəzərə çarpır və nəticə e'tibarilə **beynəlxalq münasibətlərin sosilogiyası** nisbi müstəqillik kəsb edən elm sahəsi kimi formalaşır və inkişaf edir. İndi müasir beynəlxalq münasibətlər nəzəriyyəsinin təsnifatı

---

[1] Курс международного права. том.1, М, 1988.Səh.10.

mühüm elmi tədqiqat obyektinə çevrilmişdir. Əlbəttə, həmin təsnifatlarda tədqiqatçılar müxtəlif me'yarları əsas götürürlər.

**Müasir beynəlxalq münasibətlər nəzəriyyəsinin təsnifatında başlıca istiqamətlər siyasi idealizm, siyasi realizm, modernizm, transmillilik, neomarksizm** və sair hesab olunur. Beynəlxalq münasibətlər nəzəriyyəsinə qlobal və xüsusi mövqedən yanaşılması müasir tədqiqatçıların səciyyəvi fəaliyyət istiqamətidir. Xüsusi mövqedən başqa sözlə, çoxcəhətli məsələlərin deyil, məhz müəyyən problemin tədqiqi zənnimizcə, özünəməxsus maraq doğurur. Bu mə'nada Kanada alimi **Baqat Koraninin** beynəlxalq aktorlar nəzəriyyəsi, **Corc Modelskinin, Samir Aminin** və **Karl Kayzerin** beynəlxalq münasibətlər çərçivəsində qarşılıqlı fəaliyyət nəzəriyyəsi, **Lyussi Puarenin, Devid Singerin** və **İohan Qaltunqun** strategiya, münaqişələr və dünyanın tədqiqi nəzəriyyəsi, **Karl Doyçun** inteqrasiya nəzəriyyəsi, **İmis Klodun** və **Jan Siotisin** beynəlxalq təşkilatlar nəzəriyyəsi diqqəti cəlb edir.

Müasir beynəlxalq münasibətlər nəzəriyyəsinin işlənib hazırlanmasında amerika alimi **Hans Morgentaunun** tədqiqatları mühüm əhəmiyyətə malikdir. Onun 1948-ci ildə çapdan çıxan "Millətlər arasında siyasi münasibətlər. Hakimiyyət uğrunda mübarizə kitabı nəinki ABŞ-da, həmçinin, qərb ölkələrində xeyli tələbə nəslinin və politoloqların marağına səbəb olmuşdur. Morgentau həmin kitabında göstərir ki, dövlətin hakimiyyəti bir çərçivədə saxlamağa cəhd etmək qabiliyyəti hər şeydən əvvəl, **iki amillə-beynəlxalq hüquqla və əxlaqla şərtlənir.** Bu görkəmli alim beynəlxalq münasibətlər nəzəriyyəsində **siyasi realizm** konsepsiyasının tanınmış tədqiqatçısıdır. Həmin konsepsiyada H.Morgentau siyasi realizmin aşağıdakı başlıca prinsiplərindən çıxış edir:[1]

1.Siyasət insanın dəyişməz təbiəti ilə şərtlənən obyektiv qanunlarla idarə olunur.

2.Siyasi realizmin göstəricisi "hakimiyyət terminində ifadə olunan mənafe anlayışıdır.

3.Hakimiyyət terminində ifadə olunan mənafe dəyişməz qalmır. O, dövlətin beynəlxalq siyasətinin formalaşmasından asılıdır.

4.Siyasi realizm siyasi fəaliyyətin əxlaqi əhəmiyyətini e'tiraf edir.

---

[1] Цыганков П.А. Международные отнашения. "Новая школа." М, 1996: Səh.22-23"

5.Siyasi realizm hər hansı millətin əxlaqi sə'ylərinin universal əxlaq normaları ilə eyniləşdirilməsini qəbul etmir. Başqa sözlə, bir millətin öz siyasətində tabe olduğu əxlaq qanunu ilə həmin qanunun beynəlxalq münasibətlərdə yaxşı və ya pis e'tiraf olunacağını fərqləndirmək lazımdır.

6.Siyasi realizm insan təbiətinə dair plyuralist konsepsiyadan çıxış edir.

Qeyd edək ki, Morgentaunun siyasi realizmi şərtləndirən yuxarıdakı prinsiplərə dair fikirləri siyasi elmdə heç də birmə'nalı qarşılanmır. Onun siyasi realizm konsepsiyası bütövlükdə tədqiqatçılar tərəfindən yüksək qiymətləndirilsə də müəyyən çatışmazlığı da nəzərə çatdırılır.

Tədqiqatçılar "beynəlxalq münasibətlər anlayışının mahiyyətini açıqlamağa ciddi diqqət yetirirlər. **R.Aronun** "Münasibətlərin tənzim olunması nümunəsi dövlətlərarası müqavilələrdir. Fikri maraq doğursa da bununla razılaşmayan tədqiqatçılara təsadüf olunur. Məsələn, amerika alimi **D.Kaporazonun** fikrincə, hazırkı şəraitdə beynəlxalq münasibətlərdə başlıca fəaliyyət göstərən dövlətlər deyil, məhz siniflər, sosial-iqtisadi qruplar və siyasi qüvvələrdir. Biheviorçuluq məktəbinin nümayəndəsi **D.Singer** beynəlxalq münasibətlərlə bağlı tədqiqat işində belə hesab edir ki, beynəlxalq münasibətlərdən başlamış qlobal birliklərədək hamının davranışı öyrənilməli, onların dünya meydanında nüfuzu nəzərə alınmalıdır.

Beynəlxalq münasibətlər sahəsində digər məşhur mütəxəssis **C.Rozenau** belə qənaətə gəlir ki, son onilliklərdə dünya siyasətində baş verən dəyişikliklər xalqların və cəmiyyətin qarşılıqlı asılılığını şərtləndirir. Beynəlxalq münasibətlərə "birdəfəlik tə'rif verməkdən daha çox həmin münasibətləri müəyyən edən başlıca me'yarların dəqiqləşdirilməsini məqsədəuyğun saymaq daha vacibdir. Məhz, bu cəhət beynəlxalq münasibətlərin mahiyyətini və spesifikliyini başa düşməyə imkan verir.

Tədqiqatçıların çoxu iddia edir ki, beynəlxalq münasibətlərin mahiyyətinin və spesifikliyinin mühüm ünsürlərindən biri onun iştirakçılarının müəyyənləşdirilməsidir. Məsələn, məşhur fransız sosioloqu **R.Aronun** gəldiyi qənaətə görə, "beynəlxalq münasibətlər siyasi vahidlər arasında münasibətlərdir: Bu anlayış yunan polisini,

roma və ya misir imperiyasını, eləcə də avropa monarxiyasını, burjua respublikalarını və ya xalq demokratiyasını özündə təcəssüm etdirir. Beynəlxalq münasibətlərin məzmununu başlıca olaraq dövlətlər arasındakı münasibətlər təşkil edir. Həmin münasibətlər xalqlar, dövlətlər sistemi arasında formalaşan siyasi, iqtisadi, diplomatik, hərbi, mədəni elmi-texniki əlaqələr və qarşılıqlı münasibətlərdir. Beynəlxalq münasibətlərdə dövlətlərarası münasibətlər başlıca rol oynayır. Siyasi elmin tərkib hissəsi olan beynəlxalq münasibətlərin politologiyası özünəməxsus spesifiklik kəsb edir. Beynəlxalq siyasət, onun sosial təbiəti, qanunauyğunluğu, fəaliyyəti və inkişafı beynəlxalq münasibətlərin politologiyasının predmetinin mühüm tərəfidir.

Beynəlxalq münasibətlər dövlətlərin yaranması ilə təşəkkül tapır və inkişaf edir. Lakin tarixi inkişafın müəyyən mərhələlərində bəynəlxalq münasibətlərin inkişafında bu və ya digər şəkildə, müxtəlif səviyyələrdə dəyişikliklər baş verir. Məsələn, XV əsrin sonu və XVI əsrin əvvələrində beynəlxalq münasibətlər sahəsində qeyri- mütərəqqi meyllər təzahür edir. Həmin dövrdə bu cəhət beynəlxalq münasibətlərdə köklü dəyişikliklərə gətirib çıxarmışdır. Beynəlxalq münasibətlərdə müəyyənedici qüvvə dövlətlər deyil, bir-biri ilə münasibətdə olan konkret şəxslərdir.

Fransız tədqiqatçısı M. Merl yuxarıda adlarını çəkdiyimiz alimlərin "bəynəlxalq münasibətlər anlayışının mahiyyəti ilə bağlı təklif etdikləri meyarları qənaətbəxş saymır. Buna görə o, "lokallaşdırma meyarını daha məqbul sayır. Bu meyara müvafiq olaraq Merl iddia edir ki, beynəlxalq münasibətlər sərhədlərin "kəsilməsinə dair razılığın məcmuudur və ya sərhədlərin kəsişməsi meylini əks etdirir.

Əlbəttə, bütövlükdə "beynəlxalq münasibətlər anlayışını müəyyənləşdirmək o qədər də çətin deyildir. Onun siyasi elmə dair ədəbiyyatda mövcud çoxsaylı və asan başa düşülən təriflərini məqsədəuyğun hesab edirik. Afrika, Latın Amerikası, Asiya və Avstraliyada avropa dövlətlərinin müstəmləkəçilik rejimi hökm sürməyə başladı. Müstəmləkəkəçiliyə mə'ruz qalan ölkələr avropa dövlətlərinin siyasət obyektinə çevrildilər və müstəqil beynəlxalq münasibətlərdən məhrum oldular. Kapitalizmin yaranması ilə bu sistemə daxil olan ölkələr arasında uzun müddət davam edən, daha

sonra XIX əsrin sonu XX əsrin əvvəllərində imperialist dövlətlər arasında başlanan və indi də öz əhəmiyyətini itirməyən **ziddiyyətlər beynəlxalq münasibətlərin ən mühüm ünsürüdür.**

1917-ci ildə Rusiyada baş verən sosialist inqilabı nəticəsində dünyada bir-birinə qarşı duran iki sosial-iqtisadi sistem yarandı. Həmin iki sistemin mübarizəsi beynəlxalq münasibətlərin xarakierini xeyli dərəcədə müəyyənləşdirdi. Bununla yanaşı XVIII əsrin axırlarında başlanan amerika inqilabından indiyə kimi müstəmləkə vəziyyətində qalan ölkələrin xalqları azadlıq uğrunda mübarizə aparmışlar. XX əsrin sonunda SSRİ-nin dağılması nəticəsində dünyada bu və ya digər dərəcədə müstəqil dövlətlər sistemi yarandı. Hazırda bütün müstəqil dövlətlər arasında beynəlxalq münasibətlər mövcuddur. Həmin münasibətlərin xarakteri və məzmunu ictimai inkişaf mərhələlərində ayrı-ayrı amillərlə şərtlənmişdir. Məsələn, uzun əsrlər boyu beynəlxalq münasibətlərin xarakteri ayrı-ayrı dövlətlərin hakim siniflərinin mənafeyi ilə müəyyənləşibsə, son onilliklərdə dövlətlərin qarşılıqlı asılılığı, dünya bazarının və beynəlxalq əmək bölgüsünün inkişafı ilə şərtlənir. Hazırda beynəlxalq münasibətlərin xarakteri və məzmununun səciyyəvi cəhəti eləcə də spesifik əhəmiyyəti bundan ibarətdir ki, o, məhz, ümumbəşəri mənafe ilə müəyyən olunur. Beynəlxalq münasibətlərdə ümumbəşəri mənafeyin ön plana çəkilməsi hər şeydən əvvəl, elmi-texniki və elmi-texnoloji inqilabla bağlıdır. Bu inqilablar informasiya mübadiləsinin intensivliyini, ən geniş regionları əhatə edən infrastrukturun yaradılmasını tə'min edir.

Beynəlxalq münasibətlərin ən mühüm komponenti **dövlətlərarası münasibətlərdir.** Dövlətlərarası münasibətlər dünyanın ümumi iqtisadi şəraiti ilə, hər şeydən əvvəl isə dünya təsərrüfat sisteminin vəziyyətilə sıx bağlıdır. Dünya iqtisadiyyatının yüksəlişi və ya tənəzzülü, xammal, istilik-enerji, ərzaq sahələrindəki vəziyyət, bu və ya digər dövlətin beynəlxalq iqtisadi münasibətlərə cəlb olunma dərəcəsi və sair beynəlxalq münasibətlərə əhəmiyyətli tə'sir göstərən amillərdir. Beynəlxalq münasibətlərə həmçinin, sənaye cəhətdən inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasındakı münasibətlərin ümumi xarakteri mühüm tə'sir göstərir.

Beynəlxalq münasibətlərin xarakteri **hərbi-strateji amildən** də çox asılıdır. Hərbi sahədə qüvvələr nisbətinin təxmini bərabərliyi

beynəlxalq münasibətləri sabitləşdirir. Hərbi tarazlığın pozulması isə dövlətlərarası münasibətlərə, bütövlükdə isə beynəlxalq vəziyyətə mənfi tə'sir göstərir.

Beynəlxalq münasibətlərin iştirakçısı olan ölkələr maddi ehtiyatlarına, əhalisinin sayına, ərazisinin həcminə görə və sair göstəricilər baxımdan böyük və kiçik dövlətlər adlandırılır. ABŞ, Rusiya, İngiltərə, Fransa, Çin kimi böyük dövlətlər hər cür silaha, o cümlədən nüvə silahına malikdirlər. Nəinki nüvə silahına malik olan dövlətlər, eləcə də dünyanın digər böyük dövlətləri məsələn, Almaniya və Yaponiya kimi ölkələr bəşəriyyətin dinc taleyi və əmin-amanlığı üçün ciddi mə'suliyyət daşıyırlar.

Beynəlxalq münasibətlərin digər **mühüm komponenti regional dövlətlərarası birliklər (hərbi-siyasi və iqtisadi koalisiyalar) arasındakı münasibətlərdir.** Dövlətlərarası birliklərin yaranmasını şərtləndirən başlıca amil onun iştirakçılarının mənafe və məqsədlərinin uyğunluğudur. Regional dövlətlərarası birliklər tədricən və spesifik şəkildə təşəkkül tapır və inkişaf edirlər. Lakin belə birliklər arasındakı münasibətlərdə daim müəyyən ziddiyyətlər nəzərə çarpır. Buna görə həmin ziddiyyətlərin tənzimlənməsi naminə məqsədəuyğun mexanizm və tə'sisatlar yaradılması həmişə diqqət mərkəzində durur.

Dövlətlərarası birliklərdə ziddiyyətlərin labüdlüyü milli mənafe ilə bağlı bu və ya digər məsələlərin, xüsusilə, milli təhlükəsizliklə əlaqədar bəzi problemlərin mövcudluğundan irəli gəlir. Həmin cəhəti keçmiş dövrün siyasətçiləri də aydın başa düşmüşlər. Elə buna görə onlar yaranmış ziddiyyətli, münaqişəli vəziyyətdən çıxmaq üçün beynəlxalq müqavilələrin zəruriliyini əsaslandırmışlar. Belə bir tarixi faktı yada salaq. **1815-ci ildə Vyana konfransı nəticəsində avropada beynəlxalq münasibətlər sistemi təşəkkül tapmağa başlayır.** Həmin konfransın başlıca əhəmiyyəti hər şeydən əvvəl, Fransanın bonapart rejiminə qayıtmasının, bir ölkənin digər ölkə üçün təhlükə törətmək dərəcəsinə çatmasının qarşısını almaqdan və bu zəmində avropa qitəsində sülhə nail olmaqdan ibarət idi. Vyana konfransı beynəlxalq münasibətlər baxımdan siyasətçilər tərəfindən yüksək qiymətləndirilsə də həmin konfransın iştirakçıları öz hərəkətlərində sonralar vahid mövqe tutmadılar. Eləcə də 1914-1918-ci illərdəki birinci dünya müharibəsini başa çatdıran **Versal**

**sülh müqaviləsi** (1919-cu il) imperialist dövlətlər arasındakı köklü ziddiyyətləri həll edə bilmədi.

Beynəlxalq münasibətləri tənzimləyən ilk təşkilat 1935-ci ildə yaradılan **Millətlər Cəmiyyətidir**. Bu beynəlxalq təşkilatın nizamnaməsində onun başlıca məqsədi belə müəyyən olunmuşdur: "Xalqlar arasında əməkdaşlığı inkişaf etdirmək və onların təhlükəsizliyini tə'min etmək. İkinci dünya müharibəsindən sonra 1945-ci ilin oktyabrında **yeni beynəlxalq təşkilat - BMT** fəaliyyətə başladı. BMT-nin başlıca məqsədi beynəlxalq sülhü və təhlükəsizliyi qorumaqdan və möhkəmləndirməkdən, həmçinin, onun iştirakçıları arasında əməkdaşlığı inkişaf etdirməkdən ibarətdir. BMT-nin əsas orqanlarından biri Təhlükəsizlik Şurasıdır. Təhlükəsizlik Şurasına sülh üçün hər hansı təhlükəni, təcavüzkarlıq hərəkətlərini müəyyənləşdirmək, beynəlxalq sülhü və təhlükəsizliyi tə'min etmək hüququ verilmişdir. Bu şuranın qərarı o halda qəbul olunur ki, onun daimi üzvü olan beş böyük dövlət - Rusiya, ABŞ, Böyük Britaniya, Fransa və Çin müzakirə olunan məsələyə yekdilliklə səs versinlər. Yeri gəlmişkən təəssüflə qeyd etmək lazımdır ki, Təhlükəsizlik Şurasının qəbul etdiyi bə'zi qərarlar həyata keçirilmir və uzun müddət kağız üzərində qalır. Məsələn, İsrail və bir sıra ərəb dövlətləri arasında keçmiş münaqişələrin nəticələrinə dair qəbul olunan qərarlar və eləcə də Azərbaycan Respublikasının **mənafeyinə uyğun gələn** Dağlıq Qarabağ barədə dörd qətnamə indiyədək həyata keçirilməyib. BMT-nin Təhlükəsizlik Şurasında təmsil edilən bə'zi böyük dövlətlərin dünyanın müəyyən regionlarını özlərinin "təbii milli maraq zonaları sayması işğal olunmuş ərazilərin geri qaytarılmasına başlıca maneədir.

XX əsrin ikinci yarısından başlayaraq dövlətlərarası birliklərdən ən tə'sirlisi Şimali Atlantika Bloku (**Nato**) və Varşava Müqaviləsi Təşkilatı olmuşdur. Lakin SSRİ-nin süqutu ilə əlaqədar Varşava Müqaviləsi Təşkilatı dağılmış, NATO isə öz imkanlarını artırmaq istiqamətində sə'ylərini gücləndirmişdir.

Regional dövlətlərarası birliklər sırasında dünya siyasətində mühüm rol oynayan Ərəb Dövlətləri Liqasını, Cənub-Şərqi Asiya ölkələri Assosiasiyasını, Asiya-Sakit Okean Şurasını, Afrika Birliyi Təşkilatını, İslam Konfransı Təşkilatını, Beynəlxalq İnkişaf və Yenidənqurma Bankını, İslam İnkişaf Bankını və digər nüfuzlu

təşkilatların adını qeyd etmək vacibdir. Beynəlxalq münasibətlərin subyektləri arasında beynəlxalq iqtisadi birliklər mühüm rol oynayırlar. Həmin iqtisadi birliklərdən dünya siyasətinə sanballı tə'sir göstərən beynəlxalq təşkilatlardan biri **Avropa İqtisadi Birliyidir**. Heç də təsadüfi deyil ki, dünyanın bir sıra böyük dövlətləri, o cümlədən Rusiya və Türkiyə həmin təşkilata daxil olmağa ciddi sə'y göstərirlər.

Nəhayət, beynəlxalq münasibətlərin **digər mühüm** komponenti **ümumdünya hökumət və qeyri- hökumət siyasi təşkilatlarıdır.** Beynəlxalq siyasi hökumət təşkilatları öz dövlətləri adından beynəlxalq hüququn müstəqil subyekti kimi çıxış edirlər. Bu tipli təşkilatlardan ən universalı və mühümü BMT-dir. Beynəlxalq münasibətlər sistemində qeyri-hökumət təşkilatları da əhəmiyyətli yer tutur. Belə təşkilatlardan tərksilah məsələsi üzrə Cenevrədə və Nyu-Yorkda fəaliyyət göstərən komitəni, Cenevrədəki insan hüquqları komitəsini və sairəni göstərmək olar.

Beynəlxalq münasibətlərin mahiyyəti təkcə dövlətlərarası əməkdaşlıq səviyyəsi ilə məhdudlaşmır. Həmin münasibətlərə eləcə də qeyri-hökumət təşkilatları, siyasi partiyalar və hərəkatlar, müxtəlif sosial qruplar və hətta ayrı-ayrı görkəmli şəxsiyyətlər cəlb olunurlar. Deməli, hazırda "beynəlxalq münasibətlər anlayışı sözün əsl mə'nasında öz mahiyyətini əks etdirir. Başqa sözlə, beynəlxalq münasibətlər nəinki dövlətlərarası, hökumətlərarası, həmçinin, xalqlar arasındakı münasibətlərdir.

İndiki şəraitdə dünyada əhəmiyyətli dəyişikliklər baş verir, beynəlxalq münasibətlərin məzmunu yeni çalarlarla zənginləşir. Dünyada sabitliyi qoruyub saxlamağın köhnə mexanizmi aradan qalxır, dövlətlərarası münaqişələr təhlükəsi tədricən və nisbətən azalır. Beynəlxalq münasibətlərin demokratikləşməsi meyli dünyada əmin-amanlığın bərqərar olması imkanlarını artırır. Lakin beynəlxalq münasibətlərin inkişafı üçün yaranan demokratik şərait heç də beynəlxalq təhlükəsizlik üçün tam tə'minat vermir. Təsadüfi deyil ki, dünyanın bütün dövlətləri mövcud xarici təhlükəni nəzərə alaraq hələ müdafiə vasitələrindən əl çəkməmişlər. Müasir dünyada sağlam siyasi münasibətlərin təşəkkülündə 1949-cu ildən fəaliyyət göstərən **hökumətlərarası təşkilat - Avropa Şurası və ATƏT** (avropada əməkdaşlıq və təhlükəsizlik təşkilatı) mühüm rol oynayırlar.

Müasir beynəlxalq münasibətlərin uğurlu gələcəyinin əhəmiyyətli amillərindən biri hər hansı dövlətin və ya dövlətlər qrupunun başqa dövlətlər üzərində üstünlüyünə yol verməməkdən ibarətdir. Dövlətlər arasında siyasi danışıqlar aktual beynəlxalq problemləri həll etməyin məqsədyönlü və sağlam üsuludur. Bu, qarşılıqlı inamın və əməkdaşlığın reallaşmasına e'tibarlı tə'minat verir.

Siyasi və hüquqi ədəbiyyatda beynəlxalq münasibətləri müəyyənləşdirmək baxımdan müxtəlif fikirlərə təsadüf olunur. Bə'zi tədqiqatçılar beynəlxalq münasibətləri müstəqil elm sahəsi kimi qiymətləndirərək onun predmetini təşkil edən məsələləri ya kompleks halda və ya ayrıca təhlil etməyə sə'y göstərirlər. Elə müəlliflər də vardır ki, onlar beynəlxalq münasibətləri siyasi elmin tərkib hissəsi hesab edirlər. İlk baxışda bu məsələyə münasibət çətinlik törətmir. Başqa sözlə, beynəlxalq münasibətlərin məğzini qarşılıqlı siyasi fəaliyyət təşkil etdiyi üçün elə təsəvvür yarana bilir ki, o, mahiyyət e'tibarilə siyasi elmin tədqiqat obyektinin tərkib hissəsidir. Bu belə bir cəhətlə şərtlənir ki, **beynəlxalq siyasət beynəlxalq münasibətlərin ifadəsi olmaqla siyasətin iqtisadi, sosial və digər növləri kimi mənafelərin, məqsədlərin və sərvətlərin rəqabətini və həm də razılığını səciyyələndirir**. Həmin prosesdə qarşılıqlı fəaliyyət göstərən birliklər, qruplar və siyasi qüvvələr müxtəlif vasitələrdən (məqsədyönlü tə'sirdən birbaşa zorakılığadək) istifadə edirlər.

Bə'zi müəlliflər, ilk növbədə beynəlxalq münasibətlər sahəsində çalışan tədqiqatçılar "gileylənir ki, siyasi elmə dair ədəbiyyatda, beynəlxalq münasibətlər problemi ya öz əksini tapmır və ya sırf formal səpkidə nəzərdən keçirilir. **Yeri gəlmişkən qeyd edək ki**, beynəlxalq münasibətlər probleminə xüsusi fəsil həsr etməyimiz bir növ politoloqlardan "gileylənən tədqiqatçıları **obyektivliyə qısqanmamağa** və **laqeyd yanaşmamağa çağırışdır. İkincisi**, siyasi elmə aid ədəbiyyatlarda son zamanlar beynəlxalq münasibətlərə dair qənaətbəxş səviyyədə elmi mülahizə və mühakimələrə rast gəlirik, həm də bu mülahizə və mühakimələr formal xarakter daşımır.[1] **Üçüncüsü**, yadda saxlamaq lazımdır ki, **politologiya daxili siyasət haqqında elmdirsə, beynəlxalq**

---

[1] Политология, под редак. М. Н.Марченко М, 1997; Л.П.Борисов. Политология, М.1996; Д.П.Зеркин. Основы политологии. Ростов-на-Дону. 1997.

**münasibətlər beynəlxalq siyasət barədə, beynəlxalq siyasi proseslərə dair elmdir.**

Daxili siyasətlə beynəlxalq siyasətin bir-birinə qovuşduğu müasir şəraitdə siyasi elmlə beynəlxalq münasibətlərin predmetinin üst-üstə düşdüyünü iddia edənlərə də təsadüf olunur. Məsələn, **M.Qunell** qeyd edir ki, politologiya(siyasi elm) milli (daxili siyasi) problemlərin öyrənilməsinə diqqət yetirsə də öz predmetinə beynəlxalq münasibətlərin daxil edilməsinə mane olmur. O, yazır: "Beynəlxalq münasibətlər haqqında elmin başlıca predmetini hakimiyyət münasibətləri təşkil edir. Onun predmeti. siyasi elmin predmetinə uyğun gəlir. Fərq yalnız coğrafi sahədir.[1] **R. Aron** isə iddia edir ki, beynəlxalq münasibətləri bütün digər sosial münasibətlərdən fərqləndirən başlıca cəhət onun müharibə kölgəsində genişlənməsidir, əhatəli olmasıdır.

Siyasi elmlə beynəlxalq münasibətlərin qarşılıqlı əlaqəsi və bir-birini şərtləndirməsi bugünkü reallığımızın qanunauyğunluğudur. Siyasi elmin başlıca anlayışları olan "siyasi hakimiyyət, "siyasi proses, "siyasi rejim, "vətəndaş cəmiyyəti və s. xarici siyasətə, başqa sözlə, beynəlxalq münasibətlərə tətbiq edilmə mə'nasında spesifik əhəmiyyətə malikdir.

Beynəlxalq münasibətlər spesifik predmetə malikdir. **Onun predmetinin başlıca tərəfini beynəlxalq siyasət, bu siyasətin sosial təbiəti, fəaliyyətinin və inkişafının qanunauyğunluqları təşkil edir. Əlbəttə son nəticədə daxili və xarici siyasət bir məsələni – mövcud ölkədə ictimai münasibətlər sisteminin təmin olunması və möhkəmləndirilməsini reallaşdırır.**

Beynəlxalq münasibətlərin siyasi predmeti mürəkkəb və çoxcəhətli mahiyyət daşıyır. Həmin münasibətlərin predmeti yalnız beynəlxalq münasibətlərin məzmunu ilə məhdudlaşmır, o, eləcə də beynəlxalq siyasi münasibətlərin inkişaf mərhələlərini, müxtəlif tarixi şəraitdə onun sosial tiplərini və inkişaf perspektivlərini ehtiva edir. Ayrı-ayrı ölkələrin siyasi sisteminin müəyyən ünsürlərinə milli tə'sisatların tə'siri, beynəlxalq həyatın formalaşmasında dövlətlərin özünəməxsus rolu da beynəlxalq münasibətlərin siyasi predmetinə daxildir. Müxtəlif beynəlxalq birliklərin və təşkilatların tarixi tipləri,

[1] Цыганков П.А. Международные отношения. Səh. 64.

beynəlxalq həyatda onların yeri və rolu, fəaliyyətinin qanunauyğunluqları beynəlxalq münasibətlərin siyasi predmetinin mühüm ünsürlərindəndir. Məsələn, beynəlxalq siyasi mexanizmin qanunauyğun və xüsusi tipi olmaq e'tibarilə **BMT-nin, Avropa parlamentinin, müxtəlif transmilli korporasiyaların** və sair təşkilatların fəaliyyəti, ayrı-ayrı dövlətlərin təmsil olunduğu hərbi-siyasi birliklər beynəlxalq münasibətlərin siyasi predmetində spesifik yer tutur. Beynəlxalq münasibətlərin predmetini təşkil edən milli-dövlət tə'sisatlarının spesifik xarici siyasət xətti, xarici siyasət və beynəlxalq hüquq münasibətləri, partiyaların xarici siyasət strategiyası, beynəlxalq təşkilatların fəaliyyətinin səciyyəvi xüsusiyyətləri mühüm aktuallıq kəsb edir və tədqiq olunması həmişə zəruri olan məsələlərdəndir.

Beynəlxalq münasibətlərin siyasi strukturunda ümumbəşəri və milli mənafelərin dialektikası, beynəlxalq münaqişələrin tipləri: qlobal, regional, yerli münaqişələr, beynəlxalq gərginliyin müxtəlif səviyyələri, siyasi münasibətlərin beynəlxalq xarakteri, siyasi münasibətlər və siyasi inkişafın böhranı başlıca yer tutur.

Beynəlxalq münasibətlərin predmetinin ən əhəmiyyətli ünsürlərindən biri **beynəlxalq hüquqdur.** Beynəlxalq hüquq dövlətlərarası sosial-siyasi, iqtisadi, hərbi və mədəni münasibətlərin sivilizasiyalı, demokratik və hüquqi zəmində təşkili üçün e'tibarlı mexanizmdir. Beynəlxalq hüquq çoxsahəli, daim inkişaf etməkdə olan xüsusi hüquqi sistemdir. O, dövlətdaxili hüquqdan subyektinə, tənzimləmə predmetinə, hüquqi normaların təşəkkülü üsuluna, dövlətin məcburetmə tədbirlərinin həyata keçirilməsi vasitələrinə görə fərqlənir.

Müasir beynəlxalq hüququ özünəqədərki beynəlxalq hüququn tarixi tiplərindən fərqləndirən cəhət bundan ibarətdir ki, o, gücə deyil, qarşılıqlı e'timada əsaslanır. Belə ki, beynəlxalq hüquq normaları dövlətlərin könüllü iradəsini ifadə edən qarşılıqlı anlaşma və razılıq prosesində yaradılır. Müasir beynəlxalq hüquqdan dövlətlərin müharibə aparmaq, özünü qalib hesab etmək, qəsbkarlıq, xalqları və dövlətləri "sivilizasiyalı və "sivilizasiyasız" qütblərə ayırmaq və digər bu kimi hüquqlar və prinsiplər kənar edilmişdir. Müasir beynəlxalq hüquq keyfiyyətcə bir sıra yeni prinsiplərlə zənginləşmişdir. Həmin prinsiplər bunlardır: dövlətlərarası mehriban

əməkdaşlıq, beynəlxalq münasibətlərdə zor işlətməmək və zor işlətməklə hədələməmək, xalqların və millətlərin hüquq bərabərliyi və öz müqəddəratını tə'yin etməsi, tərksilah, insan hüquqlarına və azadlığına hörmət, dövlətlərin təcavüzkarlığa və digər cinayətlərə (soyqırım, dini ayrı-seçkilik və s.) görə mə'suliyyət daşıması, ayrı-ayrı fərdlərin bəşəriyyətə qarşı cinayətkar hərəkətləri üçün beynəlxalq cinayət mə'suliyyətinə cəlb olunması. Bu prinsiplərlə yanaşı müasir beynəlxalq hüquq yeni demokratik məzmunla zənginləşmişdir. Dövlətlərin suverenliyi, dövlət sərhədlərinin toxunulmazlığı, dövlətlərin ərazi bütövlüyü, bir-birinin daxili işlərinə qarışmamaq, beynəlxalq öhdəliklərin könüllü surətdə yerinə yetirilməsinə digər bəşəri mahiyyət daşıyan prinsiplər müasir beynəlxalq hüququn başlıca göstəricisidir. Beynəlxalq hüquq beynəlxalq münasibətlərin müasir sistemində hüquqi normaların ümumdemokratik sistemi xarakteri kəsb edir. Beləliklə, **müasir beynəlxalq hüquq hüquqi normalar sistemi olub bəşər sivilizasiyasının inkişaf problemləri üzrə beynəlxalq hüququn subyektləri arasındakı münasibətləri tənzimləyir.**

Beynəlxalq hüququn mənbəyini beynəlxalq münasibətlərin bütün məsələlərinə dair beynəlxalq hüquq subyektlərinin qarşılıqlı razılığının sistemləşdirilmiş son nəticəsi təşkil edir. Beynəlxalq hüquq baxımdan bir-birindən asılılığı olmayan beynəlxalq hüququn subyektləri beynəlxalq münasibətlərdə hüquq və vəzifələrin müstəqil surətdə həyata keçirilməsi səlahiyyətinə malikdirlər. Beynəlxalq hüququn subyektləri aşağıdakılardır: 1) Dövlət. 2) Öz məqqəddəratını tə'yin etmək hüququnu reallaşdıran millətlər və xalqlar. Bu subyektlər suverendir. 3)Beynəlxalq hökumətlərarası təşkilatlar. 4)Spesifik dövlətəbənzər qürumlar. Məsələn, keçmişdə **azad ərazilər** və s. hazırda isə **Vatikan** buna misal ola bilər. Bu tipli subyektlər suveren deyil, törəmədir.

Beynəlxalq hüququn xüsusiyyətlərindən digəri **onun siyasətlə sıx bağlılığıdır**. Dövlətin milli mənafeyi beynəlxalq münasibətlərin problemləri üzrə konkret mövqeyin formalaşmasında mühüm yer tutur və həmin problemlərin həlli metodlarının və vasitələrinin müəyyənləşdirilməsinə səmərəli tə'sir göstərir. İdeoloji amillərin dünya siyasətinə tə'sirinin azaldığı indiki şəraitdə beynəlxalq

əməkdəşlığın və öhdəliklərin hüquqi cəhətdən tənzimlənməsində beynəlxalq hüququn obyektiv rolu daha da artır.

Siyasət yalnız adamların birgə fəaliyyəti prosesində onların münasibətlərini tənzimləməklə məhdudlaşmır. Onun fərqləndirici cəhəti bundan ibarətdir ki, ictimai həyatın bütün sferalarına nüfuz edir. **Beynəlxalq münasibətlərin təşəkkülü** və **inkişafı da** məhz, dövlətlərarası əməkdaşlıq prosesində **sağlam siyasi təfəkkürün** təzahürü ilə şərtlənir. Bəşəriyyətin gələcəyi, dünyanın sabit inkişafı, milyonlarla adamın mənafeyi və taleyi beynəlxalq siyasətin istiqaməti ilə bağlıdır. Heç də təsadüfi deyil ki, müasir qərb ədəbiyyatında gələcək beynəlxalq münasibətlərin proqnozlaşdırılmasına böyük əhəmiyyət verilir. Bəşəriyyət artıq XXI əsrə qədəm qoymuşdur. Hər bir yüzillik isə tarixə öz təkrarolunmaz izini buraxır. **XVII əsr rasionalizm dövrü** olmaqla təbiət və cəmiyyət hadisələrinin dərk olunmasında **zəkaya** həlledici üstünlük verirdi. XVIII **əsr maarifçilik dövrü** adlandırılır. Bütün vətəndaşların maariflənməsi bu əsrin ali məqsədi idi. XIX əsrdə xalqların və dövlətlərin müəyyən qismi dünya tarixindən və siyasətindən kənar edilmişdir. **Artıq XX əsr** isə hər şeydən əvvəl, **atom əsridir**. Bu əsr tarixə həm də **elmi texniki və sosial inqilablar dövrü** kimi daxil olacaq. Müasir dövrün indiki məqamının beynəlxalq mənzərəsi isə tamamilə başqadır. Bütün ölkələr və xalqlar bu və ya başqa dərəcədə iqtisadi, siyasi və mədəni sahələrdə bir-biri ilə əməkdaşlıq edirlər. Beynəlxalq toplantıların, müşavirələrin, idman yarışlarının və digər tədbirlərin həyata keçirilməsi məqsədilə müxtəlif təşkilatlar fəaliyyət göstərirlər.

Bu gün qəbul olunan siyasi qərarların, yürüdülən siyasi mühakimə və mülahizələrin gələcək nəticələrini qabaqcadan dərk etmək beynəlxalq münasibətlərin sabahı baxımdan müstəsna rol oynayır. Buna görə müasir siyasətçilərin, dövlət başçılarının üzərinə böyük mə'suliyyət düşür. Onlar öz fəaliyyətində heç bir səhvə, qəbahətə yol verməməlidir. Siyasətçi emosiyalara yox, real şəraitə əsaslanmalıdır, gerçəklikdə baş verən reallıqları nəzərə almalıdır. Əsl siyasətçi romantik deyil, realistdir. Kiçik dövlətlərin rəhbərləri dünyanın siyasi problemlərini həll etmək iddiasında olmur. Lakin böyük dövlətlərin başçıları öz siyasi hərəkətlərinin nəticələrini qabaqcadan görmürsə, başçılıq etdiyi dövlətin iqtisadi və digər

imkanlarını düzgün qiymətləndirmirsə son nəticədə hər şeyi itirə bilər. Siyasətçilər, dövlət başçıları bütün hallarda uzağı görməli və düşünülməmiş addımlar atmamalıdır. Bu baxımdan ABŞ-ın öz iradəsini zorla Əfqanıstana və İraqa qəbul etdirməsi arzuolunmazdır,humanizm prinsiplərinə, sivilizasiyanın ümumi qanununa ziddir.

Siyasi uzaqgörənlik xeyli dərəcədə varisliklə bağlıdır. Cəmiyyətin sabit inkişafı adət-ən'ənələri gözləməkdən çox asılıdır. **Hər hansı bir dövlət və ya siyasi lider varislik ideyasını qəbul etməyib öz sələflərinin yaratdığını inkar və təkzib edirsə, yalnız özünün yaratdığı siyasi münasibətləri məqbul sayırsa onun fəaliyyətinin nəticələri qənaətbəxş hesab oluna bilməz.** Yeri gəlmişkən qeyd edək ki, ABŞ-da sabitliyin bərqərar olmasının səbəblərindən biri məhz, bundan ibarətdir ki, **hakimiyyətə gələn yeni prezident özündən əvvəlkini tənqid etmir. Heç bir əsas olmadan onu cinayətkar saymır. O, əvəz etdiyi prezidentin xidmətlərini təsdiqləyir və sonra öz siyasətini həyata keçirməyə başlayır.** Başqa sözlə, yeni prezident əvvəlki prezidentin siyasətini davam etdirir. Çünki ABŞ-ın **bütün prezidentlərinin bir ümumi və ali məqsədi var - Amerika Birləşmiş Ştatlarının, onun xalqının mənafeyi.**

Əlbəttə, siyasətçilərin uzaqgörənliyi, müdrikliyi təkcə öz ölkəsinin mənafeyi ilə ölçülmür. Görkəmli siyasətçilər və dövlət başçıları başqa ölkələrin və xalqların mənafeyinə də hörmətlə, mə'suliyyətlə yanaşır, milli mənafeyi ümumbəşəri mənafelərlə əlaqələndirməyə sə'y göstərirlər. Bu mə'nada beynəlxalq münasibətlərin sağlam istiqamətdə təşkili və inkişafı xeyli dərəcədə dövlət başçılarının siyasi uzaqgörənliyindən asılıdır. Bəşəriyyətin mənafeyinə uyğun gələn xarici siyasət sağlam beynəlxalq əməkdaşlığın rəhnidir.

## 2. XARİCİ SİYASƏT VƏ BEYNƏLXALQ ƏMƏKDAŞLIQ

Daxili siyasətin məntiqi davamı olan xarici siyasət dövrümüzün ən aktual və mürəkkəb problemlərindəndir. Xarici siyasətin mahiyyəti bu günə qədər kəskin elmi mübahisələr predmeti

kimi davam edir. Beynəlxalq siyasi elmin müxtəlif nəzəri istiqamətləri "dünya siyasəti, daxili və xarici siyasət, bunların qarşılıqlı əlaqəsi və asılılığı məsələsinin araşdırılmasına xüsusi diqqət yetirir. **Siyasi idealizm, siyasi realizm, neorealizm, neomarksizm, transnasionalizm** və digər nəzəri istiqamətlər xarici siyasət probleminə siyasətin mənbəyi və hərəkəiverici qüvvəsi nöqteyi-nəzərdən yanaşırlar.

Siyasi realizmin tərəfdarları daxili və xarici siyasəti, dünya siyasətini eyni mahiyyət kəsb edən məsələ kimi nəzərdən keçirirlər. **H.Morgentaunun** fikrincə, xarici siyasət hər şeydən əvvəl, milli mənafe ilə müəyyən olunur. Milli mənafe insanın dəyişməz təbiəti, coğrafi şərait, sosial-mədəni və tarixi ən'ənələrlə əlaqə daşıdığı üçün obyektiv xarakterə malikdir. Mənafeyin konkret reallaşması formaları dövlətin fəaliyyəti ilə bağlıdır. Çünki xarici aləmlə əlaqə məhz, dövlətin inhisarındadır. Morgentau fikrini davam etdirərək bildirir ki, milli mənafeyin əsasını əks etdirən xalqın dili, onun mədəniyyəti, mövcudluğunun təbii şəraiti və s. isə həmişə yaşayır. Buna görə ölkə həyatının daxili amilləri olmaq e'tibarilə siyasi rejim, ictimai rə'y dəyişə bilər və dəyişir də—bunlar milli mənafeyə tə'sir etmək qabiliyyətinə malikdir, lakin **milli mənafe siyasi rejimin xarakteri ilə bağlı deyildir**. Q.Morgentau bu fikrini 1948-ci ildə yazdığı və Nyu-Yorkda çap etdirdiyi "Millətlər arasında siyasi münasibətlər. Hakimiyyət uğrunda mübarizə kitabında əsaslandırır. Yeri gəlmişkən qeyd edək ki, onun yuxarıdakı mülahizəsi beynəlxalq siyasi nəzəriyyədə geniş rəğbətlə qarşılanmışdır.

Daxili siyasətlə xarici siyasətin əlaqəsinə dair digər təsəvvürlər də mövcuddur. Bu baxımdan **geopolitik konsepsiya**, "varlı şimal və "yoxsul cənub nəzəriyyələri, eləcə də "dünya mərkəzi ilə "dünya periferiyasının asılılığına dair **neomarksist** nəzəriyyə səciyyəvidir. Həmin nəzəriyyələrin mahiyyəti bundan ibarətdir ki, daxili siyasətin mənbəyi xarici məcburetmədir. Məsələn, **İ. Vallerstaynın** nöqteyi-nəzərincə, bu və ya digər dövlətdə daxili ziddiyyətləri və siyasi mübarizəni başa düşmək üçün daha geniş mə'nada dünyanın bütövlüyünü nəzərə almaq lazımdır. Söhbət "mərkəzlə "periferiya arasında qeyri-simmetrik qarşılıqlı asılılığın mövcudluğundan gedir. Mövcud hal xarici siyasət sahəsində onların arasında mübarizənin başlıca amilidir. İnkişaf

etmiş ölkələr dünya siyasətində və iqtisadiyyatında hakim mövqe tutmaqdan əl çəkmək istəmir. Zəif inkişaf etmiş ölkələr (periferiya) isə bu vəziyyətlə hesablaşmaq fikrində deyildir. Əlbəttə, nəticə e'tibarilə bu və ya digər tərəfin başlıca mənafeyi xarici siyasət sferasında təzahür edir. Xarici siyasətin uğurları isə ölkə daxili əlverişli şəraitlə şərtlənir. **Hər hansı ölkədə daxili siyasi proseslərin məqbul vəziyyəti dünya siyasətində ləyaqətli yer tutmağa mühüm təkan verir.**

Müasir beynəlxalq siyasi nəzəriyyədə diqqəti cəlb edən istiqamətlərdən digəri **neorealizm və strukturalizmdir.** Bu nəzəriyyələrə görə xarici siyasət daxili siyasətin, beynəlxalq münasibətlər isə daxili ictimai münasibətlərin davamıdır. Neorealizm və strukturalizm nəzəriyyəsinin tərəfdarları iddia edirlər ki, xarici siyasətin müəyyən olunmasında milli mənafelər yox, məhz, beynəlxalq sistemin daxili dinamikası həlledici rol oynayır.[1]

**Dünyanın qarşılıqlı asılılığı** konsepsiyasının tərəfdarları isə belə bir tezisdən çıxış edirlər ki, daxili və xarici siyasət ümumi əsasa malikdir. Bu əsas (zəmin) dövlətdir. Heç də təsadüfi deyil ki, belə mövqeyi əsaslandıran Monreal universitetinin professoru **D. Dodley** iddia edir ki, xarici siyasət məsələsini dəqiq araşdırmaq məqsədilə dövlətin mahiyyəti problemi daha dərindən və əhatəli təhlil olunmalıdır. **Transnasionalizm** məktəbi nümayəndələri isə belə qənaətə gəlir ki, hazırki şəraitdə dünya siyasəti dövlətlər arasındakı münasibətlərlə müəyyən olunmur. Başqa sözlə, hökumətlərarası və qeyri-hökumət təşkilatları, müəssisələr, sosial hərəkatlar, müxtəlif assosiasiyalar və sairənin fəaliyyəti dövlətlərarası münasibətləri beynəlxalq birliklər mərkəzindən sıxışdırır və nəticədə transmilli münasibətlər ön mövqeyə keçir. Bu mə'nada siyasətin daxili və xarici siyasətə ayrılması öz əhəmiyyətini itirir. Dövlətlərarası xarici və beynəlxalq siyasət nəinki bir-biri ilə sıx bağlıdır, həm də daxili siyasətlə vəhdət təşkil edir. Həmin vəhdət ondan irəli gəlir ki, daxili və xarici siyasət eyni əsasla və son məqsədlə, vahid ehtiyat bazası və subyektlə şərtlənir. İsveçrə tədqiqatçısı **F. Brayarın** düzgün qeyd etdiyi kimi, xarici siyasətin xarici işlər nazirliyində çəkisi bir o qədər çox deyil. Xarici siyasət dövlətlər arasında ümumi mənafedən irəli gələn yaxınlaşmanı həyati tələbata çevirir.

---

[1] Цыганков П.А. Международные отношения. Səh. 57.

Beynəlxalq aləmdə hər bir dövlətin yeritdiyi siyasət onun mənafeyi ilə bağlıdır. Dövlətin mənafeyinin iki başlıca tərəfi vardır: daxili və xarici mənafe. Daxili mənafe cəmiyyətdə sabitliyin qərarlaşması, vətəndaşların fiziki və mə'nəvi imkanlarını təzahür etdirməsi üçün müvafiq şəraitin yaradılması ilə bağlıdır. Xarici mənafe isə milli suverenliyin müdafiəsi, dövlətin siyasi tə'sir dairəsinin genişlənməsi, onun geopolitik vəziyyəti və sair amillərlə əlaqədardır. Daxili və xarici mənafelər qarşılıqlı əlaqəyə malikdir. Bu mənada dövlətin xarici siyasəti onun daxili siyasətinin davamıdır. Xarici siyasət dövlətin beynəlxalq aləmdə fəaliyyətini səciyyələndirir və digər dövlətlərlə onun münasibətlərini tənzimləyir. Xarici siyasət fəaliyyətinin başlıca subyektləri bunlardır: dövlətlər, xarici ölkələrin partiyaları və digər ictimai təşkilatlar, ümumdünya təşkilatları və regional beynəlxalq təşkilatlar.

Xarici siyasət dövlətin iqtisadi, demoqrafik, hərbi, elmi-texniki və mədəni potensialına əsaslanır. Həmin potensialın düzgün əlaqələndirilməsi və ondan səmərəli istifadə olunması imkan verir ki, dövlət xarici siyasət istiqamətində öz məqsədlərini həyata keçirə bilsin.

Dövlətin **geopolitik vəziyyəti** onun xarici siyasətinə həlledici tə'sir göstərir. Geopolitik vəziyyətlə bağlı dövlət bir tərəfdən özünə müttəfiqlər seçir, digər tərəfdən isə öz rəqibləri ilə qarşılıqlı münasibətləri inkişaf etdirir. Qeyd edək ki, müasir dövrdə bir sıra amillərin tə'siri altında dövlətlərarası xarici siyasətdə geopolitik ölçü mürəkkəbləşmişdir. **Geopolitika nədir?** Bu suala yığcam şəkildə cavab verək. **Geopolitika beynəlxalq münasibətlər nəzəriyyəsinin ən başlıca anlayışlarından biridir.** Geopolitika ərazi-məkan xüsusiyyətlərinin dövlətlərin və dövlətlər blokunun yerli, regional, kontinental və qlobal beynəlxalq proseslərinin vəziyyətinə tə'sirinin yerini və konkret tarixi formalarını səciyyələndirir.[1] Geopolitikanın tarixi təşəkkülü cəmiyyətin həyatında coğrafi amillərin rolunun tədqiqi ilə bağlıdır. İnsanların fəaliyyətinin bütövlükdə təbii mühitlə şərtlənməsi barədə təsəvvürlər coğrafi amil konsepsiyasının ilk metodoloji əsası olmuşdur. Sosiologiya tarixində "coğrafi istiqamətlər nəzəriyyəsinin banilərı **Ş.L.Monteske, A.R.Tyurqo** və

---

[1] Политология: Энциклопедический словарь. М.1993.Səh.58.

başqalarıdır (XVIII əsr). Monteskenin coğrafi determinizm və ya geopolitika konsepsiyası nəinki siyasi, eləcə də əxlaqi əhəmiyyətə malikdir. O, hər bir xalqın əxlaqi simasının coğrafi mühitlə şərtlənməsi fikrini əsaslandırmağa çalışmışdır. Mütəffəkkirin fikrincə, bu və ya digər xalqa məxsus olan qanunların xarakteri iqlim, torpaq, yer səthinin quruluşu, ərazinin bütövlüyü və sair kimi coğrafi amillərlə müəyyən olunur. Monteske həyat vasitələrinə nail olmaq üsulunu bütövlükdə coğrafi mühitlə əlaqələndirirdi. XIX əsrdə isə **K.Ritter, Q.T.Bokl, V.Kuzen, J.E.Renan** və başqaları sivilizasiyanın ilk formalarının formalaşmasında coğrafi mühitin rolunu tədqiq etməyə başlayırlar. Həmin tədqiqatçılar müxtəlif dövlətlər arasındakı məsafəni, sərhədlərin uzunluğunu, onların məkan vəziyyətini və qonşu dövlətlərə münasibət baxımdan ərazisinin vəziyyətini, ölkədə etnodemoqrafik göstəriciləri və sairəni tədqiq etməyə sə'y göstərmişlər.

Coğrafi amillərin siyasi-hərbi proseslərdə əhəmiyyəti müxtəlif ölkələrin strategiyasında təsdiqlənmişdir. Məsələn, birinci dünya müharibəsi dövründə kayzer Almaniyası özünün quru qoşunları vasitəsilə iki istiqamətdə Antantanın dənizdəki əlaqə yollarını kəsməyə cəhd göstərmişdir. Belə hərəkət etməklə almaniya Belçikanın neytrallığını pozmuş və fransa-almaniya sərhəddində öz mövqelərini möhkəmləndirməyə nail olmuşdur. Məhz, bu zaman, isveç alimi **R.Çellen** dövlətin öz fəaliyyət zonasını genişləndirməsi mə'nasında **geopolitika terminini** təklif etmişdir.

Geopolitika amillərinin sistemləşdirilməsi dövlətlərə imkan verir ki, "təbii sərhədlər və həyati məkan barədə öz məqsədlərini həyata keçirsinlər və tarixə zidd mürtəce siyasətə haqq qazandırsınlar. XX əsr bə'zi dövlətlər tərəfindən məhz, belə mürtəce siyasətin həyata keçirilməsi dövrü kimi xatırlanacaq. İzrailin ərəb ölkələrinə, **Ermənistanın Azərbaycana geopolitik təcavüzkarlığı işğalçılıq səlnaməsində çirkin səhifələrdir.** Buna görə ingilis geopolitiki **X.Makkinderin** hələ 1942-ci ildə irəli sürdüyü təcavüzkarlıq əleyhinə qüvvələrin birləşdirilməsi ideyası bu gün də öz əhəmiyyətini saxlayır.

Xarici siyasətin həyata keçirilməsinin ən'ənəvi və başlıca forması **dövlətlər arasında diplomatik münasibətlərin** yaradılmasıdır. Xarici siyasət xəttinin reallaşdırılmasına həmçinin

dövlətlərarası diplomatik münasibətlərin zəifləməsi, kəsilməsi, hətta keçmiş müttəfiq dövlətlərlə münasibətlər kəskinləşdikdə onlara müharibə e'lan olunması və sair hllar daxildir. Xarici siyasətin həyata keçirilməsinin digər formaları isə aşağıdakılardır: Ümumdünya və regional beynəlxalq təşkilatlarda dövlətin nümayəndələrinin təmsil olunması və ya dövlətin həmin təşkilatın üzvlüyünə qəbul edilməsi; dost dövlətlərin siyasi partiyaları və digər ictimai təşkilatları ilə əməkdaşlıq; bu və ya digər dövlətin diplomatik münasibətlər yaratdığı başqa ölkələrin, onların partiyaları və ictimai təşkilatlarının nümayəndələri ilə müxtəlif səviyyələrdə və müntəzəm əlaqələrin yaradılması.

Xarici dövlətlərlə sabit və möhkəm əlaqələrin mövcudluğu xarici siyasət fəaliyyətində tətbiq edilən metod və vasitələrin müxtəlif şəkildə əlaqələndirilməsinə imkan yaradır. Başqa sözlə, müntəzəm surətdə informasiya mübadiləsi, müxtəlif səviyyələrdə qarşılıqlı səfərlər (dövlət başçılarının, xarici işlər nazirlərinin və xarici siyasət məsələləri ilə bilavasitə məşğul olan idarə və tə'sisatların nümayəndələrinin görüşü) həyata keçirilir, geniş məsələləri əhatə edən ikitərəfli və çoxtərəfli müqavilələrin bağlanması (gizli xarakterli və s.) tə'min olunur, qismən və ya tam şəkildə blokada tətbiq edilir, müharibəyə hazırlıq və xarici siyasət prosesində əlverişli hərbi fəaliyyət üçün imkan yaratmaq və sair nəzərdə tutulur.

Müasir dövlətlərin böyük əksəriyyətinin dövlət strukturlarında xarici siyasətin reallaşması məqsədilə ixtisaslaşdırılmış orqanlar yaradılır. Bu orqanlar aşağıdakılardır: Xarici işlər nazirliyi; xarici siyasət məsələləri üzrə parlament komitələri; səfirliklər və nümayəndəliklər; səfirliklərin və nümayəndəliklərin nəzarəti altında fəaliyyət göstərən elm və mədəniyyət mərkəzləri.

Xarici siyasət fəaliyyətində bütün dövlətləri maraqlandıran beynəlxalq qlobal problemlərin - ekoloji problemin, aclığın, beynəlxalq sabitliyin, müharibə təhlükəsinin aradan qaldırılmasının və s. həllinə mühüm diqqət yetirilir. **Dünya siyasətində yeni qaydaların** tətbiq olunması, **yeni təfəkkür tərzinin** qərarlaşması ictimai inkişafın, tarixi tərəqqinin qəti hökmüdür. Dünya siyasətində müasir sağlam qaydaların, düşünülmüş əməli fəaliyyətin təntənəsi beynəlxalq siyasi, iqtisadi və mədəni əlaqələrin yeni, mütərəqqi

zəmin üzərində təşkilini şərtləndirir, böhransız, münaqişələrsiz dünyanın formalaşmasına təkan verir. Heç də təsadüfi deyil ki, qərb və amerika ədəbiyyatında **yeni cəmiyyət** və **yeni dünya nəzəriyyəsi** geniş əksini tapıb. Dünyada sülhü, firavanlığı, ədaləti, ahəngdarlığı bərqərar edən **inteqral humanizm cəmiyyəti ideyası** liberal-demokratik humanist futuralogiyanın nümayəndələri tərəfindən irəli sürülür. Bu baxımdan **U.Vaqnerin, Y.Bxaqvatinin, S.Mendelovitsin, R.Falkin** və başqalarının fikirləri maraq doğurur. **Bəşər cəmiyyətinin humanist, demokratik zəmində yenidən qurulması sivilizasiyanın ümumi təkzibolunmaz qanunudur.**

Hazırkı şəraitdə xarici siyasətin **mühüm istiqamətlərindən biri tərksilah və gərginliyin zəifllədilməsinə** nail olmaqdan ibarətdir "Tərksilah və "gərginliyin zəiflədilməsi anlayışları məzmunca yaxın, əlaqəli olsalar da bir-birindən fərqlənir. Əvvəlcə tərksilah, sonra isə gərginliyin zəiflədilməsi anlayışının qısaca şərhinə keçək.

**Tərksilah** sür'ətlə silahlanmanın dayandırılmasına, müharibə vasitələrinin məhdudlaşdırılmasına, ixtisar olunmasına və aradan qaldırılmasına istiqamətlənən tədbirlər sistemidir. Müasir şəraitdə tərksilahın mahiyyəti kütləvi qırğın silahının bütün növlərinin: Nüvə silahının, kimyəvi, bioloji, ekoloji və digər silahların texnologiyasının işlənməsinin və istehsalının qarşısını almaqdan ibarətdir. Nüvə silahının sınaqdan keçirilməsini dayandırmaq, kosmosdan hərbi məqsədlərlə istifadə olunmasına yol verməmək, hərbi xərclərin azaldılması, silah alverinin qadağan edilməsi və s. tərksilaha aid olan çox vacib məsələlərdir.

Bəşər sivilizasiyasının taleyi dövrümüzün ən mühüm qlobal problemlərindən olan tərksilahdan asılıdır. XX əsrin iyirminci illərində tərksilah məsələsi bir neçə dəfə böyük dövlətlərin təmsil olunduğu mö'təbər beynəlxalq konfranslarda (1921-22-ci illər Vaşinqton, 1922-ci il Genuya konfransları və s.) müzakirə obyekti olmuşdur.

Tərksilah problemi ikinci dünya müharibəsindən sonra nüvə silahının yaradılması ilə bağlı xüsusi aktuallıq kəsb etmişdir. Tərksilah məsələsi müasir beynəlxalq hüququn prinsipi kimi BMT-nin nizamnaməsində öz əksini tapmışdır. Tərksilahla bağlı 60-70-ci illərdə bir sıra mühüm müqavilələr imzalanmışdır. (SSRİ və ABŞ

arasında). 1963-cü ildə nüvə silahının atmosferda, kosmosda və sualtı sınaqlarının qadağan olunması barədə imzalanan, 1968-ci ildə bağlanan və 1970-ci ildə qüvvəyə minən nüvə silahını yaymamaq haqqında müqavilələr tərksilah istiqamətində atılan ciddi addımlardır. Tərksilah probleminin həllinə yeni təkan verən tədbirlərdən biri SSRİ ilə ABŞ arasında strateji hücum silahlarının səviyyəsinin aşağı salınmasına dair imzalanan müqavilədir. Tərksilaha dair başlıca beynəlxalq hüquq konsepsiyası tərksilahla bağlı 1978-ci ildə BMT-nin Baş Məclisinin 1-ci xüsusi sesiyasında qəbul olunan yekun sənədidir. Tərksilah prosesinin mühüm ünsürlərindən digəri onun həyata keçirilməsinə nəzarət edilməsidir.

Bir sözlə, 60-70-ci və qismən 80-ci illərdə tərksilah problemi nüvə silahına malik olan dövlətlərin xarici siyasət xəttində mühüm yer tutmuşdur. Belə siyasi xətt beynəlxalq gərginliyin zəifləməsinin əhəmiyyətli amili kimi çıxış etmişdir.

**Gərginliyin zəiflədilməsi** 70-ci illərin birinci yarısında Şərqlə Qərb arasında başlanan beynəlxalq münasibətlər prosesidir. Bir tərəfdən ABŞ və onun müttəfiqləri arasında, digər tərəfdən isə ABŞ-la SSRİ və Şərqi Avropa ölkələri arasındakı münasibətlərdə baş verən pozitiv dəyişikliklər 70-ci illərdə gərginliyin azalmasını səciyyələndirən çox mühüm amildir. Gərginliyin azalmasının başlıca şərti dünyada qüvvələr nisbətinin dəyişilməsi, xüsusilə Sovet İttifaqı ilə ABŞ arasında nüvə silahı sahəsində tarazlığın yaranması idi. Bu tarazlıq xarici siyasət xəttində bir sıra mühüm beynəlxalq prinsiplərin həyata keçirilməsini şərtləndirdi. Həmin prinsiplərdən başlıcası bunlardır: ictimai sistemləri müxtəlif olan ölkələrin dinc yanaşı yaşaması; ikinci dünya müharibəsindən sonra Avropada yaranmış şəraiti nəzərə almaq əsasında dövlətlərin ərazi bütövlüyünə hörmət; beynəlxalq problemlərin və münaqişələrin sülh yolu ilə həlli; başqa dövlətlərin daxili işlərinə qarışmamaq.

**Xarici siyasət fəaliyyətinin aktual komponentlərindən biri olmaq e'tibarilə tərksilah daha geniş planda siyasi, mədəni və humanitar sahələrdə qarşıdurmadan dialoqa və əməkdaşlığa keçilməsini ehtiva edir. O, beynəlxalq və regional münaqişələrin tənzimlənməsinə yeni mövqedən yanaşmağı, beynəlxalq münasibətlərin ideologiyasızlaşdırılmasını və ümumbəşəri sərvətlərin hər şeydən üstünlüyünü nəzərdə tutur.**

Tərksilah öz konkret ifadəsini 1971-ci ildə SSRİ ilə Fransa arasında əməkdaşlıq prinsipləri haqqında imzalanan müqavilədə-beynəlxalq hüquqi sənəddə tapdı. Avropada yeni siyasi iqlimin yaradılmasında 1971-ci ildə ABŞ, SSRİ, Böyük Britaniya və Fransa arasında bağlanan dördtərəfli müqavilə mühüm rol oynadı.

Dünyada əmin-amanlıq yaratmaq məqsədilə tərksilah prosesinin genişlənməsində ABŞ və Kanada da daxil olmaqla 33 avropa ölkəsinin Helsinkidə (1975-ci il) təhlükəsizliyə və əməkdaşlığa dair yekun aktını imzalaması ən mühüm hadisə oldu. 1989-ci il xarici siyasət sahəsində həlledici, uğurlu addımlar atılması ilə səciyyələnir. Həmin ilin yanvar ayında Parisdə kimyəvi silahların tətbiqinin qadağan olunması məqsədilə konfrans keçirildi. Bu konfransda avropada adi silahların və silahlı qüvvələrin azaldılmasına dair əvvələr başlanan danışıqlar da davam etdirildi. 1989-cu ilin iyul-avqust aylarında Kambocadakı vəziyyətlə əlaqədar Parisdə beynəlxalq konfrans çağırıldı. Həmin il beynəlxalq əhəmiyyət daşıyan digər mö'təbər toplantılarla da diqqəti cəlb edir. Lakin tərksilah üçün təhlükə törədən hallar da meydana çıxdı. 1990-cı ilin avqustunda İraqın Küveyti işğal etməsi ilə İran körfəzində böhranlı vəziyyət yarandı. 1991-ci ilin fevralında çoxmilli koalisiya qüvvələrinin İraqı geri çəkilməyə məcbur etməsi müasir beynəlxalq münasibətlərin bütün strukturuna böyük tə'sir göstərdi və BMT-nin rolu artdı. Həmin hadisə İran körfəzi regionunda keyiyyətcə yeni mərhələnin-dünyada yeni qaydada əməkdaşlığın formalaşmasının əsasını qoydu. Lakin 2002-ci ildə ABŞ və İngiltərə başda olmaqla koalisiya qüvvələrinin İraqı yenidən darmadağın etməsi və işğalı dünya siyasəində yeni ciddi məqamların və ziddiyyətlərin təzahürünə istiqamətləndi. Yuxarıda yürütdüyümüz mülahizələr təsdiqləyir ki, xarici siyasət sahəsində mütərəqqi, müsbət addımlar, düşünülmüş sağlam tədbirlər dövlətlərarası əməkdaşlığın hərtərəfli genişlənməsi üçün yeni imkanlar yaradır. Dövlətlərarası xarici siyasətdə bu və ya digər problemin məqbul həlli məqsədilə müxtəlif metod, vasitə və üsullardan istifadə olunur. Konsensus, kompromis və s. bu gün beynəlxalq münasibətlərdə tətbiq olunan əlverişli metodlardır. **Konsensus** hər hansı məsələyə dair danışıq iştirakçılarının səsverməyə qoyulmadan müvafiq qərar çıxarması üçün ümumi razılığa gəlməsidir. Əgər konsensus əsasında razılığa gəlmək

mümkün olmasa bu halda **kompromis** metodundan istifadə olunur. Kompromis tərəflər arasında mübarizənin başa çatması deyil, barışıqdır (müvəqqəti). Sonrakı danışıqların əlverişli nəticəsi ilə bağlı kompromis konsensus əsasında razılığa gəlməyi tə'min edə bilər. Razılığa gəlmək isə tərəflər arasında ümumi dil tapılması, onların ədalətli mövqeyi ilə şərtlənir.

Müasir beynəlxalq münasibətlərdə "blok siyasətindən də istifadə olunur. Blok siyasəti kapitalist ölkələri arasında ziddiyyətlərin kəskinləşməsi, sonralar isə sosializm sisteminin meydana gəlməsi ilə iki müxtəlif ictimai sistem arasında yaranan ziddiyyətlərlə əlaqədar təşəkkül tapmışdır. Təcrübə göstərir ki, blok siyasəti dövlətlər arasında qarşılıqlı e'timada, anlaşmaya və əməkdaşlığa imkan yaratmır. Lakin bu heç də o demək deyil ki, blok siyasəti həmişə mənfi keyfiyyətlərin daşıyıcısı kimi çıxış edir. Məsələn, ikinci dünya müharibəsi dövründə yaranan antihitler koalisiyası səciyyəvidir. Həmin koalisiya məhz, tarixə "BEROTO (Berlin, Roma, Tokio) ittifaqı kimi daxil olan mürtəce bloka qarşı çevrilmişdi. Ümumiyyətlə, hazırkı şəraitdə blok siyasəti özünü doğrultmur və hətta təhlükəlidir. İndiki dövr qarşıdurmanı deyil, qarşılıqlı e'timadı həyati zərurətə çevirir.

**SSRİ-nin dağılması** ilə beynəlxalq münasibətlərdə və xarici siyasət fəaliyyətində yeni səhifə açılır. SSRİ-ni təşkil edən keçmiş müttəfiq respublikalar artıq müstəqil dövlətlərə çevrilmişlər. Bu dövlətlər, eləcə də Azərbaycan beynəlxalq hüququn subyekti olmaqla müstəqil xarici siyasət xətti həyata yeridir.

**1992-ci ilin martında** Azərbaycan Respublikası Birləşmiş Millətlər Təşkilatının tam hüquqlu üzvü oldu. Həmin ildə respublika Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsinə, İslam Konfransı Təşkilatına, İqtisadi Əməkdaşlıq Təşkilatına, Beynəlxalq İnkişaf və Yenidənqurma Bankına, İslam İnkişaf Bankına və bir sıra beynəlxalq təşkilatlara qəbul olundu.[1]

SSRİ dağılandan sonra ona bənzər Müstəqil Dövlətlər Birliyi (MDB) yaradıldı. Keçmiş sovet respublikalarının təmsil olunduğu bu birliyə sonralar Azərbaycan da qoşuldu. Sovet İttifaqının dağılması Müstəqil Dövlətlər Birliyinə daxil olan ölkələrin keçmiş iqtisadi və

---

[1] Fikrət Sadıqov. Diplomatiya və diplomatik xidmət, Bakı, Azərnəşr.1993.Səh.3.

digər əlaqələrinin qırılmasına gətirib çıxardı və onların istehsalının ümumi tənəzzülünə səbəb oldu. Pozulmuş inteqrasiyanı bərpa etmək MDB-yə daxil olan ölkələrin iqtisadiyyatının dirçəldilməsində və inkişafında, onlar arasında inam və dostluğun möhkəmlənməsində müəyyən rol oynayardı.

Azərbaycanın MDB ölkələri ilə münasibətləri qaydaya salmasının əhəmiyyətindən danışarkən respublikamız üçün həll olunmamış problemləri, ilk növbədə isə ərazi məsələsini unutmaq olmaz. SSRİ-nin dağılmasından sonra bə'zi müstəqil ölkələr arasında ərazi problemi ilə bağlı ziddiyyətlər və münaqişələr baş verdi. Əvvəllərdə qeyd etdiyimiz kimi, Ermənistan Azərbaycana qarşı əsası olmayan ərazi iddiaları ilə çıxış etdi. Hələ SSRİ dövründə Ermənistan SSR Ali Soveti Azərbaycanın tərkib hissəsi olan Dağlıq Qarabağın Ermənistanın tərkibinə birləşdirilməsi barədə bədnam qərar qəbul etmişdi. Həmin qərarı praktiki cəhətdən həyata keçirmək üçün Ermənistanın millətçi dairələri hər yerdə çirkin əməllərə əl atdılar. Nəticədə Dağlıq Qarabağ Ermənistan silahlı qüvvələri tərəfindən işğal olundu. Belə bir vəziyyətdə MDB-yə daxil olan Azərbaycan öz ərazi bütövlüyünü bərpa etmək üçün MDB dövlətlərindən qanuni hüquqlarını müdafiə olunmasını tələb etmiş və etməkdədir. Ermənistana havadar olan bə'zi dövlətlərin Azərbaycana münasibətdə qeyri-obyektiv mövqeyi respublikamızın ərazi bütövlüyünün bərpa olunmasına əngəl törədən amillərdən başlıcasıdır.

Beynəlxalq münasibətlərin strukturunda **beynəlxalq əməkdaşlıq** xüsusi yer tutur. Beynəlxalq əməkdaşlıq çoxtərəfli, mürəkkəb və geniş anlayışdır. O, heç də hamar, ziddiyyətsiz proses deyil. Müxtəlif dövlətlər və dövlətlər qrupu arasındakı müəyyən ötəri xarakterli ziddiyyətlər beynəlxalq əməkdaşlığın inkişafına və həyata keçirilməsinə mane olmamalıdır. Milli və beynəlxalq mənafe dövlətlərarası əməkdaşlığı obyektiv zərurətə çevirir. **Beynəlxalq əməkdaşlıq beynəlxalq münasibətlərin məzmununu əks etdirir və bu münasibətlərin müəyyən istiqamətini, dərəcəsini və inkişaf səviyyəsini ifadə edir.** Beynəlxalq əməkdaşlıq onun iştirakçılarının beynəlxalq əlaqələri siyasi, iqtisadi, mədəni və digər sahələrdə məqsədyönlü və səmərəli əlaqələndirmələri ilə səciyyələnir. Bu əməkdaşlıq beynəlxalq münasibətlərdə gərginliyin zəifləməsi prosesi əsasında təşəkkül tapır, dövlətlər arasında qarşılıqlı anlaşma

və e'timadı təcəssüm etdirməklə qarşıdurmanın alternativi kimi çıxış edir. Beynəlxalq əməkdaşlığa keçilməsi XX əsrin ikinci yarısında meydana çıxan qlobal problemlərlə şərtlənir.

Beynəlxalq əməkdaşlığın real surətdə mövcudluğu müasir beynəlxalq münasibətlərdə **ideologiyasızlaşma meyli** ilə bağlıdır. Həmin prosesin zəruriliyi digər tərəfdən isə əməkdaşlıq iştirakçılarının ümumbəşəri sərvətləri ön plana çəkməsi ilə və eləcə də beynəlxalq hüquqla müəyyən olunur. Əlbəttə, beynəlxalq əməkdaşlığı şərtləndirən **başlıca amil məhz, qarşılıqlı mənafedir.** 80-90-cı illərdə yeni siyasi təfəkkürün qərarlaşması ilə beynəlxalq əməkdaşlıq sahəsində köklü dəyişiklik baş verdi. Belə ki, SSRİ ilə ABŞ arasında qarşıdurma və sür'ətlə silahlanma yarışı qarşılıqlı anlaşma ilə, bə'zi məsələlərdə isə müttəfiqliklə əvəz olundu.

1989-1990-cı illərdə SSRİ və ABŞ, həmçinin, Avropanın böyük dövlətləri arasında qarşılıqlı əlverişli əməkdaşlıq prinsipləri əsasında sülh və beynəlxalq təhlükəsizliyi möhkəmləndirmək naminə ikitərəfli müqavilələr imzalandı. Bu istiqamətdə atılan uğurlu addımlar bütün dünyada rəğbətlə qarşılandı.

Hazırkı şəraitdə beynəlxalq əməkdaşlıq başlıca olaraq aşağıdakı məsələləri əhatə edir: təhlükəsizlik və silahların ixtisar olunması; iqtisadiyyat, elm, texnika və ətraf mühitin qorunması sferasında əməkdaşlıq; mədəniyyət sahəsində və humanitar sahədə qarşılıqlı fəaliyyət; dövlətlər tərəfindən başlıca insan hüquqları və azadlıqlarının gözlənilməsi.

Beynəlxalq əməkdaşlıq ikitərəfli və çoxtərəfli münasibətlər çərçivəsində həyata keçirilir. Dövlətlər və hökumətlərlə yanaşı beynəlxalq əməkdaşlığın subyektini, həmçinin, ayrı-ayrı hüquqi və fiziki şəxslər, ictimai təşkilatlar, idarələr, müəssisələr, firmalar və s. təşkil edir.

Beynəlxalq əməkdaşlıq münasibətlərinin formalaşmasında müxtəlif mahiyyətli beynəlxalq təşkilatlar və birliklər əhəmiyyətli rol oynayırlar. Məsələn, ATƏT Avropada beynəlxalq gərginliyin zəiflədilməsi prosesinin əsasını qoymuş və ümumavropa əməkdaşlığına yol açmışdır. **ATƏT**-in üzvü olan dövlətlərin 1990-cı ildə Parisdə qəbul etdiyi xartiyada (sənəddə) ikinci dünya müharibəsindən sonrakı inkişafa siyasi yekun vurulmuş, yeni sülh mərhələsinə keçidin başlanğıcı qoyulmuşdur.

Beynəlxalq əməkdaşlıq münasibətlərinin inkişafında ən böyük beynəlxalq təşkilat olan BMT prinsipial əhəmiyyət kəsb edir. Onun nəzdində olan müxtəlif idarə və tə'sisatlar (məs: YUNESKO və b.) beynəlxalq iqtisadi, texniki, mədəni və digər sahələrdə əməkdaşlığın genişlənməsinə mühüm tə'sir göstərirlər. **Beynəlxalq əməkdaşlığın strukturunda humanitar əməkdaşlıq mühüm və spesifik yer tutur. Humanitar əməkdaşlıq müasir beynəlxalq münasibətlər sistemində başlıca istiqamətlərdən biri olmaqla cəmiyyətin həyat fəaliyyətinin saxlanmasına, ləyaqətli insan şəxsiyyətinin formalaşmasına əlverişli şərait yaradır.** O, bütün ölkələrdə və regionlarda yaşayıb fəaliyyət göstərən insanların qabiliyyətinin inkişafına əhəmiyyətli tə'sir göstərir. Humanitar əməkdaşlıq ana və uşaqların həyatının, sağlamlığının və ləyaqətinin müdafiə olunmasına, xəstəliklərə, aclığa qarşı mübarizədə, savadsızlığın aradan qaldırılmasında və digər bu kimi beynəlxalq tədbirlərin həyata keçirilməsində əməkdaşlığı nəzərdə tutur.

Humanitar əməkdaşlıq beynəlxalq əməkdaşlığın digər istiqamətləri kimi ikitərəfli və çoxtərəfli formada, həmçinin qlobal miqyasda həyata keçirilir. Belə əməkdaşlıq xüsusilə müharibə, epidemiya, təbii fəlakət zamanı, eləcə də ekstremal şəraitdə - milli və dini zəmində baş verən münaqişələr dövründə və digər hallarda geniş şəkil alır. Humanitar yardım bu və ya digər ölkədə çalışan işçilər üçün yaşayış problemi ortaya çıxdıqda, qaçqınlara kömək məqsədilə, belə yardıma ehtiyac duyulduğu bütün məqamlarda həyata keçirilir. Humanitar yardım beynəlxalq humanizm prinsiplərindən biridir. Respublikamızın müxtəlif guşələrində məskunlaşan bir milyondan artıq azərbaycanlı qaçqına beynəlxalq humanitar yardım göstərilməsi hamımıza mə'lumdur.

Humanitar yardımın başlıca istiqamətləri beynəlxalq hüquqi sənədlərlə təsbit olunur. Məsələn, Avropa ölkələri üçün humanitar yardıma dair kompleks tədbirlər ATƏT-in Helsinki yekun sənədində öz əksini tapmışdır. Həmin sənədin VII prinsipi insan hüquqlarına və başlıca azadlıqlarına hörmət, üçüncü bölməsi humanitar və digər sahələrdə əməkdaşlıq adlanır. 1989-cu ildə Vyanada ümumavropa görüşündə qəbul olunmuş yekun sənədinin son bölməsi "ATƏT-in insan ölçüsü adalandırılmışdır. Bu sənəddə vətəndaşların öz dövlətinin sərhədləri daxilində yerdəyişməsi və daimi yaşaması, eləcə də

öz ölkəsi daxil olmaqla hər hansı ölkəni tərk etmək və yenidən ora qayıtması hüququ öz ifadəsini tapmışdır. Vyana sənədində təsbit olunan və diqqəti cəlb edən insan hüquqlarından biri vətəndaşların istədiyi dildə dini təhsil almaq hüququdur.

İnsan hüquqları sahəsində dövlətlərin əməkdaşlıq qaydaları da müəyyənləşdirilmişdir: Bütün insan hüquqlarına və adamlar arasında sərbəst əlaqələrə dair informasiya mübadiləsi mexanizmi, bu məsələləri öyrənmək üçün ikitərəfli görüşlər keçirilməsi, humanitar əməkdaşlıq probleminə dair beynəlxalq forumun (ATƏT xətti ilə) çağırılması, ATƏT-in iştirakçısı olan dövlətlərin vətəndaşlarına həmin təşkilatın sənədində əks olunmuş müddəaların həyata keçirilməsinə diqqət yetirmək hüququ verilməsi və s. kimi mühüm məsələlər işlənib hazırlanmışdır.

İnsan hüquqlarına və digər humanitar əməkdaşlıq problemlərinə aid ATƏT-in sənədlərində ifadə olunmuş bə'zi prinsiplər təəssüf ki, müəyyən obyektiv və subyektiv xarakterli səbəblərdən asılı olaraq həyata keçirilmir. Bu səbəblər içərisində sosial-iqtisadi inkişaf xüsusiyyətləri, dövlətlər arasında qarşıdurma münasibətləri, etnik və milli zəmində düşmənçilik, beynəlxalq humanitar əməkdaşlıq mexanizmində müəyyən çatışmazlıq və s. xüsusilə diqqəti cəlb edir. Beynəlxalq əməkdaşlığın bəşəri əhəmiyyət daşıyan məsələlərinin əməli həlli yalnız dünyanın bə'zi regionları üçün siyasi-hüquqi ideal olmamalıdır. Eləcə də dünyanın bütün guşələrində həyata keçirilməlidir.

## 3. MİLLİ MƏNAFE VƏ QLOBAL SİYASİ PROBLEMLƏR

Milli mənafe və qlobal siyasi problemlər bir-birini şərtləndirən və əlaqə kəsb edən ictimai hadisədir. Bunların bütövlükdə qarşılıqlı əlaqəsini və ayrılıqda hər birinin mahiyyətini düzgün dərk etmək üçün "milli şüur, "milli mənafe və milli təhlükəsizlik anlayışlarının məzmununun müəyyənləşdirilməsi məqsədəuyğundur. Məntiqi ardıcıllıqla həmin anlayışların müqayisəli təhlilinə keçək.

**Milli şüur** bütövlükdə sosial, siyasi, iqtisadi, əxlaqi, estetik, fəlsəfi, dini və digər görüşlərin məcmuu olub millət və xalqların mə'nəvi inkişafının məzmununu, səviyyəsini və xüsusiyyətlərini səciyyələndirir. O, həmçinin, millətin cəmiyyətin müxtəlif sərvətlərinə münasibətini, onun tarixi inkişaf prosesini, əldə etdiyi nailiyyətləri və gələcəkdə həll edəcəyi məsələləri təcəssüm etdirir. Milli şüurun əsasını milli özünüdərketmə şüuru (milli mənlik şüuru) təşkil edir. Milli şüurun struktur ünsürləri içərisində millətin öz milli mə'nəvi sərvətlərinə dərk olunmuş münasibəti, bu sərvətləri artırmaq naminə yaradıcı qabiliyyəti, milli mənafeyi həyata keçirmək məqsədilə sıx birləşməsi və digər milli-etnik qruplarla uğurlu qarşılıqlı münasibətləri mühüm yer tutur.

Milli şüur iki səviyyədə - adi və nəzəri şüur səviyyəsində təzahür edir. Milli şüurun hər iki səviyyəsi mürəkkəb, dialektik xarakter kəsb etməklə bir-birini qarşılıqlı surətdə şərtləndirir. Adi şüur (milli-etnik psixologiya və ya milli-psixoloji səviyyə) geniş milli kütlənin gündəlik şüurunda gerçəkliyin kortəbii, empirik inikasının nəticəsidir. Nəzəri şüur isə (millətçilik ideologiyası və ya rasional-ideoloji səviyyə) kütlələrin adi təsəvvürlərinin, əhval-ruhiyyəsinin, tələbatının və iradi sə'ylərinin sistemləşmiş və ümumiləşmiş yekundur.

Adi milli şüurun strukturu və mexanizmi birmə'nalı deyil, çoxcəhətli və ziddiyyətlidir, ətalətli-mühavizəkar və daim dəyişən xarakterə malikdir, çoxlu nəsillərin sosial təcrübəsi ilə təbii-bioloji cəhətlərin tarixi sintezinin xüsusi növüdür. Adi milli şüur eyni zamanda millətin böyük əksəriyyətinin ən mühüm, aktual sosial-konkret varlığını ifadə edir və uzun tarixi inkişafın məhsuludur. Bu şüurun daxili strukturunun tərkib hissəsini təşkil edən gündəlik tələbat, mənafe, sərvətlər və normalar sistemi mövcud milli-etnik birliyin müəyyən inkişaf mərhələsini əks etdirir. Adi milli şüur eləcə də tarixi və sosial köklərə malik olan davranış nümunələri, adət və ən'ənələr əsasında təşəkkül tapır. Nəhayət, adi milli şüurun mühüm komponentləri sırasında emosional ünsürlər, əhval-ruhiyyə, milli temperamentin xüsusiyyətləri, emosional-iradi sə'ylər, bir sözlə, gündəlik həyatda milli xarakterlə əlaqə kəsb edən cəhətlərin məcmuu özünəməxsus əhəmiyyətə malikdir.

Adi milli şüurun daha dəyişkən və dinamik ünsürü tələbatdır. Tələbat sistemində nəzərə çarpan hər hansı praktiki dəyişiklik yeniləşən şəraitə uyğun gələn yeni tələbat doğurur və eləcə də köhnə tələbatın reallaşması üsullarının dəyişilməsini şərtləndirir.

Adi milli şüurun az dəyişkən komponenti milli-etnik stereotiplərdir. Onun daha sabit və mühafizəkar komponenti isə adət və ən'ənələrdir, yə'ni nəsillərdən nəsillərə keçən, milli davranışa olan normativ tələblərdir. Bu normativ tələblər keçmiş nəsillərin dərin məqsədləri və sərvətlər sisteminə, milli-etnik qrupların yaddaşına əsaslanır. Milli adət və ən'ənələr sabitliyi və davamlılığı ilə fərqlənməklə yeni nəsillərin davranışının tənzimləyicisi kimi çıxış edir.

Adət və ən'ənələr milli azlıqların və nisbətən kiçik milli-etnik birliklərin həyatında sanballı rol oynayır. Milli adət-ən'ənələrin saxlanması və həyata keçirilməsi millətin özünüqoruması üçün zəruri müdafiə reaksiyasıdır, millimədəni mövcudluğun rəhnidir.

Adi milli şüur böyük sirayətedici gücə malikdir. O, milli və etnik münaqişələrin psixoloji əsasını təşkil edir. Bu şüura milli düşmənçilik və nifrət, milli-etnik xürafat, neqativ stereotiplər, milli və irqi dözümsüzlük və digər cəhətlər xasdır. Həmin cəhətlər məişətdən, adi səviyyədən başlayaraq nəinki lokal (müəyyən hüduddan kənara çıxmayan), hər şeydən əvvəl isə psixoloji problemlər doğurur və daha ciddi, sosial-siyasi səviyyəyə istiqamətlənir və nəticə e'tibarilə nəzəri milli şüurun ünsürünə çevrilir. Nəzəri milli şüur kütləvi adi milli şüurun kristallaşdırılmış, elmi cəhətdən formalaşdırılmış və ictimai-siyasi yönüm kəsb edən seçmə ünsürlərinin ümumiləşdirilməsidir. Nəzəri milli şüur müəyyən sosial-siyasi mövqedən həyata keçirilir. O, milli-etnik qrupların ideologiyası olub, özündə millətin tarixinin, bugünki vəziyyətinin, onun inkişaf məqsədlərinin məcmuunun ümumiləşmiş sistemini və həmçinin, hər bir fərd üçün məcburi olan normaları, sərvətləri və davranış nümunələrini əks etdirir. Belə ideoloji sistemdə hər şeydən əvvəl, öz milli-etnik qrupuna məftunluq ideyası qərarlaşa bilər. Bu cəhət isə millətçilik və irqi-ayrı seçkilik ideyasını doğurur. Lakin milli nəzəri şüuru bütövlükdə bu və ya digər milli-etnik qrupun sırf milli əlahiddəliyi səpgisində başa düşmək düzgün deyildir. Nəzəri milli şüur öz milli ideyalarına maksimum diqqət yetirilməsi əsasında

millət və xalqların bir-birindən qarşılıqlı asılılığını real surətdə dərk etmək zərurətini də müəyyənləşdirir. Nəzəri milli şüurun variantlarının təsnifatına və modelləşdirilməsinə imkan yaradan köklü məsələlər müxtəlif milli-etnik qrupların tələbatı və mənafeyinin reallaşdırılması üçün müəyyən kompromisə, konsensusa gəlməyin məqsədəuyğunluğunu və ya yolverilməz olduğunu şərtləndirir.

Şəxsiyyətin mə'nəvi həyatının mühüm komponentləri olan milli şüur və milli psixologiya bu və ya digər milləti təmsil edən ayrı-ayrı fərdlərin fəaliyyəti nəticəsində meydana gəlmir. Həmçinin, sadəcə olaraq milli münasibətlərin məcmuu kimi də çıxış etmir. Milli şüur və milli psixologiya məhz, milli amillərin qarşılıqlı in'ikası kimi cəmiyyətin həyatında təzahür edir. Bundan əlavə, onlar ictimai həyatın amilləri olmaq e'tibarilə hər şeydən əvvəl və başlıca olaraq millətin inkişaf səviyyəsi ilə müəyyən olunur. Milli şüur və milli psixologiya öz muxtar xarakterinə və istiqamətinə görə subyektiv amil kimi çıxış etsə də, obyektiv mahiyyət daşıyır. Çünki hər bir millətə mənsub olan şəxsiyyət mə'nəvi tərəqqi prosessində həmin millətin əvvəlki inkişaf mərhələsində əldə etdiyi milli psixologiya və milli şüur səviyyəsinə əsaslanır. Yeri gəlmişkən qeyd edək ki, mövcud ədəbiyyatda milli şüur və milli psixologiya barədə müəyyən fikir müxtəlifliyinə təsadüf olunur. Bə'ziləri həmin kateqoriyaların real surətdə mövcudluğunu qəbul etməklə yanaşı iddia edirlər ki, yalnız adamların xarakterinin psixoloji vəziyyətinin ayrıca cəhətləri haqqında söhbət gedə bilər, digər tədqiqatçılar tərəfindən isə bu məsələ qəti şəkildə inkar olunur. Zənnimizcə, milli şüur və milli psixologiya öz real vəziyyəti və mövcudluğu baxımdan heç bir şübhə doğurmur. Bu cəhəti çoxmillətli ölkələrdə millət və xalqların milli şüurunun və milli psixologiyasının real vəziyyəti və inkişaf perespektivi əməli surətdə təsdiqləyir.

Milli şüurun adi və nəzəri səviyyələri barədə yürütdüyümüz konkret mülahizələr "milli mənafe anlayışının məzmununu düzgün təsəvvür etməyə real imkan yaradır. **Milli mənafe spesifik əlaqələrlə, mənşə e'tibarilə genetik və mə'nəvi-mədəni münasibətlərlə bağlı olan milli birliklərin və qrupların mənafeyidir. Milli mənafe bu və ya digər millətin nümayəndələrinin dildə, ailədə, dini və əxlaqi adət-ən'ənələrdə ifadə olunan mədəniyyət ümumiliyi əsasında birləşmək sə'ylərini təcəssüm etdirir.** O,

ıəmçinin siyasi sistemlərdə, davranışda, hətta geyim və bəzək şeylərində öz ifadəsini tapır. Milli mənafe insanın mənsub olduğu nilli birliklərin üzvlərinə rəğbət bəsləməsində və məhəbbətində əzahür edir və milli birliyin bütövlüyünü qoruyub saxlamağa, milli əyaqətin qərarlaşmasına istiqamətlənir. Milli birliklərin ayrı-ayrı izvləri müxtəlif siyasi məkanda (siyasi cəmiyyət, ölkə, dövlət) növcud ola bilər.

Dünyanın siyasi inkişaf praktikası təsdiqləyir ki, mükəmməl əviyyədə təşkil olunmuş vahid siyasi məkanda bir neçə millət (milli ıruplar) birləşir (məs: ABŞ, İsveçrə və s. ölkələrdə).

Lakin onu da qeyd edək ki, millətlərin siyasi cəhətdən vahid əklə salınması və siyasi müstəqilliyi həmişə onların mühüm nənafeyi kimi səciyyələnmir. Buna görə həmin səviyyənin əldə ›lunması əksər hallarda milli qrupların, mədəni birliklərin nənafeyinin ifadəsi kimi başa düşülür.

Milli mənafe böyük tə'sir gücünə malikdir. O, şəxsiyyətin, nillət və xalqların, müxtəlif milli birliklərin, bütövlükdə isə mövcud əmiyyətin və ya dövlətin davranışı və fəaliyyətinin hərəktverici üvvələrindən biridir. Milli mənafe həmişə və hər yerdə eyni əviyyədə və dərəcədə təzahür etmir. O, sosial və siyasi toqquşmalar övründə ictimai həyatın siyasi sferasında xüsusilə nəzərə çarpır. Məhz, belə toqquşmalar məqamında müxtəlif millətlərin ümayəndələrinin, bir milli qrupu təmsil edən adamların digərləri ilə arşıdurması kəskin şəkildə üzə çıxır. Milli mənafe həm də adamlar rasında mübarizə, qarşıdurma prosesində və onların əməkdaşlığının ıüəyyən formalarında öz əksini tapır. Milli mənafeyə toxunmağa ıtiqamətlənən hər hansı cəhd, ona xələl yetirməyə yönələn şüurlu ə'ylər müvafiq milli qrupun və ya birliyin, eləcə də dövlətin özünün əyati əsaslarına və mənafeyinə qəsd kimi başa düşülür.

İctimai inkişaf tarixində milli mənafe nadir hallarda hamar, ›miz şəkildə mövcud olmuşdur. Tarixi təcrübə göstərir ki, bu və ya igər inkişaf mərhələsində xüsusilə, dini müharibələr gedişində və ıilli-azadlıq mübarizələrində milli mənafelərə müxtəlif etnik-dini ɔn geyindirilmiş və məhz, bu yolla o, reallaşdırılmışdır.

İctimai-siyasi praktika təsdiqləyir ki, ideologiya milli mənafeyi imumi səviyyəyə qaldırmağa qadirdir. Bu baxımdan sosialist, faşist ə dini ideologiyalar xüsusilə səciyyəvidir. Unutmaq lazım deyil ki,

milli ziddiyyətlərin kəskinləşdiyi vaxt və böyük sosial-psixoloji dəyişikliklər dövründə milli mənafe başqa millətlərin mənafeyini məhdudlaşdırmaq hesabına özünü reallaşdırmaq və əldə etdiyi müvəffəqiyyətləri möhkəmləndirmək səviyyəsində çıxış edir. Əlbəttə, təsadüfi deyil ki, belə halda meydana çıxan milli münaqişələr silahlı toqquşmalara və hərbi qarşıdurmaya gətirib çıxarır.

Müxtəlif milli mənafelərin qarşılıqlı əlaqəsini və asılılığını başa düşmək müasir dövrdə daha böyük əhəmiyyət kəsb edir. Hazırkı şəraitdə siyasətçilərin, siyasi liderlərin fəaliyyətinin başlıca istiqaməti milli mənafeyi yer üzündə sülhü, əmin-əmanlığı qoruyub saxlamaq perspektivi ilə məqsədyönlü əlaqələndirməkdən ibarətdir.

Milli mənafeyin reallaşması müəyyən zəruri amillərlə yanaşı **milli təhlükəsizlik** şəraitinin qərarlaşmasını tələb edir. **Milli təhlükəsizlik siyasi elmin mühüm kateqoriyalarındandır. O, sosial tə'sisatların vəziyyətini, şəxsiyyətin və cəmiyyətin mövcudluğu və inkişafının səmərəli şəraitini qoruyub saxlamaq məqsədilə həmin tə'sisatların tə'sirli fəaliyyətini səciyyələndirir.** "Milli təhlükəsizlik anlayışı siyasi lüğətdə ilk dəfə 1904-cü ildə prezident **T.Ruzveltin** ABŞ Konqresinə göndərdiyi məktubda işlədilmişdir. Həmin məktubda o, Panama kanalı zonasının birləşdirilməsini "milli təhlükəsizlik mənafeyi kimi əsaslandırmışdır. Sonrakı illərdə bu problem amerika politoloqlarının tədqiqatlarında mərkəzi yer tutmuşdur. Amerika alimləri "milli təhlükəsizlik anlayışının mənbəyini "milli mənafe nəzəriyyəsində görürlər. Belə mövqe sosioloq **U.Lippman** tərəfindən təklif edilmişdir. Tədqiqatçıların əksəriyyəti milli təhlükəsizliyin tə'min olunmasını güc işlətmək, bir dövlətin başqa dövlətlər üzərində üstünlüyünün həyata keçirilməsi və yaxud dövlətlərin qarşılıqlı fəaliyyəti, başqa sözlə, beynəlxalq münasibətlərin bütün sisteminin inkişafı naminə səmərəli şəraitin yaradılması mövqeyindən müəyyənləşdirirlər.

Milli təhlükəsizlik prbleminə dair sanballı elmi tədqiqatların müəllifləri aşağıdakılardır: **B. Broudi, M. Qalperin, Q. Kan, Q. Lassuell, Q. Kissincer, Q. Morgentau** və başqaları. Hazırkı şəraitdə milli təhlükəsizlik problemi "strateji təhlil məktəbinin tədqiqatçılıq fəaliyyətində mərkəzi yer tutur.

Amerika prezidenti T. Ruzvelt tərəfindən siyasi elmə gətirilən "milli təhlükəsizlik termini müasir qərb politoloqlarının tədqiqat-

larında xüsusi yer tutur. Əlbəttə, bu terminin geniş və dəqiq işlənib hazırlanmasına ən çox diqqət yetirən amerika politologiyasının patriarxı sayılan **Hans Morgentaudur**. O, milli təhlükəsizlik problemini milli mənafe baxımdan tədqiq etməyi təklif edir. Onun fikrincə, belə səciyyəli tədqiqat milli təhlükəsizliyi böyük siyasətlə birləşdirməyə imkan verir. Əvvələr qərb politoloqlarının tədqiqatlarında milli təhlükəsizlik problemi başlıca olaraq hərbi təhlükəsizliyin tə'min olunması baxımdan nəzərdən keçirilirdi. H. Morgentaunun gəldiyi qənaət isə əsas verdi ki, həmin problemin məzmununda ölkənin mühüm həyati mənafeləri və bunlarla şərtlənən dövlət siyasəti öz əksini tapsın. **Q.Kissincer** qeyd edir ki, milli təhlükəsizlik siyasəti bütün fəaliyyəti əhatə edir və belə fəaliyyət zəminində bu və ya digər cəmiyyət öz həyat qabiliyyətini tə'min etməyə, eləcə də beynəlxalq aləmdə öz vəzifələrini həyata keçirməyə sə'y göstərir.[1] **Z.Bjezinskinin** fikrincə, ABŞ-ın təhlükəsizliyi təkcə onun hərbi qüdrətindən deyil, həm də iqtisadi, sosial, siyasi, əxlaqi və digər sahələrdə əldə olunan böyük nailiyyətlərdən asılıdır. ABŞ prezidenti **C.Kennedi** belə hesab edirdi ki, Birləşmiş Ştatların siyasətində nə müdafiə sahəsində, nə diplomatiyada, nə də tərksilah məsələsində ayrıca siyasət mövcud deyil, bütün bunlar vahid milli təhlükəsizlik siyasətinə müncərdir. Siyasi elmin kateqoriyası olmaqla milli təhlükəsizlik millətlə və ya sabit sosial-siyasi, iqtisadi, mədəni və digər əlaqələrə əsaslanan müəyyən ərazi-dövlət birlikləri ilə təhlükəsizlik əlaqəsini əks etdirir. Ola bilər ki, bir millət özündə ən'ənələri, adətləri, mədəniyyəti ilə fərqlənən adamların etnik birliklərini, çoxlu millətləri birləşdirsin. Belə halda milli təhlükəsizlik bu millətlərin vəziyyətini bütöv sistem kimi səciyyələndirir. Sistemin bütövlüyü bundan ibarətdir ki, o, ictimai münasibətləri və ictimai şüuru, cəmiyyətin tə'sisatlarını və onların fəaliyyətini əks etdirir.

Milli təhlükəsizlikdə **təhlükəsizliyin üç səviyyəsi başlıca yer tutur: Şəxsiyyətin, cəmiyyətin və dövlətin təhlükəsizliyi**. Həmin səviyyələrin yeri və rolu dinamik mahiyyət daşıyır və ictimai münasibətlərin, siyasi quruluşun xarakteri, daxili və xarici təhlükənin dərəcəsi ilə müəyyən olunur. Millət üçün qorxu yarandığı dövrdə

---

[1] Проскурин С.А. Национальная безопасность страны: сущность, структура, пути укрепления. М. 1991.Səh.5-7.

cəmiyyətin və dövlətin təhlükəsizliyi ön plana çəkilir. Bir qayda olaraq totalitar və avtoritar rejimlər belə təhlükəli şərait yaratdığı zaman şəxsiyyətin təhlükəsizliyi başlıca yer tutur. Demokratik cəmiyyət üçün ən əvvəl, şəxsiyyətin azadlığı və təhlükəsizliyi daha qiymətlidir. **Demokratik cəmiyyətdə dövlətin və cəmiyyətin təhlükəsizliyi məqsəd deyil, məhz, şəxsiyyətin azadlığı və təhlükəsizliyini tə'min etmək funksiyasıdır.**

**Dövlətin təhlükəsizliyi** tə'sirli idarəetmə mexanizminin mövcudluğu və siyasi qüvvələrlə ictimai qrupların fəaliyyətinin əlaqələndirilməsi vasitəsilə tə'min olunur. Dövlətin təhlükəsizliyi həmçinin, tə'sirli tə'sisatların fəaliyyətilə həyata keçirilir.

**Cəmiyyətin təhlükəsizliyi** ictimai tə'sisatların, normaların, inkişaf etmiş yetkin ictimai şüur formalarının mövcudluğu ilə bağlıdır. Həmin amillər əhalinin bütün qruplarının hüquq və azadlığını reallaşdırmağa, cəmiyyətin parçalanmasına istiqamətlənən hərəkətlərə (o cümlədən dövlət tərəfindən) qarşı çıxmağa imkan yaradır.

**Şəxsiyyətin təhlükəsizliyi** sosial əhəmiyyətli qabiliyyətin və tələbatın inkişafına və reallaşmasına zəmin yaradan hüquqi və əxlaqi normalar kompleksinin, ictimai tə'sisatların və təşkilatların formalaşdırılmasını nəzərdə tutur. Bu öz növbəsində dövlətin və cəmiyyətin qarşıdurmasını heçə endirir.

Milli təhlükəsizliyin strukturunda siyasi, iqtisadi, hərbi, ekoloji, ünsürlər, o cümlədən informasiya təhlükəsizliyi və millətin mədəni inkişafı təhlükəsizliyi əhəmiyyətli yer tutur.

**Siyasi təhlükəsizlik** hər şeydən əvvəl, cəmiyyətin daxili sabitliyinə əsaslanır. Başlıca sosial qrupların mənafeyini əks etdirən sabit siyasi sistemin, siyasi təşkilin, həmin mənafeyi həyata keçirən siyasi rejimin mövcudluğu millətin birliyinə zəmin yaradır və iqtisadi, sosial, mədəni inkişaf vəzifələrinin səmərəli həllinə tə'minat verir. Bundan əlavə nüfuzlu, xalqın əksəriyyəti tərəfindən müdafiə olunan siyasi idarəetmə orqanları beynəlxalq aləmdə ölkənin mənafeyini müvəffəqiyyətlə müdafiə etməyə qadirdir. Başqa sözlə, həmin orqanlar ölkənin mövqeyini dövlətlərarası münasibətlərin fəal və müstəqil subyekti kimi möhkəmləndirməyə çalışmalıdır və çalışırlar da. Ümumiyyətlə, ölkənin siyasi təhlükəsizliyi cəmiyyətin siyasi sistemi ilə bilavasitə əlaqədardır.

**Siyasi təhlükəsizliyin mahiyyəti dövlət quruluşuna aid olan məsələlərin müstəqil həll olunmasında millətin və onun yaratdığı dövlət tə'sisatlarının qabiliyyətini və imkanlarını səciyyələndirir, həmçinin, şəxsiyyətin və cəmiyyətin mənafeyi naminə müstəqil daxili və xarici siyasət yeridilməsini ifadə edir.** Başqa sözlə, siyasi təhlükəsizlik beynəlxalq münasibətlər sistemi çərçivəsində sabit siyasi suverenliyin mövcudluğunu və cəmiyyətin siyasi sabitliyini nəzərdə tutur. Bu isə siyasi sistemin formalaşmasını, şəxsiyyətin aliliyi əsas götürülməklə müxtəlif sosial qrupların mənafeyinin tarazlığını tə'min edir. Əks təqdirdə ölkənin siyasi təhlükəsizliyi pozulur.

Milli təhlükəsizliyin ünsürlərindən biri də **iqtisadi təhlükəsizlikdir.** İqtisadi təhlükəsizliyin mahiyyəti zənnimizcə, bu və ya digər ölkənin özünü digər dövlətlərdən iqtisadi cəhətdən təcrid etmək deyil, məhz, ölkə daxilində cəmiyyətin hərtərəfli inkişafı üçün maddi zəmin yaratmaq və bu zəmində dünya təsərrüfat əlaqələri sisteminin müstəqil və bərabər hüquqlu subyekti kimi çıxış etməkdən ibarətdir.

Hazırda mülkiyyət münasibətləri, istehlak, bölgü və mübadilə səviyyəsində köklü iqtisadi dəyişikliklər həyata keçirilmədən iqtisadi təhlükəsizlik sisteminin yaradılması və əsl iqtisadi dirçəliş mümkün deyildir. Buna görə bütün milli təhlükəsizlik siteminə tə'sir göstərən ən mühüm iqtisadi təhlükəsizlik amili iqtisadi münasibətlərin, istehsalın və ölkənin iqtisadi inkişaf tələblərinə uyğun gəlməsidir. İstehsal münasibətləri şablon ideoloji mühakimələrə deyil, məhz, cəmiyyətin obyektiv tələblərinə əsaslanmalıdır. Bunsuz xammal ehtiyatlarından səmərəli istifadə etmək, infrastrukturun inkişafı, işçi qüvvəsinin ixtisaslaşdırılması, elmin və texnologiyanın inkişaf səviyyəsi qeyri-mümkündür.

İqtisadi təhlükəsizlik şəxsiyyətin və cəmiyyətin tələbatının reallaşmasına istiqamətlənən məhsuldar qüvvələrin və iqtisadi münasibətlərin inkişaf səviyyəsini səciyyələndirir, inkişaf etmiş infrastrukturu, faydalı qazıntıları, ixtisaslı işçi qüvvəsinin və bunun sisteminin hazırlanmasını, həmçinin, dünya təsərrüfat əlaqələri sisteminə qovuşmağın xarakterini əks etdirir. İqtisadi asılılıq iqtisadi təhlükəsizlik sisteminin dağılmasına səbəb olur.

**Hərbi təhlükəsizliyin** spesifikliyi bundan ibarətdir ki, o, milli təhlükəsizlik mənafeyini hərbi zorakılıq vasitələri ilə tə'min edir. Hərbi təhlükəsizliyin hərbi aspekti millətin xarici hərbi təhlükəyə qarşı durmaq və ya onun qarşısını almaq qabiliyyətini səciyyələndirir. Bu, müasir hərbi qüvvələrə yiyələnməyi, kollektiv və ya ümumi hərbi təhlükəsizliyin zəruriliyini nəzərdə tutur. Eləcə də mövcud hərbi-siyasi birliklərə daxil olmaq həyati tələbatdır. "Soyuq müharibə təcrübəsi təsdiqləyir ki, hərbi təhlükəsizliyin möhkəmləndirilməsinin daha tə'sirli yolu səmərəli beynəlxalq təhlükəsizlik sisteminin formalaşdırılmasıdır. Hərbi təhlükəsizliyin daxili aspekti isə ölkə daxilində ordunun siyasi rolunun gücləndirilməsi ilə bağlıdır.

Digər təhlükəsizlik problemləri, o cümlədən millətin **mədəni inkişafı təhlükəsizliyi, ekoloji, informasiya təhlükəsizliyi hər şeydən** əvvəl, şəxsiyyətin və cəmiyyətin tələbatı ilə əlaqədardır.

Milli təhlükəsizliyin başlıca struktur ünsürləri sırasında **insanın və cəmiyyətin mədəni inkişafının təhlükəsizliyi** spesifik yer tutur. İnsanların hər hansı tarixi birliyi ərazi və iqtisadi birliklə, siyasi əlaqələrlə yanaşı mədəniyyət ən'ənələrinin ümumiliyinə, mə'nəvi həyatın birliyinə əsaslanır. Belə bir fikirə haqq qazandırmaq olar ki, **mədəniyyət ən'ənələrini itirən xalq əhaliyə çevrilir**. Əhali isə statistika üçün böyük anlayışdır, o, hər hansı milli-dövlət çərçivəsində mövcud ola bilər. **İ.Kant** ölkə əhalisini iki yerə-mədəniyyət ən'ənələrini mənimsəyən xalqa və cəmiyyətin mə'nəvi həyatından kənarlaşan camaata, tör-töküntüyə ayırır.

Son illər mədəniyyətin saxlanması və müdafiəsi problemi digər qlobal problemlər sırasında özünəməxsus yer tutur. Bu problemin aktuallığı mədəniyyətin özünü, onun mə'nəviliyini dərindən dərk etməklə şərtlənir. Elə bir millət, sosial qrup, ayrıca fərd təsəvvür etmək mümkün deyil ki, o, dünya və vətən mədəniyyətindən xəbərsiz olsun, milli özünəməxsus ən'ənələrdən, dəyərlər və ideallar sistemindən kənarda qalsın.

Xalqın mə'nəviyyatı, onun vətənə və özünə münasibəti məhz, mədəniyyət sahəsində öz ifadəsini tapır.[1] Siyasi ən'ənələr və vərdişlər sistemi, cəmiyyətin siyasi mədəniyyəti mədəniyyət

---

[1] Проскурин С.А. Национальная безопасность страны: сущность, структура, пути укрепления. Səh.26.

problemi vasitəsilə nəzərdən keçirilir. İnsanın mədəni inkişafının təhlükəsizliyi prosesinə iqtisadi, siyasi və digər həyat fəaliyyəti sferasının amilləri mühüm tə'sir göstərir.

Milli mənafeyin reallaşdırılması, şəxsiyyətin və cəmiyyətin tələblərinin tə'min olunması təkcə bu və ya digər millətlərin təmsil olunduğu ölkələrdə dövlətin daxili siyasəti və digər yerli amillərlə məhdudlaşmır. Millətin mənafeyinin, təhlükəsizliyinin tamamilə tə'min edilməsi həm də beynəlxalq xarakterli problemlərin milli mənafe məsələləri ilə məqsədyönlü əlaqələndirilməsindən asılıdır. Bu mənada **müasir qlobal siyasi problemlərin həlli** dərin milli və bəşəri əhəmiyyətə malikdir.

XXI əsrə qədəm qoyan bəşəriyyət uğurlu gələcək naminə keçdiyi yola nəzər salmalı, keçmişə bugünkü sivilizasiyanın mövqeyindən tənqidi münasibət bildirməli və yer üzündə xoşbəxt həyatın bərqərar edilməsi üçün düzgün nəticə çıxarmalıdır. Bunu son yüzillikdə dünyada baş verən dərin kəmiyyət və keyfiyyət dəyişiklikləri daha çox şərtləndirir.

**XX əsr tarixə böyük, qlobal hadisələr dövrü kimi daxil olmuşdur**. İki dünya müharibəsi, ölkələrin müəyyən qismində baş verən sosial inqilablar, müstəmləkə sisteminin və sonuncu imperiyanın (SSRİ-nin) dağılması, bə'zi ölkələrdə faşizmin məhvi və sosializmin süqutu XX əsrin mahiyyətini səciyyələndirən böyük hadisələrdir. Bu əsrdə bəşəriyyət xeyli insan itgisinə və əzab-əziyyətə düçar olmuşdur. Məhz, XX əsrin birinci yarısında 140 milyondan artıq insan həlak olmuşdur.. Politoloqlar, sosioloqlar həmin əsrin mahiyyətini və məzmununu müxtəlif mövqedən qiymətləndirmişlər. Məsələn, məşhur Amerika politoloqu **Z.Bjezinski** XX əsri "**meqaölüm** dövrü adlandırmışdır.

Əlbəttə, yaşadığımız dövr, həmçinin, bəşəriyyətin həyatında böyük nailiyyətlərlə səciyyələnir. XX əsrin ortalarından başlayan elmi-texniki inqilab məhsuldar qüvvələrin inkişafında köklü dəyişikliklərə səbəb olmuşdur. Bu inqilab insanların yaşayışı və həyatı üçün zəruri olan ne'mətlər bolluğuna gətirib çıxarmış və sosial həyatın bütün sferalarında ciddi pozitiv dəyişikliklər əmələ gətirmişdir. Eyni zamanda yanaşı elmi-texniki inqilab bəşəriyyətin narahatlığına səbəb olan müəyyən **qlobal problemlərin** yaranmasına tə'sir göstərmişdir. Narahat və ziddiyyətli dünyamız kəskin qlobal

problemlərlə üzləşsə də bütövlükdə **qarşılıqlı əlaqədə və asılılıqda** olan dünyadır.

Hazırda bəşəriyyəti düşündürən ən mühüm qlobal siyasi problemlərdən biri, daha doğrusu, birincisi **yeni dünya müharibəsi təhlükəsinin** mövcudluğu və bu məqsədlə kütləvi qırğın silahlarının toplanması və təkmilləşdirilməsidir. Bununla əlaqədar olaraq belə bir sual meydana çıxır: bəşəriyyət bundan sonra müharibələr, münaqişələr, ziddiyyətlər şəraitində, yoxsa dinc yaşamalıdır? Dövlətlər, xalqlar arasında müharibələrin labüdlüyünü şərtləndirən səbəblər barədə xeyli nəzəriyyə, hipoteza və təsəvvürlər olduğuna baxmayaraq bu məsələyə dair **iki başlıca fikir istiqaməti** mövcuddur.

Bə'zi sosioloqlar və politoloqlar bəşəriyyət tarixində müharibələrin səbəbini hər şeydən əvvəl, xarici şəraitlə, kənar amillərlə əlaqələndirirlər. Onların fikrincə, insan özlüyündə nə xeyirdir, nə də şər. Bu əksliyi şərait yaradır. Digər alimlər isə xalqlar arasında müharibələrin zəruriliyini insanın öz təbiəti ilə, onun zorakılığa və irticaçılığa sə'y göstərməsilə izah edirlər. Məsələn, hələ vaxtilə **Avqustin** belə hesab edirdi ki, cəmiyyətdə şər qüvvələrin mövcudluğunun səbəbi insanın iradə azadlığıdır. O, bütün cəmiyyəti bir-birinə qarşı mübarizə aparan quldur dəstəsinə bənzədirdi. Görkəmli ingilis filosofu **Tomas Hobbs** iddia edirdi ki, insana dərin eqoizm, xəsislik, qorxu və şöhrətpərəstlik xasdır. Eyni zamanda insan paxıl adamlarla, rəqiblərlə, ona düşmən olan şəxslərlə əhatə olunmuşdur. Hobbs belə qənaətə gəlir ki, adamlara xas olan "ehtiraslar onları bir-birinə düşmən edir. "İnsan-insana canavardır ideyasını əsaslandırmaqla bu filosof cəmiyyətdə "hamının-hamıya qarşı müharibəsinin labüdlüyünü qanunauyğun hal sayır. Əlbəttə, müharibələrin səbəblərini başqa amillərlə əlaqələndirənlər də olmuşdur. Belə bir təsəvvür mövcuddur ki, xalqlar, dövlətlər arasında baş verən müharibələr, münaqişələr şüurdakı çatışmazlığın, səfeh adamların düşüncəsinin məhsuludur. Şübhəsiz, müharibələrin səbəblərinə dair yuxarıda qeyd etdiyimiz bütün təsəvvürlərdə həm səmərəli, həm də qüsurlu cəhətlər vardır. Ümumiyyətlə, müharibələrin zəruriliyini yalnız xarici şəraitdə və insanın təbiətində axtarmaq sə'yləri birtərəfli, məhdud xarakter daşıyır. Heç də təsadüfi deyil ki, sosioloqlar müharibə və

münaqişələri törədən səbəbləri daha geniş və əhatəli səpgidə araşdırmağı məqsədəuyğun hesab edirlər.

**Müharibə dövlətlər, xalqlar, millətlər və sosial qruplar arasındakı ictimai-siyasi, iqtisadi, ideoloji, həmçinin milli, dini, ərazi və digər xarakterli ziddiyyətlərin hərbi zorakılıq vasitələri ilə həlli formalarından biri kimi səciyyələnən sosial hadisədir.** Müharibə ictimai həyatın bütün sferalarına, sivilizasiyanın taleyinə tə'sir göstərən amil olmaq e'tibarilə birdən-birə, dərhal yaranan siyasi hadisə deyildir. O, cəmiyyətin inkişafı ilə birlikdə mürəkkəb tarixi təkamül yolu keçmişdir. Buna görə müharibənin meydana gəlməsinə dair görüşlərin özü də mürəkkəb mahiyyət daşımışdır. Müharibənin cəmiyyətdə yeri və rolu məsələsinə dair XVI-XVII əsr maarifçilərinin, XVIII-XIX əsr alimlərinin, hərbi nəzəriyyəçilərin və tarixçilərin maraqlı fikirləri vardır. Lakin müharibənin meydana gəlməsi səbəbləri haqqında ən düzgün fikir alman hərbi nəzəriyyəçisi və tarixçisi **K. Klauzevits** tərəfindən irəli sürülmüşdür. O, təsdiq edir ki, "müharibə siyasətin başqa vasitələrlə davamıdır.

Müharibə digər sosial-siyasi hadisələrdən və silahlı zorakılıq vasitələrindən fərqli olaraq spesifik əlamətlərə malikdir. Onu obyektiv-subyektiv xarakterli dərin siyasi və sosial iqtisadi səbəblər doğurur. Müharibənin məzmunu silahlı zorakılıq vasitələrilə əldə olunan siyasi və hərbi strateji məqsədlərə uyğun gəlir.

Müharibənin meydana gəlməsi mexanizmini düzgün başa düşmək üçün nəinki ümumi, xüsusi və ayrıca səbəblərin fəaliyyətini, eləcə də onları şərtləndirən obyektiv şəraitin və subyektiv amillərin mahiyyətini təhlil etmək zəruridir, gerçəkliyin siyasi, iqtisadi, sosial və digər hadisələrini izah etmək vacibdir. Bu baxımdan müasir dövr üçün aşağıdakılar səciyyəvidir: Ehtimal olunan dünya müharibəsində bütün bəşəriyyətin məhvi təhlükəsi; vahid, qarşılıqlı əlaqədə və qarşılıqlı asılılıqda olan dünyanın formalaşması. Belə halda ümumi və regional təhlükəsizlik ayrıca dövlətlərin və xalqların təhlükəsizliyindən asılıdır; daha tə'sirli humanitar hüququn, ikitərəfli və çoxtərəfli müqavilələr sisteminin formalaşması və həmin müqavilələrin həyata keçirilməsinin beynəlxalq mexanizminin mövcudluğu; müharibə əleyhinə təşkil olunmuş və fəal fəaliyyət göstərən qüvvələrin təşəkkülü.

Qlobal siyasi problem olmaq e'tibarilə müharibənin mahiyyətinin dolğun başa düşülməsi üçün "müharibə amilləri anlayışı barədə konkret təsəvvürə malik olmaq vacib və əhəmiyyətlidir. **Müharibə amili** müharibə aparan tərəflərin müharibənin gedişinə və nəticələrinə tə'sir göstərən maddi və mə'nəvi imkanlarını hərəkətə gətirməsidir. Müharibə amilləri bunlardır: coğrafi mühit, əhalinin kəmiyyət və keyfiyyət tərkibi; cəmiyyətin maddi və mə'nəvi qüvvələri; iqtisadi və siyasi quruluş, sosial, sinfi, milli münasibətlər; elm, xalqın və ordunun əxlaqi ruhu; ordunun silahlandırılması, onun say tərkibi, tə'limi və döyüş təcrübəsi, ordunun təşkili və idarə olunması. Bunlardan əlavə müharibənin digər amilləri də mövcuddur. Tarixi təcrübə göstərir ki, müharibənin gedişinə və nəticələrinə həlledici tə'sir göstərən amillər sırasında iqtisadi, sosial, siyasi, elmi, mə'nəvi, coğrafi, demoqrafik və hərbi amil başlıca yer tutur. Müharibələrin çoxunda, xüsusilə dünya müharibələrində **müttəfiqlik amili** də mühüm rol oynamışdır.

Nüvə əsrində müharibə amili xüsusi əhəmiyyət daşıyır. Nüvə müharibəsi siyasət vasitəsi kimi çıxış edə bilməz və onun köməyilə hər hansı mübahisəli məsələləri həll etmək mümükün deyildir. Buna görə ölkələrin maddi və mə'nəvi imkanları müharibəyə hazırlaşmağa yox, məhz, onun qarşısını almağa sərf olunmalıdır.

Dünyanın bir sıra böyük dövlətlərinin ən zəhmli müasir silahlara, ilk növbədə isə istilik nüvə silahına malik olması bütün ölkələr üçün təbii olaraq təhlükəli şərait yaratmışdır. Nüvə silahına malik olmayan ölkələrin indi adi silahlar vasitəsilə öz təhlükəsizliyini tə'min etməsi qeyri-mümkündür. Əslində hər bir dövlətin təhlükəsizliyi, e'tibarlı müdafiəsi ayrılıqda digər dövlətlərin təhlükəsizliyindən asılıdır. Başqa sözlə, dünyada təhlükəsizliyə birgə sə'ylərlə nail olmaq mümkündür. "Seyn-Friz kampaniyasının (hamılıqla təhlükəsizlik uğrunda kampaniyanın) prezidenti Amerikalı **Uilyam Koffinin** həqiqətə çox uyğun obrazlı fikrini bildirmək yerinə düşər. O, yazır ki, 50 il bundan əvvəl ayrıca bir regionun taleyi üçün ciddi narahatlığa əsas var idi. Bu gün isə bütün dünya ölüm kamerasındakı məhbusun e'lan olunmadan vaxtından əvvəl cəza vaxtını xatırladır. Maraqlıdır ki, nüvə silahının mövcudluğunu dünya müharibəsinin qarşısını almaq kimi qiymətləndirən təsəvvürlər də

yayılmışdır. Nüvə silahının yaranmasını "tarixi zərurət kimi əsaslandırmaq cəhdləri təcavüzkarlıq niyyətlərini ört-basdır etmək, bəşəriyyəti qan dəryasında boğmaq sə'ylərindən başqa bir şey deyildir. Nüvə silahının meydana çıxmasını ehtimal olunan təcavüzkarlığa yol verməmək və dünya müharibəsinin başlanmasının qarşısını almaq üçün e'tibarlı vasitə hesab edən konsepsiya ABŞ-ın hərbi nəzəriyyəçiləri tərəfindən işlənib hazırlanmışdır. Nüvə silahına malik olan dövlətlərin rəhbər dairələri bu silahın saxlanmasının zəruriliyi ideyasını bütün dünyada sülhün və sabitliyin bərqərar edilməsi sisteminin ayrılmaz komponenti kimi qiymətləndirirlər.

Keçmiş SSRİ ilə ABŞ arasında nüvə silahı sahəsində tarazlığın yaranması təxminən 70-ci illərin əvvəllərinə təsadüf edir. SSRİ-nin dağılması ilə əlaqədar sosialist ölkələrinin keçmiş hərbi təşkilatının, daha doğrusu Varşava müqaviləsi iştirakçılarının kollektiv təhlükəsizlik ittifaqının dağılması dünyada yeni əmin-amanlıq şəraitinin yaranmasına səbəb oldu. İndi əvvəlki dövrə nisbətən dünya müharibəsi təhlükəsi qismən azalmışdır. Əlbəttə, hazırda NATO-nun sərhədlərinin Şərqə doğru genişlənməsi ehtimalı beynəlxalq təhlükəsizliyin tə'min olunması mə'nada müəyyən təşviş hissindən uzaqlaşmağa şübhə oyadır. NATO-nun belə addım atacağı ehtimalı bə'zi dövlətləri, ilk növbədə isə Rusiyanı daha çox narahat edir. Bununla əlaqədar Rusiya Federasiyası Milli təhlükəsizlik şurasının sabiq sədri general **Lebedin** (təyyarə qəzası nəticəsində ölmüşdür) Rusiya televiziyası ilə etdiyi xəbərdarlığı xatırlamaq yerinə düşər: **Biz hərbi mə'nada yer kürəsini 52 dəfə alt-üst etməyə qadirik.**

Tərksilah problemi ilə 80-cı illərin axırına qədər yalnız iki dövlət - SSRİ və ABŞ məşğul idi. Lakin qlobal siyasi problem olmaq e'tibarilə beynəlxalq təhlükəsizlik və tərksilah uzun müddət həmin iki dövlətə aid olan məsələ kimi qala bilməzdi. Beynəlxalq tərksilah probleminə tədricən və düşünülmüş şəkildə digər ölkələr, o cümlədən keçmiş SSRİ ərazisinə daxil olan Ukrayna, Belorusiya və Qazaxıstan ciddi maraq göstərdilər. Bu üç dövlətin tərksilaha marağının əhəmiyyəti bundan ibarətdir ki, onlar Sovet İttifaqı dövründə atom silahına malik olan yeganə respublikalar idi.

Nüvə silahı və digər zəhmli silahların kəmiyyəti və keyfiyyətinə görə üstünlüyə malik olmaq uğrunda ABŞ ilə SSRİ

arasında mübarizə nəticə e'tibarilə bə'zi dövlətlərin təhlükəli addım atmasına gətirib çıxardı. Belə ki, Fransa və Çin tərəfindən nüvə silahı sınaqdan keçirildi. Beynəlxalq ictimaiyyəti narahat edən həmin addım özlüyündə digər dövlətlərin də belə hərəkət etməsinə təbii olaraq haqq qazandırırdı. Lakin elmi, iqtisadi və hərbi-texniki potensiala daha çox malik olan ölkələr arasında münasibətlərin müsbət istiqamətdə inkişafı və onların sür'ətlə silahlanmanın təhlükəsini dərk etmələri beynəlxalq aləmdə əvvəlki gərginliyin azalmasına səbəb oldu. Bəşəriyyətin taleyi üçün məsuliyyət daşıyan hərbi qüdrətə malik dövlətlər **digər qlobal problemin həllinə - ətraf mühitin qorunub saxlanmasına üz çevirdilər**.

Bəşəriyyətin müharibələrə və münaqişələrə yox, məhz, təbiətin, ətraf mühitin qorunub saxlanmasına və saflaşmasına təbii tələbatı vardır. Ətraf mühitin qorunması insanın təsərrüfat fəaliyyətinin kəskin surətdə yüksəlməsi ilə sıx bağlıdır. Bu proses ictimai inkişafın qanunauyğun meyli olub, hər şeydən əvvəl, əhalinin artımı və onun maddi güzəranının yaxşılaşdırılması ilə şərtlənir.

İnsanın təbiəti həddindən artıq istismarı meşələrin kütləvi şəkildə qırılmasına, şirin suyun azalmasına, onun keyfiyyətinin pisləşməsinə, hidrosferanın (okeanların, dənizlərin, göllərin və çayların) çirklənməsinə və ozon qatının pozulmasına gətirib çıxarmışdır. Şirin suyun azalması insanların həyatı üçün ciddi təhlükə törədir. Hazırda yer üzündə olan suyun ümumi həcmi 1,4-1,6 milyard kub kilometrdir.

İnsan üçün zəruri olan şirin su isə yer üzündəki bütün suların həcminin yalnız 2 faizini təşkil edir. Ətraf mühitin korlanması həm də havaya və yerə milyon tonlarla müxtəlif kimyəvi tullantılar, alov və digər zəhərli şeylər buraxılması ilə bağlıdır. Məsələn, hər il atmosferə 250 milyon alov, 70 milyon kub metr qaz, min tonlarla xlor birləşmələri və sair buraxılır. Nəticədə nəinki hava zəhərlənir, həm də günəş radiasiyası üçün sanki sipər yaranır və atmosferin şəffaflığı azalır. Məhz, bu mə'nada **ekoloji təhlükə bəşəriyyəti nüvə müharibəsi qədər narahat edir**. Heç də təsadüfi deyil ki, alimlər "ekoloji böhran dedikdə məhz, planetimizin biosferası mexanizminin özünü tənzimləməsinin dağılması təhlükəsini nəzərdə tuturlar. Buna görə bütün ölkələr və xalqlar bütün sə'ylərini ətraf mühitin qorunması və yaxşılaşdırılması problemini, yə'ni həm də **siyasi**

**mahiyyət** daşıyan ekoloji problemin həllinə istiqamətləndirməlidir. Hazırda həmin problemin həlli üçün real imkanlar mövcuddur. Beynəlxalq gərginliyin zəifləməsi ətraf mühitin qorunması üçün bütün dövlətlərin, xalqların və müvafiq beynəlxalq təşkilatların sə'ylərinin birləşdirilməsinə əlverişli şərait yaradır.

Ekoloji problem ictimai istehsalın artması problemi və bununla əlaqədar olaraq enerjiyə və xammala olan tələbatın yüksəlməsi ilə sıx bağlıdır. Unutmaq olmaz ki, təbii ehtiyatlar tükənməz deyildir. Bu baxımdan təbii ehtiyatlardan istifadə olunmasına səmərəli, elmi cəhətdən əsaslandırılmış şəkildə yanaşmaq lazımdır. Lakin həmin məsələnin həlli bə'zi çətinliklərlə əlaqədardır. Mövcud çətinliklərdən biri bundan ibarətdir ki, hazırda əhalinin hər nəfəri hesabilə enerjiyə tələbat inkişaf etməkdə olan ölkələrdə inkişaf etmiş ölkələrlə müqayisədə xeyli yuxarıdır. Bu fərqi azaltmaq məqsədilə dünyada enerji istehsalını bir neçə dəfə artırmaq lazımdır.

Digər çətinlik isə dövlətlərin xeyli hissəsində istehsalın texnoloji cəhətdən təkmilləşdirilməməsi ilə şərtlənir. Nəticədə xammala, enerjiyə artıq xərc sərf olunur. Bütün dünya üçün çox vacib olan həmin məsələnin həlli ölkələr arasında sıx iqtisadi əməkdaşlığı, qarşılıqlı təcrübə mübadiləsini həyati tələbata çevirir. Ekoloji problemin həlli yeni sosial-iqtisadi inkişaf yollarının daim və yaradıcı surətdə axtarılmasını, bu məqsədlə dünyanın bütün alimlərinin, tədqiqatçıların birgə sə'ylərinin artırılmasını tarixi vəzifə kimi irəli sürür. Hesablamalara görə hazırda **bütün dünyada korlanmış ətraf mühitin bərpası üçün 600 milyard dollar** sərf etmək lazımdır. İndi yeni bilik sahəsininsiyasi ekologiyanın meydana gəlməsi təsadüfi deyildir. Siyasətlə elmin qovuşuğunda yaranan **siyasi ekologiya** sübut edir ki, müasir dövrdə həm milli, və eləcə də beynəlxalq səviyyələrdə siyasi vasitələrdən istifadə etmədən təbiəti və bəşəriyyəti təhlükədən qurtarmaq çətindir. Bununla əlaqədar olaraq "ekoloji siyasət anlayışının açıqlanması məqsədəuyğundur.

**Ekoloji siyasət** bizi əhatə edən təbii mühitin qorunmasına və sağlamlaşdırılmasına, təbii ehtiyatlardan səmərəli istifadə olunmasına, insanın normal həyat fəaliyyətinin və ekoloji təhlükəsizliyinin tə'min edilməsinə istiqamətlənən siyasətdir. Ekologiya uzun müddət təbiət elmlərinin, ilk növbədə bioloji, sonralar isə coğrafi elmlərin tədqiqat obyekti olmuşdur. Hazırda o, siyasətin xüsusi maraq

göstərdiyi sferadır. İnsan ekologiyasının başlıca vəzifəsi dəyişilən ətraf mühit şəraitində insanın yerini müəyyənləşdirməkdir.

Təbiət və cəmiyyətin bir-birinə qarşılıqlı tə'siri, onların dialektik vəhdəti və mübarizəsi **sosial ekologiyanın** tədqiqat predmetidir. Elmi-texniki inqilabın gedişində istehsal fəaliyyətinin iqtisadiyyata birbaşa tə'siri güclənir. Belə ki, dünya okeanı atmosferinin tərkibi, planetin istilik rejimi, radioaktivliyin səviyyəsi sür'ətlə dəyişir. Bu cəhət özlüyündə insan həyatı üçün təhlükə törədir və cəmiyyətin inkişafına neqativ tə'sir göstərir. Genetik fondun dəyişilməsi təhlükəsi, enerji təchizatının, mineral-xammalın və ərzaqla tə'minatın lazımi səviyyədə olmaması, demoqrafiq tarazlığın pozulması və sair bəşəriyyətin gələcəyini təhlükə altına alır. Bütün qlobal neqativ hadisələrin miqyası və kəskinliyi ekoloji böhranın ekoloji partlayışa çevrilməsi və bugünkü sivilizasiyanın məhv olması təhlükəsini artırır. İnsanın müdafiəsi və yaşaması naminə müxtəlif qayğılar və problemlər, o cümlədən sosial-iqtisadi və siyasi xarakterli köklü məsələlər ekoloji siyasətin mahiyyətini təşkil edir. Ekoloji siyasət, regional və beynəlxalq ekoloji təhlükəsizlik dünya siyasətinin mühüm tərkib hissəsinə çevrilmişdir. Ekologiya sahəsində razılaşdırılmış beynəlxalq siyasətin işlənib hazırlanması qarşılıqlı əlaqədə və asılılıqda olan dünyamızın taleyinə mə'suliyyətlə yanaşmağın ifadəsidir. **Ümumdünya ekoloji siyasətinin** birgə həyata keçirilməsi ekoloji təhlükənin aradan qaldırılmasını və bəşəri tərəqqini real tə'min edər. Bu, ümumbəşəri mənafelərin və sərvətlərin ən mühüm təzahürlərindəndir.

Beynəlxalq təhlükəsizliyin digər sferaları kimi ekoloji təhlükəsizlik də ilk növbədə siyasi vasitələrlə tə'min olunur. Ekoloji təhlükəsizliyin hərbi yolla, zorakılıq vasitələrilə tə'min edilməsi qeyri-mümkündür. "Mənafelər balansı prinsipi dövlətlərarası ekoloji münasibətlər sahəsində də xüsusi əhəmiyyətə malikdir. Ekoloji təhlükəsizlik sahəsində dövlətlərin qarşılıqlı fəaliyyətini tənzimləyən beynəlxalq əməkdaşlıq normalarının və beynəlxalq hüququn rolu da artır.

Ətraf mühitin qorunması və sağlamlaşdırılması, ekoloji təhlükəsizlik hərbi fəaliyyətin məhdudlaşdırılması, tərksilah və hərbi təhlükənin azaldılması ilə sıx bağlıdır. Müasir silahların tətbiq olunması və dövlətlərarası müharibə ağır ekoloji nəticələrə gətirib

çıxarır. Beynəlxalq ekoloji əməkdaşlığın inkişafında **ekoloji nəzarət sisteminin** yaradılması da faydalı rol oynayır.

Sağlam ekoloji mühitdə yaşamaq hüququ insanın **yeni spesifik hüquqlarından olmaqla ekoloji etikanın və mədəniyyətin** əsasını təşkil edir. Buna görə insanların həyat fəaliyyətinin bütün sferalarında, o cümlədən, müxtəlif təmayüllü təhsil ocaqlarında ekoloji təfəkkürün formalaşdırılmasına ciddi diqqət yetirilməlidir.

Beynəlxalq ekoloji siyasət sferasında çoxtərəfli əməkdaşlıq əsasən BMT çərçivəsində həyata keçirilir. BMT-nin fəaliyyəti bununla səciyyələnir ki, onun müvafiq təşkilatları təbiətin qorunması sahəsində əməkdaşlığa dair ümumi strategiya işləyib hazırlayır, insanın və cəmiyyətin təbiətə münasibətinin uzunmüddətli və universal prinsiplərini müəyyənləşdirir.

Ekoloji siyasətin işlənib hazırlanmasında və həyata keçirilməsində bir sıra qeyri-hökumət təşkilatları (Təbiətin və təbii ehtiyatların qorunması üzrə beynəlxalq ittifaq, Beynəlxalq tətbiqi sistemli təhlil institutu, Roma klubu və s.), ekoloji ictimai təşkilatlar və partiyalar ("Yaşıllar, "Göylər hərəkatı, Humanist internasional və s.) faydalı rol oynayırlar.

Yeni ekoloji siyasət xeyli sosial məsələlərin həlli ilə bağlıdır. Elə buna görə də indi ayrı-ayrı ölkələrdə uzunmüddətli dövlət ekoloji proqramları işlənib hazırlanır. Bir sözlə, ekoloji siyasət ekoloji təhlükəsizliyin qərarlaşması baxımdan bütün dövlətlərin sə'lərini birləşdirən və istiqamətləndirən ümumi amil kimi çıxış edir.

Müasir dövrün qlobal siyasi problemlərindən digəri **demoqrafik problemdir.** Hazırda dünya əhalisinin demoqrafik artımı ilə məhsuldar qüvvələrin dinamikası arasında nəzərə çarpan uyğunsuzluğun həlli təxirəsalınmaz vəzifələrdəndir. Əhali artımının sür'əti ilə bağlı bir sıra çətinliklər meydana çıxır. Əhalinin ərzaqla tə'min edilməsi sahəsində təzahür edən çətinliklər xüsusilə narahatlıq doğurur. İnkişaf etməkdə olan və iqtisadi cəhətdən zəif ölkələrdə əhali artımı daha sür'ətlə davam edir. Hazırda dünyada 6 milyarda yaxın adam vardır. Birləşmiş Millətlər Təşkilatının proqnozuna görə dünyada əhali 2000-ci ildə 6,2 milyard, 2030-cu ildə 10 milyard, 2080-cı ildə isə 14 milyard nəfərə çatacaqdır. Hər gün dünyada 280320 min nəfər adam doğulur. Buna görə **əhalinin ərzaqla tə'min olunması qlobal problem** kimi çıxış edir. Dünya

əhalisinin üçdə iki hissəsi ərzaq məhsullarının kəskin şəkildə çatışmadığı ölkələrdə yaşayır. Zəif inkişaf etmiş ölkələrdə müşahidə olunan aclıq, ərzaq çatışmazlığı təbii proseslərdən çox həmin ölkələrdə yaranan sosial-siyasi və iqtisadi şəraitdən asılıdır. İnkişaf etməkdə olan ölkələr siyasi müstəqillik əldə etdikdən sonra hələ uzun müddət iqtisadi asılılıqdan xilas ola bilmirlər.

İnkişaf etmiş və inkişaf etməkdə olan ölkələrin xalqlarının həyat səviyyəsində dərinləşməkdə olan fərqlər müasir dünyamızın narahatlıq doğuran problemidir. İnkişaf etməkdə olan ölkələr nəinki iqtisadi cəhətdən, həmçinin sosial, siyasi və mədəni münasibətlərin inkişaf səviyyəsinə görə xeyli geri qalırlar. İqtisadi cəhətdən zəif inkişaf etmiş ölkələrdə həyat səviyyəsinin xeyli aşağı olmasına tə'sir göstərən amillərdən biri işsizlikdir. Təkcə belə bir faktı qeyd etmək kifayətdir ki, həmin ölkələrdə işsizlik işçi qüvvəsinin 40%ni təşkil edir. Demoqrafik problemin həlli dünya dövlətlərinin birgə məqsədyönlü **demoqrafik siyasətindən** çox asılıdır. Demoqrafik siyasət sosial-iqtisadi siyasətin tərkib hissəsidir. Bu siyasət nəinki dövlət səviyyəsində həyata keçirilir, həm də regional mahiyyət daşıyır. Demoqrafik siyasətin başlıca məzmununu ölkə əhalisinə tənzimləyici tə'sir göstərilməsi təşkil edir.

Demoqrafik siyasətin nəticələri dövlət statistikasında və xüsusilə əhalinin siyahıya alınması zamanı qeyd olunur.

Demoqrafik siyasətin subyektini idarəetmə və dövlət hakimiyyəti orqanları və bunların vəzifəli şəxsləri təşkil edirlər. İctimai təşkilatlar və vətəndaşlar demoqrafik siyasətin subyekti olmasalar da öz fəaliyyətləri ilə onun həyata keçirilməsinə imkan yarada bilərlər.

Demoqrafik siyasətin başlıca istiqamətləri bunlardır: əhalinin təkrar istehsalı və miqrasiyası; onun təhsil potensialının formalaşması; əmək ehtiyatlarının tərkibi və strukturu; peşə yönümü; işlə tə'min olunma; əhalinin məşğulluğu. Bütün bu sosial-demoqrafik hadisələr sosial-iqtisadi baxımdan nə qədər qarşılıqlı tə'sirə malikdirsə demoqrafik siyasət də bir o qədər əhalinin təkrar istehsalına tə'sir göstərə bilər. Daimi yaşayış yeri ilə əvəz olunan əhalinin miqrasiyası və təkrar istehsalı region əhalisinin səmərəli cins-yaş strukturunun formalaşmasına faydalı imkan yaradır.

Ümumiyyətlə, müasir dünyanı "demoqrafik partlayışdan xilas etmək məqsədilə dövlətlərarası ən zəruri və həyati beynəlxalq əməkdaşlıq sə'yləri daha da gücləndirilməlidir.

Zəmanəmizdə təşviş doğuran **qlobal problemlər sırasında cinayətkarlığın artması, xüsusilə beynəlxalq terrorizm** spesifik yer tutur. Beynəlxalq terrorizm dünya siyasətində diqqəti cəlb edən hadisə olub zorakılığın terrorçuluq tədbirləri formasında yayılması ilə əlaqədardır. O, beynəlxalq münasibətlərin gedişini real təhlükə altında qoyur. Terrorçuluq aktlarının həyata keçirilməsi mə'suliyyətinin siyasi-hüquqi çərçivəsinin müəyyənləşdirilməsi mühüm əhəmiyyət kəsb edir. Beynəlxalq terrorçuluq hərəkətlərinin təşkilində və həyata keçirilməsində iştirak etmək cəhdi buna qarşı beynəlxalq əməkdaşlığı zərurətə çevirir. Zorakılıq hərəkətlərinin obyekti beynəlxalq hüquqla müdafiə olunur. Güc tətbiq olunması aktı və ya onun həyata keçirilməsi cəhdi beynəlxalq sülh və təhlükəsizlik üçün mənfi nəticələr doğurur. Buna görə terrorçuluq hərəkətləri beynəlxalq hüquq subyekti sistemində nəzərdən keçirilməlidir. 2001-ci il senyabrın 11-də ABŞ-da baş verən irimiqyaslı dəhşətli terror dünya dövlətlərinin terrorizmə qarşı birgə mübarizə səylərini daha da gücləndirmişdir.

1937-ci ildə millətlər birliyi çərçivəsində terrorçuluq aktlarının qarşısını almaq məqsədilə konvensiya (beynəlxalq saziş) bağlamağa cəhd göstərilmişdir. Belə bir cəhd 1934-cü il oktyabrın 9da Yuqoslaviya kralı **I Aleksandrın** və Fransanın xarici işlər naziri **Lui Bartunun** öldürülməsi ilə bağlı olmuşdur.

Beynəlxalq terrorizmə qarşı mübarizə sə'ylərinin güclənməsinə 1972-ci ildə Münxendə keçirilən olimpiya oyunları zamanı İzrailin idman komandasına terrorçuların hücumunun faciəli nəticələri təkan verdi. BMT Baş Məclisinin XXVII sesiyasından başlayaraq hər il "Beynəlxalq terrorizmin kökünün kəsilməsi tədbirlərinə dair maddə müntəzəm surətdə müzakirə olunur. 1972-ci ilin dekabrında 3034-cü qətnamə əsasında beynəlxalq terrorizm məsələsinə dair tərkibində 34 dövləti birləşdirən xüsusi komitə yaradıldı. Lakin indiyə qədər beynəlxalq terrorizmin qarşısının alınması və ləğvinə dair universal saziş imzalanmayıb. Hələlik "Beynəlxalq terrorizmin cinayət tərkibinin müəyyənləşdirilməsi üzrə bitkin sənəd hazırlanmaması həmin sazişin bağlanmamasının başlıca

səbəbidir. Terrorizmə qarşı mübarizəni nəzərdə tutan 11 xüsusi konvensiyanın və protokolun mövcudluğuna baxmayaraq terrorçuluq aktına qarşı tə'sirli konkret cəzalandırma mexanizmi və məcəlləsi işlənib hazırlanmayıb. Lakin beynəlxalq terrorizmə qarşı qətiyyətli mübarizə aparmaq məqsədilə Beynəlxalq cinayət məhkəməsinin yaradılması ehtimalı da var.

Biz ən vacib qlobal siyasi problemlərə toxunduq. Yuxarıdakı mülahizələrimizi yekunlaşdıraraq belə qənaətə gəlmək olar: **Birincisi,** qlobal siyasi problemlərin hər biri insan, cəmiyyət və təbiətin qarşılıqlı münasibəti qovuşağında yaranmışdır. **İkincisi,** dünya inkişafının təcrübəsi təsdiqləyir ki, bütün qlobal siyasi problemlər bir-biri ilə qarşılıqlı əlaqə və tə'sirdədir. Həmin mə'nada onların həllinə kompleks şəkildə yanaşmaq məqsədəuyğundur. **Üçüncüsü,** qlobal siyasi problemlərin həlli üçün bütün vasitələrin, xüsusilə intellektul, əmək və maddi ehtiyatların birləşdirilməsi həyati zərurətdir. Bu baxımdan dövlətlərarası qarşılıqlı inam hissi və əməkdaşlıq bundan sonra daha da gücləndirilməlidir.

## 4. SİYASİ MÜNAQİŞƏLƏR: MAHİYYƏTİ, MƏNBƏLƏRİ, TƏNZİMLƏNMƏSİ

Müxtəlif ictimai-siyasi quruluşa malik olan bütün cəmiyyətlərdə münaqişələr mövcud olmuşdur. Bu, cəmiyyətdə patoloji hal kimi yox, təbii və normal hadisə kimi başa düşülməlidir. Münaqişə və əməkdaşlıq ictimai inkişaf prosesində həmişə qarşılıqlı əlaqə kəsb etmişdir. Münaqişə latınca **konfliktus** sözündən əmələ gəlib toqquşma mə'nasını ifadə edir. **Münaqişə məqsədləri uyğun gəlməyən, öz məqsədlərini həyata keçirmək naminə bir-birinə qarşı mübarizə aparan iki və daha çox tərəfin toqquşmasıdır.** Onu da qeyd edək ki, münaqişə iştirakçıları öz məqsədlərinin uyğun gəlmədiyini birmə'nalı deyil, müxtəlif cür dərk edirlər.

Siyasi münaqişəyə dair, onun təbiəti barədə elmdə müxtəlif maraqlı fikirlər mövcud olmuş və bu gün də müəyyən mübahisələrə təsadüf olunur. Siyasətin münaqişəli mahiyyətə malik olması barədə ideya elmə XIX əsrdə gətirilmişdir. Siyasətin mahiyyətini başa

düşmək baxımdan "münaqişə anlayışının məzmununun müəyyənləşdirilməsinə iki istiqamətdə münasibət bildirilmişdir. Bir qrup görkəmli alim, məsələn, **A.Tokvil, Q.Zimmel, K.Bouldinq, L.Kozer** və başqaları belə hesab edir ki, münaqişə siyasətin başlıca mənbəyidir. **E.Dyurkheym, M.Veber, C.Dyui** və digərləri isə iddia edir ki, siyasətin mahiyyətini anlamaq üçün münaqişə ikinci dərəcəli əhəmiyyətə malikdir. Həmin tədqiqatçılar münaqişələrin çoxunu siyasi proseslərin anomaliyası (qeyri-adiliyi), siyasətin özünü isə "sosial həmrəyliyin müdafiəsi kimi qiymətləndirmişlər. Bu fikri E.Dyurkheym və C.Dyui daha çox əsaslandırmağa çalışmışlar.

Cəmiyyətdə münaqişələrin və əməkdaşlığın, konsensusun və mübarizənin mövcudluğuna hətta hakimiyyət tə'sisatlarının özü müxtəlif səviyyədə və dərəcədə tə'sir göstərir. **S. Lipset** düzgün qeyd edir ki, demokratiyanın siyasi tə'sisatları təkcə konsensus əldə olunması amili kimi deyil, həmçinin, gərginliyin artması və münaqişələrin çoxalması vasitəsi kimi istifadə oluna bilər.

Münaqişələr siyasi birliklər arasında və ya onların daxilində təşəkkül tapır və müxtəlif formalarda təzahür edir. **Münaqişələrin mənbəyi** ictimai qrupların **mənafelərinin** müxtəlifliyi ilə şərtlənir. Siyasi birliklər daxilində münaqişələr hər şeydən əvvəl, siyasi elita ilə cəmiyyətin digər hissəsi arasındakı ziddiyyət kimi meydana çıxa bilər. Belə hallarda cəmiyyətin geniş əhali kütləsi siyasi elitanı çoxluğun marağının ifadəçisi kimi yox, ilk növbədə azlığın mənafeyinin təmsilçisi baxımdan qiymətləndirir. Bir sözlə, siyasi həyat ən müxtəlif şəkildə: açıq və gizli, dinc və zorakı xarakter daşıyan münaqişələrin, ziddiyyətlərin tə'siri altında inkişaf edir.

Münaqişənin subyektinə aşağıdakılar daxildir: fərdlər, kiçik və böyük qruplar, qeyri-rəsmi əsasda yaranan və rəsmi cəhətdən təşkil olunmuş sosial birliklər, iqtisadi və siyasi xarakterli məhdud ictimai təşkilatlar, siyasiləşdirilmiş sosial hərəkatlar və s. Münaqişə adamların fəaliyyətində müxtəlif obyektiv və subyektiv meyllərin toqquşması, ideyaların, nəzəriyyələrin, məktəblərin mübarizəsi, fəaliyyətin müəyyən sferalarında hökmranlıq uğrunda qarşıdurma nəticəsində əmələ gəlir.

İki cür: **aqonist** (barışan) və **antaqonist** (barışmaz) **münaqişələr** mövcuddur. Aqonist münaqişələrin həllində yol verilən səhvlər nəticə e'tibarilə həmin münaqişələrin xroniki formaya

keçməsinə imkan yaradır və hətta antaqonist münaqişəyə çevrilməsinə səbəb olur. Eləcə də münaqişə vəziyyətində olan tərəflərin qarşılıqlı surətdə güzəştə getməsi ilk növbədə antoqonist münaqişənin kəskinliyini aradan qaldırır, sonra isə güzəşt taktikasının daha da inkişaf etdirilməsi həmin münaqişənin aqonist xarakter kəsb etməsinə gətirib çıxarır. Bu isə öz növbəsində münaqişənin qarşılıqlı şəkildə həlli üçün imkanlar açır. İdeoloji, siyasi, əxlaqi təzyiq cəhdi kimi münaqişənin saxtalaşdırılması, təqlid olunması halları da yarana bilir. Sosial hadisə olmaq e'tibarilə münaqişə obyektiv tarixi prosesdə müsbət, mütərəqqi rol oynaya bilər və ya müəyyən şəraitdə inkişafa mənfi tə'sir göstərər.

Fərdlərin, kiçik qrupların qarşıdurmasında onların mənafeləri, hərəkətləri toqquşur. Böyük qrupların qarşıdurmasında münaqişə ictimai əhval-ruhiyyənin və ictimai rə'yin toqquşması ilə müşahidə olunur ki, bu da fərdlərin və kiçik qrupların münaqişəli davranışında nəzərə çarpır.

Münaqişə **horizontal və vertikal** istiqamətdə baş verə bilər. Horizontal istiqamət sosial və siyasi strukturun daxilində yaranan münaqişəni, vertikal istiqamət isə rəhbər strukturlarla tabelikdə olanlar, nəzarətedici orqanlarla onların tabeliyində olan fərdlər, qruplarla təşkilatlar və liderlə idarə edilənlər arasındakı münaqişəni əks etdirir.

Münaqişə cəmiyyətin sosial və siyasi strukturunda səviyyəsi, miqyası və kəskinliyi ilə səciyyələnir. Politoloji aspektdə daha əhəmiyyətli münaqişə o hesab olunur ki, eyni vaxtda sosial və siyasi strukturun bütün səviyyələrini əhatə edir və münaqişə iştirakçılarının hamısına toxunur. Daha az əhəmiyyət daşıyan münaqişə isə bununla səciyyələnir ki, o, sosial strukturun məhz, müəyyən hissəsini əhatə edir. Daxili münaqişələr cəmiyyətdə sabitliyin pozulmasına gətirib çıxarırsa beynəlxalq münaqişələr müharibələrlə nəticələnə bilər, bu isə böyük dağıntılara, maddi və mə'nəvi sərvətlərin məhvinə səbəb olur.

Münaqişə vəziyyətində olan tərəflər arasındakı münasibətlər iki formada təzahür edir: 1.Hər hansı ümumi maraq və məqsəd güdməyən radikal münaqişələr. 2.Qismən münaqişə. Bu halda aralarında qarşıdurma olmasına baxmayaraq münaqişəli tərəfləri ümumi maraq birləşdirir. Münaqişəli tərəflər arasındakı ziddiyyətlər kəskinləşdikdə onlar zorakılıq vasitələrinə də əl ata bilərlər. Təbii

ki, belə halda tərəflərin imkanları bərabər və ya qeyri-bərabər səviyyədə ola bilər.

Münaqişə fərdlərin və qrupların davranışının əsasını təşkil edir, hakimiyyət strukturlarının dəyişməsini və siyasi proseslərin inkişafını şərtləndirir. O, həm də siyasi subyektlərin qarşılıqlı fəaliyyətini reallaşdıran, bütün siyasi proseslərin səmərəliliyinə əlverişli tə'sir göstərən sosial hadisədir. Məşhur sosioloq **Lyuis Kozer** belə hesab edir ki, müxtəlif daxili münaqişələr bir-birini tamamlamağa, cəmiyyətin qlobal şəkildə parçalanmasının qarşısını almağa qadirdir. Kozer münaqişələrin əhəmiyyəti ilə bağlı fikrini davam etdirərək yazır: "Münaqişə cəmiyyətin süstləşməsinin qarşısını alır, insanları yeniləşməyə və yaradıcılığa sövq edir. Əlbəttə qayda-qanunun, hüquq normalarının pozulması baxımdan münaqişələr müəyyən təhlükə doğurur. Lakin unutmaq olmaz ki, münaqişə cəmiyyətin dinamik inkişafına səmərəli tə'sir göstərir. O, ictimai dəyişikliklərin başlıca mənbəyidir. Alman sosioloqu **Ralf Darendorf** bu cəhəti dəqiq ifadə edərək yazır: "Ümumi sosial dəyişiklik prosesinin amili kimi münaqişələr əvəzolunmazdır. O yerdə ki, münaqişələr yoxdur, ya onu "boğurlar, ya da ört-basdır edirlər, belə halda isə dəyişikliklər yavaşıyır və dayanır. Münaqişəsiz cəmiyyət təsəvvür etmək çətindir. **Cəmiyyətin bütün üzvləri arasında daimi konsensus bərqərar olsaydı onda ictimai inkişaf dayanardı.** Bunu münaqişələr tarixi və müasir münaqişələrin mahiyyəti bir daha təsdiqləyir. R. Darendorfun qeyd etdiyi kimi münaqişələrin pozitiv rolu müasir dövrdə xüsusilə diqqəti cəlb edir. Münaqişələrin digər aspektləri ilə müqayisədə siyasi münaqişə daha geniş, əhatəli və çoxcəhətli anlayışdır. **Siyasi münaqişə** müxtəlif qüvvələrin irimiqyaslı toqquşmalarını, məsələn, inqilabları və əksinqilabları, dövlətlər və müttəfiq dövlətlər arasındakı qarşıdurmanı, müharibələri, partizan hərəkatını, bir sözlə, münaqişəli tərəflərin bütün münasibətlər sferasını ehtiva edir.

Siyasi münaqişənin ictimai inkişaf, sosial idarəetmə və ictimai münasibətlərin ahəngdarlığı baxımdan əhəmiyyətinin öyrənilməsi vəzifəsi siyasi biliyin yeni müstəqil sahəsi kimi "konfliktologiyanın yaranmasına səbəb olmuşdur. Konfliktologiya bir sıra elmlərin, ilk növbədə isə sosiologiya, politologiya və siyasi psixologiyanın qovuşuğunda yaranmışdır. Müasir konfliktologiyanın ən mühüm

problemi münaqişələrin zəruriliyini proqnozlaşdırmaq və onların neqativ nəticələrini azaltmaq yollarını müəyyənləşdirməkdən ibarətdir. Müasir sosioloji və politoloji konfliktologiya demokratik cəmiyyət nəzəriyyəsi konsepsiyasının və münaqişələrin aradan qaldırılmasının siyasi texnologiyasını tamamlayır. Konfliktologiyaya dair tədqiqatlar sırasında **R.Darendorfun** və **L.Kozerin** elmi işləri xüsusilə diqqəti cəlb edir.

Münaqişələr dinamikliyə malikdirlər. Onlar münaqişəli şəraitdən yaranır. Münaqişə iştirakçıları meydana çıxan ziddiyyətlərin bir-birinə qarşı durduğunu dərk edirlər. Lakin münaqişəli tərəflərin tələbləri tə'min olunarsa belə halda ziddiyyətlər münaqişəyə çevrilməyə bilər. Əgər münaqişəli şərait münaqişəyə gətirib çıxararsa münaqişənin inkişafı onu son həddə gətirib çıxarır, bundan sonra isə münaqişənin zəifləməsi başlayır və o, başa çatır.

Siyasi ədəbiyyatda siyasi münaqişələrin mənbəyinin müəyyənləşdirilməsinə mühüm diqqət yetirilsə də hələlik bu məsələyə birmənalı yanaşma, eyni mövqe müşahidə olunmur. Siyasi münaqişələrin mənbəyinə dair müxtəlif mülahizələr yürüdülür və bu istiqamətdə mübahisələr davam edir.

Siyasi münaqişələrin mənbəyini tədqiqatçılar iki başlıca amillə - qeyri-sosial və sosial amillə əlaqələndirirlər. Məsələn, dövrümüzün məşhur etoloqu **Lorens** siyasi gərginliyin müxtəlif növlərinin heyvanlara xas olan daxili düşmənçiliyə və insanın təcavüzkar xarakterinə əsaslandığını iddia edir. Lorensə görə "insanın varlığının müxtəlif ziddiyyətlərini aydınlaşdırmaq üçün e'tiraf etmək lazımdır ki, insanın sosial davranışı... özündə elə qanunauyğunluqları əks etdirir ki, biz bunları heyvanların davranışını öyrənən zaman daha yaxşı bilirik[1] . Müasir elm sübut edir ki, insanın təbiətində münaqişəyə meyl etmək bir o qədər yüksək dərəcədə deyil.

Alimlərin çoxu siyasi münaqişələrin mənbəyinin sırf sosial amillərlə şərtləndiyini iddia edir. Bu obyektiv amillər sırasında ictimai münasibətlərin müxtəlif formaları; siyasətin subyektinin məqsədləri və funksiyaları, maraq və tələbatı, müəyyən ehtiyatların çatışmazlığı başlıca yer tutur. Siyasi gərginliyin obyektiv mənbəyi hakim dairələrlə müxtəlif qüvvələrin mənafeyini təmsil edən ictimai

---

[1] Социализм и личность. М. Мысль, 1979 Səh. 20.

təşkilatlar arasındakı ziddiyyəti və hakimiyyət sisteminin digər bütün siyasi subyektləri arasındakı siyasi gərginliyi şərtləndirir. Əlbəttə, siyasi münaqişələrin siyasi sistemlərlə əlaqəsi qanunauyğun haldır. Siyasi sistemlərdə elitanın başlıca funksiyası münaqişəli tərəflər arasında tənzimləyici rol oynamaqdan ibarətdir. Sosial münaqişə siyasi sistemlərin inkişafına təkan verən amillərdəndir.

Siyasi münaqişələrin başlıca səbəbləri sırasında müəyyən sosial dəyərlərin çatışmazlığı da özünəməxsus rol oynayır. Həmin səbəblərdən ən önəmlisi **hakimiyyət, maddi ehtiyatlar və ictimai nüfuzdur.** Amerika politoloqu **Devid İston** bununla bağlı göstərir ki, "Kasadlıq bütün cəmiyyətlərdə mövcuddur. Bu siyasi təhlilin başlıca çıxış nöqtəsidir. Qiymətli şeylər cəmiyyətin bütün üzvlərinin ehtiyacını ödəməyə azlıq edir. Məhdud miqdarda olan qiymətli şeylərlə bağlı ziddiyyətlər labüddür.

Cəmiyyətdəki müxtəlif sosial qrupların və fərdlərin can atdıqları **müəyyən dəyərlərin çatışmaması** siyasi münaqişələrin **mənbələrindən** biridir. Həmin münaqişələr cəmiyyətin qlobal şəkildə parçalanmasına təhlükə doğurduğu üçün adətən elitalar bu münaqişələri zorakılıq vasitələri ilə aradan qaldırmağa çalışırlar. Lakin tarixi təcrübə təsdiqləyir ki, münaqişələrin "boğulması son nəticədə xoşagəlməz nəticələr doğurur. Geniş kütlələr və elita əleyhinə olan qüvvələr mövcud siyasi elitanı devirməyə nail olurlar.

Siyasi münaqişələrin **digər mənbəyi** adamların, onların təmsil etdikləri sosial qrupların, birliklərin, təşkilatların bə'zi məsələlərdə fikir ayrılığı və bununla bağlı yaranan ziddiyyətlərdir. Həmin fikir ayrılığı hər şeydən əvvəl, siyasi ideallarda, tarixi və aktual problemlərin qiymətləndirilməsində və siyasi hadisələrə dair digər subyektiv mülahizələrdə özünü göstərir. Qeyd edək ki, belə münaqişənin həlli üçün kompromisə nail olmaq çətindir. Son illər bə'zi nəzəriyyəçilər belə bir qənaətə gəlir ki, **siyasi münaqişələrin təbiəti insanların tələbatından** doğur. **Siyasi elmə insan tələbatı** kimi daxil olan bu konsepsiyaya görə münaqişələr məhz, adamların tələbatının kifayət qədər tə'min edilməməsi nəticəsində yaranır. İnsan tələbatı nəzəriyyəsinin işlənib hazırlanması **C.Berton, K.Lederer, C.Devis, O.Nadler** və başqalarının adı ilə bağlıdır.

Siyasi münaqişələrin **digər mənbələrindən** biri isə vətəndaşların müəyyən sosial, etnik, dini və sair birliklərə mənsub

olduğunu dərk etmələri ilə əlaqədardır. Belə dərk etmə insanın sosial və siyasi sistemdə öz yerini, rolunu aydın başa düşməsini şərtləndirir. Başqa birliklər və təşkilatlarla münaqişələr şəraitində insanın mənsub olduğu birliyə bağlılıq hissi güclənir. Münaqişəli tərəflərin ziddiyyətli münasibətləri çərçivəsində "mənsubiyyət şüuru, "biz və "onlar hissi yetkinləşir və dəqiq nəzərə çarpır.

Siyasi proseslərin xarakterinin dəyişilməsi, idarəetmə sisteminin təkmilləşdirilməsi bir sıra sosial amillərlə yanaşı həm də siyasi münaqişənin tiplərindən asılıdır. Heç də təsadüfi deyil ki, siyasətə dair elmi ədəbiyyatda siyasi münaqişələrin tiplərinin təsnifatına və izahına ciddi diqqət yetirilir.[1]

Siyasi münaqişənin **təsnifatında beynəlxalq xarakterli və siyasətdaxili münaqişələrə** xüsusi əhəmiyyət verilir. Beynəlxalq münaqişələr dövlətlər arasında meydana çıxan ziddiyyətlərin kəskinləşməsindən doğur. Bə'zi dövlətlərin yaranmış "əlverişli şəraitdən istifadə edərək digər ölkələrə qəbul edilməsi mümkün olmayan tələbləri, təxribatçılıq mahiyyəti daşıyan iddiaları beynəlxalq münaqişələrə gətirib çıxarır. Bu və ya digər dövlətin təxribatçılıq fəaliyyəti bir sıra tələblərlə, xüsusilə, ərazi iddiaları ilə nəticələnir. Məsələn, Azərbaycanın ayrılmaz hissəsi olan Dağlıq Qarabağla əlaqədar Ermənistanın ölkəmizə ərazi iddiaları Azərbaycanla Ermənistan arasında ziddiyyətlərin dərinləşməsinə və siyasi böhran vəziyyətinin yaranmasına gətirib çıxardı. Son nəticədə respublikamız Ermənistanın silahlı təcavüzünə mə'ruz qaldı. Əlbəttə, unutmaq lazım deyil ki, bu tipli münaqişələrin törənməsini həm də müəyyən beynəlxalq qüvvələrin marağı, "milli mənafeyi şərtləndirir. Siyasətdaxili münaqişələrə xas olan ziddiyyətlər isə hakimiyyətin müxtəlif subyekləri arasındakı qarşılıqlı fəaliyyəti açıqlayır və siyasi proseslərin xarakterini əks etdirir. Hakim elita ilə müxalifətdə olan elita və mərkəzi hakimiyyətlə yerli hakimiyyət arasında qarşılıqlı fəaliyyət, qruplar və fərdlər arasındakı mübahisələr məhz, siyasətdaxili münaqişələr vasitəsilə üzə çıxır.

Müasir politoloji ədəbiyyatda verilən siyasi xarakterli münaqişənin təsnifatında onun normativ tənzimlənməsinin dərəcəsi və xarakteri, tərəflərin mübahisəsinin həllinə adamların cəlb olunma

---

[1] В.П.Пугачев. А.И.Соловьев. Введение в политологию. М., 1995; Политология: Курс лекций изд. 1-е. Отв.ред. М.Н.Марченко. М., 1997 və s.

dərəcəsini əks etdirən kəmiyyət və keyfiyyət göstəriciləri, uzun və qısa müddətli münaqişələr və sair diqqəti cəlb edir.

Politoloqların nəzərindən **sosial münaqişələrin tipləri** də yayınmır. **L.S.Sanisteban** "Siyasət elminin əsasları adlı yığcam, lakin dərin məzmunlu kitabında bir sıra siyasi məsələlərlə yanaşı sosial münaqişələrin təbiəti və tiplərini də araşdırır.[1] O, sosial münaqişənin iki tipini qeyd edir: a)Cəmiyyətin fundamental dayaqlarına toxunmayan münaqişələr. Bu tipli münaqişənin iştirakçıları onların həlli üçün bütün ictimai sistemin dəyişdirilməsini vacib hesab etmirlər. b)Həlli üçün cəmiyyətin bütövlükdə dəyişdirilməsi tələb olunan münaqişələr. Birinci tip münaqişələr tərəflər arasındakı razılıq əsasında inkişaf edə bildiyi halda, ikinci tip münaqişələr cəmiyyəti barışmaz, bir-birini məhv etməyə çalışan qruplara bölür. Belə münaqişələrdə ən yaxşı halda müvəqqəti barışıq mümkündür, münaqişəli tərəflər başlıca məsələlərdə razılığa gələ bilmirlər.

Cəmiyyətin bütövlükdə dəyişdirilməsinə istiqamətlənən münaqişələrdə mübarizə aparan tərəflər zorakılığa üstünlük verirlər. Bu tipli münaqişələrin dərhal həll edilməsi imkan xaricində olduqda elitalar onun tənzimlənməsi üçün səmərəli yollar axtarmağa sə'y göstərirlər. Münaqişələrin tənzimlənməsinin səmərəli mexanizmi tapıldıqda mövcud cəmiyyət xeyli müddət dəyişməz vəziyyətdə qala bilər.

Sosial münaqişənin hər bir tipi bu və ya digər keyfiyyətə və xüsusiyyətə malik olmaqla konkret siyasi proseslərdə müxtəlif rol oynamağa qadirdir.

Bəşəriyyətin gələcəyə doğru inkişafı prosesinin münaqişəli, yoxsa münaqişəsiz davam edəcəyinə dair müxtəlif mülahizələr yürüdülür. 80-cı illərin ortalarında **Den Syaopin** bildirirdi ki, gələcəyə nəzər salsaq böyük müharibələrin daha baş verməyəcəyi qənaətinə gəlmək olar. Başqaları isə belə hesab edir ki, bəşəriyyət bundan sonra da münaqişələr, toqquşmalar və xalqlar arasında müharibələr şəraitində yaşayacaq. Kembiric universitetinin professoru **Conatan Reyli** iddia edir ki, əvvəllər hansı şəraitdə yaşamışıqsa həmin vəziyyət yenə davam edə bilər. O, dünyanı

---

[1] L.S.Sanisteban. Siyasət elminin əsasları. Bakı, 1994. Səh. 53-55.

münaqişələrsiz təsəvvür etmir. Qərbin məşhur politoloqu **Samuel Xantinqtonun** fikri də maraqlıdır. Onun qənaətinə görə əgər əvvəllər münaqişələr, müharibələr xalqlar və ölkələr arasında olmuşsa indi isə sivilizasiyalar arasında, özü də dini zəmində baş verəcəkdir. Ümumiyyətlə, sosial münaqişələrin qarşısını almaq və ya onları aradan qaldırmaq məqsədilə düzgün və səmərəli tənzimləmə mexanizmi hazırlamaq lazımdır. Münaqişələrin səmərəli tənzim olunması mexanizmi tapılmadıqda siyasi elitalar zorakılıq vasitələrindən istifadə edirlər. Təcrübə göstərir ki, hətta zorakılığa əl atıldıqda belə münaqişələri birdəfəlik söndürmək qeyri- mümkündür. Siyasi münaqişələrin mənbəyini, kökünü dərindən araşdırmadıqda onlar şərait yarandıqda xüsusi qüvvə ilə təzahür edir. Sosial münaqişələri zorakılıq vasitələrilə boğmağa və ya zəiflətməyə cəhd göstərildikdə onların potensial gücü, dərinləşmək imkanları daha da qüvvətlənir. Beləliklə, ziddiyyətli tərəflərin mübahisəsinin obyektiv səbəbləri nə qədər ciddi öyrənilsə münaqişənin tənzimlənməsi subyektinin şansı bir o qədər artır. Belə halda münaqişənin həqiqi köklərini müəyyənləşdirmək üçün idarəetmə strukturlarının üzərinə böyük mə'suliyyət düşür. Buna görə siyasi elitalar adətən müxtəlif metodlardan istifadə edirlər: 1.Təsəlliverici mülahizələrlə ölkədə siyasi münaqişələrin mövcudluğunu inkar etmək. 2.Kütləvi şəkildə təzyiq, tə'qib və cəza tədbirləri. 3.Münaqişələrin mənbəyini üzə çıxarıb həll etmək sə'yləri. 4.Partlayış təhlükəsini dərk edərək buna yol verməmək naminə münaqişəni tənzimləmək. Fransız konfliktoloqu **J.Favenin** qeyd etdiyi kimi, hakimiyyət strukturları həmin metodlardan istifadə etməyi özləri üçün məqbul sayırlar. Cəmiyyətdəki siyasi gərginliyin, münaqişənin əsl səbəbini axtarıb tapmaq və onu düzgün təhlil etmək münaqişəli tərəflərin konsensusa gəlməsi üçün çox vacib şərtdir. Belə halda mübahisə aparan tərəflər öz aralarında mənafelərinə uyğun razılığa gəlir və öz fəaliyyətlərini digər siyasi məqsədlərə istiqamətləndirirlər.

Siyasi münaqişələrin inkişafı prosesini düzgün tənzimləmək üçün bütövlükdə cəmiyyətdə qərarlaşan sosial-siyasi vəziyyəti dəqiq təhlil etmək lazımdır. Münaqişələrin necə inkişaf edəcəyi ilə bağlı hakimiyyətdə olanlar düşünülmüş tədbirlər planı işləyib hazırlamalı və lazım gəldikdə onu yaranmış şəraitə uyğun səmərəli şəkildə həyata keçirməlidir. Eləcə də hakimiyyət tə'sisatlarının strukturu

hadisələrə səmərəli nəzarətin tə'min olunmasına uyğunlaşdırılmalıdır. Hakimiyyətin nüfuzunu saxlamaq məqsədilə vətəndaşlarda belə bir inam formalaşdırmaq vacibdir ki, hakimiyyət mövcud ziddiyyətli vəziyyətdən, münaqişələrin inkişafından narahat deyil və hadisələrin gedişini nəzarət altında saxlamağa qadirdir.

Münaqişələrin başa çatmasını tə'min edən tənzimləmə texnologiyası çoxcəhətli xarakter daşıyır. Münaqişəli tərəflərin barışması tam və ya qismən reallaşa bilər. Siyasi münaqişələrin tənzimlənməsi subyektinin barışması üçün elə vasitələr tapmaq lazımdır ki, münaqişəli tərəflər arasında razılıq əldə olunması tam həyata keçirilsin. **J.Fave** belə hesab edir ki, mübahisə edən tərəflər arasında barışığın əldə olunması konsensus, kompromis, tabeolma və güzəştə getmək vasitəsilə tə'min oluna bilər. Barışığın əldə edilməsi iki ən ümümi yolla—dinc və məcburetmə vasitəsilə həyata keçirilir.

Münaqişəli tərəflərin barışmasının reallaşması məqsədilə münaqişələrin tənzimlənməsi mexanizmində **ən geniş yayılan vasitə danışıqlar aparılmasıdır**. Danışıqlar aparılması qarşılıqlı güzəştə getməyə, alternativ şəraitə sakit diqqət yetirməyə və mövqelərin açıq şəkildə nümayiş etdirilməsinə imkan yaradır. Amerika alimləri **M. Doyç** və **S. Şaron** belə hesab edirlər ki, danışıqların səmərəsi o zaman daha da artır ki, mövcud problemlər mübahisədə iştirak edən tərəflərin subyektiv maraqlarına qurban verilmir. Başqa sözlə, münaqişəli tərəfləri marağlandıran ümumi problemlərə obyektiv münasibət bildirilir və cəmiyyətin mənafeyinə laqeydliklə yanaşılmır.

**Münaqişəli şəraitin demokratik tənzimlənməsi** aşağıdakı bir sıra üsullarla tə'min olunur:

1.Münaqişədə iştirak edən tərəflərin maraqları, planları və növbəti addımları barədə qarşılıqlı, çevik və düzgün informasiya mübadiləsi;

2.Güc tətbiq etməkdən və ya güc tətbiq etmək təhlükəsindən qarşılıqlı surətdə imtina etmək. Çünki bu hal münaqişəli şəraitin tənzimlənməsi imkanlarını heçə endirir;

3.Münaqişələri kəskinləşdirən hərəkətlər üzərinə qarşılıqlı moratorium qoyulmasını e'lan etmək;

4.Münaqişəyə cəlb olunan tərəflərin mövqelərinin yaxınlaşmasına imkan yaradan mövcud hüquq normalarından, inzibati və

digər üsullardan istifadə etmək və ya yeni hüquq normalarının və inzibati qaydaların qəbul olunması;

5.İşgüzar partnyorluq şəraitinin və gələcəkdə yeni münaqişələrə yol verməmək məqsədilə e'tibarlı münasibətlərin yaradılması.

Yuxarıdakı **münaqişələri tənzimləmə üsulları** yalnız daxili siyasi münaqişələrə deyil, həm də beynəlxalq münaqişələrə tətbiq edilir. Beynəlxalq münaqişələrin inkişafına nəzarət dövlət nümayəndələrinin işgüzar əməkdaşlığını, beynəlxalq hökumət və qeyri-hökumət təşkilatlarının qarşılıqlı əlaqələrini, beynəlxalq hüquq prinsiplərinin və normalarının tətbiq olunmasını həyati zərurətə çevirir.

Bəşəriyyətin ən yeni siyasi tarixi təsdiqləyir ki, siyasi kompromis yolu ilə, qarşılıqlı nəzarət sisteminin yaradılması vasitələrilə nəinki daxili, həm də irimiqyaslı beynəlxalq siyasi münaqişələri həll etmək mümkündür. Elə buna görə mütərəqqi bəşəriyyətin, bütün namuslu adamların siyasi münaqişələrsiz gələcəyin mövcudluğuna inamı bu gün daha da artır.

# XIX FƏSİL
# GEOSİYASƏT VƏ MÜASİR DÜNYA

## 1. Geosiyasi təhlilin başlıca müddəaları və prinsipləri

Siyasi problemlərin müasir tədqiqinin nisbi müstəqillik kəsb edən istiqamətlərindən biri geosiyasətdir. Geosiyasi təhlilin özünəməxsusluğu siyasətin məkan-coğrafi amillərinin öyrənilməsi, makrosiyasi proseslərin tədqiqi, sabit və uzunmüddətli xarakter kəsb edən hadisələri açıqlayan anlayış və kateqoriyalardan geniş istifadə olunması ilə bağlıdır. Belə elmi yanaşma xüsusilə beynəlxalq siyasət sferasına aid olan məsələlərin, eləcə də milli dövlətlərin xarici siyasət sahəsində fəaliyyətinin hərbi-strateji komponentlərinin nəzərdən keçirilməsi baxımdan əhəmiyyətlidir. Siyasi hadisə və proseslərlə ölkələr və xalqların coğrafi vəziyyəti arasındakı asılılıq hələ qədim dövrlərdə xeyli mütəfəkkirlər tərəfindən qeyd edilmişdir. Lakin siyasi-coğrafi biliklərin sistemləşdirilməsi nisbətən sonralar başlanmışdır. 1897-ci ildə alman coğrafiyaçısı F.Rattselin (1844-1904) «Siyasi coğrafiya» kitabı çap olundu. Bu kitabda dövlət müəyyən həyati məkanla, təbii sərhədlə, bütövlükdə coğrafi mühitlə bağlı olan «biocoğrafi orqanizm» kimi araşdırılmışdır. «Geosiyasət» termini isə isveç alimi R.Gellen (1864-1922) tərəfindən birinci dünya müharibəsi zamanı işlədilmişdir. R.Gellen dövləti hər şeydən əvvəl, öz sərhədlərini genişləndirməyə can atan xüsusi orqanizm kimi təsəvvür edirdi.

Geosiyasi elmin başlıca müddəaları ingilis politoloqu X.Makkinder (1861-1947) tərəfindən irəli sürülmüşdür. Bu müddəalar dünya tarixinin sonrakı geosiyasi modellərinin əsasını təşkil etmişdir. XX əsrdə Almaniyada, İngiltərədə və ABŞ-da geosiyasi fikrin dünyəvi mərkəzi təşəkkül tapmışdır. Geosiyasi ideyaların inkişafına və alman geosiyasi konsepsiyasının əsaslandırılmasına general K.Xausxofer (1869-1946) əhəmiyyətli töhvə bəxş etmişdir. İngilis-amerika geo-

siyasi məktəbinin təşəkkülündə X.Makkinderlə yanaşı A.Q.Mexen (1840-1914) və N.Spikmen (1893-1943) fəal fəaliyyət göstərmişdir. Rus geosiyasətçiləri sırasında Avrasiya nəzəriyyəsinin tərəfdarı R.A.Savitskini və eləcə də görkəmli alim L.N.Q.Qumilyovu göstərmək olar.

Geosiyasət elm kimi dünya tarixində dövlətinr roluna, siyasi meyllərin, müxtəlif xalqların və ölkələrin milli-dövlət mənafelərinin formalaşmasına coğrafi amillərin təsirinin qanunauyğunluğunu tədqiq edir. Bu elmin ən mühüm müddəası bundan ibarətdir ki, dövlətin inkişafının ən əlverişli strategiyasının işlənib hazırlanması üçün qısamüddətli və dəyişən siyasi və ya ideoloji meyl-tərəfkeşlik deyil, ölkənin məkan-coğrafi vəziyyəti ilə müəyyən olunan sabitlik qüdrəti birinci dərəcəli əhəmiyyət kəsb etməlidir. Geosiyasi təhlil daimi və dəyişən kəmiyyətlərin tədqiqinə əsaslanır və coğrafi amillərlə əlaqədardır. Geosiyasət üçün daimi (sabit) qaydaların xarakteristikası birinci dərəcəli əhəmiyyət kəsb edir: bu və ya digər ölkənin qlobal şəraiti, dünyada vəziyyəti, onun potensial imkanları qiymətləndirilərkən məhz, geosiyasi kəmiyyət başlıca ölçü kimi çıxış edir.

Geosiyasi nəzəriyyənin daimi amillərinə dövlətin qərarlaşdığı yer (kontinental, ada, sahil boyu), onun ərazisinin həcmi, kommunikasiyanın hakim tipi (dəniz və ya quru), landşafı (yer səthinin forması), sərhəddinin ölçüsü və konfiqurasiyası (xarici görünüşü), iqlim və s. daxildir. Dövlət həyatının bütün digər aspektləri, o cümlədən təsərrüfat-iqtisadi və siyasi-ideoloji həyatı bu nöqteyi-nəzərdən əhəmiyyətli sayılsa da hər halda yuxarıda sadalanan kəmiyyət vahidlərinə tabedir. Beləliklə, geosiyasətin «dayaq xarakteristikası» ona imkan verir ki, xarici siyasət sahəsində, eləcə də müdafiə və təhlükəsizlik sferasında dövlətin inkişaf strategiyasını maksimum effektli formalaşdıra bilsin. Geosiyasətin dəyişən amilləri əhali (demoqrafik amil), resurslar (maliyyə-iqtisadi, maddi və s.), siyasi mədəniyyət, cəmiyyətin sosial-strukturu və digərləri hesab olunur. Belə səciyyəli dəyişən kəmiyyət

vahidləri (xüsusilə əhali) dövlətin inkişafı prosesinə mühüm təsir göstərir, lakin öz təsirinə və əhəmiyyətinə görə bunlar daimi amillərlə müqayisədə həlledici sayıla bilməz.

Son zamanlar daimi amillər sisteminə aid nəzəri təsəvvürlərə bir sıra düzəlişlər edilir. Belə ki, müasir geosiyasətdə uzunmüddətli sabit qaydalar amili olmaq etibarilə sivill amillərə daha çox diqqət yetirilir. Müasir Amerika alimi S.Xantinqtonun fikrincə, yüzillər əpzində təşəkkül tapan sivil fərqlər müşahidə edə biləcəyimiz gələcəkdə ona görə yox olmayacaq ki, «onlar siyasi ideologiyalar və siyasi rejimlər arasındakı fərqlərdən daha fundamentaldır». Qeyd etmək olar ki, müasir geosiyasi nəzəriyyədə insan cəmiyyətlərinin qarşılıqlı fəaliyyətinin sivil aspektlərinin qlobal geosiyasi nəzəriyyənin ümumi sisteminə nüfuz etməsi meyli tədqiq edilir.

Geosiyasət ölkələrin coğrafi vəziyyəti ilə mövcud cəmiyyətə, xalqa, millətə xas olan mədəni-sivil inkişaf arasında müəyyən qarşılıqlı əlaqə yaratmağa qadirdir. Geosiyasət nöqteyi-nəzərindən lokal (yerli) sivilizasiyanın tipi xeyli dərəcədə mənsub olduğu coğrafi məkanla müəyyən edilir. Məsələn, bazar təsərrüfatı mexanizminin xidmət etdiyi liberal ideologiya fərdiyyətçiliyə sitayişi, rasionallığı və şəxsi uğurları ilə maksimum dərəcədə «dəniz» sivilizasiyasına xasdır. İctimai özünütəşkilin həmrəylik, kollektivçilik formasının üstünlüyünü nəzərdə tutan ənənəvi dünyagörüşü güclü icma kökləri ilə, kontinental mədəniyyətin və sivilizasiyanın əsası kimi çıxış edir.

Geosiyasi təhlilin başlıca çıxış nöqtəsi baxımdan daimi amillərdən ən əhəmiyyətlisi ölkələrin **nisbətən quru və dəniz məkanında yerləşməsidir**. Bundan çıxış edərək bütün dövlətlər iki böyük qrupa ayrılır: kontinental və dəniz dövlətləri. Kontinental dövlətlər üçün onların ərazisinin həcmi böyük əhəmiyyətə malikdir. Məkan onların gücünün və təhlükəsizliyinin başlıca resursu kimi çıxış edir. Dövlətlərin geniş əraziyə malik olması ilə bağlı üstünlüyü bu zəmində meydana

çıxan çatışmazlığı və zəifləməyi artırır: sərhədlərin ölçüsünü (uzunluğu və enini, əhalinin sıxlığının aşağı olmasını və s.). Dəniz (ada) dövlətləri üçün dəniz kommunikasiyası, əhatəsində olduğu akvatoriya (su sahəsi) və onun sahəsində olan ada və bir-birinə yaxın adalar qrupu üzərində nəzarət mühüm əhəmiyyət kəsb edir.

Buradan geosiyasətin ən mühüm qanunu üzə çıxır və belə bir reallığı qərarlaşdırır ki, **ölkələrin nisbətən quruda və dənizdə yerləşməsi dövlətin tarixini müəyyənləşdirir, onun iqtisadi və mədəni inkişafına, beynəlxalq vəziyyətinə təsir göstərir və onu müvafiq strategiyaya vadar edir**. Belə ki, iqtisadiyyatın inkişafı nöqteyi-nəzərdən geosiyasi vəziyyət sənayenin, kontinental ölkələrin xammal və enerji mənbələri ilə yanaşı həm də dəniz dövlətləri üçün sahil boyu yerləşdirilməsinin spesifikliyini müəyyənləşdirir. Ölkənin coğrafi vəziyyəti hərbi-sənaye kompleksi ilə bağlı ən mühüm mərkəzlərin yaradılmasına əhəmiyyətli dərəcədə təsir göstərir, müdafiə sənayesinin yerləşdirilməsi prinsiplərini müəyyənloəşdirməyə sövq edir.

Geosiyasi elmin gəldiyi qənaətə görə geosiyasi amil **dövlətin siyasi sisteminin formalaşması** xüsusiyyətlərinə prinsipial təsir göstərir. Dövlətin siyasi quruluşunu qiymətləndirmək məqsədilə «geosiyasi» meyardan ilk dəfə Ş.Monteske istifadə etmişdir. «Qanunların ruhu haqqında» traktatında o xüsusilə qeyd etmişdir ki, respublika kiçik polisdə (dövlətlərdə) mövcud ola bilər, monarxiya orta həcmli dövlətlərə xasdır, istibdad üsul-idarəsi isə praktiki olaraq «həddən artıq böyük dövlətlər üçün» zəruridir. Müasir geopolitikada isə belə bir mövqe qərarlaşıb ki, kontinental dövlətə bir qayda olaraq mərkəzləşmə, avtoritar hakimiyyət, dəniz dövlətlərinə isə mərkəzləşmə və demokratiya xasdır. Beləliklə, geosiyasi sabit kəmiyyət siyasi kursun variasiyasının (dəyişməsinin) müəyyən çərçivədə mümkünlüyünü müəyyənləşdirir. Eləcə də səciyyəvidir ki, kontinental dövlətlər hərbi sferada hər şeydən əvvəl quru qoşunlarına, dəniz dövlətləri

isə hərbi-dəniz donanmasına əsaslanırlar. Bu tam aydınlığı ilə SSRİ (Rusiya) və ABŞ-ın hərbi qüvvələrinin təşkili prinsiplərində, o cümlədən onların strukturunda və nüvə triadasında (üçlüyündə) təzahür etmiş və edir.

Geosiyasətin ən mühüm prinsipi geosiyasi dualizm prinsipidir ki, bu da qurudakı güclə («telleurokratiya») dənizsahili gücün (talassokratiya) əksliyində ifadə olunur. Həmin əkslik bütün insan cəmiyyətlərinin məkan-coğrafi vəziyyətinin özünəməxsus alternativ qütbünü təşkil edir. Xalqların siyasi tarixində belə əkslik olmuşdur, məsələn, bir tərəfdən Sparta və roma hərbi-avtoritar quru qoşunları sivilizasiyası arasında, digər tərəfdən Afina və Karfoqenin dəniz ticarət sivilizasiyası arasında baş verən mübarizə bunun konkret ifadəsidir. yeni dövrdə Britaniya imperiyası («dəniz hökmdarı») XVI-XIX əsrlərdə kontinental avropa dövlətləri blokuna qarşı dənizdə hökmranlığını nümayiş etdirmişdir. XX əsrin ikinci yarısında Böyük Britaniyanın geosiyasi varisinə çevrilən ABŞ, SSRİ ilə «soyuq müharibə» vəziyyətində olmuş və qüdrətli kontinental dövlət kimi çıxış etmişdir.

Geosiyasi elmin çıxardığı ən mühüm məzmunlu nəticə bundan ibarətdir ki, avrasiya qitəsində üstünlük əldə etməyin açarı «orta əraziyə» yiyələnməkdir, qitənin məğzini təşkil edən məkana sahib olmaqdır. Avrasiya qitəsinin və onun mərkəzinin - «dünyanın ürəyinin» («xartlendin») «tarixin coğrafi mehvəri» kimi xüsusi əhəmiyyətinin əsaslandırılması X.Makkinderə məxsusdur. Planetar nöqteyi-nəzərdən Şərqi Avropaya kim nəzarət edirsə o «xartlend» üzərində hakimdir, «xartlend» üzərində kim hakimdirsə o dünyaya hökmranlıq edir. Geosiyasi elmin klassiki Makkinderə məxsus olan bu ideya bütövlükdə geosiyasətin müddəalarından biri kimi dəyərləndirilir.

Geosiyasi nəzəriyyənin ümumi müddəalarının nəzərdən keçirilməsini başa çatdıraraq geosiyasi təhlilin metodoloji əhəmiyyətinə diqqət yetirməyi vacib hesab edirik. Birincisi, siyasi hadisələrin geosiyasi nöqteyi-nəzərdən tədqiqi

makrotəhlil və elmi proqnoz üçün yeni imkanlar yaradır. Bununla bağlı qeyd etmək lazımdır ki, geosiyasi və mədəni-sivil yanaşmanın qarşılıqlı tamamlanması iri miqyaslı tarixi proseslər haqqında biliklərin həqiqiliyini artırır. İkincisi, geosiyasi təhlil xarici siyasi və milli problemlərin dərk edilməsində müəyyən birtərəfliliyi aradan qaldırmağa imkan yaradır, istər-istəməz geosiyasət siyasətin xarici və daxili aspektlərini birlikdə əlaqələndirir. Üçüncüsü, geosiyasət gərginlik potensialının öyrənilməsinə istiqamətləndirir, yer səthinin mənimsənilməsinə müxtəlif yanaşmalar və qüvvələr arasındakı ziddiyyətlərə xüsusi diqqət yetirir.

## 2. Müasir geosiyasi inkişafın xüsusiyyətləri

XX əsrin 80-90-cı illərində dünyada baş verən əhəmiyyətli hadisələr geosiyasi şəraiti kəskin sürətdə dəyişdirdi. SSRİ-nin dağılması və postsovet məkanında yeni müstəqil dövlətlərin yaranması, Varşava müqaviləsi kimi güclü hərbi-siyasi blokun aradan qalxması, NATO-nun Şərqə tərəf genişlənməsi faktiki olaraq müharibədən sonrakı beynəlxalq təhlükəsizlik sistemini dağıtdı. Bunlar dünyada bütün geosiyasi situasiyanın prinsipial sürətdə dəyişdiyini ifadə edir. Ən başlıca dəyişiklik bundan ibarətdir ki, iki «fövqəldövlətin» - ABŞ və SSRİ-nin və iki ən böyük hərbi siyasi blokun klassik qarşıdurması əsasında mövcud olan əvvəlki sabit geosiyasi konstruksiya məhv edildi. Belə geosiyasi mövcudluq geosiyasi dualizmi və dənizdə və quruda qarşıdurmanı ifadə edirdi. Nəzəri cəhətdən sübut edilmişdir ki, mərkəzlər arasındakı güc nisbəti mürəkkəb dinamik tarazlıq sistemindən ibarətdir, sistemli qarşılıqlı fəaliyyətin ümumi prinsipi kimi çıxış edən tarazlıq isə tez-tez dəyişir. Məlum olduğu kimi, geosiyasi qüvvələrin dünyada zaman-zaman yerləşdirilməsi əhəmiyyətli dərəcədə dəyişikliyə məruz qalır ki, bu da geosiyasi tarazlığın yaranması prosesinin mürəkkəbliyi və zilddiyyətli olması ilə bağlıdır. Həmin tarazlığın özü zaman-zaman pozula bilər, lakin o mütləq yeni zəmində bərpa

olunmalıdır, çünki prinsipcə daimi prosesdir. Bu, dünya siyasətində problemlər yaradır, milli mənafelərin uyğunlaşdırılmasında mürəkkəbliyə səbəb olur, beynəlxalq münasibətlər sisteminin daha böyük iştirakçıları arasında qüvvələr nisbətinin nəzərə alınmasında çətinliklər doğurur.

Müasir dünyada şərait hər şeydən əvvəl onunla səciyyələnir ki, **geosiyasi** tarazlıq pozulmuşdur: kifayət qədər effektli çoxqütblü dünya əvəzinə, bir «fövqəldövlətin» - ABŞ-ın hökmranlığına əsaslanan son dərəcə qeyri-sabit geosiyasi konstruksiya (vahid) təşəkkül tapmışdır. Bununla belə müasir beynəlxalq inkişafda aydın şəkildə pozulmuş tarazlığın bərpa olunması və hazırda təşəkkül tapan birqütblülüyə zidd mövqeyin formalaşması meyli nəzərə çarpır. Əlbəttə, ABŞ-ın və onun müttəfiqlərinin hegemonluğuna qarşı yeni qütbün hökmən yaranmasını hələlik məhz ən ümumi şəkildə proqnozlaşdırmaq olar, yeni strateji tarazlığın qərarlaşması gələcəyin işidir. Tədqiqatçılar həmçinin «çoxqütblü dünyanın» təşəkkülü ehtimalını da inkar etmirlər, lakin belə konfiqurasiya (dəyişən vəziyyət) geosiyasətin fundamental qanunlarına cavab vermir. Bu, geosiyasi kontestdə məhz müvəqqəti, keçici hadisə kimi dərk oluna bilər.

Geosiyasi situasiyanın inkişafının mümkün variantlarından biri şimali Avrasiyanın ərazisində öz təsirinə görə keçmiş SSRİ ilə müqayisə edilə bilən geosiyasi subyektin yenidən törənməsidir. Həmin ərazidə hər hansı böyük dövlətin iqtisadi və hərbi potensialının tədricən yüksəlməsi, belə dövlətin postsovet respublikaları ilə hərtərəfli inteqrasiyası gələcəkdə yeni geosiyasi tarazlığın təşəkkülü ehtimalını reallığa çevirə bilər. Yeri gəlmişkən qeyd edək ki, bu tipli dövlət təxminən Rusiya ola bilər.

Geosiyasi inkişafın digər variantlarından digəri Çinin daha da dinamik inkişafı və onun ən azı ABŞ kimi qüdrətli dövlətə çevrilməsidir. Hesablanmışdır ki, əgər ÇXR öz iqtisadi potensialını axırıncı iki onillik ərzindəki qədər artırmağa nail olsa 20-25 ildən sonra Çin istehsalın ümumi həc-

minə görə Birləşmiş Ştatları ötüb keçəcək və dünyanın ən qüdrəli dövləti olacaq. ÇXR-nın raket-nüvə sahəsində və kosmik baxımdan dünyanın yeni qütbünə çevriləcəyi isə real görünmür.

Müasir geosiyasi tədqiqatlarda eləcə də belə bir geosiyasi tarazlığın bərpası variantı nəzərdən keçirilir ki, dövlətlərin koalisiyasından ibarət xüsusi geosiyasi mərkəz yarana bilər. ABŞ-la tarazlıq təmin edə bilən və «qızıl milyard» adlandırılan belə «kollektiv qütb» kimi «Rusiya-Çin-Hindistan» üçbucağı təşəkkül tapa bilər. Belə bir fikri xatırlatmaq yerinə düşər ki, hələ birinci dünya müharibəsindən sonrakı beynəlxalq şəraiti qiymətləndirərkən V.İ.Lenin bildirirdi ki, Rusiya, Çin və Hindistanın inqilabçı xalqlarının mümkün ola bilən ittifaqı dünya tarixinin gedişini radikal surətdə dəyişdirməyə qadir həlledici amilə çevrilə bilər.

Dünya geosiyasi qarşıdurmasının başlıca istiqaməti ilə bağlı dəyişikliklər problemi hazırda analitiklərin diqqət mərkəzindədir. Məsələn, S.Xantinqtonun fikrincə, soyuq müharibədə Sovet İttifaqının məğlubiyyəti müasir dünyada güc xətti gərginliyinin istiqamətini dəyişdirdi. «Sivilizasiyaların toqquşması» adlı kitabında o göstərir ki, hazırda müasir dünyada başlıca münaqişəli xətt, Qərbi «konfusiyaçı-islamçı blokdan» ayıran xəttdir. Bununla yanaşı müasir siyasətdə **pravoslav-slavyan xalqlarını çoxsaylı müsəlman dünyasına qarşı** toqquşmaya istiqamətləndirən intensiv səylərin şahidi oluruq. Bunun aydın nümunəsini Bosnya və Kosovo (keçmiş Yuqoslaviya ərazisi), Şimali Qafqaz (Rusiya ərazisi), ətrafında baş verən hadisələr, Azərbaycanın əzəli torpağı olan Dağlıq Qarabağda erməni separatçılarının azərbaycan vətəndaşları sayılan ermənilən azərbaycanlılara qarşı mənfur düşmənçilik hissinə təhrik etmələri və bunun nəticəsi olaraq soydaşlarımızın doğma yurdlarından didərgin düşməsi və s. ifadə edir. Elə S.Xantinqtonun öz sözləri ilə desək, əvvəllər dövlətlər və xalqlar arasında baş verən müharibə və münaqişələri indii məhz, sivilizasiyalar və dinlər arasında

qarşıdurma əvəz etmişdir.

Baş verən dəyişikliklər nəticəsində Qərbin postsovet məkanındakı ölkələrə təsiri və təzyiqi kəskin şəkildə güclənmişdir. Geosiyasi planda bu təzyiq «orta ərazilərə» nəzarət problemilə, başqa sözlə, gələcək Avrasiya problemi ilə əlaqədardır.

Amerika siyasi elitasının ən görkəmli nümayəndəsi Z.Bjezinski qeyd edir ki, XX əsrin 90-cı illərində bizim ölkəmizdəki hadisələr qarşıya belə bir yeni məsələ qoymuşdur ki, «xartlendə» kim hakim olacaq və həmin strateji əhəmiyyətli əraziyə kim nəzarət edəcəkdir. Bu Amerika analitiki hesab edir ki, Sovet İttifaqının iflası «Avrasiyanın mərkəzini vakuuma çevirdi», buna görə həmin vakuumu doldurmağa cəhd etmək dünya siyasətindəki meyli xeyli müəyyənləşdirir. Z.Bjezinski Sovet İttifaqının soyuq müharibədə məğlubiyyətini və sonrakı iflasını qiymətləndirərək qeyd edir ki, bunların sayəsində Birləşmiş Ştatlar ilk dəfə olaraq öz siyasi iştirakçılığını yeni postsovet dövlətlərindən başlayaraq Çin sərhiddinədək həyata keçirsin, eləcə də fars körfəzi rayonunda və avrasiyanın cənubunda hökmranlıq etsin. Bu meyl şübhəsiz bütün Avrasiya qitəsində sabitliyə təhlükə yaradır, onun gələcək inkişafı isə həlledici dərəcədə bəzi dövlətlərin, eləcə də Rusiyanın yeni şəraitdə Avrasiyanın mərkəzində öz geosiyasi mövqeyini bərpa etmək qabiliyyətindən asılıdır.

Nəhayət, geosiyasi dəyişikliyin daha bir mühüm amili **Avropadakı birləşdirici proseslərdir**. Dünya xəritəsində güclü birləşmiş Almaniyanın təzahürü, inteqral Avropa İttifaqının yaradılması, mərkəzi Avropanın bir sıra ölkələrinin ümumavropa strukturuna cəlb olunması çoxlu ziddiyyətlərin mərkəzi olan Avropa qitəsində situasiyanı xeyli dəyişdirdi. İnteqral Qərbin və Mərkəzi Avropanın nümunəsində yeni qüvvələr mərkəzinin formalaşması müasir geosiyasət üçün mühüm əhəmiyyət kəsb edən son dərəcə vacib meyli ifadə edir.

### 3. Geosiyasi nəzəriyyənin və praktikanın mahiyyəti

Əsasını coğrafi determinizm təşkil edən geosiyasət elmi istiqamət kəsb etməsi ilə səciyyələnir. Coğrafi determinizm təliminə görə cəmiyyətin vəziyyəti və inkişafı coğrafi mühitlə və ya onun ayrıca amilləri ilə müəyyən olunur, məsələn, 1) iqlimlə, 2) landşaftla, 3) coğrafi, 4) su mənbələrinin mövcudluğu ilə (çay, dəniz, okean), 5) münbit torpaqla, 6) faydalı qazıntıların mövcudluğu ilə, 7) xüsusi flora və fauna və s. ilə

Qədim zamanlardan insanlar müxtəlif regionlarda yaşayan xalqlar arasında fərqləri hiss etmişlər. Hələ Herodotun, Polibinin, Hippokratın, Strabonun əsərlərində coğrafi amillərin siyasətə təsiri nəzərdən keçirilmişdir. Qədim dövrün xeyli tədqiqatçıları Romanın nüfuzunu və qüdrətini onun coğrafi amilləri ilə əlaqələndirirdilər, sosiuma təsir edən yaxşı limanların mövcudluğunda, hava və iqlimin xüsusiyyətlərində, adət və əxlaqda, siyasi quruluşun formasında görürdülər.

İqlimdən və coğrafi amillərdən asılılıq ideyaları görkəmli orta əsr ərəb alimi İbn-Xaldun tərəfindən xüsusilə şərh edilmişdir. O, xalqların əxlaqını, insanların bədən quruluşunu, onların xarakterini, temperamentini, əməyə can atmasını iqlimlə və özünün qeyd etdiyi kimi «heyvani ruhla» əlaqələndirmişdir. Jan Boden «Dövlət haqqında altı kitab» əsərində (1577) iqlimin üç növünü göstərmişdir: qütb, mülayim, ekvatorial. O, qeyd edirdi ki, soyuq ölkələrdəki insanlar fiziki gücə, mübariz ruha, isti ölkələrdəkilər isə xeyli istedada malik olurlar.

Şare Monteske ilarəetmənin spesifikliyin, «xalqın ümumi ruhunu» yalnız iqlimlə deyil, həm də yerin münbitliyi və relyefi ilə (yer səthinin quruluşu ilə) əlaqələndirirdi: «məhsuldar (münbit) ölkələrdə daha çox bir nəfərin idarəçiliyinə, qeyri-münbit ölkələrdə isə bir neçə nəfərin idarəetməsinə təsadüf olunur ki, bu da bəzən sanki əlverişli olmayan təbii

şəraitin əvəzi kimi təsir bağışlayır»[1]. Monteske belə vəziyyətin təbiətini bu cür izah edirdi: soyuq havanın təsiri bədənin sıxılmasına gətirib çıxarır, gərginliyin gücləmnəsi baş verir və qan dövranı sürətlənir, isti hava əksinə istiqamətlənir - gərginliyi azaldır. Şimaldakı insanlar daha güclü və gümrah olur. İsti iqlim xarakteri zəifIədir və köləliyə sövq edir.

İngilis Henri Bokl «İngiltərədə sivilizasiyanın tarixi» Lev İliç Meçnikov isə «Sivilizasiya və böyük tarixi çaylar» əsərlərində belə qənaətə gəlirlər ki, xalqların və dövlətlərin liderliyinin səbəbi onların ərazisində çayların mövcudluğu və ya dənizə çıxmaq imkanlarıdır. Dövlətlərin siyasi cəhdlərini biz onların coğrafi vəziyyətinin daim müəyyənedici olması ilə müşahidə edirik. Məsələn, Rusiyanın dənizə çıxmaq cəhdlərini İvan Qroznı, I Pyotr, Yeterina, Stalin reallaşdırmışdır.

IV Lüdovik, Rişelye, Klemanso, De Qoll Fransanın Almaniya ilə sərhədinin möhkəmləndirilməsi problemini həll etməyə çalışmışlar. Geosiyasət bir sıra coğrafi amillərə görə əhəmiyyətli dərəcədə fərqlənən dövlətlər arasındakı qarşılıqlı münasibətlər haqqında elmi istiqamətdir. Bu elmi istiqamət XX yüzilliyin hüdudlarında Yer küpəsinin təsir sferasına bölündüyü vaxtdan təzahür etmişdir. Geosiyasət elmi istiqamət olmaq etibarilə sosial sifarişi təmin etmək baxımından İngiltərədə və Almaniyada əsaslandırılmışdır: 1) müstəmləkəçilik hökmranlığına haqq qazandırmaq (İngiltərə üçün) və 2) dünyanı yenidən bölüşdürmək iddiası (Almaniya üçün).

**Alman geosiyasi klassik məktəbi**. Başlıca nümayəndəsi XX əsrin hüdudlarında Fridrix Ratsel və Rudolf Çellen hesab olunur (isveç almaniyaçısı).

Onlar belə bir mövqedən çıxış edirlər ki: 1) dövlət bioloji orqanizm olmaqla «yerin» xüsusiyyətlərini, ərazini və xalqı əks etdirir və mövcudluğu uğrunda mübarizə aparır; 2) dövlət bütün cəmiyyətin mənafeyini ifadə edir; 3) xalqın

[1] Монтеске Ш. Избранные произведения. М. 1955, с. 393

xüsusiyyətləri və məkan dövlətin «fiziosiyasətini» müəyyənləşdirir; 4) dövlət məkanca inkişaf meylinə malikdir; 5) dövlət inkişafı gedişində daha faydalı yerlərin zəbt edilməsinə cəhd edir; 6) dövlət təbii qapalı proseslərə qoşulmaq meyli ilə səciyyələnir; 8) əhalinin sıxlaşması əvvəl daxili, sonra isə xarici müstəmləkələşdirmənin səbəbidir; 9) xalqın məhdud məkanda mövcudluğu işğalçılığa (müharibəyə) gətirib çıxarır; 10) xalqın qovuşduğu yeni məkan dövlətin güc əldə etmək mənbəyidir; 11) güclü dövlət kiçik dövləti «özününküləşdirir», böyük dövlətlər müstmləkəçiliyin kiçik yolu, birləşdirmə, işğalçılıq, nəzarət hesabına böyüyür. XX yüzilliyin birinci yarısında faşist ideoloqu Karl Xausxofer dövlətin təbii sərhədləri haqqında ideyanı inkişaf etdirdi (dənizlər, dağlar, səhralarda məhdudlaşdırmaq), dünyanın nüfuz dairəsinə bölüşdürülməsi fikrini təklif etdi (ABŞ Amerikaya, Almaniya Avropaya və Afrikaya, Yaponiya isə Asiyaya nəzarət edir).

**İngilis-amerika geosiyasi klassik məktəbi.** Bu məktəbin ən görkəmli nümayəndələri Xelford Makkinder, Alfred Mexen, Nikolas Spikmen hesab olunur. Onlar alman geosiyasətçilərinin görüşlərinə yaxın olan ideyaları inkişaf etdirdilər: 1) dövlətin siyasi gücü birbaşa onun coğrafi vəziyyətindən asılıdır; 2) texnologiyanın inkişafı siyasi qüvvələrin yerləşdirilməsini dəyişdirir, istər-istəməz texnologiya sayəsində fiziki mühit (gəmilər, dəmir yolları, aviasiya və s.) dəyişikliyə məruz qalır, 3) dünya iki yarımkürəyə: kontinental (xartlend-quru dövlətləri) və okean yarımkürələrinə bölünür (okean və dəniz dövlətləri), 4) yerin mərkəzi dünya proseslərinə (Mərkəzi Asiyaya) əhəmiyyətli təsir göstərir, onu kim idarə edirsə nəticədə o dünyaya komandanlıq edir. Digər nəzəriyyəyə görə Avrasiyaya nəzarət Şərqi Avropaya keçir, bu isə Avrasiya üzərində hökmranlığın açarıdır, 5) XX əsr dünyası qapalı sistemə çevrilmişdir, açıq yer qalmayıb, 6) qeyri-quru qoşunları dövlətlərinin liderliyi üçün güclü donanma zəruridir.

Müasir dünyada **geosiyasət nöqteyi-nəzərdən dövlətlərarası münasibətlərin problemləri və konsepsiyaları spesifik əhəmiyyət kəsb edir**. Hazırda dövlətlərarası münasibətləri mürəkkəbləşdirən bir sıra ziddiyyətlər mövcuddur. 1. Beynəlxalq sənədlərdə bir tərəfdən hamının qəbul etdiyi dövlətlərin formal bərabərliyi öz əksini tapmışdır, digər tərəfdən real surətdə onların qeyri-bərabərliyi mövcuddur. Həm də bu real qeyri-bərabərlik nəinki dövlətlərin gücündə, iqtisadi və hərbi potensialında eləcə də hüquqi münasibətlərdə nəzərə çarpır. Ölkələrin bəzisi BMT-nin Təhlükəsizlik Şurasının daimi üzvləridir, digərləri yox. Bir qrup ölkə nüvə silahına yiyələnmək hüququna malikdir, digərlərinə isə bu silahı yaratmaq qadağan edilir. Yeri gəlmişkən qeyd edək ki, dünyanın böyük xristian dövlətlərinin (nüvə silahına malik olan) «dilbirliyi koalisiyası» müsəlman dövlətlərinin həmin silaha yiyələnməsinin qarşısını hər cür üsullarla almağa ciddi və hərtərəfli səy göstərir. Nə üçün? Cavabı aydındır. Beynəlxalq təşkilatlar böyük dövlətlərin təsiri və təzyiqi altında fəaliyyət göstərirlər və maliyyə cəhətdən qismən həmin dövlətlərdən asılıdırlar.

2. Dövlətlərarası münasibətlər xeyli dərəcədə fraqmentar (yarımçıq) xarakter daşıyır, başqa sözlə, bütün münasibətlər dairəsini tənzimləyən geniş və tam miqyaslı sistem təşəkkül tapmamışdır. Dövlətlərarası münasibətlər xeyli dərəcədə onlar arasında müqavilələrə əsaslanır, lakin bu müqavilələr məhz real münasibətlərin bir hissəsini tənzimləyir.

3. Dövlətlərarası münasibətlər sisteminin özü çox qeyri-yekcinsdir. Bəzi hallarda siyasət dövlətlərin birinci şəxslərinin qarşılıqlı münasibətləri, onların rəğbəti və nifrəti ilə müəyyən olunur. Lakin dövlət başçılarının imzaladıqları müqavilə parlamentlər tərəfindən təsdiqləndiyi üçün müqavilə prosesinə çətinliklər törədir.

4. Müqavilələrin qeyri sabitliyi də dövlətlərarası münasibətlər üçün real problemlər doğurur.

5. Beynəlxalq hüququn və beynəlxalq təşkilatların zəif-

liyi. Beynəlxalq hüquq, başqa sözlə, dövlətlərarası münasibətlərin norma və nizamlanması sistemi xeyli dərəcədə müqavilə xarakteri daşıyır, bu isə onun tətbiq edilməsində öz əksini tapır. Hələ 1928-ci ildə bütün müharibələrin qadağan olunması barədə qərar qəbul olunmuşdur, sonra isə hərbi zorakılığa yol verməmək haqqında qərar qəbul edilmişdir, lakin 1945-ci ildən etibarən müharibə və münaqişələr yenə davam etmişdir.

Beynəlxalq siyasi münasibətlərin nəzəri cəhətdən əsaslandırılmasına bütöv bir sıra nəzəriyyə və konsepsiyalar həsr edilmişdir.

6. Bütün yuxarıda sadalanan problemlər dövlətlərin bir-birinə inamsızlığını əhəmiyyətli dərəcədə şərtləndirir.

Əlbəttə, demək olmaz ki, beynəlxalq münasibətlər yalnız problemlərdən ibarətdir; son onilliklər ərzində dövlətlər inteqrasiya istiqamətində xeyli irəliləmişlər, ümumi razılığa gəlmək əhəmiyyətli dərəcədə qənaətbəxş səviyyə kəsb etmişdir.

Qeyd etmək lazımdır ki, dünya siyasətinə dair iki başlıca nöqteyi-nəzər vardır. Bu nöqteyi-nəzərin əsasını belə bir təsəvvür təşkil edir ki, dövlətlərarası münasibətlərin subyekti dövlətdr, dünya siyasi münasibətlər sistemi isə dövlətlərarası münasibətlər sistemidir. Belə təsəvvürün əsasını həm də dünya tarixinin ayrıca dövlətlərin inkişafı prinsipi üzrə ənənəvi bölgüsü təşkil edir. Bununla bağlı məlum olduğu kimi, İngiltər və Fransa inqilabları yeni dövrün, XX əsr isə ən yeni dövrün başlanğıcını qoymuşdur.

Digər nöqteyi-nəzərə görə dünya siyasi tarixinin əsasını xeyli, ilk başlanğıcda isə Avropa dövlətləri arasında möhkəmləndirilən münasibətlər sistemi təşkil edir. Belə görüşlərə müvafiq olaraq tarix dünyada hökmranlıq, parçalanma və möhkəmlənmə, çoxtərəfli dövlətlərarası münasibətlər əsasında dövlətlər arasında tarazlığın təşəkkülü dövrlərinə bölünür.

Belə ki, müqavilələrlə aşağıdakı münasibətlər sistemi müəyyənləşdirilir:

**Vestfal** (1648-1650) – Avropada otuzillik müharibənin nəticələrinin təsbiti, İspaniyanın Hollandiyanı itirməsi, protestant İsveçinin və katolik Fransasının möhkəmlənməsi, Almaniyanın parçalanması.

**Vena** (1815) – Fransanın məğlubiyyətinin və Avropanın yenidən bölünməsinin nəticələrinin təsbit edilməsi. Vyanada Avropa dövlətlərinin nümayəndələri, rus və Avstriya imperatorları, prusiya, danimarka və bavariya kralları, nazirlər, kanserlər, böyük siyasi xadimlər və s. iştirak edirdilər. Bu siyasilər Avropada müharibədən sonrakı qaydaları müəyyənləşdirdilər.

**Versal** (1919) – birinci dünya müharibəsinin, Avstriya-Macarıstanın Osmanlı imperiyasının dağılmasının, Pribaltika və Polşanın Rusiyadan ayrılmasının nəticələrini təsbir etdi.

**Yalta-Potsdam** (1945) – ikinci dünya müharibələrinin nəticələrinin, müharibədən sonrakı qaydaların təsbiti.

Qərb politologiyasında **«yeni dünya qaydaları»** konsepsiyası mövcuddur, bu konsepsiya dünyanın yenidən qurulmasının qlobal layihəsi kimi təsəvvür olunur. Onun siyasi mahiyyətini dünyanın bütün regionlarında və ölkələrində qərb demokratiyasının fundamental zəmininə əsaslanan siyasi sistemin formalaşması kimi müəyyənləşdirmək olar.

Yeni (vahid) dünya qaydası ideyası iki başlıca istiqamətdən ibarətdir:

1) bəzi nümunələrə müvafiq olaraq müxtəlif dövlətlərin ümumdünya unifikasiyası (vahid şəklə salınması) – ümumbəşəri sərvətlərin və sivill cəmiyyətlərin qəbul edilməsi;
2) hansısa ümumi mərkəzlə, dünya hökuməti ilə vahid dövlətin yaradılması.

Yeni dünya qaydasının agenti kimi müxtəlif subyektlər çıxış edə bilər:

1) ayrıca dövlətlər və ya dövlət (bugün həmin dövlət ABŞ hesab olunur);

2) Milli siyasi təşkilatlar, beynəlxalq və dövlətlərarası təşkilatlar (NATO, ATƏT və b.), iqtisadi təşkilatlar (transmilli korporasiyalar tipli), dini təşkilatlar (Vatikan və s.)

Əgər XX əsrə qədər dünyanın dünya tərəfindən istila edilməsi və ya ona tabe olması ideyası hakim idisə, yeni dünya qaydası nəzəriyyəsində dünya XIX-XX əsrlərin qovuşuğunda iki istiqamət kəsb edir: (1) dünyanın mərkəzləşdirilməsi, və ya (2) onun əhalisinin inifikasiyası (vahid şəklə salınması).

Bir sıra milli dövlətlər və siyasi istiqamətlər bu ideyaya müqavimət göstərir, çünki həmin ideyada bir qisim dövlətin digərini özünə tabe etmək cəhdi ifadə olunur, bərabərlik və bərabər hüquqluluq bayrağı altında ölkənin «qızıl milyarda» mənsub olmayan resusrlarının və əhalisinin istismar olunması həyata keçirilir, eləcə də yeni ideya sayəsində insanların birgəyaşayışının hansı bir formasınınsa hamıya qəbul etdirilməsinə səy göstərilir. İnsanlar bu qaydalara müvafiq olaraq yaşamağa məcbur edilir. Yeni dünya qaydaları ideyasının tərəfdarları belə hesab edirlər ki, bu cür üsullar əvvəllər də olmuşdur. Bu gün bir qisim dövlətlərin (dövlətlər blokunun) digərlərinə tabe edilmsi mexanizmi incə şəkildə həyata keçirilir, birbaşa zorakılıq həmişə nəzərdə tutulmur, iqtisadi təsir imkanları və yenidən bölüşdürmə daha çox təzahür edir. Siyasətçilərin «ölkələrin dostları yoxdur, onların milli mənafeləri vardır» formulu ənənəvi və geniş şəkil almışdır.

Milli mənafe konsepsiyası praqmatizmi nəzərdə tutur. Milli mənafelər bunları ehtiva edir: dövlətin öz ərazisini müdafiə etmək imkanlarının saxlanması və genişlənməsi, hərbi qüvvələrin və iqtisadiyyatn inkişafı, digər dövlətə təsir göstərmək, əhalinin və dövlət təşkilatlarnın müdafiəsi, ticarətin inkişafı və investisiyaların çoxalması. Yüksək milli mənafe sabitliyə nail olmaqdan və dinc inkişafdan, beynəlxalq münasibətlər sistemində ölkənin ləyaqətli vəziyyətindən iba-

rətdir. **Qüvvələr tarazlığı konsepsiyası** belə bir cəhətin başa büşülməsilə təşəkkül tapmışdır ki, hərbi qüvvə iqtisadi, siyasi, elmi-texniki amillərlə yanaşı dövlətin gücünü təşkil edən amillərdən yalnız biridir. Bir qisim amillərin inkişafı, məsələn, coğrafi vəziyyət, təbii resursların mövcudluğu, sənaye potensialı, hərbi hazırlıq, milli əxlaq, diplomatiyanın keyfiyyəti və s. bir qayda olaraq hansısa digər tərəfin zəifliyini tarazlaşdırır. Dövlət öz gücünü artırdıqda qonşu dövlət də belə edir, nəticədə dövlətin gücü də artır, lakin təhlükəsizlik qətiyyən təmin edilmir. Bunun nəticəsi olaraq tarazlıq konsepsiyası təşəkkül tapmışdır. Bu potensial rəqiblə təxminən eyni gücə malik olmağı şərtləndirir. Qüvvələr tarazlığının saxlanması digər müttəfiq dövlətlərin öz tərəfinə cəlb olunması ilə möhkəmləndirilə bilər.

# XX FƏSİL

# SİYASƏT VƏ UZAQGÖRƏNLİK

## 1. Uzaqgörənliyin ümumi səciyyəsi

Uzaqgörənlik gerçəkliyi qabaqcadan əks etdirməyin ən mühüm forması olmaq etibarilə bəşəriyyətin mövcudluğunun bütün mərhələlərində təzahür etmişdir. Uzaqgörənlik və ya gələcəyi görmə təbiət və cəmiyyət hadisələrinin və ya indi məlum olmayan hadisələrin gələcək vəziyyəti haqqında fərziyyədir, ehtimaldır. Gələcəyi görmə (uzaqgörənlik) elmi, adi, intuitiv və dini ormalarda ifadə olunur.

Gələcək haqqında elm futurologiya adlanır. Bu elmin ünsürləri hələ qədim dünyada təşəkkül tapmışdır. Latınca **futurum** və yunan dilində **loqos** sözlərinin birləşməsindən ibarət olan futurologiya mahiyyət etibarilə bəşəriyyətin gələcəyi haqqında təsəvvürlərin məcmuudur. O sosial proseslərin inkişaf perspektivini tədqiq edən elmi biliklər sahəsidir.

Hələ eramızdan əvvəl 585-ci ildə yunan filosofu Falesin günəşin tutulmasına dair qabaqcadan yürütdüyü mülahizə gələcək haqqında elmi ünsürlərin zənginləşməsinə təkan verdi. Lakin gələcək haqqında elmin əsasları tam həcmdə XX əsrdə təşəkkül tapdı. **Futurologiya** terminini ilk dəfə 1943-cü ildə alman alimi O.Flextheym təklif etmişdir. O, bu termini siniflər fövqündə dayanan «gələcəyin fəlsəfəsi» mənasında işlətmişdir. XX əsrin 60-cı ilərinin əvvəllərində futurologiya məvhumu «gələcəyin tarixi», «gələcək haqqında elm» kimi yayılır. Həmin əsrin 60-cı illərinin axırlarında isə bu termin **gələcəyin tədqiqi** tərəfindən sıxışdırılmağa başlandı.

Müasir elmi ədəbiyyatda elmi uzaqqörənliyin iki aspektə malik olması qeyd olunur: 1. təbii-elmi (təbiətin bütövlükdə və ayrı-ayrı hadisələrin inkişaf perspektivi). 2. sosial (şəxsiyyətin və cəmiyətin inkişaf perspektivi).

Sosial uzaqgörənliyin bir neçə forması mövcuddur. Bunlardan ən sadəsi psixi-fizioloji və ya bioloji hadisə kimi

çıxış edir. Belə forma praktiki olaraq bütün canlı orqanizmə, eləcə də xeyli insanların həyatında təcəssüm olunan və əksini tapan sosial hadisələrə xasdır.

Gələcəyi görməyin daha **yüksək forması** uzaqgörənliyin mürəkkəb təbiətə malik olmasıdır. Elmi sosial uzaqgörənliyin **yüksək forması** bütün bəşəriyyətə və ya onun böyük hissəsinə aid olan gələcək dəyişikliklərin məcmuunun bütün cəmiyyət çərçivəsində müəyyənləşdirilməsidir[1].

Gələcəyi görmədə intuisiya spesifik rol oynayır. Gələcəyin elmi nöqteyi-nəzərdən dərk edilməsində intuisiya **hissə** və **rasional təfəkkürə** əsaslanır. Təbiət və cəmiyyət hadisələrinin gələcək təbiətinə və inkişafına dair ilk **sanballı mülahizə yürüdən və bu sahədə dərin elmi** tədqiqatları ilə fərqlənən alim Petro Ubaldi hesab olunur. Başlıca əsərləri XX əsrin 30-cu illərinin xüsusi nailiyyəti sayılan «Böyük sintez» və «Gələcəyi xəbər vermə» adlanır. Onun elmi mülahizələri bioloqlar, sosiaoloqlar və filosoflar üçün böyük əhəmiyyət kəsb edir.

Uzaqgörənliyi şərti olaraq bu və ya digər hadisələrin, proseslərin, halların nəticələri haqqında qabaqcadan xəbər vermək kimi müəyyənləşdirmək olar. O səbəb-nəticə münasibətləri ilə əlaqədardır. Bu münasibətlərə əsaslanaraq qəbul olunmuş, qərarların reallaşmasından sonra nə baş verəcəyini qabaqcadan təxmini xəbər vermək olar. A hadisəsi B nəticənin səbəbidir, çünki A olmasaydı, eləcə də B olmazdı. Aydındır ki, uzaqgörənlik bu səbəb-nəticə münasibətlərini başa düşməyi nəzərdə tutur. Yadda saxlamaq lazımdır ki, bu və ya eyni nəticə müxtəlif səbəblərdən doğa bilər. Başqa sözlə, həm səbəbin və eləcə də nəticənin plurallığını nəzərdən qaçırmaq olmaz.

**Uzaqgörənlik dini etiqada, biliklərə, astrologiyaya, həyati təcrübəyə və elmi göstəricilərə** əsaslanır. Dində başlıca cəhət məlum olduğu kimi, fövqəltəbii qüvvələrə inamdır (dini inamı hər bir normal insana xas olan adi inamdan fərq-

---

[1] Тощенко Ж. Социология М., 1999 с. 4

ləndirmək lazımdır). Keçmiş zamanlarda belə bir fikir qərarlaşmışdı ki, ictimai münasibətlərin dəyişməsi, insanların maddi vəziyyətinin yaxşılaşması ilə bağlı Allaha inamı artır və onlar belə qənaətə gəlirlər ki, hansısa sirli bir qüvvə sakit və xoşbəxt yaşamaqda onlara kömək edir. Əlbəttə, dinin və dünyagörüşün təsiri insanların maddi vəziyyətindən çox asılıdır. Bundan əlavə cəmiyyətin dərin böhran keçirdiyi və böhranlı vəziyyətdən necə çıxmağın məlum olmadığı hərcmərclik (iğtişaş) döründə dinin təsiri güclənir. Hətta insanlara varlı və zəngin həyat şəraiti bəxş edildikdə də dini şüur aradan qalxmır və qalxmayacaq da, eləcə də bütün vətəndahlar ali təhsilə yiyələnəcəyi halda belə dini inam yox olmur. Yaxşı məlumdur ki, xeyli görkəmli alimlər dindar olmuş və olmaqdadır. Qeyd etmək yerinə düşər ki, insan öz mövcudluğunun müvəqqəti olduğunu, ölümün labüdlüyünü dərk edən yeganə canlı varlıqdır. XX əsrin görkəmli ingilis filosofu B.Rassel yazırdı ki, ölümqabağı qorxu insanın daha əhəmiyyətli emosiyasıdır. İnsan gec-tez başqa dünyaya getməlidir və o axirət həyatına inanmağa məcburdur, öz varlığının başqa formasını qabaqcadan görməyi təsəvvürünə gətirir. Həmin inamı və varlığın bu forması haqqında təsəvvürü insana din təlqin edir. Gələcəyi qabaqcadan xəbər vermək üçün dini inam nəinki şəxsi, eləcə də ictimai həyatdan istifadə edir. Əlbəttə, müasir siyasətçilər və dövlət xadimləri kahinlərin və peyğəmbərlərin köməyinə ehtiyac duymur, lakin onların çoxu dindar olmaq etibarilə tez-tez dini ayinlərə müraciət edirlər və onların köməyilə özləri üçün əhəmiyyət kəsb edən məsələlərin həllinə çalışırlar.

Hələ qədim dövrdə təşəkkül tapan **astrologiyanın** isə uzaqgörənliyin hansı növünə məxsusluğunu müəyyənləşdirmək çətindir. Lakin bir məsələ aydındır: müasir dünyada kahinlərin, dini uzaqgörənliyin yerini astroloqlar tutmuşlar, onlar göy cisimlərinin yerləşməsindən asılı olaraq insanın, xalqın, dövlətin və s. taleyini qabaqcadan xəbər verirlər. Astrologiya sahəsində çalışan xeyli mütəxəssis onun vacibliyini

və hətta gələcəyi qabaqcadan xəbər üçün zəruriliyini sübut edirlər. Bununla bağlı zənnimizcə, S.A.Vranskinin «Astrologiya: xürafat yoxsa elm?» kitabı diqqəti cəlb edir. Müəllif düzgün olaraq yazır ki, dünyada hər şey qarşılıqlı əlaqəyə malikdir, «insan şəxsiyyətinin və taleyinin əsası geokosmik amillərlə, başqa sözlə təbiətin və kosmosun ümumi qanunları ilə, bioloji şəraitlə, doğulduğun yer və daimi yaşayış yeri, ətraf mühai və s. ilə müəyyən olunur. Buraya eləcə də insanın mənşəyi, onun irsi əlamətləri, tərbiyə və təhsil, sosial məsuliyyət, peşə və fəaliyyət, zamanın adəti və ruhu və ona münasibət, inam və dünya görüşü, başqa sözlə mövcud insanın fiziki və psixi inkişafına, onun əxlaqına və etikasına, həyat tərzinə bu və ya digər dərəcədə təsir göstərən nə varsa hamısı aiddir»[1]. Bütün bunlar doğrudur, lakin ulduz cədvəlinə münasibətdə necədir? Çox şübhəli. Astrologiya göstəricilərinin köməyilə bu və ya digər hadisə məsələn, müharibə və ya inqilab, iqtisadi böhran və ya millətlərarası münaqişələr barədə qabaqcadan xəbər verilməsini təsəvvür etmək olduqca çətindir.

**Həyati təcrübə** ilə bağlı olan gələcəyi görmə hər bir insana aid ola bilən gözlənilməz dəyişikliyin nəzərə alınmasını ifadə edir. Məsələn, əgər bu və ya digər hərəkət mənim üçün arzuolunmaz nəticələrə gətirib çıxararsa, belə halda mən bu hərəkətin təkrar baş verməsindən uzaqlaşmalıyam. Lakin yadda saxlamaq lazımdır ki, insan tez-tez müəyyən məqsəd güdür, ancaq əldə olunan nəticə tamamilə arzu edilməz olur. Başqa sözlə, mövcud hərəkətlə şərtlənən nəticələri qabaqcadan görmək çətindir.

**Elmi uzaqgörənlik** proqnozun elə formasını səciyyələndirir ki, məhz ciddi surətdə elmi göstəricilərə, bütün şəraitin hərtərəfli nəzərə alınmasına əsaslanır. Elmin vəzifəsi obyektiv aləmin qanunauyğunluqlarını açıqlamaq, onun inkişafının daxili məntiqini və proses və fenomenlərin qarşılıqlı fəaliyyətinin mexanizmini üzə çıxarmaqdan ibarətdir. Bununla

---

[1] Вронский С.А. «Астрология: суеверие или наука?»М., 1991, с. 31

yanaşı elmin vəzifəsi bundan ibarətdir ki, hər hansı proqnozu işləyib hazırlasın, bu və ya digər hadisə və fəaliyyətin mümkün nəticələrini qabaqcadan xəbər versin.

Belə hesab olunur ki, elmi uzaqgörənlik obyektiv gerçəkliyin dinamik və statik qanunauyğunluğu ilə bağlıdır. Dinamik qanunauyğunluq elə səbəb əlaqələrini və münasibətlərini ifadə edir ki, belə halda mövcud vəziyyət mütləq dəqiq müəyyənləşdirilən nəticələri əldə etməlidir. Buna görə əgər başlanğıc şərait məlumdursa artıq nəticəni qabaqcadan xəbər vermək olar. Statik qanunauyğunluq isə elə vəziyyəti nəzərdə tutur ki, onun sayəsində nəticəni qabaqcadan birmənalı xəbər vermək mümkün deyil. Statik qanunauyğunluq kütləvi hadisələrin qanunauyğunluğudur.

Mahiyyət etibarilə bütün qanunauyğunluqlar statik xarakter daşıyır, istər-istəməz bizi əhatə edən aləm mürəkkəb və çoxcəhətlidir, heç bir dinamik qanun onu əhatə edə bilməz. Məsələn, sosium şüurlu surətdə hərəkət edən və qarşısına şüurlu şəkildə məqsədlər qoyan insanların qarşılıqlı fəaliyyətinin məhsulu kimi səciyyələnir. İnsanlar fərdi və unikal mahiyyət kəsb edir. Buna görə onların daxili aləminə nüfuz etmək və hansı hərəkətləri edəcəyini nəzərdə tutduğunu qabaqcadan xəbər vermək mümkün deyildir.

İctimai proseslərin və hadisələrin qabaqcadan xəbər verilməsi (uzaqgörənlik) tarix, sosiologiya, statistika, demoqrafiya, siyasət, fəlsəfə və digər elmlərin göstəricilərinə əsaslanır. Sosial uzaqgörənliyin mürəkkəbliyi buradan irəli gəlir, eləcə də utopik nəzəriyyə və konsepsiyaların təzahürü də həmin amillə şərtlənir. İtaliya mütəfəkkiri T.Kompanellanın «Günəş şəhəri» əsəri həvəslə oxunur, lakin orda ifadə olunan nəzəriyyə utopik xarakter daşıyır.

Utopik sosializmin böyük nümayəndələri sayılan Sen-Simon, Şarl Furye və Robert Ouenin görüşləri də utopik mahiyyət kəsb edirdi. Lakin səhvlərə malik olmayan elmi uzaqgörənlik nümunələri də vardır. Napoleon Müqəddəs Yelena adasında sürgündə olarkən qabaqcadan xəbər ver-

mişdir ki, gələcək dünya ya Amerika respublikasından və yaxud Rusiya monarxiyasından ibarət olacaqdır. Keçmiş fransız imperatoru bütövlükdə səhv etməmişdir. XX əsr dünyasında həqiqətən SSRİ və ABŞ hökmranlıq etmişlər, hazırda isə ABŞ dünyanın super dövləti hesab olunur, dünya inkişafının aparıcı meylini məhz o müəyyən edir. Dahi Napoleonun belə uzaqgörənliyi ona əsaslanır ki, o müasiri olduğu dünyanın siyasi həyatını düzgün, dərindən dərk edib. Lakin qeyd etmək lazımdır ki, hər cür uzaqgörənlik ehtimal xarakteri daşıyır. Gələcəy dair bu və ya digər hadisə haqqında qabaqcadan dəqiq xəbər vermək üçün xeyli şərtlərin yerinə yetirilməsi zəruridir ki, bu da daim dəyişikliyə məruz qalan dünyada praktiki cəhətdən mümkün deyildir. Bununla yanaşı insan elə ona görə insandır ki, o daim öz hərəkətlərinin nəticələrini qabaqcadan görməyə cəhd edir.

## 2. Siyasi uzaqgörənlik

Siyasət insanların birgə maddi və mənəvi fəaliyyəti prosesində onların arasında münasibətlərin tənzimlənməsi forması kimi səciyyələnir. Siyasətin fərqləndirici cəhəti bundan ibarətdir ki, o ictimai həyatın bütün sferalarına (iqtisadi, sosial, mənəvi) nüfuz edir. O milyonlarla insanların mənafeyinə toxunur, cəmiyyətin gələcəyi, onun sabit inkişafı və xalqın tərəqqisi xeyli dərəcədə siyasətdən asılıdır.

Müasir qərb ədəbiyyatında xalqların və dövlətlərin gələcəkdə qarşılıqlı münasibətlərinin proqnozlaşdırılmasına çox böyük diqqət yetirilir. Bu təsadüfi deyil. Məsələ ondadır ki, bəşəriyyət XXI əsrin astanasındadır. Hər bir yüzillik tarixdə öz təkrarolunmaz izini qoyur. XVII əsr rasionalizm, təbii və sosial hadisələrin dərk olunmasında zəkanın roluna həlledici əhəmiyyət verən əsrdir. Bütün vətəndaşların maariflənməsini və onların dini xürafatdan uzaqlaşmasını elan edən XVIII əsr maarifçilik əsri adlandırılır. Bəs keçən əsr necə adlandırılacaq? Hər şeydən əvvəl qeyd etmək lazımdır ki, o bütün əvvəlki yüzilliklərdən köklü sürətdə fərqlənir. Bi-

rincisi, keçən əsr atom əsridir. Atom enerjisinin mənimsənilməsinə məhz, XX əsrdə başlanmışdır. Bu enerjinin kəşfinin özü elm və texnikanın ən böyük nailiyyəti kimi səciyyələnir. İkinicisi, həmin əsr nəinki məhsuldar qüvvələrdə, eləcə də bütün ictimai və şəxsi həyatda köklü keyfiyyət dəyişiklikləri yaradan elmi-texniki inqilab əsridir. Üçüncüsü, XX əsr nəinki elmi-texniki inqilab, həmçinin, sosial inqilab əsridir. Dördüncüsü, bu əsr vahid tarixi və siyasi məkanın formalaşdırılması ilə mənalanır. Bütün əvvəlki əsrlərdə çoxlu xalqlar, dövlətlər və hətta qitələr dünya tarixindən kənarda qalmışdılar və buna görə dünya tarixində faktiki olaraq əhəmiyyətli rol oynamamışlar. Hazırki zamanda isə biz tamamilə başqa mənzərəni müşahidə edirik. Bütün ölkələr və xalqlar bu və ya digər formada iqtisadi, siyasi və mədəni sahələrdə əməkdaşlıq edirlər. Rəngarəng tədbirlər həyata keçirən, müvafiq beynəlxalq forumlar, konfranslar, idman yarışları təşkil edən müxtəlif beynəlxalq təşkilatlar mövcuddur.

Müasir nəqliyyat sayəsində bir neçə saat ərzində okeanları, dənizləri və qitələri keçib getməklə xalqların mədəniyyəti, adət və ənənələri ilə tanışlıq dünya mənəvi sərvətlərini sürətlə mənimsəməyə imkan yaradır. İndiki kütləvi informasiya vasitələri yer kürəsinin hər hansı nöqtəsində baş verənləri görməyə və eşitməyə görünməmiş imkanlar açır.

KİV bütün baş verənlərə kəskin və canlı surətdə reaksiya verən planetar şüur formalaşdırır. Beşincisi, bu əsr özündə müharibə, ekologiya və s. problemləri əks etdirən qlobal siyasi problemlər əsridir. Bu problemlərin mahiyyəti bundan ibarətdir ki, sosial-iqtisadi quruluşundan və inkişaf səviyyəsindən asılı olmayaraq onlar dünyanın bütün ölkələrinə aiddir. Həmin problemlər dünyanın əksəriyyət ölkələrinin birgə səyləri ilə həll oluna bilər. Altıncısı, XX əsr lokal və iki dünya müharibəsi əsridir. Müharibələrdə milyonlarla insan həlak olmuşdur. Təkcə belə bir faktı qayd etmək yerinə düşər ki, meqa ölüm əsri adlandırılan həmin əsrdə 140 milyondan artıq insan ölmüş, yüz milyonlarla adam yaralanmış və

şikəst olmuşdur.

Beləliklə, iyirminci əsr qeyd etdiyimiz kimi, öz məzmunu və zəngin tarixi hadisələrinə görə əvvəlki əsrlərdən kəskin surətdə fərqlənir. O XXI əsrə böyük nailiyyətlərlə yanaşı, eləcə də həll olunmamış xeyli problemlər bəxş etmişdir. Bu problemlər üzərində düşünən xeyli siyasətçi qaneedici olmayan nəticələrə gəlirlər. Məsələn, Amerika profnssoru Xantinqtonun çap etdirdiyi «Sivilizasiyanın şoku» kitabı nəinki ABŞ-da, həiçinin Avropada geniş əks-sədaya səbəb oldu. O yazır: «Dünya siyasəti yeni mərhələyə qədəm qoyur, ziyalılar gələcəyə dair nisbi mövqelərini ifadə etmək üçün çox gözləməli olmadılar. Bəziləri tarixin sonu, dıgərləri millətlərin bir-birinə zidd çətinliklərinin, başqa sözlə traybalizmin və mondializmin - mənafeyin təsiri altında olan ənənəvi rəqabət haqqında yazmağa başladılar...»[1]. Bu Amerika alimi fikrini davam etdirərək bildirir ki, bütün bunlar nəzərə çarpır. Lakin yeni dünyada münaqişələr iqtisadi və ya ideoloji xarakter daşımayacaq. «Dövlətlər - millətlər əvvəlki kimi beynəlxalq işlərdə başlıca rol oynayacaq, lakin həlledici dünya siyasi münaqişələri müxtəlif sivilizasiyalara məxsus olan millətlər və qruplar arasında baş verəcəkdir. Sivilizasiya şoku dünya siyasətində hökmranlıq edəcəkdir»[2]. Xantinqton qeyd edir ki, son iki əsr ərzində qərb dövlətləri öz ərazilərini genişləndirmək və bir-birinə siyasi, iqtisadi təsir göstərmək məqsədilə öz aralarında müharibələr aparmışlar. Soyuq müharibə dünyanı üç hissəyə ayırdı, lakin bugün həmin bölgü öz əhəmiyyətini itirmişdir. Hazırda ölkələrin təsnifatını onların siyasi və ya iqtisadi sistemlərinə, yaxud inkişaf səviyyələrinə əsaslanmaqla yox, mənsub olduqları sivilizasiyalar zəminində vermək lazımdır. Əlbəttə, sivilizasiyalar qarşılıqlı fəaliyyətdə olsalar da bir-birilə yola getmirlər. Xantinqton buradan belə qənaətə gəlir ki, gələcəkdə müna-

---

[1] Hantinqton Samuell P. Le chooc des sivikusations? R/ Commentaire, Paris, 1994. № 66

[2] İbid. R. 238

qişələr dövlətlər arasında yox, sivilizasiyalar arasında baş verəcəkdir. Xantinqtonun bu mülahizələri bəzi tədqiqatçıların xüsusilə, D.Bell, A.Bezanson, A.Fonten, U.Pfaff və başqalarının tənqidinə məruz qalmışdır. Bell bildirir ki, qərb sivilizasiyası digər sivilizasiyalar üçün təhlükə mənbəyi deyil, ancaq ailə və ailə münasibətlərinin pozulması üçün təhlükəlidir. U.Pfaff nəzərə çatdırır ki, Xantinqtonun mövqeyi təhlükəli və səhvdir, onun fikrincə, Xantinqton müasir siyasi hadisələri düzgün şərh etmir, yalnız təsadüfi və keçici hadisələri ümumiləşdirir. Digər tədqiqatçılar isə onu belə bir nöqteyi-nəzərdən günahlandırırlar ki, bədbinliyə sövq edir və gələcək dünyaya tutqun boyalarla aydınlıq gətirir.

Məsələ onda deyildir ki, Xantinqton öz mülahizələrində haqlıdır və ya əksinə, başlıcası bundan ibarətdir ki, o elə real problemlərə toxunur ki, bəşəriyyətin gələcəyi həqiqətən onların həllindən asılıdır. Bəzi tədqiqatçılarla razılaşaraq qeyd etmək lazımdır ki, bu alimin qaldırdığı və müzakirəyə məruz qalan problemlər «sivilizasiyalı» yox, siyasi xarakter daşıyır. Buna görə gələcək hadisələrin proqnozlaşdırılması öz inkişaf qanunauyğunluqlarına və daxili məntiqinə malik olan siyasətlə bağlıdır. Siyasətdə mənafe başlıca rol oynayır. Spesifik siyasi orqanizm kimi səciyyələnən hər bir dövlət öz daxili və xarici mənafeyinə malikdir. Daxili mənafe cəmiyyətin sabitliyi, vətəndaşların öz fiziki və mənəvi imkanlarını təzahür etdirmələri üçün müvafiq zəruri şəraitin yaradılması ilə bağlıdır. Xarici mənafe isə milli suverenliyin müdafiəsi, dövlətin öz siyasi təsirini genişləndirməsi ilə şərtlənir. Daxili və xarici mənafelər qarşılıqlı əlaqə kəsb edir. Biz yalnız xarici siyasət məsələlərinə toxunmaqla gələcək dünya siyasi məkanına dair bəzi nisbi proqnozlara dair gəldiyimiz qənaəti şərh edəcəyik. İndiki beynəlxalq şəraitin özünəməxsusluğu ondan ibarətdir ki, yeni siyasi məkanın təşəkkülü müharibələrdən, eləcə də ikinci dünya müharibəsindən sonra yox, «soyuq müharibənin» başa çatdığı vaxtdan etibarən başlayır. İkiqütblü dünya ABŞ başda olmaqla birqütblü dünya

ilə əvəz olundu. zənnimizcə, hazırda beynəlxalq işlərdə başlıca rol oynayan ABŞ-ın digər böyük dövlətlərlə toqquşması ehtimalı mövcuddur. Bu baxımdan ilk öncə Çini xatırlatmaq yerinə düşər. Onun əhalisi hazırda bir milyard 300 milyondan çoxdur, Çinin iqtisadiyyatı coşqun surətdə inkişaf edir. İndi belə təsəvvür yarana bilər ki, guya Çin dünyada öz təsirini yaymağa cəhd etmir.Bu həmişə belə olacaqmı? Nəzərə almaq lazımdır ki, yox, vaxt gələndə bu ölkə öz siyasi məkanını günişləndirməyə səy göstərəcək.

Şübhə yoxdur ki, Yaponiyanın iqtisadiyyatı sabit şəikldə inkişaf edir və dünyadakı hadisələrə yalnız iqtisadi təsiri ilə məhdudlaşmayacaq. Çin kimi o da beynəlxvlq işlərə böyük təsir göstərmək iddiasında olacaq.

Avropa ilə bağlı belə bir ciddi cəhəti qeyd etmək vacibdir ki, burada Birləşmiş Almaniya ən qüdrətli dövlət kimi nəzərə çarpır və onun təsiri getdikcə artacaq. Belə düşünmək sadəlövhlük olardı ki, o öz tarixi ənənələrini unudacaq, sakit və dinc oturacaq və dünyada baş verən hadisələrə laqeyd yanaşacaq. Almaniya indinin özündə avropadakı işlərə fəal qarışır, gələcəkdə isə onun təsiri Avropanın hüdudlarından kənara istiqamətlənəcək. Sözsüz ki, nüvə silahına sahib olan Fransa və İngiltərə nəinki özünün regional mənafeyini, eləcə də dünyanın mənafeyini müdafiə edəcək. Əlbəttə, Avropa Şurasına daxil olan dövlətlərin vahid beynəlxalq siyasət yeridəcəyi qaçılmazdır, bununla yanaşı oraya aid olan aparıcı dövlətlər ilk öncə öz qeosiyasi maraqlarını qoruyacaq. İngiltərə və Fransa özlərinin keçmiş müstəmləkələri ilə sıx əlaqə saxlayırlar və çox ehtimal ki, həmin əlaqədər genişlənəcək və dərinləşəcək.

Rusiya ilə bağlı onu qeyd etmək olar ki, o növbəti dəfə öz tarixinin ən mürəkkəb dövrünü yaşayır (SSRİ dağıldıqdan sonra). Həmişə olduğu kimi filosoflar, politoloqlar, siyasətçilər və b. onun gələcəyinə dair müxtəlif nisbi proqnozlar irəli sürürlər.

Əlbəttə, yeni Rusiya hər şeydən əvvəl, dünyada öz ye-

rini və özünün inkişaf yolunu müəyyənləşdirməlidir. O rusiyanın mənafeyini müəyyən edən dövlət ideologiyasına malik olmalıdır. Bu ideologiya ölkənin iqtisadi potensialını, onun insan, demoqrafik və s. resurslarını elə aydınlıqla ifadə etməlidir ki, buna müvafiq olaraq işlənib hazırlanan xarici siyasət xətti rus dövlətinin beynəlxalq işlərə təsirinin genişlənməsini təmin etsin.

Nəhayət, zəif inkişaf etmiş ölkələri əhatə edən «üçüncü dünya» ilə bağlı mülahizələrimizə keçək. Həmin ölkələr çox çətin vəziyyətdədir, elmi kapitaldan məhrumdurlar, bunsuz isə iqtisadiyyatın inikşafı ağlasığmazdır. Onlar informasiya məkanına malik deyildir, bu olmadan xalqın şüurunun və mənlik şüurunun formalaşması qeyri-mümkündür, mədəniyyətinin normal inkişafı təmin edilə bilməz. Həmin ölkələrdə həyat səviyyəsi aşağı düşür, milyonlarla insan aclıqdan və xəstəlikdən ölür. Onların inkişaf etmiş ölkələrə borcu artır və bununla bağlı həmin ölkələrdən asılı vəziyyətə düşürlər. Amerika alimi D.Bellin belə bir düzgün fikri ilə razılaşmaq olar ki, «yoxsul ölkələr arasında Afrika yeganə qitədir ki, əhalinin vəziyyəti 80-cı illərdə (XX əsr - M.Ə.) 70-ci illərlə müqayisədə pis vəziyyətdə olmuşdur. 90-cı illərdə is (XX əsr - M.Ə.) 80-ci illərlə müqayisədə daha pis vəziyyətdə olacaqdır»[1].

Latın Amerikası ölkələrində də mürəkkəb vəziyyət nəzərə çarpır. Braziliyanın görkəmli politoloqlarından biri sayılan J.Sarney yazır ki, Latın Amerikası ölkələri ticarət sahəsində, texnikanın inkişafında rəqabət qabiliyyətli məhsulların buraxılışında geri qalırlar. Ən başlıcası bundan ibarətdir ki, əhalinin əksəriyyəti Afrikada olduğu kimi yoxsulluq içində yaşayır. Latın Amerikasında hələlik ABŞ hökmranlıq edir, lakin bu o demək deyil ki, gələcəkdə vəziyyət dəyişməyəcək.

Ərəb dünyası da sakit vəziyyətdə deyil. Fələstinlilərlə

---

[1] Bell D.V. Afrique au-dela del'an 2000 R. Commentaire. Paris, 1995. №69. p. 5

izraillilərin daim toqquşması təsdiqləyir ki, gərginlik ocağı asanlıqla ləğv olunmayacaq. beləliklə, təsdiqləmək olar ki, dünyadakı müasir siyasi situasiya XXI əsrdə bütün dünya siyasi məkanında və beynəlxalq münasibətlərdə köklü dəyişikliklərə gətirib çıxaracaq bəzi hadisə və prosesləri proqnozlaşdırmağa imkan yaradır. Aydındır ki, bu proqnozlar ehtimal xarakteri daşıyır, dünya istər-istəməz mürəkkəb və çoxcəhətlidir, elə hadisələr baş verə bilər ki, hər hansı uzaqgörənliyi təkzib edə bilər.

### 3. Uzaqgörənlikdə siyasətin rolu

hər bir siyasətçi öz siyasi fəaliyyətini qabaqcadan xəbər vermək qabiliyyətinə malik olmalıdır. Siyasətçi sınaqdan keçirilən və səhv metoddan istifadə etməməlidir və buna haqqı da yoxdur. O dövlətin ona həvalə etdiyi milyonlarla insanın həyatına cavabdehdir, buna görə bu və ya digər qərar qəbul edənə qədər şahmatçı kimi, əvvəlcə, bir neçə gediş hesablamalı, məhz bundan sonra özünün hər bir qərarını götür-qoy edərək fəaliyyətə başlamalıdır. Xeyli siyasətçinin faciəsi bundan ibarətdir ki, öz dövlətinin nə daxili, nə də geosiyasi mənafeyi haqqında az da olsa təsəvvürə malik olmadığı halda düşünülməmiş, həddindən artıq tələsik hərəkət edir və nəticədə bu da onun təsirinin (nüfuzunun) azalmasına, yaxud dövlətin dağılmasına gətirib çıxarır.

Siyasətçi soyuq mühakimə qabiliyyətinə və həssas-hərarətli qəlbə malik olmalıdır. O, emosiyalardan deyil, hökmən təşəkkül tapan real situasiyadan çıxış etməlidir. Siyasətçi romantik deyil, realistdir və öz qərarını sərt gerçəkliyə uyğunlaşdırmağı bacarmalıdır. Bu o deməkdir ki, birincisi, dövlətin daxili situasiyasını, iqtisadi qüdrətini, sinfi münasibətlərin yerləşdirilməsini düzgün müəyyənləşdirməlidir; ikincisi, dövlətin geosiyasi mənafeyini başa düşməlidir. Məsələn, böyük dövlətlər bir cür, kiçik dövlətlər isə başqa geosiyasi mənafelərə malikdirlər. Çox kiçik dövlətlərin başçıları dünyaınn siyasi problemlərini həll etmək iddiasında

ola bilməzlər. Böyük dövlətlərin başçıları öz siyasi hərəkətlərini qabaqcadan görməyə qadir deyilsə, öz dövlətinin iqtisadi və digər imkanlarını nəzərə almırsa son nəticədə hər şeyi itirmiş olur. Bütün hallarda uzaqgörənlik zəruridir və düşünülməmiş addım atılmamalıdır.

Siyasi uzaqgörənlik varisliklə xeyli bağlıdır. Cəmiyyətin sabit inkişafı ənənələrin, adətlərin və s. gözlənilməsindən çox asılıdır. Maddi və mənəvi sərvətlərin nəsildən nəslə bəxş edilməsindən kənarda cəmiyyətin sabitliyi ağlasığmazdır. Dövlət, siyasi liderdər öz xələflərinin yaratdıqları nə varsa hamısını daim rədd edirlər, onları tənqid etməklə yeni siyasi münasibətlər yaratmağa başlayırlar. Məsələn, ABŞ-da siyasətin sabitliyinin səbəblərindən biri bundan ibarətdir ki, hakimiyyətə gələn yeni prezident sələfini heç vaxt tənqid etmir. Yeni prezident özündən əvvəlkinə haqq qazandıraraq öz siyasətini həyata keçirməyə başlayır, bu xətt isə əslində keçmiş prezidentin siyasətinin davamıdır, ona görə ki, ABŞ-ın bütün prezidentlərinin ümumi məqsədi birbir - Amerika Birləşmiş Ştatlarının mənafeyi. Yeni prezident bu mənada öz dövlətinin geosiyasi mənafelərinə aid bu və ya digər qərar qəbul etməkdə çətinlik çəkmir. Elə həmin ölkədə prezident seçkiləri ərəfəsində prezidentliyə namizədlər arasında ciddi, bəzən isə sərt ittihamların səslənməsi də mövcud mənafedən irəli gəlir.

Rusiyada, sonra isə SSRİ-də və bəzi digər ölkələrdə varisliyin mövcud olmaması dəfələrlə xeyli siyasi kataklizmin (çevrilişlərin) səbəbi kimi çıxış etmişdir.

Siyasətdə populizm, ucuz şöhrət qazanmağa cəhd böyük ziyan verir. Təcrübə göstərir ki, belə mövqe **avtoritar xarakterli kiçik ölkələrdə** daha çox nəzərə çarpır. Siyasətdə şöhrət qazanmaq, özünü «əbədiləşdirmək» səyləri yalnız və yalnız hakimiyyət hərisliyinin təzahüründən başqa bir şey deyildir, əlbəttə, belə hal təəssüf ki, müəyyən böyük dövlətlərin siyasi praktikasında da mövcud olur. Əsil siyasətçi öz fəaliyyətində bu və ya dijər siyasi qərar qəbul edərkən əxlaqi

mahiyyət kəsb edən belə bir kəlamı rəhbər tutmalıdır: «Yüz dəfə ölç, bir dəfə biç». Lakin elə biçmək lazımdır ki, bundan vətəndaşlar, xalq və bütünlükdə dövlət udsun, cəmiyyətin müəyyən qismi, bir qrup üzvü yox. Bax buna görə də zənnimizcə, hər bir insan görkəmli alim, bəstəkar, rəssam ola bilmədiyi kimi əsl görkəmli siyasətçi də ola bilməz. Bir sözlə, əsl böyük siyasətçi xalqın mənafeyini, dövlətin maraqlarını əks etdirən tarixi iz qoymalıdır. Aristotelin belə bir kəskin xarakterli kəlamını qeyd etmək yerinə düşər: «dövləti cənnətə çevirən nədirsə, elə cəhənnəmə çevirən də odur, yəni siyasətdir». Siyasətçilər dərin əxlaqi mahiyyətlə səciyyələnən bu müdrik müddəanı öz fəaliyyətində daim rəhbər tutmalıdır. Həmin fikirdə siyasi uzaqgörənliyin özünəməxsus mayası ifadə olunmuşdur. Hər hansı insan ümumiyyətlə desək, siyasətçi ola bilməz. Siyasət peşə və ya ixtisas deyildir, xüsusi qabiliyyətdir, istedaddır. Elə bir təhsil ocağı yoxdur ki, siyasətçilər hazırlasın. Siyasətin texnologiyasını, siyasi elm və s. öyrənmək və öyrətmək olar, lakin insana adekvat qərarların qəbul olunmasını öyrətmək və siyasi fəaliyyətin nəticələrini qabaqcadaq xəbər vermək çətindir. Görkəmli alim və ya bəstəkar necə istedaddırsa, siyasətçi də elə istedaddır.

Bəşər tarixində mövcud olan xeyli imperatorların, kralların, prezidentlərin, dövlət başçılarının az bir qismi görkəmli siyasətçi hesab olunur. Görkəmli siyasətçi və dövlət xadimi olmaq üçün tarixi şərait zərurətdir, başqa sözlə, elə müstəsna şərait ki, bu zaman tarixdə ani dönüş yaranır və bəşəriyyətin gələcək inkişafına böyük təsir göstərir. Belə məqamda bütün mənaeləri aradan qaldırmağa, dövtlətə rəhbərlik etməyə, cəmiyyət üzvlərinin hamısının mənafeyinə uyğun gələn sabitlik yaratmağa qadir lider təzahür edir. Ayrı-ayrı ölkələrin tarixində buna bənzər hallar az deyil.

Şübhəsiz, böyük siyasi xadim və dövlət başçısı olmaq üçün yalnız tarixi şərait kifayət deyildir. Tarixdə elə məqamlar olmuşdur ki, dərin sosial və iqtisadi dəyişikliklərə ciddi ehtiyac duyulmuşdur, lakin insanlar bu dəyişiklikləri

başa çatdırmaq üçün görkəmli dövlət xadimlərinə malik olmamışlar. Belə məqamlar da olmuşdur ki, bu dəyişiklikləri həyata keçirmək üçün mövcüd dövlətə dəyərsiz siyasi liderlər rəhbərlik etmişlər, nəticədə cəmiyyət iflasa uğramışdır. Buna görə siyasi lider, görkəmli insan olmaq üçün dahiyanə ağıla, dərin zəkaya, uzaqgörənlik istedadına, böyük, çətin və məsuliyyətli vəzifələri həyata keçirmək məqsədilə xüsusi ali keyfiyyətlərə malik olmalıdır. O təhsilli, qətiyyətli, cəsarətli, prinsipial olmalı və qərarların qəbulu və onu yerinə yetirmək üçün məsuliyyəti öz üzərinə götürməkdən qorxmamalıdır.

Siyasətdə uzaqgörənlik taktiki və strateji xarakter daşıyır. Bu o deməkdir ki, siyasətçi yaxın vəzifələri izləməklə uzaq məqsədləri də diqqətdən yayındırmamalıdır. Buna görə o öz siyasi fəaliyyətinin ölkə üçün əhəmiyyətli nəticələrlə başa çatmasına çalışmalıdır, ölkəsinin mənafeyini digər ölkələrin mənafeyindən yüksək tutmalıdır. Bir misal gətirmək yerinə düşər. Almaniya kansleri Bismark Almaniyanı birləşdirmək qərarına gəlir, lakin fransızların təhlükəsini aradan qaldırmaq zərurəti ilə üzləşir və o çalışır ki, qəsdən Fransa ilə Prussiya arasında müharibə baş versin, müharibədə udsun və zorakı yolla dağınıq halda olan bütün alman dövlətlərini birləşdirsin. Lakin Bismarkın ordunun hərbi əməliyyata hazır olmasına inamı yox idi. Buna görə 1870-ci ilin iyulunda müşavirə zamanı ona Prussiya kralı ilə Fransa diplomatının söhbətinin mətnini təqdim etdilər ki, bunu imzalasın, lakin o hərbi nazirdən və baş qərargahın rəisindən soruşur ki, Prussiya ordusu müharibəyə hazırdırmı? Müsbət cavab alan Bismark həmin mətni elə redaktə edir ki, mətbuatda teleqram formasında nəzərə çarpsın və fransızlarda kəskin etiraza səbəb olsun. Belə də olur. Fransanın imperatoru III Napoleon təhqir olunmuş vəziyyətə düşür. 1870-ci il iyulun 19-da Fransa Prussiyaya müharibə elan etdi və tezliklə məğlub oldu. Bismark özünün nəinki taktiki və eləcə də strateji məqsədinə nail oldu: Fransanı darmadağın etməklə o

Almaniyanı birləşdirdi. Siyasi (və hər cür) uzaqgörənlikdə tarixi təcrübəni nəzərə almaq vacibdir, əvvəlki xüsusi səhvləri və sələflərinin səhvlərini təkrar etməyə yol verilməməlidir. Lakin əslində bu təcrübə az hallarda nəzərə alınır və ibrət dərsi götürülmür.

Bir sözlə, siyasət və uzaqgörənlik bir-birilə sıx əlaqəlidir. O siyasət daha effektlidir ki, hazırki vəziyyəti düzgün qiymətləndirir, keçmiş təcrübədən istifadə edir, sosial, siyasi və iqtisadi fenomenlərin bütün mürəkkəbliyini nəzərə alır, qəbul edilən qərarların mümkün nəticələrini qabaqcadan xəbər verir. Belə siyasət cəmiyyətdə sabitliyin qərarlaşmasına, onun sosial tərəqqi yolu ilə irəliləməsinə imkan yaradır.

# İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT


1. **Abdullayev Ə.Z.** Dil, siyasət, sosial tərəqqi. B., 1985.
2. **Абрамов Ю.К.** Американская партийная модель. США: экономика, политика, идеология, 1992, №2.
3. **Амелин В.Н.** Социология политики. М., 1992.
4. **Алмонд, Пауэлл Д.Ж., Стром К., Далтон Р**. Сравнительная политология сегодня. М., 2002.
5. **Ануфриев Е.А.** Социальный статус и активность личности. М., 1984.
6. Антология. Культурологической мысли. М., 1996.
7. **Адорно Т.** Избранные произведения. М., 1999.
8. **Арон Р.** Этапы развития социологической мысли. М., 1993.
9. **Авдеев Р.Ф.** Философия информационной цивилизации. М., 1994.
10. **Андрианова Т.В., Уваров А.И.** Введение в глобальное мировоззрение. М., 2000.
11. **Аристотель.** Политика. М., 1985.
12. **Баталов Э.** Политическая культура современного американского общества. М., 1992.
13. **Бердяев Н.** Философия неравенства. М., 1990.
14. **Бердяев Н.А.** Самопознание. М., 1990.
15. **Бердяев Н.А.** О назначении человека. М., 1993.
16. **Бенвенист Э.** Словарь индоевропейских социальных терминов. М., 1995.

17. **Белл Д.** Грядущее постиндустриальное общество. М. 1993.
18. **Блондел Ж.** Политическое лидерство. М., 1992.
19. **Боднер А.** Политическая культура обществе и ее обусловленности. Политология вчера и сегодня. М., 1990.
20. **Борисов Л.П.** Политология. Учебное пособие. М., 1996.
21. **Бро Ф.** Политология. Вып. второй., М., 1990.
22. **Бро Ф.** Политическая наука. Политология вчера и сегодня. М., 1990.
23. **Бурдье П.** Социология политики. М., 1993.
24. **Бучилов Н.Ф., Чумаков А.Н.** Философия. М., 2001.
25. **Василенко И.А.** Политические процессы на рубеже культур. М., 1998.
26. **Василенко И.А.** Диалог цивилизации: социокультурные проблемы политического партнерства. М., 1999.
27. **Василенко И.А.** Политическая глобалистика (учебное пособие). М., 2000.
28. **Вассоевич А.Л.** Духовный мир народов классического Востока. СПб., Алетейя, 1998.
29. Введение в политологию. Учебное пособие под ред. К.С.Гаджиева. М., 1995.
30. Введение в философии. Под ред. И.Т.Фролова в двух томах. 1989.
31. **Вебер М.** Избранные произведения. М., 1990.
32. **Вебер М.** Избранное. Образ общества. М., 1994.
33. **Вебер М.** Политика как призвание и профессия. М., 1990.

34. **Гаджиев К.С. и др.** Философия власти. Под ред. В.В.Ильина. М., 1993.
35. **Гаджиев К.С.** Введение в геополитику. М., 1998.
36. **Гаджиев К.С.** Политическая наука. М., 1995.
37. **Гаджиев К.С.** Политология. М., 2002.
38. **Гараджа В.И.** Религиоведение. М., 1994.
39. **Гараджа В.И.** Социология религии. М., 1996.
40. **Гачев Г.Д.** Национальные образы мира. М., 1998.
41. **Галкин А.А., Рахимир Р.Ю.** Консерватизм в прошлом и настоящем. М., 1992.
42. **Гирусов Э.В.** Основы социальной экологии. М., 1998.
43. **Гумилев Л.Н.** История людей и история природы. М., 1993.
44. **Граус И.** Личность как социальный компонент власти. М., 1990.
45. Гражданское общество. М., 1994.
46. **Гринстаин Ф.** Личность и политика. Социально-политические науки. 1991. №10.
47. **Дарендорф Р.О.** О будущем партии. Политология вчера и сегодня. М., 1990.
48. **Демидов А.Н., Федосов А.А.** Основы политологии. М., 1995.
49. Демократия, ограниченная фальсификациями. М.. 1995.
50. **Денисов А.** Политическая культура. Международная жизнь. 1990. №10.
51. **Деррида Ж.** Постсовременное состояние. М., 1994.
52. **Джемс Ц.** Многообразие религиозного опыта. М., 1994.

53. **Джунусов А.** Политическая культура: концептуальные аспекты. Социально-политический журнал. М., 1994. №11-12.

54. **Дмитров О.А.** Соотношение понятий политической и государственной в условиях формирования гражданского общества. Государство и право. 1994. №1.

55. **Даган М.** Легитимность режимов и кризис. Социологические исследования. М., 1994, №10.

56. Элементы теории политики. Ростов-на-Дону, 1990.

57. **Ерасов Б.С.** Культура, религия и цивилизация на Востоке. М., 1990.

58. **Ерасов Б.С.** Социальная культурология. М., 2000.

59. **Əhmədli C.** Cəmiyyət, siyasət, ideologiya. Bakı. 1997.

60. **Зеркин Д.П.** Основы политологии. Ростов-на- Дону. 1997.

61. **Зиновьев А.А.** На пути к сверх-обществу. М., 2000.

62. **Зыбайлов Л.К., Шапински В.А.** Постмодернизм. М., 1993.

63. **Zeynəddin Hacıyev.** Dərslik. Bakı, 2001.

64. **Каган М.С.** Философия культуры. СПб., 1996.

65. **Качанов Ю.** Опыты о поле политики. М., 1994.

66. **Качанов Ю.** Политическая типология: структурирование политической действительности. М., 1995.

67. **Карпушин И.** Искусство и религия. М., 1991.

68. **Кинг И., Шнаидер Б.** Первая глобальная революция. М., 1991.

69. **Козлов О.Н.** Развитие идеологий и социальные конфликты. М.; Социологические исследования, 1993, №4.

70. Конституционное (государственное) право зарубежных стран. Отв. ред. Б.П.Страшун. том 1. М., 1993.

71. **Кравченко И.И.** Концепции гражданского общества в философском развитии. Политические исследования. 1991, №5.

72. **Краснов Б.И.** Теория власти и властных отношений. Социально-политический журнал. 1994. №3-6.

73. **Кривогуз И.М.** Политология. М. 2001.

74. **Изенсес И.** Государство. Вестник МГУ. Сер. 12. 1992, №6.

75. **Ильин И.А.** О монархии и республике. Вопросы философии. 1991, №5.

76. **Ильин М.В., Коваль В.И.** Личность в политике: кто играет короля? Политическое исследование. М., 1991, №6.

77. **Ильенков Э.В.** Философия и культура. М., 1991.

78. **Иноземцев А.А.** За пределами экономического общества. М., 1998.

79. **İmanov H.R., A.Əhədov, N.Əhmədli.** Etnik dinlər və dünya dinləri. Bakı. 2003.

80. **İmanov H.R., A.Əhədov.** Orta əsr islam şərqində fəlsəfi fikir. B., 1998.

81. История политических и правовых учений: хрестоматия. Сост. В.А.Воротимин, И.Ф.Мачин. М., 1996.

82. История политических и правовых учений. Под ред. О.Э.Лейста. М., 1997.

83. **Лафонтен Р.** Общество будущего. М., 1990.

84. **Ле Тофф Ж.** Цивилизация средневекового Запада. М., 1992.

85. **Лешкевич Т.Г.** Философия. М., 2000.

86. **Лотман Ю.М.** Культура и взрыв. Таллин, 1992.

87. **Лузан А.А.** Политическая жизнь общества: вопросы теории. Киев. 1989.
88. **Макаренко В.П.** Политическая философия. Ростов-на-Дону., 1992.
89. **Макиавелли.** Государь. М., 1990.
90. **Мандел Э.** Власть и деньги. М., 1992.
91. **Макеев А.В.** Политология. Учеб. пособ. М., 2000.
92. **Мангейм К.** Идеология и утопия. М., 1991.
93. **Маркузе Т.** Одномерный человек: исследование идеологии развитого индустриального общества. М., 1994.
94. **Матц У.** Идеология как детерминанта политики в эпоху модерна. Политические исследования. 1992, №1-2.
95. **Матвеев Р.Ф.** Теоретическая и практическая политология. М., 1994.
96. Международная безопасность, разоружение. М., 1994.
97. **Мельник В.А.** Политология. М., 2002.
98. **Митрохин Л.Н.** Философия религии.
99. Мир философии. II ч. Человек. Общество. Культура. М., 1991. М., 1993.
100. **Məqsəd Səttarov.** İnsan və cəmiyyət haqqında düşüncələr. Bakı. 2000.
101. **Məcid Əfəndiyev.** Siyasi elmin problemləri. Bakı. 1998.
102. **Məcid Əfəndiyev, Azər Şirinov.** Sosiologiyanın nəzəri problemləri. Bakı, 2001.
03. **Məcid Əfəndiyev.** Siyasi və hüquqi təlimlər tarixi. Bakı. 2002.
04. **Мухаев Р.П.** Политология. М., 2003.
05. На перепутье (Новые вехи). М., 1999.
06. На путях постмодернизма. М., 1995.

**107.** Новая постиндустриальная волна на западе. Под ред. В.Л.Иноземцева. М. 1999.

**108.** Новые политические и общественные организации (1987-1991 г.). ч. 1, 2, 3. М., 1992.

**109. Nəbiyev F.** Siyasi təfəkkür. Bakı. 2003.

**110. Орлова И.Б.** Евразийская цивилизация. М., 1998.

**111.** Одиссей. Человек в истории. Личность и общество. М., 1990.

**112.** Общественно-политические науки. М., 1993, №4.

Основы современной философии. Санкт-Петербург. 2001.

**113.** Основы политологии: курс лекций. Под ред. В.П.Пугачева. М., 1992.

**114.** Основы политической науки. Учебное пособие. Под ред. В.П.Пугачева, ч. 1. М., 1993.

**115.** Очерки современной политической философии Запада. М., 1993.

**116. Панарин А.С.** Философия политики. М., 1996.

**117. Панарин А.С.** Политология. М., 2000.

**118.** Парламенты мира. М., 1994.

**119. Пивовоев В.М.** Миф в системе культуры. Петрозаводск. 1991.

**120.** Политическая система общества. Социально-политические науки. М., 1991, №5.

**121.** Политология и современный политический процесс. Ред. Кол. Антонович И.И. и др. М., 1990.

**122.** Политическая система: вопросы демократии и самоуправления. М., 1988.

**123.** Политология вчера и сегодня. М., 1990.

**124.** Политология в вопросах и ответах. М., 1994.

**125.** Политология. Гаджиев К.С. и др. М., 1995.

**126.** Политическая теория и политическая практика. М., 1990.

**127.** Политология. Под ред. Т.В.Полуниной М., 1996.

**128.** Политология: Энциклопедический словарь. Под ред. Ю.М.Аверьянова. М., 1993.

**129.** Политология. Под ред. М.Н.Марченко. М., 1999.

**130.** **Проскурин С.А.** Национальная безопасность страны: сущность, структура, пути укрепления. М., 1993.

**131.** **Пугачев В.П., Соловьев А.И.** Введение в политологию. М., 2003.

**132.** Политическое лидерство и политический плюрализм. Общественные науки. М., 1990, №1.

**133.** Проблемы формирования гражданского общества. М., 1993.

**134.** **Пушкарева Г.В.** Партии и партийные системы: концепция М.Дюверже. Социально-политический журнал. М., 1993, №9-10.

**135.** **Piriyev A.** Siyasi strategiya və milli təhlükəsizlik problemi. Bakı, 2002.

**136.** Религия и общество. Хрестоматия по социологии религии. Под ред. В.И.Гараджи. М., 1996. ч. 1-11.

**137.** **Разлогов К.Э.** Феномен массовой культуры. Ежегодник. Вып. 1., М., 1990.

**138.** **Рзаев А.** История политических и правовых учений в Азербайджане. Баку. 2000.

**139.** **Резник Ю.М.** Гражданское общество как феномен цивилизации. М., 1993.

140. Роль и место Азербайджанского парламентаризма в различных политических системах. Книга первая. Баку. 1997.

141. **Романовский Н.Б.** Политические партии и партийные системы. М., 1990.

142. **Рябов А.В.** Легальность и легитимность власти. Политические исследования. М., 1994, №2.

143. **Росенко С.И.** Социальная дифференциация современного американского общества. СПб. 1996.

144. **Санистебан Л.С.** Основы политической науки. М., 1992.

145. **Сахаров Н.А.** Современная монополитическая элита США. М., 1991.

146. **Семенов В.Л.** Массовая культура в современном мире. 1991.

147. Социальные отношения и политические партии. М., 1992.

148. **Сорокин П.А.** Человек. Цивилизация. Общество. М., 1992.

149. Социальные идеалы и политика в меняющемся мире. М., 1992.

150. **Соколов Э.В.** Понятие, сущность и функции культуры. М., 1990.

151. **Сморгунов Л.В.** Современная сравнительная политология. М., 2002.

152. Современные зарубежные конституции. М., 1992.

153. **Спиркин А.Т.** Философия. М., 2001.

154. **Токвиль А.** Демократия в Америке. М., 1992.

**Туров И.С.** Общество как социальная система. Социально-политический журнал. М., 1994, №12.
**X.N.Tusi.** Əxlaqi - nasiri. Bakı, 1989.
Теория и жизненный мир человека. М., 1993.
**Татунц С.А.** Наступит ли «очень национализма?». М., 1998.
**Герин В.П.** Этот телевизионный мир. М., 1992.
**Тойнби А.** Цивилизация перед судом истории. М., 1995.
**Фаликов Б.З.** Неоиндизм и западная культура. М., 1993.
**Федотов Л.Н.** Массовая информация. М., 1996.
Философский энциклопедический словарь. М., 1983.
Философия. Под ред. Лавриненко В.Н. М., 2002.
**Франк С.А.** Духовные основы общества. М, 1992.
**Фромм Э.** Психоанализ и религия (иметь или быть?). М., 1990.
**Фромм Э.** Бегство от свободы. М., 1990.
Fəlsəfə. Dərslik. Prof. F.Ramazanovun rəhbərliyi və redaktəsi altında. Bakı. 1997.
**Хабермас Ю.** Демократия. Разум. Нравственность. М., 1992.
**Хайек Ф.** Пагубная самонадеянность. М., 1992.
**Херман М.** Стиль лидерства в формировании внешней политики. Политические исследования. М., 1991, №1
Цивилизация и культура. Научный альманах. Под ред. .С.Еролова. Вып. 1-3, 1994, 1995, 1996.
**Цыганков П.А.** Международные отношения.М., 1996.
**Шапиро И.** Демократия и гражданское общество. Политические исследования. 1992, №4.
**Шаран П.** Сравнительная политология,ч. II.М., 1992.

176. **Швартсенберг Р.Ж.** Политическая социология, ч.
М., 1992.
177. **Шпенглер О.** Закат Европы. М., 1993.
178. **Шмачков Т.** В мире партий. Политические исследс
ния. 1992, №1-2.
179. **Şirəliyev H., Əhmədov Ə.** Politologiya. Dərslik. Bakı. 19
180. Элементы теории политики. Перевод с польского. Р
тов-на-Дону. 1990.
181. **Юсиф Рустамов.** Философия. Баку. 1998.
182. **Яковец Ю.** История цивилизаций. М., 1997.
183. **Ясперс К.** Смысл и назначение истории. М., 1991.

Çapa imzalanıb 18.01. 2008.
Sayı 300. Həcmi 39,7 çap vərəqi.
Formatı 60x84 1/16. Əla növ kağız.
Qiymәti müqavilә ilә.

***AzTU – nun mətbəəsi. H. Cavid pr. 25.***